ardınca istilik elektrik stansiyasının tikilməsi, energetika və elektrotexnika obyektlərinin inşası məhz Mingəçevir şəhərində həyata keçirilmişdir. Keçmiş SSRİ miqyasında 3 elektroizolyasiya zavodu var idisə, onun biri Mngəçevir şəhərində yerləşirdi. Ən böyük kabel zavodu Mingəçevir şəhərində idi. Və başqa zavodların adlarını çəkmək olar. Həmin zavodların bazalarında böyük elmi tədqiqat laboratoriyaları fəaliyyət göstərirdi. Məsələn, izolit zavodunun bazasında o vaxtkı Leninqrad – indiki Sankt Peterburq Politexnik İnstitutunun böyük bir laboratoriyasi fəaliyyət göstərirdi və sovetlər dönəminin tanınmış alimlərindən biri olan Aleksandrov öz tədqiqatlarının yarısını həmin laboratoriyada aparırdı. Zavodun direktoru Çingiz Ağayev elmlər namizədi dissertasiyasını məhz Aleksandrovun rəhbərliyi altında məhz həmin laboratoriyada hazırlamışdı.

Hazırki dövr üçün bu, bəlkə də, adi bir məsələ kimi görünə bilər, çünki bu sahə olduqca çox inkişaf edib. Lakin o dövrdə Mingəçevir şəhəri böyük bir elmi baza idi, çünki tədqiqatların tətbiqi Mingəçevir şəhərində həyata keçirilirdi. O zamanlar keçmiş SSRİ-dən Mingəçevir şəhərinə gəlib-gedənlərin sayı bəlkə də bütün şəhərlərdən çox idi.

Təsadüfü deyil ki, respublikamızda bayram adlarının qeyd edilməsinin biri də Mingəçevir şəhərinin adı ilə baglıdır. Mingəçevir şəhərində istilik-elektrik stansiyasinin ilk blokunun işə düşməsi günü Energetika və ümumi peşə bayramı kimi qeyd olunur.

XXI əsrdə, burada qeyd olunduğu kimi, təhsilin və elmin inteqrasiyası, tədqiqat universitetlərinin yaradılması gözlənilir. Mingəçevir Dövlət Universitetinin yaranması rəsmi bir başlanğıcdır. Bura əvvəlcə texnikum səviyyəsində fəaliyyət göstərən bir müəssisə olmuşdur. Bildiyiniz kimi, sonra bu müəsissə Azərbaycan Sənaye İnstitunun filialına, daha sonra isə müstəqil instituta və nəhayət, universitetə çevrildi.

Mən arzu edirəm və yəqin ki, belə də olacaqdır ki, Mingəçevir Dövlət Universiteti gələcəkdə təhsil və tədqiqat universitetinə çevriləcək. Çünki bu günkü konfransın proqramına, orada qoyulan mövzulara baxdıqda konfransın XXI əsrin çağırışlarına tuşlandığının şahidi oluruq. XXI əsr isə sənaye əsri, sənaye inqilabı əsridir.

Bu gün elm sahələrini bir-birindən ayırmaq çətindir, çünki hamısı bir-birinə qovuşub. Müəyyən bir elm sahəsini inkişaf etdirmək üçün başqa elm sahələrinin də inkişafı tələb olunur. Hətta humanitar, ictimai elm sahələri texniki elm sahələri ilə birgə irəliləyir. Qrant layihələrinin həyata keçirilməsində insanların psixoloji hazırlığı olmalıdır və bu günkü konfransın məzmunu bunların hamısını əhatə edir.

Bundan başqa, universitetlərdə kadr hazırlığını cənab Prezidentin Elm və Təhsil Nazirliyinin yaranması barədəki müvafiq sərəncamının tərkib hissəsi kimi qiymətləndirmək olar. Bildiyini kimi, ali təhsilin səviyyələrindən ikincisi magıstr təhsilidr. Magistr elmi dərəcə deməkdir. Magıstr dissertasiyasını müdafiə etdikdə magıstr elmi dərəcəni alırlar. Bu isə o deməkdir ki, magistrant təhsillə bərabər iki il müddətində həm də elmi işlərlə, elmi fəaliyyətlə məşğul olmalıdır. Elmi fəaliyyətlə məşğul olmaq isə elmi nəticələr əldə etmək deməkdir. Ona görə də universitetlərin fəaliyyətində - kadr hazırlığında elm və təhsil bir yerdə olmalıdır. Təkcə mühazirələri dinləməklə magıstr dərəcəsini almaq olmaz. Magıstr səviyyəsi elmin başlanğıc səviyyəsi olsa da, cox yüksək elmi dərəcədir. Əminəm ki, Mingəçevir Dövlət Universitetində bu məsələlər öz həllini tapacaqdır və bu, təkcə universitetin özündən asılı deyil, bizlərdən də çox şey asılıdır. Akademiyanın rəhbərlərindən biri kimi deyə bilərəm ki, elmi tədqiqat inustitutlarımız qarşısında məhz belə məsələləri vəzifə kimi qoymuşuq.

Regionlarımızda fəaliyyət göstərən universitetlər üçün elmi kadrlar hazırlanması məqsədilə doktoranturada məqsədli yerlərin verilməsi və seçilməsi üçün imkanlar var. Eyni zamanda burada çatışmayan əsas məsələ hazırda elmi rəhbərlərin seçilməsi ilə bağlıdır. Əgər bu istiqamətdə universitetlərlə birlikdə işləsək, bu məsələni də həll edirik.

Hörmətli konfrans iştirakçıları!

Çıxışımın sonunda demək istərdim ki, məni də mingəçevirli adlandıra bilərsiniz, bunu çoxhörmətli Təhmasib müəllim və Oktay müəllim də təsdiq edə bilərlər. Belə ki, fəaliyyətimin çox

böyük hissəsini Mingəçevirdə keçirmişəm, su elektrik stansiyasının tikintisində iştirak etməsəm də, onun yenidən qurulmasında və layihəyələndirilməsində bilavasitə iştirakım olub, layihəni icra edənlərdən biri də mən olmuşam. İstilik elektrik stansiyasının lahiyələndirilməsindən başlamış indiyə qədər isə, demək olar ki, stansiya ilə çox sıx əlaqəm var.

Bir daha konfransın işinə uğurlar arzu edirəm. Sizlərə də fəaliyyətinizdə uğurlar diləyirəm.

Füsətdən istifadə edib, qarşıdan Dünya Azərbaycanlılarının Həmrəklik gunu və Yeni il münasibətlə hər birinizi səmimi qəlbdən təbrik edirəm.

MUSA YILDIZ
Gazi Üniversitesi rektörü
Türkiye

Sayın rektörüm!
Sayin hocalarım!
Sevgili öyrenciler ve deyerli misafirler!

Sözlerime başlamadan önce hepinizi hürmetle mühabbetle salamlıyorum. Kardeş Mingecevir Dövlet Üniversitesi tarafından düzenlenen uluslar arası yeni çağda eyitim ve araşdırma faliyyetleri gerçekler ve zorluklar adlı konqrenin açılış törenine davet etmeniz ve açılış konuşması yaptırmanızdan dolayı universitem ve şahsım adına sizlere teşekkür ederim.

Mingecevir Dövlet Üniversitesi ile Gazi Üniversitesi arasında bilimsel, eğitim ve öğretim iş birliği anlaşması bulunmakdadır. Bu çerçevede kardeş, can Azerbaycanın Mingeçevir Devlet Üniversitesi ve diğer üniversiteleri ile iş birliği yapmak beni üniversitem adına gururlandırmakdadır. Başda Mingeçevir Devlet Üniversitesi olmak üzere can Azerbaycanın 20-den fazla üniversitesi ile iş birliği yapmakdayız.

Gazi Üniversitesi olarak ilkemiz kardeş Türk Cumhuriyyeti üniversiteleri ile her türlü bilimsel iş birliğini ireliletmekdir. Bu çerçevede 22-23 kasım 2022 tarihleri arasında Kazakistanın kadim şehri Türkistanda yapılan Türk Devletler Teşkilatı Türk Üniversiteleri birliğinin toplantısına katılarak, kardeş ülkeler üniversiteleri iş birliği ve gelişme yollarını tartışdık. Orada dönem başkanlığı da can Azerbaycanımızın Devlet İktisad Üniversitesine geçdi. İyi bir dönemin geçmesini dilerim. Değerli katılımcılar, tek millet, iki devlet anlayışını ilke edinen üniversitemiz kardeş Azerbaycan türklerinin her zaman yanında olacak ve bu birlikden de daima mutlu olacakdır. Bu çerçevede imzaladığımız anlaşmaların tecrübelerimizi paylaşmak, hızla değişen dünyada üniversitelerimizinde bu değişime ayak uydurmalarına da önemli katkısı olacağına inanmakdayız. Günümüz dünyasında üniversitelerin rolleri hızla değişmekdedir. Küresel salgın öncesi, küresel salgın dönemi ve sonrasında yaşanan değişimler üniversitelerin rollerini ve toplumun beklentilerini değiştirmişdir.

Üniversitelerin değişen rolleri kongremizin temalarına da yansımışdır. Bilim tarihi incelendiğinde üniversitelerin birinci, ikinci,üçüncü ve dördüncü nesil üniversiteler olarakn sınıflandırıldıkları görülecekdir. Tarihsel sürece bakdığımızda binli yıllardan itibaren ilk kurulan üniversiteler 1088 yılında Bolonya, 1160 yılında Paris ve 1167 yılında Oxford üniversiteleridir. Bu üniversiteler eğitim öğretim faliyetlerini esas almakdaydı. Bunlar birinci nesil üniversitelerdir.

1800lü yıllarda Almanyada Fonhunboltun fikirleri ile ortaya çıkan ikinci nesil üniversiteler deneysel yaklaşımla bilim üretmeyi ve eğitim öğretim faliyetlerini eses almışdır. Bunu 1810 yılında kurulan Berlin üniversitesinin proqramlarında görmekdeyiz. Bilimsel araşdırma rolü uzun yıllar devam etmişdir.

Üçüncü nesil üniversiteler sanayi, özel arge çalışmaları finansman, profösyonal hizmen sağlayıcıları ve diğer üniversitelerle iş birliği yapan köprü üniversiteleridir. Bu üniversiteler eğitim,

bilim üretme ve toplumla iş birliği yapma, üretilen bilginin toplum kalkınması için projelere dönüşdürülmesini esas almakdadır.

Dördüncü nesil üniversitelerin geleceğin meslekleri ve toplumun yapılanmasına uygun bazı fazladan özellikleri vardır. Bu üniversiteler teknoloji ile içli dışlı olduğumuz yeni dönemde hem uyum sağlama hemde teknoloji üretme vizyon ve misyonuna sahipdir. Gazi Üniversitesininde teknoloji ve inovasyon en önemli özelliğidir.

Öğrencilerin ufuklarını açarak teknolojinin geleceğin mesleklerine uyarlanması konusunda farklı fikirler kazanmasında etken rol oynar. Üniversiteler kendilerinden beklenen bu görevleri yerine yetirmek için uzun bir geçmişe dayanan geleneksel yapılarını dönüşdürerek yeni bir model ortaya koymalıdır. Iş birlikleri, rakabet ilkeleri, uluslararasılaşma, ekonomik getiri elde etme, topluma hizmet etme ve araşdırma sonuçlarının ticarileşdirilmesine dayanan bu gelişmelere uyum sağlamak, endistüri ile iş birliği yapmak, teknolojik değişimi sağlamak üniversitelerin yeni görevleridir. Değerli akademisyenlerimize bu anlamda önemli görevler düşmekdedir.

Bu kongurenin bu gelişmelere katkı sağlamasını, önemli fikirler üretmesini umuyorum. Bu vesile ile Mingeçevir Devlet Üniversitesinin değerli rektörü Şahin Bayramov kardeşime davetlerinden dolayı çox teşekkür ediyor, kongrenin ülkelerimiz adına hayırlı sonuçlar çıkarmasını temenni ediyor, her kese saygılar sunuyorum.

Prof. INGA ŽALĖNİENĖ
rector of Mikolas Romeris University
Lithuania

Dear Rector of our partner Mingachevir State University!
Honorable guests and participants of this international conference!

First of all let me congrulate the organizers and participants for this meaningful, timely international scientific event and sincerely thank Mingachevir State University colleagues for the possibility to address honorable audience with some introductory remarks.

Universities have always been places where knowledge is created, preserved and passed to the new generation of students, scholars, surrounding communities and society as a whole. But today when the humanity is undergoing major existential challenges such as climate, health crises, rapid technological progress, global disparities, armed conflicts, erosion of democratic values, rule of law and democracy. Worldwide democratic communities have to react much faster than ever before and take the responsibility for the urgent, unprecedented actions, create transformative solutions, freely sharing the scientific advancement globally.

The global scientific response to the COVID-19 pandemic has shown us the enormous potential and impact of open science and cooperation between researchers and educators globally, the unprecedented amounts of sharing of ideas, research contents, data beyond the scientific community and across different sectors.

It is apparent that we all are living in a time of very fast transformations and it was the necessity to transform entire education and research innovation system and it is becoming more evident than ever.

The high education has a greater mission than just learning and studying. Universities have always had a role of not only collecting and disseminating knowledge. First of all high education provides a platform to develop critical thinking and the insights of the future of the society. Universities should not aim towards a mass specialists' production. But rather needs to function as a melting pot of ideas, research and innovation which enable us to reflect, to experiment and carry a real sustainable impact on society. Doing so is to reimagine our future together.

That's why throughout the centuries academic career was so attractive for many of talents. Scientific breakthrough also translates into break through in our daily, social and global changes.

I am certain that universities have the same role today. However, the new challenges arising in terms of attracting new generation of people to choose academic career which is not so attractive as decades ago.

Young people today can choose many various often even faster ways to realize the challenges and to contribute to society without higher education. With their personal success examples, it is something that tends to motivate the young people. One of the main tasks is to strengthen the university as place to build one's professional values and profile but also to create lasting exchange with academic community. A place to develop your soft life skills, and to get support and inspiration for research work.

I hope the upcoming 2 days of this international conference will provide all and excellent interactive platform for scientific exchange. The effective networking will enable to share opinions and ideas for the future transformations of high education sector, compare various styles and approaches, to establish new international collaborations and joint research progress.

Thank you for your attention!

Prof. DMYTRO LUKIANENKO
rector of Kyiv National University of Economics named after V. Hetman
Ukraine

Dear colleagues and friends!

On behalf of Kyiv National Economic University named after Vadym Hetman let me greet the participants of this Global event, which is global in its name, context and the geography of participants.

The ancient Chinese saying "May you live in interesting times" is considered to be a curse. In our case we are living not only in the interesting time, but also in the revolutionary one.

Recently digitalization has been both a challenge and trend for the world's system of education and science as a whole. It started in innovational spheres of entrepreneurship and industry, but nowadays it is an all-encompassing process, which let us speak about the phenomenon of digital model of economy.

The most impressive changes are taking place in the labour market and that is extremely important for us, the academic staff, teachers and researchers. It is not just about the change in character and location of the working place, the change in motivation of both – employers and employees. A very serious signal for us is that many vacancies do not require diplomas and higher education anymore. Meanwhile, a list of definite competencies and skills, which are fairly narrow, can be obtained not in the Universities during years of study but on different platforms within months (up to half a year).

We can certainly switch to short-term trainings, but we can loose the mission of the University as an institution. The competition in the global education has been changed from the one between universities to the competition of universities and platforms. Moreover, platforms are winning this competition, firstly due to their price policy: they are using exponential technologies, while Universities are using different ones, which are more costly. That is one of the most serious challenges of the mentioned competition, but we do believe that competition itself brings more positive than negative issues.

At the same time the definite processes are taking place in the world and we, here in Ukraine, and, I guess you – there – as well – have experienced the fragility of digitalization. For years

experts have been warning us that the most dangerous thing for the digital or smart world is the energy blackout. We here in Ukraine have already experienced these electro-energetic shocks. The efficiency of digital models, their algorithms are being destroyed, communication means disappear… We were not ready for that. We should consider these lessons in future.

It has been proved that open access education and science are the most effective, I mean the international academic mobility of researchers and students. Till present days the migration flows in this market were more or less obvious: there were more or less attractive centers of science and research - in terms of geography, first of all. But in times of war these flows become unpredictable and turbulent. We have experienced that already in terms of migration of millions of Ukrainians, of hundreds of thousands of students and school pupils. That is one more peculiarity and a challenge modern education is facing.

All in all, the mentioned above challenges and the number of others, make us think about a new model of higher education and a new role of the University. It will never be the same model as it was, for example, like five years ago. It will be a model of effective interaction of online and offline modes, new interrelations of "a student and a professor", "a student and a student", "a professor and a professor".

I feel that we will witness one more transformation – the one of digital economy into a smart one. One thing which still keeps on with the enthusiasm, is the fact that artificial intelligence can be created only by human intelligence, which is initially concentrated, by the way, in the universities.

I wish all of you good health, stress resistance, fruitful debates. I hope that our Forum will help to find the scope of the new model, which will be a "post-COVID" for the majority of you, and a "post-war" – for us. That brings new requirements as well.

I would like to pass the words of cordial gratitude for help and support of Ukraine to the governments of the countries the participants of this conference are from.

All will be well, with peace, science, and education. There is no other way for the progressive development of our civilization.

Thank you for your attention.

Wish you fruitful discussion.

DARKHAN BILYALOV
rector of Abai Kazakh National Pedagogical University
Kazakhstan

Dear distinguished colleagues, partners, conference participants!

It is an honour for me to greet you all virtually in the international scientific conference educational and scientific activity in the new era: realities and challenges.

It is undoubtedly an important international event in the field of education and science. It certainly brings up really good ideas about what we have right now as realities and what challenges we face in today's world.

The XXI century of course is the century of globalization of new technologies and innovations, the century of new thinking and new attitudes to the changes taking place and all that my dear colleagues, opens up wide opportunities for integration into the international university environment. These changes are characterized by significant shifts in cultural and social life of many countries. The participation of leaders, leading scientists and experts in the field of education and conferences and forums like this contributes to the coordination of joint activities and development of new directions in the field of internationalization, development of scientific and educational sphere in a wider changing international context.

We have been collaborating with Mingachevir State University starting this year and I am sure this conference would serve as another layer of valuable beginnings, initiatives this university, this excellent educational institution is doing in the way of building a scientifically, educated community in Azerbaijan and in other countries.

I would like to express my sincere gratitude to the rector of Mingachevir State University Mr.Shahin Bayramov for providing the opportunity of discussing significant issues related to education during this conference.

I believe, the participants will speak on crucial topics, offer new solutions, and have an opportunity to discuss them with their peers and thus it will create a real scholarly space of discourse for all of the participants.

I wish all the participants new ideas, insights, solutions, networking and thinking out of a box when discussing the present issues of education.

I congratulate you all, and I am looking forward to the presentations and reports of the conference.

Thank you very much and greetings from the oldest university of Kazakhstan.

ALMAZ KADIRALIYEV
Rector of Kyrgyz Economic University named after M.Ryskulbekov
Kyrgyzstan

Dear doctor Shahin Bayramov!
Dear friends!

It is my pleasure to welcome all the participants of the conference, the people who have gathered to discuss about the challenges of the educational and research activities in the new era. The role of education is crucial in human's life and in its further development. In terms of globalization we must think and act together in order to meet the world crises that we have seen during the last year.

I am confident that strong research activities that universities fulfill, will have great impact on finding the best solution for existing problems, such as global warming, cyber security, regional border problem and others.

I believe that all the speakers of this international conference will present the results of their study on given topics of the conference and that will lay down on the bases of the conference resolution at the end.

Dear friends! Using this opportunity I would like to express our deepest gratitude to Mingachevir State University and its rector doctor Shahin Bayramov and all staff for organizing this conference and invitation on behalf of Kyrgyz Economic University. It is an honour to be a part of this conference and partner of Mingachevir State University. I cannot not mention about the memorandum of understanding between our universities that me and my friend Shahin Bayramov signed during the first World Rectors' Forum held in Bishkek this year. It won't be long before we start implementing events mentioned in the memorandum.

I wish you success and let me say: Happy New Year.

Thank you.

PLENAR İCLAS

UOT 001.89:378

MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİNDƏ ELMİ-TƏDQİQAT FƏALİYYƏTİ: REALLIQLAR, İLKİN NƏTİCƏLƏR VƏ PRİORİTETLƏR

Şahin Vaqif oğlu Bayramov
iqtisad üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
shahin.bayramov@mdu.edu.az

Müasir cəmiyyətin hərtərəfli inkişafında təhsil, tədqiqat, pedaqoq və alimlərin mühüm rol oynaması hər kəsin qəbul etdiyi həqiqətdir. Cəmiyyət üzvlərinin tədqiqat fəaliyyətlərinin nəticələri və elmi nailiyyətlər barədə məlumatlandırılması vacib amillərdən hesab olunur.

Beynəlxalq və milli səviyyədə elmin rolunu yüksəltmək, eləcə də elmi-tədqiqat işlərinin nəticələrinin cəmiyyətin davamlı inkişafına təsirini artırmaq məqsədilə, UNESCO-nun qərarı ilə Dünya Elm Günü təsis edilib. Belə ki, 2001-ci ildə UNESCO-nun Baş Konfransının 31-ci sessiyası 10 noyabr tarixini "Sülh və inkişaf naminə dünya elm günü" elan edib. İlk dəfə 10 noyabr 2002-ci ildə keçirilən "Elm günü" həmin vaxtdan etibarən hər il bütün dünyada qeyd olunur. "Dünya Elm Günü" UNESCO-nun təşkilatçılığı ilə keçirilən elmi iclaslar, seminarlar, konfrans və festivallarla qeyd edilir və hər il konkret bir mövzuya həsr olunur.

Hazırda dünyanın əksər ölkərində olduğu kimi, Azərbaycanda da "Elm günü"nün keçirilməsinə xüsusi önəm verilir. Bu, elmin davamlı populyarlaşdırılması, elmi fəaliyyət sahəsində uğurların artırılması və elmi tədqiqatlara marağın yüksəldilməsi baxımından çox vacibdir. Azərbaycan Respublikası Prezidentinin 9 aprel 2018-ci il tarixli müvafiq Sərəncamı ilə hər il martın 27-sinin Azərbaycanda "Elm günü" kimi qeyd edilməsi qərara alınıb. Ölkəmizin ali təhsil və elmi-tədqiqat müəssisələrində bu günlə bağlı reallaşdırılan tədbirlər və layihələr həm elmi fəaliyyətin aktuallığının artırılması, həm elmi tədqiqatlar üzrə hesabatlılığın təmin olunması, həm də dünya elmindəki trendlərin diqqətdə saxlanılması kontekstində mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda elm, təhsil və iqtisadiyyatın inteqrasiyası və inkişaf perspektivləri "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və digər dövlət proqramlarında müasir dövr üçün ölkənin sosial-iqtisadi inkişafının prioritetlərindən biri kimi müəyyən edilib. Bu, elm, təhsil və iqtisadiyyatın inteqrasiyasının təmin edilməsinin Azərbaycanda dövlət siyasətinin məzmununda mühüm yer tutmasını şərtləndirir. Son illər ölkə başçısı tərəfindən təsdiq edilən çoxsaylı dövlət proqramları və normativ-hüquqi aktlar elm, təhsil və iqtisadiyyatın inteqrasiyası üçün mühüm hüquqi baza yaratmaqla bərabər, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin tabeliyindəki ali təhsil müəssisələri və elmi-tədqiqat institutları ilə AMEA-nın sahə tədqiqat institutları arasında daha səmərəli əməkdaşlığın və çevik işbirliyinin təmin edilməsi üçün yeni imkanlar yaradıb.

Məhz bu imkanlardan və davamlı dövlət dəstəyindən faydalanmaq sayəsində, Mingəçevir Dövlət Universitetində (MDU) elm, təhsil və iqtisadiyyatın əlaqələndirilməsi, yeni təlim texnologiyalarının tətbiqi, tədris prosesinin məzmununda elmi innovasiyaların rolunun artırılması və nəticəyönümlü elmi tədqiqatların aparılması istiqamətində ardıcıl iş aparılır.

Hazırda modernləşmə mərhələsində olan MDU Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə 24 iyul 2015-ci il tarixində yaradılıb. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 9 avqust 2022-ci il tarixli müvafiq Qərarı ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan universitetə çevrilmə yolu ilə MDU yenidən təşkil edilib və Universitetin yeni Nizamnaməsi təsdiq olunub.

Hazırda MDU-nun təhsil, elm və innovasiya fəaliyyəti "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının Qanunları, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət

Strategiyası", "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı", müvafiq dövlət proqramları, Elm və Təhsil Nazirliyinin direktiv sənədləri, Universitetin Nizamnaməsi və digər normativ-hüquqi sənədlər əsasında həyata keçirilir.

Universitetdə nəticəyönümlü elmi tədqiqatların həyata keçirilməsi və elmi potensialın davamlı gücləndirilməsi strateji baxışın əsas istiqamətləri hesab olunur. İnformasiya cəmiyyəti kontekstində MDU-da elmi fəaliyyət istiqamətlərinin müəyyən edilməsi zamanı IV sənaye inqilabının yaratdığı reallıqlar əsas götürülür. Paralel olaraq, müasir elmi-tədqiqat bacarıqlarına sahib olan yüksək intellektli və innovativ düşüncəli mütəxəssislərin hazırlanmasına xüsusi diqqət yetirilir.

Nəzərə alınır ki, cəmiyyətdə intellektual potensialın formalaşmasının əsas mənbəyi olan elmin inkişafının əsas funksiyası həm insanın mənəvi-intellektual maraqlarına xidmət etməkdən, həm də məqsədyönlü dəyişikliklərin həyata keçirilməsini dəstəkləmədən ibarətdir. Bu zaman, digər fəaliyyət istiqamətləri üzrə məzmunun məhz elmi fəaliyyətin nəticələrindən və bu sahədəki trendlərdən birbaşa asılılıqda olması prinsipi əsas götürülür. Elmi fəaliyyətin elmi biliklər və innovasiyalar yaratması missiyası Universitetin hərtərəfli inkişafının drayveri hesab edilir.

Yerləşdiyi regionun yeganə ali təhsil müəssisəsi olan MDU-da hazırda bakalavriat təhsil səviyyəsində 29 ixtisas, magistratura təhsil səviyyəsində isə 15 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir. 3500-dən artıq tələbə və magistrantın təhsil aldığı Universitetdə 320-dən çox akademik və inzibati-texniki heyət üzvü çalışır. 210 professor-müəllim heyətinin tərkibində 66 nəfər alim var.

Elmi fəaliyyətin səmərəliliyinin artırılması və nəticəyönümlü tədqiqatların həyata keçirilməsinin təmin edilməsi məqsədilə, MDU-da aşağıdakı istiqamətlər üzrə davamlı iş aparılır:

- professor-müəllim heyətinin elmi fəaliyyətdə aktiv iştirakının təmin edilməsi, tələbə və magistrantların elmi-tədqiqat işlərinə fəal cəlb olunması;
- həm struktur bölmələr (kafedralar) səviyyəsində, həm də universitet miqyasında elmi tədqiqatların təşkili mexanizminin təkmilləşdirilməsi və elmi fəaliyyətin əlaqələndirilməsinin səmərəliliyinin davamlı yüksəldilməsi;
- elmi-tədqiqat nəticələrinin həm sənayedə, həm də tədris prosesində tətbiqinin prioritet kimi müəyyən edilməsi;
- elmi fəaliyyətin keyfiyyətinin qiymətləndirilməsində ölçüləbilən meyarlardan istifadə olunması;
- elmi tədqiqatların maddi-texniki bazasının davamlı yüksəldilməsi, zəruri laboratoriya və təcrübə kabinetlərinin yaradılması;
- elmi fəaliyyət və məzunların əmək bazarındakı məşğulluq imkanları arasında korrelyasiya əlaqəsinin tapılması və müsbət dinamikanın gözlənilməsi;
- "Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması ilə əlaqədar 2022-ci il üzrə Yol Xəritəsi"ndə göstərilən bəndlərin icra olunması;
- müasir elmi-tədqiqat metodlarının və innovativ elmi fəaliyyət mexanizmlərinin tətbiq edilməsi;
- professor-müəllim heyəti üzvlərinin elmi potensialının gücləndirilməsi məqsədilə müvafiq təlimlərin və elmi ezamiyyələrin təşkil edilməsi;
- elmi fəaliyyətin motivasiya edilməsi və müvafiq stimullaşdırıcı (maddi həvəsləndirmə, karyera yüksəlişi və s.) tədbirlərin həyata keçirilməsi;
- müvafiq ixtisas kafedralarında özünəməxsus elmi məktəblərin formalaşdırılması;
- multidisiplinar elmi-tədqiqatların dəstəklənməsi və bu sahədə zəruri imkanların yaradılması;
- magistraturanın modernləşdirilməsi və elmi məzmununun davamlı artırılması;
- doktorant və dissertantların dissertasiya işlərinin yekunlaşdırılmasına dəstək göstərilməsi, onların elmi konfranslarda iştirakına şərait yaradılması;

- Türkiyənin və digər xarici ölkələrin aparıcı universitetlərinin elmi fəaliyyətin təşkili və elmi-tədqiqatlar sahəsində qabaqcıl təcrübəsinin öyrənilməsi və tətbiq edilməsi;
- nüfuzlu beynəlxalq nəşrlərdə və yüksək impakt faktorlu elmi jurnallarda məqalə dərc edilməsi üzrə praktiki seminarların və təlimlərin təşkili, bu istiqamətdə zəruri texniki-təşkilati və metodoloji dəstəyin göstərilməsi;
- milli və beynəlxalq elm fondlarının qrant layihələrində iştirakın təşviq edilməsi və layihə təkliflərinin hazırlanmasına köməklik göstərilməsi (tərəfdaş universitetlərin təcrübəli mütəxəssislərini cəlb etməklə);
- Universitetdə respublika və beynəlxalq səviyyəli çoxsaylı elmi tədbirlərin (konfrans, seminar, dəyirmi masa, vebinar və s.) keçirilməsi, bu istiqamətdə maliyyələşdirmənin davamlı artırılması;
- Universitetin ilk və hələlik yeganə multidisplinar elmi nəşri olan "Dayanıqlı inkişaf" jurnalının nüfuzunun artırılması və jurnalın əhatə etdiyi bütün sahələr üzrə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlərin siyahısına daxil edilməsi üçün zəruri addımların atılması və s.

Hazırda Universitet üzrə elmi fəaliyyətin əsasını MDU Elmi Şurasının 07 dekabr 2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş "2021-2025-ci illər ücün universitet üzrə proqnozlaşdırılan elmi-tədqiqat işləri"nin planı təşkil edir. Plana uyğun olaraq, Universitetdə ümumilikdə 17 problem, 43 mövzu üzrə elmi-tədqiqat həyata keçirilir. Yalnız 2022-ci ildə 103 elmi-tədqiqat işi yerinə yetirilib və 39 elmi iş başa çatdırılıb. Elmi-tədqiqatların nəticəsi olaraq, 2022-ci ildə Universitet əməkdaşlarının ümumilikdə 150 məqaləsi (o cümlədən 58-i xarici ölkələrdə, bunlardan da 14 məqalə impakt-faktoru olan jurnallarda) və 290 tezisi (o cümlədən 65-i xarici ölkələrdə) elmi nəşrlərdə dərc edilib. 2022-ci ildə 4 məqalə nüfuzlu Web of Science elmi bazasında indekslənən jurnallarda çap olunub.

Son 3 ildə MDU-da elm, təhsil və innovasiyaların inteqrasiyasını təmin etmək, nəzəri-konseptual ideyaları səsləndirmək və tədqiqat nəticələrini bölüşmək məqsədilə, respublika və beynəlxalq səviyyəli elmi konfransların kecirilməsinə xüsusi önəm verilir. 2021-ci ildə Universitetin tarixində ilk dəfə olaraq, "Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər" mövzusunda I Beynəlxalq səviyyəli elmi konfrans keçirilib. Elmi Konfrans Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilən və nazirliyin tabeliyində fəaliyyət göstərən ali təhsil müəssisələrində keçirilən beynəlxalq və respublika səviyyəli elmi konfrans və simpoziumların siyahısı əsasında təşkil edilib. 470-dən çox məqalə və tezisin təqdim edildiyi Konfrans Təhsil və İqtisadiyyat Nazirliklərinin, eləcə də BMT-nin Azərbaycandakı Nümayəndəliyinin dəstəyi ilə keçirilib. Böyük uğur qazanan Konfrans müvafiq beynəlxalq elmi platformanın, o cümlədən MDU nəzdində Davamlı inkişaf və regional innovasiyalar tədqiqat mərkəzinin yaradılması ilə nəticələnib. Milli və beynəlxalq tərəfdaşlar, yerli və xarici elm adamları tərəfindən yüksək qiymətləndirilən Konfransın davamlı olaraq (hər iki ildə bir dəfə) keçirilməsinə qərar verilib [1]. İki cilddən ibarət olan Konfrans materialları ciddi elmi nəşr həsr olunur.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunan elmi konfransların keçirilməsi ənənə halını alıb. Bu sıradan, 2022-ci ildə "Heydər Əliyev dühası və müasir Azərbaycan" mövzusunda keçirilən respublika səviyyəli elmi-nəzəri konfrans xüsusi qeyd oluna bilər. 117 məqalə və tezisin təqdim olunduğu konfransın materialları dərc olunub.

Elm və təhsilin inteqrasiyası kontekstində AMEA-nın sahə elmi-tədqiqat institutları ilə birgə konfransların və elmi seminarların keçirilməsi çox faydalıdır. Qarşılıqlı faydalı əməkdaşlığın nümunəsi olaraq, 2022-ci ildə MDU-da AMEA-nın İqtisadiyyat İnstitutu ilə birgə keçirilən "Davamlı inkişafın milli prioritetləri və müasir transformasiya siyasətinin reallıqları" mövzusunda elmi-praktik konfransı qeyd etmək olar. AMEA-nın İqtisadiyyat İnstitutunun bir qrup aliminin də iştirak etdiyi Konfransda davamlı inkişafın müxtəlif aspektləri ətrafında səmərəli elmi müzakirələr

aparılıb. Konfrans çərçivəsində MDU ilə AMEA-nın İqtisadiyyat İnstitutu arasında qarşılıqlı əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb [2]. Universitetin elmi potensialının gücləndirilməsini hədəfləyən Memorandum iqtisad elminin müvafiq sahələri üzrə birgə fəaliyyətlərin reallaşdırılmasını nəzərdə tutur.

2022-ci ildə magistrantların "Elm günü"nə həsr olunan elmi-nəzəri konfransının keçirilməsi magistrantlar tərəfindən reallaşdırılan elmi-tədqiqatların nəticələrinin dəyərləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edib. Multidisiplinar xarakter daşıyan Konfransa təqdim edilən 9 məqalə və 77 tezis toplu şəklində dərc olunub. Gənc tədqiqatçıların davamlı inkişaf, süni intellekt, Qarabağın dirçədilməsi, yaşıl enerji, turizm, təhsil və digər aktual mövzulara həsr olunan elmi məruzələri MDU alimləri tərəfindən yüksək qiymətləndirilib.

MDU Elmi Şurasının 7 dekabr 2020-ci il tarixli qərarı ilə Universitetin tarixində ilk dəfə olaraq təsis edilən, 2021-ci ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınan, 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnalların siyahısına salınan "Dayanıqlı inkişaf" adlı müstəqil, multidisiplinar elmi jurnalın dərc olunması respublikanın elm ictimaiyyətinin böyük marağına səbəb olub. Jurnalın bu vaxtadək dərc edilmiş 4 buraxılışında çoxsaylı universitet və elmi-tədqiqat müəssisəsini təmsil edən alimlərin ümumilikdə 110-dan çox elmi məqaləsi yer alıb. Jurnalın təsis edilməsində əsas məqsəd dayanıqlı inkişafın kompleks məsələləri ilə bağlı son nəzəri-konseptual yanaşmaların, yeniliklərin və müsbət təcrübələrin yayılmasından, yerli və xarici ölkələrin tədqiqatçıları arasında elmi kommunikasiyanın gücləndirilməsindən ibarətdir. Redaksiya heyətində Azərbaycan, Türkiyə, İtaliya, Almaniya, Ukrayna və Litvanın tanınmış alimlərinin yer aldığı elmi jurnalda Azərbaycan, türk, ingilis və rus dillərində məqalələr dərc olunur.

Maddi-texniki bazanın gücləndirilməsinin, eləcə də informasiya texnologiyaları sahəsində mütəxəssis hazırlığının və elmi-tədqiqatların aparılmasının əsas prioritetlərdən olduğu MDU tərəfindən hazırlanan "Mingəçevir Dövlət Universitetində kibertəhlükəsizliklə bağlı fənlərin tədrisinin təkmilləşdirilməsi" adlı layihə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin "Ali və orta ixtisas təhsilinin 2021/2022-ci illər üzrə inkişafı" qrant müsabiqəsinin qalibi olub. Uğurla icra olunmuş Lahiyə çərçivəsində MDU-da yaradılan Kibertəhlükəsizlik laboratoriyasının açılışı 2022-ci ildə Azərbaycan Respublikasının elm və təhsil nazirinin iştirakı ilə baş tutub [3].

MDU ilə xarici ölkələrin müvafiq universitetləri arasında qarşılıqlı faydalı elmi əməkdaşlıq dinamik inkişaf edir. Təhsil, tədqiqat və innovasiya sahəsində qabaqcıl mövqeyi ilə fərqlənən, yeni dövrün universitetinə çevrilməyi strateji baxış olaraq müəyyən edən MDU ikitərəfli formatda beynəlxalq elmi əməkdaşlığın sürətlə genişlənməsi ilə xarakterizə olunur. Hazırda MDU dünyanın 12 ölkəsinin 22 universiteti (Türkiyə (6), Ukrayna (3), Qazaxıstan (3), Almaniya (1), Çin (1), Litva (1), Qırğız Respublikası (1), Belarus (1), İspaniya (1), Rumıniya (2), Lüksemburq (1), Bolqarıstan (1)) ilə sıx əməkdaşlıq edir. Sözügedən əməkdaşlıqların məzmununda birgə elmi fəaliyyətlər (ortaq elmi konfranslar, birgə elmi-tədqiqatlar, müştərək məqalələr və s.) mühüm yer tutur.

Təbii ki, MDU-nun elmi-tədqiqat fəaliyyəti üzrə prioritetləri bir tərəfdən maddi-texniki bazanın, kadr potensialının və elmi ənənələrin mövcud reallıqları, digər tərəfdən isə yeni dövrün universitetinə çevrilmək hədəfinin yaratdığı strateji vəzifələr əsasında müəyyən edilir. Bu prioritetlər sırasında aşağıdakıları xüsusi vurğulamaq olar:

- elmi-tədqiqat və innovasiya fəaliyyəti ilə tədris prosesi arasında üzvi əlaqənin təmin edilməsi;
- fundamental və tətbiqi elmlər sahəsində nəticəyönümlü tədqiqatların həyata keçirilməsi, ən son elmi nailiyyətlərin və texnologiyaların tədris prosesində daha geniş tətbiq edilməsi;
- elmi fəaliyyətin Mingəçevir şəhərinin və MDU-nun yerləşdiyi regionun hərtərəfli inkişafını dəstəkləməsi;
- elmi-tədqiqatların Qarabağda həyata keçirilən sistemli quruculuq işlərinə töhfə verəcək praktiki tövsiyələrin hazırlanmasını hədəfləməsi;

- davamlı inkişaf, bərpa olunan enerji və yaşıl iqtisadiyyat mövzularında elmi fəaliyyətin təşkili üçün zəruri imkanların yaradılması;
- qardaş Türkiyənin aparıcı universitetlərinin elmi fəaliyyət sahəsində zəngin təcrübəsindən davamlı fayda əldə olunması;
- akademik heyətin ümumi iş yükündə tədris və elmi fəaliyyətin daha səmərəli bölgüsünün təmin olunması, tədqiqatçı ştatının təsis edilməsi;
- dövlət və özəl tərəfdaşlar cəlb olunmaqla kafedraların nəzdində müvafiq tədqiqat mərkəzlərinin yaradılması;
- universitet-sənaye əməkdaşlığında elmi-tədqiqat məzmununun genişləndirilməsi;
- beynəlxlq təcrübədən faydalanmaqla Tələbə Elmi Cəmiyyəti üçün yeni və müasir fəaliyyət mexanizminin hazırlanması;
- Elm və Təhsil Nazirliyinin yaradılması nəticəsində meydana çıxan yeni imkanlardan daha çox fayda əldə olunması;
- "Sabahın alimləri" layihəsi və digər bu kimi fəaliyyətlərdə Mərkəzi Aran Regional Təhsil İdarəsi tabeliyindəki orta təhsil müəssisələrinə MDU tərəfindən davamlı dəstək göstərilməsi və s.

Qeyd olunan istiqamətlərdə reallaşdırılacaq ardıcıl fəaliyyətlər hazırda modernləşmə mərhələsində olan MDU-nun ümumi profilində elmi-tədqiqat komponentinin xüsusi çəkisinin əhəmiyyətli dərəcədə yüksəlməsini şərtləndirə bilər. Başqa sözlə, yeni dövrün universitetinə çevrilmək strateji hədəfinə çatmaq elmi fəaliyyətin keyfiyyət və kəmiyyət göstəricilərindən birbaşa asılı olacaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. "Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər". https://muallim.edu.az/news.php?id=18632
2. AMEA İqtisadiyyat İnstitutu və Mingəçevir Dövlət Universitetinin birgə təşkilatçılığı ilə elmi konfrans keçirilib. https://azertag.az/xeber/2138828
3. Mingəçevir Dövlət Universitetində Kiber Təhlükəsizlik Laboratoriyasının açılışı olub. https://muallim.edu.az/news.php?id=21161

UOT 371; 378; 37.001.12/.18; 37.014.5

TƏDQİQAT UNİVERSİTETİNƏ KEÇİD: UNİVERSİTETLƏR QARŞISINDA KONKRET VƏZİFƏLƏR

Zahid Fərrux oğlu Məmmədov
iqtisad elmləri doktoru, professor
Azərbaycan Dövlət İqtisad Universiteti
Əməkdar müəllim
prof.zahid.mamed@mail.ru

Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilən "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planı"nda ali məktəblərin yeni elmi tədqiqat ənənəsinin artması, müddətin sonuna qabaqcıl elmi-tədqiqat nəşrlərində aktiv iştirak edən 2 elmi-tədqiqat universitetinin fəaliyyət göstərməsi nəzərdə tutulur. Bu sənəd tədqiqat universiteti keçidi planlaşdıran universitetlər qarşısında, o cumlədən UNEC qarşısında konkret vəzifələr qoyur.

Çağırışlar, həmçinin elmin struktur və idarəedilməsinin, maliyyələşmə sxemlərinin, akademik institut və ali təhsil ocaqlarında aparılan tədqiqatların mövzu və səviyyəsinin beynəlxalq standartlara uyğunlaşdırılmasını nəzərdə tutur.

Elmi fəaliyyətin əsası yüksək ixtisaslı kadrlara əsaslanır, yəni elmi yeniliklərə həssas, nəzəri və praktiki biliklərə fəal yiyələnən tədqiqatçı-alimlərin yetişdirilməsi nəzərdə tutulur.

Bu vəzifəni həyata keçirmək üçün elmi kadrların hazırlığı işinə yeni elmi tələblərlə yanaşmanın təmin edilməsi və ölkədə müdafiə olunan dissertasiyaların mövzusu və məzmununun müasir elmin inkişaf istiqamətlərinə uyğunluğunun təmin edilməsi kimi məsələlər həll edilməlidir.

Hazırda müdafiə üçün tədqiqat elmi nəticələrin bir bölməsi nüfüzlü elmi nəşrlərdə tələb olunur. Fikrimizcə, "nüfüzlü elmi nəşrlər" məzmunu mütləq dəqiqləşdirilməli.

UNEC-də plagiata qarşı mübarizə

UNEC və Plagiat.Pl şirkəti arasında bağlanmış müqaviləyə əsasən, elmi və tədris-metodiki işlər strikeplagiarism.com platforması üzrəindən müvafiq proqram təminatı vasitəsilə aparılır. Hazırda, UNEC-də müdafiə edilmiş və ya nəşr edilmiş işlərin geniş bazası yaradılmışdır ki, bu da oxşarlıq yoxlamasının nəticəliliyi üçün daha böyük imkanlar açır.

Qeyd edilənləri nəzərə alaraq, elmi və tədris-metodiki işlərdə elm etikasına riayət edilməsi məsələlərinin təmin edilməsi üçün işlərin məzmununa keyfiyyət tələblərinin müəyyən edilməsi və işin bu tələblərə uyğunluğunun qiymətləndirilməsi üçün şəffaf və mümkün qədər obyektiv mexanizmlərin işlənməsi təklif edilir.

Milli tədqiqat universitetinə keçid: beynəlxalq elmi platformalarda indekslənən elmi jurnallar

Nüfüzlü universitetlərinin elmi nəşrlərə münasibətinin dəyişməsinin əsas səbəbi universitetlərin özlərinə olan tələblərin dəyişməsidir. Milli tədqiqat universitetinə keçid beynəlxalq elmi platformalarda indekslənən elmi jurnalların nəşrini tələb edir.

İstənilən elmi jurnalın əsas vəzifəsi elmi biliklərin yayılmasıdır. Bu vəzifə göz qabağındadır, lakin çox vaxt unudulur. Universitet tədqiqatçılarının nailiyyətlərini nümayiş etdirmək, onların elmi nəticələrini təbliğ etmək istər.

Universitetin akademik nüfuzu digər məsələlərlə yanaşı, onun elmi nəşrləri üzərində qurulur. Beləliklə, elmi jurnallar universitetdə kifayət qədər geniş problemləri həll edir. Bundan, fikrimizcə, bu çoxşaxəli fəaliyyət üçün idarəetmə sisteminin yaradılması zərurətindən irəli gəlir. Buna baxmayaraq, burada sual yarana bilər: nəyisə dəyişdirmək lazımdırmı? Mövcud sistemin çatışmazlıqları nələrdir? Elmi dövri nəşrlərin redaksiya heyəti ilə təsisçi arasında münasibətlərin optimal variantlarını tapmaq lazımdır.

Universitetin elmi jurnalı minimum üç meyara cavab verməlidir:

1) elmi jurnalın məzmunu yüksək keyfiyyətə malık olmalıdır;

2) rəqabətə davamlı olmalıdır;

3) beynəlxalq səviyyədə tanınan və qəbul edilənlər sırasına daxil edilməlidir.

Təcrübə göstərir ki, yüksək keyfiyyətli elmi-informasiya məhsulu yaratmaq üçün jurnalın redaksiya heyətinə müəyyən müstəqilliyin verilməsi lazımdır. Bu qaydalarda əsas postulat redaksiya muxtariyyətidir.

Elmi jurnallara aşağıdakı tələblər qoyulması gərəkir:

• UNEC-nun əsas elmi tədqiqatlarına uyğun gələn məqalələrin nəşri;

• UNEC əməkdaşları da daxil olmaqla redaksiya heyətinin olması;

• UNEC nəşrlərin Azərbaycanın qanunvericiliyinə, media sahəsində normativ hüquqi aktlara uyğunluğu;

• Ciddi resenzent sisteminin mövcudluğu;

• Universitetin domenində jurnalın internet saytının yaradılması;

• Peşəkar mətn redaktəsindən istifadə (o cümlədən ingilis dili);

• UNEC jurnallarının elektron nəşrindən istifadə;

• DOI - rəqəmsal obyekt identifikatorlarının istifadəsi.

Bu məqsədlərə nail olmaq üçün EFTİED tərkibində ixtisaslaşdırılmış bölmə – elmi dövri nəşrlər şöbəsi yaradılmalıdır. Onun əsas funksiyalarına, bir tərəfdən, universitet tərəfindən elmi

jurnalların fəaliyyətinin vahid qaydalarının müəyyən edilməsi, digər tərəfdən, bu jurnallara xidmət dəstəyi daxildir.

Elmi potensialın gücləndirilməsi sahəsində təşviq mexanizmləri ilə bağlı təkliflərin hazırlanması

Universitet əqli fəaliyyətinin nəticələrinin kommersiyalaşdırılmasına kömək edən, innovativ layihələr həyata keçirən startap şirkətlərin yaranması və səmərəli fəaliyyəti üçün əlverişli şəraitin yaradılması üzrə ixtisaslaşmış innovasiya infrastrukturunun təşkili lazımdır. UNEC-də biznes mərkəzi fəaliyyət göstərir.

Elmi potensialın gücləndirilməsi sahəsində təşviq mexanizmləri aşağıdakılar ola bilir:

1) universitetin bazasında həyata keçirilən innovativ layihələrin biznes inkubasiyası üzrə konsaltinq;

2) innovativ layihələrin həyata keçirilməsi üçün xarici maliyyə mənbələrinin cəlb edilməsi;

3) lisenziya müqavilələrinin bağlanması;

4) startap şirkətlərin yaradılmasına və inkişafına köməklik;

5) marketinq tədqiqatlarının aparılması;

6) layihə komandaları üçün biznes mentorlarının və biznes tərəfdaşlarının axtarışı və cəlb edilməsi.

Texnopark elmi tədqiqatların nəticələrinin kommersiyalaşdırılması ilə bağlı aşağıdakı xidmətləri göstərə bilər:

1) dizayn məqsədləri üçün ofis və sənaye binalarının verilməsi;

2) dizayn şirkətlərinin ümumi istifadə üçün avadanlıq və prototiplərin, prototiplərin, pilot (kiçik miqyaslı) istehsalın yaradılması üçün avadanlıqla təchiz edilməsi;

3) elmi tədqiqatların nəticələrinin kommersiyalaşdırılması və texnologiya transferi üzrə işlərin aparılması;

4) qabaqcıl enerjiyə qənaət edən texnologiyaların istehsalı, dəyişdirilməsi, sınaqdan keçirilməsi və tətbiqi üçün platformanın təşkili;

5) sınaq istehsalı prosesində məsləhət, təşkilati və digər dəstəyin göstərilməsi.

Apardığımız təhlillər göstərir ki, ali təhsil sisteminin bütövlükdə təkmilləşməsində uğurlarla yanaşı, bu sistemin ən vacib elementi olan universitetlərdə (idarə olunmasında, elmi fəaliyyətin və tədrisin təşkilində) hələ də bir sıra sovet mirası ciddi problemlərdən biri olaraq qalmaqdadır. Universitetləri sovet mirasından xilas etməklə onların inkişafına yeni impulslar vermək mümkündür.

Tədqiqat Universitetinin yaradılması ilə bağlı təhlillərin aparılması və təkliflərin hazırlanması:

1. Elmi araşdırma.
2. Texnoloji infrastrukturun inkişafı.
3. Kurikulumların və materialların hazırlanması.
4. Müəllim kadrlarının inkişafı.
5. İnformasiya təhsil resurslarının inkişafı.
6. Tədris prosesinin keyfiyyətinin təmin edilməsi sisteminin yaradılması və təhsilin inkişafı.

Tədqiqat universitetində elmi tədqiqatların aparılmasında iştirak edən professor-müəllim heyəti dərs yükünün 20 % aktiv dərs yükü ola bilir. Elmi-tədqiqat bazasının inkişafına investisiyalar təşviq olunur (kitabxana resursları, laboratoriya avadanlıqları, informasiya təminatı və s.);

Nəticə

"UNEC-100" İnkişaf Strategiyasına əsasən, hədəfimiz UNEC-in 100 yaşının tamam olacağı 2030-cu ildə universiteti dünyanın 500 ən yaxşı ali məktəblərindən birinə çevirməkdir. UNEC reallaşdırılması nəzərdə tutulan 7 strateji məqsəd və 31 strateji hədəfə doğru özünün böyük tarixi keçmişi və mövcud potensialına arxalanaraq inamla irəliləyir. UNEC-in dünya səviyyəli, XXI əsrin universitetinə çevrilməsi üçün yetərincə maddi-texniki, elmi-pedaqoji potensialı vardır.

İstifadə edilmiş ədəbiyyat

1. Мамедов З.Ф. Современный университет: новые вызовы и сложные задачи // Экономика и Управление: проблемы, решения. Том IV. 2019. С. 110-117.
2. Mamedov Z.F. Mirzayev Mirza. Reforming university finance: emerging trends, challenges and prospects // 55th International Scientific Conference on Economic and Social Development, Baku, Azerbaijan.: 25 June 2020. Book of Proceedings Vol. 2/4 (из Web of Science Core Collection). P 697-708
3. Mamedov Z.F. University development strategies: commercialization and responses to new challenges // Economic and Social Development (Book of Proceedings), 60th International Scientific Conference on Economic and Social Development - XX International Social Congress (ISC 2020). - Moscow, 20-21 October, 2020. P. 101-108
4. Mamedov Z. F. Глобальные вызовы для перехода к
5. Zahid F. Mamedov, Aliyev Shefa. Modern universities: new challenges, trends, paradigms and expectations // Economic and Social Development (Book of Proceedings), 70 th International Scientific Conference on Economic and Social Development - XX International Social Congress (ISC 2020). - Baku, 25-26 June, 2021. P. 325-332
6. Mamedov Z.F. Universitetlərin elmi fəaliyyətində yeni trendlər: beynəlxalq təcrübə və unec reallığı // Universitetlərin elmi fəaliyyətind' nələri bilmirik? Monoqrafiya. – Bakı: Şərq-Qərb, 2019
7. Mamedov Z.F. Biliklərə əsaslanan iqtisadiyyatda universitetlər: UNEC təcrübəsi // UNEC və Türkiyə Universitetlərinin əməkdaşlıq istiqamətləri: mövcud vəziyyət və perspektivlər // Beynəlxalq konfrans - 14 noyabr 2018. Bakı: UNEC-2019.-148 s. 23-34

UOT 004.8

YAPAY ZEKA: BU GÜN VE YARIN

Sinan Toklu
Doçent, Dr.
Gazi Üniversitesi
Türkiye
Mingəçevir Dövlət Üniversiteti
stoklu@gazi.edu.tr
sinan.toklu@mdu.edu.az

Giriş

İnsanlar tarih boyunca işleri kolaylaştıracak nesneler üretmeye çalışmışlardır. Her üretilen yeni ürünün sonucu üstüne yeni yöntemler eklenerek çok daha başarılı ürünler ortaya çıkarmışlardır. Örnek; Çamaşır makinesi gelişimi, binaların yükseklikleri arttıkça asansörlerin gelişimi, savunma sanayiindeki silahların gelişimi, ticaret yapılan ortamlarda müşteri davranışlarının analizi…vs. Dolayısıyla 1950'li yıllarda ortaya atılan yapay zeka fikri benimsenmiş ve çok kısa sürede insanoğlu bu alanda çok büyük gelişmeler göstermiş ve halende göstermeye devam etmektedir [1, 2].

Yapay zeka aslında makinelerin zekileştirilerek otonom olarak karar alma uygulama işlemini gerçekleştirmeye çalışmaktadır. Günümüzde internet teknolojisinin ve makinelerin üretim standartlarının artması ile devasa boyutta veri toplanabilmektedir. «Bilgi Güçtür» mantığıyla bu bilgilerin analizinin yapılması birçok alanda insanoğluna doğru karar vermede destek

sağlamaktadır. Aynı zamanda insanoğlunun vereceği karara benzer kararları yapay zekâ vasıtasıyla makinelerde yapabilmektedir [2, 3].

"Kəndimiz" mahnısı səsləndirilir. Sonra dərslikdə verilmiş mətn üzrə oxu təşkil edilir. Müəllim əqli hücum metodu ilə şagirdlərə suallar verir (müxtəlif fərziyyələr dinlənilir).

Tədqiqat sualı: Söz qrupları deyəndə nə başa düşürsünüz?

Tədqiqatın aparılması üçün beş nəfərdən ibarət dörd qrup yaradılır və adlandırılır:

Ölkə, Torpaq, Şəhər, Kənd.

Hər qrupda liderlər müəyyənləşdirilir. Qrupların tərkibinin qarışıq olmasına (yəni zəif və qüvvətli şagirdlərdən təşkil olunmasına) diqqət yetirilir. Qruplara iş vərəqləri paylanır.

Ölkə qrupu

1. Sözün (leksik) mənası nədir?
2. Yaxınmənalı sözlərə nə deyilir? (sinonimlər)
3. Çoxmənalı sözlərlə yaxınmənalı sözlərin fərqi haqqında nə deyə bilərsiniz?
4. Qol, diş, buruq, künc, dəstə sözlərinin işlənmə məqamları necədir?

Torpaq qrupu

1. Hansı sözlərin (leksik) mənası var?
2. Bəzi sözlər niyə çoxmənalıdır?
3. İnqilab, müsafir, heyrətamiz, lütfkar sözlərinin mənası nədir?

Şəhərqrupu

1. Yaxınmənalı sözlər (sinonimlər) haqqında nə bilirsiniz?
2. Sözün həqiqi və məcazi mənası necə əmələ gəlir?
3. Vurma, ağıl, fırtına, xatirə, məşəl sözlərini mübtəda kimi işlədə bilərsiniz?

Kənd qrupu

1. Hansı sözlərə təkmənalı və çoxmənalı deyilir? Fərqini deyin.
2. Leksik və qrammatik məna nədir?
3. Dərin, dəmir, ağır, şirin, iti sözlərini cümlə daxilində məcazi mənada işlədin.

Məlumat mübadiləsi və müzakirəsi mərhələsində qrupların cavabları dinlənilir. Tapşırığı düzgün yerinə yetirən və suallara cəld cavab verən qruplar üstünlük qazanırlar.

Sonra qrupların cavabları meyarlarla qiymətləndirilir.

Beləliklə, dərsin birinci mərhələsi başa çatır.

II mərhələ başlayır. Bu zaman suallardan istifadə edilir.

Lövhədə cümlələr görüntülənir(və ya yazılır):

1. Qəşəng, gözəl, yaraşıqlı bir qız içəri daxil oldu.
2. Cavan, gözəl və yaraşıqlı qız həkimimiz idi.

Müqayisələr aparılmaqla cümlələr müzakirə edilir.

Müəllim:

- Cümlələrdə təkrar edilən sözlər hansılardır?

Şagird:

- Qəşəng, gözəl, yaraşıqlı sözləri cümlələrdə təkrarlanır.

Müəllim:

- Düzdür, bu sözlər necə sözlərdir?

Şagird:

- Bunlar mənaca yaxın, formaca müxtəlif sözlərdir.

Müəllim:

- Bu sözlərə sinonimlər deyilir. Sinonimlərin tərifini necə vermək olar?

Şagird:

- Mənası eyni, yazılışı və deyilişi fərqli sözlərə sinonim sözlər deyilir.

Müəllim:

- Düzdür, sinonimlər mənaca yaxın olsa da, işlənmə yerindən asılı olaraq müəyyən fərqləri vardır. Məsələn, ürək, könül, qəlb və s.

Qruplara yeni iş vərəqləri paylanır və onlar yeni iş vərəqləri ilə işləyirlər.

Ölkə qrupu

Cümlələrə uyğun sinonimləri əlavə edib yazın.

1. Dilbər sənət seçməkdə (ürəyinin, könlünün) səsinə qulaq asdı.
2. Günlərimiz biri-birindən (şən, sevinclı) keçirdi.
3. Ulduzlar sayrışır,(göy, səma) nagıllar aləminə bənzəyirdi.

Torpaq qrupu

Cümlələrə uyğun sinonimləri əlavə edib yazın.

1. (kiçik, balaca) bacım müsiqini çox sevir.
2. Şıxəli (qəşəng, yaraşıqlı) gənc idi.
3. Arif (körpə, balaca) it balasının qayğısına qalırdı.

Şəhər qrupu

Cümlələrə uyğun sinonimləri əlavə edib yazın.

1. Hər kəs öz (el, oba) adət-ənənələrini yaşatmalıdır.
2. Mübariz (balaca, kiçik) yaşlarından düşmənə nifrət bəsləyirdi.
3. Kərənəklər bahar sevinci ilə (gülə, çiçəkyə) qonurdu.

Kənd qrupu

Cümlələrə uyğun sinonimləri əlavə edib yazın.

1. Mətləb (müxtəsər, qısa) danışmağı xoşlayırdı.
2. Bizim qələbəmiz düşməni (vahiməyə, qorxuya) salmışdı.
3. O, xırda bir səhvə yol verməsin deyə, bütün gecəni (fikiləşdi, düşündü).

Məlumatlar dinlənilir, müzakirə edilir və fikirlər ümumiləşdirilir.

*Nəticələrin cıxarılması.*Diskussiya aparılır:

- Sinonimlərin dildə nə kimi əhəmiyyəti vardır?
- Sinonimlərdən, əsasən, bədii əsərlərdə istifadə olunur.

Bəli, fikri daha dəqiq ifadə etmək üçün sinonimlərin rolu böyükdür. İsim və feillərdə sinonimlik daha qabarıqdır.

Sonra şagirdlər lövhədə Səməd Vurğunun məşhur "Azərbaycan" şeirindəki sinonimləri yazırlar:

Yurdum, yuvam, məskənimsən.

Elim, günüm, obam sənsən.

Lövhədə bir neçə sinonim yazılır: qoca-yaşlı; uca-hündür. "Yaşlı" və"hündür" sözlərinin əvəzinə hansı sinonimlərinin işlədilməsinin mümkünlüyünə dair fikirlər söylənilir. Qruplar qərara gəlirlər ki, "qoca" sözünü "yaşlı" sözü ilə əvəz etmək olar, uca sözünü isə hündür sözü ilə əvəzləmək olarsa, məzmun bir o qədər dolğun olmayacaqdır, çünki bunlar yaxın mənalı sinonim sözlərdir.

Evə tapşırıq verilir. Oxu mətnindən yaxınmənalı sözləri seçib yazın.

Qiymətləndirmə meyarlarla cədvəldə yekunlaşdırılır.

Oxu dərslərində fəal təlim üsulları ilə sinonimlərin tədrisi zamanı dil qaydaları ilə inteqrasiyanın əhəmiyyəti böyükdür. Belə ki, hər bir mətnin oxusundan sonra dil qaydalarından məqsədəuyğun istifadə edilməsi dərsin səmərəliliyini daha da artırır.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan dilinin qrammatikası, 2 hissəli, II his. Bakı: Elm, 1959, 402 s.
2. Cəfərov S.Ə. Müasir Azərbaycan dili (leksika), (4 hissəli), II hissə, Bakı: Maarif, 1982, 214 s.
3. Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. Bakı: ADPU, 2020, 404 s.
4. Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. II hissə. Bakı: ADPU, 2019, 430 s.
5. Cəfərova N. İbtidai siniflərdə strategiyalı oxu problem. Bakı: ADPU, 2022, 288 s.
6. Əhmədov B.B. Leksika məsələləri. Bakı: Maarif, 1990, 140 s.
7. Həsənov N.Ə. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Maarif, 1987, 308 s.
8. İsmayılov R., Abdullayeva S., Cəfərova D., Qasımova X. Azərbaycan dili. (4-cü sinif üçün dərslk). Bakı: Altun Kitab, 2011, 224 s.

UOT 82.0:37.016; 82:37.016

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN VIII SİNFİNDƏ CƏLİL MƏMMƏDQULUZADƏNİN "QURBANƏLİ BƏY" HEKAYƏSİNİN TƏDRİSİ

[1,3]Kamran Şahverən oğlu Kazımov, [2,3]Fəxriyyə Ağakişi qızı Qüdrətli
[1]filologiya elmləri doktoru, professor
kkamran@mail.ru
[2]fexriyyequdretli@gmail.com
[3]Lənkəran Dövlət Universiteti

Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatında hekayə janrının görkəmli ustadıdır. Mirzə Cəlil hekayələrində diqqəti cəmiyyətdə, sosial mühitdə olan problemlərə cəlb edir. Hekayələrinin əsas mövzusu cəhalətin, batil inancların tənqidi, qadın azadlığı, təhsilin önəmi və s. kimi məsələlərdir. Bu baxımdan hekayələrin orta məktəbdə tədrisi mühüm əhəmiyyət kəsb edir.

"Qurbanəli bəy" hekayəsi Cəlil Məmmədquluzadənin hekayə yaradıcılığının ən məşhur nümunələrindən biridir. Hekayənin baş qəhrəmanı olan Qurbanəli bəy Qapazlı kəndinin mülkədarıdır. Müəllif hekayədə kinayə ilə onu "məşhur mülkədar" adlandırır. Qurbanəli bəyin xarakterində olan çürük nüanslar nökərlərə, ailəsinə mənfi münasibətində, yuxarı təbəqələrin nümayəndələrinə isə yaltaqlanarkən daha aydın formada gün üzünə çıxır.

"Qurbanəli bəy" hekayəsi orta məktəbdə VIII sinifdə tədris edilir.

1. **Motivasiya**

Əsərin motivasiya hissəsinə keçid edərkən məşhur "Nigarançılıq" teletamaşasının fraqmentlərindən istifadə edilə bilər. Şagirdlər fraqmenti izlədikdən sonra müəllim onlardan təəssüratı almalı, videonun hansı tamaşadan olduğunu soruşmalı və həmin tamaşanın hansı əsərə əsasən yazılması barədə şagirdlərə sual verməlidir. Şagirdlər suala cavab verdikdən sonra müəllim şagirdlərə **tədqiqat sualını** elan etməlidir: "Yalançılıq və simasızlıq insanın həyatdakı mövqeyində hansı rolu oyanaya bilər?" Tədqiqat sualı məhz motivasiyanın nəticəsində formalaşır.

2. **Tədqiqatın aparılması**

Dərsin növbəti mərhələsi tədqiqatın aparılması mərhələsidir. Müəllim bu mərhələdə şagirdləri üç qrupa bölür. Onlara tədqiqatın aparılması üçün müəyyən edilmiş vaxt, təlimatı elan edir, onları aşağıdakı qruplara bölür və tapşırıqlarını elan edir:

Novella qrupu: Qurbanəli bəyin xarakterindəki mənfi cəhətləri seçin və əsərdəki hissələrə istinad edərək fikrinizi əsaslandırın.

Təmsil qrupu: "Qurbanəli bəy" əsərini nə üçün hekayə adlandırırıq? Əsərin mövzusunu, ideyasını və janr xüsusiyyətlərini araşdırın.

Roman qrupu: Qonaqlıqda iştirak edən şəxslərin Qurbanəli bəyə münasibəti necə idi? Fikrinizi nümunələrlə əsaslandırın.

3. **Məlumat mübadiləsi**

Bu, dərsin növbəti mərhələsidir. Bu mərhələdə şagirdlər tədqiqat aparılan zaman əldə etdikləri yeni informasiyaları digər qruplardakı şagirdlər ilə bölüşürlər.

4**. Məlumatların müzakirəsi və təşkili mərhələsi**

Bu mərhələ dərsin ən çətin mərhələsidir. Məhz bu mərhələdə şagirdlərin zehni idrakı inkişaf etdirilir, məntiqi, tənqidi, yaradıcı təfəkkür vəhdətdə çalışır. Müəllim istiqamətverici suallar ilə öz fasilitator mövqeyini nümayiş etdirir. Əldə olunmuş faktlar müzakirə edilir, sistemləşdirilir, beləliklə, tədqiqat sualının cavabı yavaş-yavaş tapılmağa başlayır.

5**. Nəticənin çıxarılması**

Bu mərhələdə sistemləşdirilmiş fikirlərlə tədqiqat sualı tutuşdurulur, nələrin üst-üstə düşdüyü, nələrin yeni olduğu müəyyən edilir. Nəticədə yeni bilik əldə olunur.

6. **Yaradıcı tətbiqetmə**

Bu mərhələdə şagirdlərin indiyədək verilmiş bilikləri nə dərəcədə, hansı səviyyədə mənimsəmələri müəyyən edilir. Bu məqsədlə müəllim şagirdlərə aşağıdakı xaraktereli praktik tapşırıqlar verə bilər:

a) Sinifdə: "Yaltaqlığın insana gətirdiyi bəlalar" mövzusunda qısa mətn yazın;

b) Evdə: "Qurbanəli bəy" hekayəsi ilə mövzu və ideyaca oxşarlıq təşkil edən əsərləri araşdırın və adlarını qeyd edin.

7. **Qiymətləndirmə**

Hansı bir fəaliyyətin inkişafını təmin edən əsas məqamlardan biri də qiymətləndirmədir. Qiymətləndirmə sayəsində şagird özünün üstünlüklərini və ya əksinə qüsurlarını görür. Qiymətləndirməni dərsin müxtəlif mərhələlərinə daxil edib, həmin mərhələlər zamanı da həyata keçirmək lazımdır. Belə ki, şagirdlərə hələ tədqiqatın aparılması mərhələsinə başlayarkən qiymətləndirmə meyarları söylənilməlidir.

"Qurbanəli bəy" hekayəsinin tədrisi zamanı aşağıdakı qiymətləndirmə meyarlarından istifadə oluna bilər.

a) Dialoji nitq bacarıqlarından istifadə etmə;
b) Hekayənin ideyasını müəyyən etmə;
c) Əsərin janr xüsusiyyətlərini müəyyən etmə.

İstifadə edilmiş ədəbiyyat

1. "Ədəbiyyat" fənni üzrə 8-ci sinif üçün dərslik
2. "Ədəbiyyat" fənni zrə 8-ci sinif üçün metodik vəsai
3. Səadət Vahabova. "Cəlil Məmmədquluzadə nəsrinin poetikası.

UOT 94(479.24)

AZƏRBAYCANIN COĞRAFİ XƏRİTƏSİNDƏ QARABAĞ XANLIĞININ YERİ

[1,3]Azad Mustafa oğlu Bayramov, [2,3]Ceyhun Nadir oğlu Hüseynov,
[4]Elgün Məhəmmədəli oğlu Aslanov
[1]fəlsəfə üzrə fəlsəfə doktoru, professor
[2]siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
[3]Azərbaycan Dövlət Aqrar Universiteti
[4]tarix üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
e.aslanov85@mail.ru

Azərbaycan ərazisində olan digər xanlıqlar kimi, Qarabağ xanlığını da qeyri-məhdud hakimiyyətə malik olan xan idarə edirdi. O, bütün icra, məhkəmə və hərbi funksiyaları öz əlində toplamışdı [4, s.96]. Xanın hakimiyyəti irsən atadan oğula keçirdi. Digər xanlıqlara nisbətən Qarabağ xanlığında dövlət aparatı nisbətən böyük idi. Xan hakimiyyətinin başlıca funksiyası hakim siniflərin mənafeyini müdafiə etməkdən və xanlığın ərazilərini genişləndirməkdən ibarət idi. Xanlıqda dövlətin başında xan dururdu. İ.P.Petruşevski qeyd edirdi ki, Azərbaycanda hökm sürən siyasi pərakəndəlik və xanlıqlararası müharibələr şəraitində xanlar kəndli kütlələrini hədsiz dərəcədə qıcıqlandırmamaq üçün, feodal istismarını müəyyən həddə saxlamağa çalışır, hətta ona bəzən patriarxal adət-ənənə donu geyindirməyə cəhd göstərirdilər. Onlar kənd icmalarının hüquqları, adət-ənənəsi ilə hesablaşmalı olurdular.

Qarabağ xanının yanında məşvərətçi orqan - divanxana fəaliyyət göstərirdi. Divanxana xanın yaxın adamlarından və ali müsəlman din xadimlərindən təşkil olunurdu. Mirzə Adigözəl yazırdı ki, Mərhum İbrahimxəlil xan padşah adlanmasa da, onun var dövləti müasir olan İran padşahlarından çox idi. Müəllif bu zaman Qaradağ, Təbriz, Naxçıvan, Ərdəbil, Xoy, Marağa, İrəvan və Qaplan kimi vilayətləri nəzərdə tuturdu. Eyni zamanda müəllif xanları və xanzadələri, həmişə gözəl xasiyyətli xan cənablarımn hüzurunda girov olduqlarını qeyd edirdi. [3, s.49].

Mirzə Mehdi xan Astrabadinin Azərbaycan MEA-mn Füzuli adına Əlyazmalar İnstitutunda saxlanan “Tarix-i Nadiri” əsərinin əlyazmasınm sonuncu vərəgində bu nüsxənin Mehdiqulu xana məxsusluğunu bildirmək üçün onun möhürü vurulmuşdur. Mənbənin verdiyi məlumata görə Qarabağ xanı bəzi vaxt ayrı-ayrı mahalları töhvə olaraq öz sərkərdələrinə bağışlayırdı ki, onlar bu yerlərin mədaxilindən mənfəətbərdar olsunlar [4, s.49]. Qarabağ xanının ən yaxın köməkçisi vəzir idi. Qarabağ xanlığında çox zaman vəzirə mirzə deyirdilər. İbrahimxəlil xanın hakimiyyəti dövründə vəzir vəzifəsini görkəmli Azərbaycan şairi Mola Pənah Vaqif icra edirdi.

Tarixdən bildiyimiz kimi, 1797-ci ildə Ağa Məhəmməd şah Qacar Şuşa şəhərində qətlə yetirildikdən sonra müvəqqəti hakimiyyətini ələ keçirmiş xanın qardaşı oğlu Məhəmməd bəy Vaqifin simasında öz hakimiyyətini möhkəmləndirmək qarşısında bir- təhlükə görərək onu edam etdirmiş,daha sonra isə vəzir vəzifəsinə Mirzə Camal təyin olunmuşdu. İbrahimxəlil xan 1805 ci ildə Kürəkçay müqaviləsini imzaladığı zaman varislik və vəliəhdlik adını böyük oğlu Məhəmməd-həsən ağaya verilmişdi. Məhəmmədhəsən ağanın ikinci oğlu girov şərti ilə Tiflisə Qafqazdakı rus ordusunun baş komandanı general Sisianovun yanına göndərilmişdi. Lakin 1806-cı il fevralın 24-də Məhəmmədhəsən ağa hələ İbrahimxəlil xanın sağlığında xəstələnib öldüyündən xanın yerdə qalan oğlanları içərisində ən böyüyü general-mayor Mehdiqulu ağa idi.Buna görə də varislik və vəliəhdlik sənədi xanın və Qarabağın başqa əyanlarının möhürü ilə Mehdiqulu ağaya verilmişdi, o xan və vəliəhd adlandırılmışdı [3, s.176]. Bu səbəbdən də mayor Lisaneviç İbrahimxəlilxəlil xanı qətlə yetirdikdən sonra, general Nesvetayevə raport yazmış və həmin raporta əsasən 1817-ci ildə çar I Aleksandr Mehdiqulu xana xanlıq fərmanı, hakimiyyət bayrağı və cəvahirlə bəzənmiş qılınc göndərmişdi [5, s. 147- 148].

Baharlının qeydlərinə görə on dörd oğlu və dörd nəfər kəbinli arvadı, 8 qızı, bir neçə də siğə arvadı olan İbrahimxəlil xanın arvadlarından biri Nuh Novsəl xanın qızı Bikə ağa idi. Xanın ondan Əhməd adlı oğlu olmuşdur. Digər arvadı Gəncəli Şahverdi xanın qızı Xurşud Banu bəyim, Mehdiqulu xanın anası olmuşdur. Üçüncü arvadı gürcü qızı Cavahir xaım idi. Gövhər ağa onun qızı olmuşdur. Xanın dördüncü arvadı Cəbrayıllı Vəli bəyin qızı Xanım olmuşdur. Məhəmmədhəsən xanın anası idi. Xanın qalan arvadları erməni və gürcü qızları imiş [1, s.281].

Baharlının yazdığına görə İbrahimxəlil xanın böyük oğlu Cavad ağa imiş və o atasının sağlığında ölmüşdür. İbrahimxəlil xanın vəliəhdi əvvəlcə Məhəmmədhəsən ağa olmuşdur. Xan ən çox səlahiyyət verdikləri oğulları Məhəmmədhəsən ağa, Əhməd xan və Mehdiqulu xan olmuşdur [1, s.281-283]. İbrahimxəlilxəlil xanın qızlarından biri Ağa bəyim ağa Fətəli şaha ərə getmişdir. Digər qızı Gövhər ağa Şəki xanına ərə getmişdi. Ibrahimxəlil xanın Talıbxan bəy adlı bir qardaşı olmuşdur [1, s.283-284].

Mehdiqulu xan İrana qaçdıqdan sonra Rusiyanm Qafqazdakı qoşunlarının baş komandanı general Yermolovun göstərişi ilə 1823-cü ilin əvvəlində vəfat etmiş Məhəmmədhəsən xanın yerinə yeni vəliəhd təyin edilmişdir. Cəfərqulu ağanı oğlu Kərim Cavanşirlə birlikdə həbs edərək Simbirskə sürgün etmişdilər [3, s.41].

Hələ 1827-ci ildə Cəfərqulu ağa rus çarı I Nikolaya ərizə yazaraq bildirirdi ki, keçmişdə saxtakarlıqla knyaz titulu aldıqdan sonra daha da harınlaşmış və Qarabağda böyük özbaşınalıq törətmişdir. Cəfərgulu ağa bunu da yazırdı ki, İbrahimxəlil xan qətlə yetirdikdən sonra xan taxtı vəliəhd olduğına görə ona çatmalıymış. Lakin rus komandanlığı yanlış addım ataraq Mehdiqulu xanı hakimiyyətə gətirmişdir. Çar hökuməti Cəfərgulu ağanın Qarabağa qayıtmasına icazə vermiş, ona təqaud təyin edilmişdi [1, s.46-66].

İbrahimxəlil xan əvvəlcə Şahverdi xanın Tutibəyim adlı qızını alıbmış [ondan iki qızı doğulub]. Tuti bəyim vəfat etdikdən sonra isə bacısı Xurşud bəyimlə evlənib, Mehdiqulu ağa bu qadından doğulmuşdur. Şahsevən Nəzərəli xanın bacısını da almış, ondan üç qızı olmuşdu [3, s.199].

İbrahimxəlil xanın asılı xanların və hakimlərin qohumlarını, yaxud oğullarını öz yanında girov kimi saxlamağı haqqında Mirzə Yusif Qarabaginin qeydləri vardır. Baharlı yazır ki, İbrahimxəlil xan təgsirkar hesab etdiyi adamı dərinliyi 200 arşından artıq olan Xəzinə qayasından atdırarmış. Boynun vurulması, göz çıxarmaq, əl kəsmək kimi cəza üsulları vardı [1, s.287].

Xan hakimiyyətinin başlıca funksiyası hakim siniflərin mənafeyini müdafiə etməkdən və xanlığın ərazilərini müdafiə edib genişləndirməkdən ibarət idi. Qarabağ xanlığında dövlət aparatı diqər xanlıqlarla nisbətdə xeyli böyük idi. Divan xanın yanında məşvərətçi orqan kimi fəaliyyət göstərirdi. Müharibə və sülh məsələləri, vergilərin bölüşdürülməsi, yeni vergilərin təyin edilməsi, mülki və cinayət işlərini müzakirəsi başlıca olaraq divanda edilirdi. Mənbələrə əsasən belə qənaətə gəlmək olur ki, Qarabağ xanlığı inzibati cəhətdən 22 mahala bölünürdü. Mahallar bir neçə kənddən ibarət idi. Mahalları naiblər idarə edirdilər. Hər bir naibə darğalar, yüzbaşılar, kəndxudalar və başqa vəzifəli şəxslər tabe idilər. Darğa vəzifəsi şəhərdə də var idi. Onlar şəhərdə bir növ polis vəzifəsini icra edirdilər, kəndlərdə isə onlar vergi yığmaqla məşğul olurdular. Yüzbaşılar və kəndxudalar eyni zamanda kənd ağsaqqalı hesab olunurdular.

Başqa xanlıqlarda olduğu kimi, Qarabağ xanlığında da mülki və cinayət işlərinə əsasən şəriət qanunları, adət-ənənələri əsasında baxılırdı. Məhkəmələrdə müxtəlif cəzalarla yanaşı ağır işgəncələrə də yol verilirdi. Ən böyük hakim kimi ölüm hökmünü xanın özü verirdi. Mirzə Camal Cavanşir Qarabağ xanlığında mövcud olan vergi sistemi və mükəlləfiyyətlər haqqında maraqlı məlumat verir. O, yazır ki, hər il Novruz bayramı günlərində xanın adından qoşun başçılarına hədiyyələr, xələt, at, silah bağışlanırdı.

Qarabağ xanlığında bir çox vergilərlə yanaşı, "bayramlıq" adlanan xüsusi vergi mövcud idi ki, ona əsasən əhali Novruz bayramında xana mütləq hədiyyə verməli idi. Bəzən torpaq sahibləri də öz rütbəsinə görə xana bayram günü peşkəş gətirirdi.

Qarabağ xanlığının iqtisadiyyatının əsasını kənd təsərrüfatı - əkinçilik və heyvandarlıq təşkil edirdi. Ümumi torpaq sahəsi təxminən 1.354000 hektar olan Qarabağ xanlığında 100000 hektara yaxın əkinə yararlı torpaq sahəsi var idi ki, bundan adambaşına 1,1 hektar düşürdü.

Torpağın əkilməsi, becərilməsi, məhsulun emalı, əsasən, əl əməyi ilə və qoşqu heyvanlardan istifadə yolu ilə görülürdü. Sudan istifadəni mirablar və cuvarlar nizama salırdılar. Torpağın əkilməsində kotan və cütlərdən istifadə olunurdu.

Qarabağ xanlığında, xüsusilə İbrahim Xəlil xanın hakimiyyəti dövründə ipəkçilik və bağçılıq geniş rövnəq tapmışdı. Şəxsən İbrahim xanın Hindarxı ərazisində 26 tut bağı var idi. Qarabağ xanlığında illik ipək məhsulu 1700 pud idi. Burada bağçılığa da fikir verilirdi. Pənah Əli xandan irsən İbrahim xana Ağdamda 7 böyük meyvə bağı qalmışdı: Güllü bağ, Arxalı bağ, Kətəl bağı, Çirayiş bağı, Bala bağ və Nurlu bağ. Sonuncu iki bağın məhsulu yalnız xeyrat və ehsan məqsədilə işlədilirdi.

Bostançılıq Qarabağ xanlığının çox kəndlərində inkişaf etmişdi. İbrahim xanın Hindarxında olan bostanından Şuşaya hər il 50 araba qovun və qarpız göndərilirdi.

Kənd təsərrüfatının mühüm sahələrindən biri də heyvandarlıq idi. Heyvandarlar çoxlu sayda iri buynuzlu heyvan və qoyun saxlayırdılar. Qarabağ xanlığı dağlarında onların ixtiyarında 500000 hektara yaxın yaylaq – otlaq sahəsi var idi. İbrahim xanın dövründə Qarabağ xanlığı tacirləri, Şəki, Şamaxı, Gəncədə ipək gətirərək əsl ipək monopoliyası yaratmış və onu xarici bazara çıxara bilmişlər. Məşhur Qarabağ atları, Qarabağ xalçaçıları da ticarətin mühüm sahələri idi. İrana aparılan malların şəhər üzrə gömrük xərci müəyyən edilmişdi. Türkiyə Qarabağ tacirlərini özünə cəlb etmək üçün onları gömrük xərclərində azad etmişdi.

Qarabağ xanlığının özünəməxsus ölçü tərəzi vahidləri var idi. Məsələn, taxıl məhsullarını ölçən çanaqların üç növü var idi. Birinci növ çanaq 31 girvənkə (400 qram) buğda, ikinci növ çanaq 12,5 girvənkə, üçüncü növ isə 2,5 girvənkə ölçüsündə idi.

Şuşada pambıqdan bez toxuyan 28 müəssisə fəaliyyət göstərirdi. Həmin müəssisələrdə 80-dən çox dəzgah işləyirdi, burada illik məhsul 80000 xan arşını təşkil edirdi. Şuşanın 19 dəri hazırlayan zavodunda hər il çoxlu miqdarda dəri aşılanırdı. Qarabağ xanlığında hazırlanan dərilər bu keyfiyyətinə Təbriz ustalarının hazırladıqları dəri məmulatı ilə rəqabət aparırdı. Şuşada məşhur daş karxanaları ilə yanaşı 2 böyük kərpic zavodu olmuşdur.

Mirzə Adıgözəl bəyin verdiyi məlumata görə Şuşada barıt istehsal edən müəssisə işləyirdi. Şuşanın sabunbişirən müəssisəsi şəhəri və ətraf kəndləri sabunla təmin edirdi.

Şuşa zərgərləri bütün yaxın Şərqdə məşhur idilər. Zərif - incə naxışlarla bəzədilmiş qızıl və gümüş zərgərlik məmulatları çox məşhur idi.

Qarabağ xanlığının varlığı ərzində iqtisadi inkişaf sahəsində əvvəlki dövrlərə nisbətən xeyli irəliləyiş hiss olunur. Bu irəliləyişin ən mühüm amili əkinçilik mədəniyyətinin yüksəlişi ilə bağlı olmuşdur.

Mənbələrdə göstərildiyi kimi xanlıq ərazisindəki bütün torpaqlar xanın özünə, ağalar, bəylər, rəiyyət və vəqflər üzrə bölünmüşdü. Bu bölgü Quranın məzmunundan irəli gələn şəriət qanunlarına əsaslanırdı. Quranın isə torpaq üzərində xüsusi mülkiyyəti qanuni hesab etmirdi, "Torpaq ancaq onu əkənlərə və becərənlərə məxsusdur" prinsipi əsas götürülürdü. Torpağı əkib becərənlər isə rəiyyət və rəncbərlər idilər.

"Qarabağnamələr"də göstərildiyi kimi, Qarabağ xanları əkinçilik və heyvandarlıqla məşğul olan, ictimai istehsalı artıran elat əhalisinə həmişə hörmət və qayğı ilə yanaşmışlar. Bu isə kənd təsərrüfatı məhsullarının ilbəil artmasına şərait yaradırdı.

Salnamələrdə Qarabağ xanlığının əhalisinin sayının 90 min nəfər olduğu göstərilir. Mirzə Camal yazırdı ki, Pənahəli xanın göstərişi ilə Şuşa qalasmın əsasının qoyulması ilə əlaqədar "işgüzar və bacarıqlı adamlar" məsləhət üçün yığışmışdılar. Mahalları minbaşılar və məliklər, kəndləri isə darğalar, yüzbaşılar, kovxalar, kəndxudalar idarə edirdilər. Əslində minbaşı və yüzbaşı rütbələri hərbi rütbələr idilər. Onlar hərbi əməliyyatlar zamanı min və yüz nəfərlik dəstələrə başçılıq

edirdilər. Mahal naibləri həm inzibati, həm də məhkəmə hakimiyyətinə malik idilər. Kəndxudalar və kovxalar kənd icmaları tərəfindən seçilirdilər. Onların başlıca vəzifəsi icma üzərinə düşən vergiləri toplamaqdan və kənddə asayişin qorunmasından ibarət idi. Darğalar bazara nəzarət edirdilər. Onlar ərzaq məhsullarına qiymətləri təyin edir, mübahisəli məsələlərin həlli zamanı münsif kimi çıxış edirdilər. Darğalar formal olaraq bazar polisi hesab olunsalar da, əslində bütün şəhərdə qayda-qanuna cavabdehlik daşıyırdılar. Şəriət qaydalarının əməl olunmasına da darğalar nəzarət edirdilər. Darğanın bu qaydaları pozanları cəzalandırmaq hüququ vardı [2, s.58-59].

Şəhərlərdə gecələr asayişin qorunmasma əsəsbaşı nəzarət edirdi. Mirzə Camalın sözlərindən belə məlum olur ki, xanlıqda olan bəylər üç qrupa bölünürmüş.

Birinci qrupa xanın qardaşları, qardaş uşaqları, öz övladı və əmisi uşaqları, yəni hakim ailəyə aid bəylər daxil idi. Xanın əmi uşaqları - Fəzi bəy, Əbdüssəməd bəy, Kəlbəli bəy, Hümmətəli bəy və onların oğlanları da belə bəylərin sırasına daxil idi [5, s.146]. Xanın övladlarının digər bəylərdən fərqləndirmək üçün onlara bəy deyil, "ağa" deyə müraciət edirdilər.

Ikinci qrupa irsi, həm də hakim bəylər daxil idi. Cavanşir, Otuziki, Kəbirli, Dəmirçi Həsənli, Bərgüşad, Qaraçorlu, Iiacı Samlı, Kolanı və Qapan ellərinin bəyləri ilə Dizaq, Vərəndə, Çibbörd, Talış və Xaçın məlücləri bu qrupa daxil idilər.

Üçüncü qrupa xidmətlərinə və sədaqətlərinə görə xanlardan bu rütbəli alim bəylər daxil idi. Pənahəli xanın iki oğlu olmuşdu: İbrahimxəlilxəlil ağa və Mehralı bəy. İbrahimxəlil xanın hələ sağlığında bir anadan olmuş böyük oğlanları Cavad ağa və Məhəmmədhəsən ağa vəfat etmişdir. Onların anası Cəbrayıl bəylərindən birinin qızı idi. Xanın digər oğlanları Xanlar ağa, xan rütbəsi almış Əbülfət xan, Məhəmmədqasım ağa, Fətəli ağa, Süleyman ağa, Hüseynqulu ağa və Səfiqulu idilər. 1847-ci ilə kimi sağ qalan oğlanları xan qızlarından doğulmuş Mehdiqulu xan və Əhməd xan, habelə kənizdən doğulmuş Şeyxəli ağa. 1845-ci ilə kimi sağ qalan qızları: Gürcü tavadının qızından doğulmuş Gövhər ağa, Gürcüstan çarımn vəziri Mirzə Rəbinin qızmdan doğulmuş İzzət bəyim. II İrakli öz vəzirinin üç qızını xana və iki oğlu - Əbülfət xan və Məhəmmədqasım ağaya vermişdi [5, s.147].

İstifadə edilmiş ədəbiyyat

1. Baharlı. Əhvalati-Qarabağ. Qarabağnamələr, II c. Bakı: Yazıçı, 1991, s.269-302.
2. Əliyev F.M., Əliyev U.F. İrəvan xanlığı. Bakı, 1997, 124 s.
3. Mir Mehdi Xəzani. Kitabi-Tarixi Qarabağ // Qarabağnamələr, II c., Bakı: Yazıçı, 1991, s. 93-202
4. Mirzə Adıgözəl bəy. Qarabağnamə // Qarabağnamələr, I kitab, Bakı, 1989, s. 5-102.
5. Mirzə Camal Qarabaği. Qarabağ tarixi // Qarabağnamələr, I kitab, Bakı, 1989, s. 104-148

UOT 001:17; 159.9:7.02

TƏDQİQAT FƏALİYYƏTİNDƏ TƏNQİD PSİXOLOGİYASI

Əfzələddin Rəhimli
ilahiyyat üzrə fəlsəfə doktoru, dosent
Əl-Mustafa Beynəlxalq Virtual Universiteti
İran İslam Respublikası
rahimli80@mail.ru

Giriş

Təhsilin məqsədi fərdin hərtərəfli inkişafını, istedadlarının kəşfini, müvafiq bacarıqlarının əldə edilməsini təmin etməkdir. Doğru və hədəfyönlü təlim isə bu məqsədə çatmaq üçün əsas

vasitədir. Əgər söhbət inkişafdan gedirsə, bu məqsədə nail olmaq üçün təhsil ilə paralel olaraq tədqiqat sahəsinin önəmini də nəzərdən qaçırmamalıyıq. Təhsil ilə paralel olaraq, araşdırma ruhunun inkişafı, təşviqi və zaman axarında bu sahədə islahatların aparılması xüsusi önəm kəsb edir. Bu sahədə, hərtərəfli düşünülmüş mövcud vahıd konsepsiya, aydın strategiya və konkret proqramın xüsusi diqqətlə icra edilməsi tədqiqat yönümlü təhsilin yüksək nəticələr verəcəyinin qarantıdır.

Heç kimə gizli deyil ki, sivil ölkələrin inkişafında ən aparıcı rol oynayan elmi tədqiqatlardır. Daim inkişafda olan Azərbaycan Respublikasının təhsil sistemi də, təhsillə yanaşı təqdiqat yönümlü olaraq, uğurlu şəkildə bu istiqamətdə qurulmuşdur. Hər bir elmi tədqiqat ölkəmizin inkişafının yeni mərhələsində təhsil siyasətinin əsas istiqamətlərindən bəhrələnərək, bu sahənin inkişafının, keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsini təmin edir.

Amma burada təhsil və tədqiqatdan əlavə, başqa bir mühüm amil də mövcuddur. Diqqət etmək lazımdır ki, təhsil və elmin inkişafı, müvafiq etik və mənəvi dəyərlər olmadan təkbaşına səmərəli olmayacaqdır. Elm və texnologiyanın inkişafının təməli əxlaqi dəyərlərin üzərində möhkəmlənmədikcə, bəşəriyyətin bu sahədə əldə etdiyi bacarıqları inkişaf adlandırmaq sadəlövhlük olardı. Elmi tərəqqinin əxlaqi dəyərlərdən yoxsul olan zahiri yüksəlişi, bəşər övladına hüzur və aramlıq bəxş etməyəcəkdir. Əxlaqi dəyərlər olmadığı zaman maddiyyat insanın mənliyinə çevriləcək, onun ən böyük həyat amalı olacaqdır. Unutmaq olmaz ki, şəxsiyyətin maddiyyat ilə ölçülməsi təhlükəlidir. Ondan da təhlükəli olan isə şəxsiyyətin birbaşa maddiyyatda xülasələşdirilməsidir.

Elm və texnologiyanın gətirdiyi rəqabət, sağlam rəqabət deyilsə, hər kəs finişə doğru qaçacaq və finala ilk çatmaq istəyəcək. Arxada qalanlar onun üçün nəinki əhəmiyyətli olmayacaq, doğrusu, özü öndə, onlar arxada olduğu üçün sevinəcəkdir. Bu, elm və texnologiyanın bəşəriyyətə xidməti demək deyildir.

Əxlaq və mənəviyyat təməlli elm və texnologiya isə insanlığı bir ailə olaraq görür, öz inkişafını dünya cəmiyyətinə xidmət məqsədli tənzimləyir.

Lakin belə təfəkkürə malik olmayan elm və texnologiya, rəqabəti və "ALFA" olmağı hədəfləyir. Bu rəqabət əslində bir növ hücumdur. Kiməsə hücum etmək, əlinə dəyənək götürüb qovalamaq deyil, əslində sözlü, psixoloji və mənəvi təzyiq ən acımasız şiddətdir. Elə burada mənim işarə etmək istədiyim məsələ, düşüncə və ifadə azadlığı altında tənqid mədəniyyətindən uzaq olan, "təhqir psixologiyası"nı araşdırmaqdır. Doğrusu, düşüncə və ifadə azadlığı dedikdə, istədiyimiz şəkildə və etik qaydaları gözardı edərək, vulqar ifadələr ilə insanların şərəf və heysiyyətinə toxunmaq haqqını bizə verirmi? Məhz bunun üçün ilk növbədə azadlığın məna çalarlarına enmək istəyirəm.

İlk növbədə, buna diqqət etmək lazımdır ki, azadlıq məntiq, sağlam düşüncə, mənəviyyat, insan təbiəti və fitrətinə müvafiq çərçivə əsasında nəzərdə alınmalıdır. Belə olmadığı təqdirdə, özünəməxsus fəsadların olması qaçılmazdır. Azadlığın əsas təməlində, insanın onu qeyri-etik təfəkkür və əmələ sövq edən sərhədsiz nəfsan istəklərdən azad olması dayanır. Təkəbbür, lovğalıq, tamah, paxıllıq, xəsislik, bədbinlik, böhtan və sair kimi xislətlərə sahib olan şəxs azad insan sayıla bilməz.

Azadlıq insani keyfiyyətlər üçün nəzərdə tutulub, sərhədsiz və başqalarının mənəvi-maddi hüququna zərər verən "azadlıq", əslində özbaşınalıqdır. Deməli, fiziki azadlığın təməlində ilk növbədə mənəvi azadlıq, etik normalara riayət və vicdan dayanır. Belə olmadığı təqdirdə, yəni azad və pak mənəviyyata sahib olmayan insanın tənqid metodu təhqirə dayanmış olacaqdır.

Elm və qələm əhlinin ən bariz xüsusiyyəti onun bayağı çərçivələrə sığmayan, qalıblaşmayan, diktə olunmayan və kölələşməmiş düşüncə tərzinə sahib olmasıdır. Belə ki, dünyagörüşündə tam azad təfəkkürə malik olmalıdır. Ağlı, məntiqi, elmi və ədəbi ilə həqiqəti araşdırmalı, anlamalı, qəbul etməli və yaymalıdır. Kor-koranə kütlə psixologiyasına uyub addımlamamalıdır.

Tədqiqat sahəsində ən önəmli məsələlərdən biri də sağlam tənqidin formalaşmasıdır. Ziyalı şəxslərin məntiqli formada qarşı tərəfi tənqid etməsi onların heysiyyətinə toxunmadan, etik qaydalara riayət edərək baş tutmalıdır. "Düşüncə və bəyan azadlığı" kimisə və nəyisə təhqir etmək deyil, sözün əsl mənasında müşahidə etdiyi yanlışları qərəzsiz olaraq araşdırmaq, ağıl və ədəb sərhədləri çərçivəsində düzəltmək və onun inkişafına zəmin yaratmaq xarakterli olmalıdır. Təhqirlə tənqidin sərhədlərini qarışdırmaq, azadlıq deyil, əsl mənada özbaşınalıq sayıla bilər.

Başqa bir narahatedici məqam budur ki, bilik sahibinin hansısa bir nüansı tənqid etdiyi zaman, qarşısındakı təfəkkürü, elmi nəzəriyyəni və əsərin çatışmayan cəhətlərini deyil, şəxsiyyəti hədəf almasıdır. Bu yolverilməz və qeyri-etikdir. Məsələlərə verilən reaksiya, şəxsə deyil, məsələnin özünə olmalıdır. Əsəri tənqid ediriksə, hədəf olaraq diqqəti onun müəllifinin şəxsiyyətini deyil, əsərdəki mənfi nöqtələrə yönəlməliyik. Həmçinin, tənqid dağıdıcı yönümlü deyil, islahedici və həll yönümlü olmalıdır.

Yaxşı, bəs nə üçün bəzi insanlar, tənqid yerinə təhqirə əl atırlar? Bunu təhqir psixologiyasını araşdıraraq aydınlaşdıraq.

Təhqirin növləri

Birbaşa sözlə; vulqar və ədəbsiz ifadələrlə qarşı tərəfin şəxsiyyətini hədəf almaq.

Dolayısı yolla; etinasızlıq, karikatur, yumor, atmaca ilə qarşı tərəfi alçaltmaq.

Fiziki olaraq; fiziki kobudluq və şiddətlə təzyiq göstərmək.

Təhqir etməyin psixoloji səbəbləri

1) Cəhalət

İnsan bilmədiyi, anlamadığı hər şeyin düşmənidir. Cəhalət küt bıçaq kimidir. Kəsə bilmədikcə inad edər insan övladı, kəsmək üçün əlləşib-vuruşar. Əsəbiləşər, hansı yolla olursa olsun mübarizəyə qalxar. Özünə təhlükə görər, nifrət edər, təhqir edər. İnsanlar bilmədiyi, anlamadığı hər bir şeyin düşmənidir.

2) Natamamlıq sindromu

Uşaqlığında kontrollu ailədə böyüyənlər, yaxud daim başqaları ilə müqayisə olunanlar, mükəməlliyyətçi valideynə sahib olanlar, əzilənlər, dəyər görməyən şəxslər, daxilən bir boşluğa sahib olarlar.

Əzilmişliyin və natamamlıq hissinin onlara verdiyi narahatlıq hissi, onları başqalarını xor görməyə, bəyənməməyə, eyib axtarmağa, təhqir etməyə sövq edər. İnsanları təhqir etməklə əslində üç yöndə özlərini "sakitləşdirmiş" olarlar:

1) "Təkcə mən natamam və naqis deyiləm. Qarşımdakı bu şəxs də belədir. Yalnız mən təhqir olunmağa layiq deyiləm, bu insan da təhqir olunmağa layiqdir." Bu kimi fikirlərlə, özlərinə ürək-dirək verirlər. (Beck ve ark., 2011: 124; Murdock, 2012)

2) "Mən onu təhqir etdiyim üçün haqlıyam və o məndən daha nöqsanlı və əzilməyə layiqdir." Bunları düşünərək, "deməli, mən dəyərliyəm"-deyə fikirləşir. Bunlar avtomatik olaraq o qədər şüuraltı baş verir ki, insan özü bunların fərqində olmur. Zehnindəki avtomatik düşüncələr, etdiyinin "doğru" olduğunu ona diktə edir. (Savaşır ve Şahin, 1997)

3) Əslində qarşı tərəfi təhqir etməklə, özlərini "cəzalandırırlar". Belə şəxsləri uşaq vaxtı o qədər təhqir ediblər ki, qarşı tərəfdə və onun rəftarlarında öz "səhvlərini" görürlər. Buna görə də, amansızlıqla və təhqirlə onunla mübarizə aparmaqla, bir növ özlərinə qarşı olan "şüuraltı kinlərini" ortaya çıxarmış olurlar. Əsl həqiqətdə, bu şəxslərə onların özlərinin dəyərsiz olduqlarına o qədər inandırıblar, "səhv" etdikləri zaman o qədər alçaldıblar ki, qarşı tərəfdə öz çatışmamazlıqlarını müşahidə etdikləri üçün onu "daşlamaqla", əslində özlərini "daş-qalaq" edərək rahatlayırlar. Bu onların uşaqlıqda ailə bağlarının süstlüyü və bağlanma stilinin qeyri-normal olmasından qaynaqlanır. Amma bütün bu prosesin nədən baş verməsindən özləri də xəbərsizdilər. (Erikson, 1968; Karpel, 1976: 70).

3) Kibir və təhqirolunmuşluq hissi

Bir çox narsistik kişinin aynı zamanda büyük bir yaratıcılık gücüne sahip olması bu mekanizmayla açıklanabilir (Lasch, 2006:92). Narsist və sosiopat xarakterli insanlar, başqalarını təhqir etməyə meyillidirlər. Bu, onların kibir və eqoistliyindən meydana gəlir. Bunun səbəbi, düşüncələrinin insanların tərəfindən qəbul edilmədiyini gördüyü zaman, özünü təhqir olunmuş hiss etdiyi üçündür. (Adler, 1929) O, mahiyyət etibarı ilə, düşüncələrini öz şəxsiyyəti ilə eyniləş-dirmişdir. Buna görə də, düşüncələrinin ziddinə gördüyü hər bir şeyi, şəxsiyyətinə olan hücum kimi qiymətləndirir. Məhz həmin səbəbdəndir ki, qarşı tərəfə aqressiya dolu və alçaldıcı sözlərlə həmlə edir. (Seward, 2007:1)

4) Rəqib görmək

Qarşı tərəf və yaxud hansısa bir nüans, şəxsin mənafelərinə yad olduğu zaman, onu öz çıxarlarına potensial təhlükə gördüyü üçün, istəklərinin önündə duracağını təsəvvür etdiyinə görə təhqirə müraciət edir.

5) Acizlik

Bəzən qarşı tərəflə mübarizə aparmağın çətin olması, şəxsin təhqir və qeyri-etik tənqidlərdən yardım almasına səbəb olur. Bu bir növ acizliyin harayı və etirafıdır. Çünki normal insan məsələləri məntiq və biliklə həll edir, amma düşüncəsini əsaslandırmaqda aciz olan insanlar isə təhqir və şiddətin çıxış yolu olmasını düşünürlər.

İnsan özünün haqsız, ədalətsiz olduğunu qəbul edə bilmədiyi hallarda da, bu hissi təhqir yolu ilə yatırmağa çalışa bilər. Haqsızlığını anlamaq, öz vicdanına eşitdirmək ilə qarşılaşacağından qorxaraq, vəziyyəti ört-basdır etmək üçün təhqirə əl ata bilər. İnsanlar özlərində hiss etdikləri nöqsanları ört-basdır etmək üçün qarşı tərəfi alçaltmağa çalışırlar. Öz nöqsanlarını bilmək onları vəhşətə salır. Çünki həyata baxışları mükəmməlliyyətçidir. (Rice & Mırzadeh, 2000) Buna görə də, hər bir nöqsanı faciə kimi qəbul edirlər. Qarşı tərəfin onlara təqdim etdiyi dürüstlük və kamillik, belə şəxslər üçün qəbuledilməzdir. Səbəb isə onlara öz nöqsanlarını xatırlatmasıdır. Niall Doherty "İnciməməyi öyrənmək" kitabındakı "Təhqirlərlə necə davranmaq olar?" adlı məqaləsində başına gələn bir hadisədə yazır: *"Spirtli içki içmirdim deyə, sevgilim məni "anormal varlıq" adlandırırdı. Çünki özü anormal formada içirdi və əyyaş idi."*

6) Həsəd və paxıllıq

Bəzən insan əldə edə bilmədiyi nemətləri, üstünlükləri başqalarında müşahidə etdiyi zaman, ona çata bilmədiyi üçün təhqirlə özünü rahatlamağa yönəlir. Şəxs, hansısa bir məsələdə qeyri-kafi olduğuna inancından qaynaqlanan hisslərini ortaya qoyaraq və ya kimlərinsə onların fərqinə varmalarından qorxaraq təhqirə əl ata bilər.

7) Vampir xüsusiyyətli insanlar

Belə insanlar üçün bizi nə qədər yaxşı tanıdıqları və haqqımızda bildikləri onlar üçün vacib deyil, onlar sadəcə olaraq digərlərini alçaltmağa və lağa qoymağa meyillidirlər. Çünki bununla özlərini daha yaxşı hiss edirlər. Onları bəsləyən başqalarının ovqatını təlx etmək və digər insanların bədbəxtlikləri ilə özünü xoşbəxt hiss etməkdir. (Olweus, D. 1984)

8) Yalançılar

Söylədiyi bir yalanın üzə çıxmasından narahat olduğu üçünə insan qəzəbi idarə etmə problemi ilə qarşılaşa bilər və vəziyyəti aşmağa və qarşı tərəfi təhqir edərək dominant olmağa çalışa bilər.

9) Qorxaqlar

Kimisə təhqir edən şəxs, çox vaxt bunu etmək üçün hədəf seçərkən, fiziki və ya emosional cəhətdən zəif və ya statusundan aşağı olan birini seçir.

Özündən zəif gördüyü şəxsin müqavimət göstərə bilməyəcəyini düşündüyü üçün özünün qeyri-kafilik hisslərinin açılmayacağına və daha güclü hiss etdiyinə əmin olur. Bu təbiətdə güclülərin zəiflərinə təzyiq psixologiyasının təməlində duran ən sadə, əsas səbəbdir. Bir maral öhdəsindən gələ bilməyəcəyini bildiyi üçün aslana hücum etməz, lakin aslan da marallara hücum etmək üçün onun ən zəif olduğu anı gözləyir. İnsan, başqasını ən zəif vəziyyətdə yaxaladıqda təhqiramiz davranır. Təhqirə cavab verməyin mümkün olmadığına əmin ola biləcəyi bir vəziyyətdə,

təhqir ən güclü formada olur. Maraqlıdır ki, bu vəziyyəti kənardan izləyən bir qrup insan varsa və "qurbanı" müdafiə etməyəcəklərsə, təhqir zorakılığı ən yüksək səviyyələrə çata bilər. (Frank F, 348, 2001)

10) Hiyləgərlər

Bəzi insanlar hiyləgərliklə rəqib gördüyü qarşı tərəfi təhqir edirlər ki, o, emosiyalarını cilovlaya bilməsin və eynilə cavab versin, yaxud fiziki şiddət nümayiş etdirsin. Bir sözlə, qarşı tərəfi təhrik edir ki, çılğınca, radikalca hərəkət etsin və bu yolla onun da əlinə bəhanə düşsün. İnsanlara qarşı tərəfin necə ədəbsiz və aqressiya dolu bir şəxsiyyətə malik olduğunu sübut etmiş olsun. Bu da narsist insanların xüsusiyyətidir. Onların manipulyasiyalarıdır. Sən təhrik olsan, öz hisslərini idarə etməyi itirsən, onu hədəfinə çatdırmış olacaqsan. Belə şəxslərə qarşı, soyuqqanlı şəkildə, müvazinəti itirmədən, onun tələsinə düşmədən cavab vermək lazımdır. Əsəbləşərək, emosional rəftar və sözlə özünü ifadə etmək yanlışdır.

11) Daşlayanlar

Bəzən başqalarını təhqir edən şəxslər, özünün popular olmasını təmin etmək üçün əzəmətli bir şəxsi təhqir edir ki, taninsin. O, xüsusilə də, həmin şəxsin özünün, yaxud onu sevənlərin reaksiya verdikləri zaman hədəfinə çatmış sayılır. Çünki dünənə qədər heç bir yerdə tanınmayan biri, tanınmış şəxsi təhqir edirsə, onun adının bir çox yerlərdə, hətta mənfi şəkildə hallanması belə onu qane edir.

Nəticə

Bütün bunları nəzərdə alaraq, təhqir psixologiyasının necə də mürəkkəb olduğuna diqqət çəkdik.

Təhsildə elmi inkişafla yanaşı, tədqiqat yönümlü kadrlar hazırladığımız zaman, onun yaradıcı münasibətinə diqqət etməklə birgə, etik prinsipiallıq, ideoloji hazırlığı və şəxsi keyfiyyətləri də başlıca meyar olmalıdır. Bu, hərtərəfli inkişafa təkam verən əsaslı amildir. Pedaqoji bacarıqıara sahib olan müəllim tələbəyə etik normaların düzgün aşılanması sahəsindəki fəaliyyətinin nəticəsini qabaqcadan görə bilməli, Vətənə, xalqa yararlı bir ziyalı və alim kimi yetişməsi yönündə onu istiqamətləndirməyi bacarmalı, onda hansı keyfiyyətləri inkişaf etdirməyin lazım olduğunu anlamalıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Adler, A. (1929). The science of living. London: George Allen & Unwin Ltd.
2. Beck, A. And Emery, G. (2011). Anksiyete Bozuklukları Ve Fobiler. Litera Yayıncılık. İstanbul.
3. Erickson, E. H. (1968). Identity, youth, crisis. New York: WW Norton.
4. Frank FUREDI, Korku Kültürü, Risk Almamanın Riskleri (çev. Barış Yıldırım), Ayrıntı Yayınları, İstanbul-2001
5. Lasch, C. (2006) "Narsisizm Kültürü", (Çev. Öztürk, S. ve Yolsal, Ü.H.), Ankara: Bilim ve Sanat Yayınevi.
6. Seward, S.K. (2007) "Are Narcissists Bad For Relationships or are Relationships Bad For Narcissits?: The Effect of Narcissism on Close Relationships", Department of Psychology St. Francis Xavier University Narcissism And Relationships, Canada.
7. Rice, K. G., & Mirzadeh, S. A. (2000). Perfectionism, attachment and adjustment. Journal of Counseling Psychology, 47(2), 238- 250.
8. Olweus, D. (1984) Aggressors and Their Victims: Bullying at School. In N. Frude and Gault (eds) Disruptive Behaviour in Schools, John Wiley.
9. Murdock, N. L. (2012). Psikolojik Danışma Ve Psikoterapi Kuramları. (Çev. Ed.: Akkoyun, F.) Nobel Yayıncılık. Ankara
10. Savaşır, I., ve Şahin, N. H. (1997). Bilişsel-Davranışçı Terapilerde Değerlendirme: Sık Kullanılan Ölçekler. Türk Psikologlar Derneği Yayınları, 9.

UOT 327.51

2022-Cİ İLİN MÜNAQİŞƏLİ MƏZMUNU: RUSİYA-UKRAYNA MÜHARİBƏSİ VƏ ONUN İDEOLOJİ-SIYASİ XARAKTERİ

Esmira Hilal qızı Cəfərova
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
esmira.ceferova@mdu.edu.az

XXI əsrin 20-ci illərinin əvvələrində bütün dünyanı lərzəyə gətirmiş hadisələrdən biri də Rusiya ordusunun "xüsusi hərbi əməliyyat" adı altında Ukraynaya irimiqyaslı hərbi təcavüzü oldu. II Dünya müharibəsindən sonra Avropada və dünyada analoqu olmayan gərginlik yaradan bu hadisə bu gün də davam etməkdədir və onun necə bitəcəyi və hansı nəticələr verəcəyi haqda gündəlik proqnozlar verilir, siyasi təhlillər aparılır [2, s. 197]. Həmçinin, tezliklə hadisələrin miqyasının genişlənərək total hərbi münaqişəyə çevriləcəyi və nüvə müharibəsinin qaçılmaz olacağı haqqında da pessimist fikirlər söylənilir. Lakin hansı proqnozların söylənməsindən asılı olmayaraq, bu gün Ukrayna ərazisində irimiqyaslı hərbi əməliyyatlar gedir, dünya ölkələri isə (bir sıra ölkələr istisna olmaqla) hələ ki, Rusiyanın Ukrayna Respublikasının timsalında suveren dövlətin ərazisinə hərbi təcavüzünü yalnız qınamaqla kifayətlənir. NATO blokuna daxil olan dövlətlər bu və yaxud digər səviyyədə Ukrayna dövlətinə, Ukrayna xalqına və Ukrayna ordusuna dəstək göstərsə də Rusiya ordusu ölkənin infrastrukturuna davamlı raket və dron zərbələri endirməklə Ukraynanı fəlakət zonasına çevirir. ABŞ-ın və AB-nin Rusiyaya qarşı müxtəlif xarakterli və miqyaslı sanksiyalar tətbiq etməsinə baxmayaraq, hərbi əməliyyatları dayandırmaq və münaqişə tərəflərini danışıqlar masasına oturtmaq mümkün olmamışdır. 46-cı ABŞ prezidenti Cozef Robinnet Bayden-Kiçik, vitse-prezident Kamala Deyvi Harris, Dövlət katibi Entoni Con Blinken , Müdafiə naziri Lloyd Ceyms Ostin III, Konqresin Nümayəndələr palatasının spikeri Nensi Patrisiya D·Alesandro Pelosi , Böyük Britaniyanın sabiq Baş naziri Aleksander Boris de Pfeffel Conson (Mühafizəkarlar partiyasının lideri), Polşa prezidenti Anjey Sebastyan Duda , Litva Respublikasının prezidenti Gitanas Nauseda bütün qüvvələrini səfərbər edərək Ukraynanın müdafiəsinə qalxmışlar.

Rusiya ordusunun Ukraynaya tammiqyaslı hərbi müdaxiləsinin ilk günlərindən başlayaraq ABŞ-dan və Avropadan USQ-yə (Ukrayna Silahlı Qüvvələri, укр. Збройні сили України - ЗСУ) müxtəlif silah və sursat, məsələn ABŞ istehsalı olan tank əleyhinə daşınan raket kompleksi Cavelin - FGM-148 (ing. Javelin – "tolazlanan nizə", drot), Stinger-FIM-92 (ing. Stinger – neştər, - ABŞ istehsalı olan daşınan zenit-raket kompleksi) və s. göndərildi və proses bu gün də davam edir. 2022-ci il 7 aprel tarixində ABŞ Senatı, 28 aprel tarixində isə Nümayəndələr palatası Ukrayna ordusuna silah və sursatla yardım göstərilməsi haqqında "Lend-lease" (ing. lend – borc vermək, ing. lease – icarəyə vermək) qanununu yekdilliklə təsdiq etdi. 2022-ci il may ayının 9-da "Lend-lease" haqqında Qanunu ABŞ prezidenti Cosef Bayden də təsdiq etdi (məlumatlara görə, Cozef Bayden "lend-lease" (ing. Lend Lease Act) haqda sənədi (ingiliscə tam adı "An Act to Promote the Defense of the United States" – "Birləşmiş Ştatların müdafiəsinin təmin edilməsi haqqında Qanun") 1941-ci il 11 mart tarixində 32-ci ABŞ prezidenti Franklin Ruzveltin öz müttəfiqlərinə hərbi yardım haqqında imzaladığı qələmlə imzalamışdı [1, s. 55]. Bundan sonra artıq Ukraynaya silah, sursat və digər yardımların çatdırılması işi sürətləndi. USQ-nin sərəncamına yeni-yeni silahlar verildi: "Spike" nəslindən İsrail istehsalı olan tank əleyhinə idarə olunan, yüngül raket NLAW (ing. Next Generation Light Anti-tank Weapon), "Spike" nəslindən İsrail istehsalı Spike NLOS (ing. non-line of sight – hədəfi görmədən birbaşa atış) raketləri, Strayker (ing. Striker – "hücum edən", - ABŞ istehsalı olan tank əleyhinə raket kompleksi), Starstrayk (ing. Starstreak - "Ulduzun izi", High Velocity Missile - NVM - yüksək sürətli raket kompleksi), Haymars M142 (ing. HIMARS M142 - High Mobility Artillery Rocket System - ABŞ istehsalı olan təkərli şassi üzərində yaylım

atəşli reaktiv sistem), "Qarpun" (ing. Harpoon – iri dəniz məməliləirinin ovlanmasında istifadə olunan dişli nizə, - AGM/RGM/UGM-84 – ABŞ istehsalı olan gəmi əleyhinə qanadlı raket).

Qeyd etmək lazımdır ki, Rusiya ilə Ukrayna arasında aktiv münaqişə hələ 2014-cü ildə başlanmışdır. Münaqişəyə səbəb Ukraynanının şərqində yeləşən və əhalisinin böyük qisminin etnik ruslardan ibarət olan Donbass (Ukraynanın Donetsk və Luqansk vilayətləri) bölgəsində separatizm hərəkatının baş qaldırması və separatçıların bölgədə üzdəniraq Donetsk və Luqansk xalq respublikaları elan etməsi, bundan sonra Rusiyanın onlara hərbi-siyasi və ideoloji dəstək verməsi olmuşdu.

Hələ 2013-cü ilin payızında 7 dekabr 2004 – 28 yanvar 2014-cü il tarixlərdə fasilələrlə Ukraynanın Baş naziri Nikolay Yanoviç Azarov Rusiyanın təzyiqini səbəb göstərərək Ukraynanın Avropa Birliyinə daxil olması haqqında əldə olunan razılığın ləğv edilməsini elan etdi. Bu isə dərhal Ukraynada kütləvi etirazlara səbəb oldu. Nəticədə, 2014-cü ilin fevralında Rusiya meylli siyasət yürüdən Ukraynanın 4-cü prezindenti Viktor Fyodoroviç Yanukoviç Rusiyaya qaçdı. 2014-cü ilin yayında Ukrayna ordusu Donbass və Luqansk Xalq Respublikalarına qarşı aktiv hərbi əməliyyatlara başladı. Rusiya ordusu dərhal "xalq respublikaları" tərəfdən münaqişəyə qoşuldu, lakin israrla hərbi əməliyyatlarda iştirakını inkar etməyə başladı. İlovaysk döyüşündə (7 avqust – 3 sentyabr 2014) Ukrayna ordusunun ciddi itkilərə məruz qalmasından sonra 2014-cü il 5 sentyabr tarixində Minsk şəhərində "Prezident-oteldə" "Birinci Minsk razılaşması" imzalandı [4, s. 71-88]. 2014-cü ilin 25 may tarixində Ukraynada prezident seçkiləri keçirildi , bu seçkilərdə Pyotr Alekseeviç Poroşenko qalib gəldi və o, Ukraynanın 5-ci prezidenti oldu. 2015-ci ilin yanvar-fevral aylarında Debaltsevo rayonunda baş vermiş döyüşlərdən sonra 2015-ci il 11-12 fevral tarixində "Normand dördlüyü" çərçivəsində, Almaniya, Fransa, Ukrayna və Rusiya dövlət başçılarının iştirakı ilə keçirilən sammitdə "İkinci Minsk razılaşması" imzalandı [3, s. 7-29]. Bundan sonra Ukrayna Respublikası xarici siyasətində AB-yə və NATO-ya daxil olmağı prioritet məsələ kimi qəbul etdi və bununla bağlı müddəalar 2019-cu ildə ölkə konstitusiyasına daxil edildi. Rusiya isə Ukraynanın NATO-ya daxil olmasına qəti etirazını bildirdi və bunun Rusiya Federasiyasının təhlükəsizliyi üçün təhdid hesab etdiyini açıqladı.

2014-cü il fevral ayının 20-dən mart ayının 20-nədək Rusiya xüsusi xidmət orqanlarının və ordu birləşmələrinin həyata keçirdiyi təcavüzkar hərbi əməliyyat nəticəsində 1954-cü ildən Ukraynanın tərkibində olan Krım yarımadası zəbt olundu. Yeri gəlmişkən, tarixdən məlumdur ki, 1475-ci ildə Krımın sahil rayonları və dağlıq hissəsi Osmanlı imperiyasının tərkibinə daxil edilmişdi. Krım xanlığının nəzarəti altında olan yarımadanın qalan hissəsi 1478-ci ildə Osmanlı imperiyasından vassal asılılığını qəbul etmiş, 1735-1739-cu illərdə baş verən Rusiya-Türkiyə müharibəsində rus ordusu Krımda hərbi ekspansiya siyasəti həyata keçirməyə başlamışdı. 1768-1774-cü illər Rusiya-Türkiyə müharibəsinə son qoymuş 21 iyul 1774-cü il Kiçik-Qaynarcı sülh müqaviləsinə görə isə Osmanlı imperiyası Krıma olan iddialarından əl çəkmişdi. 1779-cu il mart ayının 21-də Rusiya ilə Türkiyə arasında Aynalı-Kavak konvensiyası imzalanış və sözügedən sənədə əsasən Rusiya Krım yarımadasından ordularını geri çəkmişdi. Şahin Gəray Türkiyə tərəfindən Krım xanı kimi tanınmış, 1781-ci ildə isə Şahin Gərayın qardaşları qiyam qaldırdığından, vəziyyətdən istifadə edən Rusiya, yarımadanı istila etmək qərarına gəlmişdi. 1762-1796-cı illərdə Rusiya imperatriçası 1782-ci il 25 dekabr tarixində II Yekaterina (Yekaterina Alekseevna, göbək adı Sofiya Avqusta Frederika von Anhalt-Zerbst-Dornburq, – 2 may 1729 - 17 noyabr 1796,- Rusiya imperatoru I Pyotrun (1721-1725) qızı Anna ilə Karl Fridrix Holşteyn-Hottorplunun izdivacından doğulmuş III Pyotrun həyata yoldaşı) Rusiya hərbi və dövlət xadimi, Qara dəniz donanmasının yaradıcısı və onun birinci Baş komandanı, feldmarşal Potyomkinə Krımı Rusiyaya birləşdirmək haqqında gizli məktub göndərmişdi. 1783-cü il aprelin 19-da II Yekaterina "Krım yarımadasının, Taman adasının və bütün Kuban tərəfinin Rusiya dövlətinin hakimiyyətinə alınması haqqında" manifest imzalamış və tezliklə, sonuncu Krım xanı Şahin Gəray taxt-tacdan imtina etmişdi. 1783-cü il 9 iyul tarixində, Yulian təqvimi ilə II Yekaterinanın taxt-taca sahib olduğu 28

iyun tarixində Qarasubazarda Ağqaya adlı yerdə Potyomkinin iştirakı ilə Krım əyanları Rusiya imperatriçasına sədaqət andı içdilər. 1784-cü ildə isə yarımada Tavrida əyaləti adlandırıldı.

2014-cü il 19 aprel tarixində Rusiya hökuməti Krımın Rusiyaya birləşdirilməsi haqqında manifest qəbul etdi. Bundan sonra Rusiya ilə Ukrayna arasında münasibətlər daha da gərginləşdi. 2019-cu il may ayının 20-dən Ukrayna prezidenti, Ukrayna Silahlı Qüvvələrinin Ali Baş komandanı Vladimir Aleksandroviç Zelenski Ukraynanın Avropaya inteqrasiyası istiqamətində tədbirləri daha da gücləndirdi. Rusiya ilə dialoqun mənasız olduğunu başa düşən Ukrayna hökuməti Rusiya tərəfindən işğal olunmuş Donbassın və Krımın hərbi əməliyyatlar yolu ilə geri qaytarılması variantına üstünlük verməyə başladı. Nəticədə, Ukrayna ordusunun Qərbdə və Türkiyədə istehsal olunan silah, sursat, pilotsuz uçan aparatlar və başqa hərbi avadanlıqlarla təchiz edilməsi işi sürətləndirildi, Ukrayna Silahlı Qüvvələrinin NATO üslubunda yenidən daha dinamik templərlə qurulması davam etdirildi. Bütün 2021-ci il ərzində ABŞ və Böyük Britaniya kəşfiyyatı yaxın vaxtlarda Rusiya ordusunun Ukraynaya hərbi müdaxiləsinin olacağı haqqında məlumatlar verməyə başladılar. Həmin ilin oktyabrında KİV-lərdə də tezliklə Rusiyanın Ukraynaya hərbi müdaxiləsinin mütləq baş verəcəyi haqda xəbərlər dərc olunurdu. Rusiya rəsmi dairələri isə Rusiyanın belə bir niyyətinin olmadığını iddia edirdi. Bununla belə, artıq 2021-ci ilin sonunda Ukrayna sərhədlərində ağır silahlarla təchiz olunmuş 100 min nəfərlik hərbi kontingentin toplaşması müşahidə olunurdu. 2022-ci il fevral ayının 10-da Belorusiyada "Müttəfiq qərarlılığı - 2022" adı altında müştərək Rusiya-Belorusiya hərbi təlimləri başlandı. 16 fevral tarixində isə Donbasda cəbhə xəttində vəziyyət qəflətən gərginləşdi. 2022-ci il 21 fevral tarixində Rusiya prezidenti Vladimir Putin "Donbass Xalq Respublikası"nın və "Luqansk Xalq Respublikası"nın müstəqilliyinin tanınması haqqında qərar imzaladı. Nəhayət, 2022-ci il fevral ayının 24-də səhər, Kiyev vaxtı ilə 5:00-da Rusiya ordusunun hərbi birləşmələri Rusiya, Krım və Belorusiya istiqamətlərindən Ukrayna ərazisinə irimiqyaslı hücuma başladı. Hərbi əməliyyatlara, həmçinin, DXR və LXR-ə məxsus hərbi birləşmələr də qoşuldular. Vladimir Putin 2022-ci il 24 fevral tarixində Rusiya ordusunun "xüsusi hərbi əməliyyat" keçirməsi məqsədi ilə Ukrayna ərazisinə daxil olduğunu rəsmən elan etdi. 2022-ci il fevral ayının 25-də Rusiya ordusunun Ukraynaya hərbi təcavüzünə cavab olaraq Avropa Şurası Rusiyanın bu qurumda üzvlüyünü dayandırdı. Martın 15-də isə Rusiyanın Avropa Şurasından çıxarılması prosesinə start verildi. Martın 16-da Avropa Şurasının Nazirlər Komitəsi Rusiyanın təcili şəkildə Avropa Şurasından çıxarılması haqqında qərar qəbul etdi.

Bu gün (20 noyabr 2022-ci il) 2022-ci il fevralın 24-də başlanmış Rusiya-Ukrayna müharibəsi 270 gündür ki, davam edir. Bu dövrdə Rusiya ordusu 100 minə yaxın əsgərini və zabitini, külli miqdarda hərbi texnikasını itirmiş, 200 mindən artıq hərbiçisi yaralanmışdır. Bu müddətdə Ukrayna Silahlı Qüvvələri isə Baş komandan general Valeri Fyodoroviç Zaluşnının rəhbərliyi altında Çernobıl, Xarkov, Kiyev, Donetsk, Xerson və Zaporojye vilayətlərində rus ordusu tərəfindən işğal olunan əraziləri azad edərək strateji üstünlüyə sahib olmuşdur.

İstifadə edilmiş ədəbiyyat

1. Джонс Р.Х. Ленд-лиз. Дороги в Россию. Военные поставки США для СССР во Второй Мировой войне. 1941-1945. - М.: Центрполиграф, 2015.- С. 55. - 252 с.

2. Snyder, Timothy. The Road to Unfreedom: Russia, Europe, America. - New York:Tim Duggan Books, 2018. - P. 197

3. Stepanova E., Golunov S. Peace processes, violence, and de facto states: introduction // Pathways to Peace and Security. - 2022. - Вып. 1. - С. 7-29

4. Valeriy Morkva. Not a crisis nor civil war, but a foreign aggression: Why did Russia attack Ukraine in 2014? (англ.) // Eskişehir Osmangazi Üniversitesi Sosyal Bilimler Dergisi. - 2022-06-01. - Vol. 23, iss. 1. - pp. 71-88

UOT 94 (479.24)

ROMA İMPERATORU NERONUN 68-Cİ İL YÜRÜŞÜNÜN İSTIQAMƏTİNƏ DAİR (ANTİK ALBANİYANIN NƏZƏRİ PROBLEMLƏRİ KONTEKSTİNDƏ)

Nizami Dilənçi oğlu Zeynalov
tarix üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
nizami.zeynalov@mdu.edu.az

Giriş

Vətən albanşünaslığının ən mürəkkəb problemlərindən biri də Roma imperatoru Neronun "Kaspi keçidi" istiqamətində nəzərdə tutulan yürüşünün istiqaməti məsələsidir. Yarımçıq qalan və baş tutmayan bu yürüş eramızın 68-ci ilində, imperator Neronun (54-68) hakimiyyətinin 14-cü ilində nəzərdə tutulmuşdu. Əslində imperator Neronun Şərq siyasəti I əsrin 60-cı illərinin ortalarından başlanmışdı. Eramızın 54-63-cü illərini əhatə edən və 10 il ərzində davam edən Roma-Parfiya müharibələri Parfiyanın şərq istiqamətində xeyli dərəcədə sıxışdırılması ilə nəticələnmişdi. Məhz bu dövrdən başlayaraq Roma hakim dairələri Şərq istiqamətində əldə etdikləri bu uğurları hər vasitə ilə möhkəmləndirməyə çalışırdılar. Problem antik Albaniya tarixinin bir sıra məsələlərinə aydınlıq gətirmək baxımından böyük aktuallıq kəsb edir.

Problemin mənbəşünaslıq bazası

Problemin mənbəşünaslıq bazasını Roma müəlliflərindən Qay Plini Sekundun (24-79) "Təbii tarix", Publi Korneli Tasitin (50-120) "Tarix", Qay Trankvil Svetoninin (70-122) "İmperatorların həyatı" və Dion Kassinin (155-230) "Roma tarixi" əsərləri təşkil edir. Qeyd edilən antik müəliflər imperator Neronun nəzərdə tutulan bu yürüşü, xüsusilə yürüşün istiqaməti haqqında bəzən bir-biri ilə ziddiyyət təşkil edən müxtəlif məlumatlar vermişlər. Lakin adı çəkilən antik müəlliflərin ziddiyyətli məlumatlarını birləşdirən bir ümumi cəhət vardır ki, bu da nəzərdə tutulan yürüşün "Kaspi keçidi"nə doğru istiqamətlənməsidir. Belə ki, Böyük Plinidə "Kaspi qapıları"na (ad Caspias portas) [Plin, VI, 16, 6], Tasitdə "Kaspi keçidi"nə (ad claustra Caspiarum) [Tac, Hist, I, 6], Svetoni "Kaspi qapıları"na (ad Caspias portas) [Suet, Nero, 19], Dion Kassi "Kaspi qapıları"na (πύλας τὰς Κασπίας) [Dio Cas, LXII, 8, 1] ifadələri işlədilmişdir.

Problemin tarixşünaslığına müxtəsər baxış

Roma imperatoru Neronun eramızın 68-ci ilndə nəzərdə tutulan yürüşü və bu yürüşün istiqaməti barəda istər dünya tarixşünaslığında, istərsə də vətən tarixşünaslığında müxtəlif fikirlər irəli sürülmüşdür. Hələ XX əsrin 20-30-cu illərində bir sıra qərb tədqiqatçıları imperator Neronun nəzərdə tutulan 68-ci il yürüşü ilə bağlı mənbələrdə xatırlanan "Kaspi qapıları" ifadəsini coğrafi baxımdan Xəzər dənizinin şimalında və cənubunda yerləşən keçidlərə aid olması fikrini irəli sürdülər. Alman tədqiqatçısı Verner Şur 1923-cü ildə "Klio" məcmuəsində nəşr olunan əsərində bu yürüşün Xəzər dənizindən cənubda yerləşən və bir çox antik mənbələrdə xatırlanan "Kaspi keçidi"nə aid edilməsi fikrini irəli sürdü [11, s.68-69]. Lakin XX əsrin 30-cu illərində V.Şurun bu fikrini tənqid edən J.Anderson "Kembric qədim tarixi"ndə yerləşdirilən məqaləsində imperator Neronun Şərq siyasətindən bəhs edərkən nəzərdə tutulan yürüşün müasir Dəryal keçidinə aid edilməsi, Tasitin isə öz məlumatında guya albanları alanlarla qarışdırması fikrini ortaya atdı [18, s.777]. Sonrakı dövrlərdə bir çox qərb tədqiqatçıları da J.Andersonun bu fikrinə tərəfdar çıxdılar [16, s.225; 17, s.175-176]. Alman tədqiqatçısı T.Momzen belə bir fikir irəli sürdü ki, Tasitin imperator Neronun Qafqaz Albaniyası istiqamətində nəzərdə tutulan yürüşü ilə əlaqədar işlətdiyi "claustra Caspiarum" anlayışı "Makedoniyalı Aleksandrın əmri ilə dəmir qapılarla bağlanmış" müasir Dəryal keçidinə aid edilməlidir [13, s.356]. Lakin Qərb tədqiqatçıları arasında bu fikrə şübhə ilə yanaşanlar da var idi [6, s.145-146]. Qərb tədqiqatçılarının ardınca problemlə məşğul olan bir sıra sovet alimləri də "Dəryal keçidi" variantına üstünlük verməyə başladılar. Problemə ayrıca elmi

məqalə həsr edən akademik Y.Manandyan isə imperator Neronun nəzərdə tutulan yürüşünün qədim Kolxidadakı keçidlərdən birinə aid edilməsi fikrini irəli sürdü [11, s.74]. Digər sovet tədqiqatçıları Y.S.Qaqloyev, Q.Melikişvili, V.A.Kuznetsov Böyük Plininin məlumatına əsasən imperator Neronun bu yürüşünün Dəryal keçidi istiqamətində alanlara qarşı nəzərdə tutulduğu fikrini müdafiə etdilər [7, s.125; 10, s.345; 12, s.43]. Sonuncular əslində alman tədqiqatçısı T.Momzenin fikrinə tərəfdar çıxaraq Roma tarixçisi Tasitin guya "albanlar" ifadəsini "alanlar"la səhv salması fikrini əsas götürürdülər. Problemlə bağlı rus tədqiqatçılarından A.Şmalko XX əsrin 90-cı illərində tamamilə fərqli bir fikir irəli sürdü. Dion Kassinin məlumatlarındakı bəzi eyhamlara istinad edən müəllif imperatorun nəzərdə tutulan yürüşünün ümumiyyətlə Qafqaz istiqamətində olması fikrini tam istisna edir. Müəllif hesab edir ki, bu yürüş cənub istiqamətində, Efiopiya və Ərəbistan istiqamətində nəzərədə tutulmuşdu və Romanın öz gücünün nümayiş etdirməsi məqsədinə hesablanmışdır [14, s.90-91]. Müasir rus tarixşünaslığında Neronun Şərq yürüşünün Qara dənizin şimal-şərq sahilboyu ərazilərinə və buradan Şimali Qafqaza doğru nəzərdə tutulması fikir də istisna olunmur [15, s.281]. İmperator Neronun nəzərdə tutulan yürüşü ilə bağlı vətən tarixşünaslığında da maraqlı fikirlər ortaya atılmışdır. Vətən tədqiqatçıları imperatorun bu yürüşünün birmənalı olaraq Dərbənd keçidi istiqamətində nəzərdə tutulduğunu irəli sürmüşlər [1, s.158; 2, s.1190; 3, s.27-28; 4, s.180].

Problemin şərhinə yeni yanaşma

Hesab edirik ki, problemin araşdırılması istiqamətində hadisəni daha dolğun əks etdirən Roma müəlliflərindən Tasitin və Svetoninin məlumatlarının diqqətlə araşdırılması açar rolunu oynaya bilər. Bu zaman Tasitin məlumatında imperatorun yürüşünün istiqamətini bilavasitə müəyyən etməyə kömək edən iki əsas ifadənin - "Kaspi keçidi"nə (ad claustra Caspiarum) və "albanlara qarşı" (in Albanos parabat), Svetoninin məlumatında isə keçidə göndərilən Roma legionlarından birinin "Böyük Aleksandrın falanqası adlandırılması" (Magni Alexandri phalanga appellabat) ifadələrinin izahı mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, "claustra Caspiarum" anlayışı yürüşün nəzərdə tutulduğu keçidin möhkəmləndirilmiş və ya bağlı olmasına bir işarədir. Çünki latın dilində "claustrum" sözü "bərkidilmiş və ya bağlanmış keçid" mənasını verir [9, s.193]. Tasitin Kaspi keçidinə münasibətdə işlətdiyi bu ifadə digər antik müəllif - İosif Flavinin məlumatı ilə üst-üstə düşür. Belə ki, Makedoniyalı Aleksnadrın göstərişi ilə dəmir qapılarla bərkidilmiş və ya bağlanmış keçid haqqında ilk və yeganə məlumata alan tayfalarının 72-ci il yürüşü ilə əlaqədar İosif Flavinin məlumatında rast gəlirik [Jos. Flav, Bell. Jud. VII, 244-245]. Burada isə söhbət Xəzər dənizinin cənub-şərqində yerləşən və "Hirkan hökmdarının nəzarətində olan keçid"dən gedir. Antik qaynaqlardan məlumdur ki, Makedoniyalı Aleksandr "Kaspi keçidi" və ya "Kaspi qapıları" adlandırılan məhz bu keçiddən keçərək Orta Asiya istiqamətində hərəkət etmişdir [Arr, Anab, III, 19, 2; 20, 2]. Tasitin və İosif Flavinin Kaspi keçidi haqqındakı bu məlumatları Svetoninin məlumatları ilə tamamlanır. Belə ki, imperator Neronun "Kaspi qapıları"na doğru nəzərədə tutulan yürüşünə hazırlıqdan bəhs edən Svetoni yürüş üçün nəzərdə tutulan legionların "Böyük Aleksandrın falanqası" adlandırıldığını qeyd edir [Suet, Nero,19]. Görünür, təşkil olunacaq legion yuxarıda adı çəkilən keçiddən keçmiş Makedoniyalı Aleksandrın şərəfinə məhz bu cür adlandırılıbmış.

Nəticə

Beləliklə, ehtimal etmək olar ki, Neronun nəzərdə tutulan yürüşü Dərbənd keçidindən və Albaniyanın şərqindən keçməklə, Xəzər dənizinin cənubundakı Kaspi keçidinə nəzarəti ələ almaq kimi, Roma üçün kifayət qədər strateji olan bir planın həyata keçirilməsinə hesablanmışdır. Hesab etmək olar ki, Dərbənd keçidi və Albaniya istiqamətində yürüş təşkil etməklə Roma imperiyası Parfiya ilə mübarizədə öz arxasını möhkəmləndirmək məqsədi güdmüşdür. Görünür, Albaniya ilə Parfiya arasındakı yaxın münasibətlər də Romanı razı salmırdı. Romanın Parfiya və Ermənistana qarşı apardığı mübarizədə ən zəif həlqə məhz Albainya idi. Təsadüfi deyil ki, hələ I əsrin əvvəllərində Parfiya taxtından salınan Romanın düşməni Vonon da sığınacaq üçün Albaniyaya qaçmışdı [Tac, Ann, II, 68]. Digər tərəfdən həm də Xəzər dənizinin cənubundakı keçidə can atan

Roma hakim dairələri güman ki, Xəzər dənizinin cənub-şərqindəki Hirkaniya ölkəsi ilə əlaqə yaratmağa can atmışlar. Məlumdur ki, Roma ilə əlaqələr yaratmağa can atan Hirkaniya hələ bu hadisədən bir qədər əvvəl Domisi Korbulonun yanına müqavilə üçün nümayəndə heyəti göndərmişdi [Tac, Ann, XV, 1]. Deməli, Hirkaniyadakı separatizmi dəstəkləməklə Roma hakim dairələri Parfiyaya qarşı yeni mübarizə ocağı yaratmaqda maraqlı idilər. Beləliklə, imperator Neronun 68-ci ildə hazırlanan yürüşündə həm iqtisadi, həm də hərbi-siyasi maraqlar nəzərdə tutulmuşdur. Belə ki, Xəzərin cənubundakı Kaspi qapılarına doğru can atmaqla Roma imperiyası özünün əsas düşməni Parfiyanı şimaldan və şimal-şərqdən blokadaya almaq, həmçinin Xəzər-Qara dəniz ticarətinə nəzarəti ələ almaq kimi mühüm strateji hədəflərə çatmaq məqsədini qarşısına qoymuşdu.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək) / Z.Bünyadov və Y.Yusifovun redaktəsilə. Bakı: Azərnəşr, 1994, 687 s.

2. Bəkirova E. Eskiçağ kaynaklarında geçen "Caspia via" və "Caspia portae" ibareleri // Akademik Tarih ve Düşünce Dergisi. Elektron jurnal. 2020, cilt 7, sayı 2, s.1183-1194 [https://dergipark.org.tr/tr/pub/atdd/issue/55093]

3. Əliyev K.H., Əliyeva F.K. Azərbaycan antik dövrdə. Bakı: Azərnəşr, 1997, 118 s.

4. Алиев К.Г. Античная Кавказская Албания. Баку: Азернешр, 1992, 238 с.

5. Бартольд В.В. Сведения об Аральском море и низовьях Амударьи с древнейших времен до XVIII в. н.э. Ташкент: Типография Штаба Туркестанского военного округа, 1902, 120 с.

6. Бахрах Б.С. Аланы на западе / Пер. с англ. И.Б.Санакоева. М.: «АРД», 1993, 190 с.

7. Гаглойти Ю.С. Аланы и вопросы этногенеза осетин. Тбилиси: Мецниереба, 1966, 254 с.

8. Гаджиев М.С. О Каспийском походе императора Нерона / Северный Кавказ и мир кочевников в раннем железном веке. Сборник памяти М.П.Абрамовой. М.: «Таус», 2007, с. 498-511

9. Дворецкий И.Х. Латинско-русский словарь. / Издание второе, переработанное и дополненное. М.: Русский язык, 1976, 1096 с.

10. Кузнецов В.А. Очерк истории алан / 2-ое изд. Владикавказ: Ир, 1992, 392 с.

11. Манандян Я.А. Цель и направление подготовлявшегося Нероном Кавказского прохода // Вопросы истории, 1946, № 7, с. 66-74

12. Меликишвили Г.А. К истории древней Грузии. Тбилиси: АН ГрузССР, 1959, 507 с

13. Моммзен Т. История Рима: В 5-и т. Т. 5, М.: Иностранная литература, 1949, 631 с.

14. Шмалько А.В. Восточный поход императора Нерона / Античный мир и археология. Межвузских сборник научных трудов. Вып. 8. Саратв: СГУ, 1990, с. 84-92

15. Ярцев С.В., Зубарев В.Г., Бобин Р.М. Восточный поход Нерона: новое решения старой проблемы / Материалы по археологии и античного и средневекового Причерноморья. Нижневортовск: Изд-во «Киммерия», 2022, с. 273-285

16. Bosworth A.B. Arrian and the Alani // Harvard Studies in Classical Philology, Vol. 81, 1977, pp. 217-255

17. Braund D. Georgia in Antiquity. A history of Colchis and Transcaucasian İberia 550 B.C.-AD 562. Oxford: Clarendon press, 1994, 359 p.

18. The Cambidge ancient history. In twelve volumes. Vol X, The Augustian empire (44 BC-AD 70). Edited by S.A.Cook et all. Cambridge: At the University press, 1934, 1057 p.

Mənbələr

19. Arrian. Anabasis Alexandri / With an English tr. by E.I.Robson. In two volumes. Vol. I, books I-IV. Cambridge: Harvard University press, MCMLIV (1954), 450 p.

20. Dion Cassius. Roman history. With an English tr. by Earnest Cary. In nine volumes. Vol. VII:, books LXI-LXX. London-New York: G.P.Putnam's sons, MCMXXV (1925), 489 p.

21. Josephus. Jewish War. With an English tr. by H.St.J. Thackeray. İn nine volumes. Vol. III, books IV-VII. Cambridge: Harvard University press, MCMLXI (1961), 686 p.
22. Pliny. Natural history. With an English tr. by H.Rackham. In two volumes. Vol. I, books I-IV. Cambridge: Harvard University press, MCMLXI (1961), 664 p.
23. Suetonius. With an English tr. by E.I.Robson. In two volumes. Vol. II, books V-VIII. Cambridge: Harvard University press, MCMLIX (1959), 556 p.
24. Tacitus. The Annals. With an English tr. by John Jackson. In four volumes. Vol. II, books I-III. Cambridge: Harvard University press, MCMLXII (1962), 643 p.
25. Tacitus. The Histories. With an English tr. by John Jackson. In four volumes. Vol. III, books I-III. Cambridge: Harvard University press, MCMLXII (1962), 479 p.
26. Tacitus. The Annals. With an English tr. by John Jackson. In four volumes. Vol. IV, books XIII-XVI. Cambridge: Harvard University press, MCMLXII (1962), 423 p.

UOT 371; 378

GƏLƏCƏYİN ALİ TƏHSİLİ NECƏ OLMALIDIR?

Asim Şəfayət oğlu Məmmədov
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
asim.mammadov@mdu.edu.az

Giriş

Təhsilin bütün forma və pillələri, bütün təhsil müəssisələri cəmiyyətin, dövrün tələbləri istiqamətində formalaşan, fəaliyyət göstərən, təkmilləşən, cəmiyyətin tələbləri istiqamətində ona xidmət edən, fikir və kadrlar istehsal edən sosial institutlar kimi fəaliyyət göstərir. Cəmiyyətdə baş verən köklü dəyişikliklər, yaşanan inqilablar, elm və təhsilin inkişafına olan tələblərin sürətlə dəyişməsi, təhsil müəssisələrinin üzərinə düşən yükü artırmışdır. Təhsil müəssisələrinin bu tələbin qarşılanması istiqamətində fəaliyyətini təkmilləşdirməsi həmişə tələbin qarşılanması üçün kifayət etməyə bilər. Belə olan halda təhsil müəssisələrinin forma etibarilə dəyişiklik göstərməsi qaçınılmaz olmuşdur. Mədrələrin yaranması, daha sonrakı dövrlərdə mədrəsələrin və dini təhsil verən digər qurumların yerinə dünyəvi təhsil verən digər məktəblərin və ali təhsil müəssisəsi kimi universitetlərin alması, cəmiyyətin inkişafının və inkişafın tələb etdiyi ali təhsilli mütəxəssislərin hazırlanmasına olan tələbin nəticəsidir.

Davam edən əsrdə elm və texnologiyanın sürətlə inkişaf etməsi, ali təhsil müəssisələrinin bu inkişafa lazımi faydanı verməsi, hazırladığı ali təhsilli kadrların inkişafla ayaqlaşması və səmərə verməsi istiqamətində tənqidlərin artmasına səbəb olmuşdur.

Ali təhsilin inkişafı və elmdən geri qalması problemi

Hələ 1960-ci illərdə, yəni post-sənaye mərhələsinin ilk dövrlərində, Qərb sosioloqları təşəkkül tapmış ali təhsil sisteminin elmi-texniki tərəqqinin yeni tələblərindən geri qalmağa başladığını təsbit etmişdilər [2, s.296-297]. Elmin və texnologiyanın inkişafı, sənaye inqilabından sonra başlayan mərhələdə sürətlə inkişaf etsə də, yenilənən ali təhsil müəssisələri, yəni universitetlər bu inkişafın bir aparıcısı rolunu oynayırdı. Belə ki, ali təhsil müəssisələrində işləyən alimlər, həmin dövrdə həyata keçirdikləri ixtiralar, kəşflər ilə elmin inkişafının, texnologiyanın inkişafına böyük töhfə verirdilər. Ali təhsilli kadrlar ilə çalışdıqları müəssisələrdə təkcə mövcud olan texnologiyanı öyrənən və onu çalışdıran kadrlar olaraq deyil, ali təhsildə aldıqları yeni bilikləri iş mühitinə tətbiq edən yenilikçi kadrlar olaraq fəaliyyət göstərirdilər.

Bu proseslər, 1960-cı illərə qədər davam etmiş, bu tarixdən etibarən isə ali təhsilin elmdə baş verən inkişafa ayaq uydurmaqda çətinlik çəkməyə başladığı və geri qaldığı ifadə edilməyə başlanmışdır. Bu "geriqalmışlıq" post-sənaye dövrünün sonrakı mərhələlərində, xüsusilə XXI əsrin son on illiyində özünü daha çox büruzə verməyə başlamışdır.

Ali təhsil müəssisələrinin hazırladığı kardların böyük əksəriyyəti, iş tapmaqda çətinlik çəkdikləri kimi, iş həyatına başladıqları zaman, onların işlədikləri müəssisələrinin inkişafına verə biləcəyi töhfənin çox məhdud olduğu da hamıya məlumdur. Müasir dövrdə ali təhsilli kadrların aldıqları ali təhsilin praktik baxımdan səmərəsiz olduğu iki cəhətdən özünü bariz şəkildə göstərir. Birincisi, işə başladıqları müəssisələrdə yeni texnologiyaların tətbiqi, bu gənclərə belə texnologiyalardan istifadə etmək bacarığının aşılanmaması səbəbilə, onların ali təhsil pilləsində öyrəndiklərini əhəmiyyətsiz edir. Ən yaxşı ehtimalda bu kadrlar, mövcud texnologiyalardan istifadə etməyi öyrənirlər və mövcud vəziyyətə adaptasiya olurlar, beləliklə onlar işlədikləri müəssisələrə heç bir yenilik gətirə bilmirlər. İkinci ehtimalda isə, köhnə texnologiyaya əsaslanan məüssisələrdə əmək fəaliyyətinə başlayan bu kadrlar, həmin texnologiyalardan istifadəni öryənirlər və bu texnologiyalardan istifadə etmək onlara müasir texnologiyalardan istifadə etmək bacarığı baxımından heç nə qazandırmır.

Bu durum təkcə texnologiyaya əsaslanan sənaye müəssisələri, kənd təsərrüfatı sahələri üçün deyil, idarəetmə, səhiyyə, təhsil, elm, xidmət, ticarət kimi sahələr üçün də keçərlidir.

Bu gün baxdığımız vaxt görürük ki, təhsil və səhiyyə sektorunda ali təhsil alan kadrların böyük əksəriyyəti, ali təhsil sonrakı işlə təmin olunmaq baxımından çətinlik çəkirlər. Hətta ali təhsili bitirmiş pedaqoji kadrların əksəriyyəti işə qəbul olmaq üçün təşkil olunan imtahanlarda müvəffəqiyyət əldə edə bilmək üçün əlavə hazırlıq kursları keçməyə məcbur olurlar.

Bu və bənzəri problemlər demək olar ki, bütün ölkələr üçün, ali təhsil müəssisələrinin tamamı üçün, ali təhsilin bütün ixtisasları üçün aktualdır. Hər il ali təhsilə dövlət büdcəsindən dünya miqyasında trilyonlarla dollar vəsait ayrılır. Ailələr bu təhsil üçün öz büdcələrinin əhəmiyyətli bir hissəsini ayırmaq məcburiyyətində qalırlar. Bu təhsil pilləri üçün gənclər, 4-6 il kimi geniş bir zaman kəsiyi ayırırlar. Dünya miqyasında milyonlarla insan bu sahədə fəaliyyət göstərir, yeni binalar tikilir, infrastruktur yenilənir, su, elektrik, qaz və s. təbii resurslar sistemə cəlb olunur. Ancaq istehsal olunan kadrlar, cəmiyyətin inkişafına, dövrün tələblərinə cavab verməkdən çox uzaq qalırlar. Təbii resursların sürətlə tükəndiyi bir dövrdə, belə bir ali təhsil modelində israr etmək, bu modeli davam etdirmək nə qədər doğrudur? Bu qədər resursdan, insan qaynaqlarından istifadə etməklə, müasir inkişafa cavab verən daha səmərəli ali təhsil modeli yaratmaq daha doğru olmazmı?

Çıxış yolu nədir? Gələcəyin ali təhsil modeli necə olmalıdır? Bu kimi suallara cavab axtararkən, bəzi insanlar ali təhsildə praktikanın, fundamental təhsillə eyni saata malik olmasını təklif edirlər. Belə ki, ali təhsilin iki ilinin nəzəri biliyin öyrədilməsinə, iki ilinin isə praktikaya ayrılmasının daha düzgün olduğu qeyd edilir. Avropada bəzi dövlətlərdə (məsələn, Almaniyada) ali təhsilin məhz bu formata uyğun təşkil edildiyini qeyd edirlər. Fikrimizcə, bu model, XX əsrdə özünü doğrultmuşdur. Ancaq gələcəkdə bu modelin özünü doğrultması mümkün deyil. Səbəbi ilə səmərəlilik və ali təhsilin, elmin, texnologiyanın inkişafının çox gerisində qalması probleminə çözüm gətirə bilməyəcəyi həqiqətidir.

Çıxış yolu olaraq isə, ali təhsildə, "təhsil, elm və praktikanın konvergensiyası"na əsaslanan yeni ali təhsil modelinə keçilməsidir. Bəlkə bu fikir, bir qədər radikal səslənə bilər, ancaq həmin model həm səmərəlilik, həm də təhsilin elmin gerisində qalmaq və cəmiyyətin inkişafına ayaq uydurmaqda çətinlik çəkmək və ona lazımi faydanı verə bilməmək kimi ciddi problemi aradan qaldırması baxımından yeganə çıxış yolu olaraq görünür. Burada əsas məqamlardan biri, bu üç istiqamətin inteqrasiyasının daha səmərəli ola bilməsi üçün, hansı istiqatin aparıcı olaraq müəyyən edilməsidir. Nəzəri biliklərin aşılanması (təhsil), elm, yoxsa praktika? Hansı? Fikrimizcə, praktika ilə elm-texniki inkişafın mübahisəsiz ən səmərəli şəkildə bütünləşdiyi müəssisələrin, həm öz

ehtiyacları üçün, həmçinin digər müəssisələrin, təşkilatların, dövlətin idarəetmə mexanizmlərinin, təhsil müəssisələrinin tələb etdiyi kadrların hazırlanması üçün seçilməsi və ali təhsilin belə müəssisələrdə həyata keçirilməsi daha məqsədəuyğun olacaqdır. Misal vermək lazım gələrsə, Samsung firması üzərində fikrimizi əyani izah edə bilərik. Bildiyimiz kimi, Samsung firması büdcəsi, Türkiyə dövlətinin büdcəsi də daxil olmaqla, bir sıra dövlətin bütcəsindən böyük olan, dünyanın bir sıra ölkələrində fabrikləri, mağazaları olan transmilli texnologiya şirkətidir. Bir brend olaraq Samsung, insan həyatının demək olar ki, bütün sahələrini əhatə edən texnoloji avadanlıqlar, məhsullar istehsal edir. Həmin məhsullar müntəzəm olaraq təkmilləşdirilməkdə, çeşitləndirilməkdə, həmçinin yeni məhsullar istehsal edilməkdədir. Təkcə 2023-cü ildə firma, innovasiya üçün 230 milyard dollar büdcə ayıracaqdır [1].

Belə bir müəssisənin hər il texnologiya və informasiya sahəsində ali təhsilli kadrların hazırlanması üçün dünyanın bir sıra dövlətlərində fəaliyyət göstərməsi səmərəli nəticələr verə bilər. Çünki belə müəssisələrin həm elmi tədqiqat mərkəzlərində innovativ yeniliklər və təkmilləşdirmələr həyata keçirilməkdə, həm də bu yeniliklər istehsal prosesində sürətlə tətbiq edilməklə yeniliyin insan həyatına daxil olması sürətləndirilməkdədir. Belə müəssisələrdə müvafiq sahələrin ehtiyacı doğrultusunda, dövlət sifarişi ilə kadrların hazırlanması həm maliyyət, həm səmərəlilik baxımından sonra dərəcə faydalı ola bilər.

Nəticə

Qeyd etmək olar ki, ali təhsil dövrün tələbləri istiqamətində formalaşan və təkmilləşən, müvafiq sahənin tələblərinə cavab verən və həmin sahəni inkişaf etdirəcək kadrları hazırlayan pillədir. Belə təhsil əvvəlki dövrlərdə mədrəsələrdə verilmiş, sonrakı dövrlərdə isə cəmiyyətin, elmin və texnologiyanın inkişafına paralel olaraq, bu inkişafı daha sürətləndirməyə töhfə verməsi məqsədilə universitetlərdə həyata keçirilmişdir.

Universitetlər, bir ali təhsil modeli olaraq XX əsrin sonuna qədər öz üzərində düşən missiyanı həyata keçirmək baxımından səmərəli fəaliyyət göstərmişdir. Lakin həmin əsrin ikinci yarısından başlayaraq elmin sürətlə inkişaf etməsi, ali təhsilin elmin inkişafının gerisində qalmasına səbəb olmuş, beləliklə, onun hazırladığı kadrların elmin son nailiyyətləri ilə bağlı bilik səviyyəsi, praktikanın gerisində qalmışdır.

Müasir dövrdə isə elm və texnologiyanın inkişaf sürəti daha yüksəkdir, bu isə təhsilin bu inkişafa ayaq uydurmaqda heç bir şansının qalmadığını, ali təhsilli kadrların cəmiyyətə gedən inkişafa heç bir fayda verə bilməyəcəklərini göstərməkdədir.

Buna görə də yaxın gələcəkdə universitet kimi ali təhsilin aparıcı müəssisəsinin yerinə səmərəli bir model kimi, praktikanın tərkibində elmin və təhsilin bütünləşdiyi ali təhsil modelinə keçilməsi təbii sərvətlərin sürətlə tükəndiyi bir dövrdə resurslardan səmərəli istifadə edilməsi baxımından faydalı olacaqdır. Belə bir modelə keçilməsi o demək deyil ki, bütün ixtisaslar üçün həmin model tətbiq edilməlidir. Fərqli ixtisaslar üçün, ali təhsilin təşkili üçün yeni modellərin tətbiq edilməsi də mümkündür və bunun üçün həmin modellər işlənib hazırlanmasıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Samsung`un yatırımlarına ayırdığı dev bütçesi ortaya çıktı: [Elektron resurs]/ Ağustos 24, 2021. URL: https://shiftdelete.net/samsung-yatirimlarina-ayirdigi-dev-butcesi-ortaya-cikti

2. Vahidov, F.Q., Ağayev, T.B. Sosiologiya. Ali məktəblər üçün dərs vəsaiti / F.Q. Vahidov, T.B. Ağayev - Bakı: Zərdabi, - 2013, - 352 s.

3. Yıldız, Ü.C. Sorun ne sadece yaratılışçılık, ne de sadece eğitim: [Elektron resurs] / Noyabr 11, 2015. URL:https://bilimvegelecek.com.tr/index.php/2015/11/01/sorun-ne-sadece-yaratiliscilik-ne-de-sadece-egitim/

UOT 81:37.016; 37.013

XARİCİ DİL TƏLİMİNİN MƏQSƏDİ VƏ DİDAKTİK PRİNSİPLƏRİ

Mayıl Yolçu oğlu İsmayılov
filologiya üzrə fəlsəfə doktoru, dosent
Əməkdar müəllim
Mingəçevir Dövlət Universiteti
mayıl.ismayilov@mdu.edu.az

XXI əsrdə dil təlimində yeni pedaqoji ideologiya inqilabi vüsət aldı. Xarici dillərin təlimi metodikası və məqsədi yeni mərhələyə qədəm qoydu.

Əgər əvvəllər xarici dillərin tədrisində məqsəd tələffüz qaydalarını, qrammatik modelləri mənimsəməkdən, söz ehtiyatı yaratmaqdan, sadə mətnləri tərcümə etməkdən, yazı vərdişləri formalaşdırmaqdan ibarət idisə, indi məqsəd yenilənmiş, praktiki yön almışdır. Yəni, dil istifadəçisi kommunikativ bacarıq və vərdişlərə malik olmalı, öyrənilən dildə öz fikrini yazılı və şifahi şəkildə sərbəst ifadə etməyi bacarmalıdır.

İkincisi, mədəni məqsəd də az əhəmiyyət daşımır. Belə ki, hər bir kəs dil öyrənərkən həmin xalqın tarixini, mədəniyyətini, ədəbiyyatını, milli-mənəvi dəyərlərini, bir sözlə, həmin xalqın həyatını dərindən öyrənməlidir. Bu da öz növbəsində dil bacarıqlarının formalaşdırılmasında mühüm bir vasitə rolunu oynayır.

Üçüncüsü, təhsil məqsədidir ki, bu, olduqca vacibdir. Belə olan halda, təlimin təhsil məqsədi ilə bağlı belə bir anti-tezis ortaya çıxır: dil təkcə ünsiyyət vasitəsi deyildir, yeni əsrdə dil (əsasən də ingilis dili - *M.İ.*) dünya elm və bilik xəzinəsinin açarıdır. Beləliklə, dil müasir insanın bacarıq və vərdişlərinin, dünyagörüşünün formalaşdırılmasında müstəsna rol oynayır. Bu gün həyatımız dil öyrənməklə limitlənmir. Bu gün dil bəşər tarixinə məxsus dəyərlərin mənimsənilməsinə, insan intellektinin inkişafına açılan qapıdır.

Göründüyü kimi, indi dil öyrənməyin məqsədi təkcə danışmaq, ünsiyyət qurmaqla, həmçinin praktik, mədəni, təhsil məqsədləri ilə bitmir, bəşər tarixinə məxsus dəyərlərin öyrənilməsinə, mənimsənilməsinə və təbliğinə xidmət edir.

Dil təlimində diqqət çəkən digər bir məsələ təlim prinsipləri və təlimin didaktik qanunauyğunluqları ilə bağlıdır.

Son pedaqoji ədəbiyyatda təlim prinsipləri təlimin didaktik qanunauyğunluqları ilə sıx əlaqədə götürülür, ilkin ideyaları və fəaliyyət normalarını özündə ehtiva edən tələblər kimi əsaslandırılır. Yekun olaraq təlim prosesi o zaman müsbət nəticə verir ki, didaktik prinsiplərə əsaslanmış olsun [4].

Qeyd etmək yerinə düşər ki, təhsil və təlim haqqında nəzəriyyə olan didaktika terminini ilk dəfə alman pedaqoqu Volfqanq Rakte (1574-1635) və çex pedaqoqu Yan Amos Komenski (1592-1670) tərəfindən işlədilmişdir. Maraqlıdır ki, Rakteyə görə didaktika . . . elmləri, dilləri öyrətmək məharətidir.

Əlbəttə, təlim prinsipləri zaman-zaman yeni tarixi şəraitə və iş təcrübəsinə uyğun olaraq təzələnmiş, yeni çalarlar kəsb etmişdir. Yuxarıda qeyd edildiyi kimi, ancaq həmişə didaktik qanunauyğunluqlarla, başqa sözlə, təlimin qanunları ilə sıx əlaqədə olması dominant xarakter daşımışdır.

Bütövlükdə götürdükdə, XX əsrin ortalarında təlimin prinsipləri belə təsnif edilirdi: təlimin həyatla əlaqələndirilməsi prinsipi, təlimin təhsilverici, tərbiyəedici və inkişafedici prinsipi, təlimdə elmilik prinsipi, təlimdə sistemlilik və ardıcıllıq prinsipi, təlimdə əyanilik prinsipi, təlimin optimal təşkili prinsipi, təlimdə fərdi yanaşma prinsipi, bilik və bacarıqların möhkəmləndirilməsi prinsipi və s. [5]. Bu prinsiplərin hər biri haqqında ayrıca tədqiqatlar aparılmış, geniş şəkildə bəhs edilmişdir.

Ancaq həyat daim dinamik surətdə inkişafdadır. Təsadüfi deyildir ki, indi müasir təlimin yeddi prinsipi barədə danışan pedaqoqlar onları belə təsnif edilirlər: şəxsiyyətə yönəlmiş təlim prinsipi, fəal idrak prinsipi, inkişafedici təlim prinsipi, "qabaqlayıcı təlim" prinsipi, təlim-tərbiyə sisteminin çevikliyi prinsipi, əməkdaşlıq prinsipi, dialoji təlim prinsipi [6].

Diqqət etsək görərik ki, həm prinsiplərə metodoloji baxımdan, həm də onların ifadə etdikləri fəaliyyət prosesinə tamam başqa yöndən yanaşılır. Kaysendə qeyd edildiyi kimi, ". . .prinsiplərin təsnifatında vahidlik yoxdur: təklif olunan prinsiplərin miqdarı, sistemi və ifadəsində müxtəlif fərqlər özünü göstərir" [5].

Deməli, cəmiyyət inkişaf etdikcə onun tələbləri də dəyişir, əslində təlim prinsipləri mahiyyətcə fəallaşır, yeni biliklər kəşf etməyə yönəlir.

Fikrimizcə, dil təlimində didaktik prinsiplərin əhəmiyyətini azaltmadan xarici dillərin tədrisi prosesi zamanı üç əsas komponenti nəzərdən qaçırmaq olmaz. Birincisi, yuxarıda deyilənlərə rəğmən kommunikativ nitq bacarıq və vərdişlərinin formalaşdırılması. (Təsadüfi deyil ki, bütün son tədqiqatlarda bu komponent əsas şərt və tələb kimi irəli sürülür - *M.İ.*).

İkincisi, məzmunun linqvistik komponentləri olaraq cümlə nümunələri, müxtəlif modellərə əsaslanan dialoqlar, şifahi və yazılı nitq tapşırıqları və s. kimi qrammatika, fonetika və lüğət elementləri;

Üçüncüsü, praktiki hədəflərə çatmaq, nitq bacarıq və vərdişlərinin inkişafını, linqvistik məqsəd və metodları tətbiq etmək üsul və yollarından bəhs edən metodoloji komponentdir.

Hələ, XIX əsrdə didaktik ədəbiyyatda metodikaya – "Metod şagirdlərin düşüncələrini düzgün istiqamətə yönəltmək və müəllimin pedaqoji prosesi təşkil etmək sənətidir" (A.Mehrabov) kimi tərif verilməsi təsadüfi deyildir.

Ədalət naminə son dövrlərdə mexaniki və qeyri mexaniki köməkçi vasitələr: proyektorlar, səs ucaldan apparatlar, kompyuterlər, hər cür texniki vasitələrlə təchiz edilmiş dil laboratoriyaları, həmçinin, smart lövhələr, vizual materiallar, yaddaş kartları və s. dil təlimi prosesində geniş istifadə olunur.

Pedaqoji psixologiyanın banilərindən biri olan L.S.Vıqodskinin nəzəriyyəsinə görə təlim inkişafı qabaqlamalıdır.

Məşhur təhsil tədqiqatçısı Jeremi Harmerin sözləri ilə desək, "Dünyada texnoloji dəyişikliklərin nəfəs almaq qədər sürətli tempindən dil öyrənmədə geri qalmaq dil öyrənmə piramidasının dibində qalmağa bənzəyir" [2, s.175].

Nəticə olaraq qeyd edilməlidir ki, xarici dil təlimində "prinsiplər müəyyən edilərkən idraki, informativ-kommunikativ və yaradıcı fəaliyyətlər, düşüncə, emosional, psixomotor bacarıqların formalaşdırılması əsas götürülür" [1].

İstifadə edilmiş ədəbiyyat

1. Əyyubova N. Xarici dil təliminin təşkili prinsipləri. – "Azərbaycan müəllimi" qəz., 02.11.2012, № 43

2. Harmer Jeremı. The Practice of English lancuage Teaching. Pearson Education Limeted, Edinburgh Gate, Harbow, 2007. 448 p.

3. Миролюбов А.А. Методика обучения иностранным языкам: традиции и современность – Обнинск: 2010. – 464 с.

4. az.m.wikipedia.orq

5. https//kayzen. az

6.https//aztehsil.com»kurikulum»

UOT 81'28; 81'286

TÜRK DİLLƏRİNDƏ ƏVƏZLİK (PROFESSOR MUSA İSLAMOVUN TƏDQİQATLARINDA)

[1,3]Namaz Rizvan oğlu Manafov, [2,3]Maarifə Nuh qızı Manafova
[1]filologiya üzrə fəlsəfə doktoru, dosent
namaz.manafov@mdu.edu.az
[2]filologiya üzrə fəlsəfə doktoru
maarifa.manafova@mdu.edu.az
[3]Mingəçevir Dövlət Universiteti

Ümumtürk dilləri dialekt və şivələrinin müqayisəli tədqiqi dilçilik elminin prioritet sahələrindəndir və bu sahədə türkdilli xalqlarda dəyərli məqalələr, monoqrafiyalar, dissertasiyalar yazılmış, dialektoloji atlas və lüğətlər tərtib edilmişdir [4, s.3].

Mərhum professor Musa İslamovun tədqiqatları da öz sanbalı, dərin elmi məzmunu ilə seçilir, türkologiyada öz dəyərini, qiymətini qoruyub saxlayır.

Musa İslamov Azərbaycan dilinin dialekt materialları əsasında türk dillərində işlənən əvəzliklərin semantik xüsusiyyətlərini açmış, hallanma zamanı meydana çıxan müxtəlif formaların mənşəyini, strukturunu müəyyənləşdirmiş, etimologiyasını izah etmişdir [3].

Tədqiqatçı alim qeyd edir ki, Azərbaycan dili dialekt və şivələrində işlənən əvəzliklər ən qədim nitq hissələrindən biridir və bu əvəzliklərin bir qismi Azərbaycan ədəbi dilində arxaikləşsə də qohum türk dillərində mühafizə olunur.

Əvəzliklərin məna növlərini dərindən araşdıran tədqiqatçı alim əvvəlcə şəxs əvəzliklərinin ədəbi dildən fərqli müxtəlif *(man, men, san, sen)* formalarını qeyd edir, məs.: - *Haburda utuma, menin atasının yurdıdı (Qax); - Men danışan dili sen də danışadsan (Quba*).

M. İslamov *men, sen* formalarının çox qədim olduğunu, onların qədim türk yazılı abidələrində, qədim türk dillərində, o cümlədən, Azərbaycan dilində də işləndiyini göstərir. Hazırda *men, sen* şəxs əvəzlikləri bir sıra türk dillərində - altay, qazax,qaraqalpaq, qırğız, qumuq, noqay, tuva, türkmən, özbək, şor, oyrot və s. dillərdə ədəbi dil norması kimi sabitləşmişdir.

Azərbaycan ədəbi dilində arxaikləşən bu qədim forma dilimizin Qax şivəsində və Quba dialektində saxlanilmişdir və işlənməsinə görə göstərilən türk dilləri ilə uyğun gəlir.

Azərbaycan dilinin Şimal, Şərq və Cənub qrupu dialekt və şıvələrində şəxs əvəzliyi III şəxsın təkində *o, u, ho, hu* formasında müşahidə olunur, məs.: - *U, işi bizə tapşırıbannarı gitdi; Məni çağıran u üzüydu; - U , bu meşədə qaldı (Quba); -Men hona güldən qeyrəz söz dimədi; -Yaxşı, men də hona paltar tikərəm (Qax).*

Tədqiqatçı alim qeyd edir ki, Azərbaycan dili dialektlərində mühafizə olunan *u* əvəzliyi müasir özbək, uyğur dillərində, özbək dilinin şivələrində də işlənir və bu əvəzlik (*u-ul əvəzliyi)* III şəxs təkin daha qədim formasıdır.

Şəxs əvəzliklərinin hallanmasını araşdıran alim dialekt və şivələrimizdə onların özünəməxsus xüsusiyyətlərinin olduğunu qeyd edir və haqlı olaraq göstərir ki, müasir türk dillərinin çoxuna aid xüsusiyyətlər Azərbaycan dilinin dialekt və şivələrində mühafizə olunur.

İşarə əvəzliklərininin tədqiqində Musa İslamov əvvəlcə bu əvəzliyin mənşəyi barədə mövcud fikirləri xatırladır, Azərbaycan dili dialekt və şivələrində işlənən işarə əvəzliyinin ədəbi dillə müqayisədə daha zəngin və çoxvariantlı olduğunu göstərir, məs.: *ho// hu, o// u, holar//honnar, bu//bı//pu, ol, bul//bıl, şu, anarı// anrı, bilə//beylə, habı//habu,həblə,ota,buta, odana// budana ...*

Şivələrimizdə işlənən (adları yuxarıda qeyd olunan) işarə əvəzliklərinin çoxuna qohum türk dillərində bu gün də rast gəlirik.

Türk dillərində, eləcə də müasir Azərbaycan ədəbi dilində əvəzliklərin hər birinin öz konkret mənası var, yaxını və ya uzağı və s. işarə edir. Azərbaycan dilinin dialekt və şivələrində isə bəzi

ışarə əvəzliklərində belə konkretlik yoxdur. Eyni əvəzliyin iki mənada (həm yaxını, həm uzağı göstərmək) işlənməsinə təsadüf edirik, məsələn, *anrı* işarə əvəzliyi ("*ora", "o yana", "o tərəfə"* mənasında*): - Çənbərəkdən anarı, Qaraqoyunnu kəndi var; - Yolun anarı tərəfində... (Gədəbəy).*

Bu əvəzlik *arı* fonetik variantında altay, başqird, balkar, qazax, karaim, qırğız, qumuq, tatar, xakas dillərində də *"o yan", "ora," "o tərəfə"* mənasında işlənir. Bu məna türk dillərində üstünlük təşkil edir. Lakin Azərbaycan dilinin Şimal qrupu dialekt və şivələrində *anri* sözünün "bu yana", "bu tərəfə," "bəri" mənası da var, məs.: -*Otuz dördümcü ildən anrı hamı oldu qalxoz (Şəki).*

Professor M. İslamov işarə əvəzliyi ilə sual əvəzliyi arasında genetik qohumluğun olduğunu Azərbaycan dilinin dialekt materiallari əsasında təsdiq edir, *ha* sözünün həm sual əvəzliyi, həm də işarə əvəzliyi kimi işlənməsini göstərir. İşarə əvəzliyi kimi: - *Sənin bajın deyil ha o(Mehri);- Ha orda bir av vırıllar...gətirif verillər paccaha (Kəlbəcər).*

Sual əvəzliyi kimi*: Ha* həm *nə,* həm də *hansı* sual əvəzlikləri mənasında çıxış edir, məs.: - *Ha tərəfə gedirsən; -Sa görə ha tərəf yaxşıdır?(Şəki).*

Dilçi alim işarə əvəzliklərinin və sual əvəzliklərinin çoxunun mürəkkəb formalar təşkil etdiyini göstərir, məs. "*Bu"* işarə əvəzliyi və "*cığaz"* şəkilçisinin birləşməsi ilə: - *Bucığaz, bujğaz, bıcığaz və s.*;

"*Odur", "budur" işarə əvəzliyinin və "ana"* sözünün birləşməsi ilə: - *odurana, budurana və s.*

(Burada *"ana"* sözü " *o"* işarə əvəzliyi yerində işlənir . Əvəzlik yaratmaq üçün baza olur).

Professor Musa İslamov göstərir ki, dilimizin dialekt və şivələrində qayıdış əvəzliklərinin ən qədim nümunələri mühafizə olunur, məs.: - *men, mağa, sağa.* Bu əvəzliklər şəxs əvəzliklərindən formalaşıb və onların tədqiqi dilimizin tarixi üçün qiymətli materiallar verir.

Dialekt və şivələrimizdə *öz* əvəzliyi ilə yanaşı onun sinonimi olan *kəndi//gəndi* əvəzliyi də işlədilir [1, s.249]. Məsələn, -*Ho yerrər heylə kəndu başinə qalıfdı; Düyna kəndi başına döyi ki, hərə hağlına gələni eləsin (Şəki) [2, s.109]*.

Ümumiyyətlə, *kəndu* ən qədim sözlərdən biridir; o, Orxon-Yenisey abidələrində *küntü*, M.Kaşğarinin məlum lüğətində *kendü* şəklində qeyd edilmişdir. Qədim uyğur dilində *kəntü* şəklində işləndiyi göstərilir [3, s. 159]. Bu söz "Kitabi-Dədə Qorqud" dastanlarının dilində, Nəsiminin (XIV əsr), Füzulinin (XVI əsr), M.P.Vaqifin (XVIII əsr) əsərlərində də işlənmişdir.

Müasir Azərbaycan dilində arxaikləşən kəndi//gəndi əvəzliyi bir çox türk dillərində və eləcə də Azərbaycan dilinin dialekt və şivələrində mühafizə olunur.

Tədqiqatçı göstərir ki, Azərbaycan dilinin dialekt və şivələrində işlənən sual əvəzlikləri ilə qeyri-müəyyən əvəzliklər mənşəcə uyğundur. Sual əvəzliyinin geyri-müəyyən əvəzlik kimi işlənməsi bu fikri bir daha təsdiq edir, məs.: - *Bizimkilərdən kimi xəncəlin götdü, kimi tüfəngin götdü (Zəngilan); - Kimi qurşax deyer, kimi nur* (Gədəbəy).

Musa İslamov bu nəticəyə gəlir ki, inkar əvəzliklərinin böyük bir qismi sual əvəzliklərinin*, bir* miqdar sayının və *heç* inkar ədatının köməyilə yaranıb, məs.: - *Paccahın sualına heş kim cavab verəmmədi (Qazax); - Qavaxcadan heş kim bilmir, başına nə iş qəlcix (Şəki).*

Başqa nitq hissələri əvəzlik vəzifəsində işləndiyi kimi, əvəzlik də başqa nitq hissəsi vəzifəsində işlənə bilir.

Əvəzlik say funksiyasında: - *Eylə üzümü hardan tapeysən?* (Cəbrayıl). Bu misalda *eylə* əvəzliyi " o qədər", "çox" mənasında (say kimi) işlənib.

Əvəzlik isim və sifət funksiyasında: - *Bizdux burda nə var ki, özüz bilərsuz; - Sənniy habırda bir şey olsa, xəvər eliyərıx gələrsən (Şəki).*

Əvəzlik bağlayıcı funksiyasında: - *Haçan ürəyi isdir, hunda gedir(Şəki).*

Əvəzlik ədat funksiyasında: - *Elə mən də siz diyəni diyirəm* (Şəki) [3, s.195].

Beləliklə, çəkinmədən deyə bilərik ki, Musa İslamov türk dillərində əvəzliklərin xüsusiyyətlərini Azərbaycan dilinin dialekt materialları əsasında yüksək elmi-nəzəri şəkildə

ümumiləşdirmişdir. Onun tədqiqatları ümumtürk dilləri dialekt və şivələrinin inteqrasiyası məsələlərinin öyrənilməsinə qiymətli faktlar verir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan dilinin dialektoloji lüğəti", Bakı: "Şərq- Qərb", -2007.- 568 s.
2. İslamov, M. Azərbaycan dilinin Nuxa dialekti, Bakı: AEA nəşriyyatı, - 1968, 274 s.
3. İslamov, M. Türk dillərində əvəzliklər, Bakı: "Elm" nəşriyyatı, -1986, 204 s.
4. Hüseynova, M. "Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası,Bakı: ADPU-nəşriyyatı, -2020, 600 s.

UOT 372.8:811.111

THE ROLE OF MODERN TECHNOLOGIES IN FOREIGN LANGUAGE TEACHING

Mehdi Rahimov
Doctor of Philosophy in Philology, Associate Professor
Mingachevir State University
mehdi.rahimov@mdu.edu.az

The formation of innovative technologies for teaching foreign languages is caused by the need to overcome the crisis in education, which would contribute to the training of specialists of a new formation. The introduction of new technologies is also extremely important due to the fact that the 21st century has different requirements for university graduates than the technocratic society of the 20th century. The learning technology of the last century, based on the logic of science, on the principle of "from knowledge to skills" should turn into a technology based on the laws of students' cognitive activity, orientation in learning, i.e. on the achievement by graduates of the heights of professional, creative and spiritual and moral activity. [1]

Preparing students for life in an ever-changing world is the main goal of innovative technologies in education. With the help of innovations in teaching, the educational process is oriented towards the potential abilities of the student and their implementation. There is a qualitative change in the personality of the student. Development of the ability to motivate actions, independently navigate in the information received, the formation of creative unconventional thinking, the development of children by maximizing their natural abilities, using the latest achievements of science and practice, the main goals of innovation.

A prerequisite for the formation of students' professional competence is the development of communicative competence, which is reflected in state educational standards. Communicative competence provides for the formation of linguistic (linguistic), sociocultural, pragmatic, general educational and compensatory competences.

Modern teaching technologies contribute to the solution of the task. [2] In the practice of teaching foreign languages at the present stage of education, the following technologies are used:

- training in cooperation groups (cooperative learning);
- discussions;
- brain attacks (brain storming);
- role-playing games of a problem orientation;
- situational analysis method (case-study);
- project method;
- "student portfolio" (E-Portfolio);
- Information Technology.

The ability to conduct a discussion, defend one's point of view, supported by arguments, succinctly express one's thoughts, the ability to listen and hear an opponent are important skills necessary for the formation of communicative and socio-cultural competencies.

Computer technology is a unified educational approach based on interdisciplinary content, forms and means of education. The informatization of education comes to the fore, the essence of which is that students have access to a large amount of information presented in databases, computer programs, virtual libraries, and reference literature. Information technologies are widely used in teaching a foreign language. Students find the necessary information for the preparation of topics submitted for independent study in the practical course of the English language. In addition, Internet sites are used to improve various communication skills (listening, reading, writing, speaking), the formation of lexical and grammatical skills, to determine the level of language proficiency according to international standards. [3]

The next process of introducing case technologies within the framework of the module-rating system in teaching English is the method of situational analysis. The method of situational analysis is aimed at developing critical thinking, forming students' interest in the very process of obtaining knowledge in problem situations. The case is built in such a way as to encourage students to cooperate, use modern information and communication technologies.

The case has the following components: introduction, creative task, communication workshop. The effectiveness of the teacher's activity, implementing this method, is associated with the implementation of a number of principles: partnership, cooperation with students; using the latest achievements of pedagogical science and the experience of colleagues; creativity (turning a case into an individually unique creative product), strengthening the role of creative improvisation in the course of learning. [5]

Another pedagogical technology is the "student portfolio", presented in electronic form. There are three types of portfolios: developmental (achievements - developmental), assessments (assessment) and demonstration (showcase). Development portfolios show the dynamics of the development of the relevant knowledge and skills of the student over a certain period of time. The assessment portfolio is an external assessment (slice and final work of the student). Demonstration portfolios are created upon completion of a course of study at the university. They are designed to show the quality of the graduate's preparation, and are intended to be presented to the employer [4].

In our opinion, for the development of students' communicative competence, it is advisable to use complex, integrative use of all the above-mentioned modern technologies and methods in the educational process. Such active teaching methods help to maximally facilitate the process of students' adaptation to the socio-cultural conditions of the country of the language being studied, remove barriers in understanding the behavior of representatives of a new culture. In the course of interactive learning, you can check how well the student speaks the language, knows how to use the studied material, how adequately he can respond to various proposed situations.

References

1. Rumyantseva L.N. A new approach to teaching foreign languages. // Sat. Linguo-didactic problems of teaching foreign languages. - St. Petersburg,
2. Fomina T.N., Zelenova T.G. Innovative technologies for teaching foreign languages in a non-linguistic university. - Yaroslavl, 2005.
3. "Oxford quality", an innovative level educational program in English for a general education school, S.N. Ulasevich, M.: RELOD,
4. Teaching by Principles, Douglas Brown, Longman;
5. The TKT Course, M. Spratt, Cambridge.
6. Internet resources

UOT 811.111

BEYNƏLXALQ KOMMUNİKASİYALARIN YARADILMASINDA XARİCİ DİLLƏRİN ROLU VƏ ƏHƏMİYYƏTİ

Vəfa Eldar qızı Məhərrəmova
filologiya üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
vafa.maharramova@mdu.edu.az

Son illərdə elm və təhsil sahəsində həyata keçirilən beynəlxalq əməkdaşlığın gözlənilən uğurlu nəticələr verməsində və yüksək effektli kommunikativ atmosferin yaradılmasında mühüm rol oynayan məqamlardan biri, bəlkə də birincisi universal ünsiyyət vasitəsi (linqva franka) sayılan dillərin (ingilis, fransız, ispan, rus) öyrənilməsi və davamlı mənimsənilməsidir. Bu baxımdan ingilis dilinin linqvistik təhsil faktoru kimi universallığı daha önəmlidir. Qeyd etmək lazımdır ki, xarici dilin rolu təkcə sağlam kommunikativ atmosferin yaradılması ilə bitmir, o, həm də dilin leksik bazasının möhkəmləndirilməsi, düşüncə (əqli) fəaliyyətinin aktivləşdirilməsi, yaddaşın gücləndirilməsi, analitik-tənqidi təfəkkürün və təxəyyülün inkişafı kimi vacib linqvistik-mədəni və sosial-psixoloji fəzifələri icra edir.

Xarici dillərin fəal şəkildə öyrənilməsi və dərindən mənimsənilməsi beynəlxalq iqtisadi, siyasi, mədəni, elm və təhsil əlaqələrini icra edən insanların ideal dil qabiliyyətini və nitq kompetensiyasını müasir dövrün mədəni ünsiyyət standartları səviyyəsinə qaldırmaqla, onların təmsil etdiyi cəmiyyətlərin və dövlətlərin yüksək pozitiv imicini də formalaşdırır. Digər tərəfdən isə xarici dilin öyrənilməsi davamlı uğur qazanmaq və yüksək professionallıq əldə etmək üçün başlıca meyarlardan biri hesab olunur. "Linqva franka" statusu qazanmış xarici dili akademik səviyyədə bilmək və informasiya-kommunikasiya texnologiya-larından (İKT) professional tərzdə istifadə etməyi bacarmaq müasir informasiya cəmiyyətinin normativ tələblərinə uyğun olmağın göstəricisi və uğurlu karyera qurmağın sadə düsturudur. Beləliklə, bu gün professional kompetensiyanın çox vacib elementi olan xarici dilin yüksək səviyyədə mənimsənilməsi mütəxəssisin həm ölkənin, həm də dünyanın əmək bazarında üstünlük əldə etməsini təmin edir və ona əlavə şanslar və imtiyazlar qazandırır.

Bu gün yüksək templərlə cərəyan edən qlobalizasiya gənclər üçün xarici ölkələrdə təhsil almaq kimi möhtəşəm imkanlar yradır. Dünyaya açılmaq, intellektual və linqvistik imkanlarını reallaşdırmaq hər bir gəncin arzusudur. Bu isə xarici dilin professioanl səviyyədə öyrənilməsini tələb edir. Bununla da xarici dil adi və gündəlik tədris predmetindən müasir təhsil sisteminin baza elementinə çevrilir və şəxsiyyətin professional səviyyədə reallaşmasına nail olmaq istiqamətində vacib vasitə olur [1].

Artıq xarici dilin diletant və ya professional səviyyələrdə öyrənilməsi insan fəaliyyətinin demək olar ki, bütün sahələrinə aiddir. Həmin sahələrdə çalışan tərcüməçilər, xarici dil müəllimləri, alimlər, gid-eksursiyaçılar, həmçinin stüardessalar, taksi və uzaqmənzilli yük maşınlarının sürücüləri, gömrük işçiləri və s. müvafiq xarici dili, xüsusilə də ingilis dilini bu və yaxud digər səviyyədə mənimsəməklə özünün professional kompetensiyasını müəyyən anlamda təmin etmiş olur. Göründüyü kimi xarici dil və onun öyrənilməsi, müasir cəmiyyətin ən vacib həyati elementlərindən birinə çevrilmişdir. Təsadüfi deyildir ki, UNESCO XXI əsri "poliqlotlar əsri" elan etmişdir və bunun məntiqi nəticəsi olaraq müasir dünya linqvistik-mədəni baxımdan açıq olmağa və qarşılıqlı anlaşmaya can atır. Beləliklə, XXI yüzildə varlığın və təfəkkürün yeni əsaslarını linqvistik vasitəçinin iştirakı olmadan müxtəlif mədəniyyətlər arasında birbaşa dialoqun qurulması təşkil edəcək və bu qaçılmazdır.

Bu gün sosial-iqtisadi, ictimai-siyasi və intellektual-mədəni baxımdan durmadan və çox sürətlə inkişaf edən Azərbaycanda insanların, xüsusilə də yetişməkdə olan nəslin dünyagörüşü,

dünyaduyumu, sosial-mədəni idealları, inkişafa və tərəqqiyə münasibəti pozitiv müstəvidə durmadan dəyişir. Elmi-texniki tərəqqinin və "Dördüncü sənaye inqilabının" təsiri altında ölkələr, millətlər və sivilizasiyalar arasında zaman və məkan məhdudiyyətləri aradan qaldırılır. Bu isə müxtəlif dillərdə danışan insanların ünsiyyətini və qlobal dil məkanında onların davamlı orientasiyasını zəruri və vacib edir, dilin yüksək konnunikativ-yaradıcı və fəal-inteqrativ gücünə marağı və inamı artırır.

Müasir informasiya cəmiyyətinin mühüm cəhətlərindən biri sayılan nitq (dil) kompetensiyasının formalaşdırılması və onunla bağlı problemlər daim müxtəlif xarakterli təlimlərin və konsepsiyaların diqqət mərkəzindədir. Çünki informasiya-kommunikasiya prosesində əsas əqli-intellektual yük məhz dilin (nitqin) üzərinə düşür. Qeyd etmək lazımdır ki, mədəniyyətlərin dialoqu məsələsində linqvistuk kompetensiyanın rolu ilə bağlı müasir sosial fəlsəfədə aşağıda qeyd olunan çoxlu sayda müddəalar irəli sürülmüşdür: insanları birləşdirən kollektivçiliyin və etik-mənəvi tənzimləmənin olmadığı situasiyada dillərin etnik identifikasiyanı müəyyən edən amil kimi çıxış etməsi; dilin dialoqa, anlaşmaya və sosial-mədəni amillərə əsaslanaraq kommunikasiyaların stabilliyini təmin edən komponent kimi çıxış etməsi; dilin aktual hadisə kimi "mənin" və "başqasının" dioloji və emosional-ruhlandırıcı ünsiyyəti zamanı yeganə vasitəçi manqa kimi çıxış etməsi; intersubyektiv təcrübənin xüsusi ifadə forması olan linqvistik reallığın insanların həyatına daha aktiv nüfuz etməsi və kommunikativ davranışın yeni tipini (qarşılıqlı əlaqələr, insan davranışının yeni koordinasiya formaları, idarəçiliyin yeni mexanizmləri və s.) ərsəyə gətirməsi [5]. Beləliklə, müasir cəmiyyətdə çoxqütblü mədəniyyətlərarası kommunikasiya fövqəladə aktuallıq kəsb edir. Bu özünü müxtəlif xarakterli beynəlxalq konfransların, simpoziumların iştirakçıları olan şəxslərin ünsiyyətində ifadə edir. Bu baxımdan universitet rəhbərlərinin, elm və təhsil sahəsində çalışan və müxtəlif sahələri təmsil edən mütəxəssislərin və tələbələrin beynəlxalq tədbirlərdə iştirakı xüsusi əhəmiyyət kəsb edir. Sözügedən tədbirlərdə aparıcı rol beynəlxalq kimmunikasiyalarda başlıca ünsiyyət vasitəsi sayılan ingilis dilinə verilir və bu təsadüfi deyil. Statistik rəqəmlər bununla əlaqədar müvafiq arqumentləri bir daha təsdiq edir. Beləki planetdə 600 milyon insan üçün ingilis dili ikinci rəsmi dil və yaxud yaxşı bildiyi xarici dil hesab olunur. Bu gün Yer kürəsində yaşayan əhalinin 1 mld nəfəri, yəni 20 %-i məhz ingilis dilində danışır. Beynəlxalq yazışmaların (məktublar, elektron poçtlar, telekslər və s.) 75 %-i, İnternetdə təqdim olunan informasiyanın isə 90%-i ingilis dilində tərtib olunur. Reklamların yaradılmasında aktiv istifadə olunan dil də ingilis dilidir. İngilis dilinin iştirakı ilə tərtib edilən reklamlar prestiji, yüksək dəyəri, məzmunluluğu və cazibədarlığı ilə seçilir [6]. Hətta belə bir məşhur deyim var ki, "*ingilis dilinin öyrənilməsi biznes üçün, fransız dilinin öyrənilməsi dostluq və məhəbbət üçün, alman dilinin öyrənilməsi isə müharibə üçün lazımdır*".

Aparılan tədqiqatlar sübut edir ki, müxtəlif dilləri yaxşı bilən insanlar başqa cür düşünür, onların intellekt koefisienti, erudisiyası, nitq qabiliyyəti, diksiyası, analitik təfəkkürü və məntiqi düşüncəsi çox yüksək səviyyədə olur. Belə insanlar həmişə hazırcavab və yaradıcı düşüncəyə meylli olurlar. Bütün bu məqamları nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, xarici dillərin incəliklərini dərindən mənimsədikcə insan ətraf mühitdə baş verən proseslərin özəlliklərini də daha aydın dərk edir və onun ən gizli detallarını belə fiksasiya etməyə başlayır.

Müasir dövrdə ingilis dilinin fövqəladə populyarlığı aşağıda göstərilən əsas faktorların *sinergetik* (q.yun. *συν* - müştərək, *ἔργον* - fəaliyyət, - "sinergetik effekt" iki və daha çox amilin qarşılıqlı əlaqəsini gücləndirən elementdir) effektindən irəli gələn səbəblərlə bağlıdır: Böyük Britaniyanın dünyanın hər yerində çoxlu sayda koloniyalarının olması; ABŞ, Avstraliya, Kanada və s. kimi qüdrətli dövlərlərin dövlət dili kimi ingilis dilini seçməsi; müxtəlif ölkələrdə (Filippin, Malyaziya, İndoneziya, Hon Konq, Tayvan) milli intellektual elitanın ingilis dilinin öyrənilməsinə üstünlük verməsi; nüfuzlu beynəlxalq təşkilatıarın (BMT, UNESCO və s.) rəsmi dil kimi ingilis dilini seçməsi; ingilislərin orta əsrlər, yeni dövr və müasir dövr tarixi ərzində "superetnos" statusunu qoruyub saxlaması; ingilisdilli ölkələrin (B. Britaniya, ABŞ, Avstraliya, Kanada və s.)

qlobal siyasətdə və geosiyasətdə avanqard rolu oynaması; İnternet vasitəsilə ingilis dilinin çox sürətlə yayılması və s. Bununla əlaqədar tədqiqatçılar iddia edirlər ki, XXI əsr ərzində dünyada "Beynəlxalq ingilis dili" adlı yeni linqvistik fenomen meydana gələcək və o, özündə ingilis dilinin bütün milli variantlarının spesifik cizgilərini ifadə edəcəkdir. İngilis dilindən KİV-lərdə, reklam və kinoindustriyasında, populyar musiqidə, turizm sahəsində, beynəlxalq biznesdə və beynəlxalq təhlükəsizlik sistemində (unifikasiya edilmiş dil sistemləri - *Seaspeak, EmergencySpeak, Airspeak* və s.), həmçinin beynəlxalq bank sistemində (ing. SWIFT - *Sosiety for Worldwide Interbank Telecommunications* - Beynəlxalq banklararası maliyyə əlaqələrinin ötürülməsi sistemi) geniş istifadə edilməsi yaxın gələcəkdə bu iddiaların mütləq reallaşacağından xəbər verir [2].

İngilis dilinin beynəlxalq miqyasda universal ünsiyyət vasitəsi statusunu qazanması həm də onun qrammatik quruluşunun sadəliyi və geniş *vokabulyarının* (lat. *vocabulum* - söz toplumu, lüğət) olması ilə bağlıdır. İngilis dilində uzun ifadələr və mürəkkəb ritorik cümlələr yoxdur. Bu dil "lirik poeziyanın və qəzet başlıqlarının dili" kimi xarakterizə olunur və bütün bunlar ondan istifadəni asanlaşdırır [4].

Bu gün "spesifik həyata ukladının hökm sürdüyü cəmiyyətdə xarici dilləri bilmək, sözün əsl mənasında insanların taleyini müəyyən edir, hətta onları xilas edir. Bəs xarici dilin dəyəri nədədir? Xarici dili mükəmməl səviyyədə bilmək bizə nə verir? İlk növbədə karyera qurmaq. Daha sonra xarici ölkələrlə, başqa xalqların və mədəniyyətlərin mənsubları ilə hər hansı kompleks olmadan sərbəst və effektli ünsiyyət qurmaq bacarığı, həmçinin elmi və intellektual bacarıqların artırılması, əcnəbi dillərdə yazılmış elmi, ədəbi və bədii əsərlərin orijinal variantda mənimsənilməsi, xarici texniki avadanlıqlarla adekvat şəkildə davranmaq və yeni kompüter proqramlarını öyrənmək imkanlarının əldə edilməsi [3].

Yuxarıda qeyd edilənləri ümumiləşdirərək xarici dillərin müasir şəxsiyyətə necə vacib və gərəkli fayda verməsini aşağıdakı kimi təsnif etmək olar:

- özünə inamın artması;
- dünyaya mədəni-linqvistik "pəncərə" açmaq qabiliyyətinin artırılması;
- iş tapmaq imkanlarının genişləndirilməsi;
- xarici ölkələrdə konfortla səyahət etmək imkanlarının əldə edilməsi;
- başqa mədəniyyətləri öyrənmək üçün imkanların qazanılması;
- başqalarına linqvistik cəhətdən yardım göstərmək bacarığının təkmilləşdirilməsi;
- düzgün oxumaq və yazmaq qabiləyyinin formalaşdırılması;
- intellektual səviyyənin yüksəlməsi.

Bu məqalmar müasir intellektualın ideal simasını formalaşdıran vacib komponentlərdir və onlar müasir cəmiyyətdə şəxsiyyətin pozitiv məzmununu, onun dünyagörüşünü və mahiyyətini müəyyən edir.

İstifadə edilmiş ədəbiyyat

1. Войтович И.К Иностранные языки в контексте непрерывного образования: монография / под ред. Т.И.Зелениной. – Ижевск: Изд-во «Удмуртский университет», 2012. С. 7

2. Карасёв С.А. Глобализация английского языка и новые задачи методики его преподавания // Язык и межкультурная коммуникация. Материалы межвузовской научно-практической конференции. - Ростов-на-Дону: изд-во ИУБиП, 2005. - 148 с. - С. 80-81

3. Колесник А,А, Актуальность владения иностранным языком в современном мире / А.А. Колесник, С.А. Волкова. - Москва, Молодой ученый. - 2017. - С. 562-544

4. Колесов В. Язык и ментальность // Top-Manager. 2004. № 11. - С. 32

5. Савруцкая Е.П. Проблема коммуникации в немецкой философии XX века (Ю. Хабермас, Н. Луман, К. Апель) // Вестник Нижегородского университета им. Н.И. Лобачевского, 2010, 3(1). - С. - 364-368

6. Tormosheva, V. Intercultural and International Communication in a Business Context // Международный научно-практический (электронный) журнал InterCultur@l-Net, ВФ НГЛУ, 2009. - С. 15

UOT 81:37.016

XARİCİ DİLLƏRİN TƏDRİSİNİN PROBLEMLƏRİ

Zenfira Mirsəfər qızı Əzizova
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
zenfira.azizova@mdu.edu.az

Dünya təhsil tarixində olduğu kimi Azərbaycan təhsilində də məktəblər həmişə humanist bir missiya daşımışdır. Məktəblər insanı formalaşdırmaq, inkişaf etdirmək, gələcəyə hazırlamaq kimi müqəddəs bir vəzifəyə qulluq etmişdir. "Zaman-zaman cəmiyyətin və insanların ehtiyacları dəyişdikcə məktəblərə olan tələblər də yeniləşmiş, başqa mahiyyət kəsb etmişdir. Uzun illər ərzində hafizə məktəbi insanların xidmətində olmuş və onların inkişafına xidmət etmişdir. Yaddaş məktəbinin mahiyyətində akademik biliklər vermək, şagirdləri öyrəndiklərinin həcminə görə dəyərləndirib qiymətləndirmək üstün yer tutmuşdur [2, s.8].

Bu gün artıq sosial mühit, ətraf aləm dəyişmiş, insanların düşüncə, idrak bacarıqlarına, yaradıcılıq qabiliyyətlərinə böyük ehtiyaclar yaranmışdır. Bütün şagirdlərin məntiqi, tənqidi, yaradıcı təfəkkürünün formalaşdırılması və inkişafı məsələsi ümumtəhsil məktəblərinin əsas və vacib vəzifəsinə çevrilmişdir. Problemin tədqiqi zamanı məlum olub aşkara çıxdı ki, təlim prosesinin daha səmərəli təşkil edilməsi və onun gedişini dəyişmə halları, və xüsusən də, kommunikativlik prinsiplərindən istifadə hələ XVIII əsrdə "Qarşılıqlı təlim sistemi"nin yaradıcıları keşiş E.Bell və müəllim C.Lankaster tərəfindən yaradılmışdır. Yaradılan sistemin əsas mahiyyəti ondan ibarət idi ki, müxtəlifyaşlı uşaqlardan ibarət qruplarda yaşca daha böyük və müvəffəqiyyətlə, əla oxuyan uşaqlar müəllimlərin göstərişlərinə uyğun şəkildə kiçik yaşlı uşaqları öyrətmişlər [1, s.213].

İndiki dövrdə dünyamızda doğma dili ingilis dili olan ölkələr sayına görə siyahıda ön sıralardadır. Dünyadakı demək olar bütün qəzetlərin yarısı ingilis dilində çap olunur. Dünya üzrə ölkələrarası aparılan yazışmaların 70 %-dən çoxu ingilis dilindədir. İngilis dilinin belə geniş yayılması ölkəmizdə məktəblərdə və digər tədris mərkəzlərində ingilis dilinin keçirilməsinə xüsusi diqqət və qayğı tələb edir. Ancaq çox təəssüf ki, şagirdlərin qısa və səmərəli şəkildə ingilis dili öyrənə bilmə imkanları olduğu halda, onlar buna daha çox vaxt sərf etməli olurlar. Qeyd edək ki, orta məktəblərdə ingilis dilinin tədrisi təxminən 11 il davam edir və bu 11 ilin sonunda yenə də istənilən nəticə əldə olunmursa, o zaman nəticəni daha da qeyri qənaətbəxş hesab etmək olar. Məktəbi bitirdikdən sonra şagirdlər təhsil ocağını həmişəlik tərk edir və aktiv həyata qatılırlar. Təhsil aldıqları bu illərdə xarici dilin əsas tərbiyəvi məqsədi, şagirddə vətəndaşlıq anlayışı və yaradıcılıq vərdiş və bacarıqlarının inkişaf etdirilməsi, tolerantlıq, şəxsi və ictimai cavabdehlik, müstəqillik, özünü inkişaf və tənqidi təhlil, özünü ifadə keyfiyyətlərinin yaradılmasıdır. Təhsil aldığı məktəbin qarşısında duran ən mühüm vəzifələrdən biri də şagirdləri baza biliyi ilə təmin etmək, ona müasir həyatda özünə yol tapa bilmək üçün imkan yarada bilməkdir [2, s.65].

Hər hansı bir dili öyrənib mənimsəmək üçün ilk növbədə onu hiss etmək lazımdır. Bir dildə həmin dilin daşıyıcısı kimi danışa bilmək üçün o dili tədris edən orijinal kitablardan öyrənmək daha uyğun olar. Başqa sözlə ifadə etsək, xarici dilə yiyələnə bilmək üçün həmin xalqın, ölkənin ünsiyyət tərzləri ilə tanış olunmalı, dil mədəniyyətini dərindən araşdırmaq lazımdır. Çünki birinci növbədə

dilə qarşı maraq yaranmalı sonra öyrənmək üçün metodlar seçilməlidir. Əsasən xarici dillərin öyrənilməsi fərqli mədəniyyətlərə malik xalqlar arasında sıx əlaqə yaratmaqdadır. Yuxarıda dediklərimizə əsasən müəyyən etmək olar ki, xarici dillərin öyrənməsi ilə fərqli mədəniyyətlər arasında ünsiyyət əlaqəsi vardır. Əksər xarici dilin öyrədilməsi fərqli mədəniyyətlərin uzlaşması, mədəniyyətlərarası ünsiyyət vərdişlərinin formasını göstərən mühit kimi göstərilə bilər. Əcnəbi dildə mənimsənilən bir çox yeni söz və ya yeni anlayış müxtəlif yaxud fərqli bir mədəniyyəti ifadə etməyə əsas yaradır. Təsadüfən aqillər deməyib ki, hər bir söz, ifadə və anlayış milli şüura əsaslanır. Müasir dövrdə ümumtəhsil məktəblərində keçirilən xarici dil tədrisi yeni metod və metodologiyaların tətbiqini tələb edir. Dünya ölkələri ilə siyasi, iqtisadi, mədəni sahədə qarşılıqlı əlaqələr, dövlətlər, millətlər və dillər arasında olan münasibətlər ünsiyyət prosesində yeni mərhələlər açır. Bu da xarici dilin tədrisində qarşıya yeni nəzəri və praktik problemlərin qoyulmasını və həll yollarının tapılmasını tələb edir. Xarici dili tam real ünsiyyət vasitəsi kimi tədris edib öyrətmək lazımdır. Tədris prosesində təbii situasiyalar quraraq, xarici dildə diskusiyalar apararaq real ünsiyyət şəraiti yaratmaq ən önəmli ünsürlərdən biridir. Dil öyrənmək tək verbal yəni şifahi faktorlardan asılı deyil, çünki ünsiyyətdə effektivlik yaratmaqda kommunikativ sərişdə, etiket qaydaları və digər qeyri-verbal faktorlar da mühüm rol oynayır. Xarici dildə istifadə olunan sözlərin mənası və qrammatik qaydaları bilməklə dil baryerini keçmək müxtəlif mədəniyyətlərin nümayəndələri ilə ünsiyyət qura bilmək üçün kifayət etmir. Bunun üçün öyrənilən dilin aid olduğu dünyanı dərindən tədqiq edərək mədəni baryeri yəni maneəni də aşmaq çox vacibdir.

Fərqli mədəniyyətlərə aid bəzi millispesifik komponentlər mədəniyyətlər arasında ünsiyyət qurmaqda çətinliklər yaradır. Öyrənilən dilin aid olduğu mədəniyyəti bilmədən dili ünsiyyət vasitəsi kimi öyrənmək qeyri mümkün olar. Kommunikativ sərişdəliyin səmərəliyini artırmaq üçün dil daşıyıcısının mədəni aləminə daxil olaraq onun həyat tərzi, mentaliteti, adət-ənənələri, milli spesifik xüsusiyyətlərini araşdırmaq və təbii ki, öyrənmək lazımdır. Xarici dil kimi sırf ingilis dilinin tədrisindən bəhs etdikdə ingilis dilinin zənginliyi və rəngarəngliyi ilə yanaşı İngiltərənin tarixi, ədəbiyyatı, musiqisi, milli mətbəxi kimi mədəni dəyərlərdə diqqət mərkəzinə gəlir. İngilis xalqının mədəni xüsusiyyətlərini, milli mentalitetini və həyat tərzini araşdırmadan ingilis dilini qrammatik konstruksiyalar üzərində tədris etmək dərs prosesində yüksək nəticə əldə etməkdə çətinliklər törədir.

Xarici dili öyrənmək ikinci bir mədəniyyəti yiyələnib, mənimsəməkdir. Bu fərqli mədəniyyətə aid olan ünsürləri müəyyən etmək və mədəni fərqləri analiz etmək, araşdırıb tapmaq üçün müxtəlif metod və metodologiyalardan istifdə olunur. Bunun nəticəsində hansı mədəni dəyərlər və hansı davranışlar əsas prioritet hesab olunursa, həmin faktorlar tədris prosesində daha da geniş təhlil edilir. Düşüncə tərzi, mədəniyyət və dil arasında olan əlaqə, mədəni fərqlər və oxşarlıqların araşdırılması və onların tədris prosesində təhlili xarici dilin daha mükəmməl, effektiv formada öyrənilməsinə şərait yaradır.İstər ingilis dili, istərsə də digər bir dili öyrənərkən seçilən dərslik, vəsait və həmin dərsliklərin əsaslandığı mənbənin diqqətlə seçilməsi çox vacibdir.

Təəssüf hissi ilə deməliyik ki, məktəblərimizdə indiki dövrdə ingilis dilinin tədrisi üçün istifadə olunan bütün dərsliklər bu xarici dili öyrənmək üçün ilkin baryer rolunu oynayır. Danılmaz həqiqətdir, çoxlarımız ingilis dilini bu baryer kimi gördüyümüz dərsliklərdən öyrənmişik və yenə də öyrənmək olar, lakin mütəxəssislərimizin araşdırmaları sübut edir ki, həmin bu sözü gedən dərsliklər orijinal mənbələrə əsaslanmır və dərsliklərdə verilən materialların tərcümə metodu əsasında hazırlanması, öyrənilən dilin çalarlarını, dolğunluğunu tam formada əks etdirə bilmir. Təkcə tapşırıq, söz bazası, qrammatika və mətnlərin üzərində qurulmuş bu dərsliklər xarici dilin öyrənilməsinin nizamını, ahəngini pozur. Məktəbdə istifadə olunan dərsliklərdən fərqli olaraq, bəzi müəllimlər orijinal mənbələrə əsaslanan tədris vasitələrinə müraciət edirlər. Ancaq təkcə mənbənin uğurlu seçilməsi kifayət deyil. Təəssüf ki, burada yaxşı bir tədris proqramının yaradılması faktoru yaddan çıxır ya da unudulur, hansı ki, o da öz növbəsində xarici dili öyrənmək və davamlılığı təmin etmək üçün əhəmiyyətli vasitələrdən biridir. Seçilən dərsliklə tədris proqramının uyğunsuzluğu, üst-üstə düşməməsi, proqram tərtibatı və yaş kateqoriyası nəzərə alınmadıqda isə heç bir effektiv

öyrənmədən söhbət gedə bilməz [2, s.58]. Hər hansı bir xarici dili "bilirəm" demək, həmin dilin 4 dil bacarığına (oxu, yazı, dinləmə, danışıq) yiyələnmək, o dildə həm şifahi, həm də yazılı formada çəkinmədən ünsiyyət yarada bilmək deməkdir. Çox təəssüf ki, bu an çox vaxt diqqətdən kənarda qaldığı üçün, məktəblilər 11 ilin axırında təkcə söz bazasına və qrammatik biliklərə yiyələnərək məzun olub məktəbi bitirirlər. Lakin, onlar oxuduqlarını və dinlədiklərini tərcümə etmədən anında başa düşməli, yazmalı olduqları inşalarda, həmçinin qurduqları şifahi ünsiyyət vaxtı düşüncələrini ifadə edə bilməlidirlər. Bu dil bacarıqlarının hər biri şagirdlərdə eyni səviyyədə inkişaf etdirilməlidir [3, s.82].

Xaricə inteqrasiya üçün xarici dil biliyinin olmasının vacibliyini şagirdin başa düşəcəyi şəkildə anlatmalıdır. Xarici dil biliyimizin olması bizə dünyaya açılan bir pəncərədir. Nəqliyyat vasitələri ilə biz dünyanın istənilən yerinə səyahət edə bilərik lakin, biz getdiyimiz ölkənin dilini bilməsək orada gözəl və yadda qalan vaxt keçirə bilməyəcəyik, yeni nələrsə öyrənmə imkanını itirəcəyik. Təhsilin məzmununa gəlincə, müəllim başa düşməlidir və başa salmadır ki, xarici dilin öyrədilməsində dərslik bir vasitədir, kitab yeganə bilik mənbəyi deyil, onlardan biridir. Çox təəssüf ki, bu günün ən önəmli problemlərindən biri də müəllimlərin çoxunun kitablardan asılı vəziyyətdə olmasıdır. Onlar elə başa düşürlər ki, dərslikdə nə varsa, onu da keçməlidirlər. Əslində isə dərsliklər üzərində işlənilməli, şagirdlərin bilik səviyyəsinə, bacarığına və dünya görüşlərinə uyğun şəkildə hazırlanmalıdır.

Müasir və çox istifadə edilən metodlardan olan kommunikativ metod təzə dərslərin keçirilməsi zamanı xarici dildə bildiyimiz sözlərlə, dil qaydaları, qrammatik quruluş, üz və əl-qol hərəkətləri ilə yanaşı, şəkillər və digər təqdimat vasitələri (multimedia) ilə də aparılmasını tələb edir. Belə qayda ünsiyyəti yəni, nitqi (yazılı və şifahi formada) formalaşdırır. İnkişaf etmiş nitq şagirdlərdə səlis danışmaq qabiliyyəti formalaşdırır, qrammatika həmin danışıq prosesində öyrədilir.Dərslərin qrup şəklində və aktiv formada keçirilməsi uşaqlara öyrənilən materialları daha tez qavramağa, anlamağa kömək edir, özünü digər yoldaşlarının fonunda kənardan görməyə, müqayisə etməyə, üstünlüklərini və çatışmazlıqlarını aşkar etməyinə böyük şərait yaradır. Bundan başqa, kiçik həcmli qruplarda fərdi yanaşma əsasında hər bir məktəblinin öyrənməsi üçün imkan yaradılır; danışıq üçün təşkil olunmuş daha böyük həcmli qruplarda isə şagirdin tanımadığı insanlarla xarici dildə çəkinmədən, utanmadan ünsiyyətə girmə hissi formalaşır. Bundan əlavə, müəllim özü həftə sonlarında şagirdlər üçün dərnəkxarakterli məşğələlər təşkil etməli, komandalar şəklində layihə işləri şagirdlərə gördürməli, beyni inkişaf etdirən oyunlar birlikdə oynanılmalı, oxu klubları və gəzintilər təşkil etməlidir [4, s.46].

Məktəblilərin ingilis dili biliklərinin lazımi səviyyədə olmamasının bir səbəbi də test üsulu ilə olan imtahanlarla əlaqəlidir; çünki şagirdlər test zamanı müəyyən formaya salınmış müxtəlif qrammatik düsturlar və söz bazası əsasında seçim etməyə köklənirlər; nəticədə heç bir dil bacarığının ölçülməsi aparılmır və yuxarıda sadaladığımız problemlərin heç biri öz həllini tapmamış olaraq qalır [5, s.39].

Son olaraq deyə bilərik ki, ünsiyyəti formalaşdıraraq inkişaf etdirmək üçün əvvəlcə yalnız olaraq danışmaqla məşq etmək və nəhayət həmin xarici dildə sosial şəbəkələrdə xarici vətəndaşlarla yəni dil daşıyıcıları ilə yazışmaq məsləhətdir. Unudulmamalıdır ki, xarici dildə danışmaq vərdişə çevrilməklə mükəmməl mənimsənilir.

İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycan məktəbi" jurnalı-2002, N 3.

2. Abbasova Y. Müasir təhsildə yeni təlim texnologiyalarının yaranmasını zəruri edən səbəblər. Humanitar elmlərin aktual problemləri. N 2, 2016.

3. Əliyev A. Tədris prosesində şəxsiyyətyönümlü təlim texnologiyalarından istifadənin şagirdlərin humanizm tərbiyəsində və yaradıcı inkişafında rolu // "Təhsildə mənəvi-əxlaqi dəyərlər: harmonik şəxsiyyətin inkişafı" mövzusunda Beynəlxalq Elmi Konfransının materialları. Bakı, 2014

4. Kazımov N. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2005.
5. Novruzov Q. "Yaddaş məktəbi" ndən "düşüncə və təfəkkür məktəbi"nə. Məqalə. ARTPİ. Təhsilin inkişafı üzrə dövlət strategiyası: perspektivlər və vəzifələr. Bakı, 2015.

UOT 82.0:001.92; 82.0:061.22; 82-32

MİRZƏ CƏLİLİN HEKAYƏLƏRİNDƏ FELYETON, FELYETONLARINDA HEKAYƏ MOTİVLƏRİ

Əbülfəz Tahir oğlu Əzimli
filologiya üzrə fəlsəfə doktoru, dosent
Naxçıvan Dövlət Universiteti
ezimliebulfez@yahoo.com.tr

Giriş

Mirzə Cəlill Məmmədquluzadə (1969-1932) ilə ədəbiyyata yeni ifadə məzmun və stilləri gəldi: ədəbiyyatın həyata və insna mehrinin yeni məzmun və ideya baxışları formalaşdı. Mirzə Cəlillin yaradıcılıq poetikası – təkcə ümumtürk-müsəlman aləmində deyil, ümumədəbiyyat qanunları sistemində Yeni İfadə, Yeni quruluş Poetikasıdır. Mirzə Cəlillə ədəbiyyata sözün üslubu və sözü, sözün ifadə psixologizmi – bədiilik gücü və nüfuzetmə tərzi gəldi. Habelə Mirzə Cəlillə ədəbiyyatın janr tipologiyasına yeni ifadəetmə-poetika əlamət və nişanları gəldi. Burada janr və janrda janr motivləri vardır: bir əsərdə bədii ifadənin nə qdər gözəl poetika tərzi ola bilərsə, Mirzə Cəlilin əsərlərində ondan da geniş və zəngindir. Onun əsərlərinin hər birinin ayrı-ayrılıqda bir yeni ifadə cizgiləri və lövhələri vardır: onun hekayə və felyetonlarının, povest-romanının mövzusu da, ifadə və üslub poetikası da, obrazları və o obrazlara aid olan bütün əlamətlər-xarakterlər də yeni idi.

Mirzə Cəlil bu tərzləri-poetika icazlaı ilə ədəbiyyata yeni təzəlik gətirdi. Və Mirzə Cəlil həmişə, hər zaman yenidir və bir sənətkar kimi, yeniləşən və yeniləşdirən yazıçıdır. Təəssüf ki, hələ indiyədək ədəbiyyatşünaslıq Mirzə Cəlilin "mirzəcəlilliyini" açıqlaya bilməyib; ona ən primitiv, məlum qəliblərdən yanaşıb: təqdimlərdəki primitiv yanaşmaəarla onun özünə və obrazlarına qara yaxılıb: başqa yazıçılara hansı şablonlardan yanaşılıbsa, MirzəCəlil yaradıcılığına də o qəliblərdən yanaşılıb. Bununla demək olar ki, ədəbiyyatşünaslıq onun Poetika ideallarını anlaya bilməyib. Nəticədə, ona qondarma yozumlardan qara yaxılıb, onun obrazlarının estetk idealını anlamayıb. Mirzə Cəlili o qədər anlamayanlar var ki... savadsız ve cahilanə yanaşmalar Mirzə Cəlilə aid deyil. Əsərinin adını bilmək də alimlik deyil. Və bununlar da onu göstərir ki, ədəbiyyatşünaslıq özünün tarixən Gerçək Elmi simasından kənara sapıb: siyasi itaətkarlıq altında olub və Bədii Sözün Poetik ifadə sirlərini, mətnaltı və mətnüstü əlamətləri və məzmun işarələrini görə bilməyib. Bu mənada, Mirzə Cəlil Məmmədquluzadəni tədqiq etmək də həmişə ədəbiyyatşünaslıqda, Poetika aləmində yeni söz, yəni yanaşma tərzi deməkdir...

Motivləşdirmə poetikası: hekayə-felyeton, felyeton-hekayə sintezləri

Cəlil Məmmədquluzadənin hekayələrdə-felyeton, felyetonlarda hekayə motivləri üzrə poetika nişanları vardır. Bu anlamda, Mirzə Cəlil Məmmədquluzadənin yaradıcılığında hər bir felyeton, demək olan ki, bir hekayə tipidr; və hər bir hekayəsində həm də felyeton motivləri vardır.

Bu felyetonlarda təhkiyə nizamı, komozisiyalı ifadə təqti, əhvalt-süjet tərzi, məlumat vermə, hadisəni xəbər kimi söyləmə forması xüsusi poetika nişanlarıdır.

Felyetonlarda əhvalat-münasibətlər bir üslub tərzidir. Hər iki janra aid olan yeni şəkil və məzmun, hər iki forma üzrə ədəbiyyatımıza gətirilən yenilik Mirzə Cəlilin böyüklüyünün nişanlarındandır. Bu əsərlərdə forma ilə məzmun bir-birini şairanə təradə tamamlayır.

İlk ünsürdən, ilk sözdən, ilk təqdimdən, ilk təsvirdən ibarət olan bütün bədii-poetik kateqoriyalar təkanverici və aktivləşdirən tərkiblərdir: bədii mətnin məzmun və süjet xəttini dolğunlaşdıran ifadə nişanları hamısı motivləşdirməyə xidmət edir.

C.Məmmədquluzadə felyetona hekayə motivi aşılayıb, hekayəyə də felyoton motivi. Hər iki janr forması ədəbiyyatımız üçün yeni bir üslub, təsvir poetikası nümunəsi idi. Məzhəkəli ifadə felyetonun ruhudur; bu məzhəkə hekayələri üçün də tipik hal idi. Ümumilikdə mollanəsrəddinçilik poetikası idi və bu tərz komediyaların yaranması üçün də tipik bir bədiilik norması oldu.

Motiv ümumi poetik nəzəriyyə sisteminə məxsus olan ünsürlərdəndir. Motiv poetik vasitə rolu oynayan amillərdən biridir. Bu vasitə xarakterinə görə, motiv faransız dilindən gəlmə ifadədir; məna stimuluna görə rəngli məzmuna malikdir: birincisi, motiv "Türkce sözlük"də-izahlı Lüğətdə deyildiyi kimi, "yan-yana gələrək bir bəzəmə işini oluşturan və kendi başlarına birer birlik olan ogelerden (ünsürlərdən) hər biri; ikincisi, motiv "bir əsərdə sık sık tekrarlanan süsleyici öge(ünsür, amil). (Türkçe sözlük. Ankara, 2005, səh.1409). Xarakter dinamizminə görə Mirzə Gəlilin yaradıcılıq Poetikası Motivləşdirmə Poetikasıdır.

Cəlil Məmmədquluzadə ilk əsərlərindən – alleqorik "Çay dəsgahı"ndan başlamış, hekayə və felyetonunda da **motivli** yazıçıdır. Bu adi motiv deyil, psixoloji ifadə və yanaşma, üslub və ideya poetizmilə yeni məzmunlu motivdir. Hekayə və Felyeton janr formasına, yazı-üsul tipinə görə həm ciddi, həm də yumoristik, satirik formadır: Felyeton janr tipi kimi hekayədən, lətifədən gəlmə formadır. Felyeton "Mola Nəsrəddin" dərgisi ilə ümumpoetika janrına çevirildi. Hələ ondan əvvəl "Əkinçi" də Nəcəfbəy Vəzirovun felyetonları dərc edilmişdir. Onlar adi felyeton demək deyildi: "Əkinçi"nin felyetonları hekayə-felyetonlar idi. Onların Baş qəhrəman Dərviş idi.

Mirzə Cəlilin poetika seçimi – "Molla Nəsrəddin" dərgisi ilə felyetonun yeni formaları, mövzü üslubi ifadə taktikası yarandı.

Dərginin ilk yazısı – "Sizi deyib gəlmişəm..." müraciəti həm də felyetonların müqəddiməsidir. Burada xüsusi məsələ sözün, dərginin mövqeyinin və yazı, söyləm tərzinin oxuculara ilkin təqdimidir: "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım!". Bu həm də diqqəticəlb etmək üçün nida- çağırış idi.Bu ifadə tərzi onu təqdim edirdi ki, siz məsuliyyət daşıyırsınız.

İlk nömrədən yazıçı "Dəllək" hekayəsinin də yarısını verib. Hekayənin digər yarısı ikinci nömrədə təqdim edildi:

"Sadıq kişinin on yaşında oğlu Məmmədvəlinin gözləri ağrıyırdı. Bir gün uşaq anasına dedi: "Axı, Kərbəlayı Qasımın oğlu Əhmədin də gözləri ağrıyırdı. Dünən Əhmədnən arxın kənarında oynuyurduq. Əhməd burun qanadan otnan burnunu qanatdı. Elə burnundan bir az qan axan kimi, Əhmədin gözləri yaxşı oldu.

"Bala, get sən də burnunu qanat!", – anası Məmmədvəliyə dedi.

Məmmədvəli getdi, otların içindən haman tikanlı otu tapdı, sol əli ilə otu soxdu burnunun deşiklərinə, sağ əli ilə yumruğunu düyüb vurdu sol əlinin altından və Məmmədvəlinin burnundan qan başladı axmağa…"

"Dəllək" hekayəsində həm təhkiyə yumoru var, həm də əsərin özündə məzmun yumorludur; yumorlu olma bədii məzmunun, hadisə və əhvalatın təbiətindən gəlmədir. Bu tərz təhkiyə felyeton bir məziyət də qeyd edək ki, ümumilikdə, onun təsvir etdiyi hadisə və əhvalatlar-adi həyat hadisələridir, yəni hər zaman bu cür hadisələr bai verir, bu öz yerində, hadisə, əhvalat hələ özlüyündə yumorlu, məzhəkəli deyildir, əksinə cox ciddi və dramatik xarakterə malikdir. Yazıçının bədii kəşfi də burasındadır ki, o ən dramatik və ciddi olan hadisələrin məzmun psixologiyasını xüsusi üslubla təsvir-təqdim etmək taktını seçdi: bu taktlı təsvir və yanaşma olmasaydı, bəlkə də, "Danabaş kəndinini əhvalatları" bu dərəcədə oxunaqlı, cəlbedici olmayacaqdı.

Çünki Mirzə Cəlil-Molla Nəsrəddinin yazıçı və vətəndaş görünümdə dünya-aləm, ətraflar, insan münasibətləri, cəmiyyətdə və məişətdə baş verən hadisələr, gündəlik həyati proseslər – bir sözlə, hər şey motivlidir. Bu andaca deyək ki, Cəlil Məmmədquluzadənin bədii-poetik dünyasında Motiv forma və məzmun poetikasına görə üçsahəlidir:

Birinci sahə: cəmiyyətin və insan həyatının mövzu və məzmuna aid olan motiv;

- ikincisi məzmunu və onun əhadə poetikasını müəyyənləşdirən janr motivi;
- üçüncüsü: yazı tərzi, bədii ifadə strukturları üzrə motiv.

Ümumiyyətlə götürsək, bədii ədəbiyyatın özü motiv və motivləşdirmə deməkdir. Deməli, Mirzə Cəlil, hər şeydən əvvəl, motivli yazıçıdır: motivlər bir cinsli deyil, çoxcinslidir. Birincisi janr motividir: yazıçı janrın ən tipik xarakterlərini üzə çıxarır. Burada iki janrın qarşılıqlı motivlərini qeyd etməliyik. Hekayə və felyeton janrları onun üçün tapıntı idi; təkcə onun üçün deyil, bütün Azərbaycan, bütün türk edəbiyyatı üçün yeni idi. Hər iki janr üzrə səciyyəvi olan, qarşılıqlı oxşar və fərqli cəhətlər onlardakı bədii-ifadə, bədii-poetik forma və məzmun özəlliklərini əks etdirir. Hekayə və felyeton arasındakı qarşılıqlı bağlılıq onlardakı qarşılıqlı motivləri üzə çıxarır. Bədii ifadə strukturuna görə həmin janrlarda motişlənmə, motivləşdirilmə stimulları xüsusi bir poetika incəliyidir.

Mirzə Cəlilin yaradıcılığında motiv nədir? Belə deyək ki, Motiv Mirzə Cəlilin bədii nəsr sisteminin ifadə özəlliyi demək idi. Ümumilikdə, bədii yaradıcılıq **motivlərdən** ibarət olan növlər, cinslər sistemidir.

Mirzə Cəlilin bütün janr və ifadə formaları ədəbiyyatımız üçün yeni ədəbi hərəkatın yeni ifadə üsulu idi. Dramaturgiyada Mirzə Fətəlidən sonrakı ədəbi hərəkatın yeni tərkib nişanları idi.

Avropada hekayə-novella nəsrin yığcam və çevik janrı idi. Yığcam və yumoristik ifadə məhrəmliyinə görə hekayənin yeni formasını A.P.Çexov yaratdı. Çexovdan 50-60 il əvvəl hekayənin yeni formasını N.V.Qoqol yaratmışdır. Cəlil Məmmədquluzadənin hekayələri də yeni tipli hekayə idi. "Molla Nəsrəddin" dərgisinin forması və ifadə tərzi onun hekayələrinə həm də felyetonluq gətirmişdir.

Mirzə Cəlilin hekayələri gözlənilməz ifadə prosesləri, başlanğıc və sonluqları ilə novella poetikasının Şərq tipi idi. O, janrların sintezini cilaladı: məsələn, novellanı felyetonlaşdırdı, felyetonu da novellaşdırdı. Bu tip sintez A.P.Çexovun hekayələrində də qabarıqdır. Janr sintezi üzərində yaranan yeni ifadə, üsul bədii yaradıcılıqda motivləşdirmə tərzidir.

Bəzi hekayələri bir sıra xüsusiyyətləri ilə felyeton motivləri vardır: məsələn yumoristik yanaşma, real həti gerçəkliklərin təsviri, yığcamlığq və ciddi təsvir elementləriilə. Məsələn "İki alma" hekayəsində yazıçının çox səlis təsvir stili vardır:

"İki alma" hekayəsində də üslub adi əhvalat tərzidir: yatımlı, sakit, mülayim. Eyni zamanda bu sakitliyin gizlətdiyi tələş və həyəcanlar da var; oxucu-dinləyici özünü bu həyəcan və tələşlara uyğunlaşdirir. təhkiyənin bədii münasibətləri hər kəsin hər zaman həyəcan və maraqla dinlədiyi nağıl üslubu üstündə köklənib:

"Axşam vaxtları gəzməyə çıxanda, hərdənbir balaca oğlumu da yanımca aparıram. Bu dəfə də apardım. Və haman balaca oğlum ilə gəzməyə gedəndə hərdənbir ittifaq düşür ki, ona yeməli şey də alıram ki, məndən razı qalsın. Bu dəfə də balaca oğlum dükanlarda düzülmüş nazü neməti görəndə məndən yeməli bir şey istədi. Mən o əqidədə deyiləm ki, hər dəfə uşaq ilə bazara gedəndə ona bir şey almaq lazımdır və lakin bunu da demirəm ki, heş bir vaxt almaq lazım deyil. Ancaq bu dəfə heş bir zad almaq istəmirdim o səbəbə ki, cibimdə çox pulum yox idi. Və bir də istəmədim ki, uşağım hər dəfə bazara çıxanda dadamal öyrənsin" ("İki alma").

Mirzə Cəlilin hekayələri də canlıdır, felyetonları da. Hər ikisi üçün canlı olma əlamətləri bir-birini tərədən və bir-birini tçrədən əlamət-tərkiblərdir. Onun hekayələri və felyetonları aşağıdakı cinslərlə canlıdır:

- təhkiyə tərzinə görə;
- ifadə tərzinə görə;
- təsvir tərzinə görə;
- üsul əlamətlərinə görə;
- dil semantikasına və sintaktik nişanlarina görə.

Janr baxımından hekayə və felyetonlarda bir-birinə başlı olma motivləri iç-içədir.

Motiv, yaxud bədii ifadə Motivasiyası hər hansı fəaliyyətin, o cümlədən bədii və elmi ədəbiyyatda təsvir və təqdim, yaxud təhlil mexanizmini işə salan qüvvədir. Cəlil Məmməd-quluzadənin yaradıcılığında bədii təfəkkür prosesini, təsvir və təhkiyə emosionallığını hərəkətə gətirir, məzmun və mündəricənin ifadə əlamətlərini kompozisiyalı şəkilə salır, diqqəti məsələnin ideya-bədii ifadə tərzinə yçnəldir, bədii məzmun və formanın qavranıllmasına zəmin yaradır. otivasiya Mirzə Cəlilin bədii yaradıcılığında psixoloji müdaxilə mə münasibətin canı və hərəkətidir.

İlk ünsürdən, ilk sözdən, ilk təqdimdən, ilk təsvirdən ibarət olan bütün bədii-poetik kateqoriyalar təkanverici və aktivləşdirən tərkiblərdir: bədii mətnin məzmun və süjet xəttini dolğunlaşdıran ifadə nişanları hamısı motivləşdirməyə xidmət edir. Sözdən sözü, təsvirdən təsviri, haldan halı, emosional ifadə taktından yumoristik və məzhəkəli yanaşma simptomlarını törədən, bu və ya digər nəql, ifadə ünsürlərini cilalayan, bədiiliyi qüvvətləndirən təsvir və təhkiyə tərkiblərinin hamısı motivasiya yaratmaöın struktur nişanlarıdır. Başqa bir halda, dil və üslubda xüsusi rolu olan üslub, dil, təhkiyə, nitq, dialoq kimi bədiilik kateqoriyaları da poetika seçimlərində - motivləşdir-mədə konkret tərkiblərdir.

C.Məmmədquluzadə felyetona hekayə motivi aşılayıb, hekayəyə də felyoton motivi. Hər iki janr forması ədəbiyyatımız üçün yeni bir üslub, təsvir poetikası nümunəsi idi. Məzhəkəli ifadə felyetonun ruhudur; bu məzhəkə hekayələri üçün də tipik hal idi. Ümumilikdə mollanəsrəddinçilik poetikası idi və bu tərz komediyaların yaranması üçün də tipik bir bədiilik norması oldu.

Motiv ümumi poetik nəzəriyyə sisteminə məxsus olan ünsürlərdəndir. Motiv poetik vasitə rolu oynayan amillərdən biridir. Bu vasitə xarakterinə görə, motiv faransız dilindən gəlmə ifadədir; məna stimuluna görə rəngli məzmuna malikdir: birincisi, motiv "Türkce sözlük"də-izahlı Lüğətdə deyildiyi kimi, "yan-yana gələrək bir bəzəmə işini oluşturan və kendi başlarına birer birlik olan ogelerden (ünsürlərdən) hər biri; ikincisi, motiv "bir əsərdə sık sık tekrarlanan süsleyici öge (ünsür, amil) (Türkçe sözlük. Ankara, 2005, səh.1409). Xarakter dinamizminə görə Mirzə Gəlilin yaradıcılıq Poetikası Motivləşdirmə Poetikasıdır.

Cəlil Məmmədquluzadə ilk felyetonundan motivli bir yazıçıdır. Felyeton yazı-üsul tipinə görə həm ciddi, həm də yumoristik, satirik formadır: o, hekayədən, lətifədən gəlmə formadır. Felyeton "Mola Nəsrəddin" dərgisi ilə ümumpoetika janrına çevirildi. "Əkinçi" də N.Vəzirovun felyetonları dərc edilmişdir. N.Vəzirovun, "Əkinçi"nin felyetonları hekayə-felyeton idi. Bai qəhrəman Dərviş idi. "Molla Nəsrəddin" dərgisi ilə felyetonun yeni formaları yarandı.

Dərginin ilk yazısı-"Sizi deyib gəlmişəm..." müraciəti həm də felyetonların müqəddiməsidir. Burada xüsusi məsələ sözün, dərginin mövqeyinin və yazı, söyləm tərzinin oxuculara ilkin təqdimidir.

"Ana dili" felyetonunda Mirə Cəlil məsələni hekayə-əhvalat tərzində qələmə alır:

"Hərdən mənim xəyalıma bir belə şey gəlir:

Mən universitet, yəni darülfununndan təzə qurtarıb vətənimizə gələn günü şəhərimizin qazısı Axund Molla Səbzəli gəldi bizim evə mənim görüşümə. Evimizdə heç kəs yox idi, anamdan savayı. Bu övrət də çıxdı o biri otağa və qazı ilə biz başladıq söhbəti. Deməyinən yazıq anam da qapının dalında durub qulaq asırdı.

Qazı içəri girən kimi mən yeridim və dedim: "Salam məleyk". Cənab qazı mənə cavab verdi: "Ay əssalamü əleyküm, ay xudahafiz, əhvali-şərif, ənasiri-lətif, maşaallah, maşaallah, Əxəvizadə, neçə müddətdi müntəziri-vücud i-zicudunuz və müştaqi-didarın ız idim, inşaallah zati-alinizin məzacı-mübarəkl əri salimdir".

Mən bir şey başa düşməyib dedim: "Da".

Cənab qazı bir qədər baxdı mənim üzümə və genə başladı: "Əxəvizadə, təhsili-fünunuz u əncama yetiribsiniz, ya dübarə təkmili-nöqsan üçün darülelmə əvdət etməlisiniz?"

Mən genə bir şey başa düşməyib dedim ki, "Cənab axund, yaxşı panimat eləmirəm ki, nə ərz edirsiniz".

Axund soruşdu: "Necə?"

Mən dedim: "Çto?"

Söhbətimiz elə bu cür qurtardı və axund başmaqlarını geyib çıxdı getdi. Anam girdi içəri və mənə dedi: "Balam, mollaynan nə dil danışırdınız ki, mən heç başa düşmədim".

Dedim: "Ana, mollaynan biz ana dili danışırdıq".

Anam başını saldı aşağı və bir qədər fikrə gedib dedi: "Yazıq ana dili!"

Hərdəmxəyal ("Molla Nəsrəddin", 27 yanvar, 1907, N 4)

Bu felyetonda əhvalat-hekayət öz dilində fikrini ifadə edə bilməyən Mollanın halını təqdim edilir. Səbəb nədir? Səbəb odur ki, Molla öz dilində təhsil almayıb. Yazıçı Ana dilinin get-getə fəsada salınmasını təqdim edir.

"Bir para hikmətli danışıqlar" seriyasından yazılan felyetonvari yazılar da hekaye motivindədir. Məsələn:

- *Məşədi Pirqulu, nə qayırırsan?*
- *Heç zad.*
- *Bə burada nə üçün durubsan?*
- *Heç elə-belə.*
- *Kimi gözləyirsən?*
- *Heç kimi.*
- *Gedirsən, gəl gedək.*
- *Heç bilmirəm.*
- *Bənəvaxtadək burada duracaqsan?*
- *Vallah, heç özüm də bilmirəm. Əgər istəyirsən, gedək*"

("Molla Nəsrəddin", № 4, 28 aprel 1906.)

Yazıçı belə bir kiçik dialoqla insanın həyatda, cəmiyyətdəki ətalət halına və heç bir maraqda olmamasına mzəmunca dolğun olan hekayə motivi verib.

Yaxud, başqa bir kiçik parçada- iki cümləlik bir təqdimlə ifadə edilən məzmunun xarakterindəki genişlik heyrət doğurur. Bu iki cümləlikdanışıq- sual və ona cavab necə də bitkin bir ifadə-məzmun yaradıb:

"- Kərbəlayi Həsən, utanmırsan, qızarmırsan,ayaqyalın,tumançaq və başıaçıq çıxırsan küçəyə?

- Vallah, utanmağa- utanıram. Amma qorxuram, qızaram, qaradovaylar gəlib tutub, aparalar qatalar dama ki, rəngin qırmızıdı". ("Molla Nəsrəddin", № 4. 28 aprel 1906.)

Bu cür bir təqdim, əlbəttə ki, bir hekayə məzmunudur. Yazıçının tipik bir halı bu cür ifadə icazı ilə təqdim etməsi onun təhkiyəsində nə qədər incə poetizmin olduğunu göstərir.

Bəzi feyletonlarında dramatik-psixoloji hallara sakitcə bir hekayə motivləri verib. Bu, Mirzə Cəlil tənkiyəsinin- nəqlinin poeziyasıdır: burada yazıcı obrazın halını çox mehriban-məhrəm və çox da ciddi bir motivlərdən təqdim edir.

Mirzə Cəlilin poetikasında məxsusi bir Xalq Lirizmi və ifadə tərzi vardır. Hekayə və felyetonların dilində vəüslubunda, əhvalat və münasibətlərin təsvirində xalq müdriki- bilgini Molla Nəsrəddin adlı bir Hocanın yanaşma, ifadəetmə poetizmi var. Bu, ayrəca bir Molla Nəsrəddin üsuludur. "Molla Nəsrəddin" dərgisində nələr varsa, bu üsuldandır. Nə qədər yazı növü varsa, dərgidə o qədər də təsvir,təhkiyə, məzmun üslulu vardır. ənməhrəm yazı üsuludur. Cəlil Məmmədquluzadənin Molla Nəsrəddin təxəllüsünü qəbul etməyi də təsadüfi deyil. Çünki Molla nəsrəddin üsulu üz-üzə və söz-sözə olan məhrəm və mehriban, eyni zamanda sərt və ciddi üsuldur: " Molla Nəsrəddin üsulu- kinayə və rəğbətdir, cəsarət və hiddətdir, qəzəb və nifrətdir, ağıllı məntiq, psixoloji duyum və tutumdur, qılığagirmə və ayıltmadır; danlaq və ifşadır, tənqid və qırmancdır" (Əzimli Ə. (2006), s.44).

"Bizim obrazovannılar" adlı felyetonunda yazıcı çox səmimi təsvir-təqdimlə özündən uzaqlaşmaqda olan insanın – gənclərin faciəsindən danışır və ən ciddi bir məzmuna yumoristi tonda münasibət bildirir:

"Mənim bir rəfiqim var, özü də müsəlmandır; amma məni görəndə rus dilindən savayı, ögə dildə danışmaz.Məsələn, söhbətimiz bu cür olur: Mən onu görəndə deyirəm:

- Hara gedirsən?

O mənə belə cavabverir:

- Ya xodil na poçtu.

Deyirəm:

- Dünən niyə bizə gəlmədin?

Cavab verir:

- K nam prişli qosti.

Deyirəm:

- Yaxşı qonaqlar gedəndən sonra bizə gələydin.

Cavab verir:

- Uje bıla pozdno.

Deyirəm:

- Söz verirsən ki, sabah gələsən, bir az söhbət edək?

Cavab verir:

- Postarayus, no slovo ne dayu.

Deyirəm:

- Xudahafiz!

Cavab verir:

- Do svidaniya!

Amma dostumun bir şeydən xəbəri yoxdur: xəbəri yoxdur ki, mən də rusca bir az danışa bilirəm!..

Axırı bir gün dostumdan soruşdum:

- Mən ölüm, sözün doğrusunu de-görüm, sən ki otuz səkkiz il müsəlman içində tərbiyə tapıbsan, xata olmadı ki, bir az rusca oxudun? Nə səbəbə, sən mənlə müsəlmanca heç danışmaq istəmirsən?

- Yoldaşım mənə rus dilində belə cavab verdi:

- Sluşay, kak-to stıdno, koqda obrazovannıy çelovek po-tatarski qovarit. (Yəni obrazovannının müsəlmanca danışmağı eyibdir.

- Çox sağ ol, rəfiqim, mən bunu bilmirdim!..

Deyirlər ki, həmin mənim rəfiqim rus şkolunda oxuyan vaxt bir gün anasına deyir:

- Ana! Pojalyusta, mənə bir şey svarit elə! (yəni bişir).

Anası cavab verir:

- Bala, nə dedin?

Rəfiqim cavab verir:

- Ox, ox! Siz heç bir zad qanmırsınız! Mən deyirəm, bir zad bişir.

- Bala, nə bişirim?

- Çort yeqo znaet!... Yadımdan çıxıb… Yumru olur, əti döyüb salırlar çölməyə, ya qazana…Bir cü adı var…

- Bala, küftə deyirsən?

- Hə, hə… Qofta … Qofta!" (Molla Nəsrəddin, 14 aprel 1906, № 2).

Buradakı felyeton dialoqu bütün stil tərzilə həm də hekayə-nəql motivlərindədir.

Mirzə Cəlildə bütün bədii formalar-janrlar məhrəm və ciddi bir təsvir - söyləm üstündədir. "Bizim obrazovannılar" felyeton-hekayə tipindədir.Bu cür mövzuları çox səlis və oxunaqlı, cəlbedici bir dillə təsvir etmək onun poetikasına xas olan üslub seçimidir.

Yazıçı hər iki janra xas olan ən icə bədii –fadə, bədii-poetik forma və məzmun özəlliklərini əks etdirir. Və bununla,hekayə və felyeton arasındakı üslubi bağlılıqlar- təsvir və idayaçün dramatik idi. Hər hansı bir mövzu olur-olsun hekayə və felyetonlardakı motivlər qarşılıqlı idi. Bu

strüktür təqdim etməmizdən belə bir poetika məxsusluğu üzə çıxır ki, bədii ifadə strukturuna görə Mirzə Cəlil həmin janrlarda motişləşdirmə stimulları ilə çox rəngli bir poetik əlvanlıq yaratmışdır. .

Mirzə Cəlil Təsvirə emosional ifadə taktları aşılayıb; bu stildə yumoristik və məzhəkəli yanaşma bədii simptomların nişanlarını artırır, təsvirdən təsvir törədir. Bu əlamətlər hər hansı bir nəql-hekayə üçün də xarakterikdir.

Beləliklə, Cəlil Məmmədquluzadənin hekayələrində – felyeton, felyetonlarında hekayə motivləri vardır. Bu tərz yazı – təsvir və təqdim onun yaradıcılığını daxili dinamikasından irəli gələn bədiilikdir.

Nəticə

Mirzə Cəlilin yaradıcılığında hər bir felyeton, demək olan ki, bir hekayə tipidr.

Bu felyetonlarda təhkiyə nizamı, komozisiyalı ifadə təqti, əhvalt-süjet tərzi, məlumat vermə, hadisəni xəbər kimi söyləmə forması xüsusi poetika nişanlarıdır.

Felyetonlarda əhvalat-münasibətlər bir üslub tərzidir. Hər iki janra aid olan yeni şəkil və məzmun, hər iki forma üzrə ədəbiyyatımıza gətirilən yenilik Mirzə Cəlilin böyüklüyünün poetika məxsusluğunun nişanlarındandır. Bu əsərlərdə forma ilə məzmun bir-birini şairanə tərzdə tamamlayır.

Mirzə Cəlil hekayə və felyetonlarında ən aktiv dil və üslub poetizmindən istifadə edir. Bu əsərlərdə yazıçı ifadə ünsürlərini cilalayan, bədiiliyi qüvvətləndirən, təsvir və təhkiyə tərkiblərinə psixoloji hal verir. Bu halların hamısı Mirzə Cəlil poetikasında motivasiya yaratmağın struktur nişanlarıdır. Başqa bir halda, dil və ifadədə baxımından xüsusi əhəmiyyət daşıyan nəql üslubu, təhkiyə, nitq, dialoq kimi bədiilik kateqoriyaları da Mirzə Cəlilin poetika seçimlərində-motivləşdirmədə konkret tərkiblərdir. Bu motivlərdə aşağıdakılar hasil olur:

Birincisi, yazıçı bütün Mövzularla gündəlik və milli baxımdan vacib olan əhvalatlara nağıl-nəql dili səmimiyyətini təqdim edir.

İkincisi, hər bir mövzuya hekayə-felyeton-nağıl stilindən yanaşır.

Üçüncüsü, Mirzə Cəlil nağıl-hekayə poetizmi ilə təsvirdən yeni təsvir törədir, təsviri təsvirə qatır, obrazların daxilindəki psixologizmi və saflıq, sadəlövlük hallarını hekayələşdirir: beləcə bir haldan yeni hallar, bir məzmundan başqa bir məzmun də təqdim edir.

Ümumən, Cəlil Məmmədquluzadənin nəsrində hekayəvə felyeton bağlılığı var və bu bağlılıqlar onun poetikasında vacib olan əlamətlərin ifadəsidir.

Mirzə Cəlildə mövzular həyatın daxilindən gəlir. Bu mözuların hər biri müxtəlif növdə motivlidir. Yazıçının bədii ifadə sintezində obrazla onun həyatı və obrazın baxış və münasibətləri də bütünlüklə əhvalat, hekayə tərzində motivləşir. Mirzə Cəlil,üçün bir mövzuda üç giqur vardır: obraz,onun həyatı, və həyada baxışında obrazın təbiiliyi, həyat idealı, üçüncüsü, Mirzə Cəlildə qara rənglər və hədəflər yoxdur, onun hekayə və felyeton motivlərində bütün obrazlar tipik həyati məzmunlardan təsvir edilir. Və onun bütün təsvir və təqdimlərində, hər şeydən əvvəl,, obrazın özü yeni motivlərdən təqdim edilir. Bu zaman yazıcının təqdimindən ən məhrəm və qayğılı yanaşma motivləri üzə çıxır. Bu mənada,motivlər iç-içədir, bir birxətli- sxematik deyil, çoxcinslidir. Səbəb odur ki,Mirzə Cəlil həyata və insana cizgilərdən yanaşmır- tam və bitkin məzmunlar kontektindən yanaşır.

Mirzə Cəlilin janrları bir-birindən törəmə ifadə-yazı növləri- tərzləridir. Bu müstəvidə yazıçı janrın ən tipik məzmun və forma şəkillərinə yeni şəkil verir. Hekayə və felyeton- iki ayrı-ayı janrlardır. Lakin Mirzə Cəlilin təsvir-təqdimində hər iki janrın qarşılıqlı motivlərini qeyd etməliyik. Hekayə və felyeton janrları onun təsvirində sintez halındadır. Bu tərz yanaşma onun üçün tapıntı idi; ümumilikdə, ədəbiyyatın yeni məzmun və formalı bir üsubi dramatizminin təzahürü idi. Bu, təkcə onun üçün deyil, bütün Azərbaycan, bütün Türk ədəbiyyatı üçün yeni idi. Hər iki janr motivlərində həyati gerçəklikləri əks etdirməyk səciyyəvi xüsusi əhəmiyyət daşıyır. Hekayə və felyeton janrlarında qarşılıqlı - oxşar və fərqli cəhətlər də Mirzə Cəlilin poetika incəliyindən üzə çıxır.

İstifadə edilmiş ədəbiyyat

1. Əzimli Əbülfəz. Cəlil Məmmədquluzadə nəsrində təhkiyə poetikası. Naxçıvan, 2005, 72 s.
2. Əzimli Əbülfəz. Sokrat daymonizmi və Mirzə Cəlil realizmi. Naxçıvan, 2006, 96 s.
3. "Molla Nəsrəddin", 1906, № 1
4. "Molla Nəsrəddin", № 4, 28 aprel 1906.
5. "Molla Nəsrəddin", 27 yanvar 1907, № 4
6. Türkçe sözlük. Ankara, 2005, 409 s.

UOT 94(479.24)

AZƏRBAYCANIN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏKİ MADDİ MƏDƏNİYYAT ABİDƏLƏRİ TURİZMİN İNKİŞAFINDA MÜHÜM AMİL KİMİ

Alı Məhəmməd oğlu Balayev
tarix üzrə fəlsəfə doktoru, dosent
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
a.balayev.66@mail.ru

Azərbaycan əsrlər boyu yaratdığı maddi-mədəni sərvətləri ilə dünya mədəniyyətinin inkişafına və zənginləşməsinə böyük töhfələr vermişdir. Mühüm strateji məkanda, qədim İpək yolunun üzərində yerləşən, təbii sərvətlərlə zəngin, müasir dünyanın mühüm nəqliyyat-kommunikasiya və enerji dəhlizinin mərkəzi dövləti hesab edilən Azərbaycan bu gün dünya birliyinə təkcə özünün maddi sərvətləri ilə deyil, həm də zəngin mənəvi-mədəni sərvətləri ilə inteqrasiya olunmaqdadır. Ölkəmiz təkcə coğrafi xüsusiyyətlərinə deyil, həm də mədəniyyət və düşüncə tərzinə görə Şərqlə Qərbin harmonik vəhdət ərazisidir.

Münaqişələrin, müharibələrin əsas səbəblərindən biri də insanlar və xalqlar arasında dözümsüzlük şəraitinin mövcudluğudur. Bu baxımdan hər bir xalqın mədəni irsinin qorunub saxlanılması beynəlxalq birliyin borcudur. Bəşəri və milli mədəni dəyərlərin müdafiəsinə görə məsuliyyət məsələsi bir sıra beynəlxalq sənədlərdə öz əksini tapmışdır. Bu sırada birinci növbədə "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" Haaqa Konvensiyasını (1954-cü il) və ona əlavə edilmiş Protokolu xüsusi qeyd etmək lazımdır [10, s.284-301].

Mədəniyyət sahəsində siyasətə dair Ümumdünya konfransında qəbul edilmiş Meksika Bəyannaməsində (6 avqust 1982) qeyd olunduğu kimi, hər bir xalq dünya mədəniyyətinə öz töhfəsini verdiyi üçün onların hər birinin mədəniyyətinə vurulan ziyan bütün bəşəriyyətin mədəni irsinə vurulan ziyandır, mədəni irsin qorunması dünyanın bütün xalqları üçün böyük əhəmiyyət kəsb edir və bu irsin beynəlxalq müdafiəsinin təmin edilməsi vacibdir [11, s.259-260]

XX əsrin ortalarında İrəvan şəhərində (Göy məscid, Zal xan məscidi, Sərdar məscidi, Hacı Cəfər bəy məscidi) qalmışdı [6, s.17].

Bu məscidlər içərisində Göy məscid xüsusi yer tutur. Göy məsciddən təbliğat məqsədi ilə istifadə etməyə çalışan Ermənistan hökuməti 1990-2000-ci illərdə İranın "Bunyad-e Mustəzəfan və Canbazan" Fondunun iştirakı ilə Məscidi bərpa etmişdir. Ermənilər burada da öz xislətlərinə sadiq qalaraq Azərbaycan xalqına məxsus bu nadir tarixi abidəni dünya ictimaiyyətinə "Fars məscidi" kimi qələmə verməyə çalışırlar [6, s.34].

Qədim İrəvanın bəzəyi olmuş Zal xan məscidi (Şəhər məscidi), Təpəbaşı məscidi, Hacı Novruzəli bəy və Hacı Cəfər bəy məscidləri 1930-40-cı illərdə İrəvan şəhərinin yenidən qurulması adı ilə məhv edilmişdi. İrəvanda azərbaycanlıların buradan qovulduqları 1988-ci ilə qədər fəaliyyət göstərdiyi yeganə məscid olan Dəmir bulaq məscidini (Çətirli məscidi) ermənilər həmin ildə yandıraraq məhv etmişlər. Bu vəhşilik aktını amerikalı jurnalist Robert Kullen (Robert Cullen) və

britaniyalı jurnalist Tomas de Vaal (*Thomas de Waal) da təsdiq etmişlər* [9, s.56, 59].

Azərbaycanda olan 9 iqlim qurşağından 6-ı Dağlıq Qarabağdadır. Dağlıq Qarabağ zəngin və unikal kurort-turizm ehtiyatlarına – təmiz dağ havasına, meşələrə, müalicəvi mineral sulara, alp çəmənliklərinə malikdir. Qarabağ təkcə relyef və iqlim, eləcə də torpaq tipləri zənginliyi və müxtəlifliyi ilə fərqlənir. 114 min hektar ərazini meşələr, 57 min hektarını kolluqlar tutur. Qarabağın meşələrində palıd, fıstıq, cökə, göyrüş (vən), vələs, çinar, qoz, alma, armud, albalı, gavalı, zoğal kimi meyvələr bitir. Bəzi ağacların yaşı 150-200 ilə, hündürlüyü 25-30 metrə, gövdəsinin diametri 2.5 metrə çatır [5, s. 56].

1991-1994-cü illərdə Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayonun (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Qubadlı, Zəngilan və Cəbrayıl) əraziləri işğal edilmişdir. 20 min nəfərdən artıq azərbaycanlı həlak olmuş, 4866 nəfər itkin və əsir düşmüş, girov götürülmüşdür. Təxminən 100 min nəfər yaralanmış, 50 min nəfər müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuşdur. Hərbi təcavüz ölkəmizin 17 min kv. km ən məhsuldar torpaqlarının işğalına, 900 yaşayış məntəqəsinin, 130939 evin, 2389 sənaye və kənd təsərrüfatı obyektinin, 1025 təhsil və 798 səhiyyə ocağının, 1510 mədəniyyət müəssisəsinin, 5198 km avtomobil yollarının, 348 körpünün, 7568 km su və 76940 km elektrik xətlərinin dağıdılmasına səbəb olmuşdur. İlkin hesablamalara görə, Ermənistan Silahlı Qüvvələrinin təcavüzü nəticəsində Azərbaycan iqtisadiyyatına 300 milyard ABŞ dollarından çox ziyan dəymişdir [5, s.58].

Azıx mağarasının yaxınlığında Mustye mədəniyyətinə aid dünya əhəmiyyətli möhtəşəm Tağlar mağara-düşərgəsi yerləşir. Mağara azərbaycanlı arxeoloqlar Məmmədəli Hüseynov və Əsədulla Cəfərov tərəfindən öyrənilibdir. Bütün Qafqaz və Yaxın Şərq abidələri içərisində Tağlar yeganə abidədir ki, burada yaşayış daimi olub. Tədqiqatlar nəticəsində Tağlarda Mustye mədəniyyəti dövründə 90 milyon il bundan əvvəldən 35 milyon il əvvələ qədər yaşayış olduğu aydınlaşıb [1]

Ağdam şəhərində yerləşən Cümə məscidi 1868-1870-ci illərdə Memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilmişdir.

Ağdamda Boyəhmədli məscidi (XIX-XX əsr), Qiyaslı məscidi (XVIII əsr), Papravənd məscidi (XVIII əsr), ziyarətgahlar **(**Xanoğlu türbəsi (XVIII əsr) – Ağdam şəhəri, Türbə (XIX əsr) – Ağdam şəhəri, Türbə (XVIII əsr) – Papravənd kəndi, Şeyx Nigari türbəsi (XVIII əsr) – Papravənd kəndi, Türbə (XVIII əsr) – Maqsudlu kəndi, Türbə (XIV əsr) – Kəngərli kəndi, Türbə (XIX əsr) – Ağdam şəhərinin 5 km-də Qaraağac qəbiristanında, Türbə (XIX əsr) Uğrulla bəyin türbəsi (XIX əsr) – Ağdam şəhərinin 5 km-də Qaraağac qəbiristanında, Qəbiristan (orta əsrlər) – Papravənd kəndi, Qəbiristan (orta əsrlər) – Qızıllı Kəngərli kəndi, Deşikli ocaq piri (ağac) – Qasımlı kəndi, Eşq Abdal piri – Üçoğlan kəndi, Əli pəncəsi (daş) – Gülbalı kəndi, Cındırlı piri – Kəngərli kəndi, Seyid Lazım Ağanın məqbərəsi – Çəmənli kəndi, Daş heykəl – Boyəhmədli kəndi, Əli pəncəsi ziyarətgahı – Əliağalı kəndi Azərbaycan Respublikasının ölkə əhəmiyyətli daşınmaz Tarix və Mədəniyyət abidələrinin siyahısına daxildirlər. Bütövlükdə Ağdam rayonu üzrə 140 tarix və mədəniyyət abidəsi [8, s. 32-35] qeydiyyatdadır ki, onların da əksəriyyəti erməni vandalları tərəfindən dağıdılaraq məhv edilmişdir.

Xocavənd və Xocalı rayonları ərazisində də qədim Alban xristian abidələri ilə yanaşı, onlarla digər milli tarixi-mədəni abidələrimiz, o cümlədən İslam dini abidələrimiz düşmən tərəfindən mənəvi terrora məruz qalmışdır. Bunlar arasında Xocavənd rayonu Niki kəndində XII əsrə aid Bağır xan məbədi, Muğanlı məscidi göstərmək olar [3]. Xocavənd rayonu üzrə 93 tarix və mədəniyyət abidəsi qeydə alınmışdır [3, s. 53]

Xocalı rayonu ərazisində Daş qutu nekropolu (Tunc dövrü) – Xocalı şəhəri, Əsgəran dağında Nekropol (İlk və Orta Tunc dövrü) – Xankəndindən cənubda, Küp qəbirlər nekropolu (ilk orta əsrlər) – Xankəndinin kərpic zavodunun ərazisində, Kurqan (Dəmir dövrü) – Xankəndinin yaxınlığında, Xankəndi kurqanları (Tunc dövrü) – Xankəndinin şimalında, Xaçınçay nekropolu (İlk və Orta Tunc dövrü) – Seyidşən kəndindən şimal-şərqdə, Küp qəbirlər nekropolu (Tunc dövrü) – Armudlu kəndi yaxınlığında, Kurqan (Tunc dövrü) – Armudlu kəndi yaxınlığında, İlis çayının

sahilində, Daş qutu nekropolu (Dəmir dövrü) – Armudlu kənd qəbiristanlığının yanında Daş qutu nekropolu (Dəmir dövrü) – Saruşen kəndi, Daş qutu nekropolu (Dəmir dövrü) – Saruşen kəndi, Köhnə qəbiristan (Tunc dövrü) – Çanaqçı kəndi, Qala (X əsr) – Maşxmaat kəndi, Aslan qalası (IX əsr) – Anabert kəndi, Qırxlar qalası (orta əsrlər) – Badara kəndi qoç və yəhər şəkilli qəbir daşları – Xocalı kəndində yerləşir [7, s.14-16]

Cəbrayıl ərazisində – Ağoğlan nekropolu (ilk orta əsrlər), Məscidtəpə kurqanı (Tunc dövrü) – Qalacıq kəndi, Canqulu kurqanı (Tunc dövrü) – Mahmudlu kəndi, Quştəpə kurqanı (Tunc dövrü) – Mahmudlu kəndi, Karxulu kurqanları və yaşayış yeri (Tunc dövrü), Naftalı kurqanları (Son Tunc və İlk Dəmir dövrü), İmanqazantəpə kurqanı (son tunc dövrü) – Şıxlar kəndi qədim insanların yaşayış məskənlərindən biri olduğunu təsdiq edir [5, s.77].

Rayon ərazisində 2 məqbərə, 8 məscid, 3 türbə, 2 xanəgah, 35 pir və ocaq, 8 kurqan, 2 körpü, 4 kəhriz, 5 qala və qala bürcü, 2 mağara, 5 qəbiristanlıq və s. (cəmi 95) tarixi dini abidə dövlət tərəfindən qeydə alınmış və mühafizə olunurdu [2, s. 31]

Füzuli rayonunda memarlıq abidələrindən Əhmədalılar türbəsi, Babi türbəsi, Mirəli türbəsi, Füzuli şəhərində Hacı Ələkbər məscidi (XIX əsr), Qarğabazar kəndində Hacı Qiyasəddin məscidi (1682), Karvansara (1684), türbə (XVIII əsr), Qoçəhmədli kəndində məscid, Qarğabazar kəndində XVII Əsr karvansara, Qarğabazar kəndində XVII əsr məscid binası, Qarğabazar kəndində XVIII əsr Cəlil türbəsi, Aşağı Veysəlli kəndində XIII əsr Mirəli türbəsi göstərilə bilər [5, s. 79].

Zəngilanın tarixi memarlıq abidələri – Şərifan abidələri (IX-XVI əsrlər), Şəhri Şərifan yaşayış yeri (orta əsrlər) – Hacallı kəndi, Ağca Aşıq yaşayış yeri (orta əsrlər) – Qumlaq kəndi, Qız qalası (orta əsrlər) – Qumlaq kəndi, Qəsr qalası (orta əsrlər) – Oxçuçayın Araza töküldüyü yerdə, Şərikan kəndində sərdabə (XIII əsr), Yenikənd kəndində Sərdabə (XIV əsr), Hacallı dairəvi bürcü (XIV əsr), Hacalı qülləsi (XIV əsr) – Məmmədbəyli kəndi, Nekropol (e.ə. VI-IV əsrlər) – Quyudərə Xəştab kəndi, Küp qəbirlər (b.e.ə. IV-II əsrlər) – Yeməzli kəndi, Koroğlu daşı (VII-VIII əsrlər), Bartaz Qız qalası (XIV əsr), Tağlı körpüsü (XVI əsr) – Sobu kəndi, Yəhya ibn Məhəmməd əl-Hoca məqbərəsi – Məmmədbəyli kəndi və s. Zəngilan şəhərindən 8 km. aralı, Əsgulüm dağında 30 m hündürlüyündə, 150 m enində "Qala" divarları (III-V əsrlər) Azərbaycanda tikilmiş müdafiə əhəmiyyətli tarixi abidələrdən biridir. Zəngilan abidələri öz memarlıq xüsusiyyətlərinə görə fərqlənirlər [7, s. 56-63].

İstifadə edilmiş mənbələr və ədəbiyyat

1. Azərbaycan Respublikası Xocavənd Rayon İcra Hakimiyyəti // http://xocavend-ih.gov.az/page/128.html
2. Cəbrayıl rayonunun əsir abidələri // http://www.dqdk.gov.az/az/view/objects/6
3. Xocavənd rayonunun əsir abidələri // http://www/dqdk.gov.az/view/objects/13
4. İsmayılov F. Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər. Bakı, 2016
5. İsmayılov K., Balayev A. Azərbaycanın tarixi-mədəniyyət abidələrinə qarşı erməni terroru. Bakı – 2020, 119 s.
6. Mustafa N. İrəvan xanlığı: Erməni vandallarının yox etdiyi İrəvan məscidləri. Bakı, Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016
7. Müharibə və tarixi mədəniyyət abidələrimiz. İşğal olunmuş Azərbaycan ərazilərində xanəgahlar, pirlər, ziyarətgahlar. AMEA İnsan Hüquqları İnstitutu, Bakı, 2006, 46 s.
8. Nəcəfov B. Deportasiya. Bakı, 1998
9. Robert Cullen, A Reporter at Large, "ROOTS," The New Yorker, April 15, 1991
10. YUNESKO-nun beynəlxalq normativ aktları. Bakı Azərbaycan 1998
11. Декларация Мехико по политике в области культуры, принятая на Всемирной конференции по политике в области культуры, 6 августа 1982 г. ЮНЕСКО, 1982

УДК 377.352

ВНЕДРЕНИЕ ИННОВАЦИЙ В ОБРАЗОВАТЕЛЬНЫЙ И ИССЛЕДОВАТЕЛЬСКИЙ ПРОЦЕСС

[1,3]**Алёна Валентиновна Путренкова,** [2,3]**Валентина Семёновна Печень**
[1]putrenkova-aliona@mail.ru
[2]кандидат сельскохозяйственных наук, доцент
nir.bglk.belstu@gmail.com
[3]Филиал БГТУ «Бобруйский государственный лесохозяйственный колледж»
Республика Беларусь

Основная задача профессионального образования – это подготовка высококвалифицированных рабочих кадров.

На сегодняшний день актуальным становится внедрение инновационных технологий обучения – интерактивных, которые стимулируют интерес к профессии и способствуют эффективному усвоению профессиональных знаний. Использование интерактивных технологий в образовании диктуется временем и особенностями современного социума, в котором взаимосвязь между научным знанием, культурой, технологиями и техникой становится все более тесной и всеобъемлющей.

На современном этапе развития общества квалифицированный специалист характеризируется не только объемом и качеством знаний, но и умением применять эти знания каждый раз в неповторимой ситуации. Человек живет в быстро изменяющемся мире, поэтому готовые решения часто не приносят желаемых результатов, кроме того сфера применения профессиональной деятельности постоянно расширяется и усложняется. Важность данной проблемы заключается в том, что от уровня подготовленности кадров и от их квалификации во многом зависит эффективность производства. Чтобы общество двигалось вперед уверенно, каждое новое поколение должно подниматься на более высокий уровень образованности и культуры, профессиональной квалификации и гражданской активности. Для развития любого общества нужны квалифицированные рабочие, обладающие не только профессиональными знаниями, умениями и навыками, но и приемами творческого труда [4].

И в этом важная роль отводится профессиональным учебным заведениям, которые вооружая учащихся современными знаниями и жизненным опытом, по существу, работают на будущее. Преподавателям необходимо мотивировать учащихся, как к освоению конкретной дисциплины, так и развивать интерес к продолжению обучения в будущем, а для этого сам процесс учения должен стать интересным.

Технология обучения – совокупность форм, методов, приемов и средств передачи социального опыта, а также техническое оснащение этого процесса [1].

На сегодняшний день актуальным становится внедрение инновационных технологий обучения – интерактивных, которые стимулируют интерес к профессии и способствуют эффективному усвоению профессиональных знаний.

Интерактивные технологии – это технологии, основанные на диалоге, кооперации и сотрудничестве всех субъектов обучения. Данные технологии обеспечивают процесс обучения, осуществляемый в формах совместной деятельности обучающихся: все участники образовательного процесса обмениваются информацией, совместно решают проблемы, моделируют ситуации, оценивают действия коллег и свое собственное поведение, погружаются в реальную атмосферу делового сотрудничества по разрешению проблем [4].

Предназначение интерактивных форм проведения занятий заключается в том, чтобы организовать деятельность обучающихся по совместному поиску знаний. Процессы

взаимодействия обучающихся должны способствовать не только более интересному способу овладения учебной информацией, но и постоянному осмыслению каждым обучающимся особенностей своей системы знаний, своих мыслительных схем и т.д. [2].

Применение интерактивных технологий в процессе обучения создает для обучающихся возможность:

– активно участвовать в решении задач, применяя и совершенствуя приобретенные знания и умения;

– активное включение каждого учащегося в процесс усвоения учебного материала;

– повышение познавательной мотивации;

– обучение навыкам успешного общения (умения слушать и слышать друг друга, выстраивать диалог, задавать вопросы на понимание);

– развитие навыков самостоятельной учебной деятельности: определение ведущих и промежуточных задач, умение предусматривать последствия своего выбора, его объективная оценка;

– умение работать с командой и в команде;

– приобрести опыт самостоятельного поиска и выработки решений профессиональных ситуаций;

– принимать на себя ответственность за совместную и собственную детальность по достижению результата.

Интерактивные технологии основаны на прямом взаимодействии учащихся (обучаемых) с учебным окружением: задания построены так, чтобы обучение было с хорошо организованной обратной связью субъектов и объектов обучения, с двусторонним обменом информации между ними. Строится на линиях: «учащийся – учащийся», «учащийся – группа учащихся», «учащийся – педагог – учащийся».

Учебное окружение, или учебная среда, выступает как реальность, в которой учащийся находит для себя область осваиваемого опыта, причём речь идёт не просто о подключении эмпирических наблюдений, жизненных впечатлений учащегося в качестве вспомогательного материала или иллюстративного дополнения. Опыт учащегося – это центральный активатор учебного познания. В традиционном обучении ведущий (преподаватель, тренер) играет роль «фильтра», пропускающего через себя учебную информацию, в интерактивном – роль помощника в работе, одного из факторов, активизирующих взаимонаправленные потоки информации. По сравнению с традиционным, в интерактивных моделях обучения меняется и взаимодействие с ведущим: его активность уступает место активности учащихся, задача ведущего – создать условия для их инициативы. В интерактивной технологии учащиеся выступают полноправными участниками, их опыт важен не менее, чем опыт ведущего, который не столько даёт готовые знания, сколько побуждает учащихся к самостоятельному поиску.

Т.С.Панина и Л.Н.Вавилова классифицируют интерактивные технологии обучения по трем группам [5]:

1) дискуссионные: диалог, групповая дискуссия, разбор ситуаций из практики;

2) игровые: дидактические и творческие игры, в том числе деловые, ролевые и организационно-деятельностные;

3) тренинговые: коммуникативные, сенситивные тренинги (направленные на формирование образной и логической сфер сознания).

Авторы А.А.Шехонин, В.А.Тырлыков, О.В.Харитонова, А.Ш.Багаутдинова среди интерактивных методов выделили следующие: дискуссия; компьютерные симуляции; деловая игра; кейс-технология; лекция с ошибками; презентации; мозговой штурм; видеоконференция; вебинар; тренинг; квест; проект и др. [3].

В настоящее время на рынке образовательных услуг лидируют те учреждения образования, которые могут обеспечить высокий уровень профессиональной подготовки специалистов в соответствии с требованиями настоящего времени. Достижение такого уровня невозможно с помощью лишь традиционных методов обучения и организации учебной деятельности, поэтому актуальным становится внедрение инновационных технологий обучения – интерактивных, которые стимулируют интерес к профессии и способствуют эффективному усвоению профессиональных знаний.

С позиций современных требований центр тяжести в обучении сегодня переносится на развитие личности, ее умение самостоятельно пополнять знания и совершенствовать квалификацию. Этот факт предопределяет высокие требования к образовательно-педагогической сфере, в том числе к подготовке квалифицированных специалистов.

Использованная литература

1. Беляева, О.А. Педагогические технологии в профессиональной школе: учеб.- метод. пособие / О.А. Беляева. Минск: РИПО, 2018, 60 с.
2. Ефимов П.П., Ефимова И.О. Интерактивные методы обучения – основа инновационных педагогических технологий // Инновационные педагогические технологии: материалы Международ. науч. конф. – Казань, 2014, с. 286-290.
3. Ильин, М.В. Проектирование содержания профессионального образования: теория и практика / М.В. Ильин. – Мн.: РИПО, 2002, 338 с.
4. Корнеева, Ж. А. Влияние интерактивных образовательных технологий на профессиональную компетентность учителей // Проблемы и перспективы развития образования: материалы IV Междунар. науч. конф. – Пермь, 2013, с. 124–127.
5. Панина, Т.С. Современные способы активизации обучения / Т.С. Панина, Л.Н. Вавилова. – М.: Изд. Центр «Академия», 2008, 176 с.

UOT 39(4/9)

HİKMƏTLİ SÖZLƏRİN ETNOQRAFİK XÜSUSİYYƏTLƏRİ VƏ TƏRBİYƏVİ ƏHƏMİYYƏTİ (GÜRCÜSTAN AZƏRBAYCANLILARININ MATERİALLARI ƏSASINDA)

Əsəd Tanrıverdi oğlu Əliyev
tarix üzrə fəlsəfə doktoru, dosent
AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu
esed.eliyev.2020@mail.ru

XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlıları arasında şifahi söz sənətinin digər janrları (dastan, nağıl, əfsanə, bayatı, oxşama, layla, zərb-məsəllər, tapmaca və gülməcələr, aşıq poeziyası və s.) kimi, etnoqrafik baxımdan maraq kəsb edən hikmətli söz-kəlamlar da geniş yayılmışdır. Bu hikmətli sözlərin tarixi onu yaradan, düzüb-qoşan xalqın özü qədər qədimdir və əsrdən-əsrə, nəsildən-nəslə keçərək cilalana-cilalana müasir dövrümüzədək gəlib çatmışdır.

Hikmətli sözlərdə fikir son dərəcə aydın, dəqiq və lakonik-yığcam şəkildə ifadə edilir. Bu hikmətli söz-kəlamları yaradanlar həyatın bütün sahələrinə bələdliyi ilə seçilən və dərin müşahidə qabiliyyətinə, hadisələri sınaqdan keçirmə bacarığına malik insanlar olmuşlar. Araşdığıcıların da qeyd etdiyi kimi, *“ulu babalarımız bütün dövrlərdə yaşayış tərzləri, inam-etiqadları, hünər-qeyrətləri, alp-ərlikləri, yadelli yağılara qənim kəsilmələri, dostluğa həlim-həzinlikləri haqqında müdrik kəlamlardan, sözün işlək məqamında gah hədəfə dartılmış ox-yay, gah sivrilmiş kəsərli*

Misri qılınc, gah qalxan, gah tətikdə nişangaha tuşlanmış odlu silah, gah səfə çəkilmiş nizami ordunu döyüşə səsləyən zəfər himni, gah sevib-sevilənlərin ürək pıçıltısı-çırpıntısı, gah da qədirbilən nəsillərin qulağında sırğa olacaq nəsihətlər-vəsiyyətlərdən istifadə etmişlər" [Xalqımızın deyimləri və duyumları..., 1986, 81].

Tədqiq etdiyimiz bölgələrin əhalisi içərisindən çıxmış sözqoşma, fikirsöyləmə istedadına malik şəxslər təcrübədə əldə etdikləri nəticələri, əxlaqi-tərbiyəvi fikirləri məhz bu hikmətli deyim-kəlamlarla xalq içərisinə ötürürdülər. Mövcud deyim-kəlamlar həyati məntiqə əsaslanırdı, burada xalq müdrikliyi, biliciliyi boy göstərirdi.

Etnoqrafik xüsusiyyətləri ilə maraq kəsb edən hikmətli deyim-kəlamlara şifahi söz sənətinin istənilən nümunələrində, həmçinin, qəhrəmanlıq və məhəbbət dastanlarında da geniş yer verilmişdir. Bu haqda Kitabi-Dədə Qorqud dastanından da çox şey öyrənirik [Kitabi-Dədə Qorqud, 1988, 131].

Etnoqrafik səfər zamanı yaşlı sakinlərdən əldə etdiyimiz hikmətli sözlər, deyim-kəlamlar əhalinin yaşam tərzini, məişətini təcəssüm etdirir. Məsələn, ailə məişəti, təsərrüfat həyatı və s. bu qəbildəndir.

Ailə məişəti ilə bağlı hikmətli sözlərə, deyim-kəlamlara diqqət yetirək: "Anasına bax, qızını al", "Anası gəzən ağacı balası budaq-budaq gəzər", "Ərlə arvadın torpağı bir yerdən götürülər", "Kişisiz ev sahibsiz, qadınsız ev tumarsız olar", "Ailədə söz kişinin, köz samovarındı" [Ə.Əliyev, 1995, 52], "Analı qızın özü, anasız qızın sözü böyüyər", "Anasız qızın göz yaşı dəyirman daşından ağırdır", "Ananın övladı üçün nələr çəkdiyini ana olanlar bilər", "Ana kimi yar, Bağdad kimi diyar olmaz", "Arvadsız ev-urvatsız ev", "Arvad ərini rəzil də edər, vəzir də", "Oğul doğasan ər beldən, qız alasan əsildən", "Dedi-qoduya uyan arvadını tez boşayar", "Əri döşəkdə, uşağı beşikdə sevərlər", "Evin yaraşığı uşaq, süfrənin yaraşığı qonaqdır", "Ev yiyəsinin işinə qarışan qonaq urvatını itirər", "Yaxşı oğul atasını vəzir eləyər, pis oğul rəzil", "Kirvə kirvənin damına çıxmaz ki, torpaq tökülər", "Əsaya söykənib gəzən qocaya bəzən bir el söykənər", "Qocalar evin sütunudur", "Qocanın biliyi-cavanın biləyi", "Qocadan demək, cavandan eşitmək", "Qoca əkər, cavan biçər", "Hərə öz evinin qibləsini bilir", "Qadınsız ev tumarsız olar", "Oğul atanın köşənini əkər", "Oğlana balacalıqda qız verən çox olar", "Oğul evin dirəyi, qız yaraşığıdır", "Fərsiz oğuldan olmasa daha yaxşıdır", "Övlad atadan yox, anadan yetim qalar".

"Övlad atadan yox, anadan yetim qalar",- deyim-kəlamı neçə yol sınama və müşahidədən sonra bu sətirlərin müəllifinin sinəsindən axıb gələn aşağıdakı bənddə öz ifadəsini belə tapmışdır:

Acısı bəllidi anasızlığın,
Heç bala anadan yetim qalmasın.
Ana ağızda dad, ata damaqdı,
Allah heç birini əldən almasın.

Anadı suyumuz, nəfəs yerimiz,
Ana yox olanda quruyarıq biz.
Üzər içimizi fikir, dərd-azar,
Vaxtından çox əvvəl qarıyarıq biz.

"Övladın tərbiyəsi onun danışığınnan bəlli olar", "Ailədə söz böyüyün, süfrə kiçiyindi", "Böyüyün sözünü kəsən böyüməz", "Böyüyə hörmət etməyən əppəyə həsrət qalar", "Böyük – buyruqda, kiçik – qulluqda", "Böyüyü sayılmayan evdə ruzi-bərəkət olmaz", "Böyüklü evdə bin-bərəkət qaynayar", "Böyüyə yol verməyən yolsuz qalar", "Böyüyün üzünə ağ olan böyüməz", "Böyüyün əlindən öp, ətəyindən yapış", "Böyüyə arxa çevirmə, arxan yerdə qalar", "Ata olmaq asandır, atalıq eləmək çətin", "Atam ilə atanı deyincə, özümlə özünü de", "Ailəsinin qədrini bilməyən el-obasının da qədrini bilməz", "Kişi qızı olma, kişi arvadı ol", "Kişi öz sözünün ağası olar", "Kişinin sözü ilə əməli bir olar", "Kişini yaxşı arvadla yaxşı at cavan saxlar", "Kişi tüpürdüyünü yalamaz", "Kişi sözü üzə deyər", "Ərə getmək asandır, ər donu tikmək çətin", "Ərsiz

arvad cilovsuz atdır", "Ərinə görə bağla başını, qazanına görə qaynat aşını", "Arvadsız ev susuz dəyirmandı", "Arvad yıxan evi fələk də yıxa bilməz", "Arvad ərini rəzil də edər, vəzir də", "Pis arvadlı kişinin şalvarı yırtıq olar", "Əzizim əziz olsun, tərbiyəsi bir artıq", "Ata övladın görk yeridi", "Vaxtında qızını döyməyən sonra dizini döyər", "Oğlan evinin xəbəri yoxdur, qız evində toy çalınır", "Qız yükü-duz yükü", "Qızlığı nə idi ki, gəlinliyi də nə ola?", "Yaxşı qızdan yaxşı da gəlin olar", "Gəzəyən qızdan gəlin olmaz", "Yeddi fərsiz oğuldan bir fərli qız yaxşıdır", "Qız deyil, qızıl qırığıdır, qədrini bilən olsa", "Qız var üzü həyalı, qız da var ayağı sayalı", "Qız özgə ocağını qalayar", "Qız yükü-duz yükü", "Qız var zəli kimi, qız da var zəlil kimi", "Qız var ağır taxta, qız da var sözü saxta", "Qız öyündə toydu, oğlan öyünün xəbəri yoxdu", "Qız ağacı qoz ağacıdır, hər gələn bir daş atar", "Qız qapısı - şah qapısı, mini gələr, biri razı gedər", "Qızı öz xoşuna qoysan, ya danaçıya gedər, ya zurnaçıya", "Qızını ərə verib, özünə oğul qazanmısan", "Qızı ərə verməyib, saxlayanda un çuvalına dönər", "Qız var elə qonaq, qız da var elə qınaq", "Qız var əldən iti, qız da var dildən iti", "Qız var əldən ötgəm, qız da var dildən ötgəm", "Qız var evə baxar, qız da var ev yıxar", "Qız dil anası deyil, el anası olmalıdır", "Gəlin var ər ucaldar, gəlin də var ər qocaldar", "Gəlin var elə gətirməli, gəlin də var eldən ötürməli", "Gəlin var üz ağardar, gəlin də var üz qaraldar", "Gəlin var toya qaçar, gəlin də var hoya çatar", "Gəlin var dərd xanası, gəlin də var el anası", "Gəlin var işi öyməli, gəlin də var söyməli", "Gəlin var qızıl əlli, gəlin də var pırpız telli", "Gəlin var nur kimidi, gəlin də var qara qır kimidi", "Gəlin var üzə gülər, gəlin də var başa kül ələr", "Harda toydu, orda gəlindi", "Arvad var ağzı mırıq, arvad da var işi fırıq", "Arvad var könül güldürər, arvad da var ürək bulandırar", "Arvad var işə yarıyar, arvad da var ərə qarğıyar", "Arvad almamış övlad arzusuna düşmə", "Arvad var od parçasıdı, arvad da var üz qarasıdı", "Qarı var toy üçün, qarı da var vay üçün", "Qarı var balağı batdaq, qarı da var dabanı çatdaq", "Qarı var dodağı yer süpürər, qarı da var dərd yükü götürər", "Qarı var iş qurandı, qarı da var iş pozandı", "Qarı var elə analıq elər, qarı da var düz işi o yanalıq elər" və s.

Yuxarıda qeyd etdiyimiz hikmətli sözlərin, deyim-kəlamların bəzisinə M.Həkimovun əsərində də rast gəlirik [M.Həkimov, 1997, 60-63].

Onu da deyək ki, hikmətli sözlər, deyim-kəlamlar xalq yaradıcılığının müxtəlif nümunələri kimi, gülməcələrin də canına-qanına hopmuşdur. Bu baxımdan Qaraçöpdə yayılmış "Mən niyə günaha batım?" gülməcəsi etnoqrafik baxımdan çox maraqlıdır və mətndəki fikrin alt qatında ailə məişətinin ən mühüm, həmçinin ən kövrək nöqtəsinə toxunulmuşdur. Həmin yazını burada verməyi məqsədəuyğun bildim: İki sadiq dost var imiş, bir-birinə can deyib, can eşidirlərmiş. Vaxt olur bunların pay üstündə sözü tərs gəlir. Dünya malı şirin şeydi, ikisinin də ağlını alır, biri vurub o birini öldürür. Ölənin balaca oğlu var imiş, oğlan böyüyüb həddi-büluğa çatır, əhvalatı eşidəndən sonra atasının qanlısını öldürməyə and içir. Sağ qalanın yaylaqda binəsi var imiş. Oğlan yaraqlanıb-yasaqlanıb binənin yolunu kəsir. Bir də baxır ki, budu, kişi atın belində mahnı oxuya-oxuya gəlir. Oğlan tüfəngi qaldırır ki, vursun, bu yerdə kişi şirin bir zəngulə vurur. Oğlanın əli gəlmir, öz-özünə deyir ki, bu yerdə onun kefini pozmaq kişilikdən deyil, qayıdanda öldürərəm.

Aradan beş-on gün keçir. Oğlan bir də baxır ki, budu ha, kişi atın belində gəlir, amma bu dəfə oxumur, elə ağlayır, elə ağlayır, gözünnən sel-su axır. Qalır mat-məhəttəl. Qalxıb çıxır yolun ortasına, tüfəngi kişiyə çöyürüb qışqırır:

- A kişi, əllərini qaldır, özün də kəlmeyi-şəhadətini de, mən flankəsin oğluyam, səni öldürəcəm.

Kişi əllərini qaldırır, kəlmeyi-şəhadətini də deyir, sonra qayıdır ki:

- Oğul, öldür, canım bu zulumnan qurtarsın.

Oğlan deyir:

- Öldürməyinə öldürəcəm, amma, sənnən bir şey soruşacam, düzünü deməlisən. Beş-on gün qabaq bu yolnan oxuya-oxuya gedirdin, bə indi niyə ağlıya-ağlıya qayıdırsan?

Kişi cavabında deyir: - Oğul, o gün cibim də doluydu, ürəyim də, onunçün oxuyurdum. Öydə arvad yediyimi-içdiyimi burnumdan tökdü, qannan yatdım, irinnən qalxdım. O gün olmadı ki,

zəhərini üstümə tökməsin. Axır canımnan da bezdim. İndi də öz canımı ağlıyıram. Öldür, bəlkə bu zulumnan birdəfəlik qurtaram. Oğlan bunu eşidib tüfəngi aşağı salır, qayıdır ki: - A kişi, səni ki, arvad öldürübmüş. Bə, güllə atıb mən niyə günaha batım?! [Qaraçöp, 1996, 230-231].

Tədqiq etdiyimiz bölgələrin əhalisinin təsərrüfat həyatı ilə bağlı və etnoqrafik nöqteyi-nəzərindən maraq kəsb edən deyim-kəlamlar çox olsa da, onların bir qismini verməyi məqsədəuyğun sayırıq: "İnəyini yekə yox, iki istəyirsənsə yonca ək", "Südlü inək vurağan olar", "Südlü inəyi naxırdan çıxartmazlar", "Təkə sürüyə böyük olmazdı, qoyunlar qoyun olsaydı", "Keçi kasıbın inəyidir", "Quzu çoban üçün deyil, çoban quzu üçündür", "Qoça buynuzu ağırlıq eləməz", "Keçidən dövlət, toyuqdan bərəkət olmaz", "Çobanın könlü olsa, təkədən pendir tutar", "Südlü qoyun sürüdən ayrılmaz", "Düyüsünü əkməyənə aş düşməz", "Arpa döyüləm at, kəpək döyüləm it yeyə", "Çoban var aparıb-gətirir, çoban da var otarıb gətirir", "Qoyun çobanın çomağının kölgəsindən hürkər", "Cütcünün anbarı cütün ucunda olar, deyəllər", "Cütə gedən öküz gözündən tanınar", "Kəl qoşub cüt sürməyən çörəyin qədrini hardan bilər?", "Xırmanın tozu bərəkətli olar", "Bostançıya tərə satılmaz", "Bağban əli dəyməyən bağı ot basar", "Ağ qoyunun da qara quzusu olur", "Quzunu yaxşı bəslə, səni var-dövlət səsləsin", "Südlü qoyun sürüsündən bəllidi", "Təki mənim inəyim südlü olsun, təpikləməyinin ziyanı yoxdu", "Nəhrəni vaxtında çalxarlar", "Qoyuna gedən qoça da gedər", "Qarmaq əldən düşəndə beldən yapışarlar", "Buzovunun (balasının) mələrtisi inəyi çöldən qaytarar", "Duz yalamayan heyvanın əti şirəsiz olar", "Mal-qarasına yaxşı qulluq eyləyənin nehrəsi yağ (süd) çalxar", "Əkməyən nə biçər", "Əkib-biçməyən özgəyə möhtac olar", "Toxumluğunu yeyənin boğzına qurd düşər", "Kotan bilir qayış nə çəkir?", "Qayış nə bilir öküz nə çəkir?", "Dəyirmanın səsindən diksinən un üyütməz", "Yəhər atın da, at yiyəsinin də belində gəzər", "Atı palan, şahı yalan saxlar, deyəllər" və s.

Gürcüstan azərbaycanlıları içərisində yaxşı və yamanla əlaqədar yaranmış hikmətli sözlər, deyim-kəlamlar da geniş yayılmışdır: "Yaxşı insan gördüyünü, pis insan eşitdiyini danışar", "Yaman yeyənin olsun, yaman deyənin olmasın" [Azərbaycan folkloru antologiyası.., 2011, 74], "Yaxşı qəhətə çıxıb, yaman gözə girir", "Yaman günün ömrü az olar", "Yaxşı at özünə qamçı vurdurmaz", "Yaman günə səbr edən, yaxşı günə tez çatar", "Yaxşılıq yerdə qalmaz", "Yaxşı igidin adını eşit, üzünü görmə", "Dad yaman əlindən", "Yaxşını yada vermə - hayıfdır, yamanı yada vermə - ayıbdır", "Yamanı görməyincə, yaxşının qədri bilinməz", "Yaxşı saxla adını, bədnamlıq el gəzə", "Yaxşılıq et at dəryaya, balıq bilməsə, xaliq bilər" və s. Onu da deyək ki, bu kimi bir sıra müdrik kəlamlar Azərbaycanda da çox yayılmışdır [Azərbaycan folkloru: (məktəblilər üçün seçmələr), 2005, 159; Atalar sözü (İkinci nəşr), 1982, 104-105].

Əhali arasında dost-düşmənlə bağlı da hikmətli sözlər yaranmış və yayılmışdır. Tədqiq etdiyimiz Gürcüstan azərbaycanlıları ilə bağlı bir kitabçada qeyd edilir ki, dost adıyla deyil. Onun da yaxşısı-pisi var. Yaxşısı odur ki, çətin günündə, sıxıntılı anlarında sənin lə əl-ələ, kürək-kürəyə verir, dərdini dərdi, sevincini sevinci bilir. Uğrunda ölüm badəsini bir dolça dağ suyu kimi başına qaldırmağa hazırdır. Dostuna dost, düşməninə düşməndir. Pisi isə odur ki, gecə-gündüz sənin lə bir süfrədə çörək kəsir, qəpik-quruşuna tamah salıb əlindən üzdürür, dabanın o yana dönən kimi arxanca danışır, qeybətini qırır, dara düşəndə isə sıpıxıb aradan çıxır. Belə dostluq uzun çəkmir, uzaq-yaxın sandıqlar açılıb, pambıqlar tökülür və onun əsl siması üzə çıxır. Bununla da birləşib dost sözünü əmələ gətirən D, O, S, T hərflərinin üstündən bir yekə qara xətt çəkilir [Ə.Təhləli, 2006, 51].

Dost barədə böyük Nizami "Yeddi gözəl" əsərində belə yazırdı:

Yaxşı ad qazanmış gözəl dost ara,
Ondan yetişərsən ağ günə, vara.
Xoş ətirli bir dost yaxşıdır, inan,
Hərzə-hərzə durub danışanlardan.
Bir dostun da olsa eyibli əgər,
Yüzünün adına ləkə yetirər.

Bu şeir parçasından alınan nəticə budur ki, iş-gücündən, varlı-kasıblığından asılı olmayaraq, hər bir insan özünə bab dost seçməli, səmimi, haqqpərəst, düzgünlüyü, saflığı özünün ən müqəddəs amallarından sayan adamlarla dostluq etməli və yaxşını pisdən ayırmağı bacarmalıdır.

Sədi Şirazi isə həqiqi dostluqla, ümumiyyətlə, insanlıqla bağlı fikrini "Bustan" əsərində aşağıdakı formada açıqlayırdi:

Yanımda ac, yoxsul görsəm mən əgər,
Yediyim tikəni sanaram zəhər.
Bir dostu düşübsə əgər zindana,
Kef ləzzət verərmi bağda insana?!

Şair Kamandar Mamocoğlunun dost haqqında söylədiyi fikirlər də çox maraqlı və ibrətamizdir. Yüz yol ölçüb-biçmədən, sınamadan sonra şairin gəldiyi qənaət öz əksini aşağıdakı şeirində belə tapmışdır:

Yaxşı dostu sınayarlar üç şeydə:
Şərik işdə, qürbət eldə, dar gündə.
Bu sınaqdan kamil çıxan dostlara
Baş əymək də ar gətirməz var gündə.

Uca zirvələrin başında qardı,
Dağların köysündə yazdı, bahardı.
Adamın qorxduğu namusdu, ardı,
Görmüşəm tökəni namus, ar gündə.

Bu dünyada yaxşı, yaman görmüşəm,
Dost yolunda ölüb-qalan görmüşəm,
Pula görə qardaş olan görmüşəm,
Gendə durar, gendə gəzər şər gündə.

Mamocoğlu misi qatmaz zərinə,
Dəryalarda balıq üzər dərinə.
Sərim qurban o dostların sərinə
Arxa ola, dayaq dura hər gündə [Mamocoğlu, 2002, 75].

Dostluğu bacarmayanlar barədə Gürcüstan azərbaycanlıları arasında bəlli olan başqa bir poetik nümunə də maraq doğurur:

Mənlə yeyib-içən kəslər,
İşıq kimi keçən kəslər,
A qəlbimnən köçən kəslər,
Sözüm sizlərə-sizlərə!

Dilim qan alınan yerdi,
Könlüm yurd salınan yerdi,
Canım od qalanan yerdi,
Közüm sizlərə-sizlərə!

Nar ağacı nar verməzmi?
Təhlə dağı qar verməzmi?
Bir az həya, ar verməzmi
Üzüm sizlərə-sizlərə?!

Gündüzdən xoş olub gecə,

Kəhər atlar düşüb gicə.
Əsəd deyər: - daha necə
Dözüm sizlərə-sizlərə?! [Ə.Təhləli, 2006, 55].

Dost və düşmənlə bağlı əhali arasından topladığımız hikmətli sözlərdən bir qisminu burada qeyd edirik: "Dostunun dostu ilə dostluq elə", "Dostunun düşmənindən sənə dost olmaz", "Dostla alver etməzlər", "Dost başa, düşmən ayağa baxar", "Dostun sevincinə sevinər, qəminə qəmlənərlər", "Dost dostun üzünə gülüb, arxasıyla danışmaz", "Gen günün deyil, dar günün dostuna sığınarlar", "Dost yüz, düşmən bir olsa da çoxdur", "Dostun dostluğunu dar gündə bilərsən", "Dost gözünü sevinən görən düşmənin ürəyi ağlayar", "Dostluqda büdrəyən kəsdən düşmən yaxşıdır", "Düşmən saman altından su yeridər", "Düşmənin hiyləsinə aldanan sərkərdə qoşunsuz qalar", "Sən düşməni susdurmasan, düşmən səni susduracaq" və s.

Öyrəndiyimiz bölgələrin əhalisi içərisində yemək-içmək, ağrı-acı, dərd-bəla, ev-eşik, od-ocaq, at, uzunqulaq, it, eləcə də digər məsələlərlə bağlı da xeyli hikmətli sözlər, ifadələr, deyim-kəlamlar mövcuddur. Onlardan bir qismini burada sadalayır, yaxud, qeyd edirik: "Yeməklə doymayan, yalamaqla heç doymaz", "Yeyəndə yaxşı çeynə, deyəndə yaxşı fikirləş", "Yemək adamı iki deyil, yekə eləyər", "Gördün yemək, daha nə demək?", "Tərə yeyən də yaza çıxar, kərə yeyən də", "Elə ye ki, bir az da boş yerin qalsın", "Yeməyin qulu, deməyin ağası olma", "Yeməyin qulu, işləməyin xəstəsi olma", "Elə bil yeyib-içib dünyadan köçüb", "Elə ye ki, həmişə yeyəsən", "Elə ye ki, boğazında qalmasın", "Elə ye ki, qusmayasan", "Ortada yeyir, qıraqda gəzir", "Elə ye ki, qarın qulu deməsinlər", "Səhər yeməyini özün ye, günorta yeməyini yoldaşına ver, axşam yeməyini düşməninə!", "Acın gözü çörək təknəsində olar", "Aca darı çörəyi halvadan da şirindi", "Çörəyin ətrini acdan yaxşı bilən olmaz", "Çörək itirən çörək tapmaz", "Başsızın başı ağrımaz", "Ağrının insafı ha olmur", "Ağrı cana gələn üzlü qonaqdı, qovsan da getməz", "Cana gələn ağrı can yiyəsinə gənəşmir", "Dərdi verən allah dərmanını da verər", "Dərd var gələr keçər, dərd var dələr keçər", "Allah dərdi yaxşı çəkənə verər, deyiblər", "Dərdi dərd bilənə söyləyərlər", "Dərdi olan çimir qaxmaz", "Dərd yaxaladımı, əl çəkməz", "Dərd gözdən baxar, içdən yeyər", "Böyüyün böyük, kiçiyin kiçik dərdi olar", "Evdə iki arvad olanda ev yaraşıq bilməz", "Evin sirri çölə çıxmaz", "Evin yaraşığı uşaqdır", "Ev yıxanın evini vay tanıyar", "Evin təmizliyi çölündən bəlli olar", "Od düşdüyü yeri yandırar", Od odu, tüstü tüstünü çəkər", "Ocaq yeri külündən bəlli olar", "Ocaqdan ocaq törəyər", "Ocağı gur yanan nəm çəkməz", "Ocaq içindən alışar" və s.

Materiallardan da məlumdur ki, ta qədim zamanlardan əsas minik nəqliyyatı at idi. Sürətli, rahat və etibarlı bu minik vasitəsi uzaq məsafələri, dağ-aran yollarını qət etməkdə daha münasib sayılmış, əhalinin köməkçisinə, yol yoldaşına, dostuna, həyanına çevrilmişdir. Təsadüfi deyil ki, türk xalqları atı digər heyvanlardan çox üstün tutmuş, ona misilsiz dərəcədə məhəbbət bəsləmiş, qayğı göstərmişlər [Ə.Əliyev, 2019, 166]. Elə atın ilk dəfə əhliləşdirilməsi də türklərin adı ilə bağlıdır. C.Heyət yazır ki, V.Şmidt, O.Minkin, V.Kolpers, F.Flor kimi məşhur kültür tarixçilərinin fikrinə görə at ilk dəfə türklərin əcdadı tərəfindən əhliləşdirilmiş, minik və savaş üçün işlədilmişdir. Çin və Bizans müəlliflərinin yazdığına görə, hunlar at üstündə yaşarmışlar, sanki at üstündə anadan olmuşlar və atı müqəddəs sayarmışlar [C. Heyət, 1993, 45].

Yeri gəlmişkən deyək ki, türk xalqlarının ata münasibəti nağıl, rəvayət, əfsanə, məhəbbət və qəhrəmanlıq dastanlarında da özünə yer eləmişdir. Məsələn, Koroğlu dastanından misal gətirdiyimiz aşağıdakı şeir nümunəsinə diqqət yetirək:

Həmzə, atı yaxşı saxla,
At iyidin qardaşıdı.
Gündə muğayat ol, yoxla,
At iyidin qardaşıdı.

Yaz olanda dağa yollat,
Yay olanda ifçin nallat,

Qış olanda məxmər çullat,
At iyidin qardaşıdı.

...Sərin-sərin yu suyunan,
Quyruğu bağlı muyunan,
Qoç Koroğlu çox öyünən
At iyidin qardaşıdı [Koroğlu, 2005, 172].

Yüksək keyfiyyəti ilə diqqət çəkən və er. ə. IV minilliyin axırlarından nəqliyyat vasitəsi kimi istifadə edilən at [Т.Керимов, 2004, 10; F.Vəliyev, 2010, 212] barədə xalqımız, eləcə də onun tərkib hissəsi olan Gürcüstan azərbaycanlıları içərisində çoxlu sayda hikmətli sözlər, deyim-kəlamlar işlənir: "At igidin qardaşıdır", "Atlı yolçu yol yorar", "Atlı yolçu yolda qalmaz", "Yaxşı at özünə qamçı vurdurmaz", "Atın arpasını, itin yalını əsirgəməzlər", "At kimindir?- minənin, yol kimindir?- keçənin", "At atdan xasiyyət götürər", "Ata dost kimi bax, düşmən kimi min", "At almamış noxta davası edir", "Atdan düşmək bir eyib, eşşəyə minmək iki eyib", "At getdi, örkəni də apardı", "Atı birində bəslə, ikisində gözlə, üçündə min, dördündə oldu at, olmadı sat", "Özgə atına minən tez düşər", "At mıxı çıxardanda iki özünə, bir yerə vurar", "Atın yəhəri götürüləndə çılpaq qalar", "At olmayanda eşşəyin atlığı başlar", "At ölüb, eşşəklər meydan sulayır".

Öyrəndiyimiz əhalinin təsərrüfat məişətində digər heyvanlar (məs: öküz, kəl, dəvə və s.) kimi uzunqulaqdan – eşşəkdən də geniş istifadə etmişlər. Etnoqrafik materiallar göstərir ki, bu yük heyvanı çobanlar üçün daha sərfəli nəqliyyat vasitəsi sayılırdı. Çünki o, həm aclığa davamlı və sakit idi, həm də arandan yaylağa köç zamanı, həmçinin geri dönüşdə qoyun sürülərindən aralanmır, onlarla birgə yol qət etməyi, ayaqlaşmağı bacarırdı [Ə.Əliyev, 2019, 172-173].

Yaşlı adamlar danışır ki, tədqiq etdiyimiz bölgələrin dağlıq və dağətəyi kəndlərində eşşəkdən təkcə yükdaşımada deyil, lap çox-çox əvvəllərdən minik vasitəsi kimi də istifadə edilərdi.

Uzunqulaqla – eşşəklə bağlı əhali içərisində bir sıra deyimlər mövcuddur. Həmin deyimlərin müəyyən qismini yazıya gətiririk: "Eşşəyi yüz də şallaqla, yenə eşşəkliyində qalacaq", "Eşşək əvəzinə palanı döyməklə, eşşək yoluna düzəlməz", "Eşşəyə min, ata çatanadək", "Eşşək nə bilər xurma nədi?", "Eşşək eşşəkdi, batdığı yerdən bir də keçmir", "Eşşək ya oduna gedər, ya suya!", "Eşşək anqırar tayını tapar", "Eşşəyə minmək bir eyib, düşmək iki eyib", "Dünyaya eşşək gəlib, eşşək də getdi!", "Kim eşşək olar, biz ona palan olarıq", "Qoduğun qoduqluğu eşşək olana qədərdir!".

Qocalarla apardığımız etnoqrafik sorğulardan bəlli olur ki, öyrəndiyimiz bölgələrin əhalisinin təsərrüfat məişətində, əsasən də maldarlıq-qoyunçuluqda it əvəzedilməz rol oynamışdır. Tədqiqatçılar yazır ki, it Mezolit dövründə insanın əhliləşdirdiyi ilk heyvandır. Əvvəlcə ovçulara kömək edən itin yardımçı rolu maldarlığın inkişafı ilə daha da artmış və bu səbəbdən o, sürətlə çoxaldılmışdır [X.Xəlilov, 1992, 73].

İt, çobanların ən etibarlı, vəfalı dostu sayılırdı. Xalq içərisində yayılmış folklor nümunəsində deyildiyi kimi:

Əlindəki dəyənək
Qalxanıdı çobanın.
Yanındakı boz köpək
Yoldaşıdı çobanın.

XIX əsrin sonlarında rus tədqiqatçısı A.D.Yeritsov azərbaycanlıların çoban itlərini ən yaxşı ata bərabər tutduqlarını yazırdı [А.Д.Ерицов, 1886, 137].

Əhali arasında itlə bağlı da hikmətli sözlər, deyim-kəlamlar yayılmışdır: "İt hürər, karvan keçər", "İt araba kölgəsində yatar, elə bilər öz kölgəsidir!", "İt öz kölgəsindən qorxar", "Quduran it öz yiyəsini tutar", "İt qorxduğu yerə hürər", "İt ulayanda qada gələr", "İtə yiyəsinə görə toxunmazlar", "İtdən utanmasan da, sahibindən utan", "İt itin quyruğunu basmaz", "İt itin ayağını tapdamaz", "İti görüm, qurdu görüm, onu görməyim", "İtin peşəsi hürməkdir", "Salaxana itin

küçüyü də salaxana olar", "Qonşu iti qonşuya hürməz", "Xalqa it hürür, bizə də çaqqal ulaşır", "Qulağı kəsilməyən it tez basılar", "Hürmüyən it qonaqötürən olar", "İt hürdü, çərçi gəldi, elə bildim elçi gəldi", "İt balası çaqqal olmaz", "İtdən çox çarıx yığan yoxdu, həmişə də ayağı yalındı!", "Namusu itə atıblar, it də yeməyib" və s.

Araşdırdığımız bölgələrdə qonşuluqla əlaqəli hikmətli sözlər, deyim-kəlamlar da kifayət qədərdir. Adətən, oğlunu evləndirmək istəyən valideynlər gözaltı etdikəri qızın xasiyyətini, işgüzarlığını, təmizkarlığını və s. onun qonşusundan soruşardılar. Maraqlanılan qız barədə qonşu yaxşı məlumat verib, tərifləsə idi, ona elçi gələrdilər. Aldığımız bilgiyə görə, "Qonşusu yaxşı olan kəsin kor qızı da ərə gedər", "Elə qonşularım var ki, on şikəst qızım da olsa, ərə verəcəyəm" və s. hikmətli söz, yaxud, deyimləri məhz bu münasibətlə söylənilmişdir. "Yaxşı qonşu uzaq qohumdan irəlidir", "Qonşu qonşuya baxar, özünü oda yaxar", "Qonşun pisdir, köç qurtar" kimi ibrətamiz kəlamlar əhali içərisində daima işlək vəziyyətdə olmuşdur. Təsadüfi ki, keçmişdə insanlar yurd salarkən, ev tikərkən qonşu olacaq adamların kimliyinə xüsusi diqqət yetirərdilər. Çünki, hər an yaxşı qonşu tapmaq, pisdən isə can qurtarmaq çox çətin olduğunu onlar yaxşı bilirdilər. Qonşuluqla bağlı nəsihət xarakterli şeirində Ə.Marağalı yazırdı ki:

Qonşun bilməsən ki, kim olacaqdır,
Ev üçün pul tökmək, bil ki, nahaqdır.
Bir mərd və sınanmış qonşu tap ki, sən
Ona qonşu olub, ev tikdirəsən.

Bu haqda etnoqrafik və digər ədəbiyyat materiallarında da məlumat verilir [Ə.Təhləli, 2006, 41-42].

Beləliklə, haqqında danışdığımız hikmətli sözlərin, deyim-kəlamların quruluşundan, məna tutumundan, dəyər yükündən görünür ki, bu cür ibrətamiz kəlamları düzən-qoşan ulularımız, ağsaqqal-ağbirçəklərimiz yuxarıda da deyildiyi kimi, zəngin dünyagörüşə, sınama və müşahidə qabiliyyətinə, təcrübəyə, qiymətləndirmə bacarığına malik olmuşlar. Məhz belə hikmətli sözlər nəinki ailə daxilində, həm də cəmiyyət arasında mühüm tərbiyəvi əhəmiyyət kəsb etmiş, insanlara görəcəkləri iş barədə əvvəlcədən düşünmə vərdişləri aşılamış, onlarda nəyin yaxşı, pis olduğuna, hansı əməllərin xoş təəssürat yaradacağına əminlik yaratmışdır. Haqqında danışılan və etnoqrafik baxımdan maraq kəsb edən hikmətli sözlərdən, deyim - kəlamlardan öyrəndiyimiz əhali içərisində yeri gəldikcə bu gün də istifadə olunmaqdadır.

İstifadə edilmiş ədəbiyyat

1. Atalar sözü (İkinci nəşri). (Toplayanı, tərtib edəni və nəşrə hazırlayanı Əməkdar mədəniyyət işçisi Ə.Hüseynzadə). Bakı: Yazıçı, 1982, 336 s.
2. Azərbaycan folkloru: (məktəblilər üçün seçmələr. Tərtib edəni və ön sözün müəllifi B.Abdulla). Bakı: Şərq-Qərb, 2005, 360 s.
3. Azərbaycan folkloru antologiyası, XXII kitab (Borçalı – Qarapapaq folkloru. Toplayıb tərtib edən və ön sözün müəllifi: V.Hacılar). Bakı: Nurlan nəşriyyatı, 2011, 444 s.
4. Əfəndiyev P.Ş. Azərbaycan şifahi xalq ədəbiyyatı. Ali məktəb üçün dərslik. Bakı: Maarif, 1992, 477 s.
5. Əliyev Ə.T. Gürcüstan azərbaycanlılarının mənəvi mədəniyyəti. Bakı: Elm, 1995, 128 s.
6. Heyət C. Türklərin tarix və mədəniyyətinə bir baxış. Bakı: Azərnəşr, 1993, 176 s.
7. Həkimov M.İ. Oğuz-tərəkəmə xalq mərasimləri və meydan tamaşaları. Bakı: Maarif, 1997, 232 s.
8. Xalqımızın deyimləri və duyumları (toplayıb yazıya alanı, işləyəni və tərtib edəni Həkimov M.İ.). Bakı: Maarif, 1986, 392 s.
9. Xəlilov X.D. Qarabağın elat dünyası. Bakı: Azərnəşr, 1992, 119 s.
10. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988, 265 s.
11. Koroğlu (mətni hazırlayıb tərtib edənlər: İ.Abbaslı, B.Abdulla). Bakı: Lider, 2005,

12. Qaraçöp (Toplayanlar: N.Əbdülrəhmanlı, F.Xubanlı, H.İlyas. Tərtib edəni və nəşrə hazırlayanı: N.Əbdülrəhmanlı). Bakı: Dünya, 1996, 514 s.
13. Qeybullayev Q.Ə. Azərbaycanın etnik tarixinə dair. Bakı: Elm, 1994, 102 s.
14. Mamocoğlu (Məmmədov Kamandar Camal oğlu). Qürbət nəğməsi. Bakı: Adiloğlu, 2002, 118 s.
15. Təhləli Ə (Əliyev Ə.). Haqqın gözü tərəzidir (Etnoqrafik düşüncələr). Bakı: Azərnəşr, 2006, 60 s.
16. Vəliyev F.İ. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti. Bakı: Şərq-Qərb, 2010, 424 s.
17. Керимов Т.М. Народные транспортные средства Азербайджана в XIX - нач. XX в (историко-этнографическое исследования). Баку-2004,
18. Ерицов А.Д. Экономический быт государственных крестьян Казахского уезда Елисаветпольской губернии / МИЭБГКЗК, т. II, вып. 3. Тифлис-1886.

UOT 81:37.016

ADVANCED WAYS OF TEACHING FOREIGN LANGUAGES

Aygun Mammadova
Doctor of Philosophy in Philology, Associate Professor
Azerbaijan University of Architecture and Construction
azmiuforeignlanguages@mail.ru

The problems of communicative teaching of a foreign language in the system of vocational education have acquired particular importance in the context of the developing importance of foreign languages, resulted by internationalization and globalization trends in recent decades. Orientation to the new aims of education requires a change in the methods and forms of organization of the educational process. A foreign language teacher must be proficient in outstanding teaching methods, using interactive technologies, which are especially useful for improving learning of students in a foreign language. The combination of traditional intensive teaching ways and modern interactive methods is a principal condition for successful foreign language teaching. [1]

In pedagogical practice, the term "active methods and forms of learning" has long been used. It combines a group of pedagogical technologies that reach a high level of activity in the educational pursuit of students. Recently, another term has become widespread - "interactive learning". The modern science of education has proceed toward the moment when there was a require to create pedagogical technologies that provide the most dominant thing in the educational process - the development of the personality of each student, their activity. It is sufficient to form such learning opportunities so that the student strives to reach new outcomes of his work and subsequently fortunately apply them in practical activities. Nowadays, we cannot help but think about what awaits our learners. It is known that the future will require from them a large stock of knowledge not only in the chosen specialty, but in the field of modern technologies. Today, most of job spheres require minimal computer knowledge, so it is very principle when teaching schoolchildren to take into account the fact that modern data technology is of paramount importance.

One of useful types of discussion is a "round- table" technique. Students take seats around the table and discuss a given problem. A host has a leading role; it can be a student or a teacher. The aim of the activity is not to find a final solution, collect as much information as possible, but to

discuss the problem, realize the importance of solving the problem, find out ways to reach the goals. When students sit at a round table, they have eye contact with all members of discussion, everyone feels involved and equally important. It stimulates conversation, grow the number of remark and encourages using non-verbal means of communication (miming, gestures). A "round-table" technique can be connected with a business play or a role play. Project method is a compleceted of research, information processing and other activities carried out by students on their own or in small groups with a view to practical or theoretical solution of an important case.

Project-based learning involves a fundamentally different ways of scaffolding the educational process through students' purposeful activity in regarding to personal interest and aims.

Brainstorming is a very effective kind of discussion which involves most of students into the activity. A teacher announces a topic, a aim of discussion, rules for participants and criteria for evaluating opinions. Then experts are elected or. For instance, the teacher tells his/her students of economic faculty: "Dear students, our environment is not as healthy as the previous years. What could we do to protect it and keep it clean?" Every student tells ideas which are written down by the secretaries. The main rule both for a teacher and a student is that criticism is not allowed. All thoughts must be accepted at this case. A teacher motivates students' participation. Students may improve their classmates' ideas. They can even complete their own idea and move to another. Every student talks a few times, but very shortly – during one minute. At the next stage of the activity all opinions are estimated, grouped and the most admissible ones are chosen.

Role play is one of the most popular techniques among foreign language teachers. Such classes have already proven their efficiency in pedagogy. Taking into account the profits of role-playing as an element of teaching English there are following sides of it. [3]

Lexical side

On the one hand, there is a replenishment of the vocabulary, new words are remembered faster. On the other hand, it becomes possible to apply the previously studied material in practice and "wake up" the "passive" vocabulary by transferring it to the "active" one. After all, the more often we speak a foreign language, the easier it is for us to "extract" the necessary words from memory.

Phonetic side

Due to such tasks, it becomes easier for students to speak on their own and perceive foreign speech "by ear". Getting used to the role, they adapt to real situations that can happen in life.

Grammar side

It is difficult to play without effective knowledge of grammar. However, it is with the help of such tasks that you can not only discover your "weak" sides, but also "pump" them well.

Practical use

Each situation should be built according to a specific scenario and theme, should be clear and interesting to learners. For example, situations are played out in a store, while traveling (at an airport, train station, in an unfamiliar city), with a doctor or in a restaurant, at school or in a museum, at an interview or at work, etc.

Interactive technologies and methods are based on dialogical communication between a student and a teacher, so learning process involves all students in cognitive activity. It means that there takes place exchange of ideas, knowledge and experience. Participating in interactive activities, students learn to communicate, analyze information, think logically, and solve issus. Important conditions for effective language learning are free communication, expressing opinions and mutual respect. Implementing interactive technologies in teaching process at university, we have made the conclusions that they make better students' communicative skills and increase motivation; develop their personal, social competencies and intellectual; create positive atmosphere in class.

References

1. Methods for Teaching Foreign Languages: Creating a Community of Learners in the Classroom
2. Teaching and Learning Foreign Languages: A History of Language Education, Assessment and Policy in Britain (Routledge Research in Language Education) 1st Edition by Nicola McLelland (Author)
3. The Skillful Teacher: Building Your Teaching Skills 6th Edition

UOT 94(479.24)

TARİXİN TƏDRİSİ VƏ İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI

Etibar Adil oğlu Musayev
tarix üzrə fəlsəfə doktoru, dosent
Gəncə Dövlət Universiteti
etibaradiloglu@mail.ru

Dünya dövlətlərinin təhsil sistemi inteqrasiya prosesi üzərində qurulan yol üzərindən addımlamaqdadır. Təhsil sisteminin informasiyalaşdırılması prosesi keçən əsrin 90-cı illərinin ortalarından başlayan bir prosesdir. Ondan öncəyə kimi təhsil sistemləri sadəcə mövcud olduğu sərhədlər daxilində irəliləyən bir sahə idi. İnternet şəbəkələrinin yaradılması, kompyuterlərin ixtirası təhsil sahəsinin kommunikasiya avadanlıqlarına uyğunlaşdırılması və informasiyalaşdırılması məsələsini gündəmə gətirirdi. Təlim sahəsi və İKT-nin bağlılığını müəyyən səbəblərlə izah etmək olar. Təlim prosesinin təşkil olunması, şagirdlərin və tələbələrin biliklərinə kompyuter vasitəsi ilə nəzarət sistemini yaratmaq istəyi, müxtəlif mənbələrdə olan biliklərin internet vasitəsi ilə əlçatanlığının yaradılması məsələsi və.s bunun kimi məsələlər baxımından təlim sistemi ilə İKT arasında əlaqənin qurulması vacib amil hesab olunurdu. Bu məsələdə ən vacib amillərdən biridə internet materialının yaradılması və onunla işləmək bacarığının yaradılaması məsələsi idi.

Bildiyimiz kimi müəllim təlim və tərbiyə prosesinin ən vacib faktorudur. İnformasiya və kommunikasiya texnologiyaları ilə təlim prosesi arasında müəyyən əlaqələr sisteminin yaradılması üçün ilk növbədə müəllimləri bu prosesə hazırlamaq lazım idi. Təlim prosesinin informasiya texnologiyalarına uyğunlaşdırılmasını şərhləndirən alimlər və tədqiqatçılar bu məsələnin cəmiyyət üçün də çox vacib bir məsələ olduğunu qeyd ediblər [1, s.2]. Cəmiyyət olaraq insanların informasiyaları asan bir şəkildə əldə etmələri üçün bu vasitə əvəz olunmaz sayılır.

Dünya ölkələrində olduğu kimi Azərbaycan Respublikasında da təhsil sahəsi daima diqqət mərkəzində saxlanılan məsələ olmuşdur. Azərbaycanın ən ali qanunlar toplusu olan Konstitusiyada təhsil sisteminin dayanıqlılığı məsələsinə toxunulmuşdur. Dayanıqlılıq dedikdə, təhsil sisteminin müasir təlim metodları ilə təşkil olunması, müasir təlim avadanlıqlarından istifadə etməklə dünya təhsil standartlarına cavab verən bir təlim mühitinin yaradılması vacib amil kimi daima diqqətdə saxlanır. Ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməsindən sonra bu məsələ yeni bir inkişaf yoluna qədəm qoydu. Ulu öndər üçün Azərbaycan gəncinin öz tarixini bilməsi və onu müqəddəs bir amal kimi qoruması ən vacib məsələ idi. Ona görədə 1993-cü ildən başlayaraq ölkəmizdə yerləşən bütün təhsil ocaqlarının sakinləri üçün inkişaf dövrünün başlanğıcı qoyuldu [2, s.11].

İstər Azərbaycan tarixi, istərsə də dünya tarixi zəngin tarixi abidələrlə zəngindir və bu tarixi abidələr müxtəlif coğrafiyalarda yer alır. İnternet şəbəkəsinin və kompyuterlərin ixtirasından öncə bu abidəli görməyin yeganə yolu həmin əraziyə tarixi səfərlərin edilməsi ilə mümkün olurdu. Ancaq, tarix təlim metodlarının kommunikasiya texnologiyalarına inteqrasiyası nəticəsində bu tarixi

abidələri fotoşəkil, videoçarx və s. şəkildə internet vasitəsi ilə əldə etmək mümkündür. Burada yer alan materialları internet sayəsində dünyanın istənilən bölgəsində elektron şəkildə görmək mümkündür. Bu proses özünü eyni zamanda tarixi sənədlərin, tarixi ədəbiyyatların və eyni zamanda beleristika nümunələrinin elektron versiyalarının yaranmasında da göstərirdi [3, s.94].

Tarix kitablarının elektron versiyssının yaranması nəticəsində tarix təlim metodlarının tətbiqində yeni bir dönəmin əsası qoyuldu. Bu gün orta məktəblərdə istifadə olunan tədris proqramları ildən ilə müasirləşir və yeni standartlara cavab verən bir tədris proqramları meydana çıxır. Kommunikasiya texnologiyaları internet şəbəkəsi ilə sıx bir əlaqədədir [7]. İnternet şəbəkəsi olmadan bu avadanlıqlar demək olar ki, yararsız hesab olunur. Ölkəmizin ucqar nöqtələrində yerləşən təhsil ocaqlarında təlim prosesini arasıkəsilməz bir şəkilə gətirmək üçün həmin ərazilərin şəbəkə xətləri ilə təmin olunması prosesi fasiləsiz həyata keçirilir. Təlim metodlarının tətbiqində texnoloji vasitələrdən istifadə olunması eyni zamanda distant (məsafədən) təhsilin tətbiq olunmasında ən vacib şərtdir.

2020-ci ildən başlayaraq bütün dünyamızda tüğyan edən Koronavirus pandemiyası dünya təhsil sistemini yeni bir aspektdə davam etməyə məcbur edib. Beləki, dünyanın hər yerində olduğu kimi Azərbaycanda da təhsil sistemi ənənəvi formada deyil, məsafədən (distant) formada həyata keçirildi. İnformasiya və Kommunikasiya texnologiyalarının istər tarix təlim metodikasında, istərsə də dünya təhsil sistemində xüsusi bir əhəmmiyətə malik olduğunu açıq-aydın şəkildə görə bilirik.

Təlim texnolgiyaları növ etibarı ilə iki növə bölünə bilirlər. Tarix tədrisində istifadə olunan texnoloji avadanlıqlar xətti və eyni zamanda qeyri-xətti texnologiyalardır. Xətti texnologiyaların məzmunu dəyişməzdir və ona heç kim kənardan müdaxilə göstərə bilməz. Xətti texnolgiyaların tərkibinə kinofilmlər, sənədli və bədii filmlər, xronikalar və bunun kimi məzmununa dəyişiklik edilməsi mümkün edilməyən vasitələr daxildir. Misal olaraq "Babək" filmi, "Uzaq sahillərdə", "Axırıncı aşırım" və adını çəkmədiyimiz yüzlərlə tarixi filmlər xətti texnolgiya vasitələri sayılır.

Digər təlim texnologiyalarından biri də qeyri-xətti təlim texnologiya vasitələridir [4, s.186]. Bu növ texnoloji vasitələrə dəyişiklik etmək mümkündür. Misal olaraq özndə mətn, səs yazısı və video görüntü əks etdirən multimedia vasitələrindən istənilən mətn hissəni, video görüntü olan hisəni çıxarmaq və ya başqasını əvəz etmək mümkündür. Səslərin lazımlı hissəsini saxlamaq, bəzi əlavə lazımsız məlumat hesab olunan hissəni kəsib çıxarmaq mümkündür. Qısaca olaraq dəyişiklik edilməsi mümkün olan multimedia vasitələrinə biz elmi ədəbiyyatda qeyri-xətti texnologiya vasitələri deyirik.

Bu gün kompüter texnologiyaları və internet şəbəkələri dünya təhsil sisteminə açılan bir pəncərə sistemidir. Tarix təlim metodlarının tədrisində istifadə olunan multimedia vasitələri və dərs təqdimatları özünün müsbət nəticələri ilə bir daha sübut etdi ki bu sahə tarixin tədrisi üçün çox əlverişli bir sahədir. Təlim texnologiya vasitələrinin ən vacib işlərindən biri də zəif şagirdlərin bu imkanlardan istifadəsini təmin etmək, onların yaddaşında mövzu ilə bağlı təsəvvürləri formalaşdırmaqdır [4, s.157]. Bu gün Azərbaycanda şagirdlərin ali məktəb imtahanlarına hazırlaşmasına, onlarda test işləmə bacarığının formalaşmasına yardımçı olur. Kompakt disklər şagirdlərdə testdən keçmək bacarığını inkişaf etdirməyə yardımçı olur.

İstənilən bir fənnin tədrisində internet resuslarından istifadə xüsusi öncüllük qazanmağa imkan yaradır [6, s.16-18]. Nəzərə almaq lazımdır internet şəbəkəsi sərhədləri olmayan bir bölgədir. 1995-ci ildən başlayaraq bu sahənin ön plana çəkilməsi heçdə təsadüf məsələsi deyildir [6, s.24]. Dünyanın inkişaf prosesində olması, qlobal intrenet şəbəkələrinin yaranması, kompüter texnolgiyalarının müasir nəsillərinin meydana çıxması təhsil sahəsini bu inkişafdan kənarda saxlaya bilməzdi.

Müəllim təlim prosesinin aparıcı qüvvəsi olduğu üçün ilk növbədə bu təbəqənin üzvləri yeni sistemə uyğunlaşmalı idi. Ona görə də tarix müəllimlərinin elektron texnoloji vasitələrə uyğunlaşması, yeni tematik dərs gündəliklərinin hazırlanması tarix təlim metodikasında ilk sırada dayanan bir məsələ olaraq gündəmdə saxlanılırdı. İnternet axtarış sistemləri içərisində yer alan

Yandex, Yahoo, Altavista, Aport və Rambler vasitəsi ilə müəyyən tarixi məlumatların, tarixi mövzu ilə bağlı nüansların axtarışını həyata keçirmək mümkündür. Elmi tədqiqat şirkətlərinin həddən artıq kasıb olması və ya burada yer alan şəxslərin məsələlərə həddən artıq akademik mövqe nümayiş etdirməsi tarix sahəsinin bu proqramlarla uyğunlaşa bilməməsinə gətirib çıxarır. Müasir dövr təlim texnolgiyalarının inkişafı, sosial şəbəkələrin inkişafı bunun kimi problemlərin aradan qalxmasına imkan yaradır.

Tarix təlimində naviqatorların yaradılması məsələsi çox vacib hesab olunur [4, s.133]. Müəllim bu texnolji yeniliklər sayəsində gedişatı nəzarədə saxlaya bilir. Bu gün minlərlə kiçik həcimli axtarış proqramları da mövcuddur. Bu proqram internet şəbəkəsinə yerləşdirilmiş minlərlə materialı çeşidlərə ayırır və onun axtarışını asanlaşdırır. Bu baxımdan da naviqator (yol göstərən) proqramların lazımlığı vacib texnoloji yenilikdir. Təkcə ölkəmizdə deyil, dünyanın dörd bir yanında müəllimlər və şagirdlər bu saytların məhsullarından istifadə edirlər. İldən-ilə bu saytlara yerləşdirilən məlumatların, məqalələrin sayı durmadan artmaqdadır. İl ərzində 3500-dən çox məqalə, mətn məlumatları bu saytlara daxil olunur [9].

Təlim texnolgiyalarının təmayüllü siniflərdə tətbiq olunması məsələsi ayrıca mövzudur. Bu siniflərdə texnologiyalardan istifadə aşağıdakı formada təşkil olunur:

1) akultativ və fərdi məşğələlər zamanı;
2) testlərin verilməsi və yoxlanması;
3) yoxlama işlərinin, dərslərinin təşkili zamanı;
4) mövzuya başlayərkən ilkin mühazirələr zamanı;
5) ev tapşırıqlarının hazırlanması zamanı;
6) eyni zamanda tədqiqat işinin yazılmasında, strukturunun formalaşdırılmasında;

Tarix təlimində informasiya və kommunikasiya texnologiyalarından istifadə sahəsini bununla yekunlaşdırmaq olmazdır. Təlim prosesində informasiya texnologiyalarından istifadə olunmasının bir çox əsası vardır:

a) tarix təliminin təşkili və davamlılığı üçün;
b) tarix təlimində istifadə olunacaq vasitələrin hazırlanması üçün;
c) müəllimin özünün yeni təqdimatının hazırlanması üçün və ya hazır təlim proqramlarından istifadə məqsədilə [9, s.49];
d) şagirdlərin bilik və bacarıqlarına, onların təlim prosesindəki fəaliyyətinə və qazanılan biliklərin doğru istifadəsinə nəzarət; e)İnternetdən götürülən məlumatları təhlil etmək;
f) müəllimləri, şagirdləri və eyni zamanda valideynləri bir-biri ilə əlaqdə saxlamağa, mütəmadi olaraq dərs gedişatına nəzarət eləmək üçün.

Tarix fənninin tədrisində texnolji avadanlıqlardan istifadə etməyin bugün üçün bir çox çatışmayan cəhətləri vardır. Bunlar içərisində ən ön sırada bəzi məktəblərin texnoloji avadanlıqlarla təchizatında olan problemlərdir.

İstifadə edilmiş ədəbiyyat

1. Axundova F. Yeni təlim metodlarından istifadə təlimin optimallaşdırılması üçün əsas vasitə kimi. Təhsil, Mədəniyyət və İncəsənət. Bakı, 2003, № 4, s 36.
2. Abdullayev N. Fəal təlim zamanı qruplarla işin təşkili. Azərbaycan məktəbi, 2013, № 6, s.4
3. Bədiyev S.R. Yeni təlim texnologiyalarından mühazirə mətnləri. Bakı, Mürtəcim, 2009, 245 s.
4. Dayri N.Q. Biliklərin yoxlanması və sinfin idrak fəaliyyəti.(tərcümə edənlər Süleymanov A. və Rüstəmov F.) Moskva, 1960, 45 s.
5. Tarix dərslərində təlimin texniki vasitələrindən istifadə edilməsi (tədris vəsaiti), Gəncə, 1989,198 s.
6. Vagin A. Orta məktəbdə tarixin tədrisi metodikası. Bakı, Maarif, 1973, 455 s.

7.www.president.az "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası", 2013-cü il 24 oktyabr.
8.www.muallim.edu.az "Müasir təlim texnologiyaları tarixin tədrisində"
9.www.academia.az "Müasir Azərbaycan metodistləri"

UOT 82-1; 82:316.3

MİRZƏ ƏLƏKBƏR SABİR POEZİYASINDA MİLLƏTİN GƏLƏCƏYƏ – TƏHSİLƏ, TƏRƏQQİYƏ ÇAĞIRIŞI

[1]Rəşad Hüseynağa oğlu Əsgərov, [2,6]Bağır Həmid oğlu Babayev,
[3,6]Sadiq Nəsrulla oğlu Hüseynov, [4,6]Nəsimə Həsən qızı Həsənova,
[5,6]Ziyad Yaqub oğlu Rəhimov
[1]fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
asgarov_rashad@mail.ru
[2]fəlsəfə üzrə fəlsəfə doktoru
baqirbabayev59@mail.ru
[3]huseynovsadiq289@gmail.com
[4]nasima.gasanova@inbox.ru
[5]ziyad.rahimov@gmail.com
[6]Naxçıvan Dövlət Üniversiteti

Zəngin ədəbi-fəlsəfi, mənəvi-estetik idealları ilə bütün dövrlərdə ədəbiyyat tariximizdə əhəmiyyətli yerə layiq olan mütəfəkkir şairimiz Mirzə Ələkbər Sabirin poeziyasında millətin gələcəyə - təhsilə, tərəqqiyə çağırışı həmişə olduğu kimi, bugünümüzdə də olduqca aktual səslənir. Azərbaycan Respublikasının Dövlət müstəqilliyinin bərpası ilə xalqımızın ədəbi-fəlsəfi irsinə, milli-mənəvi və dini dəyərlərinə yenidən bir daha qayıdışı prosesi başlandı. "Azərbaycan xalqı 1991-ci ildə istiqlaliyyət qazandıqdan və dövlət müstəqilliyini əldə etdikdən dərhal sonra, ölkədə tarixi ənənələrin bərpası və əsl demokratizm prinsiplərinə əsaslanan yeni dövlət quruculuğunun həyata keçirilməsi kontekstində ciddi multimədəni prinsiplərə söykənən adekvat etnik-siyasi mühitin və yüksək təşəkküllü tolerant münasibətlər sisteminin yaradılması dövlətin və cəmiyyətin tarixi vəzifəsinə çevrildi" [2, s.329-330]. Sözun əsl mənasında Mirzə Ələkbər Sabirin yaradıcılığı yenidən tədqiq olundu. Qətiyyətli əsaslı faktlarla sovet ideoloji sisteminin basqısı ilə "ateist", "dini inkar edən", "dinsiz" kimi təqdim edilən böyük satirik şairimiz haqqında yazılan keçmiş yanlışlıqlar təsdiqlənib sübuta yetirildi.

Azərbaycan xalqının milli- mənəvi dəyərlər sistemində unikal yerə sahib olan, "Həqiqət nəğməkarı, xalq dərdinin tərcümanı Mirzə Ələkbər Sabir" [1, s.4] poezıyasının obyektiv elmi tədqiqi bunu söyləməyə əsas verdi ki, onun şeirlərində gələcəyə güclü çağırış, xalqın sabahkı azad, xoşbəxt həyatına sarsılmaz bir inam əks olunmaqdadır. Sabir xalqın rifahının elmin, məktəbin gücü ilə yaradılacağına inanırdı və hamını- hər kəsi də bu yolda mühüm xidmətlər göstərməyə dəvət edirdi. Şair yeni həyata çağırış ruhlu əsərlərində məktəb, təhsil, bilik, elm, tərbiyə məsələlərindən bəhs edir, millətinin milli özünüdərkiylə tərəqqiyə nail ola biləcəyini vurğulayırdı. Sabir inanır və qətiyyətlə inandırırdı ki, məktəbə - təhsilə - elmə yiyələnməklə cəhalət dünyasının qatı qaranlıqlarını dağıdacaq gücə sahiblənəcək səadət günəşi doğacaq və qaranlıqlar aləmi işıqlanıb nura boyanacaqdır.

Sabirin şeirlərində cəmiyyətin geriliyindən narahatlıq duyulur, eləcə də, tərəqqi və inkişafa amansızcasına düşmən olanlar ifşa olunurlar. Sabirə görə, tərbiyə və təhsil bir-birindən ayrılmazdır,

çünki onlar ayrılıqda öz dəyərini tamamilə itirər. Övlad "Haqqın neməti" olduğundan layiqli tərbiyə üsulu da özlüyündə Haqqa- Allaha şükr etməyin bir növüdür. Elmsiz tərbiyə məqbul deyil. Tərbiyə elə elmə yönlənməkdir: "Tərbiyət elmsiz deyil məqbul Ki, onun müqtəzası tərbiyədir [7, s.84].

Millətinin dərd-sərinin, ağrı-acılarının, ehtiyaclarının canlı şahidi olan Sabir müsəlmanların ətalətdən, gerilik və cəhalət buxovlarından xilası üçün uşaqlara müraciətlə "Allah olsun sədiqin" deyərək, onları İslam dəyərləri işığında dərsə, təhsilə səsləyirdi. Şair "Məktəbə tərğib" şeirində, çox yatmağın, ətalətin şeytandan, tez oyanmaq kimi gözəl bir əməlin isə Allahdan olduğunu vurğulayır" [5, s.57]: "Çox yuxlamaq- şeytandan, Tez durmaq- Allahdandır" [7, s.108].

Sabirə görə, tərəqqi üçün xalq cəhalət buxovlarından qurtulmalı, yeni üsullu məktəblərə getməklə təhsilə və elmə yiyələnməlidir. Şair İslamda elmə, təhsilə böyük önəm verildiyini İslam peyğəmbərininin məşhur "Elm Çində olsa belə, axtarışında olun. Elm axtarışında olmaq hər bir müsəlmana fərzdir" [3, s.60] hədisini sitat gətirməklə elmə çağırış edirdi: Elmə çağırır bütün əvamı, "Əl-elmü fərizətün" kəlamı [7, s.85].

Sabir "Məktəb şərqisi" şeirində məktəbin çox gözəl bir yer olduğuna diqqət çəkərək, uşaqları məktəbə getməyə həvəsləndirməyə cəhd edirdi [4, s169]. Şair yazırdı: Məktəb, məktəb, nə dilgüşasən, Cənnət, cənnət desəm səzasən [7, s.107].

Şeirdən göründüyü kimi, "cəmiyyətin cəhalətin fəlakətlərindən qurtulması, onu məğlub etməsi üçün uşaqların təhsilinə ehtiyac, məktəblə əlaqələrin vacibliyi inandırıcı bir dil ilə vurğulanır. Yalnız bu yolla cəhaləti aradan qaldırmaq mümükündür. İnsanları daim məktəbə, təhsilə dəyər verməyə çağıran Sabir deyir ki, lazım gələrsə, bu yolda hətta candan belə keçilməlidir" [4, s.170].

Sabir elmsizliyi bir bəla kimi qiymətləndirir və "elmin yolunda" can verməyi tövsiyə edir. "Məktəb şagirdlərinə töhfə" şeiri də Sabiri bir maarifpərvər ziyalı kimi gözümüzdə ucaldır. Şair göstərir ki, "hər kim qeyrətə, zəhmətə alışar", gecə-gündüz rahatlıq bilmədən çalışarsa, səadətə qovuşar.

Xalqın maariflənməsi, tərəqqisi yolunda anaların məsuliyyətinin daha böyük olduğunu vurğulayan Sabirə görə, cəmiyyətdə etibarlı gələcək nəsillər yaratmaq üçün qadının ailə və cəmiyyətdəki rolu böyükdür. Şair qadınların təhsilə, biliklərə sahib olmağının gənc nəslin tərbiyəsi baxımından mütləq olduğunu vurğulayır. Böyük şairin "Analar bəzəyi" şeiri də məktəb, elm, tərbiyə mövzusunda yazılmış ibrətamiz şeirlərindəndir. Sabirə görə, anaların bəzəyi ondadır ki, onlar ədəbli, cəmiyyətə xeyir verə bilən, təhsilli övladlar böyütsünlər. Bəzək- düzək, cəvahirat- bunlar həyatın ziynəti deyil, həyatda ziynət elmdir ki, hamı ona yiyələnməyə tələsməlidir. O ana ki, övladlarına yaxşı tərbiyə verə bilmir, onu həqiqi valideyn saymaq olmaz, çünki tərbiyə hər şeyin başlanğıcıdır. Odur ki, bir ananın əsl bəzəyi "ədəbli, uslu çocuq" tərbiyə etməkdir: Həqiqi validənin ən şərəfli bir bəzəyi, Ədəbli, uslu çocuqdur, təcəmmülat deyil [7, s.85].

Övlad tərbiyəsi məsələsində Sabir məsuliyyəti təkcə anaların üzərinə qoymur. Ataları da övladlarına düzgün tərbiyə verməyə çağıran şair bir şeirində fikirlərini belə ifadə edirdi: Oğlunun vasiteyi-xilqəti olmaqla fəqət, Atalıq borcunu ifa edəməz insanlar; Atalıq borcu eyi tərbiyənin qeyri deyil [6, s.296].

Dahi mütəfəkkir öz yaradıcılığında elmsizliyi, cahilliyi, savadsızlığı, xurafatı milli təkamülümüzə, cəmiyyətimizin gələcəyinə və birliyinə manea hesab edirdi, dilinə, dininə, mədəniyyətinə və mənəvi dəyərlərinə biganə qalan savadlı şəxsləri də tənqid atəşinə tuturdu. "O, "falaqqa" rejimli "köhnə" üsul təhsilin əleyhdarı, dünyəvi elmlərin öyrədilməsinin ön plana çəkildiyi yeni üsul təhsilin tərəfdarı idi" [5, s.109]. Sabir xalqın gələcək rifahında elmin, məktəbin nə qədər böyük rolu olduğunu bildirir və hamını da bu yolla təhsilə dəvət edirdi. "Məktəbə tərğib" şeiri bu mənada diqqətəlayiqdir. Şair bütün uşaqları, cavanları elm oxumağa, savadlanmağa çağırır, "məktəbdə var şərafət, dəftərdə var lətafət" deyə onları məktəbə həvəsləndirir.

Sabir gəncləri gələcəyimizin- sabahkı günümüzün qurucuları kimi görməyi arzulayır. Elmin vətənə, cəmiyyətə nə qədər lazımlı olduğunu gənclərə başa salır. Şair göstərir ki, millətin nüfuzu

elmli adamlarla ölçülür, hər bir millət savadlı xadimlərlə tanınır və şöhrət qazanır. Qafil yaşamaqdansa, ölmək kardır. Vətənin sabahının ziyası olacaq savadlı, tərbiyəli, yüksək əxlaqlı adamların yetişməsində əməli və nəsihətləri ilə valideyn qeyrətinin mühüm ölçü olduğunu şair tez-tez vurğulayırdı. "Sabir İslam dini, İslam müqəddəsləri, İslam dəyərlər əleyhinə bir misra belə qələmə almamışdır. Onun əsas tənqid hədəflərindən biri olan riyakar mollaların onu "bidin", "kafir" adlandırması ilə sovet tədqiqatçılarının "ateist" adlandırması eyni dərəcədə əsassız, məntiqsiz və böhtan xarakterlidir" [5, s.155].

Sabir Azərbaycan qadınını gələcək sağlam mənəviyyatlı, demokratik ruhlu nəsillərin təminatçısı kimi görürdü, əsərlərində qız uşaqlarının oxudulmasını vacib milli məsələ kimi qaldırırdı. Qadın hüquqları məhdudlaşdırılmamalı, hər cür maarif və ictimaiyyət işinə qadınlar da cəlb edilməlidir. Sabir fanatik dindarların hücumlarından çəkinməyərək diqqəti qadın problemlərinə yönləndir, qızların zorla evləndirilməsini, kişilərin onlarla qul kimi rəftarını tənqid edir, qadınlara kişilərlə bərabər təhsil verməyin zəruriliyini diqqətə çatdırırdı.

Sabirin şeirlərində cəmiyyətin geriliyindən narahat olmayan, eləcə də tərəqqi və inkişafa amansızcasına düşmən olan insanlarla qarşılaşırıq. Şair çürümüş daxili dünyanı, yalnız öz maraqlarını düşünən və başqalarının gələcəyi ilə heç vaxt maraqlanmayan bu insanların pisliklərini öz dilləri ilə ortaya qoyur. Lakin Sabir ilk öncə təhsilin təməlində ana dili və dini əmrlərin tədrisinin durmasını ən vacib şərt hesab edirdi. "Əcnəbi" ölkələrdə aldıqları təhsildən sonra doğma ana dillərinə yuxarıdan aşağı baxan bir sıra "inteligent" və "oxumuşlara" böyük satirik öz qəzəbini daim açıq ifadə edirdi [5, s.110]. O, yazırdı: İnteligentik, bu ki, böhtan deyil, Türki danışmaq bizə şayan deyil [6, s.249].

Mirzə Ələkbər Sabir istiqlalımızın ümidi olan övladlarımızın avamlığından, məktəbsizliyindən, savadsızlığından olduğu kimi, öz dogma dillərini, dini əqidələrini lazımınca mənimsəyə bilməmələrindən də böyük narahatlıq keçirir. Şair millətimizin gələcəyi, ümidi olan cavanları tərəqqiyə, təhsilə səsləyir, gənclərdən tələbi ana dillərinə, dini əmrlərə və dini əqidələrinə lazımınca yiyələnmələri idi. Sabir gənclərin inkişafında dini əqidələrə sahib olmağı ana dili qədər vacib hesab etmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Böyük satira ustası- Mirzə Ələkbər Sabirin 160 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed.: R.Məmmədli; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası. Bakı, 2022. 44 s.

2. Hacıyev A.N., Cəfərova E.H., Məmmədov İ.M. Multikulturalizmə giriş: Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2018. 372 s.

3. Həzrət Məhəmmədin hikmət xəzinəsindən örnəklər / tərt. ed. M. Qəmbərli. Bakı: Şərq-Qərb, 2012. 248 s.

4. Khalilova Günay. Mehmet Akif Ersoy ve Mirze Elekber Sabir arasinda bir karşilaştirma. Doktora Tezi. Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü türk dili ve edebiyati (Yeni türk edebiyati) anabilim dali. Ankara, 2019. 317 s.

5. Qasımbəyli Fariz. Mirzə Ələkbər Sabir yaradıcılığında islami dəyərlərin bədii əksi. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya Bakı., 2021, 163 s.

6. Sabir Mirzə Ələkbər. Hophopnamə. İki cilddə. Tərtib edən Məmməd Məmmədov. I cild, Bakı., Şərq- Qərb, 2004. 480 s.

7. Sabir Mirzə Ələkbər. Hophopnamə. İki cilddə. Tərtib edən Məmməd Məmmədov. II cild, Bakı., Şərq- Qərb, 2004. 384 s.

UOT 37.013

PEDAQOJİ PROSESDƏ İNTERAKTİV (FƏAL) TƏLİM ÜSULLARINDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

[1,2,4]Baxış İslam oğlu Ələsgərov, [1,3,4]Yaqub Abbasqulu oğlu Səmədov
[1]tarix üzrə fəlsəfə doktoru, dosent
[2]elesgerov1963@mail.ru
[3]yaqub.semedov63@mail.ru
[4]ADPU-nun Ağcabədi filialı

Təhsil sisteminin inkişaf tendensiyası fəal və interaktiv metodlar sahəsində müəllif məktəblərinin, novator müəllimlərin iş üsullarına dair toplanan faydalı təcrübələr, pedaqoji-psixoloji tədqiqatların nəticələri daima sistemləşməli, ümumiləşməli və təlim-tərbiyə prosesinin məzmununun yeniləşdirilməsini tələb edir. Bu problemlərin həlli təhsil sferasına, pedaqoji prosesə fəal və interaktiv metodlar anlayışının elmi əsaslarla gətirilməsini vacib bir problem kimi qarşıya qoyur və bütövlükdə təhsildə texnoloji yanaşmaların tətbiqini aktuallaşdırır. Azərbaycan təhsil sisteminin yenidən qurulması, modernləşdirilməsi və bu işlərin təşkilində fəal və interaktiv metodlardan istifadə olunmaqla yerinə yetirilməsi prioritet problem hesab edilir. Onların həll olunması üçün yeni pedaqoji araşdırmalara ehtiyac duyulur [4]. Məhz 1999-cu ildə təhsil sahəsində islahat Proqramının, 1992-ci və 2009-cu illərdə Təhsil haqqında qanunların qəbul edilməsi də yuxarıda qeyd olunan zərurətlərdən irəli gəlmişdi.

Pedaqoji prosesdə interaktiv təlim üsullarından istifadə ilk növbədə aşağıdakı təlim keyfiyyətlərinin formalaşmasında mühüm rol oynayır:

1) Məntiqi düşünmə;
2) Ətraf aləmin cisim və hadisələrinə tənqidi yanaşma;
3) Müstəqil olaraq qərar çıxarma;
4) Ətrafda olanları yaradıcı surətdə dəyişmə;
5) Bilikləri müstəqil əldə etmə;
6) Praktiki problemləri həll etmə;
7) Şəxsiyyətin inkişafına dair yeni məqsədlər qarşıya qoyma [3, s.361]

Ümumiyyətlə, interaktiv təlim (ingilis dilində: inter – arasında, aktǁ – hərəkət, hərəkət etməkǁ) qarşılıqlı əlaqə üzərində qurulmuş təlimdir. Bu üsul kollektiv, əməkdaşlıq fəaliyyətinə əsaslanmış təlimi nəzərdə tutur [3, s.364]. Bir cəhəti yaddan çıxarmamaq lazımdır ki, pedaqoji prosesin özünəməxsus obyekti və subyekti mövcuddur. Onun obyektini ayrı-ayrı fərdlər (uşaqlar, şagirdlər, tələbələr və s.) və onların toplandığı qruplar təşkil edir. Pedaqoji prosesin subyektini isə ayrı-ayrı şəxslər, yəni tərbiyə edənlər (tərbiyəçi, müəllim, valideyn, idarə başçıları və s.) və ya, təhsil qurumları (məktəb, pedaqoji şura, elmi şura və s. qurumlar) təşkil edir [6, s.44-45]. Pedaqoji prosesdə bu iki amil qarşılıqlı şəkildə fəaliyyət göstərir.

Böyüməkdə olan insan şəxsiyyətinin formalaşdırılması tərbiyə prosesini məqsədidir və burada insanın özünün psixi xüsusiyyətləri, şəxsiyyətin xassələri, onun səy, tələb və imkanları, ən incə asılılığı və şərtlənməsi özünü göstərir. Tərbiyə olunanın bu fərdi xüsusiyyətləri müəyyən mənada, tərbiyə məqsədinin həyata kecirilmə müvəffəqiyyətini müəyyən edir. Bunu nəzərə almayan pedaqoq-tərbiyəci müvəffəqiyyətə nail ola bilməz [2, s.51]

Pedaqoji prosesdə informasiya va kompüter texnologiyasının tətbiqi təlimdə üsulların yeni formada tətbiqini tələb edir. Əgər ənənəvi təlim zamanı müəllimin şərhinə genş yer verilirdisə müasir dərsdə şagirdlərin (və ya tələbələrin) sərbəst fəaliyyətinə daha çox yer verilir. Təlim nəzəri metodların praktik icra formasıdır. Muasir texnologiya ənənəvi təlimdən fərqli olaraq, şagirdlərin və tələbələrin fəaliyyətinin daha səmərəli təşkilinə geniş imkanlar yaradır. Pedaqoji texnologiya həm, professional-pedaqoji fəaliyyətin, həm də pedaqoji prosesin qanuna-uyğunluqlarının bütövlükdə

həyata keçirilməsinə, səmərəli texnologiya modelinin qurulmasına geniş imkan verir. Bu zaman pedaqoji fəaliyyətin təskili, planlaşdırma, analizetmə, məqsədə nail olma, qiymətləndirmə və nəticəni yoxlama prosesinin hayata keçirilməsi keyfiyyəti yüksək olur [5, s.422].

Müasir pedaqoji prosesdə interaktiv təlim üsullarından (işgüzar və rollu oyunlar, konkret situasiyaların araşdırılması, psixoloji treninqlər və s.) istifadəyə xüsusi diqqət yetirilir. Bir cəhəti də vurğulamaq lazımdır ki, tədris prosesində interaktiv təlim üsullarından istifadə auditoriya məşğələlərinin 20 %-dən az olmamalıdır [1, s.320].

Bununla belə, tədris materialının mənimsənilməsi istiqamətində hər bir iştirakçı özünün bilik və bacarığını tam şəkildə ortaya qoymaqla kifayətlənmir, digər tərəfdən isə kollektiv şəkildə onların arasında biliklərin və ideyaların mübadiləsi prosesi də baş verir. Bu proses yeni biliklərin əldə edilməsində, idrak fəaliyyətinin inkişafında və əməkdaşlığın daha yüksək formasının təşklində özünü göstərir.

Pedaqoji prosesdə interaktiv təlim üsulları kimi xarakterizə olunan dörd əsas cəhətə xüsusi diqqət yetirilməlidir:

1. Problemli vəziyyətin yaradılması.
2. Dialoq və əməkdaşlıq şəraiti.
3. Şagird (və ya, tələbə)- tədqiqatçı, müəllim- bələdçi kimi.
4. Psixoloji dəstək - hörmət və etibar [7, s.32-33].

Dorğrdan da, pedaqoji prosesdə idraki fəaliyyət fəallıq ilə qarşılıqlı vəhdət təşkil edir və bir-birini tamamlayır. Təlimin qarşıya qoyduğu vəzifələrin və prinsiplərin həyata keçirilməsi təlim-tərbiyə prosesinə təsir edən amillərdən və şərtlərdən, məhz öyrədici mühitdən əhəmiyyətli dərəcədə asılıdır [8, s.24].

Tədqiqatlar göstərir ki, pedaqoji prosesdə interaktiv (fəal) təlim üsullarından istifadə zamanı ilk növbədə tədris sübyekt aşağıdakı şəxsi keyfiyyətlərə malik olmalıdır:

a) aradıcı təfəkkürə;
b) təfəkkür çevikliyinə;
c) təfəkkür sistemliliyinə;
d) həddi gözləmək qabiliyyətinə;
e) tez ünsiyyətə girmək və pedaqoji etikanı gözləmək qabiliyyətinə və s. [6, s.53].

Yuxarıda qeyd olunanları yekunlaşdırıb belə nəticəyə gəlmək olar ki, pedaqoji prosesdə interaktiv (fəal) təlim üsullarından istifadə olduqca zəruridir və təlimim keyfiyyətinin yüksəldilməsinə şərait yaradan ən mühüm amillərdən hesab olunur.

İstifadə edilmiş ədəbiyyat

1. Abdulkərimov M. Riyaziyyat dərslərində interaktiv təlim metodlarından istifadə. Pedaqoji Univeristetin xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, ADPU. Bakı, 2019, C.67, № 4 s.319-323

2. Əliyeva Z. Pedaqogika (Mədəniyyət və İncəsənət təmayüllü ali məktəblərin bakalavr pilləsində təhsil alan tələbələr üçün dərslik). [kitabyurdu.org]. Bakı, 2004, 92 s.

3. Əmirov M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası (Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti). Bakı, ADPU-nun nəş. 2011, 707 s.

4. Həmidov H.İ., Hüseynli A.T. Keyfiyyət Azərbaycan təhsilinin prioritetidir. "Azərbaycan müəllimi" qəz., 05 yanvar 2017-ci il.

5. Həsənov A., Ağayev Ə. Pedaqogika (Dərslik). "Nasir" nəşriyyatı. Bakı, 2007, 496 s.

6. Qasımova L. "Pedaqoji prosesdə innovasiyaların yeri və rolu". Müasir dövrün aktual problemləri (məqalələr toplusu), I buraxılış, BDU. Bakı, "Turan Evi" nəş. 2009, səh.44-60.

7. Səmədov Y. Tarix təlimində şagirdlərin məntiqi təfəkkürünün inkişaf etdirilməsi yolları (metodik tövsiyə). "Faziloğulları"-MMC. "Sarvan" çap evi. Ağcabədi, 2011, 68 s.

8. Veysova Z. Fəal/ interaktiv təlim (müəllimlər üçün vəsait). UNİCEF. Bakı, 2007, 156 s.

UOT 94(479.24)

MÜSTƏQİLLİK DÖVRÜNDƏ GƏNCƏ ŞƏHƏRİNDƏ TƏHSİLİN VƏZİYYƏTİNƏ DAİR (1993-2011-Cİ İLLƏR)

Cavid Vəkil oğlu Bağırzadə
tarix üzrə fəlsəfə doktoru, dosent
Gəncə Dövlət Universiteti
cavid.bagirzade@gdu.edu.az

Müstəqilliyin əldə edilməsi, elmin, təhsilin, ədəbiyyat və incəsənətin inkişafı, mədəni sərvətlərin çoxalması xalqın mənəvi yüksəlişinə təkan verdi. Milli azadlığını qazanmış xalqımız müharibənin, keçid dövrünün çətinliklərini əzmkarlıqla dəf etmiş, qüvvələrini onlara qarşı səfərbər etmişdi. Heydər Əliyevin hakimiyyətə qayıdışı, dövlətçiliyin və müstəqilliyin qarantına çevrilməsi bu mənəvi yüksəlişin siyasi və iqtisadi dayaqlarını daha da möhkəmləndirmiş, onun sürətlənməsinə yeni imkanlar açmışdı.

1991–1993-cü illərdə Azərbaycan Respublikasında mürəkkəb və gərgin ictimai-siyasi vəziyyət, Birinci Qarabağ müharibəsinin gedişi, torpaqlarımızın 20 faizdən çoxunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı, mövcud iqtidarın sərişтəsizliyi ölkədə bütün sahələrdə olduğu kimi, mədəni həyatı da ifliç vəziyyətə gətirib çıxarmışdır.

1993-cü ildən respublikada ictimai-siyasi sabitliyin bərqərar olunmasından sonra Gəncə şəhərində də mədəniyyət, təhsil, elm, idman və səhiyyə sahələrində mühüm dəyişikliklər baş vermiş, sosial-mədəni inkişaf başlanmışdır. Respublikamızın elm-təhsil və mədəniyyət mərkəzlərindən biri olan Gəncədə elmin, təhsilin inkişafı da başqa sahələr kimi Ulu öndər Heydər Əliyevin və onun layiqli davamçısı cənab İlham Əliyevin həmişə diqqət mərkəzində olmuşdur.

2000-ci ildə dövlət başçısının imzaladığı fərmanla Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutu profili genişləndirməklə Gəncə Dövlət Universiteti adlandırmışdır. Bu fərmanla vaxtilə Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycan Texnologiya İnstitutu Azərbaycan Texnologiya Universiteti adlandırılmış, Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialı yaradılmışdır. Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna Akademiya adı verilmişdir. 2008-ci ildə cənab İlham Əliyevin imzaladığı fərmanla Azərbaycan Kənd Təsərrüfatı Akademiyası Azərbaycan Dövlət Aqrar Universiteti adlandırılmış, profili genişləndirilmişdir. Son illərdə bu ali məktəblərdə əsaslı təmir işləri aparılmış, maddi-texniki təhcizat köklü şəkildə yeniləşdirilmişdir. Eyni zamanda Gəncə şəhərində orta ümumtəhsil məktəblərində də əsaslı işlər görülmüş, 5, 6, 39 saylı orta məktəblərdə köklü şəkildə təmir işləri həyata keçirilmişdir. Bütün bunlar dövlət başçısının və şəhər rəhbərliyinin ulu öndər Heydər Əliyev siyasi irsinə sədaqətin və maarif sahəsində görülmüş işlərin bariz nümunəsidir.

Ümummilli lider Heydər Əliyevin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2000-ci il tarixli fərmanı ölkədə, o cümlədən Gəncə şəhərində ali təhsilin təşkili və inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoymuşdur. Respublika Prezidenti tərəfindən Azərbaycan Respublikasında Təhsil İslahatı Proqramının təsdiq edilməsi təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması baxımından çox əhəmiyyətlidir. Bu fərman və islahat proqramı Gəncədə mövcud olan bütün təhsil müəssisələrində uğurla tətbiq olunmuşdur.

Gəncə şəhərinin sosial-iqtisadi inkişafı, infrastrukturun yenilənməsi şəhərdə mədəni sahələrin inkişafını da sürətləndirmişdir. Şəhərdə təhsil və elmi müəssisələrin geniş şəbəkəsi yaranmışdır. 2008-ci ildə Gəncə şəhərində 15 və yuxarı yaşda əhalinin hər 1000 (min) nəfərinə 159 nəfər ali təhsilli şəxs düşürdü. 2008-ci ildə Gəncədə 45 dövlət məktəbəqədər müəssisə fəaliyyət göstərmişdir və burada 4425 uşaq və ya müvafiq yaşda olan uşaqların 21,1 faizi tərbiyə almışdır [1, s.39].

2008-ci ilin məlumatına görə Gəncə şəhərində fəaliyyət göstərn 49 ümumtəhsil məktəblərində 41,8 min şagird gündüz məktəblərində təhsil alır. Bununla bərabər şəhərdə bir qeyri-dövlət ümumtəhsil məktəbində (Gəncə Özəl Türk Liseyi) 269 şagird təhsil almışdı [1, s.40].

Gəncə şəhərində orta peşə təhsilinə yiyələnmək üçün gənclərə kifayət qədər imkan yaradan, hazırda 4029 tələbənin təhsil aldığı 4 orta ixtisas təhsil müəssisəsi fəaliyyət göstərirdi.

2008/2009-cu tədris ilinin əvvəlinə 9,3 min nəfər tələbənin təhsil almasını üç ali məktəb statistik məlumat vermişdir. Gəncə şəhərində iki xüsusi ali məktəbin - Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Texnologiya Universitetinin, eləcə də Gəncə Dövlət Universitetinin fəaliyyət göstərməsi şəhərin respublikada mühüm elm və təhsil mərkəzi olmasını şərtləndirmişdir.

2008-ci ildə şəhərin ümumtəhsil məktəblərini bitirmiş və həmin il ölkənin ali məktəblərinə 787 gənc qəbul olunmuşdur. Ümumiyyətlə, respublikada bütün sahələrin mövcud inkişafı təhsil sahəsində də müşahidə olunur. Bu inkişafda Gəncə şəhərinin özünəməxsus yeri vardır.

2009-cu ilin əvvəlinə olan məlumatda göstərilir ki, şəhərdə 7 elmi-tədqiqat İnstitutu, ali məktəblər və digər təşkilatlar fəaliyyət göstərmiş, onlarda da elmi tədqiqat və digər işlərdə məşğul olan heyətin sayı 662 nəfərdir. Elmi-tədqiqat İnstitutlarında çalışanlardan 10-u elmlər doktoru, 89 nəfəri isə fəlsəfə doktoru olmuşdur. Bundan başqa, ali məktəblərdə fəaliyyət göstərən yüzlərlə professor-müəllim heyəti vardır [2, s.36].

Gəncə şəhərində fəaliyyət göstərən 49 ümumtəhsil məktəblərindən 46-sı orta, 2-si əsas, 1-i isə sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi məktəbdir. 2009-cu ilin məlumatına görə sağlamlıq imkanları məhdud olan 45 saylı orta məktəbin şagirdlərinin sayı 291 nəfər olmuşdur. Bütün bu məktəblərdə 2009-cu ilin məlumatına görə 4600 müəllim çalışmışdır. 2000-ci ildə 4710, 2001-ci ildə 4770 nəfər, 2002-ci ildə 4847 nəfər, 2003-cü ildə 4883 nəfər, 2004-cü ildə 4746 nəfər, 2005-ci ildə 4921 nəfər, 2006-cı ildə 4489 nəfər, 2007-ci ildə 4739 nəfər, 2008-ci ildə isə 4731 nəfər müəllim Gəncə şəhəri ümumtəhsil məktəblərində fəaliyyət göstərmişlər [1, s.41-42].

2009-cu ildə Gəncə şəhərində fəaliyyət göstərən ali məktəblərdə ümumilikdə 10145 nəfər tələbə təhsil almışdır. Onlardan 2231 nəfəri ali təhsilini başa vuraraq, mütəxəssis kimi istehsalata göndərilmişdir.

Gəncə şəhərində eyni zamanda orta ixtisas məktəbləri də fəaliyyət göstərir. Bunlardan Gəncə Dövlət Humanitar Kolleci, Tibb Məktəbi və Musiqi Texnikumu, Texniki Kollec bəhs olunan illər ərzində müxtəlif ixtisaslar üzrə kadr hazırlığını uğurla həyata keçirmişdilər.

2011-ci ildən etibarən şəhərdə təhsil ocaqlarının yenidən qurulmasına, onların maddi-texniki təhcizatının möhkəmləndirilməsinə xüsusi diqqət yetirilmişdir. Qeyd etmək lazımdır ki, 2011-ci ildən başlayaraq şəhərdə 4, 5, 6, 8, 16, 25, 30, 39 saylı və s. orta məktəblər müasir standartlara cavab verəcək səviyyədə tamamilə təmir edilmiş, məktəblərdə yeni tədris korpusları inşa edilmişdir. Son ildə-2003-2013-cü illər ərzində Gəncə şəhərində 2080 şagird yerlik 3 məktəb binası inşa edilmişdir. 23 min 109 şagird yerlik 24 məktəb binası əsaslı təmir olunmuşdur. 3060 şagird yerlik yeni 4 tədris korpusu inşa edilməkdədir. Həmçinin 4090 şagird yerlik 5 məktəb binasının əsaslı təmiri hazırda davam edir. Son on ildə 1 yeni uşaq bağçası inşa edilmiş, 5-i isə əsaslı təmir olunmuşdur. Bu işlər hal-hazırda da davam etməkdədir [3, s.42].

İstifadə edilmiş ədəbiyyat

1. Gəncə statistik göstəriciləri (2000 – 2008), statistik məcmuə, Gəncə, 2009.

2. Sosial, iqtisadi inkişaf. Yanvar-Dekabr 2010 / Gəncə şəhər Statistika İdarəsinin qovluğu/ Gəncə 2011.

3. Sosial, iqtisadi inkişaf. Yanvar-Dekabr 2011 / Gəncə şəhər Statistika İdarəsinin qovluğu/ Gəncə 2012.

УДК 811. 161.1

О БЕЛОРУССКИХ ЛЕКСИЧЕСКИХ ЕДИНИЦАХ С НАЦИОНАЛЬНО-КУЛЬТУРНОЙ СПЕЦИФИКОЙ В РУССКОМ ЯЗЫКЕ

Джамиля Аллахверан гызы Гадимова
доктор философии по филологии, доцент
Бакинский славянский университет
gadimova84@rambler.ru

Безэквивалентная лексика – слова, не имеющие однословных соответствий в другом языке и переводимые только описательно. Такие слова очень ярко отражают национальную самобытность народа.

Белорусские лексические единицы с национально-культурной спецификой чаще всего встречаются в языке переводов произведений художественной литературы на русский язык, что способствует формированию национального фона произведения [1; 2].

Выборки, сделанные нами из словаря И.Р.Шкрабы [4], позволяют утверждать, что среди безэквивалентной белорусской лексики преобладает группа со значением «действия». Вероятно, это связано с тем, что основной специализацией деятельности белорусов долгие времена являлась и является на сегодняшний день сельское хозяйство и животноводство. В этой связи у людей появилось много обязанностей и действий, которые требовали личного названия. Среди лексем группы «действия» можно выделить следующие:

1. Глаголы, связанные с сельским хозяйством: *адброджзаваць* – <обозначать границу на сенокосе, прокладывая след>, *аджынаць* – <отрабатывать на жатве>, *валкаваць* – <сгребать скошенное сено в валки>, *ляшыць* – <делить участок пол на полосы, отмечая края посева>, *пазябліць* – <вспахать поле осенью под весенний посев>, *плугарыць* – <обрабатывать землю плугом>, *сенаваць* – <заготавливать сено>, *шуфляваць* – <сгребать, ссыпать, пересыпать что-либо совковой лопатой>.

2. Глаголы, связанные с животноводством*: адпасваць* – <откармливать на подножном корму>, *брытаць* – <накидывать веревку на шею коня, коровы и др. животных>*, займаць* – <собирать животных в стадо, чтобы куда-нибудь гнать>; *залыгаць* – 1. Набросив веревку на рога, шею животного, хлестнуть ее или завязать узлом; 2. Подчинить себе кого-либо, добиться власти на кем-либо; *запасаваць* – <совершая древний обряд, выгонять скот на пастбище впервые после зимы>, *капыціць* – <бить, топать копытами, *яхкаць* – лаять во время погони за зверем (о собаке)>.

3. Глаголы, значение которых связано с «природными явлениями»: *абрасіцца* – <намокнуть от росы>, *абрасіць* – <намочить росой>, *адліжыць* – <установиться в результате оттепели (о теплой с таянием снега погоде)>, *даспяліць* – <довести до зрелости>, *дзірванець* – <порастать травой>, *замурзацца* – <затянуться дымкой, покрыться облаками>, *зараваць* – <встречать зарю>, *зарасіцца* – <обмочиться росой>, *зарунець* – <покрыться зелеными (озимыми) всходами>, *засмужыць* – <затянуть дымкой, мглой>, *захмарыць* – <покрыть облаками или тучами>, *збуяць* – <буйно разрастись; покрыться зеленью>, *заяснець* – <начать яснеть, стать ясным>, *крынічыць* – <бить ключом>, *капчасціцца* – <расти кудрявыми, с большой кроной>, *мурзацца* – <затягиваться дымкой>, *нахмарыць* – <затянуться тучами>, *расіцца* – <становиться мокрый от росы>, *расіць* – <мочить расой>, *удзірванець* – <покрыться дерном, зарасти травой>, *умуравець* – <зарасти муравой>, *утравянець* – <зарасти травой>, *хмарыцца* – <затягиваться тучами, становиться пасмурным>, *хмарыць* – <затягивать тучами>, *хмурнець* – <становиться пасмурным, сумрачным>.

4. Слова, связанные с приготовлением и приемом пищи. С давних времен люди открывали много новых способов приготовления пищи: *адкавяліць* – <отрезать, отхватить

большой кусок (хлеба, сала и под.)>, *салазець* – <становиться слаще>, *саланець* – <становиться соленым, более соленым>, *скварыць* – <жарить на огне (сало, жир и под.)>, *скрыляць* – <нарезать ломтиками, снимать слоями>, *спажываць* – <использовать как пищу>, *спатоліцца* – <утолить жажду>, *таркаваць* – <тереть на терке>.

5. Действие, которое непосредственно совершает человек: *адхукаць* – <отогреть дыханием>, *ажабрачыць* – <сделать нищим>, *аказацца* – <подать голос>, *апараніцца* – <прийти раньше, чем намечено>, *аснаваць* – <сделать основу ткани, натянуть продольные нити>, *ашчаперыць* – <сильно обхватить, обнять>, *бабіць* – <принимать роды>, *банкаваць* – <держать банк в карточной игре>, *блазнаваць* – <дурачиться, делать глупости, неудачно шутить>, *выжабраваць* – <добыть что-нибудь нищенством (попрошайничеством)>, *выстарцаваць* – <добыть попрошайничеством>, *гізаваць* – <стремительно бежать, спасаясь от укусов слепней (о домашних животных)>, *дакупіцца* – <купить что-либо с трудом>, *дзедаваць* – <участвовать в обряде поминания покойников>, *дзейкаць* – <разносить молву, пускать слухи>, *дудукаць* – <негромко говорить, переговариваться>, *жабраваць* – <собирать милостыню, просить подаяния>, *забожкаць* – <начать причитать, сокрушаться, поминая бога>, *забожыцца* – <начать божиться>, *закватараваць* – <поселиться на квартире>, *закладацца* – <биться об заклад, держать пари>, *зацяцца* – <затаить свои мысли, чувства; затаить злость на кого-либо>, *кампанаваць* – <быть в дружеских отношениях, водить компанию>, *крэмзаць* – <писать небрежно, не заботясь об аккуратности>, *ніякаваць* – <чувствовать себя неловко, неудобно>, *палюдзець* – <побыть среди людей, пообщаться с людьми>, *паспродваць* – <продать все до последнего, продать многое>, *разьбярыць* – <заниматься художественной резьбой, ваянием>, *распанець* – <приобрести барские привычки, замашки>, *рахавацца* – <сводить счеты, вести взаимный учет обид, претензий>, *слібізаваць* – <читать по слогам>, *сніць* – <видеть сон, видеть во сне>, *стальмашыць* – <заниматься ремеслом колесника>, *старцаваць* – <просить подаяния, милостыню>, *трыумфаваць* – <ликовать по поводу одержанной победы, радоваться своему успеху>, *халасцякаваць* – <жить холостяком, не иметь жены>, *хаўрусаваць* – <водить компанию>, *чаўпці* – <говорить ерунду, нести чушь>, *шабасаваць* – <праздновать шабаш>, *шапкаваць* – 1. Заискивающе кланяться, унизительно выпрашивать; 2. Снимать шапку перед кем-либо; *штукавацца* – <выделывать, демонстрировать разные забавные выходки, фокусы, приемы>.

6. Глаголы со значением «становления признака»: *пабагацець* – <стать богаче>, *пабольшаць* – <стать больше>, *павіднець* – <стать виднее>, *павастрэць* – <стать острее>, *павыразнець* – <стать выразительнее>, *павышэць* – <стать выше>, *паглыбець* – <стать глубже>, *падалець* – <стать дальш>е, *пазванчэць* – <стать более звонким>, *палаганець* – <стать более добродушным, покладистым>, *паласкавець* – <стать более ласковым>, *папрастарнець* – <стать просторнее>, *парухавець* – <стать подвижнее, живое>, *паскупець* – <стать скупым или более скупым>, *пасушэць* – <стать сухим или более сухим>, *пачужэць* – <стать кому-либо чужим>, *пачысцець* – <стать чище>. Глаголы со значением «становления признака» в белорусском языке образуются при помощи префикса *-па.*

7. Глаголы со значением «неоднократного, продолжительного» действия: *папавазіць* – <возить долго, неоднократно; повозить много кого-либо, чего-либо>, *папаездзіць* – <ездить долго, неоднократно>, *папасвацца* – <пастись где-либо время от времени>, *папасваць* – <подкармливать лошадь в пути>, *папастраляць* – <стрелять много, неоднократно; настрелять много кого-либо, чего-либо>, *папахадзіць* – <ходить длительное время>, *папашукаць* – <искать долго, неоднократно>. «Неоднократность, продолжительность» действия в белорусском языке выражается префиксом *-папа.*

Таким образом, среди безэквивалентной лексики самой многочисленной по количеству являются слова со значением «действия». В ряде случаев причина возникновения безэквивалентных языковых единиц – различие словообразовательных систем языков.

Изучение безэквивалентной белорусской лексики открывает перед нами возможность глубже узнать историю белорусского народа, его взгляд на окружающий мир.

Использованная литература

1. Гируцкий А.А. Белорусско-русский художественный билингвизм: типология и история, языковые процессы. Минск, 1990, с. 4
2. Махонь С.В. Белорусские языковые элементы в переводах одинаковых художественных текстов // Вопросы лингвистики. – 1996. – № 1. – С. 73–78.
3. Русско-белорусский словарь. Под ред. А.А.Лукашанца. Т. 1 -3. Минск, Белорусская Энциклопедия им.Петруся Бровки, 2012.
4. Шкраба І.Р. Самабытные слова: Слоўнік беларускай безэквівалентай лексікі (у рускамоўнымдачыненні). Мінск, Беларуская Энцыклапедыя, 1994, 223 с.

УДК 378

ПОВЫШЕНИЕ СТАТУСА ПРЕПОДАВАТЕЛЯ ВЫСШЕГО ОБРАЗОВАНИЯ В КЫРГЫЗСКОМ ЭКОНОМИЧЕСКОМ УНИВЕРСИТЕТЕ ИМ. М.РЫСКУЛБЕКОВА

[1,2,4]Динара Мухтаровна Турсуналиева, [1,3,4]Чолпон Турсуналиевна Токтосунова
[1]кандидат экономических наук, доцент
[2]dinaraxan@mail.ru
[3]cholpon75@mail.ru
[4]Кыргызский экономический университет им.М.Рыскулбекова
Кыргызская Республика

В последние годы в высших учебных заведениях качеству педагогического персонала уделяется пристальное внимание, частично это обусловлено введением новой системы оплаты труда, предусматривающей стимулирующий компонент. Однако распространенные сегодня модели и системы стимулирования труда профессорско-преподавательского состава еще находятся на стадии разработки. Поэтому создание эффективной системы стимулов труда преподавателей высшей школы является важной задачей, которая должна решаться как на государственном уровне, так и на уровне отдельных вузов. Для того чтобы выработать стратегию качественного похода к профессорско-преподавательскому составу, нужно, прежде всего, определить сущность основополагающих ключевых понятий «качество» и «качество образования». Проблема повышения качества высшего образования находится в центре внимания инициаторов и участников Болонского процесса. Как подчеркивалось в Берлинском коммюнике, в первую очередь ответственность за качество «...должно лежать на самом высшем учебном заведении и это должно являться основой системы гарантии качества на национальном уровне». Появились новые устойчивые тенденции, характеризующие социальный статус преподавателя высшей школы. Они выражены в частичном падении престижа преподавательского труда, которое вызвало усиление социальной мобильности, преимущественно вертикальной, а также в тенденции к совмещению основной работы преподавателя с иными видами деятельности, преимущественно коммерческими.

При этом отмечается, что специалистами в области оценки качества образования под качеством образования принято понимать интегральную характеристику системы образования, отражающую степень соответствия реальных достигаемых образовательных результатов нормативным требованиям, социальным и личностным ожиданиям. Согласно

Программному документу ЮНЕСКО, можно выделить три аспекта образовательной деятельности, наиболее существенно влияющих на качество высшего образования.

Во-первых, качество персонала, гарантируемое высокой академической квалификацией преподавателей и научных сотрудников вузов, и качество образовательных программ, обеспечиваемое сочетанием преподавания и исследований, их соответствием общественному спросу.

Во-вторых, качество подготовки студентов, которое в условиях, когда массовое высшее образование стало реальностью, может быть достигнуто только на пути диверсификации образовательных программ, преодоления многопланового разрыва, существующего между средним и высшим образованием, и повышения роли механизмов учебно-профессиональной ориентации и мотивации молодежи.

И, наконец, в-третьих, качество инфраструктуры и «физической учебной среды» высших учебных заведений, охватывающее «всю совокупность условий» их функционирования, включая компьютерные сети и современные библиотеки, что может быть обеспечено за счет адекватного финансирования, возможного только при сохранении государственного подхода к высшему образованию как общенациональному приоритету.

«Всемирная декларация о высшем образовании для XXI века», принятая в 1998 г. на организованной ЮНЕСКО Всемирной конференции по высшему образованию, подтвердила изложенные выше положения в следующем концентрированном определении: «Качество в сфере высшего образования является многомерной концепцией, которая должна охватывать все его функции и виды деятельности: учебные и академические программы; научные исследования и стипендии; укомплектование кадрами; учащихся; здания; материально-техническую базу; оборудование; работу на благо общества и академическую среду». Таким образом, можно сделать вывод, что одним из определяющих показателей качества образования вуза является качество педагогического персонала.

Starting a direct assessment of proverbs that exist in English and Azerbaijani, it is necessary to clarify what conditions influenced the appearance of proverbs in both languages.

In support of this thesis, it is necessary to recall the following English proverb: "A liar is not believed when he speaks the truth" and its full analogue, which is in Azerbaijani folklore: "Yalançının evi yandı, heç kim inanmadı".

Many proverbs belonging to Azerbaijani folklore are almost identical to proverbs belonging to the English language. That is, when you review or translate these proverbs, you can see that they are identical.

Let's take a look at some examples.

Hamiya dost deyənin dostu olmaz.-A friend to everybody is a friend to nobody

Yaxşı ad var-dövlətdən yaxşıdır.-A good name is better than riches.

Hər parıldayan qızıl olmaz.-All glitters is not gold.[5]

Let's turn to proverbs that reflect the attitude to work as one of the main aspects of human activity. A number of authors note in their works that working does not bring status, independence, or wealth. They come to this conclusion based on the analysis of a number of proverbs. They embody the idea that there is no need to work hard and rush to get things done; but in Azerbaijani and English sayings and proverbs, on the contrary, you need to work to get something, laziness leads to poverty, hunger, work is valued for the worker"

Both in Azerbaijani and in English there are many proverbs that characterize labor as the basis of human life.

A cat in gloves catches no mice-Əlcəkli pişik siçan tuta bilməz (özünü naza çəkən heç bir iş görə bilməz)

Diligence is the mother of success-Cəhd etmək müvəffəqiyyətin anasıdır

He that would eat the fruit must climb the tree. -İstəyisən bal çörək al əlinə bel-kürək.

Labor feeds a person, but laziness spoils. - Əmək insanı doyurar, tənbəllik isə xarab edər. [1]

As can be seen from the above examples, both peoples have a positive attitude both to work and to labor activity itself.

When considering Azerbaijani and English proverbs that negatively describe friendship relations, it turns out that in English folklore the concept of friendship has its own specifics.

In English proverbs, one can trace the idea that friends should be kept at a distance.

A hedge between keeps friendship green. –Ayrılıq dostluğu möhkəmləndirir.

Familiarity breeds contempt. –Həddindən artiq yaxınlıq ikrah hissi doğurur.

Friends are thieves of time.- Dostlar vaxtın oğrusudur.

Even reckoning makes long friends-Dostluqda hesabı pak olanın üzü ağ olar.

A friend to all is a friend to none.- Hamiya dost deyənin dostu olmaz

Self done is well done.- Öz işini özün görsən yaxşıdır

If you want something done right, you have to do it yourself. –Bir işin yaxşı olmağını istəyirsənsə, o işi özün gör

Everybody's business is nobody's business.- Aşpaz çox olanda şorba şit olar or Hamının qarışdığı iş sahibsiz qalar. [3]

The analysis of proverbs allows us to conclude that friendship and collective work play a greater role in Azerbaijan culture than in English society. The Azerbaijan people attach much more importance to the team and its unit - a friend than the British.

Considered examples of proverbs that exist in the English and Azerbaijan languages, we found both similarities inherent in both cultures and fundamental differences. Folklore helps not only to understand the soul of the people through the language, but also to see the historical events that happened to them that influenced the formation of the nation and the state, to understand the way of life and working conditions, to see the relationship to life and fellow tribesmen.

Proverbs allow us to understand the similarities and differences in the worldview of peoples, and ultimately provide an opportunity to get to know each other better.

References

1. Archer Taylor. 1931. *The Proverb*. Cambridge, MA: Harvard University Press. p. 3

2. Neil Norrick. 1985. *How Proverbs Mean: Semantic Studies in English Proverbs*. Amsterdam: Mouton. p. 73

3. Charles Clay Doyle, Wolfgang Mieder, Fred R. Shapiro. 2012. *The Dictionary of Modern Proverbs.* Yale University Press.

4. Thomas Fielding. 1825. Select proverbs of all nations. New York: Covert.

5. Tofiq Abasquliyev İngilis atalar sözləri və onların Azərbaycan dilində qarşılıqları, Elm nəşriyyat, Bakı/2001

УДК 001.89(075.8)

ІННОВАЦІЙНІ МЕТОДИ НАВЧАННЯ ТА АКАДЕМІЧНА ДОБРОЧЕСНІСТЬ ЗА ЗАКОНОДАВСТВОМ УКРАЇНИ

Ліна Віталіївна Леонтьєва
кандидат юридичних наук, доцент
Харківський національний автомобільно-дорожній університет
Україна

В умовах сьогодення, інтеграція в Європейський простір є однією із цілей реформування системи вищої освіти в Україні для формування та вдосконалення нормативно-правового регулювання сфери вищої освіти. Пошук шляхів забезпечення якості освіти у вищих навчальних закладах є пріоритетним напрямком, оскільки освіта, точніше якісна освіта, забезпечує якісне навчання і виховання учасника освітнього процесу, і відповідно творить фахівця у відповідній галузі. Один із пріоритетних напрямків є забезпечення якості освіти в Україні відповідно до європейських стандартів, а саме закладів вищої освіти. Реформа яка відбувається в вищих навчальних закладах повинна забезпечити та поліпшити якість вищої освіти і дана реформа направлена на відповідність рекомендаціям, стандартам, кращим світовим практикам Європейського простору вищої освіти (ЄПВО). Пошук шляхів забезпечення якості освіти у вищих навчальних закладах є пріоритетним напрямком, оскільки освіта, точніше якісна освіта, забезпечує якісне навчання і виховання учасника освітнього процесу, і відповідно творить фахівця у відповідній галузі.

Сутність впровадження інноваційних методів навчання у вищій школі України вивчаються на досить високому рівні. Особлива увага приділяється у дослідженнях І. І. Доброскок, Г. П. Коцури, С. В. Г. Кременя, П. Ю. Сауха та ін. Що стосується законодавчих документів, національних програм розвитку та становлення інноваційних програм в вищій освіті, то наголошується на недопущенні зниження якості освіти, падіння рівня знань але при цьому не допускається забувати про установлені раніше методи і методики навчання. В України під час реформування в освітянській сфері вагомим інструментом у нормативно-правовому регулюванні забезпечення якості освіти, були прийняті Закон України «Про вищу освіту» від 01.07.2014 р[1] та Закон України «Про освіту» від 05.09.2017 р [2].

В процесі введення інтеграції освітньої системи, Законом України «Про освіту» передбачено нові форми здобуття освіти: мережева, дуальна, сімейна, ін.

Саме ст. 9 вище згаданого закону підкреслює, що особа має право здобувати освіту в різних формах, а саме:

- інституційна (очна (денна, вечірня), заочна, дистанційна, мережева);
- індивідуальна (екстернатна, сімейна (домашня), педагогічний патронаж, на робочому місці (на виробництві); дуальна. Вища освіта вимагає від педагогів ознайомлення та опанування, вивчення і впровадження інноваційних методів навчання й викладання, які в свою чергу вимагають застосування мультимедійних, інформаційних програм. Дана проблема в сучасному освітньому процесі проблема інноваційних методів навчання залишається однією із актуальних у світовій педагогічній і науково-дослідній діяльності [2].

Таким чином можемо стверджувати, що ми живемо в епоху максимального отримання інформації з різних носіїв, тому саме задача вищої освіти - стати основоположним взірцем прогресу, а інновації у різних сферах суспільної діяльності, повинні в цьому тільки допомагати і теж містити в собі високий рівень знань сьогодення, володіти сучасними тенденціями, досить швидко пристосовуватись до змін знань, інформації, технологій.

Також в Законі України «Про освіту» визнано основні види освіти і зазначено, що саме право на отримання освіти гарантується з боку держави на протязі всього життя людини.

Так, поряд із формальною освітою визначають і неформальну освіту. Якщо формальна освіта здобувається за освітніми програмами відповідно до визначених законодавством рівнів освіти, галузей знань, спеціальностей (професій) і передбачає досягнення здобувачами освіти визначених стандартами освіти результатів навчання відповідного рівня освіти та здобуття кваліфікацій, то неформальна освіта не передбачає присудження визнаних державою освітніх кваліфікацій за рівнем освіти, але теж може завершуватись присвоєнням професійних та/або присудженням часткових освітніх кваліфікацій. Також необхідно розглянути і такий вид вищої освіти, як інформальна освіта (самоосвіта). Саме інформальна освіта передбачає самоорганізацію здобувача своїх певних компетентностей. Це пов’язують з самою діяльністю здобувача (професійною, громадською або іншою діяльністю, родиною чи дозвіллям). В Законі чітко передбачається саме право особи на визнання результатів навчання, які були здобуті шляхом неформальної та/або інформальної освіти, в системі формальної освіти в порядку, визначеному законодавством.

Ще один вид отримання освіти – дистанційна освіта. Вона також закріплена, як одна з форм освіти у вищезгаданому Законі України. Саме в ньому вказано, що цей вид освіти є самостійною формою здобуття освіти, а не різновидом заочної форми.

Відповідно до Закону України «Про інноваційну діяльність» інновації – це новостворені і вдосконалені конкурентоздатні технології, продукція або послуги, а також організаційно-технічні рішення виробничого, адміністративного, комерційного або іншого характеру, що суттєво покращують структуру та якість виробництва і соціальної сфери.

Проблеми інноваційних технологій і методів навчання в сучасній вищій освіті актуальні, оскільки посилилася тенденція до гуманізації і гуманітаризації змісту технічної освіти, ліцензовано нові навчальні дисципліни і, як наслідок, зросла потреба в науково-педагогічних працівниках, які змогли б забезпечити інноваційний підхід до реалізації цих тенденцій під час навчально-виховного процесу.

Показово, що викладачі отримали можливість створювати і втілювати власні інноваційні методики.

Також досить актуальною темою для юридичного, в зв’язку з використанням здобувачами мережі Internet, та багатьох інших електронних ресурсів, є питання академічної доброчесності.

В умовах інноваційних процесів сучасного суспільства проблема академічної доброчесності набуває дедалі більшого значення. Стрімкий розвиток технологій та вільний доступ до продуктів інтелектуальної власності полегшують процес використання та поширення інформації, але разом з цим набувають усе більших обертів процеси запозичення, привласнення і використання чужих ідей та думок [3]. Саме тому поглиблення та розширення знань з проблеми академічної доброчесності та впровадження отриманих знань та принципів на практиці є дуже актуальним та важливим завданням сучасного освітньо-наукового простору.

Неможливий розвиток освіти та науки без дотримання стандартів та принципів академічної доброчесності, саме вона є показником розвитку суспільства. Академічна доброчесність є моральним ядром академічної культури. Ось чому пояснення основних засад академічної доброчесності студентам та молодим науковцям в процесі навчальної, виховної та наукової діяльності стає одним із найбільш важливих завдань. Саме на молодь покладають великі надії щодо утвердження і поширення високих етичних і моральних ідеалів та належних стандартів доброчесності у процесі навчання та наукової діяльності [1; 3].

Принципи академічної доброчесності ми вперше зустріли в статті «Викладачі та академічна доброчесність» у 1997 році (видання «Synthesis: Law and Policy in Higher Education [2]. У ній згадується десять принципів:

- утверджувати важливість академічної доброчесності;

- плекати любов до навчання; ставитися до студентів як до самостійної особистості;
- створювати атмосферу довіри в класі; заохочувати відповідальність студентів за академічну доброчесність;
- формулювати чіткі очікування для студентів;
- розробляти справедливі та релевантні форми оцінювання;
- обмежувати можливості для академічної нечесності;
- кидати виклик академічній нечесності, коли такі випадки трапляються;
- допомагати визначити та підтримувати загальноуніверситетські стандарти академічної доброчесності [3].

Під час написання наукових статей, тез доповідей на конференції та дисертацій та звертаються до чинних законів України «Про освіту» та «Про вищу освіту» але при цьому не враховують і не розуміють що саме міститься в цьому законодавстві і вміють його правильно використовувати, та захищати себе. В даних нормативних актах містяться основні поняття та принципи що стосуються «академічної доброчесності». Наприклад, у Законі України «Про освіту» говориться: ст. 6 «Засадами державної політики у сфері освіти та принципами освітньої діяльності є: академічна доброчесність»; ст. 41 «Система забезпечення якості в закладах освіти (внутрішня система забезпечення якості освіти) може включати: систему та механізми забезпечення академічної доброчесності»; стаття 42 повністю присвячена академічній доброчесності, тому й носить назву «Академічна доброчесність»; ст. 53 «Здобувачі освіти зобов’язані: дотримуючись принципу академічної доброчесності»; ст. 54 «Педагогічні, науково-педагогічні та наукові працівники зобов’язані: дотримуватися академічної доброчесності та забезпечувати її дотримання здобувачами освіти в освітньому процесі та науковій діяльності» [1].

Важливою складовою державної політики у сфері освіти та принципи освітньої діяльності у Законі України “Про освіту ” визначено академічну доброчесність. Відповідно до статті 42, академічна доброчесність - це сукупність етичних принципів та визначених законом правил, якими мають керуватися учасники освітнього процесу під час навчання, викладання та провадження наукової (творчої) діяльності з метою забезпечення довіри до результатів навчання та/або наукових (творчих) досягнень [1].

На нашу думку, не дивлячись на розмаїття сучасних технологій навчання, своєчасність і корисність яких підтверджена досвідом роботи в вищій школі слід зазначити, що вони орієнтовані та направлені на роботу викладача разом із студентом. Тобто сучасні технології це все одно колективної дії в аудиторії чи дистанційно, які направлені допомагати отримувати інформацію, розкривати творчо-креативні здібності тощо. Вони мають стати основою для ефективної дидактико-методичної, психологічної, комунікативної взаємодії студента і викладача та прояву компетентнісних навичок. Саме задача цих технологій розкрити особистість студента, навчити мислити креативно, логічно, знаходити нестандартні шляхи вирішення завдань та досягати результатів.

Використана література

1. Про вищу освіту: Закон України від 1.07.2014 р. № 1556-VII, Дата оновлення: 27.10.2022 URL: https://zakon.rada.gov.ua/laws/show/1556-18#Text (Дата останнього звернення 14.11.2022).

2. Про освіту: Закон України від 05.09.20017, № 2145-VIII, Дата оприлюднення: 27.10.2022. URL: https://zakon.rada.gov.ua/laws/show/2145-19#Text (Дата останнього звернення 14.11.2022).

3. Центр академічної доброчесності. Десять принципів академічноїдоброчесності для викладачів. URL: https://drive.google.com/file/d/0ByePGdGpHh6Wb3Qzc2F3ODBuZWM/view (дата звернення: 03. 10.2021 р.).

UOT 373.1.02; 373.1:373.83

ŞAGİRD KOLLEKTİVİNİN İNKİŞAFINDA YARADICI MÜHİTİN FORMALAŞDIRILMASININ ROLU

[1,3]Mehman Mövsüm oğlu Abduləzizov, [2,3]Ziya Əlövsət oğlu Əlinur
[1]pedaqogika üzrə fəlsəfə doktoru, dosent
m.abdulazizov2021@mail.ru
[2]ziyaalinur@gmail.com
[3]Lənkəran Dövlət Universiteti

Qloballaşan dünyanın dəyişən tələbləri kontekstində müasir dünyanın əsas mənzərəsini yeni ideya və təkliflər, novator layihələr, dəqiq bilik və bacarıqlara əsaslanan yaradıcı insan təfəkkürü təşkil edir. Bu səbəbdən təhsilin bütün pillə və mərhələlərində, bütün iştirakçı subyektlərin fəaliyyətində, təhsil prosesinin həyata keçirildiyi məkanlarda istər maddi, istərsə də mənəvi cəhətdən yeni yanaşmalar tətbiq edilməlidir. Bu vaxta qədər məlum olan psixoloji və pedaqoji tədqiqatlardan məlumdur ki, şəxsiyyətin yaradıcı düşüncəsinin inkişafında sosiallaşmanın xüsusi önəmi vardır.

Təhsil subyektlərinin böyük bir qismini təşkil edən şagirdlərin fəaliyyətinin daha səmərəli və məqsədəmüvafiq təşkili prosesində şagird kollektivinin inkişafı və yaradıcı mühitin formalaşdırılması pedaqogikanın aktual məsələlərindəndir.

Pedaqoji ədəbiyyatlarda şagird kollektivinin təşkili və inkişaf mərhələləri, kollektivin təşkilində səlahiyət və vəzifələrin doğru bölünməsi, kollektivin inkişafının mərhələlərə bölünməsi haqqında olan nəzəri biliklər yaradıcı mühitin formalaşdırılması üçün baza rolunu oynayır. Kollektivin inkişafında yaxın və uzaq perspektivlərin müəyyən edilməsi, onların müəyyənləşdirilməsinə verilən tələblərin daha mütəşəkkil və sistemli xarakter daşıması da yaradıcı mühitin inkişafına zəmin yaradan amillərdəndir. Şagird kollektivinin inkişafında yaradıcı mühitin formalaşdırılması üçün kollektivdəki şagirdlərin psixoloji xüsusiyyətləri, maraq və meyllərini doğru müəyyənləşdirmək lazımdır. Bununla yanaşı, şagirdlərin uşaq yaşlarından böyüdüyü təbii və sosial mühitin öyrənilməsi də yaradıcı mühitin formalaşdırılması üçün seçicilik prinsipini doğru həyata keçirməyə kömək edir. Yaradıcı mühitin formalaşmasına təsir edən amillər sırasında şagirdlərin böyüdüyü təbii mühit amili məsələsi pedaqoji ədəbiyyatlarda müəyyən qədər əks olunsa da, praktik təcrübələrin aparılmasına daha çox ehtiyac olduğu, fikrimizcə, kifayət qədər perspektivli məsələdir. Burada əsas nüans ondan ibarətdir ki, yaradıcı mühitin formalaşması üçün müəllim şagirdlərin maraq və meyllərini doğru müəyyənləşdirmək, işgüzar məsələlərdə vəzifə bölgüsünü doğru həyata keçirmək üçün hər bir şagirdin böyüdüyü coğrafi mühit haqqında xəbərdar olmalıdır. Şagird əldə etdiyi bilik,bacarıq və vərdişlərin müəyyən qismini məhz böyüdüyü təbii mühitdən öyrənir.

Sosial-iqtisadi səbəblərdən müəyyən yaşa çatdıqdan sonra yaşadığı təbii və sosial mühiti dəyişən şagirdlərin yeni məktəbə, yeni sinif kollektivinə uyğunlaşması və yaradıcı mühitin aparıcı subyektlərindən birinə çevrilməsi də müasir təlimin əsas problematikalarından biridir. Yaradıcı mühitin formalaşdırılmasında şagird özünüidarəsinə yol açmaq və bu prosesə doğru pedaqoji rəhbərlik etmək səmərəli nəticələrə səbəb ola bilər. Burada ən vacib məsələ şagird özünüidarəsinin nə həddən ziyadə özbaşına, diqqətdənkənar buraxılması, nə də gərəksiz himayədarlığın aparılmasıdır.

Müasir təhsil sisteminin yeni çağırışları biliklərin istehlakçısı olan şagird kontingentinin formalaşdırılması deyil, biliklərin istehsalçısı olan şagirdlər yetişdirməkdir. Bundan ötrü, ilk növbədə şagirdlər üçün təlim fəaliyyəti zamanı sərbəst psixoloji aura və mühit yaradılmalıdır.

İstifadə edilmiş ədəbiyyat

1. İsmixanov M.A., Bəxtiyarova R.Ə. Məktəbin idarə edilməsi.Bakı, 2012, 236 s.

2. Əhmədova M., Əliyev M., Qasımlı M., Kərimova F., Mürşüdova U., Seyidova S., Foks R., Kəsl Ş., MakDonalds C., Varrella G. Müəllim hazırlığının və orta təhsilin yeni perspektivləri(Qərb təhsil sisteminin təcrübəsi əsasında). Bakı: Adiloğlu, 2006, 476 s.

UOT 371:351.851

MƏSAFƏDƏN TƏHSİL: PANDEMİYADAN DOĞAN ZƏRURƏT, TƏCRÜBƏ VƏ PERSPEKTİVLƏR

[1,3]**Mehparə Alış qızı Quliyeva,** [2,3]**Sücayə Natiq qızı Qarayeva**
[1]filologiya elmləri namizədi, dosent
[2]sucayaqarayeva@gmail.com
[3]Bakı Dövlət Universiteti

Görünür ki, COVID-19 pandemiyası dövründə distant təhsilin üzbəüz təhsillə müqayisədə bəzi üstünlükləri və mənfi cəhətləri var. Tədqiqatlarda tez-tez dilə gətirilən distant təhsilin çatışmazlıqları arasında ölçmə və qiymətləndirmənin olmaması, motivasiyanın itməsi, internet və kompüter çatışmazlığı, imkanların bərabərsizliyi, qarşılıqlı əlaqənin olmaması, texniki problemlər, sosiallaşmanın olmaması və s. mövcud prosesə hazır deyil.

Müvafiq araşdırmanın nəticələrinə baxıldığında oxşar nəticələrin alındığı görülür. Ramos-Morcillo və digərləri (2020) distant təhsilin mənfi cəhətlərindən birinin tələbələrin bərabər hüquqlara malik olmaması olduğunu vurğulamışdırlar [1, s.111].

Tədqiqatda maraqlı tərəflərdən əldə edilən digər bir nəticə distant təhsil prosesində təhsilin keyfiyyətinin artırılması üçün həll yolları təklif etməkdir. Maraqlı tərəflərdən alınan həll təklifləri əsasən distant təhsil prosesində ölçmə və qiymətləndirmə, internet və kompüter kimi distant təhsili təmin edəcək resurslara çıxışın təmin edilməsi ilə bərabər imkanların yaradılması, sinifdə fəal iştirakın və qarşılıqlı əlaqənin artırılması, təhsilin gücləndirilməsidir.

Distant təhsil bir çox tələbə üçün dəstək ola bilər (lakin sosial bölünmələri dərinləşdirməmək üçün diqqətlə dizayn edilməli və fərdiləşdirilməlidir) [4, s.35]. Yılmaz-İnce, Kabil və Diler (2020) tərəfindən aparılan bir araşdırmada, tələbələrin kompüter və internetə sahib olma imkanlarının distant təhsilə baxışlarına təsir etdiyi müəyyən edilmişdir. Odur ki, internet və distant təhsili təmin edən kompüterlər kimi mənbələrə çıxışın asanlığı, sosial bölünmələrin qarşısının alınması və təhsildə imkan bərabərliyinin təmin edilməsi, beləliklə də ölçmə və qiymətləndirmənin sağlam şəkildə həyata keçirilməsi baxımından əhəmiyyətlidir. Çünki ölçmə olmadan qiymətləndirmə aparıla bilməz və sağlam tədris prosesi olmadan qiymətləndirmənin əhəmiyyəti olmayacaq [2, s. 114].

COVID-19 pandemiyası dövründə ölçmə və qiymətləndirmənin olmaması bu problemin sistemli şəkildə həll edilməsinin zəruriliyini göstərir. Distant təhsil prosesində fəal iştirakın təmin edilməsi və qarşılıqlı əlaqənin artırılması üçün COVID-19 pandemiyası zamanı yaşanan təhsil problemləri ilə bağlı tələbələrlə tez-tez əlaqə saxlamaq, tələbələri kursda iştiraka dəvət etmək və rəy bildirmək vacibdir [5, s. 56].

Bundan başqa, infrastrukturun yaradılması məktəbəqədər təhsildən ali təhsilə və magistratura səviyyəsinə qədər bütün səviyyələrdə distant təhsil tətbiqlərində kurs məzmununun hazırlanması, effektiv təqdimatı və istifadəsi distant təhsilin keyfiyyətinin artırılması ehtiyacı kimi görülür [3, s. 24]. Bundan əlavə, maraqlı tərəflərin rəylərinə uyğun olaraq düşünmək olar ki, tələbələrin öz müəllimləri ilə dərs keçirməsi və dərslərin sayının azaldılması sinifdaxili əlaqəni artırmaq və dərs zamanı tələbələri izləmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Tədqiqatın nəticələri və metodu baxımından praktikant və tədqiqatçılar üçün aşağıdakı təkliflər verilə bilər:

Araşdırmada distant təhsil prosesində maraqlı tərəflər baxımından bəzi infrastruktur, texniki, avadanlıq və bacarıq çatışmazlıqlarının olduğu müəyyən edildiyi üçün Milli Təhsil Nazirliyi tərəfindən distant təhsillə bağlı müxtəlif ixtisasartırma təhsilləri və infrastruktur dəstəyi təmin edilmişdir. Bu sahədə təkmilləşdirmələrin aparılması vacibdir.

Tədqiqat nəticəsində distant təhsilin bəzi baxımdan üstünlük təşkil etdiyi müəyyən olunduğundan, distant təhsildə əldə edilən müxtəlif təcrübələrdən (məsələn, müxtəlif tapşırıqlar, fəaliyyətlər) üzbəüz təhsil müddətində istifadəyə davam etmək üçün tənzimləmələr edilə bilər.

Tədqiqatda distant təhsildə bəzi mənfi hallar müəyyən edildiyi üçün bunların səbəbləri ilə bağlı müxtəlif akademik araşdırmalar aparıla bilər və təhsil mühitlərində bu mənfi cəhətləri azaltmaq üçün təkmilləşdirmələr aparıla bilər.

Araşdırmada distant təhsildə ölçmə və qiymətləndirmə proseslərində bəzi problemlərin olduğu müəyyən olunduğu üçün distant təhsilə xas ölçmə və qiymətləndirmə üsulları üzrə ixtisasartırma təlimləri təşkil edilə bilər.

Tədqiqatda keyfiyyət tədqiqat metodlarından biri olan müsahibə üsulundan istifadə edilmişdir. Distant təhsilin tələbələrin akademik uğurları, münasibəti və maraqları kimi müxtəlif koqnitiv və emosional xüsusiyyətlərinə təsiri ilə bağlı eksperimental tədqiqatlar oxşar mövzu ilə bağlı digər tədqiqatlarda təşkil edilə bilər.

İstifadə edilmiş ədəbiyyat

1. ATTRI, A. K. (2012). Distance education: problems and solutions. International Journal of Behavioral Social and Movement Sciences, 1(4), 426 p.

2. BALTACI, A. (2017). Nitel veri analizinde Miles-Huberman Modeli. Ahi Evran Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 3(1), 234 s.

3. BAWA, P. (2016). Retention in online courses: Exploring issues and solutions — A literature review. Sage Open, 6(1), 444 p.

4. BAYRAK, M., Aydemir, M. & Karaman, S. (2017). Uzaktan eğitim öğrencilerinin öğrenme stilleri ve doyum düzeylerinin incelenmesi. Çukurova Üniversitesi Eğitim Fakültesi Dergisi, 345 s.

5. ÇALIŞKAN, S., Süzek, S., & Özcan, D. (2017). Determining student satisfaction in distance education courses, 9th International Conference on Theory and Application of Soft Computing, Computing with Words and Perception, ICSCCW 2017, 22-23 August 2017, Budapest, Hungary, 400 p.

UOT 94(479.24)

ŞƏHRİ ŞƏRİFAN

[1,2]Mikayıl Mustafayev, [2]Ülkər Camalova
[1]tarix üzrə fəlsəfə doktoru, dosent
mustafayev_info@yahoo.com
[2]AMEA Arxeologiya, Antropologiya və Etnoqrafiya İnstitutu

Zəngilanın daxil olduğu Qarabağ bölgəsi antik və erkən orta əsrlərdə Albaniyanın Uti, Paytakaran və Arsax vilayətlərinin, Ərəb Xilafətinin (VII-IX əsrlər) , Sacilər (879-941), Salarilər (941-981), Şəddadilər (971-1174), Atabəy Eldənizlər (1136-1225), Monqollar (1239-1256), Hülakülər (Elxanilər) (1256-1357), Cəlarilər (1358-1410), Qaraqoyunlu (1410-1464), Ağqoyunlu (1468-1501), Səfəvilər (1501-1736) dövlətlərinin tərkibində olmuşdur. Səfəvilər dövlətinin tərkibində mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyliyi yaranmışdır. Qafqazda siyasi və

iqtisadi maraqlarını təmin etməyə can atan Rusiya Kürəkçay (1805), Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə Şimali Azərbaycanın Qarabağ ərazisinin də Rusiya imperiyası tərəfindən işğalı rəsmiləşdirildi. 1822-ci ildə Qarabağ xanlığı tam ləğv edilərək Qarabağ əyaləti təsis edildi. [5, s.33; 6, s.14; 7, s.17].

XIX əsrin əvvəllərində Rusiyanın Cənubi Qafqazı işğal etməsindən sonra yeni inzibati ərazi bölgüsü aparılır. Qarabağ əyaləti 1840-cı ildə Şuşa qəzası adı altında Kaspi (Xəzər) vilayətinin, 1846-cı ildə Şamaxı, 1859-cu ildə isə Bakı quberniyalarının tərkibinə daxil edildi. Şuşa qəzasından 1867-ci il dekabrın 9-da Zəngəzur ayrılaraq müstəqil qəzaya çevrildi və 1868-ci ildə yaranan Yelizavetpol quberniyasının tərkibinə daxil edildi. [8, s.124; 13, c.384] Yeni bölgüyə əsasən Zəngilan rayonunun ərazisi Zəngəzur qəzasına daxil edilmişdir. 1993-cü il oktyabr ayının 29-da rayon erməni təcavüzkarları tərəfindən işğal olundu. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqların azad edilməsi uğrunda Azərbaycan ordusunun 2020-ci il sentyabrın 27-dən etibarən keçirdiyi hərbi əməliyyatlar nəticəsində Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi işğaldan azad edilmişdir. [2, s.231]

XIV əsrdə yaşamış məşhur coğrafiyaşünas və tarixçi Həmdullah Qəzvininin yazdığına görə, Zəngilanın əsası hicri tarixinin 15-ci ilində, yəni 636-cı (637) ildə qoyulub. Deməli, Zəngilanın təqribən 1400 ilə yaxın yaşı var. Zəngilan toponimi haqqında müxtəlif fikir və mülahizələr vardır: VII əsrə aid olan bir tarixi mənbədə Xudafərin körpüsü yaxınlığında adı çəkilən Zəngixan yaşayış məntəqəsinin indiki Zəngilan olması haqqında fikirlər mövcuddur. Bir qisim tədqiqatçılar Zəngilan toponiminin "zəngi" etnonimindən törəndiyini iddia edirlər və bunu mənbələrdə adı çəkilən zəngi adlı tayfanın da mövcudluğu ilə əsaslandırırlar. Bəzi tədqiqatçılar isə Zəngilan toponimini qızılbaşların tərkibinə daxıl olmuş zəngənə tayfasının adı ilə əlaqələndirirlər. Yaşayış məntəqəsi kimi Zəngilan coğrafi adı XIV əsrdən məlumdur. Belə ki, qeyd edilən dövrdə Kirokos Qanzaketsi özünün "Tarix" əsərində coğrafi məkan kimi Zəngilan yaşayış məntəqəsinin adını çəkmişdir. Zəngilan toponimi "zənginlərin məskəni, yaşadıqları yer kimi" də mənalandırılır. [10, s.17-18]

Orta əsrlər memarlığına nəzər saldıqda məlum olur ki, Qərbi Avropada feodallar xatirələrini əbədiləşdirmək məqsədilə öz heykəllərini düzəltdirirdilər. VIII əsrdə islamın ərazidə yayılmasından sonra İslam dininin ehkamlarına görə isə heykəl yaratmaq qadağan olduğundan yerli feodallar öz şəxsiyyətlərini memarlıq nümunələri vasitəsilə əbədiləşdirməyə çalışırdılar. Bunun nəticəsində abidə xarakteri daşıyan bürc şəkilli və yaxud qülləvari türbələrin inşası geniş yayıldı. [4, s.15]

Sevindirici haldır ki, orta əsr Azərbaycan memarlığı Yaxın Şərq ölkələri memarlığının ümumi inkişaf prosesində əsas yerlərdən birini tutur. İslam dininə qədər olan dövrdəki ənənələrlə yaradılmış memarlıq abidələri və islam dininin yayılmasından sonrakı memarlıq ənənələrinin yön verdiyi mürəkkəb kompozisiyşlı yeni memarlıq abidələri ərazinin qədim tarixə və zəngin mədəniyyətə malik olduğunun bariz göstəricisidir. [9, s.6]

Ərazidəki yerüstü zəngin mədəniyyət nümunələri onun tarixi keçmişinə böyük maraq yaratmışdır. Eləcə də rayonun ərazisində 60-cı illərdə təsərrüfat işləri zamanı xeyli küp qəbirlərin aşkarlanması ərazinin qədim yaşayış məskəni olduğundan və e. ə. IV-II əsrlərə aid edilən və əksəriyyəti Makedoniyalı İsgəndərin adına zərb olunan onlarla sikkə ərazinin lap qədim zamanlardan beynəlxalq ticarətdə mühüm rol oynadığından xəbər verir. Xudafərin su qovşağının yaradılması gündəmə gəldikdə bütün bu amilləri nəzərə alan Azərbaycan EA Tarix İnstitutunun Arxeologiya şöbəsi əvvəlcə R.B.Göyüşovun, sonra isə Q.M.Əhmədovun rəhbərliyi altında 1974-cü və 1979-cu illərdə ərazidə arxeoloji tədqiqat aparmışdır. [2, c.6, s.22; 12, c.37] Zəngilan rayonu Hacallı inzibati ərazisində Şərifan kəndindəki qazıntı nəticəsində aşkar edilmiş "Şəhri-Şərifan" şəhərinin şimal-qərbində bir tarixi abidənin olduğu aşkarlanır. Ora Şərifan sərdabəsi adı ilə tanınır. Aparılan qazıntılar nəticəsində sərdabənin XII-XIII əsrlərdə inşa edildiyi elmi cəhətdən təsdiqini tapmışdır. [1, s.17-19]

Şərifan kəndindəki Şərifan sərdabəsi Həkəri çayının sağ sahilində yerləşir. Böyük bir hissəsinin Həkəri çayı tərəfindən dağıdıldığı (təbii şərait nəticəsində) 9 hektara yaxın şəhər qalığının

ərazisi qərbdən dağ silsiləsi, şərqdən Həkərə çayının sıldırım sahili ilə əhatə olunmuşdur. Sərdabənin girişi çayın sol sahilində olan səkkiz guşəli Məmmədbəyli türbəsinə tərəf açılır. Aparılan tədqiqat zamanı şəhər ətrafında iki qəbiristanlığın olduğu müəyyən edilmişdir. Onlardan biri şəhərin varlı əhalisinə məxsus sərdabə tipli qəbirlərdən ibarətdir. Bu qəbiristanlıq təqribən 1 km şimalda yüksək dağın yamacında salınmişdır. Ağ daşla inşa edilən qəbirlər əksər hallarda qapı üstü və ya mehrabvari hissədə həndəsi formada naxışlanıb. İkinci qəbiristanlıq isə şəhərin cənub-qərbində olub, üstü dirəklərlə örtülən qəbirlərdən ibarətdir. Hər iki qəbiristanlıqda dəfnetmə İslam şəriətinə uyğun aparılmışdır.

Bununla yanaşı, ərazidə aparılan qazıntı nəticəsində hamam və karvansara da aşkarlandı. 3 metr dərinlikdə aşkar edilmiş hamam kompleksi çox maraq kəsb edir. Üst hissəsi olmayan hamam kompleksinin daxili strukturu hamamın müxtəlif hissələrinin yerinə yetirdiyi funksiyalarını müəyyənləşdirir. Ortasında dairəvi çarhovuzu olan hamam kompleksində istifadə olunmuş çirkli suyu axıtmaq üçün də daşdan hörülmüş kiçik ölçülü, çaya tərəf açılan axacaq da mövcuddur. Hamamın qapısı olan tərəfdə - aşağı hissədə çoxlu sayda saxsı qabların sınıqları aşkar edildi. [1, s.30] Qədim dövrün nümunələrindən ibarət olan boşqab, nəlbəki, fincan sınıqlarının hissələri rəngli boyalarla rənglənmişdir. Məişət əşyaları parlaqlığını saxlamışdır. Əsasən bişmiş kərpicdən Naxçıvan memarlığı üslubunda inşa edilən bu kompleksin su qızdırılan otağı, parxanası və yuyunma yeri və hovuzları yaxşı vəziyyətdə qalmışdır.

Yerli əhalinin məlumatına görə, Şərifan kəndi Şəhri-Şərifan (Şərifan şəhəri) adlı qədim yaşayış yerinin ərazisində salındığı üçün belə adlandırılmışdır.[12, s.215]. Şərifanda aparılan qazıntılar zamanı xeyli miqdarda maddi mədəniyyət qalıqları da aşkar edilib. Arxeoloji materiallara əsasən müəyyən edilmişdir ki, Şərifan yaşayış məskəni olaraq XIV əsrdə salınmış və XVII əsrə kimi burada intensiv yaşayış olmuşdur. Bunu sübut edən mənbələr kimi tarixi memarlıq abidələrini – küp qəbirləri (b.e.ə. IV-II əsrlər – Yeməzli kəndi), Koroğlu daşını (VII-VIII əsrlər – Ağ oyuq düzü), Bartaz Qız qalasını (XIV əsr – Bartaz kəndi) xüsusilə göstərmək olar. Qeyd edək ki, Yeməzli və Bartaz kəndlərində qədim alban kilsələri də mövcud olub.

Beləliklə, Araz çayı üzərində SES -in inşası ilə bağlı 60-cı illərin sonu 70-ci illərdə birtəbəqəli son orta əsr şəhərgahlarında, o cümlədədn Xarabaşəhər, Astrabad, Şərifan abidələrində aparılmış arxeoloji qazıntılar XIII-XVII əsrlər Azərbaycan şəhərlərinin və şəhər mədəniyyətinin öyrənilməsi baxımdan əhəmiyyətli rola malik olmuşdur. Ümumiyyətlə, Zəngilan rayonunda ərazinin qədim mədəniyyətə malik olduğunu əks etdirən bir çox tarixi memarlıq abidələri, tarixi - dini abidələr, ziyarətgahlar mövcuddur.

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov, T. Zəngilan rayonunun tarixi abidələri haqqında. – Bakı: "Şəms" nəşriyyatı, 2013.
2. Azərbaycan arxeologiyası: VI c. -Bakı: Şərq-Qərb, - 2008
3. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanası: "İnzibati ərazi vahidləri"
4. Azərbaycan Toponimləri: Ensiklopedik lüğət. II c. -Bakı: Şərq-Qərb, - 2007.
5. Əfəndiyev, O.Ə. Azərbaycan Səfəvilər dövləti / O.Ə. Əfəndiyev. - Bakı: Şərq-Qərb, - 2007. - 407 s., 33
6. Göyüşov, R.B. Qarabağın keçmişinə səyahət / R.B.Göyüşov. - Bakı: Azərnəşr, - 1993. – 83 s., 14
7. Mahmudov, Y.M., Mustafayev, C.M. Şuşa - Pənahabad / Y.M.Mahmudov, C.M.Mustafayev. - Bakı: Təhsil, - 2012. - 152 s., s.17
8. Piriyev, V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası. - Bakı: Müəllim, - 2006. - 148 s.
9. Salamzadə, Ə.V. Azərbaycanın memarlıq abidələri. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, -1958.

10. Salamzadə, Ə.V., Məmmədzadə, K.M. Arazboyu abidələr, – Bakı: Elm, – 1979.
11. Tapdıqoğlu, N. Zəngilan ensiklopediyası – Bakı: - 2020.
12. Мустафаев, М.М. Средневековые Археологические памятники нижнего течения реки Араз IX-XVII вв. – Баку: -2008.
13. Полное Собрание Законов Российской Империи. Собрание второе. Т. 42, отделение второе. 1867 год. - СПб.: Типография 2 отделении собственной его императорского величества канцелярии, - 1871. - 1209 с.

UOT.372.881.111.1

TƏHSİLDƏ İNNOVASİYALARDAN SƏMƏRƏLİ ŞƏKİLDƏ İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

[1,3]Minəvvər Firudin qızı Məmmədova, [2,3]Şəfəq Fərrux qızı Rzayeva
[1]pedaqoji elmlər namizədi, dosent
munavarmammadova@gmail.com
[2]rzayevashafaq1122@gmail.com
[3]Heydər Əliyev adına Hərbi İnstitut

Təhsildə innovativ fəaliyyət eyni zamanda dünya ölkələri ilə, müxtəlif təhsil müəssisələri ilə, konkret təhsilverən, yaxud təhsilalanlar arasında əməkdaşlığın tədricən genişləndirilməsi və inkişaf etdirilməsidir. Təhsil müəssisələri arasında beynəlxalq əlaqələrin möhkəmləndirilməsinə yönəlmiş beynəlxalq layihələrin hazırlanması, beynəlxalq konfransların, forumların və simpoziumların keçirilməsi bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Təhsildə innovasiya fəaliyyəti ilə bağlı son illərdə bir sıra elmi-nəzəri, pedaqoji, metodik əsərlər çap olunmuşdur. S.S.Xəlilov təhsil, təlim və tərbiyənin, o cümlədən orta təhsilin məqsədi və məzmunu ilə bağlı araşdırmalar apararaq şəxsiyyətin formalaşdırılmasına xüsusi əhəmiyyət vermişdir. Ə.Ə.Ağayev yeni təlim metod və texnologiyalarından istifadənin nəzəri və təcrübi məsələlərini, A.O.Mehrabov, A.N.Abbasov və M.C.Mahmudov təhsildə konseptual kompetensiyaların formalaşdırılması və ilkin pedaqoji kadr hazırlığının müasir problemlərini, Ə.M.Abbasov yeni fənn kurikulumlarının tətbiqi, səciyyəvi xüsusiyyətləri, I.H.Cəbrayılov isə şəxsiyyətyönümlü təhsilin məzmun məsələləri ilə bağlı araşdırmalar aparmışlar. [1, s.24-26]

İnnovativ fəaliyyət təhsil sisteminə aid bütün vəzifələrin həyata keçirilməsinə, ayrı- ayrı məsələlərin məqsədəuyğun, səmərəli həllinə və keyfiyyətin təminatına ciddi təsir göstərir, innovativ fəaliyyət əslində təhsil fəaliyyətinin inkişaf formasıdır. Təhsil sistemində innovativ fəaliyyət, əsasən, aşağıdakı məsələləri əhatə edir:

- pedaqoji sistemdə zəruri dəyişikliklərə, yeniliklərə tələbatların öyrənilməsi, üzə çıxarılması;
- təhsilin keyfiyyətinin yüksəldilməsinə kömək göstərə bilən mövcud metodik işləmələrin dəyərləndirilərək üzə çıxarılması;
- arzu olunan gələcək pedaqoji sistemlərin layihələndirilməsi və doğru istiqamətlənmiş fəaliyyət.

Qeyd olunan məsələlərə diqqətli yanaşma və onların keyfiyyətli həlli nəticəsində təhsil müəssisələrinin və bütövlükdə təhsil sisteminin obyektiv tələbatları ödənilər və imkanlar reallaşar. Bu baxımdan, aşağıdakı müddəalara xüsusi əhəmiyyət verilməsi vacibdir:

- problemlərə həssaslıq (dəyişikliklərə zəruri ehtiyac və tələbat);
- inkişafın imkanlarını müəyyənləşdirmək və diqqətdə saxlamaq;
- tətbiq etmək, həyata keçirmək gücü, potensialı;
- təhsil müəssisəsinin kreativliyi-yaradıcı yanaşma.

Problemlərə həssas yanaşma təhsil müəssisəsinin xüsusiyyətlərini, zəruri ehtiyaclarını, pedaqoji sistemin tələbatlarını müəyyənləşdirməyə və onların əhəmiyyətini qiymətləndirməyə imkan yaradır, inkişaf imkanlarının müəyyənləşdirilməsi təhsil fəaliyyərinin effektivliyinin yüksəldilməsi və mövcud potensialın düzgün qiymətləndirilməsi baxımından əhəmiyyətlidir. Təhsil müəssisəsinin mövcud imkanlarınıhəyata keçirmək potensialı dedikdə ilk növbədə resurslardan minimum səviyyədə istifadə olunmaqla maksimum faydalı nəticələrin qazanılması nəzərdə tutulur.

Təcrübə və araşdırmalar göstərir ki, müasir dövrdə təhsilin keyfiyyətinin artırılması problemi ilə bərabər innovativ fəaliyyətin keyfiyyətinin yüksəldilməsi diqqətimizi xüsusilə ilə cəlb edir. Əslində innovativ fəaliyyətin keyfiyyətinin artırılması aktuallıq baxımından daha çox əhəmiyyətlidir. Çünki təhsilin keyfiyyətinin yüksəldilməsi birbaşa təhsil fəaliyyətinin innovativliyi ilə bağlıdır. [2, s.12-18]

Bəzi təhsil müəssisələrində innovativ fəaliyyətin ardıcıl, sistemli olmaması aktual problemlərin həllində müəyyən çətinliklər yaradır. Ona görə də bu məsələlərə ciddi diqttət yetirilməsi vacibdir.

Təcrübə və araşdırmaların nəticəsi olaraq, innovativ təhsil fəaliyyətinin təkmilləşdirilməsinin başlıca istiqamətlərinin aşağıdakı şəkildə əsaslandıra bilərik:

- pedaqoji kollektivdə təhsil fəaliyyəti sahəsində keyfiyyət dəyişiklərinin dərk olunması zəruriliyinin formalaşdırılması;
- innovativ fəaliyyət texnologiyalarının təkmilləşdirilməsi;
- pedaqoji kollektivlərin məlumatlılıq (informasiya toplamaq, informasiyalılıq) səviyyəsinin yüksəldilməsi;
- innovativ fəaliyyət zamanı keyfiyyətin qiymətləndirilməsi metodlarının təkmilləş-dirilməsi;
- təhsil müəssisəsi rəhbərlərinin, müəllimlərin, ictimaiyyətin innovativ fəaliyyətlə bağlı sərişləliliklərinin yüksəldilməsi və bu istiqamətdə əlbir işin genişləndirilməsi.

Elmi-pedaqoji araşdırmalar göstərir ki, təhsilin keyfiyyətinin yüksəldilməsi, təhsil müəsisələrinin innovativ fəaliyyətinin inkişafı yeni konsepsiyaya əsaslanmaqla təmin oluna bilər. Bu isə bir neçə konsepsiyanın sintezi əsasında formalaşmış nəzəri ideyalar məcmusudur. Həmin nəzəriyyələrdən biri K.Levinin "donuşluğun yumşalması"(yaxud "donun əriməsi") konsepsiyasıdır. Bu konsepsiya idarə və müəsisələrdə, o cümlədən təhsil müəsisələrindəki iki tərəfin-iki əsas qüvvəsinin təklifləri əsasında formalaşmışdır. Tərəflərdən biri dəyişikliklərin təşəbbüskarı, digəri isə məhdudlaşdırıcı mövqeyində çıxış edir. Hər iki tərəf müəyyən balans yaratsa da tədricən yeniliyin təşəbbüskarları öz mövqelərini möhkəmləndirməklə tədricən öz istəklərinə nail ola bilirlər. [3, s.25-28]

Fikrimizcə, dəyişikliklər prosesi əsasən 3 mərhələdən ibarətdir:

- donuşluq;
- hərəkət;
- yumşalma.

Donuşluq mərhələsində təşəbbüskar qüvvələr rəhbərlik qarşısında yeniliklərin həyata keçirilməsi zəruriliyi ilə bağlı məsələ qaldırır, həmin məsələlərin mahiyyətinin kollektiv daxilində dərk olunmasına çalışır. Hərəkət mərhələsində yeni qaydalar, məqsədəçatma texnologiyaları mənimsənilir, fəaliyyətin prosedur forma və priomları öyrənilir. Yumşalma mərhələsində isə nəzərdə tutulmuş təcrübənin reallaşdırılmasına istiqamətlənmiş müvafiq tədbirlər həyata keçirilir. Bu mərhələnin nəticələri kollektiv üçün faydalı olmalıdır Özünüinkişaf mərhələsinə çatan müəssisə qarşısına yeni məqsədlər qoyur.

Beləliklə, kollektiv üzvləri arasında əməkdaşlıq daha da güclənir, onlar dəyişiklikləri diqqətlə izləyir və idarəetmədə fəal iştirak edirlər. Bu konsepsiyanın tərəfdarları təşkilati inkişaf prosesinin 5 ardıcıl mərhələdən ibarət olduğunu göstərirlər.

- Müəssisə üçün yaranmış problemləri müəyyənləşdirilməsi və qiymətləndirilməsi.

- Qabaqcadan diaqnozun qoyulması.
- Birgə fəaliyyətin planlaşdırılması.
- Fəaliyyətin yerinə yetirilməsi.
- Aparılmış dəyişikliklərin nəticələrinin qiymətləndirilməsi.

Problemin həlli ilə bağlı yaranmış digər konsepsiyalardan biri sistemli analiz konsepsiyasıdır. [4, s.67-68]

XX yüzillikdə formalaşmış bu konsepsiya problemlərin sistemli həlli metodologiyasına əsaslanır. Bu baxımıdan, ilk növbədə aşağıdakı məsələlərə diqqət yetirilir:

- Problemlərin müəyyənləşdirilməsi.
- Aktual problemlərin qiymətləndirilməsi.
- Qiymətləndirmə kriteriyalarının müəyyən olunması.
- Mövcud sistemin təhlili, problemlərin həlli inkişaflarının müəyyənləşdirilməsi.
- Müxtəlif həll varianlarının işlənib hazırlanması.
- Qərarın həyata keçirilməsi.
- Nəticələrin qiymətləndirilməsi.

Qeyd olunanları əsas götürərək, təhsil müəssisələrində innovativ sistemin modernləşdirilməsi zamanı aşağıdakı məsələrlərin həlli nəzərdə tutulur:

1. Təhsil müəssisələrində innovativ fəaliyyətlə bağlı mövcud vəziyyətin öyrənilməsi və təhlili.
2. Innovativ fəaliyyətin modernləşdirilmiş sisteminin layihələndirilməsi.
3. İnnovativ fəaliyyətin yeni sisteminin tətbiqi ilə bağlı hazırlıq işlərinin görülməsi.
4. Təhsil müəssisələrinin yeni innovativ fəaliyyət modelinə uyğun təhlil edilməsi.
5. Alınmış nəticələrin (nailiyyət və çatışmazlıqların) müzakirəsi, çatışmazlıqların səbəblərinin müəyyənləşdirilməsi.
6. Problem baxımından təhlil üsulları və nəticələrin korrektə olunması.
7. Arzu olunan təhsil sisteminin layihələndirilməsi və müvafiq təhlillərin aparılması.
8. Arzu olunan yeni təhsil sisteminə keçid strategiyasının işlənib hazırlanması, ardıcıl olaraq təhlillərin, korrektə işlərinin aparılması və həyata keçirilməsi.

Apardığımız araşdırmalar göstərir ki, təhsilin inkişafına xidmət edən innovativ fəaliyyətin daim təkmilləşdirilməsi, dövrün tələbləri, elmi-pedoqoji baxımdan ardıcıl və sistemli olaraq yeniləşdirilməsi zəruridir.

Məlumdur ki, innovativ fəaliyyətin özü elə yeniliklərin tətbiqi ilə müşayiət olunan fəaliyyətdir. Lakin bu fəaliyyət prosesində də yeniliklər tətbiq olunarkən elmi-pedoqoji tələblər nəzərə alınmalıdır. Bu baxımdan müvafiq inkişaf proqramlarının hazırlanması və onun fəaliyyət modelləri kimi qəbul edilməsi məqsədəuyğundur.

İstifadə edilmiş ədəbiyyat

1. ''Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". // Azərbaycan məktəbi, 2013, №5, s.24-26
2. Abbasov Ə. Kurikulum islahatının əsas istiqamətləri. // Azərbaycan məktəbi, 2011, № 4. s.12-18
3. Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006. s.25-28
4. Алмазова Н., Попова Н. Теоретические и прикладные аспекты вузовского инновационного процесса (на примере дисциплины «Иностранный язык») // Инновации в образование, 2003, № 4, с.67-68

UOT 81(091); 81(092); 81637.016

CÜMHURİYYƏT DÖVRÜNDƏ AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ

Nigar Eldar qızı Həsənova
filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Folklor İnstitutu
nigar.qasanova.80@mail.ru

Xalq Cümhuriyyəti dövründə hökumətin maarif işi sahəsində həyata keçirdiyi ilk tədbirlərdən biri Azərbaycan dilinin dövlət dili elan edilməsi idi. Bunun üçün ilk olaraq təhsil işini yenidən qurmaq və Azərbaycan dilini mükəmməl bilən milli kadrlar yetişdirmək lazım idi. Xalq təhsilini milli zəminlər üzərində qurmaq üçün ixtisaslı müəllim kadrlarına və dərs vəsaitinə də ehtiyac var idi.

Xalq Maarifi naziri Nəsib bəy Yusifbəylinin (AXC-nin ilk Maarif naziri olmuşdur) təqdimatı ilə 1918-ci il avqustun 28-də Azərbaycan hökuməti məktəblərin milliləşdirilməsi haqqında qərar qəbul edir. Həmin il sentyabrın 7-də və noyabrın 13-də Xalq Maarifi Nazirliyinin təqdimatı ilə Azərbaycan hökuməti xalq təhsili haqqındakı əvvəlki qərarına əlavələr edir. Bu qərarlara görə, Azərbaycan dili ölkə ərazisində bütün məktəblərdə məcburi fənn kimi tədris olunmalı idi [2, s.66].

1912-ci il dekabrın 10-da Məmməd Yusif Cəfərov hökumət bəyannaməsinə cavabla çıxış edir və diqqətə çatdırır ki, həmin bəyannamədə müsəlmanları maraqlandıran məsələlərə dair, o cümlədən təhsil, köçürmə siyasəti, 1910-1911-ci illərin yer quruluşu qanunlarının ucqarlara şamil edilməsi və s. sahəsində islahatlar yoxdur. O, maarif məsələləri üzərində dayanaraq qeyd edir ki, bu müqəddəs işə - xalqın maariflənməsinə hökumətin qərəzkar münasibətini kədər hissi ilə etiraf edirik. Guya burada siyasət olmamalıdır. Hökumət indiyədək müsəlmanların maarifləndirilməsi görüntüsü altında onların ruslaşdırılmasına yönəldilən tədbirlər həyata keçirir (D.B.Seyidzadə "Rusiyanın Dövlət Dumasında Azərbaycan deputatları). [2, s.96]

Sözügedən dövrlərdə təhsil sisteminin qarşısının alınmasına, təlim-tərbiyə işlərinin kökündən dəyişdirilərək milli mənafelərə uyğun şəkildə yenidən qurulmasına, məktəb islahatlarının aparılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsinə dair Cümhuriyyət Hökuməti və Parlamenti tərəfindən qanun və qərarlar qəbul edilmişdir. Maarif Nazirliyi müvafiq tədbirlər həyata keçirmişdir. Xalq məktəbləri tədris dairələri direktoru vəzifələri ləğv edilmiş və respublikada məktəb və maarif işinin idarə edilməsi Xalq Maarifi Nazirliyinin və xalq məktəbləri müfəttişlərinin sərəncamına verilmişdir. Bundan əlavə, Tiflisdəki Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin Qazaxa köçürülməsi üçün vəsaitin ayrılması (22.06.18); Azərbaycan dilinin dövlət dili qəbul edilməsi (27.06.18); Türkiyədən müəllimlərin dəvət olunması və dərsliklərin gətirilməsi (22.07.18); Məktəblərin milliləşdirilməsi, tədris müəssisələrində dövlət dili olan Azərbaycan dilinin məcburi tədris olunması (28.08.18); Xalq məktəbləri və ali-ibtidai məktəb müfəttişlərinin və müəllim seminariyaları direktorlarının Bakı şəhərində qurultayının keçirilməsinə vəsaitin ayrılması (17.12.18); Türk şriflərinin alınmasına vəsaitin ayrılması (03.02.19); Ərəb əlifbasının islahatı üzrə komissiyanın yaradılması (21.03.19) Bakı şəhərində 1919-1920-ci tədris ilində Universitetin açılmasının Xalq Maarifi Nazirinə tapşırılması (08.04.19) və s. həmin dövrdə görülmüş əhəmiyyətli işlər idi.

Bəlli olduğu kimi, Azərbaycan Hökuməti 1919-1920-ci illərdə ölkədə təhsilin, təlim-tədris sahələrinin inkişaf etdirilməsinə yönəldilmiş bir sıra qərarlar qəbul etmişdir ki, onlardan biri də ana dilində dərsliklərin tərtibi üzrə yaradılmış komissiyaların saxlanılmasına pul vəsaitinin (152 min rubl məbləğində) ayrılması idi (20.06.19).

Ölkədə təhsil sisteminin inkişafını izləmək əsas verir deyək ki, AXC hökuməti ilə yanaşı, Azərbaycan Parlamenti də fəaliyyətində ölkədə təhsilin, maarifin inkişaf etdirilməsi məsələlərinə mühüm yer ayırmışdı. 17 iyil 1919-cu ildə bir sıra bölgələrlə yanaşı, Qazaxda da qısamüddətli (iki

aylıq) pedoqoji kursların açılması haqqında Qanun qəbul edilmişdi. Bundan başqa, Xalq məktəblərinin kitabxanalarına ana dilində yeni kitabların alınması üçün Xalq Maarifi Nazirliyinin sərəncamına pul vəsaitinin (1 mln. rubl məbləğində) verilməsi (18.09.19) diqqəti çəkən məqamlardandır.

Qazaxda təhsil və tədris məsələlərindən, bu barədə nailiyyətlərdən bəhs edərkən maarifçi-pedaqoq Həmid bəy Şahtaxtinskinin xidmətləri qeyd olunmalıdır. Dövrünün tanınmış ziyalısı Yelizavetpol quberniyasının 2-ci rayonu - Ərəş, Qazax, Nuxa qəzaları üzrə xalq məktəbləri müfəttişi olmuşdur. Ərazidə bir sıra məktəblərin açılmasında zəhməti böyük olmuşdur. Həmid bəy Şahtaxtinski Xalq Maarifi Nazirinin müavini olmuş, 1919-cu ildə aprelin 16-dan mayın 16-dək Xalq Maarifi Nazirliyini idarə etmişdir. Həmçinin Şahtaxtinskinin sədrliyi ilə keçirilmiş qurultay müstəqil Azərbaycan Respublikasının müəllim və pedaqoqlarının çağırıldığı ilk qurultaydır. Həmin qurultayın qərarına əsasən, Hökumət qarşısında məsələ qaldırılaraq bir sıra işlərin həllinə nail olunmuşdur. O cümlədən Türk (Azərbaycan) şriftinin əldə edilməsi üçün Xalq Maarifi Nazirliyinin sərəncamına vəsaitin (200 min rubl həcmində) ayrılması; Əlifba islahatı üzrə xüsusi komissiyanın yaradılması məsələləri də ön planda olmuşdur. Həmid bəy Şahtaxtinski yeni Azərbaycan əlifbasının yaradılmasında iştirak etmişdir. O Azərbaycan dilində elmi terminologiyanın tərtibi üzrə komissiyaların sədri olmuşdur, Bakı Dövlət Universitetində dərs deyən ilk azərbaycanlı müəllimlərdən olmuş, Azərbaycanın ümumtəhsil məktəbləri üzrə dərsliklərin hazırlanmasında böyük zəhməti olmuşdur.

Bəlli olduğu kimi, 23 sentyabr 1879-cu ildə Qori şəhərində Zaqfqaziya Müəllimlər seminariyasının nəzdində tatar (Azərbaycan) bölməsi yaradılmışdır. Şamaxıda kasıb rus ailəsində böyümüş tanınmış pedaqoq Aleksey Osipoviç Çernyayevski orada təhsilə cəlb etdiyi azərbaycanlı şagirdlərin sırasında Qazaxdan İsmayıl ağa Vəkilov və Mmmədağa Şıxlinsi də etimadı doğruldaraq əsl ziyalı kimi yetişdilər.

Cümhuriyyət dövründə Milli Hökumət yaşanan müəllim qıtlğını aradan qaldırmaq məqsədilə Qori Müəllimlər Seminariyasının tatar (Azərbaycan) bölməsinin Azərbaycana - Qazaxa köçürülməsinə nail olur və 1918-ci il oktyabrın 1-dən Firidun bəy Köçərli direktor təyin edilir. Oktyabrın 20-dən isə ana dilinin tədrisi üçün İbrahim Əfəndi Qayıbov müəllim kimi fəaliyyətə başlayır.

Seminariyanın Azərbaycan bölməsinin məzunlarının Azərbaycan Xalq Cümhuriyyəti dövründə ana dili dərsliklərinin hazırlanmasında, təhsilin milli köklər üzərində dayanmasında və s. yüksək xidmətləri olmuşdur.

Əhməd bəy Ağayev müsəlmanların tərəqqisi üçün bir sıra şərtlərin vacibliyini qeyd edirdi ki, onlardan biri də "Müsəlmanlara dini azadlıq verilməli, onlar sərbəst olaraq məktəblər, ibadət evləri təşkil edə bilməlidirlər ki, digər xalqlar arasında öz ana dilini və xalqını inkişaf etdirə bilsinlər" fikridir [2, s.177].

Qori Müəllimlər seminariyasının məzunu olmuş Üzeyir Hacıbəyov 1907-ci ildə nəşr etdirdiyi "Hesab məsələləri"dərsliyinin girişində yazırdı: "Ana dilində hesab məsələlərinə dair bir kitabçanın lüzumunu pedaqoqlarımızdan hər biri iqrar edir zənnində olub, bu kitabçanı çıxartmağa səy etdim". Ana dilinin saflığı uğrunda çalışan pedaqoq onu da əlavə edir ki, "Dil cəhətinə gəlincə, məsələlərin sırf türk dili ilə yazılıb, dilimizin təbiətinə məğayir (aid) cümlə və ibarələrdən, baxüsus rus dilinə mənsub ibareyi kəlamdan azad olunmasına artıq səy etdim.

Dil məsələlərinə münasibətdə ziyalılar arasında fikir müxtəlifliyi vardı. Muxtar Əfəndizadə M. Ə. Rəsulzadənin fikirlərinə cavab olaraq söyləyirdi ki, Məmməd Əmin əfəndi eyi təsvir etdi ki, ülum bitərəfdir. Hanki dildə olmuş ola elmdir. Lakin onu bilməlidir ki, tarixi-ədibə bir elmdir ki, onu ana dilindən başqa bir dildə örgətmək olmaz (5). Dil məsələsinə münasibətdə Abdulla bəy Əfəndizadənin də fikirlərinə diqqət edək: "Bir şəxs ki, darülfünunu ikmal etdi... edadidə tədris edəndə də darülfünundan özünə götürdüyü elmləri lazımdır ki, gözəl ədəbi türk dilində tədrisə

müqtədir olsun" [4]. Göründüyü kimi, A.Əfəndizadə tədris işində dövlət dilinin zəruriliyinin tam tələbkarı kimi çıxış etmişdi [1, s.66].

1926-cı ildə Bakıda keçirilən Türkoloji Qurultay zamanı qəbul olunan və bütün türk dünyasında istifadə olunan "Birləşmiş türk əlifbası" adı ilə verilən əlifba A.Əfəndizadənin hazırladığı "Son türk əlifbası" əsasında tərtib edilmişdi. Hətta bütün türk dünyasında və Azərbaycanda bu gün istifadə edilən əlifba cümhuriyyət dövründə Abdulla bəy Əfəndizadə tərəfindən hazırlanan "Son türk əlifbası"ndan bir neçə hərf fərqi ilə hazırda istifadə edilməkdədir [6, s.68; 6, 168).

Məlumdur ki, Azərbaycan parlamenti həmin dövrdə 7 dekabr 1918-ci ildən 27 aprel 1920-ci ilədək mövcud olmuşdur. Azərbaycan ədəbi dilinin rəsmi parlament üslubu ilk dəfə Cümhuriyyət dövründə yaranmışdır. "Qərara əsasən, parlamentin rəsmi dili Azərbaycan türkcəsi elan olunmuş, digər millətlərin nümayəndələrinin öz çıxışlarını rus dilində etmələri məqbul hesab edilmişdi. Bununla belə rəsmi sənədlərin hamısı dövlət dilində tərtib edilirdi. Dövlət dilində olmayan sənədlərin üstündə adətən parlamentin sədr müavini Həsən bəy belə bir məzmunda dərkənar qoyurmuş: "Ərizə türkcə lisanda olmadığı üçün əncamsız qalır" [7, s.61].

Hökumətin 1918-ci il 28 avqust tarixli qərarında göstərilirdi ki, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin öz ana dilində aparılmalı və dövlət dili olan Azərbaycan dilinin tədrisi icbari surətdə həyata keçirilməlidir. Azərbaycan dilini bilməyən şagirdlər üçün üçüncü və dördüncü siniflərdə rus bölmələri açılması və burada Azərbaycan dilində intensiv surətdə tədris olunması nəzərdə tutulurdu ki, iki ildən sonra həmin şagirdlər artıq Azərbaycan dilində təhsillərini davam etdirə bilsinlər. Bu siniflərdə tədis prosesi beşinci sinifdən etibarən şagirdlər məktəbi bitirənədək rus dilində aparılmalı, Azərbaycan dili isə məcburi fənn kimi həftədə 4 saatdan az olmamaq şərtilə tədris olunmalı idi (sən. N-7) [3, 5].

Bununla yanaşı, Bakıda milli siniflərin müəllimləri üçün pedaqogikanın və metodikanın əsasları fənnini Azərbaycan dilində tədris edilən xüsusi kurslar da açılmışdı (sən. N-122) [3, 7].

Orduda da dövlət dilini bilməyən zabitlər qarşısında S. Mehmandarov tələb qoymuşdu ki, bir ay müddətində, heç olmasa, komanda sözlərinin azərbaycanca qarşılığını öyrənsinlər və əsgərlərə Azərbaycan dilində komanda versinlər [1, s.67].

1919-cu ildə "Türk əlifbası", "Təzə elmi hesab", "İkinci il", "Yeni məktəb", "Ədəbiyyat dərsləri", "Müntəxəbat", "Türk çəıəngi" dərslikləri nəşr olundu (sən. N-135) və demək olar ki, bütün tədris müəssisələri həmin dərsliklərlə təmin edildi. Məktəblər Türkiyədən alınmış dərsliklər və tədris vəsaitləri ilə təmin olunurdu. Azərbaycan Parlamenti 1919-cu il 18 sentyabr tarixli qərarı ilə ana dilində yeni kitablar almaq üçün 1 milyon rubl vəsait ayırdı (sən. N-98) [3, 8].

Baxmayaraq ki, AXC-nin mövcud olduğu dövr çox qısadır, amma bu dövrdə təhsil sahəsində görülmüş işlər dərin iz buraxmış, sonrakı illərdə ölkəmizin təhsil sistemində mühüm rol oynamışdır. Xüsusilə də müstəmləkəçilik dövründə mövqelərini itirmiş Azərbaycan dili bu dövrdə dövlət dili səviyyəsinə yüksəlmiş, ölkənin tədris dilinə çevrilmişdir. Təhsil sahəsində milliləşmə gerçəkləşdirildi, azərbaycanlı uşaqlar milli müəllimlərin hazırladığı dərsliklərlə təhsil almaq imkanına malik oldular.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə, I cild, Bakı, Lider nəşriyyat, 2004, 440 s.

2. Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları. Bakı, Elm və təhsil, 2018, 248 s.

3. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Təhsil siyasəti (sənədlər toplusu). Bakı, Elm və təhsil, 2018, 468 s.

4. Azərbaycan Respublikası NS yanında OPMDA, f. 893, siyahı 1, iş 12

5. Azərbaycan Respublikası NS yanında OPMDA, f. 893, siyahı 1, iş 18

6. İbrahimov E. Azərbaycan Xalq cümhuriyyəti: Dil məsələləri, Bakı, "XAN" nəşriyyatı, 2018, 208 s.
7. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası, Bakı, 1990
8. Sadıqova S., Həsənli-Qəribova Ş. Azərbaycan Xalq Cümhuriyyəti və milli ədəbi dilin inkişaf tarixi (1918-2018). Bakı, "Avropa" nəşriyyatı, 2018, -488 s.

УДК 378.147: 811.111

ДО ПИТАННЯ ПРО ВИКОРИСТАННЯ СУЧАСНИХ ОНЛАЙН-ІНСТРУМЕНТІВ В КОНТЕКСТІ НАВЧАННЯ ІНОЗЕМНИХ МОВ

Наталія Станіславівна Скрипник
кандидат педагогічних наук, доцент
Харківський національний автомобільно-дорожній університет
Україна
skrypnykns@gmail.com

Нагальна потреба переходу до змішаного або дистанційного навчання останнім часом поставила чимало викликів перед освітянами взагалі, та перед викладачами іноземних мов зокрема. Це і необхідність швидкого опанування новими інформаційно-комп'ютерними технологіями, і неможливість застосування деяких перевірених практик під час занять та позааудиторних заходів або їх неефективність у нових умовах, пошук та апробація різноманітних Інтернет-сайтів та онлайн-сервісів тощо. Особливе місце займає пошук зручних та ефективних форм і методів роботи під час занять в умовах змішаного або дистанційного навчання, які дозволяють утримувати увагу та мотивацію студентів до вивчення іноземної мови, оживляти хід заняття щоб уникнути монотонності, організовувати взаємодію учасників та залучати всіх присутніх. Також слід враховувати те, що заняття з іноземної мови є зазвичай практичними, а не лекційними, отже запис заняття не є вирішенням. Сьогодні методика викладання іноземної мови перебуває у постійному пошуку шляхів підвищення ефективності навчання в умовах нестабільності формату освітнього процесу (очний, дистанційний, змішаний) та кількості годин на вивчення іноземної мови. Залучення емоційної складової в освітній процес та використання сучасних технологій набуває за таких умов життєво важливого значення. У цьому контексті найбільш актуальними є такі інструменти та технології, що за необхідності забезпечують можливість автономного виконання навчальних завдань, інтерактивності та зворотного зв’язку в освітньому процесі загалом і в процесі вивчення іноземних мов зокрема.

Отже, пропонуємо розглянути досвід використання деяких сучасних онлайн-інструментів, що застосовуються в Харківському національному автомобільно-дорожньому університеті в процесі вивчення іноземних мов, їх переваги та недоліки.

Основною платформою для навчання студентів університету є навчальний сайт університету, де розміщено інформацію про навчальний курс та його методичне забезпечення, посилання на заняття в режимі відео-конференції на обраній платформі віртуальних зустрічей (BigBlueButton, Zoom, GoogleMeet) та запис попередніх занять.

Проте, одним з головних інструментів, що використовуються для спілкування викладача зі студентами, є група у певному мобільному додатку для миттєвої передачі даних, так званому месенджері, що дозволяє майже миттєво передавати одному абоненту або групі повідомлення різних типів. Використання месенджерів та інших засобів онлайн-спілкування в освітньому процесі є доволі розповсюдженим у практиці викладання іноземних мов як

щодо організації освітнього простору, так і в якості навчального інструменту [4, с. 141]. Найбільш популярними наразі є додатки Viber та Telegram.

Незважаючи на популярність, зручність та певні переваги використання месенджерів в освітньому процесі закладів вищої освіти в контексті викладання іноземних мов, існують і недоліки. Так, багато викладачів стикаються з негативними ситуаціями у практиці використання месенджерів у спілкуванні зі студентами. Наприклад, студенти пишуть у неробочий час та вихідні дні; незрозумілий нік студента; виносять у загальний чат те, що варто обговорювати у приватних повідомленнях; студенти надсилають голосові повідомлення; зловживають стікерами, емодзі, картинками тощо; використовують ненормативну лексику (сленг, нецензурні вирази); розбивають одне змістовне повідомлення на кілька коротких; засмічують чат. Ці ситуації можна вважати порушеннями правил нетикету. Причиною таких порушень з боку студентів може бути відсутність у них знань про правила нетикету, недостатній рівень розвитку цифрових компетентностей та практики онлайн спілкування в освітньому просторі. Подібної думки дотримуються і сучасні науковці. Так, у результаті дослідження ставлення студентів до практичного використання мережевого етикету Y.M.Arouri та D.A.Hamaidi дійшли висновку, що студенти недостатньо ознайомлені з правилами мережевого етикету і вищим навчальним закладам важливо включати мережевий етикет у свої навчальні програми [1, с. 95].

Наступним онлайн-інструментом є платформа Quizlet, яка є досить популярною серед викладачів іноземних мов і використовується для опрацювання та актуалізації лексичного матеріалу студентами як самостійно, в автономному режимі, так і для індивідуальної або групової роботи під час заняття (Quizlet Live) за умови стабільного доступу до мережі інтернет. Ми підтримуємо думку науковців, що використання мобільного додатка під час вивчення лексики пропонує гнучкий графік відпрацювання завдання, доступність навчання в будь-який час, оскільки телефон завжди разом зі студентом, доступ до комплекту необхідних навчальних матеріалів у сучасному електронному вигляді [3, с. 135].

Також варто згадати інтерактивні інструменти зі зворотним зв’язком (Google Forms, LiveWorkSheets тощо), тобто після виконання завдання чи тесту за посиланням від викладача студент має можливість дізнатись свої результати у вигляді набраних балів, кількості правильних відповідей тощо. Такі інструменти дозволяють практично реалізувати індивідуальний підхід у навчанні іноземних мов – студент може виконувати завдання у своєму власному темпі, прослухати аудіо або подивитись відео потрібну саме йому кількість разів, вирішувати читати скріпт чи ні, побачити та проаналізувати власні помилки.

Ще одним важливим інструментом є емоційне стимулювання як метод активізації навчальної діяльності студентів. На думку сучасних педагогів та науковців, емоційність навчання створює сприятливий психологічний клімат у групі, забезпечує стійкий інтерес студентів до іноземної мови, стимулює їх мотивацію. Отже, застосування ефективного впливу у вигляді позитивних емоційних стимулів у навчанні відповідає сучасним тенденціям в методиці викладання іноземних мов [2].

Одним із способів актуалізації емоційної складової та одночасного впровадження сучасних елементів гейміфікації в сучасних умовах змішаного навчання іноземних мов, на нашу думку, є використання GIF-анімації, емодзі, стікерів. Використання GIF-анімації та емодзі - це чудовий спосіб додати емоційного забарвлення, свіжості та гумору заняттям, ввести нову або повторити вже вивчену лексику та граматичні структури, а також активізувати мовлення студентів. GIF-зображення та емодзі часто використовуються під час презентації навчального матеріалу, в онлайн-спілкуванні зі студентами з метою емоційного збагачення. Наприклад, щоб додати гумору, викликати здивування, зробити емоційно забарвлений акцент. GIF-зображення також можуть бути самостійним об'єктом вивчення на заняттях, аналогічно використанню звичайних зображень (фотографій, картинок, ілюстрацій

до текстових завдань) у практиці викладання іноземних мов для письмових або розмовних завдань. Перевагами GIF-анімації в даному випадку є рухомість зображення в порівнянні зі статичною картинкою, а також невелика тривалість (1-4 секунди) в порівнянні з навчальним відео. Вибір популярного GIF-зображення забезпечить емоційний відгук студентів на завдання (наприклад, придумати і розповісти історію-пояснення до зображення).

Таким чином, вважаємо використання сучасних онлайн-інструментів і впровадження елементів емоційного стимулювання та гейміфікації необхідними складовими навчання іноземних мов у теперішніх умовах змішаного чи дистанційного навчання. Вони надають можливість зробити процес вивчення іноземної мови емоційно забарвленим, різноманітним та більш сучасним.

Використана літертура

1. Arouri Y. M., Hamaidi D. A. Undergraduate Students' Perspectives of the Extent of Practicing Netiquettes in a Jordanian Southern University. *International Journal of Emerging Technologies in Learning (iJET).* 2017, Vol. 12, No. 3. pp. 84-97. https://doi.org/10.3991/ijet.v12i03.6424

2. Kráľová, Z. & Kamenická, J. & Tirpáková, A. Positive emotional stimuli in teaching foreign language vocabulary. *System*. 2021, Volume 104, https://doi.org/10.1016/j.system.2021.102678.

3. Новікова Є. Б. Використання онлайн-додатка Quizlet для засвоєння лексичного матеріалу під час викладання іноземних мов. *Вісник ХНАДУ*, вип. 87, 2019. С. 132-137.

4. Цимбал С.В., Скрипник Н.С. До питання про нетикет у сучасному освітньому процесі ЗВО в контексті навчання іноземної мови. *Міжнародний філологічний часопис*. Київ : НУБіП, 2021. Том 12. № 4. С. 139-144.

UDC 94(479+24)

ABOUT THE QUESTION OF CULTURAL MONUMENTS OF AZERBAIJAN IN THE TERRITORIES LIBERATED FROM THE ARMENIAN OCCUPATION

[1]Nigar Akhundova, [2]Gulshan Kangarlinskaya
[1]Doctor of Philosophy in History, Assosiate Professor
Baku Business University
nigar-akhundova@yandex.ru
[2]Institute of History of ANAS
gulshan27@mail.ru

The Karabakh region, which is rich in ancient historical and cultural monuments, is an important part of the historical geography of Azerbaijan. The Karabakh region occupies an exceptional place in the history of the national culture of the Azerbaijani people. Karabakh is the homeland of national classical music. Enriching the treasure of world music art, mugham, folklor songs, ashiq music occupy an honorable place in the creativity of cultural figures of Azerbaijan. Exquisite architectural monuments - mosques, temples, palaces, Albanian Christian churches, bridges, tombs, khanaghs, caravanserais and castles form a kind of "genofund" of the artistic culture of our nation and constitute its rich heritage.

Representatives of artistic intellectuals – poets and writers, representatives of the literary environment, musical intellectuals – composers, singers and musicians, architects, artists, sculptors lived and created in Karabakh region. The artistic intellectual figures of Azerbaijan, who were born

and grew up in different cities and towns of Karabakh, later became luminaries of the cultural life of the entire Turkic world. Karabakh monuments, its musical history, Karabakh carpets are the leading and integral part of the entire Azerbaijani culture. During the First Karabakh War (1988-1994), Armenia occupied 20 % of the territory of the Republic of Azerbaijan, including the famous Azikh cave, located in the southwest of Karabakh, with the military assistance of the Russian Federation. The cave belongs to the first stone age and is the fourth discovery in the world where traces of a burning hearth were found 700 thousand years ago, and the age of the main find - Azikhanthropus - an ancient Neanderthal type of man lived here 350-400 thousand years ago. It is the Azikh cave that proves the fact that it is one of the oldest centers of civilization in Azerbaijan. does. And that's why Armenian vandals hit this rare archaeological monument.

The paleontological site in the Azikh cave, located 16 kilometers from Fuzuli, was discovered in 1960 by the prominent Azerbaijani archaeologist Mammadali Huseynov. In 1968, during the research conducted in the Azikh cave, a mandibular bone called Azikhanthropus was discovered. This was a great scientific discovery, because at that time it was the fifth find in the history of world archeology. Primitive man lived in Azikh cave about 350-400 thousand years ago. In the Azikh cave, animal bones and hearth traces from the ancient period were found, which indicates that people used fire in the ancient stone age.

As a result of the military aggression carried out by Armenia against the Republic of Azerbaijan, there are 11 world-important, 223 nationally important, and 453 locally important historical and cultural monuments that reflect the centuries-old history and glorious past of the Azerbaijani people. Khantepe, Kultepe and Shomutep archaeological monuments of the Eneolithic period, which are scientifically relevant for the study of human civilization, as well as Albanian monuments, mosque complexes, ancient cemeteries, tombs, palaces, castles, bridges from the Christian era of Azerbaijan. , ancient settlements, archaeological monuments, etc. was a victim of the Armenian fascist occupation.

In the Khojaly city, which is the most characteristic area of Khojaly-Gadabey archaeological culture of the Bronze Age, Armenians committed unprecedented atrocities and destroyed them in one night. [9, p.20] 22 museums with tens of thousands of exhibits and 4 art galleries were operating in the vast territory occupied by the Armenian usurpers. The works of prominent Azerbaijani artists Sattar Bahlulzadeh, Mikayil Abdullayev, Togrul Narimanbeyov, Salam Salamzadeh, Maral Rahmanzadeh, Bayugagha Mirzazadeh and many others were exhibited there. [1, p.175]

520 culture houses and clubs, 735 libraries, 6 culture and recreation parks, 47 music schools, 3 theaters, 4 art galleries, and 470 historical monuments in the occupied lands during the First Karabakh War were victims of Armenian vandalism. [1, p. 175]

927 libraries (4,600,000 books), 700 historical and cultural monuments, 808 palaces, houses and cultural clubs, 85 music and art schools, 22 museums and museum branches (100,000 exhibits), 4 art galleries, 4 theater concert halls, Khudafarin bridge (VII-XII centuries), tombs in Khachin-Turbatli and Aghdam regions (XIV century), Azikh cave. Art and cultural objects of the Azerbaijani people, stolen. Information about 1240 pieces of carpet products has been provided. [9, p.20] In total, historical and cultural monuments were damaged in the amount of 177 billion US dollars during the First Karabakh War. Rare exhibits of the Kalbajar District History Museum, including gold and silver objects dating back to 3000 years before our era, Lachin District History Museum, its ancient coin collection, 5000- Shusha History Museum with the closest exhibits, Karabakh State History Museum with about 1000 exhibits, Agdam Bread Museum, the second in the world, Home Museum of the founder of Azerbaijani professional music, composer Uzeyir Hajibeyov with more than 300 items, Azerbaijani classical museum with about 400 items Home Museum of Bulbul, the founder of vocal music, Home Museum of Mir Movsum Navvab with more than 1,000 exhibits, Memorial Museum of irreplaceable tarzan Gurban Pirimov, Gubadli with about 2,000 items,

Zangilan, Jabrayil, Fuzuli museums with about 6,000 exhibits and items, etc. looted and destroyed. [9, p.20]

World-important architectural monuments of the 11th-19th centuries - Ganjasar Monastery, a masterpiece of 13th-century Albanian (Azerbaijani) architecture, Khudavyant Monastery (13th century) located in Kalbajar district, Khudafarin bridge built on the Araz River in Jabrayil district, subjected to Armenian aggression during the First Karabakh War is left. [2, p.33]

Mosques, madrassas, bridges, and temples were not only destroyed in the territories freed from occupation, but also, in many cases, the national moral values of our people were insulted by being used inappropriately. Among them are Haji Alakbar mosque in Fuzuli district, Dadali, Merdinli, Yeghegozlu, Yukhari Veysalli village mosques, two mosques in Horadiz village, Suleymanli and Papi village mosques in Jabrayil district, Mamar and Yusifbeyli village mosques in Gubadli district, Zangilan city mosque in Zangilan district, Malatkeshin and Zangilan villages. have mosques. 4 tombs from the 19th century, including the tomb of Ugurlu Bey, which is a locally significant architectural monument in the Karaagac cemetery of Aghdam, were completely destroyed. [6] The cities of Karabakh were destroyed with special brutality. During the destruction of the cities, Agdam, Kalbajar, Fuzuli, Lachin, etc. Museums of history and local history were also damaged, which is vandalism, destruction of cultural and material values, cultural and historical objects created by the labor of numerous generations of Azerbaijanis. [8, p.39]

The tombs of Panahali Khan (XIX century) and Mehdigulu Khan in Agdam city were destroyed, and the tomb of Ibrahimkhalil Khan (XIX century) was completely destroyed. The Republic of Armenia has shown its hatred towards Azerbaijanis by keeping domestic animals, including pigs, inside the mosques belonging to our people. The destruction of religious places of worship and their use as a place to keep pigs is a clear example of Armenian vandalism, and reflects the attitude and true face of the Republic of Armenia towards other religions. In the example of these monuments, the attitude towards the cultural heritage of the world and our country should be condemned by international organizations and foreign countries, and such attitude towards the rich cultural heritage located in the occupied territories, including special importance and rare monuments, should be considered as a threat to the world heritage.

The Mamar Mosque, located in the village of Mamer in the Gubadli district, was built in the 18th century too. Mamar Mosque is registered as a locally important architectural monument.

The President of the Republic of Azerbaijan, Ilham Aliyev, signed a decree "On the cultural capital of Azerbaijan - the city of Shusha". (3,52218) On June 22, 2021, the President of the Republic of Azerbaijan Ilham Aliyev signed the decree "On the establishment of the Shusha City State Reserve Department". (3,52219) The President of the Republic of Azerbaijan Ilham Aliyev signed the Regulation on the General Administration of Karabakh Regional Architecture and Urban Planning under the State Urban Planning and Architecture Committee of the Republic of Azerbaijan. [5]

The invaders destroyed more than 60 mosques, kept pigs and cows in the Agdam mosque (and many others), and covered the walls of the Agdam mosque with offensive writings. [7] "It is necessary to restore the tradition of holding Vagif Poetry Days and Khary Bulbul festival in Shusha and organize it this year," President of Azerbaijan Ilham Aliyev emphasized, and it was successfully implemented. [7] "By destroying historical monuments, the occupiers have practically carried out a "cultural genocide", [7] " the President said. The social danger of Armenian terrorism is that it has caused great material and moral damage to the entire Azerbaijani Turkic world, everything that has been built and grown over the centuries has been erased. But today we are victorious. Today, the people of Azerbaijan have returned Karabakh, its ancient culture and history! Karabakh will be restored!

KARABAKH IS AZERBAIJAN!

References

1. Akhundova Nigar "Armenian vandalism against the material and cultural values of the Azerbaijani people during the Karabakh war (90s of the 20th century - the beginning of the 21st century)" Materials of the Institute of the National Academy of Sciences of Azerbaijan. Materials of the 5th International Scientific Conference "Genocide of Turkic-Muslim peoples in the 20th century". Special issue, No. 70, 71, 72 / 2018.
2. Archive of the Ministry of Culture and Tourism of the Republic of Azerbaijan, Annual reports 2016.
3. Decree of the President of the Republic of Azerbaijan on the implementation of the Law No. 338-VIQ of the Republic of Azerbaijan dated May 31, 2021 "On the cultural capital of Azerbaijan - the city of Shusha" // https://president.az/az/articles/view/
4. Ganjasar Monastery: https://az.wikipedia.org/wiki/Ganjasar_Monastery
5. REGULATION on the General Administration of Karabakh Regional Architecture and Urban Planning under the State Urban Planning and Architecture Committee of the Republic of Azerbaijan // https://president.az/az/articles/view/52730
6. Karaağacı cemetery: https://az.wikipedia.org/wiki/Karaağacı_qabirstanlığı
7. President Ilham Aliyev addressed the people //https://president.az/articles/4171309 October 2020
8. Ismayilov K., Balayev A. Armenian terror against historical and cultural monuments of Azerbaijan. Baku: Maarif, 2020, 120 p.
9. Farida Aftandil gizi Aslanova. Armenian vandalism in the occupied territories of the Republic of Azerbaijan (1991-2010). Abstract of the dissertation submitted for the degree Doctor of Plilosofy in History, Baku, 2012, 20 p.

UOT 81’42; 801.7

MƏTNİN MƏTN DİLÇİLİYİNİN OBYEKTİ KİMİ TƏDQİQİ

Nüşabə Ramiz qızı İsgəndərova
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Texniki Universiteti
nusha_81@mail.ru

Mətn çoxmənalı anlayışdır. Dilçilik lüğətlərində, eləcə də mətn dilçiliyinə dair ədəbiyyatda mətn izah edilərkən bu cəhət aşkar sezilir.

Ənənəvi dilçiliyin əsas izahlı lüğətlərində mətnin fərqli şərhlərinə rast gəlinir. O.S.Axmanovaya görə, mətn nitq məhsulu, yazıya alınmış nitq məhsulu və korpus anlamlarına gəlir. Azərbaycan dilində olan izahlı lüğətdə isə mətn yazıya alınmış nitq parçası və ya söyləm kimi şərhini tapır. Bu lüğətdə söyləm termini də ayrıca izah edilmişdir. “*Söyləm - müəyyən fikir, anlam ifadə edən ünsiyyət vahidi. Söyləm cümlənin nitqdə reallaşması kimi cümləyə uyğun gələ bilər, habelə cümlənin sxemlərinə sığmaya da bilər. Xüsusilə danışıq dilində söyləm cümlədən daha geniş miqyas alır. Dialoqlarda cavab replikaları, söz-cümlələr söyləmlərə daxildir”* [1, 2, 4].

T.M.Nikolayeva haqqında bəhs etdiyimiz termini mətn dilçiliyinin əsas anlayışı kimi izah edir. Onun fikrinə görə, mətnin dörd mənası vardır. Əvvəla, mətn bitmiş və düzgün formalaşdırılmış əlaqəli ardıcıllıqdır. İkincisi, mətn müxtəlif mətnlər üçün müəyyən ümumi modeldir. Üçüncüsü, mətn kommunikativ akt iştirakçılarından birinə məxsus deyimlər ardıcıllığıdır. Nəhayət, mətn formasına görə yazılı olan nitq nümunəsidir [13, s.471].

Mətnin bu izahı da konkret deyildir. İkinci izahda anlayış eyni anlayışla təyin olunur. Bu isə yolverilməzdir. Yəni "mətn müxtəlif mətnlər üçün müəyyən ümumi modeldir" tərifində mətn anlayışı "mətn" sözü ilə izah edilmişdir.

Mətn *"cümlələrin elə bir düzülmüş çoxluğudur ki, onların arasında müxtəlif leksik, məntiqi və qrammatik əlaqələr əsasında formalaşan müəyyən şəkildə təşkil olunmuş və istiqamətlənmiş informasiyanı ötürməyə xidmət edir. Mətn struktur-semantik vəhdətdə mövcud olan mürəkkəb tamdır*" [16, s.11]. İ.R.Qalperin mətnin əsas kateqoriyaları cərgəsində inteqrasiya və retrospeksiya ilə yanaşı, informativliyi ayrıca qeyd etmişdir 121, s.44]. İnformativlik mətnin tamlığı və bitkinliyindən asılıdır. Tamlıq və bitkinliyin əsas göstəricilərindən biri isə əlaqəlilikdir. [5, 6].

Mətn məzmun və struktur cəhətdən tamdır və onun hissələri bir-biri ilə müxtəlif tipli əlaqələrdə olur. Mətnin ümumi məzmunu, ümumi mövzusu, eləcə də onun hissələrinin məzmunu və mövzusu vardır. Təbii ki, mətnin ümumi məzmunu ilə onun hissəsinin mövzusu, həmçinin məzmunu fərqlənə bilər. Biz mətnin ümumi məzmununun müəyyən sayda alt məzmunların semantitk birləşməsi kimi qəbul edirik. Bu məsələ daha çox bədii ədəbiyyat nümunələrində aşkar hiss olunur. Məsələn, povestin, romanın hissələrə, fəsillərə, paraqraflara bölünməsi bu cür hissələrin hər birində müəllifin müəyyən məzmunu oxucuya çatdırmaq istədiyini təsdiq edir. Həmin hissələrin məzmunları bir-biri ilə birləşərək sonda bütöv mətnin məzmununu yaradır.

N.Novruzova mətnə cümlələr ardıcıllığı kimi baxır. O yazır: "*Biz mətn dedikdə ilk növbədə zəncirvari daxili ardıcıllıqla sıralanan, müvafiq qəlibdə nizamlanan, kommunikativ vəzifənin vahidliyi ilə birləşmiş cümlələr çoxluğu nəzərdə tuturuq*" [8, s.35]. Burada cümlələrin zəncirvari daxili ardıcıllıqla sıralanması tələbi şərti qoyulur. Zəncirvarılıq belə bir təəssürat oyadır ki, cümlələr ardıcıl olaraq bir-birinə bağlanır. Təbii ki, mətndə cümlələrin bir-biri ilə belə bağlanması, əlaqələnməsi var. Lakin mətn daxilində cümlələr həmişə bir-biri ilə ardıcıl birləşmir, ardıcıl əlaqələnmir. F.Allahverdiyeva məsələyə başqa mövqedən baxır. Onun fikrinə görə, *"mətn danışanın fikrinə əsasən, özündə bitmiş mənanı ehtiva edən bir və ya bir neçə cümlə, hər hansı bir söyləmdir*" [3, s.78]. Məlumdur ki, söyləm müəyyən fikir, anlam ifadə edən ünsiyyət vahidi kimi izah olunur və qeyd edilir ki, söyləm cümlənin nitqdə reallaşması kimi cümləyə uyğun gələ bilər [1, s.258]. Belə olduqda, mətn bir cümlə olur. Əslində F.Allahverdiyevanın irəli sürdüyü tərifdə də mətnin bir və ya bir neçə cümlə olması fikri özünə yer almışdır. Lakin mətni heç də bir və ya bir neçə cümlə saymaq olmaz.

Mətn semantik cəhətdən bir-birinə bağlanmış hissələrdən təşkil olunur. Konkret mətnin tərkibinə daxil olan cümlələrin sayı kifayət qədər çox ola bilər. Mətndə əlaqələnmə müəllifinin kommunikativ niyyətindən asılıdır. Müəllif mikro və makro mövzuları bir-birinin ardınca işlətməklə ümumi, bütöv mətni yaradır.

Q.Kazımov yazır: "*Mətn (ərəb mənşəli olub, rusca tekst, yunanca textum - birləşmə sözünə uyğundur) - möhkəm daxili struktur-semantik əlaqələri olan cümlələr birliyidir. Mətn sözü bir dilçilik termini kimi müxtəlif mənalarda başa düşülür - dilçilik tədqiqatlarında iki növünə - makro və mikromətnlərə ayrılır*" [7, s.7].

1990-dan 2000-ci ilin əvvəllərinə qədər mətnin tədqiqatına dörd yanaşma üsulu aparıcı olmuşdur:

1) ənənəvi qrammatik;
2) ümumi linqvistik;
3) psixoloji;
4) kommunikativ.

Mətn dilçiliyi məktəblərinin mətnə zidd mövqelərdən yanaşması məlumdur. Əslində iki meyili qeyd etmək lazımdır. Mətnə işarə quruluşu kimi baxılması birinci meyildir. İkincidə mətn fəaliyyət aktıdır. Birinci halda mətn mikrostruktur, dinamik vahid kimi təhlil edilir və təhlil üçün funksional metod tətbiq olunur.

Mətn nitq və düşüncə prosesinin reallaşması, əsərin xüsusi, genişləndirilmiş forması hesab edilir. Bu baxımdan, tədqiqat obyekti üçdür Bunlar tekstema, mətnyaratma vahidləri və bədii mətnin təşkilinin frazifövqi səviyyəsidir.

Ümumiyyətlə, bədii mətnin tədqiqi xüsusi əhəmiyyət daşıyır. Bədii mətnin müəllifi zaman, məkan, obyekt, subyekt, ünvanlılıq və s. məsələləri həm implisit, həm də eksplisit vermək imkanına malikdir. O, bəzən aşkar görünəni dərində gizlədir, qeyri-aşkar olanı qəfil üzə çıxarır. Subyekt və obyektə müxtəlif baxış bucaqlarından yanaşır. Bədii əsərin semantikasının eksplikasiyası daha çətin və aktualdır. Bədii mətnin təhlili mətn haqqında biliklərin genişlənməsində həlledici rol oynayır. Tipoloji olaraq mətnləri bədii və qeyri-bədii olmaqla iki əsas qrupa ayırmaq olar. Mətn fəaliyyət aktıdır. Onun kommunikativ, psixoloji qrammatik, ümumifiloloji aspektləri vardır.

Mətnin linqvistik obyekt kimi tədqiqi diskurs anlayışı fonunda həyata keçirilməlidir. Diskurs sosial və psixoloji fenomen hesab edilir. Mətn diskurs kimi tədqiq edildikdə onun semantik-praqmatik tərəfləri sosial-psixoloji və ya məntiqi-fəlsəfi obyekt səviyyəsində deyil, sırf linqvistik obyekt olaraq kifayət qədər dərindən izahını tapa bilir. [6, s. 64].

İ.R.Qalperin mətni yalnız yazılı nitq əsəri hesab edir. İ.A.Arnold isə həm yazılı, həm də şifahi nitq məhsulu sayır. Onun fikrinə görə, şifahi nitq əsəri monoloq səciyyəli olduqda mətndir. O.U. Moskalskaya İ.Arnoldla qismən razılaşır. O, dioloji şifahi nitq əsərini də mətnə aid edir [9, 12]. Əslində mətnə həm yazılan, həm də deyilən kimi yanaşmaq doğrudur. Mətn dilçiliyinin funksional qrammatika sistemindəki əsas məsələlərini A.V.Bondarko açmağa çalışmışdır. Onun fikrində aşağıdakı məsələlər nəzərə alınır:

"1) semantikanın stratifikasiyası; mətnin məzmun planı ilə mətnin mahiyyəti arasındakı münasibət;

2) sistemin və mühitin qarşılıqlı təsiri;

3) sözforma, ifadə və tam mətn səviyyəsində funksiyalar;

4) dil və nitq faktlarının invariant və prototip əsasında təhlili" [11, s.4].

XXI əsrin əvvəllərində məhz mətn və ondan daha böyük hadisə olan diskurs linqvistik tədqiqatların əsas obyektinə çevrilir. O.Q.Revzina bu məsələyə toxunaraq yazmışdır: *"XX əsrin sonlarında dil işarələri sistemi kimi tədqiqat mərkəzindən kənarlaşdırılır. Linqvistika sosiologiya və psixologiya ilə birləşməyə meyillənir. Koqnitologiya dil-nitq dixotomiyasınınn, sinxroniya-diaxroniyanın, sintaksis-semantikanın, leksika-qrammatikanın hüdudlarından kənara çıxır, dili insanın hiss, qavrama, yaddaş, emosiya, təfəkkür kimi bacarıqlarından biri hesab edir. Linqvistika isə fənlərarası elm olan koqnitologiyanın bir hissəsinə çevrilmişdir"* [16, s.110]. Müəllifin bu fikrində həqiqət vardır. Bununla belə, diskurs və diskurs təhlili mətn dilşiliyinisıxışdırıb tədqiqatlardan uzaqlaşdırmır. Diskurs təliminin meydana çıxmasının və inkişafının əsas səbəblərindən biri məhz mətn dilçiliyi olmuşdur. Mətnin semantikasının, mətn vahidlərinin əlaqəsinin araşdırılması mətn yaradıcılığında koqnitiv mexanizmlərin inkişafına diqqəti artırmağın vacibliyini üzə çıxarmışdır.nitq fəaliyyəti prosesi kimi qəbul edilən diskursun nüvəsində də mətn durur.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri məsələləri. Bakı, Maarif, 1998, 281 s.
2. Adilov M.İ., Verdiyeva Z.N., Ağayeva F.M. İzahlı dilçilik terminləri. Bakı, Maarif, 1989, 162 s.
3. Allahverdiyeva F. Mətn, mətndaxili əlaqələr və onun elementləri // Tədqiqlər. Bakı, Elm 2007. № 3. s.78-90
4. Əlizadə, Z.A. Azərbaycan dilində sintaktik paralelizm./Z.A.Əlizadə.// Azərbaycan dilçiliyi məsələləri.- Bakı: ADU nəşri, 1981. 143 s.
6. İsgəndərova N.R. Mətnin bəzi mübahisəli aspektləri haqqında. Filologiya məsələləri. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Bakı, 2015, №10, s. 262-267

7. İsgəndərova N. R. Mətnin əlaqəlilik kateqoriyası. Pedaqoji Universitetin Xəbərləri, 2016, c.64, № 2, s. 62-68

8. Kazımov, Q. Ön söz. Mətn dilşiliyi problemləri// Abdullayev Ə. Aktual üzvlənmə, mətn və diskurs// Bakı, "Zərdabi LTD" MMC, 2011, s. 5-21

9. Novruzova N. Türk dillərində mətn sintaksisi problemi // Filologiya məsələləri. Bakı, 2003, №3, s.33-44

10. Арнольд И.В. Семантика. Стилистика. Интертекстуальность. М.: Либроком, 2010, 448 с.

11. Ахманова О. Словарь лингвистических терминов. –М.: Изд. Сов.Энц. 1966, 272 с.

12. 95. Бондарко А.В. Лингвистика текста в системе функциональной грамматики // Текст: Структура и семантика. – М.: Наука, 2001. Т. 1. – С.4-13

13. Гальперин И. Р. Текст как объект лингвистического исследования. М.: Наука, 1981. 139 с.

14. 191. Николаева Т. М. От звука к тексту. М.: Языки рус. культуры, 2000, 680 с.

15. Москальская О. И. Грамматика текста. М.: Высш. шк., 1981, 183 с.

16. Ревзина, О.Г. Текст: ускользающий объект // Научные доклады филологического факультета МГУ. Вып.6. - М.: Изд-во МГУ, 2010. - С.107-115

17. Carroll, M. 1993. Deictic and intrinsic orientation in spatial descriptions: a comparison between English and German. In J. Altarriba (ed.), Cognition and Culture: A CrossCultural Approach to Psychology. Elsevier.

UOT 372.851

İBTİDAİ SİNİFLƏRDƏ RİYAZİYYATIN TƏDRİSİ ZAMANI YENİ PEDAQOJİ TEXNOLOGİYİYALARDAN VƏ İKT-DƏN İSTİFADƏ YOLLARI

Rasim Yusif oğlu Şükürov
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
rasimshukurov53@gmail.com

Müasir təhsil sisteminin inkişafında əsas amillərdən biri yeni pedaqoji texnologiyaların tədris təcrübəsində istifadə edilməsidir. Bu səbəbdən tədris prosesində qabaqcıl tədris-texnoloji komplekslərin, xüsusilə də informasiya-kommunikasiya texnologiyalarının (İKT) imkanlarından səmərəli istifadə təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edir.

İKT-nin inkişafı elmi-texniki tərəqqinin, informasiyanın emalının yeni texniki vasitələrinin yaradılması ilə müəyyən edilmiş bir neçə təkamül mərhələsini keçmişdir. Müasir cəmiyyətdə informasiya emalı texnologiyasının əsas texniki vasitələri kompüterlərdir.

İnformasiya mühitində kompüter və telekommunikasiya vasitələrinin istifadəsi informasiya texnologiyalarının inkişafını yeni səviyyəyə qaldırmışdır.

İnformasiyanın formalaşması müasir informasiya texnologiyalarından istifadə etməklə həyata keçirilir. Digər tərəfdən, informasiya texnologiyaları cəmiyyətin informasiya ehtiyatlarından istifadə prosesinin mühüm tərkib hissəsidir.

Tədris prosesində kompüterdən istifadə etmək hər şeylə maraqlanan, getdikcə daha dərindən məlumat almağa çalışan şagird üçün informasiya mühitinin yaradılmasına kömək edir. Məlum olduğu kimi, İnformasiya kommunikasiya texnologiyalarından istifadə etmək müasir və interaktiv təlim modelinin reallaşdırılmasında məktəblər və pedaqoji kollektivlər qarşısında yeni tələblər qoyur. Pedaqoji kollektivin İKT savadını yüksəltmədən, tədris prosesinə innovativ yanaşmanı

inkişaf etdirmədən təhsil sistemində İKT-dən səmərəli istifadəyə nail olmaq mümkün deyil. Bu səbəbdən müəllimlər İKT bacarıqlarına yiyələnməli, İKT bacarıqlarından təlim prosesində pedaqoji vasitə kimi istifadə etməlidirlər.

İKT-nin vasitəsi ilə dərslərin tədrisi şagirdləri sərbəst məlumat almağa, təfəkkür və psixoloji bacarıqlarını inkişaf etdirməyə sövq edir. Ən əsası isə şagird təlim prosesinin fəal iştirakçısına çevrilir. Eyni zamanda kompüter texnologiyasından istifadə müəllimi şagirdlər üçün yeganə həqiqi məlumat mənbəyi olmaqdan azad edir, o, şagird üçün vasitəçiyə çevrilir. Tədrisdə İKT-dən istifadə müəllimlər üçün bir çox imkanlar yaratmışdır. Beləliklə, o, sinifdə vaxta qənaət edir, müxtəlif tədris vasitələrindən istifadə edərkən məlumatları dəqiq çatdırır, daha çox məlumat ötürür, müxtəlif prosesləri, xüsusilə məktəbdə yerinə yetirilməsi mümkün olmayan prosesləri slaydlar vasitəsilə təqdim edir. Bundan əlavə, zərurət olduqda məlumatları - qrafikləri, cədvəlləri, şəkilləri verir, müəllimə həmkarları tərəfindən hazırlanmış metodik üsullardan istifadə etmək və tətbiq etməkdə istifadə edir. Bu göstəricilərə görə informasiya kommunikasiya texnologiyalarından istifadə ənənəvi tədris metodlarından üstündür.

Tədrisdə İKT-dən istifadənin müsbət nəticələrini qeyd etmək olar. Belə ki, tədrisdə yeni texnologiyalardan istifadə dərsi canlandırdığından sinifdə ən zəif şagird belə bu tədris prosesindən kənarda qalmır. İnformasiya texnologiyalarından istifadə etməklə dərsə marağın artırılması hər bir şagirdin diqqətini dərsə cəlb edir.

Riyaziyyat fənninin tədrisində yeni təlim texnologiyaların tətbiqinin məqsədlərindən biri fəal təlimin prinsiplərini reallaşdırmaqdan ibarətdir.

Riyaziyyatın tədrisində müasir texnologiyalardan istifadə dedikdə, bu fənn üzrə optimal didaktik proseslərin məcmusu, qarşıya qoyulan məqsədlərə nail olmaq və təhsil problemlərinin həlli yolları başa düşülür. Məqsəd şagirdlərin təfəkkür, bilik, bacarıq, münasibət və hisslərini inkişaf etdirməklə təlim nəticələrinə nail olmaqdır [6, s.58].

Riyaziyyat fənninin tədrisi zamanı İKT-dən istifadə edilməsi aşağıdakı məqsədlərə xidmət edir:

- dərsi müasirləşdirmək (texniki vasitələrdən istifadə baxımından);
- dərsi şagirdlərin dünyagörüşünə yaxınlaşdırmaq;
- müəllim və şagird arasında anlaşma, qarşılıqlı yardım əlaqəsi yaratmaq;
- müəllimə kömək etmək;
- materialı emosional və obrazlı təqdim etmək imkanı;
- dərsdə əldə edilmiş biliklərin möhkəmləndirilməsinin təşkili;
- bilik, bacarıq və bacarıqların yoxlanılması;
- şagirdin qiymətləndirməsini daha balanslı və obyektiv etmək;
- vaxta qənaət.

İbtidai siniflərdə riyaziyyatın tədrisində İKT-nin tətbiqinin başlıca məqsədi şagirdlərin riyazi və məntiqi təfəkkürünü inkişaf etdirməkdir. Müasir dərsliklər tərtib edilərkən nəzərə alınan əsas məsələlərdən biri materialın bütövlükdə, hazır şəkildə şagirdlərə verilməməsidir. Eyni zamanda müəllim dərslikdəki materialın şagirdlərin öyrənməsi üçün kifayət qədər əhatəli olmadığını onlara izah etməli və şagirdləri digər mənbələrdən istifadəyə istiqamətləndirməlidir.

Müasir dövrdə dərsliklərdən başqa əsas informasiya mənbəyinin internet şəbəkələri olması danılmaz faktdır. Bu şəbəkələrdən informasiya mənbəyi kimi istifadə etməyi bacarması üçün əvvəlcə şagirdlər kompüter avadanlığı ilə təmin olunmalı və bu avadanlıqlardan istifadəni bacarmalıdır. İbtidai siniflərdən etibarən şagirdlərə kompüter avadanlıqları və internet bağlantıları ilə işləməyi, axtarış sistemlərinin tənzimlənməsi, sosial şəbəkələrdən istifadə və bu şəbəkələrdən informasiya mənbəyi kimi istifadə etməyi öyrədilməlidir.

Nümunə olaraq qeyd edə bilərik ki, məsələn, şagirdlər "Fəza fiqurları" mövzusunu keçərkən müəllim İKT-dən istifadə edərək müxtəlif fəza fiqurlarını ağ lövhə ekranına gətirərsə, daha yaxşı mənimsətməyə nail ola bilər.

Həmçinin müəllim gözönünə gətirtməklə fəza fiqurları ilə müstəvi fiqurlar arasında olan fəqləri asanlıqla şagirdlərə izah edə bilər.

"Simmetriya" mövzusunun tədrisində İKT-dən istifadə böyük əhəmiyyətə malik ola bilər. Məsələn, müəllim mövzunu izah edərkən müvafiq kompüter proqramlarından istifadə edərək, verilmiş hər hansı şəklin şaquli, üfüqi, güzgü simmetriyasını asanlıqla şagirdlər üçün əyaniliyə çevirə bilər. Əyanilik isə, bildiyimiz kimi, şagirdlərdə mövzunu daha yaxşı mənimsənilməsinə kömək edir.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyeva Ə, Məmmədova Ü. Müasir təlim texnologiyaları. Bakı, 2014, 178 s.
2. Fazilova İ. Yeni informasiya texnologiyalarının öyrənmə prosesinə tətbiqində müəllimin rolu. Bakı, 2015, 156 s.
3. Kərimov Y. Təlim metodları. Bakı, 2009, 279 s.
4. Mehrabov A., Abbasov Ə., Zeynalov Z. Pedaqoji texnologiyalar. Bakı, 2006, 316 s.
5. Nəzərov A. M. Müasir təlim texnologiyaları. Bakı, 2012, 136 s.
6. Veysova Z. Fəal və interaktiv təlim (müəllimlər üçün vəsait). 2007, 156 s.

UOT 81/36; 81/367

MÜXTƏLİF DƏRƏCƏLİ TAMLIQ/NATAMAMLIQ SİNTAQMALARININ İNTONASİYA XÜSUSİYYƏTLƏRİ

Səbinə Elxan qızı Poladova
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dillər Universiteti
poladova_sabina@mail.ru

Tamlıq/natamamlıq kateqoriyası linqvistik təhlilin demək olar ki, bütün səviyyələri üçün xarakterikdir və məzmunu müxtəlif səviyyələrdə eyni olsa da, müxtəlif yollarla ifadə oluna bilər. K.B.Karpova görə tamlıq və ya natamamlığın məzmun tərəfi, dil vahidlərinin onlarda olan informasiyanın tutumu baxımından paradiqmatik qarşıdurmasında və informasiya məzmununun dərəcəsi baxımından söyləmlərin korrelyasiyasındadır [5, s.27]. Bu faktorlar məntiqi-modal və məntiqi-semantik mənanı müəyyən edir ki, bu məna şüurumuzda nitq vəziyyətinin elementləri arasında əlaqələrin və münasibətlərin ifadəsi kimi başa düşülür. Onlar vahidlərin daxili mahiyyətini açır. Fikrin yaranması və planlaşdırılması nöqteyi-nəzərindən tamlıq dedikdə danışanın niyyətinin reallaşması, müəyyən kommunikativ məqsədə çatması nəzərdə tutulursa, natamamlıq müəllifin kommunikativ niyyətinin natamam həyata keçirilməsidir.

Məlumdur ki, əlaqələndirici mətnin artikulyasiya vahidinin müəyyən edilməsi məsələsi müasir dilçilikdə mübahisəli məsələlərdən biridir. İndiyədək şifahi nitqdə mətnin minimum vahidinin mahiyyətinin müəyyən edilməsində birlik yoxdur. Dilçilər mümkün artikulyasiya vahidi kimi, ritmik qrupu, intonasiya qrupunu, sintaqmı, pauzal qrupu, söyləmi, sintaktik tamı nəticə etibarilə tədqiqat vahidi adlandırırlar.

Mətn eyni zamanda iki formada mövcuddur: əvvəlcədən hazırlanmış yazılı mətn və onun şifahi icrası. Öyrənilən mətnlərin bir xüsusiyyəti də onların ikitərəfli olmasıdır. Fonetik ədəbiyyatda qeyd olunur ki, səsli nitqin bölünməsi zamanı və bu, ilk növbədə hazırlanmış oxunaqlı mətnlərə aiddir, sintaktik və intonasiya bölgüsü baş verir. Birincisi nitq ardıcıllığının seqmentləri arasında sintaktik əlaqələrə, ikincisi - kontekstin şərtlərindən və ünsiyyət vəziyyətindən asılı olaraq, danışanın fikirə verdiyi qiymət və münasibətinə əsaslanır. Bir çox cəhətdən bu, həm sintaqmatik, həm də intonasiya bölgüsünə uyğun gələn aşağıdakı seqmentləşdirmə vahidlərinin iyerarxiyasını

təyin edir. Xətti oxda həmin vahidlər aşağıdakı kimi yerləşdirilə bilər: Sintaqma - fraza - fonoabzas - mətn.

Y.A.Dubovskinin təbirincə fonoabzas *"bütövlükdə müəyyən bir mətn növünün prosodik strukturunun modelini adekvat şəkildə təmsil etməyə qadir olan şifahi mətnin iyerarxik məhdudlaşdırıcı semantik-prosodik vahidi"* kimi müəyyən edilir [4, s.19]. Belə ki, hər bir informasiya müəyyən struktura, mövzu vəhdətinə, mütləq leksik-sintaktik və intonasiya tamlığına malik mətndir. Eyni zamanda, əksər hallarda bu mətnlər bir fonoabzasdan ibarətdir.

Fonoabzasın struktur vahidi frazadır. Fraza semantik vahid kimi başa düşülür, onun bütövlüyü müəyyən sintaktik quruluşlu intonasiya vasitəsi ilə yaranır. Bildiyiniz kimi, fraza bir və ya bir neçə intonasiya qrupundan ibarətdir ki, bu da frazaya daxil olan və hər iki tərəfdən fasilələrlə və ya onların fiziki korrelyasiyası ilə məhdudlaşdırılmış, intonasiya tamlığına malik olan minimum vahid kimi müəyyən edilə bilər. Fikrimizcə, bu tələb intonasiya qrupu terminindən daha geniş olan və həm səs, həm də yazılı nitqin öyrənilməsində istifadə olunan sintaqma terminə uyğun gəlir. Beləliklə, intonasiya dəyişikliklərinin nəzərə alındığı minimal tədqiqat vahid L.V.Şerbanın konsepsiyasına uyğun olaraq müəyyənləşdirilən sintaqmadır. L.V.Şerbaya görə, sintaqma nitqin ən sadə intonasiya vahididir, nitq-fikir prosesində vahid semantik bütövü ifadə edən və vurğunun köməyi ilə fonetik cəhətdən birləşən əsas sintaktik vahid, yəni xüsusi sintaqmatik vurğudur. Sintaqma bir qrup sözdən və yalnız bir sözdən də ibarət ola bilər. Bəzən sintaqma öyrənilən informasiya mətnlərinin minimum bölgü vahidi kimi götürülür [9, s.102].

Qeyd olunduğu kimi, tamlıq/natamamlıq kateqoriyası müxtəlif dillər üçün xarakterikdir ki, bu da onun universallığını göstərir. Eyni zamanda, intonasiya – dil sisteminin bir hissəsi olmaqla dünyanın müxtəlif dillərinə (ən azı bütün Hind-Avropa dillərinə) xas olan universal xüsusiyyətlərə malik ola bilər. İntonasiyanın universal xüsusiyyətləri elanedici, sorğu-sual cümlələrini fərq-ləndirməyə, emosiyaları ifadə etməyə, affektiv və qeyri-affektiv strukturların fərqləndirilməsinə, habelə nitq axınının mənalı vahidlərə bölünməsinə xidmət edir. Tam olaraq, bu ifadə intonasiyanın tamlığını/natamamlığını göstərmək qabiliyyətinə də istinad edə bilər.

Şübhə yoxdur ki, nitq vahidlərinin semantik və qrammatik tamlığı və natamamlığı intonasiya səviyyəsində ifadə olunur: bu, melodik konturun azalması və ya artmasıdır. Düşən melodik kontur (nitqin tamlığının siqnalı kimi) və yüksələn ton (natamamlıq siqnalı kimi) müxtəlif dillər üçün xarakterikdir.

D.Bolinger, F.Libermanın və başqa dilçilərin fikrincə, enən və yüksələn tonların mövcudluğu və fəaliyyət sferaları linqvistik universallara aiddir.

Azalan və artan tonların reallaşmasının xüsusiyyətlərini təsvir edərək, bu hadisələrin universallığını daha çox izah edən müasir tədqiqatçılardan F.Liberman iki əsas səbəb haqqında danışır: fizioloji və psixoloji [1, s.56].

A.Krattendenin nöqteyi-nəzərincə, dünyanın əksər dillərində enən səs tonunun verdiyi mənalar konnotasiya çalarlarına uyğun olaraq "güclü", yüksələn tonlar isə, öz növbəsində, "zəif" mənalarla əlaqələndirilə bilər [2, s.77].

Müxtəlif dillərin materialları üzərində aparılan çoxsaylı tədqiqatların nəticələri onların müəlliflərini (İ.Q.Torsueva, N.D.Svetozarova və s.) tamlıq/natamamlıq ifadəsində iştirak edən müəyyən diferensial xüsusiyyətləri müəyyən etməyə vadar etmişdir. Tamlığın akustik korrelyasiya dəsti ilə bir-birindən fərqlənən dünya dilləri universal xüsusiyyətlərə malikdir. N.D.Svetozarova qeyd edir ki, bu, tonun hündürlüyünün akustik korrelyasiyasının azalması, enən intensivlik, tələffüz tempinin yavaşlaması və nəqli cümlədəki ifadənin sonundakı fasilələrin müddətinin artmasıdır. Sual cümlələrində müxtəlif yüksələn ton konfiqurasiyaları, tezlik intervalının ölçüsü, nüvə hecalarındakı melodik dəyişikliklər nitqin formalaşması üçün aktualdır [7, s.44].

Qeyd etmək lazımdır ki, natamamlıq intonasiyası keyfiyyətcə daha az müəyyənləşdirilmişdir. I.Q.Torsuyevanın sübut etdiyi kimi, ən çox forma baxımından təsvir olunur, yəni melodik əyrinin forması kimi müəyyən diferensial xüsusiyyətlərə əsaslanaraq, tezlik diapazonu, intonasiya vahidinin

başlanğıc və sonunun hündürlük səviyyəsi, melodik zirvənin mövqeyi və tonun hündürlüyünün akustik korrelyasiyasının hərəkət istiqaməti. Bu fikir digər dilçilərin tədqiqatlarının nəticələri ilə üst-üstə düşür. Onların fikrincə, natamamlıq intonasiyası, bir qayda olaraq, tonal artım, konturun həyata keçirilməsinin daha kiçik diapazonu, daha uzun fasilə və ya ümumiyyətlə fasilənin olmaması ilə əlaqələndirilir.

Yuxarıda qeyd edildiyi kimi, intonasiya nitq xarakteristikası olmaqla, digər mənaları ifadə edən vasitələrdən: leksik, qrammatik, üslubi və sintaktik vasitələrdən ayrı həyata keçirilmir. Tam ölçüdə bu rəyi həm də müxtəlif dərəcəli tamlıq/natamamlıq sintaqmaların intonasiya tərtibatı ilə əlaqələndirmək olar. Məsələn, natamamlıq intonasiyasının sonsuz sintaqmaları, tamlığın intonasiyası isə sonlu sintaqmaları əmələ gətirməsi ümumi qəbul edilmiş fikirdir. İ.Q.Torsuyeva qeyd edir ki, *"tamlıq və natamamlıq sonlu və sonsuz sintaqmaların xüsusiyyətləridir"* [8, s.33]. Bununla belə, qeyd etmək lazımdır ki, linqvistik ədəbiyyatın təhlili və öz tədqiqatlarımızın nəticələri intonasiya və semantik-sintaktik tamlıq/natamamlıq arasında daha mürəkkəb və o qədər də birmənalı olmayan əlaqənin mövcudluğunu sübut edir. N.D.Svetozarovanın da fikirləri maraq doğurur. Belə ki, ifadənin qrammatik və semantik tamlığı olduqda və prosodik vasitələr həmsöhbətlə əlaqə saxlamaq üçün müəyyən münasibət ifadə edərkən natamam tamamlamaya meyli ifadə etmək üçün "yarı tamamlama" terminini təklif edir [7, s.56].

Beləliklə, tez-tez intonasiyanın (leksik, qrammatik və digər vasitələrdən fərqli olaraq) həqiqi mənası, həmsöhbətinizin həqiqətən nə demək istədiyi barədə etibarlı məlumat əldə etmək üçün yeganə vasitəyə çevrildiyini iddia etmək olar. Başqa sözlə, intonasiya mənanı təsdiq edə bilər, ya da təkzib edə bilər.

Tamlığın/natamamlığın intonasiya tərtibatının təbiəti ilə bağlı yuxarıda göstərilən bütün fikirlər bu kateqoriyanın universallığını göstərə bilər. Lakin qeyd etmək lazımdır ki, müəyyən tipoloji xüsusiyyətlərin fəaliyyət göstərməsi ilə yanaşı, hər bir milli dilə xas xüsusiyyətlər də mövcuddur. Hər bir milli dildə təkcə məhdud fonemlər deyil, həm də intonasiya nümunələri - tipik intonasiya strukturları vardır. Təsadüfi deyil ki, intonoloqlar mənada, müəyyən fərqlər yaradan məhdud sayda intellektual tipli intonasiya vahidlərindən danışırlar [3; 6]. Hər bir fərdi ifadənin intonasiyasının bütün fərdiliyi və göründüyü kimi, unikallığı üçün nitq intonasiyasında *sabit, tipik intonasiya hərəkətləri*ni həyata keçirən ümumi xüsusiyyətlər var. Bu məsələ ilə bağlı maraqlı müqayisəni B.V.Astafiyev aparır. Bu tədqiqatçı qeyd edir ki, milli musiqidə müəyyən musiqi intonasiya dəsti "lüğət" – ümumi mənalı, ən geniş yayılmış intonasiyalar toplusu, mənanın nüfuz etdiyi özünəməxsus "intonasiya düsturları" olduğu kimi, eynilə milli dildə intonasiya-melodik "lüğət" mövcuddur.

Müasir linqvistik ədəbiyyatın təhlili göstərdi ki, ingilis dilinin tələffüz normasında nitq vahidinin tamlığı/natamamlığı müxtəlif intonasiya parametrləri ilə formalaşa bilər. Eyni zamanda, bu məsələ ilə bağlı məlumatların mövcud dəyişkənliyi təkcə linqvistik (bəzi nitq vahidlərinin digərlərindən semantik və sintaktik asılılığı, mətnlərin janr müxtəlifliyi, milli xüsusiyyətlər və danışanların regional mənsubiyyəti) deyil, həm də ekstralinqvistik amillərlə (ünsiyyət vəziyyəti, natiqlərin peşəkar hazırlığı) izah edilə bilər.

Tamlıq/natamamlıq kateqoriyasının intonasiya tərtibatı ilə bağlı müxtəlif məlumatların mövcudluğu bu və ya digər mənanın ötürülməsində intonasiya konturunun komponentlərinin rolu ilə bağlı müzakirələrlə də əlaqələndirilə bilər. Məhz buna görə də sintaqmanın intonasiya konturunun hansı komponentinin tamlıq/natamamlıq mənasının çatdırılmasında ən informativ olduğunu müəyyən etmək zəruri görünür.

İstifadə edilmiş ədəbiyyat

1. Lieberman Ph. Intonation, Perception and Language. Cambridge, Massachusetts, 1967. 210 p.

2. Cruttenden A. Falls and rises: Meanings and universals // Journal of Linguistics. 1981. Vol. 17. № 1. P. 77-91.

3. Брызгунова Е.А. Анализ диалектной интонации // Экспериментально- фонетические исследования в области русской диалектологии. М.: Наука, 1977. С. 231-264.

4. Дубовский Ю.А. Анализ интонации устного текста и его составляющих. Минск: Вышейшая школа, 1978. 140 с.

5. Карпов К.Б. Стратификация синтаксических значений интонации// Функциональная просодия текста. М., 1982. Вып. 201.

6. Николаева Т.М. Фразовая интонация славянских языков. М.: Наука, 1977. 277 с.

7. Светозарова Н.Д. Фонетическая реализация интонационных противопоставлений // Актуальные вопросы интонации: Сб. науч. тр. М., 1984.

8. Торсуева И.Г. Соотношение вариантов, инвариантов и реализаций во французском языке // ИЯШ. 1973. № 2. С. 28-33.

9. Щерба Л.В. Фонетика французского языка. М.: Высшая школа, 1963. 309 с.

UOT 9(4794)

DİSTANT TƏHSİLİN TARİXİ VƏ SƏMƏRƏLİLİYİ

Sevda Fizuli qızı Abdullayeva
tarix üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Aqrar Universiteti
sevda.abdullayeva.1986@mail.ru

Distant təhsil ilk dəfə konseptual səviyyədə Winconsin Universitetinin 1892-ci il kataloqunda, 1906-cı ildə universitetin direktoru Uilyam Laytinin məqaləsində istifadə edilmişdir (Uşun, 2006; Kaya, 2002).

Distant təhsil proqramı, təhsil müəssisələrinin müəyyən qaydada hazırladıqları kurikulumla tələbələrin təhsili müstəqil həyata keçirmələrinə kömək etmək üçün həyata keçirilən təhsil fəaliyyətidir. Tədris olunacaq tələbələrin sayı müəyyən edilir. Hər dərs üçün tələbələrə həmin dərslə bağlı ev tapşırığı mövzuları verilir və imtahanlar faks, poçt və ya e-poçt kimi üsullarla çatdırılır. Bu tapşırıqlar və imtahanlar qiymətləndirilir. Şərhlər rəy olaraq tələbəyə verilir. Bu, şagird-müəllim qarşılıqlı əlaqəsinə müsbət təsir göstərir (Uşun., 2006).

Kaliforniya Distant Təhsil Layihəsinin tərifinə görə; “Distant təhsil proqramı tələbə ilə təhsil resursları arasında əlaqə yaradaraq təhsili həyata keçirən sistemdir”. Distant təhsil proqramlarının heç bir təhsil müəssisəsində qeydiyyatı olmayan şəxslərə təhsil imkanı verməsi son vaxtlar tələbələrə təklif olunan təhsil imkanlarının artdığını göstərir.

Distant təhsil proqramının digər cəhəti isə mövcud resurslardan istifadə etmək və inkişaf edən texnologiyanı yaxından izləmək zərurətidir (İşman, 2005; Distant təhsil nədir?, 2005). Distant Təhsil; Ənənəvi təlim-tədris metodlarının məhdudiyyətlərinə görə sinifdaxili fəaliyyətin həyata keçirilməsinin mümkün olmadığı hallarda, bu, xüsusi hazırlanmış tədris bölmələri və planlaşdırıcılar və tələbələr arasında müxtəlif ünsiyyət və qarşılıqlı əlaqə mühitləri vasitəsilə müəyyən bir mərkəzdən tədris metodudur. (Kaya, 2002).

Distant təhsil və distant təhsil terminləri çox vaxt bir-birini əvəz edən mənada istifadə olunur. Bu iki sözün artıq bir-birini əvəz edə bilməməsi “müəllim təhsilin icrasını təmin edir, şagirdlər isə öyrənməyə cavabdehdir” yanaşmasının tətbiqi ilə qəbul edilmişdir.

Son zamanlar tez-tez istifadə edilən başqa bir tərif isə "nəşr olunmuş təhsil"dir ki, bu da təhsildə daha səmərəli nəticələr əldə etmək üçün təhsilin nəşri üçün istifadə olunan metodların birləşdirilməsi və bir-biri ilə əməkdaşlıqda bu məqsədə xidmət etməsi deməkdir (Uşun, 2006).

Distant təhsilin tipik xüsusiyyətləri aşağıda ümumiləşdirilmişdir.

1. *Qloballaşma:* Distant təhsil xidmətləri göstərən qurumlar ümumiyyətlə qlobal səviyyədə təhsil vermək üçün keyfiyyətlərə malikdirlər. Avropada (xüsusən də İngiltərə və Fransada) yüz ildən artıqdır ki, belə fəaliyyətlə məşğul olan təhsil müəssisələri xaricdə işləyən və ya ticarətlə məşğul olan vətəndaşlarına mütəmadi olaraq distant təhsil xidmətləri göstərirlər.

2. *Fərdiləşdirmə:* Şərq və qərbdə ənənəvi təhsil sisteminin ən fərqli xüsusiyyəti təlimatçı və tələbənin üz-üzə ünsiyyətidir. Bu təhsil növü tələbələrin fərqli intellekt və öyrənmə qabiliyyətlərinə deyil, ümumiyyətlə, qrupun ümumi səviyyəsinə uyğun təşkil edilir. Halbuki ideal hər bir tələbənin şəxsi xüsusiyyətləri nəzərə alınmaqla hazırlanan kurs məzmunlu təhsil sistemidir. Ənənəvi təhsil anlayışı ilə həyata keçirilməsi çox çətin olan bu sistem distant təhsil sayəsində həyata keçirilməyə başlayıb.

3. *Özəlləşdirmə:* Distant təhsil sistemi şagirdi sinif mühitindən fərdi olaraq təhsil ala biləcəyi bir mövqeyə aparır. Bu sistemdə institusional öyrənmə fərdlər üçün fərdiləşdirilmiş öyrənmə ilə əvəz olunur. Bu vəziyyətin faydaları ilə yanaşı, onun sosioloji və psixoloji mənfi cəhətləri hələ də müzakirə olunur.

4. *Sənayeləşmə:* Böyük bir kütlənin bir məhsula artan ehtiyacını ödəmək üçün əlaqəli sənayelərin qurulması kimi, insanların artan təhsil ehtiyaclarına tez və effektiv cavab vermək üçün distant təhsil müəssisələrinin açılması qaçınılmaz hala gəldi.

5. *Ənənəvi təhsilə uyğun olmayan tələbələrə xidmət:* Distant təhsil hər il dünyada milyonlarla insanın üstünlük verdiyi təhsil sistemidir. Lakin vaxt və məkan baxımından müvafiq təhsil müəssisəsində dərs saatlarında iştirak etmək imkanı olmayanlar (tam ştatlı işçilər, dövlət qulluqçuları, hərbçilər, başqa şəhər və ya ölkədə yaşayanlar) üçün gözlənilən seçimdir). Bu təhsil sistemi xəstə, əlil və cinayətkar insanlar üçün yeganə seçim ola bilər.

6. *Hərəkətlilik:* 1980-ci illərdə uzun məsafələrdə ünsiyyət üçün sabit kompüter konfrans sistemləri və iki tərəfli video konfrans sistemləri istifadə edilərkən, bu gün portativ kompüterlər və mobil telefonlar əhəmiyyətli səviyyədə istifadə edilməyə başlanmışdır. Simsiz rabitə vasitəsi sayəsində təlim zamanı fərdlər.

7. *Sürətli rəy:* Bu gün distant təhsil sayəsində tələbələr günün istənilən vaxtında ev tapşırığını dünyanın istənilən yerindən göndərə, eyni zamanda dünya internetində (www) təhsillərinin qiymətləndirmə nəticələrini ala bilərlər.

8. *Digər təhsil sistemləri ilə müqayisədə ucuzdur:* İnfrastruktura investisiyanın çox yüksək olduğu, tələbəyə düşən ödənişin ənənəvi təhsildən yüksək olduğu və təhsil almaq üçün kifayət qədər tələbə olmadığı hallar istisna olmaqla, distant təhsil ümumiyyətlə təhsil sistemləri arasında ən ucuzdur.

9. *Texnologiya və təhsil:* Virtual sinif otaqları peyk və ya sıxılmış görüntü kodlaşdırması və ya tam bant genişliyi ilə bir-birinə bağlana bilər ki, kursantlar uzaqda olsa belə, üz-üzə təhsil ala bilsinlər.

10. *Vergi ödəyiciləri üçün təhsil:* Vətəndaşların ibtidai, orta məktəb və universitet səviyyələrində təhsili milli təhsil büdcəsindən istifadə etməklə təmin edilir. Dövlət zəhmətkeşlərdən topladığı vergilərlə bu büdcəni yaradır. Bu gün peşəkar iş həyatı daim yenilənmə, başqa sözlə, ömür boyu təhsil tələb etdiyi üçün distant təhsil bu insanların işini davam etdirmələri üçün əvəzedilməz imkanlardan birinə çevrilir. Bu yolla milli təhsil büdcəsi üçün resurslar tapmaq həmişə mümkündür (Çetiner və başqaları, 2005).

Distant təhsilin faydaları

O, müasir tələbənin dəyişən, inkişaf edən və ömür boyu müstəqil öyrənmə ehtiyaclarını qarşılaya bilər, ölkələrin inkişafına mühüm töhfələr verir. Davamlı, ömür boyu, fərdi və müstəqil

öyrənmə imkanı verir. Öyrənmə və tədris proseslərində öyrənmə yaşı, məqsədləri, öyrənmə və tədris mühiti, metod və üsullar və s. da distant təhsilin səmərəliliklərindəndir. Bu baxımdan distant təhsil çeviklik və müxtəliflik təmin edir.

Xərclərin faydalı təhlili baxımından aşağı qiymətli bir tətbiqdir. Dövlət qurum və təşkilatlarına və ya özəl sektor işçilərinə vəzifələrindən ayrılmadan təhsillərini davam etdirmək, özlərini inkişaf etdirmək və peşədə yüksəlmək imkanı verir. O, asanlıqla yenilənən ölçmə və qiymətləndirmə alətləri və üsullarını təklif edir. O, öyrənmə və tədris mühitlərində müxtəlifliyi təmin edir. Mesajların mənbədən alıcılara göndərilməsinə və alıcıların bu mesajlardan bərabər imkanlarla faydalanmasına imkan verir. Təlim proqramlarının standartlaşdırılmasını təmin edir. Ehtiyaclara uyğun olaraq tapşırıq üçün xüsusi təlim imkanları təklif edir. Ənənəvi təhsilin zənginləşdirilməsini təmin edir. O, formal və qeyri-formal təhsil səviyyələrində və müxtəlif fənlərin tədrisində istifadə oluna bilər. Xüsusi təhsilə ehtiyacı olan şəxslərin təhsilində də səmərəli istifadə oluna bilər (Uşun, 2006).

Distant təhsilin məhdudiyyətləri

Effektiv və psixomotor bacarıqların əldə edilməsində və praktiki fənlərdə effektiv deyil. Fərdi və müstəqil işləmək vərdişi olmayan fərdlərin tərbiyəsində kifayət qədər təsirli olmaya bilər. İş həyatında olan tələbələr istirahət vaxtlarının bir hissəsini distant təhsilə həsr etməli ola bilərlər. Bu, insanın sosiallaşmasına mənfi təsir göstərir. Tələbələrə dəstək xidmətlərinin göstərilməsində və mənbə ilə alıcı arasında effektiv əlaqənin qurulmasında bəzi kəmiyyət və keyfiyyət məhdudiyyətləri müşahidə oluna bilər.

Yazılı və çap materiallarının, radio və televiziya verilişlərinin, tədris və tədris proseslərində istifadə olunan müasir kommunikasiya texnologiyalarının yayılması və əldə edilməsində bəzi texniki, maliyyə və nəqliyyat problemləri yarana bilər. Akademik konsultasiya xidmətlərinin göstərilməsində yaşanan problemlər və məhdudiyyətlər,üz-üzə ünsiyyət və qarşılıqlı əlaqə baxımından məhdudiyyətlər, fərd öz fikirlərini formalaşdırmaq üçün çap materiallarını tədqiq etməlidir. (Uşun, 2006).

Distant təhsilin növləri

1. Distant Təhsildə Zaman və Məkan Əlaqəsi (Seferoğlu, 2006) "A" müəllimlə tələbənin heç vaxt görüşmədiyi, başqa sözlə, təhsilin məkan və zamandan asılı olmayaraq, həyata keçirildiyi vəziyyətdir. Bu distant təhsil növündə kurs məzmununun yayılması üçün dünya şəbəkəsindən, ünsiyyət üçün isə elmek şəbəkəsindən istifadə edilə bilər.

2. "B" təlimin yerindən tamamilə müstəqil, lakin vaxtından yarı asılı olaraq aparılmasıdır. Bu distant təhsil növündə internet söhbəti kimi interaktiv veb alətləri qarşılaşılan konkret problemi həll etmək və ya kursda əhatə olunan suala cavab vermək üçün istifadə edilə bilər.

3. "C" təlimin tamamilə məkandan asılı olmadığını, lakin tam zamandan asılı olduğunu bildirir. Mikro-tədris, teleməktəb, açıq universitet, açıq lisey, video-mətn, teletekst və telekonfrans kimi anlayış və təcrübələr televiziya əsaslı texnologiyaların təhsilə gətirdiyi yeni ölçüləri göstərir (Uşun, 2006).

Demiray və İşmana (2002) görə distant təhsilin tarixi inkişafı beş əsas mərhələdə qiymətləndirilir.

- Məktubdan əvvəlki dövr.
- Poçt rabitəsi dövrü.
- Yayım rabitəsi dövrü.
- İkitərəfli kommunikativ səs və qarşılıqlı əlaqə dövrü.
- Kompüterləri və kompüter əsaslı sistemləri birləşdirən peyklər və gələcək texnologiyalar dövrü.

Məlumdur ki, dünyada hərf təhsilinin ilk tətbiqi 1728-ci ildə İsveçdə baş verdi. 20 mart 1728-ci il tarixli Boston qəzetində "qısa dərslər" veriləcəyi bildirildi (Uşun, 2006; İşman, 2005). İngilis pedaqoq Ser Isaac Pitman 1840-cı ildə hərflə stenoqrafiya öyrətdi. Məktub təhsili universiteti

inkişafını və genişlənməsini İngiltərədəki Kembric Universitetinin şotland pedaqoq Ceyms Stüart tərəfindən tədris edilən 8 kampusdan kənar kurslara borcludur. İllinoys Uesleyan Universiteti 1870-ci illərdə uğurlu, evdə öyrənmə proqramı başlatdı. "Hərflə Tədris Universiteti" 1883-cü ildə Nyu-Yorkun İthaka şəhərində yaradılmışdır. William Rainey Harper Chautauqua 1882-ci ildə Nyu-Yorkda məktub öyrənmə proqramı hazırladı və yeni qurulan Çikaqo Universitetinin ilk prezidenti (1891) olanda bu metodu davam etdirdi. 1880-ci illərdə Thomas J. Foster tərəfindən başladılan evdə öyrənmə kursları 1890-cı ildə Beynəlxalq Məktubları Öyrənmə Məktəblərinə çevrildi. Birləşmiş Ştatlarda (ABŞ) hərf öyrənmənin yayılması 1914-cü ildə bir qanunla hazırlanmışdır. Madison 1915-ci ildə məktəblərində məktub öyrənmə kurslarını idarə etmək üçün Viskonsin ştatında milli ali təhsil assosiasiyasını qurdu (Məsafədən təhsil keçmiş və indiki, 2005; Uşun, 2006). İlk radio yayımı 1920-ci ildə ABŞ-da başladı. Həmin tarixdə İngiltərədə məktəb radio proqramları başladı. 1930-cu ildə bütün dünyada geniş yayılmışdır.

Televiziya ilə distant təhsilin dünyada ilk tətbiqi 1932-1937-ci illər arasında təhsil televiziyası yayımları və ABŞ-ın Ayova Universitetində məktubla tədris prosesi 9 Kommunikasiya texnologiyalarından istifadə prosesi (İşman, 2005) üçün tövsiyədir. 1927-ci ildə "ünsiyyət vasitəsilə təhsil" anlayışının ifadəsi ilə gündəmə gəldi. Ancaq Türkiyə təhsil sistemində ilk distant təhsil tətbiqləri 1950-ci illərdə başlamışdır (Uşun, 2006; İşman, 2006). Milli Təhsil Nazirliyi (MEB) 1951-ci ildə "Tədris Filmləri Mərkəzi" yaradaraq distant təhsili təsis etdi. Mərkəz maarifləndirici filmlər hazırlamaqla kəndlərə təhsildə texnologiyadan istifadəni gətirib. Tədris Filmləri Mərkəzi inkişaf edən texnologiyaların birləşdirilməsi ilə adını və missiyasını dəyişdirərək inkişaf etdirdi; İnternet və multimedia texnologiyalarının təhsil proqramına daxil edilməsi ilə distant təhsil müasir ölçü qazanmışdır. Onun görünməmiş səviyyədə təqdim edilməsi, tələbələr və müəllimlər arasında qarşılıqlı iştirakın təmin edilməsi və texnoloji inkişaflar distant təhsil proqramlarını daha cəlbedici edib.

Beləliklə, tələbə və müəllim iştirakında tətbiq olunan metodlarda çoxlu dəyişikliklər baş vermişdir. Bu gün internet vasitəsilə həyata keçirilən və akkreditasiya olunmuş təhsil proqramı 1900-cü illərdə başlayan məktubla həyata keçirilən təhsil proqramından fərqli bir yol izləyir. Məktub təhsili proqramında dərslərin şagirdlərə çatdırılmasında bəzi problemlər yaşanıb. Bundan əlavə, kurs proqramında maddi çatışmazlıqlar olduğu üçün heç bir hüquqi orqan bu proqram nəticəsində alınan diplomu təsdiq etmək istəməyib. Yeni əsrin gətirdiyi texnoloji inkişaflar distant təhsil proqramlarına da yeni məna verib.

İstifadə edilmiş ədəbiyyat

1. İşman A., (2005), Uzaktan Eğitim. Öğreti Yayınları, Ankara.

2. İşman A., Barkan M., DemiraY M., (2002), Distance Education: The Winds of Change. Sempati. Ankara.

3. Kaya, Z., (2002) Uzaktan Eğitim. PegemA Yayıncılık, Ankara.

4. Uşun S., (2006), Uzaktan Eğitim. Nobel Yayın Dağıtım, Ankara.

5. Distant Təhsil nədir? Giriş: [http://www.uluslararasiegitim.com/uzak/uenedir.asp]. Giriş tarixi: 28.05.2005

6. Seferoğlu S.S., (2006), Tədris Texnologiyaları və Material İnkişafı, 2-ci Nəşr, Pegem A Yayınları, Ankara.

7. Çetiner, M.H., Erten, Y.M., GenceL, Ç., (1999), İnternet Əsaslı Distant Təhsil və Multimedia Tətbiqləri, V. Türkiyədə İnternet Konfransı., Ankara. Giriş:[http://inet-tr.org.tr/inetconf5/tammetin/gencel-egit.doc]. Giriş tarixi: 28.05.2005.

8. Məsafədən təhsilin keçmişi və bu günü. Giriş: [http://www.uluslararasiegitim.com/uzak/geschich.asp]. Giriş tarixi: 28.05.2005

UOT 39

EXCERPTS ON THE HISTORY OF ANCIENT JEWELS OF KARABAKH

Sevda Samadova
Doctor of Philosophy in History, Assistant Professor
Institute of Archaeology, Ethnography and Anthropology of ANAS
sevasamadova@mail.ru

Jewels make up an important part of the material culture of various existing ethnos. On each step of the historical development artist-jewelers, keeping the traditions alive, introduced some innovations to the artistic and decorative art. In general ancient goldsmiths relied on the variety of types of the applied, utilitarian art when solving a certain stylistic tasks. This tendency in terms of the development of the decorative and artistic art led step by step to formalization of integral style in the art. The collection of ancient jewels from Karabakh, which relate to the early antiquity according to the chronology, let us tell about formation of specific commonality in local goldsmiths in terms of artistic expression [1, p.63].

From the dawn of the time jewels were kind of a reference point when determining the social level of society and in some sort an indicator of economic and cultural state. In general jewels, as many other items of material culture, have their own history of development, ranging from mining of metals and to obtaining of the final product. Local artistic styles, formed on each certain history stage, were embodied in other spheres of folk culture, including architecture, clothing and etc. [2, p.269]

At all times natural surroundings played an important role in the formation of view of the world and aesthetic view of the craftsmen. Jewelry art of Karabakh is in abundance of natural motifs and symbolisms.

Among diversity of forms and ornaments of Karabakh jewels, it is beginning to emerge a picture of a single local artistic style in the art. The set of decorations and headpieces includes such items as bracelets, rings, earrings, beads necklaces and charms. Craftsmen created accessories for home and clothes, such as mirrors, fasteners, buckles, buttons, and also they encrusted daggers, finials, bridle-bits and knife handles.

Early antique jewels of Karabakh are presented by the collection of bronze items. Iron elements can be found on rare occasions and we can explain it by a heavy corrosion of this metal and by ammonification process in it.

Such items as bracelets and rings were in popular demand among decorations for body. Among various decorations there were round and square shaped bracelets with closed non-joined ends. These bracelets were worn above elbow. They were decorated with knops, zigzags, cuts, ribs and other geometric lines. Also it was found smooth bracelets without any ornaments as well as bracelets with engravings. Women wore bracelets with delicate ornamental patterns. Men wore massive brutal bracelets of large diameter [1, p.65]. Such bracelets were worn above elbow. Among other items it was found bracelets for legs. Our attention is drawn by the diversity of incrustation of elegant bracelets and especially decorative appearance of bracelet ends, which were often illustrated with favorite totems. Bracelets with connected ends were made by molding method. Local bracelets are distinguished by the presence of small cones on them, which were welded to the incrusted cuts on bracelets. Each bracelet had one or four and more cones on it. Such metal cones also were on other jewels. All above said reflected a certain standardized distinctive character. Similar bracelets were observed in Mingachevir and other regions of Azerbaijan [3, p.62; 4, p.70].

Rings are the next group of body decorations from Karabakh. Both men and women wore rings. Massive bronze spiral-shaped rings with two complete rotation were worn by men and

women wore similar shaped rings but more elegant in design. Such bracelets were made from thin wire by method of dragging. Biconical beads were found in Beledzhi (Dagestan) [4, p.109; 5, p.63].

Among the local finds of beads decorations, the most popular were barrel-shaped bronze beads. The ends of these beads did not connect.

Albanian women from Karabakh liked to wear ring-shaped earrings with not connected ends. Such earrings were made from bronze wire. Today we can see similar earrings made of gold and silver. There is engraving in the form of transversal stripes on the outer part of these earrings. Also there were finds of massive earrings with cable stitch decoration on their surface, the middle part of earrings is expanded and the ends of earrings are narrowed but not connected. It is far more likely that such earrings were worn with the help of the special loop, passed through an ear.

Charms refer to the collection of decorations for the neck. Ancient Karabakh pendants attract attention by their varied forms as well as inner and outer design. Here it was found round charms and bell-shaped charms and also complex charms, both in terms of the technique of creation, and in the sense of decorative design, made in filigrane style. Round charms were decorated with sharp waves at the ends and in some places it is possibly to find such elements of decoration as cones. The appearance of such decorations is associated with the Sun and its short rays. Among the finds there were charms with sharp waves at the ends with triangle slashes inside it, which formed a star with 10 rays around a small circle. Also there was a charm without any sharp waves but with a cross-shaped ornament, formed in the middle of it [1, p.60].

Among other collection of jewels of ancient Karabakh there are also open-work charms with pretty complicated compositions; a wire was used in order to create such charms. A spiral, made of a wire, was placed in the middle part of a charm and about 10 curls were made around such spiral. On the second curl of the spiral, there is a frame in the form of wheat grains laid in a wheat head. Then we can see sharp wave curls and on the place of a loop it was welded a small cone, which is a traditional element of Karabakh decorations. Open-work charms with more complex compositions point to the fact that ancient goldsmith from this region had masterful technical skills [1, p.60; 2, p.288].

In ancient times, metal, decorations made from metal, as well as ornaments applied to metal and the forms of metal decorations performed occult and apotropic functions. Open-work round pendants, as well as pendants with spiral and zipper decorations, geometrical slashes and bell-shaped charms from Karabakh had also magical powers according to ancient beliefs. A wheat grained ornament on one of the charms is a symbol of both agriculture and the importance of honoring the Sun in order to obtain rich harvest and bread. Special ceremonies were performed in this region since olden times. Onomastics of the sun and location of ancient settlements, dwellings and graves in the direction of the rising sun shows the power of sun worship. On the cultural artifacts of Karabakh there are many pictures of totem animals and reptiles (such as snakes, rams, lions, deer and others) which are connected with sun and earth worship.

Bell charms are the next numerous group of charms. These bells were decorated with slashes in the form of triangle and oval as well as vertical stripes. It was found a bell in the shape of a triangular pyramid with inner through hole in the form of a triangle. It is thought that simpler and rough made bells were made as a talisman for animals. There was an eyelet in the upper part of each bell and there also were two through unsymmetrical holes in order to fix a tongue of a bell. There was iron oxide on one of the inner walls.

A mirror buckles and other items, found in the early antique formation of Karabakh also were decorated with small cones. On some items, the number of cones reached more than 20 pieces. Also there was found clothing but mostly there were attached plates of round and four-angled shapes. Such plates were attached to the leather or coarse texture. The plates had engraving in the form of sharp waves, triangles filled with dots, cuts and etc. There were special holes on the plates in order to attach them to clothes.

A lot of found ancient jewels of Karabkh have an uninterrupted contact in the course of time. Some their forms and compositions are popular to this day and renew the imagination of modern goldsmiths. An independent direction in the jewelry is the art of ornamentation [2, p.306].

There is an oriental flavor on the jewelry from Karabakh and the range of artistic imagination is great. Craftsmen of Karabakh left a profound imprint in the heritage of Azerbaijani people, and many of them serve as a model of technical, artistic and aesthetic performance for modern jeweler's art.

References

1. Minkevich-Mustafaeva N.V. On archaeological finds from the village of Dolanlar. // ICA, publishing house of the Academy of Sciences of Azerbaijan. SSR, B., No. 1, 1949, p. 50-70
2. Samedova S.T. Ethnography of ancient Azerbaijan: Ancient period (IV century BC - III century AD). Baku, "Ekoprint", 2017, 732 p.
3. Kaziev S.M. Archaeological excavations in Mingachevir // ICA, 1949, issue 1, p.10-49
4. Sadykhzade Sh. Ancient jewelry of Azerbaijan. B, Ishig, 1971
5. Khalilov J. A. Material culture of Caucasian Albania (IV century BC - III century AD). Baku, Elm, 1985

UOT 51:37.016; 37.013

İBTİDAİ SİNİF RİYAZİYYAT TƏLİMİNİN STİMULLAŞDIRILMASINDA SÜNİ İNTELLEKTDƏN İSTİFADƏ

[1,2,4]Sevinc Cəmil-Cahid qızı Cəbrayılzadə, [1,3,4]Samirə Cəmil-Cahid qızı Tağıyeva
[1]pedaqogika üzrə fəlsəfə doktoru, dosent
[2]sevinge.jabrayilzadeh.1973@mail.ru
[3]sama-qasa@mail.ru
[4]Azərbaycan Dövlət Pedaqoli Unversiteti

Giriş

Məlum olduğu kimi, hazırda şoxlu programlar və saytlar yaradılmı.dır ki, öyrəncilərin təlim prob lemlərini daha asan şəkildə həll edə bilsin. Bu baxımdan roor assistantlar da Singapur, Koreya, Yaponiya kimi öndə gedən ölkələrdə geniş yayılmışdır. Biz isə Süni intellekt sistemlərinin təlimdə istifadə oluna biləcəyi növlərinii diqqətinizə çatdırmaq istəyirik.

1. Duolinqo

Duolingo, yəqin ki, bu gün təhsildə istifadə edilən süni intellektin ən görkəmli nümunəsidir. Onlar dil öyrənmə proqramlarının arxasında aparılan tədqiqatlar haqqında çox ictimaiyyətə açıq olublar, o dərəcədə ki, maşın öyrənməsini dil öyrənməyə tətbiq etməkdə əldə etdikləri irəliləyişlər onların brendinqinin bir hissəsidir. Onların hətta araşdırmalarına həsr olunmuş saytlarının bir hissəsi var.

Onlar bu araşdırmanı öz kurslarında necə tətbiq edirlər? İlk növbədə, Duolingo-nun süni intellekt sistemi kursları fərdiləşdirir, özünü hər bir şagirdin güclü, zəif tərəfləri və üstünlüklərinə uyğunlaşdırır. O, öyrənənlərin hansı lüğəti bildiyinə, hansı qrammatik nümunələrlə mübarizə apardığına və hansı məzmundan həzz aldıqlarına diqqət yetirəcək.

Duolingo süni intellekt həm də öyrənənlərə real vaxt rejimində söhbət etmək imkanı verən chatbot təcrübələri yaratmaq üçün təbii dil emalından istifadə edir. Bu, dil öyrənənlərə real insanın qarşısına çıxmazdan əvvəl öz bacarıqlarını tətbiq etmək və özünə inam qazanmaq imkanı verir.

2. **Düşünən (Thinkster)**

Duolingo kimi, Thinkster K-8 tələbələrinə fərdiləşdirilmiş riyaziyyat dərsləri vermək üçün süni intellektdən istifadə edir. Şagirdlər qiymətləndirmə testi verməklə başlayırlar və sonra AI sualları şagirdin bilik səviyyəsinə və materialla necə məşğul olduqlarına əsasən fərdiləşdirə bilər.

Thinkster-in yanaşmasında maraqlı olan odur ki, o, süni intellektlə real riyaziyyat müəllimlərinin təlimini birləşdirir. Bu o deməkdir ki, fərdiləşdirmə təkcə tələbələr üçün baş vermir, həm də repetitorları daha məqsədyönlü dərs rəyi verməyə hazırlamağa kömək edir. Nəticə odur ki, müəllimlər diqqətlərini öyrənənlərin həqiqətən ehtiyac duyduğu materiala yönəltməyə daha çox vaxt sərf edirlər.

3. **Querium- Sorğu**

Fərdiləşdirməni öyrənmək AI üçün əla istifadə olsa da, Querium fərqli bir yol tutur. Bu virtual repetitorluq proqramı tələbələrin STEM probleminin həllində atdıqları addımları təhlil edir və tələbələrin nəyi doğru və ya yanlış etdiyi barədə dərhal rəy verir. Bu, müəllimləri düzəltmək üçün çox sayda kurs işindən qoruyarkən, şagirdlərin problemə cavab vermənin səhv üsulunu mənimsəmələrinin qarşısını alır.

Burada süni intellektdən istifadənin xüsusi cəhəti ondan ibarətdir ki, düzgün əks əlaqəni təmin etmək üçün o, hər dəfə eyni formanı ala bilməyən şagirddən daxil olan məlumatı başa düşməlidir. Bu, sadəcə olaraq, müəyyən edilmiş siyahıdan strukturlaşdırılmış cavab almaq və rəy bildirməkdən daha mürəkkəbdir, lakin daha dəqiq təlimat verməyə imkan verir.

4. **Alta by Knewton.**

Knewton ali təhsil brendinin yeni məhsulu olan Alta, öyrənənlərin biliklərindəki boşluqları müəyyən etmək və sonra öz məlumat bazalarından seçilmiş yüksək keyfiyyətli təlim material-larından istifadə etməklə onları doldurmaq üçün adaptiv təlimdən istifadə edir.

Bu nümunədə proqram təminatı bilik boşluqlarını müəyyən edən və sonra dolduran öyrənmə bələdçisidir. Fərqli şəkildə tətbiq olunarsa, o, həm də şirkətlərə təlimləri davam etdirməyə kömək edə bilər ki, işçilər yaranan bacarıqlar və ya tənzimləyici tələblərdən xəbərdar ola bilsinlər.

Hazırda istifadə olunan 4 növ AI təhsildə tətbiqinin müsbət tərəflərini verək.

AI-dən istifadə edən onlayn müəllimlərin başqa nümunələri olsa da, demək olar ki, hamısı aşağıda sadalanan istifadə hallarına düşür.

1. **Təbii dilin işlənməsi.** Dil öyrənməkdə istifadə olunur, həm də əsas əlçatanlıq proqramları ilə. Uşaqlarda və ya çoxdilli insanlarda səhv olur.

2. **Elektron təhsilin fərdiləşdirilməsi.** Kurs materialının öyrənənlərin istifadəsi və üstünlükləri əsasında tənzimlənməsi.

3. **Virtual repetitorluq**. Şagirdlərin səhvlərini müəyyən etmək və düzəltmək üçün qiymətləndirmə yardımı.

4. **Adaptiv öyrənmə**. Şagirdlərin biliklərindəki boşluqları fəal şəkildə müəyyən etmək və həll etmək.

Nəticə

Bunların çoxu birləşdirilə və daha zəngin süni intellektlə işləyən öyrənmə mühiti yaratmaq üçün birlikdə istifadə edilə bilər. Süni intellektlər tez-tez zəka ilə hərəkət edə biləcəkləri bir nöqtəyə çatmaq üçün təlimə ehtiyac duysalar da, proqram bu müxtəlif növləri nə qədər çox əlaqələndirə bilsə, onlarla daha çox nəticə əldə edə bilər. Süni intellekt bir xidmət olaraq proqram təminatı (SaaS) iqtisadi ekosisteminə qoşulduqca o, müəllimlər üçün daha əlçatan olacaq.

Elektron təhsildə süni intellektlə bağlı bir çox nümunə hələ də bu texnologiyalara sərmayə qoymaq üçün çoxlu büdcəsi olan böyük müəssisələrdə cəmlənsə də, AI üçün SaaS bazarının (AIaaS) meydana çıxması sahəni sürətlə yeni təcrübələr üçün açır.Onlayn təhsildə AI-nin inkişafı hər kəs üçün əla xəbərdir. Pedaqoqlar texnologiya ilə nə qədər çox sınaq keçirə bilsələr, ondan istifadə etmək üçün bir o qədər yeni və innovativ üsullar tapacaqlar. Bir müddət əvvəl İnternetin əsasını qoyan bir çox texnologiyalar istifadə etmək üçün xüsusi bacarıq tələb edirdi. Biz AI-nin video kimi kursun yaradılmasının ümumi komponenti olduğu gələcəkdən uzaq deyilik.

İstifadə edilmiş ədəbiyyat

1. https://www.learndash.com/4-examples-of-ai-being-used-in-e-learning/
2. Artificial Intelligence in Schools: A Guide for Teachers, Administrators, and Technology Leaders 1st Editionby Varun Arora (Author)

UOT 81'28; 81'286

QRAMMATİK, ELƏCƏ DƏ LEKSİK DİALEKTİZMLƏRİN FOLKLOR MƏTNLƏRİNDƏ İŞLƏKLİK İMKANLARI

[1]Sevinc İsrafil qızı Əliyeva, [2]Gülnarə Adil qızı Kazımova
[1]filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Dövlət Universiteti
[2]Azərbaycan Dövlət Pedaqoji Kolleci

Dialekt özünün ümumişlək mühitini müəyyən coğrafiyasını tapır, həmin coğrafiyanı bu və ya digər səbəblər üzündən əhali tərk edirsə, dialekt dərhal itmir, həmin əhalinin məskunlaşdığı müxtəlif reqionlar üzrə paylanır, digər dialektlərlə kontakta məruz qalır. Lakin dilçilikdə dillərin əlaqələri az-çox öyrənilsə də, dialektlər arasındakı kontaktların öyrənilməsi üçün əsaslı bir metod işlənib hazırlanmamışdır. Bununla dizlektizmlərin ədəbi normativləşməyə can atdığı bir ədəbi (və əbədi) mühit də vardır ki, bu folklordur.

Müstəqillik illərində Qarabağ böyük bir siyasi təzyiqin obyektivinə çevrildi və yüz minlərlə soydaşımız tarixi vətənindən didərgin düşərək ölkənin müxtəlif yerlərində məskunlaşmağa məcbur oldu. Buradan irəli gələn nəticələrin qeydə alınması sahəsində ilk reaksiyanı AMEA-nın Folklor İnstitutu verdi ki, bunun da fundamental məhsulu "Qarabağ: folklor da bir tarixdir" çoxcildliyidir. Tərtibçilər yazırlar ki, "mətnlər ədəbi dil baxımından heç bir redaktəyə məruz qalmayan mətnlərdir. Onlara məzmun və forma dəyişikliyinə səbəb ola biləcək hansısa əlavələr edilməmişdir... Yazıya köçürülən zaman mətnlərin dialekt və şivə əlamətləri, şifahi nitqin fonetik və sintatktik xüsusiyyətləri mümkün qədər saxlanılmışdır"[1].

Ağdam və Füzuli, Ağcabədi, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarından toplanmış folklor örnəklərinin dil materialları, əlbəttə, böyük bir xəzinədir. Məsələn, "İnsanın yaranması" barədəki mifdən üç mətn verilir:

I mətn

Cəbrayıl, Əzrayil, Mikayıl üç qardaş olur. Allah-tala bulara detyir ki, gedin bir az palçıq gətirin.. Gedirlər, Cəbrayıl götürəndə palçıx getmiyif, Mikayıl götürəndə getmiyif, Əzrayıl götürəndə gedif. Allah-tala bu palçıxdan adam qayırıf. Bu çox kobud oluf. Bını bir az yonuflar. O yerə tökülən yonqardan da mal qayırıflar. Mal canın yonqarıdı.[2]

II mətn

Bizim əjdadımız Adam atadı. Onu torpaxdan qayırıflar. Özü də ki, çox köntöy qayırmışdar. Görülən ki, çox yogundu, başdıyıflar bunu yonmağa. Yonduqca bunun yonqarın əənə atmıyıflar. Bir yerə topluyuflar. Bu yonqardan mal düzəldiflər. Adam atanın da yetmiş uşağı oluf.[3]

III mətn

Allah-tala hər şeydən qabax şeytanı yaradıf. Şeytan Allaha neçə il qullux eliyif. Şeytannan sohra Adəm atanı yaradıf. Adəm ata, rəvayyətin dediyinə görə, Hindistanda yaranıf, yerdən, torpağdan, palçıxdan. Bu yaranannan sohra arvadı-zadı olmuyuf. Allah-tala şeytana əmr eləyir ki,

[1] Qarabağ: folklor da bir tarixdir, Bakı, I kitab, 2012, s.10-11
[2] Yenə orada.
[3] Qarabağ: folklor da bir tarixdir, Bakı, I kitab, 2012, s.10-11

Adəm ataya səjdə elə, baş əy. Şeytan deyir ki, mən onnan qabax dünyaya gəlmişəm. Mən Adəm atayasəydə eləmərəm. O pirdən ki arxa qatdan çıxırlar ha, - arxa pirə çevirmək ədəbsizlikdi, - onu, - deyir, belə qayırıflar ki, şeytan Adəm ataya baş əysin. Genə baş əymiyif, elə düzüqulusuna gəlif. Şeytan Allah-talayan şikayət edir ki, mən saa Adəm atadan qabax neçə il qullux eləmişəm, mənim haqqımı ver. Allah-tala buna deyir ki, kim sənin sözünnan gedirsə, kim sənin buyruğuaa baxırsa, sənin hakqaa onu verirəm. Sohradan Allah Adəm atanın qabırğasınnan Həvva nənəni yaradıf.[4]

Bu mətnlər sadəcə danışıq dili xüsusiyyətlərini əks etdirməklə qalmır, eyni zamanda folklor-mif formullarını, yəni yüz illər boyu təkrar olunaraq gələn ideya-fikir modellərini əks etdirir. Heç şübhəsiz, fonomorfoloji "örtük" dialektin xarakterinə uyğundur. Lakin mifik antropologiya formaca klassik ədəbi normativliyini saxlayır (müqayisə üçün deyək ki, bəzi dialektizmlərdə *Əzrayıl* yox, *Əzreyil* işlənir). Hətta **baş əy** kimi xalq dili ifadəsi məhz mifik simvolikanın tələbi ilə **səjdə elə** sinonimini də mətnə daxil edir ki, onun rəsmiliyini (ədəbiliyini) yüksəltsin. Bir tərəfdən, hər üç mətnin məzmunundakı mifoloji mündərəcə (diskurs), digər tərəfdən eyni dərəcədə mifik-simvolik anlayışlar (konseptlər), məsələn, Cəbrayı, Əzrayı, Mikayıl, Adəm ata onlara elə bir mədəni –idraki status verir ki, yalnız fonomorfoloji əyalətsizlik yox, eyni zamanda leksik dialektzmlər (məsələn: köntöy, düzünəqulu) də həmin bilavasitə düşdüyü kontekstdə o qədər də loru səslənmir. Əksinə, xalq təfəkkürü üçün kifayət qədər mürəkkəb mifoloji süjeti (o süjet ki, qədim beynəlxalq köklərə malikdir) yerli mühitə məhz dilin (dialektin) munisliyi ilə adaptasiya edir.

Kobud bir cismin (nəzərə alaq ki, bu həm də canlı məxluqdur) yonulması, oun yonqarından mal (əslində, mal-dövlət, sərvət) qayrılması və nəticə etibarilə, "mal canın yonqarıdı" deyilməsi xalqın mifə əlaqəsi, özünəməxsus səhvidir ki, həmin folklor interptretariyasını M.Ə.Sabir "pul demə, can yonqarıdır, vermək olmur qohuma, qonşuya, ətə" misraları ilə ifadə edilmişdir.

"Qarabağ: folklor da bir tarixdir" çoxcildliyində miflərlə yanaşı, nağıllar, lətifələr, atalar sözləri, tapmacalar, bayatılar və s. əks olunur ki, həmin mətnlərdə işlənən çoxlu sayda dialekt sözlərindən bir qismini nəzərdən keçirək:

Çərən-qarağan bitkisinin bir növü (I, s.17); yatax – qoyun, mal-qara saxlanan yer (I, s.19); avçılıq – xəstəliyin ovmaq üsulu ilə müalicəsi (I, s.29); verən – sırd, cərgə (I, s.35); cəvərən – soyüd çubuqlarından düzəldilmiş səbət (I, s.35); gadıx – mamaça (I, s.43); kürər sözü - "türkün məsəli" mənasında (I, s.48); şahaddıx – qənimət (I, s.53); ayaxçı – qulluqçu (I, s.55); ağ – ahu (I, s.137); deyinni - niyyət (I, s.139); təliş – dəsmal (I, s.155); üzürlü – hamilə (I, s.184); çavıstan – qarğıdan tikilən dam (I, s.211); cirə - norma (I, s.212); güzgüləmək – pusmaq, izləmək (I, s. 294); tab – dağın beli (I, s.427); günü – ikinci arvad (II, s.32); kərəskə - tövlə (II, s 40); cəhləşə-cəhləşə - mübahisə edə-edə (II, s.43); kirişkələnmək – narahat olmaq (II, s.44); mağlətə - dava-dalaş, mübahisə (II, s.52); vənöyşə - qışqırtı, şivən (II, s.68); çoğustan –qarğıdan və ya çubuqdan hörülmüş daxma (II, s.113); kətək – yuva (II, s.146); inaxmadarı – gözünün ağı-qarası (II, s.173); suat – quyudan su götürmək üçün istifadə edilən eniş (II, s. 183); azeylənmək – gileylənmək (II, s.187); axınmaq – meyil etmək (III, s.12); alaşa – yekəpər (III, s.18); kələsər – üzümlük, üzüm bağı (III, s.21); qazanmaq – qəzqa (III, s.101); quşqulamaq - nişana almaq (III, s.122); hər küşdə - hər kəs (III, s.182); axçalanmaq – bərq vurmaq (III, s.230); kişsi – gəlir, qazanc (III, s.231); qalaxlıx – təzək yığılan yer (III, s.238); gıharx –kürəkən (III, s.253); girzəmək – dolandırmaq (III, s.276); qarouş – çalağan (III, s.296); qırxa bağlamaq – bəsləmək, saxlamaq (III, s.315); qiqmıx – nəsil (III, s. 372); qondaran – ayaqqabı (III, s.384) və s.

Bu nümunələrin sadəcə danışıq dilindən deyil, folklorun müxtəlif janrlarına mənsub əsərlərdən gətirilməsi öz-özlüyündə göstərir ki, onlar bədii mətnin üzvi tərkib hissəsi, müəyyən ədəbi motivə yüklənmiş nitq hadisələridir. Həmin funksiya bu leksik vahidlərin əksəriyyətini asanlıqla yazılı ədəbi dilə gətirə bilər. Əslində bu cür cəhdlər keçən əsrin 30-cu, 40-cı, 50-ci illərində Qarabağdan və həmhüdud bölgələrdən olan yazıçıların əsərlərində işlənmiş, lakin tamamilə təbiidir ki, ədəbi status qazana bilməmişdir.

[4] Yenə orada.

Ümumiyyətlə, fonetik və ya qrammatik (Morfoloji), eləcə də leksik dialektizmlərin folklor mətnlərində işləklik imkanı aşağıdakı səbəblərlə bağlıdır:

a) Şifahi xalq ədəbiyyatı hər nə qədər ümumxalq hadisəsi olub, əsas motivləri, süjetləri ümummilli, hətta beynəlmiləl səciyyə daşısa da (məsələn, Bibliya, Qurani-Kərim kimi dünya əhəmiyyətli mənbələrdən, qədim miflərdən, eposlardan, nağıllardan gəlsə də) bu və ya digər regionun sosial-estetik əhval-ruhiyyəsinə, bədii təfəkkür ənənələrinə tabe etdirilir;

b) regional süjet, mövzu, obrazlar və s. meydana çıxır ki, onlar folklor mətindəki yerli koloriti nəinki daha da gücləndirir, əslində, onun bu və ya digər dərəcədə stabil mühitini formalaşdırır;

c) nəhayət, şifahi xalq yaradıcılığı, o cümlədən ədəbi yaradıcılıq nə qədər kollektivin nəzarətində olub onun zövqünü oxsasa da, xeyli dərəcədə fərdi imkanlarla, qeyri-peşəkarların, sadəcə "söz demək" maraqlarının spontan təşəbbüsləri "deyilmiş söz" ün yeni variantlarını improvizə etmək cəhdləri ilə də sıx surətdə bağlıdır.

Folklorla dialektlər arasındakı əlaqələri, müəyyən qeyd-şərtlə də olsa, yazılı ədəbiyyatla ədəbi dil arasındakı əlaqələrlə müqayisə etmək mümkündür. Belə ki, folklor həmişə dialekt təzahürü ilə bağlı olub iki yolla "ədəbiləşdirilə" bilər:

1) bu və ya digər dialekt mühütindən toplanmış folklor mətni mexaniki şəkildə ədəbi dilə "tərcümə olunur";

2) eyni folklor mətninin müxtəlif variantlarının ortaq ədəbi variantı tərtib edilir.

Yazılı ədəbiyyat isə, prinsip etibarilə, dialektfövqlü (ədəbi) dil hadisəsi olaraq yarandığına görə dialekt, yaxud dialektlərlə birbaşa yox, dolayısı ilə əlaqədardır. Hətta çox mümkündür ki, bu cür əlaqə nəzərə alınmayaraq qədər zəif olsun.

Folklor təbii halında dialekti, yazılı ədəbiyyat isə ədəbi dili təmsil edir. Digər tərəfdən, folklor nə qədər kollektiv yaradıcılıq məhsulu olsa da, həmin kollektivin sosial-mədəni coğrafiyası var; yazılı ədəbiyyat nə qədər fərdi yaradıcılıq məhsulu olsa da, sosial-mədəni coğrafiyası bir xalqın normativ ünsiyyət miqyası (əslində, potensial olaraq, həmin xalqın ümumi coğrafiyası) qədər genişdir.

Belə bir münasibət sxemi təsəvvür etmək mümkündür:



Ədəbi dialektləri öyrənərkən mənbə kimi adi danışıq (məişət) dili əsas alınır və bunun səbəbi odur ki, folklor mühitləri ilə dialekt mühitləri nə qədər bir-birinə uyğun gəlsə də, folklor (şifahi xalq ədəbiyyatı) hər hansı halda yaradıcılıqdır. Bu isə o deməkdir ki, adi danışıq dil iki (kommunikativ və ekspressiv) funksiya gerçəkləşdirir, şifahi xalq ədəbiyyatında isə buraya üçüncü – poetik funksiya da əlavə olunur ki, sonuncu özü ilə birlikdə mətnə rəngarəng bədii formullar gətirir. Həmin formullar – ifadə texnologiyaları, adətən, dialekt hüdudlarını aşaraq nəinki ümüxalq, hətta bəzən ümumbəşəri səciyyə daşıyır.

Qarabağ bölgəsinin folklor mətnləri üzərindəki araşdırmalar göstərir ki, dil strukturunun fonetik, qrammatik və leksik olmaqla hər üç sahəsi dialektlərlə təmsil olunur. Lakin həmin bölgənin nümunəsində "dialektlərlə ədəbi dil" prinsipi ilə "seleksiya" aparsaq belə bir mənzərə alınacaqdır:

I. Dialekt danışıq və ya adi ünsiyyət dili:

a) fonetika ümumxalq dilinin əsas quruluşu çərçivəsində nə qədər mümkündürsə o qədər özünəməxsusdur; b) qrammatika ümumxalq (nəticə etibarilə, ədəbi dil) normativlərinə tabedir, yanız o halda normadan kənara çıxır ki, fonetik özünəməxsusluğa xələlə gəlməsin; c) leksika hər nə qədər milli vahidlərə əsaslansa da, milli məhdudiyyət tanımır, bununla belə alınma sözü əvvəl semantik, sonra isə fonetik "redaktə"də qəbul edir.

II. Folklor dili:

a) fonetika dialekt –şivə özünəməxsusluğunu mühafizə etməklə yanaşı, poetik etik mətnin qurulma texnologiyalarının təsiri altında müəyyən modelləşməyə məruz qalır, yəni bədii mətn yaradıcısı, yaxud ifaçısı dinləyiciyə hiss etdirir ki, onun "dili" dialektdə olduğu qədər də ondan yüksəkdədir, "xüsusi bir dil" dir və bu cür münsibət, əslində, dinləyici üçün də həm anlaşılan, həm də gözləniləndir;

b) qrammatika fonomorfoloji özünəməxsusluqdan qaçmağa çalışdığına görə dil yaradıcılığı enerjisi daha çox sintaksisə verilir, birinci növ təyini söz birləşmələrinin, sintaktik paralelizmlərin və s. işləkliyi artır;

c) ümumişlək leksikaya meyil güclənir, hətta aydın görünür ki, müəyyən dialekt mühitlə birbaşa bağlı olsa da, leksik dialektizmləri nəzərə çarpmağa başlayır; məsələn: Duruf düşüllər yola. Kənddən bir xeyləh aralaşannan sonra qar – çooğun başdıyır. Bilar isdiyir ki, ojax-zad qalasınnar. Biz çərən deyirih, çaylaxda-zadda bitir. Bu çərənnən yiğif istiyillər ki, bınnan ojax qaliyalar (I, s.17).

III. Ədəbi dil – obrazların və ya personajların nitqini sıxmaq şərtiə, fonetik və qrammatik dialektizmlərdən ümumiyyətlə imtina olunur, leksik dialektizmlər isə mətnə ədəbi sədlərlə daxil edilir.

Göründüyü kimi, bədii ədəbiyyatın dialekt sözlərinin qorunmasında rolu böyükdür. Eyni zamanda dialekt sözləri də bədii dilin xəlqiliyində, milliyinin güclənməsində, obrazlılığında müsbət rol oynayır. Dialekt sözləri ədəbi dilə bədii keyfiyyətlər gətirir.

Müstəqillik illərində folklor mətnlərinin kifayət qədər kütləvi şəkildə toplanması və nəşri, bütün məsuliyyəti ilə demək olar ki, dialekt mətnlərinin toplanması və nəşri işini ötüb keçmişdir. Burada müəyyən qanunauyğunluğun olduğunu da etiraf etmək lazımdır. Ədəbi dil kimi dialekt də öz-özlüyündə bir vasitədir, dilin həm ədəbi, həm də dialekt təzahüründə əsas vəzifəsi diskurs – mətn yaratmaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. III c.. B., 2000, 672 s.
2. Cəfərov N.Eposdan kitaba. Bakı, 1999, 80 s.
3. Dilçilik coğrafiyası, tarixi dialektologiya və türk dillərinin tarixi problemləri. Bakı, 1982, 111 s.
4. Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası, Bakı, "Elm və təhsil", 2016, 351 s.
5. Qazıyeva N. Azərbaycan ədəbi dil normalarının formalaşmasında dilektlərin rolu (XX əsrin 30-cu illərindən sonra) Bakı, 2003, 135 s.
6. Qarabağ: folklor da bir tarixdir, Bakı, I kitab, 2012, 237 c.
7. Бобунова М.А. Фольклорная лексикография: становление, теоретические основания, практические результаты и перспективы. Диссертация по филологии, специальность ВАК РФ 10.02.01, курск, 2004, 443 с.

8. Климас И.С. Фольклорная лексикология: своеобразие объекта, состав единиц, специфика лексикологических категорий. Диссертация по филологии, специальность ВАК РФ 10.02.01, Курск, 2005, 405 с.

UOT 372.8:811.512.162

AZƏRBAYCAN DILI DƏRSLƏRİNDƏ İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ

Sevinc Qüdrət qızı Musayeva
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dillər Universiteti
sevinc.musayeva@adu.edu.az

Məlum olduğu kimi, elmi-texniki tərəqqinin inkişafı nəticəsində son illərdə cəmiyyətin istənilən sahəsində İnformasiya Kommunikasiya Texnologiyalarından (İKT), kompüter və internetdən geniş istifadə olunmaqdadır. Bu gün internet saytlarının sayı kifayət qədərdir. Onlar insanların tələbatını tam ödəməsə və bəzən orda yer almış materiallar tam dəqiq olmasa da, istənilən qədər etibarlı mənbələr mövcuddur. Hazırda dil dərslərində İKT-dən geniş istifadə olunmaqdadır, desək, yəqin ki yanılmarıq. Hər şeydən əvvəl onu qeyd etmək lazımdır ki, İKT-nin imkanlarından, eləcə də interaktiv lövhədən istifadə zamanı əyanilik təmin edilir, bu da tədris prosesini yaddaqalan və maraqlı olmasını imkan yaradan əsas amildir.

Hazırda internetdə Azərbaycan dilinin tədrisi ilə bağlı hazır yükləmə və yaxud çap oluna bilən bir çox tapşırıqlar, çalışmalar mövcuddur ki, bunlar təkcə dərs kitablarından və dərsliklərdə verilmiş məhdud sayda çalışma və tətbiqi tapşırıqlardan asılı qalmaq istəməyən müəllimlərə bir növ əlavə dəstəkdir. Lakin ali məktəb auditoriyalarında bunlardan heç də kor-koranə istifadə etmək məsləhət görülmür. Əvvəldə qeyd etdiyimiz kimi, bütün mövcud materiallara etibarlı mənbə kimi yanaşmaq heç də doğru olmaz.

Fikrimizcə, bir çox uyğun görünən tətbiqi materiallardan istifadə həm tələbələrin Azərbaycan dilinin öyrənilməsi ilə bağlı marağının artmasına, həm də dərsiiklərdə daim üzləşdiyimiz monotonluqdan uzaqlaşmaq üçün daha məqsədəuyğun hesab edilə bilər. Azərbaycan dili dərslərində internetdən istifadə və bunun verə biləcəyi imkanları nəzərə alan müəllimin qarşısında əsasən aşağıdakı suallara cavab vermək tələb olunur:

1. Tələbələr Azərbaycan dili ilə bağlı bu tapşırıqlardan nə qazanacaq?
2. Dərsin müəyyən bir hissəsini, yaxud bir neçə dərs ardıcıl olaraq və ya bütün dərslərdə internetdən istifadə olunmaqla dil bilikləri necə inkişaf etdiriləcəkdir?
3. Dərsdə tələbələr Azərbaycan dilində sərbəst surətdə necə ünsiyyətə girəcəkdir?
4. Tələbələrin dil səviyyəsinə görə tapşırıqlar necə müəyyən ediləcəkdir?

Düşünürük ki, bütün bunlarla yanaşı, tədris prosesində gündəlik qəzet materialı ilə bağlı dərslərdə artıq köhnə qəzetlərdən və aktuallığını itirmiş, tələbələrə maraqlı olmayan monoton xəbərlərdən uzaqlaşmaq da mümkün olacaqdır. Bu sahədə ən müsbət istiqamət İKT vasitələrindən istifadə etməkdir. Dərsin daha canlı, tələbələrə maraqlı olması məqsədilə günümüzlə səsləşən, yeni-yeni informasiyaların əldə olunduğu saytlara müraciət etmək, fikrimizcə, daha uyğun olar. Burada seçimi də tələbənin ixtiyarına buraxmaq məqsədəuyğun sayıla bilər. Bu zaman tələbənin müəllimdən kortəbii asılılığın bitməsi ilə yanaşı, dərsə həvəsi də artacaqdır, bununla da dərs prosesində fəallıq təmin ediləcəkdir ki, bu gün tədris prosesində bu, çox mühüm əhəmiyyət kəsb edir. Dərs zamanı müəllim yalnız müvafiq saytların adlarını təqdim edəcəkdir. Tələbələr dərsdə cavab verərkən öz maraqlarına müvafiq seçdikləri xəbəri və ya siyasi məlumatı ana dilimizdə

səsləndirəcəkdir. Beləliklə, dərsdə tələbələr müəyyən aktual informasiyaları Azərbaycan dilində çatdıracaqdır. Burada dərs bölgüsünə riayət etməklə vaxt məhdudiyyəti müəllim tərəfindən müəyyən olunmalıdır.

Əminliklə qeyd edə bilərik ki, hazırda tədris prosesində İKT-dən istifadə olunması təlimin məzmununu müsbət mənada dəyişmişdir. Bu gün artıq tələbələr kompüterdə Microsoft Power Point, Microsoft Word, ActivİnspireBandicam kimi proqramlardan istifadə etməklə rəngarəng təqdimatlar, dərs nümunələri hazırlayır, beləliklə, dərs tələbələrin fəallığı ilə keçir, əyanilik də tələbələt tərəfindən təmin olunur. Bu yönümdə qurulmuş dərslər tələbələr tərəfindən maraqla qarşılanır, tələbələr texnologiyalar vasitəsilə biliklərini nümayiş etdirir, bu da dərsin daha asan mənimsənilməsinə imkan yaradır.

Bu gün müəllim artıq istiqamət verir, bir növ yeni materialın ünvanını göstərir. Yeni dərslə tanış olarkən, daha fəal və texnologiyalara bələd olan, geniş məlumatlı tələbələr dərslə bağlı məlumatları axtarış serverlərindən çox asanlıqla əldə edir. Dərsdə müəllim artıq yalnız nəzarəti öz üzərinə götürür. Dərsi informasiya mərhələsinin, dövrünün tələb etdiyi şəkildə təşkil etməklə müəllim bir növ istiqmətverici kimi çıxış edir, ən əsası tələbələrdə müstəqilliyin və fəallığın formalaşması yönümündə iş aparır.

İstifadə edilmiş ədəbiyyat

1. A.M.Nəzərov. Müasir təlim texnologiyaları. Bakı: ADPU nəşriyyatı. Bakı, 2012. 103 s.
2. Yeni təhsil proqramlarının tətbiqi məsələləri. Bakı, 2014. 99 s.
3. E.Əliyev. Tədrisdə müasir təlim texnologiyalarının tətbiqi. "Azərbaycan məktəbi" 2017/5. s.103-105

UOT 372.0

TƏHSİLDƏ İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ VƏ ONUN ƏHƏMİYYƏTİ

[1,3]**Seymur Elman oğlu Suleymanov,** [2,3]**Sahibə İsmayıl qızı Nəsirova**
[1]fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent
seymursuleymanov71@mail.ru
[2]sahibanasirova1963@mail.ru
[3]ADPU-nun Ağcabədi filialı

Müasir dünyada ölkələrin rəqabətə davamlılığı artıq ciddi bir faktora çevrilib. Qloballaşma istiqaməti götürən müasir dünyada hər bir ölkənin dayanıqlı və davamlı inkişafı üçün cəmiyyətin bütün sahələrində beynəlxalq rəqabət prinsiplərinə çevik sürətdə yiyələnmək tələb olunur. İnformasiya cəmiyyətinin təhsil sisteminin necə qurulması, təhsilin modernləşdirilməsi üçün hansı texnologiyalardan istifadə edilməsi hazırda ən aktual məsələlərdən birinə çevrilib.

Təhsil sistemində müasir informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqi bu gün informasiya cəmiyyətinin zəruri tələblərindən və ehtiyaclarındandır. Tam əminliklə demək olar ki, bu gün qloballaşan dünyada ölkələrin rəqabət qabiliyyəti xeyli dərəcədə onların İKT-dən səmərəli istifadəsi ilə şərtlənir. Bu baxımdan təhsil sahəsinin informasiyalaşdırılması sürətli inkişaf dövrünü yaşayır. Müstəqil ekspertlərin rəyinə görə, Azərbaycan təhsil sistemi bu gün informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin sürətinə və çoxşaxəliliyinə görə digər sahələri üstələyir. [1, 5]

Təhsil sahəsinin geniş şəkildə informasiyalaşdırılması prosesinə 2004-cü il avqustun 21-də Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumtəhsil

məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)" ilə başlanıb. Həmin proqram çərçivəsində ölkə məktəblərinin kompüter avadanlıqları ilə təchizatı genişləndi.

Azərbaycan Respublikasında da informasiya cəmiyyətinin qurulması və kompüterləşmə sahəsində ciddi, uğurlu addımlar atılmışdır. Bu sahədə həyata keçirilən dövlət siyasətinin ümdə vəzifələrindən biri İKT-nin cəmiyyətin müxtəlif sahələrində, xüsusilə də təhsil sistemində geniş tətbiq edilməsi məsələsidir. İKT-nin təhsildə tətbiqi Azərbaycan vətəndaşlarının müasir biliklərə və bacarıqlara malik olan yeni nəslinin formalaşmasına bir başa təsir edən yüksək mahiyyətli məsələdir. Bunun üçün son illər dövlət tərəfindən təhsil sistemində İKT-nin tətbiqi sahəsində müxtəlif layihə və tədbirlər həyata keçirilməkdədir. Bu müstəvidə icra olunan fəaliyyətlər təhsil sahəsində aparılan islahatların çox vacib mərhələlərindən biri hesab edilən təhsil ocaqlarında İKT infrastrukturunun qurulmasına yönəlib. [6].

Prezident İlham Əliyev tərəfindən də ölkəmizdə informasiya cəmiyyətinin artıq praktiki müstəvidə, bir konkret fəaliyyət planı çərçivəsində icra olunması üçün müəyyən tədbirlər həyata keçirilir. Məhz bu səbəbdən son illər təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi və təhsildə İKT-nin tətbiqinin dünya standartları səviyyəsinə çatdırılması ölkəmizdə bu sistemin inkişafında prioritet istiqamətlərdən biri olub.

Qeyd etmək lazımdır ki, ümumilikdə təhsil sisteminin İKT əsasında təkmilləşdirilməsi informasiya cəmiyyətinin əsas xüsusiyyətlərindən biridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 avqust 2004-cü il tarixində təsdiq etdiyi "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)" ölkəmizdə bu prosesə start verdi. Bundan sonra 10 iyun 2008-ci il tarixdə ölkə başçısı tərəfindən qəbul edilmiş "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin formasiyalaşdırılması üzrə Dövlət Proqramı" isə İKT-dən istifadə etməklə ölkəmizdə beynəlxalq standartlara uyğun keyfiyyətcə yeni təhsil modelinin qurulmasını, vahid elektron təhsil məkanının yaradılmasını və təhsil sisteminin dünya təhsil məkanına inteqrasiya etdirilməsini əsas məqsəd kimi qarşıya qoyub.[4]

Dünya təcrübəsi göstərir ki, İKT-dən istifadə etməklə qurulan müasir təhsil modeli məktəbin pedaqoji heyəti qarşısında da yeni tələblər və vəzifələr qoyur. Müəllimlərin tək öz seçdikləri fundamental biliklər, pedaqogika və psixologiya sahəsində deyil, həm də informasiya sahəsində yenidən təlim alması olduqca aktuallaşır. Artıq yeni nəslin müəllimlərindən konkret öyrətdikləri fənnin struktur məzmununa və məqsədinə uyğun, uşaqların individual xüsusiyyətlərini nəzərə alan, şagirdlərin harmonik inkişafını mümkün edən texnologiyaları seçib tədrisdə tətbiq etmək tələb olunur.

Tədris prosesində interaktiv lövhədən istifadə edilməsi dərsin əsas prinsiplərindən birini, onun əyaniliyini təmin edir. Elektron lövhənin sensorlu, yəni hissiyyatlı səthinə xüsusi qələmlə və ya barmaqla yavaşca toxunmaqla onun üzərində kompüterdə mümkün olan bütün əməliyyatları interaktiv rejimdə aparmaq olar. "Ağıllı" lövhə, həmçinin kompüterə qoşulan mikroskop, skaner, rəqəmli fotoaparat, videokamera və s. qurğulardan alınan təsvirləridə proyektor vasitəsilə qəbul edə bilir ki, bu da məktəblərdə virtual laboratoriyaların təşkilində mühüm əhəmiyyətə malikdir. Şagirdlər istənilən kimyəvi reaksiyanın, fiziki, bioloji, coğrafi proseslərin izahını və video görüntülərini, müxtəlif cihazların, qurğuların, texniki vasitələrin işləmə prinsipləri "möcüzəli" ekranda izləyə bilərlər. Bu isə şagirlərin nəzəri-metodoloji biliklərini, praktiki bacarıq və təcrübələrini inteqrasiya etməklə tədrisi xeyli canlandırır, uşaqlarda yaradıcı yanaşma, düşünmə, təşəbbüskarlıq, tədris materialını dərindən dərk etmə qabiliyyətini daha da artırır. [2-3].

İstifadə olunmuş ədəbiyyat

1. A.Rüstəmov, E.Seyidzadə, A.Sadıqlı. İnkişaf üçün İKT-nin tətbiqi (dərs vəsaiti) Bakı: Qafqaz Universiteti nəşri, 2015.

2. İ.İsmayılov, C.Abdullayev. Təlimin texniki vasitələri və yeni informasiya texnologiyaları. Tədrisdə onlardan istifadə metodikası, Bakı, 2006.
3. Z.Veysova "Fəal-interaktiv təlim". Müəllimlər üçün vəsait. Bakı, 2007.
4. http://www.informatik.az
5. http://www.edu.gov.az
6. http://muallim.edu.az/www.old/arxiv/2015/39/39.htm

UOT 902 (4/9)

GÜLLÜK QALA-MƏBƏDİ HAQQINDA

Taleh Vasif oğlu Əliyev
tarix üzrə fəlsəfə doktoru, dosent
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu
taleh.ali@mail.ru

Qafqaz Albaniyasının maddi mədəniyyətinin mühüm tərkib hissəsi olan ilk orta əsr xristian məbədləri Azərbaycan xalqının mənəvi mədəniyyətində özünəməxsus yer tutur. Bu baxımdan şimal-qərbi Azərbaycanın alban məbədlərinin tədqiqi zəruri hesab olunur [2].

Qax rayonunun Güllük kəndi ərazisində yerləşən qala-məbəd tərəfimizdən ilkin tədqiqata cəlb olunmuşdur [3] (şək. 1).

Şək. 1. Güllük qala-məbədinin divar qalıqlarının şimaldan görünüşü

Güllük kəndində Güllük Qala məbədi və digər Güllük alban məbədi yerləşir [1; 3]. Bir-birinə yaxın ərazidə yerləşən alban məbədləri ilk orta əsrlərə aiddir (şək. 3-4). Qala məbədinin isə IX-XII əsrlərdə də bərpa edilərək istifadə edildiyi qənaətindəyik. Güllük Qala məbədinin tərəfimizdən ümumi planı hazırlanmışdır (şək. 4-5).

Güllük Qala məbədi düzbucaqlı formalı müdafiə divarları ilə əhatələnmişdir. Divarların qalınlığı 1 m-dir. Qalanın daxilində cənub-şərq hissədə yerləşən alban məbədinin ölçüləri 8x7 m-dir. Birnefli alban məbədinin altar hissədə divarı uçaraq cənub tərəfə düşüb. Məbədin divarının qalınlığı 0,8 m-dir. Altar hissənin uzunluğu 2,6 m-dir. Qala divarlarının ölçüləri 33x50 m-dir. Qala məbədə ümumi giriş qərb hissədəndir. Daxildə yerləşən alban məbədinə giriş də qərb hissədəndir [3] (şək. 2).

Şək. 2. Güllük qala-məbədinin cənub divarının qalığı

Güllük alban məbədi qala məbədin yerləşdiyi təpədən cənubdadır. Kiçik bir təpənin üzərində inşa edilmiş alban məbədi birneflidir. Məbədə baxış keçirərəkən orada üç dəfə bərpa işlərinin izlərini gördük. Daxili hissədə məbədin ölçüləri 4,8x2,7 m-dir. Divarlarının eni 0,7 m-dir. Altar hissədə daxilə doğru çıxıntı 15 sm-dir. Giriş qərb hissədəndir. Şərq hissədə isə altar yerləşir. Cənub hissədə sonradan digər giriş yeri açılıb. Daxildə girişdən 3,2 m-dən sonra altar hissə başlayır. Girişdən sağda cənub divarının yuxarısında pəncərə yeri var. məbədin hündürlüyü 5 m-dir. Üst hissəsi tağvaridir. Məbədin altar hissəsinin bayır divarı uçmuşdur [3] (şək. 3-4).

Şək. 3. Güllük qala-məbədinin cənub-şərq hissəsinin qalıqları



Şək. 4. Güllük Qala məbədinin ümumi planı (2021) (Taleh Əliyev)



Şək. 5. Güllük Qala məbədində Alban məbədinin planı (2021) (Taleh Əliyev)

Tərəfimizdən aparılmış ilkin arxeoloji kəşfiyyat işləri məbədin ilk orta əsrlər dövründə inşa edilmiş, V-IX əsrlərdə fəaliyyət göstərmiş, daha sonra isə XI-XIII əsrlərdə bərpa edilərək ibadət yeri kimi fəaliyyət göstərmişdir. Qafqaz Albaniyasının xristian məbədlərindən biri olan qala-məbəd daha IX əsrdə bərpa edilmiş Şəki alban məlikliyinin (bəzi mənbələrdə ikinci Alban dövləti) mövcudluğu zamanı albanların ibadət yeri kimi mövcud olmuşdur [2; 3].

İstifadə edilmiş ədəbiyyat

1. Alışov N.Ə. Azərbaycanın Qax, Zaqatala və Balakən rayonları ərazisindəki xristian abidələri haqqında // Pedaqoji Universitetin xəbərləri, № 1, Bakı, 2013:s. 85-103
2. Əliyev T.V. Oğuz və ətraf ərazilər orta əsrlərdə (tarixi-arxeoloji tədqiqat), Bakı, 2017:1-350 s.
3. Əliyev T.V. Oğuz-Qax arxeoloji ekspedisiyasının 2021-ci ildə apardığı arxeoloji qazıntı və çöl-tədqiqat işlətinin hesabatı // AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Elmi arxivi, Bakı: 2021, 305 s.

UOT 002.2(4/9); 81/42; 801.7

MÜASİR FRANSIZ MƏTBUAT DİLİNDƏ EVFEMİZMLƏRİN ÖYRƏNİLMƏSİNƏ DAİR

Ülfət Zakir oğlu İbrahim
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dillər Universiteti
ulfet.ibrahim@yahoo.com

Jurnalistika, daxili və xarici siyasi həyatın faktları və hadisələri haqqında ictimai fikir formalaşdıran sahədir. Hər zaman dəyişikliklərə meyilli olan bu sahə müxtəlif dil elementləri, hadisə və ifadələri ilə zəngindir. Bu səbəbdən jurnalistikanın yazılı vasitəsi hesab olunan gündəlik mətbuat, dilçi mütəxəsisslərin tədqiqat obyekti kimi daim maraq mərkəzindədir. Son vaxtlar müasir

Fransa mətbuatında “müəyyən şəraitdə arzuolunmaz, etikadan kənar, həddən artıq sərt söz və ifadələri əvəz etmək üçün” işlənən evfemizmlərə tez-tez rast gəlinir. Yazılı mətbuatda evfemizmlərin əsas xarakterik xüsusiyyəti müəyyən fikir və ya məvhumu dolayı, üstüörtülü söz vasitələri ilə ifadə etməkdir. [3, s. 67]

Tədqiqatın aktuallığı həm sosial təfəkkürdəki dəyişiklikləri, həm də müasir fransız dilinin sabit birləşmələri ilə dolğunluğunu əks etdirən evfemizasiya prosesinin öyrənilməsindən irəli gəlir. Evfemizm nəzəriyyəsində bu dil hadisəsinin müxtəlif tərifləri dilin evfemik lüğətini iki hissəyə bölməyə imkan yaradır ki, bu da birinci ümumi qəbul edilmiş evfemizmlər (dilin leksik/frazeoloji sisteminə daxil edilmiş və lüğətlərdə qeyd olunan sözlər/ifadələr); ikinci isə situativ evfemizmlərdir.

Dilçilik lüğətlərində evfemizm terminin müxtəlif tərifi mövcuddur. Belə ki, N. S. Arapova Linqvistik Ensiklopedik Lüğətdə evfemizmləri (gr. euphēmismos < eu "yaxşı" + phemi "deyirəm" sözündən) "nitqdə nalayiq, kobud görünən söz və ifadələri emosional cəhətdən eyni məna daşıyan neytral söz və ifadələrlə əvəz olunması" kimi müəyyən edir. Məsələn, “qocalar” əvəzinə “yaşlılar”, “yalan danışmaq” əvəzinə “həqiqətdən uzaq olmaq” [1, s.590]. Qolub İ.B. evfemizmlərin işlədilməsi üçün fərqli fikir irəli sürür. Onun tezislərinə əsasən, bəzən ifadənin arzuolunmaz, kobud hesab edilən mənfi mənasını ört-basdır etmək üçün onu yumuşaltmaq məqsədi ilə evfemik söz və ifadələrdən istifadə olunur. “Yalan danışmaq” əvəzinə “fantaziya qurmaq”, “rüşvət almaq” əvəzinə “hədiyyələr almaq, qəbul etmək” ifadələrinə rast gəlinir. [2, s. 9]. A. A. Reformatski evfemizmləri tarixi aspektdə nəzərdən keçirərək, onları ilkin olaraq sosial inkişafın müxtəlif mərhələlərində ictimai həyatda baş verən qadağanı ifadə edən tabu anlayışı ilə əlaqələndirir. Yuxarıdakı tərifl ərin ümumi xüsusiyyətlərini nəzərə alaraq bəzi nüansları qeyd etməyi vacib hesab edirik. Belə ki, müəlliflərin çoxu evfemizimləri mənfi məna və münaqişəli vəziyyət yaratmamaq, bəziləri isə əsas mənadan yayınmaq, istəyi ilə istifadəsini əsaslandırmağa çalışırlar.

Yuxarıda qeyd olunan ümumi tərif, yaranan bir çox sualları, məsələn evfemik ifadə əlamətlərinin müəyyən olunması, bu ifadələrin yayılması və istifadə sahələri, eləcə də dil hadisələri ilə əlaqəsi məsələləri ətrafında elmi mühalizələrin aparılmasına şərait yaradır. Nəzəri səviyyədəki fərqləri, praktik cəhətdən evfemizmlərə yaxın sayıla bilən dil hadisələrindən ayırmaq çətinlik yaradır. Odur ki, evfemizm anlayışı əlavə nəzəri tərifə ehtiyac duyur və bu sahədə gələcək tədqiqatlar aktual sayıla bilər.

Təəssüflə qeyd etmək lazımdır ki, müxtəlif səbəblərdən evfemizimlərin tədqiqatı uzun müddət dilçilərin diqqətindən kənar qalmışdır. XX əsrin son onilliyində, xüsusən də fransız dilində evfemizmlərin formalaşdırılması üsullarına, məqsəd və vasitələrinə, tədqiqatların diaxronik aspektinə həsr olunmuş xeyli sayda elmi əsərlər ortaya çıxdıqdan sonra vəziyyət müsbət istiqamətdə dəyişməyə başlamışdır. Son zamanlar evfemistik söz və ifadələrin müxtəlif linqvistik sahələrdə, o cümlədən ictimai-siyasi sahədə daha geniş araşdırılması müşahidə olunur.

Siyasi evfemizmin linqvo-praqmatik xüsusiyyətlərinin nəzəri məsələləri rus dilçiləri E.P.Şeyqal, Y.S., A.Y.Mironina, N.V.Pryadilnikova, G.X.Axmatova və başqalarının əsərlərində hərtərəfli öyrənilmişdir. Fransız dilçiliyinə və diskurs təhlilinə dair romanistikada isə M.Bonhomm, A.Orak, A.Krieg Plank, M.Lopez-Diaz və başqalarının əsərlərini qeyd etmək yerinə düşərdi.

Evfemik ifadə vasitələrinin fəal şəkildə istifadə olunduğu ənənəvi sahələr siyasət və diplomatiyadır. Məlumdur ki, sosial və şəxsiyyətlərarası münasibətlərdə evfemizmlərdən istifadə edərkən natiqlərin qarşıya qoyduğu əsas məqsəd kommunikativ konfliktlərdən qaçmaqdır. Müasir dildə dini və məişət evfemizmlərini də fərqləndirmək olar. Dini evfemizmlərə dini anlayışları əvəzləyən söz və ifadələr, eləcə də ölüm anlayışı daxildir.

Siyasi diskursda evfemizmlərin funksiyasının öyrənilməsi xüsusi maraq doğurur. Siyasi diskursun spesifik konsepsiyası strategiya və taktikada özünü açıq şəkildə biruzə verir. Konkret ünsiyyət şəraitində məqsədə çatmaq üçün vasitələrin seçilməsi, diskursda müəyyən strategiyanın həyata keçirilməsi kimi qəbul edilir, çünki eyni kommunikativ məqsədə müxtəlif yollarla nail olmaq olar.

Dilçilər tədqiqatlarında siyasi evfemizmin əsas praqmatik funksiyalarını önə çəkirlər:

1) manipulyasiyanı müəyyən ictimai rəyin formalaşmasına və auditoriyanın davranışına təsir vasitəsi kimi qəbul etmək;

2) ideoloji opponentlər tərəfindən metalinqvistik əks olunmasının səbəbini tənqid obyekti qəbul etmək.

Mətbuatda evfemizmlərin istifadəsi haqqında M.Bonhomme yazır: "Mətbuat diskursunda risk yarada bilən reallıqlar emosional cəhətdən neytral istinadlardan istifadə etməklə ifadə edilir. Nəticə isə ifadələrin informativliyinin zəifləməsidir" [5, s. 243]. İnformasiya xarakterli rəsmi mətnlərində "langue de bois"in evfemistik funksiyalarının şərh yolları heterojen proseslərdir: parafraz, hiperonimiya, metaforik köçürmələr. Nümunələrə nəzər salaq: *La circulation des personnes et les flux migratoires illégaux ont fait l'objet d'un entretien, mercredi à Alger, entre le secrétaire général du ministère de l'Intérieur, des Collectivités locales et de l'Aménagement du territoire*.

Rəsmi məlumat mətnində olan "*flux migratoires illégaux*" söz birləşməsi "*immigration incontrôlée arabo-africaine*" anlayışını əvəz edir. "*Flux*" metaforasının daxili forması sayəsində immiqrasiya adi dinamik proses kimi təqdim olunur. "*İllégaux*" sözünün seması bu proseslə bağlı problemlərə görə məsuliyyətin qanuna zidd hərəkət edən iştirakçıların üzərinə düşdüyü qənaətinə gəlməyə kömək edir.

Müasir evfemizmlər ictimai şüurda yeni ictimai-siyasi doktrinaların yaranması və möhkəmlənməsinə şərait yaradır. Eyni zamanda, evfemizmlər, ictimai şüurda baş vermiş dəyişiklikləri əks etdirməklə bərabər, özləri də yeni ideyaların cəmiyyətdə yayılmasına və möhkəmlənməsinə töhfə verir. Məşhur fransız yazıçısı Stendalın sözləri ilə desək «Söz insana fikirlərini gizlətmək üçün verilir". Belə ki, evfemizm söz və ifadələrin işlənilməsi, dilin lüğət tərkibinin strukturunda dəyişikliklərə səbəb olur. Bu cür dəyişikliklər ilk növbədə paradiqmatikaya səbəb olsa da, dil sisteminin epidiqmatik ölçüsünə də təsirsiz ötüşmür.

İstifadə edilmiş ədəbiyyat

1. Арапова, Н.С. "Эвфемизмы", Лингвистический энциклопедический словарь, М., 1990.

2. Голуб, И. Б., Стилистика русского языка, М., 2004.

3. Кацев А.М. Лексическая семантика и фразеология. Ленинградский государственный педагогический институт имени А.И.Герцена, 1987.

4. Кацев А.М. Языковое табу и эвфемизмы. Ленинград, Ленинградский государственный педагогический институт имени А.И.Герцена, 1988.

5. Bonhomme M. Pragmatique de l'euphémisme dans la presse francophone récente de Suisse // Verhüllender Sprachgebrauch / éd. E. Garavelli, H. Lenk, Berlin: Frank & Timme, 2017.

UOT 37

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ BEYNƏLXALQ TƏHSİLİN TƏŞKİLİ

Xaləddin Əli oğlu Sofiyev
kulturologiya üzrə fəlsəfə doktoru, dosent
Əməkdar müəllim
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
sofiyev.xaleddin@mail.ru

Cəmiyyətin indiki inkişaf mərhələsinin spesifikliyi ondan ibarətdir ki, bu gün dünya iqtisadiyyatının idarə edilməsi reallığı inkişaf edib, qlobal institutlar yaranıb. Bu arada, dünya

ictimaiyyətinin bir hissəsi təkid edir ki, qloballaşma milli kimliyə meydan oxuyur, xalqlar arasında identiklik böhranına səbəb olur, yoxsul ölkələri firavan dünyadan getdikcə artan geriliyə məhkum edir. Qloballaşma problemlərinin müzakirəsi prosesində bu fenomenin nəzərdən keçirilməsində aparıcı konseptual yanaşmalar formalaşmışdır: birinci yanaşmada qloballaşma Qərb dəyərlərinin imperializmi ilə əlaqələndirilir, ikincidə, qloballaşma modernləşmədən postmodernləşməyə keçid kimi təhlil edilir. Ümumiyyətlə, "anti-qlobalist ruhda davranaraq qloballaşmanı dayandırmaq çağırışı ilə çıxış etmək utopizm, anaxronizmdir". [Sofiyev X., Qloballaşma, s. 25]

XX əsrin 90-cı illərindən qloballaşmanın inkişafı təhsil paradiqmasının dəyişməsinə ciddi təsir göstərdi: "maarifçilik" nəzəriyyəsi "postmodernizm" nəzəriyyəsilə əvəz edildi. Siyasətçilər təhsil sahəsində qərarlar qəbul edərkən fərdiləşmə anlayışlarında əks olunan "insan kapitalı" nəzəriyyəsinin postulatlarından uzaqlaşaraq, əməkdaşlıq postulatlaşdıraraq "qlobal təhlükəsizlik" nəzəriyyəsinə keçirlər. XXI əsrdə beynəlxalq təhsil qloballaşmanın ruporuna çevrilir. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev müəllim, tələbə və şagirdlərə müraciətində vurğulamışdır: "Mən hələ 2004-cü ildə demişdim ki, biz "qara qızıl"ı insan kapitalına çevirməliyik və bunu əldə etmişik." [Hacıxanlı X.] Beynəlxalq təhsil bu gün həm xaricdə, həm də öz dövlətinin divarları daxilində, dövlət və qeyri-dövlət təhsil müəssisələrində real vaxt rejimində və onlayn rejimdə əldə edilir. Beynəlxalq təhsil demək olar ki, bütün milli təhsil sistemlərinə daxil olmuşdur. [Шевцов, 2010; с. 4]

Qloballaşma şəraitində beynəlxalq təhsilin inkişafının əsas mərhələlərinin təhsilin dəyər kimi dərk edilməsindən xəbər verdiyi konseptual olaraq müəyyən edilmişdir. Qloballaşma şəraitində beynəlxalq akkreditasiya və təhsil müəssisəsinin keyfiyyətinin beynəlxalq qiymətləndirilməsi alınan təhsilin keyfiyyətinin meyarına çevrilir. Təhsil böyük sosial əhəmiyyət kəsb edir və tədricən yalnız daxili maraqlar sferasından beynəlxalq səviyyəyə qalxır. Müasir ictimai həyatın inkişafının əsas xüsusiyyətlərindən biri təkcə siyasi və iqtisadi münasibətlərə deyil, həm də sosial sahələrdə, xüsusən də təhsil sahəsində münasibətlərə təsir edən dövlətlərarası inteqrasiyadır. Dövlətlərin təhsil sahəsində qarşılıqlı əlaqəsi daha dinamik xarakter alır, belə qarşılıqlı fəaliyyətdə yeni meyillər özünü büruzə verir, əməkdaşlığın yeni formaları və sahələri yaranır. Bu dəyişikliklər müvafiq araşdırmanı, eləcə də əməkdaşlıq zamanı yaranan problemlərin həllini tələb edir. Xüsusilə, vahid Avropa təhsil məkanının qurulması prosesi (Boloniya prosesi) hüquqi, sosial, iqtisadi və mədəni xarakterli ciddi dəyişikliklərə səbəb olur. [Кондратюк, 2007; с. 3]

İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı təhsil prosesində və nəticədə təhsil sahəsində beynəlxalq əməkdaşlığın xüsusiyyətlərində dəyişikliklərə səbəb olur. Xüsusilə, təhsil xidmətlərinin beynəlxalq ticarətinin miqyası artır. Yeni hadisələr, məsələn, transmilli təhsil yaranır ki, bu da həllini tələb edən bir sıra hüquqi problemlərlə bağlıdır. Boloniya prosesinin aktları və təhsil sahəsində digər inteqrasiya prosesləri xüsusi yer tutur.

Bu gün Avropa, ABŞ, Kanada universitetlərində təhsil almaq çox məqsədəuyğun və prestijlidir: gənclər keyfiyyətli bilik üçün hətta Yeni Zelandiya və Maltaya da gedirlər. Və təbii ki, hər kəs Böyük Britaniyada təhsil xidmətlərinin nə qədər yüksək səviyyədə olduğunu bilir. Xaricdə təhsili seçənlər üçün ən aktual məsələlərdən biri qiymətdir. Bu gün xüsusi istedadlı tələbələr üçün qrant ödəyən xüsusi fondlar var, lakin qrant almaq çox çətindir. Amerika universitetlərində pulsuz aspiranturaya daxil olmaq da son dər əcə çətindir. Buna görə də, ümumiyyətlə deyə bilərik ki, xaricdə öz hesabına təhsil almaq həmişə bahadır və istənilən "sərfəli qiymətə" təklifi dələduzluq və ya fırıldaq kimi qiymətləndirmək lazımdır. Xarici tələbələrin sayına görə lider ənənəvi olaraq ABŞ-dır, ilk beşliyə İngiltərə, Almaniya, Fransa, Avstraliya daxildir, bu rəqəm Çin və Yaponiyada artır. YUNESKO-nun məlumatına görə, dünyada beynəlxalq proqramları seçmiş tələbələrin ümumi sayı artıq 97 milyon nəfərə çatıb və 2025-ci ilə qədər ekspertlərin fikrincə, bu, 2,5 dəfədən çox artmalıdır. [Рябинина А.М., 2021; с. 240]

Universitet mənzərəsi indi beynəlxalq əməkdaşlıqdan kənarda ağlasığmazdır. Nümunələr arasında Almaniya tərəfdaşlığı modelinə xüsusilə xarakterik olan tədqiqat layihələri və ikimillətli

universitetlər daxildir. Əlbəttə, heç kim ali təhsilə diplomatiyanın aləti kimi baxışı ləğv etmir, lakin onun əhəmiyyəti bununla məhdudlaşmır. Sadəcə elm, texnologiya və bilik transferi kimi sahələrə baxın. Bu sahələr bilik, sosial ədalət və innovasiya ilə idarə olunan dünyada getdikcə daha mühüm rol oynayır. Hazırda ali təhsilin brendləşdirməyə, reytinqlərə və rəqabətədavamlılığa yönəldiyini nəzərə alsaq, "yumşaq güc" anlayışı çox cəlbedici görünür. Çoxları yumşaq gücə bir növ müasir brendinq kampaniyası kimi baxır, hansı ki, müəyyən bir cəmiyyətin mədəniyyət və mediadan həm xarici ictimaiyyəti, həm də tələbələri müəllimlər və tədqiqatçılarla razı salmaq üçün istifadə edir. Digərləri yumşaq gücə neokolonizasiyanın bir forması kimi baxır və ya yumşaq güc imperializmindən danışır. Bir sözlə, ali təhsilin yumşaq güc aləti kimi rolu və istifadəsi müxtəlif yollarla şərh olunur. Və məqsədin nə olmasının fərqi yoxdur - siyasi və iqtisadi üstünlüklər və ya yaxşı ad. Motivasiya əsasdır: yumşaq güc cəlbedicilik hesabına öz maraqlarını və üstünlüyünü təşviq etməkdir.

Ali təhsildə yumşaq gücə ən çox istinad edilən nümunələr Fulbrayt Təqaüd Proqramı, British Council-ın fəaliyyəti, Alman Akademik Mübadilə Xidmətinin (DAAD) təşəbbüsləri və Avropa İttifaqının Erasmus proqramıdır. Bunlar müxtəlif ölkələr arasında qarşılıqlı anlaşma işinə böyük töhfə verən yaxşı imicli tanınmış və nüfuzlu proqramlardır. Bəs onların əsas funksiyası tələbələr, dosentlər, mədəniyyət xadimləri, alimlər, tədqiqatçılar və ekspertlər səviyyəsində mübadiləsini dəstəkləməkdirsə, niyə biz onları "yumşaq elektrik alətləri" adlandırırıq? Bəli, əlbəttə ki, ölkələrin maraqlarını nəzərdən qaçırmaq olmaz, amma əslində söhbət bütün tərəflər üçün qarşılıqlı maraqlardan və faydalardan gedir. Beynəlxalq akademik təhsil isə, ilk növbədə, qaliblərin və məğlubların olduğu rəqabət baxımından görünmür. Əsas diqqət mübadilə və tərəfdaşlığa verilir. Bundan əlavə, müxtəlif ölkələrin, ali təhsil sistemlərinin, tədqiqat müəssisələrinin güclü tərəfləri bütün iştirakçı tərəflər üçün həll yolları və faydalar tapmaq üçün istifadə olunur. Bundan əlavə, müxtəlif tərəfdaşlar üçün fərqli görünə biləcəyi nəzərə alınır.

Hər kəsin vahid şəbəkəyə daxil olduğu və bir-birindən çox asılı olduğu müasir dünyamızda təhsil insan, bilik, təcrübə, innovasiya, iqtisadiyyat, texnologiya, mədəniyyətin transsərhəd mübadiləsində vasitəçi rolunu oynayır. Bəşəriyyət epidemiyalar, terrorizm, dövlət suverenliyinin böhranı, yoxsulluq həddində yaşayan bir milyard insan, ekoloji fəlakətlər və iqlim dəyişikliyi kimi qlobal problemlərlə üzləşir.

Son iyirmi ildə bilik cəmiyyəti ideyası haqqında çoxlu müzakirələr aparılıb. Bu postindustrial konsepsiyaya görə, bilik dövlətlərin sosial-mədəni inkişafının və iqtisadi yüksəlişinin mühərrikidir. Biliyə vurğu müasir dünyada təhsilin (ibtidai və orta məktəbdən ali təhsilə qədər) oynadığı mühüm rola işarə edir. "Onu da deyək ki, bilik təkcə yük parametrlərində "boxça" deyil. İnternet sayəsində bilik qazananda elm adamı, gənc jurnalist və tələbə həm də bu biliyi dinləyən narrativləri, konsepləri mənimsəyir." [Sofiyev X., Kürəsəl; s. 119]

Müasir diplomatiyanın dəyişən dünyasında ali təhsil həlledici rol oynayır və bu problemlərin həllinə böyük töhfə verə bilər. Böyük elmi əməkdaşlıq və akademik mobillik ənənəsi elmi tədqiqat və siyasi şəbəkələrdə, beynəlxalq təhsil mərkəzlərində, birgə proqramlarda, qlobal və ikimillətli universitetlərdəki yeniliklərlə tamamlanır. Bütün bunlar ölkələr və regionlar arasında beynəlxalq əlaqələrin möhkəmlənməsinə böyük töhfə verməlidir, çünki söhbət elm sahəsində istehsaldan, yayılmasından, bilik mübadiləsindən, bir sözlə, diplomatiyadan gedir.

Avropa və dünya təhsil sistemlərinə inteqrasiya və dünya səviyyəli mütəxəssislərin hazırlanması istəyi universitetlərin beynəlxalq əlaqələrin qurulması, təhsil və elmi-tədqiqat işi, mədəniyyət sahəsində xarici tərəfdaşlarla çoxşaxəli əməkdaşlığın təşkili və inkişafı üçün göstərdiyi səyləri müəyyən edir. Müasir təhsil vasitəsi ilə hər bir insanın mədəniyyətin qloballaşması problemini dərk etməsi müxtəlif mədəniyyətlərin eyni vaxtda bir zaman və mənəvi məkanda yaşamasına imkan verəcək, etno-milli qarşıdurmaların, stereotiplərin və dini qərəzlərin yaranmasının qarşısını alacaq, mədəniyyətin inkişafı prosesini gücləndirəcək və təmin edəcəkdir.

Beynəlxalq təhsil almış insan üçün bütün mədəniyyətlər dünya mədəniyyətinin təzahürü və ifadəsi kimi önəmlidir. Bu o deməkdir ki, beynəlmiləl təhsil insanın multikultural tərbiyəsidir. O, insanın hadisələri başqa insanın, başqa mədəniyyətin, başqa sosial-iqtisadi formasiyanın prizmasından qiymətləndirmək bacarığını inkişaf etdirir. Ona görə də beynəlxalq təhsil XXI əsrin yeni nəslinin mütəxəssisinin ümumi hazırlığının tərkib hissəsinə çevrilməlidir. [Полищук, 2007; с.5]

Beynəlxalq əməkdaşlığın universitetin təhsil mühitinin inkişafına təsirinin əsas göstəricisi kimi başa düşülən "mütəxəssislərin beynəlxalq təhsili" konsepsiyası ilə xarakterizə oluna bilən mütəxəssisin peşə hazırlığının yeni keyfiyyətidir. Nüfuzlu reytinqlərə əsasən, universitetlər arasında ən yüksək yerləri ABŞ və Böyük Britaniya universitetləri tutur. Ən adi xarici universitetdə təhsil almaq tələbələrə nəinki seçdikləri ixtisas üzrə bakalavr dərəcəsi almaq imkanı verir, həm də gənclərə öz həyat təcrübələrini əhəmiyyətli dərəcədə zənginləşdirmək, dünyanın hər yerindən dostlar qazanmaq, mədəniyyət və mədəniyyətlə tanış olmaq imkanı verir.

Beynəlxalq təhsil əməkdaşlığının indiki inkişafı mərhələsində dövlətlər regional müqavilə formasına üstünlük verirlər, universal tənzimləmə isə hələ hərtərəfli xarakter daşımır. Təhsil sahəsində inteqrasiya fəaliyyəti yalnız regional və subregional səviyyədə həyata keçirilir. Problemlərin bəziləri (vahid təhsil məkanının yaradılması, təhsil haqqında sənədlərin tanınması və s.) yalnız regional səviyyədə ən səmərəli şəkildə həll olunur. Təhsil üzrə sazişlərin həyata keçirilməsinin özəlliyi ondan ibarətdir ki, universal və regional səviyyələrdə belə icra beynəlxalq təşkilatların mexanizmindən istifadə etməklə həyata keçirilir və birgə qurumların yaradılması ikitərəfli səviyyə üçün xarakterikdir.

Təhsil sahəsində əməkdaşlığın universal səviyyədə həyata keçirilməsində beynəlxalq təşkilatların tövsiyə xarakterli aktları üstünlük təşkil edir, beynəlxalq müqavilələr isə azdır və əsasən təhsil hüququnun qorunmasına və ayrı-seçkiliyin qarşısının alınmasına həsr olunub. Bu onunla izah olunur ki, beynəlxalq təşkilatlar əməkdaşlıq prosesində təhsil sahəsinin problem və ehtiyaclarına dövlətlərarası sazişlərin uzun müddət işlənməsindən daha çox müvafiq tövsiyələrin qəbulu yolu ilə cavab verirlər.

Cəmiyyətin nəzarəti altında milli və dünya mədəniyyətinin dəyərlərinin mənimsənilməsi prosesində şəxsiyyətin inkişafı üçün xarici və daxili şəraitin formalaşdığı insan həyatının xüsusi sahəsi kimi başa düşülməlidir. Qlobal təhsil inteqrasiya meyllərinin güclənməsi, ümumi beynəlmiləlləşmə və qloballaşma prosesləri ilə bağlı elmi-texniki inqilabın indiki dövrünün daha bir məhsuludur. Onun əsas məqsədləri isə bunlardır: 1) dünyanın bir-birinə zidd qruplara bölünməsini, həmçinin sosial, milli və digər ziddiyyətləri aradan qaldırmaq; 2) insanla təbiət arasında ekoloji fəlakət təhlükəsi yaradan münaqişə; 3) insan ağlının və ruhunun ayrılması. Başqa sözlə, qlobal təhsilin əsas ideyası öz vətəninin və ümumən dünyanın taleyi üçün yüksək məsuliyyət hiss edən azad və geniş düşüncəli şəxsiyyətin formalaşdırılması ideyasıdır.

Hazırda qlobal təhsil prosesində 1 milyarddan çox məktəbəqədər və məktəb yaşlı uşaq, ali təhsil müəssisələrinin və orta ixtisas təhsili müəssisələrinin tələbələri, 60 milyona yaxın müəllim, təhsil işçisi və universitet professoru, o cümlədən on milyonlarla yardımçı və xidmət personalı iştirak edir. İnsan fəaliyyətinin bütün məlum sahələri arasında yalnız kənd təsərrüfatı məşğul olanların sayına görə təhsillə rəqabət apara bilər. [Қазіргі әлемдегі білімнің жаһандануы. Жаһандану және білім. kerchtt-ru.]

Azərbaycanda "Təhsil haqqında" Qanuna əsasən hazırlanıb və formal təhsilin təşkili məsələlərini tənzimləyir [Azərbaycanda "Təhsil haqqında" Qanun]. Bu qanuna görə, formal təhsil dövlət təhsil sənədinin verilməsi ilə başa çatan təhsil formasıdır. Ümumi təhsil, ilk peşə-ixtisas təhsili, orta ixtisas təhsili, ali təhsil, yenidənhazırlanma təhsili, təkrar ali və ya orta ixtisas təhsili dövlət təhsil sənədinin verilməsi ilə başa çatdığı üçün formal təhsil hesab edilir.

Formal təhsil qanunvericiliklə müəyyən edilmiş əyani, qiyabi, distant (məsafədən), sərbəst (eksternat) təhsilalma formaları vasitəsilə həyata keçirilir. Ümumi təhsil pilləsində qanunvericiliyə uyğun təşkil edilən şagirdlərin evdə təhsili və fərdi təhsili də formal təhsil hesab edilir. [edu.gov]

Qloballaşmanın və təhsilin dərk edilməsində mədəni və siyasi-iqtisadi mülahizələrin həlledici əhəmiyyəti qaldığına görə, qloballaşmanı təkcə homojenlik və ya təzyiqçi yuxarıdan-aşağı xüsusiyyətlər kimi deyil, həm də qloballaşmanın mürəkkəb və dinamik yerli və qlobal kəsişmələri kimi başa düşmək üçün mövqelilik və tədqiqat etikası və refleksivlik mühüm tədqiqat problemləri olaraq qalır. [ByLiz Jackson, pp. 18-19]

Xarici ölkələrin ali təhsil müəssisələrində dövlət xətti ilə təhsil alan Azərbaycan vətəndaşlarının sayı 2021-2022-ci tədris ili üçün 717 nəfər, o cümlədən Macarıstanda 370 nəfər, Türkiyədə 300 nəfər, Rusiyada 213 nəfər təşkil etmişdir. Dövlət və qeyri-dövlət ali təhsil müəssisələrində bakalavr və magistr səviyyəsində təhsil alan xarici vətəndaşların sayı isə Türkiyədən 2433 nəfər, İrandan 1038 nəfər, Rusiyadan 475 nəfər, Gürcüstandan 440 nəfər və s. qeydə alınmışdır. [statistika.az]

Qloballaşmaya və təhsilə yönəlmiş tədqiqatlar geniş spektrli yanaşma və metodlardan, mövzulardan və istiqamətlərdən, eləcə də müxtəlif nəzəri perspektivlərdən və normativ fərziyyələrdən istifadə edir. Qloballaşma dövrünün xronoloji çərçivəyə salınması baxımından onun əsas xüsusiyyətləri mədəni, siyasi-iqtisadi və texnoloji baxışlardan nədən ibarətdir. Bu gün ölkəmizin qarşısında daha yüksək inkişaf səviyyəsinə nail olmaq vəzifəsi durur. Bunun üçün mühüm məsələlərdən biri digər sahələrlə bərabər elm və təhsilin inkişafıdır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılmış və prezident İlham Əliyev tərəfindən yeni nəfəs gətirilərək uğurla həyata keçirilən müstəqil Azərbaycanın dövlət siyasətinin kökündə elmi prinsiplər öz əksini tapmışdır. Son zamanlar Azərbaycan elm və təhsilində köklü islahatlar aparılmaqdadır.

İstifadə edilmiş ədəbiyyat

1. Hacıxanlı X. Azərbaycan "qara qızıl"ı insan kapitalına çevirə bilmişdir. Xalq qəzeti. 16 sentyabr 2020.
2. Sofiyev X. Kürəsəl proseslərin transformasiyaları. "Azərbaycan Arxeologiyası və Etnoqrafiyası" jurnalı. AMEA, Arxeologiya və Etnoqrafiya institutu. "Nafta-Press" nəşriyyatı. Bakı-2017 №2, səh.127-133, 2017, 172 səh.
3. Sofiyev X. Qloballaşma paradiqmasının törətdiyi yanaşmalar. səh.23-29 "Mədəniyyət dünyası" elmi-nəzəri məcmuə. XXXIV buraxılış. ADMİU-nun mətbəəsi. Bakı-2017, Bakı, 2017, 248 s.
4. ByLiz Jackson. Globalisation and education. Questioning Allegiance.Edition1st Edition. First Published-2019, pp.18-19
5. Кондратюк Анна Владимировна. Международно-правовое регулирование сотрудничества государств в сфере образования. Санкт-Петербург 2007, 195 с.
6. Полищук Игорь Григорьевич. Международное сотрудничество как фактор развития образовательной среды педагогического университета. Санкт-Петербург 2007, с.112,
7. Рябинина А.М.Экспорт образовательных услуг на мировом рынке образования. Государственное управление. Электронный вестник. Выпуск № 85. Апрель 2021 г.
8. Шевцов Т. И. Формы организации международного образования в условиях глобализации. Москва 2010, с. 153.
9. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatı. https://stat.gov.az/
10. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. URL: https://e-qanun.az/framework/18343 19 iyun 2009-cu il
11. Formal təhsilin təşkili qaydaları. https://edu.gov.az/az/esas-senedler/2302 6 avqust 2010
12. Қазіргі әлемдегі білімнің жаһандануы. Жаһандану және білім. kerchtt-ru.

UOT 330.35

FONETİKNANIN TƏDRİSİNDƏ ÇƏTİNLİKLƏRİN ARADAN QALDIRILMASI YOLLARI

Telman İsmayıl oğlu Kazımov
filologiya üsrə fəlsəfə doktoru, dosent
Bakı Slavyan Universiteti
telman_kazimov@mail.ru

Hazırkı dünyamızın qloballaşdığı bir zamanda xarici dillərin öyrənilməsinə daha böyük ehtiyac duyulur. Dil insanlar arasında ünsiyyət vasitəsi olduğu üçün onun xalqlar arasında iqtisadi, siyasi, mədəni əlaqələrin yaranmasında rolu böyükdür. Məhz buna görə də dilin öyrənilməsində mühüm rol oynayan amillərdən biri də ilk növbədə onun orfoqrafik və orfoepik qaydalarının mənimsənilməsidir.

Biz bu yazımızda alman dilinin öyrənilməsində çətinliklər yaradan bəzi məqamların araşdırılımasına diqqət yetirəcəyik. Məlum məsələdir ki, xarici dillərin öyrənilməsində müəllimlərin istifadə etdiyi metodlardan ən başlıcası ana dili ilə müqayisə metodudur. Bu zaman meydana çıxan çətinliklər aşağıdakılardan ibarətdir:

I. Alman dilində saitlər uzun və qısa tələffüz edilirlər ki, bu da özünü sözlərin məna dəyişikliyində əks etdirir. Azərbaycan dilində də saitlərin uzun və qısa tələffüz edildiyinə rast gəlsək də, bu məna dəyişikliyinə səbəb olmur. Belə ki, buna biz “bəzən” sözündə rast gəlirik. Məsələn:

1. Bəzən bizə elə gəlir ki, hər şeyi düz deyirik.
2. Qızım, bəzən, toya gedirik.

Göründüyü kimi, 1-ci cümlədə -ə- səsi uzun, 2-ci cümlədə isə qısa təkləffüz edildiyindən müxtəlif mənalar ifadə edirlər.

Alman dilində isə 8 uzun, 7 qısa tələffüz edilən saitə rast gəlirik. [a:], [o:], [u:], [Ɛ:], [øː], [yː], [ɪ:], [e:] uzun tələffüz edilən saitlərdir. [a], [ɔ], [ʊ], [ɛ], [œ], [y], [┴] qısa tələffüz edilən saitlərdir. Uzun tələffüz edilən [e:]- nin isə qısası yoxdur. Saitlərin uzun və qısa tələffüz edilməsi hecaların növündən asılıdır. Saitlər açıq hecalarda, şərti qapalı hecalarda, qoşa olarsa, ondan sonra [h] və [┴]-dən sonra [e] uzun tələffüz edilirlər. Qapalı hecalarda və ondan sonra qoşa samit gəldikdə isə qısa tələffüz edilirlər. Fikrimizi aydınlaşdırmaq üçün aşağıdakı misallara diqqət yetirək:

Staat [´ʃta:t]- dövlət, Stadt [´ʃtat]- şəhər, dem Sohne [´zo:nə]- oğluma, die Sonne [´zɔnə]- günəş, Mus [´mu:s]- püre, muß [mʊs]- modal feil (-malı, -məli), stehlen [´ʃte:lən]- oğurlamaq, stellen [´ʃtɛlən]- qoymaq, die Ehre [˝e:rə]- namus, vicdan, die Ähre[˝ɛ:rə]- sünbül, die Höhle [´hø:lə]- mağara, die Hölle [´hœlə]- cəhənnəm,fühlen [´fy:lən]- hiss etmək, füllen [´fylən]- doldurmaq, die Miete [´mı:tə]- kirayə, die Mitte [´m┴tə]- orta, ihnen [˝ı:nən]- onlara, innen [˝┴nən]- içəri, daxili. Misallardan göründüyü kimi söz daxilində saitlərin uzun və qısa tələffüz edilməsi məna dəyişikliyinə səbəb olur.

Bəzən bəzi sözlərin tələffüzü zamanı danışıq orqanlarının müxtəlif vəziyyət almalarına da diqqət yetirilməlidir. Das Beet [´be:t]- lək və das Bett [´bɛt]- çarpayı, die Ehre [˝e:rə]- vicdan və die Ähre [˝Ɛ:rə]- sünbül.

Uzun qapalı [e:]- nin tələffüzü zamanı dodaqlar yana dartılır, uzub və qısa açıq [Ɛ:], [Ɛ]- lərin tələffüzü zamanı isə alt çənə aşağı enir. Əgər belə olmasa onda biz Ehre və Ähre sözlərini yazılışda fərqləndirə bilmərik.

II. Ch, ch hərf birləşməsi də tələffüz zamanı çətinlik yaradır. Belə ki, şagird və tələbələr Ich-Laut -la Ach-Laut -u səhv tələffüz edərək, Ach-Laut -a üstünlük verirlər. Bu səhvin aradan qaldırılması üçün ilk mərhələdə təqlid (yamsılama) metodundan istifadə edilməsi nəzərdə tutulursa, sonrakı mərhələdə fonetik metoda üstünlük verilməsi məqsədəuyğun hesab edilir. Ümumiyyətlə,

hər iki metoddan istifadə edilərsə, daha yaxşı nəticə əldə etmək olar. Ich və Ach-Lautun düzgün tələffüz edilməsi üçün də hər iki metoddan istifadə məqsədəuyğun hesab edilir. Şagird və tələbələrə izah edilməlidir ki, incə, dilönü [ʖ], [ɛ], [y],[œ] saitlərdən, [ae], [ɔø] diftonqlarından [r], [l], [n] sonor səslərindən sonra və -chen suffiksində [ç] kimi tələffüz edilir. Bu Azərbaycan dilində olan çörək, çiçək, inək, gedək sözlərindəki [k´] kimi tələffüz edilir: Məsələn: ich [ʖç], mich [mʖç], recht [´rɛçt], Dächer [´dɛçər], Bächer [´bɛçər], Bücher[´by:çər], Tücher [´ty:çər], Löcher [´lœçər], möchte[mœçtə], Märchen [´mɛrçən], Archiv [ˈarçʖf], manche [mançə], manchmal [mançma:l] və s.

Bundan başqa -ig və -lich suffikslərində də [ç] kimi tələffüz edilir: richtig [´rʖçtʖç], wichtig [´vʖçtʖç], lieblich [´lı:plʖç], weiblich [´vaeplʖç] və s. Müstəsna hallarda [x] və [ç] bir-birinə fərqli qarşıdurma mövqeyindən çıxış edə bilərlər. Kuchen [´ku:xən]- qoğal, Kuhchen [´ku:çən]- kiçik inək, tauchen [´taoxən]- batmaq, batırmaq, Tauchen [´taoçən]-şehcik, Aachen [ˈa:xən]-şəhər adı, Achen [ˈa:çən]- kiçik a hərfi. Misallardan aydın olur ki, bu qarşıdurma mövqeyindən çıxış edən sözlərin birincisində -chen [-xən] söz kökündə olan 2-ci hecadırsa, ikincilərdəki -chen [-çən] isə kiçiltmə suffiksi olduğuna görə müxtəlif mənalar bildirirlər.

III. Çətinliklərdən biri də [l] səsinin düzgün tələffüz edilməməsindən ibarətdir. Belə ki, bu səsin tələffüzündə yol verilən səhv ana dilinin təsirindən əmələ gəlir. Şagird və tələbələr bu səsin incə və qalın saitlərdən sonra tələffüzünə fərqli mövqedən yanaşırlar.Alma, alov, alqış, alın, ulaq, ulduz, olmaq sözlərinin tələffüzündə dilin ucu yuxarı bərk damağa toxunur. Əl, dil, bil, ülgüc, ölkə, el sözlərində isə dilin ucu alt diş alveollarına toxunur. Alman dilində isə bu səsin tələffüzü mövqeindən asılı olmayaraq, Azərbaycan dilindəki incə saitlərdən sonrakı [l] səsi kimi tələffüz edilməlidir.

IV. -ng [ŋ] səsinin tələffüzündə də bəzən səhvə yol verilir. Belə ki, şagird və tələbələr bu səsi [n] və [g] səsi kimi tələffüz edirlər. [ŋ] səsinin tələffüzü zamanı dilin ucu [k] və [g]-da olduğu kimi alt kəsici dişlərin alveollarına dirənir, dilin arxası isə bir az aşağı enən yumşaq damağa dirənərək kiplik yaradır və hava axını burun boşluğu ilə xaric olur. [ŋ] səsinin tələffüzü zamanı bu kipləşmə yumşaq damağın lap arxa hissəsində meydana gəlir.

V. Bəzən şagird və tələbələr bəzi prefiks və sözlərin sonunda gələn cingiltili samitləri kar samit kimi tələffüz etməyi unudurlar. Bu zaman onlara xatırlatmaq lazımdır ki, Azərbaycan dilində olduğu kimi alman dilində də sonda gələn cingiltili samitlər onların qarşılığı olan kar samitlər kimi tələffüz edilir. Məsələn: kənd [´kənt], dörd [dört], qurd [qurt], balıq [balıx] və s. Alman dilində ab-prefiksi və söz sonunda olan cingiltili samitlər tələffüz zamanı karlaşır: absagen [ˈapza:gən]- imtina etmək, Abgeordnete [ˈapgəordnətər]- deputat, und [ˈʊnt]- və, Mund [´mʊnt]- ağız, rund [rʊnt]- girdə, Tag [´ta:k]- gün və s.

Bəzən də kökü cingiltili samitlə bitən feillərə II və III şəxsin təkində və II şəxsin cəmində şəxs sonluğu artırıldıqda, eyni zamanda həmin feillərin Partizin II-sində kökdə olan cingiltili samit tələffüz zamanı karlaşır. Məsələn: du sagst[´za:kst]-sən deyirsən,er sagt[´za:kt]- o deyir, ihr sagt [´za:kt]- siz deyirsiniz, gesagt [gə´za:kt]- demiş və s.

Praktikada [ŋ] səsinin tələffüz edilməsi çətinlik yaradır. Buna görə də bu səsi hərflərlə yazmadan dəfələrlə tələffüz etmək lazımdır, əks təqdirdə bu [n] səsinin ayrılıqda tələffüz edilməsi ilə nəticələnir. Əlbəttə bu səsin tələffüzündə yamsılama (təqlid) metoduna istinad etmək lazımdır. Fonetik metod bu zaman işə yaramır. Bu səsin tələffüzündə dilin ucu aşağı kəsici dişin alveollarına sıxılır və ağız [n] və [g]-da olduğundan da geniş açılır.

İstifadə edilmiş ədəbiyyat

1. O.Zacher. Фонетика немецкого языка (Теоретический курс) (на немецком языке), Ленинград 1969.
2. Бодуэн де Куртенэ И.А. Введение в языковедение. т.2, М.: Изд. АН СССР, 1963.
3. Зиндер Л. Р.,Общая фонетика, ЛГУ ,1960.
4. Otto von Essen. Allgemeine und angewandte PhonetikAkademie - Verlag.Berlin 1966.

5. Ф.Bejcəlov. Алман дилинин фонетикасы. Бакы: Маариф 1980
6. O. Jespersen., Lehrbuch der Phonetik, Leipzig- Berlin, 1926

UOT 159.9

İBTİDAİ SİNİFLƏRDƏ TƏLİMDƏN GERİQALMA

Zərifə Nüvər qızı Nəsrullayeva
psixologiya üzrə fəlsəfə doktoru, dosent
Gəncə Dövlət Universiteti
zerifenesrullayevaa@gmail.com

İbtidai siniflərdə dezadaptasiya uğursuz təhsil fəaliyyəti ilə sıx bağlıdır. Təsadüfi deyil ki, təlimdə geriqalma kiçik məktəbli yaş dövründə psixogen məktəb dezadaptasiyasının səbəbi və nəticəsi hesab olunur.

Məktəbdə geriqalma ibtidai siniflərin kəskin problemlərindən biridir. Psixoloji ədəbiyyatlarda onu orta siniflərə keçərkən yaranan sonrakı geridə qalmadan fərqli olaraq erkən geriqalma adlandırırlar.

Kiçik məktəbli yaş dövründə təhsil fəaliyyəti aparıcı rol oynayıb şəxsiyyət dəyişiklikləri və idrak proseslərinin differensiasiyasını müəyyənləşdirdiyi halda, erkən geriqalma geniş problemlərin çevrəsinin mənbəyi olub, uşağın şəxsiyyətinin ümumi inkişafına təsir göstərir

Məlumdur ki, geriqalma kiçik məktəblilərdə korreksiya işlərinin istənilən istiqaməti, ilkin diaqnostikanı - konkret şagirdin geriqalma səbəblərinin müəyyənləşdirilməsi, həmçinin məktəb psixoloqu, müəllim və valideynin bu əsasda planlaşdırılmış birgə fəaliyyətini nəzərdə tutur.

Erkən geriqalmanın qarşısının alınması üçün götürülən işlərdən daha effektivi məktəbə psiloxoloji hazırlıq səviyyəsinin təmin olunmasıdır.

Psixoloq və pedoqoqlar ibtidai siniflərdə geriqalmanın əsas səbəbləri kimi aşağıdakıları qeyd edirlər:

1. Təfəkkürün inkişafının lazımi səviyyədə olmaması;
2. Təhsil vərdişlərinin aşağı səviyyəsi;
3.Biliklərdə böyük boşluqların olması;
4. Öyrənməyə mənfi münasibətin olması;
5. Zəiflik, böyük yorğunluq;
6. İradi keyfiyyətlərin aşağı səviyyəsi, intizamsızlıq;
7. Yaşıdların, ailənin mənfi təsiri, məktəbdə olan çatışmamazlıqlar.

Qeyd olunanlardan belə görünür ki, geriqalma "daxili" və "xarici" səbəblərin, başqa sözlə, uşağın öz inkişaf xüsusiyyətləri və sosial mühitin neqativ təsirinin nəticəsi kimi özünü biruzə verir. Y.V.Babınski hesab edir ki, təhsildə geri qalmanın səbəbləri öz universallıq və əhəmiyyətinə görə eyni səciyyə daşımır.

Bununla bağlı özünü göstərən əsas səbəblərə: məktəbin təlim-tərbiyəyə təsirini, şagirdin anatomik-fizioloji xüsusiyyətlərini, qabiliyyətlərin aşağı səviyyədə olmasını və s. göstərmək olar. Bu ilkin səbəblər müxtəlif formada birləşib kompleks şəkildə özlərini göstərə bilərlər.

İlkin səbəblərin əsasında ikinci dərəcəli səbəblər yaranır. Buna misal olaraq, təfəkkürün inkişafındakı ləngimələr, təhsilə münasibətin neqativliyi, təhsil almağa hazırlıqdakı çatışmazlıqlar, biliklərdəki boşluqlar, bacarıq və vərdişlərin zəif inkişafını göstərə bilərik.

Belə qruplaşdırma təhsildə geri qalmanın səbəb və nəticələrini aydınlaşdırmağa; ikinci dərəcəli səbəbləri əsaslardan ayırmağa zəmin yaradır. Digər tərəfdən inkişafda geriqalmanın səbəblərini təhlil edərkən onların kompleks xarakter daşıdığını, səbəblərin qarşılıqlı əlaqəli və bir–

birindən asılı olduğunu, onların aşkarlanmasının sistemli xarakter daşıdığını nəzərə almaq lazımdır. Bu baxımdan geri qalan kiçik yaşlı məktəblinin şəxsi xüsusiyyətlərini, eləcə də ona edilən kənar təsirləri mümkün qədər hərtərəfli öyrənmək lazımdır.

Qeyd edək ki, problemə kompleks yanaşma geriqalmanın dominant səbəbini aydınlaşdırmağa imkan yaradır. Müxtəlif səbəblərdən təhsildə yetirməyən şagirdlərdə geriqalmanı yaradan dominant səbəblər müxtəlifdir. Çünki şagirdlərdə geriqalma situasiyası yaşından və fərdi xüsusiyyətlərindən asılı olaraq müxtəlif cür özünü göstərir. Buna görə də müxtəlif məktəblərdə geriqalmanın kifayət qədər rəngarəng lövhələri alınır.

Psixoloji ədəbiyyatların təhlilindən aydın olur ki, geriqalma adətən motivasiya və emosional sferadakı çatışmamazlıqlarla əlaqədar olur. Bu motivlər olmadıqda təlimdə özünü göstərən geri qalma halları müşahidə olunur.

Nəzərə almaq lazımdır ki, təhsil fəaliyyəti istənilən halda motivə edilmişdir. Onu yaradırlar, istiqamətləndirirlər, eləcə də sosial motivlər, təhsil maraqları və nailiyyət motivləri (müvəffəqiyyətin əldə edilməsi və uğursuzluqdan kənarlaşma da daxil olmaqla) ona məna verir.

Şagirdin şəxsiyyət kimi inkişafında və təhsil fəaliyyətinin effektivliyi baxımından daha əhəmiyyətli sayılanları- geniş sosial motivlər (məktəbin fəaliyyəti ilə bağlı maraqlar), məsuliyyət hissi, yoldaşlıq hissi və şagirdi təhsil fəaliyyətinin strukturunu yönəldən məntiqi maraqların və keyfiyyətli nəticənin alınmasına yönəlmiş müvəffəqiyyət əldə etmənin motivasiyasıdır. Bu motivlərin olmaması və zəif inkişafı təhsil fəaliyyətinə neytral, ambivalent (bir-birinə əks fikirlər) və ya mənfi münasibətə gətirib çıxarır. Belə münasibət təhsil fəaliyyətini dağıdır, onun produktivliyini azaldır.

Motivasiya sferasının inkişafındakı çatışmamazlıqlar təhsildə geriqalmanın ilkin səbəbi kimi çıxış edir. Ayrılıqda götürsək psixi infantalizm zamanı uşaq hələ məktəbəqədərki maraqlarını saxlayır və yeni məktəbli statusuna qarşı biganə münasibət bəsləyir.

Əksər hallarda zəif təhsil motivasiyası, təhsilə mənfi münasibət aşağı qiymətləndirmənin və zəif oxumanın nəticəsinə uyğun statusun yaranmasına səbəb olur. Bu baxımdan motivasiyanın zəif inkişafı şagirdin düşdüyü qeyri-qənaətbəxş situasiyanı daha da dərinləşdirir, şagirdin təhsildə geri qalmasında ikinci mühüm səbəbi kimi çıxış edir.

Qeyd etmək lazımdır ki, sərbəstliyin zəif olduğu zaman analoji effekti müşahidə etmək olar. Inkişaf etmiş maraqlara malik olan məktəbliyə özünü idarəetmənin formalaşmış mexanizmi lazımdır. O, rastlaşdığı çətinliklərə qalib gəlməyi, mənfi emosiyalarla qarşılaşmamağı, darıxdırıcı məsələləri həll etməyi və monoton tapşırıqları yerinə yetirməyi bacarmalıdır. Özünü sərbəst aparmaq bacarığı olmasa sərbəst işlərin planlaşdırılması və dərsdə ondan intizam gözləmək olmaz. Eyni zamanda inkişaf etmiş sərbəstlik olmasa, yüksək təhsil nəticələri və əmək qabiliyyəti əldə edilə bilməz.

Tədqiqatlar göstərir ki, inkişaf etməmiş təhsil motivasiyasına və sərbəstliyə malik uşaqlar əsas etibarilə məktəbə hazır olmayan və təhsildə nailiyyət qazanmadığı üçün təhsil fəaliyyətinə marağını itirmiş uşaqlardır.

Təhsilin formalaşmış üsulları, adətən, kiçik yaşlı məktəblilərdə dərsdə geriqalmanın səbəbinə çevrilir.

Belə səbəblər təhsilin ilk vaxtlarında məktəbə uşağın hazırlıqsız olmasından, ailə tərbiyəsinin düzgün olmamasından da yarana bilər. "Pedaqoji cəhətdən atılmış" uşaqlarla birinci sinfə gəlməzdən qabaq az məşğul olunub. Onlar gərəkli bilik və bacarıqları qazanmayıblar, pis oxuyur və sayırlar, bəzən isə ümumiyyətlə bunu bacarmırlar. Belə uşaqlar, adətən, onlara az diqqət yetirilən uğursuz ailələrdə tərbiyə alırlar. Ən ağır vəziyyət isə uşaq bağçasına getməyib nənə və ya valideynlərin hər hansı birinin yanında qalıb diqqət və nəvazişdən kənarda qalan uşaqlarda olur.

Uşaq bağçasına getmiş uşaqlarda isə vəziyyət daha qənaətbəxşdir; onlar daha çox bilik əldə edib və müəyyən bacarıqlara malik olurlar. Onların məktəbə hazırlıq səviyyəsi uşaq bağçasındakı hazırlığın keyfiyyətindən asılıdır.

Eyni zamanda izafi qayğı, uşağın sağlamlığı haqqında daim narahat olmaq onun ərköyün, tənbəl olması və məktəbə hazır olmaması ilə nəticələnir. "Ailənin kumiri" prinsipi ilə böyüdülən sağlam uşaqlarda belə heç bir şeyə cəhd etməmək kimi effekt müşahidə edilir. Məktəbə pedaqoji hazırlıqsızlıq adətən birinci sinif şagirdlərində şəxsi (motivasion) hazırlıqsızlıqda əlaqələnir. Məlumdur ki, pedaqoji cəhətdən atılmış uşaqlar normal intellektual inkişafa, hətta bəzi sahələrdə kifayət qədər yüksək potensial qabiliyyətə malik olurlar. Lakin zəruri baza (bilik, bacarıq, vərdiş) olmadığından onlar özlərinin güclü tərəflərini göstərə bilmir və qabiliyyətsiz uşaq təəsüratı yaradırlar. Onlar üçün təhsil fəaliyyətini təşkil etmək, müvəffəqiyyət əldə etmək nisbətən asandır. Belə şagirdlər müəlliminin köməyini qəbul edir və onların tapşırıqlarını asanlıqla öyrənirlər. Əgər pedaqoji atılmışlıq psixi inkişafın ləngiməsi ilə eyni vaxtda rast gəlinərsə, bu vaxt xüsusi təhsil şərtləri lazımdır.

Bəzən məktəbdə geriqalmanın mühüm səbəbi görmə və pis eşitmədə qüsurların olması, xəstə uşağın somatik zəifliyi, eləcə də astenik vəziyyət çıxış edə bilər. Psixofizioloji inkişafın bəzi xüsusiyyətləri, məsələn, solaxaylıq birbaşa geri qalmaya səbəb olmur, lakin bəzən buna şərait yaradır .

Təhsildə geri qalan və zəif oxuyan məktəblilərin təfəkkür prosesinin inkişaf spesifikası N.A.Meçinskinin, Z.U.Kalmikarovanın və başqalarının çoxillik zəhmətinin nəticəsində öyrənilib. Həmin tədqiqatların nəticəsindən aydın olur ki, bu uşaqlar üçün təfəkkür prosesində dərketmənin aktivliyi, L.S.Slavinanın sözləri ilə desək "intellektual passivlik" aşağıdır. Onlar öz davranışlarında vərdiş olunmuş fəaliyyət üsullarına üstünlük verirlər, intellektual qüvvə tələb edən məsələlərdən qaçırlar. Onların fəaliyyətində çox tez-tez çətin məsələnin asanı ilə əvəz olunması baş verir ki, bu da təhsildə uğursuzluqdan yayınmağa imkan verir. Nəticədə aşağı qiymət almaq, müəllim və valideynlər tərəfindən cəzalandırılmadan da yayınmaq mümkün olur.

Şagird sistematik olaraq, aktiv əqli fəaliyyətdən yayınaraq öz inkişafı üçün yararsız şərtlərlə üzləşir. Əgər o, məktəbə qəbul olunarkən yaşıdlarına nisbətən aşağı intellektual inkişafa malik idirsə, ibtidai siniflərdə təhsil alarkən bu, nəinki azalmayacaq, hətta artacaqdır. Təhsil fəaliyyətinə tam və mütəmadi şəkildə qoşulmamaq əqli əməliyyatların formalaşmasında mənfi rol oynayır.

Tədqiqatlar göstərir ki, intellektual aktivliyin az olması hafizənin inkişafına da mənfi təsir göstərir.

Eksperimentlər nəticəsində aydın olmuşdur ki, təhsildə çətinlik çəkən şagirdlərdə bəzən dərketmə prosesində ciddi kənara çıxmalar olmur. Uşaqlar öz həyat təcrübələrinə uyğun olan mətnləri yaxşı yadda saxlayırlar. Lakin daha ciddi əqli iş tələb edən mətnlərin yaddasaxlanması zamanı göstəricilər kəskin surətdə aşağı düşür. Beləliklə, təhsildə geri qalan şagirdlərdə məntiqi və vasitəli hafizənin zəif inkişaf etdiyi aydın olur. Belə şagirdlər müvafiq olaraq yaddasaxlamanın və mexaniki əzbərləmənin nisbətən asan üsullarından istifadə edirlər.

Təlimdə geri qalan şagirdlərdə ciddi yaddaş pozuntusu da qeydə alınmayıb. Onların tez-tez fikirlərinin yayınmasına baxmayaraq, eksperiment zamanı geri qalan şagirdlər korrektor tapşırıqları heç də həmyaşıdaşlarından zəif yerinə yetirmirlər. Xüsusi şərtlər daxilində, qüvvətli motivasiya (xüsusi tapşırığı yerinə yetirmək) və məhdudiyyətsiz vaxt daxilində onlar diqqətlərini toplaya bilirlər. Vaxt məhdudiyyəti olduqda isə çoxlu səhvə yol verirlər.

Görkəmli tədqiqatçı V.İ.Huborski və onun əməkdaşları tərəfindən inkişafın ləngiməsi zamanı əsas təfəkkür proseslərinin özünəməxsus xüsusiyyətlərinin öyrənilməsinə həsr olunmuş tədqiqatlar göstərir ki, psixi inkişafı ləngiyən uşaqlara sensor informasiyanı qəbul etmək və araşdırmaq üçün, normal inkişaf tempi olan uşaqlara nisbətən daha çox vaxt tələb olunur. Onlarda diqqətin davamlılığı, sabitliyi aşağı olur və fikirləri çox asanlıqla yayınır, fəaliyyətin müvəffəqiyyətt dərəcəsi aşağı düşür. Onlarda nəinki mənalı, eləcə də mexaniki hafizə kifayət qədər məhsuldar deyil. Şifahi məntiq tələb edən məsələlərin həlli belə uşaqlara çətinlik törətsə də, tanış, "konkret" tərkibə malik məsələlərin həlli çox asan başa gəlir. Belə uşaqların əyani fəaliyyətlə bağlı olan təfəkkürü daha çox inkişaf edib. Nitqin inkişafı həmyaşıdlarından geri qalır; lüğəti ehtiyatı zəifdir,

anlayışları, adətən, dəqiq deyil, bəzən isə səhvdir. Çox zaman onlarda intellektual fəallıq aşağıdır, impulsivdirlər, emosional sabit deyillər.

İstifadə edilmiş ədəbiyyat

1. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2000.
2. Qədirov Ə.Ə., İ.N.Məmmədov . "Yaş psixologiyası". Bakı: Maarif, 1986.
3. Quliyev E.M. Kiçik məktəblilərdə idrak fəaliyyətinin inkişaf xüsusiyyətləri. Bakı, ADPU, 1995.
4. Mehdizadə Z.M. "Uşaq psixologiyası" I hissə, Bakı, APİ 1982.
5. Mehdizadə Z.M. "Uşaq psixologiyası" II hissə, Bakı, APİ 1982.
6. Mehdizadə Z.M. "Uşaq psixologiyası". III hissə, Bakı, APİ 1982.
7. Muxina V.S. Psixoloqiə doşkolğnika. M., Prosvehenie 1975.
8. Muxina V.S. Detskaə psixoloqiə. M., Prosvehenie 1985.
9. Nemov R.S Psixoloqiə (kniqa 2). M., Vlados, 1999.
10. Nemov R.S Psixoloqiə M., Prosvehenie, 1990.

UOT 159.9

NİZAMİ GƏNCƏVİ İRSİNDƏ PSİXOLOJİ GÖRÜŞLƏRİN TƏDQİQİ

Zümrüd Soltan qızı Cavadova
psixologiya üzrə fəlsəfə doktoru, dosent
Gəncə Dövlət Universiteti
cavadova-zumrud@mail.ru

Orta əsrlərdə Azərbaycan fəlsəfi-psixoloji fikir tarixinin intibah dövrü böyük Nizaminin adı ilə bağlıdır.

Azərbaycan fəlsəfi tarixçilərinin qeyd etdikləri kimi, "XII əsrdə bəşər mədəniyyəti xəzinəsinə parlaq töhfələr bəxş etmiş ən böyük sənətkar Nizami Gəncəvidir".

Nizaminin yaradıcılığı orta əsrlərdə Şərq ədəbiyyatşünaslığı və şərqşünaslığında həmişə aktual olmuşdur. XIX yüzilliklərdə Avropa şərqşünaslığında Nizaminin yaradıcılığına dissertasiyalar həsr olunsa da [M.İbrahimov, 1982, s. 13], Nizamişünaslıq önəmli-elmi istiqamət kimi XX əsrdə formalaşmışdır. Belə ki, Nizami Gəncəvinin psixoloq kimi ilk dəfə şərqşünaslar kəşv etmişdilər. Bu tədqiqatlarda "Xəmsə"nin poetikası açıqlanmış və Nizami psixoloji təhlilin böyük ustadı kimi vəsv olunmuşdur. Bu baxımdan akademik Y.E.Bertelsin fikirləri diqqət çəkəndir, o yazırdı: "Nizaminin psixologiyanı nə qədər dərindən bildiyinə heyrət etməmək olmur"..., "Psixoloji təhlili yeni element kimi Şərq ədəbiyyatına məhz Nizami gətirmişdir və ondan əvvəlki poeziyada belə bir əlamətə rast gəlmək mümkün deyildir."

E.Fromm isə yazır: "Nizami cəmiyyətdən danışanda filosofdur, insanlardan danışanda psixoloqdur."

"Nizami hansı obrazı görürsə, onun psixoloji aləmini ictimai vəziyyətinə, yaşına tamamilə uyğun şəkildə bütün incəlikləri ilə açır. Bu obraz istər Sasani tacını başında gəzdirən zadəkan, istər zəhmətkeş Fərhad, istərsə də ərəb gənci Məcnun olsun. Nizami bütün bunları dediyimiz incəliklə təsvir edir..." [M.İbrahimov, 1982, s.13].

Nizaminin fəlsəfi-psixoloji görüşləri müxtəlif aspektlərdə öyrənilmiş və təhlil olunmuşdur.

Nizami dövrün fəlsəfi-psixoloji fikirindən yaradıcılıqla bəhrələnmiş, onları intibah meyarları ilə dahiyanə sürətdə inkişaf etdirmiş, öz dövrünün böyük nəaliyəti olan təkrar olunmaz fəlsəfi-psixoloji sistem yaratmışdır. Bu bənzərsiz fəlsəfi-psixoloji fikir Azərbaycan mədəniyyəti hadisəsi

kimi öz ana kökləri ilə Azərbaycan gerçəkliyi idi. Onun insan konsepsiyası mahiyyətcə orijinal olduğundan XII əsr psixologiyasının böyük nailiyyəti kimi diqqəti cəlb edir.

Azərbaycanda psixoloji fikir tarixi çox qədim və zəngindi. Psixoloji fikrin ilk qaynaqları bilavaistə şifahi xalq ədəbiyyatı nümunələrində, xalq dastanlarında, nağıllarda, yazılı abidələrdə, tapmaca və hikmətli ifadələrdə, dini təsəvvürlərdə öz əksini tapmışdır.

Daha böyük zaman kəsiminə baxdıqda "fəlsəfi fikrin ağırlıq mərkəzi əvvəl Şərqdə, Qədim Şumer, Çin və Hindistanda, qədim Elladada, daha sonra isə müsəlman Şərqində qərarlaşmış və ancaq Renessans dövründə Qərbi Avropaya keçmişdir...".

Nizami Gəncəvinin psixoloji konsepsiyası dünya psixoloji fikir tarixində önəmli hadisə idi.

XII əsr Azərbaycanda renessans dövrüdür və bu dövrün uğurları böyük Nizami Gəncəvinin adı ilə bağlıdır. "Xəmsə" dünya ədəbiyyatı və mədəniyyətinin əzəmətli abidəsidir.

"Xəmsə"nin poetikası sahəsində fundamental tədqiqatlar aparılmışdır (A.Azadə, H.Araslı, Ə.Abbasov, Q.Beqdeli, Y.E.Bertels, M.Quluzadə, Q.Y.Əliyev, R.Əliyev, N.E.Krımski, Məmməd Cəfər, X.Hüseynov və b.). "Xəmsə"nin psixoloji təhlili üçün bu tədiqatlar önəmli mənbə kimi dəyərlidir.

Psixologiya tarixən qədim elmdir. Onun kökləri antik dövrlərlə bağlıdır. Lakin XIX əsrin sonlarında müstəqil bir elm kimi formalaşana qədər psixologiya fəlsəfi elm sayılmış və fəlsəfi elmlər sistemində formalaşmışdır. Nizamini filosof kimi öyrənən alimlər bu cəhəti nəzərə almamışlar, hətta onun psixoloji fikirlərini də bəzən sırf fəlsəfi fikir kimi tədqiq etmişlər.

Nizami irsinə mürəciət etmiş müəlliflər onun ensklopedik düha sahibi olduğunu heyrətlə qeyd ediblər.

Azərbaycan fəlsəfəsi tarixçiləri Nizaminin fəlsəfəsində böyük mütəfəkkirin psixoloji görüşlərini öyrənmək üçün xüsusi əhəmiyyətə malik olan aşağıdakı müddəaları ayırd edirlər .

1. Nizaminin fikrincə insan xilqətdən şərəfli yarandığı üçün zəngin mənəviyyatlı, böyük amallar yolçusu olmalıdır. İnsan təbiətində humanist cəhətlər, meyllər bilavasitə başqalarına münasibətdə özünü büruzə verir.
2. Nizami Gəncəvinin idrak haqqında düşüncələri geniş mündəricəli olub, o dövrün elmi-fəlsəfi fikrinə uyğundur.
3. Orta əsrlərin ideologiyasına uyğun olaraq Nizaminin əsərlərində idrak obyekti insanın özü, mövcud şeylər aləmi və Allahdır. Bütün bunlar bir-birindən təcrid edilmiş deyil, müəyyən münasibətdə, əlaqəli şəkildə nəzərdən keçirilmişdir.
4. Mühakimələr, əqli fəaliyyət və düşüncələr hissi müşahidələrdən əldə edilmiş biliklər üzərində yüksəlir.
5. Nizami göstərirdi ki, ağlın (düşüncənin) idrak imkanı maddi aləmdən kənara çıxmır.

Nizami psixoloq kimi bənzərsizdir.

Azərbaycanda Nizami Gəncəvinin psixoloji görüşlərinin tədqiqi tarixi ikinci dünya müharibəsindən sonrakı dövrə təsadüf edir.

Görkəmli Azərbaycan psixoloqu M.R.Abbasov namizədlik dissertasiyasında [Bakı, 1948] "Nizaminin psixoloji görüşləri" adlı dissertasiya işində ümumi psixologiya, tibbi psixologiya, eləcə də hərbi psixologiya məsələləri araşdırılmışdır. Dissertasiya işində pedaqoji psoixologiyanın bəzi ümumi məsələləri də aird edilmiş, Nizami şəxsiyyətinin formalaşmasında təlim-tərbiyənin rolu, irsiyyət və fatalizm haqqında fikirləri nəzərdən keçirilmiçdir.

1989-cu ildə Nizaminin psixoloji görüşlərinin öyrənilməsi sahəsində ikinci mərhələ başlayır. Bu mərhələ bilavasitə prof. Ə.Bayramovun adı ilə bağlıdır.

1990-cı illərin əvvələrində Ə.S.Bayramov Nizaminin yaradıcılığında etnopsixoloji məsələləri bu baxımdan ətraflı təhlil etmiş, insan psixikasının milli kökləri haqqında mütəfəkkir şairin bənzərsiz fikirlərini açıqlamışdır.

1994-cü ildə isə Ə.S.Bayramovun Nizami Gəncəvi əsərlərində şəxsiyyət və liderlik probleminə həsr olunmuş yeni sanballı tədqiqatı nəşr olundu. Bu araşdırmanın elmi əhəmiyyəti ilk

növbədə ondadır ki, burada Nizami yaradıcılığında şəxsiyyət problemini qoyuluşuna dair konseptual mövqe öz əksini tapmışdır ...

Ə.S.Bayramovun Nizaminin şəxsiyyət konsepsiyasında aşağıdakı önəmli xüsusiyyətləri müəyyənləşdirmişdir:

a) Nizami Gəncəvi öz əsərlərində şəxsiyyətin inteqral mənəvi keyfiyyətlərinə xüsusi yer verir;

b) onun simasında ən nəcib ali bəşəri hissələr ön plana çəkilir;

v) şəxsiyyətin münasibətlər sistemində humanizmi, onun yüksək intellektə, ağıl və zəkaya malik olması və müdrikliyi yüksək qiymətləndirilir;

d) şəxsiyyətin özünü dərketməsi, özünü təkmilləşdirmə və kamiliyyə cəhd etməsi ön plana çəkilir;

j) idarəetmə və rəhbərlik işində şəxsiyyətin yüksək əxlaqi keyfiyyətlərini, onun zəka və müdrikliyə istinad etməsini əsas sayır.

z) şəxsiyyətin lider səviyyəsinə yüksəlməsinin dərin psixoloji dəyişikliklər sayəsində baş verməsini qeyd edir;

e) liderin öz intelektual və mənəvi keyfiyyətləri, yüksək sosial fəallığı, bacarıq və qabiliyyətləri, nəcib insani keyfiyyətləri və müdrikliyi ilə etalon səviyyəsinə yüksəlməsini vacib sayır.

Ə.S.Bayramovun qeyd etdiyi kimi, "... Nizami Gəncəvinin əsərlərində şəxsiyyət probleminin araşdırılması yalnız ədəbi fikir tariximizin qədimliyi və zənginliyi nöqteyi-nəzərindən deyil, həm də "insanın kəşfi", "şəxsiyyət problemlərinin psixoloji təhlili" nöqteyi - nəzərindən də əhəmiyyətlidir".

T.T.Babayeva Nizaminin şəxsiyyət konsepsiyasının öyrənliməsinin konseptual modeli (Ə.S.Bayramov) əsasında Nizami Gəncəvinin yaradıcılığında "şəxsiyyət psixologiyası problemi"ni namizədlik dissertasiyası səviyyəsində tədqiq etmişdir.

Müəllifin fikrincə, Nizami şəxsiyyətin təşəkkülü və inkişafında təbii-irsi amillərin, təlim və tərbiyənin rolunu qeyd etsə də, fərdin şəxsiyyətə çevrilməsi prosesində onun sosiallaşmasına, ictimai münasibətlər sisteminə qoşulmasına və özünü tərbiyəyə başlıca əhəmiyyət vermişdir.

Nizaminin yubileyi ərəfəsində Ə.Əhmədovun "Nizami – elmşünas" adlı kitabı nəşr olunmuşdur. Müəllif yazır ki, Nizaminin əsərlərində müxtəlif elm sahələrinə aid məlumata rast gəlirik. "Onların bəzisi müstəqil elmi məsələ səviyyəsinə qədər genişlənir və mütəfəkkir şairin bu sahədəki bilik dərəcəsini aydın surətdə əks etdirir. Kitabda Nizamiyə təkcə təbiətşünas, həndəsəşünas, aləmşünas (kosmoloq), elmşünas (etnoqraf), islamşünas və s. kimi deyil, həm də rəvənşünas (psixoloq) kimi müraciət olunmuş və onun bu barədə fikirləri nəzərdən keçirilmişdir. Nizamişünaslıqda bu öz-özlüyündə əlamətdar hadisədir. Müəllifin bəzi müşahidələri öz-özlüyündə maraqlı olsa da, kitabın müvafiq fəslində əsasən Nizaminin insanın mənəvi keyfiyyətləri barəsində fikirləri açıqlanır.

Ə.S.Bayramov və Ə.Ə.Əlizadə "Sosial psixologiyanın aktual məsələləri" kitabında da Nizaminin sosial-psixologiyaya aid fikirlərinə diqqəti cəlb etmişlər. Onlar haqlı olaraq göstərirlər ki, "Nizaminin psixoloji görüşləri" sonrakı dövrlərdə "Azərbaycanda psixoloji fikirlərin inkişafına böyük təsir göstərmişdir" .

Ə.Ə.Əlizadə Nizami Gəncəvinin psixoloji konsepsiyasında "Xəmsə"də yaş və pedaqoji psixologiya məsələlərini təhlil etmişdir.

Yaş və pedaqoji psixologiya önəmli elm sahəsi kimi XIX əsrin sonları XX əsrin əvvələrində formalaşıb. Azərbaycan psixologiyasında isə artıq XII əsrdə böyük Nizami Gəncəvinin yaradıcılığında yaş və pedaqoji psixologiyanın bənzərsiz sistemi formalaşmışdır.

N.Gəncəvinin şəxsiyyət konsepsiyasının təhlili kökündə yaş xüsusiyyətləri, ata oğul münasibətləri, ata nəsihətləri kimi problemlər nəzərdən keçirilir, qadın psixologiyası və qız tərbiyəsinin xüsusiyyətləri gender psixologiyasının önəmli qaynaqları kimi araşdırılır və açıqlanır.

90-cı illərdə psixoloji nizamişünaslığın müəyyən səhifələri ADPU-nun Psixologiya kafedrasında yazılıb. Ümumi psixologiya kafedrasında "Yeddi gözəl"də "rənglərin psixosemantikası"

[Ə.Ə.Əlizadə, 2001] öyrənilməyə başlanmış, Nizami Gəncəvinin psixoloji görüşləri sistemli tədqiq olunmuşdur [Z.Şirinova (Cavadova), 2000]. Müəllif "Nizaminin psixoloji görüşləri" adlı tədqiqat işində ilk dəfə olaraq Nizaminin psixi proseslər və xassələr haqqında baxışları elmi-psixoloji aspektə sistemli araşdırılmış, orta əsrlərdə XII əsr Azərbaycan intibah dövründə insanın psixi həyatının fenomenoloji təhlilinin xüsusiyyətlərini müəyyənləşdirmişdir. Psixi proses və xassələrin təhlilində Nizaminin şəxsiyyət konsepsiyasına əsaslanması, onları funksialararası əlaqə konteksində təhlil etməsi XII əsrdə Azərbaycanda psixoloji nəzəriyyənin önəmli məziyyəti kimi qiymətləndirilməlidir. Tədqiqat işində eləcə də Nizaminin psixoloji konsepsiyası araşdırılmış, önəmli psixi fenomenlərin (görmə illuziyaları, Fitnə effekti və s.) dünya psixologiyasında ilk dəfə "Xəmsə"də yaradılmış bədii-psixoloji modelləri açıqlanmışdır.

2016-cı ildə çapdan çıxmış Z.S.Cavadovanın "Nizami Gəncəvinin əsərlərində insanın mənəvi təkamülünün psixoloji konsepsiyası" adlı sanballı monoqrafiyasında Nizami Gəncəvinin əsərlərində insan təkamülünün psixoloji konsepsiyası, funksiyalararası əlaqələr nəzəriyyəsi kontekstində təhlili, insanın mənəvi təkamülünün sosial-psixoloji qanunauyğunluqları Nizami Gəncəvi yaradıcılığında prioritet problem kimi və s. araşdırılmışdır

Respublikamızda "Nizamişünaslıq məktəbi" yaranmış [M.Əlizadə, 1992, s.97] "psixoloji nizamişünaslıq" formalaşmağa başlamış və vüsətlə inkişaf edir. (Ə.S.Bayramov, M.R.Abbasov, Ə.Ə.Əlizadə, T.T.Babayeva, Z.S.Cavadova və s.).

Fikrimizcə, Nizami Gəncəvinin psixoloji aləmi kompleks tədqiqatlara cəlb olunmalı, bu günün reallığına uyğun strukturu tədqiq edilib gənc nəsilə çatdırılmalıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov M. Nizaminin psixoloji görüşləri. Namizədlik dissertasiyası, BDU, 1948, 158 s.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiyanın aktual məsələləri. Bakı, Azər.nəşr,1986, 356 s.
3. Cavadova Z.S. Nizami Gəncəvinin əsərlərində insanın mənəvi təkamülünün psixoloji konsepsiyası. Bakı: Elm və təhsil, 2016, s. 272.
4. Əliyev R. Nizami: dövrü, şəxsiyyəti və təlimi // Nizami Gəncəvi. Bakı, 1993, s.7-17.
5. İbrahimov M. Günəş kimi parlaq // Nizami Gəncəvi. Leyli və Məcnun. Ön söz. Bakı: Yazıçı, 1982, s. 5-24.
6. Nizami Gəncəvinin psixoloji görüşləri: Yaş və pedaqoji psixologiya məsələləri.Bakı, Azərbaycan təhsil problemləri İnstitutunun arxivi, 199, 87s.
7. Şirinova (Cavadova) Z.S. Nizami Gəncəvinin psixoloji görüşləri. Bakı, ADPU-nun nəşriyyatı, 2006.
8. Бертельс Е.Э. Великий Азербайджанский поэт Низами, Эпоха, Жзнь и творчество. Баку, изд.Аз.ФАН, 1940, 148 с.

UOT 81'271; 82.085; 808.5

OXU TEXNİKASINA YİYƏLƏNMƏDƏ İSTİFADƏ OLUNAN METODLAR

Rahilə Mirzəli qızı Məmmədova
filologiya üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
rahile.mammadova@mdu.edu.az

Respublikamızda sağlam uşaqlarla yanaşı, ümumi nitq inkişafından geri qalan, zəif görən kor uşaqlar, zəifeşidən və sonradan karlaşmış uşaqlar, əqli və fiziki cəhətdən zəif inkişaf etmiş uşaqlar

qayğı ilə əhatə olunmuşlar. Anomal uşaqların təhsil və tərbiyəsi ilə orta ümumtəhsil məktəblərində də məşğul olunur.

Zəifeşidən və sonradan karlaşmış uşaqlara dinləməyi, eşitməyi, baxmağı və görməyi öyrətmək son dərəcə vacibdir. Onlarda başqalrına diqqətlə qulaq asmaq, müəllimin və yoldaşlarının dediklərini düzgün eşitmək, müəllimin dediklərinə əməl etmək, eşitdiklərini yadda saxlayıb yerinə yetirmək bacarığı tərbiyə edilməlidir. [5, s.10-18]

Oxu dərslərinin keyfiyyətinin yüksəldilməsi, hər şeydən əvvəl, oxu təliminin tərbiyəedici vəzifələrinin gücləndirilməsindən asılıdır.

Oxu təlimini zəifeşidənlər məktəbində yüksək səviyyədə təşkil etmək üçün müəllim, yalnız ana dili dərslərində deyil, digər fənlərin tədrisində, şagirdlərin sinifdənxaric fəaliyyətində də ona xüsusi diqqət verilməlidir.

İbtidai təlim didaktikasında iki növ təlim metodu fərqləndirilmişdir:

1. İnkişafetdirici metodlar.
2. Doğmatik metodlar.

Doğmatik metodlara əsasən tədris prosesində materialı müəllim özü izah edir.

İnkişafetdirici metodlarla tədris prosesində sual-cavabdan istifadə olunur. Şagirdlər müəyyən problemin həll edilməsi üçün düşünməli, araşdırmalı, öz mövqelərini bildirməli olurlar.

Elmi-kütləvi materiallarda düşünməyi tələb edən mövzunu şagirdlərə çatdırmaq üçün xüsusi metodlardan istifadə olunmalıdır. [3, s.20]

Oxu dərslərinə metodların seçilməsi əsərin janrından da asılı olur.

İbtidai siniflərdə tətbiq edilən ənənəvi təlim metodlarından bir-ikisindən necə istifdə edildiyini nəzərdən keçirək.

Müəllimin şərhi

Materialın müəllim tərəfindən şərhi dedikdə sözün və əyani vəsaitin köməyi ilə müəllimin yeni biliyi tam və ardıcıl şərh etməsi, şagirdlərin həmin materialları qavramaları, mənimsəmələri nəzərdə tutulur. Şərh prosesində müəllim fikrini sübut etmək üçün nümunə gətirir, mühakimə yürüdür, müxtəlif əməliyyatları yerinə yetirir. Müəllimin mühakiməsi inandırıcı olmalı, saf, aydın faktlarla sübut edilməlidir.

Oxu səsli və səsiz olur. Savad təlimi dövründə ilkin oxu vərdişi ucdan oxumaq şəklində şagirdlərə aşılanır. İbtidai siniflərdə ucadan oxumaq texnikasına yiyələnmək təlimin ən mühüm vasitəsi olmaqla oxu vərdişlərinin inkişafı üzrə məşq etməyə imkan verir. Ucadan oxu şagirdlərin fəaliyyətini daim müəllimin (yoldaşlarının) nəzarəti altında saxlanmasın şərait yaradır. Səsiz oxu prosesində şagirdlər fərdi işləməklə təlim tapşırıqlarını müstəqil yerinə yetirdiklərindən məsuliyyətləri artır. Ona görə də zəifeşidənlər məktəbində oxunun bu növü daha əlverişli olmalıdır. Şagirdlər səssiz oxuya alışma prosesində yalnız baxmaqla (gözlə) oxuya bilmir, dodaqaltı tələffüzdən istifadə edirlər. Səssiz oxunun səmərəliliyi mətnin məzmununu nə dərəcədə mənimsənilməsi ilə müəyyən edilir. Oxu vərdişlərinin inkişafı, oxunun keyfiyyəti və şagirdlərin oxu vərdişlərinə necə yiyələnmələrindən asılıdır. İstər səs ilə, istərsə də səssiz oxu aşağıdakı tələblərə cavab verməlidir. [6, s.16]

İbtidai siniflərdə şagirdlərə düzgün, şüurlu, sürətli və ifadəli oxumaq vərdişləri aşılanmalıdır. Aşağı siniflərdə oxunun düzgünlüyü daha çox pozulur. Şagird düzgün oxu vərdişinə yiyələnmə-dikdə sözdə hərf və ya hecaları (güllü əvəzinə gülü, tarixi əvəzinə tarix və s.) ixtisar edir, mənasını yaxşı bilmədiyi sözün tanış sözlə əvəz edilməsi, şagirdin nitq aparatının nöqsanlı olmasından irəli gəlir (arı əvəzinə ayı, beş əvəzinə bes və s.).

İbtidai siniflərdə oxu zamanı çox səhvə yol verilməsinin başlıca səbəbi odur ki, şagird oxu zamanı sözün ayrı-ayrı elementlərinə diqqət yetirmir. Oxu qaydalarını kifayət qədər öyrənməmiş şagird sözü ümumi görünüşünə əssənoxuyur və səhv buraxır.

Düzgün oxu vərdişinin aşılanması üçün səhv oxunan sözlərin oxudulması üzrə iş aparmaq lazımdır. Mənası və hərf tərkibi şagirdlərə yaxşı tanış olmayan bəzi sözləri mətnin oxusundan əvvəl

müəllim yazı taxtasında yazıb əvvəlcə hecalarla, sonra isə bütöv oxutmaıdır. Şagirdlər təkrarən səhvə yol versələr, yerindəcə düzəliş vermək və həmin sözü təkrar oxutmaq lazımdır. Oxu prosesində səhvlərin düzəldilməsinə bütün sinfi cəlb etmək lazımdır. Şagirdləri elə öyrətmək lazımdır ki, oxu prosesində yoldaşlarının oxusunu diqqətlə izləsinlər. Bu zaman onlar düzgün oxumağı və mətnin məzmununu şüurlu başa düşməyi öyrənirlər.

Oxunun şüurluluğu dedikdə oxunan mətnin aydın və dəqiq anlaşılması nəzərdə tutulur. Şüurluluq oxuya verilən ilk və əsas tələbdir. [2,s.36]

Şagird mətində irəli sürülən əsas fikirləri mənimsəyə bilmək üçün ilk növbədə hər söz və cümlənin mənasını anlamalıdır.

Müəllim şüurlu oxu vərdişinin yaxşı təşkilinə fikir verməklə, şagirdin biliyinin artmasına kömək etmiş olar.

Əgər şagird düzgün və sürətli oxumağı bacarırsa, lakin oxuduğunun məzmununu başa düşmürsə, demək o, şüurlu oxumur. Oxunun şüurluluğu və düzgünlüyü arasında qarşılıqlı əlaqə olmalıdır. Müəllim savad təlimi dövründə şagirdin ilk sözü oxumağa başladığı andan oxunun şüurlu olması qayğısına qalmalıdır.

Bəzən cümlədə müəyyən sözlərin şagirdə tanış olmasına baxmayaraq, o, cümlənin mənasını anlamır. Ona görə də müəllim ayrı-ayrı sözlərin deyil, cümlənin mənasını şagirdlərə aydınlaşdırmalıdır.

Əgər şagird sözləri uzadaraq cümləni ağır-ağır oxuyursa, fikrini bir yerə toplaya bilməz və oxuduğunun mənasını anlamaz. Zəifeşidən və sonradan karlaşmış uşaqlar məktəbində müəllim çalışmalıdır ki, III sinifdə şagirdlər oxu zamanı danışıq nitqinin sürətinə yaxınlaşa bilsinlər, sonra isə şagirdlərdən adi sürət yəni, normal səsli oxu tələb olunmalıdır.

İbtidai siniflərdə tədris olunan oxu (şifahi nitq inkişafı, daxili nitq inkişafı, nitq texnikası, tələffüz, dodaqdan oxu) fənni zəifeşidən və karlaşmış uşaqlarda şifahi və yazılı nitq vərdişinin formalaşmasına xidmət edir. [4, s.9]

Oxu texnikası savad təlimi dövründə ilkin vərdiş kimi səsli oxu (ucadan oxu) şəklində verilir. İbtidai siniflərdə səsli oxu zəifeşidən və sonradan karlaşmış uşaqlar üçün böyük əhəmiyyətə malikdir. Oxunun bu növü tələffüz və oxu texnikası üzrə məşq etməyə, nitqin inkişafına imkan yaradır. Zəif, nitqi nöqsanlı uşaqların oxu fəaliyyəti səsli oxu ilə qaydaya salınır. Səsli oxu bədii əsərlərin rollar üzrə oxunmasına imkan verir.

Səsli oxu üzrə məşqlər II sinifdən sürətlənməyə başlayır, zəifeşidən və sonradan karlaşmış şagirdlər tədricən səssiz oxuya alışırlar. Bu zaman tələffüz, nitq, hərəki proses baş vermir, lakin gözlərin və dodaqların hərəkəti ilə oxunun sürəti artır. Səssiz oxu zəifeşidən şagirdlərin diqqətini əsərin məzmununa yönəltmək üçün şərait yaradır.Səssiz oxu hər kəsin müstəqil işləməsinə imkan verir; məsələn, şagirdlər müəllimin tapşırığı ilə mətndə qəhrəmana aid verilən hissəni, soz və ifadələri, seçmə oxu üçün özləri səssiz seçirlər. Zəifeşidən və sonradan karlaşmış uşaqların sözləri düzgün və aydın tələffüz etmələri üçün ən yaxşı vasitədir. Xorla oxu zamanı müəllim mətni oxuyur, şagirdlər onun dodaq hərəkətlərinə fikir verib, özləri də dodaqlarını müəllimin hərəkətlərinə uyğunlaşdırırlar. Xorla oxunun üstün cəhəti ondan ibatətdir ki, bu zaman şagirdlər ucadan oxumaq üzrə məşq edirlər Xorla oxu zəifeşidən və sonradan karlaşmış uşaqlar məktəbinin I-II siniflərində üstünlük təşkil etməlidir.

Zəifeşidən və sonradan karlaşmış uşaqlar məktəbinin II sinfində zəruri hallarda xorla oxu növündən istifadə etmək mümkündür. Zəifeşidən uşaqlar məktəbinin ibtidai siniflərində rollar üzrə oxudan az istifadə edilir.

Zəifeşidən və sonradan karlaşmış uşaqlar məktəbində səssiz oxu texnikasının formalaşması yolları şagirdlərə öyrədilməlidir. [5, s.23]

Tərcrübə göstərir ki, səssiz oxu çox yavaş inkişaf etdiyindən hər bir dərsdə uşaqlara əsərin səssiz oxunması, məzmununa aid sual-cavab, məzmunun qısa nəql edilməsi üzrə rəngarəng çalışmaların yerinə yetirilməsi mümkündür. Səssiz oxu prosesində şagirdlər fərdi işləməklə, təlim

tapşırığını müstəqil yerinə yetirdiklərindən onların məsulliyyəti artır. Zəifeşidənlər məktəbində oxunun bu növü daha əlverişlidir. Bəzən, dərs zamanı şagirdlərin səssiz oxumaları tələb olunur. Bu zaman şagirdin biri mətni daktil əl işarəsi ilə oxumağa başlayır, o biri uşaqlar onun əl hərəkətlərini izləyib nöqsanları hiss edirlər. Həmin sözlər dərhal yazı taxtasında yazılır. Şagirdlər düzgün oxumağa diqqət yetirir və sözləri bir neçə dəfə təkrar etdikdən sonra düzgün işlədə bilirlər.

Oxunun düzgün, normal təşkili şagirdlərin sonralar oxu texnikasına mükəmməl yiyələnmələrində, onların şifahi nitqinin inkişafında böyük əhəmiyyəti vardır. Zəifeşidən və sonradan karlaşmış uşaqlarla işləyən müəllimlər bu mühüm vəzifənin həyata keçirilməsi üçün işin səmərəli yollarını araşdırmalı və öz işlərində yaradıcı fəaliyyət göstərməlidirlər.

İstifadə edilmiş ədəbiyyat

1. Sadıqov F.B. Uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin elmi – pedaqoji əsasları. Bakı, Sabah, 1994.
2. Kazımov N.M. Şagirdlərdə yeni biliyə maraq yaradılması yolları. Bakı: Maarif, 1996.
3. Qasımov S. Ə. Əhmədova A.H. Paşayeva B.Ə. Zəifeşidən uşaqların tələffüzü üzərində işin təşkili yolları. Bakı: Maarif, 1996, 80 s.
4. Qasımov S.Ə. Ana dilinin mənimsəmələrinin xüsusiyyətləri. Bakı: Maarif, 1999.
5. Qasımov S. Ə. Xüsusi məktəblərdə anomal uşaqların nitq inkişafı. Bakı: Maarif, 1990.
6. Qasımov S. Ə. Xüsusi məktəblərdə ana dilinin metodikası. Bakı: Çaşıqoölu, 2002.

УДК 354:378.1

ДИСТАНЦІЙНА ОСВІТА: НЕДОЛІКИ ТА ПЕРЕВАГИ

[1,2]Тетяна Володимирівна Ковальова, [1,3]Павло Анатолійович Ковальов
[1]кандидат економічних нау., доцент
[2]Харківський національний автомобільно-дорожній університет
Україна
kovaleva64@ukr.net
[3]Національний університет цивільного захисту України
Україна
kovalev10121963@ ukr.net

Комп’ютерні і телекомунікаційні технології дали поштовх до появи дистанційної форми навчання. Ця форма навчання пройшла довгий шлях від використання друкованих матеріалів (використання пошти в якості доставки цих матеріалів) до застосування новітніх комп’ютерних та медіа технологій. Вагомими причинами появи дистанційної освіти були: боротьба з неграмотністю в країнах, що не мають можливості отримувати освіту очно; необхідність насичення ринку праці кадрами, які необхідні для зростання економіки; збагачення навчальних програм у навчальних закладах, що використовують нетрадиційні методи проведення занять.

Ярослав Жукровський, який є юристом за фахом, розрізняє поняття дистанційна освіта і дистанційне навчання. Дистанційна освіта, це свідомий вибір здобувачем отримання знань, дистанційне навчання - це вимушений захід, пов'язаний з неможливістю відвідувати заняття у зв’язку з пандемією або наприклад природними або техногенними негараздами [1]. Дослідження проведені Іванюк І.В., дають нам можливість зрозуміти наступне: дистанційне навчання робить акцент на учня, і це особливо доречно, коли студенти беруть на себе велику відповідальність за своє навчання, яке відбувається на відстані. Термін також означає

очікувані результати дистанційної освіти [2]. Положення про дистанційне навчання, прийняте Міністерством освіти і науки України, трактує дистанційне навчання, як індивідуалізований процес набуття знань, умінь, навичок і способів пізнавальної діяльності людини, який відбувається в основному за опосередкованої взаємодії віддалених один від одного учасників навчального процесу у спеціалізованому середовищі, яке функціонує на базі сучасних психолого-педагогічних та інформаційно-комунікаційних технологій [3]. До завдань з цієї форми навчання відносять:

- здобуття освіти у відповідності з конституційним правом кожного громадянина України;
- підвищення кваліфікації;
- дотриманням усіх прав і свобод під час навчання.

У вищих навчальних закладах навчання за цією формою навчання можна здійснювати у наступних формах::

- навчальні заняття;
- виконання проектних завдань;
- практична підготовка;
- контрольні заходи.

До недоліків, які виникають при дистанційній освіті Т.В.Коханська, Н.В.Ключникова відносять невирішені питання проведення контролю знань студентів; доступ до глобальних бібліотек, баз даних найбільших університетів, жива робота з викладачами й іншими слухачами, здача іспитів у режимі "онлайн", цифрове відео - поки що так і залишаються проблемами [4]. Труднощі дистанційного навчання вивчали А.А.Олешко, О.В.Ровнягін та В.Р.Годз, вони звернули увагу на відсутність «живого» контакту між викладачем і студентом; недостатнє технічне забезпечення освітнього процесу; недостатній рівень володіння учасниками освітнього процесу засобами інформаційних і комунікаційних технологій; ризик проявів академічної недоброчесності; ризик необ’єктивного оцінювання студентів; відсутність досконало розроблених он-лайн курсів; ризик використання он-лайн курсів сумнівної якості в умовах екстреного розроблення матеріалу та неможливості повноцінного його обговорення на засіданні кафедри [5]. До інших недоліків відносять: необхідність у сильній мотивації навчатись; втрата інтересу до навчання; відсутність комунікабельності, впевненості та навичок роботи у команді [6]. Леся Лимар [7] говорячи про недоліки, відзначила абсолютну залежність організації процесу навчання від стану мережі інтернет та технічних засобів; психологічну неготовність студентів і викладачів до такого формату занять; низький рівень інформаційно-технічної освіти викладачів; наявне негативне ставлення до дистанційного навчання як такого, що не забезпечує належний рівень освіти.

Ми вважаємо, що серед значної кількості недоліків слід виділити основні, які на наш погляд значно знижують значимість цієї форми навчання це: недостатність технічного забезпечення; психологічна неготовність суб’єктів до такої форми навчання; поява академічної недоброченсості; відсутність комунікабельності, впевненості та навичок роботи у команді.

Позитивних сторін цієї форми освіти названо дослідниками багато і вони значно перевищують недоліки. Розглянемо ці сторони, спираючись на здобутки науковців. Усі науковці відзначають, що цей рівень освіти об’єднує здобувачів, які знаходяться в різних точках планети. За її допомогою можна покращити контроль знань після кожного пройденого курсу.

Ця освіта набагато дешевша за інші види. Найбільше переваг цієї освіти вказала В.М.Прибилова:

- дистанційна освіта формує глобальний (національний, регіональний, міський, локальний), принципово новий освітній простір;
- можливість займатися в зручний для себе час у зручному місці й темпі, нерегламентований відрізок часу для освоєння дисципліни;
- паралельне із професійною діяльністю навчання, тобто без відриву від виробництва; можливість звертання до багатьох джерел навчальної інформації (електронних бібліотек, банків даних, баз знань тощо);
- спілкування через мережу Інтернет і за допомогою електронної пошти, один з одним і з викладачами;
- сконцентроване подання навчальної інформації та мультидоступ до неї підвищує ефективність засвоєння матеріалу;
- при дистанційному навчанні у кожного студента є можливість витратити більше зусиль і часу на складні та важливі для нього теми з метою поглибленого опрацювання;
- використання в освітньому процесі новітніх досягнень інформаційних і телекомунікаційних технологій, що також дає змогу навчати роботі з ними; рівні можливості одержання освіти – незалежно від місця проживання, стану здоров’я, елітарності й матеріальної забезпеченості студента;
- дистанційне навчання допомагає оминути психологічні бар’єри, пов’язані з комунікативними якостями людини, – наприклад, соромливістю, страхом публічних виступів та ін.; експорт та імпорт світових досягнень на ринку освітніх послуг;
- дистанційне навчання розширює та оновлює роль викладача, який повинен координувати пізнавальний процес, постійно вдосконалювати свої курси, підвищувати творчу активність і кваліфікацію відповідно до нововведень та інновацій;
- дистанційна освіта позитивно впливає на студента, збільшуючи його творчий та інтелектуальний потенціал за рахунок самоорганізації, прагнення до знань, уміння володіти комп’ютерною технікою і самостійно приймати відповідальні рішення;
- якість дистанційної освіти не поступається в ідеалі якості очної форми одержання освіти, а поліпшується за рахунок залучення кадрового (професорсько-викладацького) складу найвищої кваліфікації і використання в навчальному процесі найкращих навчально-методичних видань та контролюючих тестів з дисциплін [8].

Підводячи підсумок, слід відзначити зростання ролі дистанційного навчання, оскільки, воно має змогу задовольнити високі потреби сучасності у отриманні цифрової грамотності, поширенні інноваційних, більш гнучких форм навчання. Наявність недоліків свідчить про необхідність подальшого їх вивчення та пошуку шляхів їх подолання.

Використана література

1. Дистанційне навчання і дистанційна форма здобуття освіти – це не одне і теж. URL: https://radiopershe.com/news/dystantsiyne-navchannia-i-dystantsiyna-forma-zdobuttia-osvity-tse-ne-odne-i-tezh.
2. Іванюк І.В. Формування понятійно-термінологічного апарату з питань розвитку дистанційної освіти. URL: https://core.ac.uk/download/pdf/14343034.pdf.
3. Положення про дистанційне навчання: Наказ Міністерства освіти і науки України від 25.04.2013 № 466. URL: https://zakon.rada.gov.ua/laws/show/z0703-13#Text.
4. Коханська Т.В., Ключникова Н.В. Переваги та недоліки дистанційної освіти в умовах розвитку інформаційних технологій та телекомунікацій. URL: https://core.ac.uk/download/pdf/48405756.pdf.
5. Олешко А.А., Ровнягін О.В., Годз В.Р. Удосконалення дистанційного навчання у вищій освіті в умовах пандемічних обмежень. URL: http://www.dy.nayka.com.ua/pdf/1_2021/5.pdf.

6. Пройдакова Ж.Т. Переваги та недоліки дистанційного навчання. URL: https://naurok.com.ua/perevagi-ta-nedoliki-distanciynogo-navchannya-255316.html.

7. Лимар Л. Основні переваги та недоліки дистанційного навчання іноземних мов у немовному закладі вищої освіти

URL: https://uej.undip.org.ua/index.php/journal/article/view/583/513.

8. Прибилова В.М. Проблеми та переваги дистанційного навчання у вищих навчальних закладах України.

URL: file:///C:/Users/Professional/Downloads/8791-%D0%A2%D0%B5%D0%BA%D1%81%D1%82%20%D1%81%D1%82%D0%B0%D1%82%D1%82%D1%96-17478-1-10-20170726%20(1).pdf.

УДК 811.161.3’276.6:630

КЛАССИФИКАЦИЯ БЕЛОРУССКИХ МОНОЛЕКСЕМНЫХ ТЕРМИНОВ ЛЕСНОГО ХОЗЯЙСТВА И ЛЕСНОЙ ПРОМЫШЛЕННОСТИ ПО ЧАСТЕРЕЧНОЙ ПРИНАДЛЕЖНОСТИ

Ольга Владимировна Русак
кандидат филологических наук, доцент
Белорусский государственный технологических университет
Республика Беларусь
rusakolga@tut.by

Любая терминология состоит из определенного количества формальных элементов, которые соединяются в постоянные комбинации с целью номинации неограниченного количества специальных понятий. Знаменитая идея Джона Лайонза о том, что «языковая система не просто обладает структурой – она и есть структура» [5, с. 60], подчеркивает важность структурного подхода при анализе терминосистемы. Структура, как заметила М.Д.Степанова, не имеет случайного характера, так как всегда связана с системной организацией языка [7, с. 11]. Кроме того, структурная организация терминов изоморфна структуре логических связей между понятиями специальной отрасли знаний или деятельности [3, с. 10].

Понятие структуры термина характеризует внешнюю форму, т. е. количество и частеречную принадлежность компонентов, их порядок и способ расположения, тип синтаксической модели [1, с. 8]. Специфика понятий, обозначенных терминами, заключается в том, что они не утрачивают своей целостности независимо от того, какими (простыми или составными) средствами передается их содержание [6, с. 374]. Формальные границы термина находятся в прямой зависимости от содержательных границ терминированного понятия, а потому структурные типы терминологических названий не совпадают с единицами номинаций в общелитературном языке.

В современном языкознании четко обозначилась тенденция включения в состав терминологии различных частей речи. По наблюдениям ученых, существуют два обстоятельства, которые не позволяют признать существительные единственным лексико-грамматическим средством терминологии: номинация является носителем не всех смыслов в познании действительности, существительное не является исчерпывающим средством передачи признаков качества, действия, обстоятельства, содержащихся в некоторых научных понятиях [6, с. 375]. Включение в состав терминологии не только существительных, но и

глаголов, прилагательных, наречий позволяет выявить особенности образования и функционирования именных, адъективных, глагольных, адвербиальных терминов, определить их словообразовательные возможности в качестве производных основ при создании терминологических словообразовательных гнезд.

Придерживаясь этого направления, мы выделяем в сфере функционирования белорусской лесохозяйственной и лесопромышленной терминологии не только термины-существительные, но и термины-глаголы, термины-прилагательные, термины-причастия.

Термины-существительные (термины-субстантивы) в анализируемой области составляют подавляющее большинство: *вяршыня*, *дошка*, *гніенне*, *засмолак*, *свердзел*, *імшыстасць*, *ядловец*, *бюкса*, *гідроліз*, *дэндрарый*, *рэлікт*, *балванка*, *брусок*, *лябёдка*, *грэйфер*, *гідрант*, *кара*, *парастак*, *краж*, *клін*, *кант.* Как отмечается в научной литературе, «распространённость существительных обусловлена доминированием в терминологии номинативной и дефинитивной функций, реализации которых способствует высокая степень абстрагированности субстантивов на лексическом и грамматическом уровнях языковой системы [2, с. 48].

Абсолютное большинство имеют нарицательные существительные единственного числа и Singularia tantum: *адсорбцыя, балота*, *валежнік*, *габарыт*, *гіпс*, *дыфузія*, *дрэнаж*. В тех случаях, когда терминами выступают наименования групп разнообразных пород и веществ, в качестве реестровых слов подаются существительные в форме множественного числа: *адсарбенты* (‘група штучных ці прыродных цел з развітой паверхняй, якая добра паглынае рэчывы з газаў ці растворыў’), *базальты* (‘магматычныя пароды’), *пігменты* (‘тонкія парашкі розных колераў’), *палімеры* (‘рэчывы, якія складаюцца з мноства манамераў’), *сланцы* (‘горныя пароды са слаістым размяшчэннем зрастанняў’), *смолы* (‘аморфныя рэчывы, якія з’яўляюцца адносна цвёрдымі пры звычайных умовах, але размякчаюцца пры награванні’), *саланчакі* (‘глебы з павышаным утрыманнем соляў’).

Для выражения процессуальности используются глаголы как носители динамического элемента, что обусловлено самой функцией даной части речи – обозначать процесс: *абсякаць*, *абязлесіць*, *дэфармаваць*, *засячы*, *здрабніць*, *карабаціцца*, *перапілаваць*, *перарэзаць*, *перасячы*, *пілаваць*, *рэзаць*, *сячы*, *счасаць*, *увільгатняць*, *апрамяніць*, *аблесіць*, *адраўнець*, *акорваць*, *акальцоўваць*, *апілоўваць*, *антысептаваць*, *высыхаць*, *дажджаваць*, *кансерваваць*, *кандыцыяніраваць*, *набухаць*, *наколваць*, *пакетаваць*, *прамочваць*, *разбухаць.*

Сфера лесного хозяйства и лесной промышленности связана с различными технологическими процессами, применяемыми при уходе за лесами, обработке древесины и древесных материалов для придания им определенных размеров, формы и качества, а также для получения готовых изделий. Поэтому глаголы «представляющие действительность на ее динамическом уровне, называя понятия категорий процессов, явлений, активных и неактивных состояний» [4, с. 125], для данной отрасли весьма актуальны.

Объектами научного исследования могут быть не только предметы и явления, но и их качества, свойства, чем обусловлена определенная представленность в специальной лесотехнической лексике терминов-прилагательных и терминов-причастий: *букавыя*, *вязавыя*, *хваёвыя*, *альховы*, *івавы*, *вярбовы*, *вербалозавы*, *валакністы*, *сукаваты*, *лісцевы*, *хвалісты*, *герметычны*, *гіграскапічны*, *матавы*, *зносаўстойлівы*, *выгнуты*, *лушчаны*, *абчэсаны*, *акораны*, *калібраваны*, *рэліктавы*, *дэндралагічны*, *дэкаратыўны*, *гіграскапічны*, *таксацыйны*, *водарастваральны*, *арганічны*, *экстрактыўны.*

Как и для других частей речи, для терминов-прилагательных важен учет словообразовательной мотивированности. Если прилагательное образовано от термина-существительного, то оно сохраняет свои терминологические свойства и, по нашему мнению, представляет собой вполне самостоятельный термин.

Таким образом, в белорусской лесохозяйственной и лесопромышленной терминологии абсолютное большинство терминов-слов составляют существительные, хотя определенную представленность имеют термины-глаголы, термины-прилагательные и термины-причастия.

Использованная литература

1. Акимова О. В. Термин как единица терминологического поля и профессионального дискурса в разноструктурных языках: на материале терминологии макрополя «Радиообмен гражданской авиации» в русском и английском языках: автореф. дис. ... канд. филол. наук. – Казань, 2004. 20 с.
2. Дзятко Д. В. Беларуская матэматычная тэрміналогія: станаўленне, структура, функцыянаванне. Мінск: БДПУ, 2009. 192 с.
3. Исмаилова Г. К. Идео- и нормографический анализ языковой структуры терминологической системы: на материале финансово-кредит. системы нем., рус. и каз. яз.: автореф. дис. ... канд. филол. наук. Алматы, 2004. 28 с.
4. Казарина С. Г. О преимуществах глагольного слова как специальной номинации (на примере терминологии медицины) // Филологические науки. Вопросы теории и практики. 2018. N 12 (90). Ч. 1. С. 122–126.
5. Лайонз Джон. Язык и лингвистика: вводный курс. М.: Либроком, 2009. 317 с.
6. Плотнікаў Б. А., Антанюк Л.А. Беларуская мова. Лінгвістычны кампендыум. Мінск: Інтэрпрэссэрвіс, Кніжны дом, 2003. 672 с.
7. Степанова М. Д. Методы синхронного анализа лексики (на материале немецкого языка). М.: Высш. шк., 1968. 201 с.

UOT 330.35

İNGİLİS DİLİNİN QLOBAL DİL KİMİ TƏDRİS EDİLMƏSİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ

Esmira Şəfa qızı Behbudova
filologiya üzrə fəlsəfə doktoru, dosent
Sumqayıt Dövlət Universiteti
e-behbudova@mail.ru

Müasir dünyada ingilis dili ən çox tədris edilən dildir və qlobal səviyyədə ən çox üstünlük verilən ortaq ünsiyyət vasitəsidir. Onu da qeyd etmək lazımdır ki, ingilis dilinin digər dünya dilləri ilə olan əlaqələrinə görə bu dil müasir dövrdə üstün mövqedədir. İngilis dilinin beynəlxalq əhəmiyyəti onun beynəlxalq təşkilat və konfransların rəsmi dili, beynəlxalq turizm dili, internet kommunikasiyalarının dili olması ilə izah edilə bilir. İngilis dili hal-hazırda yazılı və şifahi nitqin əsas dili kimi çıxış edir.

İngilis dili tədrisinin dünyanın müxtəlif ölkələrində fəal şəkildə həyata keçirilməsi bu dilin dayanmadan artan nüfuzu və onun dünya dilləri arasında liderliyindən xəbər verir. Heç şübhəsiz, dünyada çoxlu insanların tərəfindən istifadə edilən dillər mövcuddur. Lakin ingilis dili qlobal səviyyədə ünsiyyət vasitəsi olan yeganə dildir.

İngilis dilindən ünsiyyət məqsədi də istifadə edənlərin böyük əksəriyyətinin ingilisdilli olmadığı da qeyd edilməlidir. İngilis dilinə gəldikdə dünyaşöhrətli alim David Kristall bu dildən istifadə edən insanların sayının təxminən 700 milyon olduğu və həmin insanların dünyanın müxtəlif guşələrində yaşadığını qeyd edir. Hal-hazırda dünya əhalisinin beşdə biri ingilis dilində danışa bilir. Mövcud olan elektron axtarış sistemlərində toplanmış məlumatların 90 %-i ingilis dilindədir.

(Crystal, D (1995). The Cambridge Ensyclopaedia of the English Language. Cambridge University Press). Xarici dillərin mənimsənilməsi və tədrisinə dair aparılmış sosioloji tədqiqatlar göstərir ki, hər hansı dilin istifadə edilməsi onun formalaşması və inkişaf etdirilməsinə bilavasitə təsir edir. Beləliklə, ingilis dilinin dünya dilləri arasında lider mövqeyi və müasir dünyada apancı rolu danılmazdır.

Bununla əlaqədar olaraq hər hansı dilin bu cür mövqe və rolunun həmin dilin öyrədilməsinə və öyrənilməsi üçün nə dərəcədə əhəmiyyətli olduğu və onlann tədris prosesinə təsir edib-etməməsi haqqında suallar meydana çıxır. Bununla əlaqədar ingilis dilinin tədrisi ilə bir sıra mühüm məsələyə aydınlıq gətirmək tələb edir.

Məlumdur ki, ingilis dili ana dili kimi, ikinci dil kimi və xarici dil kimi tədris olunur. Onu da qeyd etmək lazımdır ki, dillərin, xüsusilə də ingilis dilinin tədris prosesini təşkil edərkən hər bir ölkənin spesifik xüsusiyyətləri nəzərə alınmalıdır. Misal üçün, ingilis dili birinci və yaxud ana dili kimi öyrədilməsi sistemi və prinsipləri həmin dilin ikinci dil və ya xarici dil kimi tədrisi prinsiplərindən tamamilə fərqli olduğu heç də təəccüblü deyil. Diqqəti daha çox cəlb edən və bizim üçün daha çox vacib olan məsələ ingilis dilinin ikinci dil (ESL) və ingilis dilinin xarici dil (EFL) kimi öyrədilməsidir. Qeyd etmək lazımdır ki, bəzən bu iki istiqaməti eyniləşdirirlər. Lakin, burada bəzi oxşar cəhətlərin olduğuna baxmayaraq, əksər tədqiqatçılar adı çəkilən istiqamətlərin həm prinsipləri, həm də tədris üsul və metodları bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Belə ki, ABŞ-da ingilis dilində bazası zəif olan qeyri-ingilis öyrəncilərlə ingilis dilinin ikinci dil kimi öyrədilməsi ilə Avropada ingilis dilini xarici dil kimi öyrənən tələbələrə ingilis dilinin tədrisi sistemləri və metodlarını heç də eyniləşdirmək olmaz. ABŞ-da mühacirlərə ingilis dilinin öyrədilməsi həyatı zərurət kimi çıxış etdiyi halda Avropa ölkələrində, o cümlədən də Azərbaycanda, bu dilin öyrənmə səbəbləri tam fərqlidir. Onu da qeyd etmək lazımdır ki, ingilis dilini xarici dil kimi öyrənilməsinin səbəbləri olduqca müxtəlifdir. Bu səbəblər siyahısına ingilis dilini öyrənənlərin İngiltərə, ABŞ və digər ingilisdilli ölkələrin mədəniyyəti və ədəbiyyatına olan maraqlan, təhsilini dünyanın aparıcı universitetlərinin bakalavr və magistr pillələrində davam etdirmək arzuları, ölkəmizdə fəaliyyət göstərən transmilli şirkətlərdə işləmək arzusu və digər müxtəlif səbəblər daxil edilə bilər.

Problemi araşdıran tədqiqatçıların fikrincə, azərbaycanda ingilis dilinin ikinci dil kimi tədrisi məsələsini aktual problemlər siyahısına daxil edilməsi o qədər də düzgün deyil. Burada ABŞ-dakı yanaşma özünü doğrulda bilməz. Azərbaycanda dövlət dili olan Azərbaycan dili hər bir Azərbaycan vətəndaşının doğma dili olmalıdır. İngilis dili isə ölkəmizdə xarici dil kimi tədris edilir. Beləliklə də bizim üçün əhəmiyyət kəsb edən mGsGİG ingilis dilinin xarici dil kimi tədris edilməsinin xüsusiyyətləridir. Dünya şöhrətli psixoloq L.S.Viqotskiy doğma və xarici dilin mənimsənilməsi yollarını xarakterizə edərkən doğma dilin mənimsənilməsini "aşağıdan yuxarı" xarici dilin mənimsənilməsini "yuxarıdan aşağıya" aparan yolla müqayisə etmişdir.

Məlum olduğu kimi ingilis dili ölkəmizin ibtidai, orta, orta ixtisas və ali təhsil müəssisələrində tədris edilir. Adı çəkilən təhsil mərhələlərində ingilis dilinin tədrisi işini təşkil edərkən müxtəlif məqamlann nəzərə alınması vacibdir. Lakin tədrisin pilləsindən asılı olmayaraq xarici dillərin, ilk növbədə də ingilis dilinin tədrisi prosesinin olduqca mürəkkəb və məsuliyyətli məsələ olduğunu və insanlarda dilləri mənimsəmə səviyyəsinə bir sıra psixoloji və sosial amillər təsir göstərdiyini nəzərə almaq olduqca vacibdir.

Qeyd etmək lazımdır ki, xarici dillərin, o cümlədən də qlobal səviyyədə əsas ünsiyyət vasitəsi kimi qəbul edilmiş ingilis dilinin tədrisinin yaxşılaşdmlması və kifayət baxımdan yeni pilləyə qaldırılması problemi ölkəmizdə təhsilin artırılması barədə məqsədlər arasmda əsas yerlərdən birini tutur. İngilis dilinin öyrənilməsinə olan maraq durmadan artır. Digər xarici dillərə nisbətən ingilis dilinə plan marağın daha böyük olduğu danılmaz bir faktdır. İngilis dili orta və ali təhsil müəssisələrində tədris edilən ən vacib fənlər sırasına aid edilə bilər. İngilis dilinin rolunu təhlil edərkən, tədqiqatçılar hər hansı dilin hər bir ölkədə tanınan xüsusi rola malik olduqda onun əsl

qlobal məna kəsb etdiyini qeyd edirlər [6]. İngilis dilinə olan xüsusi marağın səbəbini həmin dilin Britaniya imperiyasının dil irsi olduğunda və bir çox sahələrdə, ilk növbədə texnoloji sahələrdə ABŞ-ın mübahisə edilməz nüfuzunda və ingilis dilinin ümumi ünsiyyət vasitəsi kimi çıxış etməsində görürlər.

Göstərilən amillər ingilis dilinin tədrisinin vacibliyi, eləcə də, onun metod, üsul və yanaşmalarına əhəmiyyətli dərəcədə təsir göstərməlidir. Bu da ingilis dilinin daha effektli və qısa müddətdə mənimsənilməsinə imkan verən tədris metod və üsullarının yaradılması və eyni zamanda dil və nitq baxımdan sərişteli və dünya standartlarına cavab verən yüksək səviyyəli peşəkar ingilis dili müəllimlərinin hazırlanması məsələsini ön plana çəkir.

Deyilənlərə yekun vuraraq aşağıdakıları qeyd etmək zəruridir:

1) İngilis dili əsas beynəlxalq ünsiyyət vasitəsidir;

2) İngilis dilinin tədrisinin əsas məqsədi öyrənilən dildən qlobal səviyyədə ünsiyyət vasitəsi kimi istifadə etmək bacarığını formalaşdırmaqdan ibarətdir;

3) İngilis dilinin qlobal səviyyədə xüsusi rola malik olduğu şəraitdə həmin dilin tədrisi xüsusiyyətləri, metod və üsullarına müvafiq dəyişikliklərin edilməsi zəruridir.

İstifadə edilmiş ədəbiyyat

1. A world empire by other means. The triumph of English, the English language. (The spread of English), The Economist (US), December 22, 2001.

2. Crystal, D. (1995). The Cambridge Encyclopedia of the English Language. Cambridge University Press.

3. Florian Koulmas, "English and its Merits", Oxford Press, 2000.

4. Graddol, David, 2001, "English and Foreign Languages"

5. Van Essen, A.S. 1989. "The Continental European Contribution to EFL, Past and Present". In Cadlin and Edilhoff"

6. Witt Yong 200, "English as a Global Language, The Case of the European Union"

УДК 378.22

ГЕЙМИФИКАЦИЯ В ОБРАЗОВАНИИ

[1,3]Гульназ Тынаевна Супаева, [2,3]Мээрим Эриковна Кыдыралива
[1]кандидат экономических наук, доцент
gsupayeva@mail.ru
Кыргызский экономический университет им.М.Рыскулбекова
[2]torugart4@gmail.com
Колледж экономии и сервиса
Кыргызского экономического университета им.М.Рыскулбекова
[3]Кыргызская Республика

До недавнего времени считалось, что видео игры «убивают» время и наносят вред геймерам, но это мысль былых времен. Доказано до сегодняшних дней немалым количеством ученных, что видео игры развивают пространственное мышление. Популярность видеоигр растёт с каждым годом и не только среди детей, но и среди работающей молодёжи. Времена быстро меняются и применение игровых инструментов для решения стратегических задач и логического мышления называется геймификацией. Сегодня многими странами геймификация хорошо применяется в трёх областях — это в науке, образовании

и менеджменте. Чтобы достичь поставленных целей в игре человеку приходиться думать на два шага вперед – анализировать, запоминать, обдумывать последствия, пути выхода и принимать решения максимально быстро. Все как в жизни.

Можно отметить 3 ключевые причины быстрого формирования геймификации:

- связь между игрой и процессом обучения у учащихся;
- тенденции рынка;
- стремительно растущий интерес людей разных возрастов к играм.

Американский университет имени Роберта Морриса провел исследования, которые подтвердили - компьютерные игры полезны! Благодаря проведенному исследованию ученные выделили ряд положительных эффектов от видео игр и использования симуляторов игр в учебных заведениях, - развитие логического мышление, усиление памяти, игры учат принимать решения самостоятельно, развивается общение.

Геймификация — это инструмент, который может создать мотивацию и интерес в процессе обучения. Вся связь состоит в том, что у геймификации, и видео игры одна и та жа цель: разобрать и решить проблему, мотивировать и стимулировать учащихся к обучению посредством игрового мышления и составления «тактик» сценариев.

Внедрение игровых элементов в образование может полностью изменить то, как мы учимся. Молодое поколение проводит большую часть своего времени в Интернете. Недавние исследования проводимые послепадемионный период показали, что 55 % представителей молодого поколения используют свои смартфоны более 5 часов ежедневно.

Не так давно произошедшее исследования выявило, то что студенты обучающиеся при помощи игровых методов обучения демонстрируют высокие показатели в обучении, нежели те кто обучаются по традиционной системе.

Специально в играх используются такие функции, как очки, таблицы лидеров и трофеи, чтобы мотивировать и вовлечь игроков продолжать играть, тем самым продолжать процесс познания и обучения. Мы можем наблюдать как при помощи игры скучные задания становятся интересными, а сложные — простыми.

Игры вовлекают студентов в процесс и облегчают восприятие информации, тем самым привнося элемент игры в учебный процесс – сам процесс обучения становится намного увлечённым и не только для подрастающего поколения, но и для тех кто решил пройти переквалификацию.

Геймификация может изменить отношение к обучению как к рутине и превратить её в нечто приятное, чего ученики с нетерпением ждут.

Геймификация в образовании не должна терять свою действительность игры, всю необходимую лекционную информацию можно замаскировать в миссию, квест и тд. Хотя эта концепция может показаться новой, она присутствует в современном образовании уже довольно давно. Давайте рассмотрим несколько успешных примеров геймификации:

Дуолинго - это приложение для изучения языка является прекрасным примером геймификации, используемой для обучения (рис. 1).

Шахтёрское ремесло - хотя обучение может быть не первым, что приходит на ум, когда вы слышите слово MinecraftEDU, оно стало очень мощным образовательным инструментом. Имея более 500 миллионов пользователей по всему миру, они явно хорошо используют методы геймификации (рис. 2).

Доктор Арне Мэй сотрудник Германского университета Регенсбург проводил исследование, где выяснилось, что рост серого вещества увеличивается за несколько недель в результате освоения мозгом нового навыка. Кроме того, учёные со всего мира сходятся во мнении, что сама игра (которая состоит из цикла задача-достижение-награда) способствует выработке допамина в мозгу, что в свою очередь усиливает желание играть.



Рис. 1. Интерфейс приложения дуолинго[5]

Рис. 2. Обучающий процесс на основе игры minecraftedu[6]

[5] Гейб Зикерманн и Джоселин Линдер - Геймификация в бизнесе / 2014

[6] Д.Хантер, К.Вербах. М.,/ Вовлекай и властвуй. Игровое мышление на службе бизнеса/ 2014 г.

Рассмотрим другой пример – в 2009 году для Нью-Йорка свои двери распахнула абсолютно новая школа Quest to Learn (рис. 3).



Рис. 3. Процесс объяснения выполнения обучающего квеста в школе Quest to Learn [7]

Особенностью школы стала уникальная и совместная работа педагогов с разработчиками виртуальных игр, которые выстроили абсолютно весь процесс обучения

[7] «Gamification, Game-based Learning, Serious Games: Any Difference?», опубликованного в Learning Solutions Magazine.

учащихся как виртуальную игру образования. Учащиеся получали задания по пройдённым темам через социальную сеть, которая была создана специально для этой школы. Вместо привычных заданий учащиеся получали задания - квесты. По результатам квеста учащийся получает оценку по предмету, а выполнив цельную игровую миссию квеста запоминает формулу и учится решать уравнения. Для прозрачности образования все результаты заданий-квестов были открыто опубликованы в той же школьной социальной сети. Такая система позволила каждому учащемуся следить за достижениями товарища по классу. Сами учащиеся узнавали, кто в какой теме разобрался лучше или хуже. При необходимости каждый учащийся мог прийти за советом к «эксперту» - педагогу для выполнения новых миссий-заданий. Школа проводила свою статистику и средний показатель посещаемости учащихся нового подхода составила 94 %. На выпускных экзаменах 54 % выпускников показывали хорошие результаты, когда по сравнению с обычной школой этот показатель был равен 30% учащихся. Поэтому определённо школу Quest to Learn можно считается успешным примером геймификации образования.

Одним из самых известный и гениальных пример использования геймификации в науке принадлежит игре Foldit. Сама игра была создана в Вашингтонском университете в 2008 году и была посвящена фолдингу белка. Белок представляет собой цепь аминокислот, которая при разных условиях сворачивается в организме в трехмерную структуру (рис. 4).



Рис. 4. Геймплей игры Foldit[8]

Затем в 2010 году в игре был создан новый квест, благодаря которой игроки смогли выяснить, как свёртывается белок ретровируса, который вызывает СПИД у обезьян. Учёные не могли справится с этой задачей почти 15 лет, - а благодаря игре две команды игроков Foldit решили этот алгоритм свёртывания за 2 дня. Результаты исследования на основании игры были опубликованы в журнале отметив при этом команду игроков Foldit команду разработчиков образовательной игры Foldit, которые внесли наибольший вклад в открытие. Школьный учитель физики Шон Янг в 2014 создает ролевую онлайн-игру

[8] «Gamification, Game-based Learning, Serious Games: Any Difference?», опубликованного в Learning Solutions Magazine.

Classcraft, которая на данный момент используется в образовательном процессе более чем в 25 странах мира. Это ролевая игра, где учащиеся создают виртуального игрока самого себя и выполняют школьные задания в игре, а преподаватель также создает виртуальный образ себя и помогает в выполнении заданий. Данная обучающая игра получила большую популярность во время пандемии COVID19, когда обучение перешло на удалённый процесс (рис. 5).



Рис. 5. Элементы показа статистики успеваемости в игре Classcraft[9]

[9] «Gamification, Game-based Learning, Serious Games: Any Difference?», опубликованного в Learning Solutions Magazine.

Исследования проводимые показателей гейфимикации в образовании показывают, что геймификация способствует осваиванию нового материала, навыков, формированию самостоятельность и мотивирует учащихся к получению знаний. На одном из исследований эффективной работы современных компаний многие топ-менеджеры признались, что добились определённого успеха благодаря тому, что смогли предварительно обработать и проиграть «сценарий» развития компании благодаря играм-симуляторам.

Это ещё раз подтверждает, что уже сейчас нужно внедрят геймификацию в образовательную систему всех поколений. В некоторых видеоиграх предлагается что каждому игроку сохраняют индивидуальную разбивку или другими словами говоря индивидуальную статистику производительности игрока, где показаны подробные описания о личных достижениях, собранных очках, о сильных и слабых сторонах прохождения миссии, а также игра даёт данные анализа производительности в сравнении с другими игроками. Преподаватели смогут увидеть непредвзятую информацию о том, как студенты освоили модуль. Данные получаемые в игре являются объективными и могут помочь как студентам так и преподавателям. И педагоги и учащиеся будут всегда в курсе своей прогрессии и регрессии, увидят со стороны как они проходят мисси, где совершают какие ошибки и какие показатели стоит им улучшить, поэтому геймификация может быть частью сдачи модульной аттестации.

Другим инструментом геймификации может стать обучение путём проб и ошибок. Если учащийся принял неправильное решение в игре и провалил миссию, это не может быть поводов, чтобы закончить игру. При помощи подсказки педагога учащийся может исправить ошибку, скорректировать стратегию, пройти заново миссию и наконец выиграть игру то бишь сдать модуль по изучаемому предмету.

В заключении хотелось отметить, что при условии верной реализации геймифиации в образовании такой подход к обучению может действительно подходит всем вне зависимости от возраста, пола, ведь у каждого скорее всего есть своя любимая игра в которую вы играете. Геймификация уже становится прочным окном в новое образование молодого поколения способных изучать новые вещи при помощи виртуальных образовательных игр. Работа по персональной ведомости успеваемости, принятие получавших показателей, обучающие истории и новый подход к обучению показывает, что геймификация учитывает потребности каждого обучающегося. В конце концов примеров геймификации огромное количество, начиная от безобидной игры для изучения иностранного языка, заканчивая стратегическими планами целых мировых держав.

Геймификация — невероятно мощная стратегия и отличный способ мотивировать учащихся. По мере того, как мир образования становится все более цифровым, мы можем ожидать увеличения количества методов геймификации.

Использованная литература

1. Гейб Зикерманн и Джоселин Линдер - Геймификация в бизнесе / 2014

2. Д.Хантер, К.Вербах. М., / Вовлекай и властвуй. Игровое мышление на службе бизнеса/ 2014 г.

3. Джейн Макгонигал / Реальность под вопросом. Почему игры делают нас лучше и как они могут изменить мир / 2018

4. Карл Капп / Геймификация в обучении /2012

5. Статья Московской школы управления СКОЛКОВО - Моделирование игр для новых образовательных и бизнес-решений

6. «Gamification, Game-based Learning, Serious Games: Any Difference?», опубликованного в Learning Solutions Magazine.

UOT 327.56

VƏTƏN MÜHARİBƏSİNDƏN SONRAKI DÖVRDƏ REGİONAL GEOSİYASİ PROSESLƏRDƏKİ DƏYİŞİKLİKLƏRİN ALİ MƏKTƏBLƏRDƏ TƏDRİSİNƏ DAİR

Anar Nadir oğlu İsmayılov
tarix üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
anar.ismayilov@mdu.edu.az

Müharibədən sonrakı dövr digər sahələrdə olduğu kimi, ictimai elmlərin tədrisi prosesində də bir çox yeni vəzifələr qarşıya qoyur. Hazırki şəraitdə dünyada baş verən sürətli dəyişikliklər həm də tarix, beynəlxalq münasibətlər, regionşünaslıq fənnlərinin tədrisi zamanı baş verən proseslərin tələbələrə düzgün şəkildə izah edilməsini tələb edir. Bu gələcəkdə sahə mütəxəssisi kimi yetişən tələbələrin hadisə və prosesləri dügün şəkildə dərk etməsindən və adekvat reaksiyanın formalaşması baxımdan mühümdür. Hazırda tədris prosesində qarşıda duran başlıca vəzifələrdən biri də vətən müharibəsinin dərslərinin, ölkə və region üçün nəticələrinin düzgün şəkildə izah edilməsidir. Tədqiqatımızın başlıca sualı da məhz bununla bağlıdır:

- 44 günlük müharibədən sonrakı dövrdə regional geosiyasi proseslərdəki dəyişikliklərin tədrisi ali məktəblərdə necə olunmalıdır?
- Bu istiqamədə hansı yeni trendlər mövcuddur?
- Proseslərə tərəflərin yanaşması nədən ibarətdir?

Təhlillər göstərir ki, yeni dövrdə proseslərin mahiyyətinin izah edilməsi üçün həm çoxtərəfli, həm də ikitərəfli formatda münasibətlərdəki yeni çağırışların qiymətləndirilməsi ciddi əhəmiyyətə malikdir. Aydındır ki, 2020-ci ilin 44 günlük müharibəsi Qafqaz regionunda regional geosiyasi proseslərə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Həm yerli, həm xarici təhlilçilərin ortaq qənaəti bundan ibarətdir ki, müharibə dövlətlərarası münasibətlərdə yeni trendlər yaratmışdır. Təbii ki, müharibədən sonrakı dövrdə ən mühüm dəyişiklikləri Azərbaycan-Ermənistan və Türkiyə-Ermənistan münasibətlərində müşahidə etmək mümkündür.

Azərbaycan-Ermənistan münasibətlərində 2020-ci il müharibəsinə qədərki dövrdə müzakirə edilən əsas məsələlər münaqişə prosesinin sülh yolu ilə nizamlanması, işğal edilmiş ərazilərin mənsubluğu, ən yaxşı halda təhlükəsizlik qarantı qarşılığında ərazilərin mərhələli azad edilməsi yolu ilə həlli idisə, hazırkı şəraitdə Zəngəzur dəhlizi, nəqliyyat və kommunikasiya xətlərinin açılması, keçmiş münaqişə tərəflərinin qarşılıqlı olaraq bir-birilərinin ərazi bütövlüklərini tanıması məsələsi əsas trendlərə çevrilmişdir. Xüsusən Ermənistan və Azərbaycanın bir-birinin ərazi bütövlüyünün tanınması istiqamətində ilk əhəmiyyətli addımı atmışlar. Belə ki, 2022-ci ilin oktyabr ayının 6-da Polşanın paytaxtı Praqa şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Fransa Prezidenti Emmanuel Macron, Ermənistanın Baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel arasında keçirilmiş görüşdən sonra verilən bəyanatda deyilir ki, Azərbaycan və Ermənistan BMT-nin nizamnaməsinə və bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıyan 1991-ci il Almatı Bəyannaməsinə sadiqliklərini təsdiq etmişlər [3].Lakin bu proses iki dövlət arasında sərhədlərin delimitasiyası və demarkasiyası zərurətini aradan qaldırmır. Nəqliyyat və kommunikasiya xətlərinin açılması və bu sahədə əməkdaşlıqla bağlı tərəflər niyyətlərini ifadə etsələr də Ermənistan ərazisindən keçməklə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə ölkənin digər ərazilərini birləşdirəcək Zəngəzur dəhlizi məsələsi tərəflər arasında fikir ayrılıqlarının əsas səbəbidir.

Türkiyə-Ermənistan münasibətləri də müharibənin bitməsindən sonra yeni xarakter qazanıb. Qeyd etmək lazımdır ki, 1991-ci ildən sonrakı dövrdə Azərbaycan-Ermənistan münasibətləri ilə Ermənistan-Türkiyə münasibətləri arasında düz mütənasiblik və ya siyasi terminlə ifadə etsək müsbət korelyasiya əlaqəsi mövcud olmuşdur. Müqayisə üçün regionun digər dövləti olan İranla bu

iki Cənubi Qafqaz ölkəsi arasında münasibətlərdə isə mənfi korelyasiya əlaqəsi mövcud olmuşdur [5, s. 109]. Azərbaycanla Ermənistan arasında mövcud mübahisəli məsələlərin həlli və yaxınlaşma Türkiyə ilə münasibətlərə də təsir göstərir.Hələ 2021-ci ilin dekabr ayında hər tərəfdən bir nəfər olmaqla, Türkiyə və Ermənistan birbaşa danışıqlar üçün xüsusi nümayəndələr təyin etmişlər. Türkiyə Cümhuriyyəti tərəfindən bu ölkənin ABŞ-dakı sabiq səfiri Serdar Kılıçı, Ermənistan tərəfindən isə vitse-spiker Ruben Rubinyan nümayəndə olaraq təyin olunmuşdur [4]. Bu mərhələdə danışıqların ən mühüm məqamlarından biri tərəflərin ilkin şərt olmadan danışıqlara başlaması olmuşdur. Qeyd etmək lazımdır ki, bunu daha çox Türkiyə tərəfinin uğuru hesab etmək olar. Çünki iki ölkə arasında əlaqələrin normallaşdırılması üçün müharibədən əvvəlki dövrdə Türkiyənin irəli sürdüyü başlıca şərt Ermənistanın Azərbaycan ərazilərini azad etməsi ilə bağlı olmuşdur. Bu məsələ isə elə müharibə nəticəsində demək olar ki, həllini tapmışdır. Ermənistanın isə irəli sürdüyü başlıca şərtlərdən biri 1915-ci il hadisələrinin Türkiyə tərəfindən "soyqırımı" kimi hüquqi olaraq qəbul edilməsi ilə bağlıdır. Təbii ki, indiyə qədər aparılan tarixi araşdırmalar 1915-ci ildə ermənilərə qarşı Osmanlı dövlətində hər hansı soyqırımı aktı törədilmədiyini sübut edir. Tam əksinə saxta "soyqırımı"nın baş verdiyinin iddia edildiyi dövrdə - 1915-ci il aprel ayının ortalarında ermənilər Vanda qiyam qaldıraraq dinc türk və müsəlman əhalini kütləvi şəkildə qətlə yetirmişdilər, daha sonra bu qanlı qırğınlar digər şəhərlərə də yayılmışdı. Təkcə Vanda ermənilə 30 min müsəlmanı öldürmüşdülər [1, s. 307].

Sonrakı dövrdə, eləcə də 1991-ci ildə müstəqilliyin bərpasından sonra Ermənistan bu məsələdən daha çox əhalini vahid ideya ətrafında birləşdirmək üçün vasitə olaraq istifadə etmişdir. 2020-ci il müharibəsindən sonra iki tərəf arasında aparılan danışıqlarda isə münasibətlərin normallaşması üçün belə bir ön şərt müşahidə edilmir. Çünki hazırkı şəraitdə Ermənistan üçün ideoloji məsələlərdən daha vacibi ölkəni düşdüyü ağır ictimai, sosial və iqtisadi burulğanlar məngənəsindən çıxarmaqdır.

Ermənistanda olan praqmatik siyasi yanaşma tərəfdarları üçün hər ötən gün daha çox aydınlaşır ki, böhrandan qurtuluşun yeganə yolu Azərbaycan və Türkiyə kimi dövlətlərlə əlaqələrin bərpasıdır. Rusiya Federasiyasının Prezidenti Vladimr Putin 2021-ci ildə Valday Beynəlxalq Klubunun toplantısında bu məqama diqqət çəkərək demişdi:"Azərbaycan Naxçıvanla normal əlaqə qurmaqda, eləcə də kommunikasiyaların açılmasında maraqlıdır, bu, Ermənistanın qarşısında duran ən vacib vəzifələrdən biridir. Ermənistan regionda effektiv iqtisadi həyat qurmaq, qarşılıqlı əlaqə yaratmaq, o cümlədən gələcəkdə Azərbaycanla münasibətlərin qurulması, Türkiyə ilə dondurulmuş münasibətlərin açılmasında prinsipcə maraqlıdır" [2].

Qeyd etmək lazımdır ki, Ermənistanın uzun müddət ən yaxın müttəfiqi və hərbi təminatçısı rolunda çıxış etmiş Rusiyanın özü hazırki şəraitdə kifayət qədər böyük problemlərlə üz-üzədir. Rusiya Türkiyə və Azərbaycanla perspektiv vəd edən münasibətlərini Ermənistana dəyişmək niyyətində deyil. Digər tərəfdən uzun illər ərzində Ermənistanın iqtisadi baxımdan əsas təminatçılarından biri olmuş İranda baş verən son proseslər bu ölkənin yardımından da Ermənistanı məhrum edir. Baxmayaraq ki, mühafizəkar İbrahim Rəisinin prezident seçilməsindən sonra İran İslam Respublikasının Cənubi Qafqaz siyasəti kifayət qədər yöndəmsiz xarakter alıb. Bölgədə hansısa xarici güclərin təsirinin artmasını qəbul etməyəcəyini tez-tez bəyan edən İran Azərbaycana qarşı bəzi çağırışlarla çıxış edir, buna baxmayaraq hazırki şəraitdə regionda şəraitə ciddi təsir etmək iqtidarında deyildir.

Təhlillər göstərir ki, Vətən müharibəsi Türk dünyasının digər ölkələrinin də region geosiyasətində dəyişikliklərə və fərqli yanaşmalar ortaya qoymasına gətirib çıxarıb. Müharibənin Azərbaycanın qələbəsi ilə başa çatmasından sonra Azərbaycan və Mərkəzi Asiyanın türk respublikaları arasında siyasi əlaqələr yeni bir mərhələyə qədəm qoymuş, iqtisadi inteqrasiya prosesləri güclənmişdir. Azərbaycanın qələbəsi əvvəllər əməkdaşlığa tərəddüdlə yanaşan, ciddi fikir ayrılıqları olan türk dövlətlərinin mövqeyində əsaslı dönüş yaratdı. Azərbaycan Respublikasının Prezidentinin müharibədən dərhal sonra irəli sürdüyü Zəngəzur dəhlizi layihəsi əslində təkcə

Azərbaycanın və Türkiyənin deyil, həm də Mərkəzi Asiyadakı türk respublikalarının mənafeyinə cavab verir. Azərbaycan Respublikasının Prezidentinin müharibədən sonrakı dövrdə Türkmənistan, Qazaxıstan, Özbəkistan və Qırğızıstana ardıcıl səfərləri, bu səfərlər zamanı dövlət başçısı İlham Əliyevə göstərilən xüsusi münasibət, imzalanan sənədlərin məzmunu bunu təsdiq edir.

2022-ci ilin iyunun 29-da Xəzəryanı dövlətlərin sammitinin keçirilməsi ilə əlaqədar Türkmənistana səfər edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ölkənin prezidenti Sərdar Bedımuhammedovla görüşündə aydın olmuşdu ki, iki ölkə arasında Xəzər dənizində nəqliyyat, gəmiçilik, sülh və ekoloji təhlükəsizliyin qorunması, balıqçılıq, fövqəladə hallarda əməkdaşlıq barədə əvvəlki dövrlərdə mövcud olmuş bir çox fikir ayrılıqları aradan qaldırılıb, dövlətlər müvafiq sahələrdə razılaşmalar əldə edib və bununla bağlı əməli addımlar atıblar. Sentyabrın 15-də Azərbaycan Prezidentinin Özbəkistan səfəri isə ikitərəfli əlaqələrin tarixində yeni bir mərhələnin başlanğıcı olmuşdur. Qeyd etmək lazımdır ki, Özbəkistan davamlı olaraq Azərbaycanın mövqeyinin beynəlxalq və regional təşkilatlarda möhkəmlənməsinə də dəstək nümayiş etdirmişdir. Məhz Özbəkistanın Şanxay Əməkdaşlıq Təşkilatına sədrliyi dövründə Azərbaycan bu təşkilatın zirvə toplantısına fəxri qonaq qismində dəvət olunmuşdu. Bu bir tərəfdən Azərbaycana Özbəkistanın münasibətinin, digər tərəfdən isə Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Azərbaycana artan marağının göstəricisi hesab edilə bilər. Azərbaycan Prezidentinin Qırğızıstana 2022-ci ilin oktyabr ayındakı səfəri də ikitərəfli əməkdaşlığın inkişafı istiqamətində möhtəşəm addımların atılması ilə yaddaqalan olmuşdur.

Beləliklə aparılan təhlillər nəticəsində aydın olur ki, Vətən müharibəsi və onun region üçün nəticələrinə dair mövzuların tədrisi zamanı aşağıdakı məqamlara tələbələrin diqqəti xüsusi olaraq cəlb edilməlidir:

- baş verən müharibə regional geosiyasi proseslərdə əsaslı dəyişikliklərə səbəb olmuşdur;
- regional geosiyasətdə yeni müzakirə predmetləri meydana çıxarmış və trendləri müəyyənləşdirmişdir;
- baş verən proseslərin xarakterinə uyğun olaraq regionun qonşuluğunda yerləşən dövlətlərin təsir imkanlarında yeni fərqlər ortaya çıxmışdır;
- Azərbaycan Cənubi Qafqaz regionunun lider dövləti olaraq həm də Türk dünyasındakı mərkəzi rolunu daha da gücləndirmişdir;
- əvvəlki dövrdə regional geosiyasətdə başlıca müzakirə predmeti olan məsələlər ideoloji və siyasi idisə, hazırkı şəraitdə praqmatik və iqtisadi xarakter almaqdadır.

İstifadə edilmiş ədəbiyyat

1. Qasımlı, M. "Erməni məsələsi"ndən "erməni soyqırımı"na: gerçək tarix axtarışında (1724-1920) / M.Qasımlı. -Bakı: Mütərcim, 2014. – 468 s.
2. Putin: "İlham Əliyev Qarabağ məsələsində müdriklik nümayiş etdirdi": [Elektron resurs] / Ordu.az, -2021. URL: https://ordu.az/az/news/201459
3. Süleymanov, E. İlham Əliyev Ermənistanla sülh sazişi barədə: "İlin sonunadək razılaşmaya nail ola bilərik": [Elektron resurs] / BBC Azərbaycanca, 05.10.2022. URL: https://www.bbc.com/azeri/region-63149355
4. Türkiyə və Ermənistanın xüsusi nümayəndələri Vyanada nədən DANIŞDILAR...: [Elektron resurs] / Modern.az, 03.05.2022. URL: https://modern.az/aktual/346547/turkiye-ve-ermenistanin-xususi-numayendeleri-vyanada-neden-danisdilar/
5. Kelbizadeh, E. Azerbaycan-İran ve Ermenistan-İran İlişkileri: Negatif Korelasyondan Pozitif Korelasyona Geçiş Olasılığı // VII. Uluslararası Orta Doğu Sempozyumu: Orta Doğu'da Siyasal ve Toplumsal İstikrar Sempozyumu Bildirileri, -İstanbul, 10-11 Mayıs 2022. –ss. 109-114.

UOT 46.01

JARQONLARIN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

Çinarə Zahid qızı Şahbazlı
filologiya üzrə fəlsəfə doktoru
Bakı Biznes Universiteti
Chinara.shahbazli@mail.ru

Dilçilik ədəbiyyatlarından bəllidir ki, V.fon Humboldt vaxtilə vurğulamışdır ki, “dil həmişə insanlarla birlikdə inkişaf edir və insan özünü başqa cür deyil, bir sözü başqa söz vasitəsilə anlayır. Lakin dilin ictimai təbiəti milli təbiəti kimi başa düşülür” [3, s.27]. Həmçinin V.fon Humboldt qeyd etmişdir ki, baxmayaraq ki, dil xalqın fəaliyyəti və onun təfəkkürü ilə bağlıdır, onun spesifikası və müstəqilliyi, dayanıqlığı da mövcuddur. Nitq prosesi və dil bir-biri ilə qarşılıqlı əlaqədədir, lakin eyni deyildir. Dilin forması daimidir, lakin onun meydana gəlməsi müxtəlifdir. Dil formadır və daha heç nə formadan başqa bir şey deyildir [3, s.27].

Dilə ölü bir məhsul kimi deyil, yaradıcı bir proses kimi baxmaq lazımdır [3, s.69].

Ümumxalq dilinin bir hissəsi kimi danışıq dili dialekt danışığı jarqon və loru danışığı əhatə edir. Bunlar istifadə olunma dairəsinə, təbiətinə, əlamət və keyfiyyətinə görə bir-birindən əsaslı şəkildə fərqlənir. Məsələn, loru danışıq vahidlərinə ümumxalq dilinin bütün areallarında təsadüf edə bildiyi halda, dialekt ünsürlərinə ancaq onun mənsub olduğu dialektdə rast gəlmək olur və s. [2, s.147]

İ.R.Qalperin jarqon haqqındakı fikirlərini aşağıdakı kimi formalaşdırmışdır: “İngilis dilinin qeyri-ədəbi lüğətində bir qrüp sözlər vardır ki, jarqonizmlər adlanır. Jarqon hər bir dildə bir qrupun digər sosial qrupdan gizli saxlamaq üçün istifadə etdikləri bir qrup sözlərin tanınmasıdır. Jarqonizmlər adətən köhnə sözlərin yeni mənalarda işlədilməsi ilə də olur. Həmin sözlərin ənənəvi mənası mücərrəd olur, lakin yeni işlədilən məna əhəmiyyət kəsb edir” [5, s.110].

A.M.Babayev jarqonları belə şəkildə təsvir edir: “Bir və ya bir neçə dil materialları əsasında düzəldilən fikri başqalarından gizlətmək üçün istifadə olunan süni ünsiyyət vasitəsi jarqon adlanır. Jarqon müəyyən qrup tərəfindən düzəldilir və onlar tərəfindən də başa düşülür. Jarqonlarla danışmaq və ya jarqonizmləri işlətmək bir neçə məqsədlə ola bilər:

1) öz çirkin qorxulu fikirlərini başqalarından gizlətmək üçün (cəmiyyət içində);

2) üstüörtülü jarqonlarla bir-birini başa salmaq – nəyi isə anlatmaq üçün (həbsxanalarda);

3) süni surətdə başqalarından ayrılmaq üçün (aristokratlıq nümayiş etdirmək üçün)” [1, s.346].

Başqa tədqiqatçılar da jarqonlar haqqında təxminən eyni sözləri deyiblər. Lakin həmin fikirlər nə qədər bir-birinə yaxın olsa da müəyyən mənada fərqlənir.

Jarqon qeyd olunduğu kimi, ayrı-ayrı sosial və professional insan qruplarının nitqində olur və dilçilik ədəbiyyatlarında bəzən bunlara arqo da deyilir.

İ.V.Arnold işlədilmə sahəsinə görə slenqləri iki qrupa bölür:

- ümumi slenq;
- xüsusi slenq.

Ümumi slenq heç bir sosial və professional qrupa aid olmayanlar, xüsusi slenq isə dar çərçivədə – yeniyetmələrin, universitet tələbələrinin, məktəblilərin nitqində olan slenq sözlərdir. Həmçinin buraya hava qüvvələrinin, futbolçuların, dənizçilərin və başqalarının nitqində olan sözlər-slenqlər daxildir. İ.V.Arnold fikirlərini davam etdirərək vurğulayır ki, Şveyser hesab edir ki, iki arqo da bu qrup sözlərə aiddir. O (İ.V.Arnold) hesab edir ki, necə olsa slenqi arqodan fərqləndirmək daha məntiqi görünərdir. Fərq ondan ibarətdir ki, slenqin ifadəlilik funksiyası olduğu halda arqo da gizlilik vardır. Slenq sözlərdə qaydaya görə motivləşmə mövcuddur. Məsələn, cradle-snather – an old man who marries or courts a much younger woman – “qoca kişinin cavan qadınla evlənməsi və

yaxud ona pərəstiş etməsi"; belly-robber – the head of a millitary canteen – "hərbi yeməkxananın başçısı", window-shopping-feasting one's eyes on the goods displayed in the shops, without buying anything – "dükanda nümayiş olunan mallara baxmaq, ancaq heç nə almayan".

Tamamilə əksinə olaraq arqo sözlərdə heç bir motivləşmə yoxdur. Rap-kill, shiv-knife, book-alif sence və s. [4, s.230]

Jarqonlardan bəhs edərkən N.Ç.Vəliyeva vurğulayır ki, jarqon sözlər professional və yaxud sosial qrupların qeyri-rəsmi danışıqlarında meydana çıxır və onlar iki qrupa bölünür. Onlardan birincisi obyektlərin, proseslərin professional səviyyədə adlandırılması, məsələn, picture show – kino ilə heç bir əlaqəsi yoxdur lakin sırf hərbi konseptə əsasən onun rəsmi adlandırılması battle deməkdir. Digər qrup qeyri-professional obyektlərin, hadisə, fenomen və proseslərin adlandırılmasıdır. Məsələn, big gun-important person vacib adam kimi istifadə olunur. Hər bir professional qrup özünün jarqonunu yaradır. Biz tələbələrin, musiqiçilərin, hüquqşünasların əsgərlərin və başqalarının jarqonlarını fərqləndirə bilərik [8, s.59].

N.Ç.Vəliyeva B.K.Dumas və C. Layterin ideyaları əsasında iddia edir ki, əgər aşağıdakı şərtlərdən ikisi yerinə yetirilirsə, deməli bu "həqiqi slenq"dir. Həmin şərtlərə xələl gəlməmək üçün fikri orijinaldakı kimi saxlamağı vacib hesab edirik:

"1) it lowers if temporarity, "the dignity of formal or serious speech or writing", in other words, it is likely to be considered in those contexts a "glaring misuse of register";

2) its use implies that the user is familiar with whatever is referred to, or with a group of people who are familiar with it and use the term;

3) it's taboo term in ordinary discourse with people of a higher social status or greater responsibility;

4) it replaces "a well- known conventional synonym", this is done primarily to avoid discomfort caused by the conventional synonym or discomfort or annoyance caused by having to elaborate further" [8, s.61].

Jarqon və slenqlər barədə bəzi dilçilərin fikirlərini qeyd etdik və eyni zamanda vulqar sözlər və yaxud vulqarizmlər, dialektizmlər kollokvualizmlər də vardır ki, onlar barədə müxtəlif zaman kəsiyində dilçilər, tədqiqatçılar dəyərli fikirlər söyləmişlər ki, biz onlar haqqında da fikir bildirmək istərdik (baxmayaraq onlar bizim tədqiqat sahəmiz deyildir). Lakin slenqlərin həmin qruplardan fərqli olmasını müəyyənləşdirmək məqsədilə o qrup sözlərin səciyyəvi xüsusiyyətlərini qeyd etməyimiz daha məntiqi olar və tədqiqatımızın məzmununa zənginlik gətirər. Biz həmin fikirlərə ekskurs etdikdən sonra bədii ədəbiyyatda həmin söz qruplarının necə istifadə olunmasını əyani surətdə şərh etməyə çalışacağıq.

"Vulgar – not having or showing good taste, not polite, elegant or well behaved" [7, s.1450] (Vulqar - yaxşı zövqü olmayan və yaxud göstərməyən, nəzakətli eleqant və yaxud yaxşı rəftar olmayan).

"Vulgar – indecent, a vulgar joke//offensive to one's finer feelings, a vulgar display of riches/of or characteristic of the common people, a vulgar superstition// normally accepted, most common, take the word in its vulgar connotation//(of speech) vernacular" [6, s.1104]. (Vulqar - ədəbsiz, vulqar zarafat//insanların incə hisslərini təhqir edən, sadə insanların sərvətlərinin/və ya xüsusiyyətlərinin vulqar nümayişi, normal qəbul edilən// vulqar xurafat, ən çox yayılmış, sözü vulqar mənasında götürmək//(nitqdə) xalq dilində).

İki izahlı lüğətdə vulqar sözlərin nə demək olduğunu gördük. Həmçinin tədqiqatçıların da gəldiyi qənaət təxminən üst-üstə düşür və həmin fikirləri ümumi şəkildə belə ümumiləşdirə bilərik.

İstifadə edilmiş ədəbiyyat

1. Babayev, A.M. Dilçiliyə giriş / A.Babayev. – Bakı: Mütərcim, – 2017. – 560 s.
2. Qurbanov, A.M. Ümumi dilçilik: [2 cilddə] / A.Qurbanov. – Bakı: Nurlan, – II c. – 2004. – 532 s.

3. Гумбольдт В. фон. Избранные труды по языкознанию / В. фон Гумбольдт. – Москва: Прогресс, – 1984. – 397 с.
4. Arnold, I.V. The English word / I.V.Arnold. – Moscow: Vyssh.Shola, – 1973. – 302 p
5. Galperin, I.R. Stylistics / I.R.Galperin. – Moscow: Vyshya Shkola, – 1977. – 334 p
6. New Webster's Dictionary and thesaurus of the English language / – USA: Lexicon Publications, – 1993. – 1149 p.
7. Oxford Advanced Learner's Dictionary / – Oxford: Oxford University Press, – 2005. – 1780 p.
8. Valiyeva, N.Ch. Theoretical issues of stylistic lexicology / N.Ch.Valiyeva. – Baku: Azerbaijan State Publishing, – 2014. – 185 p.

UOT 82

AVROPA ÖLKƏLƏRİNDƏ ŞƏRQ ƏDƏBİYYATININ TƏDQİQİ

Elnarə Kamandar qızı Abdullayeva
filologiya üzrə fəlsəfə doktoru
Gəncə Dövlət Universiteti.
ib1303@mail.ru

Məlim olduğu kimi, XVII əsrdən başlayaraq Qərbi Avropada Şərq ölkələrinin ədəbiyyat və mədəniyyətinə maraq artırdı. O zaman Şərq ölkələrinə səyahət edən Qərbi Avropa şərqşünasları böyük bir ehtiras və həvəslə Şərq poeziyasının qiymətli əlyazmalarını toplayır və gətirib Avropanın kitabxanalarına təhvil verirdilər. Məsələn, böyük alman şairi Götenin həyat və yaradıçılığı haqqında monoqrafiya yazmış alim D.Q.Luisin verdiyi məlumata görə, Götenin istifadə etdiyi məşhur Veymar kitabxanasında XVI əsrə qədərki məşhur İran şairlərinin ən nadir əlyazma nüsxələri var idi [2, 136].

XVIII əsrdən etibarən Avropa ölkələrində şərqşünaslıq elmi getdikcə inkişaf etməyə başlayırdı. Avropa alimləri Şərq poeziyasının tədqiqinə bəyük maraq göstərirdilər. Təxminən bu zamandan şərq yazıçılarının və filosoflarının ayrı-ayrı əsərləri Avropa dillərinə tərcümə olunmağa başlayır. 1775-ci ildə şərqşünas Adam Oleari İran şairi Sədinin əsərlərindən bəzi parçaları latın dilinə tərcümə edir. XVIII əsrin axırlarında və XIX əsrin əvvəllərində Avropa ölkələrində bir-birinin ardınca İran şairlərindən edilmiş tərcümələr, həmin şairlərin əsərlərindən ibarət müntəxəbatlar geniş surətdə nəşr olunub yayılmağa başlayır. Firdovsi, Hafiz, Ənvəri və başqa bu kimi İran şairlərinin əsərləri ilə bir sırada o zaman böyük Azərbaycan şairi Nizaminin də əsərləri Avropa dillərinə tərcümə olunurdu [2, s.137].

Dahi Azərbaycan mütəfəkkiri Nizami Gəncəvi ingilis şərqşünaslığında ən çox öyrənilən şərq sənətkarıdır. XVIII əsrdən başlayaraq Nizami yaradıcılığı ingilis şərqşünaslarının diqqət mərkəzİndə olmuş və zaman keçdikcə bu maraq xeyli artmışdır. İngilis nizamişünaslığı əsasən iki istiqamətdə formalaşmağa başlamışdır: İngiltərənin özündə və ingilislərin Şərqdə zəbt etdikləri ölkələrdə. Nizaminin ayrı-ayrı əsərlərinin ingilis dilinə tərcüməsi və şairin ədəbi irsinin bütün şərq ölkələrində geniş yayılması ingilis şərqşünaslığının ingişafına güclü təkan vermişdir [3, s.26].

Nizami irsinin İngiltərədə yayılması bir tərəfdən geniş oxucu kütləsinin bədii zövqünü oxşamasına, digər tərəfdən, ümumiyyətlə, ingilisdilli ədəbiyyatların ayrı-ayrı nümayəndələrinin yaradıcılığına səmərəli təsir göstərmişdir. Bu mənada dünya ədəbi ictimaiyyətinin qüdrətli faciə ustası U.Şekspirin "Romeo və Cülyetta" əsərini bəzən şərqin "Leyli və Məcnun"u adlandırması heç də təsadüfi deyildir. Dünya şöhrətli şərqşünas İ.Y.Kraçkovski ilk dəfə belə fikir irəli

sürmüşdür ki, Nizaminin "Leyli və Məcnun" poemasının təsiri altında yazılan Qərb sənət əsərləri içərisində U.Şekspirin "Romeo və Cülyetta" əsəri xüsusilə diqtəti cəlb edir [3, 27].

Tədqiqatçı Fikrət Quliyev özünün "Nizami "Leyli və Məcnun"u ingilis ədəbiyyatında” adlı namizədlik dissertasiyasında bu problemi daha ətraflı öyrənmiş və bu nəticəyə gəlmişdir ki, "Leyli və Məcnun"ü U.Şekspirin "Romeo və Cülyetta"sı ilə müqayisə etdikdə, aydın olur ki, bu əsərləri birləşdirən ümumi bir cəhət var. Bu da hər iki əsərin əsas süjetini təşkil edən qəmgin və saf məhəbbət əhvalatıdır. "Romeo və Cülyetta"nı oxuyanda və ya tamaşasına baxanda istər-istəməz Leyli və Məcnunun acı taleyi və uğursuz məhəbbəti yada düşür. Romeonun davranışı və fikirləri, Cülyettaya olan saf məhəbbəti, eşqinə son nəfəsinədək sadiqliyi tamamilə Məcnunun eynidir.

1991-ci ildə dahi sənətkarın 850 illik yubileyi qeyd olunarkən Amerika ictimaiyyəti də bu münasibətlə bəzi tədbirlər keçirmişdir. O vaxtlar (1991-ci ilin may ayında),"Amerikanın səsi" radiostansiyası belə bir məlumat verirdi: Böyük Azərbaycan şairi-mütəfəkkiri Nizaminin yubileyi ilə əlaqədar olaraq Amerika Birləşmiş Ştatlarında bir sıra tədbirlər keçirilir. Vaşinqton Universitetində Nizaminin xatirəsinə həsr olunmuş konqres başlanmışdır. Bu məclis Kaliforniya universitetində davam etdiriləcəkdir. Nyu-York universitetinin professoru Piter Çenkovskinin "Nizami və Puççini" mövzusunda məruzəsi dinləyicilərdə böyük maraq doğurmuşdur. Alim sübuta yetirmişdir ki, XVII əsrdə İran Azərbaycanından İtaliyaya mühacirətə gedən bir nəfər Nizaminin "Yeddi gözəl” poemasını özü ilə oraya aparmış və əsəri italyan dilinə çevirmişdir. Bundan sonra poemadakı şəxsi adlar italyanlaşdırılmışdır. Professor Çenkovski Puççininin "Çio-Çio-San" operası qəhrəmanlarının adı ilə poemanın qəhrəmanlarının adları arasında oxşarlıq olduğunu göstərmişdir.

Şərqdə mədəniyyətin erkən inkişafı ilə əlaqədar olaraq Qərb həmişə Şərqə böyük maraq göstərmişdir. Şərqin yaratdığı böyük mədəniyyət uzun əsrlər boyu get-gedə Avropada yayılmağa başlamışdır. 270 ilə qədər ayrı-ayrı fasilələrlə davam edən Səlib müharibələrindən sonra Qərb Şərqin həm riyaziyyatını, həm fəlsəfəsini, həm də ədəbiyyat və əfsanələrini öyrənməyə başlayır [1, s.6-7].

Şərqşünas Bartelemi Derbelonun 1697-ci ildə “Şərq kitabxanası” ensiklopedik lüğətində Azərbaycan ədəbiyyatına dair altı məqalə dərc edilmişdir. Onlardan dördü Nizami Gəncəviyə, biri Xaqani Şirvaniyə, digəri isə Fələki Şirvaniyə həsr olunmuşdur.

XVIII əsrdə Avropada Şərqlə bağlı üfüqlər daha da genişlənir. Tədiqatçıların qeyd etdiyi kimi, Avropa ədəbiyyatında Şərqə maraq çoxdan oyanmış olsa da yalnız XVIII əsrdə bütöv bir elm – Şərqşünaslıq elmi artıq mövcud idi. (V.Nikitin) [3, s.9]. 1704-cü ildən başlayaraq şərqşünas – ixtisasca ərəbşünas olan Antuan de Qallan Şərq ədəbiyyatının “şah əsəri” “Min bir gecə nağıllarını” fransız dilinə tərcümə edir [5, s.8]. On üç il davam edən ağır zəhmətin nəticəsində bu möhtəşəm Şərq nağılları 12 cilddə Parisdə nəşr olunur.

1707-ci ildə görkəmli şərqşünas Peti dö la Krua (xatırladaq ki, onun atası da, oğlu da şərqşünas olmuşdu) “Türk nağılları”nı fransız dilinə cevirir. Şeyxzadədən tərcümə edilmiş bu nağılların əsl adı “Fars sultanı və vəzirlərin əhvalatı”dır [5, 9]. 1710-12-ci illərdə Peti dö la Krua “Min bir gündüz” nağıllar məcmuəsini fars dilindən fransız dilinə tərcümə edir [5, s.10].

XVIII əsr Fransa Avropa üçün bir növ şərqşünaslıq məktəbi rolunu oynayırdı. İstər bu əsrdə, istərsə də bundan sonrakı dövrlərdə uzun müddət Şərqlə maraqlanan bir çox Avropa yazıçı və şairləri, eləcə də şərqşünasları d’Ereblonun əsərinə, Qallan və Peti dö la Kruanın tərcümələrinə müraciət edirlər. Məsələ bununla bitmir, “Min bir gecə” nağılları da, “İran nağılları” da, ingilis dilinə orijinaldan deyil, Qallanın və Peti dö la Kruanın tərcümələri vasitəsilə məhz fransız dilindən çevrilmişdi [5, s.10-11]. Tədqiqatçıların fikrincə, qərbi avropalılar Şərq topoqrafiyasını XVI əsr və XVIII əsrin əvvəllərində kəşf etdilər, marşrutlar cədvəlinin tərtsilatının verilməsində səyahətçilər, xüsusilə, fransız səyahətçiləri (Ş.Şardən) mühüm rol oynadılar [4, s.14].

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayeva T.M. Azərbaycan ədəbi fikrində qərbçilik meylləri (XX əsrin əvvəlləri). Elmi redaktor: Zaman Əsgərli. Bakı: Avropa, 2014, 151s.
2. Ağayev Ə. Nizami və dünya ədəbiyyatı. Bakı: Azərnəşr, 1964, 172 s.
3. Ağayev Zeydulla. Azərbaycan-Amerika ədəbi əlaqələri. Filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Əlyazması hüququnda. Bakı, 1996,329 s
4. Xəlilli Ş. Azərbaycan-ingilis ədəbi əlaqələri (folklor materialları əsasında). Bakı: "Azərbaycan Milli Ensiklopediyası" NPB, 2002, 216 s.
5. Zeynalov Əsgər. Şərq Volter yaradıcılığında. Bakı: "Azərbaycan Milli Ensiklopediyası" NPB, 2001, 160 s.

UOT 159.9

UŞAQLARDA NİTQ İNKİŞAFININ PSİXOPEDAQOJİ ƏSASLARI

[1,3]**Günay Salman qızı Kazımova,** [2,3]**Xəyalə Namiq qızı Mustafayeva**
[1]psixologiya üzrə fəlsəfə doktoru, dosent
gunaykazimova55@gmail.com
[2]xeyale.mustafayeva.1982@bk.ru
[3]Gəncə Dövlət Universiteti

Uşaq psixologiyasında beşyaşlıların xüsusiyyətləri hələ də dəqiq araşdırılmayıb. Ona görə də beş yaşın psixoloji imkanlarının sərhədləri haqqında konkret fikir söyləmək çətindir. Bununla belə bu yaşın bir sıra xüsusiyyətlərini təhlil etmək mümkündür.

Beşyaşlıların psixi inkişafında baş verən ən böyük nailiyyət fəaliyyətin daxili plandan xarici plana keçirilməsi üçün hərəkət vərdişlərinin əmələ gəlməsidir. Bu proses motivlərin iearxiyası prinsipi əsasında baş verir. Uşaq özünün tələbatlarını, sosial maraqlarını, mənəvi ehtiyaclarını yenidən tənzimləməyə başlayır, öz hərəkətlrində bu amillərin təsirini, sosial motivasiyanı cəmləşdirir. O, nə istədiyini bilir. Bu istəyə nail olmaq üçün hərəkət planı müəyyənləşdirərək qarşıya məqsəd qoyur və əldə edəcəyi nəticənin simvolik obrazını yaradır. [4] Bu mürəkkəb fəaliyyətin strukturunda "uşağın şəxsi qərar" planını görmək mümkündür. Bunları ümumiləşdirərək beş yaşının psixoloji səciyyəsini verə bilərik:

- 5 yaşlı uşaqda keçid dövrünün xususiyyətləri cəmləşir.
- fiziki, əqli, əxlaqi baxımdan psixodiaqnostika, psixokorreksiya və konpensasiya üçün əlverişlidir.
-5 yaşda şəxsiyyətin başlıca struktur kompanentlərinin formalaşması əsasən tamamlanır. [1]

Məktəbə yeni gələn uşaqdan iradi işlər görmək tələb olunur. Altı yaşda uşaqlarda iradənin əsas elementləri formalaşmış olur. Belə ki, uşaq qarşısına məqsəd qoyur, qərar qəbul etməyi bacarır, hərəkətinin planını qurur, maneəyə rast gələn zaman onu dəf etmək üçün müəyyən səylər göstərir. Lakin, bütün bunlar onda hələ zəif təzahür edir.

Tədqiqatlar göstərir ki, bu yaşda uşaqlarda məqsədə nail olmaq motivi formalaşmağa başlayır. Bundan istifadə etmək lazımdır. Uşaqlara iradi səy tələb edən tapşırıqlar vermək, tapşırıqların yerinə yetirilməsini tələb etmək onlarda iradəni formalaşdırır.

İdrak marağı inkişaf etmiş uşaqlar o qədər də maraqlı olmayan məsələləri buraxmaqla yaşlılara vacib suallar verə bilərlər. Bu davranış xüsusiyyəti məşğələlərdə təlim prosesini əhəmiyyətli dərəcədə çətinləşdirir. İş bir də onunla mürəkkəbləşdirilir ki, məşğələlərdə tərbiyəçi ayrı-ayrı uşaqlarla, onların marağını təmin etməklə deyil, qrupla məşğul olur. Qrupla təlim şəraitində müəllim eyni vaxtda çox uşağa müraciət edir. Uşaqların diqqətini onun izahına

cəmləşdirmək çətin olur. Burada çox maraqlı bir hal özünü göstərir. Geniş mənada təlim fəaliyyəti hər şeydən çox uşağın idrak marağına uyğun gəlir. Uşaq nə isə yenini bilmyə cəhd göstərir, nəyisə öyrənməyə çalışır, lakin əgər şagirdin müəllimlə ünsiyyəti zamanı idrak marağı üstünlük təşkil edirsə, əgər tərbiyəçi yalnız uşaqlar üçün yeni, maraqlı bilik və məlumat mənbəyi kimi çıxış edirsə, təlim prosesi əhəmiyyətli dərəcədə çətinləşir. [2]

Məktəbəqədər yaş dövründə uşağın nitqi sürətlə inkişaf edir, lüğət ehtiyatı artır, öz ana dilinin qrammatik qanunları əsasında danışmağa başlayır. Bu dövrdə uşağın nitqi üç istiqamətdə inkişaf edir:

1. Söz ehtiyatının artması;
2. Fonetik cəhətdən inkişafı, yəni səsləri düzgün tələffüz etməsi;
3. Nitqin qrammatik inkişafı.

Bu yaş dövründə uşaq nitqdən ünsiyyət vasitəsi kimi istifadə etməyi bacarır. əsasən o, ailədə, bağçada, bir sözlə onu əhatə edən insanlar arasında nitqdən ünsiyyət vasitəsi kimi istifadə edir. Nitqin bu cür ünsiyyət formasına situativ nitq deyilir. Deməli, uşaq situasiyadan asılı olaraq nitqdən ünsiyyət vasitəsi kimi istifadə edir.

Ünsiyyət dairəsi genişləndikdə uşağın kontekst nitqi (konkret mətnin mənaca bitməsi) inkişaf edir.

Nitqin bu növünə əsasən uşaqlar bağça məşğələləri zamanı yiyələnirlər.

Məktəbəqədər dövrdə uşağın yiyələndiyi nitq formalarından biri də izahlı nitqdir.

Uşaq bu nitqin köməyilə oyunun məzmununu yoldaşına izah edir. İzahlı nitq rabitəli nitqin bir formasıdır.

Bu dövrdə uşaqların nitqində fonetik cəhətdən bəzi qüsurları qeydə alınır. Onlar "R", "Z", "Ş" səslərini çətinliklə təlffüz edirlər. bu adətən məktəbəqədər yaşın sonunda, əksər hallarda isə kiçik məktəbli yaşı dövründə yox olur. Bəzən olur ki, uşağın nitq orqanında heç bir qüsur olmadığı halda o qüsurlu danışır. Bunun əsas səbəbi uşaqların düzgün tərbiyə olunmaması, yəni onlarla danışarkən sözlərin düzgün tələffüz olunmamasıdır. Məsələn, uşağın şirin danışması.

Məktəbəqədər yaş boyu uşağın nitqi həm fonetik, həm də qrammatik cəhətdən inkişaf edir. 6 yaşlı uşaqların lüğət ehtiyatı təxminən 300-dən 350-yə qədər söz ehtiyatına malik olur. [3]

Beləliklə, uşağın məktəbə hazırlanması prosesi bu problemə psixopedaqoji nöqteyinəzrdən kompleks yanaşma tələb edir. Onun müsbət həlli üçün həm ailədə, həm də uşaq bağçalarında valideyn və tərbiyəçilər qarşısında həlli mühüm olan vəzifələr qoyulur.

Məktəbə daxil olmaqla uşağın uşaqlığına son qoyulmur. Uşağa imkan verilməlidir ki, o, dərs prosesində şagird, ondan kənarda isə uşaq olsun. Lakin məktəbə getməmişdən əvvəl onun məktəbə daxilən hazır olmasına köməklik etmək lazımdır.

Məktəbəqədər təhsilin, o cümlədən uşaqların məktəbə psixoloji hazırlığının mahiyyəti çox vacib və həmişə aktual olan bir məsələdir.

İstifadə edilmiş ədəbiyyat

1. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2003
2. Bağırova L.Ş. Uşaqların məktəbə hazırlanmasının psixoloji məsələləri. Bakı: Nərgiz, 2003, s.. 27.
3. Baxışova S.A. Məktəbəqədər təhsil müəssisələrində uşaqların nitq inkişafı. Bakı, 2012
4. Kazımova G.S. Kiçikyaşlı məktəblilərin kollektivə adaptasiyasiyasında qarşılıqlı münasibətlərin rolu. Diss. 2014, BDU,

UOT 9/47.924

AZƏRBAYCAN TƏHSİL TARİXİNDƏ XÜSUSİ YERİ OLAN ŞUŞA QƏZA MƏKTƏBİ HAQQINDA

Samirə Əliağa qızı Qasımova
tarix üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Aqrar Universiteti
samira.qasimova82@mail.ru

Şuşa şəhəri əsrlər boyu Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur. Qarabağ xanlığının paytaxtı olmuş bu qədim şəhər özündə zəngin bir tarix yaşadır. Şuşa şəhəri orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsi, milli memarlıq incisi, Azərbaycan musiqisinin, muğamımızın, həmçinin maarifçilik ideyalarının beşiyi olmuşdur. Xalqımıza neçə-neçə ziyalı, tanınmış yazıçılar, şairlər bəxş edən Şuşanın həm də təhsil tariximizdə özünəməxsus yeri vardır.

Şuşa yarandığı gündən "Azərbaycanın milli mədəniyyət xəzinəsi", "Azərbaycan musiqisinin beşiyi", "Qafqazın konservatoriyası" kimi şöhrət qazanmışdır. Görkəmli musiqiçi B.S.Vinoqradov Şuşanın Azərbaycanın musiqi mədəniyyəti tarixində oynadığı roldan bəhs edərkən yazırdı: "Şuşalı musiqiçilər Azərbaycamn musiqi tarixini yaratmış və onu yalnız öz vətənlərində deyil, həm də Şərqin digər ölkələrində də təmsil etmişlər". Böyük Azərbaycan şairi Səməd Vurğun da Şuşanın Azərbaycanın mədəniyyəti tarixində mühüm rol oynadığını xüsusi olaraq qeyd edirdi. O yazırdı: "Azərbaycanın, demək olar ki, bütün məşhur musiqiçi və müğənniləri Şuşanın yetirmələridir. Təsadüfi deyil ki, Şuşanı musiqi və poeziyanın beşiyi adlandırırlar" [5, s.99].

Şuşa şəhəri həm də elmin, təhsilin, maarifçiliyin beşiyi olmuşdur. XIX əsrə qədər Azərbaycanda təhsilin pərakəndə formada olduğu və əsas təhsil müəssisələri məscidlərin nəzdindəki məktəblər (mollaxanalar), mədrəsələr, yaxud da savadlı insanların öz evlərində təşkil etdikləri məktəblərdən ibarət olduğu dövrdə şəhərdə bir neçə mədrəsə mövcud idi [6].

XIX əsrdə Azərbaycanda maarifçilik ideyalarının yayılmasında yeni bir mərhələnin başlandığı dövrdə də Şuşa inkişaf yolu ilə seçilirdi, burada yeni tipli dünyəvi məktəblər açılırdı. Belə ki, Şimali Azərbaycanın 1828-ci il Türkmənçay müqaviləsinin şərtlərinə əsasən Çar Rusiyasının tərkibinə qatılmasından bir il sonra, Cənubi Qafqazda, o cümlədən Azərbaycanda Avropa Rusiyasındakı məhəllə məktəbləri tipində qəza məktəbləri adı ilə tədris müəssisələri açmağın ilkin layihəsi meydana gəldi. Çar Rusiyasının məqsədi Cənubi Qafqazda yerli xalqları itaət altına almaq, ruslaşdırma siyasəti yeritmək, xalqın çarizmə qarşı həyəcanlarının qarşısını almaq, onları Rusiyaya yaxınlaşdırmaqla hakimiyyətini möhkəmləndirmək idi. Bu baxımdan işğal edilmiş ərazilərdə hakimiyyət orqanlarında işləmək üçün rus dilini bilən dövlət qulluqçularına duyulan ehtiyac ənənəvi (dini) məktəblərdən fərqli məktəblər açmaq zərurətini gündəmə gətirdi. Qafqaz Komitəsi tərəfindən tərtib edilən nizamnamə layihəsini nəzərdən keçirən Sipyagin ölkənin ehtiyaclarını nəzərə alaraq məhəllə məktəbləri deyil, birbaşa qəza məktəbi təsis etməyi lazım bildi. Beləliklə, 1829-cu il nizamnaməsinə əsasən XIX əsrin 30-cu illərində Azərbaycanda ilk dünyəvi təhsil verən məktəblər fəaliyyətə başladı.

1830-cu ildə (bəzi mənbələrdə 1927-ci il göstərilir) təməli qoyulan Şuşa qəza (əyalət) məktəbi Azərbaycanda və Cənubi Qafqazda ilk şəhər məktəbi oldu. Şuşada Bazel alman missionerlərinin Yevageli cəmiyyəti tərəfindən məktəbə bir il müddətinə pulsuz bina verildi. Məktəbdə Mirzə Həsən bəy Əmirov və Mirzə Aslan bəy Əmirov müəllim kimi fəaliyyət göstəriblər. Şuşa qəza məktəbi dövlət idarələri üçün qulluqçular, Azərbaycan və rus dillərində tərcüməçilər hazırlayırdı. Məktəbdə şəriət, oxu, yazı, rus dili, hesab, təcrübi həndəsə, coğrafiya, tarix, fizika, rəsm, rəsmxətt, nəğmə, gimnastika və s. tədris edilirdi. Məktəbdə təhsilin pullu olmasına baxmayaraq, ildən-ilə təhsil alanların sayı çoxalırdı. Əgər əvvəllər məktəbin iki sinfində 19 nəfər təhsil alırdısa, 1834-cü ildə

təhsil alanların sayı 44 nəfərə çatmışdı. Şuşa qəza məktəbində şagirdlərin sinifdənxaric oxusunu təşkil etmək və bədii zövqünü formalaşdırmaq məqsədilə kitabxana yaradılmışdı. 1845-ci ilin məlumatına görə, bu kitabxanada 301 adda kitab və tədris vəsaiti olmuşdur**.**

Lakin bir müddətdən sonra qəza məktəblərində təhsilin səviyyəsində bir sıra mühüm qüsurlar özünü göstərməyə başladı. Qəza məktəbləri təhsilin səviyyəsi və məzmununa görə Rusiyadakı məhəllə məktəblərinə bərabər olduğundan xan, bəy, zadəgan, məmur və tacir uşaqlarının təhsili üçün kifayət deyildi. Eləcə də təhsil müddətinin qısalığı, tədris edilən fənlərin azlığı, dərs vəsaitinin çatışmazlığı baxımından 1829-cu il "Cənubi Qafqaz məktəbləri haqqında əsasnamə"si ölkənin məktəb və maarifə olan ehtiyacını ödəmədiyindən qəza məktəblərini üç sinifli məktəblərə çevirmək, tədris fənlərinin sırasını genişləndirmək, həndəsəyə giriş, coğrafiya, tarix, rəsm fənlərini daxil etmək, müəllimlərin sayını artırmaq, yeni məktəblər açmaq və mövcud qəza məktəblərini təkmilləşdirmək üçün 1835-ci il mayın 12-də Cənubi Qafqaz məktəblərinin ikinci nizamnaməsi təsdiq edildi.

Bu dəfə qəza məktəblərinin məqsədi yuxarı təbəqələr arasında ibtidai savadı yaymaqdan əlavə şagirdləri Tiflis gimnaziyasında təhsillərini davam etməyə hazırlamaqdan ibarət idi. Birinci sinif hazırlıq sinfi omaqla, II və III siniflərdə şəriət, rus dilinin qrammatikası, coğrafiya, tarix, hesab və həndəsəyə giriş, hüsnxətt, rəsm və yerli dil tədris edilirdi. Tədris planında Azərbaycan dilinə həftədə cəmi 4, rus dilinə isə 8 dərs saatı təyin edilmişdi. Tədris fənləri rus dilində keçirilirdi, yerli dillər II və III siniflərdə tədris edilirdi. Azərbaycan dili ruslar üçün də məcburi fənn idi ki, bu da çarizmin əraziyə nəzarət edə bilmək siyasətinin bir hissəsi idi [7].

Bununla yanaşı islahatlar xalqın tələbini ödəməyən qəza məktəblərinin məzmununda dəyişikliklər edilməsini labüdləşdirdi. Belə ki, canişin M.S.Vorontsov Cənubi Qafqazı idarə etməyə başlayan kimi (1844) burada məktəblərin yeni nizamnaməsinin hazırlanması zərurətini irəli sürdü. 1846-cı ildə geniş səlahiyyətlər verilməsi isə ona Qafqazda bir sıra yenilikləri həyata keçirmək imkanı yaradırdı. Bununla əlaqədar olaraq, qəza məktəblərinin işində və məzmununda bir daha dəyişikliklərin edilməsi vacibliyi ortaya atıldı. Canişin M.S.Voronsovun başçılığı ilə Cənubi Qafqazda ölkənin idarə edilməsi üçün yararlı məmurlar hazırlamaq, Cənubi Qafqaz diyarı üzrə xüsusi tədris dairəsi yaratmaq, Cənubi Qafqaz diyarını imperiyanın digər hissələri ilə birləşdirmək, mövcud tədris planında rus dilinin, həmçinin yerli dillərin öyrədilməsini gücləndirmək, rus dilini düzgün bilmək, yerli əhalidən olan şagirdlərə bu dildə mükəmməl danışmağı öyrətmək, rusların yerli dilləri, ilk növbədə isə Azərbaycan dilini əsaslı öyrənməsinə nail olmaq və s. bu kimi digər prinsiplər əsasında 1848-ci il dekabrın 18-də Cənubi Qafqaz məktəblərinin yeni əsasnaməsi qəbul edildi. Yeni əsasnaməyə görə Şuşa qəza məktəbi Şamaxı-Dərbənd məktəblər direksiyasının tabeliyinə verildi və qəza məktəbi də yeni nizamnamə ilə işləməyə başladı.

1848-ci il nizamnaməsi üçün müəyyən edilmiş təcrübə müddəti başa çatdıqdan sonra 1853-cü il oktyabrın 29-da dördillik sınaq müddətinə "Qafqaz təhsil dairəsi və onun tabeliyində olan tədris müəssisələrinin nizamnaməsi" təsdiq edildi. Yeni əsasnaməyə görə Qafqaz Tədris Dairəsində inzibati dəyişiklik baş verdi və bunun nəticəsi olaraq Şuşa qəza məktəbi Tiflis məktəblər direksiyasının tabeliyinə verildi. 1860-cı il iyulun 2-də Qafqaz məktəblərinin yeni nizamnaməsi təsdiq edildi ki, bununla tədris müəssisələrinin daxili quruluşuna toxunulmadı, QTD ləğv edildi və bu islahat nəticəsində Şuşa qəza məktəbi Bakı məktəblər direksiyasının tərkibinə daxil edildi. 1867-ci il nizamnaməsinə görə, Cənubi Qafqazda yenidən qurulan 7 qəza məktəbindən Şimali Azərbaycanda yalnız Şuşa qəza məktəbi oldu. 1868-ci ildən isə mövcud qəza məktəbləri üç əsas sinifli məktəblərə çevrildi. 1868-ci ildən etibarən mövcud qəza məktəbləri üç əsas sinifli məktəblərə çevrildi. Şuşa qəza məktəbinin tədris planına fransiz dili daxil edildi ki, bu da onun Bakıya yaxınlığı və Bakıda real gimnaziyanın mövcudluğu ilə əlaqədar idi. Şimali Azərbaycanın qəza məktəblərində latın və Avropa dillərinin tədrisi Cənubi Qafqazın digər qəza məktəbləri ilə müqayisədə daha çox müvəffəqiyyət qazanmışdı. Xüsusilə Şuşada tacir silkindən olanlar digər ölkələrlə ticarət əlaqələri qurmaq üçün fransız dilini öyrənməyə daha çox səy göstərirdilər. Hətta Şuşa qəza məktəbinin 2 və

3-cü sinif şagirdləri fransız dilini qavrama səviyyəsinə görə gimnaziyanın eyni sinfindəki şagirdlərdən geri qalmırdı [4, 181].

Mərkəzi hökumətin Cənubi Qafqazda Rusiya şəhər məktəblərinə uyğun məktəblər yaratmaq haqqında 1872-ci il nizamnaməsi mövcud qəza məktəbləri əsasında şəhər məktəbləri yaratmaq fikrini gündəmə gətirəndə də Qafqaz Təhsil Dairəsinin hamisi (popeçiteli) Cənubi Qafqaz qəza məktəbləri içərisində ən çox şagirdi olan Şuşa qəza məktəbini şəhər məktəbinə çevirməyi təklif etdi. Cənubi Qafqazda Avropa tipli ilk dünyəvi təhsil ocaqlarından biri, Azərbaycanda isə ilk belə məktəb olan Şuşa qəza məktəbi 1874-cü ildə şəhər məktəbinə çevrildi. Şuşa şəhər məktəbi bütün Cənubi Qafqazda ilk şəhər məktəbi statusunu aldı. 1880-ci illərdə Şuşa şəhər məktəbi daha da inkişaf etdi, onun nəzdində xüsusi musiqi sinifləri, ipəkçilik peşəsi və bazar günü məktəbləri təşkil olundu. Bu məktəbdə müəllim kadrlarının hazırlığına da diqqət yetirilirdi. Belə ki, buranı bitirən məzunlar imtahan verərək ibtidai sinif müəllimi ola bilərdilər. Böyük maarifçilər, təhsil və pedaqoji fikir tarixinin görkəmli nümayəndələri Əliş bəy Tahirov, Firudin bəy Köçərli həmin məktəbin məzunudur [2, 94].

Beləliklə, 1830-cu ildə Şuşa qəza məktəbinin təsisi ilə Şimali Azərbaycanda Avropa tipli dünyəvi təhsilin əsası qoyuldu. Ənənəvi təhsildən Avropa tipli dünyəvi təhsilə keçid maarif sahəsində yenilik və inkişafla bərabər Şuşanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında mühüm rol oynamış, Şuşa əhalisinin maariflənməsi və rus dilinə yiyələnməsində mühüm rola malik olmuşdur. Məktəb Azərbaycanın o dövrdəki inkişafı üçün fəaliyyət göstərən şəxslərin yetişməsi baxımından mühüm əhəmiyyət kəsb edir [1, s.125].

İstifadə edilmiş ədəbiyyat

1. Baxışova R.R. Şuşa qəza məktəbi XIX əsrin ortalarında. Bakı Universitetinin xəbərləri, №3, 2014.
2. Cəbrayılov İ., Mikayılova K. (2022). Şuşa qəzasında ilk təhsil ocaqları. Azərbaycan məktəbi. № 2 (699).
4. Əhmədov H.M. XIX əsr Azərbaycan məktəbi. Bakı: Təhsil, 2006, 580 s
5. Mahmudov Y., Mustafayev C. Şuşa - Pənahabad. Bakı: Təhsil, 2012, 152 s.
6. https://files.preslib.az/projects/shusha/az/b2.pdf
7. https://tehsil.biz/news/az/47008/UA-thsil-mssislri-v-maarifilik

UOT 372.8:51

İBTİDAİ SİNİFLƏRİN RİYAZİYYAT DƏRSLƏRİNDƏ İNKİŞAFETDİRİCİ ÇALIŞMALAR VƏ ONLARIN HƏLLİ YOLLARI

Firidə Firudin qızı Mustafayeva
pedaqogika üzrə fəlsəfə doktoru
ADPU-nun Şamaxı filialı
mustafayevafiride@gmail.com

Cəmiyyətin məktəb qarşısında qoyduğu əsas vəzifə – hərtərəfli inkişaf etmiş şəxsiyyətlər hazırlmaqdan ibarətdir.

Şəxsiyyətin formalaşması üçün məktəb illərində təlim və tərbiyənin kompleks şəkildə tətbiqi lazımdır.

Uşağın həyatında onun əməkçi, intellekt kimi yetişməsində bağça və ibtidai məktəb dövrü böyük əhəmiyyət kəsb edir.

İbtidai məktəblərdə riyaziyyat təliminin təkmilləşdirilməsi müasir məktəbin ən vacib problemlərindən biridir. Riyaziyyat təliminin təkmilləşdirilməsi isə çoxşaxəli prosesdir və ona görə də bu işə müxtəlif istiqamətlərdən yanaşmaq lazım gəlir. İbtidai siniflərdə riyaziyyat təliminin məzmun və metolarının təkmilləşdirilməsi ilə yanaşı şagirdlərdə yüksək maraq, təşəbbüskarlıq və fəallıq təmin olunmalıdır. Təcrübə göstərir ki, ibtidai siniflərdə riyaziyyat dərslərinin daha maraqlı olması və şagirdlərin fəallaşdırılması üçün səmərəli yollardan biri də inkişafetdirici çalışmalardan istifadə edilməsindən ibarətdir. [6, s.3] İnkişafetdirici məsələlərdən istifadə zamanı şagirdlərin marağı, təşəbbüskarlığı, təfəkkür müstəqliyyi, fəallığı yüksəlir, özünənəzarət və riyazi əsaslandırma qabiliyyətləri formalaşır.

Riyaziyyatdan inkişafetdirici çalışmalar dedikdə aşağıdakılar nəzərdə tutulur: şagird bu məsələləri həll edərkən müşahidə, müqayisə aparmalı, müstəqil nəticə çıxartmalı, həllin mümkün üsullarını tapmağı, öz fikrini əsaslandırmağı, müəyyən qanunauyğunluğu aşkar etməyi bacarmalıdır.

Təlimin səmərəliliyinin yüksəldilməsində inkişafetdirici çalışmalar böyük potensial imkanları yaratdığına görə belə çalışmaların didaktik funksiyalarının dərindən öyrənilməsi vacibdir.

Riyaziyyat təlimində tətbiq edilən inkişafetdirici çalışmaları didaktik funksiyalarına görə aşağıdakı kimi qruplara ayırmaq olar:

1. Yeni biliyin verilməsinə xidmət edən çalışmalar.
2. Biliklərin tətbiqinə xidmət edən çalışmalar.
3.Şagirdlərin riyazi dünyagörüşünü möhkəmləndirməyə xidmət edən çalışmalar.

Yuxarıdakı təsnifat şərtidir, çünki eyni zamanda bir məsələ bir neçə didaktik funksiyaya malik ola bilər.

İnkişafetdirici təlim ideyaları məktəblilərin yaradıcı fəallığını artırmaq üçün dərsin hər mərhələsində müstəqil işlərin geniş tətbiqini tələb edir. Bununla belə, şagirdlərin ən yüksək fəallığı yeni materialın müstəqil mənimsənilməsi zamanı əvvəl qazanılmış bilikləri yeni tədris vəzifələrinin həllinə tətbiq etmə yollarını axtararkən daha qabarıq şəkildə meydana çıxır. [6, s.85]

Uşağa şəxsiyyət kimi müraciət etməli, onun ən yaxşı keyfiyyətlərini inkişaf etdirməliyik. Ona görə də təlim inkişafetdirici olmalı, uşağın əqli, zehni fəallığını biliklərlə zənginləşdirməli, idraki maraqlarını formalaşdırmalıdır. Bu dərslər əyani, obrazlı olmalıdır. Əyani təlim uşaqlarda görmə yaddaşını möhkəmləndirməyə və qətiyyətli olmağa kömək edir. K.D.Uşinski uşaq rənglərlə, formalarla, surətlərlə fikirləşir, buna görə də əyaniliyin köməyi ilə hər şey asan və daha möhkəm mənimsənlir, - deyə əyaniliyin zəruriliyini əsaslandırırdı.

III-IV siniflərdə şagirdlərin müşahidəçilik qabiliyyətinin və təfəkkürünün inkişafına aid tapşırıqlara daha geniş yer verilmiş, bunun üçün müşahidə, müqayisə, təhlil, tərkib ümumiləşdirmə, təsnif tələb edən və məntiqi düşüncə tələb edən çalışmalar sistemi verilmişdir.

Riyaziyyat dərslərində seçilmiş məsələlərin həlli şagirdlərin yaradıcı, intellektual qabiliyyətlərini və məntiqi düşünmə bacarıqlarının inkişafına kömək edir. Məntiqi düşünmə bacarıqlarının inkişaf etdirilməsi kiçkik yaşlı şagirdlərin riyazi dünyagörüşünü daha da genişləndirir və gündəlik həyatda ətraf mühitin qanunauyğunluqlarını daha inamla dəyərləndirməyə kömək edir. Bu məsələlər şagidlərdə intellektual səviyyəni artırmağa kömək edir. Onların araşdırma və düşünmə qabiliyyətinin daha da inkişaf etməsinə səbəb olur.

İbtidai siniflərdə şagirdlərin riyaziyyata marağını artırmaq və onların riyazi hazırlığını təmin etmək üçün elə şərait yaratmaq lazımdır ki, şagirdlər qarşıya çıxan çətinlikləri müstəqil surətdə aradan qaldırmaqla irəli sürükmüş məsələni həll etsinlər. Bu da öz növbəsində məktəblilərin təfəkkürünün, öz fikrini qısa, dəqiq, aydın və düzgün ifadə etmək bacarığının inkişafı, onlarda müstəqillik və təşəbbüskarlıq, əməyə məhəbbət, məsuliyyət hissi, qarşıya çlxan çətinliklərin dəf edilməsi üçün iradi keyfiyyətlərin tərbiyə olunması, başqa sözlə, şagidlərin ümumi inkişaf səviyyəsi üçün geniş imkanlar açır.

Əyləncəlilik öz mahiyyətinə görə marağın ifadə etdiyi bütün pedaqoji funksiyaları ifadə edir. Buna görə də Y.I.Perelman qeyd edir ki riyaziyyat təlimində əyləncəlilik vasitəsi ilə ən ciddi

materialları elə mənimsəmək olar ki şagird təfəkküründün dinamikliyinə geniş şərait yaranar. Onun fikrincə əyləncəli çalışmaların estetikliyi yüngül yumordan, gözlənilməzlikdən, orijinallıqdan və sadəlikdən ibarətdir. Bu zaman şagirdlərin təlim fəaliyyətlərinin növünün dəyişdirilməsinə xususi diqqət verilməlidir. Dərsin hər bir mərhələsində təlim prosesi elə təşkil olunmalıdır ki, şagird öz fəaliyyətini dərin dərk etsin, məqsədin təkcə əyləncəlikdən ibarət olmadığını başa düşsünlər. Bu işdə şagirdlərin düşünmək, nəticə çıxarmaq qabliyyətlərinin inkişafı və ümumiyyətlə onlarda təfəkkürün dinamikliyi xüsusi rol oynayır. Ona görə də əyləncəli çalışmaların didaktik funksiyalarına diqqət verilməlidir.

Əyləncəli məsələləri iki qrupa bölmək olar:

- əyləncəli məzmuna malik məsələlər – həllinin çox sadə və qeyri-adiliyi ilə seçilən məsələlər.
- maraqlı məzmuna malik olmaqla, məntiqi mühakimə tələb edən məsələlər.

Bir əyləncəli məsələ nümunəsinə baxaq. [5, s.54]

Məsələ 1. Fərhad məktəbə 18 konfet apardı. O, konfetlərin üçünü yolda yedi. Məktəbdə hər dəfə konfet yeyərkən Məltəmi və ya Sevinci qonaq etdi, üç dəfə isə o, hər iki qızı qonaq etdi. Bütün konfetlər yeyildisə, Fərhad neçə konfet yedi?

Həlli. Fərhad 3-nü yolda yedi, üç dəfə isə o, hər iki qızı qonaq etdi – 9 konfet yeyildi, bundan 3-nü Fərhad yedi. Qaldı 18−3−9=6 konfet. Bu 6 konfetdən isə hər dəfə konfet yeyərkən Məltəmi və ya Sevinci qonaq etdi, yəni 3-nü Fərhad yedi. Deməli, Fərhad 3+3+3=9 konfet yeyib.

Cavab: 9

III-IV siniflərdə ikinci növ məsələlərin həlli prosesində şagirdlər riyazi isbatın elementləri ilə tanış olur, təklifi əsaslandırma bacarıqlarına yiyələnirlər.

III-IV siniflərdə həll olunan maraqlı məsələ həlli nümunələrinə baxaq.

Məsələ 2. Köhnə saat hər saatda 20 saniyə geri qalır. Saat 12-də düzəldilmiş saat, bir sutkadan sonra hansı vaxtı göstərəcək?

Həlli. Əgər hər saatda 20 saniyə geri qalırsa, onda bir sutkada 24·20=480 san və ya 8 dəqiqə (480:60=8) geri qalar. Onda saat 12-də düzəldilmiş saat, bir sutkadan sonra saat 11.52-ni göstərəcək.

Cavab: 11:52

Məsələ 3. Bizim futbol komandası 31 oyun oynadı. Bu oyunlardan yeddisi heç-heçə başa çatdı. Komandamız 64 xal qazandı (3 xal –qələbəyə görə, 1 xal – heç-heçəyə görə, 0 xal – məğlubiyyətə görə). Komandamız neçə oyunu uduzub?

Həlli. Komanda 7 oyunu heç-heçə oynadığı üçün 7 xal qazanıb. Deməli, qazanılan ümumi xalın 57 xalı (64−7=57) qələbəyə görə qazanılıb. Onda komanda 19 oyunda (57:3=19) qələbə qazanıb. Deməli, komanda 5 oyunda (31−7−19=5) uduzub.

Məsələ 4. Elə ən kiçik ədəd tapın ki, bu ədədi 2-yə, 3-ə, 4-ə, 5-ə, 6-ya böldükdə qalıqda uyğun olaraq 1, 2, 3, 4, 5 alınsın.

Həlli. Axtarılan ədədi 2-dən 6-ya qədər olan ədədlərə böldükdə alınan qalıqlar böləndən bir vahid kiçik olur. Onda həmin ədədi bir vahid artırsaq, o 2-dən 6-ya qədər olan bütün ədədlərə bölünər. 2-dən 6-ya qədər ədədlərə bölünən ən kiçik ədəd isə 2·3·4·5=60 olduğundan, axtarılan ədəd 59 (60−1=59) olar.

Cavab: 59.

Lakin qeyd etməliyik ki, inkişafedirici çalışmalar I-IV siniflər üçün müəyyən təsnifata malik olmalı və bir sistem kimi müəyyən prinsiplərə cavab verməlidir. Bu çalışmalardan şagirdlərin asudə vaxtlarında da istifadə olunması yenə də təhsil və tərbiyə məqsədlərinə xidmət etməlidir. Məktəblinin əqli inkişafı ilə biliyinin səviyyəsi arasında müəyyən asılılıq mövcuddur. Lakin əqli inkişafı şagirdin mənimsədiyi biliklərin həcmi ilə müəyyən etmək düzgün deyil. Çünki əqli inkişaf etdirmək üçün bir sıra təfəkkür əməliyyatlarına sahib olmaq lazımdır. İnkişafetdirici çalışmalar həm çətinlik dərəcəsinə görə, həm də xüsusiyyətlərinə görə müxtəlif olur.

İnkişafetdirici riyazi çalışmalar inkişafetdirici təlimin də başlıca vasitəsi rolunu oynayır. Əyləncəli çalışmaların məzmunu həyatla əlaqədar olduqda, onların təlim əhəmiyyəti də yüksək olur.

İstifadə edilmiş ədəbiyyat

1. Əlizadə X. Düşün tap. Bakı, 2003
2. Əliyev A. və başqaları. Riyaziyyatdan əyləncəli çalışma və riyazi məzmunlu oyunlar. Bakı, 2003
3. Kazımov Z., Tağıyeva S. Riyaziyyat təlimində inkişafetdirici çalışmalardan istifadə yolları (I-IV siniflər), Bakı: 2017
4. Kurikulum jurnalları 2008-2017-ci illər
5. Mustafazadə S.V. 3-4 sinifdə riyaziyyat kursunda inkişafetdirici məsələlərin rolu və əhəmiyyəti, Bakı, 2017
6. Mustafayeva F.F. Riyaziyyat təlimində inkişafetdirici çalışmalardan istifadə yolları (I-Ivsiniflər) Bakı, 2019
7. Mustafayeva F.F. Riyaziyyat təlimində inkişafetdirici çalışmalardan istifadə yolları (I-IV siniflər üzrə çalışmalar) Bakı, 2018
8. Mustafayeva F.F. Riyaziyyat təlimində qrafik təsvirlərdən istifadə (I-IV siniflər) Bakı, 2019

УДК 378.372.854

СПОСОБЫ РЕШЕНИЯ ПРОБЛЕМ ПРЕПОДОВАНИЯ ХИМИИ В ВОЕННЫХ ВУЗАХ

Гюлли Гусейн Али кызы Гюллярли
кандидат химических наук
Военный институт имени Гейдара Алиева
axundzadegullu@rambler.ru

Целью современного военного высщего образования является подготовка офицеров владеющих широкими знаниями, умениями и навыками сформированные в процессе изучения многих фундаментальных наук, как математика, физика и химия. Надо отметить, что в процессе обучения химии в военных ВУЗ-ах встречаются некоторые проблемы и трудности. Основу этих проблем составляет слабая подготовленность поступающих в высшее военное учебное заведения. В последние годы снижение конкурса поступления в военные ВУЗ-ы тоже являются еще одной не маловажной причиной.

Можно привести еще много причин, таких как снижение качества преподования предмета в общеобразовательных школах и в военных училищ, частое обновление учебников.

Многие педагоги отмечают причину не понимания предмета в связи не владением практических умений. Так как в большинстве школ и училищ мало оборудованы химические лаборатории.

Многие курсанты имеют поверхностные знания о важных и основных понятиях химии, не до конца понимают валентность и степень окисления [1].

В результате анкетирования и аттестирования было выявлено, что многие курсанты не воспринимают большого объема материала по рабочей программе военных ВУЗ-ах. В итоге преподователи вынуждены начать обучение с первоначальных химических понятий.

Большинство курсантов не видят связи химии с будущей профессией, не понимают роли химической науки в системе подготовки военного специалиста, не могут увязять процессы протекающие во время эксплутации военного образования с законами химии. Это и есть основная причина слабого воспринимания предмета, так как создает психологический баръер при изучения предмета.

Надо отметить и то, что фундаментальные предметы изучаются на первом курсе и это совпадает с периодом адаптации курсантов условиями в военных ВУЗ-ах.

Таким образом в имеюшихся условиях преподование химии должно проводится с некоторыми особенностями. На первом месте стоит выбор учебных материалов, которые должны быть направлены на получения знаний для военной и военно-инженерной специализации. Другой основной задачей является мотивация обучающихся, объяснение им значимость химических знаний в формировании будующей профессии, показать закономерность химических реакций в вооружении и военной технике.

При создании рабочей программы обучения совмещать лекционные материалы с лабораторными практикумами.

Во время практических и лабораторных занятий имеет место качественные реакции, рассчеты, экспериментальные задачи, логические ситуации, которые выполняют мотивирующую функцию и развивают практические умения курсантов.

Психологический барьер, связанный с недостатком знаний начальной химии, можно преодолеть в ходе лабораторных и практических занятий. Это особо легко достигается у преподователей, владеющих методами и приемами современных технологий обучения [2].

Нужно дать возможность каждому курсанту работать в его индивидуальном темпе, на уровне его знаний и продвигать его обучение по созданной и запланированной педагогом пути.

В процессе обучения нужно создать междисциплинарную связь для формирования знаний в будущей профессиональной деятельности. Например, предельные углеводороды расматриваются как основа топлива, электрохимическая реакция как источник тока в гальванических элементах и аккумуляторах, и т.д.

В программах обучения химии часть количества часов отделяется на самостоятельную работу для развития правильного распределения временени, работы с литературой и интернетом, развития мышления и самостоятельного приема решений. Очень важно чтобы курсанты первого курса научились рационально распределять время для самостоятельной работы [3]. При этом преподователи должны направлять, организововать и контролировать деятельность курсантов.

Для улучшения качества преподования химии в военных высших учебных заведениях необходимо развивать научную деятельность курсантов. В пределах аудиторной деятелности оптимальной формой научной работы по химии может быть рефераты, или же доклады к научным конференциям, проводимых как в республике, так и зарубежом. Учитывая, что на курс химии в военных ВУЗ-ах отведено не много академических часов, во время занятий невозможно полностью осветить современные достижения химии, изучить все новые вещества, которые используются в производстве военной техники. Изучение современных композитных материалов, сталей, полимеров будет возможно в ходе военно-научной работе. Кроме того, раннее привлечение курсантов к исследовательской работе помогает выявить активных и способных к развитию курсантов.

Таким образом преподование курса химии в военных ВУЗ-ах должно быть особым, оно должно быть направлено на подготовку ведущих офицеров, формировании их умений и знаний. Чтобы увеличить качество образования химии нужен особый методический подход с различными формами методик специфичного обучения. [4].

Использованная литература

1. Шлякова, Е.В. Актуальные проблемы преподования курса химии в военном вузе / Е.В.Шлякова // Вестник Шадринского государственного педагогического университета. - №2(46) 2020.- С 195-197
2. Колеченко, А.К. Энциклопедия педагогических технологий. / Санкт-Петербург. - 2011
3. Həsənov, A. / Hərbi pedaqogika. / AAHM nəşriyyatı, Bakı-2018
4. Мария С. Пак. Теория и методика обучения химии. / Санкт-Петербург, Изд. РГПУ им. А.И.Герцена. / 2015. – С 305.

UOT 82-1/-9; 82-1/29; 821.512.161

İSTİQLAL, TÜRKÇÜLÜK TƏRƏNNÜMÇÜSÜ ƏHMƏD CAVAD

Günel Kamil qızı Yunusova
filologiya üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
gunel.yunusova@mdu.edu.az

Ədəbiyyatımız üçün ən ümdə mövzulardan biri Azərbaycanın milli istiqlalı, haqq-ədalət, azadlığa çağırış, azadlıq yolunda mübarizəsidir. Şair və yazıçılarımızın əksəriyyətinin yaradıcılığında biz Vətənimizin istiqlal tarixinin keçdiyi şərəfli yol tapdığını görürük. İstiqlaliyyət yolunda mübarizə aparan xalqın milli oyanışını özündə əks etdirən nümunələr ədəbiyyatımızın ən vacib örnəkləri hesab edilir. [4] C.Məmmədquluzadə, M.Ə.Sabir, H.Cavid, Ə.Cavad, A.Səhhət, B.Vahabzadə, X.R.Ulutürk, M.Araz və digər söz sənətkarlarımızın amalı hər zaman milli istiqlal olmuşdur ki, bu mövzu onların yaradıcılığının əsasını təşkil etmişdir.

Bu mübariz və istiqlal carçısı sənətkarlardan biri də Əhməd Cavaddır. Doğuşdan şair yaranan sənətkarın yaradıcılığını başdan-başa millətçilik, türkçülük və istiqlalçılıq təşkil edir. O, bütün ömrü boyu Azərbaycanın istiqlalı üçün çalışmış, mübarizə aparmış, şeirlərində bu fikir və idealı tərənnüm etmiş və həyatını da bu yolda fəda etmişdir.

Ə.Cavad Azərbaycan ədəbi-ictimai fikrində romantizm ədəbi məktəbinin istedadlı nümayəndəsi, nasir, publisist və “milli istiqlal şairi” kimi məşhurdur. Ədibin zəngin ədəbi yaradıcılığı istər milli tarixi, istərsə də ədəbi-mədəni irsimizi araşdırmaq baxımından elmimiz üçün dəyərlidir. Azərbaycanın yenidən müstəqil olduğu bu dövrdə Ə.Cavadın, o cümlədən onunla birlik olan yoldaşlarının - silahdaşlarının mübarizə dolu həyat yollarının, yaradıcılıqlarındakı ideya sənətkarlıq xüsusiyyətlərinin elmi şəkildə öyrənilməsi xeyli dərəcədə əhəmiyyətlidir.

Sənətkarın böyük işlərindən biri də onun keçən əsrin əvvəllərində Azərbaycandakı romantik poeziyanın nümayəndəsi kimi Türkiyə ilə ədəbi əlaqələrin inkişaf etməsində, türkçülük, turançılıq və istiqlal ideyalarının əmələ gəlməsində, eyni zamanda yayılmasında, iki ölkə arasında ictimai-siyasi və ədəbi-mədəni əlaqələrin güclənməsində, Türkiyədəki azadlıq carçısı şairlər ilə münasibətlərin genişlənməsi yolundakı işlər olub. Bunu da nəzərə almaq lazımdır ki, Ə.Cavad kimi Türkiyəyə bağlı olan ikinci sənətkar Azərbaycan ədəbiyyatında olmayıb.

O da Osmanlı poeziyasından, azadlıq və türkçülük hərəkatının aparıcı nümayəndələri – N.Kamal, T.Fikrət, R.Əkrəm, Ə.Hamid, M.A.Ərsoy, Rza Tofiq, M.Ə.Yurdaqul kimi sənətkarların yaradıcılığından qaynaqlanaraq və onların yurd, millət, milli mübarizə mövzulu şeirlərindən nümunə götürərək, əsərlərində türkçülük və turançılıq ideyalarını tərənnüm etmişdir.

Türkçülüyün, turançılığın şeiriyyətdə ən böyük romantik tərənnümçüsüdür Əhməd Cavad. Bu onun yaradıcılığında ən çox irəli sürülmüş mövzudur. Şair şeirlərində çox böyük qürur hissi ilə Turan yolçusu olduğunu söyləyir. [1, s.27]

Cavad Osmanlı dövlətinin Balkan və I Dünya hərbində Antantaya qarşı verdiyi savaşlarda birbaşa iştirakçısı olmuşdur. 1912-ci ildə Balkan savaşı ilə bağlı İstanbulda qurulan "Qafqaz könüllü bölümü" sıralarına qatılan Cavad I Dünya savaşında şərq cəbhəsində rus-erməni qoşunlarına qarşı döyüşmüşdür. Bu döyüşlərlə bağlı Cavadın çoxlu sayda şeirləri, yazıları var. [1, s.28]

Şair Osmanlının dünya hərbinə girdiyi dönəmdə "Çırpınırdı Qara dəniz" şeirini yazmış və türklərin qələbəsini arzu etmişdir. Şeir türklüyün mübarizəsini əks etdirmək baxımından önəmli bir yer tutur. Müəllifin şeirlərində əks etdirdiyi mövzulardan biri də türkün bayrağının bütün türk səmalarında dalğalanmasıdır. [1, s.28]

Ötən əsrin 15-ci ilində türklər şərq cəbhəsində ruslara məğlub olunca Türkiyənin şərq vilayətləri, o cümlədən Qars və Ərzurum rus qoşunu tərəfindən istila edilmiş və bu şəhərlərin xalqı rus-erməni qırğınına məruz qalmışdır. Bu dönəmdə Bakıda "Azərbaycan cəmiyyəti-xeyriyyə"si həmin vilayətlərə kömək etməyə başlamış, Cavad da kömək qrupları ilə buralara gəlmişdir. Qarsdan döndükdən sonra orada gördüyü mənzərəni bədii bir şəkildə "Nə gördümsə" şeirində belə təsvir etmişdir. [3, s.118]

I Dünya hərbinin sonlarında Qafqaz cəbhəsində türk ordusunun vəziyyəti yaxşılaşır və türk əsgərləri Bakıya tərəf gəlirlər. Həmin dönəmdə Ə. Cavad da Yasamal dağındakı səngərlərdə savaşır və "Bismillah" adlı şeirini yazır.

Hərbdən sonra ingilis işğalçılarının əlində qalan Bakı digər vətənpərvərlər kimi Cavadı da narahat edir və digər münəvvərlər kimi o dab u vəziyyətə etiraz edir. "İngilis" adlı şeiri də o dövrün məhsuludur. [3, s.140]

Ə.Cavad sovet rejimi hakim olduqdan sonra da istiqlal mübarizəsinə davam etmişdi. Həmin dönəmdə simvolizm şəklini özünə tərz seçmişdir. Şairdən 1 May Dünya Zəhmətkeşlər bayramı gününə aid bir şeir yazmağı istədikləri zaman o, "Mayis" şeirini yazır. [3, s.124]

Bu şeir çap olunduqdan bir qədər sonra ədiblərdən bir neçəsi Ə.Cavada "sənin hər il gəlməyinə ümid bəslədiyin mayis (may) dünya zəhmətkeşləri bayramı olan bir mayis deyil. Sənin gözlədiyin Azərbaycan istiqlalının elan edildiyi iyirmi səkkiz maydır. Neysan (nisan-aprel) ayında bu istiqlala rus qızıl ordusu üçün neysan yağışları ilə birlikdə sən də mayis üçün ağlayırsan" demişdilər.

Şair bu dövrdə yazdığı şeirlərin birində Azərbaycan milli bayrağını həsrətlə yad edib ondan xeyli vaxt ayrı düşdüyünü, bu ayrılıqdan yorulduğunu, bu ayrılığın ağir, ağrılı olduğunu və həsrətdən göz yaşı axıtdığını söyləmişdir. [2]

O, həyatını Azərbaycan istiqlal mücadiləsinə fəda etmiş, şeirlərinin birində bu işdə öz rolunu "mənim bu yurd, torpaq üçün kim olduğumu soruşanlara əzilən, tapdalanan bir ölkənin haqq səsi olduğumu söyləyirəm" şəklində bildirmiş, izhar etmişdir. [2]

İstifadə edilmiş ədəbiyyat

1. Ahmed Cevad anısına Türkiye ve türk dünyası araşdırmaları-V. Gaziantep 2020, s.23-41
2. Doktor Cavad Heyət. Azərbaycan ədəbiyyatı tarixinə bir baxış. Azərbaycan dövlət nəşriyyatı, Bakı,1998
3. Əhməd Cavad. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005, 296
4. Məmmədli Afina. Əhməd Cavad və Türkiyə. Bakı: Elm və Təhsil, 2010

UOT 81

KOQNİTİV DİLÇİLİKDƏ "DOMEN" ANLAYIŞI

Heydər İzzət oğlu Quliyev
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dillər Universitetinin dissertantı
heyderguliyev@mail.ru

Ümumiyyətlə, *domen (sahə - H.Q.)* anlayışı koqnitiv dilçilikdə çox əhəmiyyətlidir. Metafora və metonimiyanı anlamaq üçün *domen* anlayışından bəhrələnilir. U.Kroft bu barədə yazır: "Domen anlayışı metafora və metonimiyanı anlamaq üçün vacibdir. Xüsusilə, bir domen və ya fərqli domenlərlə əlaqəli olduğunu müəyyənləşdirmək həlledicidir. Vacibliyinə baxmayaraq, domen anlayışı ətraflı şəkildə müəyyənləşdirilməyib. Bu Trir və digərlərinin sahə nəzəriyyələrində olduğu kimi semantik sahə anlayışı ilə əlaqəlidir" [2, s. 164].

Semantik sahələr (semantic fields) ilk dəfə Trir tərəfindən irəli sürülmüşdür. Ənənəvi olaraq, semantik sahə müəyyən konseptual sahəni əhatə edən və bir-birilərinə müəyyən spesifik semantik münasibətlər yaradan leksemlər toplusu kimi qəbul edilir. Bu nəzəriyyədə əsas problemlərdən biri məna sahələrinin qurulmasında konseptin qeyri-müəyyən olması idi. Buna baxmayaraq, semantik sahə konsepti leksik semantikada aparılan araşdırmalarda az da olsa tətbiq edilir. U.Kroftun, Koqnitiv Semantikada domen anlayışının Tririn sahə anlayışı ilə əlaqəli olması fikri mübahisəlidir, çünki koqnitiv dilçilik semantik sahə anlayışını qəbul etsə də onun nəzəri prinsiplərini özünə uyğunlaşdırdı. Həm də koqnitiv semantikada standart semantik xüsusiyyət və ya kateqorizasiyanın meyar-atribut modeli əvəzinə prototip nəzəriyyəsinə əsaslanan söz mənası modelinə üstünlük verildi. Prototiplər koqnitiv istinad nöqtəsi rolunu oynayır. Bir yaxud bir neçə hədəf domenin (target domain) bir neçə mənbə domen (source domain) vasitəsilə anlanılması və nə cür mənbələrə şamil olunması məsələsinə Z.Köveçis "The scope of metaphor" adlı məqaləsində aydınlıq gətirməyə çalışır: "Metaforanın əhatə dairəsi sadəcə hadisələrin tam sırasıdır, yəni müəyyən mənbə konseptinin (müharibə, bina, alov kimi) tətbiq olunduğu bütün mümkün hədəf sahələrini əhatə edir" [6, s. 80]. A.Barselonaya görə, hər iki fenomenin (metafora və metonimiya – *H.Q.*) qarşılıqlı əlaqəsi mətnlər vasitəsilə açıq şəkildə edilə bilər və ya sırf konseptual səviyyədə baş verə bilər. O, konseptual səviyyədə qarşılıqlı əlaqənin iki növünü vurğulayır: *metaforanın metonimik motivasiyası* və *metonimiyanın metaforik motivasiyası* [1, s. 10].

Metonimiya ilə metafora arasındakı daha bir əsas fərq odur ki, metafora çarpaz-domen proyeksiyalarını (cross-domain mappings) əhatə edərkən, metonimiya vahid bir domen və ya domen matrisində proyeksiyanı əhatə edir. Bu ideya xüsusilə Zoltan Köveçisin və Günter Raddenin əsərində inkişaf etdirilmişdir. Koqnitiv semantikaya dair yeni əsərlərdə, xüsusən, Antonio Barselona son işlərində, metonimiyanın metaforadan daha vacib ola biləcəyini və metaforanı motivasiya edə biləcəyini iddia etmişdir. Metonimiya da metafora ilə eyni məqsədlərə xidmət edir, lakin bizə istinad edilən bəzi məqamlara daha çox diqqət yetirmək imkanı verir. O, yalnız poetik, ritorik mexanizm və sadəcə dil məsələsi deyil. Bu baxımdan da metaforaya bənzəyir. "Metonimik konseptlər (bütövün hissəsi kimi) adi, gündəlik düşüncəmizin və hərəkətimizin, danışığımızın bir hissəsidir. Metafora, metonimik konseptlər kimi yalnız dilimizi deyil, düşüncələrimizi, münasibətlərimizi və hərəkətlərimizi də strukturlaşdırır. Həm də metaforik konseptlər kimi, metonimik konseptlər də təcrübəmizə əsaslanır. Əslində, metonimik konseptlərin əsaslanması, ümumiyyətlə birbaşa fiziki və ya səbəb assosasiyalarını ehtiva etdiyi üçün metaforik konseptlərlə müqayisədə daha aydındır" [7, s. 39].

U.Kroft, domenləri və ölçüləri aşağıdakı kimi fərqləndirir: "Təcrübədə, o struktura, nisbətən profillənmiş bir çox konseptlər varsa, semantik strukturu domen adlandıra bilərik. Tək bir struktura nisbi profillənmiş konseptlər azdırsa, bunun əvəzində o struktura və digərinə nisbi profillənmiş

konseptlər varsa, onda o strukturların vahid domenin iki ölçüsü adlandırılması ehtimalı var. "Domen" termini ölçüdə olmayan, koqnitiv müstəqillik dərəcəsini ifadə edir" [2, s. 168]. U.Kroftun fikrincə, "konsept" sözlə simvollaşdırılan semantik strukturdur; R.Lonqaker [8] bunu "predikasiya" adlandırır. Elə konseptlər vardır ki, onları simvollaşdıran sözlər yoxdur. Müəyyən konseptlər 'birliyə məxsusdur' çünki təcrübə ilə əlaqələndirilir.

Domenləri müzakirə edərkən, Kroft bir konseptin müxtəlif ölçülərə (dimensions) və ya altdomenlərə (subdomain) sahib ola biləcəyini və ayrı-ayrı domenlərə aid ola biləcəyini vurğulayır. Bu domenlər sırası konseptin *domen matrisini* təşkil edir.

Domen matrisi anlayışı R.Lonqaker [8] tərəfindən irəli sürülmüşdür. O qeyd edir ki, matrisdəki domenlər və ölçülər arasındakı fərq *koqnitiv müstəqilliyə* əsaslanır. "Koqnitiv sahə" termini Ç.Fillmorun "çərçivə" (frame) terminə və ideallaşdırılmış koqnitiv model (İKM) terminə uyğundur. Mətnlərdəki sözlər və konstruksiyalar müəyyən bir fəaliyyət üçün müəyyən bir anlamı (və ya freymi) doğurur: "dinləyicisi onu başa düşmək üçün bir söz eşitdikdə freymə müraciət edir" [3, s. 7-8].

V.Evans *freymi* aşağıdakı kimi müəyyənləşdirir: "Konseptual səviyyədə təmsil olunan və uzunmüddətə yaddaşda saxlanılan və müəyyən mədəni mənşəli səhnə, vəziyyət və ya hadisə ilə əlaqəli element və cisimləri insan təcrübəsindən əlaqələndirən təcrübənin sxemləşdirilməsi (bilik strukturu). Freymlər atributlar və atributlar arasındakı əlaqələr də daxil olmaqla müxtəlif bilik növlərini əhatə edir" [4, s. 85]. Koqnitiv sahə anlayışı konseptdən daha genişdir. Məsələn, "rəng" koqnitiv sahəsi "qırmızı", "mavi", "yaşıl" və sair kimi konseptləri əhatə edir. Hər hansı leksik vahid bir-biri ilə əlaqəli koqnitiv sahələrin məcmusu ilə xarakterizə olunur. Koqnitiv sahələr danışanın nitq kontekstini və ya mövcud diskursu anlamasını da əhatə edir. Linqvistik ifadələrdəki bir neçə koqnitiv sahə, bu ifadənin mənasının əsası kimi, bir-biriləri ilə müxtəlif üsullarla əlaqələndirilə bilər.

Freym anlayışının ən geniş şərhini V.Evans [5; 9] leksik konseptlər və koqnitiv modellər nəzəriyyəsində (qısa şəkildə LKKM nəzəriyyəsi) vermişdir. **LKKM nəzəriyyəsi – 1)** leksik reprezentasiyadan (leksik konseptlər və koqnitiv modellər) və 2) verilmiş leksik konseptləri əldə etdiyi koqnitiv modellər vasitəsilə aktivləşdirən və ya leksik konseptlərin məna quruculuğundan ibarətdir.

LKKM nəzəriyyəsində, linqvistik formalar məzmunu olduqca sxematik olan, bir sıra koqnitiv modellərə və ya koqnitiv model profillərinə girişi təmin edən leksik konseptləri kodlayır. Bu, digər tərəflər və əlaqələr hesabına verilmiş koqnitiv modellərin xüsusi tərəflərini və əlaqələrini vurğulamağa xidmət edə bilər. Məna quruculuğu prosesi iki komponenti; söyləmdə hər bir forma ilə əlaqəli ən uyğun leksik konseptlərin seçilməsini nəzərdə tutan – 1) *leksik konsept seçimi* və inteqrasiya və interpretasiyadan ibarət olan və 2) *fuziya* ehtiva edən **leksik konsept inteqrasiyası** vasitəsilə reallaşır. Bu nəzəriyyədə sözlə əlaqəli semantik dəyərin hər istifadədə bir qədər dəyişəcəyi güman edilir.

*Leksik kons*ept linqvistik biliyin; spesifik leksik konseptlərin təmin etdiyi, dəqiq şəkildə müəyyənləşdirilmiş konseptual bilik və müəyyən nöqtələrdə giriş qovşaqları arasında interfeysi təmsil edən *koqnitiv model* isə konseptual biliyin yəni qeyri-linqvistik biliyin komponenti hesab olunur.

İstifadə edilmiş ədəbiyyat

1. Barcelona, A. 2003. Introduction. The cognitive theory of metaphor and metonymy. In: A. Barcelona (ed.), Metaphor and Metonymy at the crossroads. A Cognitive Perspective. Berlin: Mouton de Gruyter, p. 1-28

2. Croft, W. 2003. The role of domains in the interpretation of metaphors and metonymies. In R. Dirven and R. Porings (eds.), Metaphor and metonymy in comparison and contrast. Berlin/New York: Mouton de Gruyter, p. 161-205

3. Croft, W. and D.A.Cruse. Cognitive Linguistics. Cambridge: Cambridge University Press, 2004, 356 p.

4. Evans, V. A Glossary of Cognitive Linguistics. Salt Lake City: The University of Utah Press, 2007, 239 p.

5. Evans V. and S.Pourcel (eds.). New Directions in Cognitive Linguistics, Amsterdam / Philadephia: John Benjamins, 2009, p. 27-55

6. Kövecses, Z. 2003. The scope of metaphor. In A. Barcelona (ed). Metaphor and Metonymy at the Crossroads. A Cognitive Perspective. Berlin: Mouton de Gruyter, p. 79-92

7. Lakoff, G. and M. Johnson. Metaphors We Live By. The University of Chicago Press, 1980, 242 p.

8. Langacker R. W. Foundations of Cognitive Grammar. Vol. 1: Theoretical Prerequisites. Stanford: Stanford University Press, 1987, 516 p.

9. Язык и мысль: Современная когнитивная лингвистика /Сост.А.А.Кибрик, А.Д.Кошелев; ред. А.А.Кибрик, А.Д.Кошелев, А.В.Кравченко, Ю.В.Мазурова, О.В.Федорова. – М.: Языки славянской культуры, 2015. – 848 с. – (Разумное поведение и язык. Language and reasoning) с. 350-387.

УДК 37.032.5

СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКАЯ ПОДДЕРЖКА ЛИЦ С ОВЗ, ПРИВЛЕЧЕННЫЕ К ИНКЛЮЗИВНОМУ ОБРАЗОВАНИЮ. ПОДХОДЯЩИЕ МЕТОДЫ ДЛЯ ОСУЩЕСТВЛЕНИЯ СОЦИАЛИЗАЦИИ И УСПЕШНОЙ ИНТЕГРАЦИИ ЛИЦ С ОВЗ В СОВРЕМЕННОЕ ОБЩЕСТВО

Ирана Октай кызы Мамедова
доктор философии по филофофии
Азербайджанский государственный педагогический университет
elchin_mamedzade@hotmail.com

Интеграция и социализация детей с ОВЗ в общество означает участие в социальных отношениях, образовании, отдыхе и общественной деятельности. Положительно влияет на их общее развитие. Однако есть и другие факторы, препятствующие развитию детей с особыми потребностями в обществе и препятствующие их интеграции. Должны быть приняты комплексные меры по устранению таких барьеров и созданию благоприятных условий для таких детей в обществе. С этой точки зрения основной основой успешной интеграции таких детей в общество является их социальная реабилитация.

Одной из основных задач специальной педагогики и образования в целом является создание благоприятных условий для социального развития детей и поиск оптимальных путей их воспитания. Для осуществления воспитательного процесса и социальной реабилитации детей необходимо понимание их специфических особенностей. Эти особенности затрудняют их социализацию. В результате реабилитационных мероприятий, путем создания максимальных условий для самореализации детей, появляется возможность их интеграции в общество. Создание условий и оказание социально-педагогической помощи, которые позволят им реализовать свой реабилитационный потенциал, начиная с дошкольного возраста, является одним из важных вопросов. Этот период является эффективным периодом для социального развития детей. Младшие школьники, в той или иной степени, реабилитированные и поступившие в школу, также нуждаются в постоянной социально-педагогической помощи, но иногда дети с ОВЗ приходят непосредственно в

школу. В это время возникает больше трудностей. Им часто требуется адаптация к школе, общение со сверстниками и учителями, включение в учебный процесс. Поэтому социально-психологические услуги, оказываемые в школе, должны включать в себя оценку реабилитационного потенциала, выявление необходимых направлений развития, проведение коррекционно-восстановительных реабилитационных мероприятий. Решение проблемы заключается в том, что позволяет проводить социальную реабилитацию детей и способствует их интеграции в школьное сообщество, а также в другие сферы жизни общества.

Общество должно смотреть на них не как на объект, нуждающийся в помощи, а как на актуализирующийся и реализующий себя субъект. Социально-психологическая служба в школе должна строиться на взаимодействии учителя, коррекционного педагога и психолога. Привлечение профильных специалистов, изучение определенной литературы, организация педагогического процесса, проведение коррекционным воспитателем коррекционно-восстановительных и развивающих занятий и привлечение к этой работе родителей способствуют более быстрому и успешному развитию детей, что помогает реабилитироваться. Уровень незавершенности, потребности личности, семейное положение, социальная среда, в которой он живет, образование, полученное в дошкольной и школьной среде, инвалидность, возраст начала реабилитации также влияют на процесс социальной реабилитации и ее исход.

Педагогические и психологические основы обучения и воспитания детей с ОВЗ разных категорий в нашей стране разработаны многими специалистами. Однако мало внимания уделялось исследованиям социальной реабилитации детей-инвалидов с их типичными сверстниками. Неправительственные организации проводят обширные исследования в этой области и ведут определенную работу в сфере местных реабилитационных услуг и инклюзивного образования, используя зарубежный опыт [4]. В последнее время опубликованы научные статьи и книги о методах, используемых в процессе социальной реабилитации и воспитания детей с особыми потребностями [1]. К ним относятся «Инклюзивное образование», «Пособие по развитию детей с особыми потребностями», «Методы развития ребенка» и другие. Решение проблем, таких как оказание других социальных услуг, их социокультурная реабилитация и более эффективное проведение досуга, а также информирование населения играют важную роль в устранении стереотипов, влияющих на социализацию таких детей. Интеграция детей в общество через приобретение социального опыта возможна за счет оптимизации их физического, психического и социального потенциала. В такой деятельности посредством специально организованного обучения основное внимание уделяется включению детей в систему общественных отношений, формированию детей как достойных и продуктивных личностей в обществе в пределах их психологических и физиологических возможностей. Разработка комплекса психотехнических и педагогических средств является основой реализации воспитания.

Характер процесса социальной реабилитации определяется особенностями детей и воздействием на них. Социальная реабилитация является важной частью общей реабилитационной деятельности и создается в рамках медико-психолого-педагогических и экономических реабилитационных мероприятий и осуществляется конкретными психолого-педагогическими методами. Психологическая реабилитация – комплексное мероприятие, направленное на коррекцию или компенсацию нарушенных психических процессов, психических свойств и восстановление психологического здоровья. В основе работы лежит позитивное изменение личности. Такая реабилитация также обеспечивает психологическую подготовку при переходе от одного вида деятельности к другому.

Педагогическая реабилитация осуществляется на основе социальных законов общества под воздействием целенаправленных средств воспитания [3]. В процессе педагогической реабилитации дети осваивают учебную деятельность, приобретают знания, умения и навыки.

В результате удается исключить другие случаи, вызванные педагогической халатностью. Благодаря медицинской реабилитации осуществляется процесс физиологической защиты, укрепления здоровья, восстановления нарушенных в результате заболевания физических функций, выявления и активации компенсаторных возможностей, что играет большую роль в психическом развитии детей.

Использованная литература

1. Баталов, А. С. Использование инклюзивных педагогических технологий в диагностике речевого развития учащихся начальных классов / А. С. Баталов // Начальная школа, 2010. - №7. – С. 101-104
2. Инклюзивное образование: идеи, перспективы, опыт / Авт.-сост. Л. В. Голубева. – Волгоград: Учитель, 2011. – 96 с.
3. Маллер А. Р. Социальное воспитание и обучение детей с отклонениями в развитии : Практ. пособие. – М., [АРКТИ], 2005. – 174 с.
4. Booth, Tony, and Mel Ainscow. The Index for Inclusion. A Guide to School Development Led by Inclusive Values. 4th Edition. Cambridge: Index for Inclusion Network, 2016.
5. 2001. Overcoming Exclusion through Inclusive Approaches in Education: A Challenge and a Vision. Paris: UNESCO.
6. UNESCO (2007). Global monitoring report 2008: Education for All by 2015.Will we make it. Paris: United Nations Education, Science and Cultural Organization.
7. UNESCO (2009). Towards inclusive education for children with disabilities: A guideline Retrieved from
http://www.uis.unesco.org/Library/Documents/disabchild09-en.pdf

UDC 327.5; 327.56

RUSSIA'S INVASION IN UKRAINE AND ITS EFFECT ON CENTRAL ASIA

Mehmetali Kasim
Dr.
Nigde Ömer Halisdemir University
Türkiye
mkasimu@ohu.edu.tr

Introduction

Central Asia is geographically very large area encompassing Current five independent states and Chinese controlled East Turkistan. This region located in the heart of Euro-Asian continent and central place of ancient trading route. Historically this region considered to be the homeland of the Turks. But in modern times this landlocked and energy region became one of the center places of great power competitions. As a result of this the demographic structures, cultures, linguistics as well as political maps of the region shaped and changed by great power influence. Russia and China as dangerous neighboring great powers has been affecting every development of the region.

After the collapse of the Soviet Union former republics in Central Asia became an independent. But Moscow's influence remaining strong and Russian leaders used to see this region as its own backyard. Russian ambition to regain its historic status and decision to invade in Ukraine becoming a turning point for Russia and its influence in Central Asia. The Ukraine invasion is clearly exposed Russian evil ambition as well as its weakness to fulfill its goal. The attitude toward Russia as seeing a big brother and security guarantor is beginning to change. While the overall trade

volumes between Russia and Central Asian are increased, these countries benefited from war related increasing energy price and money flow, but in the long run it will have very consequential negative effects. The war weakened Russia and damaged its image. Russian's decreasing to secondary power and its increasingly inability to safeguard its influence will become opportunity for China to filing the gap. In the long run, if any geopolitical struggle will not occur or will fail between Beijing and American led coalitions which can curb its global ambition, China very possibly becomes dominant power in the whole region replacing Russia. Any attempt of Central Asian leaders' pursuing short term selfish interest and willingness to become independent from Russia and diversify its cooperation's from trade to defense may have accelerating this process.

Political and Security implications

Both Russia and Ukraine were the members of Soviet Union as like all independent Central Asian countries of Kazakhstan, Kyrgyzstan, Tajikistan, Turkmenistan, and Uzbekistan. They have close historical and political ties with both Moscow and Kiev. But the relations with Russia very special compared with Ukraine. This is because Moscow's very strong security, cultural, economic, and political influence of this region.

Since the Russian invasion in Ukraine began on February 24, 2022, the countries in Central Asia failed to openly condemn Russia because of fear in irritating its strong neighbor. These countries geographic inaccessibility and heavily continued dependence on Moscow for export routes, security aid, and labor markets also make Central Asian states hesitant to condemn Putin's actions [1]. While Central Asian countries did not openly oppose Russian invasion and not to join global sanctions on Russia but, they all concern about Russian aggression and next move of its leaders. They all fear repeating Ukraine like scenario in its own region.

Central Asian states expressing their concerns in another way without irritating Russia. While they failed to condemn Russian invasion but, they didn't support Russian aggression against independent Ukraine. They are expressing respect on territorial integrity and sovereignty of Ukraine and helped humanitarian assistance. They are not banned some anti-war demonstrations, allowed civil society groups to gather humanitarian support for Ukraine, and clamped down on local displays of the "Z" sign used by supporters of the war. These states leaders also echoed their assurance to Ukraine's territorial integrity. [2]

Russian invasion in Ukraine deteriorated images of Moscow in Central Asia. Before the invasion Russia considered most favored and most reliable partner of the Central Asian states. But with the invasion in Ukraine Russia turned itself from a key partner for Central Asian republics into a dangerous neighbor. Still Russia remains one of the most favorable destinations of Central Asians, but more and more people in the region began to feel uncomfortable and changing attitudes about Russia. Because they fear in seeing living example in Ukraine caused by nationalist leaders' ambition of restoring "Russian glory".

Təhsil sistemində zəif tərəqqi pedaqoji laqeydliyə gətirib çıxarır ki, bu da məktəbin və cəmiyyətin tələblərinə zidd olan mənfi şəxsiyyət xüsusiyyətlərinin kompleksi kimi başa düşülür.

Müvəffəqiyyətsizlik məktəb reallığının mürəkkəb və çoxşaxəli hadisəsidir və onun öyrənilməsində çox yönlü yanaşmalar tələb olunur.

Təəssüf ki, əksər pedaqoji tədqiqatlarda əsas diqqət müəyyən edilmiş nailiyyətlərə verilir. Amma biz əminik ki, şagirdin zəif inkişafı, mövzunun öyrənilməsi prosesində yaranan anlaşılmazlığın nəticəsidir. İstisnasız olaraq bütün müəllimlər bu fenomenlə üzləşdikləri üçün biz bu mövzunu bu gün çox aktual hesab edirik. Buna görə də biz Y.K.Babanskinin zəif tərəqqinin qarşısının alınması ilə bağlı fikrinə yaxınıq. Bunu etmək üçün şagirdləri diqqətlə müşahidə etməlisiniz ki, onun yeni yarandığı anı tuta biləsiniz. Məşhur bir ifadə var: "Xəstəliyin qarşısını almaq onu müalicə etməkdən asandır".

Şagirdlərin təlimdə geri qalmağı təbii olaraq onların fərdi xüsusiyyətləri və inkişafının baş verdiyi şəraitlə bağlıdır. Pedaqogika bu şərtlərdən ən mühümü kimi uşaqların məktəbdə təhsil və tərbiyəsini qəbul edir.

Şagirdlərin təlimdə geri qalmağı aşağıdakı əlamətlər olduqda aydın olur:

- yeni biliklər əldə etməyə can atmır,
- hər hansı bir çətinliklə qarşılaşdıqda passiv və/və ya panik
- biliklərini genişləndirməyə, bacarıq və bacarıqlarını təkmilləşdirməyə çalışmır,
- nailiyyətlərini qiymətləndirmir və ya qərəzli qiymətləndirir.

Tədris fəaliyyətini təkmilləşdirməyin yollarından biri uşağın müxtəlif idrak fəaliyyətini stimullaşdırmaq və dəstəkləmək, onun müxtəlif təzahürlərinin müsbət emosional gücləndirilməsi, inkişafı üçün şərait yaratmaqdır. Praktiki fəaliyyətində bu problemlə qarşılaşan müəllimin əsas vəzifələrindən biri də uşağın öyrənməyə həvəsini bərpa etməkdir. İnsanda "ətrafımızdakı dünyadan məna çıxarmaq və bunu özbaşına idarə etmək" üçün fitri ehtiyac var.

Qeyri-kafi məktəblilərlə işdə tərbiyəvi və inkişaf etdirici pedaqoji təsirlər ön plana çıxır. Uğursuz insanlarla işin məqsədi təkcə onların təhsil hazırlığındakı boşluqları doldurmaq deyil, eyni zamanda onların idrak müstəqilliyini inkişaf etdirməkdir. Bu həm də ona görə vacibdir ki, sinif yoldaşlarına yetişərək gələcəkdə onlardan geri qalmamalıdır. Natamam şagirdər üçün tələblərin müvəqqəti azaldılmasına icazə verilir ki, bu da onlara tədricən yetişməyə imkan verəcəkdir. Müasir humanist pedaqogika bizə deyir ki, müasir müəllim təsir mövqeyini qarşılıqlı pedaqoji dəstək və

əməkdaşlıq mövqeyinə dəyişməyə çalışır. Bu, məktəbdə tədris prosesinin daha məhsuldar və uğurlu olmasına imkan verir.Bəzi pedaqoji və psixoloji əsərlərdə təklif olunan münasibətlərin yenidən tərbiyəsi yolları səmərəli görünür: şagirdin qarşısına onun uğur qazana bilməsi üçün onun üçün əlçatan olan tapşırıqlar qoymaq. Ən kiçik uğurdan belə öyrənməyə müsbət münasibətə körpü qurmaq olar. Belə desək, fəaliyyətdə humanist pedaqogikanın əsas prinsiplərindən biri: pedaqoji nikbinlik prinsipidir. Geridə qalmanın səbəblərini vaxtında müəyyən etmək və onları aradan qaldırmaq çox vacibdir. Əgər aşağı siniflərdə uşaq öyrənmə fəaliyyəti bacarıqlarını və öyrənmək istəyini inkişaf etdirməmişdirsə, onda hər il öyrənməkdə çətinliklər ilə böyüyəcəkdir. Sonra valideynlər uşağın vəziyyətinə diqqət yetirir və təcili olaraq repetitor götürməyə başlayırlar. Amma adətən çox gec olur. Uşaqda artıq təlim prosesinə mənfi münasibət formalaşıb, o, əksər fənləri başa düşmür və hətta fərdi qaydada repetitorla dərs keçmək istəmir.

Təlimdə geri qalmanın problemi həmişə həll olunmağa çalışılıb. Belə bir qayda var: bir uşağın təhsildə geri qalmasının öhdəsindən gələ bilərsiniz, sadəcə ona öyrənməyi öyrətməklə. Bu məqsədlər utopik deyil, əslində, əldə edilə bilər. Məsələn, uşağa əsas fikri mətndən düzgün təcrid etməyi, mətnə başlıq qoymağı, ona suallar verməyi, nəticə çıxarmağı və s. Müasir standartlarda bütün bunlar "universal təlim fəaliyyəti" adlanır.Geniş mənada "universal təlim fəaliyyəti" termini öyrənmək bacarığını, yəni "subyektin yeni sosial təcrübənin şüurlu və fəal mənimsənilməsi yolu ilə özünü inkişaf etdirmək və özünü təkmilləşdirmək qabiliyyəti" deməkdir. Daha qısa mənada, bu termin yeni biliklərin müstəqil mənimsənilməsini, bacarıqların formalaşmasını, o cümlədən bu prosesin təşkilini təmin edən şagird hərəkətlərinin məcmusu kimi müəyyən edilə bilər.

Ümumi təhsilin məqsədlərinə uyğun olaraq, universal təhsil fəaliyyətinin aşağıdakı növlərini ayırd etmək olar:

- şəxsi;
- tənzimləyici (həmçinin özünütənzimləmə hərəkətləri də daxil olmaqla);
- məlumatlandırıcı;
- ünsiyyətcil.

Fərdi fəaliyyət növünə, məsələn, şagirdlər tərəfindən təhsil fəaliyyətinin məqsədi ilə onun motivi arasında əlaqənin qurulması daxildir. İdrak hərəkətlərinə misal olaraq konkret şərtlərdən asılı olaraq problemlərin həllinin ən təsirli yollarının seçilməsidir.Ünsiyyətin tapşırıqlarına və şərtlərinə uyğun olaraq öz fikirlərini kifayət qədər dolğunluq və dəqiqliklə ifadə etmək bacarığı kommunikativ nümunədir. Razılaşmamaq qeyri-mümkündür ki, öyrənmə qabiliyyəti şagirdlərin fənn biliyini mənimsəmənin səmərəliliyinin artırılmasında, bacarıq və sərişтələrin formalaşmasında, dünya imicinin və şəxsi mənəvi seçimin dəyər-semantik əsaslarının formalaşmasında mühüm amildir. Şagirdlərin təlim-tərbiyə işinin səmərəliliyi son nəticədə onların şəxsi tərbiyəsinin xarakteri, mənəvi və ictimai keyfiyyətləri ilə müəyyən edilir. Ona görə də təlim elə aparılmalıdır ki, hər bir şagirddə yüksək əxlaqlı, yaradıcı fəal və ictimai yetkin şəxsiyyətin tərbiyəsinə maksimum töhfə versin.Müəllim şagirdin qabiliyyətinə və güclü tərəflərinə inanmalıdır. O, hər bir şagirdin ən yaxşı və güclü tərəflərini müəyyən etməli və şagirdlə birlikdə onun zəif cəhətlərinə qarşı mübarizə aparmalıdır. Müəllim şagirdin nöqsanlarını aradan qaldırmaq üçün onun fəzilətlərini axtarmalı, hər bir şagirdin hansısa sahədə uğur qazanmasına şərait yaratmalıdır. İrlandiyalı ingilisdilli şair və dramaturq Uilyam Batler Yeatsin "Təhsil vedrəyə su doldurmaq deyil, ocaq yandırmaqdır" ifadəsini tam dəstəkləyirik. Buna görə də, uşağı əhatə edən insanların "onda bir qığılcım alovlandırması" lazımdır, eyni istək, maraq, yaşamaq və hələ də çox sirli və naməlum olan dünya haqqında öyrənmək üçün ehtiraslı istək lazımdır. Və birdən bu işıq qəflətən sönməyə başlasa, bu anı qaçırmamalı, təzələnmiş güclə alovlanması üçün vaxtında loglar atmalıyıq!

Məktəblilərdə çox vaxt o qədər inkişaf etmiş bir özünütənzimləmə yoxdur ki, məqsədyönlü şəkildə bir neçə saat ardıcıl olaraq təhsil fəaliyyətini həyata keçirə bilsinlər. Ənənəvi tədris, əsasən, ünsiyyət və nümayiş üsulları ilə - uşaqdan zahirən passiv olanlara bənzəyən öyrənmə fəaliyyətini həyata keçirməyi tələb edir: dinləmək, oxumaq, müşahidə etmək. Lakin əslində tədris materialının

uğurla mənimsənilməsi üçün bu xarici passivlik yüksək daxili fəallıq, diqqət, yaddaş və təfəkkürün bütün resurslarının səfərbər edilməsi ilə müşayiət olunmalıdır. Bu resursların çatışmazlığı akademik təhsildə qeri qalmanın ilk psixoloji səbəbidir.

İkincisi, uşağın zehni fəaliyyətini müstəqil şəkildə idarə etmək, yəni idrak proseslərindən istifadə etmək üçün formalaşmamış qabiliyyəti: öyrənmə tapşırığına diqqət yetirmək (könüllü diqqət), məlumatı məqsədyönlü şəkildə yadda saxlamaq və çoxaltmaq (könüllü yaddaş), müqayisə etmək, ümumiləşdirmək və nəticə çıxarmaq yeni biliklər əldə etmək.

Akademik təlimdə geri qalmanın üçüncü psixoloji amili qeyri-kafilik və ya motivasiyanın pozulmasıdır. Hər hansı bir fəaliyyət, o cümlədən təhsil, bir şey tərəfindən stimullaşdırılmalıdır, yəni bir motiv olmalıdır, əks halda bu, sadəcə olaraq həyata keçirilmir. Öyrənmə fəaliyyəti üçün motivlər daxili və xarici ola bilər. Daxili motivlər maraq, maraq, ətrafımızdakı dünyanı dərk etmək istəyi, idrak prosesinin özünə ehtirasdır. Daxili motivlərin əsasında fitri ehtiyaclar dayanır: zehni fəaliyyətdə, məlumat əldə etməkdə, yenilikdə. Bu ehtiyaclar ilkin olaraq hər bir uşağın psixikasında mövcuddur, baxmayaraq ki, onların intensivliyi fərdi uşaqlarda çox fərqli ola bilər. Bəzən o qədər aşağı olur ki, təkcə daxili motivlər uşağın uğurlu təhsilini təmin edə bilmir. Sonra böyüklər xarici motivlər adlanan xüsusi pedaqoji üsullardan istifadə edirlər. Bunlar cəza və mükafatlar, təhdid və tələblər, rəqabət və qrup təzyiqləri, tərifl ər, ambisiyaların oyanması, gələcək fayda və üstünlüklərə aydınlıq gətirmək və s.

Zəif irəliləyişin digər səbəbi "pedaqoji laqeydlik"dir ki, bu da ətrafdakı böyüklərin ictimailəşdirici təsirlərinin olmamasından qaynaqlanan uşağın şəxsiyyətinin sosial yetişməməsidir; çox vaxt bu sadəcə nəzarətdir.

Pedaqoji amillər uşaq üçün obyektiv reallığı təmsil edir, o, qəbul etməli və orada yaşamağı öyrənməlidir. Buraya məktəb mühitinin bütün xüsusiyyətləri daxildir:

- sinifdəki şagirdlərin sayı və tərkibi;
- təlimin birinci və ya ikinci növbəsi;
- müəllimin ixtisası və ünsiyyət tərzi;
- təlimin keçirildiyi proqram və s.

Təlimdə geri qalmanın patoloji amilləri

Bu qrupa uşaqların zehni inkişafında müxtəlif sapmalar daxildir. Bunlara, ilk növbədə, müxtəlif mənşəli tez-tez zehni geriləmələr və mərkəzi sinir sisteminin "lokal" (yerli) lezyonları daxildir ki, bu da yazının (disqrafiya), oxumanın (disleksiya), hesablamanın (diskalkuliya) davamlı pozulmasına səbəb olur. Hansı pozuntunun əsas olmasından və uşağın davranışına və uyğunlaşmasına ən çox təsir etdiyindən asılı olaraq, zehni inkişafdakı bütün sapmaları, şərti olaraq, üç qrupa bölmək olar:

- koqnitiv pozğunluqlar;
- şəxsiyyətin inkişafında pozuntular;
- şəxsiyyətlərarası münasibətlər sahəsində pozuntular.

Praktikada bu və ya digər dərəcədə bütün bu pozuntular eyni uşaqda ola bilər. Dərin diaqnostika psixoloji və pedaqoji korreksiyanın mümkün qədər təsirli olması üçün sosial-psixoloji uyğunlaşmanın pozulmasının əsas səbəbini müəyyən etməyə kömək edir.

İstifadə edilmiş ədəbiyyat

1. N.Çələbiyev. Uşaq psixologiyası (dərs vəsaiti). Bakı, 2005
2. N.Z.Çələbiyev. Təhsil sistemində psixoloji xidmət (dərs vəsaiti, 2-ci hissə). Bakı, 2009
3. M.Həmzəyev. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2000
4. Kərimov Y. Təlim metodları. Bakı, 2009
5. Ю.К. Бабанский. Избранные педагогические труды. М., 1989
6. Л.Выготский. Психология развития ребенка. М.: Эксмо, 2006

UOT 82-7

AZƏRBAYCAN ƏDƏBİYYATINDA TƏŞƏKKÜL TAPAN SATİRA NÖVLƏRİ

Ulduz Fərhad qızı Qəhrəmanova
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
ulduzkahraman1@gmail.com

Satirada isə ifşa hədəflərinə qarşı tənqid atəşləri eyhamlı, üstüörtülü şəkildə olur və özünü ifşadan, istehza, kinayə, atmaca kimi vasitələrdən istifadə edilir. Cəmiyyət inkişaf etdikcə nəyin pis, nəyin yaxşı olduğu gündəmə gəldikcə cahilliyə, naqisliyə etiraz motivləri müxtəlif formalarda bədii əsərlərdə özünü göstərməyə başlamışdır. Klassik Azərbaycan ədəbiyyatına nəzər saldıqda ictimai ədalətsizliklərə qarşı etiraz notları Xaqaninin, Nizaminin, Nəsiminin, Füzulinin və b. sənətkarların yaradıcılığında bu və ya digər şəkildə özünün bədii ifadəsini tapmışdır. Ancaq hər hansı etiraz və ya ictimai haqsızlıqlarla barışmazlığını satira adlandırmaq düz deyil. Bu etiraz və narazılıq, barışmazlıq milli ədəbiyyatımızda satiranın inkişafında sadəcə olaraq müəyyən bir rol oynamışdır. Satira və gülüş bütün dövrlərdə şifahi və yazılı ədəbiyyatda bu və ya başqa formada özünü göstərmişdir.

Elə ədəbi növlər var ki, bunlar satira və yumorsuz təsəvvürə gəlmir. Məsələn: komediya, həcv, epiqram və s. satirasız, yumorsuz mövcud ola bilməz. Satira janr baxımından müxtəlifdir: hekayə, qoşma, gəraylı və s. formalarındadır. Satira ən çox düşmənlərə, köhnə cəmiyyət qalıqlarına qarşı işlədilən ən kəskin silahdır.

Ədəbiyyatşünaslar satiranı aşağıdakı növlərə bölübdür: həcv, epiqram, parodiya, pamflet, nadirə.

1. Həcv: Satiranın qədim növü olub, Azərbaycan ədəbiyyatında geniş yayılan satirik şeir növlərindəndir. Satira, adətən, obyektiv olsa da, bəzən subyektiv xarakterdə də olur. Həcvdə ayrı-ayrı şəxslər kəskin, ifşaedici tənqidə məruz qalırlar. Həcv üçün forma yox, satirik məzmun daha xarakterikdir. Həcvdə həm şəxsi motivlər, həm də ictimai-siyasi məzmun üstünlük təşkil edir. Azərbaycan ədəbiyyatında həcv yazanlardan Qasım bəy Zakirin, Seyid Əzim Şirvaninin, Abdulla bəy Canıoğlunun və b. adlarını çəkmək olar. Həcv yazanların içərisində xüsusi insanların tapşırığı ilə ayrı-ayrı şəxsləri həcv edən peşəkar həcv yazan şairlər də var idi. XIX əsrdə Azərbaycan ədəbiyyatında yaşayıb-yaratmış satirik şairlərin əksəriyyəti həcvlərdən ictimai-satiraya keçmişlər. Həcv Azərbaycan ədəbiyyatında ictimai satiranın ilk rüşeymidir. Çünki həcv yazanların əksəriyyəti XIX əsrdə ictimai satiraya keçdilər. Satirik poeziyanın kökündə bir sıra poetik şeir şəkilləri durur ki, bunlardan geniş işlənmiş forması təmsil və həcv yaradıcılığıdır.

Azərbaycan satirik poeziyasının təşəkkülündə təmsil yaradıcılığı həcvlə yanaşı inkişaf etmişdir. Sənətkarlar sanki təmsildə rəmzlərlə deyə bilmədiklərini daha kəskin şəkildə həcv janrında ifadə etmişlər. Şərq ədəbiyyatında, o cümlədən, Azərbaycan ədəbiyyatında satirik gülüşün tarixi həcv şəklində meydana çıxmışdır. Komik və satirik əsərlər orta əsrlərdən başlayaraq həcv formasında inkişaf etmişdir. Həcvi ancaq bir adama qarşı şəxsi nifrət motivləri ilə izah etmək olmaz. Həcvin tarixi qədimdir. Həcv yaradıcılığı şərin, nifrətin, yalanın varlığına, həm də kəskin inkarına xidmət edir. Həcv yaradıcılığı bütün zamanlarda çirkab mühitin təmizlənməsinə xidmət göstərir. Qaba ifadələr, söyüş və təhqirlərlə dolu olan sırf şəxsi maraqları ifadə edən həcvləri satira növünə aid etmək düzgün deyil. Həcvdə paxıllıq, bədxahlıq, nadanlıq, cəhalət, rüşvətxorluq, rəzalət, haramlıq, ədalətsizlik kimi naqis əməllər pislənilirsə, bu ictimai nöqsanların işlənilməsi deməkdir. "Həcvlikdən ictimai satiraya keçid dövrü türk satirasının ikinci mərhələsidir" [2, s.45]. Elə bu hökmü Azərbaycan ədəbiyyatına da aid etmək olar. Hətta XIX əsr məclislər dövründə də məclis şairləri arasında nəzirəçiliklə yanaşı, həcv də geniş yayılmışdır.

2. Epiqram: Avropa ədəbiyyatında geniş yayılmış, məzmunca Şərq ədəbiyyatına məxsus həcvə yaxın, satirik ruhlu janrdır. Azərbaycan ədəbiyyatında buna həcv yaxud taziyanə adı ilə təsadüf edilir. Lakin epiqramlar həcvə nisbətən həcmcə çox kiçik, yığcam, lakonik, əsasən 4 və ya 6 misradan ibarət olan şeir parçasıdır. Bəzən epiqram bir beytdən və ya bir bənddən də ibarət ola bilər. Epiqrammanın tarixi çox qədimdir. Bu janra indi də yunan ədəbiyatında rast gəlirik. Fəqət qədim zamanlarda epiqramma bir abidənin, heykəlin, yaxud binanın üzərində yazılan qısa mənzum, ya mənsur yazıya deyilirdi. Epiqram həm yumorda, həm də satirada istifadə olunur. Epiqramma yunanca "yazı", "qol çəkirəm", "imza edirəm" deməkdir. Roma ədəbiyytında həcv xarakteri daşıyan əsərlərə epiqramma deyərdilər. Roma şairi Katul öz epiqrammaları ilə məşhurdur. Bu gün epiqramma qısa şəkildə yazılmış müəyyən bir şəxsə, yaxud idarəyə qarşı çevrilmiş istehzalı bir qısa mənzuməyə deyilir. Epiqramma həm müəyyən bir şəxsə, həm də cəmiyyətin müəyyən nöqsanlarının tənqidi üçün işlədilir. Epiqramma qısa həcmli, zarafat yaxud istehza xarakteri daşıyan kiçik bir mənzumədir.

3. Pamflet: Satirik ədəbiyyatımızın ən populyar bədii nəsr və nəzm janrlarından biridir. Əsasən, publisistik üslubda yazılan pamflet ictimai-siyasi quruluşun, eləcə də onu təmsil edən ayrı-ayrı şəxslərin əleyhinə yazılmış kəskin, istehza və kinayə ilə dolu satirik əsərdir. Sosial-siyasi məzmunlu, həcmcə o qədər də böyük olmayan pamflet bir janr kimi Renessans (İntibah) dövründə formalaşmışdır. Dünya ədəbiyyatında Conatan Sviftin, Daniel Defonun, Radişşevin, Belinskinin, Gertsenin, Qorkinin və başqalarının pamfletləri ictimai məzmunu, satirik ruhu ilə seçilir. Bu janr Azərbaycan ədəbiyyatı üçün o qədər də xarakterik janr deyildir. Satirik əsər olan pamflet insanların sosial davranışındakı hər hansı bir mənfi cəhəti, onların mənəvi qüsurunu tənqid etməyə, həmin eybəcərliklərə gülməyə yönələn janrdır. Öz tarixi etibarı ilə felyetondan da daha qədimdir. Həcm etibarı ilə pamflet janrı nisbətən kiçikdir. Pamflet yunan dilindən tərcümədə "yandırıram, alovlandırıram" anlamında işlədilir. Pamflet gülüş, sarkazm, istehza əsasında yaranır. Pamflet həmçinin obrazın öz dili ilə özünü ifşa etməsinə, yandırmasına deyilir.

XX əsrin əvvəllərində Azərbaycan satirik mətbuatında pamflet janrının nümunələrinə Cəlil Məmmədquluzadənin, Ömər Faiq Nemanzadənin, Üzeyir Hacıbəyovun və b. yaradıcılığında rast gəlirik. Əflatun Məmmədov "Azərbaycan bədii nəsri (XIX əsrin sonu – XX əsrin əvvəlləri)" adlı monoqrafiyasında pamfletin Azərbaycan bədii nəsrində məhz 1905-ci ildən formalaşdığını göstərir. Məsələn: Ü.Hacıbəyov "Stolipinin xəyalı" (1907, 3 may, "İrşad" qəzeti) əsərində müəllif yaratdığı obrazın öz dili ilə özünü tənqid edir. Üzeyir bəy Hacıbəyov kinayədən bəhrələnməklə Stolipinin iç üzünü açıb göstərir.

Azərbaycan ədəbiyyatında bu janra müraciət edən sənətkarlardan biri də M.Ə.Sabirdir. Sabirin "Sonya, ey dilbəri-pakizə əda!" satirası pamflet janrına nümunədir. Bu satira S.Ə.Şirvaninin tərkibbəndlərinin birinə yazılan bənzətmədir.

Ədəbiyyatşünaslara görə, Seyid Əzimin "Ey qəmin bu dili-məhzuna fəda" misrası ilə başlayan şeirindən M.Ə.Sabir 10 bəndlik "Sonya, ey dilbəri-pakizə əda!" adlı satirasını **təzmin** etmişdir. Seyid Əzimin 7 bənddən ibarət olan həmin şeirinə Sabir 3 bənd də artırmışdır. Şairin özündə və A.Səhhətin nəşrində bu şeirin başlığı bənzətmədir. Buna baxmayaraq, Ə.İ.Cəfərzadə bu şeirin müəllifdəki adını ləğv edib, özündən "Gözəlim" deyə buna başlıq qoymuş və başlığın altında Seyid Əzimin bu əsərindən birinci bəndi gətirərək, "mətləli girizgahından təzmin" sözlərini əlavə etmişdir. "Hophopnamə"nin sonrakı tərtibçiləri isə Sabirin bu əsərini tamam başlıqsız vermişlər. Hər bəndin özü də 8 misradan ibarətdir. Sabir bu şeir formasının vəznini, qafiyə sistemini almış, ancaq satirik məzmunda bir əsər yaratmışdır.

Əgər Seyid Əzim aşiqin sevgilisinə xitablarını, hicran, fəraq həsrətlərini və ümumiyyətlə, lirik hisslərini ciddi bir planda təsvir edirsə, M.Ə.Sabir həmin şeirə uyğun bir ahənglə Naqdı bəy adlı əxlaqsız bir müsəlmanın öz aşnasına xitablarını satirik bir dildə ifadə etmişdir. Sabirin qüdrətli satirik qələmi o zaman müsəlman ruhani, tacir və yalançı ziyalılar arasındakı əxlaqsızlığın xarakterik bir mənzərəsini çəkmişdir. Naqdı bəy yalnız bir fərd kimi yox, o zaman ticarət

şəhərlərində özlərini "oxumuş" qələmə verən əxlaqsız kişilərin xarakterik nümayəndəsi kimi verilir. Bəs bənzətmə nədədir? Hər iki şairin qəhrəmanı aşiqdir, biri ürəkdən sevdiyi qızın məhəbbətilə yanır, digəri isə əxlaq və məişət pozğunluğuna tutulan şəhvət düşkünüdür. Biri müsbət, digəri mənfidir. "Gözəlim, şimdi nədir fərmanın?" sualı ikisinə də yaraşır, birinin ifadəsində kədər, digərində gülüş doğurur. Bundan başqa hər iki şeirin vəzn və formasında da bir bənzəyiş vardır.

S.Ə.Şirvaninin həmin tərkibbəndin aşağıdakı bəndini Sabir öz əsərinin əvvəlində sanki epiqraf kimi vermişdir:

Ey, qəmin bu dili-məhzunə səfa,
Kəbeyi-kuyinə eşq əhli fəda,
Hər qədər eyləyəsən cövrü-cəfa,
Mən sənə eyləməzəm qeyri-vəfa,
Hər nə hökm eylədin, ey mahliqa,
Cümləsi oldu muradınca rəva!
Gözəlim, şimdi nədir fərmanın?
Canı qurban sənə bu nalanın!... [13, s.92].

Burada Seyid Əzim aşiqin saf və səmimi eşqindən doğan duyğularını lirik bir üslubda qələmə almışdır. Həmin lirik qəhrəmanın əsl aşiq obrazı şeir boyunca tamamlanır. M.Ə.Sabirin satirasında isə öz əhli-əyalını atıb başqa birisinin dalınca düşən şəhvət düşkünü, əxlaqsız bir müsəlman kişisinin satirik obrazı yaradılmışdır.

M.Ə.Sabirin şeiri isə Seyid Əzim şeirinə nəzirə kimi göstərilə bilər. Lakin bütün bu müxtəlif tipli birlik və bənzəyişlərə baxmayaraq, Sabirin şeiri ideya istiqaməti ilə Seyid Əzimin şeirindən köklü surətdə fərqlənir. Seyidin bu başdan-ayağa lirik "Ey qəmin bu dili-məhzuna fəda" əsərinin əksinə olaraq "Hophopnamə" müəllifinin "Sonya, ey dilbəri-pakizə əda!" adlı satirası ilk beytindən öz Sabiranə satirik qamçısını qaldırıb göstərməkdədir. Sabirin bu şeiri dövrünün Azərbaycan "ziyalı" larının müəyyən təbəqəsinə qarşı çevrilmiş bir dəhşətli pamfletdir. Öz doğma ailəsini həqarətlə atmağa hazır olan bu tiplər özgə xalqdan olan qadının ayağına düşərək rəzalətlə yalvarır. Sabir bəzən Seyid Əzimə məxsus ifadə və tərkiblərdən faydalanır, bəzən də formanı ondan alıb öz üslubuna salır, satiralaşdırır.

Əgər Seyid Əzimin əsərindəki aşiq sevgilisinə məhəbbətini, sədaqətini, onun vüsalı ilə səadətə çatacağını çox səmimi bir şəkildə bildirirsə, Sabirdə əksinədir. Sabirin təsvir etdiyi aşiq məhəbbətdə saxtakardır. Burada o, öz çirkin məqsədinə çatmaq üçün "hörmətini, sərvətini, əhlini, külfətini, qövmünü, millətini, cümlə heysiyyətini, müxtəsər qeyrətini atan" simasız bir şəxs kimi ifşa olunur. Məlumdur ki, bu satirasında Sabir Avropaya qaçıb bir müddət orada əyyaşlıqla məşğul olmuş İran şahı Məhəmmədəliyə də işarə etmişdir. Sabirin satirasından fərqli olaraq, bir gözəl yolunda canını fəda etməyə hazır olan aşiqin faciəsi S.Ə.Şirvaninin "Ey qəmin bu dili-məhzuna fəda" şeirində kədərli motivlərlə təsvir olunmuşdur. Sabirin bu bənzətmə-satirasında isə əxlaq düşkünü olan mənfi tipin vəziyyəti bir o qədər komik və gülməlidir. Doğrudur, tip yalnız gülünc vəziyyətdə qalmır, xalqını, vətənini, ailəsini, irzü-namusunu ötəri bir hissin söndürülməsi üçün satmağa hazırdır, eyni zamanda tragik vəziyyətdədir. Maraqlı burasıdır ki, düşdüyü vəziyyətin tragik olduğunu satirik qəhrəmanın özü dərk etmir, məhz buna görə də o gülüncdür. Satirada bu haqda oxuyuruq:

Söylədin, hörmətini at, atdım,
Malını, sərvətini at, atdım,
Əhlini, külfətini, at, atdım,
Qövmünü, millətini at, atdım,
Cümlə heysiyyətini at, atdım,
Müxtəsər, qeyrətini at, atdım.
Gözəlim, şimdi nədir fərmanın?
Canı qurban sənə bu nalanın!... [13, s.92].

Anyalara, Sonyalara vurulan, əslində, onların əlində oyuncağa çevrilən bu şəhvət düşkünləri üçün millət də, heysiyyət də, qeyrət də, ailə də yoxdur. Ona görə başlarına açılan bütün bu alçaldıcı oyunlardan belə nəticə çıxarıb ayıla bilmirlər. Hələ bu keyfiyyətlərini böyük bir fədakarlıq hesab edirlər.

Prof. Mir Cəlal Paşayev həmin satirik tipin xarakteristikası haqqında yazmışdır: "Sabirin qüdrətli satirik qələmi o zaman müsəlman ruhani, tacir və yalançı ziyalıları arasındakı əxlaqsızlığın xarakter bir mənzərəsini çəkmişdir. Naqdı bəy yalnız bir fərd kimi yox, o zaman ticarət şəhərlərində həşərat kimi qaynaşan, özlərini "oxumuş" qələmə verən əxlaqsız kişilərin xarakter nümayəndəsi kimi verilir. Onun mühakimələri məhz belədir. Vəhşi şəhvət əsirinin bundan artıq etirafları ola bilməz" [13, s.93].

Professor Ə.Cəfər isə Sabirin bu Naqdı bəyini XX əsrin əvvəllərində özlərinin meşşan əxlaqları ilə cəmiyyətin içində dəhşətli yaraya çevrilən şəhvət düşkünlərinin əxlaqsızlıqlarını, heysiyyətsizliklərini axıradək ifşa edən bir satira, bir pamflet hesab edərək yazmışdır: "Təfsilata varmadan, qısaca deməliyik ki, Sabirin bu şeiri dövrünün Azərbaycan "ziyalı" larının müəyyən təbəqəsinə qarşı çevrilmiş bir dəhşətli pamfletdir. Öz doğma ailəsini həqarətlə atmağa hazır olan bu tiplər özgə xalqdan olan qadının ayağına düşərək rəzalətlə yalvarır... Böyük Sabirin bu şeirinin bəzi bəndlərində o dövrün bir qisim Azərbaycan yuxarı sinif gənclərinin faciəsi oxunmaqdadır" [13, s.93].

M.Füzulinin "Şikayətnamə" əsəri də Türkiyə sultanı Sultan Süleymana, onun rüşvətxor məmurlarına və ümumən, XVI əsr feodal-ruhani quruluşuna qarşı məktub şəklində yazılmış kəskin bir pamfletdir. Şair bu əsərə bədii don geyindirərək, ictimai quruluşa qarşı etiraz səsini ucaltmışdır.

4. Parodiya: Hər hansı bir yazıçının zəif, məzmunsuz, bədii dəyəri olmayan əsərini lağa, məsxərəyə qoymaq məqsədilə yazılmış satirik əsərlərdir. Parodiyada tənqid hədəfi seçilən əsərin forması saxlanılır, məzmun isə onun əleyhinə yönəlir. Lakin parodiyada təhqirlərə yol vermək olmaz. Parodiya incə yumoru ilə seçilməlidir və təhzil kimi satira ədəbiyyatının növlərindən biridir. Təhzil və parodiya bir-birinə çox bənzəyir. Təhzil sözü lüğətdə zarafata salmaq deməkdir, şeirşünaslıqda isə təhzil ciddi bir əsəri, ən çox mənzum əsəri, satirik şəklə salmaq, onu eyni poetik forma çərçivəsində ideya istiqamətini dəyişməkdir. Parodiyanın təhzildən fərqi ondadır ki, təhzildə şair başqa bir şairin ciddi əsərinin formasından istifadə edərək mənfi hadisələri və yaramaz tipləri tənqid edirsə, parodiya isə başlıca olaraq digər ədəbi əsərlərin gülünc və eyibli cəhətlərini rişxənd ilə yamsılayan ədəbi əsərdir. Parodiya yunanca "tərsinə nəğmə" deməkdir. Parodiyada bəzən tanınmış bədii əsərlər də istifadə oluna bilər. Bu tipli parodiyalarda məqsəd hər hansı bir sənətkarın özünün yaxud yazdığı əsərlərin nüfuzuna xələl gətirmək yox, cəmiyyətin qüsurlarını açıb göstərməkdir.

Məlumdur ki, Azərbaycan ədəbiyyatında dahi Füzulinin təsiri ilə lirika inkişaf etdiyi kimi, epiqonçuluq da baş alıb gedirdi. Azərbaycan ədəbiyyatında həmin bu epiqon ədəbiyyatına qarşı mübarizə aparan M.Ə.Sabir məşhur parodiyasında o dövrə qədər köhnə şeir ənənələrinin əsiri olan müəlliflərin ancaq güldən, bülbüldən, şərabdan, gözəlin qaş-gözünün və s. vəsfindən kənara çıxa bilməyənləri tənqid atəşinə tutmuşdur. Belə ki bu mövzu kasadlığının ədəbiyyatın ictimai həyatdan ayrı düşməsinin, onu həm də təqlidçiliyə, söz oyununa yuvarladırılmasının şahidi olmuşdur. Təsadüfi deyil ki, ədəbiyyatımızı hər cəhətdən sanki buxovlamış olan mövzu qıtlığına, ictimai cəhətdən məzmun kasadlığına, həm də poetik baxımından zəifliyinə görə hələ "Əkinçi" qəzetinin səhifələrində də epiqonçuluğa, həcvguluğa, söz oyununa və s. qarşı ciddi ardıcıl mübarizə aparılırdı. M.Ə.Sabir də o tipli şairlərin mövzu, ideya və bədii-estetik cəhətdən son dərəcə məhdud və kasıb yaradıcılıqlarının mənasız və əhəmiyyətsiz olduğunu lağa qoymuşdur. M.Ə.Sabir klassik poeziyadakı epitetlərin get-gedə gülünc şəklə düşdüyünü diqqətə çatdıraraq yazırdı:

Ey annın ay, üzün günəş, ey qaşların kəman!
Ceyran gözün, qarışqa xətin, kakilin ilan!
Alma çənən, çənəndə zənəxdan dərin quyu,
Kipriklərin qamış, dodağın bal, tənin kətan!

Boynun sürahi, boy-buxunun bir uca çinar,
Əndamın ağ gümüş, yanağın qırmızı ənar!
Xalın üzündə buğda, başında saçın qürab,
Qah, qah!..Qəribə gülməlisən xaniman xərab!.. [13, s.23].

Göründüyü kimi, Sabir klassik poeziyada mövzu qıtlığı üzündən söz oyununa fikir verilməsinin acı nəticələrini kəskin satira atəşinə tutmuşdur. O, əsrlərdən bəri gözəlin tərifinə həsr edilmiş şairlərdə əvvəllər xoş təsir buraxan epitetlərin getdikcə yersiz təriflərdən bayağılaşdığına qəhqəhə çəkmişdir. Bu qəhqəhələr epiqonçuluğa, poeziyada təqlidçiliyə və s. birdəfəlik və sarsıdıcı balta vurdu.

5. Nadirə: Satiranın olduqca az işlənən komponentlərindən biridir. O kiçik həcmli yumoristik əsərdir, amma yumoristik novella da deyildir. Nadirə də nəsrlə yazılır. Lətifələrin üslub və məzmun xüsusiyyətlərinə yaxın bir tərzdə qələmə alınır. Azərbaycan ədəbiyyatında S.Ə.Şirvani bu janrda bir neçə əsər yazmışdır. Nadirə ərəb folklorundan və Orta əsr Şərq ədəbi abidələrindən istifadə yolu ilə yaradılırdı. Bu nadirələrin bir qismi sonralar Molla Nəsrəddin lətifələri sırasına keçmişdir. Lakin ayrı-ayrı dövrlərdə "Molla Nəsrəddin" lətifələri toplanıb nəşr olunarkən unudulduğundan nadirələr lətifələrdən seçilib ayrılmamış nəşr olunmuşdur. XIX əsr satirik yazıçıların əsərlərində nadirəyə rast gəlmək mümkündür, amma XX əsr satirik yazıçıların əsərlərində nadirəyə rast gəlinmir.

Nadirələrdə əsas qəhrəman Cüha deyilən bir şəxsdir. Bu Cüha gah ağıllı, tədbirli, cəsarətli, igid bir adam, gah da divanə, sadəlövh bir şəxsdir. Cühanın dili və üslubu xalq danışıq tərzində, aydın, sadə, yumorlu və təbii olur. Nadirədə istək, arzu, yalvarışlar əksinə baş verir. Belə ki, Cüha çörək istəyirsə, Cühadan çörək istəyirlər, susuyub su istəyirsə, ondan su istəyirlər... və s. Nəticə etibarı ilə Cüha qeyzlənir, Allaha asi olur. Satirada birbaşa, açıq tənqiddən daha çox Ezop dilindən istifadə olunur, dolayı tənqidə, eyhamlı, kinayəli sözə geniş meydan verilir. Satirik əsərlərdə pafos, başqa sözlə desək, ictimai publisistik istiqamət daha güclüdür. Bütün satirik əsərlərdə bədii üslubdan daha çox ictimai-publisistik istiqamət daha qabarıq şəkildə özünü göstərir. Satirik əsərlərdə ictimai mündəricə daha əsasdır. Əslində satirik məzmuna görə əsərləri satirik janrlar üzrə müəyyənləşdirmək olmaz. Satira ictimai-publisistik üslub daxilində özünü müxtəlif ədəbi növlərə göstərə bilər. Satira bədii yaradıcılıq üsuludur.

Əsl satira zamanın aynasıdır, dövrün bədii salnaməsidir. Satirik üslub üçün tərənnüm deyil, təsvir, təhkiyə əsasdır. Təsvirsiz, təhkiyəsiz, təfərrüatsız satira yoxdur.

İstifadə edilmiş ədəbiyyat

1. Abi Aydın. Türkiyə ədəbiyyatı tarixi. Bakı: Bakı Universiteti nəşriyyatı, 2007
2. Abıyev A. Türk ədəbiyyatında satira. Bakı, Elm, 1991
3. Azərbaycan ədəbiyyatı tarixi, AMEA-nın Ədəbiyyat İnstitutu, 6 cildlik, IV cild, Bakı, 2011
4. Ağazadə Yədulla Bəbir oğlu, Azərbaycan ədəbiyyatında satirik poeziyanın təşəkkülü və inkişafı, f.ü.e.dok. dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Bakı, 2013
5. Babayev Baba Maqsud oğlu, Azərbaycan realist nəsrində satiranın təşəkkülü, inkişaf mərhələləri və problemləri (1850-1920), filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Bakı, 2012.
6. Cəlal Mir, Xəlilov Pənah, "Ədəbiyyatşünaslığın əsasları", Bakı, Çaşıoğlu, 2005
7. Əlimirzəyev Xalid, "Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları", Bakı, 2008
8. Əliyev Məmməd, "Ədəbiyyat nəzəriyyəsinin əsasları", Bakı, 2000
9. Əliyev Rafiq, "Ədəbiyyatşünaslığın əsasları", Bakı, 2001
10. Hacıyev Abbas, "Ədəbiyyat nəzəriyyəsi", Bakı, 1999
11. Xəndan Cəfər, "Ədəbiyyat nəzəriyyəsi", Bakı, 1958
12. Qasımzadə Feyzulla, XIX əsr Azərbaycan ədəbiyyatı tarixi, Bakı, 2019
13. Qəhrəmanova Ulduz, M.Ə.Sabir və klassik irs, f.ü.f.d.dissertasiyası, Bakı, 2015

14. Qəzənfər Kazımov, Bədii ədəbiyyatda komizmun üsulları, Bakı, Maarif, 1987
15. Mirəhmədov Əziz, "Ədəbiyyatşünaslıq ensiklopedik lüğəti", Bakı, AMEA, 1998
16. Rəfili Mikayıl. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 1958
17. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 2012
18. Hacıyev Tofiq, Satira dili. Bakı, ADU nəşri, 1975
19. Hüseynov F.E. Satirik gülüşün qüdrəti. Bakı, Yazıçı, 1982
20. Məmmədov K, XIX əsr Azərbaycan şeirində satira. Bakı, Elm, 1975
21. Məmmədov K. XX əsr Azərbaycan gülüşü. Bakı: Yazıçı, 1989

UOT 811.134.2

ЭЛЕМЕНТЫ ТЮРКСКОГО ПРОИСХОЖДЕНИЯ В ЛЕКСИКЕ ИСПАНСКОГО ЯЗЫКА

Ульвия Аскер гызы Оруджева
кандидат филологических наук
Бакинский филиал Московского государственного университета им. М.В.Ломоносова
ulviyya_1989@mail.ru

Словарный запас испанского языка, как и других языков, не развивался и не распространялся в полной степени без влияния других языков. Этот процесс не обходился без столкновения с лексическими заимствованиями других языков. Из неиспанских элементов, встречающихся в испанской лексике, мы поговорим о заимствованиях из тюркских языков и о том, как они попали в испанский язык.

Очевидно, что отношения между Восточным и Западным миром имеют глубокие исторические корни.

Широко распространенное мнение жителей Запада о мусульманах включено в негативное и стереотипное представление об исламе. Известно, что на протяжении всей истории арабское влияние было очень значительным. Завоевание маврами большей части Пиренейского полуострова стало причиной введения в испанский язык большого количества слов, заимствованных из арабского языка.

Пиренейский полуостров находился под влиянием не только мусульман арабского происхождения, но и подвергался нападениям турок. Война между этими двумя гигантами длилась более двухсот лет (между XVI и XVIII веками) и основным местом столкновения было Средиземное море и прибрежные страны. В это время испанская монархия была сильнейшей во всем христианском мире. Два самых могущественных государства на Земле были друг против друга.

Хотя испанская армия и избавилась от турецкого влияния на своей земле (в конце 18 века), языковые фрагменты стереть было невозможно. Языковой контакт происходит в течение достаточно длительного периода времени, что облегчает передачу слов. Именно по этой причине в испанском лексиконе есть заимствования турецкого происхождения, хотя их не так уж много.

Османская империя пыталась внедрить мусульманскую религию во все христианские страны, потому что считала, что это единственная истинная религия и что все земли должны быть под властью Аллаха.

Важно отметить, что в том, что касается религии, просматривается очень мало слов. Это можно объяснить тем, что турки не слишком вмешивались в религиозную жизнь оккупированных народов, потому что вхождение в мусульманский мир не может быть

принудительным, его нужно выбрать. Тюркские заимствованные слова основаны на реалиях этой культуры и связанных с ней традициях.

В турецко-испанской области известно не так много исследований. Работы на эту тему большей частью посвящены истории этих двух стран. В данном направлении было очень полезным исследование Мартинеса Лайнеса (2010) «Война турок», работа которого позволила нам узнать европейские территории, подвергшиеся оккупации и расселению турок Османской империи.

Хотелось бы отметить некоторые концепты, которые имеют непосредственную связь с происхождением, переходом и изменением слова. В первую очередь это термин заимствование (el préstamo), который способствовал изучению и объяснению процесса перевода, в данном случае тюркизмов в испанский. Новый термин обозначал нечто совершенно новое и неизвестное носителям принимающего языка.

Этот процесс может происходить между двумя или более языками:

- исходный язык (тюркский) > язык -получатель (испанский)
- язык происхождения> язык(и) передачи> язык(и)- получатели (испанский).

Важно отметить, что тюркский язык является основным языком, считающимся исходным, и может оказывать прямое или непрямое влияние на испанский. Первый (прямой) происходит, когда испанский язык получает слово из тюркского без посредников (тюркский > испанский, например *zabata > zapato*). Второй (непрямой), когда посредниками выступают другие языки (тюркский > французский > испанский, например *köşk>kiosque>kiosk/kiosk*).

Схема представлена процентным соотношением прямых и косвенных заимствований. Видна значительная разница между прямыми и непрямыми: непрямых гораздо больше, чем прямых. Это можно связать с языковыми группами, где романские языки превышают другие.

При процессе заимствования слова не всегда оставляли свое первичное значение. Эти изменения могли происходить в словах с течением времени их значения могли быть расширены, модифицированы, изменены или ограничены.

Языковые изменения происходят настолько медленно, что отдельному человеку достаточно сложно осознать, что происходит с его родным языком.

Основная причина в том, что язык не фиксирован и в него вносятся различные изменения.

Существуют также определенные факторы, объясняющие эту тенденцию [Zamboni, 1988]. Например,

• *Словарный запас*. Это структура, не имеющая границ, подвижная и неустойчивая. В лексике языков слова могут терять или приобретать значения.

• *Процесс передачи слов*. В языке -оригинале слово имеет значение, но при заимствовании можно дополнить или, например, исключить основное значение.

• *Возрастная разница*. Дети больше не понимают или неправильно понимают слова, используемые бабушками и дедушками.

• *Историко-культурные достижения*: существуют необычные слова, сохраняющие свое значение для предшествующих исторических событий, или значения слов меняются в результате научной или иной эволюции.

Например:

DEY (m.)

Семантическое изменение между тюркским и испанским языками:

В тюркском языке брат матери считается отцом своих племянников или племянниц. В отсутствие биологического отца он является ответственным за них человеком, который помогает и защищает их в любой проблеме [семейный контекст].

В испанском языке это относится к политическому контексту. Тот, кто имеет титул **dey**, действует как регент соответствующей ему области (Алжира), потому что он всего лишь

принц или потому, что он заменяет человека с более высоким положением [политический контекст].

Хотелось бы также отметить три словаря, по этимологическому содержанию которых производился анализ тюркизмов:

- el *DECH* (*Diccionario crítico etimológico castellano e hispánico, de J. Corominas y J. A. Pascual*);
- el *DLE* (*Diccionario de la lengua española, de la Real Academia Española*, 23ª ed.);
- *Divanü Lüğat-it-Türk* [Диван турецкой лексики] (Диван) М. Кашгари, основной труд по турецкому языку;

DLE и *DECH* послужили для того, чтобы увидеть и понять семантические, морфологические и графо-фонетические изменения, которые претерпели заимствованные слова, продемонстрировав передающие языки и происхождение некоторых из них.

Третьим важным словарем является Диван (Divanü Lüğat-it-Türk), шедевр слов тюркского происхождения. Кашгарский диван является общетюркским документом, а также памятником истории современных тюркских языков. В этом случае целесообразно использовать его материалы при изучении проблем исторической лексикологии тюркских языков. В этой работе представлены наиболее интересные и важные наблюдения по фонетике, грамматике и лексике тюркских языков.

На этом слайде тюркизмы сгруппированы по языкам прямого перехода в испанский и непрямого перехода, языками-посредниками которого могут быть: *тюркский, французский, итальянский, русский, арабский, английский* и другие языки, такие как *португальский и немецкий*. Непрямая передача из тюркского языка встречается чаще, чем прямая. Большинство прямых тюркизмов являются историзмами и вышли из повседневного использования на предыдущих этапах. В настоящее время они встречаются в книгах и статьях по истории и в то время характеризуют тюркский мир. При анализе заимствований непрямой передачи видно, что слова французского языка более многочисленны, чем из других языков (42 слова).

Слова сгруппированы по семантическим полям. Эта группировка очень показательна в демонстрации тюркских сфер влияния. Согласно этому типу анализа можно увидеть, что турки вмешались почти во все наиболее важные слои испанской и европейской жизни.

В заключении хотелось бы отметить, что:

1. Тюркский язык оказал большое влияние не только на испанский, но и на другие европейские языки.
2. По этой причине в лексике испанского языка имеется значительное количество слов тюркского происхождения.
3. Непрямая переход более распространен, чем прямой, особенно по соображениям современности. Необходимо выделить французский, из которого было заимствовано большее количество слов.
5. Турецкие заимствования встречаются в различных семантических полях.
6. Повседневный язык представлен группой тюркизмов, часто используемых в испанском языке.

Использованная литература

1. Arsal Sadri, Maksudi (2002) Historia turca y Derecho, Kazan: Fen.
2. Cano Aguilar, Rafael (2004) Historia de la lengua española, Barcelona: Ariel.
3. Chejne, Anwar G. (1980) Historia de España musulmana, Madrid: Cátedra.
4. Lapesa, Rafael (2008) Historia de la lengua española, Madrid: Gredos.
5. Martínez Laínez, Fernando (2010) La guerra del turco: España contra el Imperio Otomano, Madrid: EDAF.

UOT 378.02

GƏLƏCƏK MÜƏLLİM KADRLARININ ESTETİK TƏRBİYƏ MƏSƏLƏLƏRİ

Vəfa Məsim qızı Çıraqova
pedaqogika üzrə fəlsəfə doktoru
Bakı Dövlət Universiteti
chiraqovv@gmail.com

Böyüməkdə olan gənc nəslin təlim-tərbiyəsinin ən önəmli istiqamətlərindən birini estetik tərbiyə təşkil edir. Estetik tərbiyə duymaq, hiss etmək, həssaslıq mənasını verir. Estetika insanlarda, o cümlədən yeniyetmələrdə ədəbiyyat və incəsənət dəyərləri, habelə təbiət, cəmiyyət və davranış gözəllikləri əsasında estetik hisslərin, baxışların formalaşması və inkişafına xidmət edir. O, yeniyetmələrdə təbiət və cəmiyyət, insan gözəlliklərindən zövq almaq, onları düzgün qiymətləndirmək bacarığını, bədii qabiliyyətlərini formalaşdırmaga xidmət edir. Estetik tərbiyədə yaş amili xüsusi rol oynayır.

Müxtəlif yaş dövrlərində estetik tərbiyənin məzmunu, habelə dünyanının estetik qavranması imkanları dəyişir. Bunu nəzərə aldıqda yeniyetməlik dövrü nəslin estetik tərbiyəsidə çox vacib mərhələni təşkil edir.

Bu tədqiqatın məqsədi gələcəkdə müəllim olmaq istəyən, o ixtisasda təhsil alan tələbələrin estetik tərbiyə işinə hazırlanmasında ünsiyyətdən, müəllim davranışından, müəllimin geyim tərzindən eləcədə gözəl nitqindən ibarətdir. Estetik tərbiyəyə geniş aspektdə yanaşsaq həm gözəlliyə olan münasibətin formalaşdırılması, həm zövqün, həm əxlaqi keyfiyyətlərin eyni zamanda müəllim və tələbə arasında qarşılıqlı münasibətlərin gözəl və dürüst olmasıdır. Çünki gələcəyin müəllimləri olan indiki tələbələrdə bu sadaladığımız keyfiyyətlərin olması vacibdir ki, onlarda aldıqları nəzəri biliklərlə yanaşı gördükləri mənəvi keyfiyyətləri öz şagirdlərinə tətbiq edə bilsinlər. Bu baxımdan müəllimlərin qarşısında bir neçə sual durur:

1) Müəllim-şagird arasında ünsiyyət necə olmalıdır?
2) Ana dilinin gözəlliyini yeniyetmələr necə qiymətləndirir?
3) Müəllimin gözəl nitqi tədrisə necə təsir göstərir?

Hər hansı bir şagirddən soruşsaq ki, sənin məktəbdəki uğurların nəyin sayəsindədir? Təbii ki, ondan qəti bir cavab alacağıq: "Müəllimlərin sayəsində. Çünki onlar məndən heç vaxt əl çəkmədilər". Bunlar gəlişigözəl sözlər deyil. Müəllimin, tərbiyəçinin üzərinə qoyulan məsulyyətdir. Hər bir müəllim sinif otağına girməmişdən əvvəl özü-özünə sual verməlidir:

- Mən öz üzərimə düşən vəzifəni layiqincə yerinə yetirə bilirəmmi?
- O vəzifələr hansılardır?
- Bu vəzifələri yerinə yetirərkən müəllimlərin aldığı diplom kifayət edirmi?

Bu suallara cavab vermək ücün savad, bilik azdır, həqiqi müəllim olmaq üçün həm pedaqogikanı, həm də psixologiyanı dərindən bilməlisən. Müəllimlik missiyası üçün bilik, savad, məsuliyyət, səbir, dözüm tələb olunur. Müəllimlik peşəsinin zirvəsinə ucalmaq tələb olunur. Yeri gələndə o tələbkar, ciddi, işində heç bir nöqsanı qəbul etməyən, yeri gələndə isə mülayim, uşaqların (hər yaş dövrünü nəzərə alaraq özlərinə aid gizli sirləri, sözləri olur) diqqətlə dinləyən, qayğıkeş ana rolunda çıxış edən, sözün əsl mənasında insan olmalıdır. Ünsiyyət qurmağı bacarmalıdır. Maraqlandırmagı, heyrətləndirməyi, sevindirməyi bacarmalıdır. Müəllimlik zirvəsinə qalxmaq üçün bu labirintlərdən keçməlisən. Elə buna görə də müəllimlik adı ucadır, təfəkkürün ən uca zirvəsində durur. Müəllimlik diplomu ilə nəticələnən təhsil müəssisələrinin hazırladıqları kadrlar bu zirvəyə çata bilirlərmi? Bu kadrları hazırlamalı olan ali məktəb müəllimləri necə?

Bu işdə müəllimlərin üzərinə düşən vəzifələr həddindən artıq çoxdur. Pedaqogikada öz dəsti xətti olan pedaqoq Uşinskinin dediyi kimi, "Şəxsiyyəti şəxsiyyət formalaşdırır". Müəllim hər bir

şagirdə fərdi yanaşmaqla uşagın könlündən, fikrindən nələr keçdiyini bilə bilər. Bunun üçün gərək peşəni sevən bir müəllim olasan, bütün cətin yollardan keçməyi bacarasan.

1) Peşəsini sevən bir müəllimin konkret hədəfləri olmalıdır.

Məsələn, hər hansı bir insan bir yola çıxarkən o yolun doğruluğunun düz olmasını necə bilə bilər?

Nə isə bir yol işarələri ilə və yaxud xəritənin köməyi ilə. Təhsildə də belədir. Şagirdlərimiz üçün qoyduğumuz hədəflər bizim yol işarəmiz olmalıdır, “xəritəmiz”, planımız olmalıdır. Plan müəllimin dərsi, materialı bilməmək anlamına gəlmir, əksinə bir çərçivə, bir standartdır.

2) Uğur qazanan müəllim şagirdlərini nə vaxt dinləmək, nə vaxt özünü görməməzliyə vurmaq lazım olduğunu bilməlidir. Çünki şagirdini dinləməyi bacarmayan bir müəllimə uğurlu müəllim deyə bilmərik, işində hər zaman uğursuzluqla rastlaşa bilər. Eyni zamanda şagirdini həmişə dinləməyi bacaran müəllim də uğursuzluqla qarşılaşacaq. Amma qarşısındakı şagirdi dinləyib onun fikrini bilmək, suallarını cavablandırmaq, yeri gələndə məsləhət vermək, yeri gələndə “yox, belə olmaz!”, “mən sənə bunu qətiyyətlə deyirəm!” kimi sözlər işlətməlidir.

3) Hər bir müəllim şagirdinin, tələbəsinin gələcəkdə uğur qazanmasını istəməlidir. Müəllim də ata-ana kimi, tərbiyə verdiyi övladının gələcəkdə uğur qazanmağını istəyir. Çünki bacarıqlı şagirdin özlərindəki istedadı görə bilən bir müəllimə çox ehtiyacı var.

4) Müəllimlər riskə getməyi bacarmalıdır.

5) Şagirdlər müəllimin sinifdə yeni bir şey öyrətməsinə, yeni metodla dərs deməsini çox istəyirlər. Çünki müəllimin öyrətdiyi yeni fikirlər, elmə gətirdiyi yeni metodlar dərs materialını əzbərlətməkdən daha vacibdir.

Müəllim və şagird arasında münasibət necə olmalıdır?

Müəllim və şagird arasında münasibət ünsiyyət vasitəsilə qurulur.Ünsiyyət insanların informasiya mübadiləsi, qarşılıqlı təsir, insanların bir-birini qavramasıdır. Əgər söhbət müəllim ünsiyyətindən, müəllim – şagird ünsiyyətindən gedirsə onda onun üzərinə ikiqat artıq vəzifə düşür. Çünki hər bir şagird ayrı psixologiyaya malikdir, hərəsinin öz xarakterik xüsusiyyətləri var. Gərək müəllim onda valideynlərlə mütəmadi əlaqə saxlasın.

Hər bir uşağın xarakterini öz ata-anası daha yaxşı bilir. Amma çox təəssüf ki, bəzən elə valideynlərə rast gəlirik ki, uşaqlarının bütün uğursuzluqlarında müəllimləri günahkar bilir, yerli-yersiz müəllimi gözdən nəzərdən salır. Təbii ki, işini bilən müəllim üçün bu elə də bir ciddi problemə çevrilməməlidir. Çünki yaxşı müəllim valideynin sinfə gəlib, onun bir səhvini üzünə vurmağı və yaxud fikirlərini bildirməyini təhqir kimi qəbul etməməlidir. İşini, məsuliyyətini, üzərinə düşən vəzifələrini yaxşı bilən müəllim heç bir valideynin tövsiyəsini eşitmək məcburiyyətində deyildir. Əgər nəzərə alsaq ki, şagirdlərin gələcək həyatlarında, peşə seçimində və yaxud da cəmiyyətdə yüksək mənəvi keyfiyyətlərə yiyələnməkdə valideyn qədər müəllimin də rolu var, onda heç bir qüvvə müəllimi öz əqidəsindən döndərə bilməz.

ki, müəllimlər tədris zamanı ünsiyyətin bütün funksiyalarından istifadə etməlidirlər. Amma çox təəssüf ki, bəzən məktəblərdəancaq ünsiyyətin ancaq informasiya vermək funksiyasından istifadə olunur. Bu da təlim-tərbiyə prosesini çətinləşdirir. Müəllim yalnız dərs deməklə, bilik verməklə kifayətlənir. Buna görə də gənc müəllimlər öz ixtisaslarını dərindən bilməklə yanaşı, pedaqoji ünsiyyətə də dərindən yiyələnməlidirlər.

Biz ötən 80-90 illərə nəzər saldıqda həm təhsildə, həm təlimdə, həm davranışda nə qədər fərq olduğunu görürük. Əgər əvvəlki illərdə müəllim dərsə gəlib yalnız dərsi izah edirdisə, şagird onunla razılaşırdı və yaxud nəyisə irad tuturdusa şagirddə dinməz-söyləməz qulaq asırdı. (Elə valideynlər də çox vaxt “Amandır, ay müəllim, bu uşağın əti sənin, sümüyü mənim. Necə istəyirsən, elə də oxut”). Təbii ki, bu, dövrünə görə o qədər də pis qarsılanmırdı. Amma şagirdin şəxsiyyət kimi formalaşmasına öz təsirini göstərirdi. Çünki uşagın bir şəxsiyyət kimi formalaşması, inkişafı başqa insanlarla qarşılıqlı ünsiyyətin xarakteri ilə şərtlənir.

Ayrı-ayrı yaş dövrlərində onlardan hər biri yeni məna kəsb edir. Məktəbli yaş dövründə, xüsusən aşağı siniflərdə şagirdlər müəllimlərini ana (ata) gözündə görürlər. Bu dövrdə müəllimlə qarşılıqlı münasibət daha güclüdür. Kiçik məktəblilər şübhəsiz ki, müəllimləri "hər şeyi bilən", "bütün problemləri həll edən" və s. kimi xarakterizə edirlər. Bu da yəqin ki, dövri qədimdən Azərbaycanda müəllimlərə el ağsaqqalı, yol göstərən, xeyirxah, ədalətli, humanist kimi keyfiyyətlərə malik bir insan kimi baxılması günümüzə qədər gəlib çıxmasıdır.

Bu gün müstəqil Azərbaycan Respublikası üçün müasir müəlimlər lazımdır. Elə müəllimlər ki, həm psixoloji biliyi, həm pedaqoji savadı olsun.

Müasir müəllimin psixoloji biliyi, idarətmə qabiliyyəti, təşkilatçılıq bacarığı olmalıdır. Psixologiya müəllimin açarı, pedaqogika isə müəllimin dostu olmalıdır. Bu iki sahəni bilməyən müəllim heç vaxt uğurdan söhbət aça bilməz.

Müəllim stolu arxasında oturan insan hər şeyə cavabdehdir. Müəllimliyin də özəlliyi, başqa peşələrdən fərqliliyi ondadır ki, o həm həkim, həm müəllim, həm ana, həm ata, vətənpərvər, mərd oğul, qeyrətli, ismətli qız və s. yetişdirir, tərbiyə verir. Vaxtı ilə Sokratın dediyi kimi, peşəkar pedaqoqlar "fikrin tamaşaçılarıdır".

Amma çox təəssüf ki, nə dərsliklərimiz, nə də bəzi müəllimlərimiz müasir tələblərə cavab vermir. Mənə elə gəlir ki, ana dili, ədəbiyyat dərslikləri o qədər ehtiyatla, o qədər səlis, sadə dildə yazılmalıdır ki, uşağın göz yaddaşına, fikrinə, təfəkkürünə hopsun. Şifahi nitqimizin inkişafına, səlis danışıq qaydasına riayət olunsun. Amma 8 sinif Azərbaycan dili dərsliyini vərəqlədikcə məndə çox qəribə fikirlər formalaşdı (bax, Azərbaycan dili 8. səh.126) başa düşmədim ki, məgər dialoqu başa sözlərdən istifadə edib yaza bilməzdilər?

Belə olan halda nədən danışmaq olar. Özü də 8-ci sinif yaş dövrlərini nəzər alsaq, nə qədər çətin, çılgın, həssas dövr olduğunu pedaqoqlar bilir. XXI əsrdə yaşamaq o demək deyil ki, "ortada işlənənmi deyim, ara sözümü" deyim dərsliyə gətirəsən.

Müasir təhsil bizdən başqa şey tələb edir. Cəmiyyətdə gedən dəyişikliklər indiki yeniyetmələr də, gənclərə də tərbiyəsində özünü göstərir. İndiki şagird 80-90-cı illərin şagirdi deyil. Onsuz da İKT sosial mühit kimi uşaqlara təsir edir. İnformasiya bolluğu, lazım olan, olmayan xəbərlərin verilməsi, mənasız televiziya verilişləri, ailədə olan söz-söhbətlər uşaqların beynini yükləyir. Heç olmazsa dərsliklərimiz, kitablarımız ana dilimiz yerində olsun və bir də bir müəllim kimi demək istəyirəm ki, mənəvi keyfiyyətimizi, ləyaqətimizi, humanistliyimizi, nəfsimizi, şərəfimizi heç vaxt itirməyək.

Hansı cəmiyyət olursa, olsun, yuxarıda sadalanan keyfiyyətlər müəllim ilə bir yerdə addımlamalıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Həsənov A.M., Ağayev Ə.Ə. Pedaqogika. B., 2007.
2. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. B., 1991. 3. Həşimov Ə.Ş., Sadıqov F.B. Azərbaycan xalq pedaqogikası. B., 1993.
3. Hüseynzadə R.L.Təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi. B., 1997.
4. İsmixanov M.A. Gənclik və mənəvi tərbiyə. B., 1980.
5. Ismixanov M.A. Pedaqogikanın əsasları. B., 2012.
6. Kazımov N.M. Məktəb pedaqogikası. B., 2002.
7. Kornegi D. Dostu necə qazanmalı. B., 1993.
8. Qaralov Z. Tərbiyə. 3 cilddə, B., 2003.
9. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika (mühazirə kursu). B., 2021.

UOT 80

KOMİK MƏTN DƏRKETMƏ OBYEKTİ KİMİ

Vəsilə Fəxrəddin qızı Vəliyeva
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Aqrar Universiteti
valiyeva.vasila@gmail.com

Komediyanın dərk edilməsi problemi iki mürəkkəb müstəqil hadisəni – dərketmə fenomenini və komik fenomeni birləşdirir. Onu həll etmək üçün mövcud olan bütün yanaşmalardan ən məhsuldarı əsasən psixoloqlar, dilçilər və süni intellekt elmlərinin nümayəndələri tərəfindən hazırlanmış koqnitiv yanaşma olduğu görünür. Koqnitiv yanaşma çərçivəsində komediyanın dərk edilməsi gülməli, subyektiv yeni mənaların əmələ gəlməsini təmin edən bir növ "idrak oyunu" kimi qəbul edilir.

Koqnitiv yanaşmanın əsas anlayışlarından biri sxemlər anlayışıdır. Sxema "dünyanın daxili modellərini qurmağa imkan verən dinamik zehni təsvirdir" (Martin, 2009, s. 112) [1]. Sxemlər subyektin keçmiş təcrübəsi əsasında formalaşır və uyğun fon yaratmaqla faktiki obyektlərin və hadisələrin qavranılmasına vasitəçilik edir (Bartlett, 1932). Qavrayış sahəsində peyda olan hər bir obyekt avtomatik olaraq bir şəxs üçün mövcud olan bir sıra sxemlərlə müqayisə edilir və bu obyektin xüsusiyyətləri ilə bağlı onların yaratdığı gözləntilərə uyğunluğu yoxlanılır.

Çərçivələr anlayışı obyektlər haqqında bilikləri kodlayan sxemləri təyin etmək üçün istifadə olunur (Minsky, 1974) [6], skriptlər anlayışı isə hərəkətlərin adi nümunələrini təyin etmək üçün istifadə olunur (Abelson, 1981) [5]. Sxemlər, skriptlər və çərçivələr həm qavrama, həm də konseptual səviyyədə fəaliyyət göstərir və düşüncə proseslərinin fəaliyyət göstərməsinə şərait yaradır (Minsky, 1981).[6] Məkan olaraq təşkil edilmiş sxemlərin (Bruner, 1977) əsasını təşkil edən motor hərəkətlərinin bir çox intellektual transformasiyaların kinestetik təbiətini müəyyən etməsi isə xüsusilə vacibdir [3]. Yumorun başa düşülməsinin koqnitiv modellərində komik effekt iki uyğunsuz çərçivənin və ya ssenarinin eyni vaxtda aktuallaşdırılması və onlar arasında "köçmə" yolu ilə əldə edilir (Issers, Kuzmina, 2000; Minsky, 1981; Raskin, 1985; Norrick, 1986; Norrick, Attardo, Rakins; 1991; Wyer, Collins, 1992) [7]. Birinci ssenari komik mətnin və ya situasiyanın təqdimatının lap əvvəlindən informasiyanı qəbul edənin psixikasında aktivləşir və kulminasiya nöqtəsinə çatana qədər hökmranlıq edir. Kluminasiya anında ilkin yaranmış ssenari ilə paralel olaraq ikincisi aktuallaşır - ziddiyyət təşkil edir və ya birincidən böyük semantik məsafədə yerləşir. Bu iki ssenarinin subyektin psixikasında eyni vaxtda olması, dolayı yolla bir-birinə bağlı olması komik effektin yaranmasına zəmanət verir. Dilçilikdə kadrlar və ssenarilər arasında bu "keçid" bir növ dil oyunu hesab edilir. (Sannikov, 2002; Norman, 2006) [4].

Komediyanın başa düşülməsinə vasitəçilik edən əməliyyatların formal təsvirinin sərtliyinə baxmayaraq, demək olar ki, bütün koqnitiv yumor nəzəriyyələri məzəli mənanın yenidən qurulmasını təmin edən faktiki psixoloji hadisələrə məhəl qoymur. Komedyanın subyektiv təcrübəsindən əvvəl informasiyanı alanın zehni məkanında dəqiq nə baş verdiyi qeyri-müəyyən olaraq qalır. Gülməli olanı gülməli olduğu kimi başa düşmək üçün hansı intellektual və emosional hərəkətləri yerinə yetirməlidir? Komik effekt həmişə həqiqi anlayış nəticəsində yaranır, yoxsa onun baş verməsinin başqa mexanizmləri var?

Məqalədə hər hansı bir komik material onun spesifik verbal, ikonik və ya spontan situasiyada ifadəsindən asılı olmayaraq, xüsusi mətn növü kimi qəbul edilməsini izah etməyə çalışmışam. Mövzunun hələ də kifayət qədər öyrənilməmiş, dərketmə probleminin fundamental xarakterindən irəli gəlir. Normal və ya patoloji dərketmə proseslərinin formal gedişi ilə bağlı çoxlu empirik məlumatlar toplanmışdır, lakin bu fenomenin formalaşmasına vasitəçilik edən xüsusi idrak hərəkətləri əsasən sirr olaraq qalır. Hələ də məlum deyil ki, şəxsiyyətin – intellektual bacarıqların

“sahibinin” dərketmə prosesində hansı rolu var: o, zehni əməliyyatların axınına necə dəqiq vasitəçilik edir və onların effektivliyinə necə təsir göstərir? Anlama proseslərini öyrənmək üçün ənənəvi olaraq riyazi, şahmat, məntiqi məsələlər, bədii mətnlər, atalar sözləri və bəzən isə metaforalardan istifadə olunur. Komediya, zəngin potensialına baxmayaraq, nadir hallarda intellektual sahəni öyrənmək üçün bir model rolunu oynayır. Komediya fenomeni geniş yayılmış tədqiqat mövzusudur, lakin onun koqnitiv dərketmə mexanizmləri və gülüşün yaranmasının psixoloji təbiəti birmənalı izahaıt mümkün deyil. Komik materialın yaranması və anlaşılmasının əsasında hansı psixi proseslər dayanır? Nəhayət, müxtəlif tipli komik mətnlər necə düzülür: onların hamısı eyni əsas strukturu paylaşır, yoxsa hər birinin xüsusi idrak təşkilatı var?

Bu məqalə qlobal əhəmiyyət kəsb edən iki mövzunu birləşdirir - anlama problemi və komik problem. Komik mətnlər dərketmə proseslərinin məhsuldarlığının koqnitiv və şəxsi determinantlarının öyrənilməsi üçün əlverişli model olan xüsusi tipli intellektual tapşırıq kimi qəbul edilir.

Beləliklə, həm onun yaradılması və dərk edilməsi fenomenin mahiyyətini və formalaşma mexanizmlərini işıqlandıran orijinal, zənginləşdirilmiş məlumatlarla koqnitiv psixologiyasına, həm də onun psixoloji üsullarının təsviri ilə komik psixologiyasına töhfə verilir. Bizim nəzəri araşdırmamız göstərdi ki, idrak mexanizmlərinin işini və mətnin semantik yenidən qurulması proseslərini öyrənmək üçün əlverişli model komik mətnlərdir - yəni məhz baş verən hadisənin bir hissəs kimi verbal zarafatlar. Beləliklə, komik mətnlərin idrak strukturunun mikroanalizi göstərir ki, onları başa düşmək üçün eyni zamanda informasiyanı qəbul edənin intellektual və şəxsi sferalarını cəlb etmək lazımdır ki, bu da onun mental resurslarının vahid funksiyasını təmin edir. Komik mətnlər mədəni məkanı doldurur və hər bir insanın gündəlik həyat təcrübəsində qarşılaşdığı materiallardır.

Həm də onu qeyd etmək vacibdir ki, komik mətn başa düşülməsi üçün bir sıra zehni əməliyyatları yerinə yetirmək lazım olan, eyni zamanda, təbii olaraq informasiyanı qəbul edənin idrak motivasiyasını formalaşdıran vasitədir. Gülməli və adekvat şəkildə başa düşmək bacarığı, ona cavab vermək cəmiyyətdə yüksək qiymətləndirilir, buna görə insanlar adətən komik vəziyyətlərin və mətnlərin mahiyyətinə nüfuz etməyə çalışırlar.

Məhz komik mətnlər və xüsusilə, verbal zarafatlar - onların koqnitiv xüsusiyyətlərinə və yüksək ətraf mühitə uyğunluğuna görə, anlayışın intrapsixik təşkilini müəyyən etmək üçün empirik tədqiqatımızda istifadə etdiyimiz stimul materialı oldu.

İstifadə edilmiş ədəbiyyat

1. Мартин Р. Психология юмора / Пер. с англ. под ред. Л. В. Куликова. – СПб.: Питер, 2009. – 480 с.

2. Брунер Дж. Исследование развития познавательной деятельности. – М.: Педагогика, 1971. – 391 с.

3. Брунер Дж. Психология познания / Пер. с англ. – М.: Прогресс, 1977. – 412 с.

4. Санников В. З. Русский язык в зеркале языковой игры. – 2-е изд., испр. и доп. – М.: Языки славянской культуры, 2002. – 547 с.

5. Abelson R. P. Psychological status of the script concept //American Psychologyst. – 1981. – Vol. 36. – No. 7. – P. 715 – 729.

6. Minsky M. A framework for representing knowledge. – Cambridge: MIT, 1974.

7. Minsky M.Jokes and Cognition // Jokes and their Relation to the Cognitive Unconscious // Cognitive Constraints on Communication/ Eds. Vaina and Hintikka. Reidel.http://web.media.mit.edu/~minsky/papers/jokes.cognitive.txt. 1981

UOT 37:001.12/18

AZƏRBAYCAN TƏHSİLİ ETİBARLI ƏLLƏRDƏDİR!

Əsməd Təyyar qızı Şərifova
pedaqogika üzrə fəlsəfə doktoru
Gəncə Dövlət Universiteti
serifova73.@mail.ru

"Təhsil millətin gələcəyidir. Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam… Hesab edirəm ki, cəmiyyət haradan olursa olsun, nədən olursa olsun, kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir."

(Heydər Əliyev)

Millətini sevən, ona ürəkdən bağlı olan, həmişə onun tərəqqisi ücün calışan bir lider əbədi olaraq yaşından asılı olamayaraq, hər bir ölkə vətəndaşının yaddaşında unudulmaz bir iz açmışdır. Bu ulu öndər Heydər Əlirza oğlu Əliyev olmuşdur. Təhsil bütün dövlətlərin əsas strateji əhəmiyyətli dövlət xətti olmuş, həmişə dövlət başçılarının daha cox həssaslıqla yanaşdıqları sahələrdən biri olmuşdur.

Elm və təhsil cəmiyyətdə bir çox problemlərin həllində mühüm rol oynayır, milli intibahın təminatında başlıca vasitə sayılır. İnkişafda olan ölkəmizdə də elm və təhsil problemləri ümumi inkişaf və dövlət siyasəti ilə vəhdət təşkil edir. Odlar yurdu Azərbaycanımızın hər qarışında, hər zirvəsində Heydər Əliyev izi, ulu öndər rəmzi var.

Azərbaycanda elə bir sahə təsəvvür etmək mümkün deyil ki, orada Ulu öndərimizin imzası, mötəbər əməyi, çevik siyasətinin məhsulu olmasın. Bu tarixi şəxsiyyətin , ulu öndərin azərbaycan gəncliyinin inkişafında misilsiz xidmətləri əbədi və unudulmazdır. Dövlət rəhbəri və siyasətçi kimi bütün müsbət xüsusiyyətləri özündə cəmləşdirən Heydər Əliyev çox düzgün olaraq elm-təhsil sahəsinə xüsusi diqqət göstərirdi. Ulu öndər Heydər Əliyevinin kecdiyi maraqlı və əvəzolunmaz keşməkeşlı tarixi yola nəzər saldıqca görürük ki, respublikaya rəhbərlik etdiyi hər bir dönəmdə təhsil siyasətinin müxtəlif aspektlərinin necə düzgün araşdırılması, təkminləşdirilməsi bu strateji əhəmiyyətli sahənin dünəninə və bugününə diqqət yetirilmişdir.

Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1970-1980-ci illərdə təhsil məsələsini daim diqqət mərkəzində saxlamışdır. O dövrdə də sonralar olduğu kimi, H.Əliyevin rəhbərliyi altında bir çox islahatlar həyata keçirilmişdir. 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" bu günümüzün mükəmməl təhsil sisteminin inkişafının ilkin mərhələsinin təməlini qoyacaq qərarlara imza atmışdır. [1, s.36]

Bu islahatların həyata keçirilməsi nəticəsində indiki Azərbaycanımızda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765-dən 2117-yə çatdırılmışdır ki, bu da ölkədə böyük fəhlə təbəqəsinin minlərlə azyaşlı uşaqlarının təhsilə cəlb olunması idi.

Daha maraqlı və diqqət cəkici faktlardan biri də, Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmasında əvəzolunmaz xidmət göstərmişdir. Unudulmaz Liderin göstərdiyi səylərin və qayğının nəticəsində ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər yüksəlmişdir. Bundan əlavə, onu da qeyd etməliyik ki, keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmışdır.

Bu gün respublikada geniş və mükəmməl ziyalı ordusu olmasının təməlini qoymaq və eləcə də milli kadr potensialının bazasını yaratmaq üçün hər il 800-900 nəfər gənc keçmiş ittifaqın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir. Ulu Öndərimizin təhsil siyasəti konsepsi-

yasında elm və təhsil problemlərinə kompleks şəkildə yanaşılmışdır. Təhsil elmsiz, elm isə təhsilsiz mümkün deyil. Təhsil ölkənin beynəlxalq aləmdə rolunu müəyyən edən əsas amillərdən biridir. O maddi və mənəvi dəyərlərin bütövlükdə strateji gücünün göstəricisidir.

Bu gün təhsil sahəsində keçdiyi yolu nəzərdən kecirdikcə onun nə qədər çətin, lakin şərəfli olduğu bir daha özünü büruzə verir. Bütövlükdə milli təhsilimizin inkişafı, Avropa standartlarına inteqrasiyası məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin Vətən qarşısında misilsiz xidmətlərindən biri də milli təhsil sisteminin qurucusu olmasıdır. Əsasən, Azərbaycanımızın dövlət müstəqilliyini bərpa etdikdən sonrakı illərdə milli təhsilimizi Qərb standartları səviyyəsinə yüksəltmək, milli-mənəvi dəyərlərə dərin və həssas münasibət ulu öndərin yürütdüyü siyasətin prioritet istiqamətini təşkil edib. Ulu öndər hələ sovet hakimiyyəti dövründə də milli mənəvi dəyərlərimizin qorunub saxlanılmasında və inkişafında çox cəsarətli, qətiyyətli tədbirlər həyata keçirib. Onların təsdiqlənməsi ücün geniş siyasət aparmışdır.

Böyük zəka sahibi olan müdrik rəhbər Heydər Əliyev öyrədirdi ki, savadlı və dərin elmli xalqların qurduğu dövlət uzunömürlü, ədalətli və cəlbedici olur. Ona görə də Ulu Öndər doğma Azərbaycan xalqımızın maariflənməsinə, savadlanmasına xüsusi diqqət və qayğı ilə yanaşırdı. Yenə ulu öndərin məqamında dediyi sözləri xatırlatmaq daha da diqqət cəkici olardı:

“Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır”. [2, s.17]

Müdrik rəhbər Heydər Əliyev öyrədirdi ki, savadlı və dərin elmli xalqların qurduğu dövlət uzunömürlü, ədalətli və cəlbedici olur. Ona görə də Ulu Öndər Azərbaycan xalqının maarif-lənməsinə, savadlanmasına xüsusi diqqət yetirirdi. Təhsilin inkişafı ilə əlaqədar bir-birinin ardınca qərarlar qəbul edilirdi. Təhsil sahəsində həyata keçirilən tədbirlər Heydər Əliyevin böyük maarifçi olmasından xəbər verirdi.

Müəllimlik peşəsini həmişə yüksək qiymətləndirən-müəllim sənətinə həmişə cox böyük dəyər verən, öz müəllimlərini həmişə efirlərdəki cıxışlarında, mətbuata verdiyi müsahibələrində xoş təəsüratlarla yada salan liderimiz bütünlüklə gənclərimizə örnək olan bir unudulmaz nümunədir. Müdrik şəxsiyyət deyirdi: "Müəllim sənəti şərəfli və gözəl sənətdir. Qədimdən xalqımızın içərisində ən mötəbər və ləyaqətli adamları "müəllim" deyə çağırmışlar". Hələ necə illər bundan öncə Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə gərgin və yorulmaz fəaliyyəti nəticəsində respublika savadlılar diyarına çevrildi. Ulu öndər bu barədə deyirdi: "Azərbaycanda ən böyük nailiyyət ondan ibarətdir ki, bizdə savadsız adam yoxdur. Ölkəmizdə hansı bir kəndə, hətta hansı bir dağ kəndinə getsəniz, orada savadsız adam tapa bilməzsiniz. Azərbaycanda xalqın ümumi təhsil səviyyəsinin, mədəni səviyyəsinin yüksəlməsi XX əsrdə özünü çox bariz şəkildə göstərmişdir". 1998-ci ildə təhsil sistemində əsaslı dönüş yaradılmasına nail olmuş ulu öndər bir daha böyük bir tarixi missiyasına imza atdı. "Təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" sərəncam imzaladı.

Dövlət müstəqilliyinin bərpasından sonra təhsil sahəsində ən ciddi problemlərdən biri də məktəb tikintisi, ümumtəhsil məktəblərin təmiri və lazımi avadanlıqlarla təchiz olunması idi. Heydər Əliyev 2000-ci il iyunun 13-də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" fərman imzalamaqla bu problemi aradan qaldırdı. Bütün bunlar təhsil sisteminin əsaslı şəkildə təkmilləşdirilməsinə, idarəetmənin müasir prinsiplər üzrə təşkilinə, təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasına və dünya təhsil sisteminə inteqrasiyasına cox böyük zəmin yaratdı. Bunun ardınca imzalanan "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncam məktəblərdə tədris-təlim şəraitinin yaxşılaşdırılmasında yeni mərhələnin əsasını qoydu.

Bütün bu yazdıqlarımıza əsaslanıb deyə bilərəm ki, Heydər Əliyevin təhsilə verdiyi böyük dəyər və qiymət Azərbaycanda demokratiyanın yaranması, vüsət alması, sürətlənməsi dünyada əks səda doğurması, elm və təhsilə böyük önəm verilməsi, bir-birinin ardınca yeni proqram və

layihələrin, təhsil islahatlarının həyata keçirilməsi ölkənin elmi, mədəni və sosial-iqtisadi həyatında böyük dönüş yaratdı. Ulu Öndər cəmiyyətin inkişafında təhsilin rolunu çox yüksək qiymətləndirərək demişdi: "Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu onda görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycan iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və o illərdə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq". [3, s.41]

Azərbaycan milli təhsilinin quruculuğu sahəsindəki islahatların həqiqi meyarı bir mənalı olaraq ulu öndər Heydər Əliyev idi. Bu böyük şəxsiyyətin yenidən doğma xalqına dönməsi,xalqın onu cox böyük həsrətlə qəbul etməsi Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni həyatının bütün sahələrində olduğu kimi, təhsil sahəsində də tənəzzülün qarşısını almağa imkan verdi. Ulu öndərin sayəsində milli təhsilimiz sürətli inkişaf yoluna qədəm qoydu, Qərb standartları səviyyəsinə yüksəltmək, milli-mənəvi dəyərlərə həssas münasibət ümummilli liderimizin həyata keçirdiyi siyasətin prioritet istiqamətini əsasına cevrildi. Bu gün suveren və demokratik dövlətimiz ulu öndər Heydər Əliyevin yaratdığı və onun bizə yadigar qoyduğu dövlətimizin digər sahələri içərisində daha vacib və strateji qolu olan milli təhsilimizə olan qayğının davamı olaraq Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın xidmətləri danılmazdır.

Tarixdə böyük bir iz qoymuş ailənin yetirmələri olan prezidentimiz və onun xanımı bu gün respublikamızın müxtəlif rayonlarında 200-dən artıq məktəbin inşa edilməsi və ən müasir avadanlıqlarla təchiz olunması məhz onun təşəbbüsü ilə həyata keçirilmişdir.

Bu gün ölkəmizdə çoxlu sayda məktəbəqədər tərbiyə müəssələrinin və məktəblərin əsaslı təmir olunması dövlətimizin yürütdüyü siyasətin bariz nümunəsudir. Şəhərlərdə, kəndlərdə, hətta ucqar dağ rayonlarında belə birinci sinifə yeni qədəm qoymuş bütün şagirdlərə məktəbli ləvazimatlarının pulsuz verilməsi, sosial az təminatlı ailələrə dəköməklik, övladlarının məktəbə göndərilməsi Mehriban xanımın təşəbbüsüdür.

Hazırda Azərbaycanın həm Avropaya, həm də dünya birliyinə sürətli inteqrasiyası bir daha təsdiqləyir ki, bu gün ulu öndərimiz Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasi xətt Azərbaycanın adını daha yüksək zirvələrə qaldıracaq.

İstifadə edilmiş ədəbiyyat

1. H.Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı-2004.
2. V.Mirzə. Azərbaycan dövlətçiliyinin qoşa qanadı. Bakı-2003.
3. M.Yusifov. Heydər Əliyev işığında. Bakı-2005.

UOT 930:001.89; 94(479.24)

AZƏRBAYCANIN XIX ƏSRİN I YARISINDA TARİXİNİN ÖYRƏNİLMƏSİNİN MÜASİR DÖVRÜ TARİXŞÜNASLIĞI

Təranə Gəray qızı Behbudova
tarix üzrə fəlsəfə doktoru
Gəncə Dövlət Universiteti
teranebehbudova@mail.ru

Müstəqil Azərbaycan Respublikasının müasir dövrdə həm siyasi, həm iqtisadi və həm də mədəni sahədə əldə etdiyi böyük uğurlar ölkəmizdə tarix elminin inkişafına güclü təkan vermiş

oldu. Ümummilli liderimiz, Ulu öndər Heydər Əliyevin tarix elminin inkişaf etdirilməsi üçün verdiyi tövsiyələr hal-hazırda uğurla həyata keçirilməkdədir. Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini bərpa etməsi ölkə tarixçilərinə tədqiqatlarda müstəqil mövqe ortaya qoymaq və tarixi proseslərə son dərəcədə obyektiv yanaşmaq imkanları bəxş etmiş oldu. Bunun nəticəsidir ki, son 20 ildə aparılmış tədqiqatlar, yazılmış əsərlər tarixə baxışı ilə əvvəlkilərindən xeyli fərqlənir və Vətən tarixinin tarixşünaslığını zənginləşdirir.

XIX – XX əsrin əvvəllərində çapdan çıxmış əsərlərin çoxu Azərbaycanın sosial-iqtisadi quruluşu, Azərbaycan kəndinin sosial-iqtisadi inkişafının səviyyəsi, neft sənayesinin tarixi, Azərbaycanda kənd təsərrüfatı alətlərinin istehsalı, torpaq sahibliyi və torpaqdan istifadə, neft istehsalı və Rusiya iqtisadiyyatı, mülkədar təsərrüfatı, şəhərlərin tarixi, şəhərlərin su təchizatı, Azərbaycan – Rusiya münasibətləri, çarizmin siyasətini Azərbaycanda həyata keçirənlər, rus kəndlilərinin Zaqafqaziyaya, o cümlədən Azərbaycana köçürüməsi və s. məsələlərə həsr olunmuşdur.

Sovet hakimiyyətinin ilk onilliklərində kənd təsərrüfatı tarixinin yazılsa da, Çar hökumətinin Cənubi Qafqazda həyata keçirmiş olduğu müstəmləkə siyasətinin tərkib hissəsi olan aqrar qanunların və digər islahatların mahiyyətini və tarixi əhəmiyyətini qabarıq şəkildə təqdim etməyə müəyyən cəhdlər göstərilsə də, Azərbaycan tarixinin bir sıra digər mümkün sahələrinə diqqət xeyli zəif idi, belə əsərlərin sayı çox az idi, onlarda obyektivlik anlamı "sinfi maraqlar baxımından qiymətləndirmə" ilə əvəzlənirdi. Bu dövrdə kəndlilərin ağır həyat şəraitinin əsl səbəbləri açıqlanmamış, rus qoşunlarının qələbələrini böyük uğur, zəfər yürüşləri olaraq şişirdilmiş şəkildə təqdim edir və uğursuzluqları isə təbii şəraitlə və digər amillərlə bağlanılmış, kəndlilərin sosial-iqtisadi vəziyyəti, torpaq sahələrin bölünməsi, kəndlilərin istifadəsindəki torpaq sahələrinin miqdarı və digər məsələlərə diqqət yetirilməmiş, üsyanın başlanmasının əsl səbəbləri göstərilməmişdir. Belə bir şəraitdə Azərbaycan alimləri, hər şeydən əvvəl, doğma diyarın tarixi keçmişini dərk etməyə daxili tələbat hiss edirdilər.

Vətən tarixini bilmək həvəsi öz əsərləri ilə Azərbaycanda gerçək tarixi bilikləri yayan və inkişaf etdirən vətənpərvər ruhlu tarixçilərin və salnaməçilərin bütöv bir nəslinin meydana gəlməsinə yardım göstərdi. Onlar ilk mənbələr, canlı şahidlər, maddi mədəniyyət abidələri əsasında Azərbaycanın, onun ayrı-ayrı xanlıqlarının tarixini öyrənirdilər.Onlardan yalnız Ə.S.Sumbatzadə, İ.M.Həsənov, M.Ə.İsmayılov, M.M.Əfəndiyev, R.Ə.Mehdiyev, İ.A.Talıbzadə XIX əsr tarixi mənbələrinin tədqiqi ilə məşğul olmuş, Azərbaycanın çar Rusiyası tərəfindən istilası məsələlərinə dair onlarla məqalə, Azərbaycanda aqrar münasibətlər, kənd təsərrüfatı və sənayenin, xüsusən neft sənayesinin tarixinə dair əsərlər nəşr etmişlər. Ə.S.Sumbatzadənin «XIX əsrdə Azərbaycanın kənd təsərrüfatı» adlı monoqrafiyasında Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq Şimali Azərbaycan kənd təsərrüfatının demək olar ki, bütün sahələrinə nəzər yetirilmişdir, kənddə aqrar münasibətlər tarixinin bir sıra ciddi məsələlərini araşdırmaqla, sosial-iqtisadi dəyişikliklərin səbəblərini aşkara çıxarmağa çalışmışdır. Azərbaycan tarixşünaslığında ilk dəfə kəndli üsyanına öz tədqiqatında xeyli yer ayırmış M.M.Gülmalıyev üsyanın mahiyyətini, başlanmasını və gedişatını bütövlükdə tədqiq etməyə cəhd göstərmiş, lakin qarşıya qoymuş olduğu məqsədə ancaq müəyyən dərəcədə nail ola bilmişdir.

Azərbaycan sovet tarixşünaslığında bilavasitə dövlət kəndliləri tarixinin ilk dəfə öyrənilməsində əsas rol oynayan, həmçinin XIX əsrin sonu – XX əsrin əvvəllərinin Şimali Azərbaycanın aqrar tarixini tədqiq edən M.Ə.İsmayılov olmuşdur. Su sahibliyi və sudan istifadə məsələsinə ilk dəfə tarixşünaslığımızda İ.A.Talıbzadənin əsərində bəhs edilmişdir.Bu günə kimi İ.A.Talıbzadənin bəhs etdiyimiz əsəri bu sahədə yeganə əsər olaraq qalır. Lakin onların yazmış olduqları əsərlərdə çarizmin müstəmləkə siyasəti obyektiv tədqiq olunmur, bu rejimə qarşı mübarizəsi cinayət kimi qələmə verilmiş, kəndlilərin ağır həyat şəraitinin əsl səbəbləri açıqlanmir, rusların və ermənilərin həyata keçirdikləri Şimali Azərbaycanın hərbi-siyasi cəhətdən işğalına yer verilməmişdir.XIX əsr tarixçilərindən Abbasqulu ağa Bakıxanov, MirzəAdıgözəl bəy, Mirzə Camal

Cavanşir və s. yazdıqları tarixi faktlar Azərbaycan tarixşünaslığında xüsusi yer tutur. XIX yüzillikdə Azərbaycanın və bütün Yaxın Şərqin tarixinin ayrı-ayrı məsələləri M.F.Axundovun, Ə.Ağayevin, N.Nərimanovun, S.M.Qənizadənin, H.Mahmudbəyovun, F.Köçərlinin, F.Sultanovun, Ə.Hüseynzadənin, C.Hacıbəyovun, M.T.Sidqinin və başqalarının əsərlərində əks olunmuşdu.

Son iyirmi ildə qələmə alınmış əsərlərdən Ə.Məmmədovun "Şimali-qərbi Azərbaycan Zaqatala dairəsi" əsərində Şimal qərbi Azərbaycanın kənd təsərrüfatı, kəndlilərin sosial-iqtisadi vəziyyəti, bu bölgədə çarizmin yeritdiyi bir sıra müstəmləkə islahatlar və digər məsələlərə geniş şəkildə tədqiq olunmuşdur. Bu əsərdə həmçinin 1877-ci ildə Zaqatalada baş vermiş üsyan haqqında da xeyli məlumat verilmişdir.

R.Niftəliyevin "XIX əsrin ikinci yarısında Şimali Azərbaycan kəndlilərinin azadlıq hərəkatı" əsərində isə Zaqatala üsyanı ilə yanaşı Şimali Azərbaycanın şimal ərazilərində baş qaldırmış Quba və Şəki üsyanlarından da bəhs olunur. Azərbaycan tarixşünaslığında, o cümlədən XIX əsr və XX ərin əvvələrində iqtisadi münasibətlərin öyrənilməsində və geniş ictimaiyyətə çatdırılmasında yeddi cildlik "Azərbaycan tarixi" xeyli rol oynamışdır. Həmçinin 1964-cü ildə işıq üzü görmüş üç cildlik "Azərbaycan tarixi"nin əhəmiyyəti xüsusi qeyd olunmalıdır.

70-90-cı illərdə çoxsaylı ixtisaslı tarixçilərimizin Azərbaycan tarixinin sosial-iqtisadi, siyasi və mədəniyyət tarixi üzrə xeyli əsərləri nəşr olundu. Çapdan çıxmış əsərlərin çoxu Azərbaycanın sosial-iqtisadi tarixinə həsr olunmuş, XIX–XX əsrin əvvəllərində Azərbaycanın sosial-iqtisadi quruluşu, Azərbaycan kəndinin sosial-iqtisadi inkişafının səviyyəsi, neft sənayesinin tarixi, Azərbaycanda kənd təsərrüfatı alətlərinin istehsalı, torpaq sahibliyi və torpaqdan istifadə, neft istehsalı və Rusiya iqtisadiyyatı, mülkədar təsərrüfatı və s.kimi məsələlərə yer verilmişdir. Bütün bunlar M.Ə.İsmayılov, Q.C.Cavadov, Y.İ.Ələsgərov, V.H.Kərimov, V.A.Səmədov, M.M.Gülmalıyev və Ə.A.Umayevin əsərlərində öz əksini tapmışdır.

XVIII-XIX əsrin hüdudlarında Azərbaycanın daxili və beynəlxalq vəziyyəti çox mürəkkəb idi. Azərbaycan ərazisi xırda feodal dövlətlərə parçalanmış,qonşu xalqların ərazilərini ələ keçirmək uğrunda xanlar arasında ardı-arası kəsilməyən ara müharibələri, feodallarla ölkə ərazisinin böyük əksəriyyətini təşkil edən kəndlilər arasında sinfi ziddiyətlərin güclənməsi, iqtisadi tənəzzül, Rusiyanın Cənubi Qafqaz barəsindəki işğalçı niyyətləri, İran işğalçılarının viraneidici yürüşləri Azərbaycanın daxili vəziyyətini daha da gərginləşdirirdi. Rusiya imperiyası beynəlxalq münasibətlərdə yaranan imkanlardan istifadə edərək, Cənubi Qafqazda fəallığını artırdı. Çar I Aleksandr 1801-ci il sentyabrın 12-də ikinci Manifest verməsi ilə şərqi Gürcüstanın Rusiyaya daxil edilməsi nəticəsində Kartli-Kaxet çarlığından asılı vəziyyətdə olan Qazax, Şəmşədil və Borçalı sultanlıqları kimi Azərbaycan torpaqları da Rusiya imperiyasına qatıldı.

Beləliklə, Rusiya imperiyası tərəfindən Azərbaycan torpaqlarının işğalı başladı. Bu proses 1828-ci il Türkmənçay müqaviləsinədək davam etdi. 1801-1828-ci illər ərzində Rusiyadan asılı olan Azərbaycan torpaqları şərti olaraq Şimali Azərbaycan adlandırılır. Rusiya imperiyası şərqdə, o cümlədən Azərbaycanda işğalçılıq planlarının həyata keçirilməsində və burada möhkəmlənməsində ermənilərə böyük rol ayırmışdı. 1905-1906 və 1918-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı soyqırım baş verdi. Bununla kifayətlənməyən ermənilər 1988-ci ilin fevralında vaxtilə qonaq kimi gəldikləri Qarabağ torpaqlarını Azərbaycandan qoparmaq üçün keçmiş sovet dövləti rəhbərliyinin köməkliyi ilə separatist hərəkətlərə başladılar. Həmin siyasət getdikcə genişlənərək Ermənistana işğalçı müharibəsinə çevrildi.

Tarixi əsərlər içərisində Azərbaycanın Rusiya ilə münasibətləri, ümumiyyətlə, ölkənin siyasi tarixinə dair də əsərlər vardır. Bu istiqamətdə XV-XIX əsrlərdə Azərbaycan–Rusiya münasibətləri, çarizmin siyasətini Azərbaycanda həyata keçirənlər, rus kəndlilərinin Zaqafqaziyaya, o cümlədən Azərbaycana köçürüməsi və s.Belə mövzulara F.M.Əliyev, F.Əsədov, D.İ.İsmayılzadə, S.Kərimova öz əsərlərində geniş yer vermişlər.Rusiya ali məktəblərində təhsil alan azərbaycanlılar, XIX əsrdə Azərbaycan ziyalıları, Azərbaycanda siyasi təhsil, Azərbaycan məktəbləri, maarif, Azərbaycan burjuaziyasının maarifçilik fəaliyyəti və s. kimi məsələlər E.S.Əliyev, D.S.Hüseynova,

M.F.Məlikov, A.Q.Mustafayev, N.A.Tahirzadə və S.Talıbova kimi tarixçilərin əsərlərində şərh olunmuşdur. Tarixçilər və digər ixtisasçılar Azərbaycan mədəniyyətinin bir çox sahələri, dövri mətbuat, görkəmli siyasi və mədəniyyət xadimləri barəsində xeyli əsərlər yazmışlar. Bunlardan Azərbaycanın dövri mətbuatı, M.Şaxtaxtinskinin rus dövri mətbuatında fəaliyyəti, Azərbaycan teatrı, onun inkişaf mərhələləri, H.Cavid, Ü.Hacıbəyov haqqında, mədəniyyət, mətbuatda Azərbaycanda ədəbi tənqid məsələləri N.Axundov, K.Zeynalova, İ.Kərimov, Q.Məmmədli, S.Mövlayeva, K.Talıbzadə tərəfindən tədqiq olunmuşdur.

Tarixşünaslıqda XIX əsr tarixinə dair, şəhərlərin tarixi, şəhərlərin su təchizatı məsələləri və digər mövzular üzrə də xeyli işlər görülmüşdür. Bunlardan Bakı (N.Məmmədov və M.Ə.Musayev), Şimali Azərbaycan şəhərləri (E.B.Muradəliyeva), Şəki (M.Ə.İsmayılov), Gəncə (kollektiv), Şuşa (G.N.İsmayılova) şəhərlərin tarixini göstərmək olar. XIX əsrdə Azərbaycanda şəhər tikintisi, memarlıq, şəhərlərin təchizatı məsələlərinə də tədqiqatlar həsr olunmuşdur (V.Xanəliyev, Ş.S.Fətullayev)

Beləliklə, XIX yüzillik xalqımızın tarixində bir tərəfdən, müstəmləkə əsarəti dövrü, digər tərəfdən isə cəmiyətimizin həyatında baş verən dərin sosial-iqtisadi və siyasi-mədəni proseslərin yüksəlişinə zəmin hazırlanması dövrü olmuşdur.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan tarixi, 7 cilddə, IV cild, Bakı, 2007.
2. Azərbaycanlıların soyqırımı haqqında. Bakı, 1998
3. Abdullayev Ə.Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və Heydər Əliyev sülh strategiyası. Bakı,1999
4. Mehdiyev R. Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri. Bakı, 2000
5. Köçərli T. Qarabağ. Bakı, 2002
6. Abdullayev M. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər). Bakı, 2005
7. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək) .Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsilə, I cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994
8. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. Prof. S.S.Əlyarlı. Bakı, "Azərbaycan" nəşriyyatı, 1996
9. Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1997
10. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı,1996
11. Hüseynov Yunis Rza oğlu. Qarabağnamələr. Bakı, Elm, 2007
12. Hüseynzadə Ə. XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı. Bakı,1967.

UOT 32:316; 32:316.752; 32:001.3

SİVİLİZASİYALARARASI DİLAOQ YENİ DÜNYA NİZAMININ ALTERNATİV MODELİ KİMİ

Üzeyir Ələmşah oğlu Zeynalov
fəlsəfə üsrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universitetinin
uzeyir.zeynalov@mdu.edu.az

Qloballaşma, modernizm, postmodernizm və nəhayət, yeni dünya nizamı kimi məfhumlar müasir həyat tərzini istiqamətləndirən əsas məfhumlardır. Nizam dedikdə istər dövlətin daxilində, istərsə də beynəlxalq arenada siyasət həyata keçirilərkən idarəçilik prinsipləri nəzərdə tutulur.

Nizam-pərakəndə, qeyri-mütəşəkkil formada olan elementlərin bir və ya da bir neçə mərkəzdə birləşməsidir və bundan irəli gələn sistemli vəziyyətidir. Nizam eyni zamanda güc amilini zəruri edir. Güclü tərəfin nizamlı etdiyi elementlərin sayı da çox olur və yığcamlıq böyüyür. Həm dövlət daxilində, həm də beynəlxalq əlaqələrdə sülh və sabitlik, eləcə də inkişaf o zaman əldə edilir ki, nizamasalma məsələsində güclü tərəfin ədalətli mövqeyi və qarşı tərəfə olan hərəkətləri əsas prinsip kimi götürülür. Bu baxımdan beynəlxalq münasibətlərdə və müasir siyasi arenada yeni dünya nizamının müsbət tərəfləri ilə bərabər mənfi məqamları da ehtiva edir.

Yeni dünya nizamının alternativ modellərindən biri olan sivilizasiyalararası dilaoq da yeni dünya nizamının qurulmasında özünəməxsus yer tutur. Məhz bütöv şəklində sivilizasiyalararası dialoqun qurulması üçün eyni zamanda yeni dünya nizamı adlandırılan daha çox siyasi tendensiyanın da öz təsir gücü mövcuddur. Nəticədə sivilizasiyalararası dialoq, o cümlədən lokalın qloballa inteqrasiyası yeni dünya nizamı anlayışında daha çox müsbət məqamların artmasına səbəb olacaqdır.

Yeni dünya nizamının elmi mühitdə nəzəri əsaslarını hazırlayanlardan biri F.Fukuyama ilk öncə 1989-cu ildə "National İnterest" jurnalında nəşr olunan "The end of History" (Tarixin sonu), daha sonra isə "The end of History and Last Man" (Tarixin sonu və sonuncu insan) adlı kitablarında nəzəri fikirlərini irəli sürmüşdür. O, bu əsərində artıq sovet ittifaqının dağılması, liberalizmin bütün "izmlər" üzərində qələbəsindən sonra yeganə iqtisadi və mədəni sistem olaraq sivilizasiyalararası münasibətlərə də öz təsirini göstərəcəyini iddia etmişdir [3, s.134]. Ancaq Fukuyamanın bu iddiasına qarşı bir çox tənqidlər ifadə edilmişdir.

Yeni dünya nizamı ilə əlaqədar Samuel Hantiqtonun fikirləri də aktuallıq kəsb edir. Belə ki, özünün məşhur "Mədəniyyətlər toqquşması və dünya düzəninin yenidən qurulması (The Clash of Civilizations and the Remaking of World Order" əsərində qlobal siyasətin yüz illər boyu ənənəviləşən mədəniyyətlər çərçivəsində şəkilləndiyi və sivilizasiyalar olaraq dünyada müxtəlif blokların yarandığını iddia edir. Ona görə mədəniyyətlərin fərqlilikləri ontoloji olaraq onların əsasını təşkil edir və Qərb bu gün digər mədəniyyətlər ilə müqayisədə fövqəladə qüdrətinin zirvəsindədir [4, s.45-49]. Lakin sivlizasiyalararası konflikt görüşünə qarşı bəzi tənqidi məqamlar da mövcuddur. Məsələn, Rusiya və Türkiyə yaxınlaşması, o cümlədən əhalisinin əksəriyyətinin şiə olmasına rəğmən İranın Ermənistanı dəstəkləməsi dövlətlərin dini və ya mədəni mənfəətlərinə görə deyil, iqtisadi və siyasi praqmatik hədəflərinə müvafiq hərəkət etdikləri tezisini dəstəkləməkdədir.

Artan bərabərsizlik və gəlirlərin ədalətli şəkildə bölüşdürülməməsi yeni dünya nizamını ən çox tənqid edilən məqamlarından biridir. Cənub və şimal yarımkürələri arasında gəlirlərin bölüşdürülməsində böyük uçurumlar meydana gəlir. Məhz orta təbəqənin gəlirləri daha da azalır. Bu baxımdan yeni dünya nizamı işsizlik, bərabərsizlik, ədalətsizlik, etimadsızlıq, təcridolunma və yoxsulluğun artdığı bir proses olaraq formalaşmışdır deyə bilərik.

Yeni dünya nizamından danışarkən alimlərin fikirləri əsasən iki istiqamətdə inkişaf edir:

1) dünyanın güc mərkəzləri arasında yenidən bölüşdürülməsi;

2) milli dövlətlərin gücünün və suverenliyinin azalması.

Əslində, müasir beynəlxalq proseslərə nəzər saldıqda, hər iki yanaşmanın müəyyən dərəcədə özünü doğrultduğunu söyləmək olar. Belə ki, son illərin ərəb inqilabları Yaxın Şərqdə və Şimali Afrikada qüvvələr balansını dəyişdirməkdədir. Lakin Misirdə, Tunisdə, Liviyada, Yəməndə rejim dəyişikliyindən sonra hakimiyyətə gələn qüvvələrin kifayət qədər demokrat olmaması bölgənin Qərbin də nəzarətindən çıxması ehtimalını artırır. Suriyada isə Rusiyanın hərbi bazasının yerləşməsi və Türkiyənin son dövrlərdə Rusiya ilə olan ciddi hərbi əməkdaşlığı bölgədə və yeni dünya nizamının formalaşmasında ciddi struktur dəyişikliklərinə səbəb olmuşdur. Bundan başqa, hazırda Şərqi Asiyada və Cənubi Çin dənizində Çin ilə ABŞ arasında bəzən müharibə ritorikalarının səsləndiyi "nüfuz savaşı" güclənməkdədir. Dünyanın nüfuz dairələrinə yenidən bölünməsi prosesinin nisbətən sakit və səssiz irəlilədiyi regionlardan biri isə Arktikadır..

Dünyanın strateji əhəmiyyətli regionlarına nəzarət uğrunda gedən mübarizə, eyni zamanda, milli dövlətlərin zəiflədiyi bir dövrdə baş verir. Son zamanlar elmi ədəbiyyatda geniş yayılan fikrə görə, milli dövlətlərin beynəlxalq münasibətlər sistemindəki yeri bundan sonra da zəifləməkdə davam edəcək. Belə bir vəziyyətdə analitiklər gələcəkdə milli dövlətlərin suverenliklərini itirərək beynəlxalq təşkilatlar və ya transmilli şirkətlərin başında dayanacağı “qlobal hökumət”in, yaxud "dünya hökuməti”nin bir hissəsi olacağı fikrini irəli sürürlər. Məsələn, ənənəvi olaraq, kilsə, mafiya "ərazisiz hökumətlər" rolunu oynayıblar. Hazırda isə özəl sektor, virtual məkan, sosial şəbəkələr dövlət hakimiyyətinə rəqib kimi çıxış edir. Formalaşmaqda olan “virtual dövlət”lər özü ilə yeni imkanlar, həm də yeni təhlükələr gətirir.

“İdarə olunan xaos” şəraitində insanlar hadisələrin axarını müəyyənləşdirməkdə, proseslərin arxasında dayanan qüvvələri görməkdə, gələcəyi proqnozlaşdırmaqda çətinlik çəkirlər. Belə şəraitdə bəzən zamanın tələblərinə uyğunlaşmağı bacaran ən çevik siyasətçilər belə çətinliklər qarşısında qalır.

Belə qənaətə gəlmək olar ki, yeni dünya nizamı, ilk növbədə, "çoxqütblü dünyaya” qarşı yönəlib. Bu səbəbdən də, dünya siyasi səhnəsində iddialı görünən dövlətlər, xüsusən də, güclənən Çin faktoru Qərbdə narahatlıqla qarşılanır. Dünyanın müxtəlif regionlarında maraqlarını təmin etməyə çalışan ABŞ-ın rəhbərlik etdiyi Qərb bloku bu məqsədlərində onlara mane olan dövlətlərdə mərkəzi hakimiyyəti zəiflədən etnik, dini ziddiyyətlərin artmasında və eyni region daxilindəki dövlətlərin bir-birinə düşmən münasibətində maraqlı ola bilər. Bu cür siyasət Qərbdə "konstruktiv xaos” adlandırılır və ABŞ-ın müttəfiqləri ilə birlikdə Yaxın Şərq və digər regionlarda məhz bu siyasəti həyata keçirdiyi düşünülür. Beləliklə, dövlətdaxili və dövlətlərarası münaqişələrlə, iqtisadi, siyasi böhranlarla zəngin, xaotik durumdan yararlana biləcək qüvvənin dünya ağalığını formalaşmaqda olan yeni dünya nizamının gələcək mənzərəsi kimi görmək olar.

Yeni dünya nizamında transmilli şirkətlər, araşdırma və düşüncə qurluşları, media və s. strukturlar daha çox fəaliyyət sahəsini malik oldu. Məhz dünyanın yenidən nizama salınması yaxud formalaşdırlması zamanı konfliktlərin meydana gəlməsi labüd idi. Bu mənada, sadəcə, sivilizasiyalar arasında deyil, hətta eyni mədəniyyət və dinə aid cəmiyyətlərdə də müxtəlifliklər səbəbilə konflikltlər meydana gəlmişdir. Biz bunun bariz nümunəsini bu gün Rusiya və Ukrayna arasında gedən müharibə görə bilərik.

Yeni dünya nizamında beynəlxalq münasibətlər sistemində bərabərtərəflilik normalarının inkişaf etdirilməsi, çoxqütblü-çoxsivilizasiyalı dünya modelinin təşəkkülü,dünya dövlətlərinin çoxtərəfli əməkdaşlığına oriyentasiyasının dərinləşdirilməsi və s. sabit inkişaf üçün yeni imkanlar qazandıracaqdır. Məhz sivilizasiyalararası dialoq yeni dünya nizamının alternativ modeli olaraq bu istiqamətdə ciddi məqamları ehtiva edir.

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov, Ə. Yeni dünya nizamı: siyasət və idarəetmə / Ə.Abbasov. – Bakı: "Zərdabi Nəşr" MMC, – 2019. – 452 s.
2. Aslanova, R.Müasir dövlət və dövlətşünaslıq elmi / R.Aslanova. – Bakı: Azərnəşr, – 2011. – 440 s.
3. Fukuyama, F. The End of History and the Last Man / F. Fukuyama. – New York: Free Press, – 1992. – 446 p.
4. Huntington, S. The Clash of Civilizations and Remarking of World Order / S. Huntington. – New York: – 1996, – p.367.
5. Bzezinski, Z. The *Grand Chessboard:* American Primacy and Its Geostrategic Imperatives / Z. Z., –USA: Basic Books, – 1997. –240 p.

UOT 911.3

COĞRAFİYA, TARİX VƏ FİZİKA FƏNLƏRİNİN İKT ƏSASINDA TƏDRİSİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

[1,3]Namiq Tahir oğlu Ağaməmmədov, [2,3]Şahnaz Əlibaba qızı Ağaməmmədova (Şabanova)
[1]coğrafiya üzrə fəlsəfə doktoru
naqamemmedov@mail.ru
İsmayıllı rayon Mücühəftəran kənd tam orta məktəbi
[2]sahnazsabanova 03.19@gmail.com
İsmayıllı rayon Gəndov kənd ümumi orta məktəbi
[3]Dağlıq Şirvan Regional Təhsil İdarəsi

Ali və orta məktəblərdə coğrafiya, tarix və fizika fənlərinin tədris prosesində informasiya kommunikasiya texnologiyalarının (İKT) tətbiqi mühüm əhəmiyyətə malikdir. Coğafiya və tarix dərslərində İKT-dən istifadənin forma və üsulları mövzuların məzmunundan, qarşıya qoyulan məqsəd və vəzifələrdən asılıdır. Bu formada dərsin aşağıdakı funksional cəhətlərini qeyd etmək olar:

- instrumental (əyani tədris vəsaitlərlərin hazırlanması);
- nümayiş (slaydlar, təqdimatlar, filmlərin dərs prosesində istifadəsi);
- tədris (trenajorlar);
- yoxlama;
- interaktiv xəritələrdən və “Google Earth” komputer proqramlarından istifadə.

Qeyd olunan dərslərdə İKT tətbiqinin müxtəlif təqdimat formaları icra olunur. Məsələn, kompüterdən əyani vəsait kimi istifadə etməklə dərs-söhbət, tədqiqat işlərinin təklif olunması və aparılması dərsləri, məşğələ dərsləri, yoxlama dərsləri, qarşılıqlı dərslər, mövzu üzrə tədqiqat tapşırıqları, nümunəvi dərslərdə videokəsmə proqramları (Freemake Video Conveter, Easy Video Gutter, Machete Video Editor Lite, Animotica-Video Editor, Avidemux, Apoweredit, Bandicut, Weeny Free Video Gutter) istifadə oluna bilər.

Mövcud təcrübə göstərir ki, coğrafiya-tarix və fizika dərslərində İKT-dən istifadə etmək aşağıdakı hallarda daha effektiv nəticələr verir:

- şifahi hesablamalar üçün (coğrafiya üzrə miqyas, saat qurşaqlarına, əhali, nəqliyyat yollarının sıxlığı, ÜDM və ÜMM aid məsələlər, tarix üzrə əsr və il hesabları, fizika üzrə mövzulara aid məsələ həlləri) tez bir zamanda tapşırığı verib, cavabı yoxlamaq;
- yeni dərs materialın öyrənilməsində (müxtəlif əyani vəsaitdən istifadə etmək, yeni anlayışlara keçidin motivasiyasını qurmaq);
- frontal sorğunun yoxlanması zamanı;
- məsələlərin həlli üçün (şəklin çəkilməsi, müəyyən bacarıqların oyrədilməsi);
- şagirdlərin tədqiqat fəaliyyətinin təşkil olunmasında;
- relevant fənlərlə inteqrasiyanın qurulması zamanı;
- “Agıllı lövhə” və proyektor vasitəsi ilə xəritələrin, tarixi filmlərin, fizikaya aid lobaratoriya işlərinin nümayiş olunması.

Əvvəlki illərin tədris təcrübəsi göstərir ki, yuxarıda sadalanan resursları özündə birləşdirən və onlardan da qat-qat effektli olan vasitə İKT-dir. Fizika fənninin tədrisi zamanı məktəblərdə şagirdlərdə yalnız bilik deyil, həm də praktik bacarıqlar formalaşdırılmalıdır [3]. Cari dövrdə müasir informasiya texnologiyaları dərs prosesinə təkcə avadanlıqlar kimi yox, həm də yeni yanaşma metodu kimi inteqrasiya olmuşdur.

Fənləri şagirdlərə aşılayarkən vacib haldır ki, şagirdlər əzbərçilikdən uzaq olaraq tədqiq olunan obyektin mənasını tam dərindən idrak etsinlər. Fənn müəlliminin ümdə vəzifəsi elmi təfəkkür səviyyəsindən asılı olmayaraq, hər bir şagirdı öz fənni ilə maraqlandırmaq, şagirdlərin müxtəlif tipli məsələləri sərbəst həll etməsinə nail ola bilməkdir.

Tarix-coğrafiya və fizika İKT əsasında-yəni interaktiv təlim metodları və üsullarının (qruplar, cütlər, rollar, əqli hücum, nəticə və s.) tətbiqi tədris prosesini xeyli intensivləşdirir, onu hər bir şagird üçün əhəmiyyətli və maraqlı edir, dərsdə fəallığın maksimum artmasına zəmin yaradır, bununla da təlimin inkişafetdirici aspektini xeyli dərəcədə gücləndirir.

Coğrafiya dərslərində İKT-dən plansız və düşünülmədən istifadə olunması dərsin keyfiyyətinin aşağı düşməsinə və şagirdlərin tez yorulmasına səbəb olur [1]. Təlim-tərbiyə prosesində interaktiv təlim metodlarının tətbiqi sürətlə dəyişən və inkişaf edən müasir dövrdə yaşamaq, fəaliyyət göstərmək, əməkdaşlıq etmək, qərar qəbul etmək kimi bacarıqları əks etdirən kompetensiyaların formalaşması orta təhsilin məqsəd və vəzifələrinə yeni münasibəti əks etdirir. Elmdə və thsildə beynəlxalq təcrübəni gözardı edə bilmərik [4].

Hazırda həm metodik, həm də elmi-pedaqoji, psixoloji cəhətdən təkmil olan pedaqoqlarımız yeniliyin və müasirliyin nədən ibarət olmasını dərk edir, öz dərslərində tətbiq edərək müasir dərs və onun təşkilinə verilən tələblərdən geniş istifadə edirlər (xəritə-sxem 1).



Xəritə-sxem 1. ArcGİS proqramı ilə hazırlanmış xəritə

Tarix fənninin interaktiv metodlarla tədrisi zamanı Pover Point, movie maker, smart notebook, active inspire, Veb 2 proqramlarından istifadə şagirdlərdə mənimsəməni artırır. Dərsdə öyrənilmiş materialların ekskursiyalar vasitəsi ilə dəstəklənməsi məqsədəuyğundur. Bu məqsədlə müxtəlif tarix-diyarşünaslıq muzeyləri, qalalar, türbələr, kurqanlar, abidələr seçilə bilər. Bu məqsədlə İsmayıllı rayonunda yerləşən daha məşhur olan Cavanşir qalası, Girdiman qalası, Tarix diyarşünaslıq Muzeyi, Fit dağı, Qız qalası, "Bədövün" məscidi marşrut kimi diqqəti cəlb edir. Tarixin müasir tədris avadanlıqlarını internet ilə birlikdə elektron kompyuter proqramları da daxil

olmaqla tarix dərsləri, video, medianın və onların istifadəsi ilə təmin edilməsi başa düşülür [2, s.518].

Eyni zamanda "V elektron təhsil" respublika müsabiqəsinin qalibi olmuş https://tarixmuellimi.wixsite.com/tarixmuellimi vebsaytından istifadə etməklə dərsi daha maraqlı etmək olar.

Nəticə olaraq qeyd etmək lazımdır ki, İKT əsasında fəal təlim (interaktiv) təlimin üstünlüklərinə baxmayaraq, müəllim ənənəvi (izahedici-illüstrativ və reproduktiv) metodlardan istifadəsindən tam imtina etməməlidir. Təlimin məqsədindən, məzmunundan, şagirdlərin hazırlığından asılı olaraq müəllim öz seçimini etməlidir. "Ağıllı" lövhə, həmçinin kompyuterə qoşulan mikroskop, skaner, pəqəmli fotoaparat, videokamera və s. qurğulardan alınan təsvirləri də proyektor vasitəsilə qəbul edə bilir ki, bu da məktəblərdə virtual laboratoriyaların təşkilində mühüm əhəmiyyətə malikdir.

Müəllim yeni pedaqoji və İKT texnologiyalarından istifadə zamanı dərs formasını seçərkən şagirdlərin marağını nəzərə almalıdır. Hazırda məktəbdənkənar mühitdə mövcud informasiya vasitələrindən fəal istifadə edən şagird dərsdə onlar üçün maraqlı olanları görmək istəyir. Müəllimin İKT-dən istifadə etmək bacarığı yüksək olmalıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Əhmədov K. Coğrafiya fənninin tədrisində İKT-dən istifadə. Azərbaycan müəllimi.- 2014.- 17 oktyabr.- S.9.

2. Əmirov M.M. Ümumtəhsil müəssisələrində tarixin fəal/interaktiv təlimi metodikası. Bakı: ADPU-nun nəş., 2014, 678 s.

3.Zamanova N.İ. Dünyanın iqtisadi və sosial coğrafiyası fənninin tədrisi və idarə olunması problemləri // ARTİ, "Elmi Əsərlər", 2018, cild 18, № 1, s.46-48

4. Şərifov Q. (2021). Liseylərdə "Fizika" fənni üzrə problem əsaslı təlimdə "Fişboun" üsulundan istifadənin əhəmiyyəti. Azərbaycan məktəbi. № 4 (697), s. 45–54

UOT 373.1.02

YUXARI SİNİF ŞAGİRDLƏRİNİN AQRESSİV DAVRANIŞININ PROFİLAKTİKASI VƏ KORREKSİYASI

Könül Hidayət qızı Cabbarova
Mingəçevir Dövlət Universiteti
konul.cabbarova@mdu.edu.az

Son zamanlar ən kəskin problemlərdən biri yuxarı sinif şagirdləri arasında aqressivliyin artması və onun vaxtında qarşısının alınması ehtiyacıdır. Təcavüzkarlıq və aqressiv hərəkətlər böyük məktəb yaşlı şagirdlərin davranışının pozulmasında əsas keyfiyyət xüsusiyyətləridir. Aqressiv uşaqlar əsəbi olur, tez inciyir, həmyaşıdları ilə az ünsiyyət qurur, başqalarına düşmən kəsilir, yaddaşları zəifləyir, böyüklər ilə ünsiyyət zamanı həmişə gərgin olurlar. Bu isə sadəcə olaraq bir həyəcanverici hadisə deyil, çox ciddi sosial, pedaqoji və psixoloji problemdir.

Aqressiv davranış – insanın özünəməxsus hərəkət forması olub, subyektin ziyan vurmağa çalışdığı şəxslər qrupuna və ya başqa insanlara münasibətdə güc tətbiq edilməsi ilə xarakterizə olunan davranışdır. Aqressiv davranış təzahür formasına və intensivlik dərəcəsinə görə - düşmənçilik və bədxahlığın nümayişindən tutmuş sözlə təhqir (verbal aqressiya) və kobud fiziki gücün (fiziki aqressiya) tətbiqinə qədər dəyişə bilər [1, səh. 7-8].

Hər il aqressiv uşaqların sayı daha da çoxalır. Böyük məktəb yaşlı uşaqların emosional-affektiv sferasının psixoloji müayinəsinin nəticələrinə görə, şagirdlərin 100 % -dən 35 % -i dağıdıcı

və gözlənilməz emosional partlayışlarla əlaqəli olan aqressiv davranış sərgiləyir. Bu, təlim-tərbiyə prosesinin bütün iştirakçıları arasında gərginlik, qorxu və həyacan dolu vəziyyət yaradır. Belə uşaqlarla işləmək çətindir və çox vaxt pedaqoqlar bu cür davranış nümayiş edən şagirdlərin öhtəsindən necə gəlmək lazım olduğunu bilmirlər.

Aqressiv davranışın səbəblərini başa düşməmək və bilməmək, aqressiv uşaqların böyüklərdə və uşaqlarda gərginliyə, daha sonra artan qıcıqlanmaya və nəhayət, açıq antipatiyaya səbəb olmasına gətirib çıxarır. Bu kateqoriyadan olan uşaqların tərbiyəsinə kömək etmək üçün tərbiyə olunanlarda aqressiv davranışının səbəblərini tapıb üzə çıxarmaq lazımdır.

Bunun üçün mütəşəkkil və qeyri-mütəşəkkil tədbirlər zamanı uşaqların müşahidəsini apardıq, müəllimlər və valideynlər arasında sorğular həyata keçirdik. Nəticədə uşaqlarda aqressiv davranışın səbəbləri ilə bağlı bəzi məlumatlar əldə etdik (şək. 1).



Şək. 1.

Histoqram məlumatları göstərir ki, böyük məktəb yaşlı şagirdlərdə aqressiyanın ən çox yayılmış səbəbi böyüklərin gəncin (yeniyetmənin, uşağın) aqressiyasına qarşı olan biganə münasibətidir (halların 59 %-i). Böyüklər gəncin aqressivliyini hiss etməmiş kimi davranırlar və ya böyüdükcə özünü idarə etməyi öyrənəcəyinə inanırlar. Uşaq hər şeyi düzgün etdiyini düşünür və bununla da aqressiv davranış formalarının xarakter xüsusiyyətləri kimi möhkəmlənməsi müşahidə olunur.

İkinci yerdə iki səbəb var idi:

1) böyüklər tərəfindən diqqət əksikliyi, gənci (yeniyetmə, uşağı) qəbul etmək ehtiyacının ödənilməməsi (halların 8 %-i). Uşaqlar diqqətin ən uyğun formada necə cəlb ediləcəyini bilmirlər və öz hisslərini ifadə etmək üçün aqressiv üsuldan istifadə edirlər.

2) böyüklər tərəfindən həddindən artıq tələbkarlıq (fiziki cəzadaxil) uşaqda şıltaqlıqlara, qəzəb qığılcımlarına və aqressiv davranış formalarına səbəb olur.

Üçüncü ən çox rast gəlinən səbəb həddən artıq tez-tez güzəştə getmədir. Böyüklərin təlim-tərbiyə prosesində qeyri-müəyyənliyi uşaqda güvənsizlik, etibarsızlıq hissinə səbəb olur və bu da, sonradan müdafiə aqressiyasına çevrilir.

Beləliklə, uşaq aqressiyasının aradan qaldırılması sahəsində müəllimlərin və valideynlərin əsas səyləri aqressiyanın səbəblərini anlamağa, sosial bacarıqları inkişaf etdirməyə və uşaqlarla qarşılıqlı əlaqədə effektiv strategiyalar tapmağa yönəldilməlidir.

Aşağıda pedaqoqların aqressiv davranış problemini həll etmək üçün istifadə edə biləcəyi və eyni zamanda orta məktəb şagirdləri ilə ünsiyyətin tərəfdaşlıq (əməkdaşlıq) tərzi çərçivəsində qala biləcəyi üsullar verilmişdir.

Yuxarı sinif şagirdinin aqressiv davranışı zamanı tərbiyəvi təsir üsulları

1. Uşaq haqqında təsəvvürünüzü dəyişdirmək üzərində çalışın. Aqressiv uşaqda müsbət xüsusiyyətlər axtarmaq, hərəkətindən asılı olmayaraq onu qəbul etmək. Qəbul edilmədikdə, prinsiplərin heç biri işə yaramayacaq. Yadda saxlamaq lazımdır ki, "sən ... olanda sənə daha yaxşı davranacağam" deyil, "səndən xoşum gəlir, çünki o, sənsən". Uşaq əmin olmalıdır ki, nə edirsə etsin, əməli qəbuledilməz olsa belə, o, layiqli insandır. Güvən hissi şagirdlərə davranışlarını daha uyğun olanlara dəyişdirməyə və özünə hörmət etməyə kömək edir. Burada "Mən ifadələri"nin istifadəsi davranışın pozulması və bunun nə olduğu barədə xüsusi formada məlumat verən şifahi ifadələrdir.

2. Şagirdlərə sosial cəhətdən uyğun şəkildə öz mənfi emosiyalarını ifadə etməyi öyrətmək:

a) onların hissləri və müvafiq situasiyada olan uşaqların hissləri haqqında yüksək səslə danışmaq;

b) şagirdlərin qəzəbini canlı bir cisimdən cansız cismə köçürməyə dəvət etmək: məsələn: "Vurmaq istəyirsənsə, kimisə vurmaqdansa yumşaq bir yastığa vursan daha yaxşı olar". Qəzəbi ifadə etmək üçün digər vasitələrdən istifadə edin: "qışqırıq çantası", yüngül toplar, qəzetlər və s.;

c) duyğuların fiziki təzahürünü və uyğun formada sərbəst buraxılmasını təşviq edin.

3. Xüsusi olaraq, "düşünmə kürsü"sünün yaradılması. Digərlərinə bənzəməyən, hər hansı bir oturacaq. Bu stul aqressiv bir yuxarı sinif şagirdinin düşünə və özünü necə fərqli apara biləcəyi bir yerdir. Bu stulda beş dəqiqə kifayət edə biləcək zamandır. Digər şagirdlər başa düşməlidirlər ki, stulda oturan adamı narahat etmək olmaz.

Sonda yuxarı sinif şagirdlərində aqressiv davranışı korreksiya etməyə yönəlmiş bir sıra oyunları təqdim edirik.

Tanışlıq oyunu

Şagirdlər bir dairə ətrafında otururlar və növbə ilə hansısa bir əşyanı bir-birinə ötürürlər (məsələn, top). Sonda bu əşya kimin əlində qalarsa o, öz adını və üç sevmədiyi əşyanın adını deyir. Beləliklə, müsbət emosional fon yaranır və şagirdlər bir-birini daha yaxşı tanıyırlar.

"Seçimini əsaslandır" situativ oyun

Qrup dörd komandaya bölünür. İştirakçıların hər birinə təhlil etmək üçün müvafiq situasiya yazılmış xüsusi bir kart təqdim edilir. Situasiyanı müzakirə etmək üçün vaxt verilir. Sonra hər bir komanda mövcud vəziyyəti canlandırır (rollu oyunlar). Digər komandalar təklif olunan variantları diqqətlə dinləyir və fikir ayrılığı yarandıqda çıxış yollarını təklif edirlər. Oyunun sonunda fasilitator ümumiləşdirmə apararaq oyuna dair nəticələri elan edir.

Təxmini situasiyalar:

1. Ad gününə dəvətlisiniz. Valideynlərin səni buraxmaq istəmir, amma yığıncağa getməlisən. Necə edəcəksən? Davranışınızı izah edin.

2. Çox yaxşı və sadiq dostunuz var. Bu yaxınlarda onda özünü biruzə verən aqressivlik, halsızlıq və s. bu kimi halların şahidi olmusunuz. Onun narkotik maddədən istifadə etdiyindən şübhələnirsiniz? Nə edəcəksən? Dostunla bu mövzuda danışacaqsan, yoxsa hiss etməmiş kimi davranacaqsan? [2, səh. 178-179]

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Milli izahlı Ensiklopedik pedaqoji lüğəti / tərt. ed. prof. N.Kazımov – Bakı: ADU Pedaqogika kafedrası, - 2005. – 246 s.

2. Ничишина, Т.В. Профилактика девиантного поведения несовершеннолетних в школе и семье: пособие для педагогов учреждений образования, реализующих образовательные программы общего среднего образования с белорусским и русским языками обучения, учреждений дополнительного образования детей и молодежи / Т.В.Ничишина. - Минск: Национальный институт образования, 2018. - 248 с.

UOT 321:330.342.14

AVROPA VƏ AMERİKA XX ƏSRİN 90-CI İLLƏRİNDƏ. AVROPA İTTİFAQI SOSİAL RİFAHIN VƏ MƏDƏNİ İNKİŞAFIN NÜMUNƏSİ KİMİ

İlham Mabud oğlu Məmmədov
Mingəçevir Dövlət Universiteti
ilham.mammadov@mdu.edu.az

XX yüzilliyin əvvəlki onilliklərində olduğu kimi 90-cı illərində də (1990-1999) bəşəriyyətin ictimai-siyasi və mədəni həyatını dəyişdirmiş önəmli hadisələr baş verdi. 90-cı illərin əvvəllərində 1922-ci il 31 dekabr tarixində yaradılmış SSRİ fəaliyyətini dayandırdı (30 dekabr 1991). SSRİ-nin varisi olan Rusiya Federasiyasında iqtisadi və siyasi böhran başlandı. Keçmiş SSRİ məkanına daxil olan respublikalarda, Yuqoslaviya federasiyasında, Yaxın Şərqdə etmik-dini zəmində münaqişələr başlandı. Bütün dünyada terror aktlarının sayı xeyli artdı. SSRİ-nin və dünya sosializm sisteminin iflasından sonra birqütblü dünya nizamı bərqərar oldu. ABŞ planetin fövqəldövləti kimi dünyanın çoxlu sayda dövlətlərinin siyasi və iqtisadi istiqamətlərini müəyyən etməyə başladı. XX əsrin 90-cı illərində əvvəllər misli görünməmiş texnoloji inkişaf baş verdi. İnternet, mobil telefonlar, personal kompüterlər və digər texniki avadanlıqlar geniş yayıldı [4, s. 20-29].

XX əsrin 90-cı illərində Amerikada baş vermiş hadisələr içərisində *ABŞ-ın Panamaya hərbi müdaxiləsini* (1989 dekabr - 1990 yanvar ayında ABŞ Panamada yaşayan 35 min ABŞ vətəndaşını və Panamada demokratiyanı bərpa etmək məqsədi ilə Panamaya ordu yeritmişdi. Nəticədə Manuel Norieqa Morenanın -1934-2017, -1983-1989-cu illərdə Panamada yaratdığı rejim devrilmiş, özü isə həbs edilmişdi), *Los-Anceles buntunu* (1992-ci il aprel ayının 29-dan may ayının 4-nə qədər ABŞ-ın Los-Anceles şəhərində baş vermiş qarışıqlıq. Qarışıqlığa səbəb 1991-ci il 3 mart tarixində sürət həddini aşan qaradərili Los-Anceles sakini Rodni Kinqə qarşı 4 ağdərili polisin zorakılığı olmuşdu. Qarışıqlıq nəticəsində 63 nəfər həlak olmuş, şəhərə 1 mld ABŞ dolları həcmində ziyan dəymişdi), ABŞ prezidenti *Uilyam Cefferson Klintonun* (19 avqust 1946, - 1993-2001-ci illərdə Demokratlar partiyasından ABŞ-ın 42-ci prezidenti) impiçmentini (1998-ci ilin yanvar ayında Ağ evdə stajorluq keçmiş 1973-cü il təvəllüdlü Monika Semill Levinski ilə ABŞ prezidenti Vilyam Klinton arasında olan münasibətlərlə əlaqədar respublikaçı konqressmenlər ABŞ prezidentini yalançı şahidlikdə və impiçment prosesini inisiasiya etməkdə günahlandırırdı), Şimali Amerikada azad ticarət zonasının (ing. *North American Fiee Trade Agreement - NAFTA,* - Kanada, ABŞ və Meksika arasında azad ticarət haqqında razılıq. Bu haqda 1992-ci il 17 dekabr tarixində imzalanmış müqavilə 1994-cü il 1 yanvar tarixində qüvvəyə minmişdi) yaradılması [2, s. 232-236] və Kvebekin müstəqilliyi haqqında referndumun keçiriləsini (Kvebekin müstəqilliyi haqqında ikinci referendum, fra. *Referendum de* 1995 *au Quebec* - 1995-ci il 30 oktyabrın 30-da keçirilən referendum Kvebek əhalisinin 50, 58%-i Kvebekin Kanada ittifaqından ayrılmasına "yox" demişdi) xüsusi olaraq qeyd etmək lazımdır.

XX yüzilin 90-cı illərində Avropada baş vermiş hərbi-siyasi hadisələr içərisində aşağıdakıları xüsusi olaraq qeyd etmək lazımdır:

1. "Yuqoslaviya müharibələri" – 1991-2001-ci illərdə keçmiş Yuqoslaviya Federasiyasının ərazisində baş vermiş silahlı münaqişələr. Yuqoslaviya müharibələri millətlərarası zəmində baş

verən hərbi qarşıdurma idi. Serblər eyni vaxtda slovenlərlə, xorvatlarla, bosniyalılarla və almanlarla vuruşurdu. Xorvatlar isə öz növbəsində serblərdən başqa bosniyalılara qarşı mübarizə aparırdı. Bu zaman Albaniya ilə Şimali Makedoniya arasında da qarşıdurma hökm sürürdü. Artıq müharibənin gedişində keçmiş Yuqoslaviyada törədilən cinayətlər üzrə Beynəlxalq tribunal yaradılmışdı. Haaqada fəaliyyət göstərən həmin tribunal 2014-cü ilə qədər hərbi cinayətlər törətmiş Slobodan Miloşoviç, Qoran Xaciç, Ratko Mladiç və Radovan Karaciç də daxil olmaqla 161 nəfəri mühakimə etmişdi.

2. AFR kansleri *Helmut Jozef Mixael Kolun* (1930-2017, - 1 oktyabr 1982-ci - 27 oktyabr 1998-ci il tarixində AFR-in və birləşmiş Almaniyanın kansleri) hakimiyyəti dövründə *Almaniyanın birləşdirilməsi* (alm. *Deutsche Wiedervereinigung* – 1990-cı il oktyabrın 3-də Almaniyanın etnik-siyasi birliyinin bərpa edilməsi - alm.*Herstellung der Einheit Deutschlands*).

3. Çexoslavakiyanın ayrılması ("Məxməri boşanma" – 1993-cü il yanvarın 1-də Çexoslavakiyanın Çexiya və Slovakiya kimi 2 fərqli respublikaya ayrılması).

4. Şimali İrlandiyada silahlı münaqişə – Şimali İrlandiya katoliklərinin regionun statusu uğrunda mübarizəsi.

XX əsrin 90-cı illərində Avropada baş vermiş ən vacib hadisə Avropa ittifaqının yaradılması (1992, Avropa İqtisadi Birliyinin əsasları 1951-ci il aprelin 18-də Parisdə və 1957-ci il martın 25-də Romada bağlanmış müqavilələrlə qoyulmuşdu) və Maastrixt müqaviləsinin (1992-ci il 7 fevral - Maastrixt-Niderland) bağlanması olmuşdu. Avropa ittifaqının (Aİ) yaradılmasında Belçika, Böyük Britaniya, Danimarka, İrlandiya, Lüksemburq, Niderland, Fransa, Poruqaliya, İtaliya, Yunanıstan, AFR və İspaniya iştirak etmişdilər. Müqavilə 1993-cü il noyabrın 1-də qüvvəyə minmişdi. Birliyin əsasını isə regional inteqrasiyanı hədəf seçmiş Avropa İqtisadi Birliyi təşkil edirdi [1, s. 204]. AİB-nin bütün beynəlxalq təşkilatlarda - BMT-də, Ümumdünya Ticarət Təşkilatında (ing. *World Trade Organization* - WTO), "Böyük yeddilikdə" (ing. *Group og Seven* - G7, - ABŞ, Kanada, Almaniya, Böyük Britaniya, İtaliya, Fransa və Yaponiyanın daxil olduğu qeyri-formal beynəlxalq klub. Altı dövlətin – ABŞ, B.Britaniya, Fransa, AFR, İtaliya, Yaponiya liderləri ilk dəfə 1975-ci il noyabrın 15-17-də Fransa prezidenti *Valeri Jiskar d'Estenin* –1926-2020, - 1974-1981-ci illərdə 20-ci Fransa prezidenti, - təşəbbüsü ilə Paris yaxınlığında Fransa prezidentlərinin yay iqamətgahı olan Rambuye sarayında görüşmüşdülər. Bundan sonra bu cür görüşlər hər il keçirilməyə başladı. 1976-cı ildə 6 dövlətə Kanada qoşulduqdan sonra təşkilat "G7", 1991-ci ildə RF-in kluba üzv qəbul edilməsindən sonra isə "G8" adlandırılmışdı. 2014-cü ildə Rusiya tərəfindən Krımın anneksiyasından sonra RF qrupdan xaric edildi. 2020-ci ilin iyununda ABŞ prezidenti Donald Tramp RF-in G7-yə qayıtması təklifi ilə çıxış etsə də digər dövlətlər buna razılıq vermədi) və "G20" qrupunda (ing. *The Group of Twenty major advanced and emerging economies* - G20, - inkişaf etmiş dünya dövlətləri hökumət başçılarının və Mərkəzi banklarının təmsil olunduğu klub. Klubda 20 dövlət – ABŞ, Avropa Birliyi, Avstraliya, Argentina, Almaniya, Braziliya, B.Britaniya, CAR, Cənubi Koreya, Fransa, Hindistan, İndoneziya, Meksika, Kanada, Çin, İtaliya, Rusiya, Türkiyə, Yaponiya, Səudiyyə Ərəbistanı təmsil olunur) diplomatik missiyaları fəaliyyət göstərir.

AB-ni idarəçilik baxımdan Avropa Şurası - indiki rəhbəri Şarl Mişel), Avropa Komissiyası - indiki rəhbəri Ursula Gertruda fon der Lyayen, Avropa İttifaqının Nazirlər Şurası, Avropa Birliyi Məhkəməsi, Avropa Heablama Palatası, Avropa Mərkəzi Bankı və Avropa Parlamenti - indiki spikeri Roberta Metsola,- təmsil edir. Avropa birliyində təmsil olunan 27 dövlətin ərazisində (4 236 351 km^2) 454 mln əhali (2020) yaşayır. 24 dil AB-nin rəsmi dilləri sayılır.

Avro Birliyinin pul vahidi "avro"dur - **€** - Bank kodu – EUR – Avrozonaya daxil olan 19 dövlətin - Avstriya, Almaniya, Belçika, Yunanıstan, İrlandiya, İspaniya, Cənubi Kipr, Latviya, Lüksemburq, İtaliya, Estoniya, Niderland, Litva, Malta, Portuqaliya, Slovakiya, Sloveniya, Fransa, Finlandiyanın, həmçinin, Andorra, Vatikan, Monako və San-Marinonun, eləcə də Çernoqoriyanın və Kosovonun pul vahididir. 1999-cu il 1 yanvar tarixində dövriyyəyə buraxılmış və 1979-1998-ci illərdə Avropa valyuta sistemində istifadə olunan "Avropa Valyuta Vahidi" – ing. ECU – *European*

Currency Unit (₤) – pul vahidini əvəz etmişdi. 2002-ci il yanvar ayının 1-dən bütün AB-də vahid valyuta kimi təsdiq olunmuş avronun dizayn işlərini Avstriyalı qrafik və dizayner *Robert Kalina* – 1953, - həyata keçirmişdi. Robert Kalina, həmçinin Azərbaycan manatının dizayneridir. Brüssel, Lüksemburq və Strasburq AB-nin siyasi mərkəzləri sayılır. 2012-ci ildə isə təşkilat sülh üzrə Nobel mükafatına layiq görülmüşdü. AB-də təmsil olunan 27 dövlət 1985-ci ildə sərhəd nəzarətinin ləğv edilməsini nəzərdə tutan "Şengen zonası" (ing. *Schengen Area* – AB-nin Şengen qanunvericiliyinə əsasən 27 dövlət arasında sərhəd yoxlamalarının ləğv edilməsi. Şengen müqaviləsi ilk dəfə 1985-ci ildə Lüksemburqun Şengen kəndində bağlanmış, 1995-ci ildən qüvvəyə minmişdi. Hazırda Şengen zonası 4 312 099 km^2 ərazini əhatə edir) yaratmışdılar [3, s. 44-56].

XX yüzilliyin 90-cı illərinə öz möhürünü vurmuş hadisələr sırasında Ümumdünya Ticarət Təşkilatının (ing. *World Trade Organization* – Beynəlxalq təşkilatlar tərəfindən tanınan 160 dövlət bu təşkilatın üzvüdür. 1994-cü ildə Mərakeşdə aparılan danışıqlar nəticəsində 1 yanvar 1995-ci il tarixdə qüvvəyə minmişdir. Mənzil-qərargahı Cenevrə (İsveçrə) şəhərində yerləşir. Hazırda rəhbəri ABŞ-Nigeriya iqtisadçısı Nqozi Okonco-İvealadır) yaradılmasını, antiqlobalistlərin ilk çıxışlarını (antiqlobalistlərin ilk çıxışları 1999-cu ilin iyun ayında Almaniyanın Köln şəhərində baş vermişdi), parnik qazlarının atmosferə tullanmasını məhdudlaşdıran *Kioto protokolunun* (protokol 1997-ci il 11 dekabr tarixində Yaponiyanın Kioto şəhərində imzalanmış, 2005-ci il 16 fevralın 16-da qüvvəyə minmişdi) imzalanmasını, nəhayət Şərqi Avropada yerləşən sovet qoşunlarının çıxarılmasını (10 iyun 1945-ci il tarixindən Şərqi Avropa ölkələrində, xüsusilə də Şərqi Almaniyada yerləşdirilmiş SSRİ silahlı qüvvələrinin hərbi birləşmələrinin son hissələri 1994-cü il 31 avqust tarixində Şərqi Avropanı tərk etmişdi) xüsusi olaraq qeyd etmək lazımdır. Beləliklə, XX əsrin 90-cı illərində həm Amerikada, həm də Avropada baş verən fundamental dəyişikliklər Qərb dünyasının növbəti inkişaf mərhələsinə keçidi üçün əlverilşli zəmin yaratmışdı.

İstifadə edilmiş ədəbiyyat

1. Anneli Albi. Implications of the European constitution // EU enlargement and the constitutions of Central and Eastern Europe. - Cambridge, UK: Cambridge University Press, 2008, 2005. - P. 204
2. Костюнина Г.М. Североамериканская интеграция: 20 лет спустя // Вестник МГИМО Университета. - 2015. - № 2 (41). - С. 232-236
3. Лазарев С.Е. Основные черты и проблемы шенгенского права (Международные правоотношения) // Гражданин и право. 2016. № 6. - С. 44-56
4. Шестакова И.Г. Новая темпоральность цифровой цивилизации: будущее уже наступило // Научно-технические ведомости СПбГПУ. Гуманитарные и общественные науки. 2019. № 2. - С. 20-29

UOT 37:001.12/18; 378

PEDAQOJİ KADRLARIN HAZIRLANMASI: MÜASİR DÖVRÜN İNKİŞAF MEYLLƏRİNİN TƏHLİLİ

Mətanət Rizvan qızı Yusifova
Mingəçevir Dövlət Universiteti
matanat.yusifova@mdu.edu.az

Sivilizasiyanın müasir inkişafı mərhələsində dünyanın bir çox ölkəsində mədəniyyətlərin intensiv qarşılıqlı əlaqəsi, sosial problemlərin qloballaşması, qarşılıqlı asılılığın və beynəlxalq

rəqabətin artması şəraitində təhsilin modernləşdirilməsi cəmiyyətin yeniləşməsinin aparıcı amili kimi qəbul edilir və həyata keçirilir.

Dəyişikliklərin əsas məqsədi şəxsiyyətin özünəməxsus qabiliyyətlərinin, maraqlarının, fərdi xüsusiyyətlərinin inkişafına yönəlmiş humanist paradiqmanın həyata keçirilməsidir. Təhsil sisteminin prioritet vəzifələri şəxsiyyətin yaradıcı, mənəvi və fiziki imkanlarının inkişafı, mənəviyyat və sağlam həyat tərzinin möhkəm əsaslarının formalaşdırılması, fərdiliyin inkişafına şərait yaratmaqla intellektin zənginləşdirilməsidir [1].

Müasir cəmiyyətin fəal həyat mövqeyinə və yüksək kommunikativliyə malik, öz peşəkarlıq müqəddəratını təyin etmək və özünü inkişaf etdirmək qabiliyyətinə malik savadlı insanlara ehtiyacı var. Məktəb sosial institut kimi şəxsiyyətin potensialının ən tam və hərtərəfli inkişafına töhfə verən təlimi təşkil etməyə, profil təhsilində nailiyyətlərin, imkanların və perspektivlərin qiymətləndirilməsinə çağırır. Obyektiv olaraq, bu, pedaqoji cəhətdən hərtərəfli tədqiqat tələb edən yeni bir sahədir [3].

Hazırda dünyanın müxtəlif ölkələrində və müxtəlif tarixi dövrlərdə tərbiyə və təhsilin pedaqoji nəzəriyyə və praktikasının vəziyyətini, qanunauyğunluqlarını və inkişaf tendensiyalarını öyrənən, beynəlxalq təcrübənin pedaqogika və məktəb təcrübəsinə ötürülməsinin formalarını, yollarını və sərhədlərini müəyyən edən, ölkəmizdə gələcək tərbiyə və təhsil modellərini proqnozlaşdıran müqayisəli pedaqogika kimi yeni sahə formalaşmışdır. Müqayisəli pedaqogikanın məqsədi pedaqogika sahəsində beynəlxalq təcrübənin və məktəb praktikasının təhlili əsasında ölkəmizdə tərbiyə və təhsili təkmilləşdirməkdir. Əslində müəllimlərin peşəkar hazırlığının çoxvektorlu inkişafı üçün məktəbdə nəinki mövcud pedaqoji texnologiyalara xidmət etməyi, həm də innovativ prosesləri həyata keçirməyi bacaran, yaradıcı işləyən müəllimə həmişəkindən daha çox ehtiyac var [2].

"Peşə hazırlığı son məqamda onunla nəticələnir ki, hansısa bir peşəyə yiyələnən hər bir şəxs onun üç aspekti - məzmun, şəxsi və prosessual (texnoloji) aspekti ilə üzləşir. Bu üç aspekt nöqteyi-nəzərindən peşə hazırlığına profilindən asılı olmayaraq bütün müəllimlərin fəaliyyətinə xas olan ümumi xüsusiyyətlər və eləcə də onların tədris etfiyi fənnin ğzəl xüsusiyyətləri daxildir. Güman edirik ki, peşəkar hazırlığın üç aspektinin vəhdəti və qarşılıqlı əlaqəsi təhsilin yüksək səviyyəsinin və keyfiyyətinin göstəricisi ola bilər. Lakin təcrübə göstərir ki, hələlik buna nail olmaq çətindir, ona görə də müəllim hazırlığı məsələləri daim alimlərin diqqət mərkəzindədir" [3].

İngiltərə və ABŞ universitetlərində (eləcə də Azərbaycanda) gələcək müəllimin peşə hazırlığı sistemi bakalavr və magistr səviyyələrində həyata keçirilir. Qazaxıstan və Rusiyada 3 pilləli təhsildən istifadə olunur: bakalavr, mütəxəssis, magistr. Təhsil müddəti 4 ildən 11 ilə qədərdir. Müəllimlərin əksəriyyəti universitetləri Təhsil üzrə İncəsənət Magistri və ya Təhsil üzrə Elm Magistri kimi bitirir. Orta hesabla konkret profil üzrə magistr dərəcəsi alan tələbələr 4-5 il təhsil alırlar. Hazırda İngiltərədə dövlət məktəblərində təhsilin bütün səviyyələrində (məktəbəqədər, ibtidai, o cümlədən hazırlıq və orta təhsil sinifləri) dərs demək üçün ixtisaslı müəllim statusuna (Qualified Teacher Status - QTS) malik olmaq tələb edilir [1].

Bir çox təhsil müəssisələrində istifadə edilən paralel model üzrə pedaqoji kadr hazırlığı birinci təhsil ilindən başlanır, ümumi və xüsusi təhsillə paralel gedir. Paralel model proqramı müəllim hazırlığının 4 əsas bölməsini əhatə edir:

a) bütün tələbələr üçün məcburi ümumi təhsil ("əsas") kursları;

b) müxtəlif birləşmələrdə pedaqogika, psixologiya, məktəb gigiyenası və pedaqogika tarixinin ümumi əsaslarının öyrənilməsi daxil olmaqla, fənlərin psixoloji-pedaqoji dövrü. Bu fənlərin öyrənilməsi pedaqoji təcrübənin müxtəlif növləri ilə tamamlanır;

c) tələbənin şəxsi təhsili üçün nəzərdə tutulmuş və onun məktəb fənlərinin adi tsiklindən seçdiyi bir-iki "fənn" kursu. Bu fənləri tələbə daha dərindən öyrənir;

d) "peşəkarlıq" kursları.

Tədris vaxtının orta hesabla 30 %-i "xüsusi" fənlərə, 25 %-i pedaqoji fənlərə (təcrübəsiz), 23%-i "əsas" ümumi təhsil fənlərinə, 10-12 %-i "peşə" kurslarına və repetitor dərslərinə ayrılır. Məsələn, İngiltərədə müəllimlik təcrübəsi üçün orta hesabla 25 həftə nəzərdə tutulur (1996-cı ildən - 32 həftə) [1]. Ümumiyyətlə, həm orta ümumtəhsil məktəblərində, həm də ali təhsil müəssisələrində müasir metodologiyada "nə öyrətmək" yox, "necə öyrətmək lazımdır?" sualı hələ də açıq qalır. Buna görə də, məktəblilərin öyrənmə dərəcəsini artırmaq, tədris materialını başa düşmək, yadda saxlamaq və mənimsəmək üçün, həm də daha əlçatan etmək üçün ən təsirli üsulların axtarışı çox vacibdir ki, bu da son nəticədə təbii olaraq şagirdlərin biliklərini gücləndirmək və genişləndirmək məqsədi güdür [2].

Cəmiyyətin mənəvi potensialının yaradıcı qüvvələrini inkişaf etdirmək təhsilin vəzifəsidir. Məhz buna görə də təhsil müəssisələrində tələbələrə "bilik ötürmək" üçün işçilərə deyil, peşəkarlara ehtiyac var. Ali təhsil sistemində tələbələrin subyekt kimi inkişafı pedaqoji problem kimi həmişəkindən daha aktualdır. Burada diqqəti xüsusi fənlərin tədrisinə sistemli yanaşma metoduna vermək vacibdir, bu isə təhsil sistemlərinin - tədris və təlimin qarşılıqlı əlaqəsi zamanı öz bəhrəsini verə bilər və nəticədə:

1. Dərsdə akademik mövzu üzrə məlumatların mənimsənilməsi səviyyəsini müəyyən edir.
2. Həm müəllim, həm də tələbələr öz fəaliyyətini özünüinkişafın məqsəd və texnologiyalarına uyğun modelləşdirir, sinxron qarşılıqlı fəaliyyət göstərən sistemlərin ümumi məqsədlərinə uyğun olaraq nəticələrin əldə olunmasını təmin edir.
3. Ümumilikdə isə əsas məqsəd tələbələrin intellektual potensialının subyekt kimi inkişaf etdirilməsi olur.

Müəllim mənəvi və əxlaqi məqsədlərə çatmaq üçün harmoniya əsasında subyektlərin davranışını şüurlu şəkildə modelləşdirmək imkanı qazanır, nəticədə bu subyektlərin həyatı, belə demək olarsa, davranışın mənəvi və əxlaqi məqsədlərinin səhv seçilməsi səbəbindən meydana çıxan mənfi münasibətlərdən qorunur.

Gələcək müəllimlərin peşə hazırlığına sistemli yanaşmanın həyata keçirilməsi bir tərəfdən, mənəvi özünüinkişaf təcrübəsini proqnozlaşdırmağa imkan verir, digər tərəfdən isə təhsil məkanında olan insanlar arasında ahəngdar və yaradıcı münasibətlərin qurulması üçün əxlaqi məqsədlərin "seçim sahəsi"nin yaradılmasını təmin edir. Beləliklə, universitet müəllimi hər dərsdə təkcə məzmun-tərbiyə vəzifəsini yerinə yetirmir, həm də ideoloji məqsədi müəyyən edir.

Bizim əsrimiz fizika və texnokratiya əsri olan XX əsrdən fərqli olaraq liberal təhsil və sosial-humanitar bilik əsridir. Dövrümüzün əsas çağırışları, ilk növbədə, humanitar təhsillə bağlıdır və dözümlülük tələbi, bir-birini dinləmək və eşitmək bacarığı, keyfiyyətli ünsiyyət və normal qarşılıqlı əlaqə, insanların həyatı boyu öyrənmə qabiliyyəti ilə bağlıdır. Və bu çağırışların cavabı məhz liberal təhsilin inkişafındadır [3].

Ölkənin yeni nəslin yüksək ixtisaslı mütəxəssislərinə ehtiyacı var və belə kadrların vaxtında və keyfiyyətli hazırlanmasına ali təhsil müəllimləri cavabdeh olmalıdır. Nəzəriyyənin zərərinə olmamaq şərti ilə tələbələr üçün praktiki məşğələlərin intensivləşdirilməsinə xüsusi diqqət yetirilməlidir. Beləliklə, ali təhsilin modernləşdirilməsinin mühüm tərkib hissələrindən biri onun humanitar komponentinin islahatıdır ki, bu da yaradıcı və innovativ düşünməyə qadir, öz qərarlarının təbiətə və cəmiyyətə müsbət və mənfi təsirini təhlil edən yeni nəslin – siyasi cəhətdən düzgün və texniki cəhətdən səlahiyyətli vəzifələrin formalaşdırılması və həyata keçirilməsi üçün məsuliyyət daşıyan mütəxəssislərin hazırlanmasını təmin etməlidir. Xüsusilə, pedaqoji yönümlü və eləcə də texniki ali məktəblərin tələbələri arasında ünsiyyət bacarıqlarının inkişafına diqqət yetirmək lazımdır, çünki müasir dövrdə həm müəllimlik, həm də mühəndislik təhsili ali təhsilin prioritet sahələrindəndir.

Qeyd edilməlidir ki, ali məktəb müəllimlərinin qarşısında duran və istər ali təhsil müəssisələrinin məzunlarının bilik səviyyəsinə, istərsə də bütün ali təhsil sisteminə təsir edən

vəzifələrin bütün kompleksinin həlli zərurəti göz qabağındadır və onun həlli üçün bütün səyləri səfərbər etmək məqsədəuyğundur.

İstifadə edilmiş ədəbiyyat

1. Бордовский Г.А. Подготовка педагогических кадров за рубежом. Международный журнал прикладных и фундаментальных исследований. М., 2016 – № 8, стр. 16-20
2. Дворянкина Е.К. Системный подход к управлению образованием при подготовке будущих учителей. https//cyberleninka.ru
3. Профессиональное развитие будущих учителей в вузе как педагогическая проблема. https// famous-scientists.ru

UOT 811.11

İNGİLİS DİLİNDƏ LATIN MƏNŞƏLİ SÖZLƏRİN ROLU VƏ ƏHƏMİYYƏTİ

Mətanət Məmməd qızı İsmayılova
Mingəçevir Dövlət Universiteti
metanet.ismayilovat@mdu.edu.az

Bu gün bütün dünyada "universal ünsiyyət vasitəsi" (ita. *lingua franca* - frank dili - müxtəlif dillərdə danışan insanlar arasınada müvafiq kommunikasiya yaratmaq məqsədi ilə istifadə olunan dil və ya dialekt) statusu daşıyan ingilis dili sahib olduğu fövqəladə populyarlığını XVIII əsrin ikinci yarısından etibarən qazanmağa başlamışdır. 1066-cı ildə Normandiya hersoqu *Vilhelm Fatehin* (ing. *William I the Conqueror* və yaxud *Vilhelm Bastard* - ing. *William the Bastard* - 1027-1087, - 1066-1087-ci illərdə İngiltərə kralı) İngiltərədə baş verən *Norman işğallarından* (ing. *Norman conguest of England*) sonra bütün dövlət sənədləri latın dilində tərtib olunmağa başladı. XV əsrdən etbarən yalnız qeyri-rəsmi sənədlər ingilis dilində tərtib edilirdi [4, s. 15-22].

Oliver Kromvelin (ing. *Oliver Cromwell* - 1599-1658) protektoratlığı dövründə yenidən latın dili ingilis dili ilə əvəz olundu. Lakin Styuartlar sülaləsinin (ing. *Steward* -1693-1707-ci illərdə fasilələrlə İngiltərə taxt-tacına sahib olan kral sülaləsi, sülalənin adı Şotlandiyada seremonial rütbə sayılan "styuardın" - Britaniya taxt-tacının varislərinə verilən titulun adından götürülmüşdür) restavrasiyasından (1649-cu il 17 mart tarixində İngiltərə parlamenti tərəfindən ləğv edilmiş Styuartların 1660-cı ildə bərpası və 1649-cu il yanvar ayının 30-da edam edilmiş I Karlın -1625-1649, oğlu II Karlın -1660-1685, taxt-taca sahib olması) sonra yenidən rəsmi sənədlərin latın dilində tərtib olunmasına başlandı. 1731-ci ildə ingilis dilinin bütün Britaniyada rəsmi sənəd dili olması haqqında qanun qəbul edildi və o,1863-cü ilədək qüvvədə qaldı. Qeyd olunan qısa tarix latın dilinin ingilis dilinə olan əsaslı təsiri haqqında ilkin təsəvvürlər yaradır. "*Latın dili*" (lat. *Lingua Latina* - hind-avropa dilləri ailəsinə aid olan qədim italia dillərinin latın-falisk budağı) və yaxud qısaca "*latın*" qədim romalıların dili, Roma imperiyasında universal ünsiyyət vasitəsi idi. Bu gün latın dili məhdud şəkildə istifadə olunan, lakin aktiv dil kateqoriyasına aid edilən yeganə qədim italia dilidir. Hal-hazırda latın dilində *Roma kuriyası* (lat. *Curia Romana* – Müqəddəs Taxt-Tacın və ya Vatikanın əsas inzibati orqanı), *Malta ordeni* (Roma katolik kilsəsinin dini-cəngavər ordeni) üzvləri və Vatikan şəhər-dövlətinin əhalisi danışır. Buna baxmayaraq, *linqua latina* qədim yunan və hind (sanskrit) dilləri kimi "ölü dillər" kateqoriyasına aid dil hesab olunur. Müasir Avropa dillərinin, o, cümlədən ingilis dilinin leksik tərkibində xeyli latın mənşəli söz, söz birləşmələri və terminlər var. 1540-cı ilə qədər latın yazısının tərtib olunmasında *qot şriftlərindən* (qot yazısında istifadə olunan tekstura, hərflərin uzunsov olamsı və mətnin bütün səhifəni örtməsi ilə seçilirdi)

istifadə olunurdu. İohann Quttenberqin çap etdirdiyi ilk "*Bibliya Vulqata*" qot şrifti ilə hazırlanmışdı. 1473-cü ildə isə İtaliyada qot şriftli kitabların kütləvi çapı başlanmışdı [5, s. 11].

Qeyd etmək lazımdır ki, e.ə. I minilliyin əvvəllərində əski latın dilində İtaliyanın mərkəzində yerləşən *Latsiya* (*Latium* - indi tarixi Latsiyanın ərazisi mərkəzi Roma şəhəri olan *Lazio* əyalətinin tərkibinə daxildir) əyalətinin əhalisi danışırdı. 30 icmadan ibarət olan latınlar əvvəlcə *Alba-Lonqa* (Romadan 19 km aralı Alban dağlarında yerləşən qədim şəhər. E.ə. VII əsrdə romalılar tərəfindən dağıdılmışdı) şəhərinin, daha sonra Romanın rəhbərliyi altında birləşdilər. Qədim Roma tarixçisi *Tit Livinin* (lat. *Titus Livius* - e.ə. 59-17) "*Şəhərin əsasının qoyulmasından başlayan tarix*" (lat. *Ab urbe condita*) əsərində qeyd olunur ki, ən məşhur Roma nəsilləri (Yulilər, Servililər və s.) Alba-Lonqanın yetirmələri, yəni etnik latınlar olmuşlar. Qədim ari (qədim hindlilərin dili - "*sanskrit*" adlanan ədəbi variantı və "*prakrit*" adlanan xalq dili mövcud idi) dilində olduğu kimi latın ədəbi dilinin də "*vulqar latın*" (lat. *sermo vulqaris*) adlanan bəsit variantı var idi [3, s. 55].

Orta əsrlərdə latın dili və yazısı özünün klassik nümunələrindən xeyli fərqlənirdi. XIV əsrdə isə İtaliyada latın dilinin Siseron variantının bərpa edilməsi uğrunda hərəkat başlanmışdı. Hərəkatın tərəfdarları o dövrdə İtaliya və Avropa universitetlərində, həmçinin kilsələrdə istifadə olunan latın dilini nifrətlə "*mətbəx üçün yararlı olan latın*" adlandırırdılar. Humanizm dövrünün mütəfəkkirləri (İngiltərədə *Tomas Mor* - 1478-1535, Niderlandda *Rotterdamlı Erazm* - 1466-1536, İtaliyada *Tomaz Kampanella*) artıq öz əsərlərini latın dilidə yazırdılar. XVIII əsrə qədər latın dili beynəlxalq elm dili statusunu qoruyub saxlamışdı. *Ameriqo Vespuççi* (1454-1512, - əslən Florensiyadan olan səyahətçi və dənizçi) "*Yeni dünyanın*" (Amerika) kəşf edilməsi haqqında hesabatını məhz latın dilində tərtib etmişdi. İngilis alimi *İsaak Nyuton* (1643-1727), Hollandiya filosofu *Benedikt Spinoza* (1632-1677) və başqaları öz əsərlərini latın dilində yazırdılar.

Britaniya adalarında latın dilinin ən qədim izləri şəhərlərin adlarında (Britaniya şəhərlərinin adlarıbda iştirak edən - *chester,* - *caster,* yaxud - *caste*, *fossa, coln* hissələri latın mənşəli sözlərdir. Latın dilində *casta* - "hərbi düşərgə", *castellum* -"möhkəmləndirilmiş", *fossa* - xəndək, *colonia* - "yaşayış yeri" deməkdir) özünü ifadə edir: *Manchester*, *Lancaster*, *Newcastle*, *Fossebrook*, *Lincoln*, *Colchester* və s. [2, s. 15-19].

Qeyd olunduğu kimi, tək ingilis dilinin deyil, bütün Avropa və dünya dillərinin çoxunun leksik tərkibində latın dilindən götürülmüş çox sayda sözlər və ifadələr var. Ümumiyyətlə, başqa dillərdən söz götürmək bir dildə olan dil vahidlərinin başqa bir dilə keçməsi prosesidir və hər bir dilin leksik cəhətdən mühüm elementi sayılır. Müasir dövrdə elə bir dil yoxdur ki, onun leksik tərkibində digər dillərdən götürlmüş sözlər və ifadələr olmasın. Çünki bu təbii prosesdir və dilin zənginləşməsinə və leksik cəhətdən genişlənməsinə xidmət edir. Bir qayda olaraq, bu proses əski və nə vaxtsa universal ünsiyyət statusu daşıyan dillərdən daha gənc dillərə sözlərin və ifadələrin ötürülməsi kimi təzahür edir. Məhz bu səbəbdən latın mənşəli sözlərə və terminlərə bütün dillərdə rast gəlmək mümkündür.

İngilis dilinə gəldikdə latın dilindən sözlərin, ifadələrin və terminlərin götürülməsi prosesi xronoloji baxımdan üç mərhələyə, yaxud təbəqəyə bölünür:

1. Eramızın ilk əsrlərində romalıların və german tayfalarının britaniyalılarla yaratdıqları ticarət əlaqələri nəticəsində əxz olunmuş sözlər və terminlər (məsələn, ing. *ounct* – lat. uncia, ing. *mint* - lat. *moneta*, ing. *pound* – lat. *pondo*).

2. VI-VII əsrlərdə İngiltərədə xristianlığın yayılması zamanı ingilis dilinə keçən latın sözləri və ifadələri (məsələn, ing. *candle* – lat. *candela,* ing. *monk* – lat. *monachus*).

3. İntibah dövründə (XV-XVI əsrlər) götürülmüş, əsasən elmlə və mədəniyyətlə bağlı olan sözlər və ifadələr (məsələn, ing. *animal* – lat. *animal,* ing. *formula* – lat. *formula*, ing. *memorandum* – lat. *memorandum*).

Latın dilindən əxz olunmuş sözlərin və ifadələrin ingilis dili tərəfindən assimilyasiyası, yəni onların bu dilin qrammatik və fonetik quruluşuna uyğunlaşması maraqlı linqvistik mənzərə yaradır. Bu uyğunlaşmanın səviyyəsi bir sıra faktorlarla müəyyən olunur: sözlərin əxz edilməsi müddəti, bu

sözlərin dilə hansı yolla (sifahi ya yazılı) daxil olması, əxz edilmiş sözlərin və ifadələrin dildə necə (daim ya arabir) işlənməsi. İngilis dilinə latın dilindən keçən sözlərin və ifadələrin assimilyasiyası ilə bağlı spesifik hallar mövcuddur. Məsələn, çox uzun latın sözlərinin və ifadələrinin qısaldılması və ingilis dilinin stilistik quruluşuna uyğunlaşdırılması. Nümunə üçün aşağıdakı sözləri və ifadələri qeyd etmək olar: latın sözü "*campus*" (düşərgə) ingilis dilində "*camp*" kimi yazılır və ifadə olunur, latın ifadəsi "*mobile vilgus*" (kütlə) ingiliscə sadəcə "*mob*" kimi işlənilir, latın dilində "*fanaticus*" (heyranlıq, fövqəl oyanıqlıq) sözü ingilis dilində "*fan*" şəklində (fanat və ya azarkeş) kimi istifadə olunur.

İngilis dilində qısaldılımış latın mənşəli sözlər, ifadələr və terminlər çox vaxt sırf ingilis tipli sözlər və ifadələr kimi təqdim olunur. Məsələn, latın dilində "*ante meridiem*", ("günortaya qədər") ifadəsi ingilis dilində "*in the morning*" kimi, latınca "*id est*" ("yəni") ifadəsi ingilis dilində "*that is*" kimi, latınca "*exempli gratia*" ("məsələn") ifadəsi isə ingiliscə "*for example*" kimi tələffüz olunur.

Latın dilindən əxz edilmiş bir sıra ifadələr ingilis dilində abbreviatura kimi yazılır və tələffüz olunur. Onların içərisində ən məşhurları aşağıdakılardır:

- CV – *Curriculum Virtae* - "həyatın təsviri", - hər bir insanın həyatı haqqında (təhsil, iş yeri, professional sərişdə və s.) qısa və xronoloji şəkildə tərtib olunan məlumatların külliyatı.
- AD - *Anno Domini*, - "bizim eranın illərini və əsrlərini" ifadə edən abbreviatura.
- AM – *Ante meridiem*,- "meridiana qədər" və PM – *Post meridiem* – "meridiandan sonra" - hər iki ifadə günün günortaya qədərki və günartadan sonrakı vaxtlarına aid hadisələrə işarə kimi işlədilir.
- EG – *Exapleli gratia,* - "məsələn", "məsəl üçün" ifadələrini bildirir.
- İE – *İd est*,-"yəni" və ya "başqa sözlə" mənalarını verir.
- PS – *Post scriptum*, – "yazılmışlardan sonra", – başa çatdırılmış və imza atılmış məktuba əlavəni müəyyən edən ifadə kimi istifadə olunur.
- NB – *Nota bene,* – "yaxşı-yaxşı bax", – diqqəti cəlb etmək üçüm qoyulan işarə bildirir.
- Q.E.D. – *Quod erat demonstrandum* – "elə bunu sübut etmək tələb olunurdu", – hər hansı məsələnin sübuta yetirilməsini ifadə edir.
- Etc – *Et cetera* - "və s.", "və i.a.", "və b." mənasında işlənilir.
- VS – *Versus* – "əleyhinə" və ya "biri digərinə qarşı" mənalarını verir.
- O.C. – *Opus citatum*, – "sitat gətirilmiş iş", istinadları müəyyən etmək üçün işlədilir.

Bundan başqa ingilis dilində latın dilindən keçmiş çox sayda sözlər, terminlər və ifadələr var ki, onların çoxu bütün dünya dillərində aktiv şəkildə istifadə edilir: məsələn, *aberration, abject*, *absolute, abstrakt, academically, accurate, accusation, act, action, activation, actor, actually, alibi*, *affekt, adjutant, administrator, album, altar, alternative, alminium, amnesia, amulet, artist, arena, article, adaptation, aspect, angina, animal, application, arbiter, assistant, association, attestation, auction, auditorim, attraction, attribute, aviation, ballade, base, britain, bulla* və s. [1, s. 58-61].

Qeyd edək ki, Roma imperiyasının simal əyaləti sayılan İngiltərəyə qədim romalıların verdiyi "Dumanlı Albion" (lat. *Nebulosus Albion*) adı da latın mənşəli məcazdır və onlar Britaniya adalarını həmişə dumanlı-çənli və ağ rəngdə olması ilə əlaqədar belə adlandırmışdılar. Qədim romalıların Britaniya adalrında yerləşdirdikləri qarnizonlardan biri də indiki Londonun ərazisində idi və latınca "*Londinium*" (43-cü ildə yaradılmışdı, latın dilindən tərcümədə "qala" deməkdir) kimi tanınırdı.

Müasir britaniyalıların leksikonunda hər gün istifadə olunan və mühüm predmetləri ifadə edən sözlərin böyük bir qismi latın mənşəlidir: məsələn, *street* (lat. *via strata* – daş döşənmiş yol), *tower* (lat. *turris* - qüllə, sitadel), *port* (lat. *portare* - şəhər qapıları, liman), *mile* (lat. *mille* - min addım = 1,609 km), *pound* (lat. *pondus* -1 kq gümüş) *alibi* – hardasa başqa yerdə, *multi* - çox, *labor* - əmək, *bonus* - mükafat, *via* - vasitəsi ilə, *et-cetera* - və s. Bundan başqa müasir ingilis dilində latın mənşəli bir çox ifadələrdən də istifadə olunur: məsələn, *tabula rasa* - təmiz vərəq və yaxud lövhə, *a priori* - əzəli, *de-fakto* - faktiki, *persona non grata* - arzu olunmayan şəxs, *status quo* - qüvvələr nisbəti, hər hansı münasibətlərdə vəziyyət, *incognita* - gizli şəkildə, *terra incognita* - naməlum torpaq, *Veni,*

vidi, vici - gəldi, gördü, qələbə çaldı, *cogito erqo sum* - mən düşünürəm, deməli yaşayıram, *dictum-faktum* - deyildi-edildi, *de-jure* - hüquqi cəhətdən və yaxud qanuni, *alma-mater* - qida verən ana (ali təhsil müəssisəsi haqqında), *post factum* - hadisə baş verəndən sonra.

Göründüyü kimi, müasir ingilis dilinin leksik tərkibində təmsil olunan latın mənşəli hər hansı söz, termin və ifadə bu gün "*lingua franca*" (universal ünsiyyət vasitəsi) statusu daşıyan "*English language*"ın daha zəngin, yaxşı anlaşılan, mənalı və cazibədar olmasında müstəsna rol oynayır.

İstifadə edilmiş ədəbiyyat

1. Cogo, Allessia. 2018. «English as a Lingua Franca. Form follows function.» English Today 95 (3), 58-61

2. Кацман Н.Л., Покровская З.А. Латинский язык: учебник для вузов. - М.: Владос, 2016. - 456 с. - С. 15-19

3. Солопов А.И. Латинский язык // БРЭ. Том 17. - М., 2010. - С. 55

4. Харперская энциклопедия военной истории Дюпюи Р.Э., Дюпюи Т.Н. Все войны мировой истории. Книга 2. 1000-1500 гг. - М.: АСТ, 2004. - С. 15-22

5. The Printed Book of the Renaissance. Wayback Machine. 2015 - P. 11

UOT 811.512

MÜRƏKKƏB SİNTAKSİS BÜTÖVLƏRİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Gülxar Firqət qızı Yusibova
Mingəçevir Dövlət Universiteti
Bakı Slavyan Universitetinin dissertantı
gulkhar.yusibova@mdu.edu.az

Koqnitiv dilçiliyin meydana gəlməsinin əsas mənbəyi koqnotologiya elmlərinin inkişafı ilə bağlıdır. Həmin elmlərin tədqiqat obyekti insan idrakı və idraki sistemdir; onun bir istiqaməti də linqvistik aspektdir. Keçən əsrin 60-70-ci illərində süni intellekt, intellektual proseslərin modelləşdirilməsi problemlərinin öyrənilməsinin bir zərurət kimi meydana çıxması koqnitiv dilçiliyin inkişafına güclü təsir etmişdir.

Koqnitiv dilçiliyin yeni dilçilik sahəsi kimi formalaşması keçən əsrin sonlarına təsadüf edir. XXI əsr, artıq, koqnitiv dilçiliyin yeni problemlərinin tədqiq olunduğu dövrüdür.

Koqnitiv dilçiliyin əhatə etdiyi problemlər içərisində mətn xüsusi yer tutur. O,struktur-semantik bütövlüyə malik olmaqla informasiya daşıyıcısıdır. İnformasiyanın hazırlanması, nitq olaraq verballaşması və dərk olunması, eləcə də eyni dərəcədə nitq aktı, onun növləri və tipləri (bilvasitə və bilavasitə nitq aktı) mətn dilçiliyinin koqnitiv aspektinə aiddir.

Mətnin koqnitiv təhlili deyəndə koqnitiv – praqmatik və kateqorial təhlil nəzərdə tutulur.

Mətnin koqnitiv təhlili onun konseptual strukturunun təhlilidir. Burada ilkin olaraq, hansı sözləsə, assosiasiya olunan mətnin konseptual strukturu, əsas hədəfi müəyyənləşdirmək üçün müəllifin subyektiv fikirlərinin daşıyıcısı olan konseptin ətrafında toplanan leksik-qrammatik qrupların müəyyənləşdirilməsi vacib şərtdir. Mətnin konseptual strukturu mətnin mental məkanıdır və güclü mövqe ilə səciyyələnir. Güclü mövqe rema və təkrar mövqeyi kimi qəbul olunur. Azərbaycan dilində güclü mövqe xəbərlə bağlıdır.

Mətn hansısa hadisənin işarəsidir, daha doğrusu, hadisənin linqvistik ifadə formasıdır. Bədii mətnlər ikinci semiozisə aiddir, yəni yazıçı tərəfindən yaradılan dünyadır.

Ierarxiya mətnin struktur təşkilinin mühüm prinsipi olmaqla dinamik sistemdir. O, mətnin daxili təşkilini əhatə edir və sistemi təşkil edən çoxpilləli xüsusiyyətə malikdir.

Mikromətn makromətnin avtonom seqmentidir. Onun bu kontekstdə formalaşma xüsusiyyətləri vardır. Mikromətnin avtonomluğu qlobal informasiyanın bitkin bir seqmenti olmasındadır. Yəni mikromətn özü də struktur-semantik bütövdür, bu, onun avtonomluğudur. Lakin o, makromətn kontekstində əlaqələnən, ierarxiya yaradan seqmentlərdən biridir. Onların informativ yükü makromətn kontekstində konkretləşir, kommunikasiyanın hansısa təyinatının yerinə yetirilməsi zamanı struktur-semantik əlaqələnmənin vahidlərindən birinə çevrilir. Ona görə də mikromətnlərdəki avtonomluğu həm nisbi, həm də mütləq mənada başa düşmək olar. Mikromətn o mənada nisbi müstəqilliyə malikdir ki, onun semantikası makro əlaqələnmə şəraitində tam açılır, müəyyənləşir.

Aktual üzvlənməyə əsaslanan tema-rema münasibətlərini təkcə cümlələrlə məhdudlaşdırmaq olmaz, o, həm də mətndə verilən informasiyanı bu prinsiplərlə seqmentasiya edə bilərik. Burada da əsas prinsip köhnə-baza biliyi ilə nisbətdə duran yeni bilikdən ibarətdir. Yeni bilik remadır, mikromətndə o, bir və ya bir neçə cümləni əhatə edə bilər. Əgər cümlədə tema-remadan danışırıqsa, onda məsələ cümlə kontekstində təhlil olunur, lakin mikromətnə aid olanda informasiyanın müəyyən hissələrini əhatə edən komponentlər birliyindən danışmalıyıq.

Mətndə tema və remaların ierarxiyası dedikdə, MSB-lər üzrə tema və remaların hadisələrin inkişafı kontekstində əlaqəli inkişafı, semantik cəhətdən mətni bütövləşmənin inkişaf dialektikası nəzərdə tutulur.

Mürəkkəb sintaktik bütövlər formalaşma baxımından cümlələrin çərçivə modelini xatırladır. Türkologiyada bu kriteriyanı müəyyənləşdirən akad. K.M.Abdullayevin MSB-lərin müəyyənləş-dirilməsi prinsipini qəbul edirik. Həmin prinsipə görə, cümlə hansı üzvlə başlayırsa, onunla da qapanır. Türk cümlələrinin subyektlə başlayıb subyektlə qapanması mürəkkəb sintaktik bütövlərin quruluş prinsipi və ya onun müəyyənləşməsi kriteriyasıdır. Əgər cümlə yuxarıda qeyd etdiyimiz şəkildə qapanırsa, mürəkkəb sintaktik bütövlər hansı informasiya ilə başlayırsa, onunla da bitir.

MSB-lərin koqnitiv xüsusiyyətlərindən danışarkən onun psixolinqvistik aspektini də nəzərdə tutmalıyıq. Burada nitqin törəməsi, qavranılması və formalaşması, eləcə də yaddaş kimi mühüm fdaktorlar daxildir.

İnsanın mədəniyyəti, hansısa cəmiyyətə aid qanun kodksi, dil kollektivində davranışı,müdrik sözlər, poeziya və s. yaddaş sisteminiə aid olan mnemik yaddaşa aiddir. Adətən, yaddaşda mühafizə olunanlar keçmişlə bağlı olduğundan keçmiş zamanda verilir. Yaddaşla dil bir-biri ilə üzvü şəkildə bağlıdır. Hətta insan səssiz fikirləşirsə də, şüur forması kimi onun yaddaşında saxlanılan dil quruluşu və onun balansında olan dil vasitələri qeyi-verbal vəziyyətdə olsa da mühüm rola malikdir.

MSB-lər nitq aktı ilə sıx bağlıdır. Nitq aktı vasitəli və vasitəsiz olur. Vasitəli nitq aktında illokasiya birbaşa təqdim olunur, vasitəsizdə isə dalayısı ilə ifadə olunur və mətni situasiyadan asılı olur. Vasitəsiz nitq aktında şərti olaraq forma və məzmun vəhdəti pozulub, lakin mikromətn şəraiti bu şərti uyğunsuzluğu aradan qaldırır, onun düzgün anlanılmasına imkan yaradır.

Nitq aktı müxtəlif məzmunlu informasiyalar üzərində köklənə bilər. Məsələn, əmr, xahiş, xəbərdarlıq, and, təhqir, tərif, kompliment, müraciət, çağırış, təhdid, mühakimə və s. Bunların hər birisində dil vasitələrindən işlənilmə özəlliyi vardır. Bunların içərisində əmr cümlələrində vasitəsiz nitq aktından istifadə ehtimalı yox dərəcəsindədir, lakin müraciət, çağırış, məzmunlu cümlələrdə isə əksinə bu ehtimal çox yüksəkdir. Deməli,vasitəsiz nitq aktının nitqdə işlədilməsi şəraiti də və ehtiyacı bir çox məsələlərlə bağlıdır.

Nitq aktı mətnlə, informasiya verimi ilə bağlıdır, bunun da iki səviyyəsi var:

1. Mikromətn.
2. Makromətn.

Mikromətn səviyyəsində hansısa böyük bir informasiyanın bir seqmenti və ya kiçik həcmli mətninözü verilir. Kiçik həcmli mətnlər deyəndə bildiriş, sərəncam, qərar və ssəciyyəli mətnləri nəzərdə tuturuq. Böyük həcmli bədii mətnlər mikromətnlərin ierarxiyası əsasında formalaşır. Ona görə də mikromətn səviyyəsində nitq aktının öyrənilməsi mətn nəzəriyyəsinə yeni faktlar verir.

Nitq prosesində ekstralinqvistik amillər də iştirak edir;nəyisə soruşuruq, kimisə xəbərdarlıq edirik, kimisə hədə obyektinə çeviririk. Bu, nitqin illokutiv funksiyası ilə bağlıdır. Illokutivlik dalxarici faktordur, onun nitqi inteqrallaşdırma xüsusiyyəti vardır.

Praqmatika ümuminsan fəaliyyəti kontekstində nitqi öyrənir; üslubiyyat, ritorika, kommunikativ sintaksis, funksional üslublar, sosiolinqvistika, psixolinqvistika və s. mühüm məsələləri əhatə edir. Praqmatika danışan və dinləyənə kommunikativ aspektdə baxır və dəyərlilik, faydalılıq, işarənin aydınlılığı və informasiyanın semantikası problemlərini öyrənir.

Mətn praqmatikası intensional aspekt nəzərdə tutulmaqla dil vahidlərinin funksional istiqaməti nəzərdə tutulur. Mətn ünsiyyət vahididir, o, mürəkkəb ierarxaik sistemə malikdir. Mətn müəllif tərəfindən informasiyanın məqsədli tərtibat formasıdır. Onda məqsəd qarşı tərəfə – adresata təsir faktoru var. Mətnin praqmatik potensialı dil vahidlərinin məzmuna uyğun seçilməsi və funksionallaşması ilə bağlıdır. Yəni lazım olan effekti almaq üçün dil vahidlərinin seçilməsi birbaşa praqmatikanın funksiyasına daxildir. Mətn praqmatikasına qeyri-verbal nitq faktoru da daxildir. Bütün hallarda mətn praqmatikasının əsasında danışan və dinləyən subyekt dayanır.

Cümlənin propozisiyası onun məntiqi mənasıdır. Propozisiya cümlənin dəyişməz semantiuk komponentidir, invariantdır. Uğurlu kommunikasiya üçün propozisiyanın reallığı əsas şərtdir. Reallıqdan kənar propozisiyalar kommunikasiya zamanı verilən informasiyanın mahiyyətinə çevrilə bilməz. Digər tərəfdən, propozisiyada intensional aspekt nitq aktının əsas parameteri kimi özünü göstərir. İstənilən mətndə intensional aspekt mətndə verilən informasiyanın modal xüsusiyyətlərini nümayiş etdirir.

Mürəkkəb Sintaktyik Bütövlərdə müxtəlif modal münasibətlər yaradan konseptual kateqoriya müəllif obrazıdır. O, mətn və diskursun yaradıcısıdır. Mətn yaradarkən müəllif fikrini incəliklərinə qədər ifadə etmək üçün dil vahidlərinin seçimində və onların müvafiq funksional səviyyəyə qaldırmaqda sərbəstdir. Mürəkkəb Sintaktik Bütövlərin(MSB) qurumu zamanı müəllif həm dil vasitələrinin potensialından, həm də özünün intellektual səviyyəsindən istifadəni birləşdirərək özünəməxsus şəkildə dünyanın dil mənzərəsini yaradır.

Dil şəxsiyyəti təkcə dil qabiliyyəti deyil, o, həm də şəxsiyyətin ideyasını daşıyıcısıdır. MSB-lərin bu kontekstdə öyrənilməsi antroposentrik prinsiplər üzərində qurulur.

Mətndə müəllif dili ilə personajların dili bir-birindən fərqlənir və biri-digərinə qarışmır; onların öz sərhədləri vardır. Personajlar əsərdə hadisələrin iştirakçısı və ya şahidi kimi çıxış edirlər, onların bu kontekstdə həmin hadisələrə öz baxışları vardır. O, yaratdığı obrazların dilini məkan, zaman və müəllif prinsipi ilə tənzimləyir. O, həmişə dünyagörüşcə, hadisələrə yanaşma münasibətlərinə görə obrazlardan yüksəkdə dayanır.

İstifadə edilmiş ədəbiyyat

1. Abdulla .K..Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, Maarif 2016.
2. Abdurəhmanova K.E. Mətndə söyləm komponentlərinin aktuallaşması. fil.e.d. dis. avtoreferatı, Bakı 2018.
3. Allahverdiyeva F. M. Sadə cümlənin struktur-semantik variativliyi.“Elm vətəhsil”, Bakı 2016.
4. Глухов В.П. Основы психолингвистики: учеб. пособие для студентов педвузов.М.: АСТ: Астрель, 2005., 49.
5. Хисамова Г.Г., Овчинникова, С.В. Языкознание. Вестник Нижегородского университета им. Н.И.Лобачевского, 2015, № 2 (2), с. 574–578.

UOT 81’271; 82.085; 808.5; 81’34

FRANSIZ FUTBOL ŞƏRHÇİLƏRİNİN NİTQİNİN FONETİK XÜSUSİYYƏTLƏRİ

Ağabikə İsmayıl qızı Əliyeva
Azərbaycan Dillər Universiteti
agabikaaliyeva47@gmail.com

XXI əsrdə media qurumlarının ciddi problemlərindən biri də tamaşaçını cəlb etməkdir. İnsanlar bir qayda olaraq televizor qarşısında vaxt keçirmək istəmirlər. Tamaşaçını ekran qarşısında oturmağa vadar etmək ildən-ilə çətinləşir. Uzun verilişlərin isə baxıcısı azalır. Bu xüsusda idman proqramlarını təqdim edən jurnalistlərin işi daha ağırdır. Onların şərh üslubundan televiziyanın tamaşaçı sayı, reytinqi, son nəticədə isə maliyyə vəziyyəti asılıdır. A televiziyasının aparıcısı futbol üzrə dünya çempionatını sönük şərh edərsə, tamaşaçı bir neçə dəqiqə sonra matçı B kanalında izləyəcək. O, böyük ehtimalla bir daha A kanalındakı idman proqramlarına baxmayacaq. Bu səbəbdən idman proqramı cəlbedici, auditoriyanın ruhuna yaxın formada şərh edilməlidir. Hətta dil normalarının pozulması yolu ilə olsa da, aparıcılar tamaşaçını cəlb etməyə çalışırlar.

İdman şərhçilərinin nitqinin fonoloji təhlili onların nitq axınının, prosodiyasını şəraitdən asılı olaraq anidən dəyişdiyini söyləməyə imklan verir. Təhlil göstərir ki, oyunun gedişatı hər bir şərhçinin səs tembri və işlətdiyi ifadələri diktə edir. Aparıcının qol vurularkən nümayiş etdirdiyi intonasiya ilə qol buraxılarkən olan intonasiyası eyni deyil. Bu dəyişiklik başlıca olaraq futbolda özünü göstərir. Futbol şərhçilərinin nitqi xüsusi dil hadisəsi, diskurs növü kimi fonetikanın predmetidir.

Dilçilər üçün futbol şərhçilərinin nitqi digər idman növlərinin (atletika, boks, Şərq döyüş növləri) barədə danışan jurnalistlərinkindən daha çox maraq doğurur. Çünki onların nitqində superseqment vahidlərin (intonasiya, vurğu, pauza) pozulması hallarına daha tez-tez rast gəlindiyi üçün tədqiqatçılara geniş, hərtərəfli materialı verir. Digər idman növlərini şərh edənlərin nitqi qeyd etdiyimiz fonetik hadisələrdən xali olmasa da, emosionallıq və ekspressivlik azdır.

Prosodik baxımından futbolla müqayisədə basketbol və voleybol sönük təsir bağışlayır. Bu idman növlərini şərh edən jurnalistin danışığı bütün oyun boyunca əsasən homogen, birtiplidir. Bu situasiyanın ortaya çıxmasınınn səbəbi periodik hərəkətlərin (topu səbətə salma, rəqibin meydançasına salma) demək olar hər dəqiqə baş verməsidir. Futbolda həyəcanlı anların çox olması, yəni psixoloji faktor dil faktoruna birbaşa təsir edir. Futbol şərhçilərinin nitqində ən təsirli fonetik hadisə məhz emosionallıqdır. Daha sonrakı yerləri eksperessivlik və intensivlik tutur.

Üstəgəl, futbolda şərhçilərin oyuna, oyunçuya və ya hakimə bildirdiyi münasibət bəzən dildə daşlaşmış ifadələrin (*Ouh Zinédine, oh Zinédine*) yaranmasına gətirib çıxarır [3]. Lakin bu, fonetikanın tədqiqat predmeti olmadığı üçün məqalədə bu məsələyə toxunmuruq.

Canlı yayımda şərh zamanı müşahidə edilən fonetik hadisələr oyun sonrası şərh və münasibətdəkindən ciddi surətdə fərqlənir. Bir qayda olaraq oyunun gedişatı matçdan sonra iki və ya üç idman mütəxəssisinin iştirakı ilə təhlil olunur. Bu zaman əsas fonetik hadisələr – ritm, tembr, eksperessivlik kəskin şəkildə azalır [2, s.6]. Bəzi tədqiqatçılar hətta laboratoriya analizləri zamanı qeyd etdiyimiz parametrlərin 3 dəfəyədək azaldığını ortaya çıxarıblar. Bu azalma kənar amillərlə izah edilir: oyun bitib, studiyada şərhçidən daha çox mütəxəssislər danışır. İdman şərhçisi burada digər jurnalistlərdən çox da fərqlənmir.

Tədqiqat zamanı Fransanın müxtəlif televiziya kanallarında idman şərhçilərinin danışıq və şərh tərzlərini müqayisə edərək bu danışığın fonetik və üslubi xüsusiyyətlərini aşkara çıxarmağa çalışdıq. Əsas diqqətimiz prosodiyaya, yəni ritm və intonasiyanın vəhdətinin öyrənilməsinə yönəldi. TF1, France24 və TV5 kanallarında şərhçilərin danışıqlarını analiz edərkən məlum oldu ki, hər bir jurnalistin nitqində situativ məqamlar var. Hər bir şərhçi, hər oyuna yanaşma fərqlidir. Bununla belə, ümumi xüsusiyyətlər fonetik baxımdan eynidir:

1. Fonetik amillərin formalaşmasında xarici, xüsusən də psixoloji amillər (oyunun maraqlı keçməsi, komandanın məşhurluğu və s.) birbaşa rol oynayır;

2. Bəzi hallarda emosionallıq həddən artıq olduğu üçün şərhçinin nitqi anlaşılmaz olur;

3. Futbol şərhi zamanı səs tembri, tonallıq, tezlik çox böyük intervalda və kəskin şəkildə dəyişir. Digər oyun növlərində bu cür kəskin dəyişikliklər intensiv xarakter daşımır;

4. Ümumi planda şərhçilər, demək olar ki, eyni leksik bazadan istifadə etsələr də, nitqdə rast gəlinən fonetik hadisələrin intensivlik dərəcəsi şərhçiyə görə kəskin dəyişir.

5. Bir qayda olaraq bütün idman növlərində idman şərhçilərinin çıxışı sakit, aşağı templə başlayır, oyunun gedişatı zamanı yüksəlir.

Fonetika dərsliklərində fransız dilində vurğunun yerinin sabit olduğu göstərilir. Lakin futbol şərhçilərinin nitqində bu prinsip arxa planda qalır. Futbol jurnalistikasına xas olan bu hal sırf zərurətdən qaynaqlanır və tamaşaçının diqqətini davamlı olaraq oyuna yönəltmək məqsədi daşıyır [1, s.4]. Oyundan əvvəlki mərhələdə - futbolçuların, məşqçi və hakimlərin təqdimatı zamanı vurğunun yerinin dəyişdirilməsi və yüksək səs tonu kimi hallara az rast gəlinir. Əsas fonetik hadisələr məhz oyun müddətində müşahidə olunur.

Raphaël Ibanez joue ce soir sa ***troisième*** demi-finale ***il*** en a gagné une en mille neuf cent quatre-vingt-dix-neuf contre les ***Blacks*** il en a perdu ***une il*** y a quatre ans contre les Anglais ***et il*** veut gagner ce soir.

Yuxarıdakı misaldan görünür ki, şərhçinin nitqində vurğu standart fransız dilinə xas olmayan şəkildədir. Məhz bu kənaraçıxma cümləni daha cəlbedici edir.

Cümləni digər bir fransız sırf ədəbi dil normaları çərçivəsində oxusa vurğu təxminən aşağıdakı kimi olardı:

Raphaël Ibanez joue ce soir sa troisième ***demi-finale*** il en a gagné une en mille neuf cent quatre-vingt-dix-neuf contre les Blacks il en a ***perdu*** une il y a quatre ans contre les Anglais et il veut gagner ***ce soir.***

Hər iki halda məna eyni olsa da, birinci halda emosionallıq və eksperssivlik daha yüksək səviyyədə olacaq. Fikrin digərləri tərəfindən qavranılmasında isə daha aşağı sürətə malik olan ikinci variant üstünlük təşkil edəcək.

Şərhçilərin nitqində bir digər spesifik xüsusiyyət bəzi hallarda saitlərin nisbətən daha uzun tələffüz edilməsidir. Bu fonetik hadisəyə də bir qayda olaraq futbol şərhçilərinin nitqində daha periodik şəkildə rast gəlinir.

Təhlil etdiyimiz materiallar göstərir ki, idman şərhçilərinin dili fərqli linqvistik və prosodik hadisə olub, müxtəlif fonetik hadisələri özündə cəmləşdirir. Bu dil üslubunda məqsəd yalnız oyunun gedişatı və nəticəsi barədə statistik məlumat vermək olmayıb, həmçinin meydançadakı real vəziyyəti də ekran qarşısında əyləşən tamaşaçıya ötürməkdir. Bu səbəbdən şərh zamanı müxtəlif prosodik üsul və vasitələrdən istifadə edilir. Futbol şərhçisinin səs tonu, vurğusu, tembri və tezliyi digər jurnalistlərinkindən kəskin şəkildə seçilir. Burada fransız dilinə xas olmayan vurğulara (sözün və ya ritmik qrupun əvvəlinə), həmçinin cümlə daxilində bir neçə sözün vurğulanmasına müntəzəm rast gəlinir. Bu da spesifik fonetik üslubun ortaya çıxması ilə nəticələnir.

İdman aparıcılarının nitqinin fonoloji təhlili göstərir ki, bu məsələ xüsusi bir dil faktoru kimi ətraflı linqvistiv və linqvo-psixoloji tədqiqata cəlb olunmalıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Catherine Mathon, Gilles Boyé et Anna Kupść. Commentaire sportif en direct: Etude des correspondances entre le rythme du jeu et le rythme de parole. Congrès Mondial de Linguistique Française - CMLF 2016.

2. Georges Boulakia. Le commentaire sportif en direct : une combinatoire de différentes fonctions de la prosodie. Actes d'IDP 09. Bordo 2009

3. https://www.90min.com/fr/posts/les-10-commentaires-francais-les-plus-iconiques-du-football

UOT 159.9

CÜMLƏNİN ÜMUMİLƏŞDİRİCİ XARAKTERİ VƏ NİTQ MƏDƏNİYYƏTİ PROBLEMLƏRİ

Laçın Əjdər qızı Əsgərli
doktorant
Gəncə Dövlət Universiteti
lachinaskerli@gmail.com

Əsas vəzifəsi kommunikativlik olan dil-nitq mədəniyyəti insanlar arasında fikir mübadiləsini, başlıca olaraq, cümlələrlə qurur. Cümlə nitqimizin vacib ünsiyyət formasıdır, çünki cümlə bitmiş fikir ifadə edir. Sözlər və söz birləşmələri nitq mədəniyyətinin ümumiləşmə qanununa görə cümlələrdə öz həqiqi mövqeyini tapır. Məhz buna görə də cümlə təlimi sintaktik vahidlərin iyerarxiyasında mühüm yer tutur.

Dərsliklərdə cümləyə aid bir təyinedici qayda verilmişdir. Prof. Q.Kazımovun dərsliyində yazılır: "Sözlərin bitmiş fikir ifadə edən birləşməsinə cümlə deyilir". Alternativ tərif isə belədir: "Bitmiş fikir ifadə edən bir sözə və ya bir neçə sözün birləşməsinə cümlə deyilir". Fərq göz qabağındadır. Birinci tərif "cümlə" məfhumunu tam əhatə etmir. Düzdür, birinci dərslikdə tərifdən sonra köməkçi təsvirin qaydanın köməyi ilə ("Cümlə bir sözdən də ibarət ola bilər") bu yarımçıqlıq aradan qaldırılır, lakin onun tərifdə verilməməsi mücərrədlik və dolaşıqlıq yaradır. Prof. M.Həsənov bir sözdən ibarət olan cümlələr haqqında dərsliklərdə və metodik ədəbiyyatda verilən izahat və məlumatların qənətbəxş olmadığından gileylənir. Onun fikrincə, yarımçıq cümlələrin müəyyən bir qismi, söz-cümlələr də bir sözdən ibarət olur və beləliklə, belə bir sual ortaya gəlir: "Orta məktəbdə müəllim bir sözdən ibarət olan cümlə haqqında şagirdlərə nəyi öyrətsin?". Prof. H.Balıyev isə çıxış yolunu cümlə, səs və birləşmə anlayışlarını fərqləndirməkdə görür: "Bildiyimiz kimi, cümləyə müxtəlif tərif lər verilir və hamısında da müəyyən qüsur tapmaq mümkündür. Müəllimin məqsədi ilk növbədə cümlə, söz və birləşmə anlayışlarını fərqləndirməyi öyrətməkdən ibarət olmalıdır. Belə olduqda onda cümlə məfhumu düzgün formalaşmış olur".

Dil tədrisi sahəsindəki araşdırmaların, eləcə də bir sıra elmi-nəzəri məlumatların araşdırılması cümlənin tərifinin geniş müzakirə obyektinə çevrildiyini, bu sahədə mübahisəli fikirlərin söylənildiyini aşıq-aşkar göstərir. Cümlənin tərifi ilə bağlı bir sıra tanınmış alimlər, o cümlədən N.Məmmədov, Y.Seyidov, M.Adilov, K.Vəliyev və başqaları müəyyən fikirlər söyləmişlər. Prof. M.Həsənov deyilənləri ümumiləşdirərək bu qənaətə gəlir ki, mövcud tərif lərdəki "bitmiş fikir" anlayışı şərtidir, nisbidir. Prof. Y.Seyidovun fikri xeyli maraq doğurur: "Əgər hər bir cümlə tam, hər cəhətdən tamamlanmış fikirlər ifadə etsəydi, o vaxt bir hadisə üçün yalnız bircə cümlə işlətmək kifayət edərdi. Deməli, cümlə nitqə daxil olan, onun hissələrini təşkil edən nisbi bitmiş fikir bildirən bir qrammatik kateqoriyadır". Prof. M.Adilovun fikrincə isə, "ümumiləşmiş hökmlər ifadə edən cümlələr istisna edilərsə, demək olar ki, konkret cümlədə heç bir fikir bitmir. O, (cümlə) ifadə olunan fikrin bu və ya digər momentini oxucuya və ya dinləyiciyə çatdırır. Fikrin bitib-bitməməsi haqqında elmdə konkret meyar yoxdur. Əslində fikir cümlədə yox, abzasda, bir neçə abzas toplusunda, bir fəsildə, bütöv əsərdə bitmiş olur. Əslində abzaslar bir-birindən fikir bitkinliyi ilə fərqlənir. Geniş mənada alsaq, fikir bütöv əsərdə bitmiş olur". K.Vəliyev mürəkkəb sintaktik bütövlər haqqında danışaraq, cümləyə verilən tərifdəki əsas ziddiyyətin onun bitmiş fikri ifadə etməsi ilə bağlı olduğunu vurğulayır: "Aristoteldən müasir dövrümüzəcən gələn bu ziddiyyət əsasən

ondan doğur ki, fikrin (təfəkkürün) ölçüləri ilə dilin (nitqin) ölçüləri mexaniki şəkildə qarşılaşdırılmış, fikrə və dilə atomar-əlahiddə şəkildə baxılmışdır ki, bu da düzgün sayıla bilməz. Fikir bitkinliyi nisbi xarakter daşıyır; belə ki, sözə və söz birləşməsinə nisbətən predikativ vahid olan cümlədə fikir bitkinliyi ola bilməz və ya istisnalar mətn tələbləri baxımından burada ola bilər ("cümlə bərabərdir mətn" şəraitində). Fikir və intonasiya bitkinliyi forma və məzmun baxımından yalnız cümlədən daha böyük vahidin daxilində ola bilər".

Prof. Y.Seyidovun dərsliyində cümlə haqqında verilən ətraflı məlumat şagirdlərdə nitq mədəniyyətinin xeyli zənginləşməsinə, aydın nitqin yaranmasına xidmət edir; burada cümlənin həm məna, həm də qrammatik cəhəti aydınlaşdırılır, cümlənin qrammatik cəhətdən formalaşmış xəbərə malik olması, cümlə intonasiyasının olması, modallığın olması qeyd olunur, bir sözdən ibarət olan cümlələrin bir qisminin yalnız III şəxs, bir qisminin isə bütün şəxslər üzrə formalaşması göstərilir; intonasiya haqqında geniş açıqlama verilir.

İntonasiya cümlələrin bir-birindən fərqləndirilməsində mühüm rol oynayır. Bu, özünü daha çox cümlənin məqsəd və intonasiyaya görə növlərində göstərir; belə ki, intonasiya cümlənin hansı məqsədlə deyilişi ilə sıx bağlıdır. Prof. A.Abdullayev yazır: "Burada, əsasən, cümlələrin ifadəli tələffüz olunmasına, yəni nitqin aydınlığına, düzgünlüyünə, məntiqi vurğuya, sürətə, mənaya görə fasilə etməyə və nəhayət, intonasiyanın cümlədəki fikrin məzmununa uyğun gəlməsinə diqqət yetirilməlidir".

Dərsliklərdə *cümlənin məqsəd və intonasiyaya görə növləri*ndən olan sual və nida cümlələrinə tərif verilir, o biri növlər isə köməkçi-təsviri qaydalarla izah olunur. Prof. Y.Seyidovun dərsliyində sual cümlələri haqqında məlumat, genişliyi ilə fərqlənir və bədii sual cümlələrindən danışılır. Bədii sual cümlələrinə ayrıca yer ayrılması şagirdlərdə nitq mədəniyyətinin ifadəliliyinin yaradılmasına xidmət edir. Onlar bu cümlələrdə fikrin obrazlı şəkildə ifadəsini mənimsəyir, intonasiyanın oynadığı rola diqqət yetirirlər; bu zaman inteqrasiyadan istifadə edən müəllim, ədəbiyyatla əlaqə yaradır, bu cümlələrin ifadə vasitəlrindən biri olan bədii sualın yaranmasındakı rolundan danışır.

Prof. H.Həsənov M.Müşfiqin məşhur şeirindən ("Necə əl çəkim") nümunə gətirərək, sənətkarın ritorik suallar vasitəsilə məqsədinə nail olduğunu, doğma vətənə, torpağa məhəbbətini göstərir.

Metodik ədəbiyyatda bu məsələdən danışılarkən cümlənin məqsəd və intonasiyaya görə növləri üslubiyyatla əlaqələndirilir: "Cümlənin intonasiyaya görə növlərinin tədrisi *nitqin emosionallığı* üçün böyük əhəmiyyətə malikdir... Müşahidələr göstərir ki, şagirdlərin nitqdə olan bəzi üslubi çatışmazlıqları, hətta üslub səhvləri, yaxud nitqin təsirli və rəngarəng olmaması çox vaxt cümlənin intonasiyaya görə növlərinin üslubi xüsusiyyətləri ilə onların şüurlu surətdə tanış ola bilməmələrindən irəli gəlir".Prof. B.Əhmədov bunu belə dəqiqləşdirir: "Yeri gəlmişkən qeyd edək ki, suala suallamı, nəqli cümlə iləmi cavab vermək danışanın məqsədindən asılıdır və üslubiyyatla bağlıdır. Çünki "dil vahidlərinin məqsədəuyğunluq əsasında seçilməsi məqsədin istiqaməti və xarakteri ilə üzvi surətdə bağlı olur və hətta onunla təyin edilir. Sözün, ifadənin, ibarənin və ya cümlənin işlədilməsindən məqsəd nədir? Həyəcan yaratmaqmı, dilləndirməkmi, əsəbiləşdirməkmi, təsəlli verməkmi, fikri dəqiq başa salmaqmı, əksinə, dinləyəni dolaşdırmaqmı, nəyi isə xatırlatmaqmı, eyhammı, təhqirmi, məsxərəmi, güldürməkmi, qəmginləşdirməkmi, şübhələndirməkmi, ağlatmaqmı". Dil vahidlərinin belə məqsədəuyğun seçilməsi məhz üslubiyyat məsələsidir".

Nəzərə alsaq ki, aşağı siniflərdə "Sintaksisdən ibtidai kursun tədrisi" hissəsində nəqli, sual, əmr və nida cümlələrinin öyrədilməsinə xeyli yer ayrılır , onda bu mövzunun şagirdlər tərəfindən mənimsənilməsinin o qədər də çətin olmadığı aydın şəkildə görünər. Burada əsas məqsəd şagirdlərin öz fikrinin ifadəsi zamanı qarşıya qoyulan məqsədi aydın dərk etmələri və bu məqsədi formalaşdıran intonasiyaya riayət olunmasıdır. "Beləliklə, nəticədə şagird başa düşməlidir ki, cümlənin nəqli,sual,əmr, nida xarakteri daşıması, hər şeydən əvvəl,danışanın qarşıya qoyduğu

məqsəddən (ifadə etdiyi fikirdəın) asılıdır. İntonasiya isə həmin məqsədi (fikri) ifadə edən qrammatik vasitələrdən biridir. Ona görə də nitqdə intonasiyadan düzgün istifadə etmək üçün əvvəlcə cümlənin mənasını yaxşı dərk etmək, fikri, məzmunu mənimsəmək lazımdır". Cümlənin məqsəd və intonasiyaya görə növlərindən danışan prof. Z.Budaqova nida cümləsini ayrıca növ hesab etmir: "Nida cümləsi ifadənin məqsədini bildirmir. Danışanın yüksək emosional-ekspressiv vəziyyətini göstərir. Nida cümləsi, əsasən, yüksək hiss-həyəcanla deyilmiş əmr, nəqli və sual cümlələrindən fərqli xüsusi bir cümlə növü deyil".

Şagirdlərdə durğu işarələri haqqında bilik, bacarıq və vərdişlərin formalaşmasında bu mövzu mühüm əhəmiyyət daşıyır. Prof. Ə.Fərəcov yazır: "Məktəb təcrübəsi göstərir ki, şagirdlər cümlələri yazıda ən çox durğu işarələrinə görə bir-birindən ayırırlar. Nöqtə işarəsi nəqli cümlənin, sual işarəsi sual cümləsinin, nida işarəsi isə nida cümləsinin formal əlaməti kimi çıxış edir". Beləliklə, sadə cümlənin məqsəd və intonasiyaya görə növlərinə aid qrammatik qaydaların şüurlu mənimsədilməsi həm şagirdlərin öz fikirlərin düzgün ifadə etmək üçün lazımi cümlələrdən istifadə etməsinə, həm də onlarda üslubiyyata, durğu işarələrinə dair bilik və bacarıqların yaradılmasına optimal şərait yaradır.

Dərsliklərdə "*Cümlə üzvləri*" bəhsi fərqli başlıqlar altında verilir: Prof. Q.Kazımovun dərsliyində "Sadə cümlə", prof. Y.Seyidovun dərsliyində "Cümlənin tərkibi" başlığı altında verilir, ikinci dərslikdə cümlə üzvlərinə belə bir tərif verilir: "Məna və qrammatik cəhətdən bir-biri ilə əlaqədar olan, müəyyən suallara cavab verən sözlərə cümlə üzvləri deyilir".Təxminən eyni məzmun birinci dərslikdə də köməkçi-təsviri qayda ilə verilir. Daha sonra cümlə üzvlərinin xüsusiyyətləri sadalanır (müstəqil leksik mənaya malik olması, cümlədəki başqa üzvlərlə sintaktik əlaqəyə girməsi), onların sözlər və söz birləşmələri ilə ifadə olunması qeyd olunur.

İkinci dərslikdəki qaydada cümlə üzvlərinin sözlərdən ibarət olması qeyd edilir, söz birləşmələri ilə ifadə olunması isə ayrıca bəhsdə verilir: "Cümlə üzvlərinin quruluşca növləri". Birinci dərslikdə sadə və mürəkkəb cümlə üzvlərinə tərif verilir: "Nitq hissələri ilə ifadə olunan üzvlər sadə, söz birləşmələri ilə ifadə olunanlar isə mürəkkəb adlanır". Aydın şəkildə görünür ki, müəllim cümlə üzvləri haqqında ilkin anlayışları verərkən bütün bunları nəzərə almalı, təriflərdəki çatışmazlıqları aradan qaldırmaq üçün köməkçi – təsviri qaydalardan yerli-yerində istifadə etməlidir.

Prof. M.Həsənov cümlə üzvlərinin tədrisinə xüsusi əhəmiyyət verərək yazır: "Cümlə üzvlərinin öyrədilməsi Azərbaycan dilindən verilmiş əvvəlki bilik və vərdişləri yekunlaşdırır, yenilər üçün zəmin rolu oynayır. Proqramda cümlə üzvlərinin tədrisində ədəbi tələffüz, ifadəli oxu və nitq inkişafına aid keçilmiş qaydaların nitqdə tətbiq edilməsinə dair bir sıra mühüm tələblər qarşıya qoyulmuşdur. Bunlar həmin bəhsin təcrübi istiqamətini təşkil edir". Şagirdlərin yazılı və şifahi nitqlərinin inkişafında (Bu da son nəticədə onların düzgün və savadlı nitq mədəniyyətinə yiyələnməsinə aparıb çıxarır) sintaksis tədrisinin mühüm rolu son proqramda da özünə yer almışdır. Metodik ədəbiyyatda cümlə üzvlərinin bir-biri ilə əlaqəsi ön plana çəkilir və bunun şüurlu dərketmə üçün əsas olduğu göstərilir:" Obyektiv aləmdəki şey və hadisələr, onların arasındakı münasibətlər insan şüurunda sözlər şəklində əks olunur və onlar (sözlər) bir-biri ilə əlaqəyə girərək (cümlə üzvünə çevrilərək), cümlə vasitəsilə başqasına çatdırılır". Prof. H.Balıyev cümlə üzvü haqqında dəqiq anlayışın yaradılması üçün ilk növbədə şagirdlərə sintaktik sualın verilməsini öyrətmək lazım olduğunu vurğulayır. "Çünki sintaktik suala cavab verən şagird cümlə üzvünü də dəqiq müəyyənləşdirə bilər. Sintaktik sual dedikdə bunun əlaqədar olan sözlərlə deyil, əlaqədar olan cümlə üzvləri ilə bağlı verilə bilən suallar olduğu nəzərdə tutulur". Bu məsələyə xüsusi məqalə həsr edən prof. M.Həsənov da cümlə üzvlərinin müəyyən edilməsində qrammatik sualların (xüsusilə sintaktik sualların) mühüm əhəmiyyəti olduğunu göstərir.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev Ə.A. Qrammatik vərdişlərin təşəkkülü və inkişafında tərifləri mənimsəmənin rolu. APİ-nin "Elmi əsərləri", № 1, 1966

2. Abdullayev Ə.Z. , Seyidov Y.M., Həsənov A.Q. Müasir Azərbaycan dili. 4 cilddə, IV cild (sintaksis). "Şərq-Qərb", Bakı, 2007- 468 s.
3. Budaqova Z. Müasir Azərbaycan ədəbi dilində sadə cümlə. EA nəşri, Bakı, 1963-142 s..
4. Kazımov Q.Ş., Seyidov Y.M. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 7-8 sinifləri üçün dərslik -280 s..
5. Seyidov Y.M., Əsədova T.A. Azərbaycan dili, Ümumtəhsil məktəblərinin IX sinfi üçün dərslik. "Çaşıoğlu", Bakı, 2005, -128 s..
6. Seyidov Y.M. Əsərləri (on beş cilddə). X cild. "Çaşıoğlu", Bakı, 2011-552 s.

UOT 174

İŞGÜZAR DAVRANIŞLARIN MÜASİR ETİK PRİNSİPLƏRİ

Gülnarə Fəxrəddin qızı Quliyeva
Azərbaycan Dövlət Aqrar Universiteti

İşgüzar ünsiyyət etikası universal etikanın xüsusi halı kimi insanların istehsal fəaliyyəti prosesində davranış və münasibətini tənzimləyən əxlaq normalarının məcmusudur. Fəaliyyət növündən asılı olaraq, peşə məqsədləri və vəzifələri, iş şəraiti, fundamental əxlaqi prinsiplər və tələblər ümumi qəbul edilmiş etik standartlar çərçivəsində müəyyən edilə bilər.

Müasir müəssisələrdə işçi qüvvəsinin bütün üzvləri tərəfindən məqsədlərinə çatmaq üçün riayət edə biləcək müəyyən etik standartların işlənib hazırlanması və qəbul edilməsi aktualdır. Bu, daxili münaqişələrin, kadrların yerdəyişməsinin, işləmək həvəsinin olmadığı halda əmək intizamının pisləşməsinin, mənfəətin bölüşdürülməsində elementar ədalətin pozulmasının, kommersiya sirrinin açıqlanmasının və ümumi maraqlara xəyanətin öhdəsindən gəlməyə imkan verərdi.

Korporativ etikaya riayət işçi qüvvəsinin mənəvi birliyinə, işin nəticələrinə görə məsuliyyətin dərk edilməsinə, ümumi iş naminə şəxsi maraqlardan imtina etməyə hazır olmasına və nəticədə müəssisənin davamlı inkişafına kömək edir.

Korporativ etikanın təsiri altında işçilərin fəaliyyəti sifarişlər və kompromislər əsasında deyil, istəklərin daxili ardıcıllığı sayəsində təşkil olunur. İşçilərin dünyagörüşü və dəyərlərinin vəhdəti üzərində qurulan təşkilat istehsal cəmiyyətinin ən ahəngdar və dinamik təşkilat formasına çevrilir [1].

Müasir korporativ etikanın mərkəzində, əksər alimlərin fikrincə, üç kritik məqam dayanmalıdır:

1. Bütün müxtəlif formalarda maddi dəyərlərin yaradılması ilkin mühüm proses hesab olunur;
2. İstehsaldan əldə edilən mənfəət və digər gəlirlər müxtəlif sosial əhəmiyyətli məqsədlərə nail olunmasının nəticəsi hesab edilir;
3. İş dünyasında yaranan problemlərin həllində istehsala deyil, şəxsiyyətlərarası münasibətlərin maraqlarına üstünlük verilməlidir.

Təşkilatın reputasiyası işçilərinin yaxşı davranış nümunələrinin sadə məcmusu əsasında, aşağıdakıları nümayiş etdirməklə qurulur:

- cəmiyyətin əmlakına münasibətdə;
- müxtəlif maraqların toqquşduğu situasiyalarda;
- xarici işgüzar əlaqələr qurarkən;
- dövlət orqanları ilə iş fəaliyyəti zamanı;
- müştərilər və rəqiblərlə münasibətlərdə;

- çox nadir hallarda, şirkətin işçiləri seçim problemi ilə üzləşdikdə: həmkarları tərəfindən şirkətdaxili qaydaların pozulması nümunəsini ictimaiyyətə açıqlamaq və ya gizli saxlamaq [3].

İstənilən səviyyədə olan menecer üçün etikanın əsaslarını başa düşmək son dərəcə zəruridir, çünki o, daim müəyyən qərarlar qəbul etməyə məcburdur. Bu qərarların nəticələri nə olacaq? Bu suala cavab almaq üçün müəyyən bir cəmiyyətdə və müəyyən bir şirkətdə hansı mənəvi iqlimin formalaşdığını aydın şəkildə başa düşmək lazımdır. Menecer şirkət sahibləri, istehlakçılar, kreditorlar, təchizatçılar, işəgötürənlərlə uzunmüddətli və qarşılıqlı faydalı əlaqələr saxlamalıdır. Çox vaxt bu münasibətlər tərəflərin maraqlarının üst-üstə düşmədiyi şəraitdə inkişaf edir. Burada əsas qayda - etik prinsiplərə riayət edərək, pisliyə pislik etmək niyyətindən çəkinməkdir. Rəhbərin möhkəmliyi onun ləyaqətindən xəbər verir. Amerikalı tədqiqatçılar biznes etikanın aşağıdakı prinsiplərini formalaşdırıblar:

- ədalət prinsipi;
- hüquq prinsipi;
- utilitarizm prinsipi.

Bu prinsiplər seçilmiş qərar qəbul edilməzdən əvvəl menecerlərə onun keyfiyyətini bilavasitə nəzərdən keçirmək imkanını təklif edir.

Rəqabətli, yüksək texnologiyalı, bir-birindən asılı biznes şirkətlərinin sayı çox olan müasir dünyada yalnız mülayim görünüş kifayət deyil, vicdan və çeviklik olmadan uğursuzluqlardan və məğlubiyyətlərdən qaçmaq mümkün deyil.

Əlbəttə ki, rəqabət qabiliyyəti, ambisiya və yenilik həmişə uğur üçün vacib olacaq, lakin onlar aşağıda təsvir olunan etik prinsiplərə əsaslanmalıdır.

Etik prinsiplər bir şirkətin və ya şəxsin davranış növünü təyin edən yaxşı və pisin universal standartlarıdır. Onlara əməl oluna və ya olmaya bilər, lakin bu prinsiplər qərar qəbul etmək üçün təlimat verir və başqalarını mühakimə edəcəyiniz meyarları təyin edir. Biznesdə insanların sizin haqqınızda nə düşündüyü uğurun davamlı olması üçün çox vacibdir, çünki bu, inam və etibarın əsasıdır. Bu iki əsas tərif qeyri-etik hərəkətlərlə məhv edilə bilər.

Beləliklə, uğurlu liderlər öz reputasiyalarından narahat olmalıdırlar, bununla belə müəssisə və təşkilatlarında etik normalara riayət edilməsini təmin etməyi bacarmalıdırlar. Bu prinsiplər bütün dünya şirkətləri üçün əsas götürülür. Yəni ümumiləşdirərək, qeyd edə bilərik ki, beynəlxalq biznesin əsas prinsipləri aşağıdakılardır:

- biznes məsuliyyəti: səhmdarların mənfəətindən tutmuş əsas tərəfdaşlarının mənfəətinə qədər;
- biznesin tərəqqiyə, ədalətə və cəmiyyətə iqtisadi və sosial təsiri;
- iş etikası: qanundan etibarlılığa qədər;
- hüquq normalarına hörmət;
- çoxtərəfli ticarət əlaqələrinə dəstək;
- ətraf mühitin qorunması
- qanunsuz hərəkətlərdən imtina. [2].

İstifadə edilmiş ədəbiyyat

1. Brian Tracy. Biznes uğurunun 100 danılmaz qanunu. Qanun Nəşriyyatı. 288 s.
2. Robert Kiyosaki. 21-ci əsrin biznesi. Qanun Nəşriyyatı. 192 s.
3. Manafov Q. N. Sahibkarlıq nəzəriyyəsi. Dərs vəsaiti. Bakı 2011.

UOT 159.9

HEYDƏR ƏLİYEVİN NİTQ MƏDƏNİYYƏTİ VƏ NATİQLİK MƏHARƏTİ

Leyla Ağa qızı Həsənova
Gəncə Dövlət Universiteti
leyla.hesenova.74@mail.ru

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Bununla əlaqədar olaraq, Azərbaycan respublikasında 2023-cü il "Heydər Əliyev ili" elan olunmuşdur.

Azərbaycan xalqı yeni əsrə, yeni minilliyə Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Hər bir insanda nitq fikrin canlandırılmasını təmin edən əsas amildir. Hər bir fikir nitq ilə qırılmaz əlaqə prosesində əmələ gəlir və inkişaf edir. Fikrin izahı və onun anlaşıqlı şəkildə çatdırılmasında nitqin rolu böyükdür. Hər hansı fikrin sözlü ifadəsi nə qədər çox təkmilləşir və cilalanırsa, bu fikrin özü də bir o qədər anlaşıqlı olur. İnformasiya mübadiləsi zamanı insanların bir-birini qavraması və anlaması nitq ünsiyyətinin necə qurulmasından asılıdır. Adi adamların nitqi informasiyanın sadəcə olaraq verilməsinə xidmət etdiyi halda, dahi şəxsiyyətlərin nitqi informasiya mübadiləsi ilə yanaşı olaraq insanlarda müxtəlif fikir və ideyaların canlandırılması işinə də xidmət edir. Böyük insan kütləsinin qəlbinə yol açan, onları düşünməyə, fəaliyyət göstərməyə istiqamətləndirən belə bir nitqin olduğunu Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin timsalında gördük.

Əgər biz Heydər Əliyev nitqində olan fikir genişliyinə, diapazona diqqət etsək görərik ki, o alimlər içərisində elm dili ilə, sənətkarlar məclisində sənət dili ilə, siyasətçilər meydanında siyasət dili ilə, xalq qarşısında xalqın anlayacağı dil ilə danışır. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının müzakirəsi zamanı 21-ci maddə olan "Dövlət dili" haqqında maddənin müzakirəsi zamanı bir çox ziyalılarımız maddənin Azərbaycan Respublikasının Dövlət dilinin "Azərbaycan dili" adlandırılmasının əleyhinə çıxırdılar. O zaman müdrik Rəhbər çox səbrlə qeyd etdi ki, [1] "...Burada nə deyirlərsə, hamısını qoy yazsınlar və xalqa çatdırsınlar, hər şeyi aydınlaşdıraq. Məsələ bundan ibarətdir. Ona görə mən istəyirəm ki, Siz məsələni dərindən dərk edərək müzakirə edəsiniz, bu məsələyə səthi yanaşmayasınız. Bu çox mühüm məsələdir. Məsələn, bizim bəzi ziyalılar deyirlər ki, əgər indi biz Azərbaycan dili yazsaq bəs onda Füzuli nə dildə yazıbdır, C.Məmmədquluzadə nə dildə yazıbdır?

Eyni zamanda deyirlər ki, guya 1935-36-cı illərdə bizim dilimiz türk dili adlanıbdır və dilimizin adı o vaxt dəyişibdir. Amma məndə bu barədə tarixi bir sənəd yoxdur. Dilimiz zəngindir, çox ahəngdar bir dildir, dilimizin söz ehtiyatı çox böyükdür, qrammatika sahəsində həddən artıq böyük nailiyyətlərimiz var. Şəxsən mən bu dili sevirəm. Bilirsiniz ki, keçmişə qara yaxmaq istəyənlər bunu bir müddət etdilər. Ancaq bu əhəmiyyətsizdir. Tarixi dəyişmək olmaz".

Heydər Əliyevin nitqində özünəməxsus cazibədarlıq, məntiqilik, aydınlıq bütün tamlığı ilə əks olunur. Həmin əlamətləri təhlil edərkən ondakı nitq mədəniyyətinin və natiqlik məharətinin, xüsusəndə məntiqi danışığın daxili mexanizmini açmaq mühüm əhəmiyyət kəsb edir. Nitqin təsirediciliyi özünü onda göstərir ki, hər kəs ona diqqət kəsilir. Hər kəs üçün bu nitq düşündürücü xarakter daşıyır.

Prof. M. Yusifov qeyd edir ki, [3, s. 114-120] Heydər Əliyevin nitqi emosional xarakter daşıyan sintaktik vahidlərlə dolu və zəngindir. O göstərir ki, Böyük Rəhbərin nitqində işlədilən emosional sintaktik vahidlər xalq dilinin incəliklərindən qaynaqlanır və onları aşağıdakı kimi ümumiləşdirmək olar:

a) heyrət və təəccüb obrazlılığı;

b) müqayisə və bənzətmə obrazlılığı;

c) obrazlılığı canlandırmaq üçün ifadə vasitəsi tərkibində məcazi məna daşıyan xüsusi sözlər;
d) mətndə frazeoloji sinonim kimi işlədilənlər;
e) mətndə frazeoloji variant kimi işlənənlər;
j) ümumxalq ifadəsinin müvafiq şəkildə dəyişdirilib işlədilməsi;
k) ümumxalq dilinə məxsus şəkildə işlənənlər.

Göründüyü kimi məcazi məna daşıyan sözlər, frazeoloji vahidlə ümumxalq dili incəliklərindən qidalanan ifadə vasitələri – bunların hamısı həm mətndəki emosionallığın canlandırılmasına, həm də hökm, qətiyyət, dəqiqlik və konkretlik şəklindəki informasiyaları qüvvətləndirmək vəzifəsi daşıyır. Ümumxalq dili ilə bağlı ifadələr Heydər Əliyevin nitqində seçilir və mətnə uyğun canlandırılır.

Azərbaycan xalqının tarixində adları xalqımızın mədəniyyət salnaməsinə əbədi həkk olunmuş söz dahiləri çoxdur. Lakin Heydər Əliyevin özünəməxsusluğu özünü onda göstərir ki, onun doğma dilini dərindən bilməsi, ürəkdən sevməsi və ana dilinə olan hörməti daha qabarıq şəkildə özünü göstərir. Bu ilk dəfə özünü onda göstərdi ki, 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin 50 illiyi qeyd olunanda yenicə Azərbaycanın rəhbəri seçilmiş Heydər Əliyev ilk dəfə iclası Azərbaycan dilində apardı. Hamını heyran edən bu dil özünün obrazlılığı, zənginliyi, xüsusi ahəngdarlığı və metodikliyi ilə fərqlənirdi. Onun nitqindəki böyük təsir gücünün əsas səbəbi həm öz doğma dilini dərindən bilməsi və ürəkdən sevməsi, həm də ana dilinə olan böyük hörməti ilə bağlıdır.

Hər bir xalq öz dilinin qayğısına qalmalıdır. Əlbəttə burada xüsusi məsuliyyət ziyalıların və digər sənət adamlarının üzərinə düşür. Belə məsuliyyəti başa düşən Böyük Rəhbər göstərirdi ki, insanların mədəniyyəti və elmlərin səviyyəsi yüksəldikcə, dilimizində təkmilləşməsinə və zənginləşməsinə, onun söz ehtiyatının genişlənməsinə daha çox qayğı göstərmək lazımdır. Bu da respublikamızın bütün ədəbiyyatçılarının, yazıçılar ittifaqının ən mühüm vəzifələrindən biridir. Azərbaycan ədəbi dilinin saflığına, kütlələrin nitq mədəniyyətinə daim qayğı göstərməlidir.

Şübhəsiz ki, ulu öndərin nitq mədəniyyəti və dil haqqında fikirləri təsirsiz qalmamışdır. Onun mətbuatda dil və nitq mədəniyyəti ilə bağlı çıxışlarında sonra nitq mədəniyyəti sahəsindəki araşdırılmalara başlanılmış və bu sahədə müəyyən uğurlar qazanılmışdır. Dissertasiyalar yazılmış, məqalələr, monoqrafiyalar hazırlanmışdır. AMEA Dilçilik institutunda (1981) nitq mədəniyyəti şöbəsi yaradılmışdır [2].

Heydər Əliyevin nitq mədəniyyəti və ana dili barəsindəki fikir və düşüncələrində, çıxışlarında xalqımızın mənəvi varlığı bu günün və gələcəyi barədə istiqamətlər müəyyən edilmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycan qəzeti". 2 noyabr 1995
2. "Azərbaycan qəzeti" 10 noyabr 1995
3. Yusifov M. " Dahi şəxsiyyətin nitq fenomenliyi", Bakı, 1997, 144 s.

УДК 811.161.1

РАБОТА С ТЕКСТОМ ПРИ ОБУЧЕНИИ РУССКОМУ ЯЗЫКУ КАК ИНОСТРАННОМУ

Малахат Намет гызы Велагаева
Азербайджанский университет языков
m.velaqayeva@ gmail.com

Изучение любого иностранного языка невозможно без использования текста, потому что он даёт возможность рассматривать язык и речь в их взаимосвязи. В методике препода-

вания русского языка как иностранного ведущим принципом обучения является принцип коммуникативности. Обучение осуществляется «… в процессе речевой деятельности, процессе общения» [7, с. 4]. В связи с этим главной целью обучения становится развитие связной речи у студентов-иностранцев. Под связной речью подразумевается процесс, деятельность говорящего, и результат этой деятельности – текст.

Текст является коммуникативной единицей высшего порядка и понимается «как единица динамическая, организованная в условиях реальной коммуникации» [1, с. 7]. Он выполняет обучающую, познавательную, коммуникативную функции, формирует речевую и языковую компетенции. Изучая текст, студент погружается в другое культурно-языковое пространство, овладевая иноязычной культурой. При этом текст также является источником разных языковых средств и, соответственно, моделей их реализации.

Работа с текстом должна быть организована как основа для выхода в реальный факт коммуникации, должна настраивать студентов на активное участие в монологической и диалогической речи.

Приступая к изучению текстов художественного стиля, необходимо учитывать уровень языковой компетенции студентов. «Для полного и адекватного понимания художественного текста необходимо исключить возможность коммуникативной неудачи, неточного восприятия и толкования той или иной языковой единицы. Особенно важно избежать неадекватности понимания на лексическом уровне организации художественного текста, поэтому необходимо пояснять лексическое значение историзмов, архаизмов, особенно относящихся к пассивному запасу слов, изменивших свои значения в современном языке» [2, с. 518]

С помощью художественного текста систематизируются языковые знания и совершенствуются речевые навыки. Он отвечает принципу коммуникативности и служит образцом речевого общения. Вместе с тем художественный текст – это элемент культуры, который необходимо учитывать в процессе обучения русскому языку как иностранному.

Художественный текст как феномен национальной культуры, как своеобразное зеркало культурного, духовного и исторического развития народа, его мировидения и мироощущения является уникальным объектом исследования в иностранной аудитории, потому что «студенты не только изучают язык, глубоко проникая в смыслы текста, но и постигают одновременно культурную и историческую информацию, заложенную в единицах языка и в целом тексте» » [3, с. 326]

Успех в понимании текста зависит от развитости языковой личности. Поэтому художественные тексты требуют определенного интеллектуального развития, наличия словарного запаса, жизненного опыта. При этом должен присутствовать интерес к теме, готовность к его восприятию, тесно связанная с готовностью воспринимать семантику всех единиц текста в целом.

Чтобы получить положительный результат при работе с художественной литературой, тексты, предлагаемые для чтения на начальном этапе обучения, должны быть адаптированными. В процессе работы над адаптированными текстами накапливается словарный запас, вырабатываются навыки и умения в анализе текста, в оценке характеров и поступков героев, формируется элементарное представление о культуре, истории, традициях страны изучаемого языка.

Учебные материалы должны быть организованы с учётом последовательного нарастания степени трудности, так как постепенное преодоление трудностей приводит к повышению качества восприятия информации. Невозможно полностью запомнить весь текст, поэтому необходимо ориентировать студентов на запоминание главных мыслей сообщения.

Обучая студентов тексту, необходимо их знакомить с жанром текста, обращая внимание при этом на смысловые части. При работе над текстом нельзя избегать и грамматических упражнений, поскольку они прививают навыки грамотного использования языка, но грамматика не должна быть целью урока и не должна подаваться в отрыве от речевой ситуации.

Помимо грамматических заданий на уроках непременно должны использоваться наглядные пособия: фотографии людей, животных, вещей, событий, картины художников, плакаты, картинки, по которым составляют рассказы.

Для лучшего осмысления содержания предлагается два типа заданий к тексту: предтекстовые, послетекстовые. Предтекстовые задания помогают снять трудности и обеспечить наиболее полное и правильное восприятие предлагаемого текста. Послетекстовые задания формируют и развивают у обучаемых умения и навыки воспроизводить прочитанное на основе имеющегося уже в запасе изученного лексико-грамматического материала.

В качестве примера можно предложить следующие типы предтекстовых и послетекстовых заданий, которые выполняются с помощью преподавателя.

Предтекстовые задания

Задание 1. Прочитайте словосочетания, значение незнакомых слов и терминов определите по словарю.

Задание 2. Подберите синонимы к словам и словосочетаниям.

Задание 3. Подберите антонимы к следующим словам.

Задание 4. Составьте словосочетания из следующих слов.

Задание 5. Переведите на родной язык следующие слова и словосочетания.

Задание 6. Образуйте формы совершенного вида от данных глаголов.

Задание 7. Образуйте формы повелительного наклонения от следующих глаголов.

Задание 8. От следующих существительных образуйте прилагательные.

Задание 9. Выпишите из текста все имена существительные и образуйте их формы множественного числа.

Задание 10. Образуйте формы сравнительной степени следующих прилагательных.

Послетекстовые задания

Задание 1. Задайте вопросы к тексту.

Задание 2. Составьте план текста, выделив его основные мысли.

Задание 3. Слушайте вопросы и отвечайте «да» или «нет», подтверждая или отрицая правильность информации.

Задание 4. Дайте краткие утвердительные или отрицательные ответы на вопросы.

Задание 5. Дайте полные ответы на следующие вопросы.

Задание 6. Дополните следующие предложения.

Задание 7. К данным существительным подберите прилагательные и составьте с ними предложения.

Задание 8. Переведите на родной язык следующие предложения из текста.

Задание 9. По составленному плану перескажите текст своими словами.

Задание 10. Перескажите основное содержание текста от 3-го лица, передавая только главную информацию.

Задание 11. Расскажите текст от лица главного героя.

Задание 12. Придумайте новое название к тексту.

Таким образом, при правильной работе над художественным текстом можно добиться развития речевых механизмов, создающих базу для формирования коммуникативных умений студента. Текст – это не только источник передачи и хранения информации, но и

средство обучения студентов правильной русской речи и своего рода результат этой речи в процессе речевой деятельности.

Использованная литература

1. Валгина Н.С. Теория текста: Учебное пособие. М., 2003. - 173 с.
2. Ващекина Т.В. Художественный текст на занятиях по РКИ: анализ и комментирование // Преподавание русского языка как иностранного в вузе: опыт и перспективы: Междунар. научно-методич. конф. (2526 февраля 2016 г.). - М.: МГИМО-Университет, 2016. - 607 с.
3. Ващекина Т.В. Художественный текст - уникальный объект исследования в иностранной аудитории // Многомерные миры языка: избранные труды международной научной конференции. - М.: РУДН. 2015. - 409 с.
4. Гальперин И.Р. Текст как объект лингвистического исследования. М.: КомКнига, 2006. 216
5. Кулибина Н.В. Читаем по-русски: книга для учителя. Рига: Retorika, 2008. 128 с.
6. Рогова К.А. Теория текста как сфера изучения речи. // Научно-методический иллюстрированный журнал «Мир русского слова». 2009. №2 с. 7-13
7. Формановская Н.И. Речевое общение: коммуникативно-прагматический подход. М.: Русский язык, 2002. 216 с.

УДК 378.018.43

ПРИСКОРЕНА ЕВОЛЮЦІЯ ДИСТАНЦІЙНОЇ ОСВІТИ ЯК НАСЛІДОК ПАНДЕМІЧНИХ ОБМЕЖЕНЬ

Микола Вікторович Прокопенко
Харківський національний автомобільно–дорожній університет
Україна
nvprokopenko@gmail.com

Пандемія COVID-19 неочікувана ввійшла в нашу реальність та принесла з собою досить значні переміни на глобальному рівні.

Прийнято вважати (цілком логічно), що пандемія є негативним явищем, яке змінило життя населення планети в гіршу сторону. Але не слід забувати, що «у медалі дві сторони» - тому будь-яке явище не може бути лише позитивним чи негативним (чорним або білим, добром та злом тощо).

Бурхливий розвиток деяких процесів в соціумі завдячує якраз пандемії, і одним з таких процесів є дистанційна освіта

В «допандеміний» час дистанційна освіта виконувала ряд допоміжних функцій, левина частка яких припадала на заочну форму навчання. Серед основних елементів цієї системи можна було виділити:

- файлові бази даних на сайтах закладів вищої освіти (електронні конспекти лекції, методичні вказівки, глосарії і т.д.);
- спілкування викладача зі здобувачем вищої освіти (студентом) за допомогою електронної пошти або месенджера;
- перші спроби створення дистанційних курсів (які у своїй більшості не використовувалися) та ін.

Карантинні обмеження, які держава була вимушена ввести у зв’язку з пандемією, кардинально змінили ситуацію. Необхідність в отриманні освіти є незаперечним фактом, але

старі методи не могли використовуватися. Заборона залишати домівки, збиратися групами в одному місці, зупинка громадського транспорту і т.д. зробила неможливою класичну аудиторну систему навчання. Виникає питання: чи були готові заклади вищої освіти до такої ситуації? Адекватна відповідь – ні. Доводилося екстрено пристосовуватися в умовах обмеженого часу, що змусило систему дистанційної освіти еволюціонувати та швидко підвищувати свою ефективність [1].

Перші дистанційні заняття проводилися на платформах ZOOM, Google Meet та Moodle та ін. Викладачам та студентам не вистачало досвіду, матеріально-технічної бази (веб-камери, мікрофони), але ці проблеми за допомогою спеціалізованих вебінарів були вирішені досить швидко.

Поступово сформувалися основні принципи практичного дистанційного навчання та його складові. Кожна навчальна дисципліна у дистанційному режимі стала мати стандартні елементи, які дозволяють ефективно проводити заняття в режимі онлайн [2].

Так, в Харківському національному автомобільно–дорожньому університеті побудовано так звані «курс – ресурси», які включають наступні елементи:

- лекції (на основі BigBlueButton);
- практичні заняття;
- консультації;
- презентації;
- екзамени;
- заліки;
- форум «питання-відповідь»;
- чати (питання-відповідь та ін.);
- поточний та тестовий контроль;
- навчальна література і т.д. [3].

Використання дистанційних технологій освіти дозволило виявити ряд позитивних та негативних моментів.

До позитивних сторін можна віднести:

- можливість навчатися за місцем проживання;
- повна забезпеченість студентів навчальними матеріалами;
- досвід інтерактивного та онлайн спілкування;
- можливість охоплення широкої аудиторії студентів;
- широке використання презентацій, навчальних роликів, матеріалів спеціалізованих сайтів;
- контроль знань студентів за допомогою онлайн – тестування та опитування;
- загальне підвищення інформаційної культури і т.д.

До проблемних та негативних сторін належать:

- необхідність стабільного та швидкісного internet – з’єднання;
- наявність сучасних технічних засобів;
- часткова неможливість контролю присутності студента на парі (під єднався до лекції і відійшов);
- технічна складність загальних дискусій (накладення звуку тощо);
- висока мотивованість та здатність до самостійного навчання на основі дистанційного курсу і т.д. [4]

В цілому дистанційне навчання є наступною сходинкою розвитку освітніх технологій, при цьому освітній процес стає більш гнучким, ефективним та сучасним. Об’єднання класичного та неокласичного (дистанційного) навчання розкриває широкі перспективи освіти та самоосвіти, підвищення ефективності навчання та розвитку професійних компетенцій студентів як майбутніх фахівців. Основний напрям еволюції дистанційної

освіти на сучасному етапі це здолання проблем (труднощів) та підвищення ефективності навчання «онлайн».

Одним з останніх важливих кроків еволюції можна виділити обов’язковий запис занять (лекційних, практичних, консультаційних) та наявність їх на курсі-ресурсі дисципліни. Це дає безцінну можливість у будь-який зручний для студента час прослухати лекцію, повернутися до будь-якого розділу заняття, передивитись презентацію та відеоматеріали. Крім того, нівелюється проблема відключення електроенергії або Інтернету – з матеріалами можна буде ознайомитись при відновленні їх роботи.

Пандемія значно прискорила розвиток та впровадження дистанційного навчання в освітній процес, при цьому еволюційні зміни на даний час продовжують набирати темпи та підвищувати свою ефективність.

Використана література

1. Кухаренко В. М., Бондаренко В. В. Екстрене дистанційне навчання в Україні: Монографія / За ред. В. М. Кухаренка, В. В. Бондаренка – Харків:. Вид-во КП «Міська друкарня», 2020. – 409 с.

2. Вишнівський В.В., Гніденко М.П., Гайдур Г.І., Ільїн О.О. Організація дистанційного навчання. Створення електронних навчальних курсів та електронних тестів. Київ : ДУТ, 2014. 140 с.

3. Теорія та практика змішаного навчання : монографія / В.М. Кухаренко, С.М. Березенська, К.Л. Бугайчук, Н.Ю. Олійник, Т.О. Олійник, О.В. Рибалко, Н.Г. Сиротенко, А.Л. Столяревська; за ред. В.М. Кухаренка – Харків: «Міськдрук», НТУ «ХПІ», 2016. – 284 с.

4. Азаров О.Д. Комп’ютерні мережі / О.Д. Азаров, С.М. Захарченко, О.В. Кадук, М.М. Орлова, В.П. Тарасенко. – ВНТУ, 2013. – 374 с

UOT 811.133.1

İNKLÜZİV TƏHSİLDƏ UNİVERSAL ÖYRƏNMƏ DİZAYNI

Nərminə Zülfəli qızı Nəsrullayeva
ADPU-nun Şəki filialı
AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun dissertantı
narminanasrullaeva@gmail.com

İnklüziv təhsil bütün uşaqların keyfiyyətli təhsil almaq hüququna əsaslanır. Bu hüquq beynəlxalq və milli hüquqi sənədlərlə, o cümlədən aşağıda adları çəkilən sənədlərlə dəstəklənir:

- İnsan Hüquqları haqqında Ümumi Bəyannamə, 1948.
- BMT-nin “Uşaq hüquqları haqqında” Konvensiyası, 1989.
- BMT-nin “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyası, 2006.
- Azərbaycan Respublikasının Konstitusiyası, 1995-ci il.
- “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunu, 2009.
- “2018–2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”.

“2018–2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”na əsasən Avropa İttifaqının dəstəyi ilə Azərbaycanda iki böyük təşkilat - UNİCEF və Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi tərəfindən 2 layihə həyata keçirilmişdir. Bu layihələr çərçivəsində ölkəmizdə 10000-ə yaxın ibtidai sinif müəllimi təlimlərə cəlb olunmuş, əlilliyi olan uşaqların valideyinləri, gələcəyin müəllimləri olacaq

yuzlərlə 4-5-ci kurs tələbələri inklüziv təhsil haqda daha geniş məlumatlandırma sessiyalarında iştirak edərək sertifikatlar əldə etmişdir. İbtidai sinif müəllimləri ilə yanaşı, məktəb direktorları üçün də xüsusi seminarlar təşkil olunmuş və məktəblərə inklüziv təhsilin mahiyyətini, təşkili və sinif otaqlarında tətbiqini əhatə edən materiallar paylanmışdır. Layihə çərçivəsində RİİB tərəfindən Azərbaycan Dövlət Pedaqoji universiteti və onun 5 filialında İnklüziv Təhsil mərkəzləri təşkil olunmuş, mərkəzlər müasir avadanlıqlarla təchiz olunmuş, mərkəzlərdə inklüziv təhsillə bağlı ədəbiyyatlarla zəngin kitabxanalar yaradılmışdır. Layihələr təqribən iki il davam etməsinə baxmayaraq onların nəticəsini müçahidə etmək məqsədi ilə hələ də Avropa İttifaqı tərəfindən monitorinqlər aparılır.Inklüziv təhsildə universal öyrənmə dizaynı hamı üçün əlçatan öyrənmə mühitinin yaradılması və hər kəsin öyrənmə xüsusiyyətlərinin nəzərə almasını özündə ehtiva edir. [2] BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasına əsasən universal dizayn *"əşyalar, şərait, proqramlar və xidmətlərin adaptasiya və ya xüsusi dizayn zərurəti olmadan bütün insanlar üçün istifadəyə maksimum dərəcədə yararlı dizaynı*" kimi tərif olunur. [5]

Əgər əvvəllər əlilliyin tibbi modelinə əsaslanaraq əlilliyi olan uşaqların cəmiyyətdən təcrid olunaraq evdə təhsili, və ya məktəbdə xüsusi siniflərdə təhsil alması (seqreqasiya) nəzərdə tutulurdusa, inkluziya sosial modelə üstünlük verərək əlilliyi olan şəxslərin əlillik dərəcəsinə deyil, məktəbin – öyrənmə mühitinin uşağın əlillik dərəcəsinə uyğunlaşdırılmasına önəm verir.

Aydındır ki, biz hamımız eyni cür öyrənmirik. Qardner nəzəriyyəsinə əsasən hər kəsin müxtəlif öyrənmə üsulu vardır. Əslində, bu üsullar müəyyən dərəcədə hər biri bir şəxsdə birləşə bilir. Ancaq onlardan biri mütləq ki üstünlük təşkil edir. Vizual, auditor, kinestetik və s. öyrənmə növlərini nəzərə alan universal təlim dizaynı nəinki əlilliyi olan, eyni zamanda heç bir əlilliyi olmayan öyrənci üçün də əlverişli təlim şəraiti yaradır.Universal təlim dizaynı dedikdə sadəcə sinif otağının və ya məktəbin infrastrukturunun deyil, hətta tədris materiallarının belə universal dizaynı nəzərdə tutulur.Elə inklüziv təhsilə verilən tərifl ərdən biri də özündə bu prosesi nəzərdə tutur. İnklüziv təhsil təhsil mədəniyyətinin, təhsillə bağlı siyasət sənədlərinin və təcrübələrin geniş spektrli təhsilalanlara (əlilliyi olan və olmayan qızlar və oğlanlar, etnik, dil, dini, sosial-iqtisadi mənsubiyyətləri fərqli olan uşaqlar...) uyğun olması üçün yenidən qurulmasını ehtiva edir, o, sadəcə olaraq əlilliyi olan uşaqların ümumtəhsil mühitində təhsil alması deyil. İnklüziv təhsil məktəbin bütün təhsilalanlar üçün uyğun olması üçün dəyişməsini şərtləndirir, o, uşaqların dəyişdirilərək mövcud təhsil strukturlarına uyğunlaşdırılmasına cəhd etmir. Məktəblər ən çox yüngül və orta səviyyəli xüsusi ehtiyacları olan seçilmiş tələbələr üçün inklüziv modeldən istifadə edirlər. Nadir hallarda rast gəlinən tam inklüziv məktəblər "ümumi təhsil" və "xüsusi təhsil" proqramlarını ayırmır; əvəzinə, məktəb bütün tələbələrin birlikdə öyrənməsi üçün yenidən qurulur. [4]

Inklüzivlik və universal öyrənmə dizaynı nəinki sinif otaqlarında hətta müasir texnologiyada belə tətbiq olunur. İnklüziv dizayn araşdırma mərkəzi müxtəlif aplikasiyaların, kompüter təminatları və proqramların dizaynının müəyyən səbəblərdən baryerlərlə üzləşən, əlilliyi olan şəxslər üçün uyğunlaşdıraraq informasiya texnologiyalarından istifadəni daha əlçatan edir. [1]

Universal öyrənmə dizaynının əsas məqsədləri aşağıdakılardır.:

- Öyrənmənin bütün şagirdlər üçün əlçatan olması
- Şagirdlərin öyrənmə prosesində özlərini səriştəli, təhlükəsiz və uğurlu hiss etməsi
- Bütün şagirdlərin özlərini xoş və dəyərli hiss etdikləri öyrənmə mühitinin yaradılması və saxlanması

Rouz və Meyerə görə [3] UÖD-nın əsas 3 prinsipi vardır:

- Təqdimatın çoxsaylı vasitələri – NƏ?
- Məlumat və məzmunun müxtəlif üsullarla təqdim edilməsi.
- Hərəkət və özünü ifadənin çoxsaylı vasitələri – NECƏ?
- Rahat şəkildə şagirdlər bildikləri və öyrəndiklərini ifadə edə biləcəyi müxtəlif üsullar.
- Cəlbolunmanın çoxsaylı vasitələri – NƏ ÜÇÜN?
- Öyrənmə üçün şagirdlərin maraqları və motivasiyasının təşviq edilməsi.

Ümumiyyətlə, inklüziv təhsil dinindən, irqindən, rəngindən, öyrənmə üsulundan, fiziki və ya əqli fərqliliyindən asılı olmayaraq, hamı üçün öyrənmə şəraiti yaradır. UÖD inklüziv təhsilin ayrılmaz hissəsi olaraq hər bir öyrənci üçün təhsili əlçatan edir. İnklüziv təhsillə daha parlaq gələcəyə doğru!

İstifadə edilmiş ədəbiyyat

1. *Inclusive Design Research Centre*. OCAD University. "What is Inclusive Design". Retrieved 13 November 2015.

2. National Center on Universal Design for learning,2011 "The three principals of UDL" Retrieved from:www.ncld.org/types-learning-disabilities/dysgraphia/what-is-dysgraphia)

3. Rose D. and Meyer A, 2002 Teaching every student in the digital age:Universal Design for Learning, Alexandria, VA:Association for supervision and Curriculum Development

4. Scheyer *et al.* (1996). The Inclusive Classroom Teacher Created Materials, Inc. *The Inclusive Classroom*

5. https://www.udpo.az/read.php?lang=1&content=2363

UOT 159.9

ŞAGİRDLƏRDƏ NƏZƏRİ TƏFƏKKÜRÜN FORMALAŞDIRILMASININ ƏHƏMİYYƏTİ VƏ ƏSAS ISTIQAMƏTLƏRI

Pərvanə İlyas qızı Məmmədova
Gəncə Dövlət Universiteti
pervane_memmedova_1974@mail.ru

Müasir dərs dedikdə, dövrün tələblərinə cavab verən, dövlətin və cəmiyyətin sosial sifarişi əsasında qurulan dərs nəzərdə tutulur. Müasir dərs elmi, nəzəri, praktik səviyyəsinə, fəlsəfi-psixoloji, pedaqoji konsepsiyasına, yeni pedaqoji təfəkkür meyarlarına görə müasir olur. Yeni pedaqoji təfəkkürün göstəricilərinə görə müasir dərs digər prinsiplərlə yanaşı, həm də inkişafetdirici və tərbiyəedici təlim prinsiplərinə cavab verməlidir. Azərbaycanın korifey psixoloqu, professor Ə.Əlizadənin sözləri ilə desək, inkişafetdirici və tərbiyəedici təlim prinsipləri şəxsiyyətin formalaşmasında Arximed lingi kimi böyük əhəmiyyət daşıyır [3]. Pedaqoji psixologiya və məktəb pedaqogikasında inkişafetdirici təlim prinsipi keçən əsrin 80-ci illərində bərqərar olmuşdur. Inkişafetdirici təlim texnologiyası məktəblilərdə nəzəri təfəkkürün formalaşdırılmasına istiqamətlənmişdir. İnkişafetdirici təlim sistemində biliyi qazanmağa yönəlmiş əqli iş üsullarının mənimsənilməsi bu biliyin özündən daha əhəmiyyətli hesab olunur.

Qeyd etmək lazımdır ki, nəzəri təfəkkürün formalaşması problemi çoxsahəli və çoxfaktorlu problemdir. Bu problem müxtəlif aspektlərdə bir çox alimlər tərəfindən tədqiq edilmişdir. Nəzəri təfəkkür probleminin fəlsəfi tərəfi V.L.Ştroff, P.V.Kopnin, L.K.Naumenko, V.S.Şvıryov, E.V.İlyenkov, N.S.Rozov və başqalarının araşdırmalarında öz əksini tapmışdır. Problemin ümumpsixoloji aspektləri, eləcə də, əqli inkişaf nəzəriyyələri L.S.Vıqotskinin, S.L.Rubinşteynin, A.N.Leontyevin, E.N.Kabanova-Mellerin, A.V.Bruşlinskinin, İ.Y.Lernerin, N.A.Mençinskayanın, Q.Şedrovitskinin, V.V.Davıdovun və digər alimlərin əsərlərində əks olunmuşdur. Pedaqoji psixologiyada və yaş psixologiyasında bu problemlə J.Piaje, D.B.Elkonin, V.V.Davıdov və başqaları məşğul olmuşdurlar.

Bütövlükdə təhsil sistemində bünövrə rolunu oynayan ibtidai təhsilin təşəkkülü təlimin həm məzmununun, həm də üsullarının yenilənməsini tələb edir. Əlbəttə ki, bu iş ibtidai sinif şagirdlərinin psixoloji problemlərinin araşdırılmasına, ələxüsus, uşaqların əqli inkişaf şəraitinin

təyin olunmasına, əqli inkişafı obyektiv təhlil etməyə imkan verən göstəricilərin dəqiqləşdirilməsinə əsaslanmalıdır. Kiçik məktəb yaşı dövründə nəzəri təfəkkürün təşəkkülü və inkişafının qanunauyğunluqlarının dəqiq müəyyənləşdirilməsi üçün bir sıra vəzifələlərin ardıcıl həll olunması vacibdir. İlk növbədə, nəzəri təfəkkürün prosessual xarakteristikasını öyrənmək məqsədəuyğundur. Bu zaman aşağıdakı istiqamətlərdə iş aparmaq lazımdır:

1) məsələ həllinin gedişində onun keyfiyyət dəyişikliklərini aşkar etmək;
2) onun şərtlərini müəyyənləşdirmək;
3) fərdi fərqləri xarakterizə etmək.

Digər vəzifə kiçik məktəb yaşı dövründə nəzəri təfəkkürün inkişaf mərhələlərinin öyrənilməsidir. Bu zaman aşağıdakı məsələlərə diqqət yetirmək lazımdır:

1) onun məzmununu təyin etmək;
2) yaş xarakteristikasını müəyyənləşdirmək;
3) dəyişmə şəraitini aşkar etmək;
4) fərdi variantları xarakterizə etmək.

Həll olunmalı başqa vəzifə nəzəri təfəkkürün inkişafı ilə ibtidai məktəb təliminin məzmunu arasındakı əlaqəni öyrənməkdir. Bu zaman diqqət yetirilməli olan məsələ müxtəlif tədris proqramları üzrə təlim zamanı nəzəri təfəkkürün yaş dinamikasının xarakterini təyin etməkdir.

Ardıcıllığa müvafiq olaraq sonra kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün diaqnostikası məsələlərini işləmək lazımdır. Bu zaman icra olunan işlər aşağıdakılardır:

1) onun məzmununu təyin etmək;
2) nəzəri təfəkkürün əsas komponentlərinin formalaşma səviyyəsinin təyini üçün konkret metodikalar hazırlamaq.

Nəhayət, kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün təşəkkülü məsələlərini işləmək vacib vəzifələrdəndir. Bunun üçün metodları təyin etmək və sistematik məşğələlər üçün dərsdənkənar xarakterli materiallar hazırlamaq məqsədə müvafiqdir.

D.B.Elkonin və V.V.Davıdov hesab edir ki, ibtidai siniflərdə təlimin məzmununa və üsullarına empirik təfəkkürün formalaşması əsasında bələdləşmə vacibdir, lakin uşaqların inkişafı baxımından effektiv deyil. Təlim şagirdlərdə empirik təfəkkürdən fərqlənən xüsusi məzmuna malik nəzəri təfəkkürü formalaşdırmalıdır. Məhz, nəzəri təfəkkür, alimlərin fikrincə, gerçəkliyin ümümi əlaqələrini bərqərar edən, əşyavi-hissi praktikanı yaradan idrak imkanlarını tam reallaşdırır. Burada V.V.Davıdov L.S.Vıqotskinin, D.B.Elkoninin o görüşlərinə əsaslanır ki, təlim əqli inkişafda öz aparıcı rolunu mənimsənilən biliklərin məzmunu ilə həyata keçirir, bu biliklərdən isə təlimin təşkili metodları əmələ gəlir [5].

Empirik təfəkkür əşyaların qruplaşdırılmasına, təsnifatına yönəlir. Bu təfəkkürün əsasıında empirik (formal) ümumiləşdirmə dayanır. Empirik ümumiləşdirmə müqayisə yolu ilə əşyalarda oxşar, eyni, ümumi olanı tapmağa imkan verir, sonra bu ümumi xassə əşyaların digər xüsusiyyətlərindən təcrid olunaraq sözlə ifadə olunur, empirik anlayış yaranır. Belə anlayış nə ilə isə oxşar, eyni olan əşyalar qrupunu onlarda ümumi xüsusiyyətləri ayıraraq hifz edir. Insan empirik anlayışdan istifadə edərək, müxtəlif əşyaların təsnifatını qura bilər, sonra isə həyatda ayrı-ayrı əşyalarla qarşılaşaraq, eyni lüğəti mənaya malik digər sözlər vasitəsilə "tanıyır". Empirik ümumiləşdirmə və məfhum, eləcə də onların vasitəsilə yaranan təfəkkür insanların həyatında böyük rol oynayır, ətraf əşyavi aləmə yaxşı bələdləşməyə və qaydaya salmağa imkan verir.

Nəzəri təfəkkürün əsasında nəzəri (mənalı) ümumiləşdirmə dayanır. Insan bəzi inkişaf edən əşyalar sistemini təhlil edərkən, onun genetik oxşar, mühüm və ya ümumi münasibətlərini tapa bilər. Bu münasibətlərin seçilmsəsi və hifz olunması – verilən sistemin mənalı ümumiləş-dirilməsidir. İnsan bu ümumiləşdirməyə istinad edərək, sonra fikrən sistemin genetik oxşar, ümumi xüsusiyyətlərinin ayrı-ayrı vahidlərinin mənşəyini izləyə bilər. Məhz nəzəri təfəkkür bu və ya digər sistemin mənalı ümumiləşdirilməsindən, sonra isə ümumi, mühüm münasibətləri açaraq, sistemin fikrən qurulmasından ibarətdir.

Göründüyü kimi, empirik və nəzəri təfəkkürün yaranmasının məqsədi və vasitələri fərqlidir. Bununla yanaşı, müxtəlif məsələləri həll edərək, təfəkkürün bu iki tipi insanın həyatında bir-birini tamamlayır. Uzun müddət pedaqoqlar və psixoloqlar hesab edirdilər ki, kiçikyaşlı məktəblilər üçün yalnız empirik təfəkkür xarakterikdir (əyani-obrazlı, konkret təfəkkür). Bu səbəbdən ibtidai siniflərdə tədris kiçikyaşlı məktəblilərdə empirik təfəkkürün (biliklərin) formalaşdırılmasına yönəlmişdir. Lakin empirik və nəzəri biliklər bir-birindən fərqlənir.

Nəzəri təfəkkür təhlil və refleksiya proseslərinin köməyilə həyata keçən idrak fəaliyyətidir. Bu proseslər üç genetik ardıcıl əvəzlənən formada təzahür edir:

1) verilən məsələlərin ümumi həll prinsipinin tapılması ilə bağlı olan analitik üsul;

2) verilən məsələlərin spesifik həll prinsipinin tapılması ilə bağlı olan refleksiv üsul;

3) verilən məsələ sinfi üçün ümumi və xüsusi həll prisiplərinin tamlığının kəşf edilməsi ilə bağlı olan sintezedici üsul.

Verilən məsələ sinfi üçün ümumi prinsip tapıldıqda nəzəri təfəkkür təhlilin əsas, refleksiyanın köməkçi rol oynadığı "analitik" üsulla reallaşır. Verilən məsələ sinfinə daxil olan altsinif məsələlərin həlli üçün spesifik prinsiplər ayırd edildikdə nəzəri təfəkkür refleksiyanın müstəqil istiqamət aldığı "refleksiv" üsulla reallaşır. Ümumi münasibətlərin və onların xüsusi formalarının tamlığı aşkarlandığı zaman təhlil və refleksiyanın mürəkkəb qarşılıqlı əlaqəsi ilə xarakterizə olunan "sintezləşdirmə" üsulu ilə reallaşır. Kiçik məktəb yaşı dövründə nəzəri təfəkkürün inkişafı onun üsullarının ardıcıl mənimsənilməsindən ibarətdir.

Şagirdlərin məsələ həlli prosesində onun şərtinə nəzəri təfəkkürün bu və ya digər üsulu vasitəsilə bələdləşməsi məsələnin təklif olunan həll formasından asılıdır. Bu iş əşyavi-əməli formada məsələ həllinə münasibətdə iki inkişaf mərhələsində reallaşır:

I mərhələdə (I-II siniflər) empirik təfəkkürə əsaslanan məsələ həllindən nəzəri təfəkkürün analitik üsulu ilə məsələ həllinə keçid baş verir;

II mərhələdə (III-IV sinif) analitik üsulla məsələ həlli refleksiv üsulla məsələ həlli ilə əvəzlənir.

Əyani-obrazlı formada məsələ həlli ilə münasibətdə nəzəri təfəkkürün I inkişaf mərhələsi reallaşır, empirik təfəkkürün nəzəri təfəkkürün analitik üsulu ilə əvəzlənməsi III-IV sinifdə baş verir. Sözlü-işarəli formada məsələ həllinə münasibətdə empirik təfəkkürün nəzəri təfəkkürlə əvəzlənməsi ibtidai məktəb təlimi prosesində yaranmır.

Kiçikyaşlı məktəblilərin D.B.Elkonin və V.V.Davıdov rəhbərliyi ilə işlənilmiş eksperimental proqramla təlimi, nəzəri təfəkkürün üsullarına daha intensiv yiyələnmələrini təmin edir.

Son dövrlərdə nəzəri təfəkkürün formalaşdırılmasına dair işlərin kiçik məktəb yaşı dövrü ilə yanaşı, həm də orta məktəb yaşı çərçivəsində aparılmasına kəskin ehtiyac hiss olunur, çünki bu proses kiçik məktəb yaşı dövründə tamamlanmır (V.V.Davıdov, V.V.Repkin). Kiçik yeniyetməlik yaş dövrü əsası ibtidai siniflərdə qurulmuş nəzəri təfəkkürün işlərinin keyfiyyətinin yoxlanılması (L.İ.Bojoviç, A.B.Vorontsov) və bu işlərin tamamlanması üçün (K.N.Polivanova, Q.A.Tsukerman) münasib dövrdür. Kiçik yeniyetməlik yaşı dövrünün əsas psixi yenitörəmələrindən biri nəzəri təfəkkürün əsaslarıdır (A.K.Dusavitski, D.B.Elkonin).

Pedaqoji prosesdə real vəziyyət belədir ki, orta məktəb proqramı çox zaman kiçik yeniyetmənin hafizəsinə dayanır, ona görə də onun təfəkkürü praktik olaraq öz-özünə inkişaf edir, təfəkkürün kifayət qədər inkişaf etməməsi orta məktəbin təlim nəticələrində az əks olunur. İdrak işlərinin kifayət qədər formalaşmaması ilə bağlı problemlər təlimin növbəti mərhələlərdə sistematik kursların öyrənilməsində yaranır. Belə ki, o vaxta qədər şagirddə təfəkkürün müəyyən stili möhkəmlənir, müxtəlif məsələlərin həllində həmin üsul və vasitələrdən istifadə edir. Təfəkkürün bu stili heç də həmişə effektiv olmur, lakin artıq onu dəyişmək çətindir. Ona görə, kiçik yeniyetmələrin nəzəri təfəkkürün əsaslarına yiyələnməsi onun yuxarı siniflərdə inkişafı üçün vacibdir. Orta məktəb yaşlı uşaqlarda nəzəri təfəkkürün əsaslarının formalaşması təfəkkürlərinin inkişaf səviyyəsinin qeydiyyatı aparılmadan əşyavi məsələlərin həlli üzrə məşqlərlə məhdudlaşdırılmışdır. Burada artıq

formalaşmış idrak işləri məşq edilir və mövcud aşağı səviyyə inkişaf etdirilmir, bu isə öz növbəsində təlimin sonrakı mərhələlərində yüksək nəticə əldə etməyə mane olur.

Beləliklə, ontogenetik inkişafın kiçik məktəb yaşı dövründən başlayaraq nəzəri təfəkkürün inkişaf qanunauyğunluqlarının dəqiq müəyyənləşdirilməsi orta məktəblərin ibtidai siniflərində uşaqların təliminin təşəkkül tapması üçün ciddi sosial-mədəni məna daşıyır.

İstifadə edilmiş ədəbiyyat

1. Bayramov Ə.S. Şagirdlərdə təfəkkürün inkişafı. Bakı, 1962, 83 s.
2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998, 368s.
3. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür: ideyalar, prinsiplər, problemlər. Psixopedaqoji araşdırmalar. Bakı: Adiloğlu, 2001, 162 s.
4. Qədirov Ə.Ə. Kiçikyaşlı məktəblilərdə mücərrədləşdirmənin inkişafı. Bakı, 1973, 72 s.
5. Давыдов В.В. Проблемы развивающего обучения: опыт теоретического и экспериментального психологического исследования. М.: Педагогика, 2006, 240 с.
6. Зак А.З. Развитие умственных способностей младших школьников. М.: Просвещение, 2013, 318 с.
7. Программы развивающего обучения (Система Д.Б.Эльконина-В.В.Давыдова) 1-5 класс «Русский язык. Мфтематика». Изд-во 2-е. Томск, 1995. 96 с.
8. Эльконин Д.Б. Интеллектуальные возможности младших школьников и содержание обучения. // Возрастные возможности усвоения знаний: младшие классы школы. / Под ред. Д.Б.Эльконина, В.В.Давыдова. М.: Просвещение. 1966-С.50
9. Эльконин Д.Б. Детская психология. М.: Просвещение, 2016, 256 с.

UOT 330.35

İSPAN DİLİNİN FRAZEOLOGİYASININ TƏDRİSİNDƏ İMPLİSİT DİNİ SEMANTİKA AMİLİNİN ROLUNA DAİR

Rəna Mirzəbaba qızı Əliyeva
Azərbaycan Dillər Universiteti
alievaren@gmail.com

Məlumdur ki, "***dilin frazeoloji sistemi elə bir güzgüdür*** ki, burada linqvokulturoloji ortaqlığa malik toplum milli özünüdərkini ifadə edə bilir. Məhz, frazeologizmlər dil daşıyıcıları tərəfindən dünyaya, situasiya baxışı səciyyələndirir" ki, bu mənada ***frazeologiyanın "xalqın bütünlükdə milli özünüdərkini formalaşdırmış tarixi təcrübəsilə" birbaşa əlaqələndirilməsi*** [4, s.55] tam məntiqə uyğun görünür. Bu əsasda müxtəlif tədqiqatlarda hər bir xalqın dilinin frazeoloji inventarı həmin xalqın tarixinə, etnomentallığına tutulan ayna [3, s.15], həmin xalqın metaforikləşmiş tərcümeyi-halı [6, s.84] hesab edən tədqiqatçılarla razılaşmamaq olmaz. Frazeologizmlər, o cümlədən ispan dilinin frazeoloji vahidləri xalqın tarixini, məişətini, əxlaqi-etik prioritetlərini, dünyagörüşü və təfəkkür səviyyəsini və lakonik və eyni zamanda olduqca tutumlu şəkildə əks etdirən xüsusi növ "poetikləşmiş məlumat bazasıdır". Rus dilçisi V.A.Maslovanın tədqiqatında yazdığı "Hər bir dilin özünəməxsus dil mənzərəsi mövcuddur və dil daşıyıcısı öz ifadələrinin məzmununu bu dil mənzərəsinə uyğun təşkil etməlidir" fikri birmənalı olaraq, həm məişətdə, həm də ədəbiyyatda frazeoloji vahidlərin işlənməsinin bir dilin zənginliyini göstərməkdən əlavə, onun tarixi köklərini araşdırmaq üçün müfəssəl mənbə rolunu oynadığını sübuta yetirir [1, s.64]. Ümumilikdə, "dünyanın dil mənzərəsi" dil daşıyıcısının dünya haqqında təfəkkürü və onu qavraması üzərində qurulur.

Danılmaz faktdır ki, insan təfəkküründün və dünyaya baxışının onun dini etiqadı, tarixi, ölkənin coğrafiyası və yaşadığı cəmiyyətin doqmaları onun həyat tərzinə birbaşa təsir edir. Məhz bu səbəbdəndir ki, insan dilli ölkələrdə xristian dinin təsiri altında yaranan frazeoloji vahidlərin sayı üstünlük təşkil edir. İspan dilinin frazeoloji sistemində yer alan çox sayda dini məzmunlu frazeologizmlər qeyd edilən səciyyələndirmələri əyani şəkildə təsdiqləməkdədir. İspan dilindəki frazeoloji vahidlərin sırasında ölkə tarixi ilə bağlı olan (*el capitán Araña; así se las ponían a Fernando VII; quinta columna, los mismos perros con distintos collares; más sonado que la campana de Huesca*), antik mədəniyyətin təsirilə mənimsənilən (*Escila y Caribdis; Caja de Pandora; talón de Aquiles; la manzana de la discordia; los trabajos de Hércules*) yetərincə frazeoloji vahidin mövcudluğuna diqqət çəkən L.L.Nadal haqlı olaraq, bu qrup ifadələrin əhəmiyyətli hissəsinin "İncil"lə, xristianlıqla bağlı olduğunu bildirir: *a maldición de Caín; el mayordomo infiel de la Biblia; de Herodes a Pilatos; juicio salomónico; el beso de Judas; el ángel de la guarda; el demonio que nos tienta; poner la otra mejilla; vender la primogenitura por un plato de lentejas; el becerro de oro; el arca de Noé; el maná; las diez plagas de Egipto; el paso del Mar Rojo; la mujer de Putifar; Sodoma y Gomorra; el diluvio universal; el paraíso terrenal; Jonás y la ballena; el festín de Baltasar; Barrabás; el milagro de las bodas de Caná; las treinta monedas de plata*; etc. [8].

Dini stereotip, inanc prioritetləri, tapınan Tanrı və müqəddəslərlə bağlı bilgilər fon məlumatı kimi bir çox ispan frazeoloji vahidlərində sezilməkdədir. İspan dilindəki bitki örtüyü ilə bağlı frazeoloji vahidlərin semantik xüsusiyyətlərini araşdırmış N.Q.Medin də diqqət çəkdiyi kimi, "mərci" fitonimilə bağlı dayanıqlı linqvokulturoloji assosiasiyaların mövcudluğu bilavasitə "İncil" süjetilə, konkret olaraq, mərci şorbasına görə satılan İshaqın oğlunun hekayətilə əlaqəlidir. Bu əsasda ***venderse por un plato de lentejas*** "mərcimək şorbasına satılmaq" frazeoloji vahidi meydana çıxmışdır [2, s.29]. Nümunələrə diqqət edək: *Aliaga: "Yo no me voy a* ***vender por un plato de lentejas"***; *Verdaderamente nunca he entendido cómo alguien puede* ***venderse por un plato de lentejas*** [9]. Xatırladaq ki, "İncil" süjetinə əsasən, İshaqın övladları arasında varislik, birincilik uğrunda gedən gizli mübarizədə ikinci oğul övladı böyük qardaşına paxıllıq etdiyindən bir dəfə onun aclıq çəkdiyini görüb bir qarın yeməyə ondan birincilik, ilk övladlıq haqqını satın almışdır. "İncil"də oxuyuruq: "...Entonces Jacob dio a Esaú pan y potaje de lentejas; él comió y bebió, y se puso en camino. Así malvendió Esaú sus derechos de primogénito". Bu əsasda yaranmış ***venderse por un plato de lentejas*** frazeoloji vahidi daha sonralar ilkin "İncil" semantikasından bir qədər uzaqlaşaraq "öz ziyanına ucuzuna güzəştə getmək", "qiymətini dəyərsiz tutmaq", "dəyərsiz şəkildə satılmaq" anlamında geniş işləklik nümayiş etdirməyə başlamışdır. Göründüyü kimi, bu ifadədə dini semantika arxa plana keçmişdir və yeni məna yükü "Satqınlıq", "Axmaqlıq" frazeosemantik sahələrinə aidlik nümayiş etdirməkdədir. Analoji vəziyyəti *parecer un Adán; hombre, estás hecho un Adán* frazeoloji vahidlərinin timsalında da izləmək olar. Bu mənada həmin frazeoloji vahidlərin analoqlarının digər xristian Avropa xalqlarının dilində fərqli anlam kəsb etdiyinə diqqət çəkmiş Y.A.Rılovun fikrilərilə razılaşmamaq olmaz [5, s.90]. Belə ki, rus dilində Adəm kostyumu "lüt olmaq" anlamını, ispan linqvokulturologiyasında isə "nimdaş geyimlilik" anlamını əks etdirir.

Bilavasitə dini konseptə bağlılığı aşkar olmayan, yalnız müəyyən etimoloji təhlillər əsasında digər mətnə "göndərmə" əsasında meydana çıxmış frazeoloji vahidlər sırasında "Me lavo las manos" frazeologizmini də qeyd etmək olar. Məsələn, *¿Vio que en lo que concierne a Jesús y a sus palabras- muchos de nosotros somos idénticos al Poncio Pilato que se lavó las manos*?, *Porche se lavó las manos respecto al accidente mortal de Paul Walker*. Bu nümunələr əsasında dini məzmunlu frazeoloji vahidlərin mətn daxilində mətn formalaşdırmaq potensialını əyani şəkildə izləmək mümkündür. Həmin mətn iqtibaslarında yer almış olan və "məsuliyyətdən boyun qaçırmaq", "məsuliyyətdən qaçmaq" anlamlarını ifadə edən frazeologizm "İncil" süjetinə istinad edir. *El ministro de Salud Alejandro Gaviria se lavó las manos con Caprecom en la reunión sostenida con las principales autoridades del Huila que se trasladaron hasta su despacho en*

Bogotá para exponer el abandono y total desprotección que enfrentan los más de 90.000 afiliados de esta EPS y la multimillonaria deuda que tiene con hospitales y empresas de la salud en la región [11]. Konkret olaraq, hərfi tərcüməsi "Mən əllərimi yuyuram" olan "*Me lavo las manos"* "Məsuliyyəti öz üzərimə götürmürəm", "məsuliyyəti üzərimdən atıram" anlamını ifadə etsə də, həmin ifadənin bilavasitə formalaşması fərqli şaquli kontekst əsasında reallaşmışdır. Bu mənada həmin şaquli kontekstin ortaya qoyduğu mədəniyyət kodunun deşifrə edilmədiyi şəraitdə adresant və adresat arasında fikir mübadiləsinin uğurla başa çatacağı qeyri-mümkündür. Remininstesiya isə xristianlığın ən erkən çağlarına aid hadisə ilə bağlıdır. Sinedreon (yəhudilərin dini şurası) və konkret olaraq, onun rəhbəri Kaiafa üç dəfə israrlı şəkildə İsa Peyğəmbərə ölüm hökmü cəzasının verilməsini tələb etmişdir. İsa Peyğəmbərin çarmıxa çəkilməsi haqqında qərarla bağlı məsuliyyətdən yaxa qurtarmağa çalışan Pontiy Pilat isə yəhudi adətinə görə əl yumaq rirualını icra edir ki, bu da "mən əllərimi yuyuram" anlamının "artıq mənə aidiyyəti yoxdur" frazeoloji anlamını əks etdirməsinə yol açmışdır. Məlum olduğuna görə qədim yəhudi dilində "*Netilat Jadajim"* adlanan bu ayin müəyyən ayinlərdən, qida qəbulundan, müqəddəs yerləri ziyarət etmədən öncə və s. bu kimi hallarda icra edilirdi. Bu ayinin icrası ilə Pontiy Pilat simvolik şəkildə İsa Peyğəmbərin çarmıxa çəkilməsində heç bir aidiyyəti və məsuliyyəti olmadığını nümayiş etdirməyə çalışmışdır.

"İncil"də həmin hadisənin təsvirilə bağlı oxuyuruq: *Y viendo Pilato que no conseguía nada, sino que más bien se estaba formando un tumulto, tomó agua y se lavó las manos delante de la multitud, diciendo: Soy inocente de la sangre de este justo; ¡allá vosotros!* (Mateo 27:24). Göründüyü kimi, zamanla digər etnomental komponentlərlə bərabər, xristian dünya mənzərəsinə istinadən formalaşmış ispan dünyanın dil mənzərəsi "*Me lavo las manos"* ifadəsinin fərqli məna çalarlarının meydana çıxmasına şərait yaratmışdır. *El lavatorio de manos implica un acto de purificación vacío de contenido que no consigue en conciencia eludir la responsabilidad, puesto que quien condena a un hombre inocente por presiones no está moralmente muy por encima de los que las ejercen*. Nümunələrə diqqət edək: *Ya verá usted como al final sale todo el mundo diciendo, bueno yo me lavo las manos como Pilatos, desde que Pilatos se lavó las manos nadie quiere cargar con la responsabilidad de nada, ¡así da gusto!, ¿que arde un convento?, yo me lavo las manos,… ya le digo así da gusto* [7, s.63]. Bu mətn nümunələrində məlum ifadənin "İncil" təfsirindən yaranan implisit semantik çalarının işləklik qazandığını görürük.

Me lavo las manos como Poncio Pilatos. Hemos escuchado con atención y mucha paciencia el escrito que ha leído el Sr. Rajoy. Todo estaba preparado, para eso tiene "x" y requete "x" de asesores que pagamos todos los españoles [10].

Həmin ifadənin müasir ispan dilinin siyasi diskursunda "məsuliyyətdən" yaxa qurtarmaq", "məsuliyyətdən qaçmaq" anlamında tez-tez işləndiyini yuxarıdakı nümunələrlə qeyd edə bilərik.

Nəticə olaraq, frazeoloji vahidlərin hansı implisit semantika daşıdığını müəyyən etmək ilk öncə onun etimologiyasının tədqiqini həyata keçirmək və frazeoloji birləşmənin komponentlərinin ayrı ayrılıqda və vəhdət şəkildə özündə hansı məna yükünü daşıdığını üzə çıxarmağı şərtləndirir. Bu da öz növbəsində tədris prosesinin daha səmərəli keçməsini təmin edir.

İstifadə edilmiş ədəbiyyat

1. Маслова В.А. Лингвокультурология // М.: Академия- 2001, -208 с.
2. Мёд Н.Г. Семантическая сфера «растительный мир» в оценочной лексике и фразеологии (на материале испанской разговорной речи) // М.: Макс Пресс- 2008, - с. 26-31
3. Слепушкина Е.В. Фразеология русского и английского языков в зеркале национального менталитета (на материале концептов «предупреждение» и «угроза»): / автореферат *диссертации* кандидата *филологических наук* / - Пятигорск, 2009. - 18 с.
4. Телия В.Н. Русская фразеология. Семантический, прагматический и лингвокультурологический аспекты// М.: Школа «Языки русской культуры», - 1996. – 288 с.

5. Рылов, Ю.А. Системные и дискурсивные свойства испанских антропонимов / Рылов Ю.А. - Воронеж: Изд-во ВГУ, - 2010. - 390 с.

6. Чернощекова В.О. Лингвокультурный аспект пословиц // М.: Язык и культура, - 2009. № 1. - с. 80-85

7. David George D.H. La Guerra Civil Española: arte y violencia / D. Gagen, D. George. - Murcia: Universidad de Murcia, Secretariado de Publicaciones e Intercambio Científico, 1990. - 186 p.

8. Luque Nadal L. Los culturemas: ¿unidades lingüísticas, ideológicas o culturales? Microsoft Word - LD 11 05 Lucia Pazeado y revisado por lucia OK.doc (rediris.es)

9. Segovia Pérez J. Anochece Y Aún No He Leído Todos Los Libros. https://www.goodreads.com/book/show/50641827-anochece-y-a-n-no-he-le-do-todos-los-libros

10. Me lavo las manos como Poncio Pilatos // Tu Blog. - 2013, 1 agosto.
URL: http://blogs.20minutos.es/tu-blog/2013/08/01/me-la-vo-las-manos-como

11. MinSalud se lavó las manos con Carpecom // La Nación. - 2015, - 16 septiembre. URL: https://www.lanacion.com.co/minsalud-se-lavo-las-manos-con-caprecom/

UOT 37.37.01

FƏNLƏRİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRİN İDRAK PROSESLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİ PEDAQOJİ PROBLEM KİMİ

[1]Şərəf Ələddin qızı Əhmədova, [1,2]Əzizə Ari qızı Rüstəmova
[1]Gəncə Dövlət Universiteti
[2]aziza.rustamova.72@mail.ru

Məktəb şəraitində müəllim və şagird kollektivinin qarşılıqlı münasibətlərində əsas motiv - təhsildir. Bu fəaliyyət prosesinin iştirakçılarının bir-birinə qarşılıqlı hörmət və etimadı yüksək nəticələrin əldə olunması üçün başlıca amildir. Müəllim şagirdlə normal ünsiyyət qura bilirsə, onların müraciətlərini diqqət mərkəzində saxlayırsa, dərsdə işgüzar atmosfer yaratmaqla məktəblilər üçün həyati əhəmiyyəti olan məqsədə doğru istiqamətləndirirsə, onlara özünüreallaşdırmanın yol və vasitələrini öyrədirsə o, səriştəli mütəxəssis hesab olunur.

Müəllimlərın şagirdlərin idrak fəallığına təsiri məhz dərs prosesində, təlim fəaliyyətində baş verir. Onların münasibətləri bu prosesdə məzmun baxımından dəyişir, çoxsahəli olur. Öz işinin öhdəsindən gələ bilən, özünü peşə sahəsində inkişaf etməyə meyilli olan müəllim bunun yollarını axtarır, tapır, tətbiq edir. Ona görə də şagirdlərin idrakını fəallaşdırmaq üçün müəlimlərdə peşə səriştələrinin artırılması olduqca mühüm məsələ kimi pedaqogikada geniş öyrənilməkdədir. Bu istiqamətdə hazırda müəllimlər üçün fənn kürikulumları üzrə təlimlər keçirilir.

Şagirdlərin idrak fəallığı bir sıra xüsusiyyətləri ilə səciyyələnir. Həmin xüsusiyyətləri idrakı fəallığa yönəldən qüvvələr yaradır. İdrakın əsasında duran təbii qüvvələr: tələbat, meyl və maraq əhatəli proseslərdir. Onların hər biri ayrlqda deyil, ümumi məzmunda birləşdikdə idrakın inki-şafında dinamik mahiyyət kəsb edirlər. İdrak fəal-lığı zamanı maraq formasında təzahür edən bu dinamik qüvvələr sosial, psixoloji, fizioloji əsasda yarana bilər. Burada əsas məsələ şagirdin öz maraqlarını təlim uğurlarına istiqamətləndirmək, onun inkişafına mane olan zərərli təsirlərə üstün gəlməkdir. [1]

İdrak fəallığı bilavasitə təfəkkürlə bağlıdır. Təfəkkürün bir sıra imkan və xüsusiyyətləri kiçikyaşlı məktəblinin idrakının məhsuldarlığını xarakterizə etməyə imkan verir. Təfəkkür prosesləri mərhələlərlə baş verir. Bu mərhələlər fikirlərin ümumilədirilməsi, təhlili, əqli nəticəyə gəlmə proseslərinə görə səciyyələndirilir. Fikri mərhələlərdə obrazdan hadisəyə, hadisədən mahiyyətə keçmə baş verir. Onun məhsuldarlığı isə təfəkkürün dərinliyindən, fikri proseslərin bir müəyyənetmə-

dən, daha dərin, dəqiq və aydın müəyyənetməyə keçmə xüsusiyyəti ilə müəyyən olunur. Təfəkkürün belə müxtəlif səviyyələri elementar formada olan əyani və nəzəri təfəkkür sayəsində baş verir.

Təfəkkür idrak proseslərinə məzmun verir, həmin proseslərin nəticələrini ümumiləşdirərək praktik fəaliyyətə yönəldir. Bu baxımdan təfəkkür insan idrakını mənalandıran, intellektual fəaliyyətini şərtləndirən ən mühüm, ən mürəkkəb idrak prosesidir. [2]

Səmərəlilik və yüksək nəticələrə nail olmaq, təlimin keyfiyyətini artırmaq müəllimin nəzəri və metodik hazırlığından, pedaqoji ustalığından, müəllim-şagird münasibətlərini necə qurmasından, pedaqoji əməkdaşlığın səviyyəsindən, sinfin idarə olunmasında hansı rəhbərlik üslublarına önəm verməsindən çox asılıdır.

Yan Amos Komenski: "Biz təlimin mütləq irəliyə doğru getməsi və aldadıcı nəticələrə gətirib çıxmaması üçün təlimi möhkəm əsaslar üzərində qurmaq sənətinin mümkün olmasını nəzərdən keçirməliyik. Hər hansı bir iş görməyi bacarmaq kifayət deyil, bu işi asan icra etməyə çalışmaq lazımdır. Təlimi aşağıdakı yollarla asanlaşdırmaq lazımdır:

1. Təlimə öz vaxtında, ağlın tutqunlaşmasını hiss etməzdən əvvəl başlamalı.
2. Təlimdən qabaq lazım olan zehni hazırlıq keçirilməlidir.
3. Təlimdə daha çox ümumidən daha çox xüsusiyə.
4. Daha çox asandan daha çox çətinə doğru gedilməlidir.
5. Heç bir şagird həddən artıq materialla yüklənməməlidir.
6. Hər şeydə və hər yerdə tələsmədən irəli gedilməlidir.
7. Uşaqların zehnini onların yaşına və təlim üslubuna uyğun olmayan materialla yükləməməli.
8. Hər şey xarici hisslər vasitəsilə tədris edilməlidir.
9. Ancaq bilavasitə faydalı şeylər tədris olunmalıdır.
10. Hər bir şey eyni bir materialla təmin edilməlidir.

Mən deyirəm: elə hərəkət edilməlidir ki, təlim asan və xoş keçsin." [3]

Fənnlərin tədrisi prosesində böyük pedaqoqun irəli sürdüyü fikirlər nəzərə alınmalı, "təlimdən qabaq lazım olan zehni hazırlıq keçirilməli; təlimdə daha çox ümumidən daha çox xüsusiyə; daha çox asandan daha çox çətinə doğru gedilməli; şagird həddən artıq materialla yüklənməməli; tələsmədən irəli gedilməli; şagirdlərin zehnini onların yaşına və təlim üslubuna uyğun olmayan materialla yükləməməli; bilavasitə faydalı şeylər tədris olunmalıdır".

Əlbəttə ki, deyilənlərin nəzərə alınması məktəblilərin idrak fəallığının təmin olunması ilə nəticələnəcəkdir.

Müəllim dərsin təşkili və aparılması zamanı aşağıdakı məsələləri diqqət mərkəzində saxlamalıdır. Müəllim:

- pedaqoji nəzəriyyədən və psixologiyadan xəbərdar olmalıdır;
- öz ixtisasını yaxşı bilməlidir;
- hər bir mövzu üzrə məşğələyə, dərsə qabaqcadan hazırlaşmalıdır;
- dərsə hazırlığı zamanı özünütəhlili diqqət mərkəzində saxlamalıdır;
- təlim-tərbiyə işinin təşkilinə yaradıcı münasibət bəsləməlidir;
- təlim və tərbiyə texnologiyalarından səmərəli faydalanmağı bacarmalıdır;
- pedaqoji fəaliyyətinin tədris, təşkilati və tərbiyəvi funksiyalarını yerinə yetirməlidir;
- fəal dərsə verilən əsas tələbləri gözlənməlidir;
- emosional müvazinətini saxlaya bilməlidir;
- müasir dərsə verilən əsas tələblərdən irəli gələn vəzifələrin dərsin plan-icmalında nəzərə almalıdır;
- kompleks didaktik bacarıqlara malik olmalıdır. [4]

Bu təhlillər belə deməyə imkan verir ki, fənnlərin tədrisində şagirdlərin idrak fəallığı onların şəxsiyyətinin bir sıra keyfiyyətləri, xüsusilə cəhdetmə və özünüfəallaşdırma ilə bağlı olsa da onun yaranması təlim mühitindən, müəllimdən əhəmiyyətli dərəcədə asılıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş. Bakı: ADPU-nun nəşri, 2008, 780 s.
2. Xankişiyeva Ş. Yeniyetmələrdə idrak fəallığının inkişafının psixoloji xüsusiyyətləri // psixol. Elm. Fəl. dok....disss. Bakı: 2014, 138 s.
3. Komenski Y.A. Böyük didaktika. Bakı: Elm və təhsil, 2012, 388 s.
4. Zak A.Z. 10-11 yaşlı uşaqların idrak qabiliyyətinin inkişaf etdirilməsi. S.M. Quliyevin redaktorluğu ilə Ə.Balayevin tərcüməsi. Bakı: Elm və həyat, 1999, 456 s.

UOT 159.9:316.77

İŞGÜZAR ÜNSİYYƏTİN PSİXOLOJİ ASPEKTLƏRİ

Solmaz Musa qızı Bayramova
Naxçıvan Dövlət Universiteti
slmzbrm@gmail.com

İnsan həyatının zəruri bir hissəsi olan işgüzar ünsiyyət digər insanlarla ən vacib münasibət növü hesab olunur. İşgüzar ünsiyyət sahibkarın peşə sahəsində mənəvi davranışının ən vacib üsullarından biridir. Eyni zamanda iş etikası uğurlu iş əlaqələrinə kömək edən uyğun davranış qaydalarının uzun müddət seçilməsinin nəticəsidir. İşgüzar ünsiyyətdə davranış mədəniyyəti, davranış tərzi, nitq formaları və söz ehtiyatı böyük rol oynayır. İşgüzar ünsiyyət xidmət sahəsindəki insanlar arasında əlaqələrin inkişaf etdirilməsi üçün çoxşaxəli, mürəkkəb bir proses hesab olunur.

İşgüzar ünsiyyət psixologiyası iş effektinin istifadəsini nəzərdə tutur. Şəxsi hisslərindən asılı olmayaraq işdəki bütün tərəfdaşlara, iş yoldaşlarına köməkçi və dost münasibət ümumi bir tələb olaraq qəbul edilir.

Ünsiyyətin rəvan getməsi üçün aşağıda qeyd olunanlara diqqət yetirilməlidir:

1. Tanışlıq (əlaqə qurma) özünü başqasına təqdim etməyi, digərini başa düşməyi nəzərdə tutur.
2. Xüsusi bir ünsiyyət vəziyyətinə istiqamətləndirmə, fasilə, baş verənləri anlamaq. İşgüzar ünsiyyət psixologiyası bu tələb olmadan təsəvvür edilə bilməz.
3. Maraq probleminin müzakirə olunması və onun həlli yolunu tapmaq.
4. Əlaqədən çıxmaq (ünsiyyəti bitirmək).

İşgüzar ünsiyyətin bütün xüsusiyyətləri insanların qarşılıqlı münasibətlərinin xarakterindən və səviyyəsindən asılıdır. Həm rəsmi, həm də qeyri-rəsmi iş şəraitində söhbət apararkən əməl etməyi məsləhət bildiyimiz müəyyən ümumi qaydalar var. Bu baxımdan işgüzar ünsiyyətin ən vacib prinsiplərini ayırd etmək olar. Elə danışılmalıdır ki, söhbətin istənilən iştirakçısı öz fikrini asanlıqla ifadə etsin və söhbətə qoşula bilsin. İşgüzar ünsiyyət üslubları söhbətin səmimi olmasına imkan verir. Söhbəti apararkən xoş niyyətli, yaxşı əhval-ruhiyyədə olmaq zəruridir. İşgüzar ünsiyyət zamanı tərəf müqabilin sözünü kəsmək olmaz. Danışana hər zaman hörmətlə yanaşılmalıdır.

Görüşlər üçün işgüzar ünsiyyətin etik qaydaları var. Müzakirə işgüzar ünsiyyət prosesində etik yönümlü davranış normalarına uyğun olaraq aparılarsa daha təsirli olar. İş etikası, ilk baxışda obsurd görünsə də, başqasının fikrinə hörmətlə yanaşmağın vacibliyini nəzərdə tutur. Onu başa düşmək üçün səbirli olmalı, diqqətli olaraq onu dinləməlisən. İşgüzar etiket də yalnız mübahisə mövzusuna sadiq qalmağı məsləhət görür. Müzakirəni münaqişəyə çevirmək doğru deyil. Mübahisə zamanı mühakimə və fikirlərin yaxınlaşma nöqtəsini axtarmaq, ortaq həlli yollarını tapmağa çalışmaq lazımdır. Ən kəskin müzakirələrdə heç bir vaxt kateqoriyalı ifadələrdən (məsələn, "bu

cəfəngiyyatdır", "bu doğru deyil") istifadə edilməməlidir. Faktlar və onların vicdanlı təfsiri mübahisənin əsas silahıdır.

İşgüzar ünsiyyət olsa belə, hətta səhvinizi etiraf etməyi bacarmalısınız. İşgüzar ünsiyyət zadəganlığın da göstərilməsi lazım olan bir sahədir. Müzakirədə rəqiblər məğlub olarsa, nüfuzlarını qorumaq üçün onlara fürsət verilməlidir.

İşgüzar ünsiyyətin özünəməxsus qaydaları var. İnsan özünü peşəkar mühitdə nə qədər savadlı apararsa, digər insanlar da ona bir o qədər yaxşı davranarlar. Məhz buna görə də iş mühitində aşağıda qeyd olunan 5 ünsiyyət qaydasına əməl olunmalıdır:

1. Qarşılıqlı anlaşmaya diqqət edin;
2. Nitq aydın, anlaşıqlı, rəvan olamlı, monotonluqdan uzaq durulmalıdır;
3. Danışıq düşüncəsi;
4. Həm açıq, həm də qapalı suallar vermək bacarığı;
5. Uzun ifadələr və mürəkkəb cümlələrin uyğunsuzluğu, qısamənalı ifadələr vaxta qənaət edir və məlumatı başa düşməyi asanlaşdırır.

Deyilənləri yekunlaşdıraraq qeyd etməliyik ki, işgüzar ünsiyyət aşağıdakı əxlaq normalarına əsaslanır:

- ədəb;
- ədalət;
- məsuliyyət.

İşgüzar ünsiyyət təkcə yaxşı danışmaq, gözəl görünmək və iş görmək bacarığı deyil, həm də şəxsiyyətlərarası münasibətlər qumaq bacarığıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Həmzəyev M.Ə., Əmiraslanov S.F. Ünsiyyət psixologiyası. Bakı, 2007.
2. İsmixanov M., Vəliyeva S., Sosial pedaqogika. Bakı, 2013.
3. Şiriyev T. Azərbaycan dilinin nitq mədəniyyəti və ritorikası. Bakı, 2014

UOT 159.922.76

ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA KOQNİTİV VƏ EMOSİONAL AMİLLƏRİN SİTUASİYAYA GÖRƏ TƏSİRİ

Telli Rəhim qızı Cabbarova
dissertant
Gəncə Dövlət Universiteti
ziyacabbarli@mail.ru

Dünyada baş verən sosial-iqtisadi, xəstəlik, müharibə və s. qlobal hadisələr hər bir şəxsiyyətin emosiyalarına mənfi və müsbət təsirlərdən heç yan keçmədi. Son dövrlər COVİD-19 pandemiya şəraiti, 44-günlük müharibədə Azərbaycan xalqının torpaqları ugrunda şəhidlik zirvəsini qanı bahasına qazanmış mərd ogullarımız, körpələrimiz, qadınlarımız, zərər çəkmiş şəhər və kəndlərimiz uşaqdan böyuyə insanlarımızın gərgin emosional düşmənə qəzəb, nifrət, həyacan, affekt, stress və s.) halı bü gündə uşaqdan böyüyə hər bir kəsin hafizəsində dərin izlər saldı.

Emosiyaları idarə edən beyinin limbik strukturları bizə görə obyektiv mədəni amillərlə əlaqədardırsa (ailə, ideologiya, inanc, sosial mühit, dünyagörüşü vasitəsilə yaradılan stereotiplər), emosiyaların davranışlarda gerçəkləşməsini təmin edən şərtlər qismən subyektiv amillərlə bağlıdır. Beyin koqnitiv səviyyədə qərar vermədən öncə, beyinin limbik strukturları emosional səviyyədə qərar verirlər. Onların bizim beynimizdə fizioloji struktura malik olmasının digər səbəblərindən biri

də bizim onlara sosial-mədəni təkamül prosesində olan ehtiyacımızdan irəli gəlmişdir. Çünki emosiyalar, bir tərəfdən, bizim fəaliyyətə keçməmizi təmin edən enerji mənbəyidirsə, digər tərəfdən, ətrafdakı insanları öz yanımızda toplamaq və onları idarə etmək zərurətindən irəli gələn bir tələbatdır. Buna görə də, Salovey intellektin emosiyadan kənarda heç bir şey ifadə etmədiyini, Passons isə, ağlın onsuz daima yanılacağını (məsələn, evlənəndə, peşə seçimində) qeyd etmişdir [Cüceloğlu, 2010, 233.(4)].

İnsanın emosiyaları öz yerinə və zamanına görə dəyişir. Durumdan asılı olaraq, insanda sevinc, kədər, qorxu, həyəcan, koqnitiv proseslə bağlı olaraq, maraq və heyrət, sosial münasibətlərdən isə, qəzəb, inciklik, mərhəmət, yanılma emosiyaları baş qaldıra bilər.

Bir çox psixoloqlar affekt, həyəcan, hiss, əhval-ruhiyyə, motivasiya, stress, ehtiras, frustrasiya kimi psixi prosesləri emosiyadan fərqləndirirlər. Bu fərqlilikləri aşağıdakı kimi səciyyələndirmək olar:

1. *Hisslər* – intellektual (şübhə, heyrət, maraq), estetik (həzz) və mənəvi (insaf, mərhəmət, məsuliyyət) növləri ilə emosiyalardan öz sabitliyi və uzunmüddətliliyi ilə fərqlənirlər. Onlar, emosiyadan fərqli olaraq kənardan gələn siqnallar vasitəsilə formalaşmır, psixi proseslərə zəif təsir göstərir və özlərini daha gec biruzə verirlər.

2. *Affekt* – yalnız kənardan qıcıqlandırılan psixi prosesdir (emosiyalar isə həm daxildən, həm də xaricdən qıcıqlanır). O, öz kəskinliyi və qısamüddətli olması ilə emosiyadan fərqlənir. Emosional halda insan koqnitiv imkanlarını və özünənəzarəti qoruyub saxlaya bilirsə, affekt halında onlardan məhrum olur. İnsan öz emosiyalarını gizlədə bilirsə (Pol Ekmana görə, insan qeyri-ixtiyari olaraq mikromimikaları üzündə gizlədə bilmir), affekt halı gizlətmək mümkün deyildir. Neqativ affekt halında (qorxu, qəzəb) insan özünənəzarəti qoruyub saxlaya bilsə (bu istisna hallarda baş verir), neqativ affekt özünün əksi olan pozitiv affektə (özünəinam, cəsarət) çevrilə bilər.

3. *Həyəcan* – yalnız emosional proseslərin subyektiv-psixi aspektidir. Emosiyalar isə həm fizioloji, həm də psixi prosesdir. Emosiyalar ətrafdan daxil olan siqnalların təsiri ilə orqanizmdə baş verən neyroqumoral dəyişikliklərin (ürək döyüntüsünün və nəfəsalmanın dəyişməsi, maddələr mübadiləsi və harmonal dəyişikliklər və s.) nəticəsi kimi dəyərləndirilir. Buna görə də, emosiyalar neyrofizioloji (cərrahi müdaxilələr, beyinə elektrodların ötürülməsi), psixofizioloji (emosional funksiyaların səviyyəsini öyrənmək üçün, eksperimental stressin tətbiqi) və psixoloji metodlar (FAST – Facial Affect Scoring Technique vasitəsilə üzün emosional xüsusiyyətlərini öyrənmək, emosiyanın hiss olunması ilə bağlı özünüdəyərləndirmə şkalasının tətbiqi) vasitəsilə öyrənilir.

4. *Əhval-ruhiyyə* – emosiyalardan fərqli olaraq daha uzunmüddətli və sabitdir. Əhval-ruhiyyə həftələrlə, aylarla davam edən psixi haldır. Bəzən, o, fərdin xarakterinin ayrılmaz hissəsinə çevrilir (qaraqabaq adam, gülərüz adam, naşükür adam) və ətrafdakı insanlara da müəyyən təsirlər edir. Emosiyalar qısamüddətli və güclü olduğu üçün, buraxdığı təsirlər də qısamüddətli və güclü olur. Məsələn, yaponlarda əzizlərinin hüzr mərasimlərinə gələn ziyarətçiləri gülərüzlə qarşılamaq və yola salmaq adəti vardır.

5. *Ehtiras* (cəhd) – insanın bütün daxili resurslarının səfərbər edərək konkret bir məqsəd (ehtiras obyekti) istiqamətində şüurlu fəaliyyətə sövq edən (fikrin cəmləşməsi, diqqətin artması) güclü və parlaq emosional-koqnitiv haldır. S.Rubinşteyn yazır: "Ehtiras – daima fikrin və gücün cəmləşməsi, diqqətin artması və onların vahid bir məqsədə yönəlməsi şəraitində meydana çıxır." [Рубинштейн 55.(6)]. O, insanın bütün varlığı ilə həyatını konkret bir sahəyə, obyektə yönəltməsi kimi də başa düşülə bilər.

6. *Motivasiya* – emosiya ilə vahid drayv-sistemdən tənzimləndiyi üçün, bir çox tədqiqatçılar onları sinonim kimi səciyyələndirmiş (İ.Pavlov, Y.Konorski), motivasiya fəaliyyətinin əsasında emosional qıcıqlanmanın durduğunu iddia etmişlər (İ.Beritaşvili). Lakin bəzi tədqiqatçılar (P.Yanq, A.Valdman, P.Simonov) hesab edirlər ki, onlar fərqli psixi proseslərdir. Onlara görə, motivasiya fəaliyyəti emosional fəaliyyətdən daha mütəşəkkil və rasionaldır.

7. *Frustrasiya* (latınca “yalan”) – insanın həyati əhəmiyyət daşıyan məqsəd istiqaməti üzrə fəaliyyətində qarşısına çıxan maneələri aşa bilməməsi halında keçirdiyi emosional hal ilə bağlıdır. Frustrasiya qəzəb, aqressiya, ümidsizlik, günahkarlıq, yanılma, pessimizm kimi hiss və emosiyaların baş qaldırmasına və insanı intihar həddinə çatdırmasına səbəb ola bilər.Məsələn, İslam fəlsəfəsinin “hər şeyin ötəri olması”, “hər bir uğursuzluqda bir xeyirin olması”, “insanın əksər hallarda yaxşını pis, pisi yaxşı kimi bilməsi”, “ümidsizliyə qapanmağın imana zidd olması”, “səbrli olmaq” kimi tezisləri insanın frustrasiyahalından çıxmasına və onda optimist emosiyalar baş qaldırmasına səbəb olur.

8. *Stress* (latınca “gərginlik”) – insanın həyat fəaliyyətini pozan və onun orqanizminə mənfi təsir göstərən gərgin emosional haldır. Onun mənşəyi fizioloji (fiziki yükün artması) və psixoloji (yaş böhranı, qorxu, informativ baxımdan yüklənmə və s.) ola bilər.

Bəhs olunan psixi halların hamısını emosional hallar kimi səciyyələndirirlər. Çünki onlar, emosiyaların müddətinə, gərginlik səviyyəsinə və aşkarolma səviyyələrinə görə bir-birindən fərqlənirlər. Bu baxımdan, onları, emosiyaların müxtəlif növləri kimi də səciyyələndirmək doğru olardı.

Tədqiqatçılar emosiyalar arasında daha güclü və təsiredici emosiyaların olduğunu irəli sürürlər. Onlara görə, bu emosiyalar digərlərinin meydana çıxmasına səbəb olurlar. Onlar arasında qorxu, ağrı, qəzəb kimi emosiyalar daha dərin kökə malikdirlər. Çünki onlar, insanın həyat mübarizəsində mühüm rola malik olmuşlar [Батуев, 176-177.(5)]. Amerika psixoloqu Vudvortsa görə, təsir şkalası ardıcıllığı ilə onlar bunlardır: sevgi, sevinc, heyrət, qorxu, əzab, qəzəb, qətiyyət, diksinmə, nifrət. Amerika psixoloqu K. İzard isə, fundamental emosiyalara təsir şkalası ardıcıllığı ilə bunları aid etmişdir: maraq, sevinc, heyrət, kədər, əzab, depressiya, qəzəb, diksinmə, nifrət, qorxu, utanc, günah. K.İzard bu emosiyaların özünəməxsus əsəb substratına və subyektiv həyəcana malik olduğunu bildirmişdir. Emosiyaların təsnifatı ilə bağlı Dodonun, Leontyevin və başqalarının öz modelləri vardır.

Hislərin düzgün inkişafı uşaq şəxsiyyətinin dünyagörüşünün, əqidəsinin və şəxsi dəyərlərinin əsasında dayan ,hər tərəfli formalaşmasında mühüm rol oynayan psixi proseslərdir.

Affekt halı yaddaşda dərin iz buraxır. Onun bərpa olunmaması üçün, psixoloqlar zərərçəkən insana mühitini dəyişməyi məsləhət bilirlər.

Mənfi əhval-ruhiyyəni gizlətməyi və müsbət emosiyalarla çevik əvəzetməyi təlim-tərbiyənin köməyiylə hər bir yaş dövründə şəxsiyyət özündə formalaşdırmalıdır.

Ehtiras emosiyaları alim və sənətkarlar, yaradıcı insanlarda bəşəriyyətə böyük kəşflər və sənət əsərləri bəxş etməkdə insanlarda müsbət emodiyalr yaradır. Emosiyalar güclü motovasiya əsasında yaranır [Батуев, 177.(5)]

İstifadə edilmiş ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı: “Çinar-çap" NPM, 2002, 620 s.
2. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı: Azərnəşr, 1981. – 387 s.
3. M.Həmzəyev, S.Seyidov və başqaları redaktasiyası psixologiya. Bakı, 2007 .
4. Cüceloğlu D. İnsan ve Davranışı. İstanbul: Remzi Kitapevi, 2010, 608 s.
5. Батуев А. С. Физиология высшей нервной деятельности и сенсорных систем. 3-е издание. СПб.: Питер, 2005, 316 s.
6. Рубинштейн С. Л. Основы общей психологии. СПб.: Питер 2002, 720 s.

UOT 37.08

MÜASİR TƏHSİLDƏ PEDAQOQUN İKT KOMPETENSİYASI

Səbinə Mürsəl qızı Quliyeva
Mingəçevir Dövlət Universiteti
Bakı Slavyan Univrsitetinin dissertantı
sabina.quliyeva@mdu.edu.az

Bu gün cəmiyyət çox sürətlə inkişaf edir, informasiya axını durmadan artır. İnformasiyalaşma həyatımıza yeni yanaşma və texnologiyaların daxil olmasını diktə edir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın ikinci istiaməti öündə innovativ təlim metodlarını tətbiq etməyi bacaran, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək kompetensiyalı təhsilverənin formalaşdırılması və təhsilverənlərin peşəkarlığının yüksəldilməsini ehtiva edir. [1] Bu baxımdan təhsil sistemində informasiya resurslarından, informasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadənin əhəmiyyəti artır. İnformasiya-kommunikasiya texnologiyaları müəllimlərin potensialını əhəmiyyətli dərəcədə genişləndirməyə, tədris, pedaqoi prosesi daha maraqlı və həyəcanlı etməyə imkan verir. İKT həm də təhsil təşkilatlarının rəhbərlərinə təşkilatın və onun işçilərinin fəaliyyətinə nəzarəti həyata keçirməyə kömək edir. Təhsil işçiləri bu gün müasir texnologiyalardan istifadə edərək təhsil təşkilatının fəaliyyətini tez təhlil etməyi, ən mühüm problemləri müəyyən edərək, onların həlli üçün səmərəli yollar tapmağı, idarəetmənin təşkilati strukturunu quraraq, nəzarəti planlaşdırmaq və təşkil etməyi, informasiya-analitik fəaliyyətləri həyata keçirməyi bacarmalıdır.

Hazırda müasir təhsilin əsas problemlərindən biri informasiya-kommunikasiya texnologiyaları sahəsində müəyyən səviyyədə bilik, bacarığın olmamasıdır.

Təhsil sahəsində İKT-nin tətbiqi rəhbər və müəllimlərina peşəkarlığına, xüsusən də İKT səriştəsinə yeni tələblər qoyur.

Müəllimin İKT səriştəsi məcmu kompleks anlayışdır, o, texniki bilik və bacarıqların təhsil fəaliyyətində məqsədyönlü, səmərəli tətbiqi kimi başa düşülür. Bu gün müəllimin İKT səriştəsi bütövlükdə müəllimin peşə səriştəsinin tərkib hissəsidir.

İKT səriştəsinə aşağıdakı komponentlər daxildir: motivasiya, texnoloji, məlumat, məzmun və metodoloji, şəbəkə.

Beləliklə, onların hər birini daha ətraflı nəzərdən keçirək. Müəllimlərin İKT səriştəsinin formalaşması şərtlərindən biri də İKT sahəsində nəzəri və praktik biliklərin artırılmasına ehtiyacın aydınlaşdırılması ilə onların pedaqoji fəaliyyətlərində İKT-dən **fəal istifadə motivasiyasıdır**. Ancaq təhsil təşkilatlarının müəllimlərinin əksəriyyətində İKT səriştəsini artırmaq üçün motivasiya olmur. Bu, xüsusilə çox iş təcrübəsi olan, yəni daha yaşlı müəllimlərdə özünü göstərir.

Müəllimin İKT səriştəsinin növbəti **komponenti texnoloji komponentdir**. Müəllimin fəaliyyətində müxtəlif texnologiyalardan səmərəli istifadə etmək qabiliyyəti ilə xarakterizə olunur, məsələn, müxtəlif rəqəmsal avadanlıqlardan, elektron təhsil mənbələrindən istifadə və s.bu komponenti inkişaf etdirmək üçün müəllimlərin seminarlar, məsləhətləşmələr, təlimlər, master-klasslar, ixtisasartırma kursları vasitəsilə davamlı metodik dəstəyi lazımdır.

İKT səriştəsinin informasiya komponenti. Təhsil mühitinin məlumat komponentinə uyğundur, bunlara aşağıdakılar daxildir: müxtəlif məlumat bazalarının, inteqrasiya olunmuş informasiya məhsullarının, informasiya mənbələrinin mövcudluğu. Müəllimin İKT səriştəsinin informasiya komponentini formalaşdırmaq üçün aşağıdakılar lazımdır: daimi məsləhətləşmələr; müəllimlərin təhsil təşkilatının yerli şəbəkəsindəki iş qaydaları, mövzu sahəsindəki mövcud elektron təhsil mənbələri ilə tanışlığı üzrə seminarlar; elektron nəşrlərdə məlumat axtarışı üzrə təlimlər; tələbələrin şəxsi informasiya məkanı və informasiya məkanının yaradılması üçün tövsiyələr.

Əsas İKT səriştəsinin formalaşdırılması üçün tələblər:

- informasiya və kommunikasiya texnologiyalarının didaktik imkanları və fərdi kompüterin işləməsi barədə müəyyən baarıların mövcudluğu;
- Microsoft Office istifadə edərək didaktik və vizual materialların hazırlanmasının metodoloji əsaslarından istifadə etmək bacarığı;
- pedaqoji fəaliyyət prosesində rəqəmsal təhsil mənbələrindən və İnternetdən istifadə;
- informasiya texnologiyalarından istifadə edərkən müsbət motivasiyanın yaradılması.

Müəllimə İKT kompetensiya səviyyəsini artırmaq tövsiyə olunur:

- tədris praktikasında İKT-nin tətbiqi ilə bağlı müxtəlif seminarlarda iştirak etmək;
- onlayn forumlarda, peşəkar müsabiqələrdə və təcrübə mübadilələrində iştirak etmək;
- internet resurslarından və rəqəmsal təhsil resursları kolleksiyasından istifadəni təmin etmək;
- dərslərə hazırlıq zamanı müxtəlif çeşidli alətlər (məs. web 2 alətləri) və rəqəmsal texnologiyalardan istifadə edin: təqdimat hazırlama proqramları, görüntü işləmə proqramları, mətn redaktorları, masa prosessorları və s.;
- müasir informasiya texnologiyalarından istifadə üçün öz layihələrini inkişaf etdirmək və sınamaq;
- İKT-nin aktiv istifadəsi ilə həyata keçiriləcək təlim tapşırıqları bankını formalaşdırmaq.

Yeni informasiya və kommunikasiya texnologiyalarının istifadəsi sayəsində müəllimin fəaliyyəti əhəmiyyətli dərəcədə asanlaşdırılır, məsələn:

- müxtəlif sənədləşmə işlərinin aparılması (hesabatlar, sinif qeydləri, planlaşdırma və s.);
- kompüterdən istifadə edərək müxtəlif didaktik materiallar hazırlaya bilər;
- müəllim üçün interaktiv lövhələrdən, multimedia proyektorlarından, elektron jurnallardan və s. istifadə etmək imkanı açılır.;
- müəllim özü nəzarət proqramları yarada və ya tələbələrin biliklərini qiymətləndirmək üçün testlər hazırlaya bilər;

İnternetdən də istifadə müəllim qarşısında geniş imkanlar açılır:

- konfranslar;
- distant təhsil;
- distant olimpiadalar;
- online test;
- müxtəlif məlumatların axtarışı;
- virtual ekskursiyalar.

Kompüter sadəcə bir vasitədir və istifadəsi müəllimi və ya dərsliyi əvəz etməməli, əksinə dərsdə qarşıya qoyulan tapşırıq və hədəflərə çatmağa kömək etməlidir, yəni pedaqoji fəaliyyətin mahiyyətini kökündən dəyişdirin. Nəticə etibarı ilə tədrisin əsas metodoloji problemi "materialı necə yaxşı izah etmək"dən "onu necə yaxşı göstərməy"ə keçir.

Kompüterlə aktiv dialoq yolu ilə çox sayda məlumatla əlaqəli biliklərə yiyələnmək tələbə üçün dərsliyin darıxdırıcı səhifələrini əzbərləməkdən daha maraqlı və təsirli olur. Təlim proqramları sayəsində uşaq real prosesləri təqlid edə bilər, yəni yalnız nəticələri və səbəbləri görmək deyil, həm də onların mənasını başa düşmək deməkdir. Kompüter texnologiyaları öyrənməyə mənfi münasibətin ən vacib səbəblərindən birini – problemin mahiyyətini başa düşməməsi, bilikdəki əhəmiyyətli boşluqlarla əlaqəli uğursuzluğu aradan qaldırmağa imkan verir. [3, s.93]

Müasir müəllim bilməlidir

- əsas telekommunikasiya növlərinin təhsil imkanlarını, -e-poçt, vebinarlar, forumlar, çat-konfransları və s.;
- əsas yerli və xarici təhsil saytları (resursların məzmunu və keyfiyyəti, didaktik imkanlar) haqqında məlumat sahibi olmaq;

- ən vacib proqram növlərini, onların funksional xüsusiyyətlərinə görə təsnifatını, fərdi təlim proqramlarının xüsusiyyətlərini;
- distant təhsil metoduna sahib olmaq.

Beləliklə, müəllim müxtəlif növ informasiya və kommunikasiya texnologiyaları haqqında yaxşı məlumatlı olmalı və onlardan bəzilərini praktik olaraq tətbiq etməli, təhsil və idrak fəaliyyətlərini təşkil edə bilməlidir. Yeni təhsil standartlarına keçid şəraitində müasir müəllim şagirdlərə tədrisin uğurla öhdəsindən gəlməyə kömək etmək üçün mövcud olan bütün vasitələrdən, mənbələrdən və internet xidmətlərindən fəal şəkildə istifadə etməlidir, yəni fərdi, fənn və meta-fənn təlim nəticələrinə nail olmalıdır. İKT-dən istifadə edərək pedaqoji texnologiyaların tətbiqi sahəsində tədqiqatçılar üç didaktik tədris prinsipini müəyyənləşdirirlər.

Təcrübələr sübut edir ki, müəllim dərslərində və dərsdənkənar fəaliyyətlərində informasiya texnologiyalarından istifadə edərək təhsilalanlarla işləyərək keyfiyyətli nəticələrinə nail ola bilər. Dərslərdə İKT-nin tətbiqi üçün aşağıdakılar nəzərdə tutulur [2]:

- dərsin problemlərini həll etmək üçün ən təsirli elektron təhsil mənbələrini seçmək;
- ənənəvi vasitələrlə müqayisədə onların istifadəsinin məqsədəuyğunluğunu nəzərdən keçirmək;
- seçilmiş materialları vaxtında qiymətləndirmək: onların müddəti sanitar-gigiyenik normalarından çox olmamalıdır;
- dərs planını dəqiliklə hazırlamaq.

Təhsildə informasiya və kommunikasiya texnologiyalarının istifadəsi təhsil prosesini əhəmiyyətli dərəcədə zənginləşdirməyə, keyfiyyətcə yeniləməyə və səmərəliliyini artırmağa imkan verir. Yeni təhsil standartlarının əsas prioritetləri tələbələrin və müəllimlərin İKT savadlılığının inkişafına və təhsilin bütün mərhələlərində İKT səriştələrinin formalaşmasına əsaslanır. Məktəb müasir məlumat ötürmə və emal texnologiyalarının inkişafını nəzərə almalıdır. Təhsil sahəsində dövlət standartları sosial sifarişin əksidir və ailənin, cəmiyyətin, dövlətin təhsil tələblərini əlaqələndirən bir sosial müqavilədir, buna görə inkişaf etməkdə olan informasiya cəmiyyətinin ehtiyaclarını nəzərə almalıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası [Elektron resurs] http://www.president.az/articles/9779
2. Azərbayan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiyası və Strategiyası. "Azərbaycan müəllimi" qəz, 2006, 17 fevral
3. Ə.Ə.Əlizadə. Yeni pedaqoji təfəkkür, ideyalar, prinsiplər, problemlər. Psixoloji araşdırmalar, Bakı, Adiloğlu, 2001, 162 s.

UOT 81:37.016

DİL ÖYRƏNƏNLƏRİ DƏSTƏKLƏMƏK ÜÇÜN OXU BACARIQLARININ FORMALAŞDIRMA TEXNİKALARI

Vüsalə Fərrux qızı Həsənova
ADPU-nun Şəki filialı
Azərbaycan Dillər Universitetinin dissertantı
vusalahasanova1986@gmail.com

İstənilən ikinci dil daşıyıcısı üçün dilin kommunikativ öyrənilməsi dörd istiqamətdə cərəyan etməlidir. Hər biri, ikinci dil mənimsənilməsində paralel şəkildə inkişaf etməli olan məzmun

xəttlərini oxu, dinləmə, danışıq və yazı bacarıqları müəyyənləşdirir. Oxu bacarığı dilin öyrədilməsi və öyrənilməsini hədəfləyən bir çox yanaşma və metodun tərkib hissəsidir. Oxu tam ikinci dil səriştəsinin inkişafı üçün əsasdır. İstənilən dil mühitində dinləməni və danışığı dilin öz daşıyıcısı ilə ünsiyyətdə, televiziya və filmlər vasitəsiylə inkişaf etdirmək mümkün olduğu halda, həmin dildən akademik və peşəkar məqsədlər üçün istifadəsi oxu bacarığını şərtləndirir. Oxu geniş diapozonlu dil məlumatlarını təmin edə bilər. Deməli oxu, öyrənilən dilin mədəniyyəti və gündəlik həyatına daha geniş pəncərədən baxmaq imkanı verir. Oxumaq həm də qrammatika və lüğət tərkibinin inkişafı üçün də əvəzolunmazdır. [1, s.134-136] Oxu məqsədli bir fəaliyyətdir. Məlumat əldə etmək, mövcud bilikləri yoxlamaq, yazıçının fikirlərini və yazı tərzini təbliğ və ya tənqid etmək, həyati nəticələr çıxarmaq üçün oxu bacarığının önəmi danılmazdır.

Hər hansı dilin öyrənilməsində məqsəd və məqsədə görə müəyyənləşən motivasiya da çox önəmlidir. Dilin öyrənilməsinə olan maraq onun dörd fərqli bacarığına qarşı marağa da zəmin yaradır. Motivasiya, kimisə nəyəsə nail olmaq üçün hər şeyi etməyə sövq edən daxili gücdür. Bu tanınma və başqaları tərəfindən bəyənilmə ehtiyacıdır.[2, s.169]. Motivasiya əvvəlcədən müəyyən edilmiş məqsədə çatmaq üçün hərəkətə və davamlı intellectual və fiziki səyin yaranmasına səbəb olan koqnitiv oyanma vəziyyətidir. [3, s.120]

Müəyyən edilmiş hədəf, yaşadığımız cəmiyyət, ətrafdakı insanlar, daxili maraq motivasiyanın yaranmasına stimul ola bilər. Ancaq nəzərə almaq lazımdır ki, öyrənməyə qarşı ilkin motivasiya zəif və ya yox ola bilər, digər tərəfdən artırıla və daha yeni sferalara daşına bilər [4, s.61]. İkinci dili öyrənən öyrəncilərin motivasiya səviyyəsi çox motivasiyalı (intensiv ve ikstensiv oxunu daim edən tələbələr), bir az motivasiyalı (tələb olunan materialı mənimsəyən tələbələr) və istəksiz (oxunun öyrənilməsində məna görməyən və ya başa düşmə səviyyəsinə arxayn olmayan tələbələr) olaraq müəyyənləşdirilə bilər. Nəaliyyət, öyrənciyə qarşı münasibət, öyrədilən sahə ilə bağlı seçilmiş düzgün fəaliyyət növləri, motivasiyası zəif öyrəncilərdə həvəs yaratmaqla bərabər, motivasiyalı öyrəncilərin də motivasiya səviyyəsini qorumağa kömək edən dil öyrənmə ortamının ən ündə hədəfləridir.

Dörd əsas məzmun xəttindən biri və ən önəmlisi (*V.H.*) olan oxunun öyrənilməsində öyrəncilər peşəkarlıq səviyyəsinə görə yüksək peşəkarlıq göstərən (öz səviyyəsinin materialının öhtəsindən gələn), bir qədər peşəkarlıq göstərən (təqdim olunan dil materialının öhtəsindən hardasa gəlməyə çalışan), üzə çıxmağa çalışan(çox əziyyət çəkərək verilən materialı mənimsəməyə çalışan), əzab çəkən (öhtəsindən gələ bilməyən) öyrəncilər olaraq sinifləndirmək olar. Görəsən peşəkarlığın bilavasitə bağlı olduğu motivasiya nə səbəbə bəzi öyrəncilərdə azdı?

Bu, öz inamın az olması, lüğət tərkibinin çatışmazlığı, material barədə dünyagörüşün az olması, oxunacaq materialda heç bir məqsəd görməmək və ən önəmlisi öz ana dilində belə, oxunun öyrəncidə aşılanmasında elə təhsil prosesinin ilkin addınlarından örnək insanın olmaması kimi səbəblərlə bağlı ola bilir. Problemin düzgün müəyyənləşdirilməsi və düzgün strateji yanaşma müəllimdən yüksək peşəkarlıq və səy tələb edir.

`Scaffolding` adlandırılan dil termini istənilən məzmun xəttinin inkişafında, istənilən bir materialın öyrəncilərin dil səviyyəsinə uyğunlaşdırılması deməkdir. Burda fasilitator rolu oynayan istər müəllim istər öyrədənin, vəzifəsi təkcə materialı öyrəncinin səviyyəsinə uyğunlaşdırmaq deyil, motivasiya kimi önəmli amili nəzərə almaqla bir üst səviyyə vahidini də prosesə cəlb etməkdir ki bu da terminoloji olaraq `input 1` adlandırılır.

Oxu bacarığı üçün də digər üç bacarıq qədər önəmli olan `scaffolding` oxunun hər üç mərhələsində istər qrammatik, istər leksik, istər fonoloji, istərsə də komprihensiv dəstəyi hədəfləyir. Dəstəkləyici tədbirləri həyata keçirəcək müəllim həm təşkilatçı, həm müşahidəçi, həm də suflyor rolu oynayır. [5, s. 286]

Oxu prosesinin təbiətini təsvir edən fərziyyələrə aşağıdakılar aid ola bilər [6, s. 58]:

1.Sözləri oxumaq üçün hərflərin dərk olunması və şifrəsinin açılmasına ehtiyacımız var.

2. Mətnin dərk olunması üçün bütün sözlərin başa düşülməsi mütləqdir.

3. Simvollar (sözlər və hərflər) nə qədər çox olarsa, oxumaq bir o qədər uzun çəkər.

4. Nə oxuyuruqsa, onu dərk edirik. 5. Mətnin dərk olunması onun tərkib hissəsi olan sözləri anlamaqla müəyyənləşir.

Ancaq nəzərə alsaq ki, indi hiyerarxiq əlaqəni xatirladan, ikinci dilin bünövrədən yüksək pilləyə doğru inkişafını hədəfləyən bu fərziyyələr müasir dil tədrisi üçün prioritet olan `mürəkkəbdən asana doğru` (top down) yanaşmasına tamamiylə ziddir. Deməli, oxunun öyrədilməsi zamanı, təxmin (prediction), ümümi məlumatın detallara fikir vermedən başa düşülməsi (skimming), spesifik informasiyanın tapılması (scanning), intensive oxu tipli `top down` strategiyalar, oxunun mənimsənilməsi üçün prioritet olaraq müəyyənləşdirilməlidir. [7, s.187]

"Top Down" yanaşmasına əsaslanaraq, dilin tədris olunduğu öyrənci və sinif ortamına görə müəyyənləşdirilən dəstəkləyici tədbirlərin oxunun fərqli mərhələsində bir çox halda rast gəlinənən növləri aşağıdakılardır.

Oxudan əvvəlki mərhələdə aşağıdakılar edilməlidir:

1. Oxunacaq materialla bağlı müəllimin məqsədləri aydın şəkildə ifadə olunmalıdır.

2. Tələbələrə özgüvən üçün onların dərsdən nə öyrənmək ümidində olduqları sual olunmalıdır.

3. Mövzu ilə bağlı əsaslı suallar təqdim olunmalıdır.

4. Mövzu ilə bağlı dünyagörüşlərinin və bilgilərinin üzə çıxarılmalıdır, əgər mövzu ilə bağlı heç bir bilgi yoxdursa.

5. Mövzuya uyğun qısa video təqdimatlar edilməlidir.

6. Oxu zamanı rast gəlinəcək və oxunun başa düşülməsinə birbaşa təsir edəcək lüğət tərkibi müəyyənləşdirilməli və oxudan əvvəl təqdim olunmalıdır.

Lüğət bir neçə yolla təqdim oluna bilər:

1. Veriləcək mətn tərkibində kontekstə, uyğun olaraq, çətin olaraq müəyyən olunan sözlərin öz izahları ilə uyğunlaşdırılması vasitəsi ilə.

2. Yeni sözlərin əvvəldən tədris olunan sinonimlərlə təqdim olunması ilə.

3. Şəkillərlə təqdim olunma şəklində.

Oxu zamanı aşağıdakı dəstəkləyici tədbirlə həyata keçirilə bilər:

1. Oxunun hissələrə bölünərək təqdim olunması.

2. Komprihesiyanın yoxlanılası üçün mətnin oxunan hissəsi barədə qısa yoxlama(bu çoxcavablı bir neçə testlə ola bilər).

3. Yenidən eyni hissənin geri qayıdaraq oxunulması.

4. Sual cavab üçün zaman ayrılması strategiyaları müəyyənləşdirə bilər.

Oxudan sonraki dətəkləyici tədbirlərə aşağıdakıları aid etmək olar:

1. Tələbələrin bir-biri ilə oxuduqları material fonunda arqumental və diskussiv müzakirələri.

2. Müəllimin tələbələrin fikirlərini qeydiyyata alması (bu gələcək dərslər üçün önəmli olmaqla bərabər, tələbənin fikrinə müəllimin nə qədər dəyər verməsinin göstəricisi və birbaşa motivasiyanı formalaşdıran tədbirlərdəndir).

3. Dilin öyrənilməsinin əsas istiqaməti olan dilin kommunikativ mənimsənilməsi üçün refleksiyaya zaman verilməsi.

4. Dram və ya səhnəciklərlə öyrənilən materialın real ünsiyyətdə tətbiqi.

Bu tədbirlər sığortalamaqla motivasiyanı formalaşdırmaq tələbənin gələcək dərslərə daha motivasiyalı olmasına və materialın öyrənilməsində məğzli məqsəd görməsinə zəmin yaradacaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. Elaine Kolker Hotwitz -Becoming a language teacher a practical guide to Second language learning and teaching, London/New York 2020

2. Brown, H.D Principles of Language learning and teaching 5th edition Pearson education Ltd 2007

3. Williams, M. and Burden, R. -Psychology for language teachers Cambridge University Press, 1997
4. Rogers, A. -Teaching Adults 2nd edition, Open University Press, 1996
5. Jeremy Harmer- The Practice of English Language Teaching, 4th edition, Cambridge University Press
6. Penny Ur -A Course in English Language Teaching ,Cambridge University Press, 1999
7. Jim Scrivener- Learning Teaching, Cambridge University Press, 1999

UOT 94"19

1917-Cİ İL FEVRAL İNQİLABINDAN SONRA XÜSUSİ ZAQAFQAZİYA KOMİTƏSİNİN YARADILMASI

Xəyalə İsrayıl qızı Əsgərova
Gəncə Dövlət Universiteti
xayala.askerova@mail.ru

Birinci dünya müharibəsinin davam etməsi (1914-1918-ci illər), Rusiyanın Qərb cəbhəsindəki hərbi uğursuzluqları imperiya ərazisində, xüsusən mərkəzi şəhərlərdə çatışmamazlığına və əhali arasında narazılıqlara gətirib çıxarmışdı. Ölkədə kütləvi etiraz aksiyaları siyasi gərginliyin artmasını sürətləndirmişdi. Xüsusən, bolşeviklərin müharibə əleyhinə əks təbliğatı, fəhlələri etiraz aksiyalarına çağırmaları, insanları siniflərə bölərək, onlar arasında düşmənçiliyi təbliğ etmələri vəziyyəti daha da gərginləşdirmişdi. Bütün bunların nəticəsində, 1917-ci il fevralın 27-də imperiyanın paytaxtı Petroqradda baş vermiş burjua inqilabı 300 ildən artıq Rusiyada hökmranlıq etmiş Romanovlar sülaləsinin sonuncu nümayəndəsi II Nikolay hakimiyyətinin devirilməsinə səbəb olmuşdu. [1, s.21]

İnqilabın ilk günlərindən Rusiya Dövlət Dumasının Güney Qafqazdan olan deputatlarının təşəbbüsü ilə Güney Qafqazın idarəsi üzrə xüsusi komitə yaradıldı [2, s.64]. Martın 2-də ölkədə real hərbi-siyasi güc olan qurumun Petroqrad Fəhlə və Əsgər Deputatları Sovetinin bilavasitə dəstəyi ilə Müvəqqəti hökumət təşkil olundu. Hökumətin öz qarşısına qoyduğu əsas vəzifə ölkədə qayda-qanun yaratmaq və yeni Rusiyada konstitusiya quruluşunu qanuniləşdirəcək Müəssislər Məclisinə seçkilər keçirmək idi. [3, s.21]

Müharibə və fevral inqilabının yaratdığı problemlərin həddindən artıq çoxluğu Müvəqqəti hökumətə Qafqazın idarə olunmasına xüsusi vaxt ayırmağına imkan vermirdi. Zaqafqaziyada belə bir hakimiyyət forması Xüsusi Cənubi Qafqaz (Zaqafqaziya) Komitəsi olmuşdu.

1917-ci il martın 9-da Müvəqqəti hökumətin sərancamı ilə Dövlət Dumasının 5 nəfər üzvündən ibarət Xüsusi Zaqafqaziya Komitəsi və onun yanında İctimai Təşkilatların İcraiyyə Komitələrinin nümayəndələrindən ibarət Ölkə Şurası yaradılmışdı. Bu komitə regionun əsas millətlərini Dövlət Dumasında təmsil edən deputatlardan ibarət idi. OZAKOM-un sədri rus kadeti V.A.Xarlamov, üzvləri – azərbaycanlı kadet, sonralar müsavatçı M.Y.Cəfərov, gürcü federal-sosialisti K.Abaşidze, erməni kadeti M.Papacanov, rus kadeti P.Pereverzev idilər. İki gündən sonra Nazirlər Şurasının sədri Lvovun əmri ilə P.Pereverzev gürcü menşeviki A.Çxenkeli ilə əvəz edildi. Həmin komitədə M.Y.Cəfərova sənaye və ticarət işlərinə rəhbərlik tapşırılmışdı. Bu komitə Müvəqqəti hökumət tərəfindən 1917-ci il martın 6-da elan olunmuş prinsiplər əsasında Cənubi Qafqazda möhkəm qayda yaratmalı və regionda hakimiyyət orqanını təşkil etməli idi [4, s.32]. OZAKOM-da Cənubi Qafqaz millətləri bərabər təmsil olunmadığı və aqrar məsələdə müəyyən mövqe tutulmadığına görə xalq kütlələri OZAKOM-a etimad göstərmədiyi üçün o, lap əvvəldən tənqid hədəfinə çevrildi. [5, s.197]

XZK-nın Zaqafqaziya əhalisinə birinci müraciətində (müraciəti XZK-nın sədri B.Xarlamov, üzvləri M. Papacanov, M.Cəfərov, A.Çxengeli, K.Abaşidze imzalamışdılar) deyilirdi: "Əsrlərcə Rusiyanın bütün əhalisini əzən köhnə, dəhşətli rejim yıxıldı. Vilayətlərdə mülki idarəetmə orqaları yaratmaq üçün Dövlət Duması və Müvəqqəti hökumət tərəfindən 1917-ci il martın 9-da Xüsusi Zaqafqaziya Komitəsi yaradıldı". Xüsusi Cənubi Qafqaz Komitəsi (XCQK) Qafqaz cəbhəsində rusların nəzarəti altında olan ərazilərdə qayda-qanunu qoruyub saxlamaq üçün mülki idarələr də yaratmağa başlamışdı. Bu idarə bilavasitə Petroqraddakı Müvəqqəti hökumətə tabe idi və mülki işləri həyata keçirməliydi. Ancaq bu yeni idarəetmə orqanı elə bir qanunverici və hərbi gücə malik deyildi. Xüsusi Zaqafqaziya Komitəsi ancaq mülki işlər idarəçiliyi səlahiyyətlərinə malik idi.Onun qanunvericilik hüququ olmadığından Zaqafqaziyadakı hadisələrə nəzarət etmək gücündə deyildi. Digər tərəfdən müstəqillik ideyaları, siyasi hərəkatlar canlanmışdı.

1917-ci il martın 17-də Müvəqqəti hökumətin yerli hakimiyyət orqanı olan İctimai Təşkilatların İcraiyyə Komitəsi yaradıldı (İTİK). Bu komitə ilə yanaşı Bakı şəhər Duması fəaliyyətini davam etdirdi. Azərbaycanın şəhərlərində və qəza mərkəzlərində İTİK-ləri yaradılmışdı.Lakin OZAKOM özünə tərəfdar toplaya bilmədi və hakimiyyəti yerli fəhlə və əsgər deputatları sovetlərinə, müxtəlif milli komitələrə və təşkilatlara verdi. Siyasi partiyalar və onların liderləri yeni hakimiyyətin təşkili məsələsində də müxtəlif mövqelərdə da yanırdılar.

Fevral hadisələrindən sonra "Müsavat" gizli fəaliyyətdən açıq işə keçdi, yeni siyasi partiyalar (Gəncədə federalistlər, İrəvanda "İrşad milli partiyası") meydana gəldi. Lakin bu üç partiyadan heç biri fevral inqilabından sonrakı günlərdə milli-demokratik hərəkata rəhbərlik etmək iqtidarında deyildi. Buna görə də Azərbaycan ictimaiyyətinin müxtəlif nümayəndələri qüvvələri birləşdirmək məqsədilə komitələr, cəmiyyətlər yaratmağa cəhd edirdilər. Belələrindən birisi, kütlə arasında nisbətən çox nüfuzu olan Bakı müsəlmanları ictimai təşkilatı olan Müvəqqəti Komitə oldu. Martın 29-da yaradılan bu komitəyə sədr M.H.Hacınski, onun müavini isə M.Ə.Rəsulzadə seçildi. Komitə Ümumqafqaz мüsəlmanlrının qurultayının çağırılması və keçirilməsində həlledici rol oynadı. [6, s.106]

Menşeviklər hesab edirdilər ki, yeni hakimiyyət orqanları, mərkəzdə olduğu kimi, inqilabi demokratiya orqanlarının (fəhlə, əsgər və kəndli sovetlərinin) burjuaziya nümayəndələri ilə əməkdaşlığı əsasında yaradılmalıdır. Eserlərin fikrincə, Müvəqqəti hökumətin yaranmaqda olan yerli orqanlarına fəhlə və əsgər deputatları sovetləri nəzarət etməli idi. Bolşeviklər isə hələlik eserlərin tərəfində dursalar da, sonradan yalnız özlərinin hakimiyyətə gəlməsi uğrunda açıq mübarizə mövqeyinə keçdilər. İnqilabın ilk aylarında XZK-nin fəaliyyəti müxtəlif siyasi cərəyanların, partiyaların, sosial təbəqələrin fəaliyyəti ilə müşayiət olunurdu. Bütövlükdə isə, cəmiyyətin bir çox siyasi qurumları Müvəqqəti hökumətə və onun yerli orqanı olan XZK-nə etimad göstərirdilər.

Bu dövrdə cəmiyyətdə nisbi sabitliyin saxlanılmasına kömək edən amillərdən biri də bolşeviklərin hələlik sovetlərin partiya tərkibini dəyişdirmək taktikasına keçməməsi idi. Yerli hakimiyyət orqanlarının hamısı "demokratiyanın tam vəhdəti" Şüarı altında formalaşır və sovetlərlə yerli hakimiyyət orqanlan arasında spesifik münasibətlər yaranırdı. Lakin XZK, əslində, hadisələrin getdikcə gərginləşməsi fonunda ilişib qalır, Cənubi Qafqaz kimi mürəkkəb regionda sabitliyi təmin etmək üçün əsaslı addımlar atmaqda çətinlik çəkirdi. Sovet Rusiyasına tabe olmaq istəməyən və regionu anarxiyadan qorumağa çalışan gürcü menşevikləri, "Müsavat", "Daşnaksutyun" və sağ eserlərin numayəndələri 1917 il noyabrın 15-də Tiflisdə Zaqafqaziya komissarlığını yaratdılar. Bununla da Xüsusi Zaqafqaziya Komitəsinin fəaliyyətinə son qoyuldu. [4, s.33]

İstifadə edilmiş ədəbiyyat

1. Vaqif Abışov. Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər). Bakı: Nurlan, 2007, 163 s.
2. Mahir Abdullayev. Beynəlxalq münasibətlər tarixi. Bakı: Təhsil-ABU, 2003, 537 s.
3. Azərbaycan tarixi. 7 cilddə. V cild (1900-1920-ci illər), 584 s.

4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə, II cild. Bakı: Lider, 2005, 472 s.

5. Галоян Г.А. Рабочее движение и национальный вопрос Закавказье (1900-1922). Ереван, 1969

6. M.İ.Əmrahov. XX əsrdə Azərbyacanda milli-azadləq hərəkatı. Bakı: ADPU-nun nəşriyyatı, 2009, 371 s.

UOT 37.018.1

İSLAM DİNİNDƏ UŞAQ TƏRBİYƏSİ MƏSƏLƏLƏRİ

[1,3]**İlhamə Şubay qızı İsmayılova,** [2,3]**Aygün İslam qızı İsmayılova**
[1]ilhama.ismayilova@mdu.edu.az
[2]aygun.ismayilova@mdu.edu.az
[3]Mingəçevir Dövlət Universiteti

Milli mənəvi dəyərlərimizin inkişafında və formalaşmasında İslam dininin rolu böyükdür. Bizim millət olaraq mədəniyyətimizin inkişaf edib, formalaşması bütün dünyada ən böyük mədəniyyət olan islamdan qaynaqlanır. İslam dini ailə dəyərlərinə böyük önəm verən, ailə tərbiyəsini önə çəkən bir dindir.

Ailə zahiri cəhətdən cəmiyyətin kiçik qurumu hesab edilsə də, əhəmiyyəti baxımından cəmiyyətin əsas stunlarından hesab edilir. Məlumdur ki, ailədə mədəniyyət, vəfadarlıq, tərbiyə istəlinən səviyyədə olsa cəmiyyətdə inkişaf, mədəniyyət və əxlaq yüksək səviyyədə olacaq. Çünki böyük cəmiyyət kiçik dediyimiz ailə cəmiyyətindən təşkil olunmuşdur.

"Müqəddəs ailə ocağında ata və ana ailə üzvləri arasında son dərəcə ehtiramla, hörmətə layiqdirlər, övladlar onlara tabe olmalıdırlar, heç vaxt şəri, üzürlü səbəb olmadan onların əməllərindən böyük qaçırmamalıdırlar. Çünki Quranda və rəvayətlərdə bu barədə təkidli göstərişdən əlavə, övladlara yol göstərilməsi və onlara qayğıkeşlik nəzərindən də bu məsələ böyük əhəmiyyət kəsb edir". [1, s.24]

Son dövrlər valideyn məsuliyyətsizliyi ucbatından uşaqlarda travma, ölüm hallarının artması hüquqi tərəfdən valideynlə məsuliyyətsizliyinə görə cəza tədbirinin görülməsi zəruriyyətini yaratdı. Bu mənada İslam dinində ata və ana öz övladları qarşısında böyük məsuliyyət daşıyırlar və bu böyük ilahi vəzifəyə diqqət yetirib əməl etmələri vacibdir. Əks halda, ilahi ədalət məhkəməsində sorğu-suala tutulacaqlar.

Valideynlərin hüquqlarını Qurani Kərimdə töbhidə dəlalət edən ayələrdən sonra gəlməsinin səbəbi budur ki, gərək valideynlər ilahi əmanət olan övladın tərbiyəsi qarşısında məsuliyyət hiss edərək öz vəzifələrini lazımınca, yaxşı şəkildə yerinə yetirsinlər ... Övladların maddi və mənəvi tərbiyələri, müxtəlif və həssas onlarda övladların hüquqlarını nəzərə almalı, cəmiyyətə sağlam, işgüzar və həssas onlarda və yönlərdə övladların hüquqlarını nəzərə almalı, cəmiyyətə sağlam, işgüzar və ürəyiyanan fərdlərin təhvil verilməsində öz vəzifələrini gözəl şəkildə yerinə yetirməlidirlər. [4, s.4]

Valideynlərin övlad tərbiyəsi haqqında düzgün bilgiyə malik olmasının əhəmiyyəti haqqında düzgün biligiyə malik olmasının əhəmiyyəti haqqında doktor Salk Nyu-Yorkda Karnel universitetin uşaq psixologiyası üzrə professor belə qeyd edir: "Uşaq psixologiyası sahəsində öz övladının xoşbəxtliyini istəyən, amma bu sahədə məlumatsızlıqdan əziyyət çəkən valideynlərlə çox rastlaşmışam. Çox vaxt onlar həyatlarına kölgə salmış təcrübələrin günahsız qurbanına çevrilirlər. Bu insanlar özünü tam məlumatlı göstərən, əslində isə həqiqətən xəbərsiz olanların nəsihətlərinə

qulaq asırlar. Ətrafdan heç bir kömək olmadıqda və etibarlı mənbəyə əl çatmadıqda insanlar budaqdan-budağa gəzən ağızları dinləyirlər. [2, s.5]

Zənimizcə, ən etibarlı mənbə bu sahədə islam dininin ailə dəyərləridir. Vaxtında alınan bilgi isə daha əhəmiyyətlidir:

"Bu günkü ağrılar sorma haradan,
Ötən qüsürlardı onu yaradan" [2, s.3]

Məlumdur ki, İslama qədər qız uşaqlarına qarşı münasibət çox pis idi. Böyüyüb faşihə olar fikri ilə atalar qız uşaqlarını diri- diri torpağa gömürdülər. Cənabı- Haqq Qurani Kərimdə Nəhl surəsinin 52- ci ayəsində bu övlad qatillərini bu şəkildə təsvir edir. " Onların birinə qız (cocuğu) müjdələndiyi zaman öfkələnmiş olaraq üzü qap-qara olur".

"Rəsullahla təkcə Şərqdə deyil, bütünlüklə dünyada qadınlığın beli düzəlməyə başladı, onun ürəyinin sonsuz mərhəmət və şəfqətindən qadının cəmiyyətdə mövqeyi yüksəldi". [6, s.83]

Qadına qarşı münasibət onun tərbiyə etdiyi uşağa çox təsir edir. Qadına qarşı şiddət, mərhəmətsizlik uşaq psixikasında travma yaradır. Bu da onun gələcəkdə şəxsiyyətinin formalaşmasına mənfi təsir göstərir.

Həmin uşaqlar cəmiyyətdə cinayət törətməyə çox meyilli olur, sosial keyfiyyətləri formalaşmırlar.

İnsanın ailəsinə, övladlarına qarşı yaxşı, gözəl davranmasını Allahın Rəsulu hədislərində dəfələrlə vurğulanmışdı. " Şəxsin nəfsinə, ailəsinə və uşağına etmiş olduğunu infaq – sədəqədir". Peyğəmbərimiz bu hədisi ilə sağlam ailələrin ancaq məhəbbət təməli üzərində qurula biləcəyini ifadə etmişdir.

Uşaqların tərbiyəsi işində ən mühüm məsələlərdən biri onların xarakterinin formalaşdırılmasıdır. Bu xüsusda İslam peyğəmbəri Məhəmməd Peyğəmbər bütün bəşər üçün örnək şəxsiyyətdir. Onun həyatının uşaqlara öyrədilməsi onların bir şəxsiyyət olaraq, yetişməsinə müsbət təsir göstərər. Xüsusilə onun heyvanlara, qadınlara, uşaqlara xüsusilə yetim uşaqlara münasibəti örnəj nümunələrlə zəngindir.

Uşaqların tərbiyə edilməsində Quran hekayələrinin, hədislərin rolu böyükdür. Yeri gəldikcə ailədə vəalideynlər, məktəbdə müəllimlər və tərbiyəçilər bu nümunələrdən istifadə etməlidirlər. Bu hekayələr uşaqların xarakterində mərhəmətlilik, qayğıkeşlilik, diqqətlilik və s. kimi insani keyfiyyətləri formalaşdırır.

"Rəsullahın hüzuruna kiçik bir uşaq gəldi. Anasının bir köynək istədiyini bildirdi. Bu zaman Peyğəmbərin əynindəkindən başqa köynəyi yoxdur. Əlacsız qalıb uşağın başqa bir zaman onun yanına gəlməsini istədi. Növbəti dəfə gəlincə Peyğəmbər dərhal Hücreyi- Səadətə girib əynindəki köynəyi çıxarıb uşağa uzatdı. Bu zaman Bilali – Həbəşi əzan oxuyurdu. Fəqət Məhəmməd Peyğəmbər əynində bir şey olmadığından, təbii olaraq, camaat arasına çıxa bilmədi. Əsabələrin bir qismi maraq etdi, Hücreyi- Səadətə girib onu köynəksiz gördülər. Rəsullah özünü bir infaq məmuru kimi hiss edirdi. Onun aləmində hər şeyi verəndə malın-mülkün sahibi də Allahdır. [6, s.92]

Uşaqların tərbiyəsində Quran hekayələrindən istifadə etmək çox əhəmiyyətlidir. Hekayə insanın üzləşdiyi lakin qurtula bilməyəcəyi bir problemin həllini asanlıqla oxucuya aşılanması xüsusunda əhəmiyyətlidir. Bu üslub Qurani-Kərimdən də yan ötməmişdir. Bəlağətin ən son zirvəsində dayanan müqəddəs kitabımızda da müəyyən bir öyüd-nəsihətin, ibrətin bəyan olunması və yaradılışın, həyatın, ilahi nizam-intizamın, qanunauyğunluğun açılması üçün hekayə üslubundan istifadə olunmuşdur. [3, s.3]

Müqəddəs kitabımız Qurani Kərimdə 83 belə hekayə vardır. Hekayələrdə bal arısı, inək, dəvə, cin, şanapipik, qarışqa həmçinin cənnət cəhənnəm əhli, müdrik insanlar, şahlar, peyğəmbərlər haqqında təqdim olunur. Quranda həmçinin 88 ayədən ibarət olan kamil surə – "Əl-Qəssəs" (Hekayələr) surə də mövcuddur. Quranın hekayələr barədə nöqteyi- nəzəri də maraqlıdır. Quran nəzərinə görə hekayə mühafizə olunduğu qəlb, insana hər bir zaman üçün yüksək əxlaq və tərbiyə aşılayan bir vasitədir. Hekayədən əlavə hədislərindəə bu mənada əhəmiyyəti böyükdür. Hədislər

insanda əxlaqi davranış, insanda yüksək mənəvi və mədəni keyfiyyətlər formalaşdıran dəyərli bir vasitədir.

İslam dini insan üçün ən dəyərli şey və xoşbəxtliyi onun əməli saleh övladının olmasınıdır buyurmuşdur. Bunun üçün evlənərkən diqqət edilməli məsələlər vardır. Valideynlərin ruhi sağlamlığı əxlaqının yerində olması vacib şərtdir. Fərdlər həyat yoldaşı seçərkən kifayət qədər diqqətli olmalı, ən layiqli şəxslərlə evlənməlidirlər.

Həzrət Əli belə buyur: "Axmaq və qanmaz qadınlarla evlənməzdən uzaq olun! Çünki onunla yaşamaq bela, ondan gələn övladlar isə zaydır". Bu hədis həyat yoldaşının övladdakı təsirinin nə dərəcədə olmasını göstərir. Peyğəmbərimiz də şərab içən əxlaqı yerində olmayan şəxslərlə ailə qurmağı məsləhət bilməmiş, gələcək övladlara onların göstərəcəyi təsiri nəzərdə tutaraq bu tövsiyyəni vermişdir. Müasir elm də sübut edir ki, valideynin əxlaqı, ruhi vəziyyəti, uşaqda psixoloji təsir qoyur, batini (daxili) xüsusiyyətlər də uşağa təsir qoyur onu formalaşdırır.

Bu gün müasir tibb hamiləlik dönəmində qadınların qidalanmasının uşağa necə təsir etməsi barədə fikirlər səsləndirir. Uşaqların qüsurlu, əlil doğulmasının səbəblərindən biri kimi düzgün qidalanmamasını göstərirlər. Müqəddəs İslam dini də bu həsas dövrdə ata və analara xitab verən, övladlarının ruhi və sağalamlığı üçün düzgün qidalanmaya fikir vermələrini tövsiyyə edir. Allah müqəddəs Qurani-Kərimdə Həzrəti Məryəmə xitab edir: "Ey Məryəm, hamiləlik dövründə, doğuş ağrıları səni tutanda, ağacın budağını tərpət, sənin üçün təzə behiş xurmaları tökülsün". [5, ayə 25]

Bütün valideynlər istəyir ki, övladları layiqli və düzgün yolda olsun. İslam dini bu barədə valideynlərə tövsiyyə edir ki, övladların tərbiyəsində məsuliyyəti nəzərə alsınlar, bir- biri ilə elə rəftar etsinlər ki, onların əxlaqi mənəvi inkişafına səbəb olsun, əks halda valideynlər övladların tərbiyəsində xətaya yol verərlər Nəticədə isə Allahın dərgahında müqəssir olacaqlar və bununla da saleh övlada sahib olmayacaqlar. Məhəmməd Peyğəmbər buyurur. "Övladlar öz ata-anaları qarşısında yaxşılıq etməkdə və onlara tabe olmaqda məsuliyyət daşıdıqları kimi, ata-ana da övladın düzgün tərbiyə olunması və onların hüquqlarının təmin olunmasında ağır məsuliyyət daşıyırlar və səhlənkarlıq edəcəkləri təqdirdə üzünə ağ hesab olunacaqlar". Uşaqlar təqlidə meyilli olduqları üçün İslam peyğəmbəri ailədə valideynin bir-biri ilə rəftarına ciddi fikir verməsini tövsiyyə etmişdir.

Həmçinin uşağa ad seçərkən, sonra ailə də öğlan və qız uşağı böyüyürsə onlara tərbiyədə cinsi fərq qoyulsa da, münasibət də verilməsi- xüsusilə onlarla hörmətlə rəftar edilməsi təkidlə tövsiyyə olunmuşdur.

Müasir Pedaqogika və Psixologiya elmləri İslam dinindən çox istifadə edir. Xüsusilə şəxsiyyət tərbiyəsi məsələlərində Peyğəmbərimizin hədisləri dəyərli vasitə kimi qiymətləndirilir.

Valideynlər islam dinində ailə tərbiyəsi məsələləri ilə bağlı məlumatlar əldə etsələr onun müsbət nəticələrini görərlər.

Orta məktəb dərsliklərində də Quran hekayələri salınsa çox əhəmiyyətli olar. Müəllimlər sinifdən xaric oxu dərslərinə də Quran hekayələrini oxumağı tövsiyyə etsələr çox yaxşı olar.

Unutmayaq ki, biz dünyada ən yüksək mədəniyyəti hesab edilən İslam mədəniyyətinin daşıyıcılarındanıq. Yeri gəlmişkən görkəmli şairimiz M.Aslan Yuncskom C.Ruminin Konyada keçirdiyi "Rumi ili"ndəki qeydlərində yazırdı ki, "Mənə bir avropalı şərqşünas ingilis xanım yaxınlaşdı və dedi: "Biz avropalılar maddinin arxasınca getdik müharibə, qırğınlar qazandıq, siz isə mənanın ardıycasız. Çox böyük dəyərlərə sahibsiz. Axıra kimi bu dəyərlərə sahib çıxın ki, sizə ovcumuzu açanda, ora qoymağa bir şeyiniz olsun".

Gəlin, dəyərlərimizə sahib çıxaq.

İstifadə edilmiş ədəbiyyat

1. Babazadə Ə. İslamda evlənmə və ailə hüququ Bakı : Nurlan 2000, 395 s.
2. Doktor L.Salk Kaş valideynlərin biləydi. Bakı: 2005, 118 s.
3. Ələkbərov C. Alimlərin və ariflərin həyatından ibrətamiz əhvalatlar. Bakı: Nurlan, 2013,

118 s.
4. Quliyev H. İslamda ailə hüququ və övlad tərbiyəsi. Bakı: 2003, 191 s
5. Mehdiyev A. Cəfərli D. Qurani Kərim. Bakı: 2005, 370 s.
6. Osman Nuri. Topbaş Varlıq Nuru. Bakı : Qismət, 2004,166 s.

UOT 74.50

КОРРЕКЦИОННО-ПЕДАГОГИЧЕСКАЯ ПОМОЩЬ ПРИ АУТИЗМЕ

Айтекин Наджаф гызы Сеидова
Бакинский славянский университет
aytekinseyid12@gmail.com

"Аутичность – (от греческого – сам) – обозначает крайние формы нарушения контактов, уход от реальности в мир собственных переживаний". Этот термин дан в психологическом словаре, который впервые был введён швейцарским психиатром и психологом Э.Блейлером [2].

Аутизм проявляется особенно чётко в 3-х основных областях:

- речь и общение;
- взаимодействие в обществе;
- воображение и эмоциональная область.

В качестве основных симптомов аутизма называют трудности в коммуникации и процесса вхождения в общественную жизнь, неспособность установления эмоциональных связей, нарушение вербального развития, но нужно заметить, что для аутизма характерно неправильное развитие всех областей психики: интеллектуальной и эмоциональной сфер, восприятия, моторики, внимания, памяти, речи.

Система помощи лицам с аутизмом начала впервые формироваться в США и Западной Европе в середине 60-х гг. Нужно, однако, отметить, что первая в Европе (и, по-видимому, в мире) школа для аутичных детей – Sofienskole – начала функционировать в Дании в 1920 г., когда ни в психиатрии, ни в специальной педагогике понятие *детский аутизм* еще не было сформулировано [1].

Из наиболее ранних подходов к коррекции аутизма известна предложенная К.С. Лебединской и О.С. Никольской методика комплексной медико-психолого-педагогической коррекции, основанная на представлении об аутизме, прежде всего, как об аффективном расстройстве. В отличие от зарубежных методов большое значение отводится комплексности – постоянному взаимодействию педагогов, психологов и врачей-психиатров. Основные усилия направляются на коррекцию эмоциональной сферы, на эмоциональное тонизирование ребенка. Метод достаточно эффективен при работе с относительно легкими формами раннего детского аутизма (РДА), применение же его для случаев с глубокими аутистическими расстройствами представляется весьма проблематичным [3].

Считается, что синдром раннего детского аутизма (РДА) изучался вначале в России , достаточно давно, со времени выхода в 1947 г. статьи С.С.Мнухина «О невро- и психопатических изменениях личности на почве тяжелого алиментарного истощения у детей». В дальнейшем РДА на протяжении более 30 лет рассматривался только как медицинская проблема. Однако помещение аутичных детей в психиатрический стационар не давало, как правило, положительных результатов, а нередко в условиях отрыва от семьи, изменения привычного окружения, состояние ребенка, наоборот приводило к ухудшению состояния ребенка. И лишь со второй половины 70-х гг. XX века благодаря работам (в то

время ленинградских) - Ш.Н.Исаев, В.Е.Каган, и особенно московских - К.С. Лебединская, В.В.Лебединский, О.С.Никольская и др. психиатров и психологов постепенно стало складываться представление о РДА как об особом отклонении психического развития, из чего следовала необходимость не только и не столько медикаментозного лечения, сколько коррекционного обучения и воспитания с использованием особых, специфических для РДА форм и методов [6].

Одним из вариантов обучения аутичных детей и подростков в государственных учреждениях образования является создание специальных классов для аутичных детей в массовых и специальных школах других типов. Однако, как известно в нашей стране со стороны Министерства Науки и Образования Азербайджанской Республики с 2019 года проводятся специальные тренинги для учителей начальных классов и педагогов-предметников средних общеобразовательных школ по инклюзивному обучению. Целью которых является обучение учителей средних школ методам и принципам работы с детьми с ограниченными возможностями здоровья (в том числе и аутичных детей) в условиях обычных, а не специализированных классов. В настоящее время в г. Баку существует несколько пилотных школ, работающих в этом направлении.

Следует отметить, что при потенциально сохранном интеллекте и даже определенных способностях, обучение аутичных детей в массовой школе требует специальной психолого-педагогической поддержки.

Говорить о социальной нише, занимаемой лицами с аутизмом, сложно: из-за больших различий в уровне интеллектуального и речевого развития четких границ этого нет, адаптируются относительно (нуждаются в постоянной опеке) и лишь 2-3 % достигают удовлетворительного уровня социальной адаптации [4].

Стоящие перед педагогом ДОУ или общеобразовательной (массовой) школы проблемы очерчены достаточно ясно и решение достаточно просто: индивидуальный подход с учетом таких проявлений аутизма, как ранимость, повышенная утомляемость, неравномерность развития интеллектуальных, речевых и моторных навыков, замедленность реакции, отсроченность результатов обучения (ребенок часто отвечает не тотчас, а спустя некоторое время), трудность восприятия фронтальных занятий (эффективнее индивидуальные), трудности при ответе у доски и др. Учителю не следует торопиться с выводами и организационными решениями, надо попытаться понять причины нарушений поведения ребенка и неудач в учебе, повнимательнее расспросить о нем родителей и при малейшем подозрении, что у ребенка аутизм, обратиться за помощью к специалисту (педагогу, психологу, детскому психиатру) соответствующего профиля. При работе с относительно легкими формами раннего детского аутизма большое значение отводится комплексности – постоянному взаимодействию педагогов, психологов и врачей-психиатров. Основные усилия направляются на коррекцию эмоциональной сферы, на эмоциональное тонизирование ребенка.

Очень часто вслед за трудностями приходят положительные результаты и удовлетворение, что особенно ценно и приятно: во всем мире признано, что работа с аутичным ребенком – едва ли не самое сложное, что есть в современной коррекционной педагогике.

Использованная литература

1. Аршатский А.В.и др. Дети и подростки с аутизмом. М., 2016, 165 с.
2. .Лайшева О.А. Ранний детский аутизм. Пути реабилитации. 2017, 196 с.
3. Иванов Е.С., Демьянчук Л.Н., Демьянчук Р.В. Детский аутизм: диагностика и коррекция. Учебное пособие. СПб: Дидактика Плюс, 2004, 263 с.
4. Мамайчук И. И. Помощь психолога детям с аутизмом. — СПб.: Речь, 2007, 288 с.

5. Никольская О.С. Аутичный ребенок. Пути помощи / М.: Теревинф, 2015, 174 с.
6. Рудик О.С. Коррекционная работа с аутичным ребенком: [кн. для педагогов: метод. пособие] М.: Гуманитарный изд. центр ВЛАДОС, 2015, 189 с.

UOT 47.07.65

ƏHMƏD CAVAD YARADICILIĞINDA İSTİQLAL MÜCADİLƏSİ

Ayna Çingiz qızı Babazadə
Mingəçevir Dövlət Universiteti
ayna.babazada@mdu.edu.az

"Soranlara, bən bu yurdun
Anlatayım nəsiyəm:
Bən çeynənən bir ölkənin
"Haqq!" bağıran səsiyəm!"

(Əhməd Cavad) [1, s.128]

Bu məşhur misraların müəllifi Azərbaycançılıq məfkurəsi ilə zəngin ədəbi-bədii yaradıcılığa malik Ə.Cavaddır. O, Azərbaycan Xalq Cümhuriyyətinin tərənnümçüsü, milli istiqlal şairidir. Ə.Cavad şeirlərini araşdırarkən onun romantik ruhlu bir realist olduğu məlum olur. Əruz vəzni ilə yanaşı şair daha çox heca vəznində yazmışdır. Heca vəznli şeirlərinə milli və siyasi həyəcan qatırdı. Onun lirizmində bədbin və nikbin notlar ictimai duyğularla birləşirdi. O, 1918-1920-ci illərdə, 26-28 yaşlarında olarkən artıq mili istiqlal yolunun carçısına çevrilmişdir. M.Ə.Rəsulzadə şairin yaradıcılığı ilə tanış olmuş, ona yüksək dəyər vermiş, şairi milli qurtuluş hərəkatının öndə gedənlərindən hesab etmişdir.

Ə.Cavad poeziyasının əsas qayəsini azadlıq və istiqlal ideyaları təşkil edirdi. Şeirlərində "azad Vətən" obrazını yaradırdı. 1917-1920-ci illər, yəni AXC dönəmi onu bir istiqlal şairi kimi formalaşdırmış, milli qürur, fəxarət hissləri ilə yazıb-yaratmağa cəsarətləndirmişdir. 1918-ci illərdə qələmə aldığı şeirlər əsasən azadlığa, Azərbaycan Respublikasının uğurlarına həsr edilmişdir. Dövlət atributlarımızdan olan Azərbaycanın Dövlət Himninin sözlərini yazaraq, vətəni vəsf etmiş, ona bağlılıq hisslərini tərənnüm etmişdir.

Məlumdur ki, şair 1914-1918-ci illərdə Müsəlman Xeyriyyə Cəmiyyətinin katibi olmuş, ön cəbhəyə gedərək ictimai-siyasi durum haqqında məqalələr, xəbərlər, reportajlar yazıb qəzet və jurnallarda çap etdirirdi. Elə bu dövrdə 1914-cü ildə şair məşhur "Çırpınırdı Qara dəniz" şeirini qələmə alır. Həmin şeir şairin 1919-cu ildə çap etdirdiyi sayca ikinci kitabında – "Dalğa"da yer almışdır.

Ə.Cavad Azərbaycan Xalq Cümhuriyyəti ilə Türkiyə arasında ilk əlaqə yaradanlardan olmuşdur. 1918-ci ildə Bakıya gələn türk ordusunun şəninə "Türk ordusuna", "Bismillah", "Ey əsgər" və s. şeirlərini qələmə almışdır. Bu şeirlər içərisində 1918-ci ildə yazdığı "Bismillah" şeiri daha təsirlidir. Belə ki, bu şeirdə şair qorxmadan düşmən üzərinə gələn əsgərlərin qəhrəmanlığından danışırdı.

Ey döyünən yürək, dumanlı şəhər,
Bilmirsən, bu zor gurultu nədir?
Aç sisli qoynunu, ordumuz gəlir,
Nişanlın qoynuna girər, bismillah! [1, s.137]

Şair türk ordusuna hörmətini "Türk ordusu" şeirində tərənnüm etmişdir.

Gəldiyin gün Kürün axar-baxarı

Əski günahlardan silkindi, çıxdı!
Eşidib Cümrüdə tək bir səsini
Araz sevincindən dünyanı yıxdı! [1, s.143]

Müharibə, orduların üz-üzə gəlməsi müəyyən insan itkisi ilə nəticələnir. Şair Bakını azad edərkən şəhid olan türk şəhidlərinin şərəfinə "Şəhidlərə" şeirini yazmışdır.

Sənin qovduqların yabançı xanlar,
Qurtardı ölkəni tökdüyün qanlar!
Bax nasıl öpməkdə tozlar, dumanlar
Qərib məzarını, bən də bərabər! [1, s.145]

Ümumiyyətlə, Ə.Cavad yaradıcılığında elm, maarif, vətən, istiqlal mövzuları ilə yanaşı, türkçülük, turançılıq, Türkiyəyə, türk xalqına sevgi Türkiyənin çəkdiyi müsibətlərə şəriklik məsələsi mühüm yer tutur. Onun yaradıcılığı təkcə Azərbaycan və azərbaycançılıq ideologiyası ilə məhdudlaşmır. Daha geniş müstəvidə türk və turançılıq ideyalarını da görürük. Əslində bu mövzular onun yaradıcılığında bir bütövlük təşkil edir [2, s.58]

Ə.Cavadın türkçülüyünün əsas mahiyyəti özünü Türkiyəyə, onun tarixinə, ədəbiyyat və mədəniyyətinə məhəbbət, türk əsgərlərinin yanında olması, Qafqaz türklərini qardaş xalqın dərdinə şərik olmağa, köməyə çağırmasında göstərir. Məhz bu məhəbbətdən, bağlılıqdan irəli gəlirdi ki, şair türk düşüncəli poetik nümunələr qələmə almışdır. "Çırpınırdı Qara dəniz", "İstanbul", "Türk ordusuna" və s. şeirlərində şairin Turançılıq sevgisini görürük.

1919-cu il iyulun 24-də yazdığı şeiri üçrəngli bayrağımıza həsr edilmişdir. "Azərbaycan bayrağına", "Nədən yarandın", "Elin bayrağı" şeirləri bayraq mövzusundadır, bayrağa məhəbbət ruhunda yazılmışdır. "Aşiqin dərdi", "Bən bulmuşam" şeirlərində də şairin bayraq sevgisini görə bilirik. 1920-ci ildə bolşeviklər hakimiyyətə gələndən sonra üçrəngli bayrağımızın endirilməsi şairi çox sarsıtmış, onu yenidən qələmə sarılmağa sövq etmişdir. O, üçrəngli bayrağın həsrətini çəkərək bu məzmunda şeirlər yazmışdır.

1925-ci ildə qələmə aldığı "Göygöl" şeiri daha çox problem yaradır. Şair yenə qələminin güdazına gedir. Bu məsələdə onu gözügötürməyənlərin də böyük rolu olur.

Sənin gözəlliyin gəlməz ki, saya
Qoynunda yer vardır yıldıza, Aya
Oldun sən onlara mehriban daya,
Fələk büsatını quralı, Göygöl [1, s.229].

Əhməd Cavadı bu misralarda işlənən ulduz, ay, yaşıl sözlərinə görə ittiham etmişdilər. Bu sözləri bir simvol hesab edərək şairi üçrəngli bayrağı, Müsəvatı yada salmaqda günahlandırırdılar.

Müsəvatçıların Türkiyəyə keçməsində yardım etməsi ittihamı ilə 1923-cü ildə onu ir neçə ədiblə birlikdə (Cəfər Cabbarlı, Xəlil İbrahim, Seyid Hüseyn) ilə birlikdə həbs etmişdilər.

1928-ci ildə 38 yaşında Türkiyənin "İstiqlal uğrunda" məcmuəsində on, on beş şeiri dərc olunmuşdur. Ə.Cavad eyni zamanda latın əlifbasına keçməyin təşəbbüskarlarından olmuşdur. "Yeni türk əlifbaçılarına" şeirini bu münasibətlə qələmə almışdır.

36-37 yaşlarında olarkən o, "pantürkizm"də, fitnə və təxribatçılıqda ittiham olunur. Ümumiyyətlə, şairi "pantürkist", "əksinqilabçı", "müsavatçı" adlandırmışdılar. 1937-ci ildə əksinqilabi təşkilat üzvü kimi ittiham olunur, halbuki o, heç kimin adını heç yerdə pisləməmişdir. Bununla da, onu Yazıçılar İttifaqının üzvlüyündən azad edib may ayında həbs edirlər. Şairin öz sözləri ilə desək, o "namusla gəlib, namusla da getmişdi".

1991-ci ildə Ə.Cavad şeirləri Türkiyədə çap edilir. "Sən ağlama, mən ağlaram" şeirlər kitabı Tükriyədə çap olunan şeir kitabları arasındadır. 1992-ci ildə Azərbaycanda 2 cildliyi, 2005-ci ildə isə "Seçilmiş əsərləri" çap olunmuşdur.

Vaxtilə, bolşevizmə, sinifli mübarizəyə xidmət edənlər zamanla arxivə getmiş, ancaq milli mübarizəyə, istiqlala xidmət edənlər isə hər zaman xalqın yaddaşına ömürlük həkk olunmuşdular. Milli mənlik və istiqlal ideyalarının alovlu tərənnümçüsü, eləcə də dövlət himni, milli marş və

bayraq şeirləri ilə məşhurlaşan Ə.Cavad ömrü hər zaman yaddaşlarda, xalqımızın rəşadətli tarixində yaşayıb, yaşayır və yaşayacaq da! Onun yaradıcılığı gələcək nəsillər üçün vətəndaşlıq nümunəsi və milli istiqlal kitabıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Ə.Cavad. Seçilmiş əsərləri / Cavad Ə. - Bakı: Şərq-Qərb, - 2005. - 296 s.
2. Məmmədli, A. Əhməd Cavad və Türkiyə / A.Məmmədli. – Bakı: Elm və Təhsil, - 2010. - 167 s.

UOT 398:801.6; 398:82.0; 801.8

ƏHMƏD CAVAD YARADICILIĞINDA QOŞMA

Səadət Arif qızı Ağakişiyeva
Mingəçevir Dövlət Universiteti
saadat.agakishiyeva@mdu.edu.az

Giriş

Kökü yüzilliklərin dərinliklərindən gələn, zəngin musiqi və söz repertuarına, teatral keyfiyyətlərə malik olan ozan-aşıq sənəti dilimizin, ruhumuzun qorunmasında, milli istiqlal, milli dövlətçilik düşüncəsinin daşınmasında, qəhrəmanlıq, yurdsevərlik duyğularının aşılanmasında tarixən olduğu kimi bu gün də misilsiz rol oynamaqdadır. [3, s.605]

Aşıq yaradıcılığı elə bir gücə malikdir ki, onu təsiri altına düşməmək mümkün deyil. Bütün dövrlərdə şifahi xalq ədəbiyyatı ilə yazılı ədəbiyyat arasında keçid rolunu oynamış, onları bir- birinə bağlamışdır. Folklorun qədim nümunələrindən biri olan aşıq sənətinin janrlarından bəhrələnmə və təsirlənməni qədim dövrlərdən bu günə qədər bütün sənətkarların yaradıcılığında görmək mümkündür.

İşin məqsədi

Tədqiqatın aparılmasında əsas məqsəd Əhməd Cavad yaradıcılığına aşıq yaradıcılığının təsirini, sənətkarın yaradıcılığında aşıq şeir janrlarının xüsusiyyətlərini tədqiq etməkdir.

Ədəbi mühitə nəzər yetirdikdə milli oyanış, türk xalqlarının birliyinə çağırış, xalqın yaddaşına qayıdış kimi duyğular şeirlərinin ruhuna hopmuş, dilinə, xalqına, mədəniyyətinə ürəkdən bağlı olan Əhməd Cavadın yaradıcılığının folklor nümunələri baxımından zəngin olduğunu görürük. Sənətkar öz ilhamını doğma yurdundan, meşəsindən, dağından, Göygölündən alırdı. Şeirlərinin mövzu dairəsi çox geniş və əhatəli olan Əhməd Cavad yaradıcılığında aşıq şeir şəkillərinin bir çox növündən: qoşma, gəraylı, müxəmməs və bayatılardan istifadə etmişdir. Sənətkar bu janrlara müraciət etməkdən çəkinmir, hətta bununla fəxr edirdi.

Təsadüf deyil ki, Əhməd Cavadın yaradıcılığına nəzər saldıqda ilk şeirlər kitabının adı "Qoşma"dır. Bu kitabda şairin müxtəlif illərdə yazdığı qoşmaları toplanmışdır. Sənətkar, onlarla qoşma yazmış, bununla yanaşı digər şeirlərinin sonunda möhürbənd kimi bəzən qoşmadan, bəzən də bayatıdan istifadə etmişdir.

Şairin poemalarında, kiçik şeirlərində "aşıq" və "saz" obrazları xüsusi yer tutur. O, xalq təfəkküründün bütün məhsulunu öz yaradıcılıq qaynağı kimi istifadə etmişdir. Onun folklora bağlılığını anasının uşaq ikən ona söylədiyi nağıllar, əfsanələr daha da alovlandırıb.

Şairin "Kür", "Pambıq" poemalarının, "Moskva", "Səsli qız" və s. iri həcmli əsərlərinin bir neçə yerində mütləq qoşma və bayatıdan istifadə edilir. Poemalarındakı bu parçalar onun əsərlərində kökə bağlılıq, xəlqilik, millilik və başqa əlamətlər bəxş edir. Şairin ayrı-ayrı şeirlərində də bu cəhəti görmək çətinlik törətmir. [2, s.6]

Əhməd Cavadın aşıq şeir üslubunda yazdığı qoşmaları, gəraylıları dilinin sadəliyi və rəvanlığı ilə seçilir. Dövrünün dillər əzbəri olan və aşıqlar tərəfindən məclislərdə ifa edilən "Azərbaycan! Azərbaycan!" şeiri bu baxımdan səciyyəvidir:

Dağlarının başı qarlı,
Sinəsi yaşıl ormanlı!
Dərələrin şirin barlı,
Azərbaycan! Azərbaycan!

Laçının var. tərlanın var!
Çoxlu şirin dastanın var!
Qorxun yoxdur, düşmanın var!
Azərbaycan! Azərbaycan! [1, s.213]

Doğma yurdun təbiəti daim şairi heyrətləndirib, eləcə də xalqın taleyi də onu narahat edirdi. Bu narahatlığı onun əsərlərində də aydın hiss edilir.

Ədəbi mühitin Ə. Cavada qədərki zəngin sənət ənənəsi və Cavad dövründəki kamillik zirvəsi saz-söz dünyasında da izlər qoymuşdur. Əhməd Cavad özündən əvvəl yazıb-yaradan aşıqların, xüsusən də Aşıq Ələsgər məktəbinin mahir bilicisi idi. Şair XIX əsrdə yaşamış bir çox aşıqların yaradıcılığına bənzətmələr də etmişdir.

Yəhya bəy Dilqəmin eyni adlı qoşmasına oxşatma da etmişdir. Bu qoşmada aşıq şeir üslubu açıq görüntülərlə gözə çarpır.

Dəymə, dəymə, könlüm sana aşıqdır,
Aşıqın qəlbini sındırmaq olmaz!
Mənim sözüm bir ilahi eşqidir,
Kərəmi bu qədər yandırmaq olmaz!

Göydə şimşək kimi çaxdım, ölmədim,
Özümü yandırıb-yaxdım, ölmədim!
Yoluna, izinə baxdım ölmədim,
Məcnunu bir belə sındırmaq olmaz! [1, s.24]!

"Səhər-səhər" qoşmasını isə Aşıq Hüseyn Şəmkirliyə bənzətmə etmişdir.

Şairin lirik şeirlərinin bir qismi saf məhəbbətə, insanı ucaldan ülvi hisslərin tərənnümünə həsr edilmişdir.. Bu şeirlərində şair məhəbbət dastanlarının qəhrəmanlarından təsirlənərək həssas qəlbli, həyatın mənasını sevgilisinə qovuşmaqda görən aşıq surətləri yaratmışdır.

Sənətkarın yaradıcılığında Gəncə xüsusi yer tutur. Şair daim Gəncəni xatırlayır, gəncə diyarından olduğu üçün fəxr edir.

"Gəncədən gəlirəm" adlı qoşması Əhməd Cavada məxsus olsa da mayasında xalq təfəkkürü dayanır. Şair xalq deyimlərini dəyişdirərək istifadə etmiş, bu ülvilik, şirinlik şeirin dilinə o dərəcədə hopmuşdur ki, bir çoxları şeirin şifahi xalq yaradıcılığına məxsus olduğu düşünür.

Gəncədən gəlirəm, yüküm xurmadı,
Gəncənin yolları burma, burmadı.
Gəncədə bir qız var, teli durnadı,
Günəşə sən çıxma, mən çıxım deyir! [1, s.41]

Yaz fəsli həm aşıq yaradıcılığında, həm də yazılı ədəbiyyatda ən çox müraciət etdiyi mövzudur. Yaz gəlişi ilə torpağı canlandırır, təbiətə bolluq, bərəkət, sevinc, fərəh bir sözlə gözəllik gətirir. Yazda insanların üzlərinə bir sevinc, fərəh gəlir, ruhu təzələnir, canlanır. Yazın gəlişinin müjdəçisi çillələr və Novruz bayramı ilə bağlı yüzlərlə şeir yazılıb.

Saz, söz, təbiət vurğunu Əhməd Cavad Novruz çərşənbələri ilə bağlı silsilə şeirlər yazmışdır. Bu şeirlərdə xalqın Novruzla bağlı adət və ənənələri, inancları, şənliklər, Kosa, keçəl kimi surətlər yer alır.

"Yaza xitab" adlı şeirdə bunu aydın şəkildə görürük:

Novruz çıxıb taxtına,
Güllər düşüb baxtına.
Kosa gəlir qabağa,
Nəzər salır tabağa.
Çörəyi yoxdur Kosanın,
Xörəyi yoxdur Kosanın,
A Kosa, Kosa gəlsənə,
Torbanı doldursana!
Kosa döyür gözünü,
İtiribdir özünü.
Ocaq üstə saç qalıb,
Bütün qışı ac qalıb;
Torbasını uzadır,
Hamı bilir qaydadır.
Kosaya pay verirlər,
Kosaya hay verirlər... [1, s.195]!

Nəticə

Əhməd Cavad folklora peşəkarcasına yanaşmış, yaradıcılığının bütün mərhələlərində folklordan mötəbər mənbə kimi istifadə etmişdir. Qoşma janrının ən gözəl nümunələrini yaratmış, müxtəlif əsərlərinə də qoşmalar daxil etmişdir. Onun şeirləri dildən-dilə dolaşmış, el məclislərində aşıqlar tərəfindən ifa olunmuşdur.

Əhməd Cavad xalqın, vətənin həyatı ilə birgə nəfəs alan ilk realist lirik şairimizdir.

İstifadə edilmiş ədəbiyyat

1. Əhməd Cavad, Seçilmiş əsərləri, Bakı- Nurlan, 2005
2. Əliyeva A, Əhmədova S. Şanlı vətənin qəhrəman övladı Əhməd Cavad. Bakı, 2017
3. Qasımlı M. Folklor və ədəbiyyat araşdırmaları. Bakı: Elm və təhsil, 2017
4. İ.Sadıq. Donmuş dodaqların dodaqdəyməzi // Ədəbiyyat qəzeti, 2017, 28 yanvar, s.30

UOT 902(4/9)

ŞUŞA MİLLİ GEYİM ÜSLUBU

Aygün Raqif qızı Qədirova
Mingəçevir Dövlət Universiteti
aygun.qadirova@mdu.edu.az

Milli geyimlərimiz uzun inkişaf yolu keçərək, xalqımızın maddi və mənəvi mədəniyyətinin nəticəsidir. Geyimlər hər bir xalqın mədəniyyəti ilə bağlı olaraq xalqın maddi mədəniyyət tarixinin öyrənilməsi üçün qiymətli mənbələr hesab olunur. Maddi mədəniyyət sahələrini araşdıran zaman deyə bilərik ki, geyimlər hər bir xalqın milli xüsusiyyətini özündə əks etdirir və gələcək nəsillərə ötürür. Geyim tarixi tamamilə xalqın siyasi, iqtisadi və mədəni tarixi ilə əlaqədardır. Etnoqrafik xüsusiyyətlərin əksini tapdığı geyimlərimiz həmçinin xalq yaradıcılığı tarixində də öz əksini tapır.

Təqdim etdiyimiz tezisdə XIX-XX əsin əvvəllərinə aid Şuşa milli geyim nümunələri ilə tanış etmək məqsədini qarşıya qoymuş prof. P.Ə.Əzizbəyovun redaksiyası altında nəşr olunan "Azərbaycan milli geyimləri" albomunda təqdim olunan Şuşa geyimləri haqqında məlumat verəcəyik.

Geyim mədəniyyətinin formalaşmasında təbii-coğrafi şəraitin, xüsusilə də iqlimin, xalqın etnik normalara əməl etməsinin və insanların zaman-zaman inkişaf edən estetik zövqlərinin təmin edilməsi zərurətinin də həlledici rolu olmuşdur [5, s.69].

Azərbaycan geyimlərini tipoloji növlərini ardıcıllıqla izləyən və təhlil edən tədqiqatçılar R.S. Əfəndiyev, Q.T.Qaraqaşlı, A.N.Mustafayev, H.A.Həvilov, F.İ.Vəliyev, İ.T.Şahbazov, S.S.Dünyamalıyev, G.A.Novruzov və b. qeyd edə bilərik.

"Azərbaycan milli geyimləri" albomu Azərbaycan SSR Elmlər Akademiyasının Azərbaycan Tarixi Muzeyinin etnoqrafiya fondunda saxlanılan xalq geyimlərinin zəngin kolleksiyası əsasında yaradılmışdı (şək. 1) [1, s.5]. Albomu tərtib edənlər M.İ.Atakişiyev, M.Ə.Cəbrayılova və V.M.İslamova olmuşdur.

Albomda Azərbaycanın bir çox tarixi-etnoqrafik bölgələrinə aid olan kişi və qadın geyimləri haqqında məlumat verilmişdir. Qeyd edək ki, albomda qadın geyimləri daha çoxluq təşkil edir ki, müəllif bunu muzeydə qadın geyimlərinin çox olması ilə izah edir. Albomda Şuşa geyimləri Qarabağ tarixi-etnoqrafik bölgənin daxilində göstərilmişdir. Alboma dörd qadın geyimi, iki kişi geyimi tam şəkildə və bir neçə geyim elementləri təsvir edilmişdir.

Şək. 1. "Azərbaycan milli geyimləri" albomundan

İlk növbədə qeyd etməliyik ki, təsvir edilən qadın geyimləri cavan gəlinlərə məxsus geyimlərdir. Geyimlərimizi araşdıran tədqiqatçılarda qeyd edirlər ki, yaşlı qadınlar bəzək əşyalarından çox az istifadə edirlər, həmçinin yaşlı qadınlar daha çox tünd rənglərə üstünlük verirdilər. Albomda təsvir olunan geyimlərdən açıq-aydın görünür ki, hər bölgənin özünəməxsus lokal xüsusiyyətləri var.

Şuşa geyimləri içərisində çəpkən, arxalıq, tuman, baharı, üst köynəyi, kurdu, rubənd, ayaq geyimlərindən corab və başmaq təsvir olunmuşdur. Qadın libasları əsasən ipək parça və məxmərdən, kişi geyimləri isə daha çox mahud və evdə toxunan şal parçadan hazırlanırdı. Azərbaycan mədəniyyətinin paytaxtı olan Şuşa XIX əsrdə ipək parça istehsalının mərkəzlərindən hesab olunurdu.

Şuşa geyimləri içərisində həm qadınlar, həm də kişilər tərəfindən ən geniş yayılmış üst geyim növü arxalıq olmuşdur. Azərbaycanda arxalığın bir çox formaları bəhləli arxalıq, nülufər qollu və əlcəkli arxalıq olmuşdur. Azərbaycan Tarix muzeyində qorunan milli geyimlərimiz içərisində Şuşa bölgəsinə məxsus arxalıqlar müxtəlif olmuşdur. Astarlı üst geyimi olan arxalıq belə qədər kip biçilirdi. Arxalıqların qol biçimlərində lelüfər qollu, düz qollu, dirsəyə qədər düz olub, dirsəkdən aşağı əlcəklə qurtaran qol və qırcınlı qollu formaları olmuşdur. Arxalıq daha çox qiymətli parçalardan hazırlanırdı. Kasıb ailələrdə isə ucuz parçalardan da tikilirdi. Bu gün Azərbaycan Tarix muzeyində qorunan arxalıqlara nəzər yetirsək, onlar məxmər, tirmə və zərli parçalardan tikilmiş, qolları və ətəyi müxtəlif sarıma və baftalarla bəzədilmişdi. Albomda Şuşaya məxsus qadın arxalığının qolu digərlərindən fərqlənir.

Azərbaycanın Qərb bölgəsində qeydə alınan "əlcəkli arxalıq" isə Şuşa qadınlarının tərəfindən istifadə edilmirdi. Fəzail Vəliyev "XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti" kitabında qeyd edir ki, arxalığın yaxasına midaxıl, həbbabi qızıl, gümüş sərmə və qızıl qozalardan ibarət yaxalıq tutmaq dəb idi. Albomda yaxası müxtəlif formalı olan arxalıqlar təsvir edilmişdir.

Arxalığı sıx sırıq,
Büzməsi beldən buruq
Kim sevdi, kim apardı,
Kim qaldı boynu buruq . [2, s.3]

Arxalığın üstündən, bir qayda olaraq, mötəbər şəxslər, ruhani, tacir və baqqalar qurşaq dolayır, kasıblar qayış-kəmər, varlılar isə qızıl kəmər, gümüş tənbənd bağlayırdılar [3, s.65]. Albomda təsvir olunan qadın arxalıqlarının hamısında kəmərdən isyifadə edilmişdir. Kişi arxalığında da kəmərdən istifadə edilmişdir ki, kişi geyimlərində kəmər əməli əhəmiyyət daşıyır. Çünki kəmərdən xəncər asılır, içərisinə tütün, bıçaq, çaxmaq qoyulmuş kiçik torbalar bənd edilirdi.

Abomda rəngarəng arxalıqlarla yanaşı Şuşa qadınına aid olan üst geyimlərindən tuman təsvir edilmişdir. Tumanlar adətən büzməli və ya qırçınlı olurdu və müxtəlif parçalardan tikilirdi. Varlı qadınlar tumanların ətəyinə müxtəlif bəzəklər (köbə, baftalar və zincirə) vururdular. Naxçıvan və Ordubad zonasında başqa Azərbaycanın hər bölgəsində qadınların tumanı uzun, topuğa qədər olurdu.

Çəpkən astarlı qadın üst geyimi olub Şuşa qadınları tərəfindəndə geniş istifadə olunurdu. Müxtəlif parçalardan hazırlanan çəpkənlərdə rəng seçimi ciddi nəzərə alınırdı. Cavanlarda açıq rənglərə, yaşlılarda isə tünd rənglərə üstünlük verilirdi. Çəpkənin yaxasının hər iki tərəfinə bəzən cərgə ilə qızıl və gümüş pullar tikilirdi. Belə çəpkənlər Qarabağda "pullu çəpkən" adlanırdı [4, s.105]. Albomda sadə çəpkən və ayrıca çəpkənin qolu təsvir edilmişdi.

Əsasən məxmərdən tikilmiş üst geyim növü olan baharı Şuşa qadınları arasında geniş yayılmışdır. Bel hissəyə qədər bədənə kip oturan baharının yaxası açıq olurdu. Albomda dörd (üçü tam biri fraqment) şəkildə baharı təsvir olunmuşdur. Şəkillərə nəzər salsaq görərik ki, ikisinə müxtəlif baftalar vurulmuşdu. Biri isə köbə ilə bəzək tikilmişdi.

Kürdü(eşmək) – Mövsümi səciyyəli qadın geyimlərindən hesab olunan kürdü astarlı tikilirdi. Azərbaycanda məxmərdən, bafta, tirmə və xəzi içərisində olmaqla yaxşı aşılanmış dəridən

hazırlanmış kürdülər qadınların istifadəsində olmuşdur. Qolsuz olan kürdünün qollarının kəsiyinə, yaxasına və ətəklərinə xəz qoyulurdu. Muzeydə qorunan Şuşa kürdülər də məhz belə hazırlanmışdır. Qarabağ kürdüsünü təsvir edən Fəzail Vəliyev belə deyirdi: "Qarabağ kürdüsü bədənə kip yapışır, qolsuz tikilir, xəz və baftadan başqa heç bir bəzəyi olmurdu."

Albomda qadin baş geyimlərindən rubənd təsvir olunmuşdur. Rubənd qadınların üz örtüyü olmuşdur. XX əsrin 30-50-ci illərindən rubənd, tül, tor qadın baş geyim dəstlərindən çıxarılmışdır.

Qadın ayaq geyimlərindən albomda iki başmaq və bir yun corab təsvir edilmişdir. XIX əsrdə Azərbaycan qadınına xarakterik olan başmaqlar sifarişdən asılı olaraq müxtəlif bəzəklərdən istifadə edilərək yüksək zövq ilə bəzədilirdi. Şuşa şəhəri Azərbaycanda başmaq hazırlanması sahəsində məhşur idi və Şuşa başmaqları adı ilə tanınırdı.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Milli Geyimləri. Redaktoru P.Ə.Əzizbəyov. -İskusstvo nəşriyyatı. –M., -1972
2. Bayatılar, Redaktoru A.Vəfalı. -Bakı: -Yazıçı, -1985, -198 s.
3. Vəliyev, F.İ. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (geyimlər, bəzəklər) / F.Vəliyev. – Bakı: Elm, – 2006. – 172 s.
4. Vəliyev,F.İ. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat) / F.İ.Vəliyev. – Bakı: Şərq– Qərb, – 2010. – 424 s.
5. Qədirova,A.R. Geo Strategiya jurnalı. XIX-XX əsrin əvvəllərindən Şimali Azərbaycan Mingəçevir və ətraf bölgərin ənənəvi kişi geyiləri. 01(37)Yanvar-Fevral, s. 76

UOT 930:002.6

RƏQƏMSAL ƏSRDƏ TARİXİN TƏDRİSİ İMKANLARI

Vüsalə Əlican qızı Mövlayeva
Mingəçevir Dövlət Universiteti
vusala.movlayeva@mdu.edu.az

Müasir cəmiyyət yeni tarixi mərhələyə informasiya əsrinə keçməklə bir çox sahələrdə olduğu kimi təhsil sahəsində də tələbləri dəyişdirib. Bu gün kompyuterləşdirilmənin yüksək tempi ilə əlaqədar olaraq tarix və ictimai elmlərin tədrisi prosesində informasiya texnologiyalarından istifadə aktuallıq kəsb edir. Kompyuter texnologiyaları müasir təhsil mədəniyyətinin reallığıdır və onun tətbiqi müasir ümumtəhsil məktəblərinin zəruri komponentlərindən biridir.

XXI əsr müxtəlif fənlərin tədrisində kompyuter texnologiyalarının geniş istifadəsini labüd edir. Bu gün keyfiyyətli təhsil vətəndaşların ən mühüm sosial dəyərlərindən biri kimi qiymətləndirilir. Yeni həyat şəraitinə uğurla uyğunlaşmağa imkan verəcək informasiya mədəniyyətinə malik hərtərəfli inkişaf etmiş şəxsiyyət formalaşadırmaq müasir təhsilin qarşısında duran vəzifələrdən biri hesab olunur. Qeyd olunanların reallaşdırılması müasir təhsil texnologiyalarının, xüsusilə də informasiya-kommunikasiya texnologiyalarının tədris prosesinə fəal şəkildə tətbiqi və istifadəsi ilə mümkündür.

Müasir dövrdə tədris prosesində kitablardan əlavə istifadə olunan bir sıra yeni texnologiyalar var: sosial şəbəkələr, onlayn tədris, sinif bloqları, interaktiv lövhələr, mobil cihazlar, podkastinq və s. qeyd etmək olar. Bu vasitələr şagird və tələbələrə idraki inkişaf, tədqiqata həvəs, öyrənməyə marağın artırılması kimi imkanlar verir.

Təhsil sisteminin informasiyalaşdırılması problemi təkcə kompüter texnologiyalarının tədris prosesinə tətbiqi bütün texniki şəraitin yaradılması deyil, həm də müəllimlərin səriştəlilik səviyyələrini artırmağa hazır olduqlarını təmin etməkdən ibarətdir [2]. Bu gün hər bir müəllimin

kompyuter və kommunikasiya texnologiyalarını mənimsəməklə öz bacarıqlarını təkmilləşdirməsi vacibdir, əksər şagirdlərin bu sahədə məlumatlı olması bunu xüsusilə zəruri edir. İKT vasitələri müəllim və şagirdlərə təlim zamanı öyrənmə prosesinin daha maraqlı, öyrənmə motivasiyasını müsbət istiqamətdə inkişafına daha geniş imkanlar açır. Alimlərin fikrincə, insan eşitdiklərinin 20%-ni və gördüklərinin 30 %-ni, eyni zamanda gördüklərinin və eşitdiklərinin 50 %-dən çoxunu xatırlayır. Beləliklə, canlı təsvirlərin köməyi ilə məlumatın qavranılması və yadda saxlanması prosesinin asanlaşdırılması istənilən müasir təqdimatın əsasını təşkil edir. Böyük pedaqoq K.D.Uşinskinin yazdığı kimi: "Söz almaq çətin olan bir sinifə girirsinizsə şəkilləri göstərməyə başlayın sinif danışacaq ən əsası isə sərbəst danışacaq.

Tarix və ictimai elmlərin tədrisinin müasir prosesi kompyuter texnologiyalarının getdikcə daha geniş tətbiqi ilə səciyyələnir. İnformasiya texnologiyaları dərslərdə mətn, səs, şərti-qrafik və video məlumatlardan yeni üsulla həmçinin müxtəlif mənbələrdən istifadə etməyə imkan verir ki, bu da şagirdlər tərəfindən materialın qavranılmasının mühüm şərtidir. İKT müəllim tərəfindən bütün dərs növlərində və onun bütün mərhəhlələrində istifadə oluna bilər. Təlim zamanı İKT imkanlarından istifadə müsbət nəticələrə səbəb olur; mövzunun motivasiyasına diqqətin artması, əyaniliyin təmini, fənlərarası inteqrasiyadan istifadə imkanı, müəllimin tələbələrin layihə fəaliyyətinin təşkilinə köməkliyi və s. Dərsin izahı və möhkəmləndirilməsi mərhələsində təqdimatın istifadə olunması təlim zamanı çox faydalıdır. Bu gün daha çox müəllimin tədris prosesini video dərs kimi təşkil etmə formasına müraciət etməsi təəccüb doğurmur.

Multimedia mənimsəmə prosesini asanlaşdırır, dərsi daha maraqlı və dinamik edir, şagirdi istənilən tarixi dövrün atmosferinə aparmağa imkan verir, birgə mövcudluq, empatiya illüziyası yaradır, keçmiş haqqında həcmli və canlı təsəvvürlərin formalaşmasına töhfə verir. Təlim prosesində multimedia texnologiyalarından istifadə qanunauyğunluqlarını didaktikanın yeni sahəsi – multimedia tədrisinin didaktikası öyrənir.

Müasir təhsilin əsas vəzifəsi təkcə şagirdlərin müəyyən həcmdə biliklərə yiyələnməsi deyil, həm də onlarda biliklərin özləri tərəfindən mənimsənilməsi üçün bacarıq və vərdişlərin formalaşdırılmasıdır. Təcrübə göstərir ki, kompyuterlə fəal işləyən şagirdlərdə özünütəhsil bacarıqları daha yüksək səviyyədə inkişaf edir, kütləvi informasiya axınından düzgün yararlanma, əsas məzmunu vurğulamaq, ümumiləşdirmək, nəticə çıxarmaq bacarığı formalaşır. Sürətli informasiya axını, kompyuter texnologiyalarının tətbiqi, oyun konsollarının, elektron oyuncaqların geniş istifədəsi uşağın tərbiyəsinə və ətraf aləmin qavranılmasına təsir göstərir. Məhz bu amillərə uyğun təlimin təşkili günümüzün aktuallığıdır. Tədris prosesində kompyuterdən istifadə müəllimin işini optimallaşdırmağa imkan verir. Elektron daşıyıcılarda böyük həcmdə tədris materiallarının və hazır dərslərin saxlanılması müəllimlər üçün təlim prosesinə hazırlaşmaqda vaxt qənaitinə şərait yaratmış olur. Kompüter hazır elektron resursların, multimedia dərslik, ensiklopediyalar, məlumat kitabçaları, test tapşırıqları, simulyatorların, elektron kitabxanaların, arxiv və muzey resurslarının, tematik sayt və portalların istifadəsinə imkan verir. Həmçinin müəllimlər kompyuter vasitəsilə öz tədris resurslarını və təqdimatlarını hazırlaya bilirlər.

Multimedia texnologiyaları tarixi bilikləri inteqral şəkildə təqdim etməyə imkan verir. Multimedia əsasında tarixi biliklərin qavranılması, təfsiri və inkişafı təkcə idrak yolu ilə deyil, həm də təfəkkür yolu ilə həyata keçirilir. Kompüter vasitəsilə virtual tarixi rekonstruksiyanın illüstrativ nümunələrindən istifadə şagirdlərdə tarixi biliklərin mənimsədilməsi prosesinin asanlaşmasına kömək edir. Dərsin mövzusuna uyğun olaraq hazırlanan təqdimatda didaktik prinsiplər öz əksini tapmalıdır. Dərslərin hazırlanmasında və keçirilməsində müəllimə Microsoft Office paketi böyük köməklik göstərir ki, bu paketə məşhur Word mətn prosessorundan əlavə, Microsoft Power Point elektron təqdimatları da daxildir.

Tarix dərslərində İKT-dən istifadə müxtəlif illüstrativ və informasiya materiallarından istifadə etməyə imkan verir. Şagirdlərin internetdən istifadə edərək material tapır, təqdimatlar hazırlayırlar. Beləliklə, İKT şagirdlərin müstəqilliyini, dərs üçün material tapmaq, seçmək və təşkil etmək

bacarığını inkişaf etdirir. Kompyuter sinfində dərslər şagirdlərin kompyuterlə işləmək, təhsil problemlərini müstəqil həll etmək bacarığını inkişaf etdirir. Multimedia layihəsinin köməyi ilə Microsoft Power Point proqramında yaradılmış slaydlar nümayiş etdirilir. Fərqli tarixi dövrlərə aid təqdimatda diaqramların, cədvəllərin qurulması vaxta qənaət etməyə, materialı daha estetik yaratmağa imkan verir. Elektron dərsliklərin hamıya əlçatan olması təhsilalanların dərslik resursları və əlavə vəsaitlərlə təminatını asanlaşdırır.

Respublikamızda təhsilin modernləşdirilməsi istiqamətində bir sıra işlər icra olunub. 2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı qəbul edilmişdir [1, s.1]. Proqramda təhsil texnologiyalarının geniş miqyaslı tətbiqi, təhsil müəssisələrinin kompyuter avadanlıqları təminatını əsaslı şəkildə yaxşılaşdırılması, ölkə təhsil sisteminin dünya təhsil məkananına inteqrasiya olunması nəzərdə tutulmuşdur. 2010-2013-cü illərdə "bir şagird, bir kompyuter" elektron tədris modeli Azərbaycan Respublikasının əksər regionlarında genişləndirilmiş milli təhsil kontingentinin inkişafını təmin etmişdir.

Tarix fənni humanitar elm olduğundan tədqiq olunan hadisələrə subyektiv və tənqidi münasibətlərin formalaşması tələbi qoyur. Məhz bu səbəbdən tarixin tədrisində texnologiyadan istifadəyə tamamilə keçmək mümkün deyil. Lakin zamanın tələblərini nəzərə alaraq məzmunu, mövzusu imkan verən dərs nümunələrini İKT resurslarında təqdim etmək müasir təhsilin tələblərindəndir.

İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"nın (2008-2012-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan. – 2008, 10 iyun. – 1 s.

2. Quliyev N., Nəzərov M. Cəmiyyətin inkişafında təhsilin informasiyalaşdırılmasının rolu: [Elektron resurs] / – 13 sentyabr, 2021.

URL: https://www.geostrategiya.az/news.php?id=179

UOT 070

ABŞ-DA VƏ AVROPADA "HAYQIRAN İYİRMİLƏR" DÖVRİ MƏTBUATI VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

Aynur Müsbət qızı Əzizova
Mingəçevir Dövlət Universiteti
"Naxçıvan" Universitetinin dissertantı
aynur.azizova@mdu.edu.az

Bütün obyektiv və subyektiv çətinliklərə baxmayaraq XX əsrin 20-ci illəri ABŞ, Böyük Britaniya, Fransa və Almaniya kimi qabaqcıl dövlətlərin müasir tarixində, onların sosial-iqtisadi və ictimai-mədəni həyatında "*Coşqun və yaxud hayqıran iyirmilər*" (ing. *Roaring Twenties*) kimi qalmışdır. Bu ad o dövrün sosial və mədəni həyatında, xüsusilə də incəsənətdə baş verən dinamik inkişaf tendensiyaları ilə bağlı idi. Sözügedən dövr I Dünya müharibəsinin başa çatmasından, ABŞ və Avropada dinc həyatın bərqərar olmasından sonra başlanmışdı . O zaman geyim üslubu və dəb radikal şəkildə dəyişmiş, *cazın* (ing. *Jazz* - Afrika ritmləri və Avropa harmoniyası üzərində qurulmuş və afroamerika folklorunun elementlərini cəlb edən musiqi sənəti) və *ar-dekonun* (fra. *art-deco* – dekorativ incəsənət. Adını 1925-ci ildə Parisdə keçirilən müasir dekorativ və sənaye incəsənətinin Beynəlxalq sərgisinin, - fra. *Exposition internationale des arts décoratifs et industriels modernes,*- adından götürmüşdür) inkişafı baş vermiş, radio informasiya mənbəyi kimi

özünü təsdiq etmiş, kinematqarf səsli filimlər yaratmağa başlamış və əyləncədən kütləvi istirahət növünə, incəsənətin yeni və müstəqil formasına çevrilmişdi. Məhz bu dövrdə bir sıra vacib elmi kəşflər və ixtiralar edilmiş, lakin texliklə Qərb iqtisadiyyatında çöküş baş vermiş və *Böyük depressiya* (ing. *Great Depression* – 1924-cü il oktyabrın 24-də ABŞ-da baş vermiş birja iflasından sonra başlanmış və 1939-cu ilədək davam etmişdi) dövrü başlanmışdı. XX əsrin 20-ci illərində pozitiv baxımdan sosial və mədəni dəyişikliklər ABŞ-ın və Avropanın ən iri şəhərlərində (Çikaqo, Yeni Orlean, Fladelfiya, Nyu-York, Paris, London və s.) başlandı. XX əsrin 20-ci illərinin ortalarında aparıcı dövlətlərin timsalında dünya iqtisadiyyatı kifayət qədər möhkəmləndi, hətta 20-ci illərin ikinci yarısında Almaniyanın sosial- iqtisadi durumu elə səviyyəyə çatdı ki, bu dövr həm də "Qızıl iyirmilər" adı aldı. Fransada və Kanadanın faransızdilli hissəsində (Kvebek) bu dövrü "Dəli iyirmilər" (fra. *Annees folles*) adlandırırdılar. O dövrün mətbuatı isə "*Hayqıran iyirminci illəri*" radikal modernləşdirmə və "Viktoriya dövrünün" (1837-1901-ci illərdə Britaniya kralicası Aleksandrina Viktoriyanın ölkəyə rəhbərlik etdiyi və spesifik xüsusiyyətləri ilə seçilən tarixi dövr) spesifik ənənəvi dəyərlərindən ayrılmaq kimi qiymətləndirirdi. Bu dövrdə yeni texnologiyaların sayəsində əvvəllər çox çətin və mürəkkəb syaılan şeyləri asanlıqla icra etmək mümkün olmuşdu [2, s. 1-10].

Bununla əlaqədar həyat insanlara "*frivol rəqs*" (lat. *frivolus* – düşkün, qeyri-ciddi) kimi gəlirdi. ABŞ yazıçısı, ədəbiyyatda "İtirilmiş nəsil" adlanan yazıçılar nəslinin nümayəndəsi *Frensis Skott Fitsceral* (1896-1940) bu dövrü "caz əsri" adlandırmışdı. ABŞ-da "Hayqıran iyirmilər" dövründə ölkəyə *Uorren Qardinq* (1865-1923, - 1921-1923-cü illərdə ABŞ-ın 29-cu prezidenti olmuşdu) və *Con Kelvin Kulic Junior* (1872-1933, - 1923-1929-cu illərdə ABŞ-ın 30-cu prezidenti) rəhbərlik etmişdi. U. Qardinqin vergiləri aşağı salmaq haqqında tədbirləri Kelvin Kulicin dövründə *iqtisadi buma* (hər hansı bir predmet ətrafında fövqəladə canlanma) səbəb oldu. Bu zaman Avropa və ABŞ mətbuatının və Qərb jurnalistikasının ən populyar mövzuları avtomobilllər, kinofilmlər, radio və kimya sənayesi məhsulları və onların kütləvi tələbat predmetinə çevrilməsi idi.

Əgər XX yüzilin 20-ci illərinə qədər Qərb mətbuatı avtomobili zənginlik rəmzi kimi təqdim edirdisə, əsrin 20-ci illərində o, artıq çağdaş tərəqqi meyarı və müasir hərəkət vasitəsi kimi nəzərdən keçirilirdi. Bu dövrdə qəzet və jurnalları bəzəyən çeşidli yazıların və təsvirlərin əsas məzmunu istehsal olunan məhsulun orta təbəqənin tələbatını necə ödədiyini tərənnüm edirdi. Onları oxuyaraq dövrün iqtisadi vəziyyəti, siyasi münasibətləri, sosial-mədəni yenilikləri, qlobal inkişaf tendensiyaları və s. haqda çox sayda statistik materiallar əldə etmək mümükündür. Məsələn, yeni məhsulların istehsalı ilə əlaqədar o dövrün mətbuatında və jurnalist araşdırmalarında aşağıdakı statistik materillara rast gəlmək olar: 1927-ci ildə 15 mln "Ford T" adlanan ABŞ avtomobilinin istehsalı, 1925-ci ildə elektrofonun (elektroakustik aparat) ixtira edilməsi, səsyazmanın elektrik üsulunun kəşf edilməsi, qramplastinkaların (səsli məlumatın analoji daşıyıcısı olan plastik disk, diskin hər üzündə "səs yolları" adlanan spiralşəkilli dairəvi cığırlar olurdu) kütləvi istehsalı və s. O dövrdə kinoindustriyanın fövqəladə populyarlaşması ABŞ-da Hollivud (ing. *Holliwood*, - *holly* - aqulfolio ağacı - şişyarpaqlılar nəslindən olan ağac, *wood* - meşə, - Kaliforniya ştatında, Los-Ancelesin mərkəzindən şimal-qərbdə yerləşən rayon) adlanan kinoindustriya mərkəzinin yaranmasına təkan verdi. 1927-ci ildə *Çarlz Lindberq* (1902-1974, - Amerika təyyarəçisi, 1927-ci il 20-21 may tarixində, ilk dəfə olaraq, təyyarə ilə transatlntik uçuş həyata keçirdi. Bu isə kommersiya aviasiyasının inkişafını daha da sürətləndirdi.

O dövrün mətbuatında öz əksini tapmış ən populyar temalardan biri də televiziyanın yaranması ilə bağlı idi. Mətbuatda gedən yazıların bir qismi də tibb sahəsində baş verən yeniliklərə həsr olunurdu. Bu dövrdə Aleksandr Fleminqin (1881-1955 – Britaniya mikrobioloqu) ilk antibiotik olan "penisillini" kəşf etməsi isə mətbuatda böyük sensasiyaya səbəb olmuşdu və bu da təsadüfi deyildi. Çünki o dövrdə bütün Avropada və dünyanın digər bölgələrində milyonlarla insanın tələf olmasına səbəb olan "İspan qripi" (isp. *Qripe española*) adlanan pandemiya yayılmışmışdı. Serotip H1N1 virusu ilə yayılan xəstəliyə ilk dəfə 1918-ci il mart ayının 4-də ABŞ ordusunun aşbazı A.

Gitçel yoluxmuşdu. Avropa mətbuatında qeyd olunurdu ki, virusu ABŞ-dan Avropaya I Dünya müharibəsi zamanı Avropa cəbhələrində gedən hərbi əməliyyatlara cəlb edilmiş Amerika hərbiçiləri gətirə bilərdi [3, s. 538-546]. O dövrün qəzet və jurnalları pandemiya haqqında yazdıqları məlumatlarda dəhşətli rəqəmlər qeyd edidilər: məsələn, 1920-ci ilin sonuna qədər davam edən pandemiya zamanı 550 mln nəfər (Yer kürəsində yaşayan əhalinin 30%-i) bu xəstəliyə yoluxmuş, 100 milyona yaxın (Yer kürəsində yaşayan əhalinin 5,3%-i) insan xəstəliyin ağır simptomları zamanı tələf olmuşdu.

"Hayqıran iyirmilər" dövründə dünyanın aparıcı ölkələrinin (ABŞ və Qərbi Avropa) ən tanınmış mətbuat orqanlarının (qəzet və jurnallar) diqqət yetirdiyi məsələlər sırasında infrastrukturun yenilənməsi istiqamətində görülən işlər xüsusi populyarılığı ilə seçilirdi. Avtomobillərin kütləvi istehsalı ilə əlaqədar yeni, daha rahat və əlverişli şosse yolları salınması günün tələbinə çevrilmişdi. Bununla əlaqədar telefon xətlərinin çəkilməsi və elektrofikasiya işlərinin sürətlənməsi də mətbuatda müzakirə olunan məsələlər sırasında idi. Bu dövrdə çoxlusayda yeni elektrik stansiyaları inşa edilir.

Urbanizasiya prosesinin genişlənməsi isə iri şəhərlərdə kanalizasiya sistemlərinin yenilənməsi işini sürətləndirirdi. Bu dövrdə "ar-deko" üslubunda çoxmərtəbəli binaların tikilməsi (məsələn, *Kreysler – Bildinq* - *Chrysler Building* – Chrysler korporasiyasına məxsus möhtəşəm göydələn. 1930-cu ildə inşa olunmuşdur. Hündürlüyü 320 m və ya 1046 fut olan bu bina Nyu-York şəhərinin simvollarından biridir. Manhettenin şərq hissəsində yerləşir) də jurnalistikanın diqqət ayrıdığı sahələrdən biri idi. XX yüzilliyin 20-ci illərində rəssamlıq sənətində də maraqlı yeniliklərin baş verməsi, ar-deko üslubu ilə yanaşı *ekspressionizm* (lat. *expressio* – ifadə, - modernizm dövründə Avropada, xüsusilə də Almaniyada və Avstriyada geniş yayılmış incənənət cərəyanı. Bu cərəyanın nümayəndələri öz yaradıcılıqlarında əsas diqqəti reallığı tərənnüm etməyə deyil, öz emosional halətlərini ifadə etməyə üstünlük verirdilər.

Ekspressionizm XX yüzilliyin 20-ci illərində rəssamlıqda, ədəbiyyatda, teatrda, arxitekturada, musiqidə və rəqsdə özünü büruzə verirdi), *sürrealizm* (fra. *surrealisme* – realizmdən yüksəkdə, - XX əsrin 20-ci illərində qərb avanqardizminə məxsus bədii əsərlərdə öz əksini tapmış istiqamət. Banisi *Andre Breton* - 1896-1966, hesab olunur. Zarafat və kinayə məzmunlu allüziyalardan və formaların təzadlı qarışığından istifadə olunması ilə seçilirdi. Salvador Dali - 1904-1989, Maks Ernest -1891-1976, - və s. kimi görkəmli nümayəndələri vardır) və s. kimi üslublar da yaranmışdı. 1922-ci ildə ilk rəngli filmin çəkilməsi Qərb mətbuatında əsl sensasiyaya səbəb oldu. 1926-cı ildə isə *Warner Bros.Entertainment, Lnc* kinokompaniyası ilk dəfə olaraq səsli və musqili film ("Caz müğənnisi") istehsal etdi.

Bu dövrdə multiplikasiya da çox populyar idi. Məşhur "*Uolt Disney*" studiyası da məhz bu dövrdə yaranmışdı. Tezliklə bütün ABŞ-da dünya şöhrətli kino ulduzları (*Çarlz Çaplin* - 1889-1977, *Baster Kiton* - 1895-1966, *Rudolfo Valentino* - 1895-1926, *Klara Bou* - 1905-1965, *Luiza Bruks* – 1906-1985, və b.) yetişməyə başladı və onların yaradıcılığı tərcümeyi-halı və şəxsi həyatı həm Qərb, həm də dünya mətbuatının ən populyar mövzusuna çevrildi.

XX əsrin 20-ci illərində Qərb mətbuatında əvvəllər analoqu olmayan mövzuların fövqəladə şəkildə populyarlaşması cəmiyyətdə mətbuat işinə və jurmalistikaya qarşı tənqidi cəbhə yaratdı. 1920-ci ildə məşhur yazıçı və jurnalist-mükreyker (ing. *Muckrakers* - ifşa işləri üzrə ixtisaslaşmış reportyorlar) Epton Sipkler "*The Brass Check*" adlı adlı kitabında mətbutaın reklam xarakterli məlumatlar dərc etməsi ilə əlaqədar reklam sahiblərindən asılı vəziyyətə düşməsini kəskin tənqid etdi. Jurnalist "Rüsvayçılıq qəbzi" (1921) adlı digər bir əsərində isə məşhur "New York Times" qəzetini və onun əməkdaşlarını professional etikanı pozmalarında ittiham etdi. Bundan sonra mətbuat işinin tənzimlənməsi istiqamətində tədbirlərin görülməsinə başlandı. 1823-cü ildə ABŞ-ın ən məşhur qəzetlərinin rəhbər işçilərini birləşdirən "Amerika qəzet redaktorları cəmiyyəti" (ASNE) "Jurnalistikanın kanonları" adlanan ilk professional kodekslərdən birini qəbul etdi.

XX əsrin 20-ci illərində Avropa və Amerika mətbuatında ən populyar ifadələrdən biri "İrirılmiş nəsil" (ing. *Lost Generation,* - termin, ilk dəfə Amerika yazıçısı Gertruda Stayn - 1874-1946, - tərəfindən işlədilmişdi) hesab olunurdu. O dövrdə Birinci dünya müharibəsində iştirak etmək üçün səfərbərliyə alınmış və müharibədən sonra psixoloji baxımdan dinc həyata adaptasiya oluna bilməyən gəncləri "itirilmiş nəsil" adlandırırdılar. Belə gənclərin dünyaduyumunu *Ernst Heminquey* (1899-1961), *Skott Ficerald* (1896-1940), *Gertruda Stayn* (1874-1946) kimi yazıçılar öz əsərlərində təsvir etmiş və həmin əsərlərdən maraqlı fraqmentlər dövri mətbuatda dərc edilmişdi. "İtirilmiş nəsil"i təmsil edən yazıçıların çoxu müharibədən sonra Parisdə məskunlaşan (ekspatriantlar) amerikalılar idi. Onların bədii əsərlərində materializm və individualizm dövrünün bərqərar olması, romantik illüziyaların və yüksək idealların keçmişdə qalması haqda ideyalar əks olunurdu.

O dövrün qəzet və jurnalarından, səssiz və səsli filmlərindən XX əsrin 20-ci illərində hansı dəbin daha populyar olması haqda təsəvvürlər eldə etmək mümkündür. O dövrdə gənc qadınların (*flepperlərin* –Viktoriya dövrünün dəb üslubunndan köklü şəkildə fərqlənən stilin daşıyıcıları olan və hər hansı sosial asılılıqdan azad omuş və ya emansipasiya olunmuş gənc qızlar) üstünlük verdiyi spesifik üslub haqqında qəzet və jurnal materilları da çox populyar idi. Bu dövrdə Amerika və Qərbi Avropa mətbutaında sevilə-sevilə oxunan mövzular içərisində müxtəlif idman yarışları,"Quru qanun" (ing. *Prohibition* – qadağa, 1920-1933-cü illərdə bütün növ spirtli içkilərin istehsalına, daşınmasına və satışına qoyulan qadağalar, ABŞ Konstitusiyasına edilən 18-ci əlavə ilə müəyyən edilmiş və "Volsted qanunu" ilə təsdiqləbmişdi), mütəşəkkil cinayətkarlıq ("*Cosa Nostra*") haqqında reportajlar xüsusilə populyar idi [1, s. 128].

İstifadə edilmiş ədəbiyyat

1. Dwight Vick. Drugs and Alcohol in the 21st Century: Theory, Behavior, and Policy. - Jones & Bartlett Learning, 2010. - p. 128

2. Joseph A. Schumpeter, "The Decade of the Twenties, " *American Economic Review* vol. 36, No. 2, (May, 1946), pp. 1-10 in JSTOR Архивная копия от 27 марта 2017 на Wayback Machine

3. Peter C. Wever, Leo van Bergen. Death from 1918 pandemic influenza during the First World War: a perspective from personal and anecdotal evidence (англ.) // Influenza and Other Respiratory Viruses.- 2014. - Vol. 8, iss. 5.- pp. 538-546

UOT 330.35

ƏDƏBİYYATDA ZƏFƏR YOLU

Könül Nadir qızı Aydın
Əməkdar müəllim
Mingəçevir Dövlət Universiteti
konul.aydin@mdu.edu.az

27 sentyabr 2020-ci ildə Qarabağın azadlığı uğrunda Vətən müharibəsinin başlaması Azərbaycan xalqında milli hisləri daha da qabartdı. Vətən müharibəsinin ilk günündən etibarən xalqımız Ali Baş Komandanın, cənab İlham Əliyevin ətrafında birləşərək Vətən torpaqlarının işğaldan azad edilməsinə kökləndi. Hər bir vətəndaş qələbəyə gedən yolda əzm və iradə nümayiş etdirdi. Əli silah tutan silahla, qələm tutan qələmi ilə öz vətəndaşlıq missiyasını şərəflə yerinə yetirdi. Nəticədə 30 il həsrətlə gözlədiyimiz o möhtəşəm tarixə şahidlik etmək zamanının qürurunu yaşadıq.

Şuşanın azad edilməsi ilə şəhid ruhları təskinlik tapdı. Mənəvi iztirabını “Şuşa yolu” poemasında [1] təsirli şəkildə qələmə alan və bu dərdlə dünyadan köçən xalq şairimiz Cabir Novruzun ruhu şad oldu.

Qarabağ mövzusu Azərbaycan ədəbiyyatında həmişə geniş mənada Vətən mövzusunun simvollarından biri kimi qəbul edilmişdir. Ona görə də Azərbaycan ədəbiyyatının şifahi və yazılı qollarında Qarabağ uzun əsrlər boyu əsasən tərənnüm edilən, vəsf olunan Vətən torpağı kimi canlandırılmışdır.

Öz əqidəsinə həmişə sadiq olan Xəlil Rza yazırdı: "Məncə, müasir Azərbaycan poeziyasının ümdə vəzifəsi xalqın ruh yüksəkliyini qoruyub saxlamaq və daha da zənginləşdirməkdir.” O, poeziyanı vətənpərvərliyin bədii inikası kimi dərk edir , “İgidlər, dahilər” şeirindəki [2] misraları şairin bu fikirlərində haqlı olduğunu sübut edirdi:

Fikirlər içində çırpınır könlüm,
Gedən yer üzünə bir daha gəlmir.
Həyatdan hamını qoparır ölüm,
Yalnız dahilərə toxuna bilmir,
Yalnız igidlərə toxuna bilmir!

Poeziyamızı Vətən Müharibəsinin başladığı və ondan sonrakı dövrdə mövzu etibarilə bu şəkildə qruplaşdıra bilərik:

1. Savaşa səsləyən marşlar;
2. Zəfər;
3. Şəhidlərin tərənnümü ilə bağlı əsərlər;
4. Sona çatan torpaq həsrəti və ya böyük qayıdış.

Vətən, istiqla, zəfər dedikdə ilk yadımıza düşən söz sənətkarlarından biri də Elçin Mirzəbəylidir. Onun “Azadlıq marşı” indi də aktualdır və həmvətənlərinin dilindədir. Şair İkinci Qarabağ savaşı sırasında yazdığı “Azərbaycan əsgəri” şeiri [4] ilə qəhrəman əsgərlərimizi qalib olmağa çağırır :

Sən indi bayraq-bayraq ucaldığın yerdəsən,
Yetişib qisas günü – öc aldığın yerdəsən!
Ruhunun yurd yerindən güc aldığı yerdəsən...
“Yürü hey...” - Babaların məzarından səs gəlir!
Azərbaycan əsgəri!

Vətənə keşik çəkən gözünü öpsəm də, az!,
Səngərlərdə sıyrılan dizini öpsəm də, az!
Şuşada ayağının izini öpsəm də, az!
Sən keçdiyin yollara sarılacaq əllərim,
Azərbaycan əsgəri!

Müasir Azərbaycan ədəbiyyatının böyük istedada malik yazarlarından olan İlqar Fəhminin “Balaca kişilər” şeiri isə daha çox deklomativ ruhu ilə seçilir və nota məzmunludur. Məğlubiyyətin acısını ürəyində gəzdirən bir xalqın savaş meydanında heç bir şücaət göstərə bilməyəcəyi ilə bağlı illərin düşüncələrinin üzərindən qırmızı xətt çəkən İlqar Fəhmi bu “balaca kişilər”in səngərdə divə döndüyünü və vətənə həyan olduğunu qeyd edir.

İlqar Fəhmi müharibədə başlarının üstündən uçan mərmilərin təsiri ilə 18 yaşlı qəhrəmanların yaşının sanki 50-yə bərabər olduğunu vurğulayır:

Əsgər paltarını geyinəndə də
Bilmirdi güllədən köksü deşilər.
Qəfil böyüdülər, tez böyüdülər
Balaca kişilər, cavan kişilər...

Səngərin küncündə hücum gözləyən
Bu cılız balalar uşaq oldular.
Torpaqdan güc alıb hücuma qalxıb
Sərt qaya oldular, bir dağ oldular...

Qarabağ mövzulu şeirlərdə əsas yeri şəhidlərə məhəbbət hissi tutur. Gənc şairə Bahar Zamanova şəhid adının uçalığını təsirli boyalarla verir:

Dur ayağa vətən gəlir
Çök dizin üstə qarşıla!
Aç qoynunu qara torpaq
Aç gözün üstə qarşıla!

Vətən üçün döyüşəndə
Dayanan ürəkdir Vətən
Dur ayağa Şəhid gəlir
Qəzan mübarəkdir, Vətən!

Qazanılan Zəfər Azərbaycan xalqınının qürurunu yenidən özünə qaytardı. Azərbaycanın yazıçı və şairləri bu möhtəşəm qalibiyyətdən ruhlanaraq ən gözəl Zəfər əsərləri yazmağa başladı. Ədəbiyyat adamlarının əlindəki qələmlər artıq ah-nalədən, nisgildən, torpaq həsrətindən deyil, vətənin azadlığından, qələbə sevincindən yazdı. Bu da təbii idi. Böyük əzmkarlıqla qazanılan qalibiyyəti , xəyal etdiklərimizin artıq real olduğunu ədəbiyyatda əks etdirmək vəzifəsi qələmin işi idi. Xalq şairi Sabir Rüstəmxanlının "Qarabağa dönüş", Balayar Sadiqin "Zəfər simfoniyası", Əlirza Həsrətin "Barıt qoxulu çiçək" poemaları ədəbiyyatda böyük dönüşü müjdələdi.

Torpağa qayıdış hər arzunun gerçəkləşməsi deməkdir. İndi cəmiyyətin bütün sahələrində təzələnmə prosesi gedir və bizlər belə bir tarixi prosesin şahidləriyik. Bu baxımdan Sabir Rüstəmxanlı "Qarabağa dönüş" [3] poemasında Vətən müharibəsində qazandığımız Zəfəri, Şuşanın işğaldan azad edilməyini şövqlə və sevinc hissi ilə türkün bayramı, namərdlərin matəmi adlandırır. Şuşa qalasının alınması uğrunda real əlbəyaxa döyüş səhnəsi şəkildə ilk dəfə olaraq bu poemada təsvir edilir.

Pənah xanın qalası Şahbulağın üstündə
Düşmənin qanlı əli o suya dəyəndə, vur,
Tikiləcək kəndlərim, sonsuz cah-cəlalıyla,
Erməni dil uzadıb "Qarabağ" deyəndə, vur,
Dəmir quşlar uçuşsun qartallarla yanaşı,
İlanı yuvasında, bayquşu göyündə vur!
Boğazı əlindəykən rəhm edib buraxdığın
Barış deyib yalvaran sözünü əyəndə, vur!

Azərbaycan xalqının milli qürurunu təzədən özünə qaytaran, bizləri silkələyib yuxudan oyadan, öz şəhidliyi ilə dastanlar yazan general Polad Həşimovun, Vətənə sevgisi dillər əzbəri olan Mübariz İbrahimovun obrazlarını poemada yaradan şair onların ruhunun qayalara dırmaşan əsgərə bələdçi olduğunu, xeyir-dua verdiyini obrazlı şəkildə ifadə edir. Şair həmçinin poemada əsgər yoldaşını savaş meydanında yalqız qoymayan, özü yaralı olsa da, onu çiynində daşıyan, "ölsək də bərabər öləcəyik"- deyən şanlı Azərbaycan oğullarının poetik obrazını yaradır.

Kim unudar, ona həyat veräni
Kim unudar ömrü fəda edəni?
Kim unudar könlü Vətən deyəni
Nəfəs kimi doğuldular
Düşmən gözünü oydular.

Birinci Qarabağ savaşı ilə bağlı yazılan bədii nümunələrin ,demək olar ki, hamısında el- oba həsrəti önəmli yer tuturdu. Lakin indi ədəbi mühitdə yazılan əsərlərdə həsrətində olduğu elini,

torpağını görmək və ona qovuşmaq üçün tələsən ədəbi qəhrəmanın hisləri əvəzləyib. Qulu Ağsəsin qələmindən çıxan "Ağdam" şeiri də məhz belə bir səslənişin təsiri ilə yazılıb:

Şükür külünə,
şükür qayıdış gününə!
Sevincdən ağlımız çaşıb
yüz min dəliynən gəlirik.
Bir "Uzundərə" havası çal,
çıx Bərdə yoluna -
Uzundərəynən gəlirik!..

Qarabağ müharibəsində əldə edilən zəfər bundan sonra da doğma ədəbiyyatımızın əsas istiqamətlərindən birini təşkil edəcək.

İstifadə edilmiş ədəbiyyat

1. Novruz C. Seçilmiş əsərləri. Bakı: Lider, 2004, 288 s.
2. Xəlil R.U. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, 296 s.
3. Rüstəmxanlı S.X. Qarabağa dönüş.Bakı: Qanun, 2021, 128 s.
4. https://culture.gov.az › other › 09-elcin-mirz-b-yli

UOT 81:37.016

XARİCI DİLİN TƏDRİSİNDƏ İNNOVATİV İNKIŞAFIN ELMİ-TEXNİKİ ƏSASLARI

Aysel Çingiz qızı Əliyeva
Mingəçevir Dövlət Universiteti
aysel.aliyeva@mdu.edu.az

Təhsildə innovasiyaların rolu çox böyükdür. Tədris prosesində kompüter, internet, multimedia resursları kimi innovativ texnologiyalardan səmərəli istifadə təhsilin keyfiyyətini göstərməyin yeganə yoludur. Şagirdlərin kommunikativ bacarıqlarının təkmilləşdirilməsinin innovativ texnologiyalarından biri də dərsdə tədris və təlim prosesində multimediadan istifadədir. Sinifdə multimediadan düzgün istifadə şagirdlərə əsas kursların tapşırıqları və məzmunu ilə bağlı əsaslı məlumat verən müxtəlif mətnlərlə qarşılıqlı əlaqə yaratmaq imkanı verəcək. Bundan əlavə, təhsil texnologiyasının kurrikulumun ayrılmaz hissəsinə çevrilməsi gözlənildiyi üçün şagirdlər elektron resurslara daxil olmaq və onlardan istifadə etməkdə bacarıqlı olmalıdırlar. Dil öyrənmə vasitəsi kimi sinifdə innovativ texnologiyalardan istifadə bir çox üstünlüklərə malikdir. O, tapşırıqları yerinə yetirmək üçün öyrənənlərə stimul verir və öyrənənlər üzərində uzunmüddətli təsir yaratmağa kömək edir. Müəllimin rolu təlimatçı rolundan koordinator roluna dəyişir. Öz-özünə inkişaf edən müstəqil öyrənmə metodologiyası İngilis dilinin tədrisində innovativ texnologiyaların köməyi ilə təbliğ edilən prosesdir. Multimediadan istifadə tələbələrə onların təxəyyüllərini, maraqlarını təşviq edən media vasitəsilə məlumat toplamaq imkanı verir.

Hər bir müəllim üçün vacib vəzifə dərs keçərkən şagirdlərin diqqətini cəlb etmək və tədris olunan hər şeyin onlar dərsdən çıxdıqdan sonra uzun müddət onların yanında qalmasını təmin etməkdir. Bunun baş verməsi üçün sinif təcrübəsi yenidən müəyyən edilməli və tədris metodlarını daha effektiv edən innovativ ideyalar həyata keçirilməlidir. Aşağıda müəllimlərə öz tədris metodlarını yenidən kəşf etməyə və dərslərini maraqlı etməyə kömək edəcək bəzi innovativ ideyalar verilmişdir. [2]

Hekayələri canlandırmaq - Hekayələr dilin tədrisinin çox ayrılmaz bir hissəsini təşkil edir. Bu hekayələr şagirdlərə cümlələrin qurulmasını, fikirlərini necə ifadə etməyi və bir çox başqa şeyləri

öyrətməyə kömək edir və üstəlik onlar şagirdlərin marağını canlı tutmağa kömək edir, çünki hekayənin sonu hər bir tələbənin bilmək istədiyi bir şeydir. Şagirdlərin tədqiqatçı təbiətinə müraciət edir. İstənilən yarımçıq hekayə həmişə oxucunu həyəcanlandırır.

Praktiki Nümunələr vasitəsilə öyrənmə - Dərs materiyalını real həyat obyektləri və situasiyaları ilə əlaqələndirmək və nümayiş etdirmək şagirdlərin marağını artırır və onları cəlb edir. Bu üsul vasitəsiylə öyrənmə zamanı bu cür nümunələr verməklə yanaşı, tələbələrdən də tədris materialının müxtəlif aspektlərini əks etdirən öz nümunələrini vermələri istənilir.

Layihə əsaslı öyrənmə - Fərdi öyrənməni təmin edən texnologiyalardan biri yaradıcılıq, idrak fəaliyyəti, müstəqilliyi inkişaf etdirmə üsulu kimi layihə üsuludur. Layihələr növünə görə monolayihə, kollektiv, şifahi, yazılı və internet layihələrinə bölünə bilər. Layihə üzərində işləmək ingilis dilini öyrənmək üçün oxu, dinləmə, danışma və qrammatikanı əhatə edən çoxsəviyyəli bir yanaşmadır. Bu, tələbələrin aktiv öz-özünə düşünməsini təşviq edir və onları birgə tədqiqata istiqamətləndirir. Layihənin tədrisi ona görə aktualdır ki, o, tələbələrə əməkdaşlığı öyrədir, qarşılıqlı yardım və empatiya kimi etik dəyərləri tərbiyə edir, yaradıcı bacarıqlar yaradır və tələbələri aktivləşdirir.

Multimediadan istifadə - Mahnılar, filmlər, seriallar, jurnallar, qəzetlər kimi multimedia mənbələri dilimizin təkmilləşdirilməsində çox mühüm rol oynayır, lakin bəzən bizə kömək etdiklərinin fərqində belə olmuruq. Bu cür mənbələr tələbələrin dillərini təkmilləşdirməyə kömək etmək üçün istifadə edilə bilər. Amma böyük ehtiyat tədbirləri görülməlidir. Bu metoddan öyrənmənin son mərhələlərində istifadə edilməlidir, çünki bura heç bir zərər sahəsinin olmadığı yeganə mərhələdir. Multimediadan istifadənin dil öyrənilməsində mənfi cəhəti ondan ibarətdir ki, filmlərdə və mahnılarda əksər hallarda qrammatik qaydalara uyğun olmayan danışıq dilindən istifadə olunur. Ona görə tələbələr çalışmalıdır ki, həmin formalardan istifadə etməsinlər.

Onlayn istinad materialları - Dilçilikdə korpus və ya mətn korpusu böyük və strukturlaşdırılmış mətnlər toplusundan ibarət dil resursudur. Dil strukturlarını, tezlikləri və s. öyrənmək üçün istifadə edilən böyük mətn toplularından istifadə əvvəllər leksikoqrafların imtiyazı idi. Bununla belə, indi əksər korpuslar onlayn və kifayət qədər ödənişsiz olduğundan, müəllimlər indi dilin orijinal mətnlərdə və nitqdə istifadə üsulu haqqında məlumat əldə edə bilirlər. Wikipedia, Google, Bing kimi sadə, istifadəsi asan istinadlar tələbələr və müəllimlər tərəfindən istifadə olunur.

Söz oyunları - İstənilən dilin ən vacib hissəsi lüğətdir. Sözlərin mənasını başa düşmək və onlardan gündəlik həyatda istifadə etmək çox çətin işdir və oyunlar tələbələrə bu çətinliyin öhdəsindən gəlməyə kömək edə bilər. Scrabble, housie və s. kimi oyunlar bu məqsədlə hazırlanmışdır. Bu oyunlar sadəcə sözlərə əsaslanır və şagirdlərin lüğət ehtiyatlarını inkişaf etdirməyə kömək edir. Bu çox sadə oyunlara əlavə olaraq sadə imla müsabiqələri, sinonim yarışmaları, söz tapmacaları və anaqramlar kimi tələbələrin söz bazasını təkmilləşdirməyə kömək edən oyunlardan da istifadə edilə bilər. [3]

Yumşaq bacarıqların və tənqidi düşünmə bacarıqlarının öyrədilməsi - problemlərin həlli, təqdimat bacarıqları, vaxtın idarə edilməsi və qərar qəbul etmək kimi yumşaq bacarıqlarla müəllim və tələbələrə kömək edən bir çox onlayn resurs var. Uşaqların təkcə ingilis dilini öyrənmələrində deyil, həm də həyat bacarıqlarının inkişafında onlara dəstək ola biləcək tənqidi düşünmə bacarıqlarını inkişaf etdirməyə kömək edən resurslar da mövcuddur.

İstifadə edilmiş ədəbiyyat

1. Celce-Murcia, M. Teaching English as a Second or foreign Language. 3rd Edition, Boston, 2001, 584s.

2. Richards, J. C., & Rodgers, T. S. Approaches and methods in language teaching. Cambridge University Press, 2001, 278 p.

3. Larsen-Freeman, D. Techniques and Principles in Language Teaching, Hong Kong: Oxford University Press. 2000, 20-32.

4. Larsen-Freeman, D. Tecniques and principles in language teaching. Oxford University Press, 2011

UOT 82. 378

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ ƏDƏBİYYAT DƏRSLƏRİNİN İNTERAKTİV METODLAR ƏSASINDA TƏŞKİLİ

Sevinc Nəriman qızı Süleymanova
Mingəçevir Dövlət Universiteti
Gəncə Dövlət Universitetinin dissertantı
sevinc.suleymanova@mdu.edu.az

Bu gün ölkəmizin humanitaryönümlü ali təhsil müəssisələrində və pedaqoji fakültələrdə çoxlu sayda mütərəqqi vəzifələri hədəf seçən təhsil proqramlarından istifadə olunur. Bu proqramların əsas vəzifəsi bütün varlığı ilə Azərbaycan dövlətçiliyinə, milli tarixə və mədəni dəyərlərə xidmət edən gənc intellektualların yetişdirilməsidir. Ali məktəbin qarşısında duran tarixi vəzifələri uğurla həyata keçirmək və milli təhsil sisteminin müəyyən etdiyi prioritetləri ardıcıl şəkildə reallaşdırmaq üçün ali təhsil müəssisələrində ayrı-ayrı fənlər üzrə tədris proqramları, dərsliklər və dərs vəsaitləri dövrün və günün tələblərinə uyğun yenilənir, mövcud təhsil standartlarının məzmununda müvafiq korrektivlər edilir. Bütün bunlar daim dəyişməkdə olan qlobal cəmiyyətin, aparıcı informasiya-kommunikasiya texnologiyalarına (İKT) əsaslanan müasir dövrün spesifik təbiətindən və yüksək yaradıcı ruhundan doğan tələblərdir.

İnsan fəaliyyətinin bürün sahələrində müşahidə olunan reformasiyaların fonunda təzahür edən möhtəşəm inkişaf tendensiyaları, elmi, texnoloji və mədəni trendlər təhsil, mədəniyyət, incəsənət, texnika, istehsalat və xidmət sahələrində çalışan hər kəsdən dərin biliklər, bacarıqlar, vərdişlər tələb edir. Bu baxımdan ali təhsil müəssisələrində çalışan ədəbiyyat müəllimlərinin fəaliyyəti də istisna deyil. Humanitar və pedaqoji yönümlü ali təhsil müəssisəslərində ədəbiyyat dərslərini tədris edən müəllimin keyfiyyət meyarları, yüksək professional səviyyəsi və yaradıcı qabiliyyəti, onun tədris etdiyi predmeti detalları ilə və incəliklərinə qədər bilməsi, tələbələrin fəaliyyətini, onların dərslərdə ifa etdikləri intellektual rollardan ibarət "tamaşanı" rejissor kimi təşkil etmək sənəti müəyyən edir. Danılmaz faktdır ki, müasir təhsil sistemini dövrün elmi-texniki tələblərinə uyğun yeniliklər, dünya pedaqoji təcrübəsində sınaqdan çıxmış metodiki təlimlər olmadan təzəvvür etmək mümkün deyil. Bu təlimlər içərisində *interaktiv təlim metodları* (ing. *interactive learning methods*) xüsusi məzmun və əhəmiyyət kəsb edir.

Çağdaş təhsil sistemində ən aparıcı texnologiyalardan biri kimi özünü təsdiq etmiş interaktiv təlim metodu müəllim ilə təhsil alan (tələbə) və təhsil alanla təhsil alan arasında aktiv qarşılıqlı əlaqəyə əsaslanır. Beləliklə, interaktiv təlim metodu kontent şəklində, *kollaborativ* (fra. *collaboration* - əməkdaşlıq, şəbəkə prinsipi ilə işləyən pedaqoji təlim) prinsiplər əsasında qurulur və həyata keçirilir. Bu zaman təlim prosesi elə tərzdə təşkil edilir ki, onun bütün iştirakçıları aktiv qarşılıqlı əlaqədə olur, bərabərhüquqlu subyektlər kimi çıxış edir və nə etdiklərini yaxşı başa düşürlər

Ümumi cizgilərdə *interaktivlik* (ing. *interaction* - qarşılıqlı əlaqə, - kompüterlə və insanla söhbət və yaxud dialoq rejimində qarşılıqlı əlaqə qurmaq qabiliyyəti) obyektlə subyekt arasında qarşılıqlı əlaqələrin xarakterini və səviyyəsini aşkara çıxaran anlayış kimi təzahür edir. O, sistemin təşkil edilməsində elə prinsipidir ki, bu zaman məqsədə həmin sistemin elementlərinin məlumat mübadiləsi nəticəsində nail olunur [3, s. 2].

İnteraktiv təlimin təşkili müxtəlif sutuasiyaların modelləşdirilməsini, mövcud situasiyanın və şəraitin analizi əsasında problemlərin birlikdə həll edilməsini və rol oyunlarından çox geniş istifadə olunmasını nəzərdə tutur.

Bir qayda olaraq, interaktiv təlim texnologiyaları dörd qrupa bölünür:

1. Frontal texnologiyalar.
2. Kollektiv-qrup texnologiyası.
3. Stuativ təlim texnologiyası.
4. Diskussiya təlim texnologiyası.

Bu gün respublikamızın ali təhsil müəssisələrində çox geniş tətbiq olunan interaktiv təlim metodlarının bir sıra mühüm prinsipləri müəyyən olunmuşdur. Sözügedən prinsiplərin bütövlükdə yaratdığı mənzərə isə təhsil alanların intellektual səviyyəsinin, analitik və tənqidi təfəkkürünün, praktiki bacarıqlarının formalaşdırılmasına və inkişafına istiqamətlənmişdir. Bununla bağlı ali təhsil müəssisələrində bu və ya digər səviyyədə sınaq mərhələsi keçmiş, effektlilik dərəcəsi kifayət qədər yüksək olan bir sıra interaktiv üsul və vasitələrdən istifadə olunur. Bu üsullar ədəbiyyat dərslərinin təşkili prosesində də geniş tətbiq edilir və yüksək pedaqoji nəticələr əldə olunur.

Həmin üsullardan daha populyar olanlarını qeyd edək və hər birinin spesifik xüsusiyyəylərini qısa təsvir edək:

1. *Hovuz* (ing. *swimming pool* - üzgüçülük hovuzu) üsulu - bu üsulun başlıca cəhəti ondan ibarətdir ki, tələbələr praktiki tapşırıqları yerinə yetirmək və buna görə də yeni-yeni biliklərə sahib olmaq üçün bir neçə intensiv *butkemp* (ing. *boot camp* – "çəkmə düşərgəsi", - növbəti səviyyəyə çatmaq üçün keçirilən təlim-məşq) keçirlər.

2. *Vebinar* (ing. *webinar* - onlayn konfrans) - virtual təşkil edilən praktiki seminar. Belə seminar bir nəfərin məruzə etməsi və nəticələr üzrə iştirakçıların suallarının cavablandırılması üzərində qurulur.

3. *Debat* (ing. *debates*) - konkret mövzu üzrə təşkil olunmuş və dəqiq strukturlaşdırılmış publik fikir mübadiləsi.

4. *Rol oyunları* (ing. *role playing games*) - hər hansı ədəbi-bədii əsərdə təsvir olunmuş hadisələrin modelləşdirilməsi, bu zaman iştirakçılar oyunun reallıqları çərçivəsində seçdiyi rolların və personajların xarakterinə və onlara məxsus daxili əqidəyə uyğun hərəkət edirlər. Hər bir oyunçunun (tələbənin) fərdi və kollektivin ümumi hərəkəti oyunun süjetini müəyyən edir. Bir qayda olaraq, ədəbiyyat dərslərində tətbiq olunan rol oyunları müəllim tərəfindən müəyyən edilən konkret qaydalara əsaslanır, oyunçuların (iştirakçıların) hərəkətlərinin və davranışlarının, həmçinin oyun situasiyasının modelləşdirilməsinin çərçivəsi müəyyən edilir. Həmin çərçivədə tələbələrə sərbəst şəkildə improvizasiya etmək imkanları verilir.

5. Keys üsulu (ing. *case method* -1924-cü ildə Harvard (ABŞ) biznes məktəbində yaradılmışdır) - hər hansı problemin həlli, effektiv qərarların aşkar edilməsi və əldə olunan biliklərin praktikada tətbiqi imkanlarının tapılması məqsədi ilə real və ya uydurma situasiyanın təhlil edilməsi.

6. *Diskussiya* (ing. *discussion*) - bütün iştirakçıları qane edəcək qərarın qəbul edilməsinə istiqamətlənmiş mübahisəli məsələnin kollrktiv şəkildə ətraflı müzakirəsi.

7. *Dəyirmi stol* (ing. *round table*) - bir neçə mübahisəli məsələnin qrup şəklində müzakirəsi, bu zaman iştirakçılar bərabər şəkildə öz fikirlərini ifadə edir və öz mövqelərini müdafiə edirlər.

8. *Portfolyu metodu* (ing. *portfolio-based learning*) - təlimin müəyyən dövr ərzində əldə edilən nəticələrinin qiymətləndirilməsi.

9. *Layihə metodu* (ing. *procect based learning*) - mətn üzrə fərdi və qrup layihələri ilə əlaqədar iş. İş prosesində iştirakçılar müstəqil şəkildə verilmişlərin toplanmasını həyata keçirir, onlardan istifadə olunmasını öyrənir, sistematik idraki imkanlarını və tədqiqatçı bacarıqlarını inkişaf etdirirlər.

10. *Beyin həmləsi* (hücumu) *metodu* (ing. *brainstorming*) – iştirakçıların birgə ideyalar qurmasına və fikir mübadiləsi etməsinə əsaslanır. Bu zaman onlara qısa vaxt ərzində müzakirə olunan problemin həlli ilə bağlı maksimum sayda təkliflər edilir və nəticədə çıxarılan qərarlara tənqidi qiymət verilir, onlardan praktika üçün yararlı olanları seçilir.

11. *Publik prezentasiya* (ing. *public presentation*) - asan mənimsənilməsi üçün öyrənilən material sadə, qarafik və strukturlaşdırılmış şəkildə təqdim olunur, tədris materialının əlavə illüstrasiyası kimi çıxış edir.

12. *Tədris videofilmlərinə kollektiv baxış və onların müzakirəsi* (ing. *film-based learning*) - tədris materialında əksini tapmış məqamların vizual şəkildə müşahidəsi və onların əsaslı təhlili məqsədi ilə həyata keçirilir.

13. *"MƏNN düsturu" üsulu* (ing. *PRES formula method*) – diskussiya zamanı iştirakçının tutduğu mövqeyin arqumentləşdirilməsi vasitəsidir: burada M - mövqe (ing. *point of view*) – tələbənin mövqeyini ifadə etməsi, Ə - əsaslandırma (ing. *reason*) – tələbənin öz mövqeyinin xeyirinə sanballı arqumentlər irəli sürməsi, N - nümunə (ing. *example evidence*) – öz mövqeyinin doğruluğunu sübut etmək məqsədi ilə tələbənin nümunələr göstərməsi, N - nəticə (ing. *summary*) – tələbələrin tutduğu mövqelərə uyğun nəticələr və ya xülasələr edilməsi.

Bütün bunlardan əlavə ali təhsil müəssisələrində sınaqdan çıxarılmış çox sayda digər interaktiv üsullardan da istifadə olunur: məsələn, "*Venn diaqramı*" (ingilis məntiqçisi Con Venn - 1834-1923, - 1881-ci ildə Londonda nəşr etdirdiyi "Rəmzi məntiq" adlı kitabında təqdim etmişdir) üsulu - tədris prosesndə müzakirə oluanan obyektlərin oxşar və fərqli cəhətlərinin dairələr vasitəsi ilə əlaqələndirilməsi kimi həyata keçirilir. Metoddan istifadə zamanı ən azı iki obyekt götürülür və onların müqayisə ediləcəyi fərdi əlamətləri və xüsusiyyətləri dairələrdə qeyd olunur. Dairələrin kəsişdiyi yerlərdə yaranmış sahədə isə onların oxşar cəhətləri qeyd edilir [1, s. 133-134].

"*Klaster*" (şaxələndirmə) üsulu - ədəbiyyat dərslərində çoxölçülü təhlil proseduru kimi tətbiq olunan klasterdən müxtəlif janrlarda yazılmış ədəbi-bədii əsərlərin, onların ayr-ayrı elementlərinin və komponentlərinin izahlı təsviri zamanı istifadə olunur.

Söz assosiasiyaları üsulu - ədəbiyyat dərslərində bu üsulun tətbiq edilməsi, bir qayda olaraq, təhsil alanların assosiativ tərzdə düşünmək imkanlarının inkişafını nəzərdə tutur. Bu üsul ilə tələbələr bu və ya digər predmetə və ya elementə məxsus ideyanı dolayı yolla, başqa bir oxşar və yaxud analoji predmetin (element) özəl cizgilərinin, spesifik xüsusiyyətlərinin və əlamətlərinin, həmçinin onların daşıdığı məna yükünün vasitəsi ilə aşkar edərək təqdim edirlər. Bu üsuldan personajların xarakterini təhlil edərkən istifadə edilməsi daha məqbul sayılır.

Ədəbiyyat dərslərində tətbiq edilən ən effektli interaktiv üsullardan biri də "*Ədəbi məktub*" üsuludur. Bu üsuldan nəsr əsərlərinin təhlilində istifadə olunması daha məqsədəuyğundur. "Ədəbi məktub" üsulunun tətbiqi zamanı təhsil alanlara müxtəlif nəsr əsərlərindən kiçik hissələr və yaxud bir əsərdən bir neçə ayrı-ayrı fraqmentlər təqdim edilir. Bundan sonra tələbələr seçdikləri mətni oxuyur və aldıqları təəssüratları məktub qismində xəyali dostlarına göndərirlər. Bu zaman onlar mətndə təsvir olunan hadisələr, bu hadisələrdə iştirak edən personajlar haqqında öz rəylərini bildirmək və onlara qiymət verməklə yanaşı onu oxumağı və təhlil etməyi xəyali dostlarına da tövsiyyə edirlər. Məktub yazılarkən onun mətni kiçik, ifadələri lakonik, məzmunu tutumlu olmalıdır, heç bir məqam diqqətdən kənarda qalmamalıdır. Beləki məktubların qiymətləndirilməsi məqsədi ilə yaradılan ekspertlər qrupu onları məhz bu meyarlara görə ayrıd edir [2, s.138].

Ədəbiyyat dərslərində geniş istifadə olunan interaktiv təlim üsullarından biri də İNSERT (ing. *İ - interactive* - interaktiv, *N - notinq* - dərketmə, *S - system* - sistem, *E - effective* - effektlilik, *R - reding* - oxu, *T - thinking* - düşüncə) üsuludur. Bu üsul təhsil alanların tənqidi təfəkküründün davamlı inkişafına xidmət edir və TTİMY texnologiyası bazasında həyata keçirilir. Bu zaman mətn üzərində işləyən tələbələr mövzu üzrə yeni informasiyalara sahib olurlar. İNSERT üsulunun əsas mahiyyəti tələbələrə artıq məlum olan informasiyanı möhkəmləndirmək, yeni informasiyalara əlavələr etmək, qaranlıq olan informasiyalara isə müvafiq şərhlər və izahatlar verməkdir. Bu zaman sütunlarda tezis

şəklində tələbənin mətndə rast gəldiyi informasiyalar yazılır və onların qarşısında müvafiq işarələr qoyulur.

İNSERT üsulunun tətbiqi zamanı *N* - dərketmə (*notinq*) mərhələsində "Fasiləli oxu", "Blum Kubu", "Qalın və incə suallar" və s., T - düşüncə (*thinking*) mərhələsində isə "Altı şlyapa" və başqa üsullardan istifadə etmək olar. İNSERT üsulu dərsin bütün mərhələlərində tətbiq oluna bilər. Beləliklə, bu üsul tələbələrə artıq məlum olanları xatırlatmaqla yanaşı, mənimsənilən mətndən yeni-yeni məlumatlar çıxarmağa (dərketmə mərhələsində) və bu məlumatları təhlil etməyə, onları interaktiv müzakirəyə çıxarmağa (düşüncə mərhələsində) imkan verir. Göründüyü kimi, ali təhsil müəssisələrində tədris olunan ədəbiyyat dərslərində interaktiv təlim metodlarından istifadfə edilməsi predmetin daha yaxşı və dərindən mənimsənilməsində, tələbələrin aktiv və mütəşəkkil qaydada tədris prosesinə cəlb olunmasınada müstəsna rol oynayır. Bu zaman tələbələr fəal ünsiyyətə girməklə yanaşı, həm də problemləri müstəqil şəkildə həll edir, məlumatları bir-biri ilə bölüşür, özlərinin və qrup yoldaşlarının əldə etdikləri nailiyyətlərə və bütövlükdə tədris prosesinin nəticələrinə adekvat qiymət verə bilirlər. İnteraktiv dərslərdə fənni tədris edən müəllimin yeri, rolu və əsas vəsifələri isə ondan ibarətdir ki, o, tədris prosesinin qarşısında duran məqsədlərə nail olmaq üçün tələbələri istiqamətləndirir və sanki bir ansambl kimi konkret əsəri ifa edən qrupun hərəkətlərinə dirijorluq edir. Müəllim dərsin reqlamentinin, planının və dərslə bağlı tapşırıqların hazırlanmasını həyata keçirmklə dərsin efektliliyinə və tələbələrin uğuruna zəmanət verir.

İstifadə edilmiş ədəbiyyat

1. Yusifov F.A. Ədəbiyyatın tədrisi metodikası. Ali məktəblərin filologiya fakültələrinin bakalavriat təhsil səviyyəsi tələbələri üçün dərslik. Bakı, 2017. - S. 133-134, - 304 s.
2. Yusifov F.A. Ədəbiyyatın tədrisi metodikası. Ali məktəblərin filologiya fakültələrinin bakalavriat təhsil səviyyəsi tələbələri üçün dərslik. Bakı, 2017. - S. 138, - 304 s.
3. *Wiberg, Mikael.* Interaction per se: understanding "the ambience of interaction" as manifested and situated in everyday & ubiquitous IT-use // International Journal of Ambient Computing and Intelligence. - 2010. - Vol. 2, no. 2.

UOT 372.2.01

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İNKİŞAFINDA PROBLEMLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ ERKƏN MÜDAXİLƏ

Ayşən Fəxrəddin qızı İsmayılova
Mingəçevir Dövlət Universiteti
ayshan.ismayilova@mdu.edu.az

Hazırda məktəbəqədər yaşlı uşaqların inkişafında mövcud olan problemlər uşağın davranışını müşahidə edərək, onun inkişaf tarixinə nəzər salaraq və valideyinin/qayğı göstərənin qeydlərinə əsaslanaraq müəyyən edilir. Bu üsullar ilə əldə olunmuş məlumatların subyektiv xarakter daşıması qaçılmazdır. Digər tərəfdən, bu üsullar vasitəsi ilə inkişafda mövcud olan problemlərin ağırlıq dərəcəsinin təyin edilməsi prosesi də kifayət qədər subyektiv xarakter daşıyır. Qeyd etmək lazımdır ki, qiymətləndirmənin nəticələri əsasında uşaqla müvafiq müdaxilə proqramı işlənib hazırlanmalıdır. [1]

Qiymətləndirmə prosesi müdaxilənin hazırlanması üçün mütəxəssisləri kifayət qədər məlumatla təmin etməlidir və bu məlumat yalnız müşahidələr zamanı əldə oluna bilməz. Bu zaman uşaq inkişafının qiymətləndirilməsi üçün hazırlanmış standartlaşmış qiymətləndirmə instrumentinin mövcud olması olduqca zəruridir. Standartlaşmış qiymətləndirmə instrumentinin olması bir tərəfdən

ilkin qiymətləndirmə prosesində istifadə olunmaqla uşağın inkişaf səviyyəsinin dəqiq müəyyən edilməsinə kömək edərək müvafiq müdaxilə proqramının hazırlanmasını təmin edir, digər tərəfdən isə artıq müdaxilə proqramı həyata keçirildikdən sonra uşağın inkişafında olan prosesi müəyyən etməkdə zəruri bir vasitə kimi istifadə olunur. [2]

Uşağın inkişafında mövcud olan problem uşağın bir və ya bir sıra inkişaf sahələrinə təsir edir. Uşağın inkişaf sahələrini əsas dörd kateqoriyaya bölmək olar:

1. *Fiziki inkişaf*. Buraya kiçik motorika və böyük motorika bacarıqları daxildir. Kiçik motorika bacarıqlarına əlin kiçik əzələlərini könüllü, idarə edilən hərəkətləri koordinasiya etmək bacarıqları daxildir. Böyük motorika bacarıqlarına bədənin böyük əzələlərini idarə edilən formada istifadə etmək bacarıqları daxildir.

2. *Nitq inkişafı.* Buraya nitqi başadüşmə (reseptiv nitq) və nitqi ifadəetmə ekspressiv nitq) bacarıqları daxildir. Nitqi başadüşmə bacarığına verbal əmrləri, göstərişləri, izahları, sualları və səsləri başa düşmək və müvafiq şəkildə cavablandırmaq bacarıqları aiddir. Nitqi ifadəetmə bacarığına müvafiq verbal cavablar, izahlar, əmrlər və suallar təqdim etmək kimi bacarıqlar daxildir.

3. *Adaptiv və koqnitiv inkişaf.* Buraya uşağın hər hansı bir problemli situasiya zamanı intuisiyaya, yaddaş və qavrama proseslərinə və nitqdən istifadəetmə bacarığına əsaslanaraq müvafiq həlli yollarını tapması daxildir. Bu kateqoriyaya diqqət və yaddaş bacarıqları da aiddir. Diqqət müəyyən edilmiş vaxt ərzində tapşırığın müvafiq komponentlərinə diqqətlə qulaq asmaq və bütün diqqəti onun üzərində cəmləşdirmək bacarığını özündə əks etdirir. Yaddaş təəssüratları yadda saxlamaq və canlandırmaq bacarığı və yaxud da əvvəlki hər hansı bir təəssüratı və ya sərgüzəşti yada salmaq və ya tanımaq bacarıqlarını özündə əks etdirir.

4. *Sosial inkişaf.* Buraya özünəxidmət bacarıqları (özünün şəxsi tələbatlarını ödəyərkən özünəyardım və ya kömək etmək bacarığı) və digərləri ilə ünsiyyətə girərək ictimai baxımdan qəbuledilən davranışı həyata keçirmək bacarıqları daxildir. [4]

Tədqiqatlara əsasən bəzən böhran dövrlərində normal inkişafa müdaxilə etmək daimi çatışmazlıqların yaranmasına gətirib çıxara bilər. Çox vacibdir ki, inkişafın hər hansı bir sahəsində problemləri olan uşaqlar erkən müəyyən edilərək müvafiq yardımla təmin olunsunlar. Müəyyən davranış və bacarıqlar digərləri itirilmədən öyrənilməlidir, əks təqdirdə ilkin vərdişləri öyrənməkdə və inkişaf etdirməkdə çətinliyi olan müalicə edilməyən uşaq vaxt ötdükcə ikinci dərəcəli problemlərlə üzləşə bilər. [5]

Yalnız uşağın inkişaf çeşidlərini normal inkişaf səviyyəsi ilə müqayisə etdikdə irəliləyişlərin ola biləcəyi sahələri müəyyən etmək mümkündür. Bunu etmək üçün məktəbəqədər yaşlı uşaqlar üçün müasir, standartlaşdırılmış inkişafın qiymətləndirilməsi instrumentinə malik olmaq çox vacibdir. Qiymətləndirmə, düzgün keçirildiyi təqdirdə, bütün yardım prosesində mütəxəssisin vaxtına qənaət edəcək dəyər baxımından çox səmərəli bir mərhələdir [6].

Dünya təcrübəsində məktəbəqədər yaşlı uşaqların inkişafının qiymətləndirilməsini həyata keçirmək məqsədi ilə bir sıra standartlaşmış normalara əsaslanan qiymətləndirmə instrumentləri inkişaf etdirilib. Bunların sırasında Kanadada Marian Mainland tərəfindən hazırlanmış DİSC (*Diagnostic İnventory for Screening Children* - Uşaqların Qiymətləndirilməsi üçün Diaqnostik Vasitə) instrumenti kifayət qədər etibarlı qiymətləndirmə instrumentlərindən biri kimi qəbul olunub. [2]

DİSC xüsusi ehtiyacları qarşılayacaq və klinik şəraitdə planlaşdırılmış şkalalar dəstindən ibarətdir. Bu inkişafetdirici diaqnostik vasitə fəaliyyətin bir sıra sahələrini əhatə edən bacarıqlar üzrə avadanlıqdan ibarətdir: kiçik motorika, nitqi başa düşmə, böyük motorika, audio diqqət və hafizə, vizual diqqət və hafizə, özünə xidmət və ünsiyyət bacarıqları. DİSC uşağın anadan olduğu dövrdən 5 yaşına qədər olan dövrü əhatə edir. Beləliklə də DİSC bütün məktəbəqədər dövr ərzində baş verən ləngimələri müəyyən etməyə kömək edir. [4]

Uşağın inkişafının qiymətləndirilməsi sahəsində mövcud olan qiymətləndirmə instrumentləri

əsasən ona görə tənqidə məruz qalır ki, onlar adekvat standartlaşma və normativlərə malik deyillər. Çox hallarda normativləşdirmə standartlaşma ilə əlaqədar şəkildə həyata keçirilmiş olur. Normativləşdirmə-standartlaşma prosedurları nümunəsinin heç bir faktordan asılı olmaması çox böyük əhəmiyyət kəsb edir.

Adətən, yeni testlər artıq mövcud olan testlərdən müxxtəlif vasitələrin seçilməsi və onların bu testlər tərəfindən müəyyənləşdirilən yaş səviyyələrinə uyğun düzülməsi əsasında yaradılır. Halbuki testi yaradanlar geniş standartlaşdırma və normativ tədqiqatı həyata keçirərək bu vasitələrin yaşa müvafiq yerləşdirilməsinə o qədər də fikir vermirlər. DİSC daha adekvat bir standartlaşma prosedurundan istifadə edib. Adətən, tapşırıqlar mövcud inkişafetdirici ədəbiyyatdan seçilir. Standartlaşdırma proseduru tapşırıqların tam yeni vasitələr şəklində yenidən tərtib olunmasını, hər vasitənin düzgün yaşa müvafiq yerləşdirilməsini, həmçinin, standart həyata keçirilmə və hesablamaların aparılmasını təsdiq etdi. Bütün test sonradan hər bir uşağın nəticələrinin müqayisə edilə biləcəyi uşaqlar qrupunu təmin etmək üçün 550 uşaqdan ibarət nümunə üzərində normativləşdirilmişdir. [3]

DİSC ümumi xalı təyin etmir. O hər inkişaf sahəsinin yoxlanıla bilməsi üçün xallar profilini təqdim edir. Belə ümumi qiymətin verilməsindən imtina etmə hər hansı bir inkişaf ləngiməsi olan sahənin diqqətdən kənarda qalması şansını azaltmış olur. Əgər ümumi xaldan istifadə edilsə, bir şkala üzrə orta ümumi bal digər şkala üzrə xalın aşağı olmasını gizlətmiş ola bilər.

Səmərəli və yararlı diaqnostik qiymətləndirmə vasitəsinin digər əsas keyfiyyətləri sırasına aşağıdakılar daxildir:

- DİSC maraqlı, tanış və davamlı test tapşırıqlarından ibarətdir;
- testi həyata keçirmək üçün nisbətən az vaxt gərəkdir;
- hər bir tapşırığın həyata keçirilməsi və bu üzrə xalların verilməsi üçün aydın və qısa göstərişləri özündə əks etdirən təlim dərsliyi də DİSC-ə daxildir;
- emal olanmamış xallar, yaşa müvafiq qiymətlər və faiz xallarım təmin edir;
- valideyn-qayğı göstərən tərəfindən əldə olunmuş məlumatdan nisbətən az istifadə edilir. [3]

DİSC digər qiymətləndirmə instrumentləri kimi motorika, nitq, özünə xidmət, sosial bacarıqlar və digər sahələrdə uşağın vərdişlərini qiymətləndirə biləcək vasitələrdən ibarətdir. Halbuki DİSC-in strukturu fərqlidir, o, motorika bacarıqlarını iki ayrı şkalaya bölür:

- kiçik motorika;
- böyük motorika.

O, həmçinin nitq inkişafını da iki yerə bölür:

- nitqi başadüşmə;
- nitqi ifadəetmə bacarıqları.

DİSC-in müəllifləri iki əlavə və demək olar ki, qeyri-adi ölçüləri də DİSC-ə daxil ediblər:

- audiodiqqət və hafizə;
- vizual diqqət və hafizə.

Bu şkalalar diqqət və hafizədə olan erkən çətinliklərin gələcəkdə baş verəcək diqqət çatışmazlığını xəbər verəcək əsas amillər olduğu hipotezini yoxlamaq üçün DİSC-ə əlavə edilmişdir. Bu da öz növbəsində bu cür problemlərin mümkün qədər tez aradan qaldırılmasına dəstək verir. [4]

DİSC instrumenti Kanada uşaqları üzərində hazırlanmış və onların inkişaf norma və standartlarını əks etdirir. Lakin DİSC instrumenti kifayət qədər peşəkar səviyyədə Azərbaycan dilinə tərcümə edilib Azərbaycan uşaqları üzərində sınaqdan keçirilərək onlar üçün müvafiq norma və standadrtların hazırlanmasına yönəlmiş tədqiqat kimi həyata keçirilməlidir.

İstifadə edilmiş ədəbiyyat

1. Əzimli Q.E. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı: 2006, 518 s.
2. Cleaver H. Walker S. Assessing children's needs and circumstances: The impact of the

assessment framework, "Jessica Kingsley Publishers", London: 2004, 19 s.

3. Hersen M. Thomas J.C. Handbook of clinical interviewing with children, "Sage Publication", Los Angeles: 2007, 109 s.

4. Kamphaus R.W. Cambell J.M. Psych diagnostic assessment of children: Dimensional and categorical approaches, "Wiley", New Jersey: 2006, 100 s.

5. Nutall E.V., Romero L, Kalesnik J. Assessing and screening preschoolers: Psychological and educational dimension, "Allyn and Bacon", Boston: 1992, 128 s.

6. White V., Harris J. Developing good practice in children's Services, "Jessica Kingsley Publishers" London : 2002, 159 s.

UOT 82(091)

ƏHMƏD CAVAD YARADICILIĞINDA NİKBİN VƏ KƏDƏRLİ RƏNGLƏRİN VƏHDƏTİ

Ceyran Elşən qızı Vəliyeva
Mingəçevir Dövlət Universiteti
Gəncə Dövlət Universitetinin doktorantı
ceyran.valiyeva@mdu.edu.az

İnsan həyatı da təbiət kimidir. Hər fəsil öz xüsusiyyətləri ilə seçilir, yayda qar yağmadığı kimi, qışda da hava isti olmur. Təbiətin də öz qanunauyğunluqları var. Lakin insan həyatında bəzən bu qanunauyğunluq pozulur. İsti bir yay günündə tufan qopar, qasırğalar başlar həyat gülləri, çiçəkləri sınıb tökülər. Həm də qollu-budaqlı ağaclar parçalanar, yarılar, yıxılar.

1920-ci illərdə məhz belə bir qanunauyğun olmayan hadisələr başladı. Qasırğanın gücü önünə keçən hər şeyi dağıdır, sorğusuz-sualsız ona zidd gedənləri yolundan götürürdü. Bu qasırğalar kimlərin həyatını sirkələmədi, evlərinin çağırılmamış qonağı oldu gecəyarası. Çox dəyərli şəxsiyyətlərin həyatını qaraltdı və zülmətə çevirdi. Bu qara tufanının - 1937-ci ilin qurbanlarından biri də Əhməd Cavad olmuşdur. O Əhməd Cavad ki, adı çəkilən kimi himnimiz qəlbimizdə və ruhumuzda səslənir. Əhməd Cavad kökü vətən torpağından su içib başı mavi vətən səmasına qədər uzanan qocaman bir ağac kimi bu olanlara sinə gərdi, yolundan bir an belə olsa, yayınmadı, qətiyyəti və əzmi ilə ölümlə üz-üzə durdu və qalib gəldi. O, cismən öldü, lakin əsərləri ilə Azərbaycan xalqının qəbində özünəməxsus bir taxt qurdu. Bu tufanlar və qasırğalar şairi sahillərdən sahillərə, qayalardan qayalara çırpmaq, əzmək istədi, ancaq buna müəssər ola bilmədi.

Bu gün Əhməd Cavad misilsiz xidmətləri ilə qasırğalardan da, tufanlardan daha ucalarda qərar tutub. Öz yaradıcılığı və şəxsi qüdrəti ilə Azərbaycan xalqının qəlbində tutduğu mövqe ilə həmişəyaşarlılığını təmin etmiş oldu. Şairlikdən öncə bir insan, ailə başçısı və ata idi Əhməd Cavad. O vaxtdan uzun bir zaman keçib, arxivlər açılıb və hər bir həqiqət üzə çıxıb və ədalət bərqərar olub. Bu arxiv materialları insan qəlbinə bir təlaş, bir sızıltı salır, canına üşütmə düşürür. Bir şairə, bir insana qarşı nə qədər iftiralar, nə qədər yalanlar atılar, nə qədər hiylələr qurularmış? Ona qarşı qurulan bu məkirli planların altında Əhməd Cavadı əzilmədi, qalib oldu. Buna səbəb isə şairin şeirləri oldu. Vətəndaş kimi məhv olmadan onu qorudu bu şeirlər. Sipər olub zamana sinə gərdilər, yaşadılar, qaldılar, bundan sonra da yaşayacaqlar.

Şairin həyatını fəsillərə bölsək, dörd fəslin təzahürünü görərik. Yaz və yay fəsilləri Şairin cümhuriyyətə qədərki və cümhuriyyət, payız və qış fəsilləri isə cümhuriyyətin süqutuna gedən yol və süqutdan sonrakı dövrlərə ayrılır və qeyd edilən hər bir ədəbi dövrün özünəməxsus mövzu rəngarəngliyi ilə seçilən, şairin bədii-siyasi görüşlərini əks etdirən şeirlərlə zəngindir. Bu şeirlər mövzu çeşidliyi ilə seçilir.

1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçilik tariximizin qızıl səhifəsini təşkil edir. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın milli iradəsini və istiqlaliyyət əzmini göstərmək baxımından da xüsusi əhəmiyyətə malikdir. Hər bir ədəbi dövrdə olduğu kimi o zamanlar da şair və ədiblərimiz bu müstəqilliyimizin sevinci ilə yaşamış, onu əsərlərinin ana mövzusuna çevirmişlər. Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Əhməd Cavadın yaradıcılığı da bu baxımından xüsusilə diqqət cəlb edir. AXC dövründə yazdığı şeirlər Əhməd Cavad yaradıcılığının zirvəsidir. İstiqlal şairinin kimi adını ədəbiyyatımıza yazdıran Əhməd Cavad "Azərbaycan, Azərbaycan!", "Canım, gözüm, gözüm, canım Azərbaycanım", "Al bayrağım", "Qardaş" şeirlərində vətənə olan sevgisi, torpağına qəlbən, ruhən bağlılığı və məhəbbəti öz əksini təpmışdır. Şairin sevinci coşub daşır və bunu gizlətmirdi, bu sevinci dilə gətirməkdən usanmırdı. Həmin şeirlərdə şairin nikbi ruhu duyulurdu.

Təmiz al alnındakı tozu, torpağı,
Haqq üçün açdığın əllərinlə sil!
Qalxıb, bir də enməz elin bayrağı,
O sənin, o mənim əlimdədir, bil! [1, s.130]

Şairin bütün xəyalları, arzuları və gələcəyə olan inamı məhz cümhuriyyətlə bağlı idi. AXC-nin süqutu Əhməd Cavadın da bir insan və bir şair kimi məhvinə səbəb oldu. Halbuki şairin qurulan dövlətlə bağlı çox böyük ümidləri var idi. Şeirlərində təbliğ etdiyi ideallar da onun həyatının, təbii ki, eyni zamanda da yaradıcılığının mənasına çevrilmişdi.

Ey Tanrının cənnət uman qulları,
Mən cənnəti bu dünyada bulmuşam.
Aramaqdan bezdiyiniz yolları
Axtarmaqda mən sevdada bulmuşam! [1, s.138]

Şair sanki illərdir axrtardığı həyat həqiqətini tapmışdı, bu həqiqət həm də onun məhvini tezləşdirdi. Məhz bu inancına, milli ruhlu şeirlərinə, istiqlal carçısı olduğuna görə sovet dövründə təzyiqlərə, təqiblərə məruz qaldı. Şair ruhunu özü öldürməyə, guya ruhunun yeniləndiyini göstərməyə çalışsa da, artıq gec idi, fərman verilmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu şairi sarsıtmış, yaradıcılığına əhəmiyyətli dərəcədə təsir etmişdir. O, ömrünün sonuna kimi ölkəsinin düşdüyü əsir vəziyyətini gah açıq şəkildə, gah da rəmzlərlə, mətnaltı mənalarla ifadə etməkdən çəkinmədi. Bu illər ərzində onun "könül rübabı" artıq kədərə bürünür, nisgil dolu misraların əks olunduğu şeirlərinin sayı çoxalır. "Nə yazım?", "Unudulmuş sevda", "Olsun qoy" və s. şairin qəmli şeirləri silsiləsindəndir.

Bir soran yoxmu o zalım fələyə,
O mənim gəncliyimin qatilinə:
Niyə qıydın sən o solğun mələyə?
Bu vurub yıxmağının qayəsi nə?
Nə deyim böylə, bu mənasız işə,
Sonu yox sitemli sərsəm gedişə. [1, s.59]

Şair mövcud quruluşla heç cür barışa bilmir, təslim olmurdu. Ölkəsindəki kölələlik onu sıxırdı, bu sıxıntı şairin bu dövrdə yazılmış şeirlərinin canına, ruhuna hopmuşdur. Qəm, kədər motivləri üstünlük təşkil edən şeirlərdə şairin qığılcım kimi olsa da, ümidi var idi. Xalqının bu kölələlikdən qurtulacağına inanan şair bilirdi ki, vaxt gələcək cani-könüldən sevdib bağlandığı, yolunda canından keçməyə hazır olduğu vətənini işıqlı gələcək gözləyir. Şair 1924-cü ilin yanvarında həbsxanada yazdığı "Ay ellər" şeirində:

Hanı yaz mövsümü gülüm, çiçəyim?
Tez düşdü yurduma xəzan, ay ellər.
Mən yaza bilmədim, əllərim bağlı,
Yoxmu bu dərdimi yazan, ay ellər? [1, s.112]

- deyərək fəryad edirdi.

Bu bir həqiqətdir ki, istedad olan yerdə hər zaman düşmən də olur. Cavadın da düşmənləri hədsiz çox idi. Şairin məhvinin elə onun istedadından keçdiyini anlayanlar hərəkətə gəldilər, düzünü düsək, heç fəaliyyətsiz olmadılar ki. Əgər şairin yalançı yoldaşları olmasaydı, sapı özümüzdən olan baltala olmasaydı, istedada paxıllıq hissi ilə qovrulan istedadsızlar olmasaydı, yəqin ki, Əhməd Cavad və onun kimilər belə asanlıqla qurban verilməyəcəkdi. "Bu baxımdan Cümhuriyyət dövrünün, azadlıq mücadiləsinin, ictimai-siyasi proseslərin ən bariz, ən dolğun və ən dəqiq izlərini biz Əhməd Cavad yaradıcılığında görə bilərik. Çünki Azərbaycan Demokratik Cümhuriyyətinin var olduğu çox qısa, ideya və ali məram kimi isə yaşadığı çox uzun illərin "Cümhuriyyət deyəndə adı hamıdan əvvəl yada düşən şairi məhz Əhməd Cavaddır".[2]

Böyük şair Əhməd Cavad ömrünün sonuna kimi milli istiqlal ideyalarına sadiq qaldı, hüquqları çeynənən bir ölkənin haqq səsi oldu. Təqiblər, məhbəsdəki işgəncələr onun iradəsini qıra bilmədi. O, bir dəfə də olsun xalqına və qələminə xəyanət etmədi, Azərbaycan istiqlalının böyük şairi kimi yaddaşlarımızdan heç zaman silinməyəcək, daim yaşayacaqdır…

İstifadə edilmiş ədəbiyyat

1. Əhməd Cavad. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, 296 s.
2. http://www.anl.az/down/meqale/kaspi_az/2018/may/59366.htm

UOT 7.067

MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ KEÇİRİLƏN MUSİQİ MƏŞĞƏLƏLƏRİNİN UŞAQLARIN ƏQLİ VƏ FİZİKİ İNKİŞAFINDA ROLU

Faiq Mübariz oğlu Yusifli
Mingəçevir Dövlət Universiteti
faiq.yusifli@mdu.edu.az

İnsanın bir şəxsiyyət kimi inkişafı məktəbəqədər dövrdən başlayır. Məktəbəqədər dövrdə estetik tərbiyənin inkişaf etdirilməsinə xüsusi fikir vermək lazımdır. Estetik tərbiyənin ən təsirli vasitələrindən biri də musiqidir. Musiqi fəaliyyətinin bütün növləri – musiqi dinləmək, mahnı oxumaq, musiqili-ritmik hərəkətlər və s. uşaqların daxili aləinə fərqli formada təsir göstərir. Musiqi məşğələlərində uşaqlar birlikdə olduğu üçün onlarda kollektivçilik, yoldaşlıq və qarşılıqlı əməkdaşlıq hissi yaranır. Bu hisslərin uşaq yaşlarından inkişaf etdirilməsi çox mühüm vəzifələrdən biridir. Məşğələlər zamanı ilk olaraq vacib olan məsələ musiqi seçimini düzgün etməkdir. [3, s.38]

Musiqi tərbiyəsi işində musiqili oyuncaqlar və uşaq musiqi alətləri mühüm rol oynayır. Onlar uşaqlarda böyük maraq doğurur. Məktəbəqədər müəssisələrdə bunların müxtəlif istifadə imkanları mövcuddur. Belə ki, bu həm asudə vaxtı musiqi ilə fərdi şəkildə məşğuliyyət, həm uşaq orkestrində kollektiv ifa ola bilər. Müəllim ilk növbədə bu alətlər vasitəsilə uşaqları musiqi ilə müstəqil olaraq məşğul olmağı sövq etməlidir.

Məktəbəqədər müəssisələrdə musiqili-didaktik oyunların keçirilməsi vacib şərtlərdən biridir. Əylənərək öyrənmək çox maraqlı və əlverişli üsuldur. Musiqi müəllimi uşaqların yaş və maraq dairəsini nəzərə alaraq düzgün metodla çatmaq istədiyi məqsədə nail olmalıdır. Oyun zamanı uşaqlar öz düşüncələrini və anladıqlarını ifadə edirlər. Oyun təcrübələri uşaqların kommunikativ, idraki bacarıqlarının olmasından xəbər verir.

"Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqram"ında hər bir yaş dövrünün xüsusiyyətləri nəzərə alınıb. Proqram tərtib edilərkən hər bir qrup üçün musiqi material seçilərkən aşağıdakı prinsiplər əsas götürülmüşdür:

1. Yaşauyğunluq prinsipi;

2. Musiqi materiallarının rəngarəngliyi prinsipi;
3. Sadədən mürəkkəbə doğru prinsipi;
4. Ardıcıllıq və sistemlilik prinsipi.

Müasir innovasiyalı texnologiyalardan bağçada keçirilən musiqi təlimində də istifadə etmək lazımdır. Texniki vasitələrin köməyi ilə həyata keçirilən musiqi məşğələləri daha maraqlı və canlı keçir.

Musiqi məsğələlərində istifadə olunan texniki vasitələri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Eşitmə yolu ilə uşaqlara təqdim edən texniki vasitələr (audial vasitələr). Səs yazıları, qrammafon valları belə vasitələrdən hesab edilir.

2. Görmə yolu ilə uşaqlara təqdim edən texniki vasitələr (vizual vasitələr). Fotolar, not yazıları, illüstrasiyalar, komputer, proyektor və s. belə vasitələrdən hesab edilir.

Musiqinin uşaq hisslərinə təsiri müxtəlif göstəriş və məsləhətlərdən daha güclüdür. Məşğələlərdə uşaqları fəqli mövzularda olan əsərlərlə tanış etməliyik. Burda əsas məqsəd uşaqların bu əsərlər haqqında daxili düşüncələrini kəşf etmək və nəticə çıxarmaqdan ibarətdir.

Gözəl Vətənimiz, Milli Ordumuz haqqında olan mahnılarda vətənimiz Azərbaycana, millətimizə, Azərbaycan ordusuna sonsuz məhəbbət hissi uşaqlara aşılanır. Müxtəlif xalqların mahnı, rəqs və oyunları beynəlmiləlçilik hissinin, xalqların adət və ənənələrinə marağın artmasına səbəb olur.

Nəzərə almaq lazımdır ki, bütün yaş qruplarında mahnı və melodiyaların öyrədilməsi zamanı sadədən-mürəkkəbə, asandan-çətinə prinsipi gözlənilməlidir. Belə ki, uşaqlar məşğələ zamanı müəyyən bilik, bacarıq və vərdişlər əldə etməklə yanaşı, yorulmasınlar, musiqi məşğələsinin tezliklə sona yetməsini arzulamasınlar. Hər bir musiqi insanı düşünməyə vadar edir. Musiqinin təsiri nəticəsində hər bir insanda fərqli formada əhval-ruhiyyə yaranır. Musiqi dinləmə məşğələsindən əvvəl o musiqi haqqında müəllim məlumat verməli, musiqinin adını, bəstəkar və söz yazarının kim olduğunu uşaqlara deməlidir. Uşaqlar bilməlidirlər ki, musiqidə nədən danışılır. Qeyd etmək lazımdır ki, bütün dinləyicilər musiqini eyni cür anlamır. [2, s.55-59]

Musiqi məşğələləri zamanı uşaqlar hər hansı bir əsəri musiqi rəhbərinin fortepiano ifasında dinlədikdən sonra həmən əsəri orkestrin ifasında eşidirlər. Bu zaman uşaqlar eyni musiqinin fərqli alətlərdə səsləndiyini, alətlərin bir-birindən seçilməsini anlayırlar. Musiqi haqqındakı təəssüratları və dünyagörüşləri genişlənir.

Konsertlər – kiçik dinləyicinin emosional hissini inkişaf etdirən əsas formalardandır. Konsertlər uşaqlara xoş təəssürat, şən əhval-ruhiyyə, bayram sevinci bəxş edir. Konsertin məzmunu məşğələlər üçün tərtib olunmuş musiqi proqramları ilə əlaqədardır.

Mahnı oxuma təlimi zamanı uşaqlardan aktivlik, sərbəstlik, artistizm qabiliyyəti tələb edir. İfa zamanı uşaqlar dik dayanmalı, tam sərbəst olmalı və musiqinin janrına uyğun olaraq müəyyən hərəkətlər etməlidir. Mahnı öyrətmə və ritmikanın metodikasında bəzi oxşar cəhətlər mövcuddur. Birincisi, oxşar metodlar istifadə olunur: əyani-eşitmə, əyani görmə, əyani-hərəkətli, çalışmalar. İkincisi, oxumada da, ritmikada da əsərin çətinliyini, hər uşağın yaş və fərdi xüsusiyyətlərini nəzərə alaraq repertuarın ardıcıl öyrədilməsi prinsipi gözlənilir.[2, s.92-93]

Musiqili-ritmik hərəkətlər uşaqların ən çox sevdiyi musiqi fəaliyyət növlərindən biridir. Uşaqlar hərəkət vasitəsilə eşitdikləri əsərlərə öz münasibətlərini bildirməyi, eləcə də musiqinin xarakterinə uyğun müxtəlif hərəkətlər etməyi bacarmalıdırlar. Bu da uşaqların fantaziya qabiliyyətini artırır. Ritmika fənni üzrə iş həm kollektiv, həm də fərdi hərəkətlər üzərində qurulmalıdır. Ritmik hərəkətlər zamanı aşağı yaş qrupunda öyrədilmiş hərəkətləri təkrarlamaq vacibdir. Bu zaman uşaqlarda o hərəkətləri edən zaman sevinc hissi yaranacaq və yeni hərəkətləri öyrənməyə marağı daha da artacaqdır. Ritmik hərəkətlərin keçirilməsi uşaqların bədən quruluşlarının düzgün formada inkişafına, onların sərbəst olaraq hərəkət qabiliyyətlərinin inkişafına gətirib çıxarır. Ritmika dərsləri elə qurulmalıdır ki, hər bir uşaq şəxsi keyfiyyətini üzə çıxartmaq üçün imkan əldə edə bilsin. [4, s.4-15]

Musiqi məşğələləri aşağıdakı qayda üzrə qurulmalıdır: uşaqların yaş xüsusiyyətlərini, tez yorulmasını, diqqət və diqqətsizliyi nəzərə alınmalıdır. Müəllim uşaqların marağını bilməli və onların fikirlərinin aktivləşməsinə, növbəli şəkildə müxtəlif növ fəaliyyətlərinə imkan yaratmalıdır.

Bayram şənliklərində, əyləncələr zamanı musiqidən düzgün formada istifadə etmək lazımdır. Şənliklərdə ifa olunan mahnılar, musiqili oyunlar, rəqslər zamanı uşaqlar bir-biri ilə əlaqə qurur, kollektivçilik yaradır. Bu prosesin uşaq vaxtından inkişaf etdirilməsi çox önəmlidir. Hətta, səhnəcikdə, oyun və rəqsdə iştirak edən bir neçə uşağın böyük sevincinə digər uşaqlar da şərik olurlar. Nağılın, kukla teatrının, ifası zamanı yeri gəldikcə musiqidən istifadə olunması, müxtəlif personajların obraza uyğun səhnədə çıxış etməsi göstərilən tamaşanı daha da gözəlləşdirir. Şən əhval-ruhiyyənin yaranmasında ifa olunan mahnı, rəqs və musiqili oyunların böyük rolu vardır. Əgər uşaq öyrədilən musiqi materialını tam incəliklərinə qədər qavramışsa, o, ifa zamanı qışqırmadan, çətinlik çəkmədən, sərbəst oxuyur, səlis və dəqiq hərəkətlər edir. [1, s.40-41]

İstifadə edilmiş ədəbiyyat

1. Ağəliqızı.İ. Azərbaycan musiq-zövq mənbəyidir. Bakı-Təfəkkür-2004, 40-41 s.
2. Məmmədova.İ. Uşaqların musiqi dünyası. Bakı-Təfəkkür-2004, 55-59 s, 92-93 s.
3. Məmmədova.İ. Musiqi pedaqogikası. Bakı-ABU-2009, 38 s.
4. Vəliyeva.A., Mayılova.Z., Əliyeva.N. Uşaq bağçalarında musiqi. Bakı: Adiloğlu, 2006

UOT 811.111

QEYRİ-İXTİSAS FAKÜLTƏLƏRİNDƏ XARİCİ DİLDƏ IŞGÜZAR VƏ AKADEMİK KOMMUNİKASİYA FƏNİNİN TƏDRİSİNDƏ QARŞIYA ÇIXAN ÇƏTİNLİKLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI

Fəxriyyə Elçin qızı Məbudova
Mingəçevir Dövlət Universiteti
faxriyya.mabudova@mdu.edu.az

Azərbaycanın beynəlxalq səviyyədə nüfuzunun artması xarici dillərin öyrənilməsini vacib məsələ kimi qarşıya qoymuşdur. Bu yolda universitetlərin rolu danılmazdır. Müasir dövrün tələblərinə cavab verən, tələbəyönümlü universitetlərin sırasında seçilən Mingəçevir Dövlət Universiteti son illərdə daha da inkişaf edərək gənclərin təhsil almasına öz töhfəsini verməkdədir. Pedaqoji heyət müasir metodlardan istifadə edərək beynəlxalq səviyyədə sözünü deyəcək bakalavr və magistrlar yetişdirir. Lakin bu yolda müəllimlər bir çox çətinliklərlə üzləşir.

Universitetdə qeyri-ixtisas fakültələrində xarici dildə işgüzar və akademik kommunikasiya fənninin tədris edilməsində müəllimlərin tez-tez rastlaşdığı çətinliklərdən ən başlıcası birinci kursa qəbul olan bəzi tələbələrin ingilis dili bacarıqlarının olmamasıdır. Burada başlıca səbəb kimi bəzi regionlarda orta məktəblərdə xarici dil kimi alman, fransız və digər dillərin tədris olunması, orada təhsil alan şagirdlərin ingilis dilindən demək olar ki "xəbərsiz" olmalarıdır. Nəticə etibarilə orta məktəbdə digər dilləri keçən tələbələrlə on bir il ingilis dilini öyrənən tələbələrin eyni proqramla birgə təhsil alması müxtəlif xarici dil səviyyəsinə malik olan tələbələrin eyni "çərçivəyə" salınmasına səbəb olur.

Qabaqcıl universitetlərin təcrübələrində bu problemin həlli üçün bir çox tədbirlər görülür. Azərbaycan Diplomatik Akademiyasının bakalavr səviyyəsinə (ADA) qəbul olmaq istəyən abituriyentlər hər il Dövlət İmtahan Mərkəzinin imtahanlarından sonra əlavə olaraq İngilis dili üzrə Səviyyə İmtahanı verməlidir (IELTS, TOEFL və ya Duolingo nəticələri olanlardan başqa). Bu imtahanlar dörd bölmədən ibarətdir: praktik ingilis dili, oxuyub-anlama, dinləmə və yazı.

İngilis dili üzrə Səviyyə İmtahanlarının keçirilməsi iki məqsəd daşıyır:

1) tələbənin bakalavr pilləsində seçdiyi ixtisas üzrə ingilis dilində təhsil alması üçün vacib olan dil bacarıqlarına malik olub olmadığını müəyyən etmək;

2) tələbəni dil səviyyəsinə uyğun olaraq Akademik və Peşəkar Məqsədlər üçün İngilis dili (APMİ) proqramının müvafiq qrupunda yerləşdirmək. Beləliklə abituriyentlərin əvvəlcədən ingilis dili səviyyəsi müəyyən edilir və onlara uyğun proqramlar seçilir. İmtahanın yekun nəticəsi 60 baldan yüksək olduğu halda, tələbələr APMİ-dən azad edilirlər və ADA Universitetinin Bakalavr səviyyəsində əsas akademik tədris proqramına qoşulurlar. [2]

Əlbəttə, belə olan halda müəllimlər dili daha effektiv öyrədir və fərqli dil səviyyələri olan tələbələrə ingilis dilini bir proqram üzrə tədris etmək məcburiyyətində qalmır. Belə imtahanların keçirilməsi üçün müəyyən maddi imkanların tələb olunmasını nəzərə alsaq, tələbələrin ingilis dili səviyyəsini bu dilin orta məktəbdə tədris olunub olunmamasından da müəyyən etmək olar. Beləliklə, əvvəlcədən fərqli dil səviyyələri olan tələbələri ayrı-ayrı qruplarda yerləşdirməklə daha effektiv dərsə nail olmaq olar.

Bununla belə, fərqli dil səviyyələri olan tələbələrə eyni proqram üzrə dil öyrədərkən tədris ediləcək dil biliklərinə uyğun metod seçilməlidir. Belə olduqda dil tədrisi tələbələr üçün çətin və cansıxıcı olmur və tələbələr daha həvəslə dil dərslərində iştirak edir. Bundan başqa xarici dillərin tədrisində müasir metodlardan istifadə tələbələrin xarici dili mənimsəməsi prosesini daha da sürətləndirir və onların xarici dildə sərbəst danışmasına səbəb olur. İngilis dilinin kommunikativ metodla tədrisi tələbələrdə motivasiya yaratmaqla bərabər, onların öyrənmə prosesinə cəlb olunmasını təmin edir. Əlavə olaraq, xarici dil dərslərində informasiya kommunikasiya texnologiyalarından (İKT) istifadə də çox əhəmiyyətlidir. Müasir dövrdə xarici dil dərslərində İKT-dən istifadə zərurətə çevrilmişdir. İKT vasitəsilə dərsdə real dil mühiti yaradılır və bu da tələbələrin dil baryerini aşmasına səbəb olur. İKT dərs prosesini daha maraqlı, dinamik və çevik edir, onu daha da asanlaşdırır və sadələşdirir. [1]

Əlbəttə, bu işdə müəllimin özü də yetərincə savadlı və səriştəli olmalıdır. Qeyri-ixtisas fakültələrində xarici dildə işgüzar və akademik kommunikasiya fənninin tədrisində qarşıya çıxan problemlərdən biri də bəzən sinifdə tələbələrin sayının çox olmasıdır. Sinifdə çox sayda tələbənin olması müəllimlər üçün çox narahatlıq və stress yaradır, çünki çox sayda tələbəyə dərs deyən müəllimlər daha çox səy və zəhmət çəkməlidirlər. Sinifdə tələbənin çox olmasının yaratdığı problemlərdən biri də onları idarə etmək baxımından yaranan çətinlikdir. Sayı 20-dən çox olan siniflər tələbələrə və müəllimlərə suallar, müzakirələr və yazılar vasitəsilə bədii mətnlərlə məşğul olmaq imkanı vermir.

Əlbəttə ki, izdihamlı tələbələri öyrənməyə cəlb etmək də çox çətindir, ikinci dilin öyrənilməsinin tələb etdiyi intensiv qarşılıqlı əlaqəni nəzərə alsaq iyirmidən çox olan xarici dil siniflərində buna nail olmaq çətinlik törədir. Böyük kollec və universitet siniflərinin tələbələrin öyrənməsinə mənfi təsirləri ilə əlaqəli olduğu müəyyən edilmişdir. Belə ki, sinif ölçüsü artdıqca tələbələr və müəllimlər arasında qarşılıqlı əlaqə və mübadilənin həcmi və intensivliyi ümumiyyətlə azalır və bu da öz növbəsində tələbələr arasında anonimlik və passivliklə nəticələnə bilir. [3]

Bundan başqa, tədris resurslarının bütün tələbələr üçün mövcud olmaması problemi daha da mürəkkəbləşdirir. Əksər dil müəllimləri öz təcrübələrinə əsaslanaraq xarici dil dərslərində ideal tələbə sayının 10-12 tələbə arasında olmasını təklif edir. Standartlara əsaslanan dil proqramının məqsədlərini (yəni tələbələrin kommunikativ səriştəsinin inkişafı) nəzərə alaraq, tələbə-müəllim və tələbə-tələbə arasında tez-tez və mənalı qarşılıqlı əlaqə, monitorinq olunan təcrübə və fərdi əks əlaqə imkanı olmalıdır. Əsas diqqət uğurlu öyrənmə üçün vacib olan fəal iştirak və qarşılıqlı əlaqə imkanıdır. Tədris vaxtı bu, mümkün qədər kiçik olan sinifdə daha zəmanətli və effektiv olur.

Qruplarda, adətən, tez öyrənən tələbələrlə yanaşı daha çox köməyə ehtiyacı olan tələbələrə rast gəlmək olur. Qarışıq dil bacarıqları olan qruplarla işləməyin bir çox çətinlikləri var. Məsələn, daha sürətli öyrənənlərdən bir və ya ikisi qrup işində üstünlük təşkil etdikdə və ya biz tələbələrin

bildiklərini izah etdikdə bu onlar üçün cansıxıcı olur. Əksinə, zəif öyrənənlər suala cavab verə bilmədikdə bəzən məyusluq hiss edirlər. [5]

Xarici dil dərslərində tələbələrin ana dilində danışması ingilis dili müəllimlərinin qarşılaşdıqları ən diqqət çəkən problemlərdən biridir. Tələbələr üçün öz ana dilində danışmaq çox asandır, buna görə də onlar artıq təcrübəyə malik olduqları dildə ünsiyyət qurmağa cəhd edirlər. Bu isə xarici dil müəllimlərinə tələbələrə ingilis dilini öyrətməkdə manea yaradır. Bundan başqa təkcə ingilis dilinin deyil, bütün fənlərin tədrisi daha çox resurslardan asılıdır. Fənnin tədrisi üçün zəruri olan resurslar olmadan müəllimlərin dərs keçməsi çox çətindir. Resurslara dinamiklər, mikrofonlar, proyektorlar, kompüter sistemləri və digər rəqəmsal cihazlar daxildir. Sənəd kameraları, kompüter proyektorları və kompüter laboratoriyasına və internetə çıxışın olması ingilis dili dərslərində öyrənməni xeyli yaxşılaşdıra bilər. [4] Belə resurslar sinif mühitini tələbələr üçün maraqlı və təsirli edir və onlara ingilis dilini öyrənməyə kömək edir. Tələbələrə ingilis dilinin effektiv şəkildə öyrənilməsi üçün zəruri olan resurslarla müəllimlərin təmin olunmaması da fənnin tədrisində çətinliyə səbəb olur.

Yaxın vaxtlarda Mingəçevir Dövlət Universitetində müasir tələblərə cavab verəcək kampusun tikilməsi bu problemin aradan qalxmasına zəmin yaradacaq. Beləliklə, qeyri-ixtisas fakültələrində xarici dildə işgüzar və akademik kommunikasiya fənninin tədrisində qarşıya çıxan çətinliklər bəzi tələbələrdə universitetə qəbul zamanı ingilis dili bacarığının tamamilə olmaması, fərqli dil bacarıqlarına malik tələbələrin eyni qrupda təhsil alması və onlardan bəzilərinin ana dilində danışmağa cəhd etməsi, siniflərdə tələbə sayının çoxluğu və resursların çatışmamasıdır ki, bu problemlərə həlli yolu olaraq müasir tələblərə cavab verəcək kampusların tikilməsi, abituriyenlərin qəbulu zamanı onların dil səviyyələrinin nəzərə alınması, dərs prosesi zaçmanı daha müasir metodlardan istifadə olunmsını göstərmək olar.

İstifadə edilmiş ədəbiyyat

1. İradə Şükürova, Xarici dil tədrisində İKT-nin rolu / Filologiya məsələləri, № 12, 2021, s.117-119

2. www.dim gov.az -Dövlət İmtahan Mərkəzinin rəsmi saytı

3. Catherine Mulryan-Kyne. Teaching large classes at college and university level: challenges and Opportunities / Teaching in Higher Education , Vol. 15, No. 2, April 2010, pp. 175-185

4. Larry Ferlazzo, Katie Hull Sypnieski, ESL/ELL Teacher's Surviva guide, Ready-to-Use Strategies, Tools, and Activities for Teaching All Levels, Printed in the United States of America, 2012, first edition, p.313

5. Jason Anderson, British council / What to consider when teaching English in large classes,10 November 2016

UOT 930 (094.2):351 (47096)

QARABAĞDA TARİXİ QƏLƏBƏMİZ

[1,3]**Tohid Dilən oğlu Məmmədov,** [2,3]**Əhliman İbrahim oğlu Dadaşzadə**
[1]tarix üzrə fəlsəfə doktoru
tohid.mamedov@mail.ru
[2]ehlimandadaszade@gmail.com
[3]Sumqayıt Dövlət Universiteti

Mötəbər tarixi mənbələr birmənalı şəkildə Qarabağın əzəli Azərbaycan torpağı olduğunu , ermənilərin bölgəyə XIX əsrin əvvəllərində məqsədli şəkildə köçürülməsi faktını sübuta yetirir.

Ermənistan-Azərbaycan Daölıq Qarabağ münaqişəsi Ermənistanın Azərbaycana qarşı haqsız torpaq iddiası əsasında baş verən işğalçılıq siyasətindən doğan münaqişədir. Bəzi dövlətlər bu münaqişəyə daha çox Azərbaycanda milli münqişə kimi qiymət verməyə çalışırlar ki, güya bölgədə yaşayan ermənilər Azərbaycan rəhbərliyi tərəfindən sıxışdırıldığından onlar öz müqıddaratını həll etmək istəyirlər. Əsil həqiqət isə "Böyük Ermənistan" planını gerçəkləşdirməkdir.

Qaranağın Dağlıq hissəsində yaşayan ermənilər "öz müqəddaratını təyin etməsi" prinsipinə gəlincə isə, xatırladırıq ki, bunun hec bir hüquqi əsası yoxdur. Çünk bölgədə yaşayan ermənilər Azərbaycanda yaşayan azsaylı xalqların bütün hüquqlarından tam istifadə ediblər. Eyni zamanda apardığımız araşdırmalardan məlum olur ki, Qarabağın dağlıq bölgəsində yaşayan ermənilərin sosial-iqtisadi durumu ümumrespublika səviyyəsini həmişə üstələmişdir. Deməli, nə "sosial-iqtisadi" gerilik, nə də "sıxışdırılma" problemi real deyildir.Bunlar yalnız bəhanədir. [1, s.11].

Qeyd edək ki, Ermənіisan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi tarixilik xüsusiyyətlərinə malikdir, yəni ermənilərin Cənubi Qafqazda məskunlaşdığı andan onların işğalşılıq xüsusiyyətindən doğaraq azərbaycanlılarla münasibətlərində zaman-zaman münaqişələri mövcud olmuş və bu proses özünü açıq və gizli şəkildə büruzə vermişdir. Siyasi və hərbi vəziyyətin münasibliyini görən kimi ermənilər münaqişəni dərhal açıq formaya keçirmişlər. Həmçinin onlar münaqişə ruhunu yaratmaq üçün nəsildən-nəsilə milli nifrət hissini gənc nəslə diqtə etmişlər. Bütün 20-ci yüzillik boyu əsassız ərazi iddiaları davam etmiş və 20-ci əsrdə iki dəfə azərbaycanlılarla ermənilər arasında münaqişə dövlərlərarası münaqişəyə keçmişdir. 1918-ci ildə AXC dövründə və 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra münaqişə şəklini dəyişmiş və Ermənistan-Azərbaycan Dağlıpq Qarasbağ münaqişəsi beynəlxalq münasibətlər sisteminin müzakirə mövzusuna ötürülmüşdür. Bütövlükdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən böyük dövlətlər reqionda maraqlarının təmin olunması üçün istifadə etmişlər və bu gün də davam etməkdədirlər.

Onu da qeyd etmək yerinə düşərdi ki, bol təbii sərvətlərə malik Azərbaycanın Qarabağ torpağına göz tikən ermənilərin 1988-ci ildən bəri xalqəmıza qarşı törətdiyi dəhşətli cinayətlərə baxmayaraq Azərbaycan heç vaxt müharibə ritorikasının tərəfdarı olmayıb. O, hüququn gücünə, ədalətin təntənəsinə güvənərək həmişə danışıqlar prosesinə hazır olduğunu nümayiş etdirmişdir. Bütün bunlara baxmayaraq təcavüskar ermənistan dövləti bundan sui istifadə edərək özünün işğaıçı siyasətindən əl çəkmədi.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi, Azərbaycan tərəfi üçün milli mövcudluq və təhlükəəsizlik məsələsi olduğundan Azərbaycan bu məsələ ilə bağlı birmənalı mövqe sərgiləmiş, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunması tezisini gerçəkləşdirmək mövqeyindən geri çəkilməmişdir. Ötən illər ərzində hər zaman beynəlxalq səviyyədə keçirilən tədbirlərdə istər Ulu öndər Heydər Əliyev, istərsə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın haqlı mövqeyini, sülhsevər siyasətini, regionda əminamanlığın bərqərar olunmasının zəruri olduğunu hər dəfə, israrla bəyan edib. Ancaq təcavüskar Ermənistan liderləri hər zaman fitnəkar, işgalçı siyasətlərinə bəraət qazandırmağa davam etdirmiş, hətta Ermənistanın baş naziri N.Paşinyan "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını dilə gətirməkdən çəkinməməklə qarşı tərəfin sülh məramına və beləliklə, danışıqlar prosesinə tam mane olmuşdur. Buna cavab olaraq, Prezident İlham Əliyevin Rusiya Fedarasiyasının Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq Diskusiya Klubunun 26-cı illik iclasının plenar sessiyasında "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır", "Qarabağ Azərbaycandır və nida işarəsi" kəskin fikir ifadə etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin zəngin biliyi və diplomatik məharəti canlı debatlarda verdiyi bəyanatlarda özünü aydın surətdə göstərdi. Belə ki, Nikol Paşinyan ilə olan məşhur Münhen debatında isə İlham Əliyev dünyanın gözü qarşısında ona bir tarixi dərs kerçdi.Azərbaycan Respublikasının prezidenti İlham Əliyev növbəti dəfə sübut etdi ki, Azərbaycan xalqının ən böyük və mötəbər sərvəti onun müstəqil və suveren dövlətidir. Ali Baş Komandan tarixi fakrlara, mənbələrə əsaslanaraq, Qarrabağın tarixən Azərbaycanın ərazisi olduğunu sübut etdi.

Bir faktı da qeyd emək yerinə düşərdi ki, İkinci Qarabağ müharibəsində Azərbaycanın müvəffəqiyyətlərinə ATƏT-in Minisk qurupunun həmsədr dövlətlərindən biri olan Frasa və onun siyasi rəhbərliyi ermənipərəst mövqeyi ilə xüsusi cənfəşanlıü nümayiş etdirdi və indi də etdirir. Yaxın qonşumuz İran adlanan dövlətlə bİzə qarşı yarişa girmişlər. Bəlkə də Fransa sözügedən qurumun üzvü olmasaydı və ermənipərəs mövqeyini loyal bir səviyyədə ifadə etməsydi, bu başa düşülən olardı. Fransa münaqişənin həllində vasitəçilik missiyası daşıyan ATƏT-in Mins qrupunun həmsədri statusunda olan 3 dövlətdən biri olmuşdur.

Beynəlxalq hüquqa görə, münaqişənin tənzimlənməsində vasitəşi olan tərəf və tərəflər ilk növbədə qərəzsiz, tərəfsiz, obyektiv və neytral mövqedə olmalıdır. Reallıqda isə Fransa dövləti öz prezidentinin timsalında beynəlxalq hüquqda vasitəçilər üçün müəyyən edilmiş norma və prinsiplərə məhəl qoymadı.

Fransa qanunvericilik orqanı öz secicilərinə hörmətsizliyi davam etdirir. Ölkə senatı dövlətin marağını erməni nobbisinə qurban verir. Fransa senati bir daha beynəlxalq hüquqa hörmətsizlik etməklə terroru, ixtişaşı, münaqişəni, işğalı dəstəklədiyini müdafiəcisi oldiğunu nümayiş etdirib.

Belə ki, Fransa parlamentinin yuxarı palatası – Senat növbəti dəfə beynəlxalq hüququn norma və prinsiplərinə açıq hörmərsizlik nümayiş etdirərək, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı qərəzli və ədalətsiz qətnamə qəbul edib. [2]

Qeyd etmək yerinə düşərdi ki, İran adlanan dövlər də həm 1-ci və 2-ci Qarabağ müharibəsi dövründə və indi erməninin yanındadir. İşqal olunmuş ərazilərimizin xarabazarlığa cevrilməsində İranın birbaşa rolu vardır.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, işğal olunmuş ərazilərimizdə mülki Azərbaycan əhalisinə qarşı hərbi təcavüzü, işğal olunmuş ərazilərimizdə mülki Azərbaycan əhalisinə qarşı törətdiyi qanlı etnik təmizləmə siyasəti, Xocalı Soyqrımı, Azərbaycanlı əsir və kirovların işgəncələrə məruz qoyulması, öldürülməsi və kütləvi məzarlıqda basdırılması və digər bu kimi hərbi və insanlıq əleyhinə cinayət və soyqrımı əməlləri, dəlillər və şahidlərin ifadələri əsasında sənədləşdirilib və beynəlxalq təşkilatlara təqdim edilmişdir. Müharibənin gedişində də Ermənistan dövlətinin rəsmi trrçu mahiyyətinə adekvat qiymət verilməlidir. Məhz Ermənistan öz beynəlxalq öhdəliklərini qəsdən pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla, Ağcabədi, Ağdam, Bərdə, Beyləqan, Tovuz, Şəmkir, Tərtər, Goranboy, Gədəbəy, Füzuli rayonlarında yerləşən şəhər və kəndlərə, həmçinin Gəncə və Mingəçevir şəhərlərinə, Xızı və Abşeron rayonları istiqamətində raket zərbələri endirilib, eyni zamanda qanunsuz qadağan olunmuş fosfor tipli silahlardan da istifadə edilmişdir. Azərbaycan Respublikası Baş prokurorluğu Ermənistan silahlı qüvvələrinin, əhalinin yaşayış məntəqələrini ağır artileriyadan atəşə tutulması nəticəsində 27 sentyabr 2020-ci ildən 94 mülki şəxsin həlak olması, 414 nəfərin yaralanması , 512 mülki obyektə və 3410 mülki evə ziyan vurulması barədə məlumat yayılıb.

Sentyabrın 27-də əks hücum ilə başlanan və Vətən müharibəsi kimi xarakterizə edilən İkinci Qarabağ müharibəsi cəmi 44 gün çəkdi. Ay yarım ərzində Ermənistan, Qarabağ, xaricdə yaşayan ermənilərdən, PKK, PTD/YPG, ASALA və Yaxın Şərqin Yaxın şərqin digər terror təşkilatlarından ibarət işğalçı və cinayətkar ordunun qarşısında Azərbaycan ordusu elə bir zəfər səlnaməsi yazdı ki, bu barədə xarici ölkələrin qərargahlrında, hərbi təhsil və hərbi-tədqiqat aparılacaq və öyrəniləcəkdir.

Heç kəsin ağlına gəlməzdi ki, 27 il işğal altında qalan torpaqlarımız cəmi 44 gün işində azad olunsun. Lakin 2020-ci il sentyabrın 27-də başlayan və noyabrın 10-da yekunlaşan 44 günlük müharibə nəticəsində Ermənistan tərəfindən işöal olunmuş rayonlarımız, şəhər və qəsənələrimiz düşmənlərdən təmizləndi. Əlbəttə, bu qələbə Ali baş komadanın böyük siyasi iradəsi, qətiyyətli qərarları, əsgər və zabitlərimizuin ölşüyəgəlməz hünər və rəşadəti sayyəsində əldə olundu. İndi qarşıda duran əsas məsələ azad etdiyimiz torpaqlarda hərbi cəhətdən möhkəmlənmək, düşmənin revanşist qüvvələrinə heç bir halda aman verməmək və ən əsası dağıdılmış, vandalizmə məruz qalmış yudd yerlərimizi dirçəltmək, vaxtilə orada mövcud olmuş həyatı yenidən bərpa etməkdir. Bu

proesesə isə indi artıq start verilib. Çünki bu proses Azərbaycan xalqının və dövlətinin tarixi misiyasıdır.

Məlum olduğu kimi, Prezident İlham Əliyev müharibədən sonra işğaldan azad edilmiş şəhər və rayonlarımıza coxsaylı səfərlər edir. Bu səfərlər çərçivəsində yeni inkişaf istiqamətləri, yeni vəzifələr qarşıya qoyulur. Həmçinin səfərdən sonra həmin ərazilərdə pərpa işlərinin aparılması ilə bağlı imzalanan sənədlər də bu torpaqların qısa müddətə cəlbedici bir məkana çevriəcəyindən, yeni regional inkişaf proqramlarının icrasına başlayacağından xəbər verir. [3, s.3]

Nəticə olaraq göstərə bilərik ki, İkinci Qarabağ müharibəsində Azərbaycan Respublikasının Prezidenti Müzəffər Ali Baş Komandan İlham Heydər oğlu Əliyevin yüksək sərkərdəlik səriştəsi, qarşıdakı çətinliyi əvvəlcədən görüb ondan düzgün çıxmaq bacarığı, rəhbərlik-liderlik istedadı, diplomatik danışıq ustalığı, siy-kökünə barizliyi, xalqına, dövlətinə, torpağına ürəkdən bağlılığı və digər sadalamadığımız ülvi dəyərləri üzə çıxdı və bütün bunlar şanlı qələbəmizi labüd etdi. Alternativ olmayan şərkərdənin fitri istedadı, yüksək bacarığı nəticəsində bir milyondan artıq Azərbaycan vətəndaşınşn ən müqəddəs arzusu reallaşdı, 30 illik yurd həsrətinə son qoyuldu. Azərbaycan ərazisində olan torpaqları işğaldan azad etməklə, BMT-nin 4 mühüm qərarı reallaşdı. Eyni zamanda, torpaqlarımız işğaldan azad olunmaqla, Qarabağın əsil Azərbaycan ərazisi olduğu təsdiqləndi, çünki heç kəs öz evini, dini inanc məkanını, əkdiyi ağacı, becərdiyi torpağı viranə qoya bilməzdi, ermənilər isə barbarlıq hərəkətləri və ümümbəşəri cinayətlər törətməklə, bu torpağın sahibi olmadıqlarını sübut etdilər.

Azərbaycanın Qarabağda şanlı qələbəsi ilə Ali Baş Komandanın liderlik bacarığı tam sübut olundu və xalqının qəlbində əbədi Prezident – milli Lider olaraq yuva saldı. Azərbaycan Prezidenti təcrübəli bir kapitan oaraq möhtəşəm, məqsədyönlü fəaliyyəti ilə Azərbaycan Gəmisini tarix okeanının tufanlarından, qasırğalarından sağ-salamat keçib, uğurla irəliyə aparan əvəzolunmaz Lider olduğunu təsdiqlədi.

Eyni zamanda Ali Baş komandan İlham Heydər oğlu Əliyev Vətən müharibəsindəki şanlı qələbəsilə əsi insan, böyük rəhbər, təcrübəli içtimai-siyasi xadim, cəsur sərkərdə, vətənpərvər vətəndaş olduğunu sübuta yetirdi. Azərbaycan xalqı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin tezliklə işğaldan azad olunmuş torpaqlarımıza təmizləmə, tikinti quruculuq işlərinin uğurla davam etdiriləcəyinə, məcburi köçkünlərimizin doğma yurdlarına qayıdacaqlarına inanır!...

İstifadə edilmiş ədəbiyyat

1. N.Məmmədov. İkinci Qarabağ Müharibəsi zəfər salnaməsi. Bakı: Optmist, 2022
2. https//qafqaz info.az.nems.detail.resmi-paris in azerbaycana-qarşı-siyasi terrory-382215.
3. Anar Turan. Qarabağın dircəldiməsi tarixi missiyası, Xalq qəz, 2022, 30 aprel, s. 4

UOT 37. 37.01

TƏDRİS-TƏDQİQAT PROSESİNDƏ PEDAQOJİ TEXNOLOGİYALARDAN İSTİFADƏ

[1,2]Allahverdi İsgəndər oğlu Quliyev, [2,3]Zeynəb Tahir qızı Ələkbərova
[1]pedaqoji elmlər üzrə fəlsəfə doktoru, dosent
dos.allahverdi.quliyev59@mail.ru
[2]zeyneb.alekberova02@gmail.com
[3]Gəncə Dövlət Universiteti

Elm və texnikanın sürətlə inkişaf etdiyi, ictimai-siyasi sistemdə baş verən dəyişikliklər, dünyada gedən qloballaşma və s. gənc nəslin yetişdirilməsinə, tərbiyə olunmasına, bir şəxsiyyət kimi formalaşmasına yeni tələblər verir. Bu mürəkkəb və həlli uzun müddətli gərgin zehni əmək

tələb edən tələblərin müvəffəqiyyətli həlli həm də digər tərəflərlə yanaşı məktəbdən, müəllimdən, pedaqoji prosesin təşkilindən və s. çox asılıdır.

Ə.Ə.Ağayev pedaqoji texnologiyalardan istifadənin zəruriliyini aydınlaşdırır: "Müasir dövrdə pedaqoji prosesin həyata keçirilməsi sahəsində yeniliklər, dəyişikliklər, yeni təhsil modellərinin yaranması, ölkələrdə təhsil sisteminin müxtəlifliyi və s. bu kimi əlamətlər pedaqogikanın sosial mahiyyətini və psixoloji yönümünü daha da aktuallaşdırıb. Hazırda pedaqoji psixologiyasız, eləcə də sosial pedaqogikasız təlimin məqsədi, təşkili məsələlərini, təlim-tərbiyədə subyekt-subyekt münasibətlərini, təlimdə interaktiv prosesin təşkilini və s. dəqiq müəyyənləşdirmək və yeniliklərə nail olmaq xeyli çətin olardı". O, yeni texnologiyaların təcrübi məsələlərini şərh edərkən aşağıdakı metodları önə çəkir:

- debatlar (yazılı debatlar);
- tədqiq etmə bacarıqları;
- təqdimat;
- sənədlərlə iş; [1]

Şagirdlərin idrakını fəallaşdıran yeni təlim texnologiyalarının işlənilməsi hazırda pedaqoji təcrübədə çox aktual olduğundan dünyanın əsər ölkələrində ona saysız-hesabsız tədqiqatlar həsr olunmuşdur. Müasir dövrdə kompüterin, internetin və xüsusi proqramların olması distant tədrisi, onlayn ekskursiyaları, konfransları və məsləhətləşmələri mümkün edir.

Təlim prosesində mövzu öyrənilməsinin sonunda nəzarət kimi kompüterdə testlərdən istifadə edilir. Məktəblər fərdi uşağın, sinfin və ya müəyyən bir fənn üzrə irəliləyişin nəticələrini izləyə biləcək elektron jurnallar sistemindən istifadə edir. Artıq elektron gündəliklər də istifadəyə verilir, burada qiymətlər verilir və ev tapşırıqları qeyd olunur.

Beləliklə, valideynlər uşağın ballarını və tapşırıqların mövcudluğunu texnologiyalar vasitəsilə öyrənə bilirlər.

Gənc nəslin həyata hazırlanmasında, şəxsiyyət kimi formalaşmasında, ləyaqətli vətəndaş kimi yetişməsində digər tərəflərlə yanaşı müəllimin də özünəməxsus yeri və rolu vardır. Bu nöqteyi nəzərdən gənc, müasir tələblərə cavab verə biləcək müəllim kadrlarının hazırlanması, onların gələcək pedaqoji prosesdə, pedaqoji fəaliyyətlərində rastlaşacaqları yüzlərlə müxtəlif qabiliyyətli və xarakterli insanlarla işləmək, nailiyyətlər əldə etmək üçün lazımi bilik, bacarıq və vərdişlərlə silahlandırmaq müəllim kadrlarının hazırlanması ilə məşğul olan hər bir pedaqoji kolletivin müqəddəs vəzifəsidir. [2]

Təcrübə göstərir ki, pedaqoji fəaliyyət prosesində qarşıya minlərlə çox mürəkkəb suallar çıxır. Bu suallara yerində, düzgün cavab tapmaq isə işin müvəffəqiyyətli həllini təmin edir. Pedaqoji ixtisaslar üzrə təhsil alan tələbələrin gələcəkdə hansı suallarla və hansı çətinliklərlə qarşılaşacaqları, onların necə aradan qaldırılması və s. haqqında dəqiq siyahı, yol və vasitə göstərmək mümkün deyil. Lakin həmin çətinlikləri aradan qaldırmaq üçün lazımi bilik, bacarıq və vərdişlərlə silahlandırmaq mümkündür.

Suallar və məsələlər, test tapşırıqları tələbələri elmin tədqiqat metodlarını öyrənməyə, onların yaradıcılıq, axtarıcılıq, tədqiqatçılıq qabiliyyətlərinin inkişafına kömək edir, elmi-tədqiqat işlərinə həvəs yaradır. Həmçinin təlim-tərbiyə prosesini, onların mahiyyətini, qanun və qanunauyğunluqlarını, prinsip və üsullarını daha dərindən mənimsəyir. Öyrənirlər ki, işgüzar, öz peşəsinin ustası və vurğunu olan müəllimlər həmişə vətənin, millətin gələcəyi naminə gənc nəslin təlim-tərbiyəsi işində ilham və yaradıcılıqla işləyir , innovasiyalar edir , cəmiyyətin inkişafı ilə əlaqədar yeni texnika və texnologiyaları mənimsəyir, fəaliyyətlərində tətbiq etməklə yüksək nailiyyətlər əldə edir, əməyinin bəhrəsini vətənin çiçəklənməsində, millətin xoşbəxtliyində görür. Nəticədə tələbələr özlərində də həmin keyfiyyətləri formalaşdırmağa, müəllimə verilən tələblərə uyğun olaraq, biliklərə, peşə bacarıq və vərdişlərinə yiyələnməyə çalışırlar.

Bütün bunlarla yanaşı, tələbələr öyrənirlər ki, öz peşəsinə laqeyd olanlar, pedaqoji ustalığa, dərin bilik və mühakimə qabiliyyətinə malik olmayanlar heç vaxt müvəffəqiyyət qazana bilməz. [3]

Təhsilin müasir inkişaf tendensiyalarının təhlili göstərir ki, mütəxəssis hazırlığının keyfiyyəti müəllimin öz peşə funksiyalarını yerinə yetirməsinin tamlığı və effektivliyindən asılıdır: qnostik, dizayn, konstruktiv, təşkilati, kommunikativ və maarifləndirici.

Qnostik funksiyalar son pedaqoji məqsədləri aşağıdakı məsələlərin həlli ilə əlaqələndirilir:

- bu funksiyaların məhsuldar yollarını və formalarını tapmaq;
- plana uyğun əldə edilmiş nəticəni təhlil etmək;
- təhsil, müxtəlif növ yenilikləri ümumiləşdirmək və tədris prosesinə daxil etmək;
- prosesdə məhsuldar və koqnitiv əməkdaşlıq mühitini yaratmaq.

Müəllimin *dizayn pedaqoji funksiyaları* müəyyən mərhələnin və ya təlim prosesinin sonunda əldə ediləcək yekun nəticələrin müəyyən edilməsi; tədris materialının məzmununu, digər fənlərlə əlaqəsini və gələcək peşə fəaliyyətini modelləşdirməsi ilə əlaqələndirilir.

Müəllimin *konstruktiv funksiyaları* yeni işlənmiş və ya haqqında məlumatı seçmək və strukturlaşdırmaq, yenilənmiş təlim kursları, fərdi qabiliyyətləri, xüsusiyyətləri nəzərə alaraq, pedaqoji fəaliyyətin müxtəlif üsullarını mənimsəmək ehtiyacı ilə əlaqədardır.

Təşkilati funksiyalara pedaqoji prosesin didaktik şəraiti nəzərə alınmaqla tələbələrin qrup və fərdi işinin təşkili; qrupun sosial-psixoloji vəziyyətinin idarə edilməsi və sinifdə ayrı-ayrı tələbələrin psixi vəziyyəti daxildir.

Müəllimin *kommunikativ funksiyaları* müəllim arasında müsbət və sabit kommunikativ əlaqənin olmasını nəzərdə tutur. [4]

Beləliklə, tədris-tədqiqat prosesində pedaqoji texnologiyalardan istifadə pedaqoqun malik olduğu mədəniyyətin köməyi şagirdlərin ətraf mühitlə fəal qarşılıqlı əlaqələrinin tənzimlənməsini təmin edir.

İstifadə edilmiş ədəbiyyat

1. Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006, 138 s.
2. İnteraktiv kurikulum. F.Kərimova, M.Əhmədova, G.Varella və b. ingiliscədən tərcüməsi. Bakı: Adiloğlu, 2005, 233 s.
3. Mehrabov A.O., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı: Mütərcim, 2006, 372 s.
4. Абасов З.А. Педагогические технологии и инновации в учебной деятель-ности школьников. // Школьные технологии, 2002, № 5, с. 56-61

UOT 372.8:82

FƏNN KURİKULUMUNUN TƏLƏBLƏRİNİN VIII SİNİF ƏDƏBİYYAT DƏRSLİYİNDƏ REALLAŞDIRILMASI İMKANLARI

Bilal Ağabala oğlu Həsənli
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Əməkdar müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
bilalhasanli@yahoo.com

Ümumtəhsil məktəblərinin VIII sinfi üçün ədəbiyyat fənni üzrə dərslik komplektində dövlətçilik maraqları, təhsil sistemimizin özünəməxsusluğu, milli mənəvi dəyərlərə, kurikulumun

məqsəd və vəzifələri əsas götürülmüş, milli mənəvi dəyərlərimizə bağlı şəxsiyyətin formalaşmasında mühüm əhəmiyyətə malik, zamanın və məktəb təcrübəsinin sınağından çıxmış söz sənəti incilərinin kurikulumda və təhsil strategiyasında xüsusi önəm verilən interaktiv təlim texnologiyası və İKT vasitələrindən istifadə ilə öyrədilməsi məqsədəuyğun sayılmışdır.

Dərsliyə şifahi xalq ədəbiyyatı, Azərbaycan klassik ədəbiyyatı, eləcə də dünya ədəbiyyatından seçilmiş yüksək ideya-bədii dəyərə malik, milli və ümumbəşəri dəyərləri, gənc nəslin mənəvi-estetik tərbiyəsi, müasir dünyagörüşünün formalaşdırılması, təfəkküründün inkişafı baxımından aktual mövzu və problemləri əks etdirən, müxtəlif janrlarda, şagirdlərin yaş və qavrama səviyyəsinə, maraq dairəsinə uyğun əsərlər daxil edilmişdir.

Dərslikdə belə bir mühüm cəhət nəzərə alınmışdır ki, digər fənn kurikulumları kimi, ədəbiyyat fənn kurikulumunun da fəlsəfə və məntiqinin əsasında məzmun standartlarının (alt standartların) sinifdən-sinfə keçdikcə yeni situasiyada, daha mürəkkəb bədii mətn üzərində tətbiqi, dərinləşdirilməsi və genişləndirilməsi durur.

Bu baxımdan əvvəlki siniflərdə öyrənilmiş epik, lirik, dramatik növün janrlarına VIII sinifdə daha mürəkkəb bədii mətnlərin nümunəsində müraciət kurikulumun mühüm əhəmiyyət kəsb edən tələblərindəndir.

V və VII siniflərdə olduğu kimi, bu dərsliyin də metodoloji konsepsiyasının əsasında şagirdlərdə idraki, informativ-kommunikativ və psixomotor bacarıqların formalaşdırılması durur. Təlim materiallarının mənimsənilməsi və müvafiq fəaliyyət növlərinin tətbiqi üç əsas metodoloji mərhələyə bölünür:

- mövzu ilə bağlı əvvəlki biliklərin aktuallaşdırılması;
- yeni biliyin mənimsənilməsi;
- bilik və bacarıqların tətbiqi, dəyərləndirilməsi.

1. Təlim materialının öyrənilməsi üzrə işin ilk mərhələsi motivasiya, idraki maraqoyatmadır. Müxtəlif üsul və vasitələrdən, ilk növbədə mövzu ilə bağlı əvvəlki biliklərin aktuallaşdırılmasını təmin edən düşündürücü sual və tapşırıqlardan, internet mənbələrindən (Google, You Tube, Vikipediya və s.) istifadə şagirdlərdə təlim materialına ciddi maraq oyadır, yeni biliyin fəal mənimsənilməsi üçün zəmin yaradır. Bu prosesdə məktəblilərin idrak fəallığı stimullaşdırılır, onlar tədqiqatçılığa yönəldilir.

2. Yeni biliyin mənimsənilməsi fənn kurikulumunun fəlsəfəsinə və məntiqinə uyğun olaraq, iki mərhələdə həyata keçirilir: bədii əsərin məzmununun mənimsənilməsi və təhlili.

Bədii əsərin məzmunun mənimsənilməsi məqsədilə müəllimin nümunəvi ifadəli oxusu, bədii oxu ustasının ifasının dinlənilməsi, şagirdlərin səsli, səssiz oxusu, fasilələrlə oxu və s. oxu növlərindən istifadə ilə həyata keçirilir.

Kurikulumdakı 1.1. əsas standartının (Bədii əsərin məzmununun öyrənilməsi) təlim prosesində reallaşdırılması məqsədilə aşağıdakı iş növlərindən istifadə nəzərdə tutulur:

– Şagirdlərin mətndəki tanış olmayan sözlərin mənasını dərsliyin sonunda verilmiş lüğətdən, eləcə də digər lüğət və sorğu kitablarından istifadə etməklə müstəqil aydınlaşdırmaları üçün tapşırıqlar;

– Süjetli bədii nümunələrin (əfsanə, nağıl, dastan, təmsil, hekayə, mənzum hekayə) hissələrə ayrılması, plan tərtibi, məzmununun müxtəlif formalarda nağıl edilməsi üçün tapşırıqlar; Əsərin məzmununun nağıl edilməsi üzrə iş üç formada (yığcam, geniş, yaradıcı nağıletmə) aparılır.

Bədii mətnin təhlili (1.2. əsas standartı**)** üzrə sual və tapşırıqlar "Araşdırın. Fikirləşin. Cavab verin" başlığı altında verilmişdir. Təhlil zamanı şagirdlər "Əsərin təhlilinə hazırlaşın" mətnindən əlavə istiqamətverici mənbə kimi istifadə etməlidir.

Dərsliyə daxil edilmiş iş növləri, sual və tapşırıqlar əsasında qazanılmış bilik və bacarıqların yeni təlim materialları üzrə tətbiqi, dərinləşdirilməsi, şagirdlərin bədii ədəbiyyatın mütaliəsinə marağının artırılması, tədqiqatçılıq fəaliyyətinə, fərqli mənbələrdən istifadə etməklə biliklərini müstəqil artırmağa istiqamətləndirilməsi, fəal/interaktiv təlimin, fəndaxili və fənlərarası inteqrasi-

yanın reallaşdırılması üçün zəmin yaradılması; fəal həyat mövqeyi, mütaliə, şifahi və yazılı nitq mədəniyyəti kimi həyati bacarıqların formalaşdırılması; inklüzivlik, məntiqi, tənqidi, yaradıcı təfəkkürün inkişafı üçün zəmin yaradılması imkanları gözlənilmişdir.

Şagirdlərin şifahi nitqinin inkişaf etdirilməsi üzrə işlərin (2.1., 2.2. əsas standartlar) əsərin məzmununun öyrənilməsi, təhlil, tətbiq, müzakirə, yaradıcı iş dərslərində və müxtəlif məzmunlu təqdimatların müzakirəsində və s. həyata keçirilməsi məqsədəuyğundur.

Kurikulumda mühüm yer tutan ifadəli oxu bacarıqlarının aşılanması da şifahi nitqin inkişaf etdirilməsi ilə sıx bağlıdır. Əvvəlki siniflərdə olduğu kimi, əsərin məzmununun öyrənilməsi üzrə dərslərdə müəllimin nümunəvi ifadəli oxusu və ya bədii oxu ustasının ifasının dinlənilməsi məqsədəuyğundur. Şagirdin ifadəli oxusu üzrə iş yalnız mətnin ideya-bədii xüsusiyyətlərinin təhlilindən sonra, əsərdə müəllif niyyəti qavranıldıqdan sonra aparılmalıdır.

Yazılı nitqin inkişaf etdirilməsi (3.1. əsas standart), əsasən, əsərin təhlilindən sonra yazdırılan inşa, esse, informasiya xarakterli məruzə üzrə iş vasitəsilə həyata keçirilir. Şagirdlər üçün yeni olan yazı növünün – informasiya xarakterli məruzənin yerinə yetirilməsi üzrə bacarığın aşılanması məqsədilə planlaşdırmada ayrıca dərs saatı nəzərdə tutulmuşdur.

Ədəbiyyat nəzəriyyəsi üzrə yeni anlayışlar (metafor, bədii təzad, kinayə) nümunələr əsasında mənimsədilməli və şagirdlərdə zəruri bacarıqlar formalaşdırılmalıdır. Unudulmamalıdır ki, kurikulumun tələblərinə görə, məktəbdə diqqət əruz vəznində yazılmış əsərlərin ifadəli oxusu üzrə müəyyən bacarıqların yaradılmasına yönəldilməlidir.

Dərslik komplekti fənn kurikulumunun reallaşdırılmasında müəllimin yaradıcı, təşəbbüskar fəaliyyəti üçün zəmin yaradır. Müəllim konkret dərsə hazırlaşarkən, ilk növbədə, sinfin səviyyəsini, qarşıya qoyduğu təlim məqsədlərini nəzərə almalı, dərslikdəki sual və tapşırıqların hansından istifadənin daha məqsədəuyğun olduğunu dəqiqləşdirməli, lazım gələrsə, ixtisarlar aparmalı, öz əlavələrini etməlidir.

Ədəbiyyat kurikulumu inteqrativ səciyyəli olduğu üçün bütün mövzular üzrə fəndaxili inteqrasiya da reallaşdırılmalıdır. Dərsliyə daxil edilmiş mövzuların problem – mövzu, janr baxımından əlaqəli, müqayisəli öyrənilməsi bu baxımından zəruridir. M.A.Ərsoyun "İstiqlal marşı" şeirinin tədrisi zamanı M.Hadinin "Türkün nəğməsi" şeiri ilə əlaqə yaradılması, oxşar və fərqli motivlərin üzə çıxarılması dərsdə müvafiq məzmun standartlarının reallaşdırılmasına imkan yaradır. Fənlərarası inteqrasiya VIII sinifdə tədris olunan müxtəlif fənlər üzrə altstandartların əlaqələndirilməsi, təlim prosesində digər fənlər üzrə qazanılmış bilik və bacarıqlara istinad edilməsi ilə reallaşdırılır. Ədəbiyyatın incəsənətin digər növləri ilə – musiqi, rəssamlıq, heykəltəraşlıq, kino, teatr və s. əlaqələrinin məqsədyönlü şəkildə reallaşdırılması dərsdə qarşıya qoyulmuş təlim nəticələrinə nail olmaq imkanını artırır.

"Ədəbiyyat" dərslik komplektinə daxil edilmiş bütün mövzuların müasir dərsə verilən tələblər nəzərə alınaraq, informasiya-kommunikasiya texnologiyalarından istifadə ilə tədrisi imkanları müəyyənləşdirilmişdir. Bu məqsədlə ədəbiyyat dərslərinin planlaşdırılmasında fərqli resurslar göstərilmişdir. Həmçinin internet mənbələrindən müvafiq materiallar seçilmiş, müəllimin yaradıcı, təşəbbüskar fəaliyyəti üçün zəmin yaradılmışdır.

Kurikulumun və təhsil strategiyasının tələblərinə uyğun olaraq, şagirdlərdə qazanılmış bilik və bacarıqların konkret fəaliyyətin nəticəsinə çevrilməsinin təmin edən səriştəliliyin formalaşdırılması məqsədilə tədris ili ərzində tətbiq, müzakirə, yaradıcı iş dərsləri, sinifdənxaric oxu dərsləri, layihələr üzrə iş də nəzərdə tutulmuşdur.

Tətbiq, müzakirə, yaradıcı iş dərsləri mövzu üzrə məzmun və təhlil dərslərində qazanılmış bilik və bacarıqların yaradıcı şəkildə tətbiqi və dərinləşdirilməsi məqsədini izləyir. Sinifdənxaric oxu dərsləri şagirdləri təlim materialları ilə əlaqəli olan, eləcə də şagirdlərin fərdi maraqlarına uyğun əsərlərin müstəqil oxusunu stimullaşdırmaq məqsədi güdür. Bu dərslərdə həm dərs, həm də sinifdənxaric iş elementləri geniş yer tutur. Şagirdlər dərsi bir növ "kitab, mütaliə bayramına" çevirir, öz müstəqil fəaliyyətlərinin nəticələrini təqdim edirlər. Sinifdənxaric oxu dərslərində mövzu

ilə bağlı kitab sərgisi, sənətkarların portreti, əsərlərə çəkilmiş illüstrasiyalar, divar qəzeti, ədəbi jurnal, ifadəli oxu, inşa, esse, məruzə müsabiqəsi, səhnələşdirmələrdən istifadə şagirdlərin hafizəsində iz salır, uzun zaman unudulmur.

Layihələr üzrə iş şagirdlərə əldə etdikləri bilik və bacarıqları tətbiq etməkdə, onların həyati əhəmiyyətini başa düşməkdə kömək edir. Layihə şagirdlərin təlim fəaliyyətini praktik məsələlərin həllinə yönəldir, onlarda əməkdaşlıq və birgə fəaliyyət bacarığı formalaşdırır. Layihə metodu şagirdlərin kiçik qruplar şəklində müəyyən mövzu, problemi həll etmək üçün müstəqil tədqiqat aparmasını nəzərdə tutur. Bu prosesdə şagirdlərə öz yaradıcılıq imkanlarını reallaşdırmağa, təqdim etməyə imkan yaradılır, müəllim onların fəaliyyətini istiqamətləndirir. Layihə üzrə iş hazırlıq, planlaşdırma, fəaliyyət və təqdimat mərhələlərindən ibarətdir. Şagirdlərin müstəqil, yaradıcı işinin nəticəsi olan layihə üzrə təqdimatlarda incəsənətin digər növlərindən, başqa fənlər üzrə mənimsənilmiş biliklərdən istifadə müsbət nəticə verir.

Layihələrdə səhnələşdirmə, ədəbi-bədii gecə, ifadəli oxu müsabiqəsi, ədəbi viktorinalar, krossvordlar, illüstrasiyalar, fotoşəkillər, video-süjet hazırlanması, müsahibələrə baxış, sərgi və s. iş növlərindən istifadə məktəb təcrübəsində özünü doğrultmuşdur. Layihənin təqdimatında informasiya-kommunikasiya vasitələrindən, slaydlar, video-çarxlar, elektron lövhədən istifadə məqsədəuyğundur.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan müəllimi qəzeti.25 okt 2013. N 41 (8558).
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni kurikulumu. V-XI siniflər. (Təlim Azərbaycan dilində olan məktəblər üçün). www. kurikulum.az/ images/.../edebiyyat.pdf)
3. Əliyev S., Həsənov B. Mustafayeva A., Verdiyeva N., Məmnmədova S. Ədəbiyyat. 8-ci sinif üçün dərslik. Bakı:Bakınəşr, 2019. 208 s.
4. Həsənov B., Əliyev S., Mustafayeva A., Verdiyeva N., Məmmədova S. Ədəbiyyat 8-ci sinif. Müəllim üçün metodik vəsait. Bakı:Bakınəşr, 2019. 208 s.
5. Krouford A., Vendi Soul E., Metyu S., Makinster C. Düşünən sinif üçün öyrətmə və öyrənmə üsulları. Bakı, Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi, 2012. 343 s.

УДК 372.881.111.1

УЧЕТ РОДНОГО ЯЗЫКА И КУЛЬТУРЫ КИТАЙСКИХ СТУДЕНТОВ В ПРОЦЕССЕ ИХ ЯЗЫКОВОЙ ПОДГОТОВКИ В УКРАИНЕ

Надежда Сергеевна Моргунова
кандидат психологических наук, доцент
Харьковский национальный автомобильно-дорожный университет
Украина
morgan.ns777@gmail.com

Сегодня одним из самих актуальных направлений научных исследований в методике языковой подготовки иностранных студентов является поиск эффективных приемов преподавания носителям конкретных языков. Опора на родной язык и культуру иностранных студентов позволяет не только эффективно использовать их влияние на процесс изучения студентами украинского языка как иностранного, но и учитывать те их особенности, которые

обусловлены спецификой языковой картины студентов, которая является основой глубинных процессов восприятия, обработки, хранения и использование информации, получаемой субъектом.

При разработке внутренней логики обучения украинскому языку как иностранному обязательным принципом, на наш взгляд, должен стать принцип целостного и системного подхода, то есть обучение должно осуществляться с учетом объединения совокупности элементов, предусматривающих стройное видение как всего процесса обучения языку, так и видение перспективы развития каждого студента, этапы и результат в его языковом развитии. Формирование всех видов компетенций (лингвистической, речевой, коммуникативной и культуроведческой) осуществляется в процессе учебной коммуникации, что обеспечивает синтез лингвистического, речевого и интеллектуального развития студентов. Выполнение этих задач тесно связано с раскрытием особенностей процесса общения и внутренних закономерностей порождения и восприятия речи, изучением которых занимается психолингвистика. Задачу психолингвистики в этом контексте можно определить как комплексное исследование процессов обучения и изучения иностранного языка с учетом всех психических процессов, связанных с речью (сенсорное чувство, память, восприятие, мышление, воображение, аффективно-эмоциональные процессы, волевые процессы и т.п. и т.д.).

Исследования, связанные с поиском путей создания эффективных методик обучения представителей разных этносов с учетом специфики их ментальности, этнокультурных особенностей, социопсихических доминант поведения, стали объектом внимания ученых. В своих работах исследователи настаивают на необходимости учета национально-культурной специфики инофонов, определении культурно-психологических стилей их учебно-познавательной деятельности (И. Бобрышева, Г. Швец), анализируют лингводидактические основы этноориентированного обучения иностранному языку представителями отдельных этносов в условиях языковой среды и вне её (Т. Балыхина, Батсуури Батчимег, Чэнь Чунься, Чжао Юйцзяо, А. Быков и др.), рассматривают психологические особенности обучения представителей разных этносов (С. Алехина, М. Бондарчук, Е. Гейченко, А. Косталес, Ле Куанг Шон и т.д.). Но при этом еще недостаточно освещены эти вопросы относительно обучения украинскому языку как иностранному именно китайских студентов.

Изучение украинского языка как иностранного достаточно сложно для китайских студентов из-за значительных различий между украинским и китайским языками. Генеалогически китайский и украинский языки сильно удалены друг от друга: украинский относится к славянским языкам индоевропейской языковой семьи, тогда как китайский язык – к сино-тибетской (китайско-тибетской) языковой семье. Очень мало общностей эти языки проявляют и с позиции типологической отнесенности: китайский язык относят к изолирующим, то есть таким, где ни одна из форм слова не указывает на его функцию в предложении, тогда как украинский язык является флективным, в котором морфологические параметры слова указывают на его функцию в предложении. Сложности в овладении украинским языком добавляют также национальные особенности системы китайского образования, в которой царят значительная парадигма и соответствующие формы обучения, ориентированные на заучивание, повторение, выполнение письменных и контрольных работ, незначительные межпредметные связи в учебе. Важной причиной трудностей в овладении украинским языком для студентов из Китая является также несовпадение культур. Как указывает В. Груцяк, традиционные методики обучения украинскому языку как иностранному китайским студентам не приносят желаемых результатов также из-за не коммуникативного, а рационально-логистического стиля овладения языком китайцами, расхождения в ментальности славянского и восточного психотипов личности» [1, с. 17].

В китайском языке используется графическая знаковая система – иероглифы. Также, в отличие от украинского языка, невозможно сочетание согласных. У китайских слов нет ударения, но каждый слог обязательно произносится с одним из четырех тонов. При этом не бывает характерных для украинского языка безударных слогов. Из-за отсутствия звуков [б], [в], [г], [д] в китайском языке отсутствует отличие согласных звуков по глухости/звонкости, поэтому китайцы не слышат различия между звуками [б] – [п], [г] – [к], [д] – [т]. Также отсутствует характерная для украинского языка дифференциация согласных фонем по твердости/мягкости. Именно по этой причине китайские студенты произносят твердые и мягкие согласные одинаково.

Необходимо также обратить внимание и на ведущие каналы восприятия, посредством которых человек получает информацию. Лингвистическая система китайского языка является идеографической, то есть за каждым ее знаком закреплен фрейм, некий цельный образ объекта. У носителей китайского языка хорошо развиты как визуальный, так и аудиальный каналы восприятия, потому что иероглифы первично воспринимаются именно через зрительный и слуховой анализаторы. Как следствие – при чтении постоянно требуется соотношение визуальной и аудиальной информации. При разговоре же будет доминировать аудиальный, а на письме – визуальный канал восприятия в сочетании с кинестетическим. Кинестетический канал восприятия также хорошо развит у китайцев, потому что от носителя языка требуется четкое знание и понимание порядка написания черт иероглифа.

Богатый опыт работы с китайскими студентами позволяет отметить следующие их особенности: визуальные образы подачи информации лучше воспринимаются ими, чем текстовые или исключительно звуковые способы представления информации. Эффективной является подача материала, систематизированного с помощью схем и таблиц; при опоре на текст китайские студенты воспринимают его как целостный образ; они легче выделяют часть из целого, чем наоборот.

Китайский язык, графически выраженный иероглифами, уже на этом уровне имеет характеристику знака-образа, буквы же в украинском языке с точки зрения китайцев не имеют аналогичной образности в своем изображении. Вместе с тем, украинский язык, не менее, чем китайский, образный. Ее образность выражается в большом количестве синонимов, антонимов, метафор, фразеологизмов и других средств выражения и образности речи, часто не понимаемых в прямом лексическом смысле слова.

Национальное своеобразие китайских студентов проявляется в том числе и в их психологическом поведении: им присущ определенный, своеобразный тип памяти, эмоций, восприятия, мышления, а также особый жизненный опыт, знания, привычки, интересы, склонности, идеалы и ценностные ориентации. Китайский контингент студентов отличается рядом положительных академических качеств, позволяющих значительно повысить результативность их обучения украинскому языку. Это трудолюбие, системность мышления, хорошо развитые мнемические навыки, навыки письма, умение работать со словарем и т.д. Вместе с этим китайские студенты на занятиях часто работают медленнее, по сравнению с другими иностранными студентами долго размышляют, чтобы правильно понять учебный материал. Преподавателю необходимо учитывать эти моменты и отводить больше времени на обдумывание нового материала, его осмысление. Особенно проблемно для китайцев овладение таким видом языковой деятельности, как «говорение». Для преодоления этих проблем преподавателю необходимо планировать учебный процесс так, чтобы все виды речевой деятельности были органически связаны. Важным этапом в овладении украинским языком есть такой вид языковой деятельности, как «чтение». Разница в восприятии картин мира приводит к тому, что часто китайские студенты не понимают логики украинского текста, его причинно-следственных, ассоциативных, порой интуитивных связей. Не могут осуществлять логические операции, а элементарные вопросы преподавателя могут вызвать

трудности. Для китайских студентов не может быть эффективно принята в украинском образовании «педагогика сотрудничества». Демократическая, творческая модель общения преподавателя со студентом вызывает противодействие в связи со сложившимися стереотипами. Возможность диалога с преподавателем китайский учащийся воспринимает как слабость и неавторитетность преподавателя. Преподаватель является основным субъектом учебного процесса для китайских студентов. Попытки преподавателя при объяснении нового материала опираться на обратную связь со студентами судя по их реакции вызывает у них неприятие и недоумение [2, с. 36]. Для них важно получить от преподавателя не столько одобрение, сколько акцентирование внимания на сделанных ими ошибках.

В обучении китайцев украинскому языку эффективными являются задания, опирающиеся на латеральный профиль студентов, однако преподавателю необходимо четко дифференцировать их по степени сложности, форме, объему материала и времени, отведенному на их выполнение. Результативно также сопоставление украиноязычного материала с китайскоязычным материалом в случаях, когда такое сопоставление возможно. Очень производительным в работе с китайским контингентом является опора на аудиовизуальный ряд.

Использование презентаций, дублирование материала на экране помогает студентам сконцентрировать внимание на выполняемых задачах. Все это позволит правильно организовать процесс преподавания украинского языка как иностранного и добиться высоких результатов в обучении китайских студентов.

Использованная литература

1. Груцяк В.І. Деякі особливості навчання китайських учнів на підготовчому відділенні для іноземних громадян // Викладання мов у вищих навчальних закладах освіти, 2015, Вип. 27, С. 16-24.

2. Ху Жунсі. Соціокультурні особливості адаптації китайських студентів до навчання в університетах України // Вісник Дніпропетровського університету імені Альфреда Нобеля. Серія: Педагогіка і психологія, 2013, № 1 (5), С. 36-31.

UOT 32(092)

FOLKLORDA ETNİK ONOMASTİKA

Zəminə Xosrov qızı Gülüstani
Mingəçevir Dövlər Universiteti
AMEA-nın Dilçilik İnstitutunun doktorantı
zamina.gulustani@mdu.edu.az

Azərbaycan folkloru özündə xalqın istək və arzularını, sevinc və kədərini yaşadan, mənəvi dünyamızın, mifik təfəkkürümüzün min illər ərzində formalaşan bu günə qədərki inkişafını izləmək üçün vacib tarixi hadisələri özündə əks etdirən mühüm mənbələrdəndir. Yüzlərlə lirik şeir, nağıl, dastan, əfsanə, atalar sözü, zərb-məsəl, lətifə və s. müəyyən tarixi hadisə ilə bağlı yaranmış, xalq öz tarixinin mühüm dövrlərini bu əsərlərdə bədii şəkildə əks etdirib yaşatmışdır.

Yüzlərlə adət, mərasim adları, həm də onları icra edən soylar arasında uyğun və fərqli xüsusiyyətlərin üzə çıxarılmasına kömək edir. Bu adət və mərasimlərin soykökümüzün formalaşmasında yaxından iştirak edən müxtəlif tayfa, qəbilə və nəsillərlə bağlılığı onların etnik-milli əlamətlərinin üzə çıxarılmasının vacibliyi ilə şərtlənir.

Azərbaycan ərazisindəki milli-etnik onomastik vahidlərin bir qismindəki etnik göstərici qədim və müasir mənbələrdə öz əksini tapmışsa da, bəziləri tamamilə və ya qismən unudulmuş, öz izlərini çox az, pozuq şəkildə qoruya bilmişdir.

Folklorda bu və ya digər tələffüz formasında və fərqlərlə ifadə olunan bir çox milli-etnik onomastik vahidlərin mənşəcə aidiyyəti tam üzə çıxarılmışdır. Belə milli- etnik vahidlərdən *çəpəni, bayat, quşçu, padar, qaşqay, türkmən, əfşar, təklə, qaraman və s.* diqqəti cəlb edir. Qeydə alınan milli-etnik onomastik vahidlər dildə işlənən xalq, tayfa, qəbilə, nəsil adlarını özündə əks etdirir. Buna görə də onomastik vahidlərin tarixi baxımdan araşdırılması müasir onomologiyanın bir sıra problemlərinin həllinə yaxından kömək edir.

Klassiklərin yaradıcılığında, eləcə də folklor nümunələrində milli-etnik onomastik vahidlərin tədqiqi xeyli qaranlıq məsələlərin aydınlaşdırılmasında mühüm əhəmiyyətə malikdir. Aşıq Abbas və Sarı Aşığın qoşma və bayatılarında istənilən qədər onomastik vahid məlumdur. Azərbaycan folklorunda qeydə alınan bu milli-etnik leksik vahidlər xalq yaradıcılığından qidalanan aşıq və ozanların dilinə keçmiş və sonralar yazılı ədəbiyyata gəlmişdir.

İnsanların özlərini əlamətlərinə görə bu və ya digər etnik qrupa mənsub olduqlarını dərk etmələri etnik advermə termini ilə ifadə edilir. Etnik advermənin komponentləri etnosun bir sıra obyektiv əlamətlərini əks etdirir. Buna görə də göstərilən xüsusiyyətlər, öz növbəsində, bu və ya digər komponentləri ilə birlikdə etnik özünüdərklə bağlıdır.

Milli-etnik onomastik vahidlər Azərbaycan dilində başqa söz qruplarından fərqli olaraq, daha qədim fonetik, leksik və semantik xüsusiyyətləri ilə seçilir.

Mövcud elmi ədəbiyyatların diqqətlə izlənilməsi göstərir ki, milli-etnik onomastikanın öyrənilməsi səviyyəsi bu gün qənaətbəxş hesab edilə bilməz. İndiyədək milli-etnik onomastik vahidlərin bir çoxunun mənşə etibarilə araşdırılmasına səy göstərilmişdir. Müxtəlif mənbələrdə, folklorda, bədii ədəbiyyatlarda rast gəlinən etnonimlərin bir qismi isə elmi tədqiqatlardan kənarda qalmış, onun barəsində heç bir fikir söylənilməmişdir.

Folklorda qeydə alınan milli-etnik onomastik vahidlər daha çox söz birləşmələrinin birinci tərəfi yerində və ya mürəkkəb sözün tərəflərindən biri kimi çıxış edir. Buna görə də həmin vahidlərin işlənildiyi dəqiq quruluşu olduğu kimi vermək daha düzgün olardı: *Bayat tayfası, Padar tayfası, Təklə tayfası və s.* Belə leksik vahidlərdən biri də *Təklə// təkə//təhlə//təhləli* formasında qeydə alınan tayfanın adıdır. Bu tayfanın etnik mənsubiyyəti, yayılma arealı, Azərbaycan xalqının etnogenezində iştirakı və s. barədə verilən məlumatlar bəsit və yeni fikir, yeni mülahizə baxımından kasıbdır. "Təklə" etnoniminə Azərbaycan onomastikasında göstərilən formada bu və ya digər obyekt adı kimi tez-tez rast gəlinir. Azərbaycan folklorunda da çox işlək leksik vahidlərdən biridir.

Bayatılarda:
Ovçuyam, Təklədənəm,
Tək evli Təklədənəm,
Arazbar tərlanıyam,
Sonralar Təklədənəm.

"Koroğlu" dastanında:
İgidlikdə vardır eldə adınız,
Aşıq, bizə Təkə-türkman deyərlər və s.(1,230)

Göründüyü kimi, bu ad folklorda da əbədiləşmişdir. Bizə belə gəlir ki, etnonimin ilkin forması *təkə* olmuş və digər variantlar onun əsasında formalaşmışdır. Etimoloji izahı ilə bağlı fikirlər yox dərəcəsindədir. Tədqiqatçıların bir qismi onu Səlcuq oğuzlarının Təkəli tayfalarının adı ilə əlaqələndirir. Q.Qeybullayev bu adda tayfanın Türkmənistanda da yayıldığını qeyd etmişdir. "QTS"də "teka" formasında "keçi", "dağ keçisi" mənasında qeyd edilmişdir.

Şah İsmayıl Səfəvinin Səfəvilər hakimiyyəti yaratmaq üçün arxalandığı əsas hərbi-siyasi qüvvə köçəri Azərbaycan tayfaları və Kiçik Asiyanın şərqindəki tayfalar idi. Onun başlıca hərbi

gücünün dayağı şamlı, rumlu tayfaları və ustacalı, təkəli, əfşar, qacar, zülqədər tayfalarının ayrı-ayrı hissələri idi. M.H.Vəliyev "təklə" əsaslı toponimlərin öz adlarını eyniadlı tayfanın adından götürdüyünü və Səlcuq tayfalarından biri olduğunu bildirir. O.A.Əfəndiyev də bu tayfanı *təkə* adlı tayfanın bir qolu hesab edir və onların Azərbaycana Kiçik Asiyadan köçüb gəldiklərini qeyd edir. (2,71)

V.L.Qukasyan İ.N.Şengeliyanın "Сельджуки в Грузии в XI в." adlı tədqiqatına əsaslanaraq, Şərqi Gürcütanda da "təkəli" etnoniminin yayılmasını qeyd etmişdir.

Aşıq yaradıcılığında təklə etnonimi təhlə formasında tez-tez işlədilir. Daha çox dağlıq ərazilərdə yaşayan etnik qrupun təkəni özünə ad seçməsi ağlabatandır. Onomastikada göstərilən qaydada adalmaya təsaqdüf olunur.

İstifadə edilmiş ədəbiyyat

1. Həkimov M. "Koroğlu" dastanında işlənən yer adları. Bakı, 2014.
2. Xalıqov F. Azərbaycan folklorunda mərasim adları. Bakı, 2009.
3. Xalıqov F. Folklor onomastikası.Bakı,2013.
4. Mirzəyev H. Aşıq poeziyasında onomastik vahidlər. Bakı, 1997.

UOT 81'0

PİTER TRADGİLİN AMERİKAN İNGİLİSCƏSİ SOSİAL DİALEKTLƏRİNİ ÖYRƏNMƏSİ ÜSULLARI

Gülşən Bayram qızı Nəsirova
Mingəçevir Dövlət Universiteti
gulshan.nasirova@mdu.edu.az

Piter Tradgil Sosiolinqvistikada ən məşhur adlardan biridir. O İngiltərədə (Norwich) anadan olmuş, magistr təhsilini Kembric Kral Kollecində, doktorluğunu Edinburq Universitetində qazanmış və bir çox Britaniya, həm də digər Avropa ölkələrinin universitetlərində tədris etmişdir.

Ciddi mütəxəssis dialektoloq olan Tradgil ingilis sosial dialektlərinin öyrənilməsində Uilyam Labov tərəfindən hazırlanmış ekstralinqvistik metodologiyaları inkişaf etdirən ilk tədqiqatçı idi: onun dissertasiyası əsasında olan ilk kitabı həmin metodun nümunəvi rol modeli kimi hələ də İngilis dialektologiyasının tədqiqində mühüm əhəmiyyət kəsb etməkdədir. Bu mənada müəllifin dialektoloji və ekstralinqvistik tədqiqatları kreol dillər haqqında çox maraqlı fikirlər, eləcə də müxtəlif dillərin təhlili zamanı çox maraqlı nümunələr, dil kontaktları barəsində faktoloji materialları əhatə edir. Çoxlarından fərqli olaraq, P.Tradgil dillərin mürəkkəb sisteminin formalaşmasını sosial faktorlarla bağlayır, xüsusən də dil kontaktlarının intensivliyi və tiplərində bu prosesi müşahidə edir. Deməli, dil kontaktları dillərin dəyişmə intensivliyinə təsir göstərir. [9; s.78]

Diqlossiya, bilinqvizm, pidgin və kreol kimi ictimai hadisələr haqqında araşdırmalar aparan və Avropanın çoxdilli sosiumları ilə bağlı müxtəlif siyahılar tərtib edən, bu sahədəki fəaliyyətiylə sosiolinqvistikaya xeyli töhfə vermiş Piter Tradgil, Labov ilə birlikdə sahənin ən ön planda yer alan tədqiqatçıları arasındadır.

Çoxdilli mühitlərdə ünsiyyətin təmin edilməsi üçün adətən əsas dil, ortaq bir təbii dilə malik olmayan fərdlər arasında ünsiyyət vasitəsi kimi istifadə edilən dilə verilən addır. Əslində Tradgilə görə: "Fransız dili mənasına gələn "lingua franca" səlib yürüşlərinə qatılan çoxdilli əsgərlər tərəfindən əsas dil olaraq, Provansal dili isə pidgin (bir dilin sadələşdirilməsindən yaradılmış ikinci bir yeni dil) kimi istifadə edilmişdir. Həmçinin İngilis dili (Pidgin-English) və Alman dili (Pidgin-Deutsch) sadə quruluşlardan yaradılmış əksər hallarda müstəmləkələrin istifadə etdiyi dillərdir. Əgər dil kontaktı zamanı pidgin dilləri tədricən ana dilinə çevrilirsə bu zaman kreol (creol) dili

formalaşır. (Məs; Qərbi Hindistanda doğulmuş Avropalının dili). Hazırda ingilis, fransız, ispan və portuqal kreolları ən geniş yayılmış tiplərdir. [8; s.101]

Tradgil bütövlükdə dillərin icma üzvləri arasında ünsiyyət vasitəsi olduğunu qeyd edir, lakin bunu hökm kimi dialekt və kiçik dil qruplarının hamısına aid etmir. Çünki dil sistemi və mədəniyyəti tamamilə eyni olsun iki dil tapmaq mümkün deyil. Məsələn, eskimoslarda "qar" sözünün onlarla variantı olduğu halda, Cənubi Amerikada hindu qəbilələrinin "qar" haqqında təsəvvürləri yoxdur. Yaxud qaraların dilində elə sözlər istifadə olunur ki, onlar haqqında ağların xəbəri yoxdur. Məsələn, shucking, signifing, rapping, wooling, jiving. Belə sözləri ingilis dilinə ancaq təsviri, izahat yolu ilə tərcümə etmək olar. [8; s.11]

Deməli, əgər Cənubi Amerika hindu qəbilələrinin nümayəndəsi ömründə təyyarə görməyibsə və onun nə olduğu haqqında təsəvvürü yoxdursa, onda o ilk dəfə təyyarə görəndə, əlbəttə, həmin əşyanı təsvir etmək üçün bir söz tapmayacaq. Lakin dildə hər halda həmin əşyanı ifadə etmək üçün yeni məfhum yaranacaq. Belə ki, hindu təyyarəni quşa oxşadaraq (qanadlı, uçan şey) "bird canoe" sözündən, yaxud "canoe that has wings and flies" (quşa oxşayan, qanadlı uçan şey) kimi ifadədən işlədərək öz dialektlərində başa sala bilər. Əlavə olaraq, məlum olduğu kimi bütün dillər bir-birindən bir çox sözlər alır və həmin sözləri özlərinə məxsus şəkildə işlədərək özəlləşdirir. Məsələn, "bibliya" sözü öncələr ibrani və yunan dillərində yəhudi və xristian aləmini ifadə etmiş, sonra başqa dillərin imkanlarından istifadə edilərək tərcümə olunmuşdur (yəni digər dillərdə də uyğun terminlər tapılmışdır).

P.Tradgilin digər baxışına görə, bir çox sosial linqvistik səbəblərdən müəyyən bir cəmiyyət daxilində bufer dillər və ya dialektlər başqaları üçün qəbul edilmədiyinə görə bunların arasından hər hansı biri başqaları ilə müqayisə edilmək üçün normativ götürülür. Beləliklə, bir dil standartlaşdırılır ki, bunu da standart dil adı adlandırırıq. Yəni standart dil cəmiyyətdə üstünlük təşkil edən sosial qrup tərəfindən qəbul edilən bütün yaxşı dil normasına cavab verən bir variativdir. [8; s.17] Bu dil yuxarı təbəqə tərəfindən qəbul edildikdən sonra aşağı təbəqə tərəfindən də qəbul edilir. Çünki müəyyən tanınmış qrup hansı dialektdə danışırsa, o dialekt standart dialekt adlanır. Bəzən eyni dil daxilində standart olan bir dialekt, başqa bir variativlə bir-birinə zidd ola bilir. Məsələn, Almaniyada Hochdeutsch standart dialekt hesab olunur və Almaniyanın əksər ərazisindəki ədəbi dil Schwabisch və Plamdeutsch dialektləri ilə ziddiyyət təşkil edir.

Tradgilin dediyi kimi London dialekti hələ XV əsrdə İngiltərənin bir çox ərazisində standart dil kimi qəbul edilmişdir. Amerikan ingiliscəsi də bütün variativlərinə baxmayaraq, Britaniya ingiliscəsi ilə əlaqədardır. Belə əlaqədən danışan H.L.Menkenz yazır: "Amerikan danışıq dili, əlbəttə, qrammatik cəhətdən vulqar ingilis dili ilə eynidir. İkiqat inkar forması, sifətin zərf kimi işlədilməsi, felin zamanlarının qarışdırılması və s. kimi başqa bir çox xüsusiyyətləri Britaniya ingiliscəsinə tamamilə uyğun gəlir." [4, s.502]

İngilis dili tarixi inkişaf mərhələlərindən bəllidir ki, Amerikada mövcud olan sosial müxtəliflik dil variativliyinə də təsir göstərmişdir. Bu təsir Amerikan ingiliscəsində çox aydın hiss olunur. Məsələn, common (ümumi), vulgar (vulqar), illiterate (cahil), uncultured (kobud) kimi sözlər yuxarıda qeyd etdiyimiz qeyri-standart ingilis dilinə aiddir. Deyilənlərdən məlum olur ki, dildəki variativlik eyni zamanda etik qruplardan da asılıdır. [7; s.71]

Tradgil fonetik və qrammatik cəhətlərdəki variativliyi əsərində ayrı-ayrı başqlıqlarla verməklə tələffüz və dil qayda-qanunlarından ayrılıqda bəhs etmək və onların arasındakı müxtəlifliyi aydın göstərmək məqsədi daşıyırdı. Çünki elə qaydalar var ki, məsələn, [r] səsinin tələffüzü [8; s.21] ancaq fonetikaya aid olduğu halda ikiqat inkarlıq (He does not do nothing) yalnız qrammatikaya aid qaydadır. Lakin bəzi xüsusiyyətlərin (məsələn, şəkilçilərin tələffüzü) fonetikaya, yaxud qrammatikaya aid olması çətinlik törədir. Qeyri-standart dialektlərin çoxunda -ed – şəkilçisi feilin keçmiş zamanı bildirmək üçün işlədilir. He walked home keçmiş zaman feili sifəti: They have been defeated və isimdən düzəlmiş sifətlər: She is a blue-eyed woman və s. Bəzi dialektlərdə -s(-es) – şəkilçisi (ismin cəm şəkilçisi, feilin indiki zamanında üçüncü şəxsin təkində) buraxıla bilər. [7; s.24]

Dialektlərə gəlincə P.Tradgil deyir ki, -s(-es) – şəkilçisinin hər üç forması müxtəlif kəmiyyətlərlə, məsələn, qaraların ingiliscəsi (Blək inqliş) təxminən 10 faiz, yiyəlik hal şəkilçisi 20-30 faiz, feilin indiki zamanının üçüncü şəxsin tək hal şəkilçisi kimi tamamilə buraxıla bilər. [8; s.101]Bu sözlər standart ingilis dilində have-has, do-does, say-says olduğu halda, qeyri-standart ingilis dilində müvafiq olaraq has, do, so şəkillərində işlədilir. Bəzi feillərdə isə bu şəkilçi ilə yox səs dəyişikliyi nəticəsində baş verir. Məsələn, tell əvəzinə tol, leave əvəzinə lei, sleep əvəzinə slep və s. [10]

Beləliklə, P.Tradgilin yuxarıda dediklərini, izahatlarını yekunlaşdırmalı olsaq, belə nəticəyə gələ bilərik ki, -s- şəkilçisinin müxtəlif variantlarda düşməsi, işlənməməsi tamamilə qrammatik hal hesab edilsə də, -ed- şəkilçisinin düşməsini fonetikada xüsusi bir hal kimi nəzərə ala bilərik. Qrammatik və fonetik cəhətlərin bir-birindən fərqləndirilməsi isə linqvistik hadisədir. Qrammatik və fonetik xüsusiyyətlər arasındakı fərqə gəldikdə, deyə bilərik ki, qrammatik qaydalara yuxarı və orta təbəqə əməl edir, fonetik xüsusiyyətləri isə ancaq yuxarı sosial təbəqə nəzərə alır. Qalan təbəqələr isə qeyri-standart ingilis danışıq dilindən istifadə edəcəklər. Bəzi başqa dialektlərdə isə "leave" (tərk etmək) və "let" (icazə vermək) feillərini eyni dominant kimi götürürlər. [7; s.41-45]

Appalaçi hindularının dilində həmişə several sözü many (çox) sözü ilə əvəzlənir. Belə sözlərə - climb əvəzinə klim (dırmaşmaq), brought feili əvəzinə broing (gətirdi), let us go in əvəzinə let us do not go to the beach today kimi qaydaya tabe olmayan cümlələrə rast gəlmək mümkündür.

Tradgil ingilis dilində variativlik mövcud olması nəticəsinə gəlir [8; s.15]. Ona görə bu dili istər öyrənərkən, istərsə tədqiq edərkən, onu leksik, semantik, orfoqrafik, fonetik və s. cəhətlərinə görə araşdırarkən variativlikdən irəli gələn amillər, onların inkişaf və yayılma, qarşılıqlı təsir və başqa xüsusiyyətlərini nəzərə almaq zəruridir. İngilis dilinin geniş ərazidə yayılması, beynəlxalq dil statusu daşıması və Birləşmiş Ştatlarda bu dilin ayrıca bir qolunu yaradılması prosesi və s. amillərlə yanaşı dilin inkişafı nəticəsində onda ardıcıl şəkildə üzə çıxan yeniləşmə həmin problemin aktuallığının saxlanılmasına səbəb olur.

İngilis dili Amerika qitəsində yaşayan 300 milyondan artıq əhalinin əsas dili olmaqla yanaşı, İngiltərə, Avstraliya, Kanada, Yeni Zellandiya və s. ölkələrin ana dili kimi işlənməkdədir. Dialektoloqların ingilis dilinin variativliyi haqda gəldiyi nəticə belədir: ingilis dili yuxarıda adlarını çəkdiyimiz ölkələrin rəsmi dövlət dili olsa da, həmin dövlətlərin öz danışıq dilləri, dialektləri vardır ki, bunlar da özlüyündə ingilis dilinin bu və ya digər variativliyini təşkil edir. [7; s.65]

Britaniya ingiliscəsinin variativliyi haqqında danışarkən Tradgil vurğulayır ki, ənənəvi olaraq fonetik və qrammatik işlənmə xüsusiyyətləri etibarilə Londonun kokni tələffüzüdür və bu tələffüz də yuxarı təbəqəyə aid olduğu üçün standart dil hesab olunur. Londonun kokni dialekti (tələffüzü) İngiltərənin ən təmiz sosial- məhəlli dialekti sayılmaqdadır. Bu dialekt XVII-XIX əsrlərdə London ərazisindən kənara da yayılmağa başlamışdır. [8; s.48]

Beləliklə, P.Tradgil nəinki ingilis dilinin bütün variativlərinin, həmçinin kreol, pidgin sosiumlarının dilinin analizi ilə məşğul olmuş, həm də bir çox məsələlərdə sosiolinqvistkanın gələcək imkanlarını, üfüqlərini genişləndirmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Vəliyeva N.Ç. Dil tipologiyasının aktual problemləri. Actual problems of language typology. Актуальные проблемы языковой типологии. Elm və Təhsil, Bakı, 2011, 512 s.

2. Yunusov D.N. Müxtəlifsistemli dillərdə mürəkkəb sintaktik vahidlərin variativliyi, fil.e.n. diss., Bakı, 2007.

3. Лабов У. Исследование языка в его социальном контексте. – Новое в лингвистике, вып. VII, M., 1975.

4. Aitchison J. Language change: Progress or decay. 3rd edition, Cambridge University Press (CUP), 2001, 312 p.

5. Chomsky N. & Otero C.P. Language and politics. AK Press, 2004, 802 p.

6. Labov W. Principles of Linguistic Change // v. I: Internal Factors, v. II: Social Factors. Oxford: Blackwell, 1994, 2001,641 p.

7. Trudgill.P, Jean Hannah, International English, A guide to the varieties of Standard English,2008, 165p

8. Trudgill.P. Sociolinguistic Typology: Social Determinants of Linguistic Complexity. Oxford: Oxford University Press,2011 (reprinted 2012). 236 p.

9. Turkle Sh. Life on the Screen: Identity in the Age of the Internet. London: Simon & Schuster, 1995,347 p.

10. http://www.davidcrystal.com/

UOT 82

İBTİDAİ SİNİFLƏRDƏ AZƏRBAYCAN DİLİ TƏDRİSİNİN AKTUAL XÜSUSİYYƏTLƏRİ

Səbinə Bəlohər qızı Novruzova
Mingəçevir Dövlət Universiteti
sabina.novruzova@mdu.edu.az

Təhsilimizin dünya təhsil sisteminə inteqrasiya etdiyi bir vaxtda təlimin də yeni əsaslar üzərində qurulması zamanın tələbidir. İbtidai siniflərdə Azərbaycan dili dərslərində interaktiv təlim metodlarının tətbiq edilməsi bu günün ən vacib aktual məsələlərindəndir. Tədris ediləcək mövzunun əsaslandırılması, şagirdlərdə bu mövzuya həvəsin oyadılması, mövzunun mənimsənilməsinin zəruriliyinin dərk edilməsi olduqca vacibdir. İbtidai siniflərdə təlimin təşkili zamanı Azərbaycan dili fənnindəki nəzəri problemlərin praktiki zəmində açılması, təbii yollarla şagirdlər tərəfindən mənimsənilməsi əsas xüsiyyətlərdən biridir. Şagird öyrənmə prosesinin fəal iştirakçısı olmaqla problemlərə öz münasibətini bildirməyi bacarmalı və bu prosesdə fəal iştirak etməlidir.

İbtidai siniflərdə Azərbaycan dilinin inkişafı ilə bağlı, dərslərdə şagirdlərin marağına səbəb olacaq müxtəlif üsullardan, metodlardan istifadə olunmalıdır. Xüsusilə, ibtidai siniflərdə müxtəlif üsul və metodların seçilməsi Azərbaycan dilinin şagirdlərə mənimsədilməsində mühüm vasitədir. Zamanın əsas tələblərindən biri də, məhz texnologiyanın istifadəsindən yararlanmaqdır. Belə ki, texniki vasitələrin köməyi ilə Azərbaycan dili dərslərində müxtəlif video çarxların göstərilməsi, dil qaydalarını müxtəlif üsullarla görüntülü mənimsədilməsi şagirdlərin marağına səbəb olmuş olar. Mövzunun şərhini iki istiqamətdə aparmaq olar. Birinci istiqamətdə müəllim materialı şərh edərkən mövzunun mahiyyətini izah etməklə problemli situasiya yaradır. Bu halda şagirdlər fikrən müəllimin arxasınca gedir, elmi idrak, tədqiqat yollarının dərk olunmasında iştirak edirlər. İkinci istiqamətdə isə şagirdlər problemli mövzuların həllində iştirak edir və bu zaman onlar bilikləri, fakt və hadisələri özləri üçün sanki kəşf edirlər.

Digər metod şagirdləri axtarışa sövq etməkdir. Bu metodun istifadəsi zamanı müəllim problemli situasiya yaradır və dərsin hər hansı bir mərhələsində şagirdləri axtarıcılıq fəaliyyətinə qoşur. Bu metodun tətbiqi zamanı uşaqlar daha da fəallaşır, onlar fərziyyələrinin formalaşmasına, fikirlərini sübuta yetirməyə, əqli nəticəyə gəlmə üzərində çalışırlar. Bizim hazırda interaktiv və ya fəal metod adlandırdığımız əqli hücum, esse yazmaq, rollu oyun, müzakirə, debat, qruplarla iş, işgüzar səs-küy və s. də axtarış metodlarının tərkibinə daxildir.

Tədqiqatçılıq metodu təlimin başlıca yaradıcı metodudur. Bu metodun tətbiqi zamanı elə bir şərait yaranır ki, şagirdlərin hamısı problemin mahiyyətini başa düşür və tədqiqata qoşulur. Bu zaman problem şagirdlər tərəfindən həll olunur, müəllim isə onların müstəqil axtarıcılıq fəaliyyətinin aparıcısı rolunu oynayır. Təbii ki, günümüzdə texnologiyadan istifadə dedikdə yaxşı

tərəfləri nəzərə alınmalıdır. Təəssüf ki, bəzən valideyn olaraq, kiçik yaşlı uşaqların texniki vasitələrin istifadəsinə icazə verilir və nəzarət edilmir. Nəticədə uşaq daha çox xarici cizgi filimlərinə, eləcə də digər xarici proqramlara baxmaqla, danışıqlarında əcnəbi sözlərə üstünlük vermiş olurlar. Problemin həlli yolu uşaqları nəzarətsiz qoymamaq, onların ifadələrindəki xarici sözləri öz sözlərimizlə əvəz etmək təşkil etməlidir. Bunun qarşısının alınması təkcə müəllim və valideyndən asılı deyil, ümumilikdə, bütün cəmiyyət bu problemin həlli yolunda bərabər olmalıdır. Birgə fəaliyyətimizin nəticəsində dilimizi yad sözlərdən təmizliyə və şagirdlərin texniki vasitələrdən səmərəli istifadəsnə şərait yaratmış olarıq.

Şagirdlər, həyatda gördüklərini bədii əsərlə müqayisə edir, özləri üçün nəticə çıxarırlar.

Eləcə də, oxuduğu əsərlərdəki məsələlər barədə düşünən şagird mənən zənginləşir. Oxu prosesi zamanı şagirdləri maraqlandıran mövzular müzakirə olunur, onlarda lüğət ehtiyatı zənginləşir. Azərbaycan dilinin öyrənilməsi şagirdlərin ünsiyyət imkanlarını genişləndirir, onlarda nitq fəaliyyətinin növləri ilə yanaşı, düşünmə, öyrənmə və danışma bacarıqlarını formalaşdırır. Nəticədə dil düşünmə, öyrənmə, danışma vasitəsinə cevrilir. [1, s.86]

Məktəblilər düzgün, səlis və mənalı danışmaq, eləcə də, qısa lakin kəsərli, təsirli nitq söyləmək, az sözlə dərin mənalı və bitkin fikir ifadə etmək üçün sözləri məharətlə seçməlidirlər. Şagirdlərdə yaradıcılıq qabiliyyətinin formalaşmasında, inşa, ifadə, esse yazarkən bədii mütaliə onların köməyinə çatır. Bütün bunlar, şagirdlərin sərbəst fikir irəli sürməsində, onların dünyagörüşünün formalaşmasında əsas rol oynayır. Dərsliklərdə nümunələrin rəngarəngliyi şagirdlərin lüğət ehtiyatlarının zənginləşməsində, bədii təfəkkürün inkişafı baxımından, həmçinin şagirdlərin nitq inkişafı üçün əlverişli şərait yaradır. Bununla da, şagirdlərdə cümlə qurmaq vərdişləri inkişaf edir, söz ehtiyatları zənginləşir, onların dünyagörüşü formalaşır.

Müasir dövr ibtidai sinif dərsliklərinə nəzər saldıqda, zamanla səsləşən mövzulara üstünlük verildiyinin, eyni zamanda şagirdlərin dünyagörüşünün formalaşmasında, onların şəxsiyyət kimi böyümələrində önəmli rol oynadığının şahidi oluruq. Üçüncü sinif dərsilində " Əsrin oyuncağı", "Sehrli kub" və s. kimi mövzuların verilməsi ilə şagird həm yeni oyuncaqları tanıyır, həm də əylənərək öyrənir. Bu məzmunlu mövzuları müəllim tədris edərkən, əyaniliyə üstünlük verməlidir. Belə ki, mövzunu tədris edərkən, oyuncaqları əyani gətirmək və şagirdlərlə birgə hazırlamaqla, dərsimizi maraqlı təşkil edə bilərik. Dərslərin tədrisini bu şəkildə həyata keçirməklə, biz həm də şagirdlərin şəxsiyyət kimi yetişməsində köməklik etmiş oluruq. Yaradıcı düşüncəyə malik olan adam mənən zəngin və azad şəxsiyyətdir. Müasir təhsilin başlıca məqsədlərindən biri azad düşüncəli şəxsiyyət yetişdirməkdir. [2, s.72]

Sinif müəllimi Azərbaycan dili dərslərində şagirdlərin müstəqillik və fəallığının inkişafına nail olması üçün dərslikdəki xarakterik tapşırıqlardan da bəhrələnə bilər. Tədris zamanı bacarıq və vərdişlərin keyfiyyəti çalışmaların miqdarca çoxluğundan yox, onların müəyyən sistemdə aparılmasından asılıdır. Çalışmaların sistemi dedikdə müəyyən bacarıq və vərdişlərin formalaşması məqsədi ilə tətbiq edilən çalışmaların xüsusi ardıcıllıqla düzülməsi nəzərdə tutulur. Çalışmaların sistemi üçün başlıca şərt tapşırıqların çətinlik dərəcəsini və bunların icrasında şagirdlərin müstəqillik səviyyəsini tədricən artırmaqdan ibarətdir.

İbtidai siniflərdə Azərbaycan dili tədrisinin aktual xüsusiyyətlərindən biri şagirdlərin müstəqil işi ilə müəllimin bilavasitə işinin qarşılıqlı, interaktiv təlim metodları əsasında təşkilidir. Müəllim yerinə yetiriləcək tapşırıqların həlli yollarını göstərməklə, şagirdləri tapşırığın icrasına tam hazırlayır və şagirdlərin müstəqil işi məlumat əsasında nəzəri biliyi çalışmalara tətbiq etmək məqsədi daşıyır. Bəzən tədris prosesində şagirdlərin nitqindəki qüsurlarla qarışılaşırıq ki, bu da tədris prosesində bizi narahat edən məsələlərdəndir.

Nitqimizlə bağlı aktual problemlərdən biri də, məhz dərslərin tədrisi zamanı jarqonlardan istifadədir. Ədəbi dilimizdə jarqonların işlədilməsi müsbət hal sayılmır. Lakin bədii ədəbiyyatda və publisistik yazılarda bu sözlərin istifadəsinə təsadüf edilir. Jarqonlar ədəbi dili korlayan ünsürlər

olsa da, bədii ədəbiyyatda tipikləşdirmə vasitəsi kimi istifadə edilir. Bədii əsərlərdə jarqonlar zəruri ehtiyac olduqda istifadə edilir. Danışıq üslubunda bundan istifadə ədəbi dil normalarını pozur.

Beləliklə, tədris prosesində şagirdlərin Azərbaycan dilinin xüsusiyyətlərini, orfoqrafik və orfoepik normalarını öyrənməsi, qarşımıza qoyduğumuz əsas məsələlərdəndir.

İstifadə edilmiş ədəbiyyat

1. Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: 2019, 430 s.
2. Nəbiyeva Ş. Ana dili tədrisi metodikasının aktual problemləri. Bakı: 2010, 127 s.

UOT 37.02;371

MƏKTƏBİN TƏRBİYƏ İMKANLARININ MÜNAQİŞƏLƏRİN HƏLLİNƏ TƏSİRİ YOLLARI

Günel Azad qızı Nağıyeva
dissertant
Bakı Dövlət Universiteti
guneloruj@gmail.com

Demoqrafik proseslərin gedişatı uşaqların şəxsiyyət kimi formalaşmasında ciddi rol oynayır. Baş verən hər bir prosesin uşaq şəxsiyyətinin formalaşmasında özünəməxsus təsiri müşaiyət olunur. Bu baxımdan uşaq doğulandan ehtibarən hər bir ailə rastlaşdığı demoqrafik proseslərin gedişatına diqqət etməli, onların uşaq şəxsiyyətinin inkişafına təsirlərini daim nəzarətdə saxlamalıdır. Əlbəttə ki, bu qaydanı növbəti mərhələdə məktəb və müəllimlər də əsas tutmalıdır. Bəzən demoqrafik problemlərlə rastlaşan ailələr bu problemlərin öhdəsindən gəlməkdə xeyli çətinlik çəkirlər. Belə halda həmin problemlərin uşağa təsirini nəzarətdə saxlamaq da mümkünsüzləşir. Bu məqamda məktəbin üzərinə ağır yük düşür.

Bəs məktəb və müəllimlər bu məhsuliyyətin öhdəsindən gələ bilirlərmi? Bu sahədə iş nə yerdədir? Demoqrafik problemlərin təsirləri məktəblərdə hansı formada nəzərə alınır? Müəllimlər bu problemlərin neqativ təsirlərini aşkara çıxara bilirmi? Problemin şagird şəxsiyyətinin formalaşmasına mənfi təsirini aradan qaldırmaq mümkün olurmu?

Məktəbin tərbiyə imkan geniş və çoxşaxəlidir. Tarixin bütün dövrlərində təlim ocaqları, məktəblər əsas tərbiyə mənbəyi olaraq fəaliyyət göstərir. Müasir dövrümüzdə də məktəbin tərbiyə imkanları müstəsna əhəmiyyətə malik olmaqdadır. Artıq elə bir zamana gəlib çıxmışıq ki, çoxsayılı səbəblər baxımından məktəbin tərbiyəvi əhəmiyyəti daha da artmaqda, ailənin daha önünə keçməkdədir. Buna səbəb olan amilləri digər fəsillərdə kifəyət qədər qabartdığımızı nəzərə alaraq, məktəbin, müəllimin rolunun araşdırmaqla tədqiqatı davam etməyi üstün tuturuq.

Məktəbin tərbiyə funksiyasını düzgün yerinmə yetirə bilməsi o zaman baş verə bilir ki, bu prosesə ciddi həssaslıqla, eyni zamanda sistemli, ardıcıl qoyulmuş tələblər, qayda-qanunlar, nizam intizamla yanaşılsın. Əlbətdə ki, tərbiyə prosesinin gedişi daim müsbət xətt üzrə inkişaf edə bilmir. Tərbiyənin dinamik proses olması baxından onun gedişatında eniş-çıxışları görmək mümkündür. Bəzən tərbiyənin nəticəsini istənilən formada almaq olmur ki, bu da təbii haldır. Bu prosesin səmərəliliyi məktəb rəhbərliyi, pedaqoji kollektivin, məktəb psixoloqlarının ən əsas isə sinif rəhbərlərinin gərgin əməyindən bilavasitə asılıdır.

Araşdırmalarımız göstərir ki, hazırkı dövrdə məktəblər psixoloqların işi istənilən səmərəni əldə etmək üçün kifayət etmir. Sorğu keçirdiyimiz bir sıra məktəblərdə, psixoloqların tərbiyə prosesinə və onun gedişatında yaranan problemlərin aradan qaldırılmasına təsiri əhəmiyyətli dərəcədə deyil. Buna təsir göstərən amillərdən psixoloqların sayının məktəbin kollektivin sayına

müvafiq olmaması, onların praktik hazırlığının kifayət etməməsini və s. göstərmək olar. Bu səbəbdən tərbiyə prosesinin əsas gərginliyinin müəllimlərin, ən əsas da sinif rəhbərlərinin üzərinə düşdüyünü görürük.

Aparılan tədqiqatlar göstərir ki, tərbiyə prosesinin ailədə düzgün qurulmaqması, onun məktəbdə korreksiya oluna bilməməsi və s. səbəblərdən tərbiyədə nöqsanlar ortaya çıxır və bu da təbii olaraq müəllim-şagird münaqişələrinin yaranmasına gətirib çıxarır. Bu, müasir dövrümüzdə təlim-tərbiyə prosesinin səmərəliliyinə mənfi təsir edən əsas səbəblərdən biri olaraq göstərilməkdədir. Çünki təlim prosesinin düzgün qurulması üçün kollektivdə sağlam psixoloji mühitin qurulması mühüm almildir.

Son dövrlərdə geniş vüsət alan neqativ demoqrafik amillər məktəblərdə təlim-tərbiyə prosesinin düzgün qurulması zamanı müəllimləri xeyli çətinliyə salmaqdadır. Xüsusi diqqət, qayğı və münasibət tələb edən neqativ demoqrafik amillərin təsirinə məruz qalan şagirdlərlə təlim prosesinin qurulması müəllimlərdən xeyli əmək sərf etməyi, səbr, dözüm və pedaqoji hazırlıq tələb edir.

Ailə tərbiyəvi mühitin, münasibətlərin düzgün qurulmaması uşaqların məktəblərdə fərqli davranışlarda çıxış etmələrinə səbəb ola bilir. Xüsusən yeniyetmə yaşlı məktəblilərin ailələrdə baş verən proseslərə qarşı reaksiyalarının məktəbə siraət etməsi müəllimlərin işini xeyli çətinləşdirə bilir. Bu zaman məktəblərdə pedaqoji münaqişələr deyilən prosesin ortaya çıxmasını aktuallaşır. Yaranmış münaqişələrin çoxsayılı səbəbləri vardır. Bu səbəblər, əsəsən, buradan qaynaqlanır ki, müəllimlər və valideynlər bəzən pedaqoji-psixoloji cəhətdən, hazırlıqlı olmur, hər iki tərəf lazımı səbr, dözüm və inamı göstərə bilmir, uşaqlarla münasibətlərin qurulmasında yalnışlıqlar ortaya çıxır, valideynlər məktəblə əlaqə yaratmağa maraqlı olmur və s.

Müəllim-şagird münaqişələri dərin məna və məzmun baxımında xarakterizə olunmaqla mürəkkəb çalarlara malikdir. Yaranan münaqişələr bəzən uzun müddət davam edir və şagird məzun olanda belə həmin xatirələrlə məktəbi tərk edir. Bu onun həyat yolunda maneələr törədir və ömür boyu öz izlərini göstərə bilir. Bu baxımdan müəllimlər daha çox münaqişələrin həll olunmasına deyil, yaranmamasına diqqət yetirməlidirlər.

Müəllim şagirdlə ünsiyyət quran zaman onun ən yaxşı keyfiyyətlərinə əsaslanmalı, mənfi keyfiyyətlərinin aradan qaldırılmasıma çalışmalıdır. Müasir təhsil sistemi müəllimin qarşısında təkcə bilik vermək tələbi qoyulmayıb. Şagirdi müasir dövrün tələblərinə uyğun formalaşdırmaq müəllimin əsas vəzifəsi hesab olunur. Onların istək və arzularını duya bilən müəllimlərə yüksək qiymət verilir.

Təlim-tərbiyə prosesində qeyri-ciddi, laqeyd, demokratiyadan uzaq, sagirdlərini həddindən artıq, yerli-yersiz danlayan, təhqirə yol verən müəllim nəinki özünə, həm də tədris etdiyi fənnə qarşı da nifrət yaratmış olur. Şagirdlər belə müəllimə hörmət bəsləmir, dərsinə yaxşı hazırlaşmır, tapşırıqlarını həvəslə yerinə yetirmir. Müəllim sadə bir söz və ya xoş münasibətlə şagird qəlbinə bu və ya digər mənada təsir edə, şagirddə təlimə həvəs oyada, davranışlarındakı neqativ halları aradan qaldıra bilər. Ailədən fərqli olaraq məktəb mühiti, buradakı kollektiv faktoru şagirdi düzgün formalaşdırmaq üçün geniş imkanlara malikdir. Şagirdin kollektivdə tərbiyəsi daha uğurlu alınır. Sağlam kollektiv, doğma münasibət müəllimə məqsədə çatmaq üçün yol açır. Bunun üçün müəllim kollektivi dərindən araşdırmalı, buradakı hər bir şagirin fərdi xüsusiyyətinə yaxından bələd olmalıdır. Şagirdlər fərdi xarakterik xüsusiyyətlərə, müxtəlif qabiliyyətlərə malik olur. Onlardan bəziləri fikirlərini yaxşı ifadə edə bilir, dərslərini həvəslə yanaşır, digərləri isə bu baxımdan çətinlik çəkir, oxuduğunu, dinlədiyini qayraya bilmir və s. Müəllim fərdi xüsusiyyətlərinə, maraq və qabiliyyətlərinə əsaslanmaqla şagirdləri istənilən formada yönəltmək imkanına malikdir. Bu həm təlim həm də tərbiyə prosesində müvəffəqiyyət qazanmağın təməl qanunudur.

İstifadə edilmiş ədəbiyyat

1. A.N. Abbasov Pedaqogika. Bakı: Mütərcim, 2013.
2. Əlizadə H.Ə. Tərbiyənin demoqrafik problemləri. Bakı, 1993

3. Bayramov Ə.B, Əlizadə Ə.Ə, Sosial psixologiya. Bakı, 2003
4. Ə.Əlizadə, İdrak prosesləri və hisslər, Bakı, 2006.
5. Ağayev Ə.Ə. Seçilmiş pedaqoji əsərləri. I cild. Bakı, 2011

UDC 37(100)

CHALLENGES IN THE INTERNATIONALIZATION OF HIGHER EDUCATION

Sanan Mehdi
Mingachevir State University
sanan.mehdi@mdu.edu.az

It is a fact that internationalization is essential to the higher education system, so all higher education institutions determine their development strategic plans. This thesis's purpose is to touch upon the definition and challenges of the internationalization of higher education.

The internationalization phenomenon is determined by activity at the national and institutional levels as the process of integrating an intercultural, international or global dimension into the aims, functions, or delivery of postsecondary education [1]. The meaning of internationalization of higher education differs and depends on the stakeholder groups, institution government, private sector, institution, faculty member, academic discipline, and student [2]. This definition is adopted, introducing its emphasis on process and the three important functional dimensions of universities: teaching, research and service. There are also three key conceptions of this phenomenon. The conception of internationalization is that it is a dynamic process, not a set of isolated activities. Integration and infusion are also the keys in this definition to ensure that the international dimension is a central part of programs, policies, and procedures. [3]

Creative research and innovative methodologies are able to supply a 'powerful shared space' for global networks of researchers of HE internationalization while commencing up chances for new research perspectives and cooperation. Inter- and trans-disciplinarity can ensure meta-theoretical means to problematize reductive and disciplinary views methodologically and as a wider enterprise. These issues can combine academic and social dimensions of internationalization to realize cross-cultural comprehension to be improved, encouraging openness to cultural and values-based cooperation in a manner that enables shared principles to be created while keeping attentive to problems of power and ethics. The approaches bring together different disciplinary and practitioner perspectives to define how research on HE internationalization can establish intentional spaces and structured chances for reflexive interactions that enable to integrate of a range of academic disciplines, economies, etc. [4]

An increasingly globalized marketplace has also created a serious requirement for international competencies throughout the workforce, leading to public policies meant to encourage the internationalization of a nation's scientific research and educational programs. International study and exchange chances are appropriate like never before, with millions of foreign students taking advantage of these opportunities annually - the majority of them attending study in North America and Europe. Some regional policy initiatives are contributing to regional and international student and academic staff mobility, including the ERASMUS and SOCRATES programs in Europe, Mercosur in the Americas, and ASEAN and APEC in the Asian and Pacific regions. Globalization has also led to the rising international popularity of such degrees as the master of business administration (especially when taught in the English language), which has implications for curricular reforms in many corners of the globe. [5]

The international dimension is a key factor challenging the higher education sector in all countries. Knight mentions that since the 1990s, it has become a stunning force for change, perhaps the central feature of the higher education sphere [6]. According to Knight landmarks of this changing horizon include:

– The improvement of new international networks and consortia

– The growing numbers of students, academic staff and researchers taking place in academic mobility schemes

– The raise in the number of courses, programs, and qualifications that focus on comparative and international spheres

– More emphasis on enhancing international/intercultural and global competencies

– Wider interest in the international field and collaborative research

– A developing number of cross-border delivery of academic programs

– Rising in campus-based extracurricular activities with an international or multicultural component

– The impetus was given to the acceptance of foreign students.

– Rising in the number of joint or double degrees.

– The enlargement in cooperation, franchises, offshore satellite campuses.

– The creation of new national, regional, and international organizations. [6, 3]

New regional and national-level government policies and programs contribute to academic mobility and other internationalization initiatives.

Knights stresses that changes and challenges are springing up as the changing environment of globalization effects education but also as internationalization itself becomes an agent of change. And she divides the challenges into eight areas: globalization, regionalization, information and communication technologies, new providers, alternate funding sources, borderless issues, lifelong learning, and the growth in the numbers and diversity of actors. [6, 4]

Challenges in internationalization should be figured out through essential strategies. Saat mentions that these challenges have been divided into categories: individual and institutional. The individual challenges of higher education in this literature are a shortage of competency, negative attitudes, absence of incentives and shortage of personal knowledge and expertise. But institutional challenges consist of a lack of financial sources, scarcity of human resources, and educational structure. [7]

As a result, I would like to emphasize there are too many challenges in the internationalization of education, for example, lack of financial support, recognition curriculum, etc., and these issues should be solved by governments, international and national education organizations in order to increase utility for cooperation among institutions and to enhance the quality of education.

References

1. Knight J, *"Updated Definition of Internationalization", International Higher Education, 2003.*

2. Knight, J. *"Internationalization of Higher Education: New Directions, New Challenges"*, 2006. IAU Global Survey Report, International Association of Universities (IAU), 2005

3. *Akbar Zolfaghari, Mohammad Shatar Sabran, Ali Zolfaghari*, *"Internationalization of higher education: Challenges, strategies, policies and programs",* US-China Education Review, 2009.

4. Robson S, Wihlborg M. *"Internationalisation of higher education: Impacts, challenges and future possibilities",* European Educational Research Journal*, 2019.*

5. Knight J. *"Internationalization: Concepts, Complexities and Challenges",* 2006.
6. Knight J. *"The Internationalization of Higher Education in the 21st Century: New Realities and Complexities", 2008.*
7. Saat, A. (2007). "*Internationalization of higher education: Preparation, policy, implementation and recognition"*, 2008.

UOT 82-3

AZƏRBAYCAN ROMANLARINDA HƏYAT HƏQİQƏTLƏRİ

Nəzmiyyə Məmməd qızı Axundova
Gəncə Dövlət Universiteti
naziyma2012@gmail.com

Azərbaycan romanı yarandığı tarixdən bəri Azərbaycan gerçəkliyinin bədii tarixinə çevrilmişdir. Romanlarımızda ən qədim dövrlərdən müasir günümüzəcən xalqımızın keçdiyi böyük TARİXİ YOL-un ayrı-ayrı mərhələləri, azadlıq və istiqlal mücadilələri, yadelli işğalçılara qarşı ədalətli müharibələri, özünəməxsus adət və ənənələri, estetik və etik dünyagörüşü əks olunmuşdur

Romanı başqa janrlardan fərqləndirən odur ki, romanda dünya, cəmiyyət, həyat, insan münasibətləri bütöv və tam, dolğun və əhatəli görünür.

1990-cı illərdən başlayaraq ölkədə baş verən ictimai-siyasi hadisələr tədricən Azərbaycan romanında da öz əksini tapdı.Məmməd Orucun "Köçürülmə", Əli Əmirlinin "Meydan", Arif Abdullazadənin "Qanlı yaddaş", Sabir Əhmədlinin "Axirət sevdası" və "Kütlə", Afaq Məsudun "Azadlıq", Aqil Abbasın "Dolu"romanlarında 90-cı illər Azərbaycan gerçəkliyinin inikasını görürük.

Bu romanlar arasında Xalq yazıçısı Sabir Əhmədlinin "Axirət sevdası" və "Kütlə" romanları xüsusilə seçilir. Müharibə dövrünün real mənzərələri "Axirət sevdası"nda, Meydan hərəkatı isə "Kütlə"də əks olunmuşdur Səksəninici illərin sonlarından başlayan Xalq hərəkatı bir çox nəsr əsərlərində öz inikasını tapdı və bu əsərlərdən biri də "Kütlə" romanı idi. Müəllifin fikrincə, Meydan hərəkatı ümumxalq cəbhəsinin yaranmasına gətirib çıxardı. Tənqidçi Bəsti Əlibəyli doğru qeyd edir ki: "Sabir Əhmədliyə görə buradakı kütlə öz hərəkətində daha çox müstəqil idi və rəhbər müstəqil hərəkət edən kütlənin davranışına uyğunlaşmışdı. Sonrakı dövr yazıçının bu qənaətdə haqlı olduğunu təsdiq etdi. Meydan hərəkatından sonra Azərbaycan Xalq Cəbhəsi fəaliyyətə başladı, partiyalar yarandı, təşkilatlanma gücləndi, çoxlu mitinqlər, nümayişlər oldü" [3].

Sabir Əhmədlinin "Axirət sevdası" romanı isə 90-cı illər Azərbaycan gerçəkliyini bədii sözün işığına çıxaran ən dolğun bir əsər kimi diqqəti cəlb edir. Qarabağ müharibəsi zamanı yazıçının oğlu Məhəmməd ali təhsilini yarımçıq qoyub könüllü olaraq cəbhəyə getmiş və döyüşlərdə həlak olmuş-dur. Bu itki ata ürəyində qövr etmiş və "Axirət sevdası" romanının yazılmasına səbəb olmuşdur.

Roman bir ata iztirablarını əks etdirsədə (sücet əsasən bunun üzərində qurulur), mövzu, əsasən, bu axarda davam etsə də, lakin əsərdə Qarabağ müharibəsi, bu savaşla bağlı müxtəlif fikirlər, ələlxüsus da İnsan və Müharibə problemi də öz əksini tapmışdır. Romanda həm də ölüm və varlıq, gerçək həyat və axirət haqqında düşüncələr də diqqəti cəlb edir. Bunlar romana fəlsəfi bir ahəng bəxş edir və əsərin məna yükünü artırır.

Məmməd Orucun "Köçürülmə" romanında təsvir olunan hadisələr 1919-1921 və 1948-1951-ci illərdə cərəyan etsə də, xalqımızın başına gətirilən bəlaların kökünü, mənbəyini və səbəblərini açıqlamaq mənasında mühüm əhəmiyyət daşıyır.RomandaVedibasarlı yurddaşlarımızın bir neçə gün ərzində vaqonlara doldurulub Azərbaycanın aran rayonlarından birinə-Beyləqana köçürülməsi, köçürülənlərin necə maddi və mənəvi məhrumiyyətlərə düçar olması təsvir edilir. Ancaq o zaman

vedililərin arxası, mənəvi dayağı olan Abbasqulu bəy Şadlinski əhalinin İrana köçməsinə yardımçı olmuş, iki ildən sonra yenidən onların öz doğma yurdlarına qayıtmasına kömək etmişdi. 1948-1951-ci illərdə isə artıq vəziyyət dəyişmişdi, vedililərin arxası, köməyi yox idi. Daşnaklar rus ordusunun köməyilə Ermənistanda yaşayan soydaşlarımızı öz ata-baba yurdlarından didərgin saldılar, "köçürülmə" siyasəti böyük maddi və mənəvi fəlakətlərə yol açdı. M.Oruc köçürülmə anlarını ürək ağrısı ilə təsvir edir, burada hər lövhə son dərəcə təsirlidir.

"Köçürülmə" M.Orucun ilk romanı idi.Amma romanda qoyulan ideyanın düzgün yozumu, obrazların hər birinin xarakterik cizgiləri, lövhələrin təsirliliyi, əsərin mühüm məziyyətləridir. Ən başlıcası isə, müəllif torpaq sevgisini, yurda, ocağa məhəbbəti romanın başlıca leytmotivinə çevirə bilmişdir.

M.Oruc öz romanında Azərbaycan türklərinin 1988-ci ildən əvvəlki faciələrini təsvir edirsə, Əli Əmirlinin "Meydan" və Arif Abdullazadənin "Qanlı yaddaş" romanlarında hadisələr keçən əsrin səksəninci illərinin sonları-doxsanıncı illərinin əvvəllərində cərəyan edir.

Məlumdur ki, 1989-cu ilin Meydan hərəkatı Azərbaycanda Xalq hərəkatının pik nöqtəsi oldu. Milyonlarla insan Meydana çıxıb rus imperiyasına, erməni təcavüzünə etirazını bildirdilər.Sonralar Meydan hərəkatı bir sıra publisistik əsərlərin mövzusuna çevrildi, bədii ədəbiyyatda da Meydanda baş verən hadisələr, o dövrdə insanların keçirdiyi hisslər, müxtəlif təbəqələrin xalq hərəkatına fəal yaxud passiv münasibəti əks olunmalıydı. Ancaq Əli Əmirli «Meydan» romanında heç də bu vəzifəni qarşısına məqsəd qoymamışdı. Ona görə də Xalq hərəkatı, Meydanda baş verən hadisələr illüstrativ təsir bağışlayır. Müəllifin əsas məqsədi bayağı bir həyat sürən qəhrəmanının mənəvi düşgünlüyünü, ideaalsız həyat tərzini ümumiləşdirmək olmuşdur. Beləliklə, "Meydan" romanı Meydan hərəkatı haqqında yalnız səthi təsəvvür yaradır..

Arif Abdullazadənin "Qanlı yaddaş" romanındakı hadisələr Meydandan sonrakı olaylardan bəhs edir. Ancaq "Meydan" romanından fərqli olaraq müəllif 20 Yanvar qırğınına qədərki hadisələrin ictimai səbəblərini açıqlamağa çalışmış və belə bir fikri təlqin etmişdir ki, bu qırğının təməli çoxdan qoyulubmuş. Əsərin əsas qəhrəmanlarından olan Adil məhz sovet dövründə Azərbaycan tarixinin qaranlıq səhifələrinə baş vurur, bir çox həqiqətləri üzə çıxarır, təbii ki, onun fikirləri "elmi ictimaiyyət" tərəfindən qəbul edilmir. Romanda biz ağıllı bir Azərbaycan ziyalısının obrazı ilə qarşılaşırıq.

Tənqidçi Vaqif Yusifli yazır: "Afaqın "Azadlıq" romanı həm janr xüsusiyyətinə, həm də üslubi yönünə görə ilk baxışda qəribə təsir bağışlayır. Yəni roman publisistik bir ahənglə, templə başlayır, sonra sırf psixoloji səpgidə davam edir, sonda yenə publisistik ton qabarıq görünür. "Azadlıq" A.Məsudun insandan cəmiyyətə, fərdin daxili dünyasından ictimai-siyasi hadisələrə sıçrayışını tam şəkildə açıqlayır. Əslində, onun "dörd divar arasında" təsvir etdiyi gerçəkliyin özü də cəmiyyətin mikromodeli təsiri bağışlayırdı, ancaq "Azadlıq"da cəmiyyət, konkret ifadə etsək, Azərbaycan gerçəkliyi bütün reallığı ilə əks olunur" .

Romanda 90-cı illərin ictimai-siyasi hadisələrinin təsviri diqqəti cəlb edir, lakin bu təsvirdə müəllif sırf sənədliliyə enməmişdir, o, Millət Atasını da, ondan əvvəlki Prezidenti də, bu iki şəxsin ətrafındakı məmurları da, geniş mənada Xalqın özünü də bədii təxəyyül süzgəcindən keçirmişdir, yəni arayıb-axtarsaq, A.Məsud tarixi şəxsiyyətlərin obrazlarını yaradarkən mümkün qədər məlum stereotiplərdən qaçmışdır.

Azərbaycan gerçəkliyinin 90-cı illərin romanlarında bədii inikası heç də bu əsərlərlə məhdudlaşmır və ikimininci illərdə Azərbaycan romanı xalqımızın bu əzablı, məşəqqətli yolunu, xalqın müstəqillik uğrunda mübarizəsini, Qarabağ müharibəsini, müstəqillikdən sonra ölkədə baş verən ictimai-siyasi olayları əks etdirməyə başladı.

Aqil Abbasın "Dolu" romanı müharibə mövzusunda yazılıb. Doğrudur, bu əsərdə biz canlı döyüş səhnələri ilə üzləşmirik, lakin romanda başdan-ayağa müharibə ovqatı hakimdir. Aqil Abbas bir yazıçı-publisist kimi cəbhə bölgələrində olmuş, döyüşçülərlə sıx əlaqə saxlamışdır. Roman haqqında Nizami Cəfərovun bir mülahizəsini xatırlatmaq istərdik: "Düşünəndə ki, biz nəyi

itirmişik, onda artıq sözü ədəbiyyat deyir. Biz tutaq ki, Qarabağda musiqimizi, səsimizi, lap elə romanda deyildiyi kimi Qədirin səsini itirmişik. Bax, bunu da ədəbiyyat deyir. Və bu roman ədəbiyyatın da ciddi bir tarix olduğunu ifadə edib. Ayrı-ayrı insanlar haqqında, onların qəribə taleləri, bütün bunlar da romanda bitkin təsvir olunub. Tutaq ki, o qəhrəmanlardan müəyyən qismi vaxtilə cinayətkar olub, amma Aqil Abbas o cinayətkarlığın da anatomiyasını üzə çıxarıb." [4, s.9]

"Dolu" romanında öncə qeyd etdiyimiz kimi, müəllifin canlı müşahidələri mühüm yer tutur və A.Abbas şəxsən tanıdığı komandirlərin, döyüşçülərin, müharibə şəraitində yaşayan insanların səciyyəvi cizgilərini ayrı-ayrı obrazlarda ümumiləşdirə bilib. Buna görə də təsvir olunan obrazlar süni və qurama deyil, təbiidir, elə bil, hər gün gördüyümüz insanlardır.

Müəllif, hələ işğal olunmamış, lakin artıq işğal ərəfəsində olan bu şəhərin ağır günlərini təsvir edir. İki müharibə gedir: biri silah-sursatı tükənən, yalnız Allahın ümidinə qalan bizimkilərlə güclü döyüşçülərə malik, bol silahlı-sursatlı düşmən tərəfi vuruşur. Bizim ordunun 90-cı illərin əvvəllərindəki acınacaqlı vəziyyəti, hər gün onlarla təlim keçməmiş, vuruşmağı, hətta silah atmağı çətin bacaran cavan əsgərlər şəhid olur. Steranakertdə oturan Polyaniçkolar və onların Bakıdakı və Yerevandakı əlaltıları da bir yandan. İkinci bir müharibə isə daxildə gedir. Ürəyi Vətən eşqilə çırpınan oğullar cismən və mənən məhv edilirlər. At Belində Olan Adamlar bu müharibədən hədsiz qazanc götürür, namuslu insanlara şər atır və əslində, düşmənin xeyrinə işləyirlər.

Romanda Katib, Rəis, Drakon və Pələng obrazları heç də bədii təxəyyüllə yaradılmayıb, bu obrazların güman ki, həyatda prototipləri də var. Onları birləşdirən və ayıran. Fərqləndirən cəhətlər var. Bu dördü də Dünyanın Ən Varlı Şəhərinin Dünyanın Ən Kasıb Şəhərinə döndüyünü hiss edirlər. Sözlərində, hərəkətlərində nə qədər qəti olsalar da, düşmənin də güclü olduğunu dərk edirlər. Bununla yanaşı, xarakterləri dəyişmir. Drakon dinc dövrdə də asıb-kəsən, vurub-yıxan, amma sözü daşdan keçən bir comərd idi. Pələng də onun yetirməsidir. Amma birincisi müharibə dövründə nə qədər amansızdırsa, ikincisi bir qədər həlim və ürəyi yumşaqdır. Drakon At Belində Olan Adamın onun sifarişini qəbul etmədiyinə görə şalvarını çıxarıb soyundurmaq istəyir, Pələng isə buna yol vermir və aralarında savaş gedir. Drakon müharibənin sərt qanunları ilə hərəkət edir, Pələng isə humanistlik göstərir. O, qızmış cavanların bir erməni qızına təcavüz etmələrinə yol vermir. Amma çox keçmir ki, barışırlar. Onların ikisi də Vətən yolunda həlak olur.

Keçmiş həyat lövhələrinin ənənəvi deyil, fərqli şəkildə əks etdirən əsərlər sırasında Mövlud Süleymanlının "Köç" romanı da səksəninci illər nəsrində ədəbi hadisə kimi qiymətləndirildi. Roman çap olunandan sonra ədəbi ictimaiyyətdə böyük maraq doğurdu. Xalq şairi Bəxtiyar Vahabzadə yazırdı: «Əzizim Mövlud! "Köç"lə o yurddan bu yurda köçən, yurdlara sığmayan dədə-babamızın geniş ruhunu, təbiətin özü qədər narahat təbiətini, iqlimdən-iqlimə salam aparan nağıllı, əfsanəli ürəyini ürəyimizə köçürdün, qanımızı qaynatdın. Özümüzdən gizli qanımızda yaşayan o ruhu dilə gətirdin, bizi özümüzə qaytarıb təzələdin. Bu əsər "Yol" da ola bilərdi. Çünkü bu, bir xalqın doğula-doğula, ölə-ölə təkcə torpaq üstündə deyil, həm də tarix boyu keçdiyi enişli-yoxuşlu, davalı-şavalı bir yolun təsviridir." [2, s.87-89]

Mövlud Süleymanlının "Köç" romanı tarixi mövzuda yazılmış dəyərli nəsr nümunəsidir. Romanda təbliğ olunan ideya düzgün müəyyənləşdirilmişdir. O da MİLLİ BİRLİK ideyasıdır!

İstifadə edilmiş ədəbiyyat

1. A.Hüseynov. Həyat və sənət həqiqəti (məq. toplusu) Bakı, Nəşriyyat Poliqoafiya Mərkəzi, 2001

2. B.Vavabzadə.Köç müəllifinə məktub (məqalə). "Vətən ocağı" kitabı, Bakı: Gənclik, 1976

3. B.Əlibəyli. Azadlıq meydanı - kütlənin köç düşdüyü şəhər çölü (məqalə). "525-ci qəzet", 26 mart 2004.

4. Nizami Cəfərov. Dolu – ədəbiyyatımızın Qarabağnaməsidir. Aqil Abbasın «Dolu» romanına ön söz. Bakı: Təhsil, 2008.

5. Vaqif Yusifli. Nəsr, konfliktlər, xarakterlər (monoqrafiya). Bakı: Yazıçı, 1986.

UOT 159.9

TƏLƏBƏLƏRDƏ İCTİMAİ FƏALLIĞI FORMALAŞDIRMAQ ÜÇÜN KOLLEKTİVİN FƏALİYYƏTİNİ ŞƏRTLƏNDİRƏN MEYARLAR

Nübar Teymur qızı Quliyeva
doktorant
Gəncə Dövlət Universiteti
nubar.quliyeva.1981@mail.ru

Həyatda fəal mövqe tutan, ictimai fəallığa malik tələbələr öz fəaliyyətləri zamanı həmin keyfiyyətlərə yiyələnirlər. Təkcə özləri deyil, özünüidarə kollektiv üzvlərində də bu keyfiyyətlərin təşəkkül tapıb formalaşmasına yardımçı olurlar.

Biz ictimai fəallığa və onun formalaşdırılmasına şəxsiyyətdə baş verən daxili dəyişiklikləri nəzərə almaqla yanaşmağı məqsədəuyğun hesab edirik. Odur ki, ictimai fəallığı biz şəxsiyyət tərəfindən mənimsənilmiş və inama çevrilmiş mənəvi biliklərin məcmusunu və real fəaliyyətdə olan motivləri, davranış üsullarını, fəaliyyətin priyomlarını, münasibətlərin növlərini əhatə edən, ictimai tapşırıqların yerinə yetirilməsi zamanı müstəqilliyi, təşəbbüskarlığı, yaradıcılığı və kollektivin həyatının müsbət emosional tonunu təmin edən inteqral şəxsiyyət keyfiyyəti kimi nəzərdən keçiririk.

İctimai fəallığın bu şəkildə müəyyənləşdirilməsi tələbələrin davranışında və münasibətlərində onun təzahürünün bir sıra daha əhəmiyyətli cəhətlərini qeyd etməyi zərurətə çevirir. Prof. M.Ə.Həmzəyev yazırdı: "Şəxsiyyətin fəallığı onun inteqral xassəsidir. Bu, həm şəxsiyyətin ideyalılığında, həm əxlaqi saflığında, həm də mənəvi zənginliyində, xüsusilə iradi inkişaf səviyyəsində ifadə olunur. Digər tərəfdən, fəallığın inkişafı şəxsiyyətin əqli və fiziki, əxlaqi və siyasi, estetik və politexnik inkişafı üçün daxili zəmin yaradır. Fəal adam daim məhsuldar olur. Tarixi məhz bu cür adamlar yaradırlar. Ən əhəmiyyətli fəallıq şəxsiyyətin əmək və ictimai fəallığıdır" [3, s.49-56].

R.M.Əliyevin fikrincə, “Şəxsiyyətin fəallığı dedikdə, özünün əsas xarakteristikalarının (məqsədyönlülük, motivasiya, şüurluluq, fəaliyyətin üsullarına və priyomlarına yiyələnmə, emosionallıq) səmərələşdirilməsi, eləcə də təşəbbüskarlıq və situativlik kimi xüsusiyyətlərə malik olması ilə fərqlənən fəaliyyətin xüsusi növü, yaxud xüsusi fəaliyyət anlaşılır. Sosial fəallıq isə, sosial baxımdan faydalı fəaliyyətdə, əsasında ictimai əhəmiyyətli tələbatlar olan motivlərin və stimulların təsiri altında həyata keçir, mühitin və tərbiyənin təsiri altında formalaşır” [2, s.17-29].

Şəxsiyyətin təşəbbüskarlıq dərəcəsi ictimai fəaliyyətdə (sosial fəallığın yetkinlik göstəricisi, tələbədə həyat və ictimai-təşkilatçılıq təcrübəsi kimi) az əhəmiyyət daşımır.

Təşəbbüskarlıq meyarlarını davranışda üç səciyyədə görürük:

1) təşəbbüskarlıq sistemli şəkildə özünü göstərir;
2) təşəbbüskarlıq orta səviyyəlidir;
3) təşəbbüskarlıq qənaətləndirici deyil, yaxud, tələbə, ümumiyyətlə, təşəbbüskar deyil.

İctimai fəaliyyətə müsbət münasibətin sabitliyi meyarları tələbənin öz əxlaqi vəzifələrinə münasibətinin sabitlik dərəcəsini müəyyənləşdirməyə şərait yaradır. O, ictimai fəaliyyətin təkcə asan və cəlbedici növlərini deyil, eyni zamanda yorucu, darıxdırıcı, "çətin" növlərini yerinə yetirməyə hazır olmasını (yaxud olmamasını) nəzərdə tutur. Prof. B.A.Əhmədov da ictimai fəallıq anlayışına aydınlıq gətirmişdir. Professor göstərirdi: "İctimai fəallıq ictimai hadisələrə yaradıcı, dəyişdirici münasibət olub, aşağıdakıları əhatə edir:

1) ictimai işə maraq;
2) tapşırıqların icrasına məsuliyyətlə və yaradıcı şəkildə yanaşmaq;
3) təşəbbüskarlıq;
4) icraçılıq;

5) özünə və yoldaşlarına tələbkar münasibət bəsləmək;

6) başqalarına kömək etməyə hazır olmaq;

7) təşkilatçılıq bacarıqlarına malik olmaq və s.

Əgər fəaliyyətdə həmin komponentlər təzahür edirsə, onda bunlar eyni zamanda ictimai fəallığın göstəricilərinə çevrilir" [1, s.259-261].

Prof. B.A.Əhmədov ictimai fəallıqda müsbət emosiyalara əsaslanan motivlərin rolunu xüsusi qeyd edir. Bu xüsusda yazırdı: "Elə etmək lazımdır ki, şagird öz fəaliyyətinin cəmiyyət üçün faydalı olduğunu başa düşsün və bu zəmin üzərində hərəkət etməyə çalışsın. Cəmiyyət üçün, xalq üçün işləmək tələbatı ən aparıcı motivdir, şagirdləri də məhz bu ruhda tərbiyə etmək lazımdır.

İctimai fəallıq tərbiyəsinin başlıca şərtləri bunlardır.

1. İctimai fəaliyyətin ideya istiqaməti.
2. Kollektivə rəhbərliyin demokratik üslubu.
3. Kollektiv daxilində hər bir fərd üçün fəallıq göstərmək mövqeyinin yaradılması.
4. Kollektivdə şəxsiyyətlərarası münasibətlərin nizama salınması.
5. Təşkilatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsi və s."

E.A.Anufriyevin fikirləri də diqqəti cəlb edir. O, ictimai fəallıq anlayışını əsasən düzgün aydınlaşdırmışdır. E.A.Anufriyevin qənaətincə, ictimai fəallıq məfhumu şəxsiyyətin ictimai həyatın müxtəlif sahələrinə münasibətini, onun konkret sosial-siyasi fəaliyyətini səciyyələndirir ki, bu da müxtəlif istiqamətlərdə və intensivlikdə olur. İctimai fəallıq insanın sosial iş bacarığının təzahür həddini ifadə edərək, şəxsiyyətin xarakteristikasında ictimai münasibətlərin subyekti kimi əsas cəhəti təşkil edir. Nəticədə ictimai fəallıq insanın əməyə, cəmiyyətə və ictimai-siyasi fəaliyyətə münasibətini göstərir [4, s.111-115].

E.A.Anufriyev "ictimai fəallıq" anlayışında üç başlıca məsələni – münasibət, fəaliyyət və onun intensivliyini xüsusi şəkildə nəzərə çarpdırır. O, insanın əməyə, cəmiyyətə münasibətinə və ictimai-siyasi fəaliyyətinə yüksək qiymət verir.

L.V.Voxminovanın nöqteyi-nəzərincə, ictimai fəallıq əməyə, ictimai fəaliyyətə şüurlu, yaradıcı münasibəti, fəaliyyətin bir sıra növlərində faktiki olaraq iştirakı, həm də könüllü iştirakı nəzərdə tutur ki, bu iştirak mahiyyət etibarilə şəxsiyyətin özünütəsdiqinə imkan verir. Başqa sözlə, ictimai fəallıq məqsədyönlülükdə, özünə yüksək tələbkarlıqda, özü, öz hərəkətləri, şəxsiyyətin üzvü olduğu kollektivin uğurları və fəaliyyəti üçün məsuliyyət daşımasında özünü göstərir [5, s.119-122].

Psixoloqlar insan fəallığının təhrikediciləri kimi motivlərin və tələbatların rolunu xüsusilə qeyd edirlər. Şəxsiyyəti fəaliyyətə maddi tələbatla bərabər ictimai və mənəvi tələbatlar, yəni maraqlar, ideallar, hisslər, duyğular və s. sövq edir. Adamların qarşılıqlı əlaqələri əmək prosesində meydana gəldiyi və inkişaf edərək formalaşdığı üçün, fəallıq şəxsi tələblər və maraqlarla məhdudlaşmır. İctimai tələblər və maraqlarla da müəyyən olunur.

İnsan müəyyən yaş həddinə çatdıqca, onun şəxsiyyəti formalaşdıqca maraq dairəsi, dünyagörüşü genişlənir, fəallığı yüksəlir. Bu vaxt mühit də ona təsir edir.

Beləliklə, ali məktəb tələbələri bu məsələyə münasibətdə tələbatların rolunu və vəzifələrini aydın anlamalıdırlar. Bütün bunlar isə, şəxsiyyətin özünütərbiyəsində başlıca yer tutur. Zəruri tələbatlar fəaliyyətin motivlərinə çevrilir.

Deyilənlərdən görünür ki, ictimai fəallıq, əvvəla, insanın əsas xüsusiyyətlərinin biri kimi çıxış edərək şəxsiyyətin strukturunda öz ifadəsini tapır, ictimai fəallıq xüsusi sosial təzahürü əmələ gətirərək ictimai-siyasi münasibətlər sahəsində insanların hərəkət və əməllərində, davranışında meydana gəlir. Həm də ictimai fəallıq şəxsiyyətin yönümünü müəyyən edir.

Ali məktəb tələbələrinin ictimai fəallığı, ilk növbədə onların özlərini kollektivin üzvləri kimi hiss etmələrində, kollektivin və cəmiyyətin mənafeyi naminə ictimai fəaliyyətdə iştirakında, ictimai tapşırıqlara əməl edilməsində, təşəbbüskarlığın və özfəaliyyətin təzahüründə, kollektivin və cəmiyyətin qarşısında dayanan vəzifələrin yerinə yetirilməsi məqsədi ilə təşkilatçılıq bacarığı, qabiliyyəti və tələbatına yiyələnməkdə özünü göstərir. Fikrimizcə, tələbələrin ictimai fəallığı

dedikdə, onların öz bilik, bacarıq və qüvvələrini cəmiyyətimizdə gedən quruculuq işlərinin və vəzifələrinin yerinə yetirilməsinə doğru istiqamətlənən fəaliyyəti, ictimai fəaliyyətdə iştirak etmək sahəsində vərdişlərə yiyələnmələri və həmin fəaliyyətə tələbatın yaranması anlaşılmalıdır. Həmin fəaliyyət müəyyən ictimai tapşırıqları yerinə yetirmək vəzifəsini öz üzərinə götürmək və onlara əməl etməklə məhdudlaşmamalı, fəaliyyətin digər növləri, o cümlədən əmək, təlim idrakı, təşkilatçılıq fəaliyyəti ilə birləşib hərtərəfli şəkil almalıdır. Bu, bir həqiqətdir ki, ictimai fəallıq olmadan, idraki fəallıq, ictimai borcun yerinə yetirilməsində olduğu kimi, təlimə münasibət səviyyəsinə də qalxmaz. Eləcə də, təşkilatçılıq fəaliyyətində fəallıq müəyyən istiqamətə malik olmadıqda cəmiyyətə zidd fəaliyyətə çevrilə bilər.

İctimai fəallıq "ictimai iş" anlayışı ilə qırılmaz surətdə bağlıdır. İctimai fəallıq məhz müvafiq istiqamətdə fəaliyyət və ictimai işin yerinə yetirilməsi prosesində inkişaf edib formalaşır. N.K. Krupskaya bu xüsusda yazırdı: "İctimai iş şüurlu intizam tərbiyə edir, birlik əmələ gətirir, bir-birini yaxşı tanımağı, bir-birinə yaxşı kömək etməyi, bir-birinə hörmət etməyi öyrədir" [6, s.128-132], N.K. Krupskaya gənc nəslin ictimai istiqamətləndirilməsinin formalaşdırılmasını çox mühüm vəzifə hesab edirdi. Yetkin olmayan kollektivdə verilən göstəriş və tapşırıq çox zaman maraqsız və yorucu təsir bağışlayır. Tapşırığa formal, candərdi əməl edilir, işə mənfi münasibət formalaşır. Belə mənfi münasibətin yaranmaması üçün tələbələr tapşırığın ictimai əhəmiyyətini anlamalıdırlar. Tapşırığın cəlbedici olması mühüm şərtdir. Tələbələr tərəfindən könüllü qəbul edilən tapşırığa "müstəqil iradi hərəkət tipi üzrə" əməl edilir. Həm də ictimai fəallıq onunla səciyyələnir ki, tələbələr tapşırıqların icrası zamanı müstəqil şəkildə onun həyata keçirilməsinə çalışırlar.

Özfəaliyyət ictimai fəallığın yüksək formasıdır. Tələbə oğlan və qızlar zəruri ictimai faydalı işi və onun yerinə yetirilməsinin mümkün və səmərəli yollarını seçirlər. Ali məktəb tələbələrinin fəaliyyəti onların fəallıq səviyyəsindən çox asılıdır. Onlar nə qədər müstəqillik göstərirlərsə, ictimai fəallıq baxımından onların imkanları bir elə tükənməz olur. Lakin hərəkətin müstəqil seçilmiş metodları da şablon ola və sərbəst seçilmiş fəaliyyət lazımi xarakter almaya bilər. Odur ki, fəallığın və müstəqilliyin hər şeylə maraqlanma, hər şeyi bilmək və öyrənmək həvəsi və yaradıcı təşəbbüslə uzlaşdırılması mühüm məsələdir.

Tələbələrin ictimai fəallığının mürəkkəb quruluşunun ayrılmaz komponenti onun iradəsinin xassələridir. Məqsədəyönəlmişlik, qətiyyət, təkidli olmaq, müstəqillik, intizamlılıq, prinsipiallıq, təmkinlik və s. buraya daxildir.

İctimai fəallıq şəxsiyyətin əxlaqi ləyaqəti, ictimai dəyərinin meyarlarından biri, onun vətəndaşlıq yetkinliyi kimi nəzərdən keçirilir.

Beləliklə, aşağıdakı nəticəyə gələ bilərik:

Tələbələrin ictimai fəallığı ölkəmizin quruculuq vəzifələrinə doğru istiqamətlənən fəaliyyətlə, ictimai fəaliyyətdə iştirak üzrə zəruri vərdişlərə malik olmaq, həmin fəaliyyətdə iştirak üçün müəyyən tələbatın formalaşması ilə sıx surətdə əlaqədardır və ictimai faydalı xarakter kəsb etməlidir.

İstifadə edilmiş ədəbiyyat

1. Əhmədov B.A. Şagird özünüidarə orqanlarının fəaliyyəti. Azərbaycan məktəbi, 1978.
2. Əliyev R.M. Sinifdənxaric vaxtlarda tələbələrin sosial fəallığının inkişaf etdirilməsi. Bakı, 2015.
3. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2003.
4. Ануфриев Е.А. Социалъная ролъ и активностъ личности. М, 1971.
5. Вохминова Л.В. Проблемы развития общественной активности старше классников в деятелности самоуправления. М. 1979
6. Крупская Н.К. Пед. Соч. М. 1957.

UOT 37.02;371

DEMOKRATİK YANAŞMAYA ƏSASLANAN TƏLİM STRATEGİYALARININ TƏDQİQİ

Nuranə Natiq qızı Əliyeva
Bakı Qızlar Universiteti
Bakı Dövlət Universitetinin doktorantı
aliyevanurana0@gmail.com

Demokratik təhsil demokratiya və təhsil anlayışlarının əlaqələndirilməsi nəticəsində meydana gələn bir yanaşmadır. Bu iki anlayışın bütünləşməsindən yaranan demokratik təhsilin əsas məqsədi bərabərlik, azadlıq, seçicilik, müstəqillik, sərbəstlik, aktivlik, problem həlletmə kimi demokratik prinsiplərin təhsil və təlim vasitəsilə hər bir fərdə mənimsədilməsidir. Demokratik təhsilə görə, məktəblər fərqli etnik kökənə, dinə və ekonomik gəlir səviyyəsinə sahib fərdlər arasında hər hansı bir ayrı- seçicilik göstərmədən bərabərlik prinsipinə əsaslanmalıdır. Məktəb sosial yaşantını sürdürən və insanı cəmiyyət həyatına hazırlayan bir müəssisə olaraq cəmiyyətin mərkəzində olmalı və o, həyat ilə əlaqə və bağını heç bir şəkildə qoparmamalıdır. Belə ki, məktəb cəmiyyəti istiqamətləndirən və inkişaf etdirən demokratik bir qurum halına salınmalıdır. Demokratik bir cəmiyyətin təməl dinamikliyini demokratik təhsil (məktəb) təşkil edir və demokratik təhsilin mərkəzində isə öyrənən dayanır. [4]

Amerikan fiolosofu Con Dyuinin ömrünün sonuna kimi dilindən düşürmədiyi demokratik təhsil ideyası təlim prosesinə də öz təsirini göstərmişdir. Demokratik yanaşmaya əsaslanan təlim prosesinin əsas hədəfi azad düşünən, müstəqil şəkildə qərar verə bilən, seçicilik və hər növ problemi həll etmə qabiliyyətinə malik aktiv bir şəxsiyyət yetişdirməkdir. Bu təlim prosesinin mərkəzində şagird (öyrənən) dayanır. Çünki təhsil üçün əsas olan fərddir, fərd də eyni zamanda cəmiyyətin bünövrə daşıdır. Bu səbəblə təhsil (məktəb) cəmiyyətin, öyrənən də təlim (təhsil) prosesinin mərkəzində yer almalıdır. [1]

Demokratik yanaşmaya əsaslanan təlim prosesinin əsasını iki əsas strategiya təşkil edir.

1. Aktiv öyrənmə.
2. Yaradıcı şəkildə problem həlletmə.

Aktiv öyrənmə və ya fəal təlim öyrənənin təlim prosesinin mərkəzində yer aldığı və bu prosesə cavabdeh olduğu, eyni zamanda, onun öz zehni qabiliyyətlərinin istifadəsinə şərait yaradıldığı bir prosesdir. Aktiv öyrənmə prosesində şagird passiv alıcı deyil, öyrənərək və edərək öz həyatını formalaşdıran şəxsiyyətdir. Aktiv öyrənmənin əsas mahiyyəti ondan ibarətdir ki, şagird dərs müddətində əldə etdiyi bilikləri gündəlik həyatında tətbiq etməli, düşünməli, seçici olmalı və hər növ problem həll etməyi bacarmalıdır.

Aktiv öyrənmənin xüsusiyyətləri:

- Şagird mərkəzli təlimdir;
- təlim prosesində şagird fəallıq göstərir;
- problemi həll edərlər və öyrəndiklərini tətbiq edərlər;
- düşünmə, araşdırma, sualvermə və şərhetmə kimi bacarıqları inkişaf edir;
- öyrənmə prosesində görmə, eşitmə və toxunma kimi duyğu üzvlərinin inkişafı təmin edilir;
- şagird qoyduğu məqsədə özü nail olur;
- şagirdlərdə maraq və özgüvən artır;
- aktiv təlim öyrədən və öyrənənin birgə əməkdaşlığı əsasında qurulur.

Con Dyuinin aktiv öyrənmə modelinə görə, təlim prosesində bilik hazır şəkildə qazanılmalı deyil, o, öyrənən tərəfindən zehni şəkildə göstərilən səy nəticəsində formalaşdırılmalıdır. Hətta, bu prosesdə edilən təcrübə də biliyi daha da əhəmiyyətli edir. Bir sözlə, aktiv təlim biliyi strukturlaşdırma və şərhetmə prosesidir, öyrənənlərin düşüncə tərzi burada əsas götürülməlidir. [1]

C. Dyuinin aktiv öyrənmə və ya fəal təlim barəsində vurğuladığı ən önəmli məqam budur ki, təlim prosesində şagirdlərə öyrədilən bilik həyatla əlaqələndirilməli və onların gələcək yaşamına da təsir göstərməlidir.

Təlim prosesində problem həlletmə demokratik təhsilin əsasını təşkil edən strategiyalardan biridir. Yaradıcı şəkildə problem həlletmə zamanı öyrənən öz xəyal gücünü istifadə edərək hər hansı bir məsələyə fərqli baxış irəli sürür. Şagirdləri hər hansı bir problemin həllinə cəlb edərkən aşağıdakı tələblər nəzərə alınmalıdır.

- Düşüncələr mühakimə edilməməli;
- fərqli ideyalar irəli sürülməli;
- bütün düşüncələr qəbul edilməli;
- fikirlər dəqiq olmalı;
- çətin problemlər gözardı edilməməli;
- bir mərhələ hazır olmadan digərinə keçilməməli.

Təlim prosesində yaradıcı düşünmə və problem həlletmənin mərhələləri aşağıdakılardan ibarətdir:

1. *Müəyyənləşdirmək*- vacib olan məqamların göz önünə alınması.
2. *Məlumatları toplamaq* - "Nə?", "Hansı?", "Kim?", "Necə?", "Harada?", "Nə vaxt?" kimi sualların verilməsi, problemin daha da aydın anlaşılması üçün məlumatların toplanması və bir çox faktların, intuisiyaların, təəssüratların və hisslərin dəqiqliyinin araşdırılması.
3. *Problemi tapmaq* - "Nə üçün?" sualını verərək altda yatan səbəblərin ortaya çıxardılması.
4. *İdeyanın meydana gəlməsi* - yeni və fərqli ideyalar yartmaq üçün səy göstərilməsi
5. *Həll yolu tapmaq* - ortaya atılan fərqli düşüncələrin analiz edilməsi və hər düşüncənin avantajlarını, məhdudiyyətlərini və xüsusiyyətlərini müəyyən etmək üçün meyarların yaradılması.

Con Dyui yaradıcı problem həlletmə modelinin təlim prosesində ən mühüm bir strategiya olduğunu müəyyən etmişdir. Onun fikrincə, öyrənmə-öyrətmə prosesində ənənəvi vərdişlərimizi tərk etməli, yeni düşüncə vərdişləri formalaşdırmalıyıq. Fərqli düşüncə tərzimiz bizi uğurlu nəticəyə sürükləyir. Bu konteksdə təhsil hər bir fərdin düşüncə, iradə, araşdırma və təcrübə kimi bacarıqlarının inkişafına yönələn bir prosesdir. [1] Düşüncə bir çox hadisə və proseslərin müşahidə olunması formasıdır. Odur ki, reflektiv düşüncə bacarıqlarının formalaşdırılması üçün təlim-təhsil prosesində hər bir öyrənənin düşüncəsini oyandırmaq və bunun üçün şərait yaratmaq vacibdir. [1] Şagirdlərdə təfəkkürü inkişaf etdirməyin yollarından ən mühümü onları ortaya atılan problemlərin həllinə cəlb etməkdir. Ona görə də Con Dyui yaradıcı problem həlletmə strategiyasını təlim prosesinin mərkəzində yerləşdirir.

Demokratik yanaşmaya əsaslanan təlim prosesinin mərkəzində öyrənən yer almalıdır. Bu təlim prosesində aktiv öyrənmə və yaradıcı problem həlletmə strategiyalarından istifadə edilməsi hər bir öyrənənin fərqli düşüncə, sağlam əqidə, güclü iradə, seçicilik, təhliletmə, müqayisəetmə kimi bacarıqlarının formalaşmasına yol açır. Eyni zamanda, bu iki strategiyanın tətbiqi nəticəsində hər bir fərd istər məktəbdə, istərsə də özünün sosial həyatında qarşılaşdığı hər növ problemlərin həlli yollarını taparaq fərdi və sosial bacarıqlarının inkişafına təkan verir.

İstifadə edilmiş ədəbiyyat

1. Kemal B. Demokratik Eğitim. Ankara: Pegem Akademi, 2015, 92 s
2. John Dewey Okul ve Toplum. Ankara: Pegem Akademi, 2019, 138 s
3. John Dewey Günümüzde Eğitim. Ankara: Pegem Akademi, 2018, 232 s
4. John Dewey Demokrasi ve Eğitim. Ankara: Gece kitaplığı, 2020, 363 s
5. www.ustunzekalilar.org

UDC 37:002

THE IMPACT OF INFORMATION AND TELECOMMUNICATION TECHNOLOGIES ON EDUCATION

Fidan Isayeva
Mingachevir State University
fidan.isayeva@mdu.edu.az

Information is the main means of communication transmitted between people through language, and the emergence of the information society has gone through a long period of development. Since the beginning of human history, people first tried to communicate with each other by various means, after mastering the language, with the help of language tools and functions.

A new era in the information environment was created by the emergence of computer towards the end of the XX century and the widespread use of it in the world, as well as in our country since the beginning of the XXI century. Rapid transmission of large data over a short period of time was carried out through large computer networks. The emergence of computer networks and the internet made information exchange accessible to everyone.

The development of information and technology has opened a large number of new opportunities in many areas of private and public life: education, business, health, entertainment and recreation. The development of information technologies means the rules of using these technologies, a number of different aspects that appear in different organizational areas. Such development of information and communication technologies makes it easier to use modern innovations in various areas of life.

The theory of dissemination of innovations (diffusion) modeled the way of creating new communication technologies. The dissemination of innovations means the study of the role of social networks, communication in the transmission of information and persuading people to adopt new technology. The process of transferring innovation between members of the social system by certain means in a given time period is diffusion. Innovation means new ideas, ideas, experiences, accepted by any person or organization. Mass media and ways of interpersonal communication are included in the phenomenon of diffusion, and in modern times, media such as mobile phones and the internet, which combine aspects of these, demonstrate complex ways of diffusion process. [4, p. 54]

The main purpose of the creation of information and Communication Technologies is to facilitate the living conditions of people in the world. Information and communication technologies are of great importance in many areas of the world, as well as in education, trade, culture, entertainment, socio-economic development sector of our Republic.

In modern times, interactive learning involves the use of technological tools along with interactive learning methods, and in this way the educational process is carried out more efficiently and effectively. Interactive learning not only encourages learners to acquire existing knowledge and skills, but also develops brain-building, creativity, analysis and application skills. In accordance with the requirements of the time, the use of technology in the learning process allows not only linguists, but also teachers teaching the language to learn more deeply with the help of modern methods of technological means and to benefit from the world school experience in this field.

The development of science and technology has opened a new stage in foreign language teaching, and at this stage, the use of innovative teaching methods plays a key role. C.A.Estman noted the main factors of the main issues considered during innovative training:

1. Through modern teaching methods, language learners are taught ways to acquire that knowledge instead of foreign language skills;

2. In order to form communicative competence in foreign languages in linguists, they are involved in discussions in that language;

3. In the course of teaching, the cultural characteristics of the language-bearing people are also taken into account. Thus, as the main organizer of the process of teaching foreign language skills to students, the teacher emphasized the cultural aspects of the people who are carriers of that language [2, p. 62]

In world practice, the use of technological means in teaching a foreign language is not new. Radio, language laboratories and video materials began to be used in the 1960s and 1970s in order to effectively organize the language learning process, and nowadays such technological tools are applied in teaching and learning process in many countries of the world. Thus, it began to be used in the early 1980s. The main purpose of computer-based language training materials was to motivate linguists to perform tasks that appear on the screen.

Effective use of computer technologies means using them during teaching and learning, in addition to encouraging students to learn English, creating conditions for their more responsible and close participation in this process. [3. p.232].

Bax S. In his work "CALL – past, present, future" he noted the influence of the use of computer technology on the process of mastering language from a psychological and cognitive point of view. Computer language learning is not only focused on one skill, but also develops against the background of integrating four basic skills such as writing, reading, listening and communication. When listening to any text, the ability to speak together with listening is formed in them, and when reading original materials, the ability to use correct grammatical rules and sentence structure both in reading and writing. [1, p.12]

The use of information and communication tools in teaching a foreign language made it possible to take advantage of new learning methods in the process of teaching and learning. New learning methods mean online learning, e - learning, distance learning, blended learning. The use of new teaching and learning methods with the application of technology leads to the creation of favorable conditions in the language learning of students of any age and language level. Thus, the use of information and communication tools during teaching activities makes this process fun for learners. As a result, it makes it accessible for teachers to effectively work with students with various learning characteristics and achieve the set goal at the end of educational activities. All this proves once again that the use of technology and ICT means is necessary in teaching a foreign language in modern times.

References

1. Bax S. CALL- past, present and future. System 2003. 28 p.
2. Eastman C.A . The Ways of learning native American wisdom. Ch 3, New York: New World Library, 1991, 20 p.
3. Paul Bangs , Pascual Cantos . What can Computer Assisted Language Learning Contribute to Foreign Language Pedagogy? International Journal of English Studies. 2010 , 239 p.
4. Rogers E. M. The diffusion of innovation (5th edition) New York: Free Press, 2003, 576 p.

UOT 37.03

XXI ƏSRİN BACARIQLARI

Gülər İlham qızı Əjdərzadə
Mingəçevir Dövlət Universiteti
gular.ajdarzada@mdu.edu.az

Şəxsiyyətin ictimai ehtiyaclara uyğun olaraq hərtərəfli inkişafı və tərbiyəsi pedaqogikanın qarşısında duran əsas vəzifədir. Təhsildə innovativ metodların tətbiqi təlim nəticələrinin yaxşılaş-

dırılmasına hesablanıb. Eyni zamanda, təhsil sisteminin qeyri-kamilliyi və hərəkətsizliyi yeninin inkişafını çətinləşdirir, bu da prosesi xeyli ləngidir. Buna baxmayaraq, təhsildə innovativ texnologiyalar dövlətin əsas məsələsi olaraq qalır və bu, vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi, eyni zamanda qarşıya ölkəni iqtisadi durğunluq vəziyyətindən çıxarmaq vəzifəsini qoyur. Təhsildə innovasiyalar sistemli iqtisadi inkişafda, elmin rolunun gücləndirilməsində, əhalinin rifahının yaxşılaşdırılmasında və sosial gərginliyin azaldılmasında maraqlı olan dövlətlər üçün prioritetdir. Aydındır ki, tədris sistemindəki durğunluq dövlətə və cəmiyyətə mənfi təsir göstərən, mövcudluğun bütün səviyyələrində sistemli problemlərin toplanmasına səbəb olan neqativ haldır. İnnovasiya geniş anlayışdır. Təhsil baxımından bu, yeni texnoloji və metodik tədqiqatlardan istifadə və köhnəlmiş standartların vaxtında dəyişdirilməsidir. Müasir dünyada təhsilin inkişaf tendensiyalarından biri onun keyfiyyətinin yüksəldilməsidir ki, bu da normativ sənədlərdə öz əksini tapıb. Dünyada baş verən hadisələrin dinamik inkişafı, o cümlədən yeni koronavirus infeksiyasının yaranması ilə bağlı dəyişikliklərlə əlaqədar təhsil sferasında ciddi dəyişikliklər baş verib. Təhsilin birliyini və bütövlüyünü, davamlılığını dəstəkləmək, o cümlədən təhsil sisteminin subyektləri arasında əməkdaşlığın inkişafı mühüm prioritetlər olaraq qalır.

Sürətlə inkişaf edən, texnologiyanın vasitəçi olduğu dünyada inkişaf etmək üçün tələbələr təkcə dil, riyaziyyat və digər bu kimi elm sahələrində güclü bacarıqlara malik olmamalı, həm də tənqidi düşünmə, problem həll etmə, əzmkarlıq, əməkdaşlıq kimi bacarıqlara da mahir və maraqlı olmalıdırlar. Ancaq çox vaxt tələbələr bu bacarıqlara nail olmurlar. Təhsil texnologiyası layihə əsaslı, təcrübəyə əsaslanan, sorğuya əsaslanan və adaptiv təlim metodları kimi mövcud və yaranan pedaqoji yanaşmaları tamamlaya bilər. Bundan əlavə, təhsil texnologiyası ünsiyyət, yaradıcılıq, əzmkarlıq və əməkdaşlıq kimi 21-ci əsr bacarıqlarının öyrədilməsini asanlaşdırmaq üçün unikal şəkildə tətbiq edilə bilər [4, s.52].

Təhsil texnologiyası tendensiyaları ilə bağlı araşdırmalar göstərir ki, yüksək səviyyəli səriştələrin və xarakter keyfiyyətlərinin inkişafı, texnologiyaların təlim məqsədləri ilə uyğunlaşdırılması, tədris və öyrənmə mərhələlərində texnologiyanı səmərəli və hərtərəfli tətbiq edən təlim yanaşmalarını inkişaf etdirmək üçün daha çox iş görülə bilər: təməl savadlar, səriştələr və xarakter keyfiyyətləri. Əsas savad tələbələrin əsas bacarıqları gündəlik tapşırıqlara necə tətbiq etdiyini əks etdirir. Bu bacarıqlar tələbələrin daha təkmil və eyni dərəcədə vacib səriştələr və xarakter keyfiyyətlərini inkişaf etdirmələri üçün əsas rol oynayır. Bu kateqoriyaya təkcə qlobal səviyyədə qiymətləndirilmiş savadlılıq və hesablama bacarıqları deyil, həm də elmi savadlılıq, informasiya kommunikasiya texnologoyaları (İKT) üzrə savadlılığı, maliyyə savadlılığı, mədəni və vətəndaş savadlılığı daxildir. Bu bacarıqların əldə edilməsi bütün dünyada təhsilin ənənəvi diqqət mərkəzində olmuşdur.

Tarixən, yazılı mətnləri və kəmiyyət münasibətlərini başa düşmək işçi qüvvəsinə daxil olmaq üçün kifayət idi. İndi bu bacarıqlar XXI əsr bacarıqlarının mənimsənilməsi yolunda yalnız başlanğıc nöqtəsidir. Bacarıqlar tələbələrin mürəkkəb problemlərə necə yanaşdığını təsvir edir. Məsələn, tənqidi təfəkkür problemlərə cavab formalaşdırmaq üçün vəziyyətləri, ideyaları və məlumatları müəyyən etmək, təhlil etmək və qiymətləndirmək bacarığıdır [1, s.26].

Yaradıcılıq biliklərin tətbiqi, sintezi və ya məqsədinin dəyişdirilməsi yolu ilə problemlərin həlli, suallara cavab vermək və ya məna ifadə etmək üçün innovativ yeni üsulları təsəvvür etmək və hazırlamaq bacarığıdır. Ünsiyyət və əməkdaşlıq məlumat ötürmək və ya problemləri həll etmək üçün başqaları ilə koordinasiyada işləməyi əhatə edir. Bu kimi səriştələr XXI əsrin işçi qüvvəsi üçün vacibdir, burada biliyi tənqidi qiymətləndirmək və çatdırmaq, həmçinin komanda ilə yaxşı işləmək normaya çevrilib.

Təhsil texnologiyaları məkanında çoxsaylı yeniliklər təhsili təkmilləşdirmək və bacarıq boşluqlarının aradan qaldırılmasına kömək etmək potensialını göstərməyə başlayır. Təhsilin keyfiyyətini artırmaq üçün təhsil texnologiyasından aşağıdakılar üçün istifadə olunur:

1. Bir çox ölkələrdə yaxşı təlim keçmiş müəllimlərin və geniş əlçatan texnologiya infrastrukturunun olmaması kimi fundamental problemlərə yaradıcı həllər tapmaq;
2. Aşağı qiymətə təhsili daha geniş auditoriyaya təqdim etmək və ya eyni qiymətə daha yüksək keyfiyyətli təlim vermək;
3. Yerli bazarlarda perspektivli modellərin daha asan genişləndirilməsinə və ən yaxşı təcrübələrin uzun müddət ərzində davam etdirilə biləcək şəkildə bazarlar arasında ötürülməsinə imkan vermək;
4. Məlumatların daha çox müxtəlifliyindən, həcmindən və sürətindən istifadə edərək, tələbələrin real vaxtda necə və nə öyrəndikləri barədə fikir əldə etmək;
5. Bacarıqların və xarakter keyfiyyətlərinin differensial şəkildə öyrədilməsi üçün istifadə oluna bilən qiymətləndirmə və sınaq kimi tapşırıqlardan dəyərli vaxt ayıraraq müəllimin məhsuldarlığını artırmaq.

Bundan əlavə, təhsil texnologiyası XXI əsrin ünsiyyət, yaradıcılıq, əzmkarlıq və əməkdaşlıq kimi bacarıqlarını inkişaf etdirmək üçün tətbiq oluna bilər. Əlbəttə ki, texnologiya XXI əsrin bacarıq boşluğunu aradan qaldırmağı hədəfləyən həyati həllər portfelinin yalnız bir elementidir. Bunlara daha yaxşı müəllim hazırlığı, yeni öyrənmə üsulları və mübarizə aparan ailələr üçün əhatəli xidmətlər kimi strategiyalar daxildir [3, s.36].

XXI əsr bacarıqlarının tam spektrini inkişaf etdirmək üçün daha çox resurs səriştə və xarakter keyfiyyətinin inkişafına yönəldilməli və xüsusi bacarıqlara uyğunlaşdırılmalıdır. Bu, öz növbəsində, müəllimlərə, onların ehtiyaclarına və kontekstlərinə ən yaxşı cavab verən məhsulları daha yaxşı qiymətləndirməyə kömək edərdi.

Fərdiləşdirilmiş və adaptiv təhsil texnologiyaları əsasən təməl savadlılığın inkişafına yönəlmişdir. Məhsul tərtibatçıları fərdi tələbə ehtiyaclarına uyğunlaşdırılmış, fərdi və onlayn təlimatı birləşdirən qarışıq öyrənmə yanaşmaları ilə effektiv şəkildə istifadə edilən fərdi kompüter əsaslı öyrənmə ilə diferensiallaşdırılmış öyrənmə təqdim etməyə çalışırlar. Bu proqramlar sinifdaxili təlimatla birlikdə istifadə oluna bilər, müəllimlərin tələbələrin materialı daha dərindən qavraması və problem həll etmə, yaradıcılıq və əməkdaşlıq kimi bacarıqları inkişaf etdirmək üçün vaxt ayırır. Onlar həmçinin öyrənməni dinamik qiymətləndirmək, boşluqları aradan qaldırmaq və nəticələri izləmək üçün məlumatların gücündən istifadə edə bilərlər [2, s.49].

Oyunlar və simulyasiyalar tələbələrə ənənəvi mühazirədən kənara çıxmağa və "oyunla öyrənmə" adlanan cəlbedici şəkildə tədris məzmunu ilə qarşılıqlı əlaqədə olmağa imkan verir. Təhsil texnologiyaları məkanının bu küncündə fəaliyyətin əksəriyyəti hesablama və elmi savadlılıq çərçivəsində baş verir. Buna baxmayaraq, oyunlar eyni anda birdən çox bacarıq üzərində fokuslanmağa imkan verir: tələbələr əsas anlayışları başa düşmək üçün işləyərkən, həm də yaradıcılıq, maraq və prosesdə əzmkarlıq kimi bacarıqları inkişaf etdirə bilərlər. Bu alətlər layihə əsaslı öyrənmə kimi yeni pedaqoji yanaşmalarla yanaşı, səriştələrdə və xarakter keyfiyyətlərində bacarıq boşluqlarının aradan qaldırılmasında ön sıralardadır. Bacarıq boşluqlarının aradan qaldırılmasına kömək etmək üçün müəllim hazırlığı XXI əsrin bacarıqlarına daha yaxşı uyğunlaşdırılmalıdır. Bundan əlavə, idarəçilər həm məktəb, həm də sistem səviyyələrində öyrənmə və qərarların qəbulu zamanı məlumatların istifadəsini təkmilləşdirməlidirlər.

Müəllimlərin peşəkar inkişafı məkanında başqa bir yeni tendensiya xüsusi olaraq səriştələr və xarakter keyfiyyətlərini hədəfləyən rəqəmsal kursların hazırlanmasını nəzərdə tutur. Məsələn, KDS-də müəllimlərin yüksək səviyyəli bacarıqları öyrətmək üçün yeni təhsil metodları ilə tanış olduğu "21-ci əsrin bacarıqları" kursu var. Ənənəvi aparat yönümlü texnologiya oyunçuları da peşəkar inkişaf sahəsinə keçdilər. Üz-üzə öyrənməni təmin etməklə yanaşı, onlar hökumətlərin, məktəb rəhbərlərinin və müəllimlərin XXI əsr bacarıqlarını inkişaf etdirmək üçün istifadə etdikləri Intel Teach və Microsoft Partners in Learning kimi onlayn kurslar, materiallar və müəllim icmalarını özündə əks etdirən qarışıq təhsil yanaşmalarını inkişaf etdiriblər.

Tələbələr XXI əsrdə yeni bacarıqlar tələb edir, müəllimlər və digər maraqlı tərəflər isə yeni performans ölçüləri tələb edir. Beləliklə, Təhsil texnologiyası bütün səmərəliliyi və effektivliyi əsaslı şəkildə artırmaq potensialına malikdir, eləcə də təməl savadlardan kənarda XXI əsr bacarıqlarının tədrisini asanlaşdırmaq üçün unikal potensiala malikdir.

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov Ə., Novruzov Q. Yaddaş məktəbindən düşüncə və təfəkkür məktəbinə. Bakı,2013
2. Əlizadə Ə.Ə. Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı,2008
3. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı,2014
4. Əhmədov H. Distant təhsilin müasir vəziyyəti və onun inkişaf yolları. Bakı,2013

UOT 82-1

XALQIMIZIN TARİXİNDƏ ƏBƏDİ YAŞAYAN ƏHMƏD CAVAD ŞƏRQİLƏRİ

Gülnar Adil qızı Vəliyeva
Mingəçevir Dövlət Universiteti
gulnar.valiyeva@mdu.edu.az

1918-1920-ci illərdə mövcud olan Azərbaycan Xalq Cümhuriyyəti ədəbiyyat və mədəniyyətin inkişafına böyük töhfələr vermişdir. Müstəqil Azərbaycan dövlətinin yaranması əsrlərdən bəri azadlıq, bərabərlik arzuları ilə yaşayan şair və yazıçılarda böyük ruh yüksəkliyi yaratdı və onların yaradıcılığına güclü təsir göstərdi. Bu dövrün poeziyasını Məhəmməd Hadi, Səməd Mənsur, Hüseyn Cavid, Əlabbas Müznib , Cəfər Cabbarlı, Əli Yusif kimi şairlər təmsil edirdilər. Doğma yurdun azadlığa çıxmasına sevinən şairlərdən biri də Əhməd Cavad olmuşdur. Şeirlərində milli oyanış, xalq hərəkatı, türk xalqlarının birliyinə çağırış edən şair ədəbiyyatımızda "İstiqlal şairi" kimi tanınmışdır.

Əhməd Cavadın şeirlərinin əsas mövzusunu vətənpərvərlik, doğma yurdun istiqlalının tərənnümü təşkil edirdi. Birinci dünya müharibəsi illlərində Məhəmməd Əmin Rəsulzadənin təklifi ilə "Müsavat" partiyasına daxil olan, onun idealarını təbliğ edən Əhməd Cavad 1912-ci il Türkiyədə olan Balkan Savaşlarına könüllü olaraq qatılaraq öz şah əsərlərindən birini, "Çırpınırdı Qara dəniz" şerini qələmə almışdır. O bu şeiri Osmanlı ordusunun Qara dənizdə üç rus gəmisini batırması ilə duyğulanaraq qələmə almışdır. 1918-ci ildə isə dahi Azərbaycan bəstəkarı Üzeyr Hacıbəyov bu şeirə musiqi bəstələmişdir. Əhməd Cavadın ən yaxın dostlarından biri olan Nuri Paşa öz ordusu ilə 1918-ci il 25 may tarixində Gəncəyə daxil olarkən o dövr ki, Gəncə bələdiyyə binasının qarşısında gənc qızlar tərəfindən məhz bu mahnı ifa olunmuşdur. Bu günə qədər də sevilən nəğmələrdən biri olaraq sayılır. Çox maraqlıdır ki, şairin yazdığı bu şeirin ilk orijinal variantı 98 ildən sonra yenidən öz vətəninə qaytarılmışdır. Belə ki, Əhməd Cavad əski əlifbadan ibarət olan öz əl yazısı ilə yazdığı bu şeiri 1918-ci il 1 may tarixində Əli bəy Hüseynzadəyə göndərmişdir. Uzun sürən bir aradan sonra Əli bəy Hüseynzadənin qızı Feyzavər xanım Əhməd Cavadın əl yazısı ilə yazdığı bu şeiri atasının bir sıra sənədlərinin arasında taparaq tarixi sənəd nümunəsi kimi layiqli şəxslərə təqdim etmişdir. Əlyazma əldən-ələ küçərək uzunbir ayrılıqdan sonra Hacettepə Universitetinin professoru İbrahim Yıldırım tərəfindən "Ədəbiyyat" qəzetinin baş redaktoru Azər Turana göndərilərək doğma vətəninə dönmüşdür.

Əsəri oxuyarkən iki şey diqqətimi cəlb elədi. Birincisi şeirin ilkin variantının Türkiyə ləhcəsində yazılması, ikincisi isə dördüncü bənddəki olan dəyişikliklər.

Hamidiye o türk kanı
Her birinin bitməz şanı.
Batum olsun yol kurbanı

Eğil Türkün bayrağına. [5, s 3]

1954-cü ildə represiya qurbanlarına bəraət verildikdən sonra bir çox şairlər kimi Əhməd Cavadın da da şeirləri də təhriflərə yol verilərək Türkiyə ləhcəsində olan söz və ifadələr dövrün tələbinə uyğun ifadələrlə oxuculara çatdırılmışdı.

"Həmidiyyə" o Türk qanı!
Heç birinin bitməz şanı!
"Kazbek" olsun ilk qurbanı!
Heyran Türkün bayrağına [4, s 140]

Göründüyü kimi, Gürcüstanın Qara dənizdəki liman şəhərin olan Batum Kazbek dağı ilə əvəz olunmuşdur. Son bənddəki "eğil" sözü isə "heyran" sözü ilə əvəzlənmişdir. Əhməd Cavadın yazdığı "Çırpınırdı Qara dəniz" şeiri demək olar ki, milli himn qədər kütləvi şəkildə oxunulan və sevilən bir şərqiyə çevrilibdir."Çırpınırdı Qara dəniz, Baxıb Türkün bayrağına!" Bu misralar hər bir türkün dilinin əzbəri oldu.

Batum şəhəri Əhməd Cavad üçün xüsusi əhəmiyyət kəsb edirdi. Çünki o burada ömürgün yoldaşı olan Şükriyyə xanımla tanış olmuşdur. Şükriyyə Əhməd Cavad şəxsiyyətinin daha bir parlaq tərəfi idi. Çünki Əhməd Cavad şəxsiyyətinin formalaşmasında həyat yoldaşı Şükriyyə xanımın da böyük rolu olmuşdur. Əhməd Cavad xanımını tükənməz məhəbbətlə sevirmiş. O, şairin ilham mənbəyi idi. Şükriyyə xanım da Əhməd Cavad repressiyaya uğradığı vaxt əsil qadınlıq mücəssəməsi nümayiş etdirərək heç bir vəchlə Şairdən imtina etmir. O, övladlarından təcrid edilərək Qazaxıstana sürgün edilir. Əhməd Cavad ona olan məhəbbətindən bir çox əsərlər yazmışdır. Onlardan biri də "Şükriyyəm üçün" şeiridir ki, gözəl bəstəkarımız Emin Sabitoğlu bu şeirə musiqi bəstəliyərək "Şükriyyə" adlı mahnını ərsəyə gətirmişdir.

Əhməd Cavad yaradıcılığının ən bəxtəvər dövrü Azərbaycan Xalq Cümhuriyyəti dövründə öz əksini tapmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması münasibətilə yazdığı "Can Azərbaycan" şeirində azadlıq zirvəsinə yüksəlmiş vətənini "Torpağına can demişəm", "Suyuna mərcan demişəm", "Canımı qurban demişəm" deyərək, böyük bir məhəbbətlə və səmimiyyətlə tərənnüm edirdi. Bu şeir sonralar Emin Sabitoğlunun bəstəsi ilə poeziyamızda böyük bir dastana çevrilərək, Azərbaycan nəğmələri arasında sevilən şərqilərdən biri olur.

Emin Sabitoğlu Əhməd Cavadın bir sira şeirlərinə mahnılar bəstələmişdir. Bunlardan biri də məşhur "Gəncədən gəlirəm" mahnısıdır. Bir çox insanlar bu mahnının sözlərinin xalq yaradıcılığı numunələrindən olduğunu düşünürlər. Çünki Əhməd Cavad yaradıcılığında daha çox qoşmay və bayatıya üstünlük vermişdir.

Əhməd Cavadın nəğməkar şair olmasının ən gözəl nümunəsi dahi bəstəkarımız Üzeyr Hacıbəyovun onun sözlərinə bəstələdiyi Azərbaycan Respublikasının dövlət himnidir. Əsrlərdən bəri vətənin igid və qəhrəman oğulların canlarını fəda etdikləri bu milli azadlığa gedən yolda bütün ağri və acıları şair bütün qəlbi ilə yaşadığı üçündür ki, yazdığı himnin hər misrasında "Səndən ötrü can verməyə cümlə hazırız" deyə şairin vətən sevgisi dil açırdı. Uzun illər yasaq edilməsinə baxmayaraq himnimizi bu gün də oxuya bilirik. Ən şərəflisi isə budur ki, dahi şəxsiyyətlərimizin ərsəyə gətirdiyi himnimiz bu gün müstəqil Azərbaycan Respublikasının dövlət himni kimi idman arenalarında, beynəlxalq təşkilatların salonlarında səslənir. İstiqlal şairimiz Əhməd Cavadın sözlərini yazdığı, dahi bəstəkarimiz Üzeyir Hacıbəyovun bəstələdiyi "Azərbaycan marşı" bu baxımdan əvəzedilməz sənət əsəridir. Həmin marşın himn kimi qəbulu qənaətinin doğruluğunu tarix və zaman təsdiqlədi.

Hərçənd ki, bir sıra tədqiqatçılarımız dövlət himnimizin sözlərinin Əhməd Cavada aid olmaması haqqında iddialar irəli sürürlər. Belə ki, 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin milli himninin hazırlanması haqqında qərar qəbul olunaraq müsabiqə elan edilmişdi. Müsabiqəyə təqdim olunan şeirlər isə "Milli nəğmələr" kitabında çap olunubdu. Himnimizin ilkin variantı olan "Vətən marşı" şeiri isə həmin kitabda "Camo bəy" imzası ilə göstərilmişdir.. Bəzi tədqiqatçılarımız bu imzanın Cəmo Cəbrayılbəyliyə aid olduğunu iddia edirlər. Lakin Cəmo Cəbrayılbəyli nə şair, nə

də yazıçı idi. Digər bir tədqiqatçımız olan Alxan Məmmədov isə bu imzanın Camo bəy Hacinskiyə aid olması haqqında fikirlər irəli sürür. Apardığım kiçik araşdırma nəticəsində öyrəndim ki, Camo bəy Hacinski məqalə və şeirlərini Azərbaycan mətbuatında "Qubalı" imzası ilə nəşr etdirirmiş. Əslində "Camo" imzası Əhməd Cavadın bütöv adının baş hərflərinin qısaldılmış formasıdır. Yəni-Cavad Axundzadə Məhəmmədəli oğlu.

Fikrimcə, bütün bunlara səbəb Əhməd Cavadın əsərləri arasında "Vətən marşı" şeirinə rastlanmamasıdır. Bildiyimiz kimi Əhməd Cavad 1920-ci ildən sonra üç dəfə müəyyən səbəblər ilə əlaqədar olaraq həbs olunmuş, hər dəfəsində də əsərləri, şeirləri, əlyazmaları və bir çox əşyaları müsadirə edilmiş və yandırılmışdır.

Sözlərimi ulu öndər, möhtərəm Heydər Əliyevin dövlət himnimizlə bağlı dediyi sözlərlə bitirmək istəyirəm. "Mən bu gün bildirmək istəyirəm ki, 1918-1920-ci illərdə Azərbaycanda hakimiyyətdə olmuş Xalq Cümhuriyyətinin bugünkü nəsillərə qoyub getdiyi ən dəyərli miraslardan biri qanunla istifadə etdiyimiz dövlət himnidir və bir də Azərbaycan dövlət bayrağıdır."

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. I cild. Bakı: "Lider" nəşriyyatı, 2004
2. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası . II cild. Bakı: "Lider" nəşriyyatı, 2004
3. Nəbiyev B. Əhməd Cavad. Bakı: Proqres, 2012
4. Əhməd Cavad. Seçilmiş əsərləri. Bakı: "Şərq-qərb" nəşriyyatı, 2005
5. Əhməd Cavadın əlyazması. "Ədəbiyyat" qəzeti, 2016, № 07
6. www.modern.az-"Əhməd Cavad xatirələrin dili ilə"

UOT 44.23.17

RİYAZİ MƏŞĞƏLƏLƏRDƏ OYUN SİTUASİYALARINDAN VƏ OYUN TEXNİKALARINDAN İSTİFADƏNİN XÜSUSİYYƏTLƏRİ

[1,3]**Gülnigar Saleh qızı Osmanova,** [2,3]**Ülviyyə Akif qızı Aşurova**
[1]gülnigar.osmanova@mdu.edu.az
[2]ulviyya.ashurova@mdu.edu.az
[3]Mingəçevir Dövlət Üniversiteti

Oyun və anlama - bu iki anlayış məktəbəqədər uşaqların riyazi inkişafının müasir sistemində əsas rol oynayır. Tanınmış alimlər müəyyən ediblər ki, məntiqi əməliyyatların mənimsənilməsi uşağın ümumi inkişafında xüsusi yer tutur.

Uşaq fəaliyyətdə inkişaf edir. Fəaliyyət özünü tanımağın, özünü təsdiq etməyin yeganə üsuludur. Uşaq aktiv fəaliyyətə can atır və ən başlıcası ona mane olmaq deyil, onun gələcək inkişafına töhfə verməkdir. Uşaqların riyazi inkişafı proqramını həyata keçirməyin əsas yolları təhsil oyunları (oyun məşqləri), həmçinin uşağın müstəqil fəaliyyəti, riyazi müsabiqələr, əyləncələrdir. [3]

Oyun məşğələlərinin aparılması riyazi inkişaf proqramının həyata keçirilməsinin əsas yollarından biridir. Oyunun öyrənmə vasitəsi kimi ideyası elm və praktikada təsdiqlənib, lakin bu alət yalnız "lazım olan yerdə, lazım olanda və lazım olduğu qədər" istifadə olunarsa, effektiv ola bilər. Rəsmiləşdirilmiş, nizamlanmış, emosional gücdən məhrum olan, uşaqların intellektual imkanlarını məhdudlaşdıran və ya həddindən artıq genişləndirən oyunlar xeyirdən çox zərər verə bilər.

Oyun uşaq üçün təkcə sevinc və həzz deyil, həm də uşağın özü üçün çox vacibdir. Onunla diqqət, yaddaş, anlayış, təxəyyül inkişaf etdirə bilərsiniz.

Oyunun mühüm xüsusiyyətlərindən biri də odur ki, oyunda uşaqlar ekstremal vəziyyətlərdə olduğu kimi, çətinliklərin öhdəsindən gəlmək üçün də var gücü ilə hərəkət edirlər. Belə yüksək fəaliyyətə onlar könüllü şəkildə, məcburiyyət olmadan nail olurlar.

Məktəbəqədər uşaqların aşağıdakı oyun xüsusiyyətlərini ayırd etmək olar:

1. Oyun məktəbəqədər uşaqlar üçün ən əlçatan və aparıcı fəaliyyətlərdən biridir.
2. Oyun uşağın əxlaqi və iradi keyfiyyətlərini, uşağın şəxsiyyətini formalaşdıran təsirli vasitədir.
3. Oyun - uşağın şəxsiyyətinin bütün cəhətlərini formalaşdırmaq, onun psixikasında mühüm dəyişikliklər edir.
4. Oyun bütün psixi proseslərin işi ilə bağlı zehni fəaliyyətdə uşağın əqli tərbiyəsinin mühüm vasitəsidir.

Elementar riyazi anlayışları formalaşdırarkən oyun tədris metodu kimi çıxış edir və eksperimental metodlara aid edilə bilər. Didaktik oyunlar və oyun tapşırıqları təhsildə və gündəlik həyatda geniş istifadə olunur. Dərsdən kənar oyunlar təşkil edərkən uşaqların riyazi biliklərini möhkəmləndirir, dərinləşdirir və genişləndirir, ən əsası isə tədris və oyun məsələləri eyni zamanda həll olunur. Bəzi hallarda oyunlar əsas elmi yükü daşıyır. Didaktik oyunlar proqram məsələlərinin həyata keçirilməsi vasitəsi kimi birbaşa dərsin məzmununa daxil edilir. Elementar riyazi anlayışların formalaşmasında didaktik oyunların yeri uşaqların yaşı, dərsin məqsədi, məzmunu və məqsədi ilə müəyyən edilir. O, öyrənmə tapşırığı kimi konkret problemin həllinə yönəldilə bilər. Dərsin sonunda əldə edilmiş bilikləri möhkəmləndirmək və təkrarlamaq üçün didaktik oyunlar keçirə bilərsiniz. Didaktik oyunların əsasən aşağıdakı növləri var:

- mövzulu didaktik oyunlar;
- stolüstü çap oyunları;
- söz oyunları.

Söz və söz oyunları riyaziyyat dərslərində və dərsdən kənarda, stolüstü oyunlar isə adətən dərsdən kənarda oynanılır. Onların hamısı təhsilin əsas funksiyalarını - təhsil, tərbiyə və inkişaf funksiyalarını yerinə yetirir. Uşaq əvvəlcə oyundan kənar fəaliyyət üsulları və müvafiq təsvirlər şəklində bilik əldə edir, oyunda onların aydınlaşdırılması, sistemləşdirilməsi və dərinləşdirilməsi üçün yalnız əlverişli şərait yaradılır.

Riyazi anlayışların formalaşması üçün didaktik oyunlar şərti olaraq aşağıdakı qruplara bölünür:

- rəqəmlər və rəqəmlərlə oyunlar;
- vaxta səyahət oyunu;
- məkan oriyentasiyası olan oyunlar;
- həndəsi fiqurlarla oyunlar;
- məntiqi təfəkkür üçün oyunlar.

Birinci qrup oyunlar uşaqlara nömrə öyrədərkən ristifadə olunur. Bunlara aşağıdakı oyunlar daxildir:

- "Neçə?" - məqsəd: hesablama bacarıqlarının inkişafı;
- "Hansı nömrə çatışmır?" - məqsəd: sayma bacarıqlarının, diqqətin inkişafı;
- "Qonşularınızı tapın" - məqsəd: 10 (20) dairəsindəki nömrələr üzərində hərəkətlər.

İkinci qrup oyunlar (vaxtda səyahət) uşaqları həftənin günləri ilə tanış edir. Həftənin hər günü fərqli rəngli dairələrlə qeyd olunur. Gündəlik həyatda uşaqların günün hissələri haqqında müəyyən təsəvvürləri var. Müəllim bu fikirləri konkretləşdirməli və dəqiqləşdirməlidir. Uşaqların biliklərinə əsaslanaraq onları həftələr, aylar və illərlə tanış etmək, zaman hissini inkişaf etdirmək, saat və dəqiqə kimi vaxt vahidlərinin müddəti haqqında təsəvvür yaratmaq lazımdır.

- Bu anlayışları formalaşdırarkən aşağıdakı oyunları oynaya bilərsiniz
- İlin anları" - məqsəd: zaman qavrayışının genişləndirilməsi
- "Canlı həftə" - məqsəd: həftənin günlərini və onların ardıcıllığını təyin etmək

- "12 ay" - məqsəd: ayların adları və ardıcıllığı haqqında biliklərin ötürülməsi.

Üçüncü qrupa məkan oriyentasiyası ilə bağlı oyunlar daxildir. Uşaqların məkan təxəyyülü bütün fəaliyyətləri zamanı daim genişlənir və möhkəmlənir. Müəllimin əsas məqsədi uşaqlara xüsusi təşkil edilmiş məkan vəziyyətlərində orientasiya etməyi və verilmiş struktura uyğun olaraq yerlərini təyin etməyi öyrətməkdir. Didaktik oyun - tapşırıqların köməyi ilə uşaqlar bu və ya digər obyektin digərinə münasibətdə yerini müəyyənləşdirməyi öyrənirlər. Uşaqları maraqlandırmaq üçün hər hansı bir nağıl qəhrəmanı ilə mövzu oyunları təklif edə bilərsiniz. Aşağıdakı oyunlar məkan təsvirlərini formalaşdırmağa kömək edir.

- "Solda nə var?" - məqsəd: məkan təsvirlərinin formalaşması
- "əksini söylə "- məqsəd: məkan təsvirlərinin formalaşması
- "tap - haradadır?" - məqsəd: məkan təsvirlərinin formalaşması

Dördüncü qrup oyunlar həndəsi materialla oyunlardır. Məktəbəqədər dövrdə həndəsi fiqurların adları əvvəlcə uşaqların passiv lüğətinə, sonra isə onların aktiv lüğətinə daxil edilir.5-6 yaşında uşaqlar artıq bəzi müstəvi və məkan fiqurlarını ayırd etməyi bacarmalıdırlar. Bunun üçün aşağıdakı oyunlar istifadə olunur.

- "Həndəsi mozaika" - məqsəd: həndəsi fiqurlar haqqında biliklərin möhkəmləndirilməsi
- "artıq şəkli tap" - məqsəd: formaların əlamətlərini müəyyən etmək
- "rəqəmləri qruplara bölmək" - məqsəd: müxtəlif meyarlara görə rəqəmlərin təsnifatı

Əgər uşağın hər cür təfəkkürü yaxşı inkişaf edibsə, o zaman bütün problemləri asanlıqla həll edəcək. Məntiqi təfəkkür obrazlı təfəkkür əsasında inkişaf edir. Uşağın əqli fəaliyyətinin tərbiyəsində uşağın zehni maraqlarını artıran, ona müəyyən idraki tapşırıqlar qoyan, istədiyi nəticəni əldə etmək üçün müstəqil psixi əməliyyatlardan istifadə etməyə həvəsləndirən oyunların təşkili böyük əhəmiyyət kəsb edir.

Müasir dövrdə öyrədici oyunlar sistemi yaradılmışdır.Digər oyunlardan fərqli olaraq, onlar uşaqlarda xarici aləmdən birbaşa əldə edilə bilməyən, məzmunu mücərrəd riyazi anlayışlardan ibarət yeni biliklər formalaşdırmağa imkan verir. Qeyd etmək lazımdır ki, "öyrənmə oyunu" dedikdə, əldə edilmiş biliklərin təkrarlanması və möhkəmləndirilməsi deyil, oyunun öyrənmə metodu kimi istifadə edilməsi nəzərdə tutulur. Bu oyunlarda müəyyən meyarlara uyğun toplanmış xüsusi didaktik materialdan istifadə olunur.

Tədris materialının müvəffəqiyyətlə mənimsənilməsi üçün müxtəlif üsullardan istifadə etmək tövsiyə olunur. Metodların seçimi tapşırıq və məqsədlərdən, uşaqların yaşından, öyrənilən materialın məzmunundan, dərsin məzmunundan asılıdır

Valideynlər də, pedaqoqlar da bilirlər ki, riyaziyyat uşağın intellektual inkişafında, yaradıcılıq qabiliyyətlərinin və təxəyyülünün formalaşmasında güclü amildir. Ən əsası uşaqda qavrayışa maraq oyatmaqdır. Buna görə də məşğələlər əyləncəli oyunlar şəklində aparılmalıdır

İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı" (kurikulum) Azərbaycan Təhsilin problemləri İnstitutu. Bakı, 2013
2. Məktəbəqədər təhsilin dövlət standartı və proqramı. 16 iyul 2010-cu il. http//wwü/edu.gov.az/
3. Mustafayev S.M., Orucov T.S., Babuşov S.N. Məktəbəqədər yaşlı uşaqlarda sadə riyazi təsəvvürlərin formalaşdırılması nəzəriyyəsi və metodikası. Mingəçevir, MDU, 2018
4. Rüstəmova G. Sadə riyazi təsəvvürlərin inkişafı. 3-5 yaşlı uşaqlar üçün. Bakı,2008

UOT 81.161.1

FEİLİ FRAZEOLOJİ BİRLƏŞMƏLƏR HAQQINDA

Lamiyə Mahir qızı İbrahimova
Mingəçevir Dövlət Universiteti
AMEA Nəsimi adına Dilçilik İnstitutunun dissertantı
lamiya.ibrahimli@mdu.edu.az

Azərbaycan dilində feili frazeoloji birləşmələrdə feilin növ kateqoriyası öz ifadəsini tapır. Lakin feili frazeoloji birləşmələrin feilin növ şəkilçilərini qəbul etmək baxımından imkanları müstəqil feillərə nisbətən daha məhduddur. "Ağız açmaq" ifadəsinin komponenti olan "açmaq" feili məlum, məchul, icbar növlərdə işlənə bildiyi halda, feili frazeoloji birləşmə olan "ağız açmaq" yalnız məlum növdə işlənir. Qayıdış və qarşılıq növləri isə feili frazeoloji birləşmələrdə işlədilmir. Qrammatik kateqoriyalar Azərbaycan dilində feili frazeoloji birləşmənin leksik məna kimi özəl əlamətlərindən biridir. Bu iki əlamət – leksik məna və müəyyən qrammatik kateqoriyaya aidlik feili frazeoloji birləşməni müstəqil mənalı sözlə oxşar edən əlamətlərdəndir. Cümlədə feili frazeoloji birləşmə kimi hər bir müstəqil mənalı sözün də leksik mənası və hər hansı qrammatik kateqoriyaya aidiyyəti vardır.

Azərbaycan dilində feili frazeoloji birləşmələr məhz bu özəl keyfiyyətlər, ümumi əlamətlər əsasında digər sözlərlə əlaqəyə girə bilir. Azərbaycan dilində feili frazeoloji birləşmənin leksik mənası və qrammatik kateqoriyaya aidliyi onun semantikasının – məzmun və formasının vəhdətini təşkil edir. Feili frazeoloji birləşmənin forması onun komponent tərkibi ilə müəyyən olunur. Feili frazeoloji birləşmənin forma və semantikası bir vəhdət təşkil edir. Yalnız forma və məzmunun vəhdətində frazeoloji birləşmənin kateqorial mahiyyəti reallaşır.

Azərbaycan dilində feili frazeoloji birləşmənin müstəqil mənalı sözlərlə münasibəti nisbidir və şərtidir. Feili frazeoloji birləşmə yalnız öz semantik məzmununa görə müstəqil mənalı sözlə münasibətdə olur, forma baxımından isə bu uyğunluq mümkün deyildir. Bu nöqteyi-nəzərdən feili frazeoloji birləşmə ilə müstəqil mənalı sözlərin ekvivalentliyi mümkün deyildir. Feili frazeoloji birləşmə sözlə ekvivalent deyildir, onlar arasında eynilik yoxdur, onlar bir-birini təkrar və əvəz edə bilmir. Feili frazeoloji birləşmə dilin xüsusi vahidi olub, bir neçə əlamətlərin vəhdətindən ibarətdir. Frazeologizmin kateqorial əlamətləri müstəqil sözlərin özəl keyfiyyətlərindən fərqlənir. Azərbaycan dilində feili frazeoloji birləşmənin aşağıdakı əlamətləri vardır:

1) Leksik məna.
2) Komponent tərkibi.
3) Qrammatik kateqoriyalara aidlik.

Azərbaycan dilində feili frazeoloji birləşmənin mahiyyəti haqqında fikir söyləmək üçün onların dil vahidi kimi sabitliyini və nitqdə işlənmə qanunauyğunluqlarını dəqiq bilmək lazımdır. Dilimizdə feili frazeoloji birləşmələrin miqdar tərkibinin və komponentlər arasındakı münasibətlərin dəyişməsi xüsusi əhəmiyyətə malikdir. Bu dəyişikliklər Azərbaycan dilində yeni sözlərin yaranması və digər dillərdən alınmış ifadələrin frazeoloji birləşmə tərkibinə daxil olması prosesləri ilə bilavasitə bağlıdır.

Azərbaycan dilinin inkişaf tarixində feili frazeoloji birləşmələrin tərkibinin dəyişməsi daim müşahidə olunur. Müasir Azərbaycan dilindəki feili frazeoloji birləşmələrin tərkibi ötən əsrlərdə dilimizdə mövcud olan sabit birləşmələrin tərkibindən fərqlidir. Elə feili frazeoloji birləşmələr vardır ki, onlar ötən əsrlərdə mövcud olmuş, müasir dilimizdə isə yeni semantika ilə işlənir. Dilimizdə işlənən bir çox feili frazeoloji birləşmələrə qədim türk dilində və digər türk dillərində rast gəlmək mümkündür. Azərbaycan dilindəki "öc almaq", "dil tökmək", "baş qaldırmaq", "ağzını aramaq", "əl atmaq", "əl çəkmək", "əldən çıxmaq", "gözə gəlmək", "yolu düşmək", "ağzından süd iyi gəlmək", "ağlını itirmək", "ad qazanmaq", "ayağı düşmək", "ayağı yer tutmaq", "ayağını

kəsmək", "aradan çıxmaq", "baş əymək", "boyun əymək", "boynunu burmaq", "burnundan gətirmək", "qan ağlamaq" kimi feili frazeoloji birləşmələr həm komponentləri, həm də bu komponentlərin arasındakı sintaktik əlaqələr, həm də ümumi mənalar baxımından bir neçə türk dilində eynidir. Fərq isə yalnız bu feili frazeoloji birləşmələrin komponentlərinin bu və ya digər fonetik fərqlə ifadə edilməsindədir. Bu fərq həmin dillərin daxili inkişaf qanunları ilə əlaqədardır [1, s.65-67].

Azərbaycan dilindəki "öc almaq" frazeoloji vahidi müasir türk dillərindən uyğur dilində "öç axmak": oyrot dilində "öc al"; qaraqalpaq dilində "öş al"; başqırd dilində "üs alıu"; türkmən dilində "öc almak"; özbək dilində "üç olmok"; türk dilində "öc almak" kimi işlənir.

N.A.Baskakov yazır: "Türk dilləri bir-biri ilə o qədər yaxındır ki, çuvaşlar və yakutlar müstəsna olmaqla, bütün türkdilli xalqlar xüsusi çətinlik çəkmədən bir-biri ilə danışır və bir-birlərini başa düşürlər. Bütün türk dilləri öz lüğət tərkibi, qrammatik quruluşu və fonetik strukturu etibarı ilə vahid bir qohum dil qrupunda birləşir" [3, s.39-45].

Bildiyimiz kimi, Hind-Avropa dillərindən fərqli olaraq, türk dillərinin frazeoloji vahidlərinin bir sıra orta əlamətləri müşahidə olunur. Elə bu səbəbdən, Hind-Avropa dillərinin frazeoloji vahidlərinə xas göstəriciləri olduğu kimi türk dilləri ailəsinə aid dillərə tətbiq etmək qyri-mümkündür. Məlumdur ki, müstəqil türk dillərinin formalaşmağa başladığı dövrlərdən frazeoloji vahidlərin müəyyən bir qismi mövcud olmuş, sonralar ümumxalq, zamanla milli dil səciyyəsi daşıyan bu dillərin frazeologiyası tərkibində işlənərək günümüzə gəlib çıxmışdır. Əlbəttə, müstəqil türk dillərinin təşəkkül tapmasından sonra, dövrümüzə qədər dilin digər sahələrində olduğu kimi, burada da fərqlənən cəhətlər meydana gəlmişdir. Bu da ona gətirib çıxarmışdır ki, həmin dillərin müstəqil inkişaf etmiş və nəticədə ortaq cəhətlər nisbətən zəifləmişdir. Yaxud bu dillərin hər birində özünəməxsus frazeoloji vahidlər də formalaşmışdır [1, s.68].

Müasir Azərbaycan dilində işlənən feili frazeoloji birləşmələrin bir çoxu ötən əsrlərdə də mövcud olmuşdur. Bu frazeoloji birləşmələrin bəziləri dilimizdə dəyişmədən saxlanılmış, bəziləri isə müəyyən qədər dəyişmişdir. Bu dəyişikliklərin səciyyəsi dil təkamülünün müxtəlif dövrləri üçün fərqlidir. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanında işlənən feili frazeoloji birləşmələrin bir çoxu dilimizdə olduğu kimi, bəziləri isə dəyişilmiş formada işlənir. Məsələn, "barmağını ısırmaq" feili frazeoloji birləşməsi müasir Azərbaycan dilində "barmağını dişləmək" şəklində işlənir.

Öz əsərlərində V.Humbolt qeyd edir ki, dilimiz eyni dərəcədə də bizim tariximizdir [5, s.64-67]. Azərbaycan dilində tarixən mövcud olmuş və böyük təkamül yolu keçmiş feili frazeoloji birləşmələr xalqımızın tarixi, məişəti, etnoqrafiyası barədə geniş məlumat verir. Dildəki frazeoloji vahidlər dilin daşıyıcısı olan xalqın tarixi, adət-ənənəsi, psixologiyası və düşüncə tərzinin ifadəçisi olduğundan hər hansı xalqın dilindəki frazeoloji vahidlərin linqvistik araşdırılması nəticəsində həmin xalqın tarix və etnoqrafiyasının, həyat və yaşayış tərzinin öyrənilməsinə gətirib çıxarır [2, s.27-28].

"Kitabi-Dədə Qorqud" dastanlarında işlənən feili frazeoloji birləşmələri tədqiuq edərkən Azərbaycan xalqının etnokulturoloji və etnomental dəyərlər sistemini aydın dərk etmək olur. Feili frazeoloji birləşmələrdə mədəniyyəti, mifologiyanı arxetipləri, tarixi hadisələri əks etdirən ənənələri, maddi mədəniyyət elementlərinin izlərini müşahidə etmək mümükündür. Türkologiyada və Azərbaycan dilçiliyində feili frazeoloji birləşmələrlə mürəkkəb feillər arasında fərqin olub-olmaması barədə mübahisələr getmişdir. Ümumi dilçilikdə və Azərbaycan dilçiliyində mürəkkəb feillər (və yaxud tərkibi feillər) məsələsi hələ də öz həllini tapmamış problemlərdən sayılır. Məsələni izahı zamanı aydın olur ki, həm mürəkkəb feillər, həm də feili frazeoloji birləşmələr analitik yolla yarandığı üçün, onları bir-birindən fərqləndirən meyarlar hələ müəyyən-ləşdirilməmişdir.

Türkoloqlardan N.A.Baskakov, L.A.Pokrovskaya, A.N.Kononov və başqaları feili frazeoloji birləşmələrlə mürəkkəb feillər arasında ciddi fərqlərin olmadığını qeyd etmişlər [4, s.323-324]. Professor H.Bayramov bu yanaşmanın qeyri-dəqiq olduğunu sübut etmişdir [1, s.-62; 2, s.27-28].

Bu problem barədə Q.Mahmudovanın fikirləri ilə razılaşmaq mümkündür: "Mürəkkəb feillə feili frazeoloji birləşmənin fərqli və oxşar cəhətləri izah edilərkən frazeoloji vahidlərə xas əlamətlərin qeyd edilməsinin unudulduğunu nəzərə çatdırmaq lazımdır. Feili frazeoloji birləşmələrə xas olan ifadəlilik və obrazlılıq, sabitlik, məcazlaşma, məna bütövlüyü hər komponentin müstəqil vurğu ilə deyilməsi başqa dilə tərcümə oluna bilməməsi kimi əlamətlər sərbəst, müstəqil mənalı mürəkkəb feillərdə yoxdur.

"Kitabi-Dədə Qorqud" dastanlarında "ava binmək", "av çığırtmaq", "agın vermək", "sağraq sürmək", "dırnaq yüzə çalmaq", "ağ çıxarıb qara geymək", ala yorğan altında söyləşmək" kimi feili frazeoloji birləşmələrdəki "metaforik deyim tərzi, fərdi poetik deyim üslubu, ifadə özünəməxsusluğu, milli etnik ekspressivlik bu vahidlərin əsas motivləridir.

Feili frazeoloji birləşmələr Azərbaycan klassik ədəbiyyatında da çox işlənmişdir. İ.Nəsimi, M.Füzuli, M.P.Vaqif, Məsihi və digər klassik şairlərimizin əsərlərində feili frazeoloji birləşmələr çoxdur:

Cəhd et macalın əldə ikən yara-yara kim,
Bir gəz əcəl içər dəxi verməz macalını. (İ.Nəsimi)

Fikr eylə, vücudi-cümlə əşya,
Nə ratibədin oldu peyda,
Düzdü oda ləşkərüvü əqğam,
Fikir eylədilər mumu sərəncam. (M.Füzuli)

Edib bir müxtəsər söhbət, xəbərdar olmamı əğyar,
Yenidən and içib, şərt eyləyib, əhdü, iman, iqrar. (Məsihi)

Necə getməsin başımdan əql, könlümdən qərar,
Gözləri nərgiz, ləbi ləli-müsəffadır gələn. (M.P.Vaqif)

Can vermə qəmi-eşqə ki, eşq afəti candır,
Eşq afəti can olduğu məhşuri-cahandır. (M.Füzuli)

İstifadə edilmiş ədəbiyyat

1. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı: Maarif, 1978, 173 s.
2. Mahmudova Q. Türk dillərinin frazeologiyası. Qıpçaq qrupu türk dillərinin frazeologiyası. II cild, Bakı, 2009.
3. Mirzəliyeva M. Türk dilləri frazeologiyasının nəzəri problemləri. Bakı, 1995.
4. Баскаков Н.А. Тюркские языки. М., 1954, 356 с.
5. Гумбольдт В. Избранные труды по языкознанию. М., 1984, 354 с.

UOT 371.64/69:373.1

UŞAĞIN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDA MÜƏLLİMİN ROLU

Günel Alim qızı Nəcəfova
Mingəçevir Dövlət Universiteti
gunel.nacafova@mdu.edu.az

Bütün peşələr gözəldir. Amma, bütün peşələri və peşə sahiblərini yetişdirən bir peşə vardır ki, onsuz heç bir sənət, peşə öyrənilmir. Bu peşə müəllimlik peşəsidir.

Müəllimlik peşəsi haqqında görkəmli şəxsiyyətlərin fikirləri vardır. Mehriban davranışı, öyrənənlərinə olan münasibətilə daima sayılıb-seçilən olmalıdır - müəllim.

Öyrədənlə öyrənənlər arasındakı münasibət pedaqogika elminin əsas məsələlərindən biridir. Təlim-tərbiyə işinin lazımi səviyyədə təşkili ,problemin həlli yollarının öyrənilməsindən asılıdır.

Öyrədən öyrənənləri həm tərbiyə, həm də təlim zamanı yaxşı tanımalı, onların bir şəxsiyyət kimi formalaşması işini dövrün tələbləri səviyyəsində qurmalıdır. Əbəs yerə deməyiblər ki, öyrədən şəxsiyyətin mənəvi dünyasının qurucusudur. Öyrənən isə öyrədənin aynasıdır. Bu da bir həqiqətdir ki, hər bir öyrədən və tərbiyə edən öyrənənlərini xalqını, millətini, vətənini sevən, bacarıqlı şəxsiyyət kimi görmək istəyir. Bu istəyin gerçəkləşməsi üçün öyrədənlərin üzərinə böyük bir məsuliyyət düşür. Bunun üçün səy göstərmək lazımdır. Vətəni, dövləti sevən, onu düşmənlərdən qorumağı bacaran şəxslər yetişdirmək böyük müəllim ordusunun üzərinə düşür. Bu baxımdan öyrədən öyrənənlərinə qarşı mehriban olmalıdır. [4, s.249]

Öyrədən-öyrənən arasındakı münasibətlərdə yalnışlığa yol verilsə, öyrənənlərinə qarşı obyektiv olmazsa, qiymət verərkən ədalətli olmazsa, o heç bir zaman qarşısına qoyduğu təlim-tərbiyə məqsədinə nail ola bilməz. Öyrənənlərinin istər davranışlarında, istərsə də təlim müvəffəqiyyətində gerilik müşahidə olunacaq.

Təhsilin humanistləşdirilməsi prinsipindən baxsaq öyrənənə dərs saatında da, tənəffüsdə də doğru yöndən yanaşmaq onları doğru anlamaq öyrədənə şərait yaradır ki, təlim materialını onlara yaxşı mənimsədə bilsin. Eyni zamanda öyrənənlərə əxlaqi dəyərlərimizi yüksək səviyyədə aşılasın. [1, s.150] Öyrənənlərin şəxsiyyətinə, ləyaqətinə sayğı ilə yanaşılmalı, maraq və istəklərinə önəm verilməlidir. Onların dövlətimiz üçün, ata-anaları üçün nə qədər qiymətli olduqlarını hiss etdirmək, öyrənənlərin şəxsiyyət kimi formalaşmasına müsbət təsir göstərir.

Öyrədən və öyrənən arasındakı münasibətlərin pisləşməsi öyrədənin qiymətləndirmə apararkən kiçik bir səhvə yol verməsindən irəli gəlir. Öyrənənlərin biliyini qiymətləndirərkən adil olmalı, tələblər və qaydalara riayət edilməlidir.

Müəllimin öyrənənlərin biliyinə verdiyi qiymət dəqiq olmalıdır. Şagirdin biliyinə verilən qiymət biliyin qiymətləndirilməsinə qoyulan tələblərə cavab verlidir. Bunun üçün öyrədən həmin qaydalara əməl etməlidir.

1. Öyrənənin aldığı qiyməti müəllim bir neçə kəlimə ilə anlatmalıdır. O, bilməlidir ki, niyə və nəyə görə bu qiyməti alıb. Belə olan halda öyrənənin dərsə, fənnə və öyrənməyə marağı artır. Aşağı qiymət aldıqda şagird fəndən nəyi zəif, nəyi daha yaxşı bildiyini, harada səhfə yol verdiyini öyrənir və çalışır ki, həmin səhfləri bir daha təkrarlamasın, aradan qaldırsın. Qiymətləndirmənin bu cür öyrənənlərin gözü qarşısında və onların iştirakı ilə verilməsi şagirdlərdə müəllimə inam hissini artırır. Yoldaşının harada, necə və nəyi yanlış bildiyini öyrənir və özləri həmin nöqsanlar yol verməməyə çalışırlar.

2. Öyrənənlərin təlim fəaliyyətinə verilən qiymət ədalətli olmalıdır. Belə ki, verilən qiymət onun bilik, bacarıq və vərdişlərindəki durumu necə var elə əks etdirdikdə pedaqoji kollektivin üzvləri də şagirdin biliyinin hansı dərəcədə olmasından doru nəticə çıxarır və bu sahədə lazımi tədbirlər həyata keçirə bilirlər. Şagirdin aldığı qiymət saxtalaşdırıldıqda öyrənən təkcə özünü deyil, uşağı valideynlərini, yoldaşlarını da aldatmış olur. Hər kəsdə şagirdin biliyinin normal olduğu fikri formalaşır və ya əksinə, verilən qiymət heç bir əsası olmadan aşağı salınarsa öyrənənin oxumağa, fənnə qarşı, müəllimə qarşı sevgisi azalır. Belə xoşagəlməz hal təlim-tərbiyənin keyfiyyətinin yüksəlməsinə də mənfi təsir edir. Öyrənənin davranış normalarına riayət edib-etməməsi onun biliyinə verilən qiymətə təsir etməməlidir. Onun üçün, yəni davranışın qiymətləndirilməsinin öz normaları var. Şagirdin sinifdə, kollektivdə münasibətlərindəki çatışmamazlıqlar onun fənlərdən aldığı qiymətə təsir göstərməlidir. Əks halda öyrədən kobud şəkildə səhvə yol vermiş olar. Qiyməti, müəllim cəza üsüluna çevirməməlidir. Şagirdin biliyinə qiymət verərkən onun nəyi necə dediyinə, tapşırığı necə yerinə yetirdiyinə deyil, həm də nə dediyinə, nəyi icra etdiyinə də müəllim fikir verməlidir. Şagird fikrini izah edərkən, ardıcıllığı, elmiliyi, sistemliliyi, sözlərin düzgün tələffüzünü

gözləməlidir. Öyrədənin şagirddən bu cür tələbi digər şagirdlərin də həmin qaydalara əməl etmələrinə səbəb olur. Bu zaman uşaqlar təlim işinə daha məsuliyyətlə yanaşırlar. Dediklərimizin əksi olaraq, verilən təlimi tapşırıqların yerinə yetirilmə metoduna, üslubuna müəllim diqqət etməzsə, şagirdlərdə məsuliyyətsizlik, başdan etmə halları formalaşır. Şagirdlərdə müsbət əxlaqi keyfiyyətləri formalaşdırmaq üçün onların biliyinə verilən qiymət doğru, halal və düzgün olmalıdır.

Öyrənənlərin biliyi qiymətləndirilərkən onun dərs vaxtı təlim fəaliyyəti də göz önündə olmalıdır. Şagirdin biliyinin qiymətləndirilməsini hər müəllim dərsin (45 dəqiqəsinin) müəyyən vaxtında həyata keçirir. Belə ki, bəziləri ev tapşırığının yerinə yetirilib yetirilməməsinə və necə yerinə yetirlməsinə qiymət verir. Bəzisi, şagirdin həm dərs zamanı fəaliyyətini nəzərə alır, həm də evə verilən tapşırığın icra olunması durumunu. Bəziləri isə dərs boyu şagirdin fəallığını nəzərə alaraq sonda qiymətləndirmə aparırlar. Dərsin sonunda qiymətləndirmə aparan müəllimlərin sinifdəki təlim göstəriciləri keyfiyyətcə yüksək olur. Burdan belə bir sual ortaya çıxa bilər. Nəyə görə? Niyə? Ona görə ki, dərsin başlanğıcında qiymət alan uşaq, dərsin sonuna kimi fəallıq göstərməyə bilir. Onda "dərsdən qiymət almışam" deyə bir düşüncə formalaşır. Təəsüflər olsun ki, bu cür düşüncə tərzi həm yaxşı qiymət almış uşaqlarda, həm də pis qiymət almış uşaqlarda olur. Bu cür psixoloji hallar fərdi xarakter daşıyır. Qiymət alan şagidlərdə bu cür hal, düşüncə yaranmaya da bilər.Öyrənənlərin biliyini dərsin sonunda qiymətləndirən müəllimlər onlarda bu cür mənfi halların baş qaldırmasının qarşısını alır. Öyrənənlər dərs boyu fəallıq göstərir. Sual-cavablarda iştirak edir və diqqətlərini müəllimə və dərsə yönəltməyi bacarırlar. Bu da fənnin mənimsənilməsinə, təlimin keyfiyyətinin yüksəlməsinə səbəb olur. Bu cür qiymətləndirmə aparan müəllimlər təlimdə yüksək nəticələr qazanırlar. [4, s.343]

Hər bir fənn üzrə müəyyən olunmuş vaxtlarda yoxlamalar aparılır. Bu cür yoxlamaların məqsədi şagirdlərin fənni necə qavrayıb-qavramadıqlarını öyrənməkdən ibarətdir. Yoxlamaların nəticələri fənn birləşmələrində məktəbin pedaqoji şurasında, valideyn iclaslarında müzakirə olunur. Qazanılan uğur, səbəb olan amillər və ya uğursuzluq - onu yaradan amillər müzakirə olunur. Bu zaman məsələyə obyektiv yanaşılmalıdır. Bu işdə məktəb direktoru, müəllimlər və uşağın ata-anasının üzərinə məsuliyyət düşür. Öyrənənlərin bilikləri qiymətləndirilərkən onların təlim bacarıqları ilə yanaşı təlimi idrakları da nəzərə alınmalıdır. Təəsüflər olsun ki, öyrədənlərin çoxu şagirdin biliyini qiymənləndirərkən təkcə onun fənnə dair biliyinə diqqət edir, bu biliyin "Mənimsəmə" prosesinin mərhələləri olan (motivasiya, anlama, qavrama, möhkəmləndirmə, tətbiqetmə) idrakı fəaliyyət kənarda qalır. "Niyə?", "Buna səbəb olan nədir?" kimi suallara belə cavab verə bilərik.

Hazırda orta məktəblərin ibtidai siniflərində çalışan əksəriyyət sinif müəllimləri təhsil alarkən bilik, bacarıq və vərdişlərin mənimsənilməsində idrakı bacarıqların olduğunu unudurlar. Halbuki, öyrənmə zamanı idrakı bacarıqların diqqətə alınması vacibdir. Əgər öyrənəndə öyrənməyə maraq, həvəs yoxdursa, fənnə dair məlumatları, müəllimdən, kitabdan və s. mənbələrdən almırsa, onları idrakın süzgəncindən keçirmirsə, gəldiyi nəticələri özününküləşdirib tətbiq edə bilmirsə, bu zaman öyrənmə baş verməyəcək. Sadəcə, əzbərləmə, müvəqqəti öyrənmə həyata keçirilmiş olacaqdır. Ölkəmizdə təhsilin vəziyyətini müəyyən etməkdə, təhsildə yüksək nəticələr əldə etməkdə, öyrənənlərin təlim nəticələrinə və onların düzgün qiymətləndirilməsi işinə dövlət nəzarətinin və marağının olmasını unutmamalıyıq.Qiymətləndirmənin dövlətimiz üçün də böyük əhəmiyyəti vardır. Verilən qiymət uşağın psixologiyasına bu və ya digər formada güclü təsir göstərir. Öyrənənlərin biliyinin qiymətləndirilməsində əsas məqsəd onları öyrənməyə, inkişaf etməyə ruhlandırmaqdır. Öyrədən aldığı qiymətdən narazı qalan uşağa onun nə üçün belə qiymət aldığını izah etməli, onu inandırmalıdır. Öyrədən yuxarıda sadaladığımız məqamlara diqqət etməzsə, bu zaman öyrənənlə aralarında anlaşılmazlıq yarana bilər. Bu anlaşılmazlığı da aradan qaldırmaq yenə də öyrədənin üzərinə düşür. Mehriban, səmimi ortam yaratmalıdır. Öyrənənin nöqsanını qabarıq şəkildə gözə soxmaq lazım deyil. Əksinə, onunla təklikdə görüşüb söhbət etmək, mövcud olan nöqsanın haradan qaynaqlandığını müəyyənləşdirmək lazımdır.

Bəzən elə hallar olur ki, dərs saatı qurtarır, yəni öyrədən vaxt bölgüsündən düzgün istifadə edə bilmir. Öyrənənin cavabını sonuna qədər izləyə bilmir, onun cavabını aşağı qiymətləndirir. Bu da iki tərəf arasında narazılığın yaranmasına səbəb olur. Öyrənən dərslərindən zəifləməyə başlayır. Öyrənməyə, oxumağa həvəsi, marağı qalmır. Belə olan halda öyrədən nə etməlidir? Onun qəlbinə yol tapmalıdır. Şagirdin yenidən təlimə marağını bərpa etməlidir. Belinskinin təbirincə desək, bu günün kiçik fidanları sabahın qurucularıdırlar. Onlara ehtiyatla yanaşmalıyıq. Öyrədən seçdiyi peşəni - müəllimlik peşəsini sevməlidir. Əks halda, o insanla işləyə bilməz.

Ulu öndərimiz Heydər Əliyevin ölkəmizə başçılıq etdiyi dövrdə təhsildə inkişaf, yenilənmə həyata keçirildi. Belə ki, təhsilin humanistləşdirilməsi prinsipindən tutmuş hər şey yeniləndi, yeni məna kəsb etdi. Öyrədənlərin öyrənənlərə hörmətlə yanaşması, onlara bir şəxsiyyət kimi davranması onlardan yüksək pedaqoji qabiliyyət tələb edir. Pedaqoji qabiliyyəti yüksək olan öyrədənlər öyrənənlərinə təlim müvəffəqiyyətinin göstəricilərinə görə deyil, onlara humanist yanaşma sərgiləyərək təlim keyfiyyətinin artmasına nail olurla. Gənc öyrədənlər belə təcrübəli pedaqoqların iş təcrübəsini örnək almalıdırlar. İşinin ustası olan öyrədənlər hər vaxt öyrənənlərinə qarşı olan səmimiyyəti qoruyub saxlamalı, onların qəlbinə toxunacaq söz deməməlidirlər. Öyrənənləri bir vətəndaş kimi görməli, suallarına düzgün, səbrlə cavab verməlidirlər. Bir sözlə, öyrədən-öyrənən arasında yaranan anlaşılmazlıqlar yerindəcə həll olunmalıdır. Bunun üçün öyrədən təcrübəli, savadlı olmalıdır. Öyrənənlərinə sevgisini, qayğısını göstərməklə yanaşı onlardan tələb etməyi də bacarmalıdır. Səhvlərini düzəltmək üçün səy göstərmirsə istədiyi nəticəni əldə edə bilməyəcəkdir. Öyrədən bu işdə ardıcıllığı gözləməlidir. Bilirik ki, öyrənən olmasa təlim olmaz. Bu mümkün deyil. Müasir dövrdə iki tərəf (öyrədən və öyrənən) arasındakı münasibətlər dəyişir. Elm, texnika inkişaf etdikcə uşaqların dünyaya baxışı da dəyişir, yenilənir. Hazırki təlimdə öyrənənlər təlimin aparıcı simalarıdırlar. Müstəqil olaraq araşdırır, fikir bildirirlər. Suallar qoyur, cavablar axtarırlar. Bu isə onların idrakını (elmi) formalaşdırır. Müstəqil surətdə əldə edilən bilik-əsil bilikdir, yaddan çıxmır, unudulmur. Öyrədənlə öyrənən arasındakı münasibətlərin yaxşı olması üçün ilk növbədə öyrədən onlara şəxsiyyət kimi yanaşmalı, onların biliyinin qiymətləndirilməsində adil olmalıdır. Bu zaman hər iki tərəf qarşısına qoyduğu məqsədə çatmış olur.

İstifadə edilmiş ədəbiyyat

1. Axundov S. Ailədə uşaqların əxlaq tərbiyəsi Bakı:Azərnəşr, 1991, 220 s.
2. Çələbiyev N.Z. Ailə psixologiyası. Bakı: Mütərcim, 2015, 424 s.
3. Əlizadə Ə.Ə. Abbasov A.N. Ailə həyatının etikası və psixologiyası. müəllim üçün vəsait, Bakı: 1988, 432 s.
4. Şahbazova Q.T. Kiçikyaşlı məktəblərin ailə nümunəsində tərbiyə edilməsi. Bakı: ADPU, 2006, 74 s.

UOT 94(479.24)

MİNGƏÇEVİR AZƏRBAYCANIN ENERGETİKA PAYTAXTI VƏ MİLLİ MƏDƏNİ MƏRKƏZİDİR

Tahirə Əli qızı Quliyeva
Mingəçevir Dövlət Universiteti
tahira.quliyeva@mdu.edu.az

Azərbaycan tarixinin ən qədim yaşayış məskənləri sırasına daxil olan Mingəçevir bu gün ölkəmizin həm ictimai, həm iqtisadi, həmdə mədəni həyatında mühüm yerlərdən birini tutur. Şəhər Bakıdan 323 km şimal-qərbdə Kür çayının sahilində Bozdağın ətəyində yerləşir. Bu insan məskəni

nə qədər ağrılar-acılar görüb, onun sinəsində neçə-neçə nəsillərin, ulu babaların ruhu, nişanələri uyuyur. Kür çayı insanlara həyat verdiyi kimi, onun tufanlı daşqınları insanların həyatını bir anda kədərə-fəryada qərq edib.

Mingəçevir su hövzəsində SES-in tikintisi işlərinə başlanılması haqqında ilk qərar 19 aprel 1941-ci il SSRİ Xalq Komissarları Soveti tərəfindən qəbul olunmuşdur. Qərarı SSRİ Xalq Komissarları Sovetinin sədri V.Molotov və Komissarlığın İşlər müdiri Y.Çadeyev imzalayıb.

Tarixindən bəhs etdiyimiz bu şəhər tərkibində70 il yaşadığımız Sovet rejiminin yetirməsi olsa da onun salındığı bu yerlər min-min illər qabaq ulu babaların yaşayış məskənləri, od-ocaqlarının yadigarıdır. Hələ e.ə. III minillikdə bu ərazidə yaranmış insan məskənlərində neçə-neçə nəsillərin yaşayış izləri var [3].

Mingəçevir şəhər Tarix-Diyarşünaslıq muzeyində qayğı ilə qorunub saxlanan arxeoloji abidələr bu yerin ilk sakinlərinin zəngin mədəniyyətə malik olduqlarını sübut edir. Məşhur türk səyyahı Övliya Çələbi özünün "Səyyahətnamə" əsərində yazır ki, Kür çayının sağ sahili, yəni indiki Mingəçevir ipək parça toxunulan emalatxanaları, məscidi və hamamı olan abad, gözəl bir yerdir. XVIII əsrdə əhali Kürün sol sahilinə köçmüş, orda yeni yaşayış məskənləri salmışlar [2].

Cəmiyyət inkişaf etdikcə bu torpaqların da iqtisadi, sosial inkişafa tələbatı artırdı. Min hektarlarla Kür-Araz ovalığının suya olan tələbatı öz həllini gözləyirdi. Hələ Sovet hakimiyyətinin ilk illərində yeni yaradılmış Sovet Sosialist Respublikalarının, o cümlədən Azərbaycanın gələcəkdə sənaye və kənd təsərrüfatını inkişaf etdirmək üçün iri su təsərrüfatlarının yaradılması, susuz çöllərə su çıxarmaq, şoran və bataqlaşmış çölləri yararlı hala salmaq üçün proqramlar işlənib hazırlanırdı. 1921-ci ilin sentyabrında keçirilən Əmək və Müdafiə şurasının iclasında Muğanda aparılacaq birinci növbəli işlər üçün 800 min manat qızıl pul, külli miqdarda inşaat materialları, texnika və s. ayrılması barədə qərar qəbul edilmiş, beləliklə də respublika iqtisadiyyatının gələcək inkişafının əsası qoyulmuşdur.

Böyük tarixi, siyasi, sosial-iqtisadi əhəmiyyəti olan ərazini güclü sənaye-energetika bazasına çevirmək mühüm vəzifə idi. Nəhayət həm Azərbaycan hidrotexniklərinin: "Azhidroenerji" layihə institunun, həm də SSRİ-nin iki məşhur akademikinin – Vedeneyevin və Qrafdiyevin iştirakı ilə layihə hazırlandı. Həmin layihə sübut edirdi ki, Mingəçevirdə 95 m hündürlüyündə hidrotexnika qurğusu tikmək mümkündür [4].

Mingəçevir SES 1941-ci ilin baharında tikilməyə başlasa da, qəflətən Böyük Vətən müharibəsinin başlaması ilə işlər dayandırıldı. Yalnız müharibə qurtardıqdan sonra 1945-ci il iyulun 6-da Stalin AK(b)PMK-nın təşəbbüsü ilə hazırlanmış Mingəçevirə dair tədbirlər planına qol çəkdi. Tikiləcək su elektrik stansiyası saatda 372 min kilovat enerji hasil etməli, bundan əlavə bir suvarma kanalı (indiki Yuxarı Qarabağ kanalı) çəkilməli idi ki, həmin kanalla saniyədə 70 kub.mr su axıdılacaqdı. 172 km uzunluğunda Yuxarı Qarabağ kanalı və 123 km uzunluğunda Yuxarı Şirvan kanalı vasitəsilə Kür-Araz ovalığı su ilə təmin edilməli idi. Mingəçevir bəndinin gücü ilə 1 milyon hektardan çox ərazi suvarılmalı, bəndin özü isə ildə 1,5 milyard kilovat enerji verməli idi.

Ümumittifaq əhəmiyyəti daşıyan tikintini müvəffəqiyyətlə başa çatdırmaq üçün 20 min dustaq, 20 min hərbi əsir gətirilmişdi. 9 min nəfər fəhlə və mütəxəssislə birlikdə 49 min nəfər olduqca çətin şəraitdə işə başladı. İnsanların yaşaması üçün 1 kv.m mənzil sahəsinin olmadığı, ağcaqanadların tüğyan etdiyi, yatalaq xəstəliyinin yayıldığı bir yerdə işlərin çətinliyini təsəvvür etmək çətindir. Lakin Azərbaycan hökuməti Mingəçevirdə işlərin düzgün təşkil olunmasının öhdəsindən bacarıqla gəldi. Mingəçevir tikintisinin maliyyə işləri İttifaq büdcəsinin ixtiyarında idi. Bütün çətinliklərə baxmayaraq nəhayət Mingəçevir SES-də işlər yavaş-yavaş başa çatırdı. 5 noyabr 1954-cü ildə stansiyanın sonuncu turbini işə salındı. Mingəçevir SES-in inkişafı ilə eyni vaxtda onun qurucuları üçün yaraşıqlı çoxmərtəbəli binalar tikilir, küçə və məhəllə salınırdı. Bu yerlər tez bir zamanda öz simasını dəyişib gözəl bir şəhərə çevrildi. Sovet dövlətinin tarixində görünməmiş sürətlə tikilən Mingəçevir həm də Azərbaycan üçün hidrotexniki qurğular tikmək məktəbi oldu. İxtisaslı fəhlə məktəbləri yaradıldı. Respublikanın müxtəlif yerlərindən gələn gənclər bu

məktəblərdə sənətə yiyələndilər. O zaman həyata keçirilən Mingəçevir tikililərini ölkəmizin həyatında inqilab adlandırmaqolar. 1957-ci ildə Varvara SES enerji verdikdən və Mingəçevir SES-ə qoşulduqdan sonra Mingəçevir SES-si silsilə adlanmağa başladı. 1956-cı ildə Mingəçevirdə toxuculuq kombinatının əsası qoyuldu. 1960-cı ildə ilk məhsulunu verən müəssisə Mingəçevirin sənaye şəhəri kmi ərsəyə çatmasında böyük rol oynadı. 33 millətin nümayəndəsinin çalışdığı Toxuculuq fabriki Mingəçevirdə mənzil fonduna böyük töhfələr vermişdir. Mingəçevir SES-in tikilməsindən 30 il sonra Bozdağın ətəkləri yenə nəhəng tikinti meydanını xatırladırdı. Nəinki Azərbaycanın, Zaqafqaziyanın eləcə də İttifaqın ən nəhəng enerji bazası, mövcud enerji ehtiyaclarının aradan qaldırılmasının əsas mənbələrindən biri AZDRES tikilməyə başladı. Artıq bu dövrdəMingəçevirdə 50 min nəfərədək əhali yaşayırdı. Zaqafqaziyada iki nəhəng enerji bazası olan Mingəçevir də çoxlu sayda müxtəlif müəssisələr bir- birinin ardınca tikilərək istifadəyə verildi. 1970-ci ildə Mingəçevir Texniki Rezin zavodu fəaliyyətə başladı. 1965-ci ildə istismara verilmiş Şüşə lifi zavodu 1977-1978-ci illərdə yenidən qurularaq istehsal gücünü xeyli artırdı. 1954-cü ildən respublika tabeli şəhər statusu almış Mingəçevir özünün iqtisadi potensialına, əhalisinin sayına görə ölkəmizin dördüncü böyük şəhəridir.

Müstəqilliyimiz daimidir, əbədidir deyən ümummilli liderimiz Heydər Əliyevin layiqli varisi, hörmətli prezidentimiz cənab İlham Əliyevin 2004-cü il fevralın 11-də "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf" proqramını qəbul etməsi və onun həyata keçirilməsinə ciddi nəzarəti Mingəçevirin həyatında özünü açıq şəkildə göstərir. İnkişaf edərək dünyanın inkişaf etmiş şəhərləri sırasına çıxmağa hazırlaşan Mingəçevir təkcə sənaye şəhəri deyildir. O, eyni zamanda elm, təhsil, səhiyyə və mədəniyyətin inkişafı baxımından regional mərkəzdir. Şəhərdə 1 ali təhsil ocağı, 2 kollec, 2 lisey, 3 musiqi məktəbi, 20 ümumtəhsil məktəbi, texniki peşə məktəbi, 23 uşaq bağçası, Dövlət Dram teatrı, 6 klub, 14 kitabxana, 2 muzey, rəsm qalereyası, Gənc Texniklər stansiyası, Uşaq Yaradıcılıq Mərkəzi, 11 min tamaşaçı tutan stadion, 2 idman kompleksi, beynəlxalq əhəmiyyətə malik "Kür" avarçəkmə bazası, şahmat məktəbi və s. mövcuddur. Şəhərdəki "Ana və Uşaq" müalicə mərkəzinin müasir xəstəxana kompleksinin, Doğum evinin, Təcili Yardım Stansiyasının, Stomotoloji poliklinikanın xidmətindən təkcə mingəçevirlilər deyil, ətraf rayonların əhalisi də səmərəli istifadə edir [5].

Şəhərdə hazırda 35-dən çox millətin nümayəndəsi yaşayır. Əhalinin sayı 100 mindən çoxdur. 20 mindən çox qaçqın və məcburi köçkün şəhərdə məskunlaşmışdır. Erməni işğalına qarşı Vətən savaşında minlərlə mingəçevirli iştirak etmiş, onlardan 317 nəfəri həlak olmuş, 4 igid isə ölümlərindən sonra layiq görüldükləri "Milli Qəhrəman" adını şəhərin 74 illik salnaməsinə qeyrət simvolu tək yazdırmışlar. İkinci Vətən Müharibəsində 2900-ə yaxın Şəhidin 50-si Azərbaycanın 4-cü şəhəri, sənaye mərkəzi olan Mingəçevirimizin payına düşür. 50 Mingəçevir sakini İkinci Qarabağ Müharibəsində canlarından keçərək, qəhrəmancasına Şəhid olublar. Mingəçevirli Şəhidlərin hamısı Mingəçevirin Şəhidlər Xiyabanında dəfn ediliblər. Hər gün insanlar, Mingəçevir sakinləri Şəhidlər Xiyabanına gələrək, həm Birinci, həm də İkinci Qarabağ Müharibəsi Şəhidlərini ziyarət edir, onların müqəddəs ruhlarına dualar oxuyurlar.

Allah Mingəçevirli Şəhidlərimiz də daxil olmaqla, bir daha cəmi Şəhidlərimizə rəhmət etsin, onların qəbirlərini nurla doldursun!

İstifadə edilmiş ədəbiyyat

1. Daşdəmirov M. 35 il və ilmələnən ömürlər. Azərbaycan nəşriyyatı, Bakı, 1995.
2. Əliyev A. İnsan, torpaq, su, işıq. Azər.Dövlət Nəşriyyatı. Bakı, 1984.
3. Hüseynov K. Bir ömrün salnaməsi, Mingəçevir burulğanları. Bakı: Günəş, 1998. 417 s.
4. Mingəçevir şəhərinin sosial iqtisadi inkişaf proqramı, 2005-2015-ci illər, Çinar-Çap, 2005.
5. Qurbanzadə P. Onlar Mingəçeviri qurmuşlar. Bakı, 1999.

UOT 51:37:016

RİYAZİYYAT DƏRSLƏRİNDƏ KEYFİYYƏTİN YÜKSƏLDİLMƏSİNDƏ SİNİFDƏNXARİC VƏ MÜSTƏQİL İŞLƏRİN ƏHƏMİYYƏTİ

İradə Əli qızı Məmmədova
Mingəçevir Dövlət Universiteti
irada.mammadova@mdu.edu.az

Yaşadığımız XXI əsr əvvəlki əsrlərdən fərqli olaraq, zəka əsri olduğu üçün baş verən dəyişikliklərdə daha sürətli və daha əhatəlidir [8].

Gündəlik həyatımızda qarşılaşdığımız texniki tərəqqi, elm və texnologiyalar sahəsindəki yeniliklər, siyasi, sosial-iqtisadi və mədəni dəyişikliklər, qloballaşmanın genişlənməsi hər bir kəsdən, xüsusilə də gənc nəsildən bu dəyişikliklərə uyğunlaşması üçün bir sıra yeni keyfiyyətlər tələb edir. Bu keyyfiyyətlərin əldə edilməsi və inkişaf etdirilməsi isə təhsillə bağlıdır. Təhsil və onun səmərəliliyi anlayışları tarixən insanları narahat etmiş və onların daim diqqət mərkəzində olmuşdir. Çünki bu anlayışlar insanların rifah halının yüksəlməsini təmin edən ən əhəmiyyətli istiqamətlərə, tələb və maraqlara uyğun olaraq müəyyənləşir, dəyişir və zaman-zaman inkişaf edərək, daha da zənginləşir. Təhsil insanın sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin qazanılmasına, əqlin və hisslərin inkişaf etdirilməsinə, dünyagörüşünün və idrak poseslərinin formalaşdırılmasına yönəlmiş məqsədyönlü proses və nəticədir. Təhsil yaşlı nəsillər tərəfindən sosial əhəmiyyətli təcrübələrin daimi olaraq, gənc nəslə verilməsi üçün təşkil olunan və nizamlanan ictimai prosesidir. Bu prosesdə uğurla iştirak etmək isə müasir tələblərə uyğun təhsilə malik olmaqla münkündür. Şəxsiyyətin təşəkkülü və inkişafında təhsilin başlıca vəzifələrindən əhalinin təhsilə olan tələbatını ödəmək, fiziki və əxlaqi cəhətdən sağlam nəsil tərbiyə etmək, cəmiyyətin və istehsalatın tələbatları ilə müəyyən olunan biliklər sisteminin mənimsənilməsini təmin etmək, gənc nəsildə elmi dünyagörüşü, siyasi, iqtisadi, hüquqi mədəniyyəti, humanist dəyərləri və idealları, yaradıcı təfəkkürü formalaşdırmaq, gənclərdə düşünülmüş vətəndaşlıq mövqeyi, insani ləyaqət, məsuliyyət hissi, demoqrafik özünüidarə işində iştirak etmək səyləri aşılamaq və s. demək olar [8].

Hər bir dövlətin gələcəyi onun təhsil sisteminin necə qurulmasından, gənc nəslin düzgün təlim və tərbiyəsinin hərtərəfli əhatə etməsindən asılıdır. Təhsil dövlət üçün ən dərin mahiyyət kəsb edən bir sahədir [7]. Bizim ölkəmizdə təhsil dövlətin həmişə diqqət mərkəzində olmuşdur və zaman-zaman yaşadığımız dövrün tələblərinə uyğun olaraq, təhsildə islahatlar aparılmışdır. İndiki dövürdə isə Azərbaycan təhsilinin əsas məqsədlərindən biri dünyanın təhsil səviyyələrinə çıxmaq, inkişafetmiş ölkələrin təcrübəsindən istifadə edərək, daha mükəmməl bir sistem yaradaraq, yüksək naliyyətlər əldə etməkdir.

Hazırda respublikamızda həyata keçirilən müsir təhsil siyasətinin əsas vəzifəsi elmin müasir nailiyyətləri ilə bağlı dərin və hərtərəfli bilik və bacarıqlara yiyələnmiş, yeni texnologiyaları çevik mənimsəyən, əmək bazrında layiqli yer tutmaq üçün ömür boyu təsil alan, dünyanın elmi mənzərəsindən baş çıxaran, sosial baxımdan fövqalədə şəkildə aktiv olan, ətraf mühütə münasibətdə düzgün mövqe seçən, çağdaş mədəniyyəti formalaşdırmağa və inkişaf etdirməyə qadir olan, həmçinin yüksək mədəni, intellektual potensiala, milli-mənəvi, estetik-əxlaqi dəyərlərə malik, azad vətəndaş-şəxsiyyət yetişdirməkdən ibarətdir [2]. Bu məqsədlərə nail olmaq üçün isə təhsildə keyfiyyətin yüksədilməsi əsas və vacib bir məsələdir. Təhsilin keyfiyyəti müasir sivilizasiyada təhsilin məqsəd və vəzifələrinə uyğun, insanin innovasiya cəmiyyətini inkişafında fəal və konstruktiv iştirakı, şəxsiyyətin yaradıcı formalaşması məsələlərini onun təhsil və energetik resusrlarının həyat fəaliyyətində uğurlu təmin olunmasında son nəticədə keyfiyyətin yüksəldilməsinə xidmət edir. Keyfiyyətinin müəyyən edilməsi isə əldə olunan nəticələr, mövcud şərait və prosesin keyfiyyəti ilə sıx bağlıdır [10]. Tədrisdə keyfiyyətin yüksəldilməsinin müxtəlif yolları vardır. Belə yollardan biri şagirdlərdə keçilən fənnə qarşı maraq yaratmaqdır. Şagirdlərdə

fənnə qarşı maraqların yaranması üçün sinifdənxaric işlərin və müstəqil işlərin aparılması əhəmiyyətlidir. Sinifdənxaric iş dedikdə, təlimdənkənar vaxtlarda pedaqoji kollektiv üzvlərinin, sinif rəhbərləri, fənn müəllimləri, kitabxanaçı, şagird təşkilatları, məktəb ictimai təşkilatları, valideyn komitəsi, məktəb həkimi, məktəb rəhbərlərinin, ailə və ictimaiyyət nümayəndələrinin və s. köməyilə müxtəlif təşkilatı formalarda aparılan təlim-tərbiyəvi tədbirlərdiri nəzərdə tutulur. Dərslə müqayisədə götürüldükdə sinifdənxaric iş bir sıra xüsusiyyətləri özündə birləşdirir. Belə ki, təlim prosesi məcburi xarakter daşıdığı halda sinifdənxaric iş könüllüdür, təlim prosesində təxminən eyni yaşlı uşaqlar iştirak etdikləri halda müzakirə, disput, söhbət, dəyirmi masa ətrafında görüş, müsabiqə, yarış və s. bu kimi sinifdənxaric işlərə müxtəlif yaşlı və müxtəlif siniflərdən olan şagirdlər cəlb olunurlar. Sinifdənxaric işlər şagirdlərin marağı, istək və arzuları, təşəbbüsləri nəzərə alınmaqla həyata keçirilir. Sinifdənxaric işlərin təşkili və reallaşması həm təlim prosesində, həm də təlimdənkənar vaxtlarda aparılması zəruri olan prosesdir [1].

Təcrübələr göstərir ki, təlim prosesindən kənar vaxtlarda aparılan sosial pedaqoji işlər daha effektiv olaraq özünü göstərir. Çünki şagirdlərdə özünütəsdiq, özünüreallaşdırma, özünütəyinetmə bacarıqları bu prosesdə formalaşır və beləliklə də şagird şəxsiyyətində, onun fərdi psixoloji xüsusiyyətləri, daxili potensialı aşakara çıxarılaraq inkişaf etməsinə səbəb olur. Sinifdənxaric işlərin əsas formaları: marağa görə dərnək işləri, fərdi işlər, qrup şəklində həyata keçirilən işlər, kollektiv iş növləri və s. ola bilər. Sinifdənxaric iş həm elmi, həm də məqsədə müvafiq olaraq əyləncəli olmalıdır.

Riyaziyyat dərslərində sinifdənxaric iş köməkçi forma olaraq, şagirdlərin dərsdən sonrakı vaxtlarının səmərəli təşkil edilməsinə, yaradıcılıq qabiliyyətinin, məntiqi təfəkkürünün inkişafına, proqram materialının dərindən mənimsənilməsinə şərait yaradır, məktəbliləri müstəqil bilik qazanmağa, sərbəst fikir söyləməyə, təşkilatçı, lider olmağa hazırlayır. Bu iş müxtəlif tərkibdə və formada ola bilər. Bu zaman şagirdlərə elə biliklər verilməlidir ki, o həmin biliklərdən həyatın digər sahələrində, yaşadığı müddətdə istifadə də bilsin və bu biliklər öyrədilməklə yanaşı, eyni vaxtda onun həyatı əhəmiyyətliliyi də izah olunmalı və şagird üçün maraqlı hala gətirilməlidir.

Yeni biliklərin ilkin mənbəyi təcrübə və müşahidələrdən alınan hissi qavrayışdır. Uşağın qavrayışı və düşüncəsi isə fəaliyyətlə bağlıdır [3]. Uşaqların fəal həyatının çox hissəsi oyunlarla bağlı olduğu üçün ibtidai siniflərdə oxuyan şagirdlərdə riyaziyyat mövzularının asan mənimsənilməsi və dərsə marağın yaranması üçün riyazi oyunlardan istifadə etmək də məqsədə uyğundur. Belə dərslərin keçirilməsi uşaqlar üçün əyləncəlidir. Belə oyunlara riyaziyyat dərsinin bəzi hallarda şagirdlərə darixdirici olmasının və zehni yorğunluqdan dərsə diqqətin azalmasının qarşısını almaq üsullarından biri kimi də baxmaq olar. Riyazi oyunları tərtib edərkən nəzərdə tutulmalıdır ki, dərsdə keçiləcək mövzunu əhatə edə bilsin. Müəllim əvvəlcədən didaktik vasitələri, sadədən mürəkkəbə doğru tərtib edilmiş sualları hazırlamalı, dərsin sonuna yaxınlaşanda isə şagirdlərin mövzunu necə mənimsədiklərini aydınlaşdırmalıdır. Bu zaman sinifdə şagirdlərin dərsi qavrama və dərketmə qabliyyətləri müxtəlif olduğundan müəllim hər bir şagirdə xüsusi diqqət yetirməlidir [4]. Oyunlardan səmərəli istifadə etmək üçün isə əyləncəli riyazi məsələlərdən istifadə etmək daha məqsədə uyğundur. Oyunların növləri çoxdur. Lakin şagirdlərin hərtərəfli, harmonik inkişafına, sağlamlığına, faydalı bacarıq və vərdişlərin yaranmasına və təfəkkürün inkişafına xidmət edən riyazi oyunlar mühüm əhəmiyyət kəsb edir. Təcrübə və müşahidə göstərir ki, şagirdlər mühakimə tələb edən düşündürücü oyunlara da maraq göstərirlər. Riyazi tapmacalar, sehrli kvadratlar, əşyaların müxtəlif yerdəyişmələrinə və kombinasiyalarına aid çalışmalar şagirdlərdə riyaziyyat dərsinə qarşı marağı artıraraq, onlarda dərsdə həvəslə iştirak etməyi tərbiyə edir. Oyunların təşkili və keçirilməsi tərbiyə və təhsil məqsədlərinin həyata keçməsinə, şagirdlərin boş vaxtlarının səmərəli olmasına xidmət edir. Riyaziyyat dərslərində riyazi məzmunlu əyləncəli oyunlar, eyni zamanda, şagirdlərdə nitqidə inkişaf etdirir.

Riyaziyyat dərslərində keyfiyyətin yüksəldilməsində sinifdənxaric işlərdən başqa eyni zamanda müstəqil işlərin də aparılmasının özünəməxsus əhəmiyyəti var. Şagirdlərin müstəqilliyinin

formalaşmasında, şəxsiyyət kimi inkişaf etməsində müstəqil işlərin rolu çox mühim və əvəzedilməzdir. Bu zaman şagirdlər yeni şəraitə uyğunlaşmaq, yeni tapşırığı edərkən düşünmək, çalışmaq qabiliyyəti, yeni tapşırığın həllini tapmaq kimi əlamətlər qazanırlar.

Şagirdlərin müstəqil işləri bu təlim funksiyalarını yerinə yetirir:

- dərsdə qazanılmış bilik və bacarıqları möhkəmləndirmək;
- sinifdə keçirilmiş tədris materialını genişləndirmək və dərinləşdirmək;
- çalışmaları müstəqil yerinə yetirmək üçün bacarıq və vərdişləri formalaşdırmaq;
- proqram materialı çərçivəsində fərdi tapşırıqları yerinə yetirmək yolu ilə təfəkkürün müstəqilliyini inkişaf etdirmək;
- fərdi müşahidələr və təcrübələr aparmaq, dərslərdə yeni mövzuları öyrənmək üçün material toplamaq və tədris vasitələri hazırlamaq və s.[6].

Riyaziyyat dərslərində müstəqil işlər şagirdlərin müstəqil fəaliyyət bacarıqlarını inkişaf etdirməklərinə yardım edir. Müstəqil işlər vasitəsi ilə riyaziyyatdan qazanılmış nəzəri biliklər şagirdlər tərəfindən tətbiqi məqsəd daşıyır. Şagirdlərdə dərs prosesində və ya dərsdən sonra müəyyən məsələlərin müstəqil yerinə yetirilməsi materialın tam mənimsənilməsinə səbəb olur. Dərs prosesində, eləcə də dərsdənkənar məşğələlərdə müstəqil işlər üçün tapşırıqlar hazırlanarkən öyrənilən materialın xüsusiyyətləri və strukturu nəzərə alınmalıdır. Belə ki, nəzəri xarakter daşıyan tapşırıqlara sübütlar, anlayışların, tərifl ərin işlənməsi, anlayışların təsnifatı, anlayışların əlamətlərinin mənimsənilməsi, alqoritmik xarakter daşıyan tapşırıqlara, həndəsə materiallarının bəzi məsələləri, tədqiqat-yaradıcı xarakterli tapşırıqlara, əməli məsələlər, ölçü məsələləri, sübut üçün məsələlər, olimpiada məsələlərinə və s. diqqət etmək lazimdır.

Şagirdlərdə müstəqil işləmə qabiliyyətini formalaşdırmaq üçün ən böyük və məsuliyyətli vəzifə müəllim üzərinə düşür. Müəllim təlim prosesini elə təşkil etməlidir ki, şagirdlərdə maraq yaranmalı, işdə müstəqillik inkişaf etdirilməlidir [6]. Müstəqil iş zamanı müəllim şagirdlərin tapşırıqların necə yerinə yetirməklərinə nəzarət etməli, ehtiyacı olan şagirdlərə isə kömək göstərməlidir. Əgər şagird müstəqil işləri həll edərkən çətinliklə rastlaşırsa, onda müəllimə müraciət edərək məsləhət almaqdan qorxmamalıdır. Müəllim şagirdlərdə müstəqilliyi inkişaf etdirərkən həmçinin şagirdlərdə fəallıq, şüurluluq, düşünmə, məsuliyyət, çalışqanlılıq, özünə inam, güvənlik hissi kimi bir sıra əlamətləri formalaşdırır. Müstəqil işlə bağlı tapşırıqlar şagirdlərdə düşünmə qabliyyətini yüksəldir, müstəqil qərarlar qəbul etmək bacarlğını, özünə inam hissini artırır. Buna görə də müstəqil işlər münkün qədər yaradıcı, düşündürücü, rəngarəng olmalıdır. Müəllim şagirdlərə verdiyi müstəqil işlərin məqsədi, planı olmalı, onların yaş xüsusiyyətlərini nəzərə almalıdır. Müstəqil işlərin həcmi müəyyən edilmiş vaxta uyğun olmalı, şagirdlərin marağı, istəyi, tələbatı nəzərə alınmalı, həmçinin şagirdlərin inkişaf səviyyəsinə diqqət yetrilməlidir. Müstəqil işlər şagirdlərdə özünütəhlil vərdişlərinin yaranmasına səbəb olur. Müəllim tərəfindən müntəzəm yoxlanılan, nəzarət edilən müstəqil işlərə şagirdlər daha ciddi yanaşır. Bundan başqa, müstəqil işlər şagirdləri müxtəlif növ fəaliyyətə cəlb edir. Şagirdi vacib fəaliyyətə cəlb etmək onu inkişaf etdirir və tərbiyə edir. Müstəqil işlər təlim prosesinin bütün mərhələlərində düzgün təşkil olunduqda şagirdlərin müstəqilliyi artır, arzu olunan nəticələr əldə edilir [6].

Beləliklə, tədris fəaliyyətində sinifdənxaric iş, müstəqil işlər hər bir şagirdin fərdi qabiliyyətini, bacarıq və istedadını əhəmiyyətli dərəcədə inkişaf etdirir, yaradıcılıq potensialını artırır, elmi dünyagörüşü və fəal həyat mövqeyini məqsədyönlü şəkildə formalaşdırır.

İstifadə edilmiş ədəbiyyat

1. Hüseynova E.R. Sinifdənxaric tədbirlər zamanı yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq formalaşdırılması. Azərbaycan Pespublikası Təhsil Nazirliyi.Azərbaycan Təhsil İnstitutunun Elmi Əsərləri. Bakı, cild 86, № 3, 2019, səh.88-94.

2. İsmayılov A.N. Müasir təhsilin keyfiyyət təminatında monitorinq və qiymətləndirmənin yeri. Mingəçevir Dövlət Universiteti. Azərbaycanda təhsil siyasətinin prioritetləri: Müasir

Yanaşmalar. Elmi Konfransın Materialları (15-16 dekabr 2017-ci il). Mingəçevir, 2017, səh.114-115.

3. İsrafilova G.T.,I sinifdə riyaziyyat dərslərində didaktik oyunlardan istifadə. Azərbaycan Pespublikası Təhsil Nazirliyi.Azərbaycan Təhsil İnstitutunun Elmi Əsərləri. Bakı, cild 85, № 3, 2018, səh.113-116.

4. İsrafilova G.T.,Riyazi oyunlar və əyləncəli çalışmaların didaktik funksiyaları. Azərbaycan Pespublikası Təhsil Nazirliyi.Azərbaycan Təhsil İnstitutunun Elmi Əsərləri. Bakı, cild 85, №8, 2018, səh.152-154.

5. Məmmədova A.,Təhsildə səmərəliliyin artırılmasında motivasiyanın rolu. Naxçıvan Dövlət Universiteti.Naxçıvan, Elmi Əsərlər. 2016, № 3. səh.216-219.

6. Məmmədova A.,Şagirdlərin müstəqil işləri. Azərbaycan Pespublikası Təhsil Nazirliyi.Azərbaycan Təhsil İnstitutunun Elmi Əsərləri. Bakı, cild 84, № 6, 2017, səh.170-171.

7. Mustafayev S.M., Əliyeva A.Ə.,Yeni informasiya texnologiyalarının təhsildə rolu və tətbiqi. Mingəçevir Dövlət Universiteti. Azərbaycanda təhsil siyasətinin prioritetləri: Müasir Yanaşmalar. Elmi Konfransın Materialları (15-16 dekabr 2017-ci il). Mingəçevir, 2017, səh.28-29.

8. Orucov V., Səmərəli və nəticəyönümlü təhsil. Azərbaycan Pespublikası Təhsil Nazirliyi. Azərbaycan Təhsil İnistutunun Elmi Əsərləri, Bakı, cild 84, № 5, 2017, səh.6-10.

9. Süleymanova E.,Şəxsiyyətin təşəkkülü və inkişafında fasiləsiz təhsilin rolu. Naxçıvan Dövlət Universiteti.Elmi Əsərlər. Naxçıvan. 2018, № 3. səh.245-250.

10. Vəliyeva Z.Ə. Təhsildə keyfiyyət zamanı tələblər. Mingəçevir Dövlət Universiteti. Qlobal Tendensiyalar və Müasir Azərbaycan. Elmi Konfransın Materialları (7-8 may 2018 –ci il). Mingəçevir, 2018, səh.414 - 416.

UOT 82(091); 82:316.3

AZƏRBAYCANIN ƏSRARƏNGİZ ƏDƏBİYYATINA BAXIŞ

Jalə Elçin qızı Qasımova
Mingəçevir Dövlət Universiteti
jala.qasimova@mdu.edu.az

Şərqi Avropa və Qərbi Asiyanın kəsişməsində yerləşən Azərbaycan mədəniyyəti iki qitənin və müxtəlif sosial və siyasi təzyiqlərin formalaşdırdığı bir ölkədir. Vinsent Vudun dediyi kimi, bu mədəni toqquşmalar ölkənin zəngin ədəbi irsi vasitəsilə həyata keçirilir.

Azərbaycanın ən tanınmış ədəbiyyatlarından bəziləri ölkənin iki türk tayfa konfederasiyasının hakimiyyəti altında olduğu 14-15-ci əsrlərə gedib çıxır. Poeziya o dövrdə Həqiqi, Həbibi, Qazi Bürhanəddin kimi şairlərlə önə çıxırdı. Məhz bu dövrlərdə İmam Nəsimi şeir yazmağa başladı və indi o, türk ədəbiyyatı tarixinin ən görkəmli ilk divan ustalarından biri hesab olunur. XII əsrin böyük fars şairi Nizami Gəncəvi də Azərbaycanda anadan olub və onun irsi Bakıdakı Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində qeyd olunur.

Azərbaycan ədəbiyyatı XVI əsrdə Azərbaycan bardlarının poetik janrı olan aşıq poeziyasının inkişafı ilə daha da çiçəkləndi. Bu dövrün ədəbiyyatı təkcə Azərbaycan dilində deyil, ərəb və fars dillərində də olmuşdur. Bu dillərin istifadəsi, eləcə də Azərbaycan dilinin digər türk dilləri ilə bir çox oxşarlıqları olan bir ləhcə olması ilə Azərbaycan ədəbiyyatı çox geniş yayılmış və çox oxunmuşdur. 19-cu əsrdə Azərbaycan ədəbiyyatı rus-fars müharibələri nəticəsində Rusiyanın 3bu dəfə Sovet İttifaqının timsalında özünü işğal etdi. 1930-cu illərdə bölgədəki bir çox yazıçı və ziyalılar sovet təbliğatının ruporuna çevrilməyə məcbur oldular, çünki bolşeviklər bölgədə öz

nüfuzlarını möhürləməyə çalışırdılar. Ola bilsin ki, Azərbaycanın ən məşhur ədəbi məhsullarından birinin sirrlə örtülməsi də elə bu səbəbdəndir.

"Əli və Nino: Bir Sevgi Hekayəsi" 1937-ci ildə Vyanada Qurban Səid adı ilə nəşr olunmuş romandır. Əvvəlcə alman dilində nəşr olunan hekayə gənc azərbaycanlı zadəganla gürcü şahzadəsinin münasibətindən bəhs edir. Roman bir-birinin inancları və dinləri (biri müsəlman, digəri xristian) ilə məşğul olarkən dünyada öz yerləri üçün mübarizə aparan mədəniyyətlərarası cütlük ideyasından bəhs edir. 2012-ci ilin yanvarında romanın ingilis ssenarist və dramaturq Kristofer Hempton tərəfindən kinoya uyğunlaşdırıldığı və Peapie Films-dən Kris Taykerin prodüseri olacağı elan edildi.[1, s.87] Romanın müəllifliyi ilə bağlı mübahisə uzun müddət davam edən mübahisə nöqtəsidir və əbədi olaraq sirr olaraq qala bilər. Qurban təxəllüsünün romanı alman hakimiyyət orqanlarında qeydiyyatdan keçirmiş avstriyalı baronessa Elfriede Ehrenfelsə məxsus olduğu iddia edilir. Bununla belə, onun romanın yazılmasında iştirakına dair sübutlar hələ də sübuta yetirilməyib. Son araşdırmalar romanın əsas hissəsinin Azərbaycan yazıçısı və dövlət xadimi Yusif Vəzir Çəmənzəminli tərəfindən yazıldığını deməyə əsas verir. Bu sübut həm onun həyat təcrübələrindən, həm də Əlyazmalar İnstitutunda, Bakı, Azərbaycanda arxivdə saxlanılan gündəlikləri, məqalələri, hekayələri və romanlarından ibarət əsərlərindəndir. Yenə də Əli və Nino əsərinin yaradılmasında folklor yazılarında əsəri onunla əlaqələndirən Lev Nussimbaum (Əsəd Bəy kimi yazan) kimi başqa insanların əli ola bilər. Qəribədir ki, romanın italyanca nəşri 1944-cü ildə Məhəmməd Əsəd Bəy adı ilə çıxdı. Bu nəşrdə Nino obrazı Nussimbaumun arvadı ilə eyni adda olan Erika adlanır. Bu italyan nəşri ölümündən sonra şübhəli şəraitdə 'Ahmed Giamil Vacca-Mazzara' adlı biri tərəfindən nəşr edilmişdir.[2, s.23] O, Əsəd Bəylə dörd nəsil əvvəl qohum olduğunu və buna görə də Əsəd Bəyin qonorarını onun müxtəlif kitablarından miras aldığını göstərməyə çalışdı. Bu italyan nəşri heç vaxt yenidən nəşr olunmayıb.

1953-cü ildə Nikita Xruşşov Sovet İttifaqının baş naziri kimi hakimiyyətə gəldikdən sonra Azərbaycan ədəbiyyatında təbliğata böyük önəm verilməyə başladı və buna görə də yazıçılar daha çox totalitar rejim dövründə öz təcrübələrini əks etdirən nəsrə diqqət yetirməyə başladılar. . Azərbaycan daha çox qonşusu İrana üz tutduğundan postsovet dövründə əsasən İslam mədəniyyətinə diqqət yetirən yazıçılar üstünlük təşkil edib. Fars və ərəb ədəbiyyatı Azərbaycan ədəbiyyatına özünün klassik mərhələsində böyük təsir göstərmişdir və görünən odur ki, bu, yenə də belədir. Bu arada Azərbaycan ədəbiyyatının ən məşhur əsəri olan "Əli və Nino"nun kimin yazdığının sirri hələ də açılmayıb. Azərbaycan ədəbiyyatında məşhur sirr olaraq qalır.

Bu gün Azərbaycan ədəbiyyatının ən çox tanınan əsərlərindən biri də ilk dəfə 1937-ci ildə Vyanada Qurban Səid təxəllüsü ilə nəşr olunan "Əli və Nino: Sevgi hekayəsidir". Roman müsəlman azərbaycanlı zadəgan və xristian gürcü şahzadəsinin sevgilisinin inancları ilə barışaraq dünyada öz yerləri uğrunda mübarizə apardıqları münasibətdən bəhs edir. Əslən Azərbaycan dilində yazılsa da, hazırda 30-dan çox dilə tərcümə olunub və beynəlxalq miqyasda rəğbət qazanıb.

Azərbaycan ədəbiyyatı ilə maraqlanan hər kəs üçün 12-ci əsrin dahi şairi Nizami Gəncəvinin əsərləri mütləqdir. Tarixin ən məşhur Azərbaycan şairi kimi onun irsi Bakıdakı Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində və doğulduğu Gəncə şəhərində geniş şəkildə qeyd olunur.

19-cu əsrdə Azərbaycan ədəbiyyatı rus təfəkküründün güclü təsiri altına düşmüş, sovet dövründə isə 20-ci əsrin əvvəlindən ortalarına qədər bir çox Azərbaycan yazıçıları sovet təbliğatının ruporuna çevrilmək məcburiyyətində qalmışlar. Stalinin ölümündən sonra isə təbliğata demək olar ki, eksklüziv diqqət söndü və yazıçılar yenidən yeni istiqamətlərdə şaxələnmək azadlığına sahib oldular. O dövrün bir çox müəllifləri öz səylərini totalitar rejim altında yaşayan azərbaycanlılar üçün ümid mənbəyi olacaq nəsri yüksəltməyə yönəltməyə üstünlük verdilər.

Azərbaycan tarixində XX əsrin əvvəllərində baş vermiş mühüm hadisə olan Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) quruldu. ADR cəmi iyirmi üç aylıq qısa bir ömür yaşasa da, həmin dövr özünəməxsus ədəbiliyi ilə əlamətdar idi. Tanınmış qələm sahiblərindən başqa Cəlil Məmmədquluzadə, Abdulla Şaiq, Əbdülrəhim bəy Haqverdiyev, Üzeyir. Hacıbəyovun rəhbərliyi

altında C.Cabbarlı, Əhməd Cavad, Ümmügülsüm kimi gənc yazıçıların maraqlı əsərləri yaradılmışdır. Bu əsərlərdə Azərbaycanın dövlət müstəqilliyi, vətəni xilas etmək missiyası ilə gələn türk ordusunun qələbələri, Azərbaycan əsgərlərinin qəhrəmanlığı, üçrəngli dövlət bayrağı tərənnüm olunub. Bu sahədə xüsusi fəaliyyəti ilə seçilən Əhməd Cavad (1892-1937) respublikanın dövlət himninin sözlərini yazmışdır. Musiqisini dahi Üzeyir Hacıbəyovun bəstələdiyi bu əsər indi də Azərbaycan Respublikasının himnidir.

İstifadə edilmiş ədəbiyyat

1. Elməddin Əlibəyzadə. "Azərbaycan ədəbiyyatı tarixi" (ən qədim dövrlər). Bakı: Qarabağ, 2009, 828 s.
2. Köçərili Firudin bəy. Azərbaycan ədəbiyyatı. İki cilddə. I cilddə. Bakı, "AVRASIYA PRESS" 2005, 560 s.
3. Təyyar Salamoğlu. Müasir Azərbayacan dili. Bakı, 314 s.

UOT 81'367

DİSKURSDA FRAZEOLOGİZMLƏRİN MƏNA VƏ STRUKTUR DƏYİŞİKLİYİ

Lalə Mətləb qızı Rüstəmova
Mingəçevir Dövlət Universiteti
lala.rustamova@mdu.edu.az

Frazeologizmlərdə məna dəyişikliklərinin səbəbini və yeni mənanın hansı üsulla yarandığını müəyyənləşdirmək aktual hesab olunur. Yeni mənanın yaranma səbəbi ekstralinqvistik amillərlə, yaranma üsulları isə dilin daxili qanunları ilə tənzimlənir. Semantik derivasiya adlanan belə üsul mövcud olan əşya və hadisələrin müəyyən situasiya ilə bağlılığı nəticəsində yaranır. Məsələn: *black out* (müvəqqəti huşunu itirmək) eyni zamanda, "şəhərin işıqlarının sönməsi nəticəsində zülmətə qərq olmaq" mənasını da ifadə edir. Əşya və hadisələrin zaman keçdikcə tam dəyişikliyə uğraması, eləcə də real həyatda bəzi dil ənənələrinin tam yenilənməsi semantik dəyişmələrin əsas səbəblərindəndir. Dilçilikdə yeni mənaların yaranma üsulunun digər iki forması (psixoloji və məntiqi konsepsiyalar) da irəli sürülür. Psixoloji konsepsiya (yeni mənalar psixoloji assosiasiyalar əsasında yaranır və formalaşır) N.Vundta məxsusdur. XIX əsrin sonlarından etibarən dilçilikdə daha geniş yayılmış məntiqi konsepsiya H.Paula məxsusdur. Deməli, frazeoloji vahidlərin mənaları eyni zamanda həm psixoloji, həm də məntiqi cəhətdən mənanın genişlənməsinə səbəb olur. *Black market* (Qara bazar) frazeologizmi müasir dövrə aid olub, mənaca genişlənərək insan biliyinin inkişafı ilə bağlıdır. *Black market* (qara bazar) birləşməsi qeyri-qanuni yolla alış-veriş edilən ticarət məkanı mənasında da işlədilir. Frazeologizmlərin çoxmənalılığının yaranmasında funksional məna köçürülməsi də mühüm rol oynayır. Burada əşya və hərəkətin funksiyası əsas hesab olunur, çünki əşyanın xarici şəkli, forması, hərəkətin icra tərzi və s. dəyişsə də, onların ümumi funksiyası sabit qalır. Əsas mənada işlənən *cock and bull* – xoruz və öküz fərqli ölçü və əlamətlərə malik olsalar da, onların bir arada işlədilməsi məna köçürülməsi yaradaraq "yalan və uydurma" mənasını ifadə edir.

"Yeni mənanın yaranma səbəbi dil ilə bağlı olmur. Dil daşıyıcılarının nitqində yaranan məna dəyişmələri dilxarici səbəblərdəndir. Əslində real həyatda heç bir dəyişmə baş vermir, dəyişən cəmiyyətdə olan dil ənənələridir. Sənət-peşə adları ilə işlənən frazeoloji birləşmələr, mətbuatda yaranan yeni ifadə tərzi və s. ümumxalq ədəbi-bədii dilinə daxil olur və məna çoxalmalarına səbəb olur" [2, s.175]. Məsələn: *to fly* – uçmaq felindən yeni bir məfhum *to fly into passion* – 1) qəzəblənmək, qəzəbdən alovlanmaq; 2) alovlanıb yanmaq kimi yeni məna yaranmışdır. Yaxud *to cut* – kəsmək felindən *to cut a pie*– 1) bir şeyə qarışmaq; 2) hər şeyə qulp qoşmaq kimi çoxmənalı frazeologizm yaranmışdır. Yaranan yeni mənalar əşya və hadisələrin adlandırılması ehtiyacından,

eyni zamanda onları ekspressiv şəkildə ifadə etmək zərurətindən yaranır. Nəzərdən keçirdiyimiz bu nümunələrdən belə nəticə çıxarmaq olur ki, frazeologizmlər öz həqiqi mənaları ilə yanaşı, məcazi mənada da işlənərək çoxmənalılıq yarada bilir. Eyni frazeologizmin müxtəlif kontekstdə fərqli məna çalarları özünü büruzə verir. "Çoxmənalı frazeoloji birləşmələrin əsas-ilkin mənası əsasən kontekst daxilində müəyyənləşir. Məsələn: *to bear arms* frazeologizmi hərbi termin kimi "silah daşımaq" anlamındadır. Lakin bu frazeologizmin mətn daxilində "orduda xidmət etmək" anlamında ikinci mənası da vardır. Frazeologizmlərin törəmə mənaları kontekstdən asılı olaraq ilkin mənadan fərqlənsə də birinci ikincinin əsasında yaranır [1, s.17].

Frazeologizmlərin kontekstual mənası yalnız müəyyən situasiya ilə əlaqədar olduğundan fərdi xarakter daşıyır. Ümumiləşdirmələr, bənzətmələr frazeologizmlərin çoxmənalılığını şərtləndirir. Frazeologizmlərin çoxmənalılığı, variativliyi mətn daxilində işlənən leksik-semantik əlaqə və onların bir-birinə münasibəti, həmçinin qrammatik vasitələrin, komponentlərin köməyi ilə reallaşır. Məsələn: *to bend on knees* – 1) diz üstə çökmək; 2) təslim olmaq; 3) dua etmək; *to bend the neck* – 1) boyun əymək; 2) təslim olmaq; 3) alçalmaq, özünü alçaltmaq; *to bend the brow* – 1) qaşlarını endirmək; 2) qaşqabağını tökmək; 3) üz-gözünü turşutmaq və s. kimi frazeologizmlərdə *"to bend"* feli *knee, neck, brow* ilə işlənərək mətn daxilində əsas mənadan uzaqlaşmış və zəngin semantik quruluş yaratmışdı. Frazeologizmlərin hamısı çoxmənalı ola bilmir. Dildə frazeologizmlərin çoxmənalılığı paralel məcazlaşma nəticəsində yaranır. Frazeologizmlərin çoxmənalılığı həm onun komponentlərinin çoxmənalılığından, həm də birləşmənin özünün yeni məna almasından yaranır. Məsələn: *to fill smb's bonnet* – 1) bir kəsin yerini tutmaq; 2) hansısa sahədə bir kəsə tay olmaq; *boiled shirt* – 1) nişastalanmış köynək; 2) zabitəli, lovğa, təkəbbürlü adam; *to be in the blue* – 1) yolunu azmaq, yolundan çıxmaq; 2) məğlub olmaq, müvəffəqiyyətsizliyə uğramaq və s. (4, s.67).Bir çox hallarda frazeologizmin komponentlərindən birinin məcazlaşması daha yeni bir frazeoloji vahidin yaranması ilə nəticələnir. Məs, "ürəyini yemək" mənasında işlənən *to eat one's heart out* frazeologizmi semantik dəyişikliyə uğrayaraq kontekstdən asılı olaraq "əzab çəkmək", "ehtiyyacla yaşamaq", "olacağa çarə yoxdur" mənalarını da ifadə edir.

Tədqiqat nəticəsində məlum olur ki, dildə frazeoloji sistemi sinonimlik və ya variantlıq baxımından zənginləşdirən məna və struktur dəyişikliyi özünü aşağıdakı formalarda büruzə verir:

1. Frazeoloji birləşmələrin fonetik cəhətdən modifikasiyaya məruz qalması, bu frazeoloji variantlığı üzə çıxarır.
2. Frazeoloji birləşmələrin leksik cəhətdən dəyişməsi.
3. Frazeoloji birləşmənin tərkib hissələrinin qrammatik cəhətdən dəyişkənliyə məruz qalması.
4. Frazeoloji birləşmə tərkibində işləndiyi cümlənin və ya mətnin ekspressivliyini artırır, bununla bərabər cümlənin özünü bütövlükdə idarə edir [3, s.24].

Komponentlərin inversiyası ilə yanaşı, onların arasına başqa sözlərin artırılması halları daxili (nitqdə frazeologizmin tərkibində baş verən fonetik, leksik, qrammatik və s. dəyişikliklər) deyil, xarici mütəhərriklik kateqoriyası ilə əlaqələndirilir [3, s.18]. Daxili dəyişkənlik əsasən variantların məna yaxınlığının meydana çıxması ilə müşayiət olunur: *chew the curd – chewing the cud; drop a brick – shall be dropping a brick* və s. Frazeologizmlərdə bir komponentin dəyişməsi ilə özünü göstərən variantlaşma özünü fellərin əvəzlənməsində parlaq göstərir: *to get somebody by the short hairs, to take somebody by the short hairs* - itaətdə saxlamaq və s. İkinci variantda isə fel qeyri-sərbəst komponent kimi çıxış edir və dayaq funksiyası başqa komponentlərə keçir. Məsələn, *make short work of something, make short shift of something* - bir şeyin öhdəsindən tez gəlmək. Frazeologizmin tərkibindəki fel komponentinin struktur mütəhərrikliyi dildə eyni frazeoloji vahiddən çoxlu yeni forma yaratmaq imkanını reallaşdırır. Frazeologizmlərdə komponentlərin sabitliyinin pozulması variantlıq üçün şərait yaradır. Frazeologizmlərin variantlığı ancaq onların ifadə formasında mövcud olur.

Nəticədə, diskursda frazeologizmlərin tərkib elementləri leksik cəhətdən yeniləşdikcə frazeoloji variantlar, çoxmənalılıq və yaxud sinonimlər yaranır.

İstifadə edilmiş ədəbiyyat

1. Behbudova E.Ş. İngilis dilində frazeoloji birləşmələrin çoxmənalılığı.fil.f.d.alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. -Bakı, -2016, 159 s.
2. Veysəlli F.Y. Dil, cəmiyyət və siyasət. "Qızıl Şərq mətbəəsi" ASC, -Bakı,-2004, 308 s.
3. Vəliyeva N.Ç. Frazeoloji birləşmələrin müqayisəli linqvistik təhlili. (ingilis, Azərbaycan, rus dillərinin materialları əsasında). Fil. elm. dokt. ... diss. avtoref. Bakı, 2004, 37 s.
4. Vəliyeva N.Ç. Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğət. Bakı: "Nurlan", 2006, 460 s.

UOT 81:37.016; 37.03

XARİCİ DİL DƏRSLƏRİNDƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ

Ləman Vahid qızı Zeynalova-Məmmədzadə
Mingəçevir Dövlət Universiteti
laman.zeynalova-mammadzada@mdu.edu.az

Bu gün vətənpərvərlik tərbiyəsi həm ümumtəhsil müəssisəsində, həm də ali təhsil müəssisəsində tədris prosesinin mühüm tərkib hissəsi kimi qəbul edilir.

Ümumilli lider Heydər Əliyevin vurğuladığı kimi- "Milli vətənpərvərlik prinsipi gərək uşaqlıqdan başlayaraq hər bir vətəndaşın həyat prinsipi, həyat qanunu nizamnaməsi olsun".

Bəllidir ki, təlim-tərbiyə işinin bütün sahələrində olduğu kimi, vətənpərvərlik tərbiyəsinin də əsası uşaq bağçalarında qoyulur, sonra isə ibtidai siniflərdə və sonrakı təlim pillələrində daha da inkşaf etdirilir. Bu mənada böyüməkdə olan nəslin vətənpərvərlik tərbiyəsində ibtidai sinif müəllimlərinin üzərinə böyük məsuliyyət düşür. Onlar məktəbə qədəm qoyan uşaqların qəlbinə elə ilk günlərdən vətənə məhəbbət ruhu aşılamağa, onu güclü vətənpərvərlik hissinə çevirməyə çalışmalıdırlar.

Tərbiyə prosesində nəzərə alınmalıdır ki, şagirdlər ümumbəşəri dəyərlərlə yanaşı, öz milli tarixi kökləri, ənənələri, mənəvi sərvətləri barədə də biliklərə malik olmalı, həmin biliklərlə özlərinin şəxsi keyfiyyətlərinin yüksəldilməsindən əlavə, həm də bu dəyərləri imkan düşdükcə beynəlxalq aləmdə də təbliğ etməlidirlər. Bu iş həmin uşaqların vətənə məhəbbət tərbiyəsinin ən vacib komponentlərindən biri kimi, daima diqqət mərkəzində olmalıdır [1].

Bir çox akademik fənlər arasında "xarici dil" xüsusi yer tutur. Onun özünəməxsusluğu ondan ibarətdir ki, onun öyrənilməsi zamanı tələbələr elmin əsasları haqqında bilik əldə etmirlər, əksinə, xarici dildən ünsiyyət vasitəsi, yeni və faydalı məlumatlar əldə etmək vasitəsi kimi istifadə etmək bacarıq və bacarıqlarını formalaşdırırlar.

Xarici dilin tədrisi müəllimə vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi üçün geniş imkanlar verir. Buna mövzunun kommunikativ yönümü, onun başqa xalqın həyatını, adət-ənənələrini və dilini öyrənməyə cəlb edilməsi kömək edir. Xarici dilli ölkələrin reallıqları ilə tanış olaraq, xarici dil vasitəsilə respublikamızın dövlət rəmzlərini, tarixini, coğrafiyasını, mədəniyyətini öyrənirik.

Böyük mərhələdə tələbələr mədəniyyətlərin birbaşa dialoqunda iştirak etmək bacarığını və ehtiyacını inkişaf etdirir. Şagirdlər rayonun və şəhərin mədəni hadisələri haqqında məntiqli və tutarlı danışmaq, onları maraqlandıran problem üzərində tənqidi düşünmək, verilmiş və ya müstəqil seçilmiş mövzu üzrə hazırlanmış şifahi məruzə ilə ictimaiyyət qarşısında çıxış etmək vərdişlərinə yiyələnirlər [2].

Təhsil müəssisələrində xarici dilin tədrisinin məqsədi tələbələrin nitq fəaliyyətinin müxtəlif növlərində kommunikativ səriştənin formalaşdırılması və inkişaf etdirilməsi, o cümlədən nitq ünsiyyətinə daxili hazırlığın və bacarığın formalaşdırılması, fərqli mədəniyyətlə tanışlıq və dialoqda tirakdır.

Dərsin əsas məqsədləri:
- üfüqləri genişləndirmək,
- doğma torpağın tarixi və görməli yerləri ilə tanış olmaq,
- tələbələrin yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək,
- vətəndaşlıq və vətənə məhəbbət hissini aşılamaq.

Həmçinin xarici dil dərsi ilə bağlı vətənpərvərlik tərbiyəsinin səmərəli formaları müəyyən edilib, bunlar arasında Vətənə, öz xalqına vətənpərvərlik xidmətində dərin iz qoymuş görkəmli alim, yazıçı, ictimai xadimlərin tərcümeyi-halı, ölkənin qəhrəmanlıq keçmişi haqqında tanışlıq da var.

Beləliklə, mədəniyyətlərarası ünsiyyət bacarığına yiyələnmək nəsillərin və millətlərin, ölkələrin və icmaların əvəzolunmaz tarixi və mədəni təcrübəsini mənimsəməyə deyil, həm də bəxş etməyə, mübadilə etməyə imkan verəcəkdir. Vətənpərvər insan xarici dil bilməklə, öz ölkəsinin mədəni-tarixi irsini daşımağa qadir olmalıdır.

Həmçinin Xarici dil dərslərində "Baku is the capital of our homeland", "Symbols of the Republic of Azerbaijan", "Heroes of Azerbaijan", "Sights of Azerbaijan", "My city" və bir çox başqa mövzulara daha çox diqqət yetirilir.

Müəllimlər qrup oyunlar təşkil etməli və burada onlara "vətənpərvərlik dedikdə nə başa düşürlər?" mövzusu üzrə işləməyi verməlidir. Burada gənclər qrup şəklində tapşırığı yerinə yetirməli və onu təqdim etməlidirlər.

Dərslərdə müəllim keçmiş nəsillərin həyatından konkret nümunələrdən istifadə edərək müasir vəziyyətə oxşar müəyyən situasiyalarda hərəkətləri, onların motiv və nəticələrini təhlil edə, keçmiş, indi və gələcək hadisələr arasında səbəb əlaqəsini göstərə, ideyaları açıqlaya bilər. Canlı obrazlarda şagirdlərinə və tələbələrinə vətənpərvərlik ruhunu aşılamaq, onlarda Vətən qəhrəmanlarına rəğbət və minnətdarlıq hisslərini oyatmasına töhfə verə bilər [3].

Xarici dilin tədrisi prosesində vətənpərvərlik tərbiyəsi üçün müxtəlif materiallardan istifadə etmək məsləhətdir: Bunlar tarixi, coğrafi və sosial və s. kimi materiallardır. Burada maarifləndirici işin müxtəlif formaları məqbuldur: ekskursiya dərsləri, konfranslar, rol oyunları, breyn rinqləri, esselər, orijinal mətnləri dinləmək, xarici dildə tədris filmlərinə baxmaq və müzakirə etmək.

Bundan əlavə, şagirdlərin vətənpərvərlik tərbiyəsi üçün sinifdənkənar məşğələlər çox vacibdir. Sinifdənkənar tədbirlərin təşkili fənnə marağı qoruya və dil səriştəsini artıra bilər. Xarici dil həftəsi, müəllimlər və veteranlar üçün konsertlər, tamaşanın nümayişi, ədəbi rəsm otaqları, xarici dildən oxucu müsabiqəsi kimi tədbirlər tələbələrin böyük marağına səbəb olur [4].

Xarici dil müəlliminin məqsədi: şagirdlərə təkcə bilik vermək, bacarıqlar formalaşdırmaq deyil, həm də onlarda dünyagörüşü, vətənpərvərlik, milli qürur hissi aşılamaqdır.

Hamımız yadda saxlamalıyıq ki, düşünən, milli mənsubiyyətini dərk edən, əcdadlarının adət-ənənələrinə hörmət edən, Vətənin gələcəyi üçün öz məsuliyyətini hiss edən məzunların yetişdirilməsi müasir təhsilin qarşısında duran əsas vəzifələrdəndir. Vətənpərvər şəxsiyyətin formalaşması təhsilin bütün pillələrində və bütün akademik fənlərin öyrənilməsi ilə baş verməlidir.

"Xarici dil" fənni təhsil problemlərinin həllində böyük potensiala malikdir, çünki o, doğma ölkənin mədəniyyətini və öyrənilən dilin ölkələrini müqayisə etməklə vətənpərvər şəxsiyyətin formalaşmasına və inkişafına yönəlmişdir. Sadəcə tələbələrimizin emosional sferasına təsir edəcək bu cür tapşırıq formalarını axtarmaq lazımdır və eyni zamanda ölkəmizi sevmək lazımdır.

İstifadə edilmiş ədəbiyyat

1. Ağayev Ə.A. Məktəblilərdə vətəndaşlıq borcunun tərbiyə edilməsi. Bakı: Maarif, 1975, 70s.

2. Əliyev F.A. Müasir mərhələdə vətənpərvərlik tərbiyəsi. Metodik vəsait. ADPU nəşriyyatı. Bakı. 2015.

3. Агапова И.А., Давыдова М.И. Патриотическое воспитание в школе: учебник // М.: Эксмо, 2005
4. Воронова Е.А. Патриотическое воспитание в современной школе.

UOT 002.6:37.016

İNFORMATİKA DƏRSLƏRİNDƏ İNNOVATİV PEDAQOJİ TEXNOLOGİYALAR

Leyla Vüqar qızı İsmayılzadə
Mingəçevir Dövlət Universiteti
leyla.ismayilzada@mdu.edu.az

Giriş

Təhsilin inkişafının müasir mərhələsi üçün nəzəriyyədə və praktikada intensiv şəkildə yenilik axtarışı səciyyəvi cəhətdir. Bu proses bir sıra ziddiyyətlərlə doludur. Bunlardan ən başlıcası – ənənəvi tədris və tərbiyə metodlarının və formalarının təhsil sisteminin inkişafındakı yeni tendensiyalara, cəmiyyətin hazırkı sosial-iqtisadi inkişaf şərtlərinə uyğun gəlməməsi ilə bağlıdır. Bu şərtlər bir obyektiv innovativ proseslər yaradıb. İdraki maraq və onun nəticəsində şagirdlərdə yaranan aktivlik tədris prosesinin yaxşılaşmasının, eyni zamanda onun səmərəliliyinin və nəticəliliyinin göstəricisi kimi mühüm amilə çevrilib. Belə ki, bu amil müstəqilliyi, təhsili məzmununa yaradıcı yanaşmanı stimullaşdırır. Hazırda öz fəaliyyətini tənqidi, yaradıcı cəhətdən mənimsəməklə və elm və qabaqcıl pedaqoji təcrübəni tətbiq etməklə bu fəaliyyətin mahiyyətini modernləşdirmək qabiliyyəti olan müəllimlərə tələbat artmışdır.

Təhsilin məqsədi – tədris, tərbiyə və inkişaf prosesini intensivləşdirmə, diferiensillaşdırma, fərdiləşdirmə, habelə şagirdlərin yeni texnologiyalar üzrə təhsil tələblərini tam ödəmək yolu ilə təhsilin keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəltməkdir.

İnformatika şəxsiyyətin formalaşması və inkişafında iştirak edir. Fənnin öyrənilməsi zamanı məntiqi və alqoritmik düşüncənin inkişafına xüsusi diqqət verilir.

"İnformatika fənni digər fənlərdən onunla fərqlənir ki, onun öyrənmə predmeti sürətlə dəyişir. Hazırda dünyada milyarddan çox kompüter vardır və bu kompüterlərin əksər hissəsində aparat və proqram təminatı biri-birindən tamamilə fərqlənir. Bu isə istifadəçilərdən dərin bilik və yüksək səviyyəli praktik iş tələb edir.

Sürətlə dəyişən aparat və proqram təminatı ona uyğun mütəxəssislərin hazırlanmasında çətinlik törədir. Bu dəyişməyə uyğun olaraq tədris proqramlarını, işçi proqramları tez-tez dəyişmək lazım gəlir..." [1]

Təhsil qarşısında duran vəzifələrlə motivə edilmiş yeni informasiya mühitlərindən düşünülmüş və ardıcıl istifadə ediməsi təhsilin mahiyyətinin köklü şəkildə dəyişilməsini tələb edir. Bütöv informasiya-təhsil mühiti gələcək tələbatlara istiqamətlənmiş məzmunda daha radikal dəyişiklikləri, eyni zamanda şagirdlərin yükünü azaltmağı mamkan və zəruri edir. Bu prosesin öyrənilməsi, onun idarə edilməsi və layihələndirilməsi – irimiqyaslı vəzifələrdən biridir.

Bu cür yanaşma müxtəlif texnologiyalarla təqdim olunan müasir məktəbin ümumi inkişaf tendensiyası ilə uyğun gəlir [2].

1. Tədrisin aktiv formaları texnologiyası (qrup halında iş formaları)

Dərsdə qrup halında fəaliyyət qrupda rolları bölüşdürməyə imkan verir (bu da praktiki olaraq, hər bir şagirdə müzakirələrin gedişatında, birgə qərar qəbul ediləndə özünü uğurla göstərməyə imkan yaradır), fənn üzrə bilik səviyyəsini korrektə etdirir, müstəqil işləmək qabiliyyyəti inkişaf edir, lider-koordinatorlar ortaya çıxır. Müzakirə prosesində qrupun iştirkaçıları işin xarakteri haqqqında öz fikirlərini söyləməyə, layihə icra olunarkən qarşıya çıxan məsələlərin həll yollarını

təklif etməyə və öz qüvvəsini qiymətləndirməyə imkan qazanırlar. Bundan əlavə, qrup şəklində fəaliyyət şagirdlərin həyəcanını azaltmağa, onlara uğursuzluqdan qorxmamağa imkan və vərdiş yaradır, habelə dialoqa girmək təcrübəsi qazandırır, öz fikrini əsaslandırmağı bacarmağı aşılayır. Bu isə cəmiyyətin müasir inkişaf mərhələsində az rol oynamır.

Dərs prosesinin qrup formasında təşkilindən istifadə olunması tədrisin istənilən mərhələsində məqsədəuyğun ola bilər. İşin qrup formasınn tətbiq etməklə keçirilən açıq dərslərdə hər bir şagirdə özünü qrupda məsləhətçi rolunda sınaya bilər.

2. Dialoq texnologiyaları (tədrisin diskussiya formasında təşkili)

Ümumi təhsilin əsas məqsədlərindən biri – təhsil prosesində ünsiyyətə və əməkdaşlığa əsaslanmış, məzunların kommunikativ səriştəliliyinin formalasır, onun əsas nəticəsi isə – onlarda tolerantlığın, görülmüş işə görə məsuliyyətliliyinin, sosial və şəxsi əhəmiyyətli problemləri kollektiv həll etmək bacarığının inkişaf etdirilməsidir. Bu nəticə özünü şagirdlərin informatika üzrə konfrans və seminar, dəyirmi masa və s. kimi tədbirlərdə məruzə, referat, prezentasiya ilə çıxışlarında göstərə bilər.

3. Müxtəlif səviyyəli tədris texnologiyası

Heç kəsə sirr deyil ki, bütün şagirdləri eyni yüksək səviyyədə öyrətmək praktiki olaraq, mümkün deyil. Nəzərə almaq lazımdır ki, bu, adətən, bir çox şagirdlər üçün əlçatan deyil. Bu isə onların əksəriyyətində təhsil prosesinə ümumilikdə mənfi münasibətin yaranması deməkdir. Bu halda "köməy"ə müxtəlif səviyyəli tədris texnologiyası çatır.

Səviyyəli diferensasiya öyrədilən materialın həcminin azalması hesabına həyata keçirilmir, şagirdlərin bu həcmin mənimsənilməsinə qoyulan müxtəlif tələblərə istiqamətlənməsi ilə təmin edilir. Müxtəlif səviyyəli tədris texnologiyasının məqsədi – hər bir şagirdin tədris materialının mənimsənilməsini özünün subyektiv təcrübəsinin xüsusiyyətləri əsasında özünə ən yaxın inkişaf zonasında təmin etməsidir.

Bu böyük işin nəticəsi şagirdlərin müxtəlif tematika və mürəkkəblik səviyyəli yaradıcılıq layihələri ola bilər.

4. İnformasiya-kommunikasiya texnologiyaları

Məktəb fənlərinin inteqrasiyaından istifadə etməklə, məktəblilər məmnuniyyətlə yalnız informatikanın müxtəlif bölmələri üzrə deyil, həm də digər fənlər üzrə testlər tərtib edirlər (bununla həmin fənn müəllimlərinə kömək etmiş olurlar). Test tərtib edərkən məktəblilər yalnız informatika üzrə əsas bilik və bacarıqlara yiyələnmiş olmalı deyillər, həm də testi yerinə yetirərkən ən çox ehtimal olnan buraxıla biləcək səhvləri də nəzərə almalıdırlar. Onlar həm çinin Microsoft Excel elektron cədvəlləri ilə işləməyi bacarmalıdırlar. İbtidai, orta və yuxarı sinif şagirdləri üçün çoxlu sayda müxtəlif testlər tərtib etmək olar, bu, həm də tədrisi daha maraqlı, cəlbedici və məzmunlu edərdi.

"Power Point proqramında təqdimatların yaradılması" mövzusunu öyrəndikdən sonra fənlər məktəbdə tədris olunan fənlər üzrə böyük təqdimatlar bazası yaratmaq olardı.

Ev tapşırıqlarını hazırlayarkən İnternetdən istifadənin də rolunu qeyd etməliyik.

5. Sağlamlığı qoruyan texnologiyalar

Sağlamlığı qoruyan tədris texnologiyaları bugünkü şagirdlərin sağlamlığını qoruyub saxlamaq və möhkəmlətmək vəzifələrini yerinə yetirir, bu da gələcəkdə onlara öz övladlarını sağlam böyütməyə və tərbiyə etməyə imkan verəcək.

Sağlamlığı qoruyan tədris texnologiyalarını həm məktəblilərin tədrisini onların sağlamlığına zərər vurmadan təşkil edilməsi üsulları, formaları və metodlarının məcnusu kimi, həm də istənilən pedaqoji texnologiyanın, onun şagird və müəllimlərin sağlamlığına təsiri kriteriyasına görə keyfiyyət xarakteristikası kimi nəzərdən keçirmək olar.

Dərslərdə, o cümlədən informatika dərslərində sağlamlığı qorumanın əsas məqsədləri aşağıdakılardır: şagirdlərin vəziyyətinin fərd göstəricilərini nəzərə alan təşkilati-pedaqoji, maddi-texniki, sanitar-gigiyenik və s. sağlamlığı qoruyan şəraitin yaradılması.

Bu texnologiyaların tətbiqi şagirdlərin sağlamlığını, xüsusilə kompüterdə işləyərkən, qorumağa imkan verər – gözlər üçün gimnastikanın tətbiqi, müxtəlif bədən tərbiyəsi dəqiqələri. Bu texnologiyanı icra etmək üçün "Məktəbli və kompüter", "İnternetin zərərləri", "Görmə və kompüter" və s. kimi layihələr həyata keçirmək olar.

6. Oyun texnologiyaları

Oyun texnologiyaları şagirdlərin fəaliyyətinin aktivləşdirilməsi və intensivləşdirilməsinə əsaslanan pedaqoji texnologiyalara aiddir. Oyun – ictimai təcrübənin formalaşması və mənimsənilməsinə yönəlmiş situasiyalar şəraitində fəaliyyət növüdür. Bu cür situasiyalarda davranışını şagirdin özü tərəfindən idarə edilməsi formalaşır və təkmilləşir. Oyun texnologiyalarından istifadə edilməsi tədris prosesinin özündə şagirdlərin şüurlu və aktiv iştirakının əldə edilməsi üsullarından biridir.

Adətən, bu cür oyunları günlük, həftəlik, aylıq, rüblük və ya illik dövrü imitasiya edən dövrlər (tsikllər) üzrə keçirmək daha məqsədəuyğundur. Təcrübə adi şəraitdə həftə və ya ay ərzində toplanır.

Sadə oyun kimi "İqtisadiyyatın və menecmentin modelləşdirilməsi" və "Bankların fəaliyyəti" kimi oyunları misal göstərmək olar. Belə oyunlar "şirkət"lər kimi təşkilatlanmış şagirdlər arasında yarışlar keçirməyə imkan verir. İştirakçılar öz müəssisəsinin (bankının) gəlirliliyi və bazarda iştirak payı üzrə öz "rəqib"lərini ötüb keçməlidirlər. Yarışların gedişatında oyunlar maliyyə hesabatlarını oxumaq və anlamaq bacarıqları əldə etmək sahəsində təcrübə qazanmaq imkanı verir, istehsalat, marketinq və maliyyə işi əsasları üzərində düşünmüyə, onları iqtisadi prinsiplərlə müqayisə etməyə vadar edir.

7. Tədris layihələri

İnformatika üzrə işin formalarından biri kimi tətbiq edilir. Uşaqlar öz fəaliyyətlərinin nəticələrini yekun konfransda nümayiş etdirirlər. Elə buradaca onlar hesablama texnikasından istifadə etməklə layihə üzərində öz ilkin iş sxemlərini formalaşdırırlar.

Yuxarı siniflərdə layihə informatika dərslərində əsas tədris fəaliyyəti kimi gedə bilər. Layihə "Modelləşdirmə" və "Alqoritmləşdirmənin əsasları və proqramlaşdırma" bölmələrinin öyrənilməsi ilə birgə aparıla bilər.

Tədris-tədqiqat layihələrinin yerinə yetirilməsi zamanı aşağıdakı amillər hesabına şagirdlərdə daha yüksək keyfiyyətli biliklərin əldə olunması təmin edilir:

- işin dəqiq planlaşdırılması;
- fənnin məzmununun öyrənilməsi zamanı motivasiyanın artırılması, belə ki, qazanılan vərdişlər dərhal əvvəlcədən uşağın müstəqil olaraq seçdiyi konkret işdə tətbiq edilir;
- yuxarıda sadalanan bacarıqların və iş üslublarının formalaşmasına spiralvari yanaşma. [2]

Nəticə

Beləliklə, müxtəlif tədris texnologiylardan istifadə edilməsi nəticəsində hər bir şagird özünü dərsdə rahat hiss edir. Uşaqların bəziləri baza səviyyəsini mənimsəməyə, bəziləri proqram səviyyəsini, bəziləri isə proqramda nəzərdə tutulduğundan daha çox öyrənməyə can atırlar. Başlıcası isə odur ki, şagirdlər öz real qüvvələrini və potensial imkanlarını özləri qiymətləndirirlər.

Hər bir müəllim qarşısına qaçılmaz problemlər çıxır:

- öyrətmə prosesində hər bir şagirdin uğur əldə etməsini necə təmin etməli?
- hansı yolla biliklər toplusunun mexaniki olaraq mənimsənilməsini deyil, dərslərin gedişatında bir şagirdin özünün, məxsusi praktiki təcrübə əldə etməsini təmin etməli?

Heç də asan olmayan bu suallara cavab belə olar bilər ki, müxtəlif tədris metodlarını tətbiq etmək prinsipindən isifadə etmək, deməli, yeni materialı öyrədərkən hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə almaq və ona aydın və əlçatan olan mənimsəmə səviyyəsini seçmək lazımdır.

Bütün bunlar isə bir daha onu deməyə əsas verir ki, "yüksək səviyyəli yeni informasiya texnologiyaları mütəxəssisləri (müəllimləri – *L.İ.*) hazırlamaq problemi aktual olaraq qalır." [1]

İstifadə edilmiş ədəbiyyat

1. Xəlilov, M.S. İnformatika. / M.S.Xəlilov., N.Ə.Həsənova – Bakı: Bakı Universiteti Nəşriyyatı, – 2014. – 404 s.
2. Кузьмич, Ю.А. Современные педагогические технологии на уроках информатики и ИКТ [Электронный ресурс] / 30.09.2015
URL: https://infourok.ru/sovremennie-pedagogicheskie-tehnologii-na-urokah-informatiki-i-ikt-448059.html

UOT 371; 94(479.24)

AZƏRBAYCAN TƏHSİLİ HEYDƏR ƏLİYEV İDEYALARI İŞIĞINDA

Mirzə Cavad oğlu Cavadov
Mingəçevir Dövlət Universiteti
mirza.cavadov@mdu.edu.az

Azərbaycan xalqının ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ulu öndər Heydər Əliyevin çoxşaxəli uğurlu fəaliyyətində təhsil məsələləri həmişə prioritet təşkil edirdi. Çünki o yaxşı başa düşürdü ki, təhsili inkişaf etdirmədən bütün sahələrdə ölkənin inkişafı və tərəqqisinə nail olmaq mümkün deyildir. Məhz buna görədir ki, onun respublikamıza həm birinci və həm də ikinci rəhbərliyi dönəmlərində ən çox önəm verdiyi sahə təhsil olmuşdur.

Ulu Öndər 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər təyin olunanadək digər sahələr kimi Azərbaycan təhsili də dərin böhran keçirirdi: məktəblərin maddi-texniki bazası köhnəlmiş, onların müasir avadanlıqlarla təchizi işi bərbad vəziyyətə düşmüşdü. Məktəb tikintisi ləng gedirdi. Ali məktəblərdə bu və ya digər çatışmazlıqlarla yanaşı, neqativ hallar da mövcud idi. Sonralar Ümummilli Lider həmin vəziyyəti xatırlayaraq yazırdı: "Mən 1969-cu ilin iyulun14-də Azərbaycana rəhbər seçiləndən sonra dərhal, birinci növbədə təhsil məsələləri ilə məşğul olmağa başladım.

Bilirsiniz ki, mən o vaxta qədər də dövlət işində işləmişdim. Azərbaycanda təhsilin, xüsusilə ali təhsilin vəziyyəti məni daim maraqlandırmışdı və mən bu barədə xeyli məlumata malik idim. Ona görə də bizim təhsilin nailiyyətlərini də, qüsurlarını da bilirdim. Şübhəsiz ki, respublikanın başçısı kimi məsuliyyətimi də dərk edirdim. Ona görə də mən birinci növbədə təhsil məsələlərinə ciddi fikir verirdim. Araşdırmlar apararkən mənə aydın oldu ki, Azərbaycandan kənarda, respublikanın özündə hazırlana bilməyən ixtisaslar üzrə ali təhsil almaq üçün respublikaya 50 nəfərlik limit verilibdir. Mən dərhal maraqlandım ki, bəs siz bu limitə kimləri seçmisiniz? Siyahını aldım, çox təəssüfləndim. Siyahıya baxanda gördüm ki, təyin olunmuş namizədlərin içərisində azərbaycanlılar azlıq təşkil edirlər, çoxluğu isə başqa millətlərdən olan gənclər təşkil edir. Həmin il, 1969-cu il avqustun sonunda mən ilk dəfə sayı 50 nəfərdən az olan gənclərlə o vaxt işlədiyim iş yerindəki kiçik bir salonda görüşdüm, danışdım, onlara öz tövsiyələrimi verdim. Ancaq bu, mənim üçün də böyük bir siqnal oldu ki, bu işlə məşğul olmaq, həm də çox ciddi məşğul olmaq lazımdır... bu iş, bu təşəbbüs yalnız və yalnız ondan irəli gəlirdi ki, mən istəyirdim bizim özümüzün, ölkəmizin, respublikamızın ali təhsil ocaqlarının, eyni zamanda o vaxt yaşadığımız ölkənin mərkəzi və daha yüksək səviyyəli ali məktəblərinin imkanlarından səmərəli istifadə edərək Azərbaycanın gələcəyi üçün lazım olan kadrlar hazırlayaq... 1969-cu ildə biz respublikadan kənara oxumağa heç 50 nəfər də göndərə bilmədik, 1970-ci ildə 60 nəfər göndərdik. Ondan sonra bu rəqəmi ilbəil artırdıq. Nəhayət, biz 1975-ci ildə gərək ki, 600 nəfər 1977-1978-ci illərdə hər il 800-900 nəfər gənci respublikadan kənar ali məktəblərə göndərirdim."

1969-1982-ci illərdə 15 mindən çox azərbaycanlı tələbə keçmiş SSRİ-nin qabaqcıl ali məktəblərində təhsil almağa göndərilmişdi. Onlar Sovetlər İttifaqının 50-dən artıq iri şəhərinin 170 nüfuzlu ali məktəblərində 80-dək sahəni əhatə edən 150 ixtisasa yiyələnmişdilər.

1970-1980-ci illərdə Azərbaycanda 300 mindən çox şagird yeri olan 849 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmişdir. 1972-ci ildə "Gənclərin orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə artmışdır. Bu da yüzlərlə ucqar yaşayış məskənlərində orta ümumtəhsil məktəblərin açılması və onlara minlərlə azərbaycanlı uşaqların cəlb edilməsi demək idi.

Ümummilli Lider ali məktəblər şəbəkəsinin genişləndirilməsinə də xüsusi yer verirdi. Onun Azərbaycana rəhbərliyinin I dönəmində ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və orada təhsil alanların sayı 70 mindən 100 minə çatdırılmışdır.

Göründüyü kimi, hələ o zaman Ulu ÖNDƏR Heydər Əliyev dahi bir şəxsiyyət kimi daim gələcəyə, irəliyə, sabaha baxır, bütün işlərini Azərbaycanın gələcək müstəqilliyinin təmin edilməsi idealın gərçəkləşdirilməsinə yönəldirdi.

Bu siyasət müstəqillik illərində də uğurla həyata keçirilirdi. Lakin əfsuslar olsun ki, dövlət müstəqilliyimizin bərpasının ilk illəri xalqımız üçün faciəli və çətin keçdi. Respublikamızı ictimai-siyasi böhran bürümüşdü. Vətən torpaqları ermənilər tərəfindən işğal edilirdi. Məmləkətimiz vətəndaş müharibəsi, parçalanma və məhvolma təhlükəsi qarşısında idi. Azərbaycan öz tarixinin ən ağır və faciəli anlarını yaşayırdı.

Ölkəni bürümüş dərin böhran təhsilimizdən də yan keçmədi. Məktəb tikintisi tamamilə dayandı. Peşə-ixtisas müəssisələrinə maraq azaldı. Ali məktəblərin vəziyyəti bərbad hala düşdü, onlara qəbul 2 dəfədən çox azaldı, dərsliklərin şagirdlərə pulsuz verilməsi dayandırıldı. Təhsilin maliyyələşdirilməsi minimuma endirildi. Müəllimə diqqət və qayğı heçə endi, təhsil sistemindən kadr axını başlandı.

Dövlət və cəmiyyət həyatının bütün sahələrində olduğu kimi təhsilimizi də bu xaotik vəziyyətdən Ulu Öndər Heydər Əliyev çıxara bilərdi. Onun 15 iyun 1993-cü ildə xalqımızın təkidli tələbi ilə 2-ci dəfə siyasi hakimiyyətə qayıdışı bütün sahələrdəki dözülməz vəziyyətə son qoydu. Onun müəllifi olduğu müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında təhsilin dövlətin strateji sahəsi olması təsbit edildi. Pulsuz icbari ümumi orta təhsilə dövlət təminatı verildi. Ölkədə əsaslı təhsil islahatlarına başlamaq üçün hüquqi-normativ baza yaradıldı.

15 iyun 1999-cu ildə xalqımızın Milli Qurtuluş Günüdə "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" hazırlanıb təsdiq olundu və uğurla həyata keçirilməyə başlandı. Qısa zaman kəsiyində təhsilimiz dünya təhsil sisteminə sürətlə inteqrasiya olunmağa başladı. Yeni məktəblər tikildi və məktəblərdə təmir işlərinə başlandı. Məktəblərin maddi-texniki bazası möhkəmləndirilməyə başlandı və onların İKT ilə təchizatı xeyli yaxşılaşdırıldı. Təhsillə və təhsil işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı çoxsaylı sərəncamlar imzalandı. Bunların içərisində 2000-ci il 13 iyun tarixli "Azərbaycan Respublikasında Təhsil sisteminin təkmiləşdirilməsi haqqında" imzalanmış sərəncam xüsusi əhəmiyyət kəsb edirdi. Bu sərəncamla bəzi təhsil müəssisələri Təhsil Nazirliyinin tabeliyinə verildi. Yeni ali məktəblər (Rəssamlıq Akademiyası, Milli Konservatoriya) və onların nəzdində kolleclər yaradıldı, 7 institut universitetə çevrildi. Azərbaycan Müəllimlər İnstitutu və onun filialları təsis edildi və s.

Təhsil quruculuğu sahəsində aparılan işlər Ulu Öndərin vəfatından sonra onun layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Təkcə bir faktı xüsusi qeyd etmək lazımdır ki, 2003-cü ildən sonra təhsillə bağlı 20-dən çox dövlət proqramı qəbul edilmişdir. Ölkədə 3200-dən çox müasir tələblərə cavab verən yeni məktəblər tikilmiş, təhsilə ayrılan vəsait xeyli artırılmışdır. Respublikamızda ali məktəblərin şəbəkəsi xeyli genişləndirilmiş, maddi texniki bazaları gücləndirilmiş, 2005-ci ildə Azərbaycan dünya təhsil məkanına – boloniya

prosesinə qoşulduqdan sonra publik-hüquqi şəxs qismində onların beynəlxalq əlaqələri və əməkdaşlığı inkişaf etdirilmiş və etdirilməkdədir. Bu baxımdan möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 24 iyul 2015-ci il tarixli sərəncamı ilə yaradılmış və mənim də çalışdığım Mingəçevir Dövlət Universitetini (MDU) nümunə kimi göstərmək olar.

Hazırda sürətlə modernləşən və yeni dövrün universitetinə çevrilməyi hədəfləyən MDU-də akademik-inzibati heyətin və tələbələrin bilik və bacarıqlarının artırılması, innovativ tədris texnologiyalarının və müasir tədqiqat metodlarının tətbiqi, startap fəaliyyətinin genişləndirilməsi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə, MDU-da beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinə (artıq universitetin Türkiyə, Ukrayna, Çin, Qazaxıstan, İspaniya, Litva, Qırğızıstan və b. ölkələrin bir qrup qabaqcıl universitetləri ilə əlaqələri qurulmuşdur), qabaqcıl xarici universitetlərin təcrübəsinin öyrənilməsinə və Avropa İttifaqının Erasmus+ proqramı çərçivəsində təqdim edilən imkanlardan faydalanmağa xüsusi önəm verilir. Universitet üçün yeni və müasir kampusun inşasına yaxın vaxtlarda başlanılacaqdır.

Ümummmilli Liderin təhsili quruculuğu siyasəti onun möhtəşəm adını daşıyan Heydər Əliyev fondu tərəfindən də uğurla davam etdirilməkdədir. Fondun Prezidenti, ölkəmizin 1-ci vitseprezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə son illərdə fondun vəsaiti hesabına 300-dən çox yeni məktəb, uşaq bağçası, uşaq evləri, internat məktəbləri tikilib istifadəyə verilmiş, əsaslı təmir və bərpa olunaraq müasir avandıqlarla təchiz edilmişdir. Fondun həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi, Uşaq evləri və internat məktəblərinin inkişaf proqramı "Təhsilə dəstək" layihəsi təhsil sahəsində mövcud problemlərin həllində böyük rol oynayır.

Sevindirici haldır ki, bu günlər işğaldan azad edilmiş ərazilərimizdə də təhsil infrastrukturları yaradılmaqdadır.

Bütövlükdə Ulu öndər Heydər Əliyevin düşünülmüş elm və təhsil siyasətinin bəhrələri Azərbaycanın hərtərəfli tərəqqisinə və yüksəlişinə səbəb olmuşdur.

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamında qeyd olunduğu kimi, "Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində Şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir".

İstifadə edilmiş ədəbiyyat

1. Heydər Əliyev Müstəqilliyimiz əbədidir. 42 cildə, Bakı, 1997- 2012.
2. Heydər Əliyev Yeni 2001-ci il: yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciət Bakı 2001.
3. İlham Əliyev inkişaf məqsədimizdir, Bakı, 2001.
4. İlham Əliyev Azərbaycan Respublikasında 2023- cü ilin Heydər Əliyev ili elan edilməsi haqqında sərəncam . Bakı, 2022-ci il.
5. İradə hüseynova, Müstəqilliyimizin təminatçısı, Bakı, 2003.
6. Əsrlərə bərabər illər 1969-1999. Faktlar və rəqəmlər. Bakı, 1999.
7. Azərbaycan tarixi 7-ci illdə, VII-ci ildə, Bakı, 2007.
8. Zəfər tarixi –Bakı, 2021.
9. Azərbaycan Milli ensiklapediyası, Bakı, 2007.
10. "Azərbaycan" qəzeti, 1 sentyabr 1998.
11. "Azərbaycan" qəzeti, 31 yanvar 2008.

UOT 7203.01

AZƏRBAYCANDA MULTİKULTURALİZM: MİQRANTLAR ÜÇÜN YARADILMIŞ ŞƏRAİT

Şəlalə Rza qızı Quliyeva
Mingəçevir Dövlət Universiteti
Gəncə Dövlət Universitetinin dissertantı
shalala.quliyeva@mdu.edu.az

Multikulturalizmin əsasını dinindən, irqindən, milliyətindən asılı olmayaraq bütün insanların ölkə ərazisində bərabərhüquqlu yaşamaq prinsipi təşkil edir. Müasir dünyada bir çox ölkələrin əhalisinin tərkibi multietnik olduğunu nəzərə alsaq, dövlətlərin etnik tənzimləmə siyasəti milli təhlükəsizlik siyasətinin tərkib hissəsi kimi nəzərdən keçirə bilərik. Multikulturalizm bu günə qədər sınanmış etnik tənzimləmə siyasətlərinin ən uğurlusu hesab olunur. Multikulturalizm dövlət siyasəti kimi yerli azsaylı xalqların, dini icmaların hüquqlarının tənzimlənməsi ilə yanaşı miqrantların hüquqi statuslarını müəyyənləşdirilməsinə də təsir göstərir.

Bu gün qloballaşan dünyada miqrasiya və miqrantların hüquqlarının qorunması aktual problemlərdən biridir. Təəssüf hissi ilə qeyd edə bilərik ki, müasir dövrdə bir çox ölkələrdə miqrantlar millətçilik, şovinizm, iqtisadi mühafizəkarlıq ideyaları ilə üzləçməli olurlar. Qürur hissi ilə deyə bilərik ki, Azərbaycan qədim dövrlərdən etibarən münbit torpağı, əlverişli iqlimi ilə xalqların yaşamaq üçün üz tutduğu məkanlardan olmuşdur.

Azərbaycanın multikulturalizm siyasəti qədim tarixi köklərə malikdir. Bu gün də ölkəmizdə yaşayan etnik və dini müxtəlifliklərin, eləcə də miqrantların hüquqları multikulturalizm siyasəti ilə tənzimlənir. Müasir Azərbaycan Respublikasının multikulturalizm siyasətinin hüququ əsasını isə ilk öncə Azərbaycan Respublikasının Konstitusiyası təşkil edir. Konstitusiyanın 25-ci maddəsinin 3-cü bəndində qeyd olunur ki, insan və vətəndaş hüquq və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır. Konstitusiyanın 44-cü maddəsində isə azsaylı xalqların milli mənsubiyyətlərinin qorunması hüququ təsbit olunub. Ölkəmizdə yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin hüquqları isə Konstitusiyanın 69-cu maddəsi ilə qorunur. Maddədə qeyd olunur ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının vətənaşları ilə bərabər hüquqlardan istifadə edə bilərlər [1].

Azərbaycanın miqrasiya siyasəti dövlətin milli təhlükəsizlik və maraqlarını qorumaqla yanaşı miqrantlarının da öz hüquqlarını həyata keçirmək üçün şəraitin yaradılmasından ibarətdir. Miqrasiya siyasəti Dövlət Miqrasiya Xidməti tərəfindən icra olunur. "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə"də qurumun əsas vəzifələri kimi aşağıdakılar qeyd olunub:

1. Miqrantların sosial müdafiəsi üçün zəruri şərait yaratmaq;
2. Onların yerli şəraitə uyğunlaşdırılması üçün tədbirlər görmək və həmin tədbirləri əlaqələndirmək;
3. Miqrantların hüquqlarını müdafiə etmək.

Miqrantaların hüquqlarının qorunması ilə bağlı tədbirlər yalnız yuxarıda adı çəkilən qurum tərəfindən deyil, eyni zamanda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyəti orqanları tərəfindən də icra olunur.

Miqrantların yaşadıqları ölkənin şəraitinə uyğunlaşması, cəmiyyətə inteqrasiyası miqrasiya siyasətinin mühüm tərkib hissəsidir. Dövlət Miqrasiya Xidməti bu məqsədlə Təlim-Tədris Mərkəzi yaratmışdır. Mərkəzin fəaliyyət istiqamətini miqrantlara Azərbaycan dilini, tarixini, mədəniyyətini, özlərinin hüquq və vəzifələri ilə bağlı qanunvericiliyi öyrənməkdən ibarətdir. Bununla yanaşı ölkə qanunvericiliyi miqrantlarla yanaşı qaçqınlara da yerli şəraitə uyğunlaşmaq, dövlət dilini, hüquq və

vəzifələrini öyrənmək imkanı tanıyır. Bu imkanı "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" 1999-cu il 21 may tarixli Azərbaycan Respublikası Qanununun 7-ci maddəsi tanıyır. Qanunda qa qaçqın statusu almış şəxslərə verilən təminatlar sadalanmışdır:

- qaçqınların haqq ödəmədən müvəqqəti yaşayış yerinə getmək və əmlakını aparmaq;
- müvəqqəti yaşayış yerində və xəstəxanalarda qocaların, uşaqların, əlillərin, aztəminatlı və ailə başçısını itirmiş şəxslərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada lazımi dərman və tibb yardımı almaq;
- uşaqların məktəbəqədər tərbiyə ocaqlarında, yeniyetmələrin və gənclərin müvafiq təhsil müəssisələrində təhsil almaq;
- yaşayış məntəqələrində daimi yaşayan vətəndaşlarla eyni əsaslar üzrə ərzaq və sənaye malları almaq;
- dövlətin təyin etdiyi birdəfəlik və digər yardım almaq;
- tək pensiyaçıların və əmək qabiliyyəti olmayan əlillərin xüsusi sosial təminat müəssisələrində ilk növbədə yerləşdirilməsi;
- qanunla müəyyənləşdirilmiş müddətdə qaçqın statusunu almaq;
- dəymiş maddi və digər ziyanın ödənilməsi məsələsini qaldırmaq, pozulmuş hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək;
- əvvəlki yaşayış yerlərinə qayıtmaq [4].

Multikulturalizmin dövlət siaysəti kimi əsas prinsiplərindən biri etnik birliklərin ana dilindən istifadə hüququnu tanımaqdır. Bu hüquq Azərbaycan Respublikasının Konstitusiyasının 45-ci maddəsində öz əksini tapmışdır. "Ana dilindən istifadə hüququ" azsaylı xalqlara və miqrantlara öz ana dilini qoruyub saxlamaq imkanı tanımaqla yanaşı, təhsildə, tədrisdə, media vasitələrində də ana dilindən istifadə hüququnu tanıyır [1]. Azsaylı xalqların, eləcə də qaçqın və əcnəbilərin ana dilindən istifadə hüququ yerli qanunvericiliklə yanaşı dövlətimizin qoşulduğu beynəlxalq hüquqi sənədlərlə möhkəmlənmişdir. 2001-ci ildə Azərbaycan Respublikası Avropa Şurası çərçivəsində imzaladığı "Regional və ya azlıq dilləri haqqında Avropa Xartiyası"nı bu qəbildən olan beynəlxalq hüquqi sənədlərdən biridir.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin təhsil almaq hüququ miqrantların ən çox üzləşdiyi probləmlərdən biridir. Ölkəmizdə isə miqrantların təhsil hüququ "Təhsil haqqında" Azərbaycan Respublikasın Qanunun 44-cü maddəsində əksini tapıb. Qanunda göstərilib ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təhsilin hər hansı pillsəində təhsil almaq imkanı var [2].

Miqrantların aktual problemlərindən biri yaşadıqları ölkədə əmək şəraitinin uyğun olmasıdır. Bu gün demokratik bir çox qərb ölkələrində belə miqrantlar əmək bazarında irqçiliklə qarşılaşırlar. Ümumilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin uğurlu iqtisadi siyasəti nəticəsində ölkəmiz əməkçi miqrantların üz tutduğu ölkələrdən biridir. Buna səbəb yalnız ölkəmizin sürətli iqtisadi inkişafı deyil, eyni zamanda əməkçi miqrantların hüquqlarının yüksək səviyyədə qorunmasıdır. Azərbaycan Respublikasının Konstitusiyası, Əmək Məcəlləsi və bir çox digər qanun və qərarlarda, qoşulduğumuz beynəlxalq hüquqi sənədlərdə əmək münasibətlərində milliyəti, dini, dili, irqi kimliyinə görə ayrı-seçkiliyin yolverilməz olduğu təsbit olunmuşdur.

Azərbaycan Respublikasının milli qanunvericiliyində bu sahədə nəzərdə tutulmuş müddəalar Prezident cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin uğurlarının, diqqət və qayğısının təzahürü və Azərbaycanda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sərbəst hərəkət etmək və yaşayış yeri seçmək, təhsil almaq, əmək fəaliyyəti ilə məşğul olmaq, səhmdar və sahibkar kimi fəaliyyət göstərmək, şəxsi toxunulmazlıq, mənzil toxunulmazlığı, istirahət etməsi, sağlamlığın qorunması kimi hüquq və azadlıqlarının, qaçqın və sığınacaq axtaran şəxslərin inteqrasiyasının tam təmin olunmasının bariz nümunəsidir. Həmçinin, ölkəmizdə tolerantlığın yüksək səviyyədə olması miqrasiya proseslərinə təsir edən əsas amillərdəndir. Bununla əlaqədar olaraq vurğulanmalıdır ki, bu günə qədər Azərbaycanda miqrantlara münasibətdə milli, etnik və dini zəmində hüquq pozuntusu qeydə alınmamışdır [3].

Multikultural dəyərlərə sadiq qalan dövlətimiz mədəniyyətlər və sivilizasiyalararası dialoqun inkişafına, mədəni plüralizmin qorunub saxlanmasına və sivilizasiyalar arasında qarşılıqlı münasibətlərin tənzimlənməsinə hər zaman öz töhfələrini verməkdədir. Bu gün dünyada qaçqın və məcburi köçkün problemi çox kritik bir həddə çatıb. Əlbəttə, bu cür həssas qrupa daxil olan miqrantların ağır vəziyyəti və ehtiyaclarına laqeyid yanaşılmamalı, bu hallar heç cür diqqətdən kənarda qalmamalıdır. Buna görə də, beynəlxalq ictimaiyyətin bu problemin həllinə münasibətdə ümumi və vahid yanaşmadan çıxış etməsi mütləqdir. Kütləvi qaçqın axını ilə üzləşmiş ölkələr dəstəklənməli, yalnız sözdə deyil, əməldə də onlara hərtərəfli yardımlar göstərilməlidir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası - Bakı: Qanun, 1997. -55 s.
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Əhalinin milli tərkibinə görə siyahıyaalınması.
https://www.stat.gov.az/source/demoqraphy/
3. Fətəli Abdullayev. Şərqdə və qərbdə miqrasiya siyasəti: mövcud modellərin müqayisəsi
https://www.elibrary.az/docs/JURNAL/jrn2017_39.pdf
4. Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında Azərbaycan Respublikasının Qanunu
https://www.migration.gov.az/az/documents/11?page=1

UOT 81:37.016

DİL VƏ NİTQ FONETİK VƏ LEKSİK-SEMANTİK BACARIQLARIN TƏZAHÜRÜ KİMİ

Sevil Mirhəsən qızı İsayeva
Mingəçevir Dövlət Universiteti
sevil.hasanova@mdu.edu.az

XXI əsrdə bütün qabaqcıl ölkələr öz milli inkişafının təminatını bilavasitə təhsillə bağlayırlar. Təcrübə və araşdırmalar göstərir ki, cəmiyyətin siyasi-iqtisadi inkişafında təhsilin rolu böyükdür.

Şəxsiyyətin çox müxtəlif keyfiyyətləri – əxlaqi, sehni, fiziki, ideya-siyasi, estetik və digər keyfiyyətləri vəhdətdə formalaşaraq inkişafa goğru istiqanətlənir. Məlumdur ki, bu keyfiyyətlərin biri digərini şərtləndirir, biliklər inteqrasiyanın köməyi ilə iyerarxik şəkildə tamamlanır. Bununla da şəxsiyyətin bütövlüyü – ahəndar inkişafı təmin olunur.

Əgər pedaqoji prosesin müxtəlif sahələri bir-birindən ayrılıqda, əlaqəsiz həyata keçirilərsə, pedaqoji prosesin tamlığı pozular, bu da şəxsiyyətin inkişafına mənfi təsir göstərər. Göründüyü kimi, pedaqoji prosesin müxtəlif sahələri ümumi tərbiyə məqsədinin həyata keçirilməsində iştirak edir [1, s.11].

Dilçi alimlər şagirdlərin əqli inkişafında, nitqinin, əxlaqi keyfiyyətlərinin yaxşılaşdırılmasında ana dili təlimini əsas faktor, əsas amil kimi qiymətləndirmişlər. Məlumdur ki, dil cəmiyyətlə bağlı olduğu üçün ictimai hadisədir və ünsiyyət vasitəsi kimi daim xalqin xidmətindədir. Məhz dil vasitəsi ilə insanların hər cür fəaliyyəti mümkün olur. Dili əmələ gətirmək üçün dil faktlarının müəyyən sistem üzrə tam halda birləşməsi tələb olunur [2, s.6].

Hər bir xalqın özünəməxsus dili olduğu kimi, hər insanın da özünəməxsus dil bacarığı, dil qabiliyyəti vardır. Bu dil bacarığını, dil qabiliyyətini onlara öyrədən məhz ailədə valideynlər, məktəbəqədər təhsil müəssisələrində tərbiyəçilər, məktəbdə müəllimlər, sosial mühitdə ətrafındakı insanlardır. Müəllimin nitqi mütləq şəkildə ləhcə və şivələrdən fərqli olan ədəbi dilə yiyələnmək

üçün şagirdlərə, tələbələrə nümunə olmalıdır. Belə ki, ədəbi dil ümumxalq dilinin yüksək formasıdır. Dilimiz dövlət sənədlərində, elm və sənət əsərlərində əsrin yüksək düşüncələrini təmsil edərək formalaşır, bədii əsərlərdə təkmilləşir, orta və ali məktəblərdə tədris edilir, cilalanır.

Müasir təlimdə dil üzrə nitq bacarıqlarının formalaşdırılması və inkişafının mətn üzrə iş əsasında qurulduğunu nəzərə alaraq nitq situasiyalarında öyrənənlərə həm dil qaydalarına keçidi təmin etmək, həm də bu qaydalarını real nitqə tətbiq etmək bacarığını aşılamaq tövsiyə olunur. Gələcəkdə səriştəyə çevriləcək bu cür bacarıq və vərdişləri müxtəlif təmrinlərlə möhkəmləndirmək mümkündür.

Dil qrammatik sistem və lüğət tərkibindən, yəni dil vahidlərindən, nitq həmin vahidlərdən ünsiyyət məqsədilə istifadədir. Nitq fərdi danışıq və eşitmə faktorlarından ibarətdir. Dil və nitq fərqli kateqoriyalar olsa da, bu iki anlayış bir-birinə bağlıdır, bir-biri ilə dialektik vəhdətdədir. Dilin funksiyaları (məlumatvermə, ünsiyyət, təsirgöstərmə) nitqin də funksiyalarıdır. Dil nitqin hesabına, nitq də dilin hesabına zənginləşir. Dil nitqdə fəaliyyət göstərir, yəni dil vahidləri (mürəkkəb sözlər, söz birləşmələri, cümlələr) nitq prosesində yaranır. Nitq ünsiyyət prosesi olduğundan nitq və dil arasındakı qarşılıqlı əlaqələr bu prosesdə baş verir. Nitq üslubları dil üslublarına əsaslanır. Hər kəsin cəmiyyətdə, insanlar arasında, yığıncaqlarda, müxtəlif məclislərdə, ailədə müəyyən ölçülərə sığan, ümumi davranış normalarına tabe olan hərəkət mədəniyyəti də onun dil və nitqdən düzgün istifadə etməklə fonetik, leksik-semantik və qrammatik bacarıqları özündə təzahür etdirməsi ilə səciyyələnir.

Hər hansı dilin fonetik, leksik (yaxud leksik-semantik), qrammatik, eləcə də orfoqrafik və orfoepik qayda-qanunları vardır. Onları öyrənmədən, bilmədən nitq mədəniyyətinə yiyələnmək mümkün deyildir. Məhz bu səbəbdən leksika haqqında ilk anlayışın yaradılmasına fonetika bəhsinə aid verilmiş biliklərə nəzər salmaq, təkrar etməklə başlamaq mümkündür. Belə ki, fonetikanın tədqiq etdiyi danışıq səsləri mühüm ünsiyyət vasitəsi olan dilin varlığı üçün əsasdır. Müəllim xatırlatmalıdır ki, biz öz fikrimizi müəyyən cümlələrlə ifadə edirik. Həmin cümlələr sözlərdən düzəldiyi kimi, ayrı-ayrı sözlər də danışıq səslərindən düzəldilir. Leksikologiyada öyrənilən söz dilin qanunları əsasında əmələ gələn, səs kompleksi və müəyyən mana daşıyan dil vahididir. Mövzu üzrə tətbiq xarakterli çalışmalar aparılarkən aşağıdakı nümunələrdən istifadə etmək məqsədəuyğundur:

Sözün də su kimi lətafəti var,
Hər sözü az demək daha xoş olar. (N.Gəncəvi)

Söz dünyanın naxşıdır.
Söz var xəstəni sağaldar, söz var adamı yaralar.
Söz qılıncdan kəsərlidir. (Atalar sözü).

Söz ucaldar bu cahanda insanı,
Əzizləyər bu cahan da insanı,
Vaxt olar ki, bircə anda insanı,
Əlli ilin hörmətindən salar söz. (N.Xəzri)

Nümunələrdə verilmiş sözlər hər bir dilin qaydaları üzrə yaranan səs kompleksi, müəyyən məna daşıyan dil vahidi kimi nəzərdən keçirilməli, onun mənası aydınlaşdırılmalı, tam və natamam mənalı sözlər və s. haqqında aydın təsəvvür yaradılmalıdır.

Bununla yanaşı, öyrənənlərdə omonim, sinonim, antonim, frazeoloji birləşmələr, ədəbi tələffüz vərdişləri və s. haqqında ətraflı təsəvvür yarandıqdan sonra müəllim onların nəzərinə çatdırmalıdır ki, dilimizin lüğət tərkibinin zənginləşdirilməsində, ifadələrin dəqiqləşdirilməsində, nitq prosesində fikrin təsirli olmasında bu amillərin rolu böyükdür.

Məlum olduğu kimi, dilin bütün sahələrində - fonetik sistemində, lüğət tərkibində, qrammatik quruluşunda daxili qanunlar əsasında müəyyənləşmiş normalar vardır. Azərbaycan dili həm fonetik,

həm keksik, həm də qrammatik quruluşuna görə dünyanın ən inkişaf etmiş zəngin dillərindən biridir. Bu dil həm fikri ifadə imkanlarına görə, həm də musiqililiyi ilə diqqəti cəlb edir.

Hansı millət olursa-olsun, istər şifahi, istəsə də yazılı nitq zamanı onun mədəniyyətinin göstəricilərindən biri də dilin daxili imkanlarından, fonetik, leksik və qrammatk normalarından düzgün istifadə etməklə qurulan gözəl nitqdir. Təlim prosesində müəllim öyrənənləri gözəl nitqə yiyələndirmək üçün dilin ifadə imkanlarının genişliyindən mütəmadi söhbət açmalı, həmin dildən istifadə edənlərin hazırlığını diqqətdə saxlamalı, ifadə imkanlarının genişliyindən düzgün faydalanmaq vərdişlərini aşılamalıdır.

Deməli, nitqin gözəlliyi mövzuya uyğun parlaq sözlərin seçilməsində və fikirlərin məntiqi sistemindədir. Bəli, dil olmadan mədəniyyəti, mədəniyyət olmadan da dilin varlığını təsəvvür etmək çətindir. Belə ki, dil mədəniyyətin tərkib hissəsidir, eləcə də nitq mədəniyyətinin ifadəçisidir. Məhz mədəniyyətdə xalq yaddaşı, xalqın özü yaşayır. Biz bir xalq kimi bu ənənəni qoruyub nəsillərdən-nəsillərə ötürməliyık, çünki Azərbaycan mədəniyyəti ümumbəşəri mədəniyyətin tərkib hissəsidir.

Ulu Öndər yazırdı ki, cəmiyyətin inkişafı, elmi-texniki tərəqqi, dövlətin inkişaf strategiyası kimi mühüm amillər təhsilin məqsəd və vəzifələrini, təlimin məzmununu, xüsusilə metodları və texnologiyasını yeniləşməyə məcbur etmiş, bu yeniləşmə cəmiyyət quruculuğunun fəal amilinə çevrilmişdir [3].

İndi təhsilin, elmin, mədəniyyətin inkişafı, mətbuatın, radio-televiziyanın ölkəmizin aranlı, dağlı bütün kənd, qəsəbə və şəhərlərində xalqın gündəlik həyatına, məişətinə daxil olması nəticəsində nəinki ədəbi dilimiz, eləcə də danışıq dilimiz kütləviləşmiş, bütün respublikamızda hamının eyni dərəcədə başa düşdüyü, anladığı rəvan, gözəl, səlis dilə çevrilmişdir.

Tarixi müşahidələr və təcrübəər sübut etmişdir ki, hər hansı ölkədə, cəmiyyətdə, müəyyən qurumlarda bu keyfiyyət yüksək tələbkarlıqla öz əksini taparsa, orada mədəniyyətin inkişafı yüksək səviyyədə olur [3].

Dövlətimiz Ulu öndər Heydər Əliyev ideyalarını, siyasi kursunu əldə rəhbər tutaraq, Azərbaycan təhsilinin inkişafı naminə, xalqın rifahı naminə uğurlu addımlarla tərəqqiyə doğru irəliləyir. Ölkəmizdəki bütün quruculuq işləri məhz bu ideyaların həyata keçirilməsi istiqamətində gedir. Hansı ölkədə təhsilin keyfiyyəti yüksək olarsa, gələcək də onundur.

İstifadə edilmiş ədəbiyyat

1. Abbasova Nərminə. Pedaqoji prosesin potensial imkanlar. Elmi əsərlər , 2011, № 3, s. 9-13.
2 Məmmədov N., Axundov A. Dilçiliyə giriş. Bakı,1980, 315 s.
3. Şəxsiyyətin qüdrəti. Bakı: Yazıçı, 2012, 304 s.

UOT 82:37.016

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ ƏHMƏD CAVAD YARADICILIĞININ TƏDRİSİ XÜSUSİYYƏTLƏRİ

Svetlana Arif qızı Balakişiyeva
Mingəçevir Dövlət Universiteti
svetlana.nasibli@mdu.edu.az

Ədəbi əsərin məktəbdə öyrədilməsi məsələlərindən bəhs edərkən birinci növbədə onun özünün mahiyyətini, xüsusiyyətlərini bilmək, dərk etmək lazımdır. Ədəbiyyatşünaslığa, habelə ədəbiyyatın məktəbdə tədrisinə həsr olunan kitablarda ədəbi əsər anlayışının məzmununa, onun xüsusiyyətlərinə dair məlumatlara rast gəlmək çətindir, daha düzgün ifadə etsək, bu barədə elmi-metodik kitablarda məlumata az yer verilib.

Ədəbi əsərlər elə tükənməz xəzinədir ki, ondan hər bir ziyalı faydalana bilər, hər nəsil, hər kəs ondan öz payını götürə bilər, orada bəşəriyyətin bütün zümrələri üçün mənəvi qida vardır. Hər bir əsər özünəməxsus keyfiyyətləri olan tam bütövdür. Əsərlərin ümumi cəhətləri olsa da, biri digərini təkrarlamır, onlar arasında eynilik yoxdur. Bu baxımdan ədəbi əsərləri insanlarla müqayisə etmək olar. Onların bir-birinə bənzər cəhətləri olduğu kimi hər biri özünəməxsus aləmdir. Ənənəvi tədris prosesində ədəbi əsərlər məktəb ədəbiyyat kursunun əsasını təşkil edirdi. Ədəbi əsərlər həm də əhəmiyyətinə görə ədəbiyyat tədrisində xüsusi yer tutur. Ədəbi əsərlərin öyrənilməsi ədəbiyyat tədrisi metodikasının əsas hissəsi hesab olunur.

Yeni təlim metodlarında isə bu məsələ bir az fərqli şəkildədir. Belə ki, ədəbiyyat dərslərində ədəbi əsərin qavranılmasında fərqli metodlardan istifadənin böyük əhəmiyyəti vardır. Qloballaşan, daim irəliyə-yeniliyə doğru can atan dünyamızı bu gün ən müasir informasiya və kommunikasiya texnologiyaları olmadan təsəvvür etmək mümkün deyil. Ədəbi əsərlərin tədrisində və yüksək səviyyədə mənimsənilməsində İKT-dən (İnformasiya Kommunikasiya Texnologiyalarından) istifadənin böyük rolu vardır. Fənn müəllimləri bu vasitələrdən bacarıqla istifadə etməklə şairlərin həyat və yaradıcılıq xüsusiyyətlərini şagirdlərin təfəkkür, qavrama, öyrənmə proseslərinə uyğun düzgün təşkil etməkdə uğurlu nailiyyət göstərə bilərlər. Bu baxımdan bu kimi mövzulara müraciət etmək hər bir ziyalının mənəvi borcudur. Gələcək nəsillərin daha geniş bilik səviyyəsinə malik olmaları üçün araşdırmalar aparmaq vacibdir.

Müasir dövrdə ümumtəhsil məktəblərinin proqramına əsasən ədəbiyyat fənni üzrə tədris olunan şairlər içərisində istiqlal şairimiz, vətənpərvər, qəhrəman ruhlu ədəbi sənətkarımız Əhməd Cavadın əsərlərinə yer verilməsi şagirdlər üçün, onların mənəvi-əxlaqi, estetik tərbiyəsi üçün vacib amildir. Bu əsərlərin tədrisi zamanı ədəbiyyat müəllimləri mövzuların xüsusi interaktiv metodlarla tədrisinə böyük əhəmiyyət verməlidirlər. Təəssüf edirik ki, hələ də bəzi mövzuların tədrisində ənənəvi metodlardan istifadəyə , yəni müəllimin gəlib yeni dərsi izah etməsi və şagirdlərin passiv dinləməsi üsulundan çox istifadə olunmaqdadır. Ancaq bu çərçivədən çıxmaq lazımdır. Qeyd olunan məruzədə Əhməd Cavad yaradıcılığından məktəb proqramına daxil olmuş əsərlərin ənənəvi və müasir metodologiya ilə tədrisi xüsusiyyətlərindən bəhs edəcəyik.

"Yüksək mədəniyyətli ziyalı olan Əhməd Cavad xalqımızın azadlığı uğrunda ardıcıl mübarizə aparmışdır. Doğma yurdumuzun səadəti və xoşbəxtliyi onu həmişə düşündürmüş, bu mövzuda bir-birindən gözəl əsərlər yaratmışdır" – deyən dəyərli professor, ədəbiyyatşünas, tənqidçi Bəkir Nəbiyevin fikrini təsdiq edərək bildiririk ki, həqiqətən, Ə.Cavad vətən, yurd təəssübkeşi, azadlıq və istiqlal nəğməkarı olub. Məhz bunu biz aşağıda qeyd olunan əsərlərin məzmun və tədrisində daha aydın görə bilərik [4, s.13].

V sinif Ədəbiyyat fənni proqramına görə şairin bu sinifdə məşhur "Azərbaycan! Azərbaycan!" şeiri tədris olunmaqdadır. Fənn müəllimi ilk olaraq şeiri ifadəli oxuyaraq onun məzmunu və qavranılması üzrə işi təşkil etməlidir. Əgər əsərin ilkin qavranılması düzgün metodika ilə təşkil olunmazsa, o zaman öyrənənlər üçün bir qədər anlaşılmazlıq və çətinlik yarana bilər. Müəllim müvafiq mövzuya başlamazdan əvvəl dərsin motivasiya mərhələsində fəal – interaktiv təlim metodlarından istifadə etməklə BİBÖ (Bilirik, İstəyirik Bilək, Öyrəndik), beyin həmləsi (*brain storming*), diskussiya (müzakirə) üsullarından istifadə edərək şagirdlərin marağını cəlb edə və onları daha da fəallaşdıra bilər. Müəllimin ifadəli oxusundan sonra şagirdlərin iştirakı ilə cütlər və ya qruplar üzrə iş formasından istifadə olunmaqla əsərin növbəti ifadəli oxusunu təşkil etmək lazımdır. Şeiri oxuyarkən şairin Azərbaycanın gözəlliklərindən bəhs etməsi, onun mənzərəli təbiəti, şanlı keçmişi, bu günü, təbii sərvətlərini tərənnüm etməsini mütləq öyrənənlərin nəzərinə çatdırmaq lazımdır.

Dağlarının başı qarlı,
Sinəsi yaşıl ormanlı,
Dərələrin şirin barlı,
Azərbaycan! Azərbaycan!

Durnagözlü bulaqların,
Cənnət kimi yaylaqların,
Geniş-geniş oymaqların,
Azərbaycan! Azərbaycan! [1, s.44-45]

Şeirin məzmunu qavranıldıqdan sonra ədəbiyyatşünaslıq təhlilinin aparılması üzrə işin təşkilinə vaxt ayırmaq lazımdır. "Azərbaycan! Azərbaycan!" şeirinin milli vəzn olaraq tanınan heca vəznində, dördlük şeir şəklində, hər misrasının 8 hecalı olduğunu, qafiyə quruluşunu, daxili bölgüsünün 4+4 olduğunu diqqətə çatdırmaq onların mövzunu daha yaxşı mənimsəmələri üçün gərəklidir.

Görkəmli şairin IX sinifdə Ədəbiyyat fənni proqramına əsasən "Azərbaycan bayrağı"na şeirinin tədrisi həyata keçirilir. Dövlət atributlarının, milli dövlətçiliyimizin simvolları olan, kimliyimiz sayılan üçrəngli bayrağımızın tərənnümü və tərifinə bu şeirdə rast gəlirik.

Türküstan yelləri öpüb alnını
Söylüyor dərdini sana, bayrağım!
Üç rəngin əksini Quzğun dənizdən
Ərmağan yollasın yara bayrağım!

Köksümdə tufanlar gəldim irəli,
Öpüm kölgən düşən mübarək yeri!
Allahın yıldızı, o gözəl pəri,
Sığınmış qoynunda Aya, bayrağım! [2, s.13]

Şeirin təhlilindən aydın olur ki, mövzu yenə millilik, dövlətçilik, vətən təəssübkeşi ruhlu bir əsərdir. Şair vətənin ayrılmaz parçası olan bayrağı Türküstan ellərinin üzərində əsən bir yel, külək qismində vurğulamaqla onu böyük türk dünyasının, ərazisinin kölgəsi, dayağı, hədiyyəsi kimi dəyərləndirmişdir. Əsərin ilkin qavranılması və ifadəli oxusu üzrə işi təşkil etmək üçün fənn müəllimi ifadəli oxu, anlayışın çıxarılması, müzakirə və s. kimi fəal – interaktiv təlim metodlarından istifadəyə yer verə bilər. Həmçinin şairin digər siniflərdə tədris olunan əsərləri ilə bu əsərin Eyler-Venn diaqramı çərçivəsində müqayisəli təhlilini təşkil etməyə müvəffəq olmağı qarşıya məqsəd qoysaq, həm dərs daha maraqlı keçər, həm də mənimsəmə səviyyəsi yüksək olar. Ədəbiyyatşünaslıq təhlili baxımdan şeirin 4 bənd, bəndlərin 4 misradan ibarət olması, qafiyə quruluşu, bədii təsvir və ifadə vasitələrinin rəngarəngliyini öyrənənlərin nəzərinə çatdırmaq gərəklidir. Əlavə olaraq fənn müəllimi musiqi fənni ilə fənlərarası inteqrasiya etməklə, Azərbaycan himninin, o şərəfli sözlərin banisinin Əhməd Cavad olduğunu da bu mövzuda qeyd etməyi qarşıya məqsəd qoymalıdır.

Görkəmli ədəbi sənətkarın vətənə məhəbbət, azad yaşamaq, işğalçılara nifrət mövzusunda yazılmış "Səsli qız" poeması orta məktəb ədəbiyyat fənn proqramında XI sinifdə tədris olunur. Əsərin ideyasını vətənin düşmən hücumundan müdafiəsinin vətəndaş üçün şərəf işi olması, müstəqilliyin, azadlığın qiyməti, "insanlığın əzilməsinin", insanın qəddarlıqla məhv edilməsinin yol verilməzliyi kimi mühüm, aktual məsələlər təşkil edir. Bəhs olunan bədii əsər poema janrında yazılıb. Fənn müəllimi poemanın ifadəli oxusunu rollar üzrə fəal-interaktiv təlim üsulundan istifadə etməklə şagirdlərə oxutdurmalıdır.

Bütün şəhər silkinib...
Əsər qoymadı pasdan,
Dünənki matəm hanı?
Doğrudan, çıxdı yasdan.
Düşmən şahın gəlişi
Qanuni bayram oldu.
Bir çox dərdli ürəklər
Qanlı sevinclə doldu. (I hissənin III bölməsi) [3, s.59]

Poemada öyrənənlər üçün obrazların düzgün səciyyələndirilməsi vacibdir. Sara obrazının əsərin baş qəhrəmanı olmasını şagirdlərin diqqətinə çatdırmaqla təhlil prosesində bu surətə qarşı hörmət, rəğbət hissi formalaşdırmaq mövzunun oxucunun yaddaşında möhkəmlənməsinə əsaslı töhfə verəcəkdir. Sara vətəni dərin məhəbbətlə sevən, xalqın azadlığı uğrunda həyatını qurban verməyə hazır olan gənc və cəsarətli qızdır. Əsərin sonunda Saranın qalib gəlməsi, onun işğalçı hökmdarı zəhərləyərək öldürməsi oxucunun gözündə ona qarşı xüsusi rəğbət formalaşdırır. Digər surətlərə işğalçı hökmdarı, varlı adamları, din xadimlərini göstərmək olar. Bu şəxslərin bir çoxu əsərboyu mənfi obraz olaraq yadda qalır. Əsərin bədii xüsusiyyətləri olaraq iki hissədən ibarət olması, kompozisiyasının bitkinliyini, süjet xəttinin maraqlı və yüksələn xətlə inkişafını, məcazların çox olmasını, dilinin sadə və aydınlığını, hadisələrin ardıcıllığının gözlənildiyini öyrənənlərlə müzakirə etmək mövzunun asan və keyfiyyətli yadda qalmasına köməklik edəcəkdir. Həmçinin "Səsli qız" poemasının yüksək səviyyədə tədrisi metodikasını təşkil etmək üçün fənlərarası və fəndaxili inteqrasiya üsulundan istifadə etmək məqsədəuyğun olacaqdır.Tarix fənni ilə Ədəbiyyat fənninin inteqrasiyası əsasında şagirdlərlə müzakirə və ya frontal sorğu metodlarından istifadə etməklə 44 günlük Vətən müharibəsini, ölkəmizin işğaldan azad olunmasını, şəhid, qazi və güclü ordumuzun cəsarəti, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında ərazi bütövlüyümüzün təmin olunmasını qürur və fəxarət hissi ilə onların diqqətinə mütləq çatdırmalıyıq. Bunu xatırlatmaq həm ədəbiyyatın tərbiyəedici vəzifəsi, həm də biz – müəllimlərin mənəvi borcudur.

Ədəbiyyatın həyat həqiqətlərini özündə əks etdirən bir sənət əsəri olduğu bir çoxumuza bəyandır. Bu səbəbdəndir ki, Ə.Cavad yaradıcılığını tədris edərkən, əsərlərini oxuyarkən orada qeyd olunan məzmunu, ideyanı şagirdlərə elə bir səviyyədə çatdırmaq lazımdır ki, gələcəyin vətənpərvər igidləri, müəllimləri, həkimləri, bir sözlə ziyalıları olacaq yeni nəsil məhz dəyərli şairimiz kimi cəsur,xalq,vətənsevər olsunlar. Yeni dövrün müəllimləri qeyd olunan fəal-interaktiv dərs metodlarından istifadə etməklə Əhməd Cavad yaradıcılığını, bədii ruhunu özündə əks etdirən əsərləri möhtəşəm ustalıqla tədris etməyə qadirdir.

Yekun olaraq onu deməliyik ki, milli ədəbiyyatda Əhməd Cavadın həyat və yaradıcılığındakı mübariz ruhuna, istiqlaliyyət eşqinə həsr olunmuş əsərlərin şagirdlər tərəfindən yaxşı mənimsənilməsi olduqca vacibdir. Bunun üçün ibtidai sinifdən əsası qoyulan bəsit biliklər yuxarı siniflərdə ədəbiyyat müəllimi tərəfindən daha da təkmilləşdirilməlidir. Fənn müəllimləri vətənimiz üçün bu cür mühüm, aktual bir mövzulara dair yazılmış əsərləri tədris edərkən daha yaradıcı və fəal olmaqla fərdi, həmçinin qrup müzakirələrindən, çalışmalarından məharətlə istifadə etməyə üstünlük verməlidirlər. Çünki bu əsərlərin düzgün şəkildə pedaqoji-metodik ustalıqla tədris olunmasının əsas məqsədi gələcəyin şəxsiyyəti olacaq öyrənənləri daha cəsur, vətənpərvər ruhlu, xalqına, millətinə, dilinə fayda verəcək şəkildə yetişdirməyi hədəfləməlidir. Məhz bu ortaq hədəf hər bir ədəbiyyat müəlliminin, xüsusilə də digər fənn müəllimlərinin prioritet istiqaməti olmalıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev S., Həsənov B., Səfərova Ə., Quliyev Ə. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün "Ədəbiyyat" fənni üzrə dərslik. Bakı: "Bakınəşr", 2016, 208 s.

2. Həsənov B., Mustafayeva A., Əliyev S., Verdiyeva N. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün "Ədəbiyyat" fənni üzrə dərslik. "Bakı" nəşriyyatı, 2016, 224 s.

3. Həbibbəyli İ., Əliyev S., Həsənov B., Mustafayeva A. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün "Ədəbiyyat" fənni üzrə dərslik. Bakı: "Bakı" nəşriyyatı, 2018, 208 s.

4. İsmayılova S., Quliyev Ə., Mustafayeva Y., Əliyeva Ü. Ədəbiyyat – kurikulum təhsil proqramı əsasında vəsait. Bakı: "Araz", II nəşr, 2019, 466 s.

UOT 37:001.12/.18

CƏMİYYƏTİN İNKİŞAFINDA TƏHSİLİN ROLU

Turan Akif qızı Əsədova
Mingəçevir Dövlət Universiteti
turan.asadova@mdu.edu.az

"Təhsil dünyanı dəyişdirmək üçün istifadə edə biləcəyiniz ən güclü silahdır".

(Nelson Mandela)

Təhsil dünya haqqında bilikləri, dəyərləri, mədəniyyəti özündə cəmləşdirən bir posesdir. Təhsil vasitəsi ilə əsrlər boyu toplanmış təcrübə bir nəsildən digərinə ötürülür.İnsan həyatında təhsilin rolu danılmazdır. İstənilən sahədə inkişaf üçün təhsil əsas qüvvədir. Təhsil gələcəyin açarıdır, buna görə də gənclərimizi sonsuz imkanlarla dolu gələcəyi açmaq üçün lazım olan bilik və bacarıqlarla təmin etməliyik. Bütün problemləri aradan qaldırmağın yeganə yolu təhsildədir. Uğurlu gələcək üçün təhsil çox vacibdir.Təhsilin məqsədi insanları maarifləndirmək, onların imkanlarını inkişaf etdirməkdir.

Bu uğurlu gələcəkdə təhsil həm iqtisadi, həm də sosial cəhətdən həyat keyfiyyətini yaxşılaşdırmaq üçün bir vasitədir. Cəmiyyət daxilində insanların qarşılıqlı əlaqəsi, həmçinin iqtisadi və sosial inkişafı üçün təhsil vacib amillərdən biridir. Sosial bacarıqların inkişafı ailə,dostlar, müəllimlər və digər insanlarla düzgün münasibət qurmağa kömək edir. Sosial inkişaf sosial qarşılıqlı əlaqənin dəyərlərini, biliklərini, bacarıqlarını öyrənməkdən ibarətdir. Şagirdlər məktəbdə müəllimlərindən və yoldaşlarından unsiyyət və qarşılıqlı əlaqəni öyrənirlər. Uşaqlara sosial bacarıqlar onlara qayğı göstərənlər tərəfindən ötürülür. Bundan başqa, ailə daxilində, həmçinin dostlarla münasibətdə sosial bacarıqlara yiyələnmək olar. Bir sözlə, təhsil sosial bacarıqları inkişaf etdirən ən mühüm vasitələrdən biridir. Biz bilirik ki, sosial bacarıqlara məktəbdə, məktəbdənkənar klub və idman mərkəzlərində nail ola bilərik. Sosial bacarıqlara başqalarına və özünə hörmət etmək, yaxşı ünsiyyət bacarıqlarına sahib olmaq, dostluq əlaqələri qurmaq, ailədə bir-birinə dəstək olmaq daxildir. Bütün bunlar təhsil inkişaf etdirir, zənginləşdirir. (Cənab Henrik, Riyaziyyat müəllimi, Festivalnaya kampusu)

Təhsil iqtisadiyyata böyük təsir edir. Sevindirici hal isə budur ki, müsbət təsir göstərir. Yüksək təhsilli bir insanın yaxşı iş tapa bilmə ehtimalı çox yüksəkdir. Bu da ölkədə işsizlik səviyyəsini aşağı salır. Belə olduqda isə dövlət işsizlərə dəstək üçün daha az pul ayıracaq. Bundan başqa işləyən vətəndaşlar təkcə özlərinə deyil, həmçinin dövlətə xeyir verirlər. Beləki yüksək maaş alan vətəndaşlar daha çox pul xərcləyəcək. Nəticədə dövlətin sənayesi inkişaf edəcək. İşləyən vətəndaşlar dövlətə vergi verirlər ki, bu da iqtisadiyyatin inkişafına böyük töhfədir. Buna görə də iqtisadiyyatın inkişafı üçün insanlara sərmayə qoyulmalıdır.İlk növbədə onların təhsili üçün hər bir şərait yaradılmalıdır.

İnsanların təhsil səviyyəsi cəmiyyətin həyat kefiyyətini müəyyənləşdirir. Cəmiyyətdə yoxsulluq səviyyəsinin aşağı olması, həyat kefiyyətinin yüksək olması, həmçinin iqtisadi inkişaf üçün keyfiyyətli təhsil olmalıdır. Cəmiyyətdə insanların əksəriyyətinin savadlı olması xoşbəxt və firavan sosial və iqtisadi camiyyətə sahib olmağa dəlalət edir. Həyatda təhsil çox vacibdir. Təhsilə ona görə bu qədər önəm verilir ki, insanların həyat səviyyəsi yaxşı olsun. Ölkədə insanların vəziyyəti həmin ölkənin inkişafını göstərir. Bütün dünyada inkişaf etmiş ölkələrdə yaxşı inkişaf etmiş təhsil sistemləri və ali təhsil imkanları yaradılıb ki, bu da həmin ölkələrin vətəndaşlarına daha yüksək maaşlı iş və daha yaxşı həyat keyfiyyəti əldə etməyə kömək edir. Bizim ölkəmizdə də həmişə təhsilə xususi diqqət və qayğı göstərilib.

Ümumilli lider Heydər Əliyev bütün fəaliyyəti dövründə elm və təhsil sahəsinin inkişafina böyük maraq göstərir. O çox yaxşı bilirdi ki,ölkənin tərəqqisi xalqın yüksək təhsil almasındadır.

Bunun üçün çoxlu sayda təhsil ocaqları tikdirib, bir çox gəncləri təhsil almaları üçün respublika hüdudlarından kənardakı ali məktəblərə göndərib. Ulu Öndər yaxşı bilirdi ki, yüksək mütəxəsisli kardlar yetişdirmək ölkənin müstəqilliyini təmin etmək üçün əsas amillərdən biridir. Heydər Əliyev cəmiyyətimizin inkişafını təhsildə görürdü.Təhsil sahəsində öz fəaliyyəti dövründə bir çox işlər görmüş Ulu öndərimiz həmişə deyirdi ki, "Təhsil millətin gələcəyidir". Bu fikiri əsas tutaraq ölkə rəhbəri İlham Əliyev təhsil istiqamətində bir sıra uğurlu siyasətlər aparıb. O, təhsili "Millətin gələcəyini müəyyən edən prioritet sahə" kimi düşünürdü.

İlham Əliyevin dövründə ali təhsilin inkişafı əsas prioritetə çevrilmişdir. Bu dövrdə ali təhsil müəsisələrinin şəbəkəsi inkişaf etdirilərək genişləndirilmişdi. Bundan əlavə, yüksək təhsil verən ali təhsil müəsisələri yaradılmışdır. Hal-hazırda ölkəmizdə çoxsaylı savadlı kadrlar yetişdirilir və inkişaf etdirilir ("Xalq" qəz., 2009, 12 dekabr, s. 6.). Dövlət başçısının təhsilə verdiyi diqqət və göstərişləri nəticəsində bu sahədə keyfiyyətli işlər görülüb və yüksək nəticələr əldə edilib. Təhsil siyasəti hər bir ölkənin qarşısında duran ən vacib hətta birinci yerdə olan hədəfidir ("Azərbaycan müəllimi" qəz., Mahirə Hüseynova, ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor)

Hər bir millətin gələcəyinin formalaşmasında ən önəmli amil keyfiyyətli təhsildir. Cəmiyyətdə keyfiyyətli təhsilə sahib olmaq üçün əsas amil isə,qızların sahib olduğu təhsil səviyyəsidir. Daha yaxşı ailəyə, sağlam qidalanmaya sahib olmaq, körpə və uşaq ölümlərinin azaldılması,uşaqların təhsil səviyyəsinin artırılması üçün qız və qadınların təhsili çox vacibdir. Görkəmli xeyriyyəçi Hacı Zeynalabddin Tağıyev özü təhsilsiz olmasına baxmayaraq, qızların təhsil almasını çox vacib sayırdi və gəncləri öz hesabına oxudurdu. O, hətta qızların təhsilli olması üçün Şərqdə ilk qızlar məktəbi açdırmışdı.

Baxmayaraq ki, bir çox analitiklər bunun qeyri-mümkün olduğuna və regionda vəziyyətin gec-tez yenidən idarəolunmaz hala düşəcəyinə inansalar da [23], buna baxmayaraq, nə Azərbaycan rəhbərliyi, nə də bütün Azərbaycan xalqı Qarabağın Azərbaycan torpağı olduğuna, Azərbaycan torpağı olduğuna və olacağına şübhə etmir. O, vicdanlı hərbi qarşıdurmada, açıq, qorxmaz və barışmaz mübarizədə qalib gəldi və bu, Azərbaycan xalqının niyyətlərindən birinin müstəqilliyini, suverenliyini qorumaq olduğunu bütün dünyaya bir daha sübut etdi. və Azərbaycan dövlətinin ərazi bütövlüyü sarsılmazdır. [4] Bu döyüşlərdə Azərbaycan xeyli az itki ilə böyük uğur qazandı. İlkin olaraq bir sıra kəndləri və strateji körpüləri işğaldan azad edən Azərbaycan Silahlı Qüvvələri oktyabrın 22-də cənubda Qarabağın İranla sərhədini tamamilə azad edib və oktyabrın 23-də Laçın dəhlizinə doğru irəliləməyə başlayıb. Laçın dəhlizi Ermənistanı Qarabağdakı uydurma birləşmə ilə birləşdirən yeganə böyük (digərləri ilə müqayisədə) magistral idi. Magistral yola nəzarət Ermənistandan yanacaq, sursat və hərbi gücləndiricilərin tədarükünə mane olardı. Azərbaycan bütün gün ərzində hərbi karvanların hərəkətinin qarşısını almaq üçün Ermənistan ordusuna artilleriya, minaatan və idarə olunan raketlərlə hücum edib. Davam edən müharibə zamanı oktyabrın 4-də Cəbrayıl, 17-də Füzuli, 20-də Zəngilan, 25-də Qubadlı, noyabrın 8-də Şuşa işğaldan azad edilib.

Azərbaycanın hərbi üstünlüyü - Müharibənin 44 günü ərzində Azərbaycan ordusu "Harop" hücum pilotsuz uçuş aparatlarından, o cümlədən Azərbaycanda İsraillə birgə istehsal olunan "Zərbə" pilotsuz uçuş aparatlarından və digər PUA-lardan, həmçinin "Bayraktar TB2" hücum pilotsuz uçuş aparatlarından geniş istifadə edib. Yalnız Bayraktar TB2 pilotsuz təyyarələrinin köməyi ilə Azərbaycan Ermənistanın bir milyard dollar dəyərində hərbi texnikasını məhv edib.

İstifadə edilmiş ədəbiyyat

1. Азербайджан и Иран подписали историческое «Худаферинское соглашение». [Электронный ресурс].https://1news.az/news/20160225123706496 -Azerbaidzhan-i-Iran-podpisali-istoricheskoe-Khudaferinskoe-soglashenie

2. Армения обязана выплатить Азербайджану 50 млрд за ущерб в Карабахе. [Электронный ресурс]. https://news.day.az/politics/1289669.html

3. Евгений Крутиков Неутешительные. Источник: https://oborona.ru/includes/periodics/geopolitics/2020/1127/18030520//detail.shtml итоги.

4. Конституция Азербайджанской Республики. Баку. Изд-во «Qanun». 2019.

5. Как Вторая Карабахская война изменила Армению и Азербайджан. [Электронный ресурс]. https://vestikavkaza.ru/material/328345

6. Карабахская война: в отношениях Азербайджана и Ирана открывается новая страница. [Электронный ресурс]. http://vzglyad.az/news/179598

7. Общий ущерб Азербайджану от армянской агрессии оценивается примерно в $ 60 млрд. [Электронный ресурс]. https://1news.az/mbile/authors/oped/20170220024947465.html

8. Президент Ильхам Алиев провел пресс-конференцию для представителей местных и зарубежных СМИ. [Электронный ресурс]. https://www.trend.az/azerbaijan/politics/3386936.html

9. Про вандализм армянских националистов в Нагорном Карабахе. [Электронный ресурс]. https://pikabu.ru/story/pro_vandalizm_armyanskikh

10. https://www.virtualkarabakh.az/ru/post-item/52/2871/vtoraya-karabahskaya-vojna.html

11. https://xalqqazeti.com/az/news/82824

УДК 37.01

ОБУЧЕНИЕ И ХАРАКТЕРИСТИКА ЕГО ВИДОВ

Айтекин Октай кызы Мамедова
Азербайджанский государственный экономический университет
aytakin_mammadova@unec.edu.az

Одной из видов активного обучения считается тренинг. Тренинг — это занятие в группе на заданную психологическую тематику под руководством ведущего, направленное на отработку личностных навыков, а также на лучшее понимание себя и других; это добывание ценного жизненного опыта совместно с ведущим и товарищами по группе; ролевые и психологические игры, добрые провокации, обучающая парная и групповая работа и многое другое.

Занятия по силам каждому, но требуют от участников вложения душевных сил, активности и целеустремленности. Спустя пару занятий он на тренинге чувствует себя прекрасно и эффективно работает. Важно знать, что тренинги личностного роста не рассчитаны на людей с психическими заболеваниями, они рассчитаны на здоровых и бодрых людей, которые приходят на занятия для того, чтобы повысить свой личностный уровень и освоить психологические техники.

Тренинги претворяются в жизнь в следующих направлениях:

- выглядеть уверенно и привлекательно;
- ярко презентовать (рекламировать) кого и что угодно (себя, других, товар);
- выступать, вести обсуждение, убеждать;
- слушать и чувствовать партнера;
- знать свои цели и организовывать себя на их достижение;
- быть лидером и организатором;
- уметь сотрудничать с людьми и быть членом команды;
- управлять своими эмоциями, влиять на эмоции партнера;
- грамотно критиковать и воспринимать критику;
- развивать себя самостоятельно.

Обучение (тренинг) является наиболее эффективным и быстрым инструментом развития и внутренних изменений. А также он является отдельной формой образовательного процесса, его особенностью является высокая интенсивность проведения занятий и использование разных способов достижения заявленного результата прямо в ходе тренинга.

С тренинга люди уходят, получив практические навыки использования того, чему был посвящен тренинг. Или решив какую-то свою личную проблему, с которой не мог справиться самостоятельно длительное время. Понятно, что обычно это невысокий уровень освоения навыков – из-за ограниченности времени проведения тренинга.

Первые тренинговые группы были организованы Куртом Левиным в 1946 году. Благодаря его усилиям и усилиям его коллег, форма «обучения в действии» получила распространение в Соединенных Штатах и стала пользоваться большим успехом.[2] Это привело к появлению Национальной лаборатории тренинга. Проведение тренингов, или обучение в Т-группах, практиковали для эффективной подготовки успешных менеджеров, управленческого персонала, политических лидеров. В основе работы этих групп заключалась следующая идея: мы с вами живем и трудимся в обществе, в группах – это семья, коллектив сотрудников или дружеская компания. Взаимоотношения в таких группах сложные, и каждый человек не всегда чувствует себя в этих группах комфортно и не всегда действует осознанно и конструктивно.

Для того, чтобы обнаружить у себя неподходящие установки и изменить свое мышление и поведение, человеку важно научиться видеть себя со стороны – так, как его видят окружающие. Т-группы, как раз, и создают условия для конструктивной обратной связи.

"Успешный человек обычно устанавливает свою следующую цель несколько, но не слишком, выше своих последних достижений. Таким образом, он постоянно повышает уровень своих стремлений". (Курт Левин)

Система тренингов была признана чрезвычайно эффективной формой обучения, позволяющей и лучше усвоить теоретические знания, и научиться межличностному взаимодействию.

Тренинг - групповая форма получения новых знаний и опыта. В зависимости от сферы влияния тренинги делятся на поведенческие и личностные. Поведенческие, как правило, закрепляют применение новых знаний, а личностные – развивают опыт мышления и ценностную сферу (приводят к знаниям).

В настоящее время можно посещать семинары и тренинги любого направления.

Все тренинги можно разбить на 4 группы: [4]

1. Инструментальный тренинг рассчитан на обучение специфическим навыкам. Примером могут служить тренинги Кряневой по установке голоса. К ним также относятся занятия хатха-йогой или цигун.

2. Концептуальный тренинг. Здесь участники изучают и овладевают концепцией фэн-шуй, пресуппозиции нлп или Путь йоги. Концепции носят тоталитарный и разрушительный характер, подчиняя себе людей. Любой семинар строится на концепции, пресуппозициях, договоренностях.

3. Мотивационный тренинг. Это когда харизма тренера увлекает за собой участников. Обычные отзывы участников – "вау! Было классно!". Яркими примерами являются Симорон, тренинги успешности, тренинги Козловых. Они заряжают участников энергией и творчеством. но не все участники могут привнести это в жизнь.

Обычно мотивация сохраняется в виде ярких воспоминаний. Некоторые начинают жить на этих тренингах А прежние проблемы вне тренинга продолжают тиражировать. Даже возник "термин" - пересеминарий.

4. Ресурсный тренинг, проигрывает перед тремя описанными: люди сидят в кругу и разговаривают. Иногда проводятся и упражнения. Иногда и тренера сразу не разглядишь. Он как каждый член группы является ресурсом для каждого, а группа для всех.

Групп-анализ - это где тренер разговаривает всего 5 % времени.

Ресурсный тренинг - это терпение к неопределенности, отсутствие явного алгоритма.

В зависимости от стиля ведения тренинги делятся на: [3]

1. навыковые (отработка только поведенческого навыка, "в такой ситуации надо делать только так");
2. тренировочные (отработка обоснованного навыка, "в такой ситуации надо делать так потому, что ...");
3. активнообучающие (вывод и новое знание получает сам участник при помощи ведущего, "исходя из выполненного упражнения что нужно делать в такой ситуации? и почему?");
4. самораскрывающие (поведение участника изменяется через изменения отношений к проблематике, ведущий вводит групповые нормы и только следит за их соблюдением, отвечая на возникающие вопросы).

Тренингов существует огромное количество. Виды тренингов не поддаются уже никакому подсчёту. Ежегодно на рынке появляются десятки новых книг с описанием тренингов, плюс к тому же, каждый профессиональный тренер со стажем может разработать

новый тренинг под ваш индивидуальный заказ. И во всем этом растущем море различных тренингов как-то хочется ориентироваться. А для этого виды тренингов можно классифицировать, объединять и группировать по определенным признакам. Что мы и сделаем ниже.

Личностно-ориентированные тренинги делятся на 3 группы: [1]

1. Психологической компетентности.
2. Выработки навыков.
3. Личностного роста.

На тренингах психологической компетентности участники групп знакомятся с огромным миром психологии и философии, познают основы этики и культуры поведения на тренингах. Дружеская атмосфера во время тренинга располагает к открытому душевному разговору и групповому обсуждению тематики, которая указывалась в названии тренинга. Как результат, виды тренингов подобных этим, позволяют расширить кругозор и повысить психологическую компетентность.

Тренинги выработки навыков (коммуникативные, стрессоустойчивые, лидерские, взаимодействия с другими людьми) – это виды тренингов. Они делятся на следующие подгруппы:

1. Я и ОНИ – взаимодействие с коллективом, с незнакомыми людьми. К этой подгруппе относятся тренинги: «Базовый тренинг», «Трудные игры».
2. ОН И ОНА – взаимодействие с противоположным полом.
3. Я и БИЗНЕС – развитие карьеры, деловое взаимодействие с другими людьми для получения прибыли или развития своего дела: «Успешный человек», «Я – предприниматель?!», «Результативное управление персоналом» и др.

Тренинги личностного роста направлены на внутреннее развитие личности. Их принципиальное отличие от развития навыков в том, что на этих тренингах происходит изменение внутренней сущности человека.

Использованная литература

1. Александр Свияш, «Открытое подсознание. Как влиять на себя и других». М., 2010
2. https://kursy.courses/blog/training-history
3. https://psyliner.ru/trainings/
4. https://rubstein.livejournal.com/397501.html

UOT 94(4/9); 324.4

MİSİRDƏ KONSTİTUSİYA DƏYİŞİKLİKLƏRİNİN SİYASİ SİSTEMƏ TƏSİRİ

Harun Hacı oğlu Sadıqlı
Azərbaycan Dillər Universiteti
harun.sadigli@gmail.com

I Dünya müharibəsindən sonra Misirdə azadlıq hərəkatı yeni mərhələyə qədəm qoymuşdur. Böyük Britaniya 1922-ci ilin fevral ayında Misirin müstəqilliyini tanımağa məcbur olmuşdur. 1952-ci ildə baş tutan inqilabdan sonra isə Misir respublika olmuşdur. 2011-ci ildən dualist formada idarəetmə üsuluna malik respublikadır [6].

Misirdə ilk dəfə konstitusiya 1923-cü ildə qəbul edilmişdir. 1930-cü ildə qəbul edilmiş yeni Ana Yasa 1923-cü il konstitusiyasını ləğv etmişdir. 1952-ci il inqilabından sonra konstitusiya yenə yenilənmişdir. 70-ci ilə qədər isə əsas qanunvericlik bazasına 3 dəfə dəyişiklik olmuşdur. İlk dəfə

1956-ci ildə, növbəti dəfə Misir Suriya ilə birləşərkən (1958-1961), sonuncu isə Birləşmiş Ərəb Respublikasının dağılmasından sonra hazırlanan müvəqqəti konstitusiya olmuşdur ki, 1971-ci ilə qədər qüvvədə olmuşdur. 1971-ci il konsitusiyası 2011-ci ilə qədər qüvvədə qalıb. 2011-ci ildə Hüsni Mübarəkin istefasından sonra silahlı qüvvələr tərəfindən formalaşdırılan konstitusiya komissiyası bu barədə çalışmalara başlamışdır. 2012-ci ilin sonlarına doğru baş tutan referandumla Misirin ilk mülki konstitusiyası qəbul edilmişdir. Məhəmməd Mursinin devrilməsindən sonra konstitusiyanın tətbiqi dondurulmuş və 14-15 yanvar 2014-cü ildə növbəti dəfə konstitusiya referendumu baş tutmuşdur. Seçicilərin 38,6 faizinin iştirak etdiyi referendumdan sonra Yeni Konstitusiyaya 98 faiz "hə" demişdir. 2012 və 2014 konstitusiyası əvvəlki konstitusiyalarda yer almayan "xristian kopslar və yəhudilər üçün evlənmək, din işləri və dini rəhbərlərin seçimi öz kitablarının prinsiplərinə görə reallaşdırılır" maddəsi kimi bəzi yeni maddələri ilə diqqət çəkmişdir. [8]. [6].

Misirdə dövlət başçısı prezidentdir. Misirdə həm 1971, həm 2012, həm də 2014-cü ildə qəbul edilmiş konstitusiyalar prezidentə veto qoymaq hüquqi verirdi. 2014-cü il konstitusiyası hətta prezidentə qanun yaratma səlahiyyəti də tanıdı. Hətta bu maddənin dəqiq sərhədləri müəyyənləşdirilmədiyi üçün hansı formada qanunvericilik cəhdi ilə çıxış edəcəyi maraqlı məqamlardandır. 2012-ci il qanuna görə, prezident istədiyi şəxsi Baş Nazir təyin edə bilərdi və istədiyi zaman da onu vəzifəsindən azad edə bilərdi. Amma 2014-cü il konstitusiyasına görə prezident parlamentdəki çoxluğun razılığı ilə hökuməti azad edə bilərdi. [4]. [8].

1971-ci il konstitusiyasına görə, Misirdə prezident məhdudiyyətsiz sayda seçilə bilərdi. Amma 2014-cü il konstitusiyalarında bu maddə də dəyişdirilmişdi. Belə ki, bu dəyişikliyə görə, Misirdə prezident 4 il fəaliyyət müddəti olmaqla iki dəfədən artıq seçilə bilməzdi. Sonuncu konstitusiya dəyişikliyində bu məsələyə də dəyişiklik edilib. [1].

Misirin ali qanunverici orqanı olan parlamentdə palata sayı bir neçə dəfə dəyişmişdi. İnqilabdan əvvəl iki palatadan – 508 yerlik Xalq Assambleyasından (Aşağı Palata) və 264 yerlik Şura Məclisindən (Yuxarı Palata) ibarət idi. Aşağı Palataya 5 il müddətinə 222 seçki dairəsindən seçilən üzvlərin 498-i birmandatlı dairələrdən mandat əldə edir, 10 üzvü isə Prezident tərəfindən təyin olunurdu. Yuxarı Palataya 6 illik müddətə seçilən üzvlərin 176 nəfəri birbaşa seçkilər yolu ilə seçilirdi, 88 üzv isə Prezident tərəfindən təyin olunurdu (Şura üzvlərinin yarısı 3 ildən bir dəyişirdi). [4].

Misirin qanunvericilik sistemi 2014-cü il konstitusiyası ilə tamamilə dəyişmişdi. Belə ki, ölkədə iki palatalı parlament sistemi ləğv edilmişdir və sadəcə Xalq Assambleyası qalmışdır. Şura Məclisi artıq fəaliyyətini dayandırmışdır. Xalq Assambleyasının üzvlərinin sayı isə 596 nəfərə çatmışdır. 448 yer fərdi namizədlik sistemi ilə seçilirdi, 120 namizəd bütün partiyalar siyahıları ilə seçilirdi. [1].

Həmçinin yeni konstitusiya ilə prezidentin parlamenti buraxmaq səlahiyyəti də azaldılmışdı. Belə ki, prezident birbaşa parlamenti buraxa bilməz. Belə bir cəhd ancaq parlamentin də razılığı alındıqdan sonra xalq arasında baş tutacaq referendumdan sonra mümkün ola bilər.

2005-ci ildə Misir Konstitusiyasına siyasi partiyalarla bəzi dəyişikliklər edildi. Bu dəyişikliklərə əsasən artıq partiyalar prezident postu üçün öz namizədlərini irəli sürmək hüququna malik idilər.

Siyasi partiyların nizamlanması ilə bağlı 2014-cü il konstitusiyasından sonra qaydalar bir az sərtləşdirilmişdir. 1971 və 2012-ci il konstitusiyalarında partiyaların qurulması üçün hər hansı xüsusi şərt qoyulmamışdı. Ancaq sonuncu konstitusiya siyasi partiyalar üçün xüsusi şərtlə qoyub və məhkəmə qərarı ilə hətta onların fəaliyyətinin sonlandırılması da qanuniləşdirib. Belə ki, artıq Misirdə dini bazada partiya formalaşdırmaq olmaz.

2019-cu ilin aprel ayında Misirdə Konstitusiya dəyişiklikləri olmuşdur. Əsas dəyişiklik prezidentlik müddətinin uzadılması məsələsi idi. Eyni zamanda ölkə başçısının məhkəmə hakimiyyəti üzərində nəzarəti də artırılırdı. Planlaşdırılan konstitusiya dəyişikliyi Sisinin 2030-cu

ilə qədər hakimiyyətdə qala biləcəyini nəzərdə tutur. Misir parlamentinin müvafiq komitəsində parlamentə təqdim edilən düzəlişlər aşağıdakı kimi ümumiləşdirilmişdi:

- Prezidentin səlahiyyət müddətinin 4 ildən 6 ilədək artırılması,
- Misir parlamentində 180 nəfərlik yeni Senatın yaradılması;
- Hakimlərin və prokurorların təyin edilməsi üçün Prezidentə yeni səlahiyyətlər vermək;
- Konstitusiyada ordunun mandatına "Konstitusiyanı, demokratiyanı, ölkənin əsas quruluşunu və mülki mühitini qorumaq" olaraq dəyişdirmək.

Mövcud dəyişikliklər, Sisinin normal halda 2022-ci ildə sona çatacaq və 2024-cü ildə yenidən namizəd olacağı hazırki mandatını iki illik uzatmasına yol açıb. Sisi tərəfdarları dəyişikliklərin qeyri-hökumət təşkilatları ilə aparılan danışıqlar nəticəsində təyin olunduğunu və Sisinin islahatları planlaşdırması üçün vaxt verəcəyini iddia edirdi. Müxaliflər insan hüquqları və azadlıqlarını pozmaqda günahlandırılan bir şəxsin güc və səlahiyyətlərinin artacağını əsas gətirərək konstitusiya dəyişikliklərinə qarşı çıxırdılar. [5].

Misir Milli Seçki Komitəsi referendumda iştirak edənlərdən 88 faizin dəyişikliklərə "hə" dediyini elan etmişdi. Bununla da 13 maddə dəyişdirilmiş, 9 yeni maddə konstitusiyaya əlavə olunmuşdu. Əsas dəyişikliklərdən biri vitse-prezident postunun yenidən bərpa edilməsidir. Prezident bir və ya birdən artıq vitse-prezident təyin edə biləcək. Onların səlahiyyətini müəyyənləşdirmə, istefaya göndərmək və istefalarını təsdiqləmək səlahiyyəti də prezidentə məxsusdur. Prezident vəzifəsini icra edə bilməkdikdə onu vitse-prezident və ya baş nazirin əvəz etməsi ilə bağlı maddə də əlavə olunub. Amma əvəz edən şəxsin konstitusiyada dəyişiklik etməsi, parlamenti buraxması, hökuməti buraxması və növbəti seçkidə prezidentliyə namizədliyini verməsi qadağan olunur.

Konstitusiyada Silahlı qüvvələrlə bağlı 200-cü maddə də dəyişikliyə məruz qalmışdır. "Misir Silahlı qüvvələrinin sahibi xalqdır. Vəzifəsi ölkənin təhlükəsizlik və dincliyini qorumaqdır" ifadəsinə "Misir silahlı qüvvələri ölkənin konstitusiyası, demokratiya, mülkiliyi, ictimai nailiyyəti, hüquq və azadlıqları qoruyur" ifadəsi də əlavə olunmuşdur. Misir müxalifəti bunu hərbi inqilablara qanuni don geyindirmək kimi qiymətləndirib. [2].

Əsas dəyişiklik "Ərəb baharı"ndan sonra ləğv edilən Senatın (Şura Məclisi) yenidən təsis edilməsidir. 2/3 hissəsi seçki yolu ilə, 1/3 hissəsi isə prezidentin təyinatı ilə formalaşacaq Senatda 180 nəfər yer almalı idi. Məclis sonradan Senatdakı yerlərin sayını 300 olmasını müəyyən etmişdir. Parlament və Senatın üzvlərinin ən azı 25 faizi qadınlardan ibarət olmalıdır.

Dəyişikliklərə görə, hərbi bazalar və silahlı qüvvələrə hücum ittihamı ilə barələrində iş açılan mülki şəxslər də hərbi məhkəmələrdə mühakimə olunacaq. Prezident, həmçinin Silahlı qüvvələrin Ali Şurasının təsdiqindən sonra Müdafiə Nazirini də təyin edə biləcək. Prezidentin əldə etdiyi əsas səlahiyyətlərdən biri də hakim və prokurorları 4 il və ya pensiya yaşına çatana kimi təyinetmə hüququ idi. [2]. [5].

Misirdə konstitusiya dəyişiklikləri qadınların siyasi təmsilçiliyinə də təsir etmişdir. 1952-ci il inqilabından sonra 1956-cı ildə yeni konstitusiya qəbul edilmiş və bununla da misirli qadınlar müəyyən siyasi hüquqlarını qazanmışdır. Bu konstitusiyaya görə, kişilərlə qadınların bərabərliyi elan edilmiş, kişilərin səsvermə hüququ məcburi, qadınlarınkı isə istəkdən asılı olaraq müəyyən edilmişdir. Ənvər Sədat hakimiyyətə gəldikdən sonra 1979-cu ildə konstitusiyaya edilmiş 21 saylı dəyişikliyə görə, Xalq Məclisində 30 yerlik kvota qadınlar üçün nəzərdə tutulmuşdur. Lakin 1986-cı ildə konstitusiyaya edilən dəyişikliyə əsasən hamıya eyni şansları təqdim etməsi adı altında bu kvota ləğv edilmişdir. [7].

İnqilabdan sonra Misirdə siyasi təmsilçiliklə bağlı problemləri görmək üçün baş tutan bu üç istiqamətə baxmaq kifayətdir:

a) yeni konstitusiyanın hazırlanması;
b) parlament seçkiləri;
c) prezident seçkiləri.

İnqilabdan sonra konstitusiyaya dəyişikliklər etmək üçün formalaşdırılmış heyətdə bir qadın yox idi. Etirazlardan sonra bir qadın heyətə daxil edilmişdir. Bir il sonra konstitusiyanı yazmaq üçün 100 nəfərlik kommisiyada isə cəmi 7 qadın var idi. Bu konstitusiya 2012-ci ildə referendumdan 64 faizlə keçsə də cins bərabərliyi ilə bağlı heç bir maddə yox idi. Bu da Misirdə yeni konstitusiyada qadın hüquqlarının nəzərə alınmadığını göstərən amil idi.

Misirdə hələ ilk dəfə konstitusiya qəbul edildiyi zaman 14-cü maddədə yer almışdır – dövlətin siyasi, mədəni, iqtisadi və sosial həyatındakı cins bərabərliyi islam şəriətinə ilə ziddiyyət təşkil etmirsə ona zəmanət verilir. 2012-ci ildə ilk dəfə bu prinsip tamamilə ləğv edildi. Bu konstitusiyada qadınla bağlı yeganə rol din, əxlaq və patriarxal sistem əsasında formalaşdırılan ailə daxilində olan məsələlərdə görülürdü. [7].

İstifadə edilmiş ədəbiyyat

1. Egypt's Constitution of 2014. URL: https://www.constituteproject.org/constitution/Egypt_2014.pdf
2. Elkabany H. M. R., Semerci A. Mısır'da referandum sonuçları açıklandı - https://www.aa.com.tr/tr/dunya/misirda-referandum-sonuclari-aciklandi/1461012 . 23.04. 2019.
3. Ferran Izquierdo Brichs. Political Regimes in the Arab World. London Routledge, 2012, 336 p.
4. Həsənov Ə. M, Vəliyev A. İ. Dünya ölkələrinin müasir siyasi sistemləri. Bakı, Zərdabi, 2013. 776 s.
5. Hilmi M. N. Mısır, 2019'da anayasa değişikliğini bekliyor. - https://turkish.aawsat.com/home/article/1521866/%E2%80%8Bm%C4%B1s%C4%B1r-2019%E2%80%99da-anayasa-de%C4%9Fi%C5%9Fikli%C4%9Fini-bekliyor . 27 Aralık 2018.
6. İsmayılov. R. İ., Axundova. N. Ç., Bağırova. A. R. Asiya və Afrika ölkələrinin çağdaş tarixi: 1945-ci ildən sonrakı dövr. II kitab. Bakı. Adiloğlu, 2004. 592 s.
7. Karakır İ. A., Aknur M. Devrimler sonrası arap kadını'nın siyasi temsili: bir arap baharı yanılgısı mı? Ankara Üniversitesi. SBF Dergisi. 2015, Cilt 70, No. 1, s. 131 - 162
8. Telci İ. N. Mısır'da askerı darbe sonrası süreç ve yenı anayasa. Analiz. Mart 2014 sayı: 86

UOT 316

AZADLIQ FENOMENİNİN SOSİOMƏDƏNİ TƏBİƏTİ

Kamran Rövşən oğlu Vəlizadə
Naxçıvan Dövlət Universiteti
kvelizadeh@yahoo.com

Giriş

Azadlıq hüquqi dövlətin mənəvi-əxlaqi və təşkilati sosial normaları ilə qarşılıqlı əlaqədədir. Burada siyasi, hüquqi, iqtisadi, mənəvi-əxlaqi sosial normaların azadlığa təsiri, hüquqi dövlətin tətbiq etdiyi qanunların və normaların azadlığın reallaşmasında oynadığı mühüm rol diqqəti xüsusi olaraq cəlb edir. Demokratik cəmiyyəti anarxiyadan qoruyan başlıca amil azadlığın məsuliyyətlə vəhdət təşkil etməsidir. Demokratiyanın mənimsənilməsi, hüquqi dövlət quruculuğunun inkişafı bu vəhdəti daha da möhkəmləndirir. Azadlığın bütün növləri məsuliyyətin müxtəlif formaları-hüquqi, siyasi, mənəvi-mədəni məsuliyyətlə sıx şəkildə əlaqəlidir.

Əsas hissə

Siyasi aksiologiyanın tərkib hissələrindən biri olan azadlıq fenomeni özünün sosiomədəni təbiətilə fərqlənir. Azərbaycan tədqiqatçısı Q.Allahverdiyev azadlığın sosial-fəlsəfi təhlili zərurətini

müasir dövrdə dəyərlərin yenidən mənalandırılmasının universal prosesinin tələblərilə əlaqələndirir. O bildirir ki, azadlığın universal dəyər olması yeni tərzdə qiymətləndirilməyə başlanmışdır. Təkcə azadlıq deyil, humanizm, demokratiya, ədalət və s. kimi universal dəyərlər də yeni baxış bucağından qiymətləndirilir. Azadlıq bu dəyərlər ilə sıx bağlıdır. Müəllifin fikrincə, hazırda azadlıq haqqında yeni dünyagörüşü səviyyəsində daha dərindən fəlsəfi araşdırmalar aparılmalıdır [3, s.7]. Bununla da azadlığın siyasi aksioloji fenomen kimi ümümbəşəri dəyərlər sistemində mühüm yer tutduğu diqqətə çatdırılır.

Ulu öndər Heydər Əliyev ölkəmizdə yürüdülən daxili siyasətdən bəhs edərək deyirdi:"Daxili siyasət Azərbaycanda demokratik, hüquqi dövlət qurmaq, bazar iqtisadiyyatı yaratmaq və iqtisadi islahatlar aparmaqdan, Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq, hüquqlarının qorunmasını təmin etmək və öz rifahı halını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarətdir" [2, s.90-91]. Burada ədalətli, azad, demokratik hüquqi dövlətin zəruriliyi önə çəkilir. Azərbaycanın strateji məqsədlərinin hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun reallaşması azadlığın həyata keçirilməsilə müşaiyət olunur. Bu zaman azadlıq demokratiya, humanizm, ədalət kimi ümumbəşəri dəyərlərlə vəhdət təşkil edir. Məhz bu dəyərlərin reallaşması əsasında hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu uğurla inkişaf edir.

Müəyyən obyektə və subyektə malik olan azadlıq təzahürünə görə təbii və sosial növlərə bölünür, özününəzarət və özünütənzimləmə xüsusiyyətlərilə fərqlənir. Bundan başqa azadlığın pozitiv və neqativ, daxili və xarici növləri də vardır. İradə, düşüncə, fikir, seçim azadlığı da mövcuddur. Ümümən azadlıq idealının gerçəkləşməsi demokratiyanın genişlənməsində, hüquqi dövlət quruculuğunda misilsiz əhəmiyyət kəsb edir.

Azadlığın sosial-fəlsəfi aspektdən geniş və hərtərəfli tədqiqatçılarından olan Q.Allahverdiyev göstərir ki, demokratik cəmiyyət və hüquqi dövlətdə azadlıq məsuliyyətin olmasını tələb edir. Belə ki, bu sistemdə onlar bir-birini tamamlayır. Doğrudur, cəmiyyətdə onların hər birinin öz yeri vardır, bununla belə onlar bir-birilə qırılmaz əlaqədədir [4, s. 82]. Bu fikirdən aydın olur ki, demokratik cəmiyyətdə və hüquqi dövlətdə mövcud olan siyasi hüquqi, iqtisadi, sosial və mənəvi azadlıqlar fərdin, sosial qrupun, bütövlükdə millətin müvafiq məsuliyyət formalarına əsaslanır.

Hüquqi dövlət quruculuğunda azadlıqla mənəvi dəyərlər də qarşılıqlı əlaqə təşkil edir.Hüquqi dövlət quruculuğu prosesində azadlığın reallaşması təmin edilir.

Şübhəsiz aydın olur ki, hüquqi dövlət azadlığın bütün növlərinin məcmu şəkildə tam həyata keçirilməsini təmin edən demokratik təsisatdır.

Hüquqi dövlətin əsasını təşkil edən azadlıq, sosial ədalət və bərabərlik bir-birilə vəhdət təşkil edən siyasi aksioloji kateqoriyalardır. Azərbaycanda hüquqi dövlət quruculuğu yolunda əldə edilmiş nailiyyətlər azadlıq, bərabərlik və ədalət ideallarının gerçəkləşməsilə müşayiət olunur. Azadlıq-lardan geniş bəhrələnmək, bərabərlik və ədalət prinsiplərinin pozulmaması hüquqi dövlətin əsas strateji məqsədlərindən biridir. Hüquqi dövlətdə mənəvi idealın reallaşması üçün azadlığın təmin olunması əsas rol oynayır. Mənəvi ideal və azadlıq bir-birlərinə qarşılıqlı təsir edən fenomenlərdir.

Hüquqi dövlət quruculuğunda əsas yer tutan siyasi aksioloji kateqoriyalardan biri inam, etimad (etibar) anlayışıdır. İnam insan təbiətinin təzahürü olub şəxsiyyətə xeyirxah münasibəti ifadə edir, emosional sahədə məhəbbət, dostluq, ümid, əməkdaşlıq üçün əsas yaradır.

İnam ümumi norma və dəyərlər əsasında cəmiyyətin birləşdirici və tənzimləyici vasitəsi kimi çıxış edir. İnamın şəxsi və sosial amilləri bir-birilə qarşılıqlı sürətdə bağlıdır.

İnam öhdəyə götürülmüş vəzifələrin məsuliyyət və borcun yerinə yetirilməsi, umidvericilik, xeyirxahlıq, əxlaqi öhdəliyə haqq qazandırılması ilə səciyyələnən bir fenomendir. Etimad əsas dəyərlərdən biri kimi bütün ictimai həyat sahələrində keçərlidir. Cəmiyyətdəki insanların milli şüurun inkişafındakı maraq və mənafelərinin ümumiliyidə də etimad məsələsi ilə bağlıdır. Etimad azadlıq və ədalət ilə də sıx bağlıdır [5]. Göründüyü kimi, etimad hüquqi dövlətin əsasını təşkil edən siyasi aksioloji kateqoriyaların-ədalət, azadlıq haqqında təsəvvürlərin, siyasi, hüquqi mənəvi amillərin gerçəkləşməsində həlledici rol oynayan anlayışdır.

Etibarlılıq hüquqi dövlətin ictimai və şəxsi həyat sahələrində-şəxsi münasibətlərdə məhəbbət və dostluğun yaranmasında, ailədə, işdə, bazarda, səhiyyədə, kredit sahəsində, iqtisadiyyatda harmoniyaya, ahəngdarlığa səbəb olur. İnsan kapitalı, sosial kapital və maliyyə kapitalı arasında etimad yaradılması zəruri və mühüm amildir. Bütün sahələrdə etimadsızlığın yaradılması olduqca dağıdıcı rol oynayan neqativ prosesdir.

Burada əsasında etimadın, inamın durduğu praktika – hüquqi dövlət, bazar iqtisadiyyatı və vətəndaş cəmiyyətinin real konstruktivliyinin qarşılıqlı təsirini ifadə edən sosial əməkdaşlıq mühüm rol oynayır. Etimad, sosial əməkdaşlıq, hüquqi dövlət quruculuğu prosesinə təsir edən ictimai əlaqələr, qarşılıqlı təsir, birləşdirmə, möhkəmləndirmə forması olub ekologiya, təhlükəsizlik, sağlamlıq, təhsil, incəsənət və elmdə, dərin kommersiya rejimi şəraitində bazar iqtisadiyyatının təmin etdiyi sosial rifahın yaranmasında əsas rol oynayan amillərdir.

Hüquqi dövlətin ali dəyərləri arasında siyasi aksiologiyanın yüridik və dövlət-idarəçilik anlayışları da əsas yer tutur. Şübhəsiz ki, burada dar mənada işlənən "dövlət anlayışı deyil, geniş mənada ərazi, əhali və kütləvi hakimiyyəti özündə birləşdirən "dövlətçilik" və "ali dəyərlər" diqqəti cəlb edir. Bu gün siyasi aksiologiya artıq hüquqi dövlət praktikası ilə birləşmişdir. Postsovet ölkələrindən olan Azərbaycanda da Qərb–Şərq dəyərləri əsasında spesifik, özünəməxsus dəyərlərimiz formalaşmışdır. Dəyərləri tarixi zaman miqyasına görə aşağıdakı kimi təsnif edirlər: bəşəriyyət üçün bütün dövrlərdə əhəmiyyətli olan əbədi dəyərlər, sivilizasiyaların və xalqların mövcudluğu miqyasındakı meqatarixi dəyərlər, dövrlər miqyasındakı nəsli dəyərlər və cari hadisələr miqyasında konyunktur dəyərlər.Aksioloji məkan fərqlərinə görə isə aşağıdakı dəyər tipləri mövcuddur: universal, milli, lokal-qrup və fərdi dəyərlər.

Azərbaycanın qədim dövlətçiliyindən bugünkü müstəqil, milli demokratik hüquqi dövlətə aksioloji dəyərlər irsən keçərək onlardan bəziləri (əbədi, meqatarixi, dövri, universal, milli dəyərlər) ali dəyər əhəmiyyəti kəsb etmişdir.

Azərbaycan Respublikasının yaradılmasında dünyanın demokratik dövlətlərinin təcrübəsindən, qabaqcıl siyasi aksioloji prinsiplərdən istifadə edilməsinə də xüsusi əhəmiyyət verilir. Heydər Əliyev göstərirdi ki, "biz demokratik, hüquqi, dünyəvi dövlət qurmaq üçün inkişaf etmiş Qərb ölkələrinin dövlət quruculuğu, demokratik prinsiplərinin bərqərar olması sahəsində əldə etdiyi nailiyyətlərindən istifadə edirik və edəcəyik [1, s.409]. Ona görə də Azərbaycanda milli və ümumbəşəri siyasi aksioloji prinsiplərin əhəmiyyəti və zərurəti mühüm rol oynayır, xalqın nəzarəti hüquqi dövlətin yaranmasına və siyasi aksioloji prinsiplərin reallaşmasına, hüquqi, iqtisadi, siyasi və sosial stabilliyn, sülhün, əmin-amanlığın və təhlükəsizliyin təmin edilməsinə təsir edir. Hüquqi dövlətin əsas siyasi aksioloji əlamətlərindən biri insan varlığının, onun ləyaqətli həyat keyfiyyətinin təmin edilməsi, demokratik siyasi institutların ayrılmaz tərkib hissəsi olan hüquq sistemidir.

Sosial fəlsəfədə hüquqi dövlət və siyasi aksiologiyanın qarşılıqlı münasibətlərinə dair iki nəzəriyyə mövcuddur:

- liberal-demokratik nəzəriyyə;
- radikal demokratik nəzəriyyə.

Liberal-demokratik konsepsiyaya görə, hüquqi dövlətdə azad insan, onun əxlaqi azadlığı öz həyatı ilə müəyyən olunur. Hüquqi dövlət hər bir fərd üçün bərabər hüquq verir.

Radikal-demokratik konsepsiyaya görə isə ağıllı insan azad varlıq kimi yalnız təbii vəziyyətdə mövcud ola bilər, ictimai vəziyyətdə isə o sosial insan kimi cəmiyyətin dəyərlərini rasionalcasına qəbul edə bilər. Hüquqi dövlət müqavilə əsasında əmələ gəlir və cəmiyyəti dəyərlərlə və siyasi aksioloji prinsiplərlə idarə edə bilər. Onun daşıyıcısı kimi xalq çıxış edə bilər. İctimai vəziyyətdə insanın azadlığını dövlətə qanunlar vermək idarəsinə malik xalq təmin edə bilər.

Azərbaycan Qərbin demokratik siyasi aksioloji prinsiplərini qəbul etdi, lakin liberal-demokratik dəyərlərdən özünün milli ənənələrinə uyğun olanları istifadə edərək, milli hüquqi dövlət quruculuğunu həyata keçirdi. Ölkəmizdə milli hüquqi dövlət quruculuğunun xarakterini aşağıdakı siyasi aksioloji prinsiplərlə səciyyələndirmək olar:

- cəmiyyətdə hüquqi mədəniyyətin və hüquqi şüurun elə səviyyəsi yaranır ki, həm idarə edənlərin, həm də idarə olunanların təbii hüquqi baxışları biri digərinə uyğun gəlir;
- cəmiyyət üzvləri hakimiyyəti şüurlu surətdə qəbul edir, bir-birinə qarşı qarşılıqlı etimad göstərir;
- dövlət qanunlar və normativ aktlar qəbul edir və onlar insanların təbii hüquqi vəziyyətləri ilə üst-üstə düşür, həm cəmiyyət üzvləri, həm də dövlət adamları ona tabe olur və onu icra edirlər.

Hüquqi dövlət özünü iki aspektdə biruzə verir:1)vətəndaşların suverenliyi; 2) dövlətin suverenliyi.

Vətəndaşların suverenliyi özünü aşağıdakı yollarla reallaşdırır:birinci, cinsindən, etnik mənsubiyyətindən, dini əqadəsindən, irqi fərqlərindən asılı olmayaraq qanun qarşısında hamının eynihüquqlu olması; şəxsiyyətin müstəqilliyi, özünü təsdiq edə bilməsi; ailələrin və şəxsi mülkiyyətin təhlükəsizliyinin qorunması; cəmiyyətin ictimai-siyasi həyatında iştirak [6, s.167-169]. Müəllif milli, hüquqi dövlət quruculuğunda hüquq və hüquq mədəniyyətinin siyasi aksioloji aspektlərinə toxunaraq azərbaycanlıların və Azərbaycanın milli suverenliyinin daxildə və xaricdə təmin olunması məsələsini önə çəkən ölkədə hüququn, azadlıq və bərabərliyin humanist xarakter daşıdığını, milli və ümumbəşəri sərvət, ideal dövlət modelinin rasional təşkili və ictimai quruluşun bütün sisteminin dəyişdirilməsini, milli maraqlara xidmət etməsini diqqətə çatdırır.

Hüquqi dövlət orqanlarının siyasi-hüquqi institut kimi formalaşmasının humanistləşməsinin əsasında aksioloji fundament, o cümlədən siyasi aksioloji prinsiplər, aksioloji yanaşma konsepsiyası və aksioloji modelləşdirmə metodologiyası durur. Bu prosesdə əsas siyasi aksioloji prinsiplər aşağıdakılardır:

- milli özünüidentiklik və milli özünüifadə;
- sivilizasion-mədəni şərtlənmə;
- multikulturalizm və dözümlülük;
- azadlıq və məsuliyyətlə həmrəylik;
- demokratiya, obyektivlik və aşkarlıq;
- regional inkişafın uyğunluğu [7].

Burada siyasi aksioloji prinsiplərin kompleks xarakter daşıdığını bir-birilə qarşlıqlı əlaqədə və qarşılıqlı asılılıqda olduğunu nəzərdə saxlamaq lazımdır. Bu siyasi aksioloji prinsiplərin reallaşması hüquqi dövlətin formalaşmasına aksioloji yanaşma konsepsiyası çərçivəsində həyata keçirilir. Bu konsepsiya insana, cəmiyyətə və hüquqi dövlətə humanist baxışlar sistemini əks etdirir. Hüquqi dövlətə humanist baxışların siyasi aksioloji konsepsiyası sivilizasion-mədəni etnomilli, milli dövlətçilik, siyasi hüquqi müxtəlifliyin qəbul edilməsini əks etdirir. Hüquqi dövlət quruculuğu prosesində siyasi aksioloji modellərin metodologiyası şəxsi inkişaf və hüquqi dövlət orqanlarının formalaşması konteksində dörd səviyyədəreallaşır:

- ümumbəşəri,
- etnomilli,
- sivilizasion-mədəni,
- sosial ümummillik və birlik səviyyələrində.

Ümumbəşəri səviyyədə daxili və xarici qarşılıqlı təsir demokratizm, ümumi və regional inkişafın ahəngdarlığı, etno-milli və sivilizasion-mədəni səviyyədə milli özünüidentiklik, sivilizasion-mədəni şərtlənmə və tolerantlıq, sosial ümumilik və birlik səviyyəsində dialoqluq, qarşılıqlı siyasi-hüquqi sosial məsuliyyət kimi siyasi aksioloji prinsiplər əsasında həyata keçirlir. Hüquqi dövlətin formalaşması, humansitləşməsi aşağıdakı meyarlarla ifadə olunur:insanın həyati mövqeyi, siyasi fəallığı və siyasi potensiyalının formalaşması; siyasi-hüquqi münasibətlərin subyekti kimi öz siyasi idealları, ideyaları, seçimləri vasitəsilə öz insanlığının qoruması; fəaliyyətin ümumbəşəri, etnososial sivilizasion-mədəni dəyərlərə yönəlmiş siyasi-hüquqi strategiyasının reallığı;hüquqi dövlət orqanlarının siyasi aksioloji yönümü əsasında yeniləşməsi reallığı.

Bu gün əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanın hüquqi dövlət quruculuğu onun layiqli siyasi davamçısı dövlət başçısı İlham Əliyev tərəfindən inkişaf etdirilərək siyasi aksioloji prinsiplərin təsiri ilə güclü modernləşmiş dövlətə çevrilmişdir. Bu kursun uğurla həyata keçirilməsi nəticəsində Azərbaycan günü-gündən inkişaf edir, dövlətçilik siyasətinin həyata keçirilməsində milli maraq və mənafelər nəzərə alınır, iqtisadiyyat möhkəmlənir, xarici əlaqələr genişlənir, demokratik dəyərlərə əməl olunur, hüquqi dövlət quruculuğunun bütün meyarlarına riayət olunur, vətəndaş cəmiyyətinin strukturları öz fəaliyyətini artırır, qanunların və qanunvericilik aktlarının qəbulunda beynəlxalq standartlar nəzərə alınır, insanlara ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi üçün imkanlar yaradılır.

Nəticə

Hüquqi dövlət quruculuğu prosesində siyasi aksioloji prinsiplər mühüm yer tutur. Siyasi aksiologiya milli, mənəvi aksiologiya ilə qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdə olub, demokratik, unitar, hüquqi Azərbaycan dövlətində əsas amil kimi çıxış edir. Siyasi aksiologiya müxtəlif yönümlü dəyərlər sistemi kimi Azərbaycan dövlətçiliyində qanunun aliliyinin, sosial ədalətin, təhlükəsizliyin, azadlığın, inamın, insanların mənəviyyatının hüquqi və qanuni maraqlarının müdafiəsində əsas rol oynayır. Bu gün siyasi aksiologiyanın əsas dəyərləri, formaları və institutları hüquqi dövlət quruculuğu prosesində həlledici əhəmiyyət kəsb edir.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında / H.Ə.Əliyev.-Bakı:Bakı Universiteti Nəşriyyatı, -2001. -132 s.

2. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir. 32-ci kitab / H.Ə.Əliyev. -Bakı: Azərnəşr, -2010. -608 s.

3. Allahverdiyev Q. Azadlıq (sosial-fəlsəfi təhlil) / Q.Allahverdiyev. - Bakı: Adiloğlu, -2009. -262 s.

4. Allahverdiyev Q. Azadlığın sosial-fəlsəfi təhlili və tədrisinin metodoloji məsələləri/Q.Allahverdiyev.-Bakı:Adiloğlu, -2016. -125 s.

5. Доверие – Политическая философия: [Электронный ресурс] / Москва, https:/studme.org/1314011229578/filosofiya/doverie

6. İbadova A. Milli hüquqi dövlət quruculuğu məsələləri//Müasir qlobal siyasi proseslər və milli dövlət ideyası. -Bakı: Səda, -2006. s.165-175

7. Гуманизация порядка формирования государственных органов и ее аксиологическая начала: [Электронный ресурс] / Москва, /https/lawbook.online/qosudarstvennıx-pra-va-teoriya/qumanizatiya-poruadka-formiorvaniya-71861/html.21.05.2015/

UOT 376.2/4; 37(4/9)

ƏLİLLİYİ OLAN UŞAQLARIN TƏHSİLİ – YAPONİYA MODELİ

Kəmalə Məhəmməd qızı Qurbanlı
Azərbaycan Dillər Universiteti
Qərbi Kaspi Universitetinin dissertantı
kamalaqurbanli@gmail.com

Əlilliyi olan uşaqların məktəbə getmə ehtimalı olmayanlara nisbətən azdır. Onlar məktəbə getsələr belə, əksər hallardaaldıqları təhsil səviyyəsi yaşıdlarından aşağı olduğu üçün məktəbi erkən tərk etmək ehtimalı daha yüksəkdir. Sağlamlıq imkanları məhdud uşaqlar çox vaxt məktəb binalarının yararsız olması səbəbindən məktəbə gedə bilmirlər. Bundan əlavə, öz icmalarında və

müəllimlər arasında onların öyrənmə ehtiyacları ilə bağlı məhdud anlaşma mövcuddur ki, bu da tez-tez əlilliyə dair qərəzlərdən qaynaqlanır.

UNICEF-in 2021-ci il əlilliyi olan uşaqlar haqqında hesabatında və MICS-EAGLE məlumat vərəqlərindəki məlumatların təhlili göstərir ki, bir çox ölkələrdə bütün təhsil səviyyələrində əlilliyi olan uşaqların məktəbə getmə ehtimalı əlilliyi olmayan uşaqlara nisbətən daha çoxdur. Əlilliyi olan uşaqların məktəbə girişi və iştirakına mane olan bir sıra səbəblər var. Bura onların ehtiyaclarının və yaxşı təlim keçmiş müəllimlərin dərk olmaması, adekvat sinif dəstəyinin və ya əlçatan imkanların olmaması kimi amilləri qeyd edə bilərik. Sinifdəki bütün uşaqların müxtəlif ehtiyaclarını ödəmək və bütün uşaqları öyrənmə müddətində dəstəkləmək üçün əsas açar uyğun mühitlər və inklüziv təhsil siyasətləridir [2].

Yaponiya dünyanın inkişaf etmiş ölkələrindən biridir və bir çox sahədə olduğu kimi, təhsil sistemində də fərqli yanaşması ilə seçilir. Sağlamlıq imkanları məhdud uşaqlar da dövlət tərəfindən təhsillə təmin edilir.

Burada əhali arasında əlilliyi olan insanlara qarşı fərqli yanaşmalar da mövcuddur. Yaponiyada buddizm inancında olan insanların fikrinə görə, bir adamın əlilliyi varsa, onun ya özünün, yada ailəsinin əvvəlki həyatdakı səhvlərinə görə cəzalandırılmışdır. Bu yanaşma eynilə şintoizmdə də mövcuddur. Yapon mifologiyasında əsas məsələlərdən biri saflıq və pislik, həyat və ölüm arasında münasibətdir. Şintoizmdəki saflıq təsəvvürünə görə də müəyyən mənada əlilliyi olan insanlar dəyərsiz qəbul edilir. VIII əsrdə Yaponiyada imperator Konfutsi təlimini əsas götürüldüyü vaxtda əhali sosial sinfə bölünmüş və əlilliyi olan şəxslər də arxa planda qalmışdır. Bütün bunlara baxmayaraq yapon təhsil sistemində sağlamlıq cəhətdən məhdudu uşaqlar üçün də təhsil almaq şəraiti yaradılmışdır. Belə ki, Yaponiyada ilk dəfə 1872-ci ildə dövlət təhsil sisteminin əsasına çevrilən Təhsil Sistemi elan edilmişdir. Sistem vətəndaşların milli gücünü qüvvətləndirmək - inkişaf etdirmək məqsədi ilə universal məktəbə çağırırdı. Bura, həmçinin, əlillər üçün məktəblər də (Haicin Gakko) daxil edilirdi. 1878-ci ildə Kyotoda kor və karlar üçün ilk xüsusi təhsil məktəbi, 1890-cı ildə isə Matsumotoda ilk əqli qüsurlu sinif açılmışdır. 1930-cu ildən etibarən xüsusi təhsil məktəbləri və əlillər üçün xüsusi siniflərin sayı artmağa başlamış, lakin İkinci Dünya müharibəsi zamanı 100-dən çox əlillər üçün təhsil ocağı bombalarla dağıdılmışdır. Bundan sonra əlil uşaqlar məktəb olmayan kəndlərə köçürüldü. İkinci Dünya müharibəsindən sonra xüsusi təhsil sahəsində demokratik təhsil fəlsəfəsinə uyğun yeni strukturlaşma başlandı.

XVII əsrdən etibarən görmə qabiliyyəti zəif olanlar üçün masaj və iynəbatırma təlimləri vacib və geniş yayılmış məşğulluq sahəsi olmuşdur. Hazırda korlar üçün məktəblərdən əlavə 1 universitet, 5 reabilitasiya mərkəzi və 3 özəl mərkəz masaj və iynəbatırma təhsili verir və bu təhsil müddəti ən az 3 il davam edir. Yaponiyada təxminən 30000 görmə məhdudiyyətli insan dövlət və ya özəl klinikalarda və ya sərbəst şəkildə bu sahədə fəaliyyət göstərirlər. Gözdən əlillər üçün başqa sahədə iş tapmaq asan deyil [4].

Yaponiyada 1878-ci ildə Kyotoda kor və karlar üçün ilk xüsusi təhsil məktəbi, 1890-cı ildə isə Matsumotoda ilk əqli qüsurlu sinif açılmışdır. 1930-cu ildən etibarən xüsusi təhsil məktəbləri və əlillər üçün xüsusi siniflərin sayı artmağa başlamış, lakin II Dünya müharibəsi zamanı 100-dən çox əlillər üçün təhsil mərkəzləri dağıdılmışdır. Bundan sonra əlil uşaqlar məktəb olmayan kəndlərə köçürülmüşdür. İkinci Dünya müharibəsindən sonra xüsusi təhsil sahəsində demokratik təhsil fəlsəfəsinə uyğun yeni strukturlaşma başlandı.

1947-ci ildə qəbul edilən təhsil qanunu ilə altıillik ibtidai məktəb və üçillik orta məktəb icbari təhsil kimi qəbul edilmişdir. Sonrakı illərdə xüsusi təhsil məktəblərinin sayı getdikcə artmış, 1979-cu ildən inteqrasiyalı təhsil tətbiqinə keçid prosesinə başlanılmışdır.

Əvvəlcə ümumtəhsil məktəblərində əlilliyi olan şagirdlərin ehtiyaclarının lazımi səviyyədə ödənilməməsinə görə tənqid edilmişdir. Bu təcrübənin faydalı olmayacağı, buna görə də inklüziv təhsil sahəsində inkişafın çox ləng getdiyi iddia edilmişdir. 1993-cü ildə "Xüsusi təhsil haqqında" qanuna edilən dəyişikliklə əlillərin təhsil aldığı ümumtəhsil məktəblərində xüsusi təchiz olunmuş iş

otaqlarının yaradılması icbari olmuşdur. 2003-cü ilə qədər inklüziv təhsil alan əlillərin sayı təxminən 33600 nəfərə yüksəlmişdir [1].

Yaponiyada məcburi təhsil səviyyələrini dövlət maliyyələşdirsə də, maliyyə dəstəyi erkən uşaqlıq təhsili və qayğısı, ali təhsildə məhduddur. Bu sosial-iqtisadi statusu aşağı olan qadınlar, ailələr və tələbələr üçün potensial imkanları məhdudlaşdırır. Eyni problem əlilliyi olan ailələrdə də yaşana bilər [3].

2006-cı ilin dekabrında BMT Baş Assambleyasının 61-ci sessiyasında Əlillərin hüquqları haqqında konvensiya qəbul edilmiş, 2008-ci ilin mayında qüvvəyə minmişdir. Yaponiya isə bu müqaviləni 2007-ci ilin sentyabrında imzalamışdır.

Təhsil Kadrlarının Sertifikatlaşdırılması qanununa əsasən, xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işləyən müəllimlərin sertifiaktı olmalıdır. Onlardan iki sertifikat tələb olunur, biri əlilliyi olan uşaqlarla işləyə bilməsi üçün, digəri isə hansı sahədə (bağça, ibtidai, orta məktəb və ya lisey) işləyə bilməsi üçün [4].

Təhlillər göstərir ki, məhdudiyyətli uşaqların bir çoxu hələ də geridə qalıb. Hazırda Yaponiya təhsil sisteminə əsasən, bütün uşaqlar 6 yaşından etibarən məktəbə başlamalı və məcburi təhsil 6-15 yaşlarını əhatə edir. 1979 ilinə qədər əlilliyi olan uşaqlar üçün məcburi təhsil bir vacib hesab edilmirdi. Amma bu tarixdən sonra əlilliyi olan uşaqların da 6-15 yaşları arasında məcburi təhsil prosesində təhsil imkanlarından istifadə etmələri üçün xüsusi məktəblərin sayının artırılması və onların da ümumi məktəblərə davam edə bilməsi kimi effektiv tədbirlər görüldü. Qeyd edək ki, dünyada, eyni zamanda Yaponiyada son 20 il ərzində əlilliyi olan uşaqların təhsil mövzusunda əhəmiyyətli inkişaf əldə edilmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Halil Köseler. Japonya'da Özürlüler. 08 Mayıs 2008. https://engelsizerisim.com/
2. Database on education for children with disabilities. https://data.unicef.org/
3. Pierre Gouedard. Beatriz Pont. Education Policy in Japan: Building Bridges Towards 2030, Highlights. July 2018. https://www.researchgate.net/
4. Special Needs Education in Japan. https://www.nier.go.jp/

UDC 371:351.851

AZERBAIJANI EDUCATION DURING THE PANDEMIC

Konul Mammadzade
Azerbaijan State Pedagogical University
konul.kesa@yahoo.com

The COVID-19 pandemic has created different situations all over the world. Each country has defined specific strategies to get out of this situation with less losses. The World Health Organization (WHO) recognized Azerbaijan as country that chosed the most successful strategy during the pandemic. The pandemic left an important impact on education systems in the world. At the initial stage, the educational system of the countries was not able to respond adequately to the pandemic.

Azerbaijan in pandemic conditions covered a number of directions and stages. The Ministry of Education prepared and started implementing the "Action Plan for the prevention of the spread of the new coronavirus disease in the Republic of Azerbaijan". In order to minimize the effects of the pandemic the healthcare system has been strengthened and important steps have been taken to ensure economic stability. In order to intensify medical preventive measures in educational institutions, it was decided to stop the teaching and training process and to postpone all related

measures, and decisions in Azerbaijan. In accordance with the decision accepted the teaching and training process in all educational institutions was stopped in stages until the end of the academic year. In order to ensure the continuity of education, the Ministry of Education started implementing new initiatives without delay under the pandemic. [1]

First of all, work on the organization of tele-lessons at the general education level has been started. For this purpose, in a short period of time, a staff of highly professional teachers was identified, technical equipment issues were resolved, and the filming of tele-lessons was started. The choice of television to show the lessons was not accidental. There was a possibility that a certain part of students who had not fast internet connection in all regions of the country, especially in remote villages took part in these lessons. Taking into account that the state television covers the whole country, it was decided to broadcast the lessons on 2 television channels as "Culture" and "ARB Gunesh" channels of Azerbaijan Television. Time showed that it was the right decision, made at the right time. All tele-lessons shown are posted for free use on the electronic portal of the Ministry of Education www.video.edu.az and on the official "Facebook" page and on the "YouTube" channel, which creates additional opportunities for students.

The Ministry of Education has sent a letter of instruction to the educational institutions regarding taking medical-preventive measures, carrying out active awareness and explanation work among educators, students and parents regarding medical-preventive measures in educational institutions, providing institutions with necessary medical supplies. Disinfection works were started systematically in all educational institutions. The implemented measures had a significant impact on improving the sanitary and hygienic conditions in educational institutions. In addition to tele-lessons, 2-hour interactive shows dedicated to solving homework assignments are also presented every week, which provides an opportunity for feedback with students. These experiences of tele-lessons were later used by Georgia, Turkey, Ukraine, Great Britain and other countries. As a logical continuation of these works, as a next step, the "Virtual school" project was launched, and the country's largest national online platform was made available to students. Every student by registering on the "Virtual school" portal performed their homework based on the topics taught in tele-lectures and can benefit from additional educational resources. New tasks are added to the portal every week according to different topics and subjects. Registration of teachers on the portal was ensured, and opportunities were created for them to conduct online classes on the portal. The number of teachers and students registered on the online platform was more than 1 million. In addition to these, various traditional competitions were organized in virtual and online format. [2]

It should be emphasized that the educational platform implemented in Azerbaijan during the pandemic was included in the list presented on the official website of UNESCO and a list of distance education platforms, electronic portals and training applications has been presented on the official website of UNESCO in order to facilitate the learning process of students.

The Ministry of Education has succeeded in implementing measures related to the preschool education during the pandemic. In order to ensure the assimilation of educational programs, in accordance with the recommendation of the Ministry of Education, the various online platforms have been started in higher and secondary educational institutions. More than 100,000 students and professors have joined those classes so far. Higher education institutions have been given the opportunity to use the "MS Teams" platform provided by the Ministry of Education free of charge, and technical support is provided to them. In addition, the internal electronic management system of higher education institutions, "Blackboard Collaborate" program (ADA), KOICA company system (AZTU), "ZOOM" and "Moodle", "Google classroom" and other programs are widely used. Students who cannot participate in "online" classes for certain reasons have the opportunity to watch video recordings of lectures. The listed programs allowed students to place lectures, syllabuses, presentations, topics of free work, exam questions and other educational materials in that system.

A new look at the teaching profession was performed. The pandemic has once again confirmed how important the teaching profession is and the need for a teacher decreases as time passes. However, such events once again prove that teaching is a profession without an alternative. The society was once again convinced that Azerbaijani teachers have always fulfilled their assigned mission with honor, and in addition to providing students with excellent knowledge and literacy, they spent their whole lives on educating them in the spirit of national and moral values and Azerbaijaniism.

The process of electronic admission, which started before the pandemic, was continued. The electronic admission system created by the Ministry of Education a few years ago covered the whole country and this process was successfully implemented. An electronic competition and online interviews were organized for permanent employment of teachers who were hired with a fixed-term contract based on a centralized competition in general educational institutions, and about 1,200 teachers participated in those interviews. Currently, measures are being taken to transfer teachers.

The pandemic has strongly affected the entire lifestyle, behavior and activities of people. For this reason, the pandemic and the post-pandemic era have faced a number of challenges that are important to consider the education system. Wider application of distance learning experience at all levels of education, especially in higher education, solving the issues of technological equipment and providing qualitative internet connection in education is one of the important directions. One of the key lessons of the pandemic is that both educators and learners need to have excellent digital skills. The lack of such skills limits the possibilities of using high technologies and modern applications, creates serious obstacles to education and activity. In this regard, one of the main directions of action should be the expansion of measures that serve to form digital skills.

References

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli, 833-IIIQ nömrəli Qanunu
2. https://edu.gov.az/az/news-and-updates/18449

UOT 11

MÜASİR ŞƏXSİYYƏTİN İDRAKİ-İNFORMASİYA FƏALİYYƏTİ

Könül Muxtər qızı Salmanova
Naxçıvan Dövlət Universiteti
konulsalmanova999@gmail.com

Müasir cəmiyyətin hərəkətverici qüvvəsi mexanizminin ən fəal elementi şəxsiyyətin idraki-informasiya fəaliyyəti, tələbatı və mənafeyidir.

Hazırkı dövrdə ictimai fəaliyyətin növləri, məqsəd və vasitələri XVII əsrdən başlayaraq sürətlə dəyişir. İctimai fəaliyyətin həmin növlərindən biri şəxsiyyətin idraki informasiya fəaliyyətidir. Texnogen sivilizasiyanın inkişafı nəticəsində sosial əlaqələrin dinamizmi artır, nisbətən sürətlə transformasiya olur. Bəzən bir-iki nəslin mövcudluğu ərzində həyat tərzi, dəyər orientasiyaları keyfiyyətcə dəyişir və yeni şəxsiyyət tipi formalaşır. Bunu idraki informasiya fəaliyyəti timsalında daha aydın görmək olar. İdraki informasiya fəaliyyəti kommunikasiya tsiklininin tamamlayıcı mərhələsidir və eyni zamanda elmi kommunikasiyanın bütün əvvəlki mərhələlərində baş verən əsas prosesləri inteqrasiya edir. İdraki informasiya fəaliyyəti elmi kommunikasiya sisteminin komponentidir.

Müasir şəxsiyyətin kommunikativ fəaliyyətini informasiyasız təsəvvür etmək qeyri-mümkündür. Texniki-istehsal, elmi-tədqiqat, sosial proseslərin idarə olunması fasiləsiz və operativ informasiya tələbatını tələb edir. Kommunikasiyanın məğzini informasiya mübadiləsi, qarşılıqlı informasiya təsiri təşkil edir. İnformasiyanın istehsalının özü ünsiyyət deməkdir. Yerli informasiya texnologiyaları şəxsiyyətin yaddaşını dəfələrlə artırır, onun yaradıcı qabiliyyətini gücləndirir. İnformasiyalaşdırma bizim təfəkkür, həyat tərzimizə korrektivlər edir. O, hər bir məsələ üzrə informasiyanın minlərlə mənbəyini bizə təqdim edir, mənəvi həyatımızın dinamizmini sürətləndirir. Əvvəlki dövrlərdə müxtəlif nəsillərin fəaliyyətinin mənəvi məzmunu yüz illər ərzində dəyişirdi.

Hazırda informasiya axını insan fəaliyyətinin motivlərini və məqsədlərini qısa müddət ərzində transformasiya edir. Müasir cəmiyyətdə insanın şəxsiyyət kimi özünü reallaşdırmasında əsaslı mənəvi orientirlər, dəyərlər, informasiya axtarışı kimi əzablı və keşməkeşli proseslər baş verir. İnsan varlığının atributu olan informasiya prosesləri iki formada baş verir:

a) insan fəaliyyətinin bütün növlərinə hopmuş qarşılıqlı informasiya təsiri;

b) sosial informasiyanın istehsalını, işlənib qaydaya salınmasını, saxlanılmasını, ötürülməsini və qavranılmasını əhatə edən ixtisaslaşdırılmış informasiya fəaliyyəti.

Bu gün əzəldən insana xas olan idraki informasiya fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir.

N.P.Vaşekinin fikrincə, «kommunikasiya» anlayışı altında informasiyanın qarşılıqlı ötürülməsi prosesində meydana çıxan nisbətən sabit şəxsiyyətlərarası əlaqələri başa düşmək olar [1, s.140-141]. İnformasiya fəaliyyəti informasiyanın toplanması prosesindən başlanır. Toplanan informasiya sistemini tələbatına müvafiq olaraq işlənib qaydaya salınır, alınan məlumatlar elmi sənədlərdə təsbit olunur və son nəticədə elmi-tədqiqat və istehsal fəaliyyətində istifadə olunması ilə tamamlanır. İnformasiya fəaliyyətinin ən yetkin növü elmi-informasiya fəaliyyətidir (EİF). Sonuncuda elmi tədqiqatların, təcrübi konstruktor işlərinin, texniki sınaqların nəticələri qeydə alınır və ümumiləşdirilir. Bunu da nəzərə almaq lazımdır ki, elmi kommunikasiyanın informasiya aspektindən başqa, elmi informasiyanın sosial rolu və elmdə müəyyən sosial münasibətlərlə bağlı olan ictimai-təşkilati səpkisi də vardır [2, s.45].

İnformasiya fəaliyyətinin inkişafı və sosial sistemdə törətdiyi dərin dəyişikliklər bir sıra dünyagörüşü, metodoloji, sosial və digər problemlər doğurur. Ən başlıca problem informasiyanın sosial formasının və dəyər təbiətinin, qarşılıqlı informasiya təsirinin fəlsəfi-aksioloji təhlilidir. Sosial informasiya biliyin mövcudluq formasıdır. Sosial informasiyanı biliyin ən mürəkkəb və təhlil növü kimi səciyyələndirmək olar. O, gerçəkliyin obyektiv orientasiyaedici şəklidir və informasiya modelinin ideal (psixiki, virtual) formalarında mövcuddur. Sosial informasiya cəmiyyət haqqında bütün bilikləri deyil, yalnız sosial kommunikativ proseslərə aid olan bilikləri əhatə edir. O, müxtəlif funksiyalar həyata keçirir: kommunikativ, idarəetmə, idraki, tədris-tərbiyə, təbliğat və s. O, elmi-texniki və sosial-iqtisadi tərəqqiyə kömək etmək üçün informasiya mübadiləsini reallaşdırır. Sosial informasiya şəxsiyyət üçün elmi informasiyanın digər növləri ilə müqayisə edilən mühüm, əhəmiyyətli dəyərdir. Bu baxımdan müasir şəxsiyyətin idraki informasiya fəaliyyətini, onun mahiyyətini, strukturunu və funksiyalarını xüsusi olaraq təhlil etmək mühüm metodoloji, dünyagörüşü, nəzəri və praktiki əhəmiyyətə malikdir. Zənnimcə, tədqiqat predmetimizi sistemli fəaliyyət göstərmə və informasiya mövqeyindən yanaşma metodoloji prinsipləri əsasında araşdırmaq daha məqsədəuyğundur. Çünki idraki informasiya fəaliyyəti şəxsiyyətin ictimai və elmi kommunikasiya fəaliyyəti ilə ayrılmaz vəhdətdədir və sonuncunun mühüm bir komponentidir.

Sosial informasiya şəxsiyyətin informasiya fəaliyətində son dərəcə mühüm rol oynayır. Əgər obyektiv şəraitin başlıca elementi olan fəaliyyət prosesində əmək alətləri insanın təbiətə münasibətini vasitələndirirsə, onda informasiya insanlar arasındakı münasibətlərdə vasitələnmə funksiyasını yerinə yetirir. Sonuncu olmadan heç bir fəaliyyət həyata keçirilə bilməz.

Cəmiyyətin informasiya həyatının problemləri subyekt-obyekt münasibətlərindən kənarda tədqiq oluna bilməz. Çünki obyektiv aləm, bir tərəfdən insan şüurunda əks olunur, digər tərəfdən alınan nəticə məlumat formasında başqasına ötürülür. Ancaq subyekt-obyekt münasibətlərinin

ənənəvi təhlili bu problemə qnoseoloji mövqedən yanaşırdı. Bu cür halda dərk olunan obyekt passiv başlanğıc, subyekt isə obyekti dərk edən aktiv başlanğıc kimi çıxış edir. Lakin müasir fəlsəfi ədəbiyyatda subyekt-obyekt münasibətləri daha geniş planda götürülür [3, s.50-51]. Belə ki, subyekt yalnız dərk edən fərd deyil, həm də bu və ya digər sosial funksiyaları həyata keçirən şəxsiyyətdir. Şüur yalnız subyektin üstünlüyü deyil, obyekti də səciyyələndirir və obyekt də ona olan təsirə aktiv reaksiya verir. Ancaq qarşılıqlı təsirin asılılığında onun bir tərəfi aparıcı rol oynayır. İnformasiyanı istehsal edən və ötürən tərəf qarşılıqlı informasiya təsirinin aparıcı tərəfi kimi götürülə bilər, informasiyanın istehlakçısı isə prosesin aparıcı yox, aktiv tərəfi ola bilər.

İnformasiya prosesləri cəmiyyətin bütün sferalarına nüfuz etdiyinə görə şəxsiyyət labüt olaraq informasiya fəaliyyətinin bütün növlərində informasiyanın istehsalında, ötürülməsində və istehlakında iştirak edir. Buradan aydın olur ki, hər bir ayrıca halda eyni fərd (sosial qrup) qarşılıqlı informasiya təsirində həm subyekt, həm də obyekt kimi, yəni həm aparıcı başlanğıc, başqa situasiyada isə həm də aktiv başlanğıc kimi çıxış edə bilər.

Sosial informasiya şəxsiyyətinin həyatda qarşılaşdığı qeyri-müəyyənlik situasiyada qarşısına qoyduğu məqsədə çatması üçün ona seçim etməyə imkan verən xassəsidir. İnformasiya dəyərlidir, çünki qarşıya qoyulan məqsədə çatmağa kömək edir.

İdraki informasiya fəaliyyətinə aksioloji yanaşma sübut edir ki, sosial-informasiya informasiyanın ən yüksək növünə aiddir. Təsadüfi deyil ki, sosial informasiya nəzəriyyəsində sosial informasiya geniş xalq kütlələrini əhatə edən çox böyük ümumi dəyər sayılır. Bu münasibətdə E.P.Semenyukun belə bir fikri ilə razılaşmaq olar ki, informasiyanın əlamətləri içərisində dəyər xüsusi yer tutur. İnformasiyadan yalnız o halda danışmaq olar ki, informasiya dəyər əhəmiyyətinə malik olsun [5, s.43].

Cəmiyyətdə sosial informasiyadan istifadə olunması çoxməqsədli xarakter daşıyır. Buna baxmayaraq, bütün məqsədlər içərisində şəxsiyyətin informasiya cəmiyyətində fəaliyyəti ilə əlaqədar olan bir neçə əsas məqsədi ayırmaq olar. Şəxsiyyət və informasiya mühitinin qarşılıqlı əlaqəsi müxtəlif üsullarla həyata keçirilir: şəxsi və şəxsiz, bilavasitə və bilvasitə, uzunmüddətli və birdəfəlik kontakt və s. Lakin müxtəlif əlaqələrin bütün üsulları vahid məqsədə - informasiyanın alınmasına (şəxsiyyət üçün) və informasiyanın ötürülməsinə (informasiya mühiti üçün) xidmət edir. Şəxsiyyətin qəbul etdiyi informasiya onun baxışlarının, bu və ya digər dəyərlərə münasibətinin formalaşması prosesinə son dərəcə mürəkkəb və ziddiyyətli fenomen kimi daxil olur. Bu informasiya müəyyən mənada şəxsiyyətin şüurunun bu və ya digər elementlərini, sonra isə sonuncu vasitəsilə ictimai şüurun elementlərini dəyişir. İlk dövrlərdə bu qarşılıqlı təsir praktiki olaraq o qədər də hiss olunmaya bilər. Çünki əvvəlcə kəmiyyət dəyişmələri baş verir. Ancaq sonralar kəmiyyət dəyişmələri nəticəsində keyfiyyət dəyişmələri baş verir və şəxsiyyət qarşılıqlı informasiya təsirinin fəal iştirakçısına çevrilir.

Aksioloji baxımdan sosial informasiya mühüm dəyər kimi şəxsiyyətin müəyyən sosial sistem daxilində səmərəli fəaliyyət göstərməsi üçün əlverişli şərait yaradır. Deməli, şəxsiyyət sosial sistemin əsas elementi kimi sosial informasiyanı istehsal və istehlak edir. Sosial informasiya da öz növbəsində onu doğuran sosial sistemin spesifik cəhətlərini əks etdirir. Sosial informasiyanın əsas mahiyyəti və spesifikliyi bundan ibarətdir. Sosial informasiya hər şeydən əvvəl informasiya cəmiyyətinin, xüsusi informasiya fəaliyyətinin məhsuludur. Azərbaycan cəmiyyəti şəxsiyyətin harmonik, ahəngdar inkişafında maraqlıdır. Bu cür şəxsiyyətin formalaşmasında informasiya mühitinin rolu böyükdür.

Bu gün Azərbaycanda yeni informasiya mühiti formalaşdırılır. Nəzərə almaq lazımdır ki, bu proses mürəkkəb və ziddiyyətli xarakter daşıyır. Cəmiyyətin informasiyalaşdırılması yalnız iqtisadi və sosial tərəqqi deyildir. O, həm də bu cəmiyyətdə yaşayan insan üçün yeni həyat tərzi, yeni tələblər deməkdir. Texnogen sivilizasiyanın tərəqqisi özünün inkişafının yeni məhləsinə daxil olur. Burada elmi axtarışlar strategiyasının müəyyən edilməsində humanist dəyərlər, orientirlər başlıca amilə çevrilir. Belə şəraitdə Azərbaycan dövlətinin rolunun artırılması çox vacibdir. Dövlət hər

şeydən əvvəl informasiya mühitinin hüquqi əsaslarını təmin etməli və informasiya üzərində inhisara yol verməməlidir. İnformasiya üzərində inhisar bazar rəqabətini zəiflədir və ondan sərbəst istifadə etməyə imkan vermir. Bundan əlavə, dövlət Azərbaycan xalqının mentalitetinə milli dəyərlərinə, ideologiyasına zərər yetirə biləcək informasiya axınının qarşısını almalıdır.

Belə nəticəyə gəlmək olmaz ki, elmi biliklər və onların əsasında yaranan dəyərlər bəşəriyyəti narahat edən bütün problemlərin həllinin yeganə vasitəsidir. Təəssüf ki, bəzi filosoflar belə düşünürlər. Məsələn, noosfera nəzəriyyəsinin tərəfdarları təsdiq edirlər ki, elmi biliklər və onların əsasında yaranan dəyərlər özlüyündə qlobal miqyasda humanizm prinsiplərinin və ideallarının təntənəsinə təminat verir [4, s.93-94].

Zənnimcə, bu fikri məqbul hesab etmək olmaz. Çünki əsl həqiqətdə məlumdur ki, elmi biliklərə əsaslanan inkişaf etmiş ölkələrdə (ABŞ, İngiltərə, Almaniya, Yaponiya və s.) əvvəlki tarixi mərhələ üçün səciyyəvi olan bir çox ziddiyyətlər, problemlər hələ öz həllini tapmamışdır. Həmin ziddiyyətlər, problemlər sırasına aşağıdakıları aid etmək olar: artan əmlak differensiyası, etnik münaqişələr, xammal, maliyyə və texniki-texnoloji bazar uğrunda mübarizə, informasiya qeyri-bərabərliyi, atom və nüvə silahları, yüksək dəqiqiliklə uzaq məsafəni vuran qanadlı raketlər, müasir texnologiyaların tətbiqi nəticəsində ətraf mühitin çirkləndirilməsi və s. Doğrudur, elmi biliklərə və humanist dəyərlərə asaslanan inkişaf etmiş ölkələrdə potensial şər qüvvələrin minimum səviyyəyə endirilməsinə ciddi səy göstərilir. Lakin bəşəriyyəti onu gözləyən real təhlükədən xilas etmək üçün bu, hələ kifayət deyildir. Bundan əlavə, S.A.Xrapov çox düzgün yazır ki, insanın öz mədəni, psixiki-ekzistensial və bioloji atributlarını qoruyub saxlaması məsələsi də hələ açıq qalır [7, s.74].

Buradan belə bir nəticəyə gəlmək olar ki, informasiya fəaliyyətində dəyər anlayışı informasiya axını haqqında təsəvvürlər əsasında konkretləşdirilir. Dəyər ayrıca şəxs, sosial qrup və ümumilikdə cəmiyyət üçün əhəmiyyəti olan, müəyyən sosial sistemdə dövr edən, məkan-zaman sərhədi və istiqaməti olan məlumatlar məcmusudur, informasiya əhəmiyyət və işarələrin sintezidir [3, s.24-27].

İdraki informasiya fəaliyyəti (İİF) və onu tənzimləyən dəyərlər, normalar öz sosial statusuna görə institusionaldır. Biz institut dedikdə müəyyən ali, elmi-tədqiqat müəssisəsini, elmi birliyi, formal və qeyri-formal sosial strukturları və onlar arasındakı ictimai münasibətlərin tənzimlənməsini nəzərdə tuturuq. Zənnimcə, elm həm xüsusi institutdur, həm də elmi birliyin üzvlərini fəaliyyətinin və qarşılıqlı münasibətlərinin normativ tənzimlənməsi prosesini əhatə edir.

İdraki informasiya fəaliyyəti müvafiq dəyərlər, etik və hüquqi normalar, prinsiplər əsasında informasiya prosesinin normativ sistemi ilə nizama salınır. İİF-in tənzimləyici vasitələri olan institusional dəyərlərin, normaların spesifik xüsusiyyəti hər şeydən əvvəl ondan ibarətdir ki, onları fərdi motivasiya terminləri ilə izah etmək mümkün deyildir. Başqa sözlə deyilsə, həmin dəyərlər, normalar motivasiya səviyyəsində deyil, institusional səviyyədə fluksasiya oluna bilər. Sözü gedən dəyərlərdən, normalardan hər biri elmi birliyin kollektiv rəyinin obrazını, müəyyən komponentini ifadə edir. Elmi biliyin fəaliyyətini professional dəyərlər, normalar müəyyən edir. Elm özü də böyük institusional dəyərdir. Elmi rasionallıq və sosial münasibətlərin rasional təşkili insanın həyati fəaliyyətinin çox mühüm dəyəridir. Elm özündə açıq və yaxud gizli şəkildə humanist dəyərləri və orientirləri ehtiva edir.

Elmi idrak tarixən dəyişən fəaliyyət olmuşdur. O, bir tərəfdən tədqiq olunan obyektlərin xarakteri, digər tərəfdən isə sivilizasiyanın inkişafının müəyyən tarixi mərhələsinə xas olan sosial şəraitlə determinasiya olur. Elmi idrak və dəyərlər haqqında qiymətli fikirlər söyləyən V.S.Stenin belə hesab edir ki, elmin bünövrəsinin ən azı üç başlıca bölümünü seçib ayırmaq olar:

a) tədqiqatın idealları və normaları;

b) dünyanın elmi mənzərəsi;

c) tədqiqatın fəlsəfi əsasları [6, s.7].

Tədqiqat ideallarının və institusional normalarının məzmunu onların fəaliyyət göstərdikləri epoxanın mədəniyyətindən, həmin epoxada dominant rol oynayan dünyagörüşü ustanovkalarından

və dəyərlərindən asılıdır. Elmi idrakın ideal və normalarının dəyişməsi nəticəsində obyektlərin yeni tiplərinin dərk olunması imkanı yaranır.

Elmi fəaliyyət müəyyən birlik tərəfindən təşkil olunur. O, elmi birliyin üzvləri arasında qarşılıqlı əlaqələri və intellektual əməkdaşlığı ifadə edən mürəkkəb bir sistemdir. Elm, hər şeydən əvvəl, biliklər sistemi və ictimai fəaliyyətin xüsusi növüdür. Məhz buna görə də elm ən dəyərli informasiyanın, elmi biliklərin başlıca mənbəyidir. O, ictimai əmək bölgüsündə xüsusi struktura malikdir və bilavasitə məhsuldar qüvvə kimi çıxış edir. Bundan əlavə, elm ictimai şüurun xüsusi forması və spesifik sosial institutdur. Elm cəmiyyətdə informasiya proseslərinin real imkanlarını müəyyən edən və informasiya cəmiyyətinin statusuna təminat verən əsas milli informasiya resursudur. Elmin institusionallaşması sosial-tarixi hadisədir. Bu, mürəkkəb bir prosesdir. Onu nə təşkilati formaya (elmi-tədqiqat müəssisəsinin strukturuna), nə də birgə (kollektiv) əməkdaşlıq formasına müncər etmək olmaz. Məsələ burasındadır ki, professional institusionallaşmaya, hər şeydən əvvəl, mənəvi-əxlaqi, hüquqi, psixoloji və digər spesifik standartlar, qiymət vermə, dəyərlər, normalar daxildir. Deməli, elmin institusionallaşması özünü, yaradıcılığını elmi idraka həsr edən şəxsiyyətin idrakı fəaliyyətinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün zəruri olan nisbətən sabit ənənələrin, dəyər orientirlərinin, normaların xüsusi sosial formasıdır. Buradan belə nəticə çıxarmaq olar ki, elmi biliklər və onların əsasında meydana çıxan institusional dəyərlər, normalar şəxsiyyətin idraki informasiya fəaliyyətinin çıxış nöqtəsidir.

Cəmiyyət elmi-tədqiqat işlərinin başlıca strateji istiqamətlərini, habelə elm, mədəniyyət və təhsilin qarşılıqlı əlaqələrini tənzim edir. Elm predmet və hadisələrin, insanın davranışının və fəaliyyətinin mahiyyətini dərindən öyrənmək üsullarını, təfəkkür metodlarını işləyib hazırlayır. O, təbii və sosial proseslərin izahında aydınlığa, şəffaflığa nail olmağın, şəxsiyyətin, sosial qrupun, bütövlükdə cəmiyyətin qarşısında duran vəzifələrin həyata keçirilməsinin müvafiq vasitələrini axtarıb tapmağa çalışır ki, bu da dəyərlə bağlıdır. Ona görə də şəxsiyyətin əməli fəaliyyəti onun dünyagörüşü mövqeyindən irəli gələn praktiki dəyər ustanovkasından çox asılıdır. Beləliklə, elmi informasiya fəaliyyəti yeni elmi və praktiki nəticələr əldə etmək üçün tədqiqat prosesində alınan biliyin elmi informasiyaya çevrilməsində başlıca rol oynayır. Toplanan elmi biliklər informasiya fəaliyyətinin köməyi ilə mənəvi istehsal vasitəsinə çevrilir. Elmi informasiya sonrakı idraki və praktiki fəaliyyətin inkişafı üçün əlverişli zəmin yaradır. Elmi informasiya fəaliyyətinin son nəticəsi toplanan informasiyanın elmi-tədqiqat və yaxud istehsal prosesində istifadə olunması ilə tamamlanır.

Şəxsiyyətin intellektual, yaradıcı fəaliyyəti həqiqətə nail olmaq cəhdi, bilik sevgisi, bəşəriyyətə xidmət etmək arzusu və s. yüksək ideallar naminə həyata keçirilməlidir. Şəxsi karyeranı həyatının mənasına çevirmək, yalnız maddi mənfəət götürmək kimi eqoist məqsəd sözügedən dəyərin tələblərinə ziddir. Bu cür idraki fəaliyyət, praqmatik orientasiya baxımından elmə, mədəniyyətə, informasiyaya maraq da proqmatik mənafe ilə şərtlənir. Onun motivi isə fəaliyyətin bilavasitə özünə marağı ilə bağlı olmur. Belə tədqiqatçının idraki fəaliyyətinin motivi həqiqətə, idraka, elmi yaradıcılığa olan maraq deyil, hər hansı real mənfəət, qazanc, arzuladığı sosial status və s. əldə etmək, qoparmaq marağıdır.

Elmi biliklər sisteminə adaptasiya olunmaq mütəxəssisin şəxsi mənalı keyfiyyətindən çox asılıdır. Elmin sürətlə inkişaf etdiyi dövrdə hətta müstəsna qabiliyyətə malik olan şəxsiyyət müasir elmi biliklərin bütün məcmusunu mənimsəmək imkanına malik deyildir və bu mənada universal mütəxəssis ola bilməz. Ona görə də şəxsiyyətin inkişafı seçdiyi professional fəaliyyətə yaradıcı yanaşmağı və fundamental elmi bilikləri müvafiq surətdə təbii və sosial proseslərə tətbiq etməyi tələb edir. Bu, sözün həqiqi mənasında yeni biliklər əldə etmək sahəsində mühüm institusional dəyər olan yaradıcı fəaliyyətdir. Elm sosial-tarixi fəaliyyətin xüsusi növü kimi təkcə təmiz bilikləri deyil, həm də obyektiv və subyektiv planda bir sıra komponentləri əhatə edir.

Elmi informasiya fəaliyyəti iki əsas səpkidə baş verir: kornitiv və sosioloji. Bu iki səpkinin birləşdirilməsi öz ifadəsini elmi-informasiya fəaliyyətinin universallıq, unikallıq, intizamlılıq,

kommunikativlik və demokratiklik kimi xüsusi cəhətlərində tapır. Butün bu dəyərlər də həmçinin institusional dəyərlərdir. Lakin şəxsiyyətin idraki informasiya fəaliyyəti institusional dəyərlər ilə yanaşı, bir sıra spesifik əxlaqi-hüquqi normalar, prinsiplər vasitəsi ilə də nizama salınır. Bu sonuncular da mühüm dəyər əhəmiyyətinə malik olan normativ vasitələrdir.

Ümumbəşəri əxlaqi normalar və prinsiplər şəxsiyyətin idraki informasiya fəaliyyətini spesifik özünəməxsus şəkildə tənzim edir. Belə ki, "Yalan danışma!" kimi ümumbəşəri əxlaqi prinsip şəxsiyyətin idraki informasiya fəaliyyətində transformasiya olur və tədqiqatçıdan elmi informasiyanı, onun nəticələrini saxtalaşdırmamağı, təhrif etməməyi, yalan məlumatlara, faktlara əsaslanmamağı tələb edir. İntellektual şəffaflıq və əxlaqi şəffaflıq prinsipi bir-birilə qırılmaz vəhdətdə olmalıdır. İdraki informasiya fəaliyyətdə aldatma, saxtakarlıq etmə, faktları şişirtmə, qondarma məlumatlardan istifadə etmə, başqasının elmi fikirlərini öz adına yazma və s. kimi vicdansız hərəkətin formaları da spesifik şəkildə təzahür tapır və s.

İnformasiya qeyri-maddi xarakter daşısa da, obyektivləşdirilmiş, maddiləşdirilmiş formada təcəssüm olanda intellektual məhsul kimi elmi-texniki və yaxud kommersiya dövriyyəsinə daxil edilə bilər. Cəmiyyətin informasiyalaşdırılmasının sosial, psixoloji, ümummədəni, professional müqəddəm şərtləri təhsil sferasında formalaşdığına görə çox güman ki, texnogen sivilizasiyanın humanist dəyərlərə, orientirlərə istiqamət götürməsi şəxsiyyətin təhsildə təməli qoyulan keyfiyyətlərindən, xüsusiyyətlərindən asılı olacaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. Ващекин Н.П. Научно-информационная проблемы. М.: Мысль, 1984, 203 с.
2. Казанцева К.В. Научная организация информационной деятельности. М., 1985, 175с.
3. Коган В.З. Человек в потоке информации. Новосибирск, 1981, 177 с.
4. Ракитов А.И. Регулятивный мир: знание и общество, основанное на знаниях. «Вопросы философии», 2005, № 5, с.81-94
5. Семенюк Э.П. Информационных подход к познанию деиствительности. Киев, Наукова думка, 1988, 198 с.
6. Стенин В.А. Научное познание и ценности техногенной цивилизации. «Вопросы философии», 1989, № 10, 3-18 с.
7. Храпов С.А. Техногенный человек: проблемы социокультурной онтологизации. «Вопросы философии», 2014, № 9, 66-75 с.

UOT 5801.01

MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ NİTQ İNKİŞAFI MƏSƏLƏLƏRİ

Könül Zaur qızı Şıxəliyeva
doktorant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
konul.eliyeva.17@mail.ru

Məktəbəqədər təhsil müəssisələrində verilən təhsil təhsilin ilk pilləsi hesab olunur. Bu zaman verilən ilkin biliklər uşaqlarda dünyagörüşü, fiziki və psixi inkişafı, sadə əmək vərdişlərinə yiyələnməsi, təbiətə və insanlara həssas münasibətin və s. formalaşdırılması məqsədi daşıyır. Körpəlikdən uşaqların hər şeydən əvvəl nitq və təfəkküründün inkişaf etdirilməsi vacib şərtlərdəndir.

Müstəqillik yolunda inamla addımlayan respublikamızda da gənc nəslin tərbiyəsi daim diqqət mərkəzindədir. Bu gün məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə alan uşaqlar XXI əsrdə dövlət quruculuğunda, onun idarə olunmasında, ideya-siyasi bazasının möhkəmləndirilməsində yaxında

iştirak edəcəklər. Uşaqların nitqinin inkişafi, onlarin psixi, mənəvi, intellektual inkişafının ən önəmli hissəsidir. Nitqin olmaması, nitqin qüsürlu olması, söz ehtiyyatının azlığı uşağın psixikasına, ümumilikdə onun sosiallaşmasına mənfi təsir göstərir. Məhz bu səbəbdən də uşaqlara düzgün nitq vərdişləri, rabitəli nitq, səlis diksiya bacarıqları aşılamaq üçün, düzgün, müntəzəm, məqsədyönlü iş aparmaq zəruri şərtlərdən birincisidir [2, s.29].

Məktəbəqədər təhsilin məzmunu, ümumi inkişaf və təlim nəticələri müəyyən olunarkən varislik prinsipi əsas götürülmüşdür. Məktəbəqədər təhsil müəssisələrinin fəaliyyəti üçün müəyyən olunmuş standartlar nəticəsində qazanılmış bacarıqlar imkan verir ki, birinci sinifə gedərkən uşaqlar təlimlərini uğurla davam etdirsinlər. "Məktəbəqədər təhsil proqramı (kurikulum)"nın əsasında hazırlanan metodik-vəsaitlərin əsas məqsədlərindən biri də uşaqlarda savad təlimi və nitq inkişafı bacarıqları formalaşdırmaqdır.

Məktəbəqədər təhsil müəssisələrində balaca yaşlı uşaqların nitqini inkişaf etdirmək üçün nitq inkişafı üzrə işin istiqamətlərini, üsul və vasitələrini, məktəbəqədər yaşlı uşaqlara fikrini düzgün, lakonik və məntiqi ifadə etməyi öyrətmək önəmli məsələlərdəndir. Nitq bacarıqlarını yaxşı mənimsəmiş uşaqlar şifahi nitqi rahatlıqla başa düşür, anlayır, ünsiyyətdə olduğu insanlarla, yoldaşları ilə nitqlərini düzgün qura bilirlər. Həmyaşıdları, yaşlılarla söhbət edərkən öz fikirlərini aydın ifadə edir, valideyinlərindən, tərbiyəçi müəllimdən aldıqları tapşırığın yerinə yetirilməsi zamanı dəqiq məlumat verməyi öyrənirlər. Fikirlərini valideyinləri ilə, tərbiyəçi-müəllimlərlə, yoldaşları ilə bölüşə bilirlər. Ətraf aləmdə rastlaşdıqları əşya və hadisələrin adlarını dəqiq tələffüz etməyi, qrammatik cəhətdən düzgün, obrazlı, canlı danışmağı öyrənirlər.

Y.Kərimov yazır: "Nitq inkişafı metodikasının digər elmlərlə əlaqəsini bilmədən bu sahədə müvəffəqiyyət qazanmaq olmaz" [1, s.4]. Y.Ş.Kərimovdan gətirdiyimiz bu fikrində "nitq inkişafı metodikası" elm kimi anlaşılır. Eyni zamanda onu da nəzərə almalıyıq ki, nitq inkişafı təfəkkür inkişafı ilə dialektik vəhdət təşkil edir. Çünki nitq inkişafı təfəkkür inkişafını təmin edən, təfəkkür inkişafı da nitq inkişafını doğuran və ifadə edən zəruri amillərdir. Uşaqların təfəkkürünü inkişaf etdirməklə biz, şübhəsiz, onların nitqinə təsir edir və ya əksinə nitqini inkişaf etdirməklə, eyni zamanda təfəkkürün inkişafını da təmin etmiş oluruq.

Nitq inkişafı üzrə işi uşağın təfəkkürünün inkişafından ayırmaq olmaz. Dil uşağın fəaliyyətinin bütün dairələrində, bütövlükdə onun həyatında ünsiyyət vasitəsi rolunu oynayır. Onun idrak fəaliyyəti, təfəkkür fəaliyyəti dildə qeydə alınır və möhkəmlənir. Bu baxımdan nitqin inkişaf etdirilməsinin əhəmiyyəti böyükdür. Onun nitqi isə fikrinin fəal işinə əsaslanan idrak fəaliyyəti prosesində inkişaf edir. Deməli, fikrin məzmununun zənginləşməsi və dərinləşməsi nitqin inkişafı üçün qida verir.

Məktəbəqədər təhsil müəssisələrində uşaqların nitqini inkişaf etdirmək üçün bir çox vəzifələrin yerinə yetirilməsi lazımdır:

- lüğət ehtiyatının zənginləşdirilməsi,
- nitqin səs mədəniyyətinin tərbiyə edilməsi,
- nağıletmənin formalaşdırılması,
- nitqin qrammatik quruluşunun, dialoji nitqin formalaşdırılması,
- bədii ədəbiyyatla tanışlıq,
- uşaqların savad təliminə hazırlanması və s.

Körpə yaşlarından başlayaraq uşaqlara illüstrasiyalı xırda mətnlərdən ibarət kitablar oxumaq, nağıl danışmaq, müxtəlif animasiya filmlərini uşağa izah edərək göstərmək yaxşı nəticə verir. Uşaqların təfəkkürünü, təxəyyülünü formalaşdıran belə məşğuliyyətlər, müxtəlif yerlərə ekskursiyalar onların söz ehtiyatının, müxtəlif anlayışlar haqqında məlumatının çoxalmasına gətirib çıxarır. Kitablarda, filimlərdə, gəzib gördükləri yerlərlə bağlı onu düşündürən suallar verir. Bu zaman uşaqların suallarına ətraflı, onların anlayacağı formada cavab vermək lazımdır və yaxud uşaqlara sual verərkən onlardan bir sözlə, qısa cavab yox, geniş cümlələrlə cavablar almaq lazımdır.

Uşaqlar danışılanı başa düşürmü və bu onların marağını çəkirmi? Bu sual daim tərbiyəçinin diqqət mərkəzində dayanmalıdır. Uşaq eşitdiyini yadında saxlayır və ona verilən suallara bildiyi kimi cavab verir. Bu yolla uşağın həm nitqi inkişaf edir, həm də yaddaşı möhkəmlənir. Bu məsələlərdə valideyn-tərbiyəçi birliyi olmalıdır. Kompleks şəkildə iş aparılmalı, uşağın danışığına diqqətlə, səbrlə yanaşılmalı, yeri gəldikdə suallarla onun ardıcıl rabitəli nitqinə istiqamət verilməlidir. Əgər onların danışığında, tələffüzündə nöqsanlar olarsa, təhriflər yerindəcə düzəldilməlidir. Belə olan zamanda həm valideyn, həm də tərbiyəçi - müəllim uşağın səhv tələffüz etdiyi sözün düzgün variantı ilə müqayisəsini göstərsə daha faydalı olar. Məsələn, sən nə yeyirsən? sualına "armud", yoxsa "aymud", "qorxdun", yoxsa "ğoxdun", "sənsən" yoxsa "dəndən", "üdümlü" yoxsa "üzümlü" və s. Sonra isə sözü düzgün variantda demək və uşağın təhrif etdiyi səsi daha uzun tələffüz etmək lazımdır.

Uşaqlarda nitqin səs mədəniyyətinə yiyələnməsində oyunların, oyun xarakterli məşğələlərin rolu daha əhəmiyyətlidir. Oyun zamanı uşaqlar müxtəlif canlılara aid səslər çıxarır. Bütün bunlar onların səsləri düzgün tələffüz etmələrinə şərait yaradır, artikulyasiya aparatını fəallaşdırır, danışıq əzələlərini möhkəmləndirir. Uşaqlarda məktəbəqədər yaş dövründə bu cür vərdişlərin dilimizin səs, leksik və qrammatik cəhətinin mənimsədilməsi, onların gələcək rabitəli nitqinin təməlini qoyur. Məktəbəqədər təhsil müəssisələrində uşaqların rabitəli nitqini formalaşdırılmasında oxunan mətnlərdəki məzmunu təşkil edən faktlar, hadisələr arasındakı əlaqələri, münasibətləri müəyyənləşdirmək, ifadə edəcəyi fikri çatdırmaq üçün hansı nitq formasından istifadə etmək və s. bacarıqları orta məktəbdə təlim almağa tam hazır olmalarına imkan yaradır.

Məktəbəqədər təhsil müəssisələrində təşkil edilən məşğələlər də uşaqların nitqinin inkişafında əsas rol oynayan amillərdən biri hesab olunur. Məşğələdə uşaqların dediyi şeirlər, nağıllar, hekayələr, tapmacalar, yanıltmaclar uşaqların nitqinin inkişafında çox böyük rol oynayır. Bununla yanaşı uşaqlar arasında ünsiyyət bacarıqlarının təşkilinə xüsusi diqqət yetirilməlidir. Bunun üçün tərbiyəçi-müəllim məşğələ zamanı uşaqlara birgə fəaliyyət tələb edən tapşırıqlar verməlidir. Birgə fəaliyyət, əməkdaşlıq, kollektivçilik bunlar hamısı məktəbəqədər yaşlı uşaqların nitqinin inkişafında əsas vasitələrdən biridir. Çünki birgə fəaliyyət zamanı uşaq həm öz fikrini söyləyir, həm də yoldaşının fikrini dinləyərək, ona öz münasibətini bildirir. Bu zaman uşaqda nitq vərdişləri formalaşır. Eyni zamanda birgə fəaliyyət prosesi uşaqda əməkdaşlıq, dostluq, yoldaşlıq, yoldaşının fikrini nəzərə almaq, məsuliyyətlilik kimi müsbət əxlaqi keyfiyyətləri də formalaşdırır.

Beləliklə, uşağın nitq və təfəkkürünün inkişafı və onun sözün mənasını başa düşməsi sıx qarşılıqlı əlaqədədir. Uşağın nitq və təfəkkürü nə qədər yaxşı inkişaf edərsə, onun yaşlıların şifahi nitqini başa düşmə səviyyəsi də o qədər yüksək olur.

İstifadə edilmiş ədəbiyyat

1. Y.Kərimov "Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası". Bakı, 1997.
2. Kərimov Y.Ş. Uşaq məktəbə gedir. Bakı: 2002;

UOT 371:351.851

ƏNƏNƏVİ TƏHSİLİN MƏSAFƏDƏN TƏHSİLLƏ MÜQAYİSƏLİ TƏHLİLİ

Lalə Fizuli qızı Abdullazadə
Azərbaycan Dövlət Aqrar Universiteti
laleabdullazada@gmail.com

Ənənəvi təhsildə insanların maarifləndirilməsi və məlumatlandırılmasında müəyyən çətinliklər və mövcuddur. Türkiyədə təhsil müəssisələrinin məsafəsi və kifayət qədər imkanları əsas

problemlərdəndir. Təhsil müəssisələrinin çoxluğu, yer çatışmazlığı və pedaqoji kadr çatışmazlığı var. Təhsil almaq istəyən, lakin işinə, ailəsinə, vəzifələrinə və yaşına görə formal təhsilə gedə bilməyən insanlar təhsil xidmətlərindən yararlana bilmirlər.

Distant təhsili ənənəvi təhsildən fərqləndirən xüsusiyyətlər:

• Şagird və müəllimin coğrafi cəhətdən fərqli yerləşməsi.

• Tələbələrin qiymətləndirilməsinin təmin edilməsi də daxil olmaqla təhsil təşkilatının təsiri.

• Müəllim və şagirdi birləşdirəcək və təhsilin əsas məqsədini çatdıracaq təhsil mediasından istifadə, kursun məzmunu.

• İkitərəfli ünsiyyətin təmin edilməsi.

• Tədris mühiti təlimatçı, tələbə və kurs məzmununu özündə birləşdirir.

• Məkandan və ya zamandan müstəqilliyin təmin edilməsi.

• Təlimatçının təsiri olmadan tələbənin öz iradəsi ilə öyrənmə.

• Kursun müddəti kursdan asılı olaraq dəyişir.

• Sinxron və ya asinxron təhsil (Uşun, 2006) 1.3.1.

Niyə Distant Təhsil Çağımızda təhsil sahəsində distant təhsil modellərinin işlənib hazırlanması və ali təhsil səviyyəsində tətbiqi bir fenomendir. Sahədə baş verən inkişaflar və problemlər belə bir üsula ehtiyacı artırır (Alkan, 1998). 14 Kütləvi informasiya vasitələri ilə bağlı araşdırmaları ilə tanınan Wilbur Schramm, KİV-in də öyrədə biləcəyini, bəzən onların sinif müəllimi qədər, bəzən də ondan daha uğurlu olduğunu bildirir. Bildirdi ki, bu, müəllimin müəllimlik qabiliyyətindən, KİV-dən təhsil üçün təklif olunan məzmundan, nəyin öyrədilməsindən və kimə öyrədilməsindən asılıdır. Tədris baxımından ən üstün vasitə olmadığını və alətlərdən birini digərlərindən yuxarı göstərməyin yanlış olduğunu bildirmişdir (Tezcan, 1997). Müəllim müəyyən təhsil proqramının icrası zamanı mühiti tənzimləyərkən proqramın tələblərinə uyğun olaraq bəzən mənbə, çox vaxt isə müxtəlif ünsiyyət resurslarının təşkilatçısı kimi çıxış edir. O, mənbə rolunu oynayarkən müxtəlif simvollardan istifadə edərək öyrədəcəyini kodlaşdırır və müxtəlif alət və üsullarla şagirdlərinə çatdırır. O, müxtəlif resursların təşkilatçısı kimi çıxış edərkən, mövzunun inkişafına uyğun olaraq, müxtəlif qaynaqlarla qarşılıqlı əlaqədə və ünsiyyətdə olmaqla, müxtəlif fəaliyyətlərlə məşğul olmaqla, müxtəlif stimullarla qarşılaşaraq şagirdlərinin yeni şeylər öyrənməsini və yeni anlayışlar inkişaf etdirməsini təmin etməyə çalışır (Çilenti , 1998).

1.4. Distant Təhsil Vasitələri 1.4.1. Audio Texnologiyalar Telefon, telekonfrans, qısa dalğalı radio distant təlimçilər üçün nəzərdə tutulmuş interaktiv təhsil audio alətləridir. Telekonfrans yalnız səslə həyata keçirilə bilər, eləcə də görüntü və ya məlumat ötürülməsi vizual telekörpü şəklində həyata keçirilə bilər. Telekonfrans iki və ya daha çox yaşayış məntəqəsindəki insanları birləşdirmək üçün ictimai telefon sistemindən istifadə edir.Daha böyük qrupların telekonfransdan faydalanmasını təmin etmək üçün səs və kəsilməni minimuma endirmək üçün dəstəkləyici vasitələrdən istifadə olunur. Bir çox telefon xəttini birləşdirən, səs səviyyəsini idarə edən və çoxsaylı iştiraka imkan verən mikrofon sistemi olan telefon telefonu yalnız səslə keçirilən konfransın texniki məzmununu təşkil edir. Vizual telekonfrans audio kommunikasiya texnologiyasını təsvir və məlumat ötürülməsi ilə birləşdirir. Əsasən, ünsiyyət vasitəsi sağlamdır və vizual alətlər bu təlimə vizual məzmun verir. Elektron lövhə, video texnologiya və fərdi kompüterlər vizual texnikada istifadə olunan köməkçi alətlərdir. Lenta və radio passiv (birtərəfli) eşitmə alətləridir. Bu alətlərdən istifadə üsulu yazılı materiallara bənzəyir. Şagirdlər oxumaq əvəzinə dinləməlidirlər. İştirakın əldə edilə bilmədiyi hallarda həm audio kaset, həm də birtərəfli radio səsli ünsiyyətdə daha interaktiv rol oynaya bilər (Distant təhsil metodları, 2005).

1.4.1.1. Telekonfransın üstünlükləri:

• Telekonfransın ən mühüm faydası qarşılıqlı iştirakdır.

• Telekonfrans sisteminin yaradılması, istismarı və saxlanması çox qənaətlidir.

• Telefon texnologiyasından istifadə edərək telekonfrans vasitəsilə bir çox tələbə ilə əlaqə saxlamaq mümkündür.

• Müəllimlərin və tələbələrin ümumiyyətlə tanış olduğu telekonfrans texnologiyasından istifadə etmək də çox asandır.

• Müəllim və tələbələrin bilavasitə iştirakına imkan verən telekörpü vasitəsilə tələbələr digər tələbələr, müəllimlər və ekspertlərlə daimi ünsiyyətdədirlər.

Telekonfrans yazılı material, video və kompüter kimi digər vasitələrlə birlikdə istifadə edildikdə daha effektiv ola bilər (Distant təhsil metodları, 2005).

1.4.1.2. Telekonfransın məhdudiyyətləri:

• Vizual ünsiyyətin olmaması bu texnologiyanın ən mühüm çatışmazlığıdır.

• İstifadəçi təlim aləti ilə tanış olana və ondan səmərəli istifadə etməyi öyrənənə qədər başlanğıcda bəzi problemlərlə üzləşə bilər.

• Şəxsi ifadələr bədən dilini və gülmək, hirslənmək, əl və qol hərəkətləri kimi şifahi olmayan ifadələri minimuma endirdiyi üçün əks oluna bilməz.

• O, şifahi danışılan mövzulara məhdudiyyətlər qoya bilər (Distant təhsil metodları, 2005).

1.4.2. Distant təhsildə kompüter. Son illər pedaqoqlar kompüter şəbəkəsinin sürətli inkişafının, fərdi kompüterlərin sayının artmasının və maqnit yaddaş texnologiyasının inkişafının şahidi olurlar. Bu inkişaflar kompüteri distant təhsil metodunda mühüm alətə çevirdi. Beləliklə, şagirdə çatmağın bu yeni interaktiv üsulu sayəsində vaxt və məsafə problemi aradan qaldırıldı (Distant Təhsil Metodları, 2005).

Bundan başqa, tədris-təlim prosesində maşınlardan istifadə müəllim-şagird arasındakı insani münasibətləri pozmurmu? Maşın tələbə ilə insan kimi davrana bilərmi? Sualları müzakirə olunan nəqliyyat vasitəsinin kompüter olduğu zaman daha çox rast gəlinir. Bu kimi suallar demək olar ki, texnologiya və bəşəriyyətin bəzi müəllimlər və tələbələr tərəfindən iki qütb əksi kimi qəbul edildiyi təəssüratını yaradır. Təhsilin bir çox müşahidəçiləri belə düşünürlər ki, təhsil texnologiyaları çərçivəsində fiziki məhsulların sinifdə geniş şəkildə istifadəsi şagirdlərin insan deyil, maşın kimi rəftar edilməsinə səbəb ola bilər; Beləliklə, o, texnologiyanın tədris-təlim prosesinin humanist aspektini azalda biləcəyini müdafiə edir. Bununla belə, düzgün istifadə edildikdə, müasir təhsil mühitləri tədris-təlim prosesini fərdiləşdirə və beləliklə, onu ağlasığmaz dərəcədə humanistləşdirə bilər (Ergin və Birol, 2000). Davranış nəzəriyyəçilərindən biri olan Skinner tərəfindən hazırlanmış operant kondisionerin tədrisə tətbiqi nəticəsində ortaya çıxan bir model olan proqramlaşdırılmış tədris fərdi kompüterlərdən sonra kompüter dəstəkli tədris və tədris proqramlarının hazırlanmasında yenidən əhəmiyyət qazanmağa başlamışdır. geniş yayılmış və 1980-ci illərdə təhsilə daxil olmuşdur. Bu vəziyyət tədrisin fərdiləşdirilməsi ilə nəticələndi (Erden və Akman, 1998). Fərdiləşmiş cəmiyyətə uyğun bir öyrənmə üsulu olduğu ifadə edilir (Hesapçıoğlu, 1998).

1.4.2.1. Kompüterin üstünlükləri:

• Kompüter öyrənməni özü həyata keçirə bilər. Kompüter dəstəkli təhsil metodu ilə kompüterlər sürətli dəstək və qiymətləndirmə və fərdin təhsilini təkbaşına həyata keçirmə imkanı verir.

• Kompüter multimedia vasitəsidir. Tərkibindəki qrafika, yazılı material, səs və görüntü xüsusiyyətləri sayəsində digər texnoloji imkanlardan istifadə edilir. O, kompüter əsaslı təhsil mühitlərində interaktiv təsvir və disk texnologiyasından faydalana bilər.

• Kompüter iştirak üçün vasitədir. Müxtəlif proqram paketlərini özündə birləşdirən mikrokompüter sistemi istifadədə çox çevikdir və tələbə nəzarətini artırır.

• Kompüter texnologiyası sürətlə inkişaf edir. Bir tərəfdən yeni ixtiralar yaranarkən, digər tərəfdən də xərclərdə azalma var.

• Kompüter sayəsində giriş imkanları artır. Yerli, regional və milli şəbəkə sayəsində insanlar və resurslar harada olmasından asılı olmayaraq birləşdirilə bilir.

Bundan əlavə, indi bir çox universitetlər kompüter dəstəkli bakalavr və magistr proqramları təklif edirlər (Distant təhsil metodları, 2005).

1.4.2.2. Kompüter istifadəsində rast gəlinən məhdudiyyətlər:

• Kompüter şəbəkəsinin inkişafı çox bahalıdır. Şəxsi kompüterlərin qiyməti olduqca münasib olsa da, hətta proqram və aparat bazarlarında rəqabət səbəbindən xərclər çox aşağı olsa da, şəbəkələrin qurulması və ya sistemin idarə edilməsi üçün alınan proqram təminatı kifayət qədər bahadır.

• Texnologiya sürətlə dəyişməyə davam edir.

Bununla paralel olaraq kompüter texnologiyası da daim dəyişir. Distant təhsil işçiləri ehtiyacları ödəmək üçün bu texnologiyadan istifadə etmək əvəzinə istifadə etdikləri avadanlıqları daim dəyişirlər.

İstifadə edilmiş ədəbiyyat

1. ALKAN C.(1998), Eğitim Teknolojisi. 6. Baskı, Anı Yayıncılık, Ankara.
2. ÇİLENTİ, K., (1998), Eğitim Teknolojisi ve Öğretim. Yargıcı Matbaası, Ankara
3. Distant Təhsil Metodları, 2005
4. ERDEN M., AKMAN Y., (1998), Eğitim Psikolojisi. 6. Basım. Arkadaş Yayınevi. Ankara.
5. ERGİN A., BİROL C., (2000), Eğitimde İletişim. Ankara, Anı Yayıncılık.
6. HESAPÇIOĞLU M., (1998), Öğretim İlke ve Yöntemleri Eğitim Programları ve Öğretim.
7. TEZCAN M., (1997), Eğitim Sosyolojisi. 11. Basım. Ankara
8. UŞUN S., (2006), Uzaktan Eğitim. Nobel Yayın Dağıtım, Ankara.

UOT 94 (479.24)

ROCER SEYVORİNİN TƏDQİQATINDA SƏFƏVİ DÖVRÜNÜN KERAMİKA SƏNƏTİ

Lamiyyə Səxavət qızı Namazova
Azərbaycan Dillər Universiteti
AMEA-nın dissertantı
namazovalamiyya@gmail.com

Mövcud olduğu dövr ərzində bəşər mədəniyyətinə saysız-hesabsız töhfələr vermiş Azərbaycan Səfəvi dövləti haqqında həm Azərbaycan tarixşünaslığında, həm də xarici tarixşünaqda bir sıra kitablar yazılmışdır və hal-hazırda da tədqiqatlar aparılmaqda davam edir. Bəhs edilən istiqamətdə əsərləri çox mühüm sayılan Böyük Britaniyalı şərqşünas-alim Rocer Seyvorinin adını xüsusi qeyd etmək lazımdır. Belə ki, onun araşdırmasında Səfəvi dövlətinin siyasi, sosial-iqtisadi, mədəni həyatına dair tarixşünaslığımız üçün yeni sayılacaq məlumatlar vardır. Bu mənada, Səfəvi dövrü mədəni həyatının bir hissəsini təşkil edən keramika sənətinin R.Seyvorinin baxışından təsviri tezisin tədqiqat obyekti kimi seçilmişdir.

R.Seyvori dulusçuluğun ümumi tarixində Çindən sonra ikinci yerdə qiymətləndirdiyi Səfəvi ustalarının işinin həm Şərqdə, həm də Qərbdə bu sənətə güclü təsir göstərdiyini yazır. Müəllif qeyd edir ki, Səfəvilərin misilsiz keramik plitələrinin farsca adı olan kaşi, erkən İslam dövründən keramika sənayesinin mərkəzi kimi tanınan Kaşin şəhərinin adından gəlir. Səfəvilər dönəmində İsfahan və Məşhəd böyük sənaye mərkəzlərinə çevrildi və keramika sənətində canlanma başlandı [4, s.144]. Səfəvilərin əsas dulusçuluq mərkəzləri arasında Bakı, Şamaxı, Gəncə, Naxçıvan, Təbriz, Ərdəbil kimi şəhərlər də olmuşdur [2, s.302]. Səfəvi sənətkarları əvvəlki dövrlərin naxış və üslublarını təkrarlamamış, dulusçuluğun yeni növlərini inkişaf etdirmiş, həm təxəyyül, həm də ixtiraçılıq nümayiş etdirmişlər [4, s.144].

Səfəvilər dövründə keramika tarixi ilə bağlı ən mühüm fakt o dövrdə Çin ilə genişmiqyaslı texnika və dizayn mübadiləsinin aparılması idi [4, s.145]. XV-XVI əsrlərə aid Osmanlı, Səfəvi və Çin mavi-ağ rəngli çinilərini nəzərdən keçirsək, hər üçü arasında oxşarlıqların olduğunu müşahidə etmək olar [3, s.293]. Bütün əl qoyduğu məsələlərdə olduğu kimi, keramika sənayesinə də

praqmatik yanaşan Şah I Abbas avropalıların minlərlə mil tranzitə və vaxta qənaət edə biləcəkləri halda bütün çini məmulatlarını Çindən alması üçün heç bir səbəb görmürdü. Çin dəbindən istifadə edərək Avropada yeni keramika üslubunun inkişafına kömək etmək üçün, o, üç yüz çinli dulusçu və onların ailələrini əsasən İsfahan olmaqla, öz ərazilərinə məskunlaşdırdı [4, s.145].

Əsl Çin çini məmulatlar əsrlər boyu yüksək qiymətləndirilmiş və Mərkəzi və Qərbi Asiyada hökmdarlar tərəfindən toplanılırdı. 1611-ci ildə Şah I Abbas tərəfindən Ərdəbildəki Səfəvi ziyarətgahına bağışlanmış məşhur kolleksiyada iki əsr yarım yaşı olduğu ehtimal edilən 1000-dən çox parça var idi [4, s.145-146].

A.Olearinin məlumatlarına söykənərək R.Seyvori bildirir ki, o dövrdə Ərdəbildə iki çinli tacirin çini məmulatları satan dükanı var idi və yerli dulusçular onları təqlid etməyə çalışsalar da, ilk əvvəllər uğurlu olmadı [4, s.146]. Səfəvi ərazisində istehsal olunan mavi-ağ çinilərdə yerli elementlərlə yanaşı, Çinə aid dizaynlara da təsadüf olunurdu. R.Seyvori A.Poupa istinad edərək yazır ki, bu məmulatdan ən qədimi 1616-cı ilə aid olub Şiraz, Məşhəd, Yəzd, Kirman və Zərənddə hazırlanırdı. İngilis Şərqi Hindistan Şirkətinin 1682-ci il məlumatına əsasən, Məşhəd və Kirman Çin çinisinin həqiqətən yaxşı təqlidlərinin əldə oluna biləcəyi yerlərdən hesab edilirdi [4, s.147].

Səfəvi qablarının ən məşhur növü mavi-ağ çini olsa da, keyfiyyətcə eyni dərəcədə yaxşı olan başqaları məhsullar da var idi. XIX əsrin sonlarında Dağıstanın ucqar dağ kəndi olan Kubaçidə bir neçə növə aid nümunələr ruslar tərəfindən aşkarlandı. R.Seyvori yazır ki, Dağıstanın tayfaları, əksər dağlılar kimi, karvanları talamaqla dolandıqları və heç vaxt dulusçuluqla məşğul olmadıqları üçün alimlər orada nəfis keramika məmulatlarının bu qədər böyük kolleksiyasının necə meydana gəldiyi barədə uzun müddət fərziyyələr irəli sürdükdən sonra belə qənaətə gəldilər ki, keramika Səfəvilər tərəfindən Kubaçidə hazırlanmış yüksək keyfiyyətli bıçaq və xəncərlər müqabilində barter əmtəəsi kimi istifadə edilmişdir [4, s.147]. Kubaçidə aşkarlanan əsas dulusçuluq növləri firuzəyi və ya yaşıl şirli qara boyalı məmulatlar və şiraltı çoxrəngli olan məmulatlardır [4, s.148]. Ehtimal ki, Kubaçi tapıntıları XV-XVII əsrlərdə Təbriz, İsfahan, Kirman, Nişapur və Məşhəd emalatxanalarında hazırlanmışdır [1, s.80]. Səfəvi dövründə İranın bir çox yerində parıldayan qablar kimi bilinən şiraltı boyalı qablar hazırlanırdı. Bu zaman Çin məmulatlarının bir nüsxəsi olan və IX əsrdən bəri Qərbdə tanınan məşhur seladon məmulatlarının canlanması da baş verdi. Monoxrom relyefli məmulatlar, adətən əla keyfiyyətdə idi. Bunlara Şah I Abbasın gətirdiyi Çin sənətkarlarının rəhbərliyi ilə kəsilmiş qovun yaşılı, lavanda və toz mavisi kimi rənglərdə monoxrom şirli məmulatlar, ağ yalançı çini kimi tanınan, çox güman ki, Naində istehsal olunan "Qombrun məmulatı" adı ilə tanınan məhsullar və XVI əsrdə firuzə və kobaltdan hazırlanmış Varamin məmulatlar daxil idi [4, s.148].

R.Seyvori Səfəvi dulusçularının məmulatlarının müxtəlifliyinə və gözəlliyinə baxmayaraq, Səlcuq və Monqol dövrlərinin ən yaxşı məhsullarına çata bilmədiyini yazsa da, bunu da əlavə edir ki, saxsıçılığın başqa bir böyük sahəsində, çini istehsalında Səfəvi dulusçuları misilsiz idi. Müəllif plitələri iki əsas növə ayırır: məscidlərin, mədrəsələrin və digər tikililərin çardaqlarında istifadə edilən çoxrəngli bərk çinilər; lazımi rəngdə bütün plitələrdən kəsilmiş, dizaynı xüsusi hazırlanmış, hissələrinin zəhmətlə yığıldığı mozaik çinilər. Mozaik plitələrdən, xüsusən, xəttatlıq bəzəklərində, günbəz interyerlərində və s. istifadə edildiyi vurğulanır [4, s.148].

Həft-rəng plitələr təxminən 16,51 santimetr olub, kvadrat formalı və az miqdarda qum qarışığı olan təmiz gildən ibarət idi. Plitələr toz halına salınmış ağ daşlar və natrium karbonat qarışığı ilə şüşələnir, yandırılır, mükəmməl birləşməni təmin etmək üçün kənarları kəsilir, daha sonra dizayn kafelə trafaretlə vurulur və usta dulusçu piqmentləri tətbiq edirdi [4, s.148]. Bir ənənəyə görə, həft-rəng plitələrin adını aldığı "yeddi rəng" qara, qəhvəyi, qırmızı, sarı, ağ, kobalt mavisi və firuzəyi idi; başqa bir ənənəyə əsasən isə sarı, mavi, narıncı, qırmızı, bənövşəyi, yaşıl və indigo idi. Keramik plitələrin rənglərinin əsrlər boyu şiddətli günəşə rəğmən solmadan qalması həm şüşələmə və yandırma proseslərində istifadə olunan üsulla, həm də yalnız mineral piqmentlərdən istifadə ilə bağlı idi. Belə ki, kobalt oksidindən müxtəlif mavilər, manqandan qara, qurğuşun oksidi ilə

qarışdırılmış manqandan qəhvəyi, mis oksiddən firuzəyi və yaşıl, qurğuşun oksidindən sarı rəng hazırlanmışdır. Mozaika işi tələb olunan formada (düz, konkav, qabarıq) çərçivələrdə, şirli səthin üzü aşağıya doğru qurulurdu. Panel tamamlandıqda, bütün fərdi parçaları birləşdirmək üçün arxa tərəfə maye gips tökülürdü [4, s.149].

Kapitalist münasibətlərinin inkişafı ilə əlaqədar olaraq XVII əsrin sonu – XVIII əsrin əvvəllərində ilk əvvəl bir sıra Avropa ölkələrində, daha sonra isə Rusiya ərazisində dulusçuluq məmulatlarını geniş şəkildə hazırlayan müəssisələri açıldı. Bu məhsullar ucuz qiymətə satıldığından Azərbaycanda da münasib alış obyektinə çevrilirdi və beləliklə də, yerli emalatxanalarda əl əməyinə əsaslanan üsulla ərsəyə gələn keramika məhsullarına ehtiyac duyulmurdu [2, s.303].

İstifadə edilmiş ədəbiyyat

1. Avşar, L., Ayaydın, S. Safevi Dönemi (Kubachi) İran Seramikleri // Palmet Dergisi, 2022, (2), 71-83.
2. Azərbaycan tarixi: [7 cilddə] / məs. red. O.Ə.Əfəndiyev. Bakı: Elm, c. 3, 2007. 592 s.
3. Ölçer S. 15 ve 16. Yüzyıl Mavi-Beyaz Seramikleri: Osmanlı, Safevi ve Çin Hanedanlığı Örneklerinin Üslup Bağlamında Karşılaştırılması // Sanat Tarihi Dergisi, 2018, Cilt 27, Sayı 1, s.265 – 301
4. Savory, R. Iran under the Safavids. Cambridge: Cambridge University Press, 1980. 277 p.

UOT 330.35

ALİ MƏKTƏBDƏ ALMAN DİLİNİN İLKİN MƏRHƏLƏSİNDƏ TƏLƏBƏLƏRİN ŞİFAHİ NİTQİNİN ÖYRƏDİLMƏSİ ÜÇÜN SOSİAL-MƏDƏNİ SƏRİŞTƏNİN FORMALAŞMASININ LİNQVİSTİK VƏ MƏDƏNİ ASPEKTİ

Leyla Qalib qızı Bəylərova
doktorant
Bakı Slavyan Universiteti
baylarovaleyla94@gmail.com

Xarici dilin öyrənilməsi mədəniyyətlərarası ünsiyyətdə iştirak etməyi bacaran və istəyən, ona tapşırılan dil vəzifələrini həll edə bilən bir insan formalaşdırmaq məqsədi daşıyır.

Bu mövzunun aktuallığı onunla bağlıdır ki, bizim ölkələr arasında uğurlu qarşılıqlı fəaliyyətimizdə müəyyən bir ölkənin mədəniyyətini bilmədən mümkün deyil.

Bu işin məqsədi:

Metodologiya, pedaqogika və psixologiya üzrə ədəbiyyatın təhlili əsasında alman dili dərslərində sosial-mədəni səriştənin formalaşması prinsiplərini vurğulayın.

Alman dili dərslərində sosial-mədəni səriştənin formalaşması şagirdlərin öyrənilən dilin ölkəsi haqqında linqvistik, estetik və etik biliklərinin zənginləşdirilməsini nəzərdə tutur. Başqa insanlar üçün uyğun olmayan və ya təhqiredici davranışlardan qaçınmağı öyrənmək üçün mədəni qeyri-şifahi davranışa diqqət yetirmək də vacibdir. Xarici dil fənni təkcə öyrənilən dilin ölkələrinin mədəniyyətini tanıtmır, onu müqayisə etməklə onun milli mədəniyyətinin xüsusiyyətlərini ortaya qoyur, ümumbəşəri dəyərləri tanıdır.

Xarici dil sahəsi üzrə dövlət təhsil standartında aşağıdakı səlahiyyətlər nəzərdə tutulur:

- nitqin qrafik və orfoqrafiya tərəfini, nitqin fonetik, leksik və qrammatik tərəfini özündə birləşdirən dil səriştəsi;
- dörd fəaliyyət növü ilə təmsil olunan nitq səriştəsi: danışma, yazma, dinləmə və oxuma;

- xarici dildə doğma ölkənizin sosial-mədəni portretini yaratmağa imkan verən sosial-mədəni səriştə; ümumi xüsusi bacarıqları özündə birləşdirən təhsil və idrak səriştəsi. [3].

Sosial-mədəni səriştənin formalaşması üçün xarici dilli ölkələrin mədəniyyətinin öyrənilməsi böyük əhəmiyyət kəsb edir: onların tarixi, görkəmli yazıçılar, şairlər, elm adamları ilə tanışlıq.

Sosial-mədəni səriştənin formalaşmasından danışarkən unudula bilməyən növbəti məqam, təbii ki, nitq etiketidir. Nitq etiketi nitq mədəniyyəti, nitq mədəniyyəti isə insanın simasıdır. Xarici dilin nitq etiketi bütövlükdə fərdin tərbiyəsi üçün xüsusi əhəmiyyət kəsb edir. Dil mədəniyyətimizi nəzərə alsaq, onların danışıq etiketini öyrənməklə çox şey öyrətmək və öyrənmək lazımdır. Buna görə də klişelərin, danışıq nitqinin sabit frazalarının, frazeoloji dönüşlərin öyrənilməsinə çox diqqət yetirilir [4, s. 64].

Sosial-mədəni səriştənin müvəffəqiyyətlə formalaşması, tam hüquqlu nəticə əldə etmək üçün özünü sinif dərsləri ilə məhdudlaşdırmaq kifayət deyil. Ən azı üç vəzifənin həyata keçirilməsinə yönəlmiş sinifdənkənar işin imkanlarından geniş istifadə etmək məqsədəuyğun olardı:

1. Öyrənilən dilin ölkəsinin mədəniyyəti haqqında anlayışın genişləndirilməsi;
2. Doğma mədəniyyətin və başqa xalqların mədəniyyətinin müqayisəsi;
3. Etik və estetik tərbiyə.

Dil tədrisinin əsas məqsədlərindən biri şəxsiyyətin kommunikativ və sosial-mədəni inkişafıdır. Sosial-mədəni inkişafa orijinal mətnlərin (bədii ədəbiyyat, qəzet və jurnal, reklam və arayış, epistolyar) qavranılması mədəniyyətinin inkişafı, məktəblilərin mədəniyyətlərin dialoqu haqqında təsəvvürlərinin formalaşdırılması, məktəblilərin dil ölkələrinin mədəniyyəti ilə tanışlığı daxildir. tədqiq olunur.

Beləliklə, sosial-mədəni səriştənin formalaşması təhsilin əsas məqsədləri ilə ayrılmaz şəkildə bağlıdır: praktiki, inkişaf etdirici və tərbiyəvi. Xarici dil öyrənməklə biz insanın şüurunda sülh mədəniyyəti formalaşdırır, mədəniyyətlərarası ünsiyyətdə iştirak etmək istəyini inkişaf etdiririk.

Sosial-mədəni səriştəni inkişaf etdirməyin ən təsirli vasitəsi öyrənilən dilin ölkəsində qalmaq, ölkənin mədəniyyəti, adət-ənənələri, adət-ənənələri və sosial normalarının atmosferinə qərq olmaqdır.

Şagirdlərin belə bir imkanının olmadığını nəzərə alaraq, dil mühitindən kənarda sosial-mədəni səriştənin inkişafının səmərəli yol və vasitələrini tapmaq lazımdır.

Təhsilin məzmununun əsas sosial-mədəni komponenti təhsil mətnidir. İstifadə olunan mətn:

- tematik, regionşünaslıq, bədii mətnlər,
- dialoqlar və poliloqlar,
- şeir,
- mahnılar,
- məktublar,
- müsahibə,
- yerli danışanlarla söhbətlərin audio mətnləri.

Mətnin orijinal olması, tələbələrin maraqlarına və yaşına uyğun olması və təbii vəziyyətə mümkün qədər yaxın olması vacibdir. [5, s. 92].

Uşaqların rollu oyunlar vasitəsilə öyrənmə fəaliyyətlərinə cəlb edilməsi alman dilini öyrənmək üçün müsbət motivasiya yaradır. Məhz bu oyunlar zamanı şagirdlər ünsiyyət mədəniyyətini öyrənirlər: alış-verişi necə etməyi, necə salamlaşmağı, dostları, qohumları, tanışları təbrik etməyi, məlumat üçün sual verməyi.

Alman dilinin tədrisinin məzmununda sosial-mədəni komponentdən danışarkən mədəni komponenti də ayırmaq vacibdir. Bu, sosial reallıqlar, standart vəziyyətdə davranış modelinin əsasları, mühüm tarixi hadisələr, ədəbiyyat və incəsənətin əsas şəxsiyyətləri haqqında biliklərdir.

Tələbələrin sosial-mədəni səriştəsini inkişaf etdirməyin təsirli yollarından biri xarici dil ünsiyyətinin real vəziyyətlərində qeydə alınmış və ya ana dili danışanların oxuduğu audio mətnlərdir.

Şagirdlərin sosial-mədəni səriştəsini inkişaf etdirməyin başqa bir yolu videomateriallardan istifadədir. Video filmlər ölkənin bir növ mədəni portretləridir.

Uğurlu ünsiyyət üçün həmsöhbətin eyni dil vasitələrinə (fonetik, leksik, qrammatik bacarıqlara) malik olmaq deyil, həm də dünya haqqında ümumi mənalı biliyə sahib olmaq lazımdır. [2].

Alimlər sosial-mədəni səriştənin formalaşması üçün materialların seçilməsinə dair tələblər işləyib hazırlamışlar. Bu tələblər aşağıdakılardır:

- istifadə olunan materialların həqiqiliyi;
- məlumat zənginliyi;
- məlumatın yeniliyi;
- tələbələrin (o cümlədən peşəkarların) maraqlarını nəzərə almaq;
- materialların regional və linqvomədəni əhəmiyyəti;

Yuxarıda müzakirə olunan istiqamətlər və metodlar tələbələrin ali məktəbdə alman dilinin ilkin mərhələsində şifahi nitqinin öyrədilməsi üçün sosial-mədəni səriştəsinin formalaşdırılmasının səmərəliliyinin artırılmasına kömək edir.

Alman dilinin tədrisinin məzmununda sosial-mədəni komponentdən danışarkən mədəni komponenti də ayırmaq vacibdir. Bu, sosial reallıqlar, standart bir vəziyyətdə davranış modelinin əsasları, mühüm tarixi biliklərdir

İstifadə edilmiş ədəbiyyat

1. Верещагин Е.М., Костомаров В.Г., Морковкин В.В. Теоретические основы лингзострановедческого словаря. Русский язык. за рубежом, 1977, Н, с. 74-78.
2. Дридзе Т.М. Язык и социальная психология. М.: Высшаяшкола, 1980, 224 с.
3. Лингвистические основы преподавания языка. М.: Наука, 1983. - 272 с.
4. Brandt B. Untersuchungen zur Linguodidaktik in der Sowjetunion. In: Fremdsprachenunterricht, 1977, Ho.10, S. 488-492.
5. Zuckowa J. Einige frberlegungen zum landeskundlich orien-tierten Premdsprachenunterricht. In: Deutsch als Premdsprache, 1977, No.5, S. 295-298.

UOT 37.01

TƏLİM MODULLARININ METODOLOGİYASI

Leyla Vaqif qızı Rüstəmova
doktorant
Gəncə Dövlət Universiteti
leylarustemova955@gmail.com

Dünyanın inkişaf etmiş bir sıra ölkələrində o cümlədən ABŞ-da, Almaniyada, Fransada, Yaponiyada, Rusiyada tətbiq edilən təlim modulları, yeni təhsil paradiqmaları günü-gündən təkmilləşdirildiyi halda bizim ölkəmizdə yenicə tətbiq olunmağa başlamışdır. Ona görə də, hazırda ümümtəhsil məktəblərində çalışan fənn müəllimləri və xüsusilə ibtidai sinif müəllimləri təlim modullarının hazırlanması və tətbiqi işində çətinlik çəkirlər. Bunları nəzərə alaraq təlim modulları, paradiqmaları və onların məzmunu barədə bir qədər ətraflı şərhlər aparmağı məqsədəmüvafiq hesab edirik.

Onu da qeyd etmək olar ki, təhsil sahəsində yaradılan modul təlimi sisteminin o cümlədən proqramların, dərsliklərin, dərs vəsaitlərinin, hətta köklü konsepsiyaların ilk növbədə metodologiyasını yaratmaq lazımdır ki, həmin yeni ideyalar və konsepsiyalar uzun müddət həmin metodologiyanın üzərində yaşaya bilsin.

Ona görə ilk növbədə təlim modullarının metodologiyasının yaradılması barədə söhbət açmağa ehtiyac duyulur. Öncə "metodologiya" anlayışının özünə aydınlıq gətirmək lazım gəlir. Açığını deyək ki, metodologiya anlayışına respublikamızda hazırlanan ədəbiyyatlarda müxtəlif tərzdə yanaşılır. Hətta, ensiklopedik nəşrlərdə də ziddiyyətli şəkildə şərh olunur. Məsələn Sovetlər ittifaqı dövründə nəşr olunan demək olar ki, bütün ensiklopedik nəşrlərdə "metodologiya" tədqiqat metodları haqqında təlim kimi təqdim olunmuşdur. Hətta, bəzi nəşrlərdə "metodologiya" fəaliyyətin üsullarının, vasitələrinin təlimi kimi göstərilir. Məsələn, "Sovet Ensiklopedik lüğət"ində göstərilir ki, "metodologiya", "metod" və "loqos" sözlərindən əmələ gəlib fəaliyyətin strukturu, məntiqi təşkilinin əsasları, üsul və vasitələri haqqında təlimdir. Diqqət etsək, sovet dövründə "metodologiya" anlayışını fəaliyyətin strukturu, məntiqi təşkili üçün səciyyəvi olan üsul və vasitələrin təlimi kimi məhdud çərçivədə izah etmişlər. Sovet dövründə nəşr olunan fəlsəfi ədəbiyyatda, o cümlədən "Ensiklopedik fəlsəfə lügət"ində qeyd edilir ki, "metodologiya" nəzəri və praktik fəaliyyətin təşkili və tərtibinin prinsiplər və vasitələr sistemi, həmçinin bu sistem haqqında təlimdir. Göründüyü kimi sovet ensiklopediyası lüğətindən fərqli olaraq fəlsəfə luğətində fəaliyyətin üsul və vasitələrilə yanaşı, həm də prinsiplər haqqında da təlim hesab olunan "metodologiya" anlayışı yenə də məhdud şəkildə izah olunmuşdur. Fikrimizcə təhsilin, təlimin və onları öyrənən elm sahəsinin metodologiyası yeni ictimai-siyasi və iqtisadi baxışlara, milli və ümumbəşəri dəyərlərə əsaslanan biliklər sisteminə, demokratik prinsiplərə sivilizasiya, qlobalizasiya və sinergetika amillərindən təşəkkül tapan, ictimai fikrə söykənən vətəndaş mövqeyinə əsaslanmalıdır. Bu mənada yeni pedaqoji texnologiyaların pedaqoji prosesə daxil olmasına xüsusi diqqət yetirmək lazımdır. Çünki, yeni pedaqoji texnologiyalar və innovasiyalarla iş ayrı-ayrı elmi-pedaqoji-metodik əsaslara söykənən elmi konsepsiyalar sistemidir. Hansı ki, bu konsepsiyalar sisteminin metodoloji prinsiplərinin müəyyənləşdirilməsi zəruri sayılır. Çünki hər bir elmi konsepsiyanın tətbiqi onun metodoloji prinsiplərinə istinad etməklə həyata keçirilir. Bu baxımdan modul təlim texnologiyalarının tətbiqi üçün onların da metodoloji prinsiplərinin müəyyənləşdirilməsinə ciddi ehtiyac duyulur. Ona görə ki, modul təlim sisteminin metodoloji prinsipləri həm də müvafiq kompetensiyalara əsaslanır. Burada yaxşı olar ki, "kompetensiya" anlayışına da aydınlıq gətirək.

Metodik ədəbiyyatlarda "kompetensiya" anlayışının müxtəlif tərifləri mövcuddur, çünki bu anlayışın özü yenidir və onun nəzəri əsasları hələ tam formalaşmayıb. Təcrübədə istifadə üçün onun "kompleks xarakterli" mənasını dərk etmək çox əhəmiyyətlidir. Yəni, kompetensiya-əmək fəaliyyətinin həyata keçirilməsində birmənalı əhəmiyyətə malik olan bilik, bacarıq, dəyər, məqsəd və münasibətlərin inteqrasiyası və ya bilik, bacarıq, münasibət və təcrübənin müxtəlif şəraitdə tətbiqidir [1, s.84]. Təhsildə müxtəlif kompetensiyalar bilik, bacarıq, vərdişlər sisteminin qabaqcıl təcrübə ilə vəhdətdə götürülməsi, konkret hədəf və bu hədəfə doğru irəliləməyə istiqamət verən motiv formalaşır. Bu motivlər isə tələbatlardan törəyir. Əslində təlim modullarının müəyyən-ləşdirilməsi müvafiq tələbatlardan yaranır.

Müəyyən kompetensiyalar əsasında formalaşdırılan təlim modullarının motivləri tələbatlardan törəyirsə, tələbatların əsasında bilik, bacarıq və vərdişlər sistemi dayanır. Bu zaman müəllim şagird münasibətlərinin düzgün tənzimlənməsində qabaqcıl təcrübə əsas rol oynayır. Ona görə də haqqında danışılan "Kompetensiya" anlayışını təşkil edən əsas komponentlərin həm pedaqoji, həm də metodik ədəbiyyatda göstərilmiş mənaları mövcuddur. Onların içərisində bilik, bacarıq, vərdişlə yanaşı münasibət və təcrübə də yer alır.

Kompetensiyanın aşağıdakı 3 tipi mövcuddur:

1. Texniki kompetensiya (peşə kompetensiyası) – peşə fəaliyyətinə məxsusdur.
2. Aralıq (skvoznie), mobil kompetensiyalar – sosial, kommunikativ, metodik və digər kompetensiyalardır ki, bunlar əmək fəaliyyəti üçün xüsusi əhəmiyyət kəsb edir.
3. Əlaqə kompetensiyası (bulaq suyu kimi qaynayan kompetensiya) vətəndaş üçün ona görə lazımdır ki, o, sosial-iqtisadi həyatda fəal iştirak etsin və ömür boyu təhsil üçün baza (özül) olsun.

Bunlar insan həyatının ilkin mərhələlərində formalaşmağa başlayır, tədricən dərinləşir [1, s.84-85]. Onların hər birini formalaşmağa təhrik edən motivlərin düzgün müəyyənləşdirilməsi də əsas şərtlərdəndir.

İnsanın davranışını nəzərdən keçirərkən, əməllərini təhlil edərkən onların motivlərini aydınlaşdırmaq zəruridir. Ancaq bu halda həmin əməlin insan üçün təsadüfi və ya qanunauyğun olduğu haqqında muhakimə yürütmək, onun təkrar olunması imkanını qabaqcadan görmək, şəxsiyyətin bir əlamətini əmələ gəlməsinin qarşısını almaq və digər əlamətlərin inkişafını rəğbətləndirmək mümkündür [5, s.115].

Qeyd olunanlara rəğmən deməliyik ki, təlim modulları ilə iş zamanı davranış motivlərinin şaxələnməsi prosesi baş verir. Modulların hər birinin tətbiqi üçün ayrı-ayrılıqda təhriklərin də səslənməsi özünün göstərir. Müəllimin tətbiq etdiyi modulun didaktik təsir dairəsi genişləndikcə fəaliyyətin də çoxçeşidli dinamik inkişafı baş verir.

Kompetensiyalara əsaslanan modul təlimin əsasını təlim nəticələrinə yönümlülük (nəticə-yönümlülük) təşkil edir.

Tədris müəssisələrinin modul təliminə keçməsi prosesi çox mürəkkəb, həm də ağrı doğuran prosesdir, çünki illərlə toplanmış, ənənə halını almış təcrübə və streotiplərin qırılmasını tələb edən prosesdir [1, s.85-86]. Üstəlik həyata keçirilən kurikulum siyasətinin tələblərinə uyğunlaşdırılmayan kompetensiyalar uğurlu təlim modullarının hazırlanmasını təmin edə bilməz. Artıq bir neçə illərdir ki, ibtidai siniflərdə təhsilin kurikulumu siyasəti üzrə tədris həyata keçirilir. Milli ixtisas çərçivəsində (MİÇ) həyata keçirilən kurikulum dərsləri, yəni milli kurikulum üzrə həyata keşirilən təlim prosesində yeni kompetensiyalara əsaslanan modul təlim sisteminin yaradılması günün vacib tələbi kimi dəyərləndirilir.

Təlim nəticələri isə təlim başa çatdıqdan sonra insanın nələri bilməsi, nələri bacarması mənasını daşıyır.

Milli ixtisas çərçivəsi (MİÇ) vahid ixtisas səviyyələrinin təsvir (VİS) edildiyi sənəddir.

MİÇ təhsilalana müxtəlif səviyyələri müqayisə edərək növbəti səviyyələrə keçid yollarını müəyyənləşdirmək, qazanmaq istədiyi ixtisasla bağlı qərar vermək imkanı yaradır.

Kompetensiyalara əsaslanan təhsil proqramları (kurikulumlar) nəticəyönümlü olduğundan qiymətləndirmə də əldə edilmiş nəticəyə görə aparılır [1, s.86]. Ona görə də yeni kompetensiyalara əsaslanan təlim modullarını hazırlayarkən sınaqdan keçmiş kurikulumlardan bəhrələnmək çox faydalıdır. Bəzən yeni tipli kompetensiyaların özlərinin müəyyənləşdirilməsində, bu kompetensiyalar əsasında hazırlanan təlim modulları hazırkı kurikulumların çərçivəsinə uyğun gəlmir. Hətta bəzən tamamilə fərqli didaktik materiallar əsasında modullar hazırlanır. Ona görə kompetensiyalara əsaslanan təlim modulları bütün elmi-pedaqoji-metodik tələblərə uyğun hazırlanmalıdır.

Milli kurikulumun ənənəvi təhsil proqramlarından ən mühüm üstünlüklərindən biri də onun çevikliyidir. Məhz bu çeviklik imkan verir ki, səmərəli kompetensiyalar əsasında yeni təlim modulları yaradılsın. Əgər kompetensiyalara əsaslanan təhsil proqramlarının (kurikulumların) vacib cəhətlərindən biri onların çevikliyidirsə, bu çevikliyi şərtləndirən cəhətlər də vardır. Onlar aşağıdakılardır:

- Texnoloji prosesdə və ya əməyin təşkilində dəyişiklik baş verdikdə rəqabətə dözə biləcək vəziyyəti təmin etmək şərtilə konkret modulu operativ şəkildə dəyişdirib yenisi ilə əvəz etməyə imkan verir.

- Bilik səviyyəsi, bacarığı və əvvəllər öyrəndikləri bilikləri birləşdirməklə hər bir təhsilalana təlimi fərdiləşdirməyə imkan verir.

- Eyni modulu (təlim modulu nəzərdə tutulur) bir neçə tədris proqramında tətbiqinə imkan verir [1, s.89-90].

Həyat bilgisi fənni üçün hazırlanan modullar, yəni müasir kompetensiyalara əsaslanan milli kurikuluma uyğun hazırlanan təlim modulları həm sırf fənnin özünə xidmət edə bilər, həm də

inteqrasiya üçün nəzərdə tutulan musiqi və təsviri incəsənət dərsləri üçün hazırlanan təlim modulları ilə müqayisəli şəkildə öyrədilə bilər. Əlbəttə, digər üstünlüklər də vardır.

Kompetensiyalara Əsaslanan Modul Metodikasının digər üstünlüyü ondadır ki, ilkin bilik və bacarıqlara sahib olan şəxsə texnoloji prosesin ona məlum olmayan pilləsini qısa zaman ərzində öyrədə bilər. [1, s.90]

Məhz ona görə də, orta ümumtəhsil məktəblərinin tədris prosesində, xüsusilə ibtidai siniflərin həyat bilgisi fənninin tədrisində, xüsusilə də fənnin musiqi və təsviri incəsənətlə inteqrasiyası prosesində təlim modullarından günün ən aktual tələblərinə uyğun olan bir şəkil istifadə olunması;

- şagirdlərin şəxsiyyətyönümlülük səviyyəsini yüksəldir;
- ibtidai sinif şagirdlərinin intellekt olaraq yetişməsinə kömək edir;
- şagirdlərin elmi dünyagörüşlərinin formalaşdırılmasını təmin edir;
- şagirdləri milli və ümumbəşəri dəyərlərə əsaslanan bilik, bacarıq və vərdişlər sisteminə yiyələndirir.

Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, məqalədə təlim modullarının mahiyyəti, məzmunu və metodologiyası şərh olunur, modul təlimi kompetensiyaları aydınlaşdırılır. Məqalədə həmçinin texniki kompetensiyalar, aralıq kompetensiyaları və əlaqə kompetensiyalarının hazırlanması metodikası barədə də məlumat verilir.

Məqalənin praktik əhəmiyyəti və tətbiqi ondan ibarətdir ki, məqalə göstərilən kompetensiyalardan yalnız təhsil sahələri üçün də çox əhəmiyyətlidir.

Nəticə etibarilə deyə bilərik ki, göstərilən təlim modullarından və kompetensiyalardan hər hansı bir fəaliyyət sahələrində istifadə olunduqda bilik və bacarıqlarının hərtərəfli formalaşmasını təmin edir.

İstifadə edilmiş ədəbiyyat

1. Əsgərov Rəsul, Qurbanov Malik. Modul tipli kurikulumlar və peşə-ixtisas təhsili. Bakı, Mütərcim, 2015**.**
2. Cahangirova Tükəzban. Müasir təlim texnologiyaları. Bakı, ADNA-nın mətbəəsi, 2015
3. Mehrabov Abdulla. Azərbaycan Təhsilinin müasir problemləri. Bakı, Mütərcim, 2007.
4. Sadıqov Fərahim., Həsənli Oruc. Didaktika, Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2014.
5. Ümumi psixologiya (V.İ.Petrovskinin müəllifliyi və redaktorluğu ilə), M., 1977.

UOT 80/81

KURSANTLAR ARASINDA İNGİLİS VƏ RUS DİLLƏRİNDƏ DİSKURSİV KOMPETENSİYALARIN FORMALAŞDIRILMASI METODOLOGİYASI, ONUN NƏZƏRİ MƏSƏLƏLƏRİ VƏ İNTENSİVLƏŞDİRİLMƏSİ VASİTƏSİ KİMİ KOMMUNİKATİV TƏLİMDƏN İSTİFADƏ

Lütviyyə Akif qızı Nəsibova
Cəmşid Naxçıvanski adına Hərbi lisey
Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutunun Adyunkturasının adyunktu
lutviyyenesibova@yahoo.com

Müasir dövrdə xarici dillərin öyrənilməsinin nə qədər önəm daşıdığı hamımıza məlumdur. Hal hazırda xarici dillərin öyrənilməsi müasir tədris metodları ilə həyata keçirilir. Yeni təlim texnologiyaları dünya təcrübəsində özünəməxsus yer tutur. Müstəqil düşünmək, sərbəst fikir söyləmək, interaktiv təlim metodlarından səmərəli istifadə etmək, başqasının fikir və mülahizələrini

təsdiq və inkar etmək, bir biri ilə fikir mübadiləsi aparmaq təhsil keyfiyyətinin yüksəldilməsinə təkan verən ən başlıca amillərdən biridir. Müşahidələr göstərir ki, xarici dillərin öyrənilməsində yazılı və şifahi nitq bacarığının formalaşdırılması, düzgün oxu qabiliyyətinin inkişaf etdirilməsi təmin olunmalıdır. Lüğət ehtiyyatlarının zənginləşdirilməsində, qrammatik strukturların, dil konstruksiyaların mənimsənilməsində, yazılı və şifahi nitqin inkişaf etdirilməsində, dinləyib anlama vərdişlərinin formalaşdırılmasında dilin qrup formasında öyrənilməsi ön plana çəkilir. Belə olduğu zaman kursant müxtəlif sözlərin öyrənilməsində lüğət və internet resurslarından istifadə etməli və yoldaşlarının nitqinə münasibət bildirərək, onlarla diskursa girmək üçün daha da fəal işləməlidir.

Xarici dildə şifahi nitqi inkişaf etdirmək üçün bir çox üsullar və metodlar mövcuddur. Kommunikativ metod xarici dillərin öyrənilməsində əlverişli metodlardan biridir. Bu metod ötən əsrin 70-ci illərində Böyük Britaniyada yaranmışdır. Kommunikativ metod insanlara real həyatda ünsiyyət qurma bacarığını öyrədir. Bu metodun məqsədi nitqi şifahi və yazılı inkişaf etdirməkdir. Kommunikativ təlim prosesində kursantlar tədricən müstəqilliyə alışır, sərbəst düşünüb fikir söyləməyə can atırlar. Kommunikativ metodda gündəlik həyatı əks etdirən dialoqlar qurulur və bu zaman onun necə bitəcəyi, verilən suala kim və necə cavab verəcək bilinmir. Hər şey situasiyadan asılı olur. Hər şeydən əvvəl kursantlar öyrəndikləri dildə müntəzəm olaraq danışmalıdırlar.

"Ordumuzun gələcəyi" dediyimiz kursantlar həyatımızın gələcəyi, ömrümüzün davamıdır. Onların təlim-tərbiyəsinə, sağlamlığına düzgün münasibət ordumuzun aydın sabahının, parlaq gələcəyinin təminatıdır. Bu baxımdan kursantları dərin və hərtərəfli biliklərlə təmin etməli, onlarda bacarıq və vərdişlər formalaşdırmalı, yüksək mədəniyyətə, mütərəqqi dünyagörüşə malik olan şəxsiyyət yetişdirməlidir. Məhz bunları nəzərə alaraq, tədrisdə problemin səmərəli həlli üçün dünya standartlarına cavab verə biləcək yeni pedaqoji və metodik yanaşmalar, yeni metodik düşüncə tərzi lazımdır. Yeni bilik sahələrinin müstəqil sürətdə mənimsənilməsinə imkan yaradılması ön plana çəkilməlidir. Təlim prosesinə sistemli yanaşılmalı, təlim fəaliyyətini düzgün istiqamət-ləndirilməlidir. Fəaliyyətin düzgün istiqamətləndirilməsi üçün atılacaq hər bir addım əvvəlcədən düşünülməli, sistemlilik və ardıcıllıq gözlənilməlidir. Tədqiqat bacarıqlarının formalaşması, yeni materialın mənimsənilməsində məntiqi sübutlara ehtiyacın yaranması kursantların dərsə olan marağını, müstəqillik dərəcəsini yüksəldir.

Qeyd etdiyimiz kimi, xarici dillərin tədrisində kommunikativ metod mühüm yanaşmalardan biridir. Kommunikativ metod hal hazırda çox populyar olmaqla yanaşı həm effektli, həm də əlverişli və əyləncəlidir. Xarici dillərin tədrisində kommunikativ yanaşma metodunda eynilə ana dilinin tədrisində istifadə olunan vasitələrdən istifadə edilir. Kommunikativ metod ingilis və rus dillərində düşünmə bacarığını, eyni zamanda dilin düzgün olaraq situasiyada işlənməsini formalaşdırır. Xarici dillərin tədrisində kommunikativliyin əsas prinsipləri həyata keçirilməlidir: kommunikativlik, situativlik, funksionallıq dilin və mədəniyyətin öyrənilməsi, autentlik, mədəniyyətin dialoqu. Burada əsas prinsiplər dedikdə nələrə üstünlük verilməlidir?

Ilk olaraq, hər bir kursant tədris prosesində fəal iştirak edir; müəllim az, şagird çox danışır, qruplarla iş- kursantlar bir biri ilə ünsiyyətdə olmağı, hər kəsi başa düşməyi, öz fikirlərini müxtəlif vasitələrlə istifadə etməyi öyrənirlər; rollu oyunlar; danışıq slenqinin idiomatik ifadələrinin aktiv öyrənilməsi, ana dilin istifadəsinin minimuma endirilməsi və s. Xarici dillərin tədrisi digər humanitar fənlərin tədrisindən özünün spesifikliyi ilə seçilir. Xarici dillərin tədrisi zamanı kursantlarda dilin komponentlərinin və dil bacarıqlarının inkişaf etdirilməsi ilə yanaşı diskursiv kompetensiyaların formalaşdırılması metodologiyası, onun intensivləşdirilməsi, eləcə də diskursların düzgün seçilməsi də mühüm yer tutur. Baxılan termin linqvistik xüsusiyyətlərlə yanaşı, ünsiyyət vəziyyətini və ünsiyyət iştirakçılarının xüsusiyyətlərini əks etdirən ekstralinqvistik parametrlərə malik olan nitq əsəri - diskurs konsepsiyasına əsaslanır. Nəticə etibarilə, hərbi məktəblərsə xarici dildə auditoriyada mənimsənilmə obyekti məhz diskursdur. Diskursiv bacarıqların formalaşmasına yönəlmiş xarici dil ünsiyyətinin tədrisi məzmununun əsas komponenti diskurs növləridir. Hərbi təhsil müəssisələrində xarici dilin tədrisinin birinci mərhələsindən

diskursiv səriştənin formalaşmasını təmin edən xarici dil ünsiyyəti tədrisinin spesifik məzmunu nitqin psixoloji, psixolinqvistik və linqvistik xüsusiyyətləri ilə müəyyən edilir.

Hərbi məktəblərin kursantlarının xarici dili mənimsəməsinin təhsil vəziyyətlərində diskursiv səriştənin formalaşdırılması metodlarının seçimi bir sıra amillər nəzərə alınmaqla aparılmalıdır. Bunlara aşağıdakılar daxildir:

- kursantın sosial-psixoloji portretinin hərtərəfli təsviri;
- kommunikativ situasiyanın növü (şifahi/yazılı ünsiyyət, hazırlanmış/spontan nitq);
- peşəkar ünsiyyətin real situasiyalarının həyata keçirilməsi, diskursiv strategiya və taktikaların reallaşmasının personal-situativ xüsusiyyətləri.

Ünsiyyətin peşəkar-tədris sferasında ən çox yayılmış diskurs növləri diskursiv səriştənin formalaşmasına yönəlmiş xarici dil ünsiyyətinin tədrisinin məzmununun əsasını təşkil edir. Beləliklə, nitqi öyrətməzdən əvvəl tədrisin məqsədlərinə uyğun gələn nitq növlərini seçmək lazımdır. Üstəlik, seçim prinsipi konkret təhsil müəssisələrinin məzunları üçün xarakterik olacaq ünsiyyət sahələrinə və situasiyalara uyğun əsaslanmalıdır.

Ilk öncə diskursiv və diskurs sözünün etimologiyasını nəzərdən keçirək. Diskurs filoloji ədəbiyyatda geniş yayılmış termindir. Fransız dilində ənənəvi olaraq "mühakimə", "fikir yürütmə" mənalarında işlədilib. 50-ci illərdə E.Benvenist deyim nəzəriyyəsini hazırlayaraq diskursu nitqin xarakteristikası kimi müəyyənləşdirir: "Birincinin müəyyən şəkildə ikinciyə təsir etmək cəhdi". Yaxud İ.Derrida diskursu yazan və oxuyanların təcrübəsində canlı dərk olunmuş mətn təsəvvürü" adlandırır. Z.Xerrisə görə diskurs verbal kommunikasiyada mətn, qrammatik formaların, bir-birinin arxasınca sıralanmış frazaların ardıcıllığıdır. T.A.Van Deykə görə, diskurs "kommunikativ hadisədir".

Diskursiv kompetensiya isə kommunikativ bacarıqların tərkib hissələrindən biri hesab olunur və müxtəlif funksional üslubların ardıcıl və məntiqi ifadələrini qurmaq və başa düşmək bacarığı kimi müəyyən edilir. M.Kanale və M.Svein kommunikativ kompetensiyanın üç alt qrupunu təklif etmişlər: qrammatik, sosiolinqvistik və strateji. Bir neçə il sonra M. Kanale alt qrupu sonlandıraraq daha bir model və daha bir dördüncü, subcompetence - diskursiv kompetensiyanı irəli sürdü. Diskursiv kompetensiya aşağıdakı xüsusiyyətləri özündə əks etdirir: [10, s.12-27].

• mətn bacarığı - konkret mövzuda hansı mətnlərin aktual olduğuna dair biliyə əsaslanaraq kontekstdə uyğun mətnləri yaratmaq və şərh etmək bacarığı;

• janr bacarığı - onların istifadəsi ilə bağlı konvensiyalar əsasında tipik və ya yeni kommunikativ situasiyalarda konkret janrların mətnlərini yaratmaq və şərh etmək bacarığı;

• sosial bacarıq - sosial sahədə iştirak etmək üçün dildən istifadə etmək bacarığı və ya institusional qarşılıqlı əlaqə, nitq qarşılıqlı əlaqəsinin xüsusi sosial vəziyyətlərində öz sosial kimliyini ifadə etmək bacarığı: Diskursiv kompetensiyanın bu cür izahı onu göstərir ki, o, təkcə mətnlərin yaradılması və başa düşülməsi üçün zəruri olan dil biliyinə əsaslanmır, həm də mətndən kənara çıxan mürəkkəb amilləri də (məsələn, mətnə təsir edən müasir informasiya texnologiya-larını) nəzərdə tutur. Çünki diskursiv kompetensiya janr tələblərinə uyğun mətnlər yaratmaq və anlamaq kimi bacarıqları özündə əks etdirir. Təhsil müəssisələrində müasir informasiya kommunikasiya texnologiyalarının inkişafı, həmçinin peşəkar müəllim fəaliyyətində kommunikativ sahənin genişlənməsi, yeni informasiya kommunikasiya mühitində diskursiv kompetensiyanın mənimsənilməsi mühüm əhəmiyyət kəsb edir.

Diskursiv kompetensiya - tematik ardıcıllığı, mətnin leksik və qrammatik bağlılığını (kogeziya), uyğunluğunu (koherentlik), ritorik səmərəliliyini və məntiqini saxlayaraq funksional üslubun real situasiyası çərçivəsində ardıcıl nitq ifadəsi yaratmaq bacarığıdır. Diskursiv kompetensiyanın təhlili onun nitq kompetensiyası ilə eyniliyini göstərir. Diskursiv və ya nitq kompetensiyası - mətnin leksik və qrammatik bağlılığı (kogeziya), uyğunluğu (koherentlik) ilə fərqlənən, həmçinin oxu və dinləmə bacarığı zamanı xarici dildə ifadə olunan fikri izah etməklə, insanın həmin fikrə uyğun şifahi və yazılı nitqinin ifadəsi bacarığıdır. Diskursiv və ya nitq

kompetensiyası xarici dil kompetensiyanın (qrammatik, sosial-mədəni/mədəniyyətlərarası) alt kompetensiyaları ilə ayrılmaz əlaqədədir və digərləri ilə birlikdə öyrənənlər tərəfindən formalaşır. Bəzi diskursiv /nitq bacarıqları universal olaraq mövcud olma qabiliyyətinə malikdirlər və doğma dildən xarici dillərə ötürülə bilər (sosial-mədəni münaqişələr və sosial-mədəni boşluqların yoxluğu zamanı).

Diskursiv kompetensiya M.Sueyn, M.Kanale, S.Moirand, N.P.Qolovina, İ.F.Uxvanova-Şmıqova, L.P.Kapliç, O.İ.Kuçerenko kimi bir çox tədqiqatçılar tərəfindən kifayət qədər geniş şəkildə öyrənilmişdir. Diskursiv kompetensiya təkcə tam və əlaqəli mətnlərin yaradılması deyil, həm də müxtəlif nitq növləri və onların qurulması qaydalarını bilmək, onları kommunikativ vəziyyətə uyğun şərh etmək və ekstralinqvistik xüsusiyyətləri nəzərə alaraq bu diskursları yaratmaq bacarığıdır. E.V.Şumann rus dilçiliyində diskursiv səriştənin tərifini təklif edən ilk tədqiqatçıdır. E.V.Şumanın tərifinə əsaslanan diskursiv kompetensiya kursantın şifahi və ya yazılı şəkildə təqdim olunan məntiqi və ardıcıl nitq ifadələrini anlamaq və yaratmaq bacarığıdır [9, s. 4]. Diskursiv kompetensiya M.Sueyn, M.Kanale, S.Moirand, N.P.Qolovina, İ.F.Uxvanova-Şmıqova, L.P.Kapliç, O.İ.Kuçerenko kimi bir çox tədqiqatçılar tərəfindən kifayət qədər geniş şəkildə öyrənilmişdir [9, s. 4].

Diskursiv bacarıq əldə etmək üçün kursantlar peşəkar ünsiyyət sferasının janrları və nitqin peşəkar əhəmiyyətli növləri (hərbi diskurs hərbi materialları, hərbi-siyasi, hərbi-bədii, hərbi-texniki, hərbi-elmi, hərbi-publisistik mətnləri, eləcə də müxtəlif hərbi işğüzar sənədləri ilə geniş mənada təmsil olunur. Məlum olduğu kimi, hərbi diskursa elmi-texniki materiallar və bilavasitə hərbi sənədlər daxildir. Elmi-texniki materiallara hərbi texnikanın işi və ya quruluşu ilə bağlı çoxsaylı mətnlər də aid edilir. [2, s.314]):

- onların struktur-kompozisiya və linqvistik xüsusiyyətləri;

adekvat dil vasitələrindən istifadə etməklə nitqin strukturlaşdırılması üsulları (başlanğıc, mövzunun girişi, ümumiləşdirmə, nəticə, nəticə, əlavə, illüstrasiya, vurğu, mövzunun dəyişdirilməsi, nitqi davam etdirməyə həvəsləndirmə, nitqin tamamlanması); müxtəlif kompozisiya və nitq formalarından (xəbər, təsvir, rəvayət, şərh, aydınlaşdırma, düzəliş, təsdiq, imtina və s.) istifadə etməklə açıq və gizli məlumatların düzgün ifadə edilməsi;

- xaric dildə monoloq və dialoq xarakterli orijinal nitq mesajlarını dinləyərkən, o cümlədən yazılı nitqin bütün peşəkar əhəmiyyətli növlərinin əsərlərini oxuyarkən məna çıxarmaq;

- xarici dildə şifahi və yazılı ünsiyyətin diskursiv strategiyaları ilə tanış olub öyrənməlidirlər.

Peşəkar xarici dilin tədrisi prosesinin bir neçə il ərzində aparılan müşahidələri göstərir ki, xarici dildə diskursiv texnikanın əsaslarının tədrisi üç əsas mərhələyə bölünür.

Birinci mərhələ analitik-informasiya mərhələsidir. Seçilmiş ixtisasa uyğun olaraq peşəkar ünsiyyət sferasına xidmət edən diskurs növləri və janrları ilə tanışlıq mərhələsidir. Həmçinin onların ekstralinqvistik (referent situasiya, ünsiyyət iştirakçılarının sosial və rol münasibətləri, kommunikativ məqsədlər, ünsiyyətin məkan və zaman sərhəddi) və audiovizual təqdimat prosesində xarakterik xüsusiyyətlərə malik intralinqvistik (diskursun formatı və janrı, onun kompozisiya və struktur təşkili, leksik məzmunu) ilə tanışlığı əhatə edir. Bu mərhələdə eləcədə, nəzəri materialın sistemli və hərtərəfli öyrənilməsi, yeni anlayışlarla tanışlığa yönəlib və ekstralinqvistik kontekstdə nitq əsəri yaratmaq və qavramaq bacarıqlarının formalaşdırılması nəzərdə tutulur.

İkinci mərhələ praktiki-inkişaf mərhələsi adlanır. Burada diskursiv kompetensiyanın bütün komponenlərinın öyrədilməsi həyata keçirilir. Buraya aşağıdakılar daxildir:

- mətnin dil strukturlarının mənimsənilməsi üçün müxtəlif tapşırıqların yerinə yetirilməsi;

- ətnin struktur və kompozisiya tərtibatı;

- mətnin öyrənilən diskurs formatına xas olan vasitə və strukturda qurulması.

Bu mərhələdə əsas diqqət təqdimatın məqsədinə uyğun gələn leksik və qrammatik vasitələrdən istifadə edərək ünsiyyət məqsədi ilə məntiqi və semantik uyğunluğun başa düşülməsi

kimi mətnlə işləmək komponentlərinə verilir.

Üçüncü, ümumiləşdirmə və inkişaf mərhələsində kursantlar ünsiyyət şəraitində istiqamətləndirilməyi, qarşıya qoyulan məqsədi verilmiş ünsiyyət vəziyyəti ilə əlaqələndirməyi, təhlil əsasına uyğun diskurs formatını seçməyi və real ünsiyyəti simulyasiya edən şəraitdə düzgün həyata keçirməyi öyrənirlər.

Son mərhələdə təhsil prosesinin məzmunu şərti-real və real nitq situasiyalarını simulyasiya edən aktiv təlim formalarına əsaslanır. İkitərəfli proses olan təhsilin keyfiyyəti həm müəllimlərin əməyinin didaktik mükəmməlliyindən, həm də kursantın motivasiya yönümlülüyündən, onların idrak kommunikativ fəallığının səviyyəsindən asılıdır. Yalnız yüksək elmi məzmunun və müəllimin metodik məharəti kursantın idrak fəaliyyətinin məharətlə stimullaşdırılması ilə birləşməsi, öyrənilən materialın dərin və davamlı mənimsənilməsi üçün etibarlı zəmin yaradır [7, s.76].

Aparılmış tədqiqatlar belə nəticəyə gəlməyə imkan verir ki, insanın təhsil prosesi zamanı əldə etdiyi peşə keyfiyyətlərinin hər hansı yeni xüsusiyyəti fərqli xüsusiyyətlərə malik olmasıdır. Peşəkar ünsiyyət situasiyalarında diskursiv kompetensiya-kommunikativ vəziyyət haqqında linqvistik təlimin nəzəri əsasları haqqında biliklərin bir diskurs modelləşdirmə strategiyası ilə, diskursda diskurs təşkil etmək yolunu seçmək və diskurs təhlili aparmaq üçün praktik bacarıqların birləşməsidir.

Xarici dilin tədrisi prosesi həm də inkişafedici təhsil konsepsiyasına əsaslanır və mədəniyyətlərarası ünsiyyətdə iştirak etməyə qadir və istəyi olan kursantın şəxsiyyətinin inkişafına istiqamətlənib. Hazırda təhsil islahatı təhsil sistemlərindəki konservatizmin aradan qaldırılmasına, kadr hazırlığının səviyyəsi ilə cəmiyyətin tələbatları arasındakı fərqin aradan qaldırılmasına yönəlib. Belə ki, bu məqsədlə cəmiyyətdə və təhsildə müasir tendensiyalara uyğun olaraq xarici dillərin tədrisinin məqsəd və vəzifələri dəqiqləşdirilib və üstünlük təşkil edən kompetensiyalar müəyyən edilib, təhsilin məzmununa yenidən baxılıb.

İstifadə edilmiş ədəbiyyat

1. R.Manafoğlu, N.Tağısoy, R.Kamal. İZAHLI TƏRCÜMƏŞÜNASLIQ TERMİNLƏRİ LÜĞƏTİ. – Bakı: Mütərcim, 2010. – 164 s.(19)

2. Məmmədova İ. Diskursun Tip Və Janrlari. //"Xarici dillərin tədrisinin aktual problemləri" mövzusunda Respublika elmi-praktiki konfransının tezisləri (11-12 may, 2017-ci il). – Bakı: Mütərcim, 2017. – səh. 313-315

3. Алешанова И.В. Развитие дискурсивной компетенции на занятиях по иностранному языку в вузе / И.В. Алешанова, Н.А.Фролова // Успехи современного естествознания. – 2014. – № 11 – С. 92–94.

4. Амерханова О.О. Формирование дискурсивной компетенции в целях обучения иностранному языку // Вопросы методики преподавания в вузе=Teaching Methodology in Higher Education № 5 (19-2) 2016, 216-221

5. Евстигнеева И.А. Методика развития дискурсивных умений студентов на основе современных информационных и коммуникационных технологий (английский язык, языковой вуз): Дис. … канд. пед. наук / И.А.Евстигнеева. – Тамбов, 2013. – 228 с.

6. Коняхина И.В. Компетентностный подход в высшем профессиональном образовании (теоретический аспект) / И.В. Коняхина // Вестник Томского государственного педагогического университета. – 2012. – № 11 (126). – С. 68–71.

7. Попова Н.В. К вопросу о развитии дискурсивной компетенции / Н.В. Попова // Иностранные языки в школе. – 2011. – № 7. – С. 74–80.

8. Тюрина С.Ю. О Формировании навыков дискурсивной компетенции при подготовке переводчика в сфере профессиональной коммуникации / С.Ю. Тюрина // Вестник Ивановского государственного энергетического университета имени В.И. Ленина». – 2007. – № 1. – С. 1–3.

9. Шуман Е. В. Возможности и перспективы межкультурной коммуникации на немецком языке в школе / Е. В. Шуман //Международный научнопрактический (электронный) журнал «INTER-CULTUR@L-NET". — 2006. — Вып. № 5.

10. Canale M. From communicative competence to communicative language pedagogy // Language and Communication. London: Longman, 1983. – pp. 2-27.

UDC 372.8:811.111

METHODS OF DEVELOPİNG STUDENTS' ORAL COMPREHENSİON SKİLLS IN FOREİGN LANGUAGE TEACHİNG

Maleyka Aslanova
Ganja State University
maleykaa532@gmail.com

The main goal of teaching a foreign language to younger students is to master the basic speech structures that correspond to the threshold level of proficiency based on the Common European Framework of Reference for Languages (CEFR or CEF). Speaking education is based on topics that meet the real needs and interests of primary school students.

In order to promote communication between students, we must take into account the specific features of this type of speech activity, such as motivation, purposefulness, activity, connection with the personality and mental activity of a person, heuristic, independence, pace and situationality. If there are goals and motives for communication, the characteristic features of the participants in communication, their age, level of development, etc. are taken into account, and then the act of communication within the framework of any speech situation will certainly take place. [1]

English teachers are faced with the problem of "students' silence" in the lessons of developing speaking skills. And how can you teach to speak English if the student does not want to speak out, or speaks out only when the teacher asks him to?

Modern pedagogical technologies imply changes in the educational situation in such a way that the teacher from "indisputable authority" becomes an attentive and interested interlocutor and accomplice in the learning process. The communicative method, as one of the modern methods of teaching English, helps the teacher to be not only a carrier of information, but also an observer and consultant.

The task of the teacher is to create situations of educational bilingualism that would contribute to the communication of students. [3]

The best methods of activating the oral speech of students, in my opinion, are the methods of human-to-human interaction, i.e. interactive techniques. The word "interactive" comes from the English word "interact", which means "interact" - "mutual", "act" - to act. These techniques involve the interaction of the subjects of the educational process at the level of "peer to peer", where the teacher and the participant of the lesson are part of the same team; they work to achieve the same goal.

The following approaches are excellent for achieving these goals:

Description of the picture using the studied grammatical structures; the purpose of this task is the targeted use of the studied grammatical structures in combination with lexical units. To increase students' interest in completing the task, you can divide students into teams and put points for correctly composed statements. At the discretion of the teacher, the task can be complicated by discussing in advance which lexical units students must use when completing the task. Another

good motivation-boosting option is to increase your scores for longer, more lexically complex sentences. [2]

One of the varieties of the technique described in the previous paragraph is a task that is included in international English language exams, namely, **comparing two pictures and finding differences**. With this task, students learn very quickly such grammatical constructions as has got, there is/there are, he is wearing, it is big/black, etc.

Use of cards: In elementary school, visualization plays an important role in the development of many skills. When studying lexical topics, foreign language teachers often use cards depicting the reality related to the word. When teaching speaking, flashcards can be used to create mini-games or a stimulus to create an utterance. One of the techniques I use in my English lessons is Mix Pair Share, a technique borrowed from the Singapore teaching methodology and adapted for work in small groups. Cards in this situation are used as an incentive to start a dialogue in pairs. With the help of this technique, we practice the use of basic grammatical constructions and studied lexical units in speech. One of the most important skills developed in this technique is the skill of interaction with the interlocutor. Before completing the task, students are always given a certain speech task with which they must cope. To do this, you need to listen to your partner, ask the right question and, if necessary, ask again. [2]

One of the interesting tricks that give good results in teaching speaking is the use of board games. It is conditionally possible to divide them into lexical and grammatical.

Grammar board games are characterized by a clearer structure and rules. As a rule, the game is compiled to work out one grammatical construction in speech and bring it to automatism. Traditional board games such as sea battles, snakes and ladders, and even regular games adapt perfectly to these grammar games. Children get real pleasure from the excitement of the game; it's simple and understandable rules, as well as immersion in a foreign language environment.

Lexical board games are more creative and suitable for spontaneous speech. Such games can also be divided into several categories: games in which only vocabulary is worked out (usually these are memorization games, for example, memory or scrabble), games that are aimed at improving fluency and spontaneity should be included in another category (for example, Taboo, Cluedo, Alias, Activity, Mafia). It is worth noting that board games will undoubtedly decorate and diversify your lesson, but, unfortunately, most games take time not only to play, but also to explain it. It is often quite difficult to fit this technique into the outline of the lesson, since children are very fond of the game and it is difficult to switch them to other activities that are not so exciting. When planning a lesson, it is necessary to take into account possible risks and allocate a sufficient amount of time. [3]

In conclusion, I would like to note that the development of speech skills in elementary school students is a rather complicated process for both students and teachers. One of the most important factors that contribute to the development of oral speech in a foreign language is positive reinforcement from the teacher at each lesson.

References

1. Methods of teaching foreign languages in primary and secondary schools: Proc. allowance / V.M. Filatov, V.P. Belogrudova, T.E. Isaeva. - Rostov-on-Don: Phoenix, 2004.
2. Solovova E.N. Methods of teaching foreign languages: Basic course of lectures. M., 2002.
3. Schukin A.N. Methods of teaching foreign languages: a course of lectures. M., 2002.

UOT 80

HUMANİTAR FƏNLƏRİN TƏDRİSİNDƏ (ƏDƏBİYYAT FƏNNİ) ŞAGİRDLƏRİN EKOLOJİ TƏRBİYƏSİ

Minayə Əflatun qızı Məmmədova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
minayacafarova_kh.shipping@mail.ru

Ekoloji tərbiyəyə aid fikirlər ən qədim dövrlərdən mövcud olmuşdur. İnsan tarixən həmişə təbiətlə təmasda olmuş, təbiətin mikro hissəsi kimi onun ağuşunda böyümüş, onun nemətlərindən suyundan, havası, meyvəsi və torpağından güc almışdır. İnsanla təbiət arasındakı qarşılıqlı münasibət insanın və cəmiyyətin taleyi, yaşayışı, həyat tərzi ilə sıx bağlıdır. Bu münasibətin tarazlığı, normal olması təbiətin saflığını, insanın və bütövlükdə cəmiyyətin firavanlığım, normal inkişafını təmin edir. Münasibətlərdə tarazlıq, normallıq pozulduqda fəlakətlər törənir və bundan insan, təbiət və cəmiyyət böyük ziyan çəkir.

Xalqımızın ən gözəl bayramı olan Novruz bayramında ekoloji tərbiyənin ünsürləri tam əhatə edilmişdir. Dörd çərşənbənin - su, od, torpaq və yel çərşənbələri bunu sübut edir. Su çərşənbəsində qar əriyir yağış yağır. Od çərşənbəsində günəşin isti şüaları torpağı isidir. Torpaq çərşənbəsində torpaq cana gəlir, ağaclar tumurcuqlanır. Yel çərşənbəsində tumurcuqlar tədricən açılmağa başlayır. Novruzda insanlar həyət bacanı təmizləyir, əkin-səpinlə məşğul olur, ağaclar əkilir. Onlar sübh tezdən axar su üstünə gedir, alov üstündən tullanırlar və s.

Xalqımız həmişə torpağa, suya, meşəyə, heyvanat aləminə və s. qayğı göstərmiş, bağ salmağı, bulaq çıxartmağı, kəhriz çəkməyi, körpü tikməyi, ağac əkməyi savab iş hesab etmişdir. Xalqımızın bu gözəl adət və ənənələri "Avesta"dan, Novruz bayramından, ulu dastanımız "Dədə Qorqud"dan qidalanmışdır. İlk yazılı abidəmiz olan "Dədə Qorqud" dastanlarında ekoloji tərbiyə alqışlar şəklində bildirilmişdir.

Dastanda alqışlar çoxdur. Lakin bunlardan bir neçəsi bilavasitə təbiətin qorunması ilə əlaqədardır. Dastanda təsvir edilən Oğuz ölkəsi 24 vilayətdən ibarət idi. Ölkəyə xanlar xanı Bayandır xan başçılıq edirdi. Buna padşah da demək olardı. Salur Qazan ölkə ordusunun baş sərkərdəsi, Dədə Qorqud isə baş vəzir, el ağsaqqalı idi. Alqışlar Dədə Qorqudun dili ilə söylənilir. Təbiətlə bağlı alqışlara misal olaraq aşağıdakıları göstərmək olar:

1. *Böyük qarh, uca dağların dağılmasın, yıxılmasın.*
2. *Kölgəli, hündür, uca ağacların kəsilməsin.*
3. *Coşqun axan gözəl suların qurumasın.*
4. *Çaparkən ağ boz atın büdrəməsin.*

"Kitabi Dədə Qorqud" dastanının boylarında dönə-dönə deyilir:

Yerli qara dağlarımız yıxılmasın,
Kəlğəlicə iri ağacımız kəsilməsin,
Kurrah axan gözəl çaylarımız qurumasın.

Şifahi xalq ədəbiyyatından gətirilən nümunələrlə yanaşı, şagirdlərin diqqətini real həyatdakı hadisələrə də yönəltmək lazımdır. Belə ki, tədris zamanı xalqımızın görkəmli nümayəndələrinin, alimlərinin, xeyriyyəçilərinin vətənimizin ekoloji sərvətlərindən yararlı istifadəsindən də söhbət açmaq lazımdır.

Keçmiş tariximizə qayıdaraq mesenat H.Z.Tağıyevin xalqımız üçün bu sahədə olan əvəzsiz fəaliyyətini mütləq şagirdlərin nəzərinə çatdırmaq lazımdır. Bakıya Şollar suyunun çəkilməsi Dumada müzakirə ediləndə hərə bir fikir söyləyir. Bir nəfər isə deyir ki, birdən su olmadı, bulaqlar qurudu, onda bu qədər vəsaitin xərclənməsi necə olar? H.Zeynalabdin sakitcə yerindən qalxıb deyir: "Cənablar, ağalar, nə vaxtı Şah dağda qar olmasa, su olmaya bilər. Lakin nə qədər ki, Şah dağ var, heç vaxt Bakıya gətirilən bulaq suları da qurumayacaq. Su həmişə olacaq."

Bunu deyə bilərik ki, ekoloji məsələlər, maddi sərvətlərdən düzgün istifadə bütün dövrlərdə öz aktuallığını qorumuşdur və hələ də qorumaqdadır.

F.Engels "Təbiətin dialektikası" əsərində yazırdı ki, "...təbiətdə heç bir şey ayrılıqda baş vermir. Hər bir hadisə başqa hadisəyə təsir edir... Lakin təbiət üzərindəki qələbələrimizlə çox da öyünməyək. Hər bir belə qələbə üçün təbiət bizdən intiqam alır".

Təbiətdə vəhdətin və tarazlığın pozulmasının təbiətin məhvinə gətirib çıxarmasını "İsgəndəmamə" əsərində Bərdənin tərifinə Nizaminin həsr etdiyi şeir parçası çox aydın ifadə edir. Böyük şair Bərdənin keçmişini, indisini və gələcəyini poetik şəkildə təsvir etməklə yanaşı, təbiəti qorumaq məsələsinə öz münasibətini də bildirir. Nizami Nüşabə-İsgəndər dövrü Bərdəsinin füsünkar təbiətini belə tərənnüm edir:

Bərdə nə gözəldir, necə qəşəngdir,
Yazı da, qışı da güldür, çiçəkdir.
İyulda dağlara lalələr səpər,
Qışını baharın nəsimi öpər.

...Qırqovul yuvası hər sərv ağacı,
Oxuyur kökləyir, ötür turacı.
Səssizlik içində dincəlir gülşən,
Torpağı silinmiş qayğı, kədərdən.
O yaşıl yerləri dolaşıb gəzsən,
Şənlikdən başqa bir xəyal görməzsən.

Nizami öz dövrünün Bərdəsinin vəziyyətini də təsvir etməyi unutmur. İnsanların təbiətə yalnış münasibəti təbiətdə ahəng və ahəngdarlığın pozulmasının nəticəsində Bərdənin təbiətinin tənəzzülə uğradığını Nizami belə təsvir edir:

İndi o dərgahın taxtı açılmış,
İpəyi, qumaşı küləklər çalmış.
Təzə nar gülləri tökülüb solmuş,
O narlar, nərgizlər dönüb toz olmuş.
İndisə yerində o gözəl yurdun,
Bar sel yumuş dərə, qurumuş odun.

Nizami bu təsvirdən sonra heç də kədərlənmir, bu şanlı diyarın təbiətinin bərpa edilə bilmə yolunu göstərir.

Yenidən gözəlcə bəslənsə diyar,
Get-gedə yaşıllıq, gözəllik artar.

Nizami vəhdəti bərpa etməklə, insanla təbiət arasında ahəngdarlıq və ağıllı münasibət yaratmaqla, ekoloji tərbiyə baxımından dağılmış yerlərin tədricən yavaş- yavaş bərpa edilə biləcəyinin mümkünlüyü, təbiəti qorumaq və onun gözəlliklərini, ehtiyatlarını artırmaq yollarını hələ səkkiz əsr bundan qabaq göstərmişdir.

Hazırda ekoloji tərbiyə bir ölkənin, bir xalqın deyil, bütün dünya ölkələri və xalqlarının zəruri problemidir. Ekoloji tərbiyə ekoloji biliklərə, heyvanlar və bitkilər aləmində, habelə onların yaşayışında, ümumən ətraf mühitdə baş verənlər barədə faktlar, məlumatlar almağa nail olmaq deməkdir. Estetik hisslər və ekoloji mədəniyyət ekoloji tərbiyənin tərkib hissəsidir.

Ekoloji tərbiyə prosesində məktəblilərdə təbiətin mühafizəsinə dair mənəvi məsuliyyət formalaşır.

Təbiət insandan asılı olmayaraq obyektiv şəkildə mövcuddur. Təbiətə hər cür əmr etmək olmaz. İnsan təbiət üzərində dəhşətlər yaradıb, özü qaçıb gizlənə bilməz. İnsan təbiətə qanunlar diktə edə bilməz, yalnız həmin qanunları dərk etmək, onlardan öz məqsədləri üçün istifadə etmək yolu ilə tərəqqi edə bilər. Təbiət insana ən qiymətli sərvət olan ağılı bəxş etmişdir. İnsan öz ağlının

gücü ilə təbiət qanunlarını dərk edib, ən qüvvətli heyvanları özünə tabe edə bilir. İnsanın kamalı, onun fikir dünyası intəhasızdır.

Ekoloji tərbiyə üzrə işin əsasında təbiətə məhəbbət, gözəlliyə vurğunluq durur. Ona görə də, I sinifdən etibarən uşaqlarda təbiətin gözəlliyini duymaq, onu ürəkdən sevmək hissləri tərbiyə olunmalıdır.

Ekoloji tərbiyə müasir şəxsiyyətin formalaşmasının müstəqil istiqaməti kimi ayrılsa da, burada təbiətə münasibət ictimai, əxlaqi, şüurlu və humanist münasibətlərin aşılanmasının bir hissəsi kimi götürülür. Ekoloji tərbiyə müasir dövrdə əqli, estetik, əmək, vətənpərvərlik və s. istiqamətlərin formalaşmasında böyük rol oynayır.

Son dövrlərdəki tədqiqatlar aqressiv və anti-sosial davranışın inkişafında mühüm amil kimi laqeydliyi göstərmişdir. Anti-sosial uşaq davranışına aqressiv hərəkətlər, oğurluq, vandalizm, yanğın törətmək, yalan danışmaq, dərsdən yayınmaq, evdən qaçmaq və əsas sosial qaydaları və gözləntiləri pozan digər hərəkətlər daxildir. Fiziki zorakılıqla birləşən laqeydliyin, eləcə də təkbaşına laqeydliyin, xüsusən də orta məktəb illərində məktəbdə intizam problemlərində böyük təsirə malik olduğu bir çox tədqiqatda göstərilmişdir.

Beynəlxalq hüquq səviyyəsində laqeydliyin və ya etinasızlığın standart, spesifik tərifinin olmaması həddən artıq geniş olan və tədqiqatlar arasında müqayisə aparmağı çətinləşdirən tədqiqat tərifl ərinin meydana çıxmasına gətirib çıxarır.

Laqeydlik, adətən, valideynlərin hərəkətsizliyi və ya uşaqları zərərli təsirlərə məruz qoyan dolayı zərərli davranışları baxımından müəyyən edilir. Polanskinin 1975-ci ildəki tərifində də qeyd olunur ki, bir qayda olaraq, laqeydlik valideyn tərəfindən qəsdən hərəkətsizliyin və ya yuxarı səviyyəli diqqətsizliyin uşağa zərər vurması və ya fiziki, intellektual və emosional inkişafı üçün əsas tələblərin təmin olunmadığı bir vəziyyətdir [7, s.3]. Digər bir yanaşma uşaq üçün təhlükə

yaradan bu kimi hərəkətləri səhlənkarlıq kimi təsnif edir və həmçinin bəzi təriflər bir halı laqeydlik kimi qiymətləndirmək üçün faktlaşdırılmış zərərin olması şərtini irəli sürür. [3]

Laqeydliyin nəticələrinin müəyyən edilməsində bir mürəkkəblik də xalis laqeydliyin nisbətən az olmasıdır. Pis rəftar və əlillik arasındakı əlaqəni araşdıran tədqiqatlardan birində Sullivan və Knutson qeyd edirlər ki, laqeydliklə üzləşmiş uşaqların üçdə ikisi pis rəftarın digər formalarını da yaşamışdır və bu baxımdan zorakılıq pis rəftarın ən çox rast gəlinən formasıdır. [9, s.271-288]

Anti-sosial davranışın inkişafında laqeydliyin rolunu başa düşmək kontekstində fiziki laqeydlik və nəzarət edilməməsi arasındakı fərq kritik əhəmiyyətli ola bilər. Barnettin təsnifatı başda olmaqla bir çox laqeydlik taksonomiyaları nəzarətdə laqeydliyi fiziki laqeydlik anlayışının tərkib hissəsi kimi göstərir. [1, s.73]

DePanfilis və Dubovitzin qeyd etdiyi kimi, fiziki laqeydlik valideyn və ya himayəçi kimi yetkin şəxsin uşağa qida, yaşayış sahəsi, geyim, gigiyena, oyun, təhsil, təhlükəsizlik üzrə və tibbi xidmət göstərməklə bağlı vəzifəsini yerinə yetirməkdən imtina etməsi və ya bu sahədə uğursuzluğudur. [4]

Fiziki laqeydliyə aşağıdakılar aiddir:

1) sağlamlığın qayğısına qalmaqdan imtina;
2) tibbi yardıma müraciət etməkdə gecikmə;
3) tərk etmə;
4) qovma;
5) qəyyumluqla bağlı digər məsələlər;
6) qeyri-adekvat nəzarət;
7) digər fiziki laqeydlik formaları. [8]

Təhsildə laqeydlik həm akademik, həm də davamiyyət komponentlərinə malik ola bilsə də, o, ilk növbədə məhdud müddət ərzində ardıcıl üzrsüz iştirakların sayı üzrə qiymətləndirilir.

Emosional laqeydlik adekvat emosional dəstəyin təmin edilməməsi, diqqət və sevginin olmaması və ya uşağın emosional zorakılığa məruz qalması deməkdir. Emosional laqeydliyə aşağıdakılar daxildir:

1) qeyri-adekvat qayğı və ya sevgi;
2) uşaq mühitində xroniki və ya həddindən artıq zorakılıq;
3) narkotik və ya alkoqol asılılığına icazə verilməsi;
4) maladaptiv (uyğunlaşmayan) davranışa yol vermək;
5) psixoloji yardımdan imtina;
6) psixoloji yardım almaqda gecikmə;
7) inkişaf ehtiyaclarına diqqətsizlik. [8]

Uşağın fiziki və emosional sağlamlığına şüurlu şəkildə zərər vurmaq aktiv laqeydlik, məlumat, vasitə və ya qayğı çatışmazlığı kimi səbəblərə görə uşağa etinasızlıq isə passiv laqeydlik adlanır [5, s.679]. Fiziki zorakılığa məruz qalan uşaqlara nisbətən, laqeyd yanaşılmış uşaqlarda daha ciddi idrak və akademik çatışmazlıqlar, sosial fobiya və məhdud həmyaşıd qarşılıqlı əlaqələri və internalizasiya problemləri qarşıya çıxır.

Bəzi tədqiqatlar müsbət valideyn davranışlarının qoruyucu təsirlərinin oğlanlara nisbətən qızlar üçün daha qabarıq olduğunu və qızların oğlanlara nisbətən valideynlərinə daha çox məlumat verdiyini aşkar etmişdir [10, s.123]. Körpələrə və məktəbəqədər yaşlı uşaqlara qarşı laqeydlik və sui-istifadə hallarına daha çox rast gəlinir və yaş artdıqca bu nisbət azalır. [2, s.1-7]

Yoxsulluq şəraitində və ya stresli şəraitdə yaşayan valideynlərin əksəriyyətinin uşaqlarını istismar etməyəcəklərini və ya onlara laqeyd yanaşmayacağını qeyd etmək əhəmiyyətli olsa da, bu da məlumdur ki, yoxsulluq şəraitində böyüyən uşaqlar ümumilikdə pis rəftar riski altındadırlar [6, s.30-31]. Məsələyə bu mövqedən yanaşmaq yoxsul ailələri stiqmatizasiyadan qorumaq üçün olduqca vacibdir. Eyni şəkildə, psixi xəstəlik yaşayan valideynlərin əksəriyyətinin sırf bu pozuntu nəticəsində uşaqlarına laqeyd yanaşmasını və ya onlara zərər verməsini iddia etmək mümkün deyil.

Valideynlərin ruhi xəstəlikləri narkotik maddə asılılığı, məişət zorakılığı və ya uşaqlıqda istismar kimi digər problemlərlə birgə mövcud olduqda uşaqlar istismar və laqeydliyə daha həssas ola bilərlər.

İstifadə edilmiş ədəbiyyat

1. Barnett D., Manly J.T., Cicchetti D., (1993). Defining child maltreatment: The interface between policy and research. Norwood, NJ: Ablex.
2. Bilir S., Ari M., Donmez B. N., Atik B, San P., (1991). An investigation of the frequency of physical punishment of 50473 children between 4-12 years in 16 cities of Turkey. Ana Çocuk Sağlığı ve Egitimi Dergisi, 5: 1-18.
3. First National Incidence Study [NIS-1]. https://cwrp.ca/first-nations-incidence-study
4. Harrington D., Zuravin S. J., DePanfilis D., Dubowitz H., Ting L., (2003). Neglect Scale: Confirmatory factor analysis in a low-income sample. Child Maltreatment 7(4).
5. Kathryn L.H, David A.W., (2002). Child neglect: Developmental issues and outcomes. Child Abuse Neglect. 26.
6. Katz I., Corlyon J., La Placa V., Hunter S., (2007). The relationship between parenting and poverty. York Publishing Services, Layerthorpe.
7. Knutson, J. F., DeGarmo, D. S., & Reid, J. B., (2004). Social disadvantage and neglectful parenting as precursors to the development of antisocial and aggressive child behavior: Testing a theoretical model. Aggressive Behavior, 30(3).
8. Sedlak A.J., Broadhurst D.D., (1996). Third national incidence study of child abuse and neglect: Final report. Washington, D. C.
9. Sullivan P.M., Knutson J.F., (1998). The association between child maltreatment and disabilities in a hospital-based pediatric sample. Child Abuse Negl. 22(4).
10. Yanping J., Chengfu Y., Wei Z., Zhenzhou B., Jianjun Z., (2016). Peer Victimization and Substance Use in Early Adolescence: Influences of Deviant Peer Affiliation and Parental Knowledge. Springer. New York.

UOT 34

4.0 SƏNAYE İNQİLABI DÖVRÜNDƏ HÜQUQUN TƏDRİSİNİN ARTMAQDA OLAN ƏHƏMİYYƏTİ

Ramin Ramiz oğlu Əliyev
Gəncə Dövlət Universiteti
raminlev@gmail.com

Dördüncü sənaye inqilabı "Əşyaların İnterneti", robot texnologiyaları, virtual reallıq və süni zəka kimi fundamental texnoloji konsepsiyaları özündə ehtiva etdirən bir qavram və həddindən artıq mürəkkəb bir prosesdir [sənaye inqilabları, habelə 4.0 sənaye inqilabı haqqında bax - 8]. Dünyanın digər xalqlarının, o cümlədən Azərbaycan xalqının şifahi xalq yaradıcılığında şüuraltı səviyyədə, nağıl və əfsanələr formasında süni intellektin tətbiqi nümunələri verilir. Xalq nağıllarındakı "sehrli güzgü", "uçan xalça", "sehrli çubuq" və s. nümunələr mistik şəkildə keçmişdən gələcəyə ötürülən və günümüzdə süni intellekt nümunələri kimi tanınan texnologiyalar haqqında əsrarəngiz mesajlardır.

Özündən əvvəlki sənaye inqilablarından fərqli olaraq, 4.0 sənaye inqilabı qısa müddət ərzində dünya əhalisinin ənənəvi yaşam və düşüncə tərzini əhəmiyyətli dərəcədə dəyişdirə bilib. Xüsusilə də, insanın dünyada yeri və rolu, əmək, peşə, dəyərlər, sərvətlər, ailə, cəmiyyət, dövlət və s.

məfhumları ilə əlaqədar baxışların, təsəvvürlərin yenidən formalaşması prosesləri start götürüb. Aşkar surətdə görünür ki, ictimai həyatın istənilən sferasına münasibətdə ənənəvi baxışlar, mövcud problemlərin ənənəvi üsul və metodlarla həllinə yönəlmiş cəhdlər öz səmərəliliyini böyük ölçüdə itirib. Bu o anlama gəlir ki, dünya hazırda yeni bir düzənə keçid dövrünü yaşamaqdadır.

Belə bir həssas və gərgin bir dönəmin əsas xüsusiyəti ondan ibarətdir ki, o, bir tərəfdən, bəşəriyyəti möhtəşəm elmi-texniki nailiyyətlərə qovuşduracaq, digər tərəfdən isə, dünya xalqları, əgər zəruri və zamanlı tədbirləri həyata keçirməzlərsə, çox ağır itkilərlə üzləşmək məcburiyyətində qalacaqlar. Əgər uğurlu 4.0 sənaye inqilabının sonlarına yaxın bəşəriyyətin qazancları sırasına insan həyatını son dərəcədə asanlaşdıran, zaman və məkan məsafələrini inanılmaz dərəcədə qısaldan, sağlıq problemlərini möcüzəvi şəkildə aradan qaldıran və s. "subyekt texnologiyalar" aid olacaqsa, itkilər siyahısına, ilkin olaraq, dəyərləri, azadlıqları, kimlik mənsubiyyətini, dövlət mənsubiyyətini və s. daxil edə bilərik .

Qısacası, 4.0 sənaye inqilabının bərabərində gətirdiyi problemlər son dərəcədə ciddidir və sistematik, davamlı, preventiv strategiyaları özündə ehtiva etdirən effektiv hüquqi tənzimləmə (hüquqi tənzimləmə məsələləri ilə əlaqədar bax: [6]) mexanizmləri olmadan, Azərbaycan Respublikasının milli təhlükəsizliyinə [2] qarşı yönəlmiş təhdidləri daha da ciddiləşdirə, ağırlaşdıra, onların miqyasını və təhlükəlilik dərəcəsini daha da artıra bilər. Sözügedən tənzimləyici mexanizmlərin içərisində ən mühüm yer və rol isə, heç şübhəsiz, universal və milli mənəvi dəyərlərə əsaslanan milli hüquqa verilməlidir. Çünki hüquqi tənzimləmə hər zaman, xüsusilə də, keçid dönəmlərində insan, cəmiyyət və dövlətin fəaliyyətlərini proqnozlaşdıran, optimallaşdıran, ən müxtəlif təhdid və zərərlərdən sığortalayan, sözügedən təhdid və zərərlərin zamanında aşkarlanması və qarşısının alınması, onların meydana gəlməsində təqsiri olan subyektlərin hüquqi məsuliyyətə cəlb olunması və islah olunması üzrə tədbirləri nəzərdə tutan, insanın, cəmiyyətin və dövlətin maraq və mənafelərini balanslı şəkildə qoruyan ən effektli üsul, vasitə və ya mexanizmdir. Müvafiq hüquq ədəbiyyatında da haqlı olaraq göstərilir ki, "*Respublikamızın müxtəlif inkişaf mərhələlərində müxtəlif kateqoriyalı cinayətlərlə mübarizə ön plana çəkilmiş və bundan sonra da çəkilə bilər və çəkilməlidir*" [4].

Lakin bu kontekstdə söhbət heç də ənənəvi, sabit hüquqi tənzimləmədən getmir. Ona görə də, hüququn "*cəmiyyət üzvlərini onların tərəfdar çıxdıqları dəyərlər və standartları ətrafında birləşdirən bir element kimi*" [5]. yenidən nəzərdən keçirilməsi, onun 4.0 sənaye inqilabına keçid dövrünün tələblərinə məzmun və mahiyyət etibarilə uyğunlaşdırılması, xüsusilə də, hüququn elmlərarası köklərinin hüquq normalarının işlənilməsi zamanı aşkara çıxarılması, həmin köklərin hüquqi tənzimləmə standartlarının hazırlanması zamanı nəzərə alınması həyati önəm daşıyır. Azərbaycan Respublikası hazırda bu istiqamətdə aparıcı dünya dövlətlərinin təcrübələrini araşdırır, öyrənir və uyğun modellərin, norma və standartların milli hüquq məkanına uyğun surətdə tətbiqi məsələsini nəzərdən keçirir.

Belə həssas bir şəraitdə, bütün dünyada hüquqi tənzimləmənin səmərəliliyi cəmiyyətin hüquq fenomeni ilə tanışlıq dərəcəsindən asılı olacaq. Məsələn, hüququn ən önəmli sahələrindən birini təşkil edən Mülki Hüququn tənimlədiyi əmlak və şəxsi qeyri-əmlak münsibətləri [7] hazırda "bitkoinləşmə", onlayn ödənişlər, elektron ticarət və s. ilə əlaqədar prinsipal dəyişikliklərə məruz qalmaqdadır. Hüququn fundamental anlayış və konsepsiyaları, onun məqsəd və vəzifələri, digər elmlərlə qarşılıqlı əlaqələri haqqında müəyyən səviyyədə biliklərə malik cəmiyyətlərlə işləmək dövlət aparatları üçün o qədər də böyük çətinlik təşkil etməyəcək. Çünki hüququn effektli, zamanlı və məqsədyönlü, müasir əmək bazarının və 4.0 sənaye inqilabının tələb və standartlarına uyğunlaşdırılmış interdissiplinar formatda tədrisi fərdlərin yeni şəraitlərdə optimal davranış standartları ilə tanış olmalarına imkan yaradacaq. Üstəlik, gənclər yeni dövrün bərabərində gətirdiyi müxtəlif "müasir" hüquq pozuntuları barədə biliklər əldə etməklə özlərini və yaxınlarını həm sözügedən hüquq pozuntularını törətməkdən, həm də həmin pozuntuların qurbanına çevrilməkdən qoruya biləcəklər. Beləliklə də, insan-insan, insan-dövlət, insan-robot və s. arasında hüquqi və

kvazi-hüquqi münasibətlərin tənzimlənməsinin yeni imkanları yaranacaq, kibercinayətkarlığın yeni forma və növləri ilə mübarizə asanlaşacaq, qlobal miqyasda "dəyərsizləşmə" fonunda universal humanist və milli mənəvi dəyərlərin qorunması mümkünləşəcək.

Yuxarıda qeyd olunan ümumi məsələlərlə yanaşı, 4.0 sənaye inqilabının tələb və standartlarına uyğunlaşdırılmış hüquqi tədrisə dair aşağıdakı tezisləri vurğulamaq məqsədəmüvafiq hesab edilir:

1. Tədris olunan hüquq fənləri (xüsusilə də, mülki hüquq, ailə hüququ, ətrah mühitin mühafizəsi hüququ, "İT" (informasiya texnologiyaları) hüququ, mübahisələrin həlli hüququ və s.) üzrə sillabus və proqramların, mühazirə və digər tədris materiallarının 4.0 sənaye inqilabı standartlarına mütəmadi şəkildə uyğunlaşdırılması;
2. Hüquq fənlərinin interdissiplinar formatda tədrisinə xüsusi əhəmiyyət verilməsi;
3. Hüququn tədrisi zamanı "əşyaların İnterneti", robot texnologiyaları, virtual reallıq və süni zəka inqilabi yeniliklərdən meydana gələn hüquq münasibətlərinin tənzimlənməsinin özünəməxsusluqlarına xüsusi diqqət yetirilməsi;
4. Dünya hüquq tədrisi praktikasına uyğun surətdə, yaranmaqda olan yeni hüquq sahələrinin ölkəmizdə tədrisi məsələsinə xüsusi diqqət yetirilməsi, hüququn interdissiplinar tədrisi üzrə ixtisaslaşmış təhsil müəssisələrinin sayının artırılması;
5. Sosial şəbəkələrin zaman keçdikcə KİV-ləri əvəzləməsini, böyük ictimai təsirə malik olmasını nəzərə alaraq, *sosial şəbəkələrin hüquqi tənzimlənməsi* məsələlərinə həsr olunmuş xüsusi bir tədris kursunun formalaşdırılması.

Bir sözlə, bütün söylənənlər belə bir qənaətə gəlməyə imkan verir ki, 4.0 sənaye inqilabının gedişində hüququn tədrisinin ən ümdə məqsədlərindən biri, digər elmlər və tədris fənləri kimi, "futurist təfəkkürə malik insanların" yetişdirilməsinə səy göstərmək olmalıdır [10].

Hesab edirəm ki, hüquq fənninin tədrisinə məhz bu cür yanaşma, çoxəsrlik hüquq tarixinə malik [3] Azərbaycan xalqının keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq təntənəli surətdə 1955-ci il 12 noyabr tarixində referendum yolu ilə qəbul edilmiş konstitusiyamızın preambulasında bəyan edilmiş niyyətlərin gələcəkdə də uğurla həyata keçməsinə əlverişli şərait yaradacaq [1].

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının 12 noyabr 1955-ci il tarixli Konstitusiyası.
2. "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının 29 iyun 2004-cü il tarixli, 712-IIQ №-li Qanunu.
3. Xəyyam İsmayılov, Azərbaycanın Dövlət və Hüquq Tarixi, "Nurlan", Bakı – 2006.
4. Firudin Səməndərov, Cinayət Hüququ, Ümumi Hissə, Bakı-1995, s. 7
5. Malcolm Shaw, International Law (fifth edition). Cambridge University Press, 2003., p. 1.
6. С.А.Комаров, Общая теория государства и права, курс лекций (издание 2-е, исправленное и дополненное). Москва. 1995 – 312 с., сс. 44 – 47.
7. Гражданское Право, под. ред. Ю.К.Тольстого и А.П.Сергеева, часть 1, Санкт-Петербург 1996, с.4-8.
8. https://www.weforum.org/agenda/2016/01/the-fourth-industrial-revolution-what-it-means-and-how-to-respond/ Məlumatlar 24.11.2022-ci il tarixində əldə olunmuşdur.
9. https://www.lightsondata.com/pros-cons-4th-industrial-revolution / Məlumatlar 24.11.2022-ci il tarixində əldə olunmuşdur.
10. https://www.britannica.com/topic/The-Need-for-a-Futurist-Mind-Set-2119786 Məlumatlar 24.11.2022-ci il tarixində əldə olunmuşdur.

UOT 330.35

MƏSAFƏDƏN TƏHSİL: PANDEMİYADAN DOĞAN ZƏRURƏT, TƏCRÜBƏ, PERSPEKTİVLƏR

Röya Xeyrulla qızı Əliyeva
doktorant
Naxçıvan Dövlət Universiteti
ruya.alisoy69@gmail.com

Hər kəsə məlum olduğu kimi COVID-19 pandemiyası ilk dəfə Çinin Vuhan şəhərində yarandı və bütün dünyanı yayılıdı.

Azərbaycanda ilk koronovirusa yoluxma hadisəsi rəsmi olaraq fevral ayının 28-i qeydə alındı. Mart ayının 3-dən Azərbaycanda təhsil sahəsinə aid olan müəssələr bağlandı. Azərbaycanda fevral ayının 28-dən kütləvi tədbirlərin keçirilməsinə birbaşa qadağan qoyuldu. Dezinfeksiyaedici məhlullarla təchizata birbaşa nəzarət həyata keçirildi. Koronavirusun yayılmasına nəzarət etmək üçün əyalət hökumətləri tədbirlərə başladı. Görülən əsas tədbirlərdən biri kütlənin qarşısını almaq üçün müvəqqəti olaraq mart ayında məktəblərin bağlanması oldu. Başlanğıcda məktəblərin bir ay müddətinə bağlanacağı açıqlandı.

Tədricən bağlanma vaxtı uzadıldı və nə vaxt açılacaqları barədə dəqiq məlumat verilmədi. Təhsil sistemlərinin daha əvvəl heç vaxt qarşılaşmadığı və hazırlıqsız olduğu bu xəstəlik prosesində öyrənmə itkisini minimuma endirmək üçün müxtəlif tədbirlər görüldü və ənənəvi təhsildən distant təhsilə keçirildi. Distant və ya məsafəli təhsil proqramı, təhsil müəssisələrinin, şagirdlərin tək başına təhsili reallaşdırmasına kömək etmək üçün müəyyən bir nizamda hazırladıqları dərs proqramı ilə həyata keçirilən işə verilən addır.

Distant təhsil proqramı tələbə ilə öyrədici qaynaqlar arasında əlaqə quraraq təhsili reallaşdıran bir sistemdir. Məsafəli təhsil proqramlarının hər hansı bir təhsil təşkilatına qeydli olmayan kəslərə də təhsil imkanı aşılayır. Məsafəli təhsil proqramının bir başqa istiqaməti də mövcud qaynaqlardan kifayət qədər faydalanması və inkişaf edən texnologiyanı yaxından təqib etmək məcburiyyətində olmasıdır. Kifayət qədər gərgin iş rejimində fədakar müəllimlərimiz buna dəstək verdi.Virtual məktəb vahid və sınaqdan keçmiş bir platforma idi. Digər proqramlarda olan texniki məhdudiyyətlər bunda yox idi. Bu layihələrə texniki dəstək verən əməkdaşların sayəsində virtual məktəb layihəsi təbii olaraq vahid bir paltforma kimi bütün ölkə ərazisində tətbiqi həyata keçirildi.

Distant təhsil fəaliyyətlərinin əksəriyyəti təhsil sahəsində həyata keçirildiyi üçün məktəblərin təhsil və təlimi dayandırmaq qərarı dünyadakı tələbə əhalisinin doxsan faizindən çoxuna təsir göstərmişdir (Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı [UNECSO], 2020).

Tələbələrlə aparılan sorğulardan aydın oldu ki, pandemiyanın təhsilə müsbət tərəfləri də oldu. Onlar dərslərdə vaxtdan daha səmərəli istifadə etdiklərini, dərslərə ara verərək yavaş-yavaş istədikləri kimi qeydlər apara bildiklərini, başa düşmədikləri mövzuları imtahana yaxın yenidən izləyib təkrarladıqlarını, nəqliyyata vaxt itirmədiklərini, özlərinə və digər işlərinə vaxt ayıra bildiklərini bildirdilər. Mühazirələrə daha sonra baxa bilməyin böyük üstünlük olduğunu xüsusilə vurğuladılar. Müəllimlərimizin fədakarlığı sayəsində daima sistemdən suallarının cavablandırıldığını bildirdilər. Bu sistemin inkişafı və istifadəsi həm tələbələr üçün, həm də təhsilin keyfiyyətinin yüksəldilməsi üçün faydalı oldu. Bu müsbət nəticələr arasında çox dəyərli praktiki məlumat tələbələrin öz təlim öhdəliklərini və müəllimlərin pedaqoji azadlığına meylinin artmasıdır. Bu o deməkdir ki, distant təhsili yaşayan şagird müstəqil təhsil alır, distant təhsili yaşayan müəllim orijinal tədris dizaynı hazırlamağa başlayır.

Öyrənmə strategiyaları şagirdin asanlıqla və qalıcı şəkildə öyrənməsini təmin edən öyrənmə yollarıdır. Bu strategiyalar şagirdi şüurlu bir öyrənən edir və zövqlə öyrənməyi asanlaşdırır.

Məlum olduğu kimi, əsas öyrənmə strategiyaları aşağıdakılardır:

- məlumat toplusunu əzbərləmək, yazmaq, çəkməklə təkrarlamaq;
- əqli təsvirlərdən, mənalı kodlardan, abbreviaturalardan istifadə etməklə əvvəlki biliklərin genişləndirilməsi və ya yeni məlumatların əlavə edilməsi;
- məlumatları təsnif etmək, cədvələ salmaq, sxematikləşdirmək;
- adekvat və düzgün öyrənib-öyrənmədiklərini müəyyən etmək üçün sorğu-sual etmək, yoxlamaq, müqayisə etmək, özünü qiymətləndirmək;
- öz öyrənmələrinə maneə olacaq maneələri tanımaq və aradan qaldırmaq, özləri üçün optimal öyrənmə şəraiti yaratmaq.

Bu öyrənmə strategiyaları ənənəvi üsullara öyrəşmiş tələbələr arasında nadir hallarda istifadə olunur. Məhz, uğurlu tələbələr əslində bu öyrənmə strategiyalarını həyata keçirən və onları tətbiq etmək üçün müstəqillik qazananlardır.

İdarəçilərin, tələbələrin, valideynlərin və müəllimlərin müxtəlif yerlərdə bir-biri ilə təmasda olması eyni zamanda onların distant təhsilin bir hissəsinə çevrilməsinə səbəb olmuşdur. Ölkəmizdə bu ünsiyyət müxtəlif media vasitələri ilə verilir. Zamanla bu prosesin çox fərqli nəticələri ortaya çıxır. Onlayn təhsil pandemiya zamanı təhsili davam etdirmək üçün səy göstərən müəllimlərin həyatında ön plana çıxdı. Əvvəldən distant təhsil olaraq planlaşdırılan distant təhsildən fərqli olaraq, pandemiyanın yaratdığı böhran səbəbiylə təcili olaraq təhsilin vəziyyəti tələbələrə təhsilin üzbəüz bir mühitdə çatdırılması məqsədi ilə seçilmiş uyğun bir həlldir.

Rəqəmsallaşma qlobal təhsil üçün əhəmiyyətli bir mərhələdir, onun genişlənməsi, nizamlanması və normallaşdırılması təhsildə fürsət bərabərliyinin təmin edilməsində çox əhəmiyyətli bir addımdır. Təcrübələrimizin olmaması peşə həyatımıza ağır təsir edir. Distant təhsil də yaşadığımız mühitdən asılı olaraq əhvalımıza və iş tərzimizə təsir etdi. Qeyri-kafi resurslar və anlaşılmazlıq... Distant təhsilin bir çox yaxşı tərəfləri olduğu kimi mənfi tərəfləri də oldu. Distant təhsil zamanı internetin kəsilməsi, məktəb və sinif mühitindən uzaq olmaq, sistem infrastrukturunun qeyri-kafi olması səbəbindən canlı dərslərə qatıla bilməmək və s. kimi problemlərlə qarşılaşdıq. Praktiki dərslərin vacib olduğu bir fakültədə bu sistem vasitəsilə ixtisaslı həkimlər hazırlamaq mümkün deyil. Bu, bəzi ixtisaslar üçün effektiv təhsil sistemi deyildi. Praktiki dərslərin tələbənin passiv qaldığı sistemdə keçirilməsi peşə həyatı baxımından ciddi problemlər yarada bilər.

Koronovirus epidemiyası zamanı ölkə daxilində məktəblərin bağlanmasına qərar verən ölkələrdən biri də Türkiyə Cümhuriyyəti dövlətidir. Milli Təhsil Nazirliyinin qəbul etdiyi qərarlara uyğun olaraq, 23 mart tarixindən etibarən 16 milyon şagird və 800 min müəllim Milli Təhsil Nazirliyinin təşkil etdiyi və həyata keçirdiyi distant təhsilə keçdi. Türkiyə Radio və Televiziya Qurumunun üç televiziya kanalı vasitəsilə təqdim etdiyi rəqəmsal təhsil portalı, təhsil və təlim üçün fərqli bir mühit olan Təhsil və İnformatika Şəbəkəsi və internet əsaslı distant təhsil fəaliyyətə başladı.

Təhsilin distant forması müəyyən səbəblər üzündən təhsilini artırmaq imkanı olmayan və yeni ixtisas almaq arzusunu həyata keçirə bilməyən potensial şəxslərə real təhsil imkanları yaradır. Distant təhsil formasının müsbət cəhətləri çoxdur. Həm ölkə vətəndaşları, ailələr, gənclər üçün, həm universitetlər üçün, həm də dövlət və bütövlükdə cəmiyyət üçün distant təhsil əlverişli təhsil formasıdır.

İstifadə edilmiş ədəbiyyat

1. https://azedu.az/az/news/29091-pandemiyanin-tehsile-tesiri
2. https://www.youtube.com/watch?v=UMzeEahsyJk
3. https://az.wikipedia.org/wiki/Distant_t%C9%99hsil
4. https://m.modern.az/az/news/217561/distant-tehsilin-ustunlukleri

UOT 811

QLOBALLAŞAN DÜNYADA XARİCİ DİLLƏRİN ÖYRƏNİLMƏSİNİN ƏHƏMİYYƏTİ

Rasim Əlisa oğlu Nərmanov
ADP-nun Şamaxı filialı
narmanov63@mail.ru

Qloballaşma həyatın ən müxtəlif sahələrini əhatə edən elə bir universal prosesdir ki, yüz, hətta min illər boyu bir-birindən bu və ya digər dərəcədə ayrılıb təcrid olunmuş, parçalanmış, diferensiallaşmış hadisələri - milli, yaxud regional xüsusiyyətləri, vərdişləri, kompleksləri modern texnologiyaların güclü təsiri altında görünməmiş bir sürətlə bir-birinə yaxınlaşdırır, qovuşdurur və nəticə etibarilə, çoxşaxəli əlaqələrlə səciyyələnən iqtisadi, ictimai-siyasi və mənəvi-ideoloji bütövlük yaratmaqla əlahiddəliyi məhdudlaşdıraraq, dünyada baş verən hadisələri, gedən prosesləri vahid məcraya salır. Əslində, orta əsrlərin sonu yeni dövrün əvvəllərindən başlayan, lakin XX əsrin ortalarından etibarən daha geniş vüsət alan qloballaşmanın əsas göstəricisi, yaxud atributu bütün dünyanı əhatə edən genişmiqyaslı inteqrasiya və ya beynəlmiləl ünsiyyət - kommunikasiya ehtiyacıdır.

Bu gün dünyanın elə bir guşəsini təsəvvür etmək çətindir ki, orada baş verən hər hansı hadisənin məsuliyyəti yalnız lokal xarakter daşısın və həmin məsuliyyəti bütövlükdə dünya öz üzərinə götürməkdən hər hansı səbəblə imtina etsin, yaxud görməməzliyə vursun. Əlbəttə, bu və ya digər hadisənin, sözün geniş mənasında, şərhində maddi və ya mənəvi- ideoloji xarakterli məqsədlər, konyukturlar, maraqlar kifayət qədər dərindən iştirak edə bilər, ancaq bu, mahiyyəti dəyişdirmir; belə ki, qloballaşmanı səciyyələndirən inteqrasiya, beynəlxalq ünsiyyət heç də həmişə obyektiv nəticələrə gəlməyi nəzərdə tutmur və onun maraqlı, cəlbedici xüsusiyyətlərindən biri də elə budur ki, müxtəlifliklər, fərqlilikləri bir araya gətirməklə yanaşı diskussiyalara, müxtəlif maraqların özünümüdafiəsinə və konyukturlara da geniş meydan açır.

Qloballaşma, hər şeydən əvvəl, beynəlxalq ünsiyyətin durmadan miqyaslanmasını tələb edir ki, bu da "insanlar arasında ən mühüm ünsiyyət vasitəsi" (V.İ.Lenin) olan dilin (əslində, dillərin!) təbiətinə əhəmiyyətli dərəcədə təsir edir.

Bu gün dünyada mövcud olan yüzərlə dildən yalnız bir neçəsi beynəlxalq statusa və ya nüfuza malikdir ki, bunlar ingilis, fransız, alman, ispan, Çin, ərəb, rus və s. dillərdir. Həmin dillərin içərisində isə ingilis dilinin xüsusi mövqeyi vardır.

Müasir dünyada, o cümlədənə Azərbaycanda da ingilis dilinin nüfuzunun sürətlə artması müşahidə olunur ki, bunun ən azı iki səbəbi mövcuddur:

1) dünyanın (bəşəriyyətin) ümumi (universal) bir ünsiyyət vasitəsinə (dilə) getdikcə güclənən ehtiyacının olması;

2) ingilis dilinin belə bir ehtiyacı ödəmək üçün digər nüfuzlu dillər ilə müqayisədə üstünlükləri.

Çağdaş dünyamızda qloballaşma prosesi inkişaf edib genişləndikcə müxtəlif millətlər və cəmiyyətlər, irqlər və ölkələr arasında ictimai-siyasi, sosial-mədəni və digər əlaqələr yeni mahiyyət qazanır. Cəmiyyətin bütün sahələrində olduğu kimi, təhsil sahəsində də, mühüm dəyişikliklər baş verir, şəxsiyyətin formalaşmasına, müəllim- tələbə münasibətlərinə, qabaqcıl təcrübə mübadiləsinə, elm və təhsilin milli-bəşəri məzmununa qloballaşmanın bir sıra prinsipləri əhəmiyyətli dərəcədə təsir göstərir.

Bu təsirin müəyyən bir istiqamətini milli və xarici dillərin tədrisi prosesində müəllim-tələbə münasibətlərinin daha geniş arealı əhatə etdiyini görmək olur. Respublikamız milli müstəqilliyə nail olduqdan sonra beynəlxalq əlaqələrin genişlənib inkişaf etməsi xarici dillərin, xüsusilə ingilis dilinin tədrisində yeni pedaqoji və psixoloji forma və üsulların tətbiqini labüdləşdirir. Bu həm də

tələbə-müəllim münasibətlərinin inkişaf tempini sürətləndirməklə yanaşı, onu müasir dünya təhsilinin tələblərinə uyğunlaşdırır. Bu baxımdan qloballaşma şəraitində milli təhsil məkanında xarici dillərin, o cümlədən ingilis dilinin tədrisi prosesində həm müəllim, həm də tələbə beynəlxalq təhsil sisteminə daha çox meyl edir. Müəllim-tələbə münasibətləri pedaqoji-psixoloji aspektlərdən novator ənənələrə əsaslanmaqla bu zəmin üstündə, yəni qlobal prinsiplərdən bəhrələnməklə formalaşır. Bu formalaşma isə heç vaxt milli zəmindən gen düşməməli, milli-mənəvi və tarixi-genetik ənənələr unudulmamalıdır.

Prof. F.Veysəlli ingilis dilinin dünyadakı hegemonluğunu bu cür qiymətləndirir: "...Qloballaşma şəraitində ingilis dilinin hökmranlığı bu dilin anası sayılan ABŞ-ın və Böyük Britaniyanın iqtisadi, siyasi və hərbi vasitələrdən istifadə etməklə həmin dilin qəbul etdirilməsinə gətirib çıxardır ki, bununla da başqa xalqların dillərinə və mədəniyyətlərinə öldürücü zərbə dəymiş olur". [4]

Vaxtilə Ferdinand de Sössür dili dəb - moda ilə müqayisə edirdi. Doğrudan da, dil ünsiyyət vasitəsi kimi müxtəlif ədalardan, müasir görünmək stilizasiyalarından məhrum deyil. Ona görə də nə qədər "dağıdıcı" olursa olsun, dünyanın müxtəlif dillərinə müəyyən anomaliyaların az və ya çox daxil olması təbii haldır. Həm də ona görə ki, həmin anomaliya-neologizmlər elə ingilis dilinin özü üçün də tarixi hadisə deyil, tamamilə yenidir. Başqa dillərə "dağıdıcı" təsir edən nitq xüsusiyyətlərinin yalnız ingilis dilinin təbiətindən irəli gəldiyini güman etmək də düzgün olmazdı, çünki beynəlxalq ünsiyyət vasitəsinə çevrilən hər hansı dil tədricən mənsub olduğu xalqın mental səlahiyyətlərinin coğrafiyasından kənara çıxmaqla transmilli əlamətlər qazanır.

Qloballaşma milli dillərə və ümumən mədəniyyətlərə, ilk növbədə, paradokslarla daxil olur, ziddiyyətlər, görünən və ya görünməyən qarşıdurmalar yaradır. Mahiyyət isə bundan ibarətdir ki, qlobal-bütün dünya üçün ümumi, universal olan hadisə insan üçün maraqlı və cəlbedicidir. Hələ orta əsrlərdə eləcə də qədim dövrlərdə öz mifologiyaları, dini inancları olan müxtəlif xalqlar, etnoslar, məsələn, türklər, iranlılar, qafqazlılar islam dinini və mədəniyyətini qəbul edib ümumi bir supermilli və ya superetnik dünya yaratdılar. Bununla belə türk türklüyündə, iranlı iranlılığında, qafqazlı qafqazlılığında qaldı. "Beləliklə, planetimizdə monomədəniyyət formalaşır ki, bu da bütün dünyanı məhvə doğru aparır" kimi bir fikri elan etmək doğru olmaz.

Fikrimizcə, təbii- tarixi bir proses olan qloballaşmadan çəkinmək, ona qarşı çıxmaq çıxış yolu deyil. Bu baxımdan "Qloballaşan Azərbaycan" Sivil İnkişaf Mərkəzinin mövqeyi daha maraqlı və doğru görünür. Mərkəzin nəşr etdiyi "Qloballaşmaya doğru" kitabında göstərilir ki, "Qloballaşmanın danılmaz faydaları bu prosesdən qorxmayan və bunu ən yaxşı şəkildə idarə etməyi bacaran ölkələr üçün məqbuldur. Azərbaycanın qloballaşmanın xaricində qalmaması və bu prosesdə zərərinin minimum, faydasının isə maksimum olmasına diqqət yetirməsi vacibdir" [2, s.37]. Kitabda öz əksini tapmış belə bir mülahizə də diqqəti cəlb edir: "Qloballaşmanın iradəmiz xaricində inkişaf edən və nəzarət edə bilməyəcəyimiz bir proses olduğunu dərk edərək buna ciddi hazırlaşmağımız tələb olunur. Bizcə, ölkəmiz qloballaşma prosesinə hazırlığa məhz təhsildən başlamalıdır." [2, s.35]

Qloballaşma bütün milli istiqamətlərdən, o cümlədən milli dil mövqeyindən təqdir olunmalıdır. Əvvəldə qeyd etdiyimiz kimi, qloballaşmaya qarşı çıxmaq dilimizin milli xüsusiyyətlərini qorumaq deyildir. Qloballaşma şəraitində dilə xüsusi diqqət və qayğı lazımdır. Odur ki, "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının hazırlanıb Azərbaycan Prezidentinin 2013-cü il 9 aprel tarixli sərəncamı ilə təsdiq edilməsi çox mühüm tarixi hadisədir.

Dövrün tələblərini, konkret olaraq, qloballaşma prosesinin fəlsəfəsini nəzərə alan Dövlət Proqramının məqsədi "Azərbaycan dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılmasını, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsini, ölkədə dilçilik araşdırmalarının əsaslı surətdə yaxşılaşdırılmasını, dilçiliyin aparıcı istiqamətlərində

fundamental və tətbiqi tədqiqatların inkişafına yönəldilmiş yaradıcılıq səylərinin birləşdirilməsini və dilçiliyin müasir cəmiyyətin aktual problemləri ilə əlaqələndirilməsini təmin etməkdir”. [5]

İngilis dilinin, amerikan mədəniyyətinin hegemonluğu cəmiyyətdə müəyyən narahatlıqlar doğurur. Lakin unutmaq olmaz ki, qloballaşmadan imtina dünyanın ümumi inkişafından geri qalmaqla nəticələnə bilər.

Qloballaşmanın dərəcəsindən asılı olmayaraq, milli genetik köklər mühafizəkarlıqla qorunmalıdır. Çünki soykökündən uzaqlaşmaq qloballaşmanın gətirdiyi etno-mənəvi aşınmalara səbəb ola bilər. Mənəviyyatı, dili, dini və inanc sistemini mühafizə etmək bu prosesdə başlıca şərtdir. Fikrimizi daha aydın ifadə etmək üçün Çinə, Yaponiyaya, Malayziyaya nəzər salsaq, görərik ki, burada milli köklər heç də hər hansı bir geriliyin səbəbi deyil, əksinə həmin xalqın səciyyəvi xüsusiyyətlərinin, özünəməxsusluğunun qorunmasında ilk səbəb kimi çıxış edir. Başqa sözlə, xalq özgə bir millətin içərisində öz varlığını saxlamaqla inkişafını davam etdirir.

Dövlətlər arasında iqtisadi əlaqələrin inkişafının qloballaşması və tədricən vahid dünya iqtisadi məkanının formalaşması dünya dövlətləri sistemində yaşayan xalqların mədəniyyətlərinin, mədəni düşüncələrinin və davranışlarının bu reallığın tələblərinə uyğun olaraq formalaşması zərurətini yaratmışdır. Lakin bu formalaşma prosesi digər xarici mədəni dəyərlərin kortəbii şəkildə mənimsənilməsindən ibarət olmayıb, öz etno-mədəniyyətinin başqa mədəniyyət nümayəndələrinə təbliğ edilməsini və mədəni dəyərlərin qarşılıqlı mübadiləsini tələb edir. “Şübhəsiz,mədəni dəyərlərin qarşılıqlı mübadiləsinin və sintezinin ana xəttini bəşəriyyətin çiçəklənməsinə, onun düzgün və ədalətli inkişafına xidmət edən vahid dünya mədəniyyətini formalaşdırmaq, sosial-mədəni münasibətlərin harmonik inkişafına nail olmaq təşkil etməlidir” [3, s.105]. Bu baxımdan Azərbaycan Respublikası öz siyasi,iqtisadi və mədəni dayanıqlılıq strategiyasını işləyib hazırlamalıdır.

Qey olunan problemləri daim diqqətdə saxlayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki çıxışında demişdir: "Qloballaşma təbii prosesdir və yəqin ki, bu proses müəyyən düzəlişlərlə davam edəcəkdir. Xüsusilə, belə olan halda milli dəyərlərə önəm vermək, gənc nəsli milli dəyərlər əsasında tərbiyə etmək xüsusi əhəmiyyət daşıyır. Mən çox şadam ki, Azərbaycanda milli ənənələr güclənir, möhkəmlənir və bu prosesləri daha da sürətləndirmək üçün kompleks tədbirlər görülməlidir." [1].

Bütün bunlar onu göstərir ki, qloballaşma özünün sosial-fəlsəfi mahiyyəti ilə çox geniş sahələri, o cümlədən tədris prosesini əhatə edən dünyəvi bir hadisədir. Bu prosesdə baş verən inteqrasiya və diferensasiya meylləri tələbə-müəllim münasibətlərində, dillərin tədrisində, şəxsiyyətin formalaşmasında yeni təhsil modelinin beynəlxalq standartlara uyğunlaşmasını təmin edir.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev İlham. Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasim. “Xalq qəzeti”, 2009, Bakı, 3 noyabr, № 245

2. Əsədov Anar. Günümüzün fenomeni: Qloballaşma Azərbaycan qloballaşma prosesinə hazırlığa haradan başlamalıdır? “Qloballaşmaya doğru” məqalələr toplusu. Bakı, 2006, 311 səh.

3. Məmmədov Fuad. “Kulturologiya”, Bakı, Çıraq, 2008, 400 səh.

4. Veysəlli Fəxrəddin. Qloballaşma və müasir dünyanın dil mənzərəsi. “Xalq qəzeti”, 2015, Bakı,16 iyul, № 152

5. http://www.president.az/articles/7744

UOT 372.8:53

FİZİKANIN TƏDRİSİNDƏ ŞAGİRDLƏRİN EKOLOJİ TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASI

Samirə Rafiq qızı Nuriyeva
Gəncə Dövlət Universiteti
isgenderova20@mail.ru

Məqaləni hazırlamaqda məqsəd ətraf mühitin fiziki proseslər zamanı cirklənməsini araşdırmaq, mövcud ekoloji problemlərin həlli istiqamətlərini tədqiq etmək, planetimizin və eləcə də biosferin ekoloji cirklənmədən qorunması ücün yeni elmi əsaslandırılmış təkliflər işləyib hazırlamaqdır.

Məqalədə eyni zamanda təbii və süni çirklənmələrin xüsusəndə elektromaqnit çirklənmələrin xüsusiyyətləri, təbii ətraf mühiti antropogen çirklənmələrdən qorumaq ücün yeni metodik-normativ sənədlərin hazırlanması məsələsinin təklif olunması, yüksək və ifrat yüksək tezlikli elektromaqnit sahələri yaradan mənbələrin şüalandırdıgı şüaları mənbədə zəiflətmək ücün görülən tədbirlər müqayisəli şəkildə təhlil edilmişdir.

Dünyanın müasir təbii-elmi mənzərəsini ekoloji problemləri əks etdirmədən təsəvvür etmək mümkün deyil. Hal-hazırda elm, texnika, istehsalın yeni sahələrinin meydana çıxması və insanların əmək fəaliyyətinin ətraf aləmə təsir dairəsinin genişlənməsi sayəsində cəmiyyətlə təbiətin qarşılıqlı əlaqəsi o qədər yaxınlaşmışdır ki, insanın təbiətə müdaxiləsi, artıq xaotik və sərhədsiz olmuşdur. Bu təsirlər müəyyən şəkildə tənzimlənməlidir, əks halda bəşəriyyət öz varlığını nüvə müharibəsindən az olmayaraq təhlükə altına alan ekoloji fəlakətlə üzləşəcək.

İnsanın təbiətə müdaxiləsinin mümkün mənfi nəticələrinin qarşısını almaq üçün bir sıra elmi, texniki, ictimai-siyasi və digər problemləri həll etmək lazımdır ki, bunların arasında ilk yerlərdən birini pedaqoji və təhsil problemləri tutur. Gənc nəsil hələ məktəbdə olarkən təbii mühitə elmi əsaslandırılmış və diqqətli münasibətə hazır olmalıdır. Məhz buna görə də akademik fənlərin "yaşıllaşdırılması" ideyası yəni, məktəblilər arasında ekoloji mədəniyyətin formalaşdırılması indi son dərəcə aktuallaşıb.

Fizikanın tədrisi prosesində şagirdlərin ekoloji təhsili və tərbiyəsi, ilk növbədə, təbiətin bütövlüyü, onda baş verən hadisələrin əlaqəsi və onların səbəbkarlığı, insan və təbiətin qarşılıqlı əlaqəsi haqqında təsəvvürlərin formalaşması ilə bağlıdır və nəticədə təbii proseslər müəyyən ekloji balansın pozulmasına gətirib çıxarır. Fizikanın tədrisinin ekoloji istiqaməti əsasən təbiət hadisələrinin, eləcə də insan fəaliyyətinin ətraf aləmə təsirinin nəzərə alınması nəticəsində möhkəmlənmişdir. Bu, şagirdlərə cəmiyyət və təbiət arasında getdikcə mürəkkəbləşən qarşılıqlı əlaqəni daha dərindən, dolğun və düzgün dərk etməyə, insanın onun həyatına qeyri-düzgün müdaxilə təhlükəsinin mühafizəsi və istifadəsi ilə bağlı məlumatların yönləndirilməsinə imkan verir. Ətraf mühitdən rasional istifadənin və onun hər cür çirklənmədən qorunmasının zəruriliyinə inamın inkişafı ilə, elmi-texniki tərəqqinin mənfi nəticələrini, məsələn, istehsalatda və məişətdə elektrik cihazlarının geniş tətbiqi nəticəsində səs-küy, vibrasiya, müxtəlif tezlikli elektromaqnit sahələri kimi fiziki amillər, radio və televiziya stansiyalarının, radar qurğularının sayının və gücünün artması və s.nəticəsində yaranan çirklənmələrin bu cür zərərli təsirləri "zərərsizləşdirmək" üçün elmi ideyaların və kəşflərin tətbiqi olduqca vacibdir. Beləliklə, müasir fizika və texnologiya sahəsində əldə olunan nailiyyətlərə nüvə enerjisinin inkişafı və bərpa olunan enerji mənbələrindən istifadə, maqnitohidrodinamik qurğulardan, ən müasir ölçmə avadanlığı və elektron hesablama maşınlarından istifadə zamanı, yaranan ekoloji böhrandan mümkün çıxış yollarını göstərmək, fizikanın tədrisində məktəblilərin ekoloji maarifləndiril- məsinin mühüm aspektidir. [1]

Fizika təbiət haqqında bir elmdir, ona görə də texnoloji tərəqqinin artan potensialı və ekoloji fəlakət gətirən texnologiyaların inkişafı ilə əlaqədar olaraq, bu xüsusi fənnin dərslərində ətraf

mühitin mühafizəsi problemini nəzərdən keçirmək lazımdır. Beləki, müəllim şagirdlərə fizikadan öyrətdiklərini təbiəti mühafizə ilə əlaqələndirməli və keçdiyi hər mövzuya uyğun məsələləri ekoloji tarazlığın qorunması ilə əlaqələndirərək onlarda ekoloji tərbiyəni aşılamalıdır. Çünki fizika müəllimi öz mövzularını asanlıqla bu problemlə əlaqələndirərək şagirdlərin diqqətini həmin məsələyə yonəldə bilər. Əgər müəllim Arximed qanununu və cisimlərin üzmə şərti mövzusunu öyrədirsə, ördəklərin və bir sıra başqa qazların suda üzməsi bu qanununlara əsaslandığı üçün mütləq ekoloji çirklənməni qeyd edərək,onların orqanizmlərinin istehsal etdiyi xüsusi yağlı maddə lələklərini suda islanmağa qoymadığını və yumşaq tüklər arasında qalan hava qabarcıqları hesabına Arximed itələmə qüvvəsinin artması sayəsində onlar üzərkən batmır. Ekoloji tarazlığın pozulması sənaye tullantıları şəklində suya qarışan yuyucu maddələrin, neft məhsullarının sulara axıdılması sayəsində ördəklərin kütləvi şəkildə suda boğulduğunu onların nəzərinə çatdırmalıdır. Buna səbəb kimi quşların lələyindəki yağların yuyulub təmizlənməsi orada olan hava qabarcıqlarının kənara çıxması, Arximed itələmə qüvvəsinin azalması olduğu nəzərə çatdırılmalıdır. [2]

Bütün canlı orqanizmlərdə baş verən prossslər nə qədər mürəkkəb və bir-biri ilə sıx əlaqədə olsa da, onlar içərisində fiziki proseslərə yaxın və ya ona gətirilə bilən proseslər göstərmək mümkündür, qan dövranı kimi mürəkkəb bir fizioloji prosesdə maye axını ilə ələqədar olan hidrodinamik, iş görülməsi ilə səciyyələnən mexaniki, istilikvermə ilə bağlı termodinamik, sinir impulsunun əmələ gəlməsi və yayılmasını təmin edən elektrodinamik və s. proseslər iştirak edir. Tənəffüs prosesi fizikanın öyrətdiyi buxarlanma, faza çevrilmələri, istilikvermə və digər hadisələri ilə əlaqədardır. [2]

Şagirdlərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayan anlayışlardan biri də enerjidir.Enerji anlayışı ilə şagirdlər fizika kursunun tədrisi müddətində tez-tez rastlaşırlar. Odur ki, enerjinin fiziki mahiyyəti geniş izah edilərək enerjinin hərəkətin ölçüsü olması şagirdlərə çatdırılır. Enerjinin bir növdən digər növə çevrildiyi, saxlanma və çevrilmə qnunlarına tabe olduğu vurğulanmaqla bu proseslər zamanı şüalanma nəticəsində ətraf mühitə və canlı orqanizmlərə vurduğu ziyanlar ön plana çəkilməlidir. Fizika dərslərində ekoloji mədəniyyətin formalaşdırılması metodikası işlənib hazırlanarkən tətbiq kimi “Elektromaqnit dalğalarının miqyası” mövzusunda dərs-konfransın və “Radioaktiv şüalanmanın bioloji təsiri” mövzusunda dərsin hazırlanması məqsədəuyğundur.

Ekoloji problemlərin fizika kursuna daxil edilməsi problemi ilə məşğul olana alimlər ekoloji təhsilin əhəmiyyətini göstərərək və ekologiyanın əsaslarının öyrənilməsində “Fizika” fənninin rolunun böyük olduğunu sübut etdilər. Ekoloji maarifləndirmənin hazırda konkret metodları yoxdur. Bu məqsədə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmalıdır:

a) ekoloji mədəniyyət anlayışının mahiyyətini açmaq;

b) fizika dərslərində mədəniyyətin formalaşması metodikasını işləyib hazırlamaq.

Müasir dövrdə elmi tərəqqinin inkişafı dövründə cəmiyyətdə elektromaqnit və elektrik enerjilərindən intensiv istifadə olunması ətraf mühiti daha çox cirkləndirən yeni bir faktorun elektromaqnit faktorunun yaranmasına səbəb olmuşdur. Hal-hazırda istər lokal, istərsədə qlobal informasiya və enerjilərin ötürülməsində tətbiq olunan texnologiyaların yüksək inkişafı, texnoloji proseslərin və bəzi vacib sahə növlərinin kənardan idarə olunması və onlara nəzarətin həyata kecirilməsi, bir sıra yeni texnoloji proseslərin inkişafı elektromaqnit faktorunun yaranmasına və onun yaratdığı ekoloji faktorların daha dərindən öyrənilməsinə zəmin yaratmışdır. [1]

Ətraf mühitin elektromaqnit sahəsi ilə cirklənməsi, elektromaqnit şüalanması təhlükəsizliyi problemi bu günkü dövrümüzün ən aktual və dərin problemlərindən hesab edilir. Eyni zamanda mövcud elektromaqnit cirklənmənin qarşısının alınması ücün görülən bir sıra tədbirlər, onların insanların saglamlıqlarına vurduqları ziyanları azaltmaq və ya tamamilə yox etmək məqsədilə elmi araşdırmaların, müasir metodik və normativ sənədlərin işlənməsi və onların həyata keçirilməsi məsələlərinin aktuallıgını bir daha təsdiq edir.

Araşdırılan mövzunun bəzi problemləri bir çox müəlliflər tərəfindən tədqiq olunmuşdur. Buna görədə göstərilən ədəbiyyatlarda araşdırmaların nəticələrini azaltmadan məqalədə ətraf mühitin elektromaqnit şüalanmasından cirklənməsinin qarşısının alınması və eyni zamanda mühitin saglamlaşdırılması və insanların saglamlıqlarının təhlükəsizliyinin təmin olunması probleminin həlli istiqamətləri göstərilmişdir. [3]

Məktəb fizika kursunun ekoloji aspekti, prinsipcə, ekosistemə minimum mənfi təsirin texniki və texnoloji əsaslarını şagirdlərə çatdırmaqdan ibarətdir.

Ekoloji cəhətdən təmiz enerji mənbələri-çaylar, külək, günəş radiasiyası, geotermal mənbələr və s. o cümlədən qapalı istehsal dövrləri ideyası böyük əhəmiyyət kəsb edir.

Fizika kursunda məktəblilər enerjiyə qənaət edən ixtiralara mühərriklərin səmərəliliyinin artırılması, ikinci dərəcəli resursların istifadəsi, texnoloji proseslərdə xammal və enerji itkilərinin azaldılması və s. əsaslanan ekoloji yönümlü mühəndislik və layihələndirmə strategiyalarını formalaşdıra bilərlər.

Fizika kursunu oxuyarkən tələbələr cəmiyyət və təbiət arasındakı əlaqə, Yer kürəsində həyatın mövcud olması üçün atmosferin əhəmiyyəti, onun çirklənməsinin əsas mənbələri, bu çirklənmələrin ətraf mühitə təsiri haqqında aydın təsəvvür əldə etməlidirlər. Bu, proqramı genişləndirmədən və ya həddən artıq yüklənmədən, lakin şagirdlərin diqqətini tədris materialı ilə sıx bağlı olan ekoloji məsələlərə yönəltməklə, müvafiq sinifdənkənar tədbirlər təşkil etməklə həyata keçirilə bilər. [4]

İstifadə edilmiş ədəbiyyat

1. Пресман А.С. Электромагнитное поле и жизнь. М., 2003
2. P.Paşayev. Təbiət elmlərinin əlaqəli öyrənilməsi Maarif nəşriyyati 1977
3. Электромагнитные поля и здоровье \\http\\wwwpole.com
4. Q.Məmmədov, M. Xəlilov. Ekologiya, ətraf mühit və insan. Bakı, 2006

UOT 51

İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN NƏZƏRİ HAZIRLIĞININ İNKİŞAFINDA RİYAZİ MƏSƏLƏ HƏLLİNİN PEDAQOJİ-PSİXOLOJİ ƏDƏBİYYATDA QOYULUŞU

Samirə Tağı qızı Nurməhəmmədi
Gəncə Dövlət Universiteti
samirenurmehemmedi@gmail.com

Azərbaycan Respublikasında mövcud təhsil sistemində hal-hazırda aparılan genişmiqyaslı islahatlar öz təsirini göstərməkdədir. O cümlədən bu islahatların nəticəsi olaraq orta məktəb kursunda riyaziyyat fənninin tədrisində yeni yanaşmalar tələb olunur. Riyaziyyat fənninin spesifikası və daşıdığı əhəmiyyəti nəzərə alaraq, bu yanaşmaların təlim prosesini tam əhatə etməsi zəruri hesab olunur. Bu baxımdan riyazi təhsilin keyfiyyətinin yüksəldilməsinə təsir edən mühüm faktorlardan biri də fəndaxili və fənlərarası inteqrasiya hesab oluna bilər. Çünki riyazi biliklərin gündəlik həyatda praktik olaraq tətbiqi qaçılmazdır. Bu baxımdan yanaşdıqda görürük ki, riyaziyyatda öyrənilən riyazi ifadələr, bərabərsizliklər, düsturlar bu və ya digər şəkildə real həyatda mövcud olan praktik məsələlərin həlli ilə bağlıdır. Sadalanan müxtəlif prosesləri şagirdlərə öyrətmək üçün praktik və tətbiqi məsələlərin həllində fənlərarası inteqrasiya xüsusi önəm verilir.

Məhz bu səbəbdən də göstərilən mövzu üzrə aparılan yerli və beynəlxalq tədqiqatlar elmi işin hazırlanması zamanı diqqətlə nəzərdən keçirilmiş, alınan nəticələr müqayisə və analiz edilmişdir.

Eyni zamanda alınan nəticələrin hazırda Azərbaycan Respublikasının mövcud riyaziyyat dərsliklərində mövcud problemlə bağlı hərtərəfli müqayisəsi aparılmışdır.

İbtidai siniflərdə riyaziyyat fənninin təlimi bir problem kimi metodist – riyaziyyatçıları, pedaqoq – psixoloqları, tədqiqatçıları həmişə düşündürmüş və onları axtarışlara sövq etmişdir. Xüsusilə də məsələ həlli ilə bağlı bir sıra araşdırmalar aparılmışdır. Məsələ həlli təlimi riyaziyyatın yaradıcı, eyni zamanda şagirdlər üçün heç də asan olmayan bir bölməsi olduğundan, pedaqogika və psixologiyada məsələlərin həlli prosesinə, riyazi təfəkkürün mənimsənilməsi və inkişafı üçün vacib bir təlim vasitəsi kimi baxılır. "Məsələlər anlayışından məhdudiyyətlərlə istifadə olunur: Məsələn; elmi (riyazi, fiziki və s.) məsələlər, siyasi məsələlər, təsərrüfat, texniki və s. şəkildə məsələ anlayışı ümumi şəkildə işlənməyibdir."

Göründüyü kimi, bu deyilənlər ayrı-ayrı sahələr üçün (dəqiq elmlər, siyasi elmlər və s.) məsələnin dəqiq tərifini verməyə maneçilik törədir, məsələnin mahiyyətinin tam açılmasına imkan vermir. Bununla bağlı dünya təcrübəsindən də müxtəlif missal və nümunələr gətirmək mümkündür. Belə ki, məşhur rus alimləri Kolyagin və Metelskiy "Orta məktəbdə riyaziyyatın tədrisi metodikası" kitabında göstərilən problemə toxunaraq, riyaziyyat təlimində məsələlərin qoyuluşunu qənaətbəxş hesab etməmişlər. Onlar yazırlar: "Riyaziyyat təlimi prosesində məsələlərin qoyuluşu problemi, hələlik qənaətləndirici həllini tapmamışdır...". Sonra Y.M.Kolyagin yazır: "Hələlik "riyaziyyat məsələsi" termini ilə başa düşülən tam tərif yoxdur" [4,s.18].

Ancaq H.B.Metelskiy məsələni qeyri - müəyyən anlayış hesab edir və bu anlayışın tərifini vermək üçün bir neçə dəfə təşəbbüs göstərmişdir. Göründüyü kimi *"riyazi məsələ"*yə yanaşmalar müxtəlif və fərqlidir. Bu isə öz növbəsində riyazi məsələ termininin tam açıqlanmasında müəyyən problemlər yaradır.

Prof. Ə.M.Məmmədov öz tədqiqatlarında model, riyazi model anlayışlarının informatikanın tədrisində rolu məsələlərini araşdırmışdır. Riyaziyyatın gerçəkliyi təsviretmə və dərketmə metodu olması baxımından daşıdığı əhəmiyyət, əsas etibarilə fəndaxili və fənlərarası əlaqələr prosesində formalaşdırılır və bu modelləşdirmə vasitəsilə həyata keçirilir. Riyaziyyatın ibtidai kursunda məsələyə aşağıdakı kimi yanaşmalar olmuşdur. "Kəmiyyətlərin verilmiş qiymətlərinə və onlar arasındakı sözlərlə ifadə olunmuş asılılığa görə kəmiyyətin məchul qiymətini tapmaq tələbinə hesab məsələsi deyilir" və ya"Verilmiş ədədlərə və bunlarla məchullar arasında verilmiş münasibətlərə görə bir və ya bir neçə məchulu tapmaq tələbinə hesab məsələsi deyilir" və ya "Bizi əhatə edən aləmdə sonsuz sayda elə həyati situasiyalar (vəziyyətlər) baş verir ki, bunlar ədədlərlə bağlıdır". Həmin ədədlər üzərində hesab əməllərinin yerinə yetirilməsi tələb olunur – bu məsələdir və ya "Məsələ - sözlərlə formalaşdırılmış sualdır və bunun cavabı hesab əməllərinin köməyi ilə alınır" [7, s. 8].

Məsələ həlli təlimi prosesi öz məzmununa görə təbii olaraq psixologiya ilə birbaşa əlaqəlidir. Bu mühüm cəhəti nəzərə alaraq deyə bilərik ki, məsələ həlli metodikasının əsaslarına psixologiya da daxil olmalıdır. Əslində bu heç də tamamilə yeni fikir deyildir, belə ki, psixologiyanın riyaziyyat metodikası əsaslarına daxil olması ideyası hələ keçən əsrin əvvəllərində pedaqoq və metodistləri düşündürmüşdür.

Ümumiyyətlə, aparılan araşdırmalar göstərir ki, məsələ həlli təlimində psixologiyanın rolu hələ də lazımınca qiymətləndirilmir. Lakin yaddan çıxarmaq olmaz ki, ibtidai siniflərdə riyaziyyat fənninin təlimi bilavasitə psixologiya ilə bağlıdır. Bu baxımdan rus alimləri N.A.Mençinskaya, N.V. Metelskiy, P.İ.Zinçenko, V.A.Krutetski, L.V.Zankov, Ya.İ.Qrudenov, A.V.Zaporojets və başqalarının riyaziyyat təlimi ilə əlaqədar apardıqları psixoloji tədqiqatlar böyük əhəmiyyət kəsb edir [5, s.11].

Riyaziyyat üzrə tədqiqatçı alim A.A.Stolyarın "Riyaziyyat təliminin məntiqi problemləri" istiqamətində apardığı tədqiqatların bəzi nəticələrinin bu gün də aktual hesab olunduğunu söyləmək mümkündür. Aparılan tədqiqatların nəticələrinə əsasən qeyd edə bilərik ki, riyaziyyat təlimində

məntiqi problemlər, onları yaradan səbəblər və bu problemlərin aradan qaldırılması yolları fənlərarası inteqrasiya ilə əlaqələndirilmişdir [6, s 17].

Fəndaxili və fənlərarası əlaqələrin yaradılmasında psixoloji, pedaqoji amillər nəzərə alınmalı, eyni zamanda fənlərin özünəməxsus modeli də gözlənilməlidir. Bu problem müxtəlif şəkildə xarakterizə oluna bilər.

Qeyd etdiyimiz kimi, riyaziyyat təlimində məsələ həllinin problemlərini metodiki, psixoloji və praktiki olaraq müxtəlif aspektlərə ayırmaq mümkündür. Bununla bağlı sadalanan problemlərin bəzilərinin hələ 40-50 il əvvəl də aktual olduğunusöyləmək üçün əlimizdə əsaslı mənbələr mövcuddur.

Məsələn, riyaziyyat təlimi prosesində fizikaya, kimyaya və coğrafiyaya aid həll olunan məsələlərin məzmunda mücərrədləşdirmə prosesi anlayışın fiziki və kimyəvi əlamətlərinə təsir etməməlidir. O cümlədən, coğrafi məzmunlu məsələlərin həllində riyazi metodlardan istifadə olunur və bu istiqamətdə aparılan əsas tədqiqatlar da bilavasitə riyaziyyatla bağlıdır. Coğrafiya fənni üzrə tədqiqatçı alim Y.Arxipov öz tədqiqatlarında yerin quruluşunun və geosentrik vəziyyətinin öyrənilməsinə aid məsələlərin həllində riyazi metodlardan geniş istifadə etmişdir . Göründüyü kimi, bu tipli məsələlərin həllində üstünlük riyaziyyata verilməli və məsələ həllində ağırlıq nöqtəsi riyaziyyat olmalıdır.

Bir məsələni də qeyd etmək lazımdır ki, adətən, ənənəvi riyaziyyat dərsliklərində alqoritm əsasında həll olunan məsələlərlə yanaşı qeyri-standart məsələlərin həlli də nəzərdən keçirilirdi. Burada standart məsələlərin həllində tətbiq olunan riyazi modellər (həndəsi təsvirlər) şagirdlər tərəfindən asan mənimsənilirdi.

Lakin kurikulum əsasında yazılan yeni riyaziyyat dərsliklərində isə tətbiqi məsələlərin həllinə daha çox üstünlük verilir [3, s.29].

Bu dərsliklərin strukturu və burada təklif olunan məsələlərin məzmunu ənənəvi dərsliklərdən əsaslı şəkildə fərqlənir. Bu tip məsələlərin sırf hansı fənnə aid olmasında şagirdlər bəzən çətinliklər çəkirlər və bu da təbii qəbul olunmalıdır. Çünki bu tipli bir problemin yaranması fənlərarası inteqrasiyaya aid edilə bilər. Məsələ həlli prosesində metodik qanunauyğunluqlar riyaziyyat təliminə dair ümumiləşdirilmiş qabaqcıl təcrübəyə, hamı tərəfindən qəbul edilmiş konsepsiyalara, psixologiyada və didaktikada məlum olan elmi faktların ümumiləşdirilməsinə və spesifik şəraitlərdə keçirilən eksperimentlərin nəticələrinə əsaslanır. Lakin eyni zamanda bu qanunauyğunluqlara sistemin psixoloji qanunauyğunluqlarının daxil edilməsi də yaddan çıxmamalıdır. Çünki məsələ həlli zamanı riyaziyyat təliminin keyfiyyəti şagirdin tədris fəaliyyəti zamanı keçirdiyi psixi proseslərdən birbaşa asılıdır. Deməli, bu qanunauyğunluqlar sistemini psixoloji – didaktik qanunauyğunluqlar adlandırmaq daha məqsədəuyğun sayıla bilər.

Psixoloji qanunauyğunluqlar böyük praktik əhəmiyyət kəsb etdiyindən, onlar metodik qanunauyğunluqlarla birlikdə metodik-psixoloji qanunauyğunluqlar sistemini meydana gətirir. Məsələ həlli zamanı psixoloji qanunauyğunluqlara şagirdin yaddaşı, təfəkkürü və təxəyyülü aid edilir [1, s.18].

Müxtəlif psixoloji və pedaqoji üsullardan istifadə etməklə, şagirdlərdə məqsədyönlü surətdə mühakimə aparmaq qabiliyyətinin inkişafını tərbiyə etmək olar. Məsələ həlli vasitəsilə bu bacarıq və qabiliyyətlərin inkişafı daha canlı formada aparıla bilər. Belə ki, məsələ həlli prosesində formalaşan assosiasiyalar möhkəm və əsaslı olur, şagirdlərin təfəkkürünün inkişafına gətirib çıxarır. Lakin təcrübə göstərir ki, bir sıra hallarda şagird verilən məsələni ya həll edə bilmir və yaxud da həll etməkdə çətinlik çəkir. Bu hal, əsasən, iki səbəbdən meydana çıxa bilər:

1. İbtidai sinif şagirdi məsələnin həlli üçün lazım olan nəzəri biliyə malik deyil.

2. Şagird məsələnin həlli üçün zəruri olan təklifləri bilir, lakin həmin təkliflərin məhz bu məsələdə zəruri olduğunu bilmir.

Şagirddən həmin təklifi (qaydanı) soruşduqda düzgün cavab verir, lakin onu məsələyə tətbiq edə, məsələni düzgün həll edə bilmir. Bu isə belə nəticəyə gəlməyə əsas verir ki, şagirdin biliyi

formal xarakter daşıyır, konkret situasiyada bu bilikdən istifadə etməyi bacarmır. [2, s.35]. Təcrübəyə və didaktik prinsiplərə istinad edərək deyə bilərik ki, ibtidai sinif şagirdlərdə məsələ həlli prosesində formalaşan assosiasiyalar daha möhkəm və dayanıqlı olur. Beləliklə, onlar təhsilin sonrakı mərhələlərində də bu formalaşan assosiasiyalardan istifadə edə bilirlər.

İstifadə edilmiş ədəbiyyat

1. Əhmədli E.N. Şagirdlərin riyazi təfəkkürünün inkişaf etdirilməsi yolları və vasitələri. Bakı: Təfəkkür Universiteti, -1998, -66 s.
2. Quliyev Ə.A., Riyaziyyatın məsələ vasitəsilə təkrarı. Bakı, 2011, -75 s.
3. Mərdanov M.C. və başqaları. Riyaziyyat-5, Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün dərslik / Bakı: Çaşıoğlu, -2006, -272 s.
4. Боженкова Л. И. Методика формирования универсальных учебных действий при обучении геометрии,М.: БИНОМ. Лаб. знаний, 2013. – 205 с.: ил.
5. Ma, L. Knowing and Teaching Elementary Mathematics: Teachers' Understanding of Fundamental Mathematics in China and the United States., Mahwah: Lawrence Erlbaum Associates, -1999.
6. Stigler, J. W., & Hiebert, J. The Teaching Gap: Best Ideas from the World's Teachers for Improving Education in the Classroom. New York: Free Press, -p.1999.

UOT 37.013

İNKLUZİV TƏHSİLDƏ MÜƏLLİMİN VƏZİFƏLƏRİ

Samuray İsmixan oğlu Nağıyev
Naxçıvan Dövlət Universiteti
nagiyevsamuray@gmail.com

Ümumi təhsilin hər kəs üçün əlçatan olmasını planlaşdıran və bütün uşaqların ehtiyaclarına uyğunlaşdırılmasını nəzərdə tutan inkişaf prosesinə inkluziv təhsil deyilir. Mənası fransızca "inclusif" - "özünə daxil olan", latınca "include" – "daxil edirəm" deməkdir. İnklüziv təhsil sağlamlıq imkanı məhdud şagirdlərin tədris prosesinə cəlb olunmasını təmin edir. İnklüziya hər bir vətəndaşın, xüsusilə sağlamlıq imkanları olan şəxslərin cəmiyyətdə iştirak fəallığının artırılması prosesidir.

İnsan Hüquqları Konvensiyasına görə, ölkələr elə təhsil sistemi yaratmalıdır ki, təhsilalma hüququ hər bir uşağa aid edilsin. Azərbaycan Respublikası İnsan Hüquqları Konvensiyasını 1992-ci ildə imzalamış və ölkəmizdə yaşayan hər bir uşağın təhsil alma hüququnu qorumağı öhdəliyinə götürmüşdür [1].

İnklüziv təhsil dövrünə qədər xüsusi qayğıya ehtiyacı olan uşaqlar ev şəraitində fərdi dərs alırdı. Bu üsul vasitəsilə təhsilalanın təhsil hüququ təmin edilsə də, evdə asosiallaşır, yaşıdları ilə bərabər öyrənmək imkanından məhrum olur, şagirdlər üçün yaradılan şəraitdən eyni səviyyədə istifadə edə bilmirdilər.

İnklüziv təhsil prosesində bütün təhsil işçiləri, məktəb rəhbərləri, müəllimlər arasında qarşılqlı əməkdaşlıq qurulmalıdır. Təhsil sahəsində çalışan hər kəsin, xüsusilə müəllimlərin sağlamlıq imkanı məhdud uşaqlarla iş barəsində geniş məlumata malik olması şərtdir. Müəllim sağlamlıq imkanları məhdud şagirdlərlə davranış qaydalarını, onların sinfin digər fərdləri ilə qarşılıqlı münasibətlərinin qurulması üsullarını bilməlidir. Sinifdə sağlamlıq imkanları məhdud şagirdlərin digər şagidlər tərəfindən qəbul edilməsini müəllim təmin edir. Və onlara çatdırır ki, bilik, bacarıq və ehtiyaclarından asılı olmayaraq, şagirdlərin hər biri sinfin üzvüdür [2].

İnklüziv təhsil prosesində müəllim tədris aparan müəllimin bir sıra vəzifələrinə nəzər salaq:

Sağlamlıq imkanları məhdud şagirdləri cəmiyyətdə bərabərhüquqlu şəxslər kimi təqdim etmək

Xüsusi qayğıya ehtiyacı olan şagirdlərin cəmiyyətə hər kəslə bərabərhüquqlu şəxs kimi tanıdılması ailədən sonra, həm də müəllimlərin vəzifəsidir. İnklüziv sinifdə sağlamlıq imkanları məhdud şagirdlərin təhsilə və sinfə tezliklə uyğunlaşdırılması, digər şagirdlərlə yaxşı ünsiyyət qura bilməsi tədris aparan müəllimdən asılıdır. Müəllim tərəfindən təhsilalanlara davranış qaydaları, əxlaqi və etik xüsusiyyətlər, əmək vərdişləri, kollektiv olaraq işləmə bacarıqları kimi vacib xüsusiyyətlər aşılanır. Bir sözlə, müəllim hər kəsin eyni hüquqlara malik olduğunu, fiziki və mənəvi olaraq bərabər olduqlarını nəzərə çatdırır. Sinif üçün vacib olan qərarları bütün sinif şagirdləri birlikdə qərar verib seçirlər.

İnklüziv təhsilə cəlb edilmiş təhsilalanların fərdi xüsusiyyətlərini bilmək

İlk əvvəl müəllim salamlıq imkanları məhdud şagirdin valideynlərindən şagirdin probleminin mahiyyətinin nədən ibarət olduğu haqqında məlumat almalıdır. Həmin şagirdin fərdi xüsusiyyətlərini dərindən bilməli, sinif fəaliyyətinə və tədris prosesinə cəlb olunma üsullarını fərdi olaraq seçməlidir.

Məktəb psixoloqu ilə əməkdaş olaraq çalışmaq

Sağlamlıq imkanları məhdud şagirdlər Psixoloji-Tibbi-Pedaqoji Komissiyanın müsbət rəyi əsasında məktəbə qəbul edilir. Təhsil aldıqları müddət boyunca məktəb psixoloqu tərəfindən mütəmadi olaraq psixoloji müşahidə aparılır. İnklüziv sinifdə tədris aparan müəllimlərin, xüsusilə sinif rəhbərlərinin sinifdə təlim-tərbiyə işini düzgün qurmaq üçün məktəb psixoloqu, lazım olduqda isə defaktoloqlarla əməkdaşlıq etməsi şərtdir. Hətta həmin müəllimlərin və valideynlərin pedaqoji-psixoloji mövzularda seminarlarda, tədbirlərdə iştirakı təmin olunmalıdır [3].

Valideynlərə övladları haqqında mütəmadi olaraq məlumat vermək

Tədris müddəti boyunca şagirdin təhsil nailiyyətləri, çətinlikləri barədə valideynlərə məlumat vermək mütləqdir. Valideyn iclasları, şagirdin inkişafı ilə bağlı söhbət aparmaq üçün fərdi və ya ümumi görüşlər təşkil edilir, qarşılıqlı fikir mübadiləsi aparılır, şagirdin gələcək fəaliyyəti haqqında müzakirələr keçirilir. Müəllim şagirdin probleminin daha yaxşı həll olunmasında valideynə dəstək göstərir. Fikrimcə, şagirdlərin fəaliyyəti ilə əlaqədar planlar valideynlərin köməyi sayəsində daha asan və uğurla həyata keçirilir.

Hər bir şagirdi öyrənə biləcəyinə inandırmaq

Hər bir şagirdin proqram materialını dərindən mənimsəməsi mütləqdir. Bunun üçün müəllim şagirdi öyrənəcəyinə inandırmalıdır. Bildirmək lazımdır ki, öyrənmək sadəcə maraqlı deyil, həm də insan üçün çox əhəmiyyətlidir. Xüsusilə təhsil sahəsində uşaqları nələrə qadir olduğuna, nələr edə biləcəyinə onlara inandırmaq müəllimin borcudur. Müəllim bunun üçün daim çalışmalı, sadəcə yazmaq və oxumaqla deyil, həmçinin fərqli metodlardan, üsullardan istifadə etməlidir. Tədris zamanı xüsusilə əyani vəsaitlərdən istifadə etmək öyrənməyə olan marağı artırır, mövzunu bütün şagirdlər üçün daha yadda qalan edir [4].

Ümumi olaraq, inklüziv sinifdə tədris aparan müəllim sağlamlıq imkanları məhdud şagirdləri cəmiyyətdə bərabərhüquqlu şəxslər kimi təqdim etməli, onların şagirdlərin daha çox marağı fənlərlə əlaqəsini təmin etməli, fərdi və qrup fəaliyyətlərinə cəlb olunmalarına dəstək göstərməli, təhsilalanların fərdi xüsusiyyətlərini bilməli, məktəb psixoloqu ilə əməkdaşlıq etməli, valideynləri şagirdin inkişafı barəsində daim məlumatlandırmalı, hər bir şagirdi öyrənə biləcəyinə inandırmalı, davranışı ilə şagirdlər üçün nümunə olmalı, şagirdlərin qabiliyyətlərinin formalaşmasına kömək etməli və hər bir şagirdin təhsilində olan çətinliklərlə yaxından maraqlanmalıdır.

İstifadə edilmiş ədəbiyyat

1. R.Məmmədli, Ş.Qəmbərova. Siz tək deyilsiniz, F.Köçərli adına Respublika Uşaq Kitabxanası, Bakı, 2017, 37 s.

2. Gülnarə Qurbanova, Azərbaycanda inklüziv inkişafın təmin olunmasında həyata keçirilən sosial və iqtisadi siyasətin rolu, Elm və İnnovativ Texnologiyalar Jurnalı, Bakı, 2019, 9 s.
3. İnklüziv siniflərdə təlimin təşkili, Oxu materialı, Bakı, 2018, 68 s.
4. Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutu, Davamlı inkişafın sosial və fəlsəfi problemləri. Bakı: Elm və təhsil, 2020, 313 s.

UOT 37

MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İNKLÜZİV QRUPLARINDA SAĞLAMLIQ İMKANI MƏHDUD UŞAQLARLARLA APARILAN İŞİN XÜSUSİYYƏTLƏRİ

Səbinə Namiq qızı Cəfərova
Bakı Slavyan Universiteti
sabina_16_86@mail.ru

Dünya statistikasına əsasən qeyd etmək olar ki, yer kürəsində təxminən 500 milyon insan sağlamlıq imkanları məhdud olan insanlardır. Bunlardan da 150 milyonu isə uşaqlardır. Biz təhsil işçiləri bilirik ki, təhsil daim dəyişir, inkişaf edir. Pedaqoqlar üçün mühüm dəyişiklik isə xüsusi uşaqlarla işləməkdir bu da inklüziv təhsilə tələbatın artmasına gətirib çıxarır. Hazırda inklüziv təhsilin problemləri xüsusi aktuallıq kəsb edir.

Məlumdur ki, inklüziv təhsil sağlam uşaqlarla sağlamlığı məhdud olan uşaqların birgə təhsilidir. O, uşağa qarşı hər hansı ayrıseçkiliyi istisna edən ideologiyaya əsaslanır. Azərbaycan Respublikasında inklüziv təhsilin tətbiqi ilə bağlı 2004-cü ildən başlayaraq təşəbbüslər olmuşdur [3]. Respublikamızda inklüziv təhsil aşağıdakılarla tənzimlənir: Konstitusiya, "Azərbaycan Respublikasının təhsil haqqında" qanununa, Uşaq Hüquqları Konvensiyası, Əlillərin Hüquqları haqqında Konvensiya. Dünyada inklüziv təhsil 1970-ci illərdən tətbiq edilir. Hazırda ölkəmizdə əhalinin sağlamlığının qorunması və möhkəmləndirilməsi vəzifəsi xüsusi aktuallıq kəsb edir.

İnklüziv təhsilin bir çox üstünlükləri var:

- həmyaşıdları ilə ünsiyyət;
- uyğunlaşma və sosiallaşma;
- sağlam uşaqlarda həssaslıq və anlayışın tərbiyəsi və s.

İnklüziv təhsilin tətbiqi sayəsində xüsusi təhsilə ehtiyacı olan uşaqlar məktəbə və məktəbəqədər təhsil müəssisələrinə gedə bilirlər. Azərbaycan Respublikasının Təhsil Qanuna əsasən hər bir vətəndaş təhsil almaq hüququna malikdir. İnklüziv təhsil əqli qüsurlu, əqli geriliyi olan, görmə, eşitmə və nitq pozğunluğu, dayaq-hərəkət aparatının disfunksiyası, autizm spektri pozğunluğu və sair olan uşaqlar üçün nəzərdə tutulmuşdur. Bu da sağlamlıq imkanları məhdud uşaqlara təhsilin əlçatan olmasına şərait yaradır.

Xüsusi təhsilə ehtiyacı olan uşaqların inklüziv təhsili sahəsində əldə edilən ən mühüm məqsəd uşaqların cəmiyyətdə uğurlu sosiallaşması, inteqrasiyası, eləcə də ailənin həyat səviyyəsinin yaxşılaşdırılmasına kömkəklik göstərməkdən ibarətdir.

İnklüziv təhsil təhsilin əsas prinsiplərinə malikdir:

- Bütün insanların bir-birinə ehtiyacı var.
- Hər bir insan hiss etmək və düşünmək qabiliyyətinə malikdir.
- İnsanın dəyəri onun qabiliyyət və nailiyyətlərindən asılı deyil.
- Hər bir insanın ünsiyyət hüququ var.
- Həqiqi təhsil yalnız real münasibətlər kontekstində baş verə bilər.

İnklüziv təhsil sadəcə olaraq xüsusi təhsil şəraitindən təhsilə çıxış demək deyil. Adi uşaq bağçası bütün uşaqlar üçün ən yaxşı təhsil mühitidir. Yəni uşaqlar uşaq bağcasında kommunikativ qabiliyyətləri inkişaf etdirməklə yanaşı, bilik və bacarıqlara da yiyələnirlər. Bu şəraitdə təhsil alan uşaqlarda dostluq, yoldaşlıq, düzlük, doğruçuluq, humanistlik kimi mənəvi keyfiyyətlər formalaşır. Məhz bu səbəbdən uşaq bağçaları bütün uşaqlar üçün faydalı olur və sağlam uşaqlarla yanaşı sağlamlıq imkanı məhdud uşaqlarda uşaq bağçalarının təklif etdiyi imkanlardan yararlana bilirlər. Belə bir mühitdə pedaqoqlar, valideynlər və psixoloqlar birgə əməkdaşlıq edirlər. Qeyd etmək lazımdır ki, bu xüsusiyyətlər yalnız inklüziv deyil, inteqrativ təhsil üçün də xarakterikdir. Bu terminlər arasındakı əsas fərq ondan ibarətdir ki, inteqrativ təhsillə xüsusi təhsil ehtiyacı olan uşaq adi uşaq bağçasının tələblərinə uyğunlaşmağa məcbur olur. İnklüziv təhsildə sistemin özü uşağın ehtiyaclarına elə uyğunlaşır ki, istisnasız olaraq bütün uşaqların ehtiyac və tələblərinə cavab verir. Burada "qüsur" anlayışlarından əsaslı şəkildə imtina edilir. İş təcrübəmdən qeyd etmək istərdik ki, sağlamlıq imkanları məhdud olan uşağın inkişafı böyük ölçüdə ailənin rifahından, onun fiziki və mənəvi inkişafında valideynlərin iştirakından, təhsildə qarşılıqlı fəaliyyətindən asılıdır. İdeal olaraq, məktəbəqədər müəssisələrin tərbiyəçiləri yaranan problemlərin həllində valideynlərə kömək etmək, tərbiyəçilər və valideynlər arasında qarşılıqlı əlaqənin forma və məzmununu inkişaf etdirmək imkanına malikdirlər. Uşağın mürəkkəb və ziddiyyətli dünyaya daxil olması üçün bələdçi rolunu oynayan ailədir. Ailə və məktəbəqədər təhsil müəssisəsi uşaqların sosiallaşmasının iki mühüm komponentidir. Uşaq bağçası valideynlərin təmasda olduğu ilk sosial qurumdur. Uşaq bağçasının ən mühüm vəzifəsi sağlamlıq imkanları məhdud olan uşağı böyüdən ailəyə psixoloji və sosial yardım göstərmək, uşaq tərbiyəsi və inklüzivliyə vahid yanaşmalar planında ailəni öz tərəfinə çəkməkdən ibarətdir.

Sağlamlıq imkanları məhdud uşaqların normal inkişaf edən həmyaşıdları mühitinə tədricən daxil edilməsini rasional hesab etmək olar. Bunun üçün məktəbəqədər təhsil müəssisəsində müxtəlif struktur bölmələri təşkil etmək olar.

Məsləhət nöqtəsi – sağlamlıq imkanları məhdud uşaqları həmyaşıdlar qrupuna tədricən yalnız tətillərdə, qısa müddətə oyunlarda və ya gəzintidə daxil etmək.

Qısa gün - "qismən daxilolma" sağlamlıq imkanları məhdud uşağın yarım günlük və ya yarım həftəlik rejimə daxil edilməsini nəzərdə tutur, məsələn, sağlamlıq imkanları məhdud uşaq həmyaşıdları qrupunda olduqda, təhsil materialını birbaşa fərdi iş zamanı mənimsədikdə, lakin digər uşaqlarla birlikdə təsviri incəsənət, bədən tərbiyəsi, musiqi və digər dərslərdə iştirak edir.

Qarışıq qrup - "tam daxiletmə" variantı - sağlamlıq imkanları məhdud uşağın təkbaşına və ya müşayiət ilə tam olaaraq həmyaşıdları qrupuna daxil edilməsi. Sağlamlıq imkanları məhdud uşaq həmyaşıdları ilə birlikdə bütün dərslərdə iştirak edir. Eyni zamanda, müxtəlif tapşırıqları, oyunlar və məşqlər icra edir.

Məktəbəqədər təhsil müəssisəsi qarşısında öz sağlamlıq imkanı məhdud uşaqların məktəbə, gələcəkdə isə müstəqil həyata hazırlamaq vəzifəsi durur. Bunun üçün uşaqlarda kompensasiya mexanizmlərinin kifayət qədər tam korreksiyası və inkişafı nəzərdə tutulur, çünki mümkün qədər erkən korreksiya və tərbiyə işləri uşağın inkişafına müsbət təsir göstərəcək və geriləmənin qarşısını almağa imkan verəcəkdir. İnkişaf xüsusiyyətlərinə görə sağlamlıq imkanı məhdud uşaqların və digər inkişaf psixi pozğunluqları olan uşaqlar məqsədyönlü təhsilə ehtiyac duyurlar. Onlar sosial təcrübəni kortəbii şəkildə mənimsəmirlər, ətraf mühitə maraq göstərmirlər. Buna görə də bu uşaqların təhsil və tərbiyəsinin təşkili üçün onların idrak fəaliyyətinin artırılmasına yönəlmiş təsir üsulları xüsusi rol oynayır. Məsələn, autizmli uşaqlar materialın digərlərindən olduğu kimi tez mənimsənilməsini tələb etmək olmaz, onların psixoloji vəziyyəti və durumu burada çox mühüm rol oynayır və belə uşaqların yeni şəraitdə özlərini rahat hiss etmələri çox vacibdir.

Məktəbəqədər təhsil müəssisələrinin inklüziv qruplarında sağlamlıq imkanları məhdud uşaqlarla işin təşkilində loqopedin, psixoloqun, digər mütəxəssislərin, pedaqoqların birgə işini, həmçinin valideynlərlə aktiv qarşılıqlı əlaqəni təmin edilməlidir. Məktəbəqədər təhsil müəssisəsində

sağlamlıq imkanları məhdud uşağı ailəsinə də psixoloji, pedaqoji və sosial dəstəyin təşkili və valideynlərin pedaqoji mədəniyyətinin formalaşdırılması məqsədilə uşaqların valideynləri üçün dəyirmi masalar təşkil edilməli və onlar bu istiqamətdə mütləq maarifləndirilməlidirlər.

İnklüziv qrupda çalışan mütəxəssislərin səriştəsi, işlərinin ardıcıllığı məktəbəqədər təhsilin səmərəliliyinin şərtlərindirir. Təlim və tədris prosesində iştirak edən pedaqoqlar, köməkçilər və digər müəllimlər mütləq təlimlər keçməli, inklüziv qruplarda uşaqlara işləmək mexanizminə yiyələnməlidirlər.

Tərbiyəçilər qrupda psixi-emosional rahatlıq yaratmalıdırlar. Bunun üçün psixoloji və inkişafetdirici dərslər, açıq hava oyunları, təlimlər təşkil etmək lazımdır. Resurs otağındakı avadanlıqdan, müxtəlif didaktik materiallardan, öyrədici oyuncaqlardan və əyani vəsaitlərdən istifadə etməklə təlim məşğələlərini həyata keçirməlidirlər.

Xüsusilə uşaqlar arasında ünsiyyət bacarıqlarının inkişafına diqqət yetirmək lazımdır. Məktəbəqədər təhsil müəssisəsində tərbiyəçilər, ilk növbədə, sağlam uşaqlarla sağlamlıq imkanları məhdud uşaqlar arasında müsbət münasibət formalaşdırmalıdırlar. Eyni zamanda, hər bir sağlamlıq imkanları məhdud uşağa diqqət yetirmək, inklüziv qruplarda prioritet məsələ olmalıdır. Sağlamlıq imkanları məhdud uşaq özünü komfortlu, təhlükəsiz hiss etməli və mümkün qədər müstəqil olmağa çalışmalıdır. Qrupda uşaqlara düzgün yanaşma və təşkilat belə uşaqların komandada işləmək bacarıqlarını, əməkdaşlıq, qarşılıqlı yardım və problemi birgə həll etmək bacarığını inkişaf etdirəcək. İnklüziv qruplarda xüsusi təhsilə ehtiyacı olan uşaqlar təlim prosesinə cəlb olunurlar. Həmyaşıdları ilə ünsiyyət qururlar, dostlar tapırlar, açıq olurlar və özlərini daha inamlı hiss edirlər. Onlar birgə oyunlara və yaradıcı fəaliyyətlərə cəlb olunurlar. Bütün bunlar nitq, idrak, sosial və emosional inkişafa kömək edir.

Hazırda məktəb və uşaq bağçalarında inklüzivlik məcburidir, ona görə də bu binaların tikintisi və ya yenidən qurulması zamanı uşaqlara təhsili təhlükəsiz və əlçatan etməli, onların təlim-tərbiyəsi üçün hər cür şərait yaradılmalıdır. Bunun üçün aşağıdakılar vacibdir:

- Binalara maneəsiz giriş - pandusların olması.
- Temperatur və hava şəraitinə uyğunluq.
- Kifayət qədər təbii işıqlandırmanın olması və zəruri hallarda süni işıqlandırmanın təmin edilməsi.
- Keyfiyyətli mebellərin seçilməsi və onların dəhlizdə, qrupda, mütəxəssislərin kabinetlərində düzgün yerləşdirilməsi.
- Dərslər və oyunlar üçün lazımi tədris vəsaitləri, didaktik materiallar, avadanlıqlarla təmin edilməsi.
- Psixoloji-pedaqoji və korreksiya-inkişafedici məşğələlərin keçirilməsi üçün resurs otağının təşkili.

Beləliklə, Azərbaycan Respublikasında inklüziv təhsil inkişafın tam zirvəsindədir, bu da pedaqoji ictimaiyyətdən yalnız səbr tələb edir.

İstifadə edilmiş ədəbiyyat

1. Hüseynov Q., Şərəfxanova L., Məmmədova S., Mikayılova Ü. İnklüziv təhsil. Bakı 2010, 181 s.
2. Qasımov S., Kərimova E. və b. İnklüziv təhsil: müəllimlər, tərbiyəçilər, tibb işçiləri və psixoloqlar üçün vəsait. Bakı: OKA Ofset, 2006, 168 s.
3. Loreman T., Deppeler J., Harvey D. İnklüziv təhsil (sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təməllər), İdeal Print 2020, 309 s.
4. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000568190

UDC 37.013; 371:351.851

TECHNOLOGY ENHANCED LEARNING (TEL)

Shabnam Ahmadova
Baku Business University
sebnem.ehmedova.2016@gmail.com

The application of technology in teaching methods to improve learning is known as technology enhanced learning (TEL). In the light of the internet or technological advancements like computers, cellphones, and tablets the terms education has altered. The methods to teaching, learning, and support at the institutions are affected by the shifting demographics of the learners. Technology-enhanced learning integrates the unique characteristics of education with those of information and communication technology, such as proximity or efficiency. Hence, the following crucial issues related to it. Namely:

- enable extending the scope of instruction beyond the conventional classroom.
- provide innovative approaches to the disciplines' theoretical and practical components.
- broaden engagement in education and encourage it.
- accessing educational resources or knowledge could be made easier for both instructors and learners.
- encourage you to seek out additional information or digital books to broaden your awareness, sharpen your talents, or both.
- regardless of location, make connections and involvement across educational facilities easier.
- allow us to be up to date with data, figures, and current news from across the world, and provide learners to learn about other realities different from the environment in which you live.

The use of information and communication technologies as mediating devices supporting student learning that can include elements of assessment, tutoring, and instruction. It involves a wide set of applications and processes, such as web-based learning, computer-based learning, virtual classrooms and learning environments, and digital collaboration. It includes the delivery of content through a wide range of electronic media (e.g. internet, intranet/extranet, audio- and videotape, satellite broadcast, interactive television, etc.) and access to resources that inform learners of new ideas, which they can then reflect upon and integrate into their existing knowledge. Computers can be used to promote collaborative learning approaches where learners are encouraged to negotiate shared meaning and to work as teams rather than competitively towards a common goal. Social media and social software applications such as web logs (blogs) and wikis offer new opportunities for communicating, accessing knowledge, creating content, and collaborating online. The appropriate use of technologies, when embedded into curriculum design, is expected to support the development of innovative teaching practices and to enhance and enrich learning experiences. Also referred to as 'e-learning' (or electronic learning) and 'digital learning'.

Modern schools and universities will now need to consider various learner support strategies, including how staff and faculty employ technology to boost efficiency across a varied student population for personalized instruction and flexible delivery. It will be crucial for higher education to take evidence-based approaches into account when integrating technologies into their pedagogy, programs, and resources in the light of these difficulties and developments.

TEL in higher and professional education has a variety of possibilities. These encompass the provision of flexible, 'on demand,' learning that might give the technical skills and professional qualifications needed by global business. Digital learning tools also can alleviate the isolation experienced by online learners and to serve the demands of learning that learning theorists have predicted. The key findings point to the potential for enhanced and progressive skill development as

well as greater learning through inventing new activities for the electronic environment, some of which could not have been possible or accomplished in a traditional classroom. This is mostly a result of the student's capacity to study at their own speed and continually pay attention to the most difficult subject matter. Additionally, it appears that greater knowledge has promoted a deeper degree of critical thought and application in classroom-based activities.

The new generation of teachers faces considerable demands with respect to the use of new technologies in education. As a result, TTIs are compelled to respond to a society driven by technology and to seize the opportunities it creates for education. According to the standards set for teachers, TTIs should facilitate such learning events, design and develop learning experiences and assessments fit for the digital age, model 21st century learning, promote digital citizenship, and engage in ongoing professional development and leadership of technology use. In this respect, TTIs are expected to provide new teachers with the competencies to integrate technology into education and to educate pupils to become ICT competent. To respond to this expectation, many institutions have included introductory technology courses, primarily focused on the development of technological knowledge and skills.

However, several studies suggest that technology is often under-used by pre-service teachers and beginning teachers. Moreover, it seems that only a small number of pre-service and beginning teachers can use technology in diverse and flexible ways. There is a clear discrepancy between what pre-service teachers are taught in their courses and how teachers use technology in a real classroom. Therefore, scientists argued that TTIs should not only focus on how to use technology but also how technology intersects with pedagogical and content knowledge. Further research on the development of ICT capabilities for teachers reveals that technology should be infused into the entire curriculum.

In addition, TEL "interactive and cooperative digital media have an inherent educational value as a new means of intellectual expression" and creativity, also "the route from research to innovation, then to practice, through to mainstream implementation requires the following:

- an awareness of the real-world professional settings that will affect the curriculum, pedagogy, and assessment methods that need to be enhanced by technology
- harmony between innovation and teaching principles
- instructors need to have a sense of ownership via their participation in the co-development of the TEL products and settings. TEL needs a more organized and analytical approach to pedagogue, thus teachers need time to think on their views about learning and teaching.
- TEL research must be conducted to reflect the interdependence between researchers and users
- education leaders need more support for the radical change of institutional teaching and learning models needed, if technology is to be exploited effectively
- teachers need to be more closely engaged in the design of teaching that uses technology, collaborating with peers and exchanging ideas and practices"

Due to the more options for education and learning methods, technology may be used to emphasize cooperation, student critical thinking, and the acquisition of values. A subsequent analysis on technology-enhanced learning and teaching determined ten outcomes in learning and acquisition of language:

General strategy in TEL outcomes include:

1.A emphasis on learning design enables academics to discuss and model best practices in teaching and learning.

2. Authentic learning offers a way to include students in all facets of curriculum, topics, activities, and evaluation.

3. Providing chances for leadership development and involving academics in action learning cycles over prolonged periods of time are key components of successful academic growth.

4. The integration of technology-enhanced learning and teaching practices throughout the curriculum, topics, activities, and assessment results in significant benefits to the discipline.

5. Technology-enhanced assessment enables various options for academics to deliver feedback to students.

Overall, this investigation successfully achieves its goal of assessing student engagement and learning in a professional education setting employing educational technology.

References

1. Biggs, J.B. (2003). *Teaching for Quality Learning at university* (2nd ed), Buckingham: SRHE and Open University Press.

2. Bloom, B.S. et. al. (1956). "Taxonomy of Educational Objectives" in *The Classification of Educational Goals Handbook 1: Cognitive Domain,* New York: McGraw-Hill.

3. Carpenter, J.P., and Krutka., D.G. (2014). "How and why educators use Twitter: A survey of the field." *Journal of Research on Technology in Education* 46, no. 4 (2014): 414-434.

4. Entwistle, N.J. (2009).*Teaching for Understanding at University.* Palgrave Macmillan.Entwistle,N.J. &Ramsden,P., (1983) *Understanding Student Learning* . London:Croom Helm

5. Gardner, H. (1983).*Frames of mind: The theory of Multiple Intelligence.*New York: Basic Books

UOT 902 (4/9)

İNTİBAH DÖVRÜ SAXSI MƏMULATI ÜZƏRİNDƏ TƏSVİRLƏR

Sədaqət İsmayıl qızı Məmmədli
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu
sedaqetmemmedli @yandex.com

Azərbaycanın orta əsr saxsı məmulatı şirsiz və şirli qablardan, kaşılardan və su tünglərindən ibarətdir. Bir sıra oyuncaq və dini ritual səciyyəsi daşıyan bəzi keramika qalıqları da dövrümüzə qədər gəlib çatmışdır. XI-XII əsrlərə aid dulus məmulatı Səlcuqlu və Atabəylər dövrü sənətkarlığının bəzi xüsusiyyətlərini özündə əks etdirir. İntibah dövrü sənətkarlığının mühüm hissəsi olan dulusçuluqda da digər sənət sahələri kimi xeyli irəliləyiş baş verirdi. Belə ki, bu dövrdə qabların bişirilmə texnikası, anqoblanması, cilalanması, gilinin tərkibi, anqob üzərindən şirin çəkilməsi, şirli qabların monoxrom və polixrom olmaqla üzərində bir sıra təsvirlərin inkişafı kimi xüsusiyyətlər nəzərə çarpır [1; 2].

İntibah dövrü şirli saxsı məmulatı təsnifatına görə boşqab, dolça, bardaq, cam, dopu, küpə, kasa və digər tiplərə bölünür. Onların bəzilərinin üzərində, gövdə, oturacaq və boğaz hissələrində, ağız hissəsinin yaxınlığında fərqli təsvirlər çəkilirdi. Arxeoloji qazıntılar zamanı Qəbələ, Gəncə, Şəmkir, Beyləqan, Mingəçevir, Tərtər, Yevlax, Naxçıvan, Şabran, Bakı, Şamaxı və digər yerlərdən əldə olunmuş saxsı məmulatı üzərində həndəsi, nəbati, səmavi və zoomorf, bəzən isə antropomorf təsvirlərin izlərinə rast gəlirik [3; 4; 5; 6].

Əldə olunan şirli saxsı məmulatının bəzilərinin təsnifatını verməklə onların üzərindəki təsvirlərin dulus materialı ilə birgə tədqiqata cəlb edirik: Göründüyü kimi iki polixrom şirli qabın oturacaq hissəsinin üzərində quş təsviri verilmişdir. Gilinin rəngi sarı-qırmızımtıl olan polixrom şirli qabın oturacaq hissəsinin üzərində bitki (gül) təsvir olunmuşdur. Tapılan başqa bir dulus məmulatı polixrom şirli qabın oturacaq hissəsinə aiddir. Üzərində həndəsi naxış çəkilmişdir. Üzərində quş təsviri olan polixrom şirli qabın oturacaq hissəsi məlumdur (Tablo 1).

Tablo 1. Şirli saxsı məmulatının hissələri üzərində nəbati, zoomorf və həndəsi təsvirlər (Gəncə, Tərtər, Yevlax)



Tablo 2. Şirli saxsı hissələri üzərində həndəsi, nəbati və zoomorf təsvirlər
(Qəbələ, Mingəçevir, Beyləqan)

Polixrom şirli qabın oturacaq hissəsinin üzərində həndəsi naxışlar çəkilmişdir. Başqa bir polixrom şirli qabın oturacaq hissəsinin üzərində nəbati naxışlar çəkilmişdir. Digər iki polixrom şirli qabın oturacaq hissəsinin xarici səthində isə həndəsi naxışlar çəkilmişdir. Naxışlar Oğuz türklərinin Salur boyunun damğasını xatırladır. Sarı-qırmızımtıl gilinin rəngi olan və üzəri polixrom şəkildə şirlənmiş şirli saxsı qabın oturacaq hissəsinin naxışları yarpaq formalıdır. Gilinin rəngi sarı-qırmızımtıl olan və üzəri yaşıl rənglə şirlənmiş şirli saxsə qabın hissəsinin üzərində həndəsi naxışları var. Gilinin rəngi sarı-qırmızımtıl olan və üzəri polixrom şəkildə şirlənmiş şirli saxsı qabın hissəsinin anqobu səliqəlidir. Üzərində ustalıqla vurulmuş naxışlar nəzərə çarpır (Tablo 2).

Göründüyü kimi, saxsı məmulatının anqobu üzərindən şir şəkilmiş və bu zaman naxışlar işlənmişdir. Təsvirlərin əksəriyyəti nəbati, həndəsi və zoomorf formasındadır. Dövr üçün səciyyəvi olan dulus məmulatının üzərində təsvirlər dulusçular tərəfindən zamana görə ustalıqla həkk olunmuşdur. Təsvirlər həm monoxrom, həm də polixrom şirli qablara aiddir. Beləliklə, saxsı qablar üzərində işlənmiş təsvirlərin təhlili intibah dövründə Azərbaycan sənətkarlarının, xüsusilə də dulusçuların həmin təsvirləri bəzək, ayin və ticarət dövriyyəsi üçün vurduqları, sənətkarlığın müxtəlif sahələrinin inkişafı səbəbilə rəqabətin artması və ticarətdə əhəmiyyətli mövqeyə malik olması məqsədi daşıyırdı [1; 3; 4]. Sözü gedən mərhələdə şəhərlər inkişaf edir, sənətkarlıq və ticarət yüksəlirdi. Bu baxımdan dulusçuların öz mallarını yüksək səviyyədə hazırlaması ilk növbədə onların özləri üçün də vacib idi [5; 6]. Orta əsr şəhərlərində məhz dulus məmulatının inkişafının izlənməsi də bunların bariz göstəricisidir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Arxeologiyası (Altı cilddə), VI cild, Bakı, Şərq-Qərb, 2008, 632 s.
2. Cəbiyev Q.C. Azərbaycan keramikası, Bakı: Elm, 2003, 236 s.
3. Dostiyev T.M., Bəşirov R.Y., Mirzəyev R.H., Hüseynovli N.N. Orta əsr Şəmkir şəhəri: arxeoloji qazıntılar və artefaktlar. Bakı: Çaşıoğlu, 2013, 516 s.
4. Qazıyev S.M. Qəbələ şəhərinin tarixi-arxeoloji tədqiqi // AMM (Qəbələ arxeoloji ekspedisiyasının əsərləri – I cild), Az SSR EA Tarix İnstitutu, Bakı, 1964, V cild, s. 7-67
5. Məmmədov A.M. Gəncə və onun ətrafının tarixi-arxeoloji tədqiqi (Ən qədim zamanlardan XIX əsrə qədər), Gəncə, 2008, 387 s.
6. Seyidov A.Q. Tərtər rayonunda aparılmış arxeoloji qazıntı işlərinin nəticələri // AMEA AEAİ Elmi Arxivi, Bakı: 2018, 55 s.

UOT 81'36; 81'367; 82-31

AZƏRBAYCAN DİLİNDƏ BUDAQ CÜMLƏLƏRİN FEİLİ TƏRKİBLƏRLƏ SİNONİMLİYİ (İ.ŞIXLININ "DƏLİ KÜR" ROMANI ƏSASINDA)

Sevinc Soltanmecid qızı Baxşiyeva
ADPU-nun Şamaxı filialı
sevincbaxshiyeva65@gmail.com

Məlumdur ki, dil daima inkişafdadır. Bu inkişaf dilin bütün sahələrində eyni bərabərdə getmir.Leksik tərkibdə gedən bütün proseslər eyni zamanda dilin sintaktik quruluşunda da gedir. Zaman keçdikcə, qrammatik , o cümlədən sintaktik quruluş ümumi tələbdən asılı olaraq təkmilləşir və dəyişir.Azərbaycan dilçiliyində mürəkkəb cümlə, feili tərkiblər məsələsi aktual problemlərdən hesab olunur. Bu məqalədə qarşımıza görkəmli yazıçı İsmayıl Şıxlı yaradıcılığının zirvəsi hesab olunan "Dəli Kür" romanı əsasında tabeli mürəkkəb cümlədə budaq cümlənin feili tərkiblərlə sinonimliyi məsələsini şərh etmək məqsədini qoyduq. Qeyd etmək istərdim ki, İ.Şıxlı yaradıcılı-

ğına müraciət etməyimiz səbəbsiz deyil. Belə ki, unudulmaz müəllimimin əziz xatirəsini yad etmək istədim.Əsər həm dil, həm də üslub baxımından zəngin tədqiqat materilıdır.

Mürəkkəb cümlə nitq mədəniyyətinin nisbətən sonralar yaranmış ifadə vasitəsidir.İnkişaf prosesində əvvəl sadə cümlə ünsiyyətin əsasını təşkil etmiş, tədricən cəmiyyətdəki hadisələr arasında əlaqələr möhkəmləndikcə onların ifadəsi üçün mürəkkəb cümlələrə ehtiyac yaranmış və iki cümlədə verilən fikir birləşdirilərək, tabesiz mürəkkəb cümlənin, sonralar isə tabeli mürəkkəb cümlənin yaranmasına səbəb olmuşdur.

Sadə cümlənin tərkibini genişləndirən feili tərkiblər ayrılaraq budaq cümlə şəklində fikrin dəqiq ifadəçisinə çevrilmişdir. Yəni eyni fikri içərisində tərkib olan sadə cümlə ilə də, tabeli mürəkkəb cümlə ilə də ifadə etmək olar.

Ciddi mübahisələrin və geniş müzakirələrin obyekti olan tərkiblərlə budaq cümlələrin sinonimliyi məsələsi ilə bağlı dissertasiyalar, monoqrafiyalar yazılmışdır. Həmin əsərlərdə tərkiblərin mənasına və cümlədəki roluna görə budaq cümlələrlə sinonim olması, bu sinonimliyin onların aid olduqları sözləri eyni cəhətdən izah etmələrində özünü göstərməsi qeyd edilmişdir. Bütün bunlar bir daha göstərir ki, tərkiblərlə budaq cümlələr nitqdə bir-birinin sinonimi kimi çıxış edir. Məsələn:

"Qoy bilsin ki, qızışıb adam üstünə gəlməyin axırı necə olur."

"O gördü ki, atası iri pəncəli əlləri ilə bu saat onu yaxalayacaq, sonra da qabarıq sinəsinin altına salıb xurd-xəşil edəcəkdir."

"Mənim hayfımı ondan almasan, südümü sənə halal eləmərəm."

Birinci və ikinci cümlələrdə baş cümlə əvvəl, budaq cümlə sonra işlənmişdir. Budaq cümlə (qızışıb adam üstünə gəlməyin axırı necə olur) baş cümlənin bir üzvünə - xəbərə (bilsin) aid olub, hərəkətin obyektini bildirir. Bu cür cümlələr tarixən bir sadə cümlədən – bir özəkdən ibarət olmuş, sonralar onların feili sifət tərkibi ilə ifadə olunmuş üzvü budaq cümləyə çevrilərək? tabeli mürəkkəb cümləni yaratmışdır. "Qızışıb adam üstünə gəlməyin axırının nə olduğunu bilsin. "Ona görə də bu cür tabeli mürəkkəb cümlələrdə kənara çıxan üzvü yenidən yerinə qoymaq, cümləni sadələşdirmək olur. Tarixən bir sadə cümlədən, bir özəkdən yarandığı üçün bu cür cümlələrə birözəkli tabeli mürəkkəb cümlələr deyilir.

İkinci nümunədə verilən tabeli mürəkkəb cümlənin aid olduğu quruluş isə tarixən iki sadə cümlədən ibarət olmuş və ilk dövrlərdə müstəqil cümlələr kimi ardıcıl işlənmişdir. "Mənim hayıfımı ondan almalısan. Südümü sənə halal eləmərəm." Tədricən bu iki müstəqil cümlə bir intonasiya altına düşərək tabesiz mürəkkəb cümlə şəklində formalaşmışdır. "Mənim hayıfımı ondan almalısan, yoxsa südümü sənə halal eləmərəm." Daha sonrakı inkişaf mərhələsində bu cür tabesiz mürəkkəb cümlələrin tərkib hissələrindən biri öz müstəqilliyini itirərək budaq cümləyə çevrilmiş və tabesiz mürəkkəb cümlədən tabeli mürəkkəb cümlə əmələ gəlmişdir. "Mənim hayıfımı ondan almasan, südümü sənə halal eləmərəm." Tarixən iki sadə cümlədən yarandığı üçün bu cür cümlələrə ikiözəkli tabeli mürəkkəb cümlələr deyilir.

İkiözəkli tabeli mürəkkəb cümlələrdə budaq cümlə əksərən bütövlükdə baş cümləyə aid olur və iki özəkdən əmələ gəldikləri üçün belə cümlələri sadə cümləyə çevirmək, sadələşdirmək olmur.

Şərt budaq cümləli tabeli mürəkkəb cümlələrin bir qismi, qarşılaşdırma, nəticə və qoşulma budaq cümləli tabeli mürəkkəb cümlələr iki özəkli, digər tabeli mürəkkəb cümlə növləri bir özəklidir.

İ.Şıxlı yaradıcılığında bir özəkli tabeli mürəkkəb cümlə tiplərinə tez-tez rast gəlirik. Hər bir cümlə feili birləşmələrlə sinonimlik məsələsinə aydınlıq gətirir. Məsələn:

1. Cahandar ağaya elə gəldi ki, divarlar da, tavanın taxtaları da tərtəmiz yuyulmuşdu. [1, s.150]

2. Mələyin gözlərindən oxudu ki, təriflənmək, bişirdiyi xörəyin ləzzətli olmasını təsdiq edən söz eşitmək istəyir. [1, s.53]

3. O başa düşdü ki,kişinin dişi bağırsağını kəsir. [1, s.155]

4. Hər bir yerə belə bir xəbər yayılmışdı ki, kim türbəyə ziyarətə getsə, ya da oranın bir tikə çörəyini yesə, istədiyi arzuya çatıb, bütün qada-baladan uzaq olar. [1, s.156]

5. Həm də bunui elə etmək istəyirdi ki, heç kəs ondan şübhələnməsin. [1, s.192]

Tədris prosesində nitqin rəvanlığı, dəqiq ifadə edilməsində xüsusilə əhəmiyyətli olan sintaktik sinonimlik məsələsini gənc nəslə mənimsətmək məqsədilə tərtib olunan çalışmalar bir neçə istiqamətdə fəaliyyət gğstərə bilər. Bunları belə ümumiləşdirmək olar:

1. Tədris proqramında tövsiyyə olunan proqram materiallarının çalışmalarla möhkəmlən-dirilməsi.

2. Şagirtlərdə şifahi nitq inkişafına yönəldilən çalışmalar.

3. Rabitəli nitqin inkişafına yönəldilən çalışmalar.

Əlbəttə, kiçik bir məqalədə feili birləşmələrlə budaq cümlələrin sinonimliyi məsələsini tam şəkildə tədqiq edib yekunlaşdırmaq mümkün deyil. Çalışdıq ki, "İ.Şıxlı yaradıcılığı üzərindən bu məsələni müəyyən qədər şagirdlərimizə necə mənimsədə bilərik?" sualına cavab verək.

İstifadə edilmiş ədəbiyyat

1. İ.Şıxlı. Seçilmiş əsərləri. Bakı,.2005

2. N.Abdullayeva. Müasir Azərbaycan dilinin sintaksisi üzrə xüsusi seminar materiallar. Bakı, 1975

3. B.Xəlilov. Müsair Azərbaycan dili. Sintaksis. Bakı, 2017

4. Q.Kazımov Müasir Azərbaycan dili. Bakı, 2010

UOT 81'37; 003; 81'22

DİL İŞARƏLƏRİNİN SEMANTİK CƏHƏTİNİN TƏYİN OLUNMASININ ÜSULLARI

Sevinc Zülfiyar qızı Namətova
Azərbaycan Dillər Universiteti
Xəzər Universitetinin doktorantı
mahmudovasevinc828@gmail.com

Müasir dilçilik elmində"semantika" qədər daha az müəyyən olunan və daha geniş əhatəyə malik olan digər bir anlayış yoxdur. Bu termin eyni dərəcədə həm tədqiqat obyektinin özünü ifadə edir , həm də dilin məzmununu müxtəlif istiqamətlərdə öyrənir, təfəkkür kateqoriyalarının, obyektiv dünya və elm-nəzərii fənlər ilə şərtlənən dil vahidlərinin, dil kateqoriyalarının mühüm tərəflərini ehtiva edir.

Linqvistikaya dair əsərlərdə "semantika"ya sinonim kimi xeyli sayda söz vardılr; belə ki, "konseptual", "mənalı", "semantik", "semiotik", "semioloji" kimi sözlər də bu terminlə bərabər işlənərək törəmə "semantik" sözcük kimi istifadə olunur. Maraqlıdır ki, digər tərəfdən, müasir linqvistikada əsas semantik kateqoriyaların müəyyən edilməsində məna və davamlılıq əlamət, məna, əhəmiyyət, linqvistik məna növləri, mütləq və nisbi semantik əhəmiyyət və s.istiqamətlərdə vahid mövqe hələ də formalaşmamışdır. Bu həm də o deməkdir ki, dilin semantik şərhinə dair və onun məzmun aparatının kontekstual ifadəsi haqda, eləcə də onun hərtərəfli öyrənilməsində, ümumilikdə dilin müxtəlif səviyyəli vahidləri, çoxlu həll edilməmiş məsələlər, kifayət qədər araşdırılmamış problemlər və ciddi şəkildə formalaşdırılmamış anlayışlar yenə də qalmaqdadır Odur ki, belə bir vəziyyət - dilin məzmun tərəfinin, onun semantikasının öyrənilməsi işində, tədqiqatçıdan bir sıra səbəblərdən dilin ayrılmaz hadisə kimi *ontoloji xassələrini* daha aydın və ardıcıl müəyyən etməyi tələb edir.

İstənilən dildə ikitərəfli vahidlər, mənbə dili və tərcümə edilən dil ilə yanaşı (MD-TD) xüsusi vasitələrlə ifadə olunmayan çoxlu sayda *semantik kateqoriyalar*, mənalar, məna çalarları (çoxmənalı olduqda semantik törəmə halında leksik mənanın müxtəlif çalarları və variantları – törəmə semantik mənalar mövcuddur. Bu vasitələr sistemində isə vahidləri seçərkən – sinonimlik, antonimlik və sair, eləcə də nitq əsərlərində şifahi işarələrin və leksik sintaqmaların birləşdirilməsində müxtəlif mənaların formalaşmas, eləcə də digər hallar mövcuddur və bu xüsusiyyətlər ardıçıl olaraq bir kontinium yaradaraq meydana gəlir, dəyişir , yeni xüsusiyyət kəsb edir və ya meydandan çıxır.

Vəziyyətin belə, necə deyərlər "xaotik" hal alması məzmun aspektlərini öyrənərkən dil vahidlərinin tədqiqindən daha böyük "təhlükə" yardaır, *formal, linqvistik varlıqların təsvir vahidləri ilə əvəzlənməs*i kimi yeni postulatları şərtləndirir; yəni artrıq indi tədqiq olunan obyekti onun təbii xassələri ilə deyil, metodologiyası, vahidlərin təhlili ilə və *sırf metodiki olaraq müəyyən etmək* mümkün olur. Məsələn, bir sıra ABŞ alimləri (Emily M.Bender, Shane Steinert-Threlkeld, Toshiyuki Ogihara) bu cəhətlərin sərhəd xətlərini təhlil edərkən formal linqvistika və təbii dil seçimi anlayışlarnı irəli çəkir [5] digər ölkələrdən olan bir qrup alimlər isə etnolinqvistikanı əsas götürür və məhdud lüğət sahəsinə müraciət etməyi daha münasib bilməklə *bu üsulu bütövlükdə mənaçıxarmanın əsası hesab edirlər* [1; 4]

Belə bir üsul, təbii olaraq, *komponent təhlili* texnikasına əsaslanır, sırf məntiqi və ya mövzu kateqoriyaları ilə müəyyən olunur. Bəs belə yanaşmanın hansı məhdud cəhətləri ola bilər? Biz hesab edirik ki, bu metod özü maraqlı görünsə də, o, semantikanın strukturlaşdırılmış mikrosisteminin tətbiqində özünü doğrultmur. Məsələn, bu nəzəriyyənin tətbiqi qohumluq əlaqələrininin adlarınada -brother-in-law, mother-in-law (qayın, qyınana) və s. kimi sözlərdə özünü doğrultmaya da bilir. Bu zaman, *sözlərin semantikasında ontoloji istiqamət etnolinqvistik istiqamətdən daha önə çıxır*. Yəni, *komponent və ya paradiqmatik üsulla mənaçıxarma* daha effektiv görünür. Lakin bununla belə sonuncu yanaşmaların da məhdud cəhətlər vardır; belə ki, hətta mənaçıxarmada ontoloji istiqamət əvvəlki üsula nisbətən daha cəlbedici görünsə də, bu metodda da polisemantik sözlərin semantik quruluşu, frazeoloji vahidlərin mənası və ya sözdə semantik sintaqmatiklik kimi mürəkkəb, tarixən formalaşmış linqvistik kateqoriyalar tam əks olunmur. Bu ən azı ona görə belədir ki, əslində təbii dillərin semantikasının təbii xassələrinin metalinqvistik semantika ilə, dilin vahidlərinin təsvir vahidləri ilə əvəzlənməsi ilə eyniləşdirməyin özü də yanlışlıq yaradır və semantik mənaçıxarma üçün yeganə və şəriksiz baza olmaq iddiasını təmin edə bilmir. Çünki, hər hansı bir dilin semantikasını öyrənmək o qədər də asan deyildir və deyərdik ki, çox çətindir. Bu özünü bir sıra aspektlərdə daha qabarıq biruzə verir. Bu həm də ona görə belədir ki, erkən dil vahidlərinin mənalarında obyektiv dünyanın ideal varlıq forması daim dəyişilən, zənginləşən dil məsələsi ilə təmsil olunur. Biz belə elmi-linqvistik yanaşmaları rus alimlərinin əsərlərində daha çox rast gəlirik. Belə ki, E.A.Klimov və A.N.Leontyevin əsərlərində fəaliyyət problemi dilin semantik strukturunun formalaşmasında dah ön plana çəkilmişdir. Onlar qeyd edirlər ki, burada semantik mənaçıramada əsas məsələ "tədqiqat metodu müqayisəli konseptual və kateqoriyalı təhlil, müqayisə edilən müəlliflərin mətnlərinin tarixi və psixoloji müqayisəsidir" [3].

Ümumilikdə, bu baxışlara görə, insan idrakının kritik qiymətləndirici sferalarının nəticəsidə dil, söz, məna nəinki obyektivləşdirmə, dünyanı obyekt və ideyalar dünyası ilə təsvir etmək vasitəsi kimi xidmət edir, onlar həm də insanın trixi sossial inkişafında emosional və şifahi və zehni fəaliyyət sferalarını təmin edir. Bu baxımdan, semantik mənaçıxarama, belə iddialar görə, daha çox insan fəaliyyətinin psixoloji və emosional müstəvisində izah edilməlidir. Doğru olaraq qeyd olunmuşdur ki, "vahidlərinin mənası ilə əsas, semioloji funksiyasını yerinə yetirən dil konseptual təfəkkür səviyyəsinə xas olan diferensiallaşma və inteqrasiya prosesləri ilə, dil əlamətlərinin insanlar tərəfindən tanınması, dərk edilməsi və onların ünsiyyəti prosesində semantik şərhi aktları ilə bilavasitə bağlıdır" [2, c. 33].

Beləliklə, dil işarələrinin bir semantik vahid kimi əsas təytinatı:

- reflektor və düşüncə proseslərini təmin etmək;
- dolayısı və mücərrəd şəkildə zehni məzmunu təmsil emək;
- tarixən cəmiyyətin məlum seqmenti və üzvləri üçün ümumi kollektiv dəyərlər formasında işarələnmiş mənanı təyin etmək;
- insan fəaliyyətinin bütün aspektlərində onalar arasında kommunikasiya prosesini təmin etməkdən ibarətdir.

Semantik əhəmiyyət və həm də onun mənası yalnız dilin münasibəti, qeyri-obyektiv reallığın təfəkkürə olan münasibəti məsələsinin həllindən deyil, həm də dilin hansı tərəfinin - dinamik və ya statik, aktiv və ya struktur, kommunikativ və ya nominativ olmasından asılıdır. Deməli, dil işarələrinin mənasının müəyyənliyi yalnız onun hansı dil tipinə mənsub olması ilə deyil, bütövlükdıə onu müəyyən edən dil strukturunun semiotikası ilə müəyyən edilir.

İstifadə edilmiş ədəbiyyat

1. Bragina G.K. et al. Derived Substantives in Word - Formation Nests of Auditory Perception Verbs: Ethnolinguistic Aspect //- Katibeh-ILCRG (Iran), International Journal of Society, Culture & Language, 8(3), 2020 -p. 1-9;
2. Носкова О. Г. Проблема деятельности в работах Е.А.Климова и А.Н.Леонтьева /- III Международной научно-практической конференции «Современное состояние и перспективы развития психологии труда и организационной психологии». Конференция была приурочена к 50-летию Института психологии Российской академии наук. – Москва, - 14 октября 2021 г. [Электронный ресурс] URL: https://psy.su/feed/954
3. Принципы и методы семантических исследований /- Институт языкознания АН СССР. - Москва, Издательство «Наука», 1976. –379 с.
4. Fuenzalida S.I. Etnolinguistics and the study of culture //-USA, AmericanAntropologist, no.51, 1949, p. 446-456 [Electronic resource] URL: https://anthrosource.onlinelibrary.wiley.com/doi/pdf/10.1525/aa.1949.51.3.02a00070
5. Semantics /-University of Washington, -2022 [Electrtonic resource] URL: https://linguistics.washington.edu/fields/semantics

UOT 1(091)

SÜNİ İNTELLEKT FENOMENİ TARİXİ İNKİŞAFIN NƏTİCƏSİ KİMİ

Turanə Bahəddin qızı Əsədova
dissertant
Gəncə Dövlət Universiteti
esedovaturane246@gmail.com

Giriş

"Süni intellekt" anlayışı ilk dəfə eşidiləndə istər elm adamları, müəllim, tələbə olsun, istərsə də sahibkarlar olsun bir çox insanda maraq oyandırır. Bunun səbəbinin nə olduğunu bilmək istəsək, şüur kimi subyektiv bir məfhumun "süni" kəliməsi ilə birləşdirilməsi olduğunu qeyd etmək olar. Anlayışın meydana gətirdiyi maraq bir tərəfə, onu da qeyd etmək lazımdır ki, həm anlayış, həm süni intellektin əhatə dairəsi ilə bağlı əksər insanda demək olar ki, çox az informasiya mövcuddur.

Süni intellekt və onun müxtəlif inkişaf aspektləri ətrafında danışılan mövzuların başında süni neyron şəbəkələri, tətbiq sahələri, qeyri-səlis məntiq, genetik alqoritmlər gəlir.

Süni intellekti özününküləşdirən bir sıra elm sahələri var. Bəziləri komputer mühəndisliyi, fəlsəfə, koqnitiv elm, elektron elmlərdir.

Süni intellektlə bağlı yerli qaynaqlar çox deyil, əslində bu sahədə dünyada mövcud olan mənbələrin sayı azdır, ancaq süni intellektin praktikada tətbiq imkanlarının genişlənməsi onun elmi bazasının da inkişafına təkan verir.

Bu tədqiqatın strukturu, "süni intellekt"in tərifi, ortaq bir anlayış əldə edildikdən sonra bu günə xronoloji gəlişi, süni intellekt üsulları, tətbiq sahələri, gələcəyi və nəticədən ibarətdir.

Şüur və süni intellekt. MIT Komputer elmləri laboratoriya müdiri Edward Fredkin BBC-yə verdiyi müsahibəsində belə qeyd edir: "Tarixdə üç böyük dönüm nöqtəsi yaşanmışdır. Bunlardan birincisi, kainatın meydana gəlməsidir. İkincisi, həyatın başlamasıdır. Üçüncüsü isə, süni intellektin meydana gəlməsidir.

Süni intellekt kimi bir məsələni başa düşə bilmək üçün beyin ilə komputer arasında bənzər və fərqli cəhətləri aydınlaşdırmaq lazımdır:

Beyin təxminən 1,5 kg ağırlığa malikdir. Qoza bənzər görünüşə malik olan bu orqan, 60 illik bir dövrdə saniyədə 600 birimlik yaddaşa qeyd edib, işləyib proqramlaşdırmaq qabiliyyətinə malikdir. Bu, dəqiqədə 3,600, saatda 2,160,000, gündə 51,840,000 bitlik informasiya deməkdir [1, səh.22].

Beyinlə bağlı təhlillər aparan V.G.Valtrın tədqiqlərinə nəzər yerilirsə, insan beyninə bənzəyən bir avadanlığın hazırlanması üçün 300 trilyon dollardan çox vəsaitə ehtiyac olduğunu görərik. Bu avadanlığın işləməsi üçün bir trilyon vatt elektrik enerjisi lazımdır.

S.Uayt adlı müəllifin müəyyən etdiyi kimi, "beyin həyatımız boyu gözləriniz, qulaqlarınız, burnunuz, barmaqlarınız və digər duyğu orqanlarınızla davamlı olaraq elektrik siqnalları şəklində məlumat alır, saxlayır və göndərir. Beyninizdən keçən milyardlarla fakt və xəyallar doxsan milyon qalın kitabı dolduracaq" həcmdədir.

Bir də onu qeyd edək ki, intellektin nə demək olduğu və onun nə qədər ölçüləbilir olduğuna dair fikir birliyi yoxdur. Bu mövzuya fikirlərin müştərək cəhətini bir cümlə ilə ifadə etmək lazım gələrsə, intellekti beynin məlumatı qəbul etmək və onu tez və dəqiq təhlil etmək qabiliyyəti kimi təsvir edə bilərik.

Şüur, şüuraltı, ruh kimi, intellekt da mücərrəd bir məfhum olması etibarilə, onun vahid, universal tərifini vermək mümkün olmamışdır.

"Süni intellekt" anlayışının meydana gəlməsi və inkişafını xronoloji baxımdan belə qeyd etmək olar [2, səh.3-4]:

- Ən qədim dövrlərdə yunan mifologiyasında külək tanrısı Daedelusun "süni insan" təşəbbüsü;

- Qaranlıq dövr (1965-1970) – bu dövrdə çox cüzi inkişafa nail olunmuşdur. Komputer mütəxəssisləri Düşünmə mexanizmini inkişaf etdirərək, kompüter alimləri sadəcə məlumatları yükləməklə ağıllı kompüterlər yaratmağa ümid edirdilər. Nəticə etibarilə bir gözləmə dövrü yaşandı.

- İntibah dövrü (1970-1975) – bu sahədə inkişafın getdikcə artdığı bir dövrdür. Süni intellekt sahəsində fəaliyyət göstərən tədqiqatçılar xəstəliyin diaqnozu üçün tibbi cihazlar hazırlamağa başladılar, beləliklə, bu sahədə yeni nailiyyətlərin önü açılmış oldu.

- Müştərək fəaliyyət dövrü (1975-1980) – süni intellekt tədqiqatçıları, dilçilik və psixologiya kimi digər elm sahələrinin imkanlarından da istifadə etməyə başladılar.

- Təşəbbüskarlıq dövrü (1980 sonrası) – süni intellekt laboratoriyalardan çıxarılaraq, həqiqi aləmin ehtiyaclarına uyğun daha kompleks şəkildə istifadəyə açılmışdır. Yeni dövr bu gün də davam etməkdə və süni intellektin tətbiq imkanları genişlənməkdədir.

Süni intellekt anlayışının və konseptinin meydana gəlməsi və inkişafının qısa xronologisinə nəzər yetirək [3, səh.16-17]:

- 1943 - Makkalç & Pits: Beynin Boolean dövrə modeli;

- 1950 - Turinqin "məlumat İnformasiya emal maşınları və intellekt" konsepsiyası;
- 1956 - Dartmaouth Konfransında "Süni intellekt" anlayışı ilk dəfə Con Makkarti tərəfindən istifadə olunub. O, bu ifadəni işlədərkən süni zəkanı "maşınları intellektual etmək elmi və mühəndisliyi" adlandırıb [4];
- 1952-1969 - IBM şahmat oynamağı bacaran ilk komputer proqramını hazırladı. Süni intellekt sahəsində ilk beynəlxalq konfrans təşkil edildi;
- 1950-ci illərdə ilk süni intellekt proqramları, Samuelin nəzarət proqramı, Nevl və Saymnın məntiq nəzəriyyəsi, Gelerntrın həndəsi motoru yaradılmışdır.
- 1965-ci ildə Robinsonun məntiqi düşünmə üçün hazırladığı tam alqoritm hazırlandı;
- 1966-73-cü illərdə süni intellekt riyazi qarşılıqlıq ilə üzləşir. Neyroşəbəkələrin tədqiqatı demək olar ki, dayandırılır;
- 1969-79-cu illərdə informasiyaya əsaslanan sistemlerin ilk addımları atıldı;
- 1980-ci illərdə süni intellekt sənayeləşir;
- 1986-cı ildə süni Neyron şəbəkələrin tədqiqi yenidən populyarlaşır;
- 1987-ci ildə süni intellekt elm halına gəlir;
- 1995-ci ildə bu sahədə fəaliyyət göstərən təşkilatlanmalar ortaya çıxır;
- 1997-ci ildə Deep Blue Kasparovu məğlub edir;
- 1998-ci ildə internetin geniş yayılması ilə bir çox süni intellektə əsaslanan proqramlar böyük auditoriyaya çatmışdır.
- 2000-05-Robot oyuncaqlar satışa çıxdı.

Süni intellektin vahid tərifi olmamaqla birlikdə, bir sıra tərifl ər verilmiştir. Bu tərifl ərdən bəzilərinə nəzər yetirək [6, səh. 139]:

- Süni intellekt insan tərəfindən nümayiş etdirildiyi vaxt zəki olaraq adlandırılan davranışların maşın tərəfindən nümayiş etdirilməsidir;
- İnsan şüurunun necə fəaliyyət göstərdiyini başa düşməyə kömək edən konsepsiyadır;
- Süni intellektin məqsədi insan zəkasını komputer vasitərilə təqlid etməkir;
- Süni intellekt aparatlara, maşınlara nəzarət edən komputer proqramları vasitəsilə intellekti öyrənməyə çalışır;
- Süni intellekt ağıllı texnologiyalar, ağıllı komputer proqramları hazırlamaq elmidir;
- Düşünmək, başa düşmək, fəaliyyətə başlamaq üçün informasiyanı emal etmək prosesidir.

Süni intellektin zəif və güclü formaları mövcuddur. Maşınların proqramlaşdırılıb ağıllı davranış nümayiş etdirməsi zəif süni intellekt olarak qəbul edilir. Maşınların ağıllı və şüurlu olması üçün proqramlaşdırması isə müzakirə olunan güclü süni intellekt olaraq qəbul edilir.

Güclü süni intellekt əleyhdarları maşınların mahiyyət etibarı ilə insanlardan fərqli olduğunu iddia edərək, onların heç vaxt insan kimi hissi davranışlar sərgiləyə bilməyəcəklərini, sağlam düşüncə ilə doğrunu səhvdən ayıra bilməyəcəklərini və insanlar kimi düşünə bilməyəcəklərini irəli sürürlər. Digər tərəfdən, onun tərəfdarları eyni hadisənin maşın üçün də keçərli ola biləcəyini iddia edərək, insan beyninin tək başına düşünə bilməyən şüursuz komponentlərdən ibarət olduğunu, bir araya gəldikdə isə onların düşünən və şüurlu olduğunu söyləyirlər.

Beləliklə, süni intellektə malik maşınları dörd qrupda cəmləşdirmək olar: İnsan kimi düşünən; Ağıllı düşünən; İnsan kimi davranış sərgiləyən; Ağıllı davranışlar sərgiləyən.

Ağıllı davranışlar sərgiləyən maşınlar, robotlar, alətlər və s. istehsla etmək məqsədi tədqiqatçıların daha çox diqqətini cəlb edir.

Yukarıdaki izahlardan istifadə edərək, insan ağlı ilə süni intellekti belə müqayisə edə bilərik [cədvəl 1]:

Cədvəl 1

İnsan ağlı və süni intellektin müqayisəsi

İnsan ağlı	Süni intellekt
Təsirə tez məruz qalır	Qalıcıdır

Ötürülməsi çətindir	Ötürülməsi asandır
Sənədləşməsi çətindir	Məlumatların sənədə çevrilməsi asandır
Təxmin edilməsi çətindir	Tutarlıdır
Bahalıdır	Satın alınması mümkündür
Yeni fikirlər ortaya qoya bilir	Yeni ideyalar ortaya qoymaz
Tez uyğunlaşır	Uyğunlaşması kənardan müdaxilər ilə mümkündür
Həssas müşahidə qabiliyyətinə malikdir	Simvolik məlumatlarla işləyir
Geniş üfqə malikdir	Dar baxış bucağına malikdir
Sosial həssasiyyətə malikdir	Texniki həssasiyyətə malikdir

Mənbə: [2, s.86]

Süni intellekt sahəsində aşağıdakı istiqamətlər üzrə fəaliyyətlər daha çox önə çıxır [5, s. 2-3]:
- İnformasiya əsaslı peşəkar sistem yanaşması;
- Süni neyron şəbəkəsi yanaşması;
- Qeyri-səlis məntiq yanaşması;
- Qeyri-ənənəvi optimallaşdırma üsulları;
- Genetik alqoritm;
- Simulyasiya edilmiş axtarış;
- Tabu axtarışı;
- Hibrid alqoritmlər;
- Obyekt yönümlü proqramlaşdırma;
- Coğrafi informasiya mənbələri;
- Qərar dəstək sistemlərinin inkişafı;
- Yumşaq hesablama.

Nəticə

İnsanda özündən daha üstün bir varlığın ortaya çıxması ilə bağlı narahatlıq, süni intellekt tərəfindən daha da artmışdır. Bu kontekstdə ağıl və zəka anlayışlarını qarışdırmaq olmaz.

Bizim üçün yemək hazırlayan sistemlər, alış-verişimizi edən, araşdırmalarımızı aparıb bizi isə qərar vermək işimi buraxan dizaynlar ideyası xoşumuza gedir. Nəticədə süni intellektin bəşəriyyətə böyük faydası olacağı aydındır. Vaxt keçdikcə insanın dəyəri düşünmə, dərk etmə, yeni ideyalar ortaya qoyma kimi sahələrdə ortaya çıxacaq və cəmləşəcəkdir. Bundan əlavə, obrazlı desək, "Kompüter öz ustasının əmrinə tabedir, o, yüksək IQ və aşağı IQ-yə malik bir "qul"dur".

İstifadə edilmiş ədəbiyyat

1. Doğan, A. Yapay zeka / A.Doğan. –İstanbul: Kariyer, –2002. –134 s.
2. Pirim, H. Yapay zeka // İstanbul: Journal of Yasar University, – 2006. № 1(1), –s. 81-93.
3. Russel, S, Norvig, P, Artificial Intelligence. A Modern Approach / S.Russel, P.Norvig – Prentice Hall: 2nd Edition, –2003. –1132 p.
4. Süni intellekt: İnsan sivilizasiyanın gələcəyi, yoxsa sonu?: [Elektron resurs] // "İki sahil" qəzeti. –fevral 18, 2022. URL: https://ikisahil.az/post/287358-suni-intellekt-insan-sivilizasiyanin-geleceyi-yoxsa-sonu
5. Tektaş, M və b. Yapay zeka tekniklerinin trafik kontrolünde kullanılması üzerine bir inceleme: [Elektron resurs] / Mərmərə Unv. Texniki Elmlər Koleci, – 2002. –s. 1-9.
6. Views Into the Chineese Room / edited by John Preston, Mark Bishop. –Oxford: Clarendon Press, –2002. –428 p.

UOT 811.111

ÜNSİYYƏT, DİLÇİLİK VƏ FƏLSƏFƏNİN QOVŞAĞINDA

Türkan Səyavuş qızı Ağayeva
dissertant
Gəncə Dövlət Universiteti
turkan.agayeva.92@mail.ru

Məlumatın sadə və bəsit yolla ötürülməsi prosesi ilə müqayisədə ünsiyyət dialoji və hətta, çoxməntiqli struktura malikdir. Belə ki, ünsiyyət iki və ya daha çox iştirakçının olmasını nəzərdə tutur. Ünsiyyət anlayışı şəxsiyyətlərarası və ya fərdin öz daxili "Mən"i ilə dialoqu xarakterizə edir. Dialoq ötürülən məlumatların xüsusi toplusudur, o, "geri əlaqə"nin məcburi mövcudluğunu nəzərdə tutur və nəhayət, dialoq linqvistik, simvolik xarakter daşıyır. Müxtəlif vəziyyətlərdən asılı olaraq, ünsiyyət subyekti fərqli rollarda çıxış edə bilər: şəxs, ictimai qrup, ictimai qurum, təşkilat və s. Buna əsaslanaraq, tədqiqatçılar ünsiyyətin əsas formalarını müəyyən edirlər: şəxslərlərarası, qruplararası, cəmiyyətlərarası, fərdlə qrup arasında, qrupla cəmiyyət arasında, fərdlə cəmiyyət arasında ünsiyyət və s.

Fəlsəfə üçün ünsiyyət xüsusi maraq kəsb edir, çünki o, düşüncə və fəaliyyət formalarını, ümumən, etibarlı anlayışları və insanların subyektiv niyyətlərini ifadə edir. Tipologiya çərçivəsində birbaşa və dolayı əlaqəni ayırd etmək olar. Birbaşa ünsiyyətdə insanlar "üz-üzə" dayanır, iştirakçılar "burada və indi" olurlar. Bu formada insan fəaliyyətinin birgəliyi, bilavasitə kollektivliyi həyata keçirilir.

"Ünsiyyət" anlayışının öyrənilməsinə həsr olunmuş çoxsaylı elmi ədəbiyyat mövcuddur və "bu fenomenin təxminən 120 izahı var". Belə ki, 60-cı illərin ortalarında L.Sayer elmi ədəbiyyatda "ünsiyyət" termininin işlədilməsi ilə bağlı 25 müxtəlif konsepsiya sadalamış, E.Bettinhausun hesablamalarına görə, 60-cı illərdə Amerikada kommunikasiya proseslərinin 50-dən çox müxtəlif təsviri mövcud olmuşdur. F.Dans və K.Larsonun 1976-cı ildə nəşr olunmuş işində ünsiyyətin 125-dən çox tərifi təqdim edilmişdir [11].

Ola bilsin ki, ünsiyyət və kommunikasiya məsələsi ilə bağlı yerli ədəbiyyatda mövcud olan nöqteyi-nəzərləri birləşdirən əsas məqam bu hadisələrin ən mühüm xarakterik xüsusiyyəti kimi ictimai səciyyəli olmasının qeyd edilməsidir.

Fəlsəfi kateqoriya kimi "ünsiyyət" termini antik dövrdən başlayaraq nəzərdən keçirilir. Latın dilində işlədilən 'communicatio', "əlaqə" və "rabitə" sözlərinin vəhdəti kimi çıxış edirdi. Belə ki, bu sözün ilkin komponenti olan "communis" "ümumilik" ifadə edir və dilimizdə "ümumi" sifəti ilə eyni kökə malikdir, bununla da yalnız ünsiyyət prosesini deyil, həm də hər hansı ümumi hərəkəti və ya qarşılıqlı hərəkəti ifadə edir [8].

Qeyd edilir ki, "müasir dilçilikdə "ünsiyyət" və "kommunikasiya" anlayışları qeyri-bərabər" [6, s. 49] kimi görünür. Onların bir-birindən fərqli anlayışlar olmasını izah etmə cəhdləri universallıqdan uzaqdır. Məsələn, M.S.Kaqan ünsiyyəti əmək, idrak və dəyəryönümlü fəaliyyətlə yanaşı insan fəaliyyətinin əsas növlərindən biri kimi şərh etmiş və o, ünsiyyəti onun özəl forması — məlumatın mesaj şəklində ötürülməsi adlandırmışdır. A.V.Rezaevin fikrincə, "kommunikasiya" daha geniş məna kəsb edir, o, həm də heyvanlar aləmindəki prosesləri əhatə edir, "ünsiyyət" isə yalnız insanlar arasında baş verə bilən "ictimai səciyyəli qarşılıqlı əlaqə"dir [11].

Ünsiyyət və kommunikasiya informativ xarakterli oxşar anlayışlardır və onlar arasında çox incə bir fərq vardır. Məsələn, biz Azərbaycan dilində "kütləvi kommunikasiya" (Q.Məhərrəmli, K.Həbibova) terminini işlədə bildiyimiz halda "kütləvi ünsiyyət" deyildiyində bu termində bir uyuşmazlıq olduğu sezilir.

Məsələyə mətn dilçiliyi baxımından yanaşan tədqiqatçılardan biri qeyd edir ki, "danışanın kommunikativ niyyəti onun özünə bəlli olur. Çünki mətni yaradan müəllif əsəri yazmağa

başlayarkən kommunikativ tamın əsas məqsədini və əsas məzmununu özü üçün müəyyənləşdirmişdir... Mətnin kommunikativliyi onun oxucu tərəfindən qavranma dərəcəsi ilə ölçülür. Mətndə onu yaradan şəxsin nitq fəaliyyəti ifadəsini tapır. Bu fəaliyyət eyni zamanda mətni oxuyan, dinləyən şəxsin qavrama qabiliyyətini nəzərə alır" [2, s. 144]. Burada, göründüyü kimi, mətn kommunikativ hadisə kimi dəyərləndirilir.

Kommunikasiyaya konsept baxımından yanaşma sərgiləyən Q.Məhərrəmli isə qeyd edir ki, "***kommunikasiya*** konseptinə ayrıca diqqət yetirməli, bu anlayışın mahiyyətini və sistemin nədən ibarət olduğunu aydınlaşdırmalıyıq" [3, s. 13]. Kifayət qədər geniş məna tutumu olan kommunikasiya anlayışına bütün maddi və mənəvi aləmin qarşılıqlı əlaqəsi, çoxşaxəli ünsiyyət, real həyatda və virtual magistrallarda gedən informasiya mübadiləsi prosesi aiddir. "Kommunikasiya ilkin anlamda müəyyən effektlə sona yetən ikitərəfli prosesi nəzərdə tutur. Bu proses həm təbii (*canlı danışıq, mimika, jest*), həm də texniki vasitələrin (*telefon, radiorabitə, televiziya, internet* və s.) köməyi ilə gerçəkləşdirilir. Ona görə də geniş yayılmış müasir yozuma görə, kommunikasiya – hər hansı məlumatı (informasiyanı) yaratmağa, ötürməyə, həmçinin qəbul etməyə imkan verən qarşılıqlı fəaliyyət və ünsiyyət prosesidir" [3, s. 13].

Fəlsəfi təhlil çərçivəsində bir çox tədqiqatçılar "ünsiyyət" anlayışı ilə "varoluş" kateqoriyası arasındakı əlaqənin müəyyən edilməsi ilə məşğul olmuşlar. MM. Baxtin iddia edirdi ki, "insanın varoluşu... ən dərin ünsiyyətdir. Varoluş ünsiyyət qurmaq deməkdir" [4, s. 312].

Ünsiyyətdə dəyərlər konsepsiyasının müəllifi V.V.Kryukov, ümumiyyətlə, belə bir qanunauyğunluğun mövcudluğunu irəli sürür: "İnsan şəxsiyyətinin ləyaqəti bu şəxsiyyətin formalaşmasına və onun topladığı mənəvi sərvətin özünü dərk etməsinə sərf olunan ümumi və fərdi səylərlə müəyyən edilir. İnsanın daxili aləmi çox az dərəcədə zahirən ifadə olunur: mimikalarda, ruhun güzgüsü kimi gözlərdə, geyimdə və davranışda. Əsas məzmununda insan ruhu ünsiyyətdə üzə çıxır. Müdrik Sokrat bir adamla söhbəti misal gətirərək təklif etdi: "Danış ki, səni görüm!". İlkin olaraq "ünsiyyət insan şəxsiyyətinin formalaşmasından əvvəldir... və qəti desək, şəxsiyyətin substansiyasıdır" [7, s. 122].

Fəlsəfə üçün ünsiyyət xüsusi maraq kəsb edir, çünki o, düşüncə və fəaliyyət formalarını, ümumən etibarlı anlayışları və insanların subyektiv niyyətlərini ifadə edir.

Nəticə olaraq qeyd edilməlidir ki, ünsiyyət və kommunikasiya anlayışları bir-birinə identikdir. İstər fəlsəfə, istərsə də dilçilik elmi baxımından bu iki anlayış bir-birinə uyğun gəlir. Sadəcə olaraq, bu iki termini eyni bir anlayışın terminoloji variativliyi kimi qəbul etmək daha doğru olardı.

Ünsiyyət – insan davranışının ən ali mərtəbəsidir və onun varoluşunun əsas təməlini təşkil edir.

İstifadə edilmiş ədəbiyyat

1. Həbibova K.Ə. Kütləvi informasiya və kütləvi kommunikasiya // Tədqiqlər. №3, 2018. S. 33-44

2. İsgəndərova N.R. Mətnin semantikası // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Xəbərləri, İctimai və humanitar elmlər seriyası, 2018, № 1, s. 141-147.

3. Məhərrəmli, Q. Jurnalistikada işlənən bəzi terminlər haqqında // Terminologiya məsələləri. № 2, 2014, s. 11-21

4. Бахтин М.М. Эстетика словесного творчества. — М.: Художественная литература, 1979. - 341 с.

5. Буева Л.П. Человек: деятельность и общение. - М.: Мысль, 1978. - 216 с.

6. Крюков Р.В. Версии смысла философской категории «Общение» // Идеи и идеалы. 2014. № 4 (22). Т. 2. С. 48-52

7. Крюков В.В. Общение как субстанция личности // Личность в диалоге: сборник научных трудов по материалам Международной научно-практической конференции (г.

Хабаровск, 17— 18 февраля 2009 г.); под ред. Е.Н. Ткач. — Хабаровск: Изд-во ДВГГУ, 2009. — 372 с.

8. Майданский А.Д. Общение: опыт логико-семантического анализа. Человек в пространстве образования. — Таганрог, 2003. — С. 72—78.

9. Маклюэн М. Осмысляя средства коммуникации: новые измерения человека (Выдержки из книги Understanding Media: the Extensions of Man. N.Y, 1964) // Искусство кино. 1994. — № 2. — С. 67—74.

10. Ожегов С.И. Словарь русского языка / под ред. чл.-корр. Академии наук СССР Н.Ю. Шведовой. — 18-е изд., стер. — М.: Русский язык, 1987. — 797 с.

11. Резаев А.В. Homo philosophians. Сборник к 60-летию профессора К.А. Сергеева. Серия «Мыслители», выпуск 12. - СПб.: Санкт-Петербургское философское общество, 2002. - С. 375-395.

UOT 37. 37.01

TƏLİM PROSESİNDƏ MÜƏLLİM TƏRƏFİNDƏN TƏDRİS MATERİALLARININ SİSTEMLƏŞDİRİLMƏSİ

[1,3]Vəfa Oktay qızı Məmmədova, [2,3]Günel Həsənəli qizi Aslanova
[1]vafa19731213@gmail.com
[2]gunel.aslanova85@mail.ru
[3]Gəncə Dövlət Universiteti

Müasir fəlsəfi və psixoloji-pedaqoji ədəbiyyatda tədris materialının sistemləşdirilməsi fenomeni aşağıdakı əsas anlayışlarla xarakterizə olunur: “sistem”, “struktur”, “sistemləşdirmə”, “məktəblilərin tədris materialının sistemləşdirilməsi”, “tədris materialının müəllim tərəfindən sistemləşdirilməsi” və s. Lakin bu kateqoriyalar hələ də kifayət qədər nəzəri cəhətdən əsaslandırılmamışdır.

Kiçik yaşlı şagirdlərin səmərəli təhsili müəllim tərəfindən tədris materialının sistemləşdirilməsində informasiya-kompüter texnologiyalarından istifadə ilə diferensiallaşdırılmış və inteqrasiya olunmuş yanaşmaların əlaqəsindən asılıdır.

Sistemli differensiallaşdırılmış yanaşma müəllimə kiçik yaşlı şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun olaraq tədris materialını strukturlaşdırmağa imkan verir. Sistemin əsas struktur hissələri alt sistemlər və elementlərdir. Buna misal olaraq, təhlil və konkretləşdirmənin məntiqi əməliyyatları əsasında anlayışların təsnifatını göstərmək olar. Diferensasiya həm də yaş tərkibinə, idrak maraqlarına, uşaqların əqli inkişaf səviyyəsinə, təfəkkürün fərdi-psixoloji tiplərinə, xarakterinə, şəxsiyyətin vurğulanmasına görə aparılır.[3]

Ümumiyyətlə, differensiallaşma təhsil məzmununun müxtəlifliyində, inteqrasiya isə onun vəhdətində özünü göstərir. Elmi biliklər sahəsində onların qarşılıqlı əlaqəsi prosesləri biliyin seçilməsi və strukturlaşdırılması və materialı tələbələrə izah etmək bacarığı ilə bilavasitə bağlıdır. Biliklərin fənlərarası sintezinə əsaslanaraq müəllim fəaliyyətin ümumiləşdirilmiş metodlarından (məqsədlər, məzmun, proses, texnologiya, təlim nəticələri) istifadə edir. Kiçikyaşlı şagirdlər tərəfindən ətrafdakı reallığın idrakında bu proseslərin sistemləşdirilməsi tədris materialının dərin və vahid mənimsənilməsinə kömək edir. İnteqrasiya və differensiasiya prosesləri struktur fərqləndirməsinin (materialın deduktiv ixtisarı, təhlil və konkretləşdirmə) və struktur inteqrasiyasının (materialın induktiv ixtisarı, təhlil, ümumiləşdirmə) xüsusi üsullarından istifadə əsasında həyata keçirilir.

İnteqrasiyalı yanaşma ilə kiçik yaşlı şagirdlərin tədrisi prosesi ayrı-ayrı elementlərdən başlayır və tədricən ümumi sistemə çevrilir. Bu halda müəllim tərəfindən tədris materialının sistemləşdirilməsi iki məntiqi əməliyyat əsasında həyata keçirilir:

- ümumiləşdirmə;
- sintez.

İnteqrasiya edilmiş yanaşmanın həyata keçirilməsi, ilk növbədə, təhsil məzmununun, məqsəd və vəzifələrinin struktur və məntiqi modelləşdirilməsindən, anlayışların, nümunələrin, ideyaların, yanaşmaların, metodların, vasitələrin, bacarıqların ayrılmaz strukturlarının yaradılmasından, müxtəlif dərəcədə asılıdır.

Müxtəlif fənlərin kurikulumlarının məzmununda bir çox "kəsişmə nöqtələri" var - üst-üstə düşən mövzular, konsepsiyalar, tədqiqat prosedurları, müxtəlif mövqelərdən nəzərdən keçirilən ümumi müzakirə mövzuları və s. Bütün bunlar kiçik yaşlı şagirdlərin ayrıca mövzu, bölmə və ya fənn səviyyəsində tədrisində inteqrativ meyllərin həyata keçirilməsidir.[1]

Müəllim tərəfindən tədris materialının sistemləşdirilməsi prosesində tədris materialının məzmununun fərqli və inteqrasiya olunmuş strukturları mühüm rol oynayır.

Qnoseoloji yanaşma nöqteyi-nəzərindən tədris materialının məzmununun diferensial-laşdırılmış strukturlarına tədris materialının sistemləşdirilməsinin növləri, formaları, səviyyələri və kompüter texnologiyalarından istifadə daxildir.

Müəllimlər tərəfindən tədris materialını sistemləşdirmək üçün kompüter təliminin müxtəlif formalarından istifadə olunur. İnformasiya formaları semantik mənada yaxşı qurulmuş bloklar, məlumat massivləri vasitəsilə elmi anlayışlar, mühakimələr formalaşdırmağa imkan verir

Funksional inteqrasiya növü uşaqların fərdi imkanlarına uyğun olaraq yaradıcılıq potensialının, idrak maraqlarının və bacarıqlarının inkişafı ilə bağlıdır.

İbtidai sinif müəllimi tərəfindən tədris materialının sistemləşdirilməsi prosesində inteqrasiyanın şaquli növü təhsilin müxtəlif səviyyələri (məktəbəqədər, ibtidai, orta) arasında həyata keçirilir, məqsədlər, məzmun və gözlənilən nəticələr arasında ardıcıl və perspektivli əlaqələri təmin edir.

Üfüqi inteqrasiya növü eyni sinifdəki fənlər çərçivəsində kiçik yaşlı şagirdlərin müxtəlif fəaliyyət növləri arasında yaranır. Tədris materialının bu cür sistemləşdirilməsi müəyyən məzmunun mövzu, bölmə üzrə modelləşdirilməsi ilə əlaqələndirilir, biliklərin tamlığını təmin edir və materialın blok strukturlaşdırılmasına imkan yaradır. [4]

İnteqrasiya edilmiş təlimin müasir formalarını təhlil edərək belə nəticəyə gəldik ki, ibtidai təhsil səviyyəsində müəllim üçün tədris materialını sistemləşdirmək fənlərarası əlaqələrdən , həmçinin ibtidai sinif şagirdləri üçün inteqrasiya olunmuş təlimin təşkili üçün müasir texnologiya-lardan istifadə edir.

Gələcək ibtidai sinif müəllimlərinin hazırlanmasının əsas istiqamətləri şagirdyönümlü yanaşmaya əsaslanan müasir inteqrasiya variantları və tədris texnologiyalarının tətbiqi və kompüter (multimedia) texnologiyasından istifadə ilə bağlıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Ağayev Ə. Yeni təlim metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri // Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, Bakı, 2006
2. Mahmudov M.C. Boloniya prosesi və Azərbaycan. Bakı: ADPU-nun mətbəəsi, 2008, 340s.
3. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007, 447 c.
4. Цветанова-Чурукова, Л.З. Использование электронных средств в школьном обучении [Текст] / Л.З. Цветанова-Чурукова // Начальная школа. – 2008. – № 8. – С. 84 – 88.

УДК 070

О КИБЕРБЕЗОПАСНОСТИ ЖУРНАЛИСТОВ

Виктория Михайловна Слепцова
аспирант
Белорусский государственный университет
Республика Беларусь
viktorysleptsova@gmail.com

В российской историографии проблема безопасности журналистов освещена в исследованиях кандидатов юридических наук Боровиковой В.В. (2014) [2], Ивановой А.А. (2015) [6], Алексеева Г.В. (2017) [1]. Доктор педагогических наук Дорощук Е.С. (2013) рассматривает деятельность журналиста в современных условиях, подверженной усиленной глобализации [5]. Боровикова В.В. анализирует международно-правовые аспекты по защите безопасности журналистов [2]. В своей работе Бугаева А. С. (2015) исследует деятельность журналистов в условиях чрезвычайных ситуаций и выдвигает свои рекомендации для разработки «культуры безопасности» [3]. Иванова А.А. также занимается изучением внешних и внутренних угроз безопасности журналиста, в том числе, в условиях растущего влияния сети Интернет [6]. Алексеев Г.В. подчеркивает необходимость принятия усилий для нейтрализации киберугроз по отношению к медиасфере [1].

Аннабель Среберни, профессор глобальных медиа и коммуникаций в Центре медиа и киноведения SOAS Лондонского университета, выделяет четыре способа проявления насилия в отношении женщин-журналистов:

1) во время вооруженных конфликтов или войны;
2) сексуальное насилие (в основном проявляется к женщинам журналистам);
3) репрессии со стороны государства (арест, заключение под стражу, пытки);
4) киберугозы и троллинг в сети интернет [10].

В данной статье остановимся на анализе последнего аспекта и деятельности международного сообщества по предотвращению насилия в отношении журналистов и обеспечению условий кибербезопасности.

Рост социальных сетей привел к тому, что профессиональная деятельность журналистов расширилась в цифровом публичном пространстве, что открыло, в свою очередь, новые возможности для журналистов: более широкий охват аудитории, общение с журналистами на международном уровне и кооперация по освещению специализированных вопросов. Вместе с тем такое присутствие в интернете несет в себе ряд рисков. Зачастую журналисты неосознанно публикуют личную информацию о себе, которая используется злоумышленниками против них как средство для запугивания и преследования журналистов. Помимо того, журналисты часто получают угрозы смерти, угрозы сексуального насилия, а также угрозы безопасности семьи, в том числе, становятся мишенью кампаний по дезинформации.

Согласно опросу ЮНЕСКО и Международного центра журналистов (ICFJ) (2020 г.) 73% женщин-журналистов сталкивались с онлайн-насилием, 26% заявили, что испытывали психологические проблемы, а также 12 % респондентов обращались за медицинской помощью. Согласно данным, пострадавшие от иных видов дискриминации (например, расизм и гомофобия), подвергались более серьезными последствиям [7, с. 3-8].

ЮНЕСКО нацелена на установление партнерских связей для активации научных исследований, анализа предпосылок и текущего состояния вопроса безопасности журналистов. В ходе 39 сессии ЮНЕСКО (2015 г.) обсуждался вопрос об обеспечении безопасности для журналистов, было принята рекомендация для СМИ применять гендерно-

ориентированные протоколы безопасности, которые включают в себя борьбу с насилием и домогательствами в интернете по отношению к журналистам. Совместно с проектом «Мир журналистики» ЮНЕСКО проводит опросы журналистов раз в четыре [9].

В принятой в декабре 2015 г. резолюции 70/125 Генеральной Ассамблеи ООН признается важное значение использования потенциала ИКТ для осуществления Повестки дня в области устойчивого развития на период до 2030 г., а также отмечается, что они могут способствовать ускорению прогресса в достижении всех 17 целей в области устойчивого развития (ЦУР). Вклад ЮНЕСКО характеризуется смелым стремлением перейти от «информационного общества» к «обществу знаний», что усугубляется наличием «серьезных угроз для свободы выражения мнений и плюрализма информации». Для этого ЮНЕСКО направляется свою деятельность для обеспечения защиты журналистов, работников средств информации и пространства гражданского общества и проводит усиленную деятельность для обеспечения независимости средств информации [4, с. 3].

В 2021 году ЮНЕСКО подготовила Практическое руководство по реагированию на киберпреследование для женщин-журналистов. В данном руководстве представлены меры по минимизации рисков киберпреследования для журналистов. Среди рекомендаций, как обезопасить себя в онлайн-пространстве, можно отметить советы по управлению личными данными и информацией о близких людях, публикуемой в интернете, предоставление ресурсов для проверки настроек доступа сети, приватности и безопасности учетных записей. Дана инструкция о действиях при столкновении с онлайн-преследованиями: по возможности не реагировать на дезинформацию, задокументировать конкретные угрозы, сообщить компетентным органам и придать огласке через социальные сети. Представлен список организаций и ресурсов по самозащите, тренингам по онлайн-безопасности и поддержке для людей, столкнувшимся с преследованиями, а также дано понятие определению «доксинг» - способу запугивания журналистов угрозами опубликования и раскрытии личных данных в Интернете [7, с.4-12].

В Проекте среднесрочной стратегии на 2022-2029 гг. ЮНЕСКО уделяется особое внимание поддержке в развитии медийной и информационной грамотности и борьбе с распространением недостоверной и заведомо ложной информации, в том числе с растущим числом случаев домогательств в отношении женщин в средствах информации в онлайновой и традиционной среде [8, с.13-14].

К сожалению, журналистика часто является опасной профессией, осуществляемой в самых рискованных условиях, а риски для женщин-журналистов еще выше. Постепенно появляется все больше внимания к этой проблеме со стороны международного сообщества, постепенно выносятся на обсуждения и разрабатываются руководства действий по предотвращению реагировагированию на киберугрозы и преследования журналистов.

Использованная литература

1. Алексеев Г.В. Безопасность в системе государственного регулирования распространения массовой информации / Управленческое консультирование, № 7, 2017, с.8-17.

2. Боровикова В.В. О правовых основах международно-правовой защиты личности журналистов / Пробелы в российском законодательстве. Юридический журнал, 2014, с. 159-163.

3. Бугаева А.С. Культура безопасности и социальная ответственность журналистов / Вестник Волжского университета имени В. Н. Татищева, № 4, Том 2, 2016. 9 с.

4. Доклад о результатах Всемирной встречи на высшем уровне по вопросам информационного общества // ЮНЕСКО, 2019, 4 с. – Режим доступа: https://unesdoc.unesco.org/ark:/48223/pf0000370277_rus

5. Дорощук Е.С. Профессиональная мобильность журналиста в контексте информационной безопасности / Вестник Челябинского государственного университета, №21 (312), 2013, с. 189-193.

6. Иванова А.А. Антикриминальная безопасность журналиста / Вестник Нижегородской академии МВД России, 2015, с.110-118.

7. Практическое руководство по реагированию на киберпреследование для женщин-журналистов // ЮНЕСКО, 2021, 11 с. – Режим доступа: https://unesdoc.unesco.org/ark:/48223/pf0000379908_rus

8. Проект среднесрочной стратегии на 2022-2029 гг. (41 C/4) // ЮНЕСКО, 2021, 38 с. – Режим доступа: https://unesdoc.unesco.org/ark:/48223/pf0000378083_rus

9. Укрепление ведущей роли ЮНЕСКО в осуществлении плана действий ООН по обеспечению безопасности журналистов и проблеме безнаказанности // ЮНЕСКО, 2017, 5 с. – Режим доступа: https://unesdoc.unesco.org/ark:/48223/pf0000259913_rus

10. Violence against women journalists // ЮНЕСКО, 2014, с. 35-38. – Режим доступа: https://unesdoc.unesco.org/ark:/48223/pf0000368808?posInSet=226&queryId=c62ebd6b-31b1-4cd7-8f97-5e9467e833c8

UOT 372 .8: 82

ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ A.ŞAİQİN “KÖÇ” HEKAYƏSİNİN MƏZMUNUNUN ÖYRƏDİLMƏSİNDƏ İNTERAKTİV TƏLİM METODLARINDAN İSTİFADƏ İMKANLARI

Vəsilə Novruz qızı Razimi
ADPU-nun Şamaxı filialı
vesilerazimi99@gmail.com

Müasir mərhələdə şagird şəxsiyyətinin inkişafı, onun milli və ümumbəşəri mənəvi dəyərlərə yiyələnməsi, yaradıcı fəallığının, müstəqilliyinin inkişaf etdirilməsi, qazanılmış bilikləri tətbiq etmək bacarığının formalaşdırılması mühüm vəzifə kimi qarşıda durur. Bu baxımdan ədəbiyyat dərslərində yeni təlim texnologiyalarının tətbiqi, interaktiv təlim metodlarından məqsədyönlü istifadə zəruridir. İnteraktiv təlimdə yeni biliyin əməkdaşlıq şəraitində, qarşılıqlı fəaliyyət zəminində mənimsənilməsi üçün geniş imkanlar yaradır.

Azərbaycan Respublikasında təhsilin inkişafına dair Dövlət Strategiyasında təhsil sistemi qarşısında məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqının milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək vəzifəsi qarşıya qoyulmuşdur. [1] Bu mühüm dövlət sənədində təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılması zəruri sayılır.

Müasir mərhələdə yaddaş məktəbindən təfəkkür məktəbinə keçid tələb edir ki, təlim prosesində bütün şagirdlərin inkişafını, yaradıcı fəaliyyətini təmin edən interaktiv metodlardan məqsədyönlü istifadə olunsun. Şagirdlər təlim materialının mənimsənilməsi prosesində fəallıq, müstəqillik nümayiş etdirməli, biliyi praktikada uğurla tətbiq etməlidir.

Bütün bunlar müəllimin dərsə hazılığına yeni tələblər verir. Müəllim dərs planında mövzu üzrə reallaşdırılacaq standartları və hər standart üzrə gözlənilən təlim nəticələrini müəyyən-ləşdirməlidir. Məlumdur ki, interaktiv dərsin məqsədləri (gözlənilən nəticələr) ənənəvi dərslərdən

fərqlənir. İlk növbədə şagirdlərin mövzu, problem üzrə əvvəl mənimsədiyi biliklər aşkara çıxarılır və bu zəmində yeni mövzu üzrə iş təşkil edilir.

Eyni zamanda şagirdlərdə standartlara uyğun bacarıqların formalaşdırlması üzrə işin davam etdirilməsi diqqət mərkəzində saxlanılır. Bu baxımdan öyrənilən əsərdə başlıca cəhətin müəyyənləşdirilməsi, biliklərin sistemləşdirilməsi, fərdi, cütlüklə, qrup üzrə işin nəticələrinin təqdimi mühüm əhəmiyyət kəsb edir.

Müəllim çalışmalıdır ki, təbiət mövzusunda hər bir dərsdə dəyərlər, onların aşılanması ilə bağlı məsələlər diqqətdən yayınmasın. Məktəblilər təbiətin, bitkilər və heyvanlar aləminin qorunmasının zəruriliyinə dair fikirlər söyləməli, öz mülahizələrini əsaslandırmalı, mənimsədikləri biliklərin praktik əhəmiyyətinə dair qənaətlərini bildirməlidir.

Dərsə hazırlıq zamanı müəllim mövzu üzrə gündəlik dərs planında hansı interaktiv təlim metodlarından, iş növlərindən , sual və tapşırıqlar sistemindən istifadə edəcəyini dəqiqləşdirməli, dərsin bütün mərhələri üzrə işin məzmununu və istiqamətlərini müəyyənləşdirməlidir.

V sinifdə Abdulla Şaiqin təbiət mövzusunda yazılmış "Köç" hekayəsinin tədrisinə 3 saat ayrılmışdır:

1. Əsərin məzmunu üzrə iş - 2 saat.
2. Əsərin təhlil – 1 saat.

Əsərin məzmunu üzrə dərslərdə yeni mövzunun öyrənilməsinə motivasiya yaratmaq məqsədilə internet mənbələrindən istifadə edərək "Köç" qısametrajlı sənədli filmindən bilavasitə əsərin məzmunu ilə səsləşən parça nümayiş olunur.[6]

Filmə baxışdan sonra şagirdlərin təəssüratı aşkara çıxarılır, təbiətə qayğı, onu qorumağın vacibliyi, təbiətdə baş verən mövsümi dəyişikliklər, təbiət, bitki, heyvanlar haqqında yığcam söhbət aparılır. Eyni zamanda müsahibə vasitəsilə məktəblilərin A.Şaiqin həyatı, yaradıcılığı ilə bağlı bilikləri üzə çıxarılır.

Təcrübə göstərir ki, yeni biliyin mənimsənilməsi, dəyərlər formalaşdırılması baxımından bu mərhələ çox əhəmiyyətlidir. Bu, şagirdlərin dərsin sonrakı mərhələlələrində fəaliyyətinin məqsədyönlü olmasına imkan verir, yəni. hər bir şagird son nəticənin nə olacağını, nəyə can atmalı olduğunu əvvəlcədən öyrənir.

Motivasiya mərhələsinin mümkün variantlarından biri də əqli hücum metoundan istifadə edərək şagirdlərə "Təbiət sözü sizdə hansı fikirlər, düşüncələr yaradır? Sizcə, təbiəti nə üçün qorumaq lazımdır? "Yaylaq həyatının hansı özəllikləri var?" sualları ilə müraciət edilməsi və müzakirə aparılmasıdır. Şagirdlərin söylədiyi əsas fikirlər lövhəyə yazılır. Bu suallar şagirdləri problemə öz münasibətini dəqiq ifadə etməyə sövq edir.

Əsərin məzmununun öyrənilməsinə fərqli oxu növlərinin (fasilələrlə oxu, proqnozlaş-dırılmış oxu) tətbiqi iləbaşlanılır. Şagirdlərə oxu zamanı aşağıdakı məsələlərə diqqət yetitilməsi tapşırılır:

- əsərdə tanış olmayan sözlərin mənasının lüğətərdən istifadə ilə aydınlaşdırılması;
- hekayəni hissələrə ayrılması, seçilmiş hissənin məzmununun hazırlanmış plan əsasında yığcam nağıl edilməsi;
- hekayədə bədii təsvir vasitələrinin müəyyənləşdirilməsi;
- əsərlə bağlı şifahi təqdimatlar hazırlanması, öyrənilmişi yeni sözlərdən nitqdə istifadə etməsi.

Oxunmuş hissələrin məzmununnn hansı səviyyədə qavranıldığını aydınlaşdırmaq üçün müsahibə təşkil edilir. Müsahibə zamanı şagirdlərin təəssüratları üzə çıxarılır, onların öz mülahizələrini əsərdən nümunələr gətirməklə əsaslandırmalarına diqqət yetirilir.

Əsərin oxusu üzrə işin təşkilinin digər variantı interaktivliyi təmin etmək üçün 5-6 nəfərdən ibarət kiçik qruplar yaradılması və qrupların təqdimatlarının dinlənilməsi və müzakirəsi ola bilər. Kiçik qruplar üzrə iş təşkil edilərkən onlara sual və tapşırıqlar iş vərəqlərində təqdim edilir. Kiçik qruplar daxilində müzakirə dərslikdən, sorğu kitablarından, lüğətlərdən, internet mənbələrindən istifadə ilə aparılır.

Əsərin məzmunu üzə müzakirə aşağıdakı suallardan istifadə məqsədəuyğundur:

1. Ailənin yaylağa getməsində məqsəd nə idi?
2. Kərim babanın alaçığın hazırlanması ilə bağlı əminliyinə səbəb nə idi?
3. Sizcə, yaylaq həyatı şəhərli oğlana nə üçün xoş gəldi?
4. Əsərin qəhrəmanı olan şəhərli oğlanın çobanları bəxtəvər saymasına səbəb nə idi?
5. Kərim baba nə üçün pələng ovuna getdi?
6. Kərim baba pələngin öz ovuna münasibətin barədə nə düşünür?
7. Pələngi öldürən Kərim babanın peşmançılığına səbəb nə idi?

Reflleksiya mərhələsində şagirdlərin dərs boyu fəaliyyəti yekunlaşdırılır. Bu mərhələdə aşağıdakı suallardan istifadə olunur:

-Əsərdə ən çox xoşunuza gələn nə oldu?

- Bu hekayədən nə öyrəndiniz?
- Əsər üzrə qazandığınız biliklər gələcək həyatınızda sizə necə gərək olacaq?
- Bu əsər üzrə dərsdən hansı nəticəyə gəldiniz?

Bu suallar şagirdlərə dərsdə öyrənikləri başlıca məsələləri, yeni bilikləri dəqiqləşdirməyə, bu bilikləri nə zaman, hansı məqsədlə tətbiq edəcəklərini aydınlaşdırmağa imkan verir.

İnteraktiv təlimdə mürəkkəb məsələlərdən biri də şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsi ilə bağlıdır. Qiymətləndirmə elə aparılmalıdır ki, məktəblilərin gələcək yaradıcı fəaliyyətə həvəsləndirsin. Bu prosesdə şagirdlərin özünüqiymətləndirməsindən də istifadə etmək faydalıdır.

İnteraktiv dərsin sonunda öyrənilən materialın yaradıcı dərkinə istiqamətlənmiş ev tapşırığının (mövzu üzrə inşa yazmaq, problemə öz münasibətini bildirmək) verilməsi məqsədəuyğundur:

İnteraktiv dərsin təşkilində aşağıdakı qaydalara əməl olunması zəruriidir:

1. Dərsdə heç bir şagird tamaşaçıya çevrilməməli, yeni biliyin mənimsənilməsi üzrə iş prosesində bütün şagirdlər bu ya digər dərəcədə iştirak etməlidir.

2. Şagirdlərin psixoloji hazırlığı diqqətdə saxlanılmalı, onların fəal işi rəğbətləndirilməli, öz imkanlarını reallaşdırmaq üçün zəmin yaradılmalıdır.

3. İnteraktiv təlim texnologiyası şagirdlərin 5-6 nəfərlik qruplarda birləşib fəaliyyət göstərməsini tələb edir. Kiçik qruplarda şagirdlərin bu sayda olması onların hər birinin problem üzrə öz mövqeyini ifadə etməsinə imkan verir.

4. Fənn kabinetində kiçik qrupların fəaliyyəti, təqdimatların dinlənilməsi və müzakirəsi üçün şərait yaradılmalıdır.

5. Təqdimat və müzakirə zamanı söylənilən hər fikrə, mülahizəyə, fərqli mövqeyə dözümlü yanaşmağın, həssaslığın vacibliyi xüsusi qeyd olunmalıdır.

6. Kiçik qrupların təqdimatlar hazırlaması, təqdimatla çıxış etməsi, müzakirə aparılması üçün dəqiq vaxt ayrılmalı və əvvəlcədən elan olunmalıdır.

7. Kiçik qrupların üzvlərinin müəyyənləşdirilməsi könüllülük əsasında və mövcud qaydalara uyğun aparılmalıdır.

Nəzərə almaq lazımdır ki, dövlət standartlarında nəzərdə tutulmuş bilik və bacarıqların mənimsənilməsi interaktiv təlim olmadan mümkün deyildir. İnteraktiv ədəbiyyat dərsləri şagirdlərdə böyük maraq oyadır, onların təlim prosesində fəallıq və müstəqilliyi üçün geniş imkanlar yaradır. Ənənəvi dərslərdən fərqli olaraq, interaktiv dərslərdə məktəblilər yeni biliyin mənimsənilməsi prosesinin fəal iştirakçısına çevrilir, öz bilik və bacarıqlarını əməkdaşlıq zəminində inkişaf etdirirlər.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafına dair Dövlət Strategiyası. https://president.az/articles/9779/print

2. Ədəbiyyat. Əliyev S., Həsənov B., Səfərova Ə., Quliyev Ə. Ədəbiyyat 5-ci sinif üçün dərslik. Bakı: Bakınəşr, 2016. 208 s.

3. Ədəbiyyat. Həsənov B., Əliyev S., Səfərova Ə., Quliyev Ə. Ədəbiyyat.5-ci sinif. Müəllim üçün metodik vəsait. Bakı: Bakınəşr, 2016. 208 s.

4. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2016. 449 s.

5. Hüseynoğlu s. Ədəbiyyatın məktəbdə öyrənilməsi. Bakı, 2019, 263 s.

6. https://www.youtube.com/watch?v=_0J56gMFsww

UDC 811.1/2; 81:37.016

TEACHING SPEAKING

Khayala Babayeva
Azerbaijan University of Technology
ferecovaxayala@mail.ru

A number of facts interact to make speaking a challenging task for foreign language learners. If the teacher makes the vocabulary range rich in variety the students would express their thoughts more confidently. In order to achieve the fluency teachers have to pay attention to reduced forms such as contractions, vowel reduction and elision. So the learners who do not get sufficient practice the reduced speech will retain their rather formal sounding full forms.

For fluency it would be more relevant to use idioms and slangs of the language in the right place. Besides this students have to pay attention to the stress of the words and sentence stress. By practicing, learners acquire the stress rhythm and intonation of English which are quite complicated for many. For overcoming such kind of complication learners have to listen native speakers` speech, watch films or cartoons in English.

We have to take account that some students are afraid of speaking because they think they can make mistakes both grammar and pronunciation that can cause laughter or humiliation in front of the class. To avoid such king of situation teachers have to create techniques in teaching speaking English. By motivating students the teacher attract students attention as well as make students feel confident and not be afraid of speaking in front of the class.

Techniques of teaching speaking can be – role playing, game, problem solving, discussions and songs.

Role playing is one of the suggested methods for developing skills.

Game - is one of the activities which can help motivation in the class. Kahoot .com would be the best educational online game for students.

Problem solving – materials which focus on problem solving offer further opportunities for the students to work in pairs or small groups, to share information and opinions on topics, which are meaningful for them.

Discussions – may be composed of three or five students. Such kind of group work help students to interact with one another closely and learn respect one another`s thoughts, decisions, as well as gain leadership skills and speaking practice.

Songs - can also be educational and enjoyable way of learning. This is the useful aid in learning vocabulary and its correct pronunciation, structures and sentence patterns. Songs usually provide a peaceful and emotional atmosphere around the listeners.

Techniques to overcome the problem faced by the students are:

1. The teacher asks the students to repeat after the teacher can correct words so they can know the correct pronunciation.

2. The teacher can ask students to read dialogues or texts in order to correct their pronunciation if there is need.

3. The teacher uses a role play in teaching speaking so the students can explore their capability.

4. The teacher asks the students to get used to speak with their friends in front of class so that they wouldn't be afraid of speaking.

5. For overcoming the obstacles of shy students teacher can use games so that they could feel confident to learn speaking.

Suggestions to the teachers

1. Teachers should increase the techniques for teaching speaking, for instance, using songs can improve their pronunciation skills as well as listening skills.

2. Teachers should be patient to give explanation to the students so they can understand about the material that given by the teachers.

3. Students should be friendly to te students to make them enthusiastic towards the learning process.

4. Teachers should use more dialogues in order to help learners be fluent while speaking.

Suggestions to the students.

1. Students must be active.

2. They must try to speak in front of te class without hesitation.

3. Students also must listen to the teacher for knowing correct pronunciation.

4. Students must explore their capability by increasing variety of vocabulary according to the topic.

According to the communicative approach of Cambridge University language learning comes through having to communicate real meaning. In a conclusion I want to add that when learners are involved in real communication the learning process would be more effectively.

References

1. Article: Speaking by Djoko Srijano, Lia Rusdininguish, Agus Wijayato.

2. Approach and metods in language teaching. Cambridge. Cambridge University press 1993. By Richard Jack, C. and Rodgers, Theador S.

3. Englishpost.org- Language teaching methods. Communicative approach-video.

UDC 372.8

CONTEMPORARY CHINESE CALLIGRAPHY ART HIGHER EDUCATION STATUS

Yang Honghao
doctoral student
Simon Kuznets Kharkiv National University of Economics
Ukraine
yanghonghao1989@163.com

Calligraphy, as a traditional and unique art form to the Chinese nation, is an important part of Chinese culture. It uses Chinese characters as an object, and has different artistic styles with the development of Chinese characters, with unique aesthetic characteristics. In terms of form, it is an art that deliberately pursues the beauty of the line; in terms of content, it is an art that reflects national characteristics. From the perspective of cultural development, we look at the development

Baku is the capital of Azerbaijan, isn't it?
(Баку — столица Азербайджана, не так ли?)
bʌˈkuː ɪz ðə ˈkæpɪtl əv æzəbaɪˌdʒɑːn | ˌɪznt̩ ɪt ||
The moon goes round the Earth, doesn’t it?
(Луна вращается вокруг Земли, не так ли?)
ðə ˈmuːn ˈgəʊz ˈraʊnd ðiˌɜːθ | ˌdʌznt̩ ɪt ||
There are four seasons in a year, aren’t there?
(В году четыре сезона, не так ли?)
ðeər ɑː ˈfɔː ˈsiːznz ɪn ə ˌjɪə | ˌɑːnt ðeə ||

Подобные разделительные вопросительные предложения, не требующие ответа, произносятся с нисходящим тоном во второй синтагме.

Таким образом, *двухсинтагменные разделительные вопросительные предложения в английском языке* имеют своеобразное интонационное оформление. Первая часть разделительных вопросительных предложений всегда произносится с низким нисходящим тоном. Различное интонационное оформление второй смысловой группы в разделительных вопросительных предложениях зависит от отношения говорящего к содержанию высказывания.

Интонационные контуры являются важными и универсальными средствами для передачи лингвистических и нелингвистических аспектов при общении. Именно с помощью интонационного оформления формируется речевое поведение собеседников. Правильное интонационное оформление приводит к достижению желаемого результата при общении на английском языке.

Использованная литература

1. Вейсалов, Ф.Я. Проблема фразовой интонации в современной лингвистике // – Баку: Ученые записки АПИЯ им М.Ф.Ахундова, – 1973. Серия XII, №2, – с. 17-23.
2. Sokolova M.A. et al. Theoretical phonetics of English. Dubna: Phoenix, 2010. – 192 p.
3. Zeynalov F.H. Practical English Phonetics. Book I. Bakı: Mütərcim, 2018. – 308 p.

UDC 811.1/2

THE DIFFERENCE BETWEEN BRITISH AND AMERICAN ENGLISH

Aynur Alakbarova
Azerbaijan State Pedagogical University
aynur.alakbarova55@mail.ru

As we know, the British introduced the language to the Americans when they settled in these lands by sea between 16th and 17th centuries. After the first settlers reached in America the differences between American and British English actually took place. Both British English and American English have numerous varieties. Let's focus on the most standard, non - regional variety of each one. There are some ways in which in British English and American English are different: vocabulary, accent, spelling and grammar. Let's watch American talking and British talking. British English is much more frontal and used with lips a lot more. By contrast, American English speakers moved the lips less. The lips are more relaxed and a mouth is generally wider. American English sound generally comes from further back in the mouth closer through the throat. British English is a lot tense. The sound British you need a produce a lot of sound at the front of your mouth. Vowel sounds are often shorter by American English meaning you need to make between sounds faster. All of these means you need use the muscles of your lips and cheek more. For instance, let's think about the word "water". When I say it the first vowel sound is much more relax. I don't use my lips to pronounce the sound at all. "Water" the vowel sound is often a little longer than in British English then the rest of the sounds come from the further back "water". When I say "water" the vowel sound is much tense. We are using muscles of our cheek and pressuring my lips into small rounded shape "water". Then I pronounce the rest of the sounds near the front of my mouth without really relaxing back much "water". So American English is more relax and tense to be spoken with a wider mouth using the lips less. British English is tense, more frontal and using the lips a lot more.

There are different accent varieties between American English and British English. In British English the sound "r" is not prounced but in American English "r" sound is pronounced .For example ,

My father is in the car

In Britain English we don't pronounce "r" but in American English we prounce "r"

British and American English also have some spelling changes

British English	American English
-nce -nse	
licence,defence,offence	license,defense,offense.
-ou—o	
colour,favour,honour,labour	color,favor,honor,labor.
-is-ize	
Organise,apologise	organize,apologize.
-ll--l	
travelled,cancelled,marvellous	traveled,canceled,marvelous.

American English and British English also have some words that grammatically differ from each other .

In British English	In American English
Some difference in preposition	
On the weekend	at the weekend
different from\than	different from\to
different past tense form	
learn-learnt	learn – learned
dive-dived	dive-dove

{1} British English, singular words like family,team, government ,which refer to groups of people ,can have either singular or plural verbs and pronouns .

The team is/are going to lose.

Plural forms are common when the group is seen as a collection of people doing personal things like deciding,hoping or wanting.Singular forms are more common when the group is seen as an impersonal unit.

My company are wondeful. They do all they can for me .

My company was founded in the 18th century.

American English singular verbs are normal with most of these nouns in all cases (though family can have a plural verb) Plural pronouns can be used.

The team is in Detroit this weekend.They expect to win.

In Britain and in American English have also vocabulary differences.

{2} The British have some verbs lacking or comparatively rare in American, many of which are denominal.

In British English bathe is used more frequent than bath as a verb, whereas the verb bath is very rare in American English. In common-core English use, transitive bathe also means "apply water or other liquid to something to clean or soothe it," but in British English it does not usually mean "wash someone in a bath," for which bath is used; that difference in meaning explains the following "Is it all right" she asked. "Not gone gangrenous, has it? I can't see very well." I assured her it wasn't gangrenous, that I'd bathe it and that it would be better left exposed.

British English	American English
trousers	pants
lorry	truck
universty	collage
holiday	vocation

jumpers	sweater
trainers	sneakers
shop	store

So, that may be certain differences between British and American English, the key takeaway is that the two have more similarities. By chance, using are instead of the other will not automatically lead to miscommunicatin. The Americans and The Britains can usually communicate with each other without too much difficulty ,so don't be too hard on yourself if you are unable to memorize the nuances of both languages.

References

1. Practical English Usage – Michael Swan, 2016
2. British or American English? - John Algeo, 2006

UOT 37.013

MÜASİR TƏDRİS PROSESİNDƏ İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ İNTERAKTİV TƏLİMİN ROLU

Ayşən Nazim qızı Rzayeva
Bakı Biznes Universiteti
rn.ayshan@gmail.com

Boloniya tipli təhsil sisteminə qoşulandan sonra universitetlərdə artıq tətbiq olunan ənənəvi xarakterli tədris üsulları qoyulan tələblərə cavab vermədiyi üçün təhsildə fərqli metodlardan istifadə olunması zərurəti qarşıya çıxdı. Həmin sistem nəznində istifadə olunan üsullardan biri interaktiv tədrisdir. Motivasiya, tədqiqatın reallaşdırılması, məlumatın mübadiləsi, müzakirəsi və təşkilinin nəticələrin çıxarılması, produktiv (yəni yaradıcı) tətbiq etmə, hər mərhələdə qiymətləndirmə interaktiv təlimə daxildir.

XIX əsrin sonlarından başlayaraq bu günə kimi dil tədrisi zamanı fərqli üsullar tədqiq və tətbiq edilmişdir. Xarici dilin tədrisi zamanı metodlar və yanaşmalar ilə əlaqəli qələmə alınmış kitabda (Approaches and Methods in Language Teaching. Cam. Uni. Press, 2001 y.) Theodore S. Rodgers və Jack C. Richards bir sıra üsulları və bu üsulların mahiyyətini tədqiq etmişdir: Grammar translation method, The Direct Method, The Audiolingual Method, Total Physical Response, The Silent Way, Community Language Learning, Suggestopedia, Whole Language, Multiple Intelligences, Commnicative Language Teaching və b [1, s.127].

Sadalanan üsulların hər biri keyfiyyətli tədris prosesinin istifadəsinə xidmət göstərmiş və müəyyən vaxtda öz aktiv xarakterli tətbiqi ilə ingilis dili tədrisinin tam mərkəz hissəsini zəbt etmişdir. Bəzi üsullar indi təzə üsulların formalaşması üçün baza funksiyası daşıyır. Aparılan təcrübələr əyani şəkildə sübut edir ki, yeni növ təlim üsulları bəzi xarakterik cəhətləri özlüyündə ehtiva edir:

- müəllim tələbəni yaradici fəalliğa sövq edir;
- tələbələr aktiv fəaliyyət zamani elementar bacariqlara yiyələnirlər;
- tələbələr müəllimlərlə və öz-özləri ilə əməkdaşliq edirlər;
- didaktik xarakterli rollu oyunlardan istifadə olunmasi ilə bərabər təlim əsnasinda sosial bərabərlik yaranir və psixoloji mühit bərqərar edilir;
- müəllim tematik tipli materiallar ilə tələbənin təfəkkürvə düşüncəsinə təsir edir.

İnteraktiv sözünün bir çox mənası var və müxtəlif mənalarda işlədilir, amma bu təlimdə onun beyin həmləsi, rollu oyunlar, söz assosiasiyası, insert, debat kimi müxtəlif növlərindən istifadə edilir.

Müəllimin yalnızca sima olaraq, dərsi tələbələrə diktə etməsi, öyrətməsi ənənəvi təlim metodunun bazasını yaradır. Bu proses ənənəvi təlim prosesi adlanır ki, bu da uzun illər mövcud olmuşdur və günümüzdə də yeniliklərə doğru can atır.Bu cür diktə edilərək keçirilən dərsdə hər hansısa bir əlaqə növü mövcud deyildir. Tələbə yalnızca bir obyekt olduğu bu prosesdə müəllimin tələbələrlə əlaqəsi suallara verilən cavablarla, yazı işləri ilə reallaşdırılmaqdadır. Lakin bu metod tələbələrə öyrədilən biliyin mənimsənilməsi baxımından səmərəsiz hesab edilir. Ancaq, bu cür ənənəvi xarakterli dərsin də bəzi müsbət cəhətləri vardır, məsələn, müəyyən vaxt ərzində tələbələrə nəzərdə tutulan bilik və məlumatlar verilməsi və tələbələrin bilik dairəsi genişlənərək informasiyaları artırması.

Bu proses ərzində təlim tələbələrin inkişafına köməklik göstərir. Buna baxmayaraq, biz bu təlim metoduna inkişafetdirici təlim deyə bilmirik. Bu prosesdə ancaq biliklər, məlumatlar genişləndirilir, inkişaf etdirilir. Tələbənin belə fəaliyyəti də produktiv yox, reproduktivdir. Tələbənin yalnız yazması, informasiyanı, bilikləri alması, onu qəbul etməsi, başa düşməsi, yadda saxlaması və təcrübədə tətbiq etməsi reproduktiv təlimi xaraktrerizə edilir. Bunun kimi fəaliyyətlərin əsas məqsədi isə bilik, bacarıq və vərdişlərin formalaşdırılması, yaddaşın və diqqətin inkişafıdır. Bu metodun bəzi müsbət tərəflərinin şahidi olan bir sıra müəllimlər metodun həmişə qalacağını iddia edirlər. Bəzən təcrübəli müəllimlər, əsasən də tələbələr artıq materialın əsas məğzini, dərsin başlıca məqsədini biləndə passiv metodun özündən də fənni əsaslı şəkildə mənimsəyə bilirlər.

İngilis dili və bu dilin qrammatikanın tədrisi qrupdakı hər tələbəyə çatmaq məqsədilə fərqli-fərqli öyrənmə üslubları və öyrənmə metodikaları haqqında bilik və anlayış tələb edir. Bəzən bu "diferensiallaşma" hadisəsi adlanır və fərqli-fərqli tədris metodundan yararlanmaq tələbələrin ən geniş təbəqəsinə müraciət edir və onun güclü yönlərini araşdıraraq, genişləndirərək anlayış və özünə inamın inkişaf etməsinə yardım edir. İngilis dilini öyrətməyin fərqli yolları var, ancaq mükəmməl bir yol seçmək çox çətindir. Belə ki,bu dili yaxşı bilənlərin, olduqca bilikli və ən üstün İngilis dili müəllimləri ola biləcəyini demək çox gülünc olardı. Hətta kiminsə İngilis dilində olduqca yaxşı danışa bilməsi bu adamın əla İngilis dili müəllimi sayıla biləcəyi mənasına gəlmir. İngilis dilini ikinci bir dil kimi (ESL) tədris edirsinizsə, hədəf dildə, bu halda ingilis dilində fəaliyyətlər aparmaq çox mühümdür. Yeni növ təlim texnologiyalarından yararlanmaq bu çatışmazlıqların aradan götürülməsində əhəmiyyətli rola malikdir. Başqa sözlə, müasir tipli təlimi səciyyələndirən yeni struktur, müasir metodlar - interaktiv xarakterli təlim metodları tədris müəssisələrində özünə müvafiq yer tutmuşdur. Günümüzdə, şagirdlərlə yanaşı tələbələr də, interaktiv təlim metodlarından yararlanmaqdadırlar. Bəzən İngilis dili dərslərində belə, fonetikanın yaxud qrammatikanın öyrənilməsi üçün bu metod istifadə edilir. Belə ki, bu interaktiv təlim metodu, müəllim ilə tələbə münasibətini tarazlamaqla yanaşı,tələbələrin şəxsi keyfiyyətlərini də formalaşdırır və oları özünüinkişafa təşviq edir.

İnteraktiv təlim tələbənin yaxud tələbənin müəyyən biliyə, bacarığa və vərdişlərə yiyələnməsi, onlar üçün mühüm olan sosialyönümlü və intellektual xarakterli təfəkkürün, sərbəst çalışmaq bacarığı, sərbəst düşünmə qabiliyyətinin inkişafına yardım edən və demokratik üsullar vasitəsilə həyata keçirilən təlimdir. Mənimsənilmənin səmərəliliyi ilə yanaşı tələbələrin dərketməsini də, artıran üsul interaktiv təlim üsuludur. İnteraktiv təlim dərs zamanı baş verən tələbələrarası öyrənmə-öyrətmə ünsiyyəti, tələbələrin qarşılıqlı əməkdaşlığı, müəllim-tələbə birliyi və birgə əməkdaşlığı, tələbələrin müəyyən keyfiyyət və bacarıqlara malik olmasını nəzərdə tutur.

İnteraktiv təlimə əsasən tələbə, öz interaktiv fəaliyyəti ilə ön plana çəkilməlidir. Müəllim isə bələdçi olmalıdır. Belə ki bu üsul, tələbələrə müstəqil olmaq üçün şərait yaratmaq, sərbəst fikir söyləmək, istədiyi halda rəy bildirmək, heç bir çətinlikdən qorxmamağı və əzmkarlığı aşılamaq, tələbəni gələcək zamana yeni cəmiyyətin bir fərdi kimi hazırlamağı hədəfləyir.

Müəllimin tələbəyə şəxsiyyət kimi baxdığı, tələbənin fərdi üsusiyyətlərini nəzərə aldığı və tələbəyə hörmətlə yanaşdığı interaktiv tədris üsulunda müəllim ilə tələbələr arasında olan qarşılıqlı

əlaqənin, başqa bir sözlə psixoloji mühitin dəyişdirilməsi başlıca şərt kimi qəbul edilir. Yəni tələbədə qarşılaşa biləcəyi müvəffəqiyyətsizliyə dair qorxu hissi aradan götürülməli və tələbədə özünə qarşı inam hissi oyadılmalıdır.

Tələbələr qazandıqları informasiyanın necə istifadə olunmasını müəyyənləşdirir və verilən suallar üzərində düşünərək müəyyən vərdişə sahib olurlar. İdrak fəaliyyətinin prosesində tələbələrin həm məntiqi, həm tənqidi, həmdə ki, yaradıcı təfəkkürü yüksəlir. Bunun üçün isə əsas şərt informasiyanın mövcudluğudur. İnteraktiv dərsdə müəllim özü bütün tələbələri görür, tələbələrin potensialına maksimum bələd olur. Belə dərs dərs müəllimin və tələbələrin birgə etibarı və inamı əsasında qurulan canlı ünsiyyət formasıdır. Dərs müəllimin və tələbənin yaradıcılığının nəticəsi kimi tərqqi edir.

İnteraktiv xarakterli təlimin üstünlükləri olmasına baxmayaraq, müəllimlər birmənalı olaraq ənənəvi üsullardan istifadəni dayandırmamalıdır. Müəllim təlimin məzmunundan, məqsədindən, tələbələrin hazırlığından asılı olaraq seçimi etməlidir. Misal üçün, müəllim qarşıya vərdiş və bacarıqların formalaşma məqsədini qoyarsa, bu zaman o reproduktiv, yəni əsas məğzi təkrarlama və model üzrə iş olan metoda daha çox üstünlük verə bilər.

Qeyd etməliyik ki, interaktiv dərs prosesinin keçirilməsi formasının seçilməsi intellektual inkişaf səviyyəsi, öyrənilən mövzu və məqsədləri nəzərə alaraq müəllimin fərdi yanaşmasını tələb edir. İnteraktiv xarakterli təlim texnologiyaları sinif daxilində və ya xaricində dərsləri sinifdənkənar fəaliyyət şəklində keçirmək üçün istifadə oluna bilər. Dərsin aparılması üsulu aktivdir, yəni heç bir tələbə diqqətdən kənarda qalmaz və əlverişli bir atmosferdə passiv tələbələr də aktiv iştirakçı olmağa meyllidirlər.

Günümüzdə diplomatik xarakterli İngilis dili ənənəvi ilə yanaşı, interaktiv üsulla da keçirilir. Lakin zaman keçdikcə dərslərin yalnızca interaktiv təlim ilə tədris olunmasına çalışmaq lazımdır.

İstifadə edilmiş ədəbiyyat

1. Richards J.C. and Rodgers Th.S. 2003.Approaches and Methods in Language Teaching, Cambridge: Cambridge University Press, 240 p.
2. Ağayev Ə. Təlim prosesi: Ənənə və müasirlik Bakı: Adiloğlu, 2006, 138 s.
3. Azərbaycan Dillər Universitetinin yaranmasinin 80 illiyinə həsr olunmuş "Xarici Dillərin Tədrisinin Aktual Problemləri" mövzusunda Respublika elmi-praktik konfransinin tezisləri (11-12 may 2017-ci il). Bakı: Mütərcim, 2017, 520 s.

UOT 37.02; 371

PEŞƏKAR BİR MƏSLƏK KİMİ MÜƏLLİMLİK

Aytac Aqil qızı Nurkişiyeva
dissertant
Bakı Dövlət Universiteti
aytacnurkisiyeva@gmail.com

Müasir dövrdə elmin, iqtisadiyyatın ən çox inkişaf etdiyi mərkəzlər ,eyni zamanda, təhsilin inkişafına görə də digər regionlardan öndədir. Bu o deməkdir ki, təhsilin cəmiyyətin, dövlətin inkişafına təkan verən ən mühüm amil olub, onun gələcək həyat trayektoriyasına təsir göstərir. Günümüzdə ən dəyərli kapital olan insanın formalaşmasında təhsiilin ən əsas siması olan müəllimin rolu danılmazdır. Belə ki, müəllim gənc nəsli biliklə silahlandırmaqla yanaşı, onların təlim-tərbiyəsi ilə də məşğul olur, gənc nəslin daxilindəki potensialı üzə çıxarır, onların maraqları və istəklərini öyrənir, gələcəkdə kim ola biləcəklərini öncədən görərək onları istiqamətləndirir. Müəllim gənc nəslin nələrə qadir olacağını, nələr edə biləcəyini təcrübəli bir şəxs, pedaqoq kimi müəyyənləşdirir,

öyrənənlərin həmin bacarıqlarını təkmilləşdirməsində kömək edir və onların dövrün və iqtisadiyyatın tələblərinə uyğun olaraq əmək bazarında öz layiqli yerini tapmasında və hərtərəfli inkişaf etmiş ixtisaslı kadr kimi formalaşmasında çox böyük paya sahibdir. Müəllim, bu peşə yarandığı ilk gündən etibarən yazıda bu qədər sadə görünən, lakin, tətbiqi isə xeyli əzab, əziyyət və zəhmətlə başa gələn bu prosesi tarix boyu təkrar edir və etməkdədir. Bütün dövrlərdə bütün xalqların öz zamanının ötəsində olan mütəfəkkirləri müəllimə həmişə "tərbiyəçi" kimi yanaşmış və buna görədə uzun illər müəllimi "öyrədən" kimi xarakterizə etmişlər. Məhz elə bu səbəbdən tarixin müxtəlif dövrlərində müxtəlif ictimai xadimlər, böyük zəka sahibləri müəllim peşəsini və onun əməyini yüksək qiymətləndirmiş və bu dəyəri öz aforizmlərində, məqalələrində, əsərlərində əks etdirmişlər.

Məhəmməd Peyğəmbərimiz (s.ə.s.) buyururdu ki, elm bizim çöldə dostumuz, tənhalıqda sirdaşımız, köməyə ehtiyac duyduğumuzda yoldaşımız, xoşbəxtliyə aparan çırağımız, dostlar arasında zinətimiz, düşmənlər arasında isə silahımızdır. Məhəmməd peyğəmbər alimləri yer üzünün çırağı, nuru adlandırmış, onların vəzifəsi olan biliyi biliksizlər arasında yaymağı ən böyük sədəqə hesab etmiş, elmlə məşğul olmağı, bilikli adamla oturub-durmağı hər cür ibadətdən üstün tutmuşdur. Eyni zamanda təlim prosesində öyrənən və öyrədən arasındakı qarşılıqlı əlaqəni, xoş münasibətin əhəmiyyətini də vurğulayaraq bildirirdi: "Kimdən bilik öyrənirsinizsə, ona hörmət edin, ona qarşı mehriban olun. Kimə bilik öyrədirsinizsə, ona qarşı da mehriban olun". Bir əfsanəyə görə görkəmli Çin mütəfəkkiri və müəllimi Konfutsinin şagirdi ilə dialoqunda şagird ona ölkənin hər şeyi olduğu halda nə kimi çatışmazlığı var sualına Konfutsi belə cavab verir ki, ölkəni zənginləşdirmək lazımdır. Burada zənginləşdirmək anlayışını bir az daha açan Konfutsi bildirir ki, ölkəyə təhsil verdikdə o daha da zənginləşəcək [2, s.412]. Məşhur yunan filosofu Sokrat hələ vaxtilə peşəkar pedaqoqları "əqlin törədiciləri" adlandırmışdı. Onun yaratmış olduğu "Mayevtika" adlı təlimində (latınca tərcümədə "ara mama həkimləri") Sokratın bizlərə çatdırmaq istədiyi əsas mahiyyət ondan ibarətdir ki, həqiqəti insanın özü aşkara çıxarmalıdır. Bu məqamda müəllim şagirdlərə hazır bilikləri ötürməklə kifayətlənməməli, eyni zamanda şagirddə yeni fikirlərin yaranmasına da kömək etməlidir [5, s.154]. Antik dövrün digər bir nəhəng siması olan Platondan soruşduqda ki-"sən atanı çox istəyirsən, yoxsa müəllimini?" O,"Müəllimimi"- deyə cavab verir. "Çünki atam məni göydən yerə endirdi, müəllimim isə yerdən göylərə qaldırdı". Oxşar olaraq, Fateh İsgəndər isə belə demişdir: validenlərim məni bu fani dünyaya gətirmişlərsə, müəllimim mənə əbədiyyət bəxş etmişdir [3, s.152].

Müəllimlik peşəsi yarandığı gündən bəri tarixin görkəmli şəxsiyyətləri müəllimlik peşəsini çox yüksək qiymətləndirmiş, müəllimi gənc nəslin tərbiyəçisi, gənc nəsillə yaşlı nəsil arasında vasitəçi, insanların daxilindəki bacarıq və potensialı üzə çıxaran və onu gələcəyə hazırlayan biri kimi təsvir etmişlər.

Aristotel "Afina siyasəti" adlı əsərində göstərirdi ki, Afina müəllimləri təntənəli mərasimlərlə seçilirdilər. Çünki bu müəllimlərin əsas vəzifəsi tərbiyəsi onlara həvalə olunan gəncləri həm fiziki cəhətdən möhkəm hazırlamalı, həm də onların əxlaqi cəhətdən tərbiyəsi ilə də məşğul olmalı, onlarda sədaqət, intizamlılıq, dövləti idarə etməyəhazırlıq kimi keyfiyyətlər formalaşdırmalı idilər. Təsadüfi deyil ki, məhz bu cür ağır məsuliyyəti üzərinə götürən insanların böyük hörmət sahibi olmasını və onların "müəllim" titulunu qazanmasını təntənə ilə qeyd etmişlər. Müəllim-tərbiyəçi vəzifəsinə seçilənlər dövlətin taleyinin onlara tapşırıldığı üçün fəxr edirdilər ki, dövlətin taleyi olan gənc nəslin siyasi, əxlaqi və fiziki hazırlığı məhz onlardan asılıdır.

Roma pedaqoqlarından məşhur alim M.F.Kvintilian "Natiqin tərbiyəsi haqqında" əsərində yazmışdır ki, müəllimin sadəcə yüksək bilik və savada malik olması yetərli deyil, o eyni zamanda uşaqları sevən, uşaqları başa düşən biri olmalıdır. Onu da qeyd etmək lazımdır ki, Kvintilianın əsərləri müəllimin mənəvi aləminə həsr olunmuş ilk əsərlərdən biridir. Bu o deməkdir ki, antik dövrdə də təlim-tərbiyə işlərində müəllimin peşəsinə və müəllim-şagird münasibətlərinə olan tələblər diqqətdən yayınmayıb.

Göründüyü kimi, antik dövrdə Qədim Yunanıstanda və Romada müəllimin əsas vəzifəsi gənc nəsli tərbiyə etmək kimi göstərilir. Nə də olsa, elmin hələ inkişaf etmədiyi bir dövrdə cəmiyyətin, dövlətin müəllimin qarşısına qoyduğu əsas tələb dövlətə xidmət göstərən, fiziki cəhətdən yaxşı inkişaf etmiş, şəriət və əxlaq normalarına riayət edən, fəlsəfəni və idarəetməni dərindən bilən şəxsiyyət hazırlamaqdan ibarət idi. Bütün bu məsuliyyəti daşıyan şəxs müəllim-tərbiyəçi olduğu üçün ona olan hörmət, onun ağır zəhməti və əməyi o dövrdə çox yüksək qiymətləndirilirdi. Eyni zamanda, antik dövrdə müəllim olmaq, bu peşəyə yiyələnmək çətin olduğu üçün bu zəhmətli peşənin sahibləri bu günümüzlə müqayisədə kəmiyyət olaraq da çox aşağı bir paya sahib idi.

Fateh Teymur özünün müəlliminin ayaqları tərəfdə dəfn olunmasını vəsiyyət etmişdir. Böyük Azərbaycan alimi N.Tusi müəllimliyi insanı kamilliyə aparan ən humanist peşə hesab etmişdir. O tərbiyə işində müəllimi əsas sima hesab edir, onun rolunu yüksək qiymətləndirir, müəllimin yüksək təhsilli, mərhəmətli, əxlaqlı, şirin danışıqlı və ehtiramlı olmasını vacib bilirdi. Eyni zamanda vicdan aydınlığına da yüksək qiymət verən mütəfəkkir bu keyfiyyətlərin lap kiçik yaşlarından uşaqlara aşılanmasını da vacib hesab edirdi. Antik dövrdən fərqli olaraq, artıq orta əsrlərdə müəllimin mənəvi aləminin yüksək qiymətləndirilməsi və bu mövzuya dair əsərlərin həsr olunması daha çox diqqəti cəlb edir. Görkəmli çex pedaqoqu Y.A.Komenskinin fikrincə uşaqların düzgün tərbiyəsi müəllimin müsbət nümunəsindən başlayır. O bildirirdi ki, uşaqları tərbiyə edən müəllimin özü düzgün olmalı, fəaliyyətinin məqsədini aydın şəkildə dərk etməli və həmin məqsədə çatmaq üçün planlı şəkildə hərəkət etməli, nizamlı olmalı, sinifdə intizam yaratmalı, özünə inamlı olmalı və özünə hörmət qazanmağı bacarmalıdır. Didaktikanın banisi, müəllimi günəşə bənzədir, onu bağbanla, memarla müqayisə edir.

Azərbaycanın tanınmış maarifi, yazıçısı və müəllimi S.Qənizadə "Məktubati-Şeyda bəy Şirvani" adlı əsərində yazır ki, Şeyda bəyə görə müəllimlik dünyanın ən nəcib peşələrindən biri, bəlkə də birincisidir. "Bağ bağbansız keçinə bilmədiyi kimi bəşəriyyət də müəllimsiz keçinə bilməz. Hünərli usta dəmirdən səbir ilə misri qılınc yona bildiyi kimi yaxşı müəllim də kəstab millətdən xoşbəxt cəmiyyət hazırlayır"[6, s.8]. Müəllim nəzəri və metodiki biliyə malik olması, pedaqoji ustalığı onun bir müəllim kimi nüfuzunu artırır, onun əməyini daha maraqlı, məzmunlu edir. Müəllimin nüfuzu dedikdə, müəllimin peşə nüfuzu nəzərdə tutulur ki. Peşə nüfuzu isə mahiyyət olaraq müəllimin şəxsiyyət nüfuzu və müəllimin vəzifə nüfuzunun sintezidir. Şəxsiyyət nüfuzu, müəllimin öz şəxsi keyfiyyətlərinə görə qazandığı nüfuzudur. Vəzifə nüfuzu isə, müəllimin tutduğu vəzifənin mahiyyəti ilə bağlıdır. Ən sadə yolla izah etsək, "Müəllimdir, hörmət etmək lazımdır". Nəhayət, müəllimin peşə nüfuzunun əsasında onun peşə-ixtisas bilikləri, öz fənninə sevgisi, ünsiyyət yaratmaq qabiliyyəti, səriştəliliyi, əxlaqi siması durur [4, s.60].

Azərbaycanın tanınmış pedaqoq alimi, prof. F. Rüstəmovun qələmə aldığı "İlahi missiya" adlı məqaləsində bölmələrdən biri belə adlanır: "Müəllimini göstər, deyim sən kimsən". Həmin bölmədə müəllif bəhs edir ki, təhsilin keyfiyyəti, tədris prosesinin düzgün və səmərəli qurulması, sağlam rəqabət və əməkdaşlıq mühitinin yaradılması pedaqoji-psixoloji hazırlıq səviyyəsi yüksək olan, didaktik cəhətdən hərtəfli hazırlığa sahib, yaradıcı, akademik bacarıqlara malik, pedaqoji təcrübəsi və peşəkarlıq səviyyəsi ilə fərqlənən müəllimlərdən birbaşa asılıdır. Nobel mükafatı laureatına layiq görülən ABŞ-ın Şimali Karolina universitetinin professoru, elm adamı Əziz Sancar demişdir: "Özünüzə yaxşı müəllim seçin" [8].

Müəllim cəmiyyətin güzgüsüdür. İnsanlar dünyanı müəllim vasitəsilə dərk etməyə başlayır, ətrafda baş verən hadisələri qiymətləndirə bilirlər. Müəllim, gələcəyin qurucuları olan gənc nəslin mənəvi dünyasının və gələcəyinin yaradıcısıdır. S.Qənizadənin sözləri ilə desək: " Müəllim əlində elmin qüdrətli çırağını tutaraq, körpələr nəslinin ədalət yolunu işıqlandırır, onun əqlinə bilik nuru səpir, qəlbində isə ən nəcib keyfiyyətlərin inkişaf etməsinə şərait yaradır" [7, s.88].

Hər dövrdə müəllimə fərqli yanaşmalar olsa da gənc nəslin tərbiyəsindəki rolunun əhəmiyyəti vurğulanıb. Müəllimlik bir peşə olaraq hər zaman mövcüd olub və olacaq. Heç bir texnika, texnologiya, elmin istənilən bir yeniliyi müəllimin tarix boyu təkrarən yerinə yetirdiyi bu zəhmətli

vəzifəni əvəz edə bilməz. Doğrudur, ictimai-iqtisadi formasiyalardan, dövrün tələblərindən asılı olaraq cəmiyyətin, dövlətin, təhsilin, təhsilalanların müəllim qarşısına qoyduğu tələblər dəyişilir. Müəllimə olan münasibət də dəyişir. Günümüzdə müəllimə olan münasibəti qədim dövrdə mövcud olan münasibətlə müqayisə etsək, təəssüf ki, müəllimin daha da ağırlaşan yükü, artan əziyyətinə baxmayaraq müəllimə olan münasibət və hörmət heç 50 il bundan öncəki ilə müqayisə oluna bilməyəcək səviyyədə aşağıdır. Lakin hələ də, dövrümüzün irəli görüşlü insanlar, ictimai mütəfəkkirlər müəllimin əməyini yüksək qiymətləndirir, bu peşəyə olan tələbatı və onun əhəmiyyətini bu gün də vurğulayırlar. Buna ən yaxşı nümunə olaraq, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda göstərilir: "Təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri müəllimin akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən xeyli asılıdır. Müəllimin bu keyfiyyətləri ilə təhsilalanların nailiyyətləri arasında sıx korrelyasiya mövcuddur" [1].

İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmişdir.
2. Həsənov A.M., Ağayev Ə.Ə. Pedaqogika. Dərslik. Bakı: Nasir, 2007, 412s.
3. İbrahimov F.N., Hüseynzadə R.L. Pedaqogika. Dərslik I cild. Bakı: Mütərcim, 2012, 706 s.
4. İlyasov M.İ. Müəllimin pedaqoji ustalığı. Bakı: Elm və təhsil, 1951, 216 s.
5. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika. Dərslik. Bakı: Çaşıoğlu, 2012, 548 s.
6. Qənizadə S.M. Seçilmiş əsərləri. Bakı, 1965, 200 s.
7. Mahmudov M.C., Hüseynzadə R.L., İlyasov M.İ. və b. Müəllim hazırlığının aktual problemləri və modernləşdirilməsi. Bakı: Mütərcim, 2015, 216 s.
8. Rüstəmov F.A. İlahi missiya. "Azərbaycan müəllimi" qəz., 2018, 16 noyabr.

UDC 811.111

THE ROLE OF INTERACTİVE LEARNING METHODS IN THE TRAINING OF FUTURE TEACHERS

Chinara Israfilova
Baku Business University
israfilova_9797@mail.ru

In modern era, a new education system is being formed, aimed at entering the global education system. In this regard, the content of the professional training of teaching staff is being modernized. The changes are aimed at increasing the competitiveness and professional mobility of graduates of pedagogical educational institutions in the labor market, ensuring continuity at all levels of pedagogical education, deepening its fundamentality and strengthening professional orientation.

Pedagogical education has a special role, since it fulfills a social order - it prepares mid-level specialists necessary for society to work in preschool institutions and secondary schools, who must independently and creatively solve professional problems, be aware of the personal and social significance of pedagogical activity, and be responsible for its results.

In the training of such specialists, the central role belongs to the teacher of the university, since it is he who is the bearer of pedagogical traditions, professional and value orientations, current

experience, such a model of positive interaction that would allow students of a pedagogical university to communicate with students in the future, guided by the principles of humanization and democratization of modern education. The teacher must navigate in a variety of relevant concepts, creatively choosing, arranging them and creating their own [1, p.16].

In this regard, innovative technologies for preparing a future teacher in the conditions of higher education, using interactive methods and forms of education are of particular importance. However, today it is necessary to highlight several problems that accompany the introduction of interactive learning in the preparation of students. In existing modern technologies, as a rule, the use of interactive learning is aimed at the formation of a separate quality, personality trait or skill of a student, for example, on the development of cognitive activity of university students, professional culture, creative abilities, professional interest, communicative competence of students. To solve this problem, it is necessary to determine the originality, characteristic features, specificity, conditions for organizing interactive learning. Thus, the originality of interactive learning lies in its focus on the interaction of students not only with the teacher, but also with each other and on the dominance of the activity of students over the activity of the teacher in the classroom. The basic characteristics of interactive learning are interaction, communication and dialogue, which contribute to the productive assimilation of educational information, the development of the communicative competence of the future teacher [3, p.93].

For the effective organization of interactive learning, it is important to comply with such pedagogical conditions as the creation of a dialogic situation in the educational process; compliance with the comfort of learning; providing feedback and reflection; readiness of the teacher to accept the role of facilitator. One of the central conditions is the use of collective forms and interactive teaching methods. Interactive learning is implemented at the university with the help of a collective form of learning, which is carried out through the work of the entire team of the student group, in small groups, in pairs or the implementation of an individual task. The collective form allows you to simultaneously solve several problems: concrete-cognitive, communicative-developing and educating. An important condition for the organization of interactive learning is the use of methods that motivate students to independent, active and creative development of educational material in the process of interaction, mutual learning and in communication with the teacher. The greatest importance in the preparation of future teachers is acquired by such methods as brainstorming, business, role-playing, blitz games, discussion, and training.

The problem of the relationship between traditional and interactive learning should also be noted. Innovative teaching is a set of innovations expressed in the system of actions and operations of educational activities that allow you to quickly and effectively achieve a predictable and diagnosable result of education. Traditional technologies are a set of pedagogical technologies that have existed in education for many years.

In modern educational practice, teachers occasionally use methods and forms of interactive learning, traditional lectures and seminars are still the main ones in the educational process. However, today's technical possibilities of information transfer, in particular via the Internet, and the prospects for the development of the education system reduce the feasibility of the traditional one and stimulate the introduction of an interactive learning system into the process of university students' training.

To solve this problem, a program for the integrated use of interactive learning was developed. The program includes a special course "Interactive Methods of Teaching". The content of the course is based on exercises and tasks that stimulate the creativity of students. Training is built on mutual respect and understanding, based on the emotional comfort of the participants. Each exercise provides a task to provide feedback and reflection. In the process of preparation at the university, the student receives a large amount of theoretical knowledge, but needs a deeper acquaintance with future professional activities. Therefore, it is also necessary to note the problem of transferring the

knowledge gained by students in the course of interactive classes to pedagogical practice. To solve this problem, the tasks included in the workshop and the course model the professional activities of the teacher and the relationship of the subjects of the future profession with the help of role-playing, business, blitz games, analysis of pedagogical situations, drafting [4, p.6].

Thus, solving these problems of using interactive learning will create an atmosphere of cooperation between the subjects of the educational activities, which will encourage students to be creative in their practical work in educational institutions, organize student interaction and use a variety of methods and forms, thereby making learning interesting, efficient and modern.

References

1. Bolgova A.M. The technology of using a business game in the process of forming the professional culture of a future teacher: Methods of organizing the game "Parents' meeting" in the course "Pedtechnology" at the Faculty of History of the Pedagogical Institute // Questions of technology of professional activity. Belgorod, 1995.

2. Gadzhieva P.D. Interactive teaching methods in the education of law students. Diss. Candidate of Pedagogical Sciences Makhachkala 2005.

3. Goryainova I.A. Formation of cognitive activity of students using active learning methods in a higher educational institution: Dis.cand. ped. Sciences. Stavropol, 2005.

4. Kizi, D.B.O., & Ugli, M. K. S. (2020). Roles of teachers in education of the 21st century. Science and Education, 1(3).

5. Rafikova R.S. Interactive learning technologies as a means of developing students' creative abilities: Abstract of the thesis. dis. cand. ped. Sciences. Kazan, 2007.

6. Vinokurova M.I. Pedagogical potential of interactive learning technologies as a factor in the development of students' communicative competence: Dis. cand. ped. Sciences. Irkutsk, 2007.

UOT 37.01

TƏHSİL MİLLƏTİN GƏLƏCƏYİDİR

Gülnar Elmaz qızı Musayeva
ADPU-nun Şəki filialı
guln994@gmail.com

"Təhsil millətin gələcəyidir" deyən Heydər Əliyev bununla təhsilli, mədəni və vətənpərvər övladlar yetişdirmənin önəmini bir daha önə çəkmişdir. O, uşaqların və gənclərin ali təhsil almaları, elmlərə yiyələnmələri, onların Azərbaycan tarixinə, ədəbiyyatına, mədəniyyətinə məhəbbət ruhunda tərbiyə olunması üçün səylərini əsirgəməmişdir. Dahi şəxsiyyətin mənalı ömür yolu ilə bağlı tarixi qeydlər gənc nəsil üçün yüksək mənəviyyatın zəngin mənbəyidir. [1, s.27]Keçmişdə də insanlar bilik əldə etmək üçün yolunu uzaq təhsil ocaqlarına salır və burada təkcə təhsil deyil eyni zamanda bir neçə əcnəbi dil öyrənirdilərsə bu gün bu artıq təmamilə aktual bir məsələ halına gəlib. Artıq müasir dövrün insanı heç olmasa bir əcnəbi dil biliyinə sahib olmalıdır. Bəs bu dili uşaqlara, gənc öyrənənlərə necə öyrədək?

Azərbaycan təhsilinin çox qədim, mürəkkəb bir tarixi vardır. Təhsilin inkişafı Azərbaycan Respublikasının müstəqilliyi dövründə daha səmərəli olmuşdur. Azərbaycanda milli dövlətçilik, sosial-iqtisadi və mədəni quruculuq sahəsində islahatlar başlanılmış və islahatların aparılmasında milli təhsil sahəsində səmərəli tədbirlər həyata keçirilmişdir.

Azərbaycan təhsili milli və ümumbəşəri dəyərlər, demokratik, dünyəvi prinsiplər əsasında xalqımızın tarixinə, milli ənənələrinə müvafiq şəkildə inkişaf etdirilmişdir. Azərbaycan Dövlət

Təhsil siyasətinin əsas məqsədi milli təhsilimizin inkişafına imkan və şərait yaratmaqdan ibarət olmuşdur.

Azərbaycanda dünyəvi dövlət quruculuğunun əsas problemlərindən biri milli təhsilimizi, təhsil sistemini inkişaf etdirməkdən ibarətdir. Ölkəmizdə milli təhsil sahəsində islahatların aparılması Konstitusiyamızın başlıca prinsipləri əsasında hazırlanmışdır. Bu əsas meyar Dövlət Təhsil Proqramının hazırlanmasına təkan vermişdir.

Ümummilli liderimiz Heydər Əliyevin milli təhsil quruculuğuna olan diqqət və qayğısı nəticəsində təhsilimiz qabaqcıl ölkələrin təhsil quruculuğundan, milli zəmindən və regional xüsusiyyətlərdən bəhrələnmiş, iqtisadi-sosial bazamız əsasında inkişaf etməyə başlamışdır. [1, s.5]

Gənc öyrənənlərə öyrətmək əslində təsəvvür etdiyimiz qədər çətin deyil, onlar süngər kimidirlər, dediklərimizi sürətlə mənimsəyirlər. Müəllimlərin hər bir sözü, ifadəni və cümləni tələffüz etmək bacarığı həyati əhəmiyyət kəsb edir, çünki gənc öyrənənlər eşitdiklərini dəqiq təkrarlayacaqlar. Hesab edilir ki, gənc öyrənənlərin ilkin mərhələdə öyrəndiklərini sonradan dəyişdirmək çətindir. Bu səbəbdən müəllim qaydaları davamlı olaraq təftiş və təkrar emal yolu ilə, yəni yavaş-yavaş tətbiq edə bilər. Bundan əlavə, gənc öyrənənlərin müəllimləri ona qayğı göstərməlidirlər. Məsələn sinif otağının rahat və müsbət atmosferinin olması maksimum nəticə əldə etmək üçün həlledici rola sahibdir. Yaxud da dialoqlar, mahnılar, şeirlər, qafiyələr, xor təftişi və nəğmələr tələbələrin nitq bacarıqlarını inkişaf etdirmək, eləcə də onların tələffüzünü inkişaf etdirmək üçün qəbul edilə bilər. Müəllim öyrənmə üsulu kimi öyrənənlərin qarşılıqlı əlaqəsinə daha çox diqqət yetirilməlidir. Bu o deməkdir ki, müəllim tələbələrə xarici dili həm sinifdə, həm də xaricdə tələffüz və danışıq məşq etmələri üçün mümkün qədər çox imkan yaratmalıdır [3, s.4]

Dilçilik üzrə professor Naomi bildirmişdir ki, əgər uşaqlarınızı öyrətmək istəyirsinizsə onlarla yetkin kimi davranın, dediklərini dinləyib fikirlərinə hörmət qoyun [2, s.10]. Həqiqətən, öyrəncilərimizi də öz uşaqlarımız kimi sevsək bunun təkcə dil öyrənməkdə deyil, eyni zamanda, elmin digər sahələrində də yararlılığının şahidi olarıq.

Stevn Brovn öz əsərində belə bir maraqlı həyat hekayəsinə yer vermişdir: Burada Cennifer və onun iki dil bilən 4 uşağından danışır. O deyir ki, uşaqlarının xarici dili öyrənməsini istədiyi üçün onlara şərait yaratmalı və bunun üçün o, övladlarının bunu ancaq məktəbdə deyil eyni zamanda evdə də davamlı olmasının təminatını təşkil edib- onlara həmin dildə televiziya filmləri izlətmiş, müxtəlif bədii kitablar oxutmuş yeri gəldikdə onlarla bu dildə söhbət etmişdir [4 ,s.40]. Dövrün tanınmış pedaqoqları hər zaman öyrənmənin üç tərəfli bir iş olduğunu deyiblər: uşaq, valideyn, müəllim. Bu üç tərəf öz işini məsuliyyətiylə icra etsə nəticə həmişə uğurlu olar.

Əgər biz övladlarımıza xarici dil biliyi versək bu onlara gələcəkdə böyük avantaj qazandırmış olar. Xarici dili isə öyrətmənin öz yolları var. Bunun üçün ilk öncə onlara pedaqoji qabiliyyətləri yüksək olan bir müəllim tapmaq lazımdır. Daha sonra öyrətməni evdə davam etdirib övladlarımızla doğru zaman keçirib onun nailiyyətlərinin qalxmasına kömək edə bilərik. Bütün bunlarla paralel onların bir şəxsiyyət olduğunu unutmamalıyıq.

İstifadə edilmiş ədəbiyyat

1. Abbas Səmədov.Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı.Gəncə 2010. 252 s.
2. Naomi.Book of short stories.Paperback print.1992. 108 p.
3. Siti Roshaidai Mohd Arifin. Ethical Considerations in Qualitative Study.researchgate.net.2018, 5 p
4. Steven Brown, & Jenifer Larson–Hall (Eds.). Second Language Acquisition Myths: Applying Second language Research to Classroom Teaching. Ann Arbor, MI: University of Michigan Press, 2012. 199 p.

UOT 371:351.851; 376.2/4

BULUD TEXNOLOGİYASI ƏSASINDA İNKLÜZİV TƏHSİL KONTENTLƏRİNİN FORMALAŞMASI

[1,3]Esmira Rəsul qızı Ələsgərova, [2,3]Nuranə İsmayıl qızı Bahadurzadə
[1]aleskerova-66@mail.ru ,
[2]bahadurzade99@mail.ru
[3]ETN İnformasiya Texnologiyaları İnstitutu

Giriş. İnklüziv təhsil nədir?

İnklüziv təhsil ümumi təhsilin inkişafı prosesidir. İnklüziv təhsil (özünə daxil edən; daxil edirəm) ümumi təhsilin hamı üçün əlçatan olmasını nəzərdə tutan və sağlamlıq imkanlari məhdud uşaqların da təhsilə cəlb olunmasını təmin edir.

İnklüziv təhsil – fərdi öyrənmə ehtiyacları və fərdi qabiliyyətləri nəzərə alınmaqla, bütün tələbələr üçün təhsilə bərabər çıxışın təmin edilməsidir. Əlilliyi olan tələbə fiziki və (və ya) psixoloji inkişafında qüsurları olan, psixoloji-tibbi-pedaqoji komissiya tərəfindən təsdiqlənmiş və xüsusi şərtlər olmadan təhsilə mane olan şəxsdir.

Uyğunlaşdırılmış təhsil – əlil insanların psixososial inkişafını, fərdi qabiliyyətlərini, habelə zərurət olduqda, inkişaflarını və sosial uyğunlaşmalarını nəzərə alan bir tədris proqramıdır.

Fərdi kurikulum – müəyyən bir tələbənin xüsusi ehtiyaclarını nəzərə alaraq məzmunun fərdiləşdirilməsinə əsaslanan təhsil proqramının inkişafına kömək edən bir tədris proqramıdır.

İnklüziv təhsilin əsası uşaqlara qarşı hər hansı ayrıseçkiliyi istisna edən, lakin təhsil ehtiyacı olan uşaqlar üçün xüsusi şərait yaradan bir ideologiyadır. İnklüziv təhsil, bütün uşaqların fərqli ehtiyaclarına uyğunlaşma baxımından, xüsusi ehtiyacı olan uşaqların təhsil almalarını təmin edən ümumi təhsilin inkişaf prosesidir.

İnklüziv təhsilin əsasları aşağıdakılardır:

1. Bir insanın dəyəri onun qabiliyyətlərindən və uğurlarından asılı deyil.
2. Hər kəs düşünməyə və hiss etməyə qadirdir.
3. Hər kəsin ünsiyyət qurmaq və eşitmək hüququ var.
4. Bütün insanlar bir-birlərinə ehtiyac duyurlar.
5. Həqiqi təhsil yalnız real münasibətlər kontekstində həyata keçirilə bilər.
6. Bütün insanlar həmyaşıdlarının dəstəyinə və dostluğuna ehtiyac duyurlar.
7. Bütün tələbələr üçün tərəqqi, edə bilmədikləri şeylərdən daha çox nə edə biləcəkləri ilə əlaqədardır.
8. Müxtəliflik həyatın bütün sahələrini gücləndirir.

İnklüziv təhsilin məqsədi əlilliyi olan insanların təhsili və təlimində maneəsiz mühit yaratmaqdır. Bu baxımdan, inklüziv təhsil əlilliyi olan şəxslərin təhsilə əlçatanlıq probleminə xüsusi diqqət yetirir. İnklüziv təhsil, tələbələrin xüsusi ehtiyaclarını nəzərə alaraq, bütün tələbələrin təhsil prosesində iştirakını həyata keçirir [1]. Hazırda bu prosesin həyata keçirilməsi və təşkili üçün effektiv təhsil texnologiyalarından istifadənin tələbləri var. Bu texnologiyalardan biri tədris prosesində bulud texnologiyalarından istifadəsidir.

İnklüziv təhsil prosesində telekommunikasiya sistemlərinin, kompüter avadanlığlarının istifadəsi və inkişafı müasir cəmiyyətin dinamik və intensiv xarakteri ilə bağlıdır. Bu texnologiyalar insanın cəmiyyətə daha tez adaptasiya olmasına, təhsilin, mədəniyyətin, dünyagörüşünün, intellektual bacarıqların formalaşmasına və inkişafına töhfə verməyə kömək edir [2].

İnklüziv təhsil üçun interaktiv təlimi gücləndirmək lazımdır. Tələbələrin interaktiv təhsilini təşkil etmək üçün tematik təhsil tətbiq edilir. Təhsil tədris mövzusunun məzmunu, informasiya kontentinin yekun mərhələsinin məqsədi və vəzifəsi, internet resurslarindan istifadə etməklə, tədris tapşırıqların yerinə yetirilməsini nəzərdə tutur.

İnklüziv təhsildə bulud texnologiyalarının tətbiqi

Əlil insanların öyrədilməsi prosesində bulud texnologiyaların istifadəsi əlilliyi olan tələbələrin cəmiyyətə inteqrasiyasına kömək edir. Müəllimlər və tələbələr arasında ünsiyyət bacarıqlarını inkişaf etdirmək üçün imkan yaradır [3].

Google və Microsoft tərəfindən inkişaf etdirilən yeniliklər inklüziv məktəblərdə bulud texnologiyalarının istifadəsini təmin edir. Bu imkanlar tədris prosesində, texniki vasitələrdən istifadə etməklə həyata keçirilir. İnklüziv təhsil çərçivəsində maddi və texniki avadanlıqların seçilməsi, maksimum dəyişkənlik mühitdən asılı olaraq, müəyyən edilir [4]. Beləliklə, eşitmə funksiyasını kompensasiya etmək üçün əlçatan formada informasiya mübadiləsini təmin edən, eşitmə qabiliyyətinə malik olan multimedia texniki vasitələr, səs ölçən və simsiz səs ötürmə texnologiyalarından istifadə olunur.

Görmə qüsurlu şəxslərin təhsili də təhsil təşkilatında xüsusi avadanlıqların mövcudluğunu tələb edir: video artırıcılar, elektron böyüdücü, Braille kompüter avadanlığı və proqram təminatı. Bu texniki vasitələrin bir xüsusiyyəti, kompüter məlumatlarını görmə qabiliyyəti olmayan tələbələr üçün əlçatan formalara çevirməkdir, yəni vizyonu artırmaq və görünən məlumatları audio və video siqnallarına çevirməkdən ibarətdir [5].

Əlilliyi olan şəxslərin istifadəsi üçün uyğunlaşdırılmış əməliyyat dəstəyi, bu şəxslər üçün əlçatan olan formalarda məlumatın daxil olmasına imkan verir: məsələn, Windowsun xüsusi xüsusiyyətləri (ekrandakı klaviatura) [6].

Psixoloji pozuntu və ya yaralanma zamanı yaranan müxtəlif fiziki xəstəliklər nəticəsində, somatik xəstəliklər olan tələbələr üçün təhsil materiallarında erqonomik tələbləri təmin etmək kifayətdir. Bu, tələbənin tədris tapşırığının daha rahat versiyasını müəyyən etməsinə imkan verir, məsələn, mətndə yazı tipinin növünün, şrift ölçüsünün seçimi, mətnin rənginin, parlaqlığının, kontrastının və ölçüsünün dəyişdirilməsi [7].

Yuxarıda qeyd olunanlara əsaslanaraq, inklüziv təhsil sahəsində bulud texnologiyaların əsas funksiyalarını müəyyən etmək mümkündür.

- texniki vasitələr: oxu və yazı fəaliyyətlərini asanlaşdırmaq üçün texniki dəstək;
- didaktik: uyğun təhsil sahəsini və təhsil resurslarını yaratmaq üçün innovativ texnologiyaların tətbiqi sahəsində tədris dəstəyi;
- ünsiyyət: şəbəkə sistemlərində iştirak üçün kommunikativ dəstək [8].

İnklüziv təhsil sahəsində bulud texnologiyalarının istifadəsi tələbələrin bilik fəaliyyətinin təşkilinin effektivliyini artırır, kompüterin təlim prosesində davamlı inkişaf vasitəsilə bütövlüyünü qoruyur və öyrənmə prosesini maksimum dərəcədə təmin edir [9].

İnklüziv təhsil çərçivəsində innovativ texnologiyalardan istifadənin aşağıdakı komponentləri mövcuddur:

- inklüziv təhsildə əməkdaşlıq;
- qiymətləndirmə;
- fərdi tədris proqramı;
- inklüziv təhsildə reabilitasiya xidmətlərinin təşkili;
- inklüziv təhsildə pedaqoq və psixoloqların rolu;
- inklüziv təhsildə valideyinlərlə işin təşkili;
- inklüziv təhsildə müasir cəmiyyətin tələblərinə uyğun olaraq, fərdi təhsilin səviyyəsinə və onun xüsusiyyətləri ilə bağlı metodların, məzmunun və təhsilin təşkilati formalarının təkmilləşdirilməsi;
- tələbələrin intellektual potensialının maksimum açıqlanması, məlumatların müstəqil alınması üçün bacarıqların inkişafı və məlumatların emalı ilə bağlı müxtəlif növ müstəqil fəaliyyətlərin həyata keçirilməsi [10].

Buna görə də, inklüziv təhsil ideyalarını həyata keçirən müasir təhsil müəssisələri yenilikçi olur, çünki tədris prosesi inklüziv təhsil çərçivəsində yeni təhsil təcrübəsinin təzahürü olan orijinal pedaqoji ideyalara və innovativ texnologiyalara əsaslanır.

Lakin tədqiq etdiyimiz dövrdə baş verən müharibələr nəticəsində digər sahələrlə bərabər olaraq, toxuculuq sahəsinə də ciddi zərər dəymişdir. Belə ki, Qarabağ xanlığının ləğv edilməsindən bir il sonra – 1823-cü ildə Şuşada ipək parça istehsalı ilə məşğul olan cəmi 135 sənətkar fəaliyyət göstərirdi [7, s.133]. Ümumilikdə isə Şuşa şəhərində cəmi 250-260 nəfər sənətkarın qaldığı güman edilir. Rusiya-Qacar İranı və Rusiya-Osmanlı müharibələri nəticəsində Şuşada da sənətkarlıq istehsalı zəifləmiş və bu da sənətkarların sayının azalmasına səbəb olmuşdur. Bu da müharibə dövründə Şuşa əhalisinin, o cümlədən sənətkarların müvəqqəti olaraq doğma şəhərlərini tərk etmələri amili ilə bağlı olmuşdur. Bir qədər irəli gedərək bildirək ki, XIX əsrin 30-cu illərində hərbi-siyasi şərait bərpa olunduqdan sonra əhali tədricən öz daimi yaşayış yerlərinə qayıtmış və Şuşada sənətkarların sayı yenidən sürətlə artaraq 823 nəfərə çatmışdır [10, s.79-80].

Şuşa şəhərinin mədəni inkişafında şəhər əhalisinin sosial tərkibinin də böyük rolu olmuşdur. Bu tərkib xan sülaləsindən, bəylərdən, mülkədarlardan, ziyalılardan, din xadimlərindən, tacir və sənətkarlardan, idarəedici çinovniklərdən ibarət idi. X.D.Xəlilli öz əsərində Şuşa şəhərinin bu sosial tərkibinin XX əsrin 20-ci illərinə qədər mövcud olduğunu bildirir [4, s.55].

Gəncə şəhərində həm xanlıqlar dövründə, həm də 1817-ci ilə olan tarixdə 100 nəfər çəkməçinin işlədiyi barədə mənbələrdə məlumat var. Bu sənətkar-ustalar təkcə çəkməçiliklə deyil,

eyni zamanda başmaqçılıqla da məşğul olurdular. Belə ki, bəhs olunan dövrdə dəridən ayaqqabı hazırlayan ustalar arasında əmək-peşə bölgüsü o qədər də konkrekləşməmişdi [9, s.307].

Beləliklə, məlum olur ki, XIX əsrin I rübündə Şimali Azərbaycan şəhərlərinin sosial tərkibində say etibarilə tacir və sənətkarlar üstünlük təşkil etmişdilər. Bakı şəhərinin liman şəhəri kimi mövcud olması ticarətin inkişafına geniş imkanlar açmışdır ki, bu da sənətkarlıq istehsalının artmasına səbəb olmuşdur. Rusiyanın daxili quberniyalarında sənətkarlıq istehsalı məhsullarına tələbatın olması Şimali Azərbaycan şəhərlərində müxtəlif peşələrlə məşğul olan sənətkarları öz mallarını satış üçün bazara çıxarmağa imkan vermişdir. Bundan başqa, onların istehsal etdikləri sənətkarlıq nümunələri daxili bazarda da satışa çıxarılmış və yerli istehlakçıların məişət ehtiyaclarını ödəmişdir. Avropa və Asiyanın qovşağında yerləşən Şimali Azərbaycan şəhərlərinin geosiyasi və strateji mövqeyi digər ölkələrin tacirlərini bura cəlb etmiş və bu da öz növbəsində ticarət dövriyyəsinin artmasına və sənətkarlığın inkişafına səbəb olmuşdur.

İstifadə edilmiş ədəbiyyat

1. Budaqova S.İ. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı – XIX əsrin birinci qərinəsi). Bakı: Elm, 1995, 96 s.
2. Əliyeva E.K. Xanlıqlar dövründə Şimali Azərbaycanda əkinçilik və suvarma sistemi. Bakı: Turxan NPB, 2017, 176 s.
3. Əliyeva R.Ş. XIX əsrdə İçərişəhərdə məhəllə sisteminin formalaşması // "XIX əsrin əvvəllərində Qafqaz müharibələri və onların nəticələri" mövzusunda beynəlxalq elmi konfransın xüsusi buraxılışı. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun "Elmi Əsərlər"i, 2013-cü il. 44, 45, 46, 47-ci cild, s. 327-331.
4. Xəlilli X.D. Qarabağ: etnomənəvi inkişaf tarixi (Ən qədim dövrdən 1920-ci ilə qədər). Bakı: "Günəş" nəşriyyatı, 2006, 80 s.
5. İbişov S.Ə. Quba xanlığı: əhali tarixi və azadlıq mücadiləsi. Bakı: Elm, 2012, 336 s.
6. Qarayev E.T. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu – XIX yüzilliyin ortalarında). Bakı: Mütərcim, 2016, 544 s.
7. Mahmudov Y.M., Mustafayev C.M. Şuşa-Pənahabad. Bakı: "Təhsil", 2012, 152 s.
8. Sadıqova H.F. XIX-XX əsrin əvvvəllərində Bakı şəhəri əhalisinin etnik və ictimai tərkibi. Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 2016, 28 s.
9. Veysəlova V.R. XIX-XX əsrin əvvəllərində Gəncəbasar bölgəsi əhalisinin geyim mədəniyyəti // "Qafqaz tarixinin aktual məsələləri" mövzusunda beynəlxalq konfransın materialları, II hissə. Gəncə Dövlət Universiteti, 15-16 oktyabr, 2015-ci il, s. 305-309.
10. Гарабаг: Кюрекчайский договор – 200. Баку: Тахсил, 2005, 176 с.

UOT 37.01

ELMİ-NƏZƏRİ ƏDƏBİYYATDA İNKLÜZİVLİYİN TƏQDİMATI VƏ AZƏRBAYCAN GERÇƏKLİYİNDƏ İNKLÜZİV TƏHSİL

Pakizə İsrayıl qızı Əliyeva
ADPU-nun Şəki filialı
Azərbaycan Universitetinin dissertantı
aliyeva.pakize.filolog@mail.ru

Dəyişən, durmadan inkişaf edən cəmiyyətdə xalqların milli varlıqlarını gələcəyə daşımalarına birbaşa müdaxilə edə biləcək ən böyük qüvvə, heç şübhəsiz, təhsildir. Son onilliklərdə Azərbay-

canda aparılan təhsil islahatları, dövlət və hökumətin bu sahənin prioritet istiqamətlərinin sağlamlaşdırılması sahəsində qəbul etdiyi qərar və sərəncamlar öz xarakteri etibarilə yüksək hədəflərə çatmaq üçün atılan mühüm addımlardandır. Belə mühüm addımların bir qismi 2004-cü ildən Azərbaycan Respublikasında inklüziv təhsil sahəsində atılmışdır.

İnklüziv təhsil Azərbaycan təhsil sistemində son iki onilliyin hadisəsi olduğundan onun nəzəri əsaslarının öyrənilməsi məsələlərinə pedaqogikanın digər mühüm sahələri ilə müqayisədə az yer ayrılmışdır. Lakin bu sahədə atılan addımlar ilkinlik statusuna sahib olmaqla yanaşı, bu sahənin ümumi pedaqogikanın bir komponenti kimi araşdırılmasına yetərincə əsas verir. Keçən müddət ərzində Azərbaycanda sözügedən sahənin öyrənilməsinə həsr olunmuş materialların bir qismi bu sahədə kadr hazırlığı işinin təşkili ilə bağlı keçirilən seminar və təlimlər üçün material toplularını əhatə edir. [2; 3; 5; 7] Bunlardan əlavə, əlilliyi olan şəxslərin təhsilə çıxış imkanlarının, real vəziyyətin üzə çıxarılması məqsədilə beynəlxalq təşkilatlar, qeyri-hökumət təşkilatları və dövlət qurumları tərəfindən aparılan tədqiqat və monitorinqlərin əsasən statistik məlumatları özündə əks etdirən hesabatları da kifayət qədər əhəmiyyətli mənbə hesab oluna bilər. Son illərdə ali məktəb tələbələri üçün hazırlanmış dərslik və dərs vəsaitlərində də inklüziv təhsilin müxtəlif aspektlərdən açılmasına da müəyyən yer ayrılmışdır. Təqdim olunan məqalə həmin mənbələrlə tanışlıq və müxtəlif kurs və təlimlərdə iştirak nəticəsində əldə olunmuş məlumatların ümumiləşdirilməsi üzərində qurulmuşdur.

Tədqiqat prosesində tanış olduğumuz istər yerli, istərsə də beynəlxalq normativ hüquqi sənədlər, eləcə də nəzəri ədəbiyyatda tərifl ər, analyışlar, paradiqmalarda vahid terminologiyadan istifadə olunmaması və müəyyən ziddiyyətli məqamlar diqqətimizi çəkdi. Bu fərqlilik, təbii ki, ilk növbədə dünyada inklüzivliyə olan münasibətdə zamanla baş verən dəyişmələr və təkamülün nəticəsində üzə çıxır və obyektivliyə əsaslanır. Lakin bəzi məqamlarda keçmiş zaman kəsiyində şüurlarda o qədər də böyük dəyişkənliyin olmadığını aydınca görə bilirik. İnklüzivlik\ inklüziya hansı şəxslərə şamil edilir və belə şəxslərdən danışanda hansı ifadənin işlənməsi məqsədəuyğundur?

Qeyd etdiyimiz kimi, bu sahə ilə bağlı ədəbiyyatlarda bir-birini inkar edən, anlayışı tamlığı ilə açmaq imkanı verməyən fərqli terminologiyadan istifadə olunur. Bunlardan biri "xüsusi qayğıya ehtiyacı olan" ifadəsidir ki, onun üzərində düşünməkdə fayda var. Fikrimizcə, inklüziv təhsildən bəhs edilərkən tez-tez işlədilən "xüsusi qayğıya ehtiyacı olan uşaq" ifadəsinin özündə də bir ayrıseçkilik duyulur. Məgər inklüziv təhsil kimliyindən asılı olmayaraq hər kəsin bərabər hüquqlarının tanınması və qəbul olunmasına əsaslanmırmı? Məgər bütün uşaqların (insanların) onların fiziki, əqli və psixi ehtiyaclarının ödənməsinə uyğun xüsusi qayğıya ehtiyacı yoxdurmu? Bir qrupun xüsusi bir ayrıcalığının önə çıxarılması digərlərinin hüquqlarının müəyyən mənada pozulmasına gətirib çıxarmırmı? Verdiyimiz suallara aldığımız cavablara əsaslansaq, onda "xüsusi qayğıya ehtiyacı olan" ifadəsinin işlənməsinə ehtiyac olmadığı üzə çıxar.

Mövcud ədəbiyyatlarda tez-tez qarşılaşdığımız daha bir ifadə "sağlamlıq imkanları məhdud" (SİM) terminidir. Bu termindən istifadə bütün kateqoriyadan əlilliyi olan şəxsləri tam olaraq ifadə etməyə imkan vermir. Məsələn, tam sağlam bir şəxs qəzaya düşür, baş vermiş qəza, ya yanğın zamanı onun qabiliyyətlərinin heç biri pozulmamışdır. O danışır, yeriyir, eşidir, görür, düşünür və s., lakin qəza nəticəsində onun görkəmi qəribə - xoşagəlməz hal almışdır, dəri örtüyü onu qorxunc göstərir. Onun sağlamlıq imkanlarının məhud olduğunu söyməyimiz üçün tibbi şəkildə təsdiq oluna biləcək heç bir dəlilimiz yoxdur. Lakin çirkin görkəmi ətraf mühitin onu adi, sıradan biri kimi qəbul etməsinə əngəl törədir. Beləliklə, həmin şəxsin haqqında danışarkən "sağlamlıq imkanları məhdud" ifadəsini işlətməyimiz doğru olmazdı. Onun misalında fiziki qüsur, çatmazlıq cəhətlərinin heç biri şəxsin sağlamlığı və ya müəyyən qabiliyyətlərinin yoxluğunu iddia etməyimiz üçün yetərli deyil. Ümumiyyətlə, əxlaqi cəhətdən insanların diskriminasiyasına səbəb ola biləcək, onları başqalarından fərqləndirməmizə (heç də yaxşı mənada yox) gətirib çıxara biləcək "qüsur", "çatmazlıq", "məhdudiyyət" ifadələrinin də işlədilməsi məqsədəuyğun hesab oluna bilməz.

Son ədəbiyyatlarda "əlilliyi olan şəxs" ifadəsinin işlənməsinə daha tez-tez rast gəlirik. Əlilliyin sosial modelinə əsaslanan, bu yanaşmadan irəli gələn termin ona görə məqbul sayıla bilər ki, bu zaman diqqət çatmazlıq və məhdudiyyətə yox, başqaları ilə bütün hüquq və azadlıqlara malik olmağa yönəldilmiş olur. Fərd yox, məhz şəxs önə çıxarılır. Bu ifadədəki "şəxs" kəlməsi şəxsiyyətə verilən önəm məsələsinin qabardılmasını əks etdirir. Əlillik isə müxtəlif əlamətlər əsasında təsbit oluna bilən qəbul olunmuş haldır.

Maraqlı məqamlardan biri də canlı danışıqda və xalq dilində əlilliyin müxtəlif formalarını ifadə etmək məqsədilə işlədilən sözlərdir. Canlı danışıq dilində əlilliyi olan şəxslərdən bəhs olunarkən işlədilən "kar", "kor", "lal" kimi ifadələr tibbə aid elmi ədəbiyyatlarda da yer almaqdadır və eşitmə, görmə və nitq qabiliyyətindən tamamilə məhrum olan şəxslərə aid edilməklə onların əlilliyin ən ağır formasının daşıyıcıları olduğunu əks etdirir. Belə ifadələrin canlı danışıq dilində işlənməsi diskriminasiya və damğalanmaya səbəb ola bildiyindən onlaradan istifadə edilməməsi məqsədəuyğundur (tibbi termin kimi işlədilə bilər). Lakin dilimizdə elə sözlər də var ki, onlar heç də termin səciyyəsi daşımır. "Şil", "şikəst", "sayıl", "topal", "axsaq", "dəli" və s. sözləri bu qəbildəndir və onlardan tamamilə imtina mümkündür. Son zamanlar qanunvericilikdə bununla bağlı yetərincə təqdirəlayiq hallar nəzərə alınmaqdadır.

Beynəlxalq praktikada inklüziv təhsil – diqqətdən kənarda qalmaq və təcrid olunmaq təhlükəsi yaşayan şəxslərə xüsusi diqqət yetirmək şərtilə bütün uşaqların, gənclərin və böyüklərin təlim ehtiyaclarını ödəmək üçün nəzərdə tutulan mütərəqqi yanaşmadır. Daha geniş mənada "inklüziya" termini təhsil və təlim ehtiyacların ödənməsi çərçivəsindən çıxarılaraq, bütövlükdə "aktiv iştirak", cəmiyyətə tam daxil olma kimi başa düşülür. Beləliklə, inklüziya – bütün vətəndaşların, ilk növbədə əlilliyi olan bütün insanların cəmiyyətdə iştirak səviyyəsinin artması prosesidr. [5, s.2] Onun hüquqi əsasları ilk növbədə beynəlxalq qanunvericiliklə təmin olunur. Lakin insanlıq qanuniləşdirilmiş və qəbul olunmuş "inklüziv təhsil"ə çatanadək uzun bir yol keçmişdir.

Qədim xalqların düşüncə və əxlaqının əsas kodeksi olan folklor və mifologiyasına baxdıqda bu məsələyə münasibətin ayrı-ayrı xalqlarda heç də birmənalı olmadığını görürük. Bu, əsasən, anadangəlmə qüsuru, əlilliyi olan şəxslərə, bir az sərt deyilmiş olsa, şikəst doğulanlara münasibətdə özünü biruzə verirdi. Maraqlısı budur ki, bəzi xalqlar bu fərqliliyi tanrıların lütfü hesab etmiş, belə şəxsləri müqəddəsləşdirmişlər. Məsələn, bir çox xalqların mifologiyası və dastan yaradıcılığında anadangəlmə kor olan insanların qeyri-adi qabiliyyətlərindən söz açılır, çox vaxt onlar görən gözə sahib olmadıqları halda bəsirət gözünə sahib olan, gələcəkdən xəbər verən (falçılar) şəxslər kimi təsvir olunurlar. Bəzi xalqlarda isə bunun tam əksinə, anadan eyibli doğulanlara lənətlənmiş, allahların qarğadığı insanlar kimi münasibət bəsləmişlər. Orta əsr Avropasında belə insanlara müsibət gətirən, lənətlənmiş varlıqlar kimi baxırdılar. Belə övlada sahib olanlar bəzi hallarda bütün ailənin salamatlığı, müqəddəratı xatirinə ondan imtina edir, doğulan körpənin hər hansı bir qüsurunu hər vasitə ilə ört-basdır edir, yaxud da ictimai qınaq və damğalanmadan qorunmaq üçün faktı tamamilə inkar edirdilər. Təbii ki, istər qədim dövrlərdə, istərsə də orta əsrlər zamanında təhsil, ümumiyyətlə, kütlə üçün əlçatan deyildi və belə olan təqdirdə təhsildə inklüzivlikdən danışmağa belə dəyməzdi.

Əlilliyi olan şəxslərin təhsilə cəlb olunması, mütərəqqi pedaqoji yanaşmalar nəzriyyələr şəklində yalnız pedaqoqları düşündürən, kitablar çap olunmaq üçün ortaya atılan fikirlər olmaqla məhdudlaşmır. Əhalinin geniş kütlələrinin, eləcə də beynəlxalq aləmin diqqətində olan bu məsələ artıq bir əsrdir ki, müxtəlif qurum və təşkilatlar səviyyəsində müzakirə olunur, müxtəlif bəyannamə, pakt və sənədlər qəbul olunur. Dünyanın bir çox ölkələri həmin sənədləri ratifikasiya etməklə, onlar qarşısında müəyyən öhtəliklərini təsdiqləmiş olur və bu da ümumən dünyada təhsilin keyfiyyətinin yaxşılaşdırılması işinə öz töhfəsini verir. Məruzə mətninə verilən həcm məhduduiyyəti səbəbindən burada ətraflı şərhini verə bilməyəcəyimiz çoxsaylı sənədləri izlədikcə inklüzivliyə yanaşmalar və təqdiminin mahiyyətində dəyişkənliyi müşahidə etmək mümkündür.

2006-cı ildə BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyası qəbul olunduqdan sonra Konvensiyaya qoşulan ölkələr əlilliyi olan şəxslərin fərdi hüquqlarını təmin etmək üçün öz qanunvericiliklərinə dəyişikliklər etmişdir və əlilliyi olan şəxslərin digərləri ilə bərabər imkanlarla yaşamaq hüquqlarına dəstək göstərən sistem dəyişikliklərini gücləndirmək üçün davamlı olaraq uzunmüddətli islahatlar həyata keçirməkdədir. BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının 1-ci maddəsində "əlilliyi olan şəxslər" haqqında belə yazılmışdır: "Əlilliyi olan şəxslər müxtəlif maneələrlə qarşılıqlı təsir zamanı digərləri ilə bərabər əsasda cəmiyyətin həyatında tam və səmərəli iştiraka mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan insanlardır". [14]

Deməli, şəxsi əlil edən şey onun özündə deyil, məhz ətraf mühitlə qarşılıqlı əlaqə (yaxud ünsiyyət) prosesində üzə çıxan müxtəlif əngəllərdən qaynaqlanır. Azərbaycanda inklüziv təhsilin həyata keçirilməsi sahəsində müvafiq qanunvericilik bazasının yaradılması təşəbbüsləri respublikamız müstəqillik əldə etdiyi ilk illərdə səslənməyə başlamış və müxtəlif səviyyələrdə müzakirə olunmuşdur. Bu müzakirələr həm dövlət qurumları səviyyəsində, həm də geniş ictimaiyyətin müzakirəsinə açıq şəkildə pedaqoq və psixoloqlar tərəfindən həyata keçirilmişdir. Hər kəsin bərabər şəkildə təhsil hüququ Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmuşdur. 1992-ci ildə Azərbaycan Respublikası İnsan Hüquqları Konvensiyasına qoşulub. Respublikamızda son illərə aid "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının Qanunu (2001), həmin qanunun icrasının təmin olunması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müxtəlif təyinatlı 9 qərar, "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005-2009-cu illər)", AR Prezidentinin Azərbaycan Respublikasında Dövlət Uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər") və s. sənədlərlə inklüzivliyin normativ-hüquqi bazası tənzimlən-mişdir. Lakin qanunların varlığı məsələnin hüquqi tərəfini tənzimləsə də, təəssüf olsun ki, reallıq mövcud şərtlər və maddi-texniki təchizat daxilində o qədər də ürəkaçan deyil.

Mövcud problemlərin aradan qalxmasını təmin edə biləcək, ictimaiyyətdə olan mənfi münasibə qarşı ən güclü vasitə təbliğatdır ki, o da əhalinin müxtəlif təbəqədən olan qrupları arasında, təbii ki, eyni yol, üsul və vasitələrlə, eyni məzmunda aparılmamalıdır. Əgər nisbətən yaşlı təbəqə kütləvi informasiya vasitələrindən (KİV) istifadə zamanı qəzet, jurnal və televiziyanın imkanlarından daha çox faydalanırsa, gənc nəsil daha çox elektron resurslarına, sosial şəəbəkələrə meyillidir. Sosial şəbəkələrdə aparılan könüllü aksiyalar, qrup şəkilində problem mövzuların müzakirəsi, flaşmoblar və s. yüksək nəticə əldə edilməsinə yardımçı ola bilər. Çünki sosiallaşmağa, birgə vaxt keçirməyə meyilli olan gənclik bu tip məsələlərdə hədsiz fəallıq göstərir. Son zamanlarda ölkədə müxtəlif proqram və layihələrin həyata keçirilməsində könüllülərin rolu (olimpiya könüllüləri, ASAN könüllüləri və s.) belə gəncliyin yardımına güvənməyin mümkün olduğunu söyləməyimizə əsas verir.

Fikrimizə xülasə edərək, söyləmək olar ki, Azərbaycan Respublikasında inklüziv təhsil bütövlükdə ölkənin ümumi təhsil islahatının tərkib hissəsinə çevrilməlidir. Bu proses insan hüquqları ilə bağlı beynəlxalq normativ-hüquqi aktların tələblərinə sadiq qalmaqla xalqımızın milli-mənəvi dəyərlərinə söykənən bir şəkildə həyata keçirilməlidir. Hökumət tərəfindən irəli sürülən milli konsepsiya və Dövlət Proqramının uyğunlaşdırılması, strateji məqamların bir daha dəqiqləşdirilməsi məqsədi ilə genişhəcmli tədqiqatların aparılması zəruridir. Bundan əlavə, kadr hazırlığı sahəsi də diqqət mərkəzində saxlanmalı prioritet məqamlardandır və istər ilkin pedaqoji kadr hazırlığı, istərsə də müəllimlərin ixtisasartırması məsələsi işində bunlar nəzərə alınmalıdır. Mövcud fənn kurikulumlarının tərtibində, məktəblərin maddi-texniki təchizatı sahəsində ciddi şəkildə uyğunlaşdırmalar aparılmalıdır. Bütün proses ictimaiyyətə tam açıq şəkildə olmaqla mövcud mənfi münasibətin aradan qaldırılmasına hesablanmalıdır. Bütün deyilənlərə əməl olunduğu halda Azərbaycan Respubli-kasında inklüziv təhsilin effektiv tətbiqindən danışmaq mümkündür.

İstifadə edilmiş ədəbiyyat

1. "İnklüziv təhsil: təcrübə və qarşıda duran vəzifələr" V elmi-praktik konfransın məqalələr toplusu. 14-15 oktyabr 2011, Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2011, 624 s.
2. Azərbaycanda sağlamlıq imkanları məhdud olan uşaqlara təhsil xidmətlərinin göstərilməsi haqqında tədqiqat. Müasir Təhsilə və Tədrisə Yardım Mərkəzi. Bakı, 2016, 318 s.
3. Grimes P. "İnklüziv siniflərdə təlimin təşkili" ixtisasartırma proqramının Oxu materialı. Bakı, 2018, 80 s.
4. Xudaverdiyeva T. İnklüziv təhsildə təlimin təşkili prinsipləri: perspektivlər və nəticələr. "Azərbaycan məktəbi" jurnalı, № 3, 2021, s. 49-58
5. İnklüziv siniflərdə təlimin təşkili. Oxu materialı. TİPİİ, Bakı, 2018, 68 s.
6. İnklüziv təhsil. Azərbaycan Müəllimlər İnstitutu, Bakı, 2013, 424 s.
7. İnklüziv təhsil. Əlilliyi və öyrənmə çətinliyi olan uşaqlar. Mövzu təlimatı. HEART. Sentyabr 2014, 58 s.
8. Nəzərova A. Xüsusi təhsildən inklüziv təhsilə keçid dövrlərində müxtəlif ölkələrin inkişaf modelləri. "Azərbaycan məktəbi" jurnalı, № 2, 2022, s. 29-37
9. The great czech educator Jan Amos Komenky: a classic and modern approach to education: Program and Abstracts of İnternational Conference, 4-5 April 2019, BSU, Baku: "Ecoprint" Publ, 2019, 432 p.
10. https://baku.edu.gov.az/upload/file/inkluziv-tehsil-dovlet-proqrami-2018-2024.pdf
11. https://e-qanun.az/framework/4353
12. https://e-qanun.az/framework/37269
13. https://e-qanun.az/framework/15641
14. https://www.udpo.az/read.php?lang=1&content=2363

UOT 314.7

TƏHSİL SAHƏSİNDƏ "BEYİN AXINI"NIN SƏBƏBLƏRİ VƏ PROBLEMİN HƏLL YOLLARI

Gözəl Sabit qızı Quliyeva
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
İstanbul Universiteti Türkiyat Araştırmaları İnsitutunun doktorantı
gozel.quliyeva93@mail.ru

"Beyin axını" yüksək ixtisaslı mütəxəssislərin öz ölkələrində normal yaşam tərzi qura bilməyərək xarici ölkələrə miqrasiya etməsidir. Bu anlayışdan ilk dəfə 1962-ci ildə mühəndis, texnik və alimlərin Böyük Britaniyadan ABŞ-a miqrasiya etməsindən sonra istifadə edilməyə başlanılıb. Elmi ədəbiyyata ilk dəfə Britaniya Kral Cəmiyyətinin hazırladığı hesabatdan sonra daxil olunub. Daha sonra "Beyin axını"nı dünya alimləri "Brain Drain" anlayışıyla eyni mənada işlətməyə başlayıb.

Azərbaycanda təhsil sahəsində gənclərin xarici ölkələrə üz tutması son illərdə daha da artmışdır. Xarici ölkələrdə təhsil almaq üçün ölkə vətəndaşlarının iki yolu var:

1) dövlət proqramı çərçivəsində dövlətin vəsaiti ilə;

2) öz vəsaitləri hesabına.

2007-2015, 2019-2023, 2022-2026-cı illər üzrə "Dövlət proqramı çərçivəsində" təhsil alan Azərbaycan Respublikası vətəndaşının xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsili təmin edilməkdədir. Dövlət proqramı çərçivəsində 2007-2015-ci illər ərzində 3500-dən çox azərbaycanlı gənc xarici ölkələrdə təhsil almağa gedib. Öz vəsaiti hesabına gedənlərin sayı isə daha çox üstünlük təşkil edib. Həmçinin son dövrdə Azərbaycan Respublikası Prezidentinin müvafiq

Sərəncamı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı" ölkə rəhbərliyinin gənclərə xüsusi diqqətinin təzahürüdür. Bu proqram müasir və gələcək əmək bazarının tələblərinə cavab verən yüksəkixtisaslı peşəkar kadrların hazırlanmasında xüsusilə əhəmiyyət daşıyır.

Xarici universitetlərdə öz hesabına təhsil alan tələbələrin problemləri və onların həll yolları nədən ibarətdir? Öncəliklə qeyd edək ki, xaricdə təhsil almaq üçün universitet və təhsil alacağın ölkə seçimi önəmli bir məsələdir. Gənclərimizin xaricdə təhsilə üstünlük verməsinin bir neçə səbəbləri var:

- xarici təhsil sistemiylə tanış olmaq;
- müəyyən ixtisas üzrə özünü təkmilləşdirmək;
- həmin ölkədə məskunlaşmaq və s.

Hazırda ölkəmizdə ali məktəblərin təhsil haqqının yüksək olması da gənclərin xarici universitetlərə üz tutmasına səbəb olan amillərdən biridir. Kifayət qədər maddi büdcəsi olmayan tələbələr xarici universitetlərdə həm oxuyub, təqaüd alaraq, həm işləyərək müəyyən ehtiyaclarını qarşılaya bilir. Buradan belə nəticəyə gəlirik ki, gənclər üçün iş yerlərinin əlçatan olması, təhsil haqlarının uyğun məbləğdə müəyyənləşdirilməsi də "beyin axını"nın qarşısını ala bilər. Təhsil dönəmini bitirmiş gənclərimizin əksəriyyəti isə ölkəyə dönməməyi seçir. Bunun əsas səbəbləri aşağıdakılardır:

1. Tələbə-müəllim münasibəti.
2. Maddi-texniki bazayla təmin olunma.
3. Tədrisin nəzəri və praktiki yönləri arasında balansın qorunması.
4. Məzun olan tələbənin işlə təmin olunma məsələsi.
5. Əmək haqqı tutumu.

Tələbə-müəllim münasibəti dedikdə nə nəzərdə tutulur?

Universitetlərimizdə müəllimlər tələbələrlə gələcək yüksək potensiallı gənclər olaraq rəftar etməlidirlər. Bunun əksi olan münasibətlə qarşılaşdıqda tələbə ali məktəbdə özünü hələ də şagird olaraq hiss edir.

Maddi-texniki bazayla təmin olunma məsələsində yaxşıya doğru müəyyən dəyişikliklərin olunması, müasir laboratoriyaların, elmi təhsil müəssisələrin sayının artırılması ölkəmizdə gənclərin təhsilə, elmə marağını artırmış olacaq.

Ölkəmizdə kifayət qədər bilikli müəllim auditoriyası olmasına baxmayaraq, gənclərimizin yerli və xarici müəllimlər arasındakı münasibətində fərqlilik müşahidə olunur. Buna səbəb müəllimlərimizin dərsin gedişatında nəzəri hissəyə daha çox vaxt ayırması, praktiki yönün zəifliyini nümunə göstərə bilərik.

Ali məktəbi bitirmiş şəxsin qarşısında əsas problemlərdən biri onun həyat şəraitini təmin edə biləcək əmək haqqına malik işlə təmin olunması məsələsidir. Xüsusilə, yüksək təhsilli gənc öz bilik və bacarığına uyğun maaşı olan iş tapmaqda çətinliklə qarşılaşır. Deyə bilərik ki, xarici universitetlərdə təhsil olan gənclərimizin ölkəyə qayıtmamasının başlıca səbəblərindən biri budur. Həmin gənclərin işləməsi üçün ölkədə əlverişli şərait yaradılmalı, onları ölkəmizə qazandırmaq üçün stimullaşdırıcı addımlar atılmalı, əməyinə və potensialına yüksək qiymət verilməlidir. Bununla əlaqədar olaraq, möhtərəm Prezidentimiz cənab İlham Əliyev demişdir: "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir".

Bilikli gənclərin ölkəyə dönməsi, xarici üniversitetlərdə əldə etdikləri bilik və bacarıqlardan vətəninin imkişafı naminə istifadəsi vətənpərvərliyin bir nümunəsidir. Yüksək təhsilli insan eyni zamanda böyük sərvət deməkdir. Öz ixtisası üzrə mütəxəssis hesab olunan, ixtira və kəşf potensialı olan vətəndaşlarımızın ölkəni tərk edərək, güclü dövlətlərin tanınmış elmi və istehsal şirkətlərində işə düzəlməsi Azərbaycanın elmi-texniki inkişafına ziyan vura, cəmiyyətin intellektual potensialının azalmasına gətirib çıxara bilər.

UOT 811.51

DİL VE ANLAM ÖZELLİKLERİ BAKIMINDAN GÖKTÜRK METİNLERİNDEKİ SAYI ADLARININ TATAR VE BAŞKURT TÜRKÇESİNDEKİ KARŞILIKLARININ İNCELENMESİ

Saadet Keser
Niğde Ömer Halisdemir Üniversitesi
Türkiye
sss_68@windowslive.com

1. Giriş

Sayı deyince akla yazar Paolo Giordano gelmektedir. Genç yazar, İtalya Premio Strega ödülünü almaya hak kazandığı "Sayıların Yalnızlığı" adlı romanında yalnızca bir sayısına ve kendilerine bölünerek hiçbir zaman eşlerini bulamayan asal sayılardan hareketle yapayalnız roman karakterlerinin yaralı ruh hallerini hikâye eder (Gioradano 2009: 292). Bu eser, rakamların insan yaşamında ne derece derinlerde yer aldığını göstermesi yönünden ilgi çekicidir. Yine pek çok anlatı ve masallarda sayılarla ilgili ifadeleri görmek mümkündür. Bunlara örnek olarak "Kırk Haramiler", "Kırk Yiğit" "Kırk İnce Belli Kız" ifadeleri gösterilebilir.

Sayılar insanların iletişiminde yerel farklılıklar dışında daha çok ortak işaretlerle ve rakamlara dayalı ifade sistemiyle bilinmektedir. Ancak harflerden doğduğu düşünülen bu rakamların tekrar harflerle yazılan sayı adlarıyla ifade edilişi bu ortaklığı bozmaktadır. Pizalı matematikçi Leonardo Fibonacci hesap yapmayı Cezayirli bir Arap ustadan öğrenmiştir. Fibonacci kendi yazdığı Liber Abaci Abaküs adlı kitabına heyecanla şöyle giriş yapmıştır: "Dokuz Hint rakamı ve bir de sıfır işareti ile bütün sayılar yazılabilir." (Sertöz 1996: 53).

"Türkçede kullanılan sayıları ilk olarak Göktürk metinlerinde görmekteyiz. Sayılar sıfır dışında Göktürk, Yenisey ve Eski Uygur Türkçesinde aynıdır: bir, eki, üç, tört, beş ~ biş, altı, yiti, sekiz, tokuz, on, yigirmi, otuz, kırk, elig, altmış, yitmiş, sekiz on, tokuz on, yüz, bin ~ min, tümen." (Kaymaz 2002: 419). "Sayı sisteminde ve sayı adlarında da birtakım yeniliklere tanık olmaktayız. Türkçemizde kullandığımız otuz, kırk, elli bir takım sayı adları yerine Türk lehçelerinde üç on, dört on, beş on gibi yeni karşılıklar kullanılmaktadır. Nitekim dilimizde de altmış ve yetmişten sonra gelen seksen (<sekiz on) ve doksan (<dokuz on) sayı adları da yeni türevlerdir (Eren; 1988: 15).

Çalışmamızın kapsamı içerisinde Orhun Yazıtları (Bilge Kağan, Kül Tigin ve Tonyukuk) ile Eski Türk yazıtlarından Çoyr, Kül İç Çor, Ongin, Suci, Şine Usu, Tes ve Taryat Yazıtları yer almaktadır. Önce kısaca Tatar Türkleri ve Türkçesi ile Başkurt Türkleri ve Türkçesi hakkında genel bilgiler verilmiştir. Daha sonra Göktürk metinlerindeki sayı adlarının Tatar ve Başkurt Türkçelerindeki karşılıkları verilerek, ses ve anlam değişimleri üzerinde durulmuştur.

1.1. Tatar ve Başkurt Türkçeleri

Kıpçak grubu dillerinden olan Tatar ve Başkurt Türkçelerinin aynı gruptan olmaları sebebiyle birbirlerine benzer oldukları görülmektedir. Başkurt Türkçesi Başkurdistan'da resmi dil olarak kullanılmaktadır. Başkurtlar uzun yıllar Tatarlarla birlikte Arap alfabesini kullanmışlardır. 1928'de Latin alfabesine geçen Başkurtlar, 1940'dan bu yana da Kiril alfabesini kullanmaktadırlar (Buran vd., 2014: 230). Başkurdistan Rusya Federasyonuna bağlı özerk bir Türk Cumhuriyeti'dir. 2021 yılı verilerine göre 4.016.481 Başkurt Türkü vardır. Başkurt Türkleri Başkurdistan başta olmak üzere diğer Türk Cumhuriyetlerinde de yaşamaktadırlar. Başkurdistan'ın başkenti Ufa'dır.

Tatar Türkçesi, Tataristan'ın resmi dillerindendir. Tataristan, Rusya sınırları içerisinde yarı özerk bir Türk Cumhuriyeti'dir. (Buran vd., 2014: 33). Dünya genelinde Tataristan başta olmak üzere 7 milyondan fazla Tatar nüfusunun olduğu tahmin edilmektedir. Tataristan'ın başkenti Kazan'dır. Uzun yıllar boyunca Arap alfabesini kullanan Tatar Türkleri 1927'de Latin alfabesini kabul ederler. Ancak Türkiye'nin 1928'de Latin alfabesine geçmesinden sonra 1939'da Tatar

Türkleri Kiril alfabesine geçmişler ve günümüzde de bu alfabeyi halen kullanmaktadırlar (Buran vd., 2014: 29).

1.2. Göktürk Metinlerindeki Sayı Adlarının Tatar ve Başkurt Türkçelerindeki Karşılıkları, Ses ve Anlam Değişimleri

Göktürkçe	Anlamı	Tatar T. (K.)	Tatar T. (L.)	Anlamı	Bşk. T. (K.)	Bşk. T. (L.)	Anlamı
Altmış TA.	Altmış (60)	алтмыш	Altmış Ses değişimi yoktur.	Altmış Anlam korunmuştur.	алтмыш	Altmış Ses değişimi yoktur.	Altmış Anlam korunmuştur.
Biñ ŞU. TA.	Bin (1000)	мең	Měñ -b>-m Süreklileşmesi, -i>-e ses değişimi vardır.	1.Bin (1000) 2.Pek çok, binlerce, hudutsuz. Anlam genişlemesi vardır.	Мең	Měñ -b>-m Süreklileşmesi, -i>-e ses değişimi vardır.	Bin (1000) Anlam korunmuştur.
İki BK. KT. O. ŞU. T. TA. TY.	İki (2).	ике	İkĕ -i>-ĕ değişmesi vardır.	İki (2) Anlam korunmuştur.	ике	İkĕ -i>-ĕ değişmesi vardır.	İki (2) Anlam korunmuştur.
Qırq BK. KT.	Kırk (40)	кырык	ḳırıḳ Ø ->-ı ünlü türemesi vardır.	Kırk sayısı Anlam korunmuştur.	ҡырҡ	ḳırḳ Ses değişimi yoktur.	Kırk sayısı Anlam korunmuştur.
Kırk artukı yiti BK. KT.	Kırk yedi (47)	Кырык җиде	Kırık cide Ø ->-ı ünlü türemesi, -y>-c, -t>-d, -i>-e, değişimi vardır.	Kırk yedi Anlam korunmuştur.	ҡырҡ ете	Kırk yete -t>-d, -i>-e, değişimi vardır.	Kırk yedi Anlam korunmuştur.
Elig BK. KT. ŞU.	Elli (50).	илле	İlle -e>-i, -i>-e değişmesi, -l ses türemesi vardır.	Elli Anlam korunmuştur.	илле	İlle -e>-i, -i>-e değişmesi, -l ses türemesi vardır.	Elli Anlam korunmuştur.

TY.							
Tört KT. BK. O. KÇ. TA. ŞU.	Dört	Дүрт	Dürt -t>-d, -ö>-ü	Dört Anlam korunmuştur.	Дүрт	Dürt -t>-d, -ö>-ü	Dört Anlam korunmuştur.
Tört biñ KT.	Dört bin (4000).	Дүрт мең	Dürt Mêng -t>-d, -ö>-ü b->m akıcılaşma vardır.	Dört bin Anlam korunmuştur.	Дүрт мең	Dürt mĕñ -t>-d, -ö>-ü b->m akıcılaşma vardır.	Dört bin. Anlam korunmuştur.
Törtünç KT. ŞU.	Dördüncü, dördüncü olarak, dördüncü defa.	Дүртенче	Dürtênçê -ênçê yapım eki, -t>-d, -ö>-ü değişimi vardır.	Dördüncü Anlam korunmuştur.	дүртенсе	Dürtĕnsĕ -ênsê yapım eki, -t>-d, -ö>-ü değişimi vardır.	Dördüncü Anlam korunmuştur.
Tümen BK. KÇ. KT. ŞU. TA. TY.	On bin (10000).	төмән	Tömen -ü>-ö değişmesi vardır.	1.Onbin. 2.Çok fazla. 3.Tümen, onbinlik ordu. 4.Kendisine bağlı yüz köyü olan şehir. Anlam genişlemesi vardır.	төмән	Tömen -ü>-ö değişmesi vardır.	Binbaşı Anlam değişmiştir.
Yigirmi BK. KT. ŞU. TY.	Yirmi(20).	Егерме	Yĕgĕrmĕ -i>-ĕ ünlü genişlemesi,	Yirmi Anlam korunmuştur.	егерме	Yĕgĕrmĕ -i>-ĕ ünlü genişlemesi,	Yirmi Anlam korunmuştur.

Yiti Ç. KÇ. KT. S.	Yedi (7)	жиде	Cidĕ y->c- sızıcılaşma -t>-d, -i->-ĕ ünlü genişlemesi vardır.	Yedi Anlam korunmuştur.	ете	Yĕtĕ y->c- sızıcılaşma -i->-ĕ ünlü genişlemesi vardır.	Yedi. Anlam korunmuştur.
Yitinç KT. O. TA.	Yedinci	жиденче	Ciděnçĕ -ĕnçĕ yapım eki, y->c- sızıcılaşma -t>-d, -i->-ĕ ünlü genişlemesi vardır.	Yedinci. Anlam korunmuştur.	етенсе	Yĕtĕnsĕ -ĕnsĕ yapım eki, y->c- sızıcılaşma -i->-ĕ ünlü genişlemesi vardır.	Yedinci Anlam korunmuştur.
Yitmiş BK. KT. T.	Yetmiş (70)	житмеш	Citměš y->c- sızıcılaşma -i->-ĕ ünlü genişlemesi vardır.	Yetmiş. Anlam korunmuştur.	етмеш	Yĕtměš -i->-ĕ ünlü genişlemesi vardır.	Yetmiş. Anlam korunmuştur.

Kısaltmalar

Bşk. T. Başkurt Türkçesi
BK. Bilge Kağan
Ç. Çoyr
K. Kiril
KÇ. Kül İç Çor
KT. Köl Tigin
L. Latin
O. Ongin
S. Suci
ŞU. Şine Usu
T. Tes
TA. Taryat
Tatar T. Tatar Türkçesi
TY. Tonyukuk

2. Yöntem

Literatür taramasından sonra Eski Türk Yazıtlarındaki kelimelerin karşılıkları Tatar ve Başkurt Türkçeleri Sözlükleri yardımıyla bulunup, söz konusu lehçelerde yaşayıp yaşamadıkları ile ses ve anlam değişimleri üzerinde durulmuştur.

Tablo 1

Tablo 1. Tatar ve Başkurt Türkçelerindeki Değişimler

	Tatar Türkçesi	Başkurt Türkçesi
Ses değişimi olmayan	1	2
Ses değişimi olan	13	12
Sözcük değişimi olan	0	0
Anlam değişen	0	1
Anlamı korunan	12	13
Anlamı genişleyen	2	0
Anlamı daralan	0	0
Sadece Başkurt Türkçesinde görülen		0
Sadece Tatar Türkçesinde görülen	0	



Grafik 1. Tatar ve Başkurt Türkçelerindeki Değişimler

Grafik 2. Tatar Türkçesindeki Değişimler

Grafik 3. Başkurt Türkçesindeki Değişimler

3. Bulgular

Eski Türk Yazıtlarındaki kelimelerin karşılıkları incelenmiş; Tatar ve Başkurt Türkçeleri

Sözlükleri yardımıyla bulunarak ses ve anlam değişimleri üzerinde durulmuştur.

4. Tartışma

Eski Türk Yazıtlarındaki kelimelerin Tatar ve Başkurt Türkçelerinde ses ve anlam değişimine uğrama sebepleri ve buna etki eden durumlar yeni bir tartışma konusu olabilir.

5. Sonuç

Göktürk metinlerinde yer alan 14 adet sayı adından Tatar Türkçesinde ses değişimi olmayan 1 adet, ses değişimi olan 13 adet, anlamı korunan 12 adet, anlamı genişleyen 2 adet sözcük tespit edilmiştir. Sözcük değişimi olan, anlamı daralan ve anlamı değişen sözcük tespit edilememiştir.

Göktürk metinlerinde yer alan 14 adet sayı adından Başkurt Türkçesinde ses değişimi olmayan 2 adet, ses değişimi olan 12 adet, anlamı korunan 13 adet, anlamı değişen 1 adet, Sadece Başkurt Türkçesinde ve sadece Tatar Türkçesinde görülen, her iki lehçede de görülmeyen, anlamı genişleyen ve anlamı daralan sözcük tespit edilememiştir.

Çalışmamızın sonucu olarak Göktürk metinlerindeki sayı adlarının hem Tatar Türkçesinde hem de Başkurt Türkçelerinde kullanımlarının olduğunu görmekteyiz. Ses ve anlam değişiklikleri olsa da hala kullanılmaya devam etmektedirler.

Referanslar

1. Aksan, D. (1998). Her Yönüyle Dil, Ankara: TDK Yayınları.
2. Aydın, E. (2018). Uygur Yazıtları, İstanbul: Bilge Kültür Sanat.
3. Benzing, J. (1995). Başkurt Türkçesi, (çev. Mustafa Argunşah), Türk Dünyası Araştırmaları, 95, 127-142.
4. Buran A. ve Alkaya E. (2014). Çağdaş Türk Yazı Dilleri-III, Ankara: Akçağ Yayınları.
5. Eren, H. (1989). "Ön Söz". Türkçe Sözlük 1 A-J. Ankara: TDK yayınları, s. ıx-xxx
6. Giordano, P. (2009). La Solitudine Dei Numeri Primi "Asal Sayıların Yalnızlığı". (Çeviren: Eren Cendey Yücesan). İstanbul: Doğan Kitapçılık, 292 s.
7. Gömeç, S. (2001a). Kök Türkçe Belgelerdeki Bazı Akrabalık İsimleri, Türk Dünyası Tarih Dergisi, 173: 1-6.
8. Gömeç, S. (2001b). Divanü Lügat-it- Türk'de Akrabalık Bildiren Kelimeler, Türk Kültürü, 39/464: 133-142.
9. Karşılaştırmalı Türk Lehçeleri Sözlüğü. (1991). Ankara: Kültür Bakanlığı.
10. Öner, M. (2009). Kazan-Tatar Türkçesi Sözlüğü. Ankara: Türk Dil Kurumu Yayınları.
11. Öner, M. (2013). Bugünkü Kıpçak Türkçesi, Ankara: Türk Dil Kurumu Yayınları.
12. Özşahin, M. (2017). Başkurt Türkçesi Sözlüğü. Ankara: Türk Dil Kurumu Yay.
13. Sertkaya, O.F. (1995). Göktürk Tarihinin Meseleleri, Probleme der Köktürkischen geschichte, Some Problems of Köktürk History, Ankara: Türk Kültürünü Araştırma Enstitüsü.
14. Sertkaya, O.F. (2008). Göktürk (Runik) Harfli Yazıtların Envanter, Alfabe ve Bibliyografya Problemleri Üzerine, Dil Araştırmaları Dergisi, 2, Bahar, 7-34.
15. Sertöz, S. (1996). Matematiğin Aydınlık Dünyası. Ankara: Tübitak Yayınları, s.53.
16. Taşağıl, A. (2015). Kök Tengri'nin Çocukları (Avrasya Bozkırlarında İslâm Öncesi Türk Tarihi), 5. Baskı, İstanbul: Bilge Kültür Sanat.
17. Tatarca-Türkçe Sözlük. (1997). Kazan: İnsan Neşriyatı.
18. Tekin, T. (1981). Göktürk Alfabesi (The Alphabeth of Göktürk's), Harf Devriminin 50. Sempozyumu, Ankara: TTK, XVI. Dizi, 41, 27-37.
19. Tekin, T. (1998). Orhon Yazıtları: Köl Tėgin, Bilge Kağan, Tunyukuk, 2. Baskı, İstanbul: Simurg.
20. Tekin, T. (2013). Tarihî Türk Yazı Dilleri: Makaleler II, Ankara: Türk Dil Kurumu Yayınları.
21. Tekin, T. ve Ölmez, M. (1999). Türk Dilleri, İstanbul: Simurg Yayınları.
22. Tatarca Sözlük. (1998). Kazan: İnsan Neşriyatı.

23. Wardhaugh, R. (2010). An Introduction to Sociolinguistics, Wıley-Blackwell

UOT 811.51; 82-1

ÇAĞDAŞ UYGUR EDEBİYATINDA ŞİİR ÇÖZÜMLEMESİ ÖRNEĞİ

Remziye Kasım
Niğde Ömer Halisdemir Üniversitesi
Türkiye
remziyekasim2409@gmail.com

Çalışmanın Hazırlanış Aşamaları

1. "Selam, Aziz Kaşgar" Şiirinin Transkripsiyon (Çeviri Yazı) Hali.
2. "Selam, Aziz Kaşgar" Şiirinin Türkiye Türkçesine Aktarımı.
3. "Selam, Aziz Kaşgar" Şiiri Örneğinde Çağdaş Uygur Edebiyatında Şiir Çözümlemesi.

Bu çalışmada öncelikle "Selam, Aziz Kaşgar" Şiirinin Transkripsiyon (Çeviri Yazı) Hali hazırlanmış daha sonra Türkiye Türkçesine aktarılmıştır. Şiirin Uygur Türkçesi ve Türkiye Türkçesi hali karşılıklı olarak verilmiş her dizeden sonra şiir çözümlemesi yapılmıştır. Şiir aktarımı içerisinde *İtalik* olarak verilen kelimeler şiirin içeriği ve konusu bakımından değerlendirilirken Kaşgar şehrinin şair tarafından belli ifade kalıplarıyla somutlaştırılarak anlattığını görmekteyiz. Muhammetcan Sadik tarafından kaleme alınan şiirler; *Muhebbet ve Tebessüm* "Sevgi ve Tebessüm", *Qelin Qardiki Naxşa* "Yoğun Kardaki Şarkı" (1978), *Tiyanşan Naxşisi* "Tanrı Dağı Şarkısı" (1980) adlı şiir kitaplarında toplamıştır [4].

UYGUR TÜRKÇESİ	TÜRKİYE TÜRKÇESİ*
SALAM, ƏZİZANE ĶEŞĶER	**SELAM, AZİZ KAŞGAR** [1]. [2]. [3].
• "Selam, Aziz Kaşgar" Şiirinin değerlendirilmesi ve çözümlemesi yapılırken şiirin başlığından yola çıkarak ifade edilmesi gereken ilk husus Doğu Türkistan yani Uygur bölgesinde yer alan Kaşgar şehri üzerine yazılmış bir şiir olmasıdır. Şair tarafından şiire başlık olarak verilen bu ifadeden de anlaşılacağı gibi şiirin teması ve konusu Kaşgar şehri etrafında geçmektedir. Kaşgar şehrini ifade eden birçok kavramı şiirin içerisinde görmek mümkündür.	
Nuzuk yatķan zemindin körgili keldim,	*Nuzuku* yattığı toprakta görmeye geldim,
• "Nuzugum" Kaşgarlı bir kadın kahramandır 19. yy Qing istilasına karşı şiirleriyle savaşmıştır. Şair bu dizede Kaşgar diyarında ün salmış bu kadın kahramanın kabrine yaptığı ziyaretten bahsetmiştir.	
İşķiñda gumnam bolup köygili keldim.	Aşkından şair olup yanmaya geldim.
• Bu dize şiirsel bir ifadeyle ilk dizeyi derinleştirmektedir.	
Tizlinip olturimen Héytkah aldida,	Diz çöküp otururum *Heytgah* önünde,
• "Heytgah" Kaşgar şehrinde bulunan büyük bir caminin ismidir.	
Topañni tutiya dep, söygili keldim.	Toprağını kutsal deyip, öpmeye geldim.
• İslam'ın yayıldığı ve İslam için büyük mücadeleler verilen bu coğrafyada yetişen kahramanların düştüğü toprakların kutsallığı şair tarafından bu dizede ifade edilmiştir.	
Sen goya alemdiki güzel Érembağ,	Sen güya alemdeki güzel *Erembağ*,

* Şiirin Türkiye Türkçesine aktarılması esnasında kullanılan kaynaklar yalnızca kaynakçada gösterilmiştir. [1]. [2]. [3].

• Bu dizede geçen "Erembağ" kavramı yine içerik ve konu bakımından Kaşgar şehrindeki bir yeri ifade etmektedir.	
Gülüñdin köz üzmey ḳaraymen şuna.	Çiçeğinden göz çevirmeden bakarım bu yüzden.
Havasi ḫoş puraḳ, dep éytḳandi bir çaġ,	Havası hoş kokulu, deyip söyleyen bir çağ,
• Bu iki dize Kaşgar şehrinin güzelliklerini konu almaktadır.	
Yer – cahanni titretken Alip Ərtuña.	Yer - cihanı titreten *Alp Er Tunga.*
• "Alp Er Tunga" efsanevi bir Türk Hakanıdır.	
Söyümlük Teñritaġniñ yüriki özüñ,	Sevimli *Tanrı Dağının* yüreği kendin,
• Türk denilince akla gelen ilk kavramlardan biri de Tanrı Dağlarıdır. Tanrı Dağlarının eteklerinde bulunan Uygur şehri Kaşgar için bu yüce dağlar derin anlamlar taşır. Eskiden büyük bir dağa sahip olmayan medeniyetlerin yıkılacağına inanılırdı bu sebepten Tanrı Dağları Uygur Türkleri için eşsiz bir anlam taşımaktadır.	
Uyġurniñ şan – şöhretlik köriki özüñ.	*Uygur'un* şan - şöhretli güzelliği kendin.
• "Uygur" kavramı Doğu Türkistan coğrafyası için kullanılmaktadır. Bu dizede Kaşgar şehrinin Uygur coğrafyasında şanlı bir yeri olduğu ifade edilmiştir.	
Ot sekkiz miñ alemde men üçün Ḳeşḳer,	On sekiz bin alemde benim için *Kaşgar,*
• Şair bu dizede dünyada Kaşgar bölgesinin kendisi için eşsiz olduğunu ifade etmiştir.	
Güzellikniñ şahane poriki özüñ!...	Güzelliğin şahane kokusu kendin!...
Ravabiñniñ taridin uçidu bahar,	*Ravabının* telinden uçar bahar,
• "Ravab" Uygur Türklerinin kullanmış olduğu telli bir müzik aletidir. Bu dizede anlatılmak istenen Uygur Türklerinde özel bir yeri olan müziğin insanı nasıl kendinden geçirdiğidir.	
Yer – asman arisiġa çéçip gül – çéçek.	Yer – gök arasına saçıp gül- çiçek.
Muḳamiñda bir əzgü muhebbet yanar,	*Mukamında* bir ezgi muhabbet yanar,
• Mukamların başı olarak bilinen "On İki Mukam" Doğu Türkistanlı bir kadın kahraman olan "Amannısahan" tarafından hazırlanmıştır. Uygur Türklerindeki mukamlar yaşamın tüm halinin müzikle ifade edilmesidir.	

Uygurların 12 makamı, çalışkan ve icatçı Uygur zekâsının cevheridir. 12 makam, Uygurların yaşamının bütün yönlerini müzik diliyle anlatan estetik bir ansiklopedidir. Böyle bir müzik eseri, dünyadaki milletlerin tarihinde nadir görülen bir eser olduğu için "Doğu Müzik Uygarlığındaki Mucize" olarak tanımlanmıştır. Bu özelliklerinden dolayı Birleşmiş Milletler Bilim, Eğitim ve Kültür Örgütü (UNESCO) tarafından 25 Kasım 2005'te "Maddî Olmayan Kültürel Miraslar" listesine alınan Uygur 12 makamının şimdiye kadar devam edebilmesi için gerekli temeli atan, büyük makamcı, şair ve hattat Amannısahan olmuştur [5].

Kélidu külümsirep güzel kéleçek!...	Gelir gülümseyip güzel gelecek!...
Örgilimen boyuñdin canican Ḳeşḳer,	Severim boyundan cani can *Kaşgar,*
Çörgilimen pervanen bolup Ḫan Ḳeşḳer.	Sararım pervane gibi olup *Han Kaşgar.*
Əssalam!	*Esselam!*
Salamimni ḳobul ḳil əziz –	Selamımı kabul et aziz -
Ah, anamdek möhterem anican Ḳeşḳer!	Ah, anam gibi muhterem ani can *Kaşgar!*
1992 – yili Avġust, Ḳeşḳer	1992 - yılı Ağustos, Kaşgar

• Şiirin bu son dizelerinde Kaşgar şehri için şair tarafından övgüler yapılmıştır. Kaşgar şehrinin "ana" kadar muhterem oluşunu ifade eden şairin gözünden Kaşgar eşsiz bir yere sahiptir.

Kaşgar şehri üzerine kişileştirme yapan şair bu şehre selamlar yollayarak dizelerini sonlandırır. Yine şiirde geçen "Əssalam!" ifadesiyle bölgenin inanç kültürünü görmek mümkündür.

Kaynaklar

1. B. Ercilasun, Ahmet (2007), "Türk Lehçeleri Grameri" / Habibe Yazıcı Ersoy – Yeni Uygur Türkçesi /Akçağ Yayınları, 1. Baskı 2007, Ankara.
2. Kurban, İklil (Necip, Emir Necipoviç) (2008), "Yeni Uygur Türkçesi Sözlüğü" Tdk, Ankara.
3. Öztürk, Rıdvan (2015), "Yeni Uygur Türlçesi Grameri"Tdk, Ankara.
4. Harbalioğlu, Neşe- Abdulvahit Kaşgarlı, Raile (2017), "Çağdaş Uygur Edebiyatı Tarihi" İvedik, Ankara.
5. Hacı, Rukiye, "Uygur Türklerinin Dünyaca Meşhur 12 Makamının Yaratıcısı Amannısahan" Çin/Chına/Китай.

“YENİ DÖVRDƏ TƏHSİL VƏ TƏDQİQAT FƏALİYYƏTİ: REALLIQLAR VƏ ÇAĞIRIŞLAR”

mövzusunda

BEYNƏLXALQ ELMİ KONFRANSIN MATERİALLARI

I CİLD

16-17 dekabr 2022-ci il

MİNGƏÇEVİR

Konfrans materiallarında
verilən məlumat və faktlara görə
müəlliflər məsuliyyət daşıyırlar

Yığılmağa verilib: 20.12.2022
Çapa imzalanıb: 27.12.2022
Format: 60 x 84 1/16
F.Ç.V. 38